Azərbaycan Respublikası
Xarici İşlər Nazirliyi

AZƏRBAYCANIN XARİCİ SİYASƏTİ

Sənədlər məcmuəsi

2009

II hissə

– 18108 –

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

Bakı
2010

Redaksiya kollegiyasının sədri:
Elmar M. Məmmədyarov

Redaksiya kollegiyasının üzvləri:

Araz B. Əzimov
Xələf Ə. Xələfov
Mahmud Ə. Məmməd-Quliyev
Hafiz M. Paşayev
Vaqif İ. Sadıqov
Murad N. Nəcəfbəyli
Famil Ə. Əliyev
Vasif Ç. Abutalıbov
Fəridə M. Ağazadə

Azərbaycanın xarici siyasəti: Sənədlər məcmuəsi. 2009. İkinci hissə.
Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi.
Bakı, "Qoliaf Nəşriyyat Evi" MMC, 2009-cu il. - 664 səh.

ISBN 978-9952-455-14-4

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi "Azərbaycanın xarici siyasəti" adlı sənədlər məcmuəsinin silsilə nəşrini davam edir. Məcmuənin növbəti buraxılışı 2009-cu ildə Azərbaycan diplomatiyası və xarici siyasətinin ən vacib sənədlərini əhatə edir.

Məcmuənin ikinci hissəsini "Azərbaycan Respublikasının qanunvericilik toplusun"da, "Azərbaycan Respublikası Milli Məclisinin Məlumatı"nda, "Azərbaycan Respublikasının normativ aktlarının bülleteni"ndə və digər mənbələrdə nəşr edilmiş xarici siyasətə dair Azərbaycan Respublikasının normativ hüquqi aktları təşkil edir. Onların bir nəşrdə cəmləşdirilməsi Azərbaycanın bu dövrdəki xarici siyasətini daha dolğun göstərməyə imkan verir.

Məcmuənin ərsəyə gəlməsindəki köməkliyinə görə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinin bütün kollektivinə minnətdarlığımızı bildiririk.

Bir sıra materiallar ilk dəfə olaraq təqdim edilir. Sənədlər xronoloji ardıcıllıqla nəşr edilmişdir.

Məcmuə beynəlxalq münasibətlər sahəsində praktiki və elmi işçilər, həmçinin diplomatiya, xarici siyasət və beynəlxalq hüquq tarixi ilə maraqlanan şəxslər üçün faydalı ola bilər.

© Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi

"Kökünün kəsilməsi təhlükəsi olan vəhşi fauna və yabanı flora növlərinin beynəlxalq ticarətinin tənzimlənməsi Qaydaları"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

"Kökünün kəsilməsi təhlükəsi olan vəhşi fauna və yabanı flora növlərinin beynəlxalq ticarəti haqqında" Konvensiyanın (CİTES) iştirakçısı olan dövlətlərin 2004-cü il oktyabrın 2-14-də Tailandın Banqkok şəhərində keçirilmiş 13-cü konfransında qəbul olunmuş 13.81 nömrəli Qərarının müddəalarını nəzərə alaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır:

1. "Kökünün kəsilməsi təhlükəsi olan vəhşi fauna və yabanı flora növlərinin beynəlxalq ticarətinin tənzimlənməsi Qaydaları" təsdiq edilsin (əlavə olunur).

2. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

A. RASİ-ZADƏ

Azərbaycan Respublikasının Baş naziri

Bakı şəhəri, 7 yanvar 2009-cu il

№ 2

Kökünün kəsilməsi təhlükəsi olan vəhşi fauna və yabanı flora növlərinin beynəlxalq ticarətinin tənzimlənməsi Qaydaları

I. Ümumi müddəalar

1.1. Bu Qaydalar Azərbaycan Respublikasının qoşulduğu "Kökünün kəsilməsi təhlükəsi olan vəhşi fauna və yabanı flora növlərinin beynəlxalq ticarəti haqqında" Konvensiyanın iştirakçısı olan dövlətlərin 2004-cü il oktyabrın 2-14-də Tailandın Banqkok şəhərində keçirilmiş 13-cü konfransında qəbul olunmuş 13.81 nömrəli Qərarına əsasən Konvensiyanın həyata keçirilməsini təmin etmək məqsədi ilə hazırlanmışdır.

1.2. Bu Qaydalar "Kökünün kəsilməsi təhlükəsi olan vəhşi fauna və yabanı flora növlərinin beynəlxalq ticarəti haqqında Konvensiya"nın I, II və III, habelə bu Qaydaların 1 və 2 nömrəli əlavələrində qeyd olunan yabanı flora və vəhşi fauna növlərinin, onların hissələrinin və derivatlarının beynəlxalq ticarətini tənzimləyir.

1.3. Bu Qaydalarda istifadə olunan terminlər və anlayışlar aşağıdakı mənaları ifadə edir:

1.3.1. Konvensiya - "Kökünün kəsilməsi təhlükəsi olan vəhşi fauna və yabanı flora növlərinin beynəlxalq ticarəti haqqında" Konvensiya (CİTES);

1.3.2. mənşə ölkəsi - bu və ya digər növün vəhşi təbii mühitdən əldə edildiyi, doğulduğu, süni yolla yetişdirildiyi və ya artırıldığı ölkə, onları dənizdən introduksiya edən ölkə;

1.3.3. növ - heyvan və bitkinin istənilən növü, yarım növü və ya onların coğrafi mühitə uyğunlaşmış populyasiyaları;

1.3.4. derivat - heyvan və bitki növlərinin həyat fəaliyyətinin məhsulları;

1.3.5. nümunə - Konvensiyanın I, II, III, habelə bu Qaydaların 1 və 2 nömrəli əla-

vələrinə daxil edilmiş canlı və ya cansız heyvan və ya bitki növləri, həmçinin müşayiətedici sənədindən, qabından, markirovkasından, etiketindən, yarlığından və ya digər asan tanınan əlamətlərindən müəyyən edilən hər hansı heyvan və bitkinin hissəsi və ya derivatı;

1.3.6. dənizdən introduksiya - nümunələrin hər hansı dövlətin yurisdiksiyası altında olmayan dəniz sahələrindən Azərbaycana gətirilməsi;

1.3.7. beynəlxalq ticarət - dənizdən introduksiya və "Azərbaycan Respublikasında idxal-ixrac əməliyyatlarının tənzimlənməsi Qaydaları" ilə müəyyən edilən hər hansı ixrac, təkrar ixrac və idxal;

1.3.8. tranzit - Azərbaycan Respublikasının qanunvericiliyində xüsusi olaraq nəzərdə tutulmayan hallarda gömrük orqanlarının nəzarəti altında qalmaqla, beynəlxalq ticarətin obyekti olan nümunənin ölkə daxilində daşınması;

1.3.9. qeyri-sərbəst şəraitdə artırılmış - qeyri-sərbəst mühitdə cütləşmiş və ya digər yolla qametlərini ötürmüş valideynlərdən qeyri-sərbəst mühitdə alınmış yeni nəsil (o cümlədən yumurta);

1.3.10. süni yetişdirilmiş - insan tərəfindən nəzarət altında toxumlardan, çilinglərdən, şişkinlik əmələ gətirən toxuma və hüceyrələrdən, habelə zoğlardan yetişdirilmiş bitkilər;

1.3.11. inzibati orqan - Konvensiyanın IX maddəsinə müvafiq təyin edilmiş milli inzibati orqan;

1.3.12. elmi orqan - Konvensiyanın IX maddəsinə müvafiq təyin edilmiş milli elmi orqan;

1.3.13. icazə/sertifikat - nümunələrin Azərbaycan Respublikasının ərazisinə idxalı, dənizdən introduksiyası, habelə respublikadan ixracı və təkrar ixracı üçün inzibati orqan tərəfindən verilən sənəd;

1.3.14. şəxsi əşyalar və ya məişət predmetləri - mülkiyyət hüququnun bir hissəsi olan və şəxsə məxsus cansız nümunələr, hissələr və derivatlar.

1.4. Bu Qaydalar Xəzər dənizinin Azərbaycan Respublikasının suveren hüquqları və yurisdiksiyası şamil olunan bölməsi də daxil olmaqla, Azərbaycan Respublikasının bütün ərazisində, mülkiyyət formasından və tabeliyindən asılı olmayaraq, istənilən fiziki və hüquqi şəxslərə, Konvensiyanın I, II və III, habelə bu Qaydaların 1 və 2 nömrəli əlavələrinə daxil edilmiş bütün heyvan və bitki növlərinə, onların hissələrinə və derivatlarına, nümunələrin Konvensiya üzvü olan və olmayan ölkələrlə beynəlxalq ticarətinə şamil edilir.

1.5. Konvensiya ilə müəyyən edilmiş şərtlər bu Qaydalardan fərqli olduqda, Konvensiyanın müddəaları tətbiq edilir.

1.6. Bu Qaydaların 1 və 2 nömrəli əlavələrinə müxtəlif heyvan və bitki növlərinin daxil edilməsi və ya çıxarılması elmi orqanın rəyi və inzibati orqanın təklifinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən həyata keçirilir.

1.7. Bu Qaydalar Azərbaycan Respublikasının "Qırmızı Kitabı"na daxil edilmiş fauna və flora növlərinə şamil edilmir.

II. İnzibati və elmi orqanların səlahiyyətləri

2.1. İnzibati orqan:

2.1.1. Azərbaycan Respublikasının ərazisində Konvensiyada nəzərdə tutulan səlahiyyətləri icra edir və Konvensiyanın məqsədlərinin həyata keçirilməsini təmin edir;

2.1.2. Konvensiya ilə müəyyən edilmiş qaydada elmi orqanın rəyinə əsasən icazə/sertifikatını verir və ya verməkdən imtina edir, onlara zəruri hesab etdiyi şərtləri qoyur, verdiyi hər hansı icazə/sertifikatını etibarsız elan edir, geri alır və dəyişdirir;

2.1.3. nümunələrin ixracı, təkrar ixracı və idxalı üçün digər dövlətlərin inzibati orqanları tərəfindən verilmiş və istifadə edilmiş müvafiq icazə/sertifikatı toplayır, xətm edir və saxlayır;

2.1.4. bu Qaydaların 1 və 2 nömrəli əlavələrinə daxil edilmiş növlərin qorunması ilə əlaqədar qanunvericiliyin icrasının təmin edilməsi sahəsində digər müvafiq orqanlarla əməkdaşlıq edir;

2.1.5. Konvensiyanın həyata keçirilməsi ilə əlaqədar qəbul edilməli tədbirlər barədə dövlət orqanlarına zəruri tövsiyələr verir;

2.1.6. Konvensiyanın, Konvensiya tərəflərinin konfranslarının qətnamələri və Konvensiya Katibliyinin qərar və tövsiyələrini icra edir;

2.1.7. nümunələrin beynəlxalq ticarəti barədə illik hesabatlar hazırlayır və Konvensiya Katibliyinə təqdim edir.

2.2. Elmi orqan:

2.2.1. nümunələrin ixracının həmin növün həyatı üçün təhlükəli olub-olmaması barədə rəy verir;

2.2.2. hər hansı növün populyasiya şəraiti tələb etdiyi hallarda, həmin növün ixracı üçün icazə/sertifikatının verilməsinin məhdudlaşdırılması barədə inzibati orqana tövsiyələr verir;

2.2.3. bu Qaydaların 1 və 2 nömrəli əlavələrinə daxil edilmiş hər hansı növün eyniləşdirilməsinə dair əyani vəsait hazırlayır;

2.2.4. götürülmüş nümunələrdən istifadə haqqında qərar çıxarılması ilə əlaqədar rəy verir;

2.2.5. növlərin mühafizəsinə dair istənilən məsələlərlə əlaqədar inzibati orqana məsləhətlər verir;

2.2.6. Konvensiya tərəflərinin konfransının qətnamələrində nəzərdə tutulan vəzifələri yerinə yetirir.

2.3. İnzibati orqan bu Qaydaların müddəalarının həyata keçirilməsinin təmin edilməsi üçün digər müvafiq icra hakimiyyəti orqanları ilə əməkdaşlıq edir.

2.4. İnzibati orqanın, habelə Dövlət Gömrük Komitəsinin, Dövlət Sərhəd Xidmətinin və Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin vəzifəli şəxsləri qarşılıqlı əməkdaşlıq etməklə, bu Qaydaların pozulduğu hallarda, qanunvericiliyə uyğun olaraq aşağıdakıları həyata keçirə bilərlər:

2.4.1. bu Qaydaların pozulması ilə məsuliyyət yaradan əməllərin törədilməsi şübhə doğuran sənədləri, obyektləri, predmetləri və s. qanunvericilikdə nəzərdə tutulmuş qaydada götürmək;

2.4.2. bu Qaydaların müddəalarının pozulması ilə saxlanılan hər hansı nümunənin yerləşdiyi güman edilən binalara və nəqliyyat vasitələrinə qanunvericiliyə uyğun olaraq baxış keçirmək və nümunələrə aid istənilən sənədlərlə tanış olmaq;

2.4.3. bu Qaydaların müddəalarının pozulması ilə daşınması, əldə edilməsi və ya alqı-satqı predmeti olması güman edilən nümunələrlə tanış olmaq;

2.4.4. qanunvericilikdə nəzərdə tutulmuş qaydada digər tədbirlər görmək.

III. İcazə/sertifikatın verilməsi qaydaları və şərtləri

3.1. Nümunələrin beynəlxalq ticarəti üçün icazə/sertifikatı almaq istəyən fiziki və ya hüquqi şəxslər ərizə ilə inzibati orqana müraciət edirlər.

3.2. Müraciətdə fiziki şəxslərin adı, atasının adı, soyadı, şəxsiyyətini təsdiq edən sənədin surəti, hüquqi şəxslərin isə tam adı, hüquqi və faktiki ünvanı, telefon nömrələri, habelə beynəlxalq ticarəti nəzərdə tutulan nümunələr barədə ətraflı məlumatlar göstərilməlidir.

3.3. Konvensiyanın I, II və III, habelə bu Qaydaların 1 və 2 nömrəli əlavələrinə daxil edilmiş nümunələrin ixracı üçün icazə almaq barədə ərizəyə aşağıdakı sənədlər əlavə edilməlidir:

3.3.1. nümunələrin Azərbaycanın hüdudları daxilində əldə edilməsi (tutulması, vurulması, yığılması) barədə təsdiqedici sənədin surəti və dəyişmə, alqı-satqı, bağışlama, vərəsəlik yolu ilə əldə edilən nümunələrin təbii mühitdən götürülməsinin qanuniliyini təsdiq edən sənədlər;

3.3.2. Konvensiyanın I, habelə bu Qaydaların 1 nömrəli əlavəsinə daxil edilmiş nümunələrin ixrac olunacaq ölkənin inzibati orqanı tərəfindən həmin nümunənin idxalına verilmiş icazə/sertifikatın surəti;

3.3.3. elmi orqanın rəyi;

3.3.4. baytarlıq və fitosanitar normalara cavab verdiyini təsdiq edən sənədlər;

3.3.5. Konvensiyanın I və bu Qaydaların 1 nömrəli əlavələrinə daxil edilmiş nümunələrin süni şəraitdə yetişdirilməsini (onun valideynlərinin 2-ci nəsli barədə məlumatlar göstərilməklə) təsdiq edən sənədlərin surətləri.

3.4. Konvensiyanın I, II və III, habelə bu Qaydaların 1 və 2 nömrəli əlavələrinə daxil edilmiş nümunələrin Azərbaycan Respublikasından təkrar ixracı üçün icazə almaq barədə ərizəyə aşağıdakı sənədlər əlavə edilməlidir:

3.4.1. nümunələrin təkrar ixracına icazə/sertifikatın alınması zamanı bu qaydaların 3.3-cü bəndin 3.3.3-cü yarımbəndindəki elmi orqanın rəyi istisna olmaqla, həmin bənddəki sənədlər ərizəyə əlavə edilir.

3.5. Konvensiyanın I əlavəsinə daxil edilmiş nümunələrin Azərbaycan ərazisinə idxalı üçün icazə/sertifikatın alınmasına dair ərizəyə elmi orqanın rəyi əlavə edilir.

3.6. Konvensiyanın II və III əlavəsinə daxil edilmiş nümunələrin idxalına icazə/sertifikatın verilməsi tələb olunmur.

3.7. Nümunələrin Azərbaycan ərazisinə introduksiyası üçün icazə/sertifikatın alınmasına dair verilən ərizəyə aşağıdakı sənədlər əlavə edilməlidir:

3.7.1. elmi orqanın rəyi;

3.7.2. baytarlıq və fitosanitar normalara cavab verdiyini təsdiq edən sənədlər.

3.8. İcazə/sertifikatı almaq barədə ərizəyə əlavə edilmiş sənədlərdə çatışmazlıqlar və uyğunsuzluqlar aşkar edildikdə, 3 (üç) iş günü ərzində ərizəçiyə yazılı məlumat verilir və məlumatda sənədlərdəki çatışmazlıqlar və uyğunsuzluqlar konkret göstərilir. Ərizədə bütün zəruri hallar göstərilmişdirsə və zəruri materiallar əlavə edilmişdirsə, ərizə təqdim edildiyi gündən 5 (beş) gün müddətində bu Qaydaların tələblərinə uyğun olaraq baxılır və imtina üçün əsas olmadıqda icazə/sertifikatı verilir.

3.9. İcazə/sertifikatın verilməsindən imtina edildikdə, bu barədə ərizəçiyə əsaslandırılmış yazılı məlumat verilir. Ərizəçi imtina ilə əlaqədar qanunvericiliyə uyğun olaraq məhkəməyə müraciət edə bilər.

3.10. Konvensiyanın I, II və III və bu Qaydaların 1 və 2 nömrəli əlavələrinə daxil edilmiş nümunələrin ticarəti aşağıdakı şərtlərə cavab verdikdə həyata keçirilə bilər:

3.10.1. ixrac və ya təkrar ixracın, habelə introduksiyanın obyekti olan canlı nümunələrin Konvensiyanın canlı nümunələrinin daşınması ilə bağlı rəhbər prinsiplərinə əməl olunduqda;

3.10.2. canlı nümunələrin hava nəqliyyatı ilə daşınması hallarında, heyvanların zədələnməsi, həyatlarının təhlükəyə məruz qalması və ya onlarla amansız rəftar riskinin minimuma endirilməsini nəzərdə tutan Beynəlxalq Hava Nəqliyyatı Assosiasiyasının canlı nümunələrin daşınması barədə tələbləri yerinə yetirildikdə;

3.10.3. Konvensiyanın I və bu Qaydaların 1 nömrəli əlavələrinə daxil edilmiş növlərin nümunələrinin idxalı və ya dənizdən introduksiyası kommersiya məqsədləri üçün istifadə edilmədikdə;

3.10.4. Konvensiyanın II əlavəsinə daxil edilmiş hər hansı növü ixrac edən dövlətin inzibati orqanı tərəfindən ixrac və ya təkrar ixrac üçün icazə/sertifikatı verildikdə;

3.10.5. Konvensiyanın III əlavəsinə daxil edilmiş növlərin Azərbaycan ərazisinə idxalı zamanı növü ixrac edən ölkənin mənsubiyyəti barədə sertifikat təqdim olunduqda;

3.10.6. Konvensiyanın III əlavəsinə daxil edilmiş növlərin Azərbaycan ərazisinə idxalı zamanı, əgər ixrac Konvensiyanın III əlavəsinə daxil olunmasını təklif etmiş ölkədən həyata keçirilirsə, həmin ölkənin inzibati orqanı tərəfindən növün ixrac olunmasına verilmiş icazə/sertifikatı təqdim olunduqda.

3.11. Konvensiyanın III əlavəsinə daxil edilmiş növlərin ticarəti üçün elmi orqanın rəyi tələb olunmur.

3.12. Bu Qaydaların 1 və 2 nömrəli əlavələrinə daxil edilmiş növlərin nümunələrinin

beynəlxalq ticarəti məqsədi ilə icazə/sertifikatın verilməsi müvafiq olaraq Konvensiyanın I və II əlavələri üçün müəyyən edilmiş şərtlərə uyğun olaraq həyata keçirilir.

3.13. Konvensiyanın I və II, habelə bu Qaydaların 1 və 2 nömrəli əlavələrinə daxil olan və qeyri-sərbəst şəraitdə artırılmış və ya süni yolla yetişdirilmiş bitki və heyvan növlərinin nümunələri beynəlxalq ticarətin obyekti ola bilər.

3.14. Konvensiyanın I və bu Qaydaların 1 nömrəli əlavələrinə daxil edilmiş növlərin qeyri-sərbəst şəraitdə artırılan və ya süni yolla yetişdirilən nümunələrinin beynəlxalq ticarəti Konvensiyanın II və bu Qaydaların 2 nömrəli əlavələrinə daxil edilmiş növlər üçün müəyyən olunan qaydada həyata keçirilir.

3.15. Nümunələrin bu Qaydalara müvafiq beynəlxalq ticarəti üçün müəyyən edilmiş şərtlər aşağıdakılara tətbiq olunmur:

3.15.1. nümunələrin Azərbaycan ərazisindən gömrük nəzarəti altında tranzit daşınmasına;

3.15.2. ixrac və ya təkrar ixrac edən ölkənin inzibati orqanı nümunələrin Konvensiyanın və bu Qaydaların şərtlərinin tətbiq olunmasından əvvəl əldə edilməsinə əmin olunduqda;

3.15.3. alimlər və ya elmi təşkilatlar arasında inzibati orqan tərəfindən verilmiş və ya təsdiq edilmiş yarlıqları olan herbari, digər konservləşdirilmiş, qurudulmuş, xüsusi mayedə qoyulmuş muzey eksponatların, canlı bitki nümunələrinin mübadiləsi, müvəqqəti istifadəsi, bağışlanması, habelə kommersiya məqsədi daşımayan barter hallarına;

3.15.4. Konvensiyanın I və bu Qaydaların 1 nömrəli əlavələrinə daxil edilmiş şəxsi və ya məişət əşyalarına (əgər onlar sahibi tərəfindən başqa ölkədə əldə edilərək şəxsin (sahibinin) daimi yaşadığı ölkəyə idxal edilmirsə);

3.15.5. Konvensiyanın II və bu Qaydaların 2 nömrəli əlavələrinə daxil edilmiş şəxsi və ya məişət əşyalarına (əgər onlar başqa ölkənin vəhşi təbiətindən əldə edilərək sahibinin daimi yaşadığı ölkənin ərazisinə idxal edilmirsə və nümunənin əldə edildiyi dövlətin inzibati orqanı onların ölkədən ixrac olunması üçün əvvəlcədən icazə tələb etmirsə);

3.15.6. səyyar sirklər, heyvanxana, zooloji bağlar və bitki sərgilərinə (əgər nümunələr qəbul edilmiş qaydada inzibati orqanda qeydiyyatdan keçmişdirsə və ya nümunələr bu Qaydaların 3.15.2-ci bəndindəki kateqoriyaya aiddirsə, həmçinin inzibati orqan canlı nümunələrin daşınması və onlara qulluq edilən zaman mümkün zədələnmələrin, amansız rəftarın və həyatı təhlükə riskinin minimuma endiriləcəyinə əmindirsə).

IV. İcazə/sertifikatın tərtibi

4.1. Konvensiyanın I, II və III, habelə bu Qaydaların 1 və 2 nömrəli əlavələrinə daxil edilmiş növlərin beynəlxalq ticarəti zamanı bu Qaydaların 3 nömrəli əlavəsinə uyğun icazə/sertifikatı tərtib edilir.

4.2. İcazə/sertifikatı xüsusi blanklarda növlərin adları latın dilində qeyd olunmaqla, Azərbaycan və ingilis dillərində tərtib edilir.

4.3. İcazə/sertifikatın əsli və 3 nüsxəsi (surətləri) olmaqla tərtib edilir. İcazə/sertifikatın əsli ilə digər nüsxələrinin rəngləri fərqlənir və icazə/sertifikatın əslinə CİTES-in nömrələnmiş markası yapışdırılaraq bütün nüsxələr inzibati orqanın rəhbəri tərəfindən imzalanır və möhürlə təsdiq edilir. Ərizəçiyə icazə/sertifikatın əsli və digər iki nüsxəsi təqdim edilir. Gömrük orqanları tərəfindən icazə/sertifikatın əslində və nüsxələrin birində müvafiq qeydlər aparılır və qeydiyyatı aparılmış nüsxələrdən biri gömrük orqanları tərəfindən götürülür. Üçüncü nüsxə ərizəyə əlavə edilmiş sənədlərlə birlikdə müəyyən olunmuş qaydada inzibati orqanda saxlanılır.

4.4. İcazə/sertifikatın surətlərinin heç biri əslinin əvəzinə istifadə edilə bilməz.

4.5. Nümunələrin hər partiyası üçün ayrıca icazə/sertifikatı tələb olunur.

4.6. Bir icazə/sertifikata üçdən artıq növün nümunəsi daxil edilə bilməz.

4.7. İcazə/sertifikata əlavə və düzəlişlər edilməsinə yol verilmir.

4.8. İcazə/sertifikatı verildiyi gündən aşağıdakı müddətdə qüvvədədir:

4.8.1. ixrac və təkrar ixrac üçün icazə/sertifikatı - 6 ay;

4.8.2. Konvensiyanın I və bu Qaydaların 1 nömrəli əlavələrinə daxil edilmiş növlərin nümunələrinin idxalı üçün icazə/sertifikatı - 12 ay;

4.8.3. Konvensiyanın II, habelə bu Qaydaların 2 nömrəli əlavələrinə daxil edilmiş növlərin nümunələrinin digər ölkənin ərazisindən ixrac və ya təkrar ixracı barədə müvafiq icazə/sertifikat əsasında verilən idxal üçün icazə/sertifikat - 6 ay (müddət ixrac və ya təkrar ixrac sənədlərinin verildiyi gündən hesablanır);

4.9. İcazə/sertifikatı bu Qaydalarla müəyyən edilmiş müddətlərdə və yalnız icazə/sertifikatda göstərilən şəxslər tərəfindən istifadə edilə bilər, digər şəxslərə verilə bilməz.

4.10. İcazə/sertifikatı nümunələr ixrac olunmazdan əvvəl alınmalıdır.

V. İcazə/sertifikatın ləğv olunması və ona xitam verilməsi

5.1. İcazə/sertifikatı aşağıdakı hallarda inzibati orqan tərəfindən ləğv edilir:

5.1.1. ərizəçi tərəfindən müvafiq müraciət edildikdə;

5.1.2. Konvensiyanın, Konvensiya tərəflərinin konfransının qətnamələrinin, bu Qaydaların, habelə idxal edildiyi ölkənin qanunlarının pozulması ilə verildiyi müəyyən edildikdə;

5.1.3. icazə/sertifikatın verilməsində bu Qaydalarla müəyyən edilmiş şərtlərinin pozulması baş verdikdə;

5.1.4. icazə/sertifikatı itirildikdə;

5.1.5. nümunə sahibi dəyişdikdə;

5.1.6. nümunə sahibi olan hüquqi şəxs ləğv edildikdə, fiziki şəxs öldükdə;

5.1.7. məhkəmənin müvafiq qərarı olduqda;

5.1.8. idxal edilən nümunənin onun ixrac olunduğu ölkənin qanunvericiliyinin pozulması yolu ilə ixrac edildiyi müəyyən edildikdə;

5.1.9. Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş digər hallarda;

5.2. icazə/sertifikata aşağıdakı hallarda inzibati orqan tərəfindən xitam verilir:

5.2.1. etibarsız hesab edilmiş icazə/sertifikatı inzibati orqana təhvil verildikdə;

5.2.2. beynəlxalq ticarət üçün digər ölkələrin inzibati orqanları tərəfindən verilmiş icazə/sertifikatı qüvvədən düşdükdə;

5.2.3. Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş digər hallarda.

VI. Bu Qaydaların pozulması nəticəsində götürülmüş nümunələrdən istifadə

6.1. Konvensiyanın tələblərinə müvafiq olaraq, götürülmüş nümunələr saxlanılmaq üçün inzibati orqana verilir.

6.2. Məhkəmənin qərarına əsasən və ya elmi orqanın rəyini nəzərə alaraq, inzibati orqan nümunələr barədə aşağıdakı qərarlardan birini qəbul edir:

6.2.1. sahibinə qaytarılması;

6.2.2. ixrac edildiyi ölkəyə qaytarılması (müvafiq dövlətin Konvensiya üzrə inzibati orqanı ilə məsləhətləşmələr apardıqdan sonra);

6.2.3. təbii mühitə buraxılması;

6.2.4. canlı nümunələrin qeyri-sərbəst şəraitdə və ya süni olaraq yaradılmış mühitdə saxlanılması və artırılması, cansız nümunələrin isə saxlanmaq üçün dövlət və ya bələdiyyə təşkilatlarına, təbiəti mühafizə, elmi, maarifçilik, mədəniyyət və tibbi məqsədlər üçün əvəzsiz verilməsi;

6.2.5. Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən olunmuş qaydada satılması (bu Qaydaların 6.2.1 - 6.2.3-cü yarımbəndlərində nəzərdə tutulmuş qərarların həyata keçirilməsi mümkün olmadıqda);

6.2.6. öldürülməsi və ya məhv edilməsi (canlı nümunələr üçün baytarlıq nəzarəti orqanlarının rəyi olduqda).

6.3. Nümunələrin satışı Azərbaycan Respublikasının müvafiq qanunvericiliyində nəzərdə tutulmuş qaydada həyata keçirilir.

6.4. Nümunəni alan şəxsə inzibati orqan tərəfindən bu Qaydaların 4 nömrəli əlavəsində göstərilən formada Şəhadətnamə verilir. Şəhadətnamə nümunənin əldə edilməsinin qanunilliyini təsdiq edən sənəddir.

Şəhadətnamə nümunənin hər bir nüsxəsinə və ya partiyasına verilir.

6.5. Nümunənin sahibi dəyişdiyi halda, yeni sahib 3 (üç) həftə ərzində əvvəlki sahibin Şəhadətnaməsini və nümunənin yeni sahibinə verilməsi faktını təsdiq edən sənədləri inzibati orqana təqdim etməklə öz adına Şəhadətnamə almalıdır.

Nümunənin məhv olduğu (itirildiyi) hallarda onun sahibi 2 (iki) həftə müddətində bu barədə inzibati orqanı məlumatlandıraraq Şəhadətnaməni qaytarmalıdır.

"Kökünün kəsilməsi təhlükəsi olan vəhşi fauna və yabanı flora növlərinin beynəlxalq ticarətinin tənzimlənməsi Qaydaları"na 1 nömrəli əlavə

Azərbaycan üçün xarakterik, nadir və kökünün kəsilməsi təhlükəsi olan vəhşi fauna və yabanı flora növləri

Fauna (heyvanlar)	
Mammalia (məməlilər)	
Chiroptera	Yarasalar
Rhinolophidae	Nalburun yarasalar fəsiləsi
Rhinolophus euryale	Cənub nalburunu
Miniopteridae	Uzunqanad yarasalar
Miniopterus schrebersii	Adi uzunqanad yarasa
Molossidae	Buldoq yarasalar
Tadarida teniotis	Bükükdodaq enliqulaq
Rodentia	Gəmiricilər
Hystricidae	Tirəndazlar
Hystrix leucura	Hindistan tirəndazı
Carnivora	Yırtıcılar
Hyaenidae	Kaftarlar
Hyaena hyaena	Zolaqlı kaftar
Mustelidae	Dələlər
Vormela peregusna	Safsar
Felidae	Pişikkimilər
Felis libuca	Çöl pişiyi
Lynx linx	Vaşaq
Otocolobus manual	Manul pişiyi
Pantera pardus	Bəbir
Artiodactyla	Cütdırnaqlılar
Bovidae	Boşbuynuzlular
Gazella subgutturosa	Ceyran
Rupicapra rupicapra	Köpgör, qarapaça
Capra aegagrus	Bezoar və ya qaya keçisi
Ovis orientalis	Muflon, dağ qoyunu
Aves (quşlar)	
Pelecaniformes	Qutankimilər

Pelecanidae	Qutanlar
Pelecanus	Qutan
Pelecanus onocrotalus	Çəhrayı qutan
Anseriformes	Qazkimilər
Anatidae	Ördəklər
Cygnus	Qulələk
Cygnus olor	Fısıldayan qulələk
Anser	Qaz
Anser erythropus	Ağqaş qaz
Anas (Marmaronetta)	Ördək (Mərməri)
Anas (Marmaronetta) angustirostris	Mərmər cürə
Galliformes	Toyuqkimilər
Phasianidae	Qırqovullar
Tetraogallus	Ular
Tetraogallus caucasicus	Qafqaz uları
Tetraonidae	Tetralar
Lyrurus mlocosiewiczi	Qafqaz tetrası
Francolinus	Turac
Francolinus francolinus	Adi turac
Gruiformes	Durnakimilər
Rallidae	Sufərələri
Crex	Çivdimdik
Crex crex	Adi çivdimdik
Charadruformes	Cüllütkimilər
Charadridae	Bozcalar
Vanellochettusia	Ağquyruq
Vanellochettusia leucura	Çökükburun ağquyruq
Chettusia	Çökükburun
Chettusia gregaria	Çığırqan çökükburun
Glarolidae	Haçaquyruqlar
Glareola	Haçaquyruq
Glareola nordmanni	Bozqır haçaquyruğu
Laridae	Qağayılar
Larus	Qağayı
Larus ichtyaetus	Güləyən qağayı

Columbiformes	Göyərçinkimilər
Pteroclididae	Bağrıqaralar
Pterocles	Bağrıqara
Pterocles orientalis	Qaraqarın bağrıqara
Reptilia (sürünənlər)	
Testudines	Tısbağalar
Testudinidae	Quru tısbağaları
Testudo	Quru tısbağası
Testudo greaca	Aralıq dənizi tısbağası
Squamata	Pulçuqlular
Sauria	Kərtənkələlər
Agamidae	Kələzlər
Trapelus	Düzənlik kələzi
Trapelus ruderamus	Xarabalıq kələzi
Phrunocephalus	Girdəbaş
Phrunocephalus helioscopus	Yovşanlıq girdəbaş kərtənkələsi
Scincidae	Ssinklər
Trachylepis	Afrika mabuyası
Trachylepis septemtaeniatus Reuss.	Ön Asiya mabuyası
Ablepharus	Çılpaqgöz
Ablepharus bivittatus	Zolaqlı çılpaqgöz
Serpentes	İlanlar
Colubridae	Su ilanları
Elaphe	Dırmaşan təlxə
Elaphe longissima	Eskulap təlxəsi
Rhynchocalamus	Rinxokalamus
Rhynchocalamus melanosephalus	Qarabaş rinxokalamus
Amfibia (suda-quruda yaşayanlar)	
Caudata	Quyruqlular
Salamandridae	Salamandralar
Tritrus Rafinesque	Triton
Tritrus vulqaris	Adi triton
Tritrus cristatus	Daraqlı triton
Anura	Quyruqsuzlar
Pelebatidae	Sarımsaqiyli qurbağalar

Pelobates wagler	Sarımsaqiyli
Pelobates suriacus	Suriya sarımsaqiyli qurbağası
Pelodutes Bonap.	Xaçlıca
Pelodutes caucasicus	Qafqaz xaçlıcası
Procoela	Prosöllülər
Bufonidae	Quru qurbağaları
Bufo	Quru qurbağası
Bufo bufo	Adi quru qurbağası
Flora (bitkilər)	
Alliaceae j. agardh.	Soğanaqkimilər fəsiləsi
Nectaroscordum dioscoridis (Smith.) Stank.	Dioskorid nektaroskordumu
Nectaroscordum tripedale (Trautv.) Grossh.	Üçfutlu nektaroskordumu
Apiaceae lindl.	Kərəvözkimilər fəsiləsi
Grammosciadium platycarpum Boiss. et Hausskn. (=Carispodium platycarpum (Boiss. et Hausskn.) Schischk.)	Qraqmeyvə qalxanək
Dorema glabrum Fisch. et C.A.Mey.	Çılpaq dorema
Ferula caucasica Korov.	Qafqaz ilankölgəsi
Zeravschania pauciradiata (Tamamsch.) M. Pimen. (=Peucedanum pauciradiatum Tamamsch.)	Azşüalı zerafşaniya
Smyrniopsis aucheri Boiss.	Oşe ləkləkivəsi
Stenotaenia macrocarpa Freyn. et Sinth. ex Freyn. subsp. daralaghezica (Takht.) Takht. (= S. daralaghezica (Takht.) Schischk.)	İrimeyvə stenoteniyası
Aquifoliaceae bartl.	Şumşadkimilər fəsiləsi
Ilex hyrcana Pojark.	Hirkan şümşadı
Araliaceae juss.	Sarmaşıqkimilər fəsiləsi
Hedera pastuchowii Woronow	Pastuxov daşsarmaşığı
Aristolochiaceae juss.	Zəravəndkimilər fəsiləsi
Aristolochia bottae Jaub. et Spach	Bott zəravəndi
Dryopteridaceae ching	Ayıdöşəyikimilər fəsiləsi
Dryopteris raddeana (Fomin) Fomin	Rade ayıdöşəyisi
Asteraceae dumort.	Asterkimilər fəsiləsi
Cladochaeta candissima (Bieb.) DC.	Parlaq kladoxeta
Gundelia tournefortii L.	Turnefor qundeliyası
Pyrethrum kotschyi Boiss.	Koçi birəotusu

Scorzonera grossheimii Lipsch.et Vass.	Qrossheym təkəsaqqalı
Telekia speciosa (Schreb.) Baumg.	Gözəl telekiya
Amaryllidaceae J. St.-Hil.	Nərgizçiçəyikimilər fəsiləsi
Sternbergia colchiciflora Waldst. et Kit.	Kolxidflora şternbergiyası
Hamamelidaceae R. Br.	Dəmirağackimilər fəsiləsi
Parrotia persica (DC.) C.A. Mey.	Dəmirağac
Hemionitidaceae pichi sermolii	Hemionitidkimilər fəsiləsi
Anogramma ieptophylla (L.) Link	Nazikyarpaq anoqramma
Hüpericaceae juss.	Dazı fəsiləsi
Hypericum formosissimum Takht.	Gözəl dazı
Iridaceae juss.	Süsənkimilər fəsiləsi
Crocus caspius Fisch. et C.A.Mey.	Xəzər zəfəranı
Gladiolus halophilus Boiss. et Heldr.	Şoranyer qarğasoğanı
Iris acutiloba C.A.Mey.	İtikənarlı süsən
Iris camillae Grossh.	Kamilla süsəni
Juglandaceae A. Rich. Ex Kunth	Qozkimilər fəsiləsi
Pterocarya pterocarpa (Michx.) Kunth ex I. Iljinsk.	Qanadmeyvə yalanqoz
Liliaceae juss.	Zanbaqkimilər fəsiləsi
Fritillaria grandiflora Grossh.	İriçiçək lələvər
Lilium ledebourii (Baker) Boiss.	Ledebur zanbağı
Tulipa karabachensis Grossh.	Qarabağ dağlaləsi
Hyacintaceae batsch	Hiasintkimilər fəsiləsi
Muscari elegantulum Schchian	Qəşəng ilansoğanı
Ornithogalum hyrcanum Grossh.	Hirkan xınalosu
Hyacintella atropatana (Grossh.) H. Mordak et Zakharyeva (=Scilla atropatana Grossh.)	Atropatan (Azərbaycan) zümrüdçiçəyi
Melanthlaceae batsch	Melantasiyakimilər fəsiləsi
Merendera candidissima Miscz. ex Grossh.	Ağaran danaqıran
Ruscaceae hutch.	Bikəvərkimilər fəsiləsi
Danae racemosa (L.) Moench	Budaqlı danaya

"Kökünün kəsilməsi təhlükəsi olan vəhşi fauna və yabanı flora növlərinin beynəlxalq ticarətinin tənzimlənməsi Qaydaları"na 2 nömrəli əlavə

Azərbaycan üçün xarakterik və mühafizəsinin gücləndirilməsi tələb olunan vəhşi fauna və yabanı flora növləri

Fauna (heyvanlar)	
Mammalia (məməlilər)	
Insectivora	Həşəratyeyənlər
Soricidae	Yereşənlər
Sunsus etruscus	Cırtdan ağdiş
Chiroptera	Yarasalar
Rhinolophidae	Nalburun yarasalar fəsiləsi
Rhinolophus hipposideros	Kiçik nalburun
Rhinolophus euryale	Cənub nalburunu
Vespertilionidae	Şəbpərələr
Myotis blythii	İtiqulaq şəbpərə
Carnivora	Yırtıcılar
Mustelidae	Dələlər
Lutra lutra	Çay samuru
Felidae	Pişikkimilər
Felidae chaus	Qamışlıq pişiyi
Pinnipedia	Kürəkayaqlılar
Phocidae	Əsl suitilər
Phoca caspica	Xəzər suitisi
Artiodactyla	Cütdırnaqlılar
Cervidae	Dolubuynuzlular
Capreolus capreolus	Cüyür
Cervus elaphus	Nəcib maral
Aves (quşlar)	
Podicipediformes	Maygülükimilər
Podicipedidae	Maygülülər
Podiceps	Maygülü
Podiceps nigrocollis	Qaraboyun maygülü
Podiceps auritus	Qırmızıboyun maygülü
Podiceps grisegena	Bozyanaq maygülü
Pellcaniformes	Qutankimilər
Phalacrocoracidae	Qarabatdaqlar

Phalacrocorax	Qarabatdaq
Phalacrocorax pygmaeus	Kiçik qarabatdaq
Anseriformes	Qazkimilər
Anatidae	Ördəklər
Cygnus	Qulələk
Cygnus cygnus	Harayçı qulələk
Tadorna	Anqut
Tadorna tadorna	Ala anqut
Tadornaferruginea	Qırmızı anqut
Rallidae	Sufərələri
Porphyrio	Soltanquş
Porphyrio porphyio	Adi soltanquş
Coraciiformes	Göycəqarğakimilər
Coraciidae	Göycəqarğalar
Coracias	Göycəqarğa
Coracias garrulus	Adi göycəqarğa
Alcedinidae	Zərricələr
Alcedo	Zərricə
Alcedo atthis	Balıqcıl zərricə
Meropidae	Qızlarquşular
Merops	Qızlarquşu
Merops apiaster	Qızılı qızlarquşu
Merops superciliosus	Yaşıl qızlarquşu
Reptilia (sürünənlər)	
Testudines	Tısbağalar
Emudidae	Şirin su tısbağaları
Emus	Şirin su tısbağası
Emus orbicularis	Bataqlıq tısbağası
Squamata	Pulcuqlular
Saura	Kərtənkələlər
Anguidae	Anquidlər
Anguis	Anquis
Anguis fragilis	Cılız koramal
Scinicidae	Ssinklər
Ablepharus	Çılpaqgözlülər
Ablepharus pannonicus	Asiya çılpaqgözlüsü
Lacertidae	Kərtənkələlər
Eremias	Kərtənkələcik

18108

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

Eremias Strauxs	Straux kərtənkələciyi
Lacerta	Əsl kərtənkələ
Lacerta praticola	Çəmən kərtənkələsi
Darevskia raddei	Azərbaycan kərtənkələsi
Darevskia chlorogaster	Yaşılqarın kərtənkələ
Serpentes	İlanlar
Boidae	Yatağan ilanlar
Erux.	Yatağan
Erux jaculus	Qərb yatağanı
Colubridae	Su ilanları
Coluber	Təlxə
Coluber ravergieri	Rəngbərəng təlxə
Elaphe	Dırmaşan təlxələr
Elaphe dione	Naxışlı təlxə
Elaphe Sauromates	Dördzolaqlı təlxə
Eirenis	Eyrenis
Eirenis modestus	Dinc eyrenis
Viperidae	Gürzəklər
Vipera	Gürzə
Vipera ursini	Çöl gürzəsi
Crotalidae	Çuxurbaşlılar
Gloydius	Qalxansifət
Gloydius halys	Adi qalxansifət ilan
Amfibia (suda-quruda yaşayanlar)	
Procoela	Prosollülər
Hylidae	Ağac qurbağaları
Hyla Laurenti	Ağac qurbağası
Hyla arborea Linaius	Adi ağac qurbağası
Diploasiocolla	Diploasisollülər
Ranidae	Qurbağalar
Rana	Qurbağa
Rana macrocnemis	Kiçik asiya qurbağası
Flora (bitkilər)	
Chenopodiaceae vent.	Tərəçiçəkkimilər fəsiləsi
Anabasis brachiata Fisch. et C.A.Mey.	
ex Kar.Et Kir.	Şamdanvari öldürgən
Salsola tamamschjanae Iljin	Tamamşyan şorangəsi
Cupressaceae rich. ex bartl.	Sərvkimilər fəsiləsi

Juniperus foetidissima Willd.	Ağırıyli ardıc
Ebenaceae guerke	Ebena fəsiləsi
Diospyros lotus L.	Qafqaz xurması (xurnik)
Ericaceae juss.	Erika fəsiləsi
Rhododendron caucasicum Pall.	Qafqaz xınaməli
Rhododendron luteum Sweet	Sarı xınaməli
Euphorbiaceae juss.	Südləyənkimilər fəsiləsi
Euphorbia grossheimii Prokh.	Qrossheym südləyəni
Fabaceae lindl.	Paxlalılar fəsiləsi
Albizia julibrissin Durazz.	Gülabrişin, irək akasiya
Astragalus bakuensis Bunge	Bakı gəvəni
Astragalus kubensis Grossh.	Quba gəvəni
Gleditsia caspia Desf.	Xəzər lələyi (şeytanağacı)
Fagaceae dumort.	Fıstıqkimilər fəsiləsi
Castanea sativa Mill.	Adi şabalıd
Quercus castaneifolia C.A. Mey.	Şabalıdyarpaq palıd
Gentinaceae juss.	Acıçiçəkkimilər fəsiləsi
Gentiana lagodechiana (Kusn.) Grossh.	Laqodex acıçiçəyi
Globulariaceae dc.	Qlobulariya fəsiləsi
Globularia trichosantha Fisch. et C.A. Mey.	Darləçək qlobulariya
Betulaceae S.F. Gray	Tozağacı fəsiləsi
Corylus colurna L.	Ağacvari fındıq, ayı fındığı
Alnus subcordata C.A. Mey.	Ürəkvariyarpaq qızılağac
Betula raddeana Trautv.	Radde tozağacısı
Brassicaceae burnett.	Xaççiçəkimilər fəsiləsi
Physoptychis caspica (Habl.) V.	
Boczantzeva (=Ph. gnaphalodes (DC.) Boiss.)	Qurı bozqovqaç
Pseudovesicaria digitata (C.A. Mey.) Rupr.	Barmaqvari qovqaç
Buxaceae dumort.	Şümşət fəsiləsi
Buxus colchica Pojark.	Kolxida şümşadı
Campanulaceae juss.	Zəngçiçəklilər fəsiləsi
Campanula coriacea P.H. Davis(=C.radula auct.)	Şüalı zəngçiçəyi
Celastraceae R. BR.	Germəşov fəsiləsi
Euonymus velutina Fisch. et C.A.Mey.	Məxməri germəşov

"Kökünün kəsilməsi təhlükəsi olan vəhşi fauna və yabanı flora növlərinin beynəlxalq ticarətinin tənzimlənməsi Qaydaları"na 3 nömrəli əlavə

İcazə/sertifikat formasında göstərilən kodların izahı (sertifikatın arxa tərəfi)

5A bəndi üçün kodlar (Codes for box 5A)		
T	Kommersiya	Commerciat
Z	Zooparklar	Zoos
G	Nəbatat bağları	Botanicai gardens
Q	Sirklər və səyyar sərgilər	Circuses and traveling exhibitions
S	Elm	Scientific
H	Ov məhsulu	Hunting trophies
P	Fərdi istifadə	Personal
M	Bio-tibbi tədqiqatlar	Bio-medical research
E	Təhsil	Education
N	Vəhşi təbiətə reintroduksiya (təkrar köçürmə) və ya introduksiya (köçürmə)	Reintroduction or introduction into the wild
B	Qeyri-sərbəst artırılmış və ya süni yetişdirilmiş	Breeding in captivity or artificial propagation
10-cu bənd üçün kodlar (Codes for box 10)		
W	Təbiətdən götürülən nümunələr	Specimens taken from the wild
R	Ferma üsulu ilə yetişdirilən nümunələr	Specimens originating from a ranching operation
D	Konvensiyanın 7-ci maddəsinin 4-cü paraqrafının və "Kökünün kəsilməsi təhlükəsi olan vəhşi fauna və yabanı flora növləri nümunələrinin beynəlxalq ticarətinin tənzimlənməsi Qaydaları"nın müddəalarına uyğun olaraq ixrac edilən və Konvensiyanın I və Qaydaların 1 nömrəli əlavələrinə daxil edilmiş, lakin kommersiya məqsədləri ilə qeyri-sərbəst mühitdə artırılmış heyvanlar və yetişdirilmiş bitkilər, onların hissələri və derivatları	Appendix I (Appendix 1 of the Rules) animals bred in captivity for commercial purposes, or Appendix I (Appendix 1 of the Rules) plants artificially propagated for commercial purposes as well as parts and derivatives thereof, exported under the provisions of Article VII, paragraph 4, of the Convention and of the "Rules on Regulation of International Trade in Endangered Species of Wild Fauna and Flora"

A	Konvensiyanın 7-ci maddəsinin 5-ci paraqrafının və "Kökünün kəsilməsi təhlükəsi olan vəhşi fauna və yabanı flora növləri nümunələrinin beynəlxalq ticarətinin tənzimlənməsi Qaydaları"nın müddəalarına uyğun olaraq ixrac edilən və Konvensiyanın 11.11 saylı Qətnaməsinin "a" paraqrafına müvafiq olaraq süni yetişdirilmiş bitkilər, onların hissələri və derivatları (qeyri-kommersiya məqsədləri ilə süni yetişdirilmiş və Konvensiyanın I, II və III, habelə Qaydaların 1 və 2 nömrəli əlavələrinə daxil edilmiş növlərin nümunələri)	Plants that are artificially propagated in accordance with Resolution Conf. 11.11, paragraph "a", as well as parts and derivatives thereof, exported under the provisions of Article VII, paragraph 5 of the Convention and of the "Rules on Regulation of International Trade in Endangered Species of Wild Fauna and Flora" (specimens of species included in Appendix I(Appendix 1 of the Rules) that have been propagated artificially for non-commercial purposes and specimens of species included in Appendices II, III and Appendix 2 of the Rules)
C	Konvensiyanın 7-ci maddəsinin 5-ci paraqrafının və "Kökünün kəsilməsi təhlükəsi olan vəhşi fauna və yabanı flora növləri nümunələrinin beynəlxalq ticarətinin tənzimlənməsi Qaydaları"nın müddəalarına uyğun olaraq ixrac edilən və Konvensiyanın 10.16 saylı Qətnaməsinə müvafiq olaraq qeyri-sərbəst şəraitdə artırılmış heyvanlar, onların hissələri və derivatları (qeyri-kommersiya məqsədləri ilə süni olaraq artırılmış və Konvensiyanın I, II və III, habelə Qaydaların 1 və 2 №-li əlavələrinə daxil edilmiş növlərin nümunələri)	Animals bred in captivity in accordance with Resolution Conf. 10. 16 (Rev.), as well as parts and derivatives thereof, exported under the provisions of Article VII, paragraph 5 of the Convention and of the "Rules on Regulation of International Trade in Endangered Species of Wild Fauna and Flora" (specimens of species included in Appendix I (Appendix 1 of the Rules) that have been bred in captivity for non-commercial purposes and specimens of species included in Appendices II, III and Appendix 2 of the Rules)
F	Qeyri-sərbəst şəraitdə artırılmış (F1 və sonrakı nəsillər), lakin Konvensiyanın 10.16 saylı Qətnaməsində nəzərdə tutulan "qeyri-sərbəst şəraitdə artırılmış" anlayışının tələblərinə cavab verməyən heyvanlar, onların hissələri və derivatları	Animals born in captivity (F1 and subsequent generations) that do not fulfil the definition of "bred in captivity" in Resolution Conf. 10. 16 (Rev.), as well as parts and derivatives thereof
U	Naməlum mənbələr (əsaslandırılmalıdır)	Source unknown (must be justified)
İ	Müsadirə olunmuş və ya götürülmüş nümunələr	Confiscated or seized specimens

"Kökünün kəsilməsi təhlükəsi olan vəhşi fauna və yabanı flora növlərinin beynəlxalq ticarətinin tənzimlənməsi Qaydaları"na 1 nömrəli əlavə

Kökünün kəsilməsi təhlükəsi olan vəhşi fauna və yabanı flora növləri nümunələrinin əldə edilməsi haqqında Şəhadətnamə

Azərbaycan Respublikasında CİTES-in inzibati orqanı (Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi)

Şəhadətnamə AZ № 000000

Verilir _____

(fiziki şəxsin adı, atasının adı, soyadı, şəxsiyyət vəsiqəsi barədə məlumatlar)

_____

(hüquqi şəxsin rekvizitləri)

_____ məhkəməsinin "___" _____ 200___ il tarixli

(müsadirə barədə qərar qəbul etmiş orqanın adı)

qərarı ilə müsadirə olunmuş _____

(nümunənin Azərbaycan və latın dillərində adı, CİTES-in müvafiq əlavəsinin №-si)

_____

(nümunənin təsviri Ç canlı, hissə, derivat, fərdi nişanın olması və s.)

_____

CİTES nümunəsini əldə etməsinin qanuniliyini təsdiq edir.

Nümunədən istifadənin xüsusi şərtləri _____

_____

Qeyd. Nümunənin məhv olduğu (itirildiyi) hallarda, şəhadətnamə 2 həftə müddətində CİTES-in Azərbaycan Respublikasındakı inzibati orqanına qaytarılmalıdır. Sahibi dəyişdiyi hallarda Şəhadətnamə dəyişdirilir.

Tarix _____

M.Y. İmza _____

(soyadı, vəzifə

"İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya"nın Fakültativ Protokolunun icrasının təmin edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Birləşmiş Millətlər Təşkilatının "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya"sının Azərbaycan Respublikasının 2008-ci il 2 dekabr tarixli 724-IIIQD nömrəli Qanunu ilə təsdiq edilmiş Fakültativ Protokolunun icrasını təmin etmək məqsədi ilə qərara alıram:

1. "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya"nın Fakültativ Protokolunda nəzərdə tutulmuş milli preventiv mexanizmin funksiyalarını yerinə yetirən təsisat qismində Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) müəyyən edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya"nın Fakültativ Protokolunun icrası ilə əlaqədar zəruri tədbirlər görsün.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu sərəncamın 1-ci bəndinə uyğun olaraq "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya"nın Fakültativ Protokolunda nəzərdə tutulmuş milli preventiv mexanizmin funksiyalarını yerinə yetirən təsisatın müəyyən edilməsi barədə Birləşmiş Millətlər Təşkilatının baş katibinə müvafiq bildiriş göndərsin.

4. Bu sərəncam dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 13 yanvar 2009-cu il

№ 112

"Nüvə terrorçuluğu əməlləri ilə mübarizə haqqında" Beynəlxalq Konvensiyanın təsdiq edilməsi barədə" Azərbaycan Respublikasının 2008-ci il 2 dekabr tarixli 725-IIIQ nömrəli Qanununun tətbiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

"Nüvə terrorçuluğu əməlləri ilə mübarizə haqqında" Beynəlxalq Konvensiyanın təsdiq edilməsi barədə" Azərbaycan Respublikasının 2008-ci il 2 dekabr tarixli 725-IIIQ nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiq edilməsini təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bir ay müddətində:

1.1. "Nüvə terrorçuluğu əməlləri ilə mübarizə haqqında" Beynəlxalq Konvensiyanın 7-ci maddəsinin 4-cü bəndində nəzərdə tutulmuş səlahiyyətli orqanlar barədə təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. öz səlahiyyətləri daxilində "Nüvə terrorçuluğu əməlləri ilə mübarizə haqqında" Beynəlxalq Konvensiyanın təsdiq edilməsi barədə" Azərbaycan Respublikasının 2008-ci il 2 dekabr tarixli 725-IIIQ nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

2. Bu Sərəncam dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 13 yanvar 2009-cu il

№ 113

Birləşmiş Millətlər Təşkilatının İnsan Hüquqları Şurasının Universal Dövri İcmal üzrə İşçi Qrupunun 2009-cu il fevralın 2-13-də Cenevrə şəhərində keçiriləcək 4-cü sessiyasında Universal Dövri İcmal mexanizmi çərçivəsində Azərbaycan Respublikasının məruzəsinə baxılması ilə əlaqədar Azərbaycan Respublikasını təmsil edəcək nümayəndə heyətinin tərkibi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. Birləşmiş Millətlər Təşkilatının İnsan Hüquqları Şurasının Universal Dövri İcmal üzrə İşçi Qrupunun 2009-cu il fevralın 2-13-də Cenevrə şəhərində keçiriləcək 4-cü sessiyasında Universal Dövri İcmal mexanizmi çərçivəsində Azərbaycan Respublikasının məruzəsinə baxılması ilə əlaqədar Azərbaycan Respublikasını təmsil edəcək nümayəndə heyəti aşağıdakı tərkibdə müəyyən edilsin:

Nümayəndə heyətinin başçısı

Xələf Xələfov - Azərbaycan Respublikası xarici işlər nazirinin müavini

Nümayəndə heyətinin üzvləri

Oruc Zalov - Azərbaycan Respublikası daxili işlər nazirinin müavini

Toğrul Musayev - Azərbaycan Respublikası ədliyyə nazirinin müavini

Natiq Məmmədov - Azərbaycan Respublikası əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini

Müzəffər Talıblı - Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının İctimai-siyasi məsələlər şöbəsinin Milli azlıqlarla iş sektorunun müdiri

Telman Məmmədov - Azərbaycan Respublikasının Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi Aparatının rəhbəri

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 13 yanvar 2009-cu il

№ 115

Miqrasiya sahəsində Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarına dəyişikliklər və əlavələr edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı

"Miqrasiya idarəetmə sisteminin inkişafı və "Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına əlavələr və dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2008-ci il 24 iyun tarixli, 658-IIIQD nömrəli Qanununun tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 5 avqust tarixli, 805 nömrəli Fərmanına uyğun olaraq qərara alıram:

1. Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 24 avqust tarixli, 773 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002-ci il, № 8, maddə 493; 2008-ci il, № 3, maddə 168) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasına immiq-

rasiya haqqında vəsatətə baxılması Qaydaları"na aşağıdakı dəyişikliklər və əlavələr edilsin:

1.1. 1-ci bənd aşağıdakı redaksiyada verilsin:

"1. Azı iki il Azərbaycan Respublikasında qanuni əsaslarla müvəqqəti yaşayan, 18 yaşına çatmış, fəaliyyət qabiliyyəti olan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasında daimi yaşamaq üçün (immiqrant statusu almaq üçün) Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidmətinə vəsatət verə bilər.";

1.2. 2-ci bənddə "Azərbaycan Respublikasına immiqrasiya üçün icazəni" sözləri "İmmiqrant statusunu" sözləri ilə əvəz edilsin;

1.3. 3-cü bəndin birinci hissəsinin "c" və "e" yarımbəndlərində "immiqrasiya edən" sözləri "immiqrant statusu almaq istəyən" sözləri ilə əvəz edilsin və aşağıdakı məzmunda "ə" yarımbəndi əlavə edilsin:

"ə) Azərbaycan Respublikasında müvəqqəti yaşamaq üçün icazə;

1.4. 3-cü bəndin birinci və ikinci hissələrində "İmmiqrasiya ilə əlaqədar" sözləri "İmmiqrant statusu almaq üçün" sözləri ilə əvəz edilsin;

1.5. 4-cü və 11-ci bəndlər çıxarılsın;

1.6. 5-ci bənddən "bilavasitə və ya Xarici İşlər Nazirliyi vasitəsi ilə" sözləri çıxarılsın;

1.7. 7-ci və 8-ci bəndlər aşağıdakı redaksiyada verilsin:

"7. Dövlət Miqrasiya Xidməti immiqrant statusunun verilməsi ilə bağlı Daxili İşlər Nazirliyinə və digər aidiyyəti qurumlara müvafiq sorğular göndərir və rəsmi arayışlar alır.

8. İmmiqrant statusu beş il müddətinə verilir. Bu müddət bitdikdən sonra əcnəbinin və ya vətəndaşlığı olmayan şəxsin müraciətinə əsasən daimi yaşamaq üçün verilmiş icazə beş il müddətinə uzadıla bilər. Uzadılmaların sayı məhdudlaşdırılmır.";

1.8. 9-cu bəndin birinci və ikinci abzaslarında "immiqrasiya" sözü "immiqrant statusu almaq" sözləri ilə əvəz edilsin;

1.9. 10-cu bənd üzrə:

1.9.1. birinci cümlə aşağıdakı redaksiyada verilsin:

"İmmiqrant statusu almaq üçün müraciət etmiş şəxsə qəbul edilmiş qərar barədə Dövlət Miqrasiya Xidməti tərəfindən əsaslandırılmış cavab verilməlidir.";

1.9.2. ikinci cümlədə "immiqrasiyaya icazə" sözləri "immiqrant statusunun" sözləri ilə, "immiqrasiya ilə əlaqədar" sözləri "immiqrant statusu almaq üçün" sözləri ilə əvəz edilsin;

1.10. 13-cü bəndin birinci və ikinci abzaslarında "immiqrantın şəxsiyyət" sözləri "daimi yaşayan əcnəbinin və ya vətəndaşlığı olmayan şəxsin qeydiyyat" sözləri ilə

əvəz edilsin;

1.11. həmin Qaydalara əlavə olunmuş "Ərizə-anket" (Əlavə 1) üzrə:

1.11.1. birinci abzasdan "müvəqqəti, daimi (lazım olmayanı pozun)" sözləri çıxarılsın;

1.11.2. 8-ci qrafada "Azərbaycan Respublikasına gəlişinizin" sözləri "Azərbaycan Respublikasında daimi yaşamaq istəyinizin" sözləri ilə əvəz edilsin;

1.11.3. 9-17-ci qrafalar müvafiq olaraq 10-18-ci qrafalar hesab edilsin və aşağıdakı məzmunda 9-cu qrafa əlavə edilsin:

"9. Azərbaycan Respublikasında icazə əsasında müvəqqəti yaşadığınız müddət";

1.12. həmin Qaydalara əlavə olunmuş "İmmiqrantın şəxsiyyət vəsiqəsinin verilməsi haqqında Ərizə-anket"in (Əlavə 2) adında, I hissəsinin ikinci abzasında, II hissəsinin adında, "b" və "c" yarımbəndlərində, 16-cı qrafasında "immiqrantın şəxsiyyət" sözləri "daimi yaşayan əcnəbinin və ya vətəndaşlığı olmayan şəxsin qeydiyyat" sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 12 mart tarixli, 543 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, № 3, maddə 222; 2008-ci il, № 8, maddələr 720, 722; Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 27 noyabr tarixli 26 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "Qüvvədən düşmüş sənədlərin dövlət reyestrinin aparılması qaydası haqqında Əsasnamə"yə aşağıdakı dəyişikliklər edilsin:

2.1. 8.7-ci bənddə "yaşayan 16 yaşına çatmamış immiqrantın şəxsiyyət" sözləri "daimi yaşayan 16 yaşına çatmamış əcnəbinin və ya vətəndaşlığı olmayan şəxsin qeydiyyat" sözləri ilə əvəz edilsin;

2.2. 8.8-ci bənddə "yaşayan 16 yaşına çatmış immiqrantın şəxsiyyət" sözləri "daimi yaşayan 16 yaşına çatmış əcnəbinin və ya vətəndaşlığı olmayan şəxsin qeydiyyat" sözləri ilə əvəz edilsin.

3. Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 19 mart tarixli, 560 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, № 3, maddə 239; 2008-ci il, № 1, maddə 4, № 3, maddə 168, № 8, maddə 722; Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 11 noyabr tarixli 14 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti haqqında Əsasnamə"yə aşağıdakı əlavələr və dəyişiklik edilsin:

3.1. 9.8-ci bənddə "şəxslərin" sözündən sonra "Azərbaycan Respublikasında müvəqqəti yaşamaq üçün icazələrini ləğv etmək, həmçinin" sözləri əlavə edilsin;

3.2. aşağıdakı məzmunda 9.9-1-ci bənd əlavə edilsin:

"9.9-1. qanunvericiliklə nəzərdə tutulmuş müvafiq inzibati xətalar haqqında işlərə baxmaq;";

3.3. 9.11-ci bənddən "immiqrasiya kvotasına dair, o cümlədən" sözləri çıxarılsın;

3.4. 9.12-ci bənddə "araşdırmaq" sözündən sonra ", qanunvericiliklə müəyyən edilmiş qaydada müvafiq tədbirlər görmək" sözləri əlavə edilsin;

3.5. 9.16-cı bənddə "müəyyən edilməsi" sözlərindən sonra "və qanunsuz miqrasiyanın qarşısının alınması" sözləri əlavə edilsin.

4. Bu Fərman dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 13 yanvar 2009-cu il

№ 44

Azərbaycan Respublikası Prezidentinin bəzi sərəncamlarına dəyişikliklər və əlavələr edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. Azərbaycan Respublikası Prezidentinin aşağıdakı sərəncamlarına dəyişikliklər və əlavələr edilsin:

1.1. "Azərbaycan Respublikası və İtaliya Respublikası arasında iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 20 sentyabr tarixli 1680 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, № 9, maddə 782) 1-ci bəndində "Heydər Babayev - Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri" sözləri "Natiq Əliyev - Azərbaycan Respublikasının sənaye və energetika naziri" sözləri ilə əvəz edilsin, "Gülməmməd Cavadov - Azərbaycan Respublikasının sənaye və energetika nazirinin müavini" sözləri çıxarılsın və "Xələf Xələfov - Azərbaycan Respublikasının xarici işlər nazirinin müavini" sözlərindən sonra "Mikayıl Cabbarov - Azərbaycan Respublikasının iqtisadi inkişaf nazirinin müavini" sözləri əlavə edilsin;

1.2. "Azərbaycan-Fransa İqtisadi Komissiyasının Azərbaycan Respublikası tərəfindən yeni tərkibinin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 28 sentyabr tarixli 1699 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, № 9, maddə 800) 1-ci bəndində "Heydər Babayev - Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri" sözləri "Samir Şərifov - Azərbaycan Respublikasının maliyyə naziri" sözləri ilə, "Azər Bayramov - Azərbaycan Respublikası maliyyə nazirinin müavini" sözləri "Mikayıl Cabbarov - Azərbaycan Respublikası iqtisadi inkişaf nazirinin müavini" sözləri ilə, "Sabir İlyasov - "Azərbaycan Hava Yolları" Dövlət Konserninin baş direktorunun birinci müavini" sözləri "Sabir İlyasov -"Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin birinci vitse-prezidenti" sözləri ilə və "Rüfət Aslanlı - Azərbaycan Respublikası Milli Bankının İdarə Heyətinin üzvü, baş direktor" sözləri "Avtandil Babayev - Azərbaycan Respublikası Milli Bankının İdarə Heyəti sədrinin müavini" sözləri ilə əvəz edilsin;

1.3. "Azərbaycan Respublikası və Qazaxıstan Respublikası arasında ticarət-iqtisadi əməkdaşlıq üzrə birgə hökumətlərarası komissiyanın Azərbaycan Respublikası

üzrə yeni tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 30 mart tarixli 2070 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, № 3, maddə 296) 1-ci bəndində "Heydər Babayev - Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri" sözləri "Yaqub Eyyubov - Azərbaycan Respublikası Baş nazirinin birinci müavini" sözləri ilə, "Ramiz Həsənov - Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Agentliyinin Baş direktoru" sözləri "Ramiz Həsənov - Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin sədri" sözləri ilə, "Sabir İlyasov - "Azərbaycan Hava Yolları" Dövlət Konserninin Baş direktorunun birinci müavini" sözləri "Sabir İlyasov - "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin birinci vitse-prezidenti" sözləri ilə, "Kamal İsmayılzadə - Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının regionlararası iqtisadi əlaqələr şöbəsinin müdiri" sözləri "Kamal İsmayılzadə - Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının MDB ölkələri ilə iqtisadi əlaqələr şöbəsinin müdiri" sözləri ilə əvəz edilsin, "Xələf Xələfov - Azərbaycan Respublikası xarici işlər nazirinin müavini" sözlərindən sonra "Niyazi Səfərov - Azərbaycan Respublikası iqtisadi inkişaf nazirinin müavini" sözləri, "Teymur Mehdiyev - Azərbaycan Respublikası mədəniyyət və turizm nazirinin müavini" sözlərindən sonra "Nazim İbrahimov - Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin sədri" sözləri və "Kamal İsmayılzadə - Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının MDB ölkələri ilə iqtisadi əlaqələr şöbəsinin müdiri" sözlərindən sonra "Lətif Qəndilov - Azərbaycan Respublikasının Qazaxıstan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri" sözləri əlavə edilsin;

1.4. "Azərbaycan Respublikası hökuməti və Kuba Respublikası hökuməti arasında əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 18 oktyabr tarixli 2444 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, № 10, maddə 981) 1-ci bəndində "Heydər Babayev - Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri" sözləri "Əbülfəs Qarayev - Azərbaycan Respublikasının mədəniyyət və turizm naziri" sözləri ilə, "İlham Ağayev - Azərbaycan Respublikasının BMT yanında Daimi Nümayəndəliyinin müşaviri" sözləri "Aqşin Mehdiyev - Azərbaycan Respublikasının BMT yanında Daimi Nümayəndəsi, eyni zamanda Kuba Respublikasında akkreditə olunmuş fövqəladə və səlahiyyətli səfiri" sözləri ilə əvəz edilsin, "Teymur Mehdiyev - Azərbaycan Respublikası mədəniyyət və turizm nazirinin müavini" sözləri çıxarılsın və "Xələf Xələfov - Azərbaycan Respublikası xarici işlər nazirinin müavini" sözlərindən sonra "Niyazi Səfərov - Azərbaycan Respublikası iqtisadi inkişaf nazirinin müavini" sözləri əlavə edilsin;

1.5. "Azərbaycan Respublikası hökuməti və Hindistan Respublikası hökuməti arasında ticarət, iqtisadi, elmi və texnoloji əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 18 oktyabr tarixli 2445 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, № 10, maddə 982) 1-ci bəndində "Heydər Babayev - Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri" sözləri "Hüseynqulu Bağırov - Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri" sözləri ilə, "Sabir İlyasov - "Azərbaycan Hava Yolları" Dövlət Konserninin baş direktorunun birinci müavini" sözləri "Sabir İlyasov - "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin birinci vitse-prezidenti" sözləri ilə əvəz edilsin, "Firdovsi Əliyev - Azərbaycan Respublikası ekologiya və təbii sərvətlər nazirinin müavini" sözləri çıxarılsın və "Xələf Xələfov - Azərbaycan Respublikası xarici işlər nazirinin müavini" sözlərindən sonra "Niyazi Səfərov - Azərbaycan Respublikası iqtisadi inkişaf nazirinin müavini" sözləri əlavə edilsin;

1.6. "Azərbaycan Respublikası və Tacikistan Respublikası arasında ticarət-iqtisadi əməkdaşlıq məsələləri üzrə birgə Hökumətlərarası Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 7 fevral tarixli 2667 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, № 2, maddə 75) 1-ci bəndində "Heydər Babayev - Azərbaycan Respublikası iqtisadi inkişaf naziri" sözləri "Yaqub Eyyubov - Azərbaycan Respublikası Baş nazirinin birinci müavini" sözləri ilə, "Nazim İbrahimov - Azərbaycan Respublikasının Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin sədri" sözləri "Nazim İbrahimov - Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin sədri" sözləri ilə əvəz edilsin və "Xələf Xələfov - Azərbaycan Respublikası xarici işlər nazirinin müavini" sözlərindən sonra "Niyazi Səfərov - Azərbaycan Respublikası iqtisadi inkişaf nazirinin müavini" sözləri əlavə edilsin;

1.7. "Azərbaycan Respublikası hökuməti və Birləşmiş Ərəb Əmirlikləri hökuməti arasında iqtisadi, ticarət və texniki əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 21 may tarixli 2830 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, № 5, maddə 419) 1-ci bəndində "Heydər Babayev - Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri" sözləri "Şahin Mustafayev - Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri" sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu sərəncamın 1.1-1.7-ci bəndlərində göstərilən dəyişikliklər və əlavələr barədə aidiyyəti tərəflərə müvafiq bildirişlər göndərsin.

3. Bu sərəncam imzalandığı gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 16 yanvar 2009-cu il

№ 117

Azərbaycan Respublikası hökuməti və Macarıstan Respublikası hökuməti arasında iqtisadi əməkdaşlıq üzrə Birgə Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası ilə Macarıstan Respublikası arasında 2008-ci il fevralın 18-də Budapeşt şəhərində imzalanmış sənədlər barədə" Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 27 may tarixli 2837 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası hökuməti və Macarıstan Respublikası hökuməti arasında iqtisadi əməkdaşlıq haqqında Saziş"ə müvafiq olaraq Azərbaycan Respublikası hökuməti və Macarıstan Respublikası hökuməti arasında Birgə Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi aşağıdakı heyətdə təsdiq edilsin:

Komissiyanın həmsədri

Şahin Mustafayev - Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri

Komissiyanın üzvləri:

Xələf Xələfov - Azərbaycan Respublikası xarici işlər nazirinin müavini

Gülməmməd Cavadov - Azərbaycan Respublikası sənaye və energetika nazirinin müavini

Musa Pənahov - Azərbaycan Respublikası nəqliyyat nazirinin müavini

İlqar Rəhimov - Azərbaycan Respublikası əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini

Bəhram Əliyev - Azərbaycan Respublikası kənd təsərrüfatı nazirinin müavini

Firdovsi Əliyev - Azərbaycan Respublikası ekologiya və təbii sərvətlər nazirinin müavini

Teymur Mehdiyev - Azərbaycan Respublikası mədəniyyət və turizm nazirinin müavini

Elmar Qasımov - Azərbaycan Respublikası təhsil nazirinin müavini

Sənan Kərimov - Azərbaycan Respublikası səhiyyə nazirinin müavini

Elmir Vəlizadə - Azərbaycan Respublikası rabitə və informasiya texnologiyaları nazirinin müavini

Avtandil Babayev - Azərbaycan Respublikası Milli Bankının İdarə Heyəti sədrinin müavini

Həsən Həsənov - Azərbaycan Respublikasının Macarıstan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu sərəncamın 1-ci bəndində göstərilən Azərbaycan Respublikası hökuməti və Macarıstan Respublikası hökuməti arasında iqtisadi əməkdaşlıq üzrə Birgə Komissiyanın Azərbaycan tərəfinin tərkibi barədə Macarıstan Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

3. Bu sərəncam imzalandığı gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 16 yanvar 2009-cu il

№ 118

Azərbaycan Respublikası Hökuməti arasında "Aztəminatlı fermerlərə Qrant Yardımı (2KR)" layihəsinə dair Notlar Mübadiləsi sənədlərini Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti verilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Sərəncamı

1. Azərbaycan Respublikası Hökuməti arasında "Aztəminatlı fermerlərə Qrant Yardımı (2KR)" layihəsinə dair Notlar Mübadiləsi sənədlərini Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının kənd təsərrüfatı naziri İsmət Dursun oğlu Abasova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu sərəncamın 1-ci bəndində göstərilən sənədləri Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının kənd təsərrüfatı naziri İsmət Dursun oğlu Abasova verilməsi barədə Yaponiya tərəfinə müvafiq bildiriş göndərilsin.

A.RASİ-ZADƏ

Azərbaycan Respublikasının Baş naziri

Bakı şəhəri, 29 yanvar 2009-cu il

№ 15s

"Azərbaycan Respublikasının Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti ("Benefisiar") və KfW, Frankfurt am Main ("KfW") arasında Maliyyələşdirmə Müqaviləsi"ni imzalamaq səlahiyyəti verilməsi barədə Azərbaycan Respublikasının Nazirlər Kabinetin Sərəncamı

1. "Azərbaycan Respublikasının Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti ("Benefisiar") və KfW, Frankfurt am Main ("KfW") arasında Maliyyələşdirmə Müqaviləsi"ni imzalamaq səlahiyyəti Azərbaycan Respublikası Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin rəisi Arif Xanoğlan oğlu Qaraşova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu sərəncamda göstərilən Müqaviləni imzalamaq səlahiyyətinin Azərbaycan Respublikası Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin rəisi Arif Xanoğlan oğlu Qaraşova verilməsi barədə Almaniya tərəfinə müvafiq bildiriş göndərsin.

3. Bu sərəncam imzalandığı gündən qüvvəyə minir.

A. RASİ-ZADƏ

Azərbaycan Respublikasının Baş naziri

Bakı şəhəri, 29 yanvar 2009-cu il

№ 16s

Azərbaycan Respublikasının Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti ("Benefisiar") və KfW, Frankfurt am Mayn ("KfW") arasında Maliyyələşdirmə Müqaviləsi

Benefisiar və KfW, Almaniya Hökuməti tərəfindən təqdim edilən xüsusi fond (Studien-und Beratungsfonds) vasitəsilə Kadastr və Daşınmaz Əmlakın Qeydiyyatı Layihəsi çərçivəsində Benefisiar üçün ekspert xidmətlərini maliyyələşdirmək məqsədi ilə

Almaniya Hökuməti tərəfindən 2008-ci il 7 oktyabr tarixində verilmiş səlahiyyət və Benefisiarın və Azərbaycan Hökumətinin xahişi əsasında aşağıdakı Maliyyələşdirmə Müqaviləsini imzalayırlar.

Maddə 1

Maliyyə yardımının məbləği və məqsədi

1.1. KfW Benefisiar üçün 453.000.00 avro məbləğində maliyyə yardımı ayıracaqdır. Bu maliyyə yardımı 3.2,-ci maddədə nəzərdə tutulmuş şərtlər istisna olmaqla geri alınmayacaqdır.

1.2. Benefisiar maliyyə yardımı vəsaitlərini istisnasız olaraq aşağıdakı ekspert xidmətlərinin maliyyələşdirilməsi üçün istifadə edəcəkdir:

Kadastrın və Daşınmaz Əmlakın Qeydiyyatı Layihəsinin Konsepsiya Fazasının ("Ekspert xidmətləri") həyata keçirilməsi;

və bu Maliyyələşdirmə Müqaviləsinin 9-cu maddəsində göstərilmiş Tender agentinin yardımı üçün.

1.3. Vergilər və digər dövlət ödəmələri Benefisiar tərəfindən ödənilir və idxal rüsumları maliyyə yardımı vəsaitləri hesabına maliyyələşməyəcəkdir.

Maddə 2

Ödəmə

2.1. Benefisiar bununla KfW-yə Məsləhətçi və Tender agentinə ayrılan maliyyə yardımından aralıq və son ödənişləri ödəmək səlahiyyətini verir. Bu cür ödəmələr Ekspert xidmətlərinin uğurlarına uyğun olaraq KfW-yə təqdim edilmiş (bir nüsxəsi Benefisiara təqdim edilir) ilkin hesablar əsasında və Benefisiar ilə Məsləhətçi və Benefisiar ilə Tender Agenti arasında bağlanmış müqavilələrə uyğun olaraq ödəniləcəkdir. Benefisiar tərəfindən bu səlahiyyət yuxarıda qeyd edilmiş bütün ödəmələr üçün ödəniş tələbi hesab ediləcəkdir.

2.2. Xarici valyutada ödənilən ("Xarici valyuta") ödənişlər üçün (fiksə edilmişlərdən başqa) KfW, onun tərəfindən xərclənən əlavə xərcləri özündə ehtiva edən xarici valyutanın əldə edilməsi üçün Benefisiarı avroda olan məbləğlə təmin edəcəkdir.

2.3. KfW, onun tərəfindən ödənilən hər hansı ödəmələrin verilməsi və ya köçürülməsində banklar tərəfindən yaradılan hər hansı gecikmələr üçün məsuliyyət daşımayacaqdır. Əgər hər hansı gecikmə KfW tərəfindən baş veribsə, onun məsuliyyəti artan faizlərin ödənilməsi ilə məhdudlaşacaqdır.

2.4. KfW 2009-cu il dekabrın 31-dən sonra ödəmələrin verilməsindən imtina hüququna

malik olacaqdır.

2.5. Məsləhətçi və Tender Agenti müqavilələri üzrə hər hansı kompensasiyalar, təminatlar və ya oxşar ödəniş iddiaları və hər hansı sığorta ödəmələri Benefisiarın hesabı üçün KfW-da, Frankfurt am Mayndakı (BİC: KFWİDEFF; BLZ 500 204 00) 38 000 000 00 (İBAN: DE53 5002 0400 3800 0000 00) hesaba ödənilməsi, Benefisiarın hesabına bu cür ödəmələrin KfW krediti ilə ödənilməsi barədə müddəanı özlərində ehtiva edəcəkdir.

Maddə 3

Ödəmələrin və təzminatların dayandırılması

3.1. Aşağıdakı hallar istisna olmaqla, KfW ödəmələri dayandırmaya bilər:

a) Benefisiar KfW-a münasibətdə ödəmələri həyata keçirməklə bağlı özünün öhdəliklərini yerinə yetirməkdə uğursuzluğa düçar olarsa;

b) bu Müqaviləyə görə öhdəliklər pozularsa;

c) Benefisiar ödənilən bütün məbləğlərin nəzərdə tutulmuş məqsəd üçün istifadə edildiyini sübut etməyə qadir deyilsə və ya

ç) Ekspert xidmətlərinin məqsədinin icrasına mane olan və ya ciddi təhlükə yaradan fövqəladə hallar meydana gələrsə;

d) Benefisiar ilə Məsləhətçi arasında bağlanan Məsləhətçi müqaviləsi pozularsa, başa çatarsa və ya ləğv edilərsə.

3.2. Əgər 3.1-ci maddənin b) və c) bəndlərində göstərilmiş hallardan hər hansı biri baş verərsə və KfW tərəfindən müəyyən edilmiş dövr ərzində (bu dövr ən azı 30 gün təşkil edəcəkdir) aradan qaldırılmazsa, KfW maliyyə yardımının dərhal qaytarılmasını tələb etmək hüququna malik olacaqdır. 3.1-ci maddənin c) bəndində göstərilənlər baş verəcəyi təqdirdə təzminatlar Benefisiarın nəzərdə tutulmuş məqsəd üçün istifadə edildiyini sübut edə bilmədiyi məbləğlə məhdudlaşacaqdır.

Maddə 4

Xərclər və dövlət ödəmələri

Benefisiar bu Müqavilənin bağlanması və icrası ilə bağlı Almaniya Federativ Respublikasının hüdudlarından kənarda meydana gələn bütün vergiləri və digər dövlət ödəmələrini, habelə maliyyə yardımının ödənilməsi ilə bağlı meydana gələn bütün köçürmə və konversiya xərclərini öz öhdəsinə götürəcəkdir.

Maddə 5

Müqavilədə göstərilmiş bildirişlər və nümayəndəliyin səlahiyyətləri

5.1. Bu Müqavilənin icrası zamanı Benefisiarı Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin rəisi və onun tərəfindən barəsində KfW-a məlumat verilən və imzalarının nümunəsi Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin rəisi tərəfindən təsdiq edilən müvafiq səlahiyyətlərə malik olan şəxslər təmsil edəcəkdir. Təmsil etmə hüquqları, bu hüquqların Benefisiarın səlahiyyətli nümayəndəsi tərəfindən ləğv edilməsi barədə verilən bildirişin KfW tərəfindən alındığı anadək qüvvədə qalır.

5.2. Bu Müqaviləyə düzəliş və əlavələr və bu Müqaviləyə görə müqavilə tərəflərinin təqdim etdiyi hər hansı qeydlər və bildirişlər yazılı şəkildə olacaqdır. Hər hansı belə qeyd və ya bildiriş müvafiq müqavilə tərəfinin aşağıdakı ünvanına və ya müvafiq müqavilə tərəfinin digər müqavilə tərəfinə bildirdiyi başqa ünvana çatdırıldıqda qəbul ediləcəkdir:

KfW üçün:	KfW
	Postfach 11 11 41,
	60046 Frankfurt am Mayn
	Almaniya Federativ Respublikası
	Faks:+49 69 7431-2944
Benefisiar üçün:	Azərbaycan Respublikasının Daşınmaz Əmlakın
	Dövlət Reyestri Xidməti
	H.Cavid prospekti 31
	Bakı
	Azərbaycan Respublikası
	Faks:+994 12 510 8531

Maddə 6

Ekspert xidmətləri

6.1. Benefisiar

a) onunla KfW arasında Ekspert xidmətləri üçün əldə olunmuş konsepsiyaya uyğun olaraq Ekspert xidmətlərini müstəqil, ixtisaslaşmış Məsləhətçilərə ("Məsləhətçi") tapşıracaqdır;

b) ilkin seçim və beynəlxalq ictimai rəqabət qabiliyyətli sövdələşməni dəstəkləyərək Müqaviləni müstəqil, ixtisaslaşmış Məsləhətçiyə təqdim edəcəkdir. Müqavilənin təqdim edilmə proseduru "İnkişaf etməkdə olan ölkələrlə maliyyə əməkdaşlığında Məsləhətçilərin təyin edilməsi üçün Direktivlər" ilə (Qoşma 1) nizamlanacaq. Bu "Direktivlər" bu sənədin tərkib hissəsini təşkil edir;

c) Ekspert xidmətlərinin tam maliyyələşməsini təmin edəcəkdir və KfW-un sorğusu əsasında ona bu maliyyə yardımından ödənilməyən xərclərin örtüldüyünə dair sübut təqdim edəcəkdir;

ç) Məsləhətçi Müqaviləsi və Tender agenti Müqaviləsində müəyyən edilmiş öhdəliklərini yerinə yetirəcəkdir;

d) Tədqiqat ilə bağlı çəkilən bütün xərcləri aydın şəkildə göstərən və maliyyə yardımından maliyyələşdirilən xidmətləri aydınlıqla müəyyənləşdirən kitabları və sənədləri saxlayacaqdır;

e) KfW-nun nümayəndələrinin istənilən zaman yuxarıda göstərilən kitabları və

sənədləri, habelə Ekspert xidmətlərinin icrası ilə bağlı hər hansı və bütün digər sənədləri yoxlamasına şərait yaradacaqdır;

ə) KfW sorğu verdiyi zaman Ekspert xidmətləri və onların sonrakı inkişafı ilə bağlı hər hansı və bütün bu tipli məlumatları və hesabatları KfW-a təqdim edəcəkdir;

f) KfW-nu Ekspert xidmətlərinin icrasına və ya məqsədinə mane olan və ya ciddi təhlükədə qoyan hər hansı və bütün hallar barədə könüllü şəkildə təxirə salmadan məlumatlandıracaqdır;

g) Məsləhətçinin hesabatlarına rəy verəcəkdir və ya onun məzmununu imza qoymaqla təsdiqləyəcəkdir və;

h) KfW ilə razılaşma əsasında bütün layihələr, hesabatlar, tədqiqatlar və Məsləhətçinin işçi heyətinin dəyişdirilməsi ilə bağlı öz qərarlarını verəcəkdir.

6.2. Sifariş verilmiş Ekspert xidmətlərinin başa çatmasından dərhal sonra KfW, Məsləhətçi tərəfindən tərtib edilmiş bütün layihələrin, hesabatların, tədqiqatların nüsxələri ilə təmin ediləcəkdir. KfW yuxarıda göstərilən tədqiqatları qiymətləndirə bilər.

6.3. Tədqiqatın maliyyələşdirilməsi Benefisiara hazırlanmış layihənin maliyyələşməsi tələbini irəli sürmək hüququ vermir. Lakin Benefisiara Almaniya Federativ Respublikasının Maliyyə Əməkdaşlığı əsasında layihəni maliyyələşdirmək üçün seçim hüququ verəcəkdir.

Maddə 7

Məsləhətçi xidmətləri

7.1. Məsləhətçinin vəzifələri özündə ehtiva edəcəkdir:

- Problemin təhlilində
- Konsepsiyanın inkişaf etdirilməsində
- Özəl sektorun, təlimatçıların təlimi və təlim fəaliyyətinə nəzarət də daxil olmaqla, cəlb edilməsində
- Şəki rayonunda kənd təsərrüfatı torpaqlarında islahatlara dair məlumatların sistemli təftişi və qeydiyyatında
- Sistemli kadastr xəritəçəkməsi və daşınmaz əmlakın qeydiyyatı üçün hazırlıqda
- İlkin qeydiyyat prosesinin sadələşdirilməsində
- Kadastr xəritəçəkməsi üçün direktivlər və standartlarda
- Hədəf qruplarının araşdırması və təsirin təhlilində
- İcra Fazası üçün tələblərin təyin edilməsində
- Avadanlıqların çatdırılması və layihə vəsaitlərinin maliyyə idarəetməsində dəstəyin verilməsi.

7.2. KfW Ekspert xidmətlərinin nəticələrindən və bu maliyyə yardımı ilə maliyyələşən bütün əlaqədar sənədlərdən bütün zamanlarda və bütün ərazilərdə öz rəyi əsasında istifadə etmək və öyrənməkdə qeyri-məhdud hüquqa malik olacaqdır.

Maddə 8

Müxtəlif müddəalar

8.1. Benefisiar zəmanət verəcəkdir ki, maliyyələşmə və maliyyə yardımı məbləğlərinin tələb olunan ödəmələri ilə Ekspert xidmətlərinin icrası, Ekspert xidmətləri ilə bağlı hər hansı müqavilənin təqdim edilməsinə məsul olan şəxslər bu tapşırıqlarla bağlı qeyri-qanuni ödəmələri və ya digər mənfəətləri tələb etmir, mənimsəmir, təqdim etmir, vəd etmir və ya vəd qəbul etmir.

8.2. Əgər bu Müqavilənin müddəalarından hər hansı biri etibarsız olarsa, bütün digər müddəalar toxunulmamış qalacaqdır. Burdan meydana çıxan hər hansı boşluq bu Müqavilənin məqsədinə uyğun gələn müddəa ilə doldurulacaqdır.

8.3. Benefisiar bu Müqavilədən hər hansı tələbləri kiminsə adına təsbit edə, ötürə, girov qoya bilməz.

8.4. Bu Müqavilə Almaniya Federativ Respublikasının qanunu ilə tənzimlənəcəkdir. İcra edilmə yeri Frankfurt am Mayn şəhəridir.

8.5. KfW ilə Benefisiar arasında bu Müqavilə ilə müəyyən edilmiş hüquqi münasibətlərin müddəti vəsaitlərin son ödənişi həyata keçirildikdən altı il sonra başa çatır.

Maddə 9

Həvalə müqaviləsi

9.1. Benefisiar KfW-dan ekspert (Tender agenti) təyin etməyi xahiş edir və KfW-a səlahiyyət verir ki, onun adından Tender agenti ilə müqavilə bağlasın.

9.2. Tender agenti Benefisiarın adından 6.1.-ci maddənin b) bəndində şərtləndirilmiş Məsləhətçi seçimi üçün prosedurun həyata keçirilməsində Benefisiarı dəstəkləyəcəkdir.

Xüsusilə aşağıdakı prosedur razılaşdırılır:

(a) Tender agenti Məsləhətçi tərəfindən göstərilən xidmətlər üçün Benefisiar tərəfindən təqdim ediləcək texniki tapşırığa zəruri olduqda düzəlişlər edəcək və ya onun layihəsinin hazırlanmasını təmin edəcəkdir.

(b) Tender agenti Benefisiarın adından 6.1.-ci maddənin b) bəndində nəzərdə tutulmuş Məsləhətçi seçimi üçün proseduru həyata keçirəcəkdir və Benefisiara və KfW-a təsdiqlənməsi üçün aşağıdakı təklifləri təqdim edəcəkdir:

- İlkin seçim məlumatının layihəsi və maraqlanan Məsləhətçilər üçün nəzərdə tutulmuş hər hansı əlavə məlumat;

- İlkin seçim barədə qiymətləndirmə hesabatı və ilkin seçim mərhələsindən keçmiş məsləhətçi şirkətlərinin siyahısının layihəsi;

- Tender prosesi üçün layihə sənədləri;

- İddiaçıların diskvalifikasiyası səbəblərinin müəyyən edilməsi daxil olmaqla texniki təkliflərlə bağlı qiymətləndirmə hesabatı,

- Tələb olunduqda: direktivlərə əsaslanan tenderin ləğv edilməsi təklifi;

- Maliyyə təklifi üzrə qiymətləndirmə hesabatı ilə birlikdə podratın verilməsi təklifi;

- İkinci yeri tutmuş iddiaçı ilə hər hansı müqavilə danışıqlarına başlamazdan əvvəl: bu iddiaçı ilə müqavilə danışıqlarına başlanması üçün təklif; bu təklif birinci yeri tutmuş iddiaçı ilə danışıqların nə üçün uğursuzluğa düçar olma səbəblərini izah etməlidir;

- Seçilmiş Məsləhətçi tərəfindən təklif edilmiş işçi heyətinə hər hansı dəyişikliyin edilməsi ilə bağlı qərar verməkdən əvvəl: Məsləhətçinin təklifi, Məsləhətçinin yekun təklifinin yenidən qiymətləndirilməsi və bu təklif ilə bağlı əsaslandırılmış izahat;

- İşçi heyətin hər hansı dəyişikliyi haqqında göstəricilərlə birlikdə və texniki tapşırığa edilən hər hansı dəyişiklik göstərilməklə müqavilə üzrə danışıqlarının nəticəsi və müzakirə edilən məsləhətçi müqaviləsinin layihəsi;

(c) Bu təkliflərin təqdim edilməsindən sonrakı 2 həftə ərzində 9.2-ci maddənin (b) bəndinə əsasən Benefisiar öz rəy və təkliflərini Tender agentinə göndərəcəkdir. Bu müddətin başa çatmasından əvvəl bu qeydlərin ən azından rəy və təkliflərin Tender agentinə bu müddət ərzində bildirilməməsi, təqdim edilmiş təkliflərin Benefisiar tərəfindən təsdiqlənməsi kimi qəbul ediləcəkdir. Tender agenti Benefisiarı tender prosedurunun nəticələri barədə təxirə salmadan məlumatlandıracaqdır.

9.3. Benefisiar KfW-yə onun adından Məsləhətçi müqaviləsini imzalanması barədə səlahiyyət verir. Müqavilənin bağlanmasından sonra KfW Benefisiarı onun əsli ilə təmin edəcəkdir.

9.4. KfW Məsləhətçi, Tender agenti və onların agentləri tərəfindən tapşırıqların icrası zamanı göstərilən səhlənkarlıq üçün məsuliyyət daşımır.

İngilis dilində, iki nüsxədə hazırlanmışdır.

Frankfurt am Main,

_____2009
KfW
ADINDAN

(imza)

_____2009
AZƏRBAYCAN RESPUBLİKASININ
DAŞINMAZ ƏMLAKIN DÖVLƏT
REYESTRİ XİDMƏTİ ADINDAN

ARİF QARAŞOV
Xidmətinin rəisi

"Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinə Amerika Birləşmiş Ştatlarının Dövlət Departamenti tərəfindən federal qrant yardımının ayrılması barədə Saziş"i imzalamaq səlahiyyəti verilməsinə dair Azərbaycan Respublikası Nazirlər Kabinetinin Sərəncamı

1. "Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinə Amerika Birləşmiş Ştatlarının Dövlət Departamenti tərəfindən federal qrant yardımının ayrılması barədə Saziş"i imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi sədrinin müavini Əsgər Həsən oğlu Abdullayevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu sərəncamda

göstərilən Sazişi imzalamaq səlahiyyətinin Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi sədrinin müavini Əsgər Həsən oğlu Abdullayevə verilməsi barədə Amerika Birləşmiş Ştatlarının Dövlət Departamentinə müvafiq bildiriş göndərilsin.

3. Bu sərəncam imzalandığı gündən qüvvəyə minir.

A.RASİ-ZADƏ

Azərbaycan Respublikasının Baş naziri

Bakı şəhəri, 29 yanvar 2009-cu il

№ 17s

"Azərbaycan Respublikası və Asiya İnkişaf Bankı arasında Yol şəbəkəsinin İnkişafı Proqramı, Layihə 2-Gəncə dairəvi yolunun yenidənqurulması üzrə Kredit Sazişi (Adi Əməliyyatlar)" təsdiq edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Sərəncamı

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 11 dekabr tarixli 435s nömrəli sərəncamı ilə verilmiş səlahiyyətə əsasən 2008-ci il dekabrın 15-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası və Asiya İnkişaf Bankı arasında Yol şəbəkəsinin İnkişafı Proqramı, Layihə 2-Gəncə dairəvi yolunun yenidənqurulması üzrə Kredit Sazişi (Adi Əməliyyatlar)" təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyinə, Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə və Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə tapşırılsın ki, bu sərəncamın 1-ci bəndində göstərilən sazişin həyata keçirilməsi ilə əlaqədar lazımi tədbirlər görsünlər.

3. Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi "Dövlət zəmanəti ilə alınan Kreditlərə dair sazişlərin bağlanması qaydaları haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 13 fevral tarixli 368 nömrəli Fərmanının 1.15-ci bəndinin icrasını təmin etmək üçün kreditin istifadəsinə dair məlumatları ildə bir dəfədən az olmayaraq, zəruri hallarda tələb olunduqda və layihə tam başa çatdıqdan sonra yekun hesabatı Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi və Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırmaqla, Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin.

4. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu sərəncamın 1-ci bəndində göstərilən sazişin qüvvəyə minməsi üçün zəruri dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Asiya İnkişaf Bankına müvafiq bildiriş göndərsin.

5. Bu sərəncamın icrasına nəzarət Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyinə həvalə edilsin.

6. Bu sərəncam imzalandığı gündən qüvvəyə minir.

A. RASİ-ZADƏ

Azərbaycan Respublikasının Baş naziri

Bakı şəhəri, 29 yanvar 2009-cu il

№ 18s

"Azərbaycan Respublikası Hökuməti və Çin Xalq Respublikası Hökuməti arasında Texniki-İqtisadi Əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Sərəncamı

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 12 avqust tarixli 285s nömrəli sərəncamı ilə verilmiş səlahiyyətə əsasən 2008-ci il dekabrın 29-da imzalanmış "Azərbaycan Respublikası Hökuməti və Çin Xalq Respublikası Hökuməti arasında Texniki-İqtisadi Əməkdaşlıq haqqında Saziş" təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyinə, Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə, Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın və Azərbaycan Respublikasının Milli Bankına tövsiyə edilsin ki, bu sərəncamın 1-ci bəndində göstərilən Sazişin həyata Keçirilməsi ilə əlaqədar lazımi tədbirlər görsünlər.

3. Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyinə tapşırılsın ki, Çin Xalq Respublikası Hökuməti tərəfindən ayrılmış qrantın istifadəsinə dair məlumatı ildə bir dəfədən az olmayaraq, zəruri hallarda tələb olunduqda və layihə tam başa çatdıqdan sonra yekun hesabatı Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin.

4. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu sərəncamın 1-ci bəndində göstərilən sənədin qüvvəyə minməsi üçün zəruri dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Çin Tərəfinə müvafiq bildiriş göndərsin.

5. Bu sərəncamın icrasına nəzarət Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyinə həvalə edilsin.

6. Bu sərəncam imzalandığı gündən qüvvəyə minir.

A. RASİ-ZADƏ

Azərbaycan Respublikasının Baş naziri

Bakı şəhəri, 29 yanvar 2009-cu il

№ 19s

Azərbaycan Respublikası Hökuməti və Çin Xalq Respublikası Hökuməti arasında Texniki-İqtisadi Əməkdaşlıq haqqında Saziş

Azərbaycan Respublikası Hökuməti və Çin Xalq Respublikası Hökuməti (bundan sonra Tərəflər adlandırılan), iki ölkə arasında dostluq münasibətlərinin və texniki-iqtisadi əməkdaşlığın gələcək inkişafı məqsədilə aşağıdakılar barədə razılığa gəldilər.

Maddə 1

Azərbaycan Respublikasının iqtisadi inkişafının ehtiyacını nəzərə alaraq Çin Xalq Respublikası Hökuməti Azərbaycan Respublikası Hökumətinə on beş milyon (15 000 000) Çin yuanı məbləğində qrant təqdim edir.

Maddə 2

Yuxarıda adı çəkilən qrant iki ölkənin Hökumətləri tərəfindən razılaşdırılan layihənin həyata keçirilməsi üçün təyin olunmuşdur. Müvafiq konkret məsələlər Tərəflər arasında əlavə olaraq razılaşdırılacaqdır.

Maddə 3

Hazırkı Saziş üzrə hesabların aparılması qaydası əlavə olaraq Azərbaycan Respublikası Hökumətinin təyin etdiyi bankla və Çinin İnkişaf Bankı arasında razılaşdırılacaq və imzalanacaq.

Maddə 4

Bu Saziş onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların həyata keçirilməsi barədə Azərbaycan tərəfinin diplomatik kanallar vasitəsilə göndərdiyi yazılı bildirişin alındığı tarixdən qüvvəyə minəcəkdir və Tərəflərin bu Sazişdən irəli gələn öhdəlikləri tam yerinə yetirməsinə qədər qüvvədə qalacaqdır.

Bu Saziş Bakı şəhərində 2008-ci il 29 dekabr tarixində hər biri Azərbaycan, çin və rus dillərində olmaqla iki əsl nüsxədə imzalanmışdır. Bütün mətnlər eyni qüvvəyə malikdir. Fikir ayrılığı yarandığı təqdirdə rus dilindəki mətnə üstünlük veriləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	ÇİN XALQ RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN
(imza)	*(imza)*

"Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi və Belarus Respublikasının İnformasiya Nazirliyi arasında nəşriyyat və informasiya sahəsində əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi və Belarus Respublikasının İnformasiya Nazirliyi arasında nəşriyyat və informasiya sahəsində əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının mədəniyyət və turizm naziri Əbülfəs Mürsəl oğlu Qarayevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının mədəniyyət və turizm naziri Əbülfəs Mürsəl oğlu Qarayevə verilməsi barədə Belarus Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 6 fevral 2009-cu il

№ 122

Küveyt Dövlətinin Əmiri şeyx Sabah əl-Əhməd əl-Cabir əs-Sabahın "Heydər Əliyev" ordeni ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Küveyt Dövləti ilə Azərbaycan Respublikası arasında dostluq və əməkdaşlıq əlaqələrinin inkişaf etdirilməsindəki xüsusi xidmətlərinə görə Küveyt Dövlətinin Əmiri şeyx Sabah əl-Əhməd əl-Cabir əs-Sabah "Heydər Əliyev" ordeni ilə təltif edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 9 fevral 2009-cu il

№ 136

Azərbaycan Respublikası və Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı arasında Minilliyin İnkişafı Məqsədlərinin Karbon Fonduna dair Anlaşma Memorandumunu imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. Azərbaycan Respublikası və Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı arasında Minilliyin İnkişafı Məqsədlərinin Karbon Fonduna dair Anlaşma Memorandumunu imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri Hüseynqulu Seyid oğlu Bağırova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Anlaşma Memorandumunu imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri Hüseynqulu Seyid oğlu Bağırova verilməsi barədə Birləşmiş Millətlər Təşkilatına müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 9 fevral 2009-cu il

№ 137

"Azərbaycan Respublikası Hökuməti və Küveyt Dövləti Hökuməti arasında ticarət Sazişi"ni Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti və Küveyt Dövləti Hökuməti arasında ticarət Sazişi"ni Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri Şahin Abdulla oğlu Mustafayevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri Şahin Abdulla oğlu Mustafayevə verilməsi barədə Küveyt Dövləti Hökumətinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 9 fevral 2009-cu il

№ 138

"Azərbaycan Respublikası Hökuməti və Küveyt Dövləti Hökuməti arasında sərmayələrin təşviqi və qarşılıqlı qorunması haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti və Küveyt Dövləti Hökuməti arasında sərmayələrin təşviqi və qarşılıqlı qorunması haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri Şahin Abdulla oğlu Mustafayevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri Şahin Abdulla oğlu Mustafayevə verilməsi barədə Küveyt Dövləti Hökumətinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 9 fevral 2009-cu il

№ 139

"Azərbaycan Respublikası Hökuməti və Küveyt Dövləti Hökuməti arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti və Küveyt Dövləti Hökuməti arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının vergilər naziri Fazil Əsəd oğlu Məmmədova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının vergilər naziri Fazil Əsəd oğlu Məmmədova verilməsi barədə Küveyt Dövləti Hökumətinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 9 fevral 2009-cu il

№ 140

"Azərbaycan Respublikası Hökuməti ilə Küveyt Dövləti Hökuməti arasında turizm sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti ilə Küveyt Dövləti Hökuməti arasında turizm sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının mədəniyyət və turizm naziri Əbülfəs Mürsəl oğlu Qarayevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının mədəniyyət və turizm naziri Əbülfəs Mürsəl oğlu Qarayevə verilməsi barədə Küveyt Dövləti Hökumətinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 9 fevral 2009-cu il

№ 141

"Azərbaycan Respublikası Hökuməti və Yaponiya Hökuməti arasında "Kiçik şəhərlərdə Su Təchizatı və Kanalizasiya Layihəsi"nə dair Kredit Sazişi üzrə razılığın təsdiq edilməsi barədə Nota"nı Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti və Yaponiya Hökuməti arasında "Kiçik şəhərlərdə Su Təchizatı və Kanalizasiya Layihəsi"nə dair Kredit Sazişi üzrə razılığın təsdiq edilməsi barədə Nota"nı Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikası Baş nazirinin müavini Abid Qoca oğlu Şərifova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Notanı Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikası Baş nazirinin müavini Abid Qoca oğlu Şərifova verilməsi barədə Yaponiya Hökumətinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 9 fevral 2009-cu il

№ 143

Azərbaycan Respublikası və Türkmənistan arasında 2008-ci il noyabrın 28-də Aşqabad şəhərində imzalanmış sənədlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. Azərbaycan Respublikası və Türkmənistan arasında 2008-ci il noyabrın 28-də Aşqabad şəhərində imzalanmış aşağıdakı sənədlər təsdiq edilsin:

1.1. Azərbaycan Respublikası Hökuməti və Türkmənistan Hökuməti arasında iqtisadi əməkdaşlıq üzrə Azərbaycan-Türkmənistan Hökumətlərarası Komissiyası haqqında Saziş;

1.2. Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında Bakı (Azərbaycan Respublikası) və Türkmənbaşı (Türkmənistan) limanları vasitəsilə birbaşa beynəlxalq dəmir yolu - bərə əlaqəsinin təşkili haqqında Saziş;

1.3. Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə Türkmənistanın Təhsil Nazirliyi arasında təhsil sahəsində əməkdaşlıq haqqında Saziş.

2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bu Sərəncamın 1.1-1.3-cü bəndlərində göstərilən sənədlərin həyata keçirilməsi üçün zəruri tədbirlər görsün.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1.1-1.3-cü bəndlərində göstərilən sənədlərin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Türkmənistan tərəfini xəbərdar etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 13 fevral 2009-cu il

№ 156

Azərbaycan Respublikası Hökuməti və Türkmənistan Hökuməti arasında iqtisadi əməkdaşlıq üzrə Azərbaycan - Türkmənistan Hökumətlərarası Komissiyası haqqında Saziş

Bundan sonra "Tərəflər" adlandırılan Azərbaycan Respublikası Hökuməti və Türkmənistan Hökuməti,

iki dövlət arasında dostluq münasibətlərinin daha da inkişaf etdirilməsi məqsədilə,

beynəlxalq hüququn prinsipləri, bərabərlik və qarşılıqlı fayda əsasında ticarət-iqtisadi, elmi-texniki və humanitar əməkdaşlığın genişləndirilməsinə və möhkəmləndirilməsinə səy göstərərək,

Azərbaycan və Türkmənistan arasında iqtisadi sahədə əməkdaşlığın səmərəliliyinin artırılması zərurətini rəhbər tutaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər iqtisadi əməkdaşlıq üzrə Azərbaycan - Türkmənistan Hökumətlərarası Komissiyasını (bundan sonra "Komissiya" adlandırılır) yaradırlar.

Maddə 2

Komissiyanın əsas vəzifələri aşağıdakılardır:

Azərbaycan Respublikası və Türkmənistan arasında qarşılıqlı faydalı iqtisadi əməkdaşlığın inkişafına və möhkəmləndirilməsinə yardım göstərilməsi;

Azərbaycan - Türkmənistan iqtisadi əməkdaşlığının vəziyyətinin təhlili, iki ölkənin iqtisadiyyatlarının müxtəlif sahələrində daha perspektivli inkişaf istiqamətlərinin işlənib hazırlanması və həyata keçirilməsi;

iki dövlət arasında bağlanmış beynəlxalq müqavilələrin icrası, həmçinin Komissiyanın iclaslarında qəbul edilmiş qərarların yerinə yetirilməsi üzərində nəzarətin həyata keçirilməsi;

iqtisadi əməkdaşlığın müxtəlif istiqamətləri üzrə ikitərəfli beynəlxalq müqavilə layihələrinin hazırlanmasında Tərəflərin dövlətlərinin nazirlikləri, idarələri və təşkilatlarının fəaliyyətinin əlaqələndirilməsi və həmin müqavilə layihələrinin hökumətlərin müzakirəsinə çıxarılması;

xarici kapitalın və texnologiyanın cəlb edilməsi, maliyyə-sənaye qruplarının, birgə müəssisələrin yaradılması, birbaşa istehsalat əlaqələrinin qurulması, həmçinin onların həyata keçirilməsi üzrə qarşılıqlı fəaliyyətin müəyyən olunması da daxil olmaqla Azərbaycan - Türkmənistan iqtisadi əməkdaşlıq proqramlarının işlənib hazırlanması və razılaşdırılması.

Maddə 3

Komissiya iki milli hissədən - Azərbaycan və Türkmənistan milli hissəsindən ibarətdir. Hər bir Tərəf öz daxili qanunvericiliyinə uyğun olaraq, Komissiyanın müvafiq milli hissəsinin sədrini (bundan sonra "həmsədr"), məsul katibini və Komissiyanın üzvlərini təyin edir.

Komissiya zərurət olduqda ikitərəfli iqtisadi əməkdaşlığın müxtəlif istiqamətləri üzrə daimi və ya müvəqqəti altkomissiyalar və işçi qruplar (bundan sonra "işçi orqanlar") yarada bilər. Göstərilən işçi orqanlar öz fəaliyyətini Komissiyanın rəhbərliyi altında həyata keçirir və ona hesabat verir.

Maddə 4

Komissiyanın iclasları və həmsədrlərin görüşləri zərurət olduqda, lakin ildə bir dəfədən az olmayaraq növbə ilə Azərbaycan Respublikasında və Türkmənistanda keçirilir. İclasların və görüşlərin keçirilməsi vaxtı onların keçirilməsinə ən azı iki ay qalmış diplomatik kanallarla razılaşdırılır. Komissiyanın növbəti iclasının gündəliyi həmin iclasın keçirilməsinə ən azı bir ay qalmış Tərəflər arasında ilkin olaraq razılaşdırılır. Komissiyanın iclaslarında həmsədrlərin qarşılıqlı razılığı ilə gündəliyə daxil olunmayan məsələlər də müzakirə oluna bilər.

Komissiyanın, həmsədrlərin, işçi orqanların növbədənkənar iclasları Tərəflərin qarşılıqlı razılığı ilə keçirilir.

Ərazisində iclas və ya görüş keçirilən dövlətin Komissiyasının həmsədri iclasa və ya

görüşə sədrlik edir.

Hər bir Tərəf Komissiyanın iclaslarına hazırlıq və iclaslarda iştirak məqsədilə ekspert və mütəxəssisləri cəlb edə bilər.

Maddə 5

Komissiyanın iclaslarının informasiya təminatı, materialların və sənədlərin hazırlanması, iclasların protokollarının rəsmiləşdirilməsi, işçi orqanların fəaliyyətinin əlaqələndirilməsi, qəbul edilmiş qərarların icrası üzərində nəzarət, həmçinin Komissiyanın işinin təmin olunması üzrə təşkilati xarakterli digər vəzifələr Komissiyanın milli hissələrinin məsul katiblərinə həvalə edilir.

Komissiyanın iclasları və sənədlərin tərtib edilməsi rus dilində aparılır.

Komissiyanın məsul katibləri öz vəzifələrinin icrası məqsədilə öz aralarında işçi əlaqələr. saxlayırlar və zərurət olduqda Komissiyanın iclasları arasında görüşlər keçirirlər.

Maddə 6

Komissiyanın üzvlərinin və nümayəndə heyətlərinin Komissiyanın iclaslarında, həmsədrlərin görüşlərində, işçi orqanların iclaslarında iştirakı ilə əlaqədar xərclər göndərən Tərəfin hesabına maliyyələşdirilir. Qarşılıqlı əsasda qəbul edən Tərəf göndərən Tərəfin nümayəndə heyətinin yerli nəqliyyat, yerləşdirmə, yemək və qalma xərclərini ödəyə bilər.

Komissiyanın iclaslarının, həmsədrlərin görüşlərinin, işçi orqanların iclaslarının keçirilməsi ilə bağlı xərclər ərazisində tədbirin keçirildiyi Tərəfin dövlətinin vəsaiti hesabına maliyyələşdirilir.

Nümayəndə heyətinin sayı həmsədrlər tərəfindən müəyyənləşdirilir və bir qayda olaraq hər bir Tərəfdən 20 (iyirmi) nəfərdən, həmsədrlərin görüşləri isə hər Tərəfdən 10 nəfərdən çox olmamalıdır.

Maddə 7

Hazırkı Sazişin müddəalarının tətbiqi və ya təfsiri zamanı yarana biləcək mübahisələr Tərəflər arasında məsləhətləşmələr və danışıqlar yolu ilə həll ediləcəkdir.

Maddə 8

Tərəflərin qarşılıqlı razılığı əsasında hazırkı Sazişə onun ayrılmaz hissəsi olan və 9-cu maddədə müəyyən olunmuş qaydada qüvvəyə minən ayrıca protokollarla rəsmiləşdirilən əlavələr və dəyişikliklər edilə bilər.

Maddə 9

Bu Saziş beş il müddətinə bağlanılır və onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Tərəflərin sonuncu yazılı bildirişinin diplomatik kanallar vasitəsilə alındığı tarixdən qüvvəyə minir. Tərəflərdən biri bu Sazişin müddətinin bitməsinə ən azı altı ay qalmış onu ləğv etmək niyyəti barədə yazılı şəkildə diplomatik kanallar vasitəsilə digər Tərəfə məlumat verməzsə, onun qüvvəsi avtomatik olaraq növbəti beşillik müddətlərə uzadılacaqdır.

Bu Saziş Aşqabad şəhərində 28 noyabr 2008-ci il tarixində iki nüsxədə, hər biri Azərbaycan, türkmən və rus dillərində imzalanmışdır, bütün mətnlər eyni hüquqi qüvvəyə malikdir. Bu Sazişin təfsirində fikir ayrılığı olduqda rus dilindəki mətnə istinad ediləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	TÜRKMƏNİSTAN HÖKUMƏTİ ADINDAN
YAQUB EYYUBOV	*XIDIR SAPARALIYEV*
Baş nazirinin birinci müavini	*Nazirlər Kabineti sədrinin müavini*

Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında Bakı (Azərbaycan Respublikası) və Türkmənbaşı (Türkmənistan) limanları vasitəsilə birbaşa beynəlxalq dəmir yolu-bərə əlaqəsinin təşkili haqqında Saziş

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikası Hökuməti və Türkmənistan Hökuməti,

qarşılıqlı maraq və hörmətə əsaslanaraq,

Azərbaycan Respublikası və Türkmənistan limanları arasında dəmir yolu-bərə əlaqəsi, qarışıq (kombinə edilmiş) daşımaların və nəqliyyat sahəsində əməkdaşlığın daha da inkişaf etdirilməsinin vacibliyini qeyd edərək,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflərin səlahiyyətli orqanları Bakı (Azərbaycan Respublikası) və Türkmənbaşı (Türkmənistan) limanları vasitəsilə müntəzəm birbaşa beynəlxalq dəmiryolu-bərə əlaqəsinin təşkil edilməsi sahəsində əməkdaşlığı həyata keçirirlər.

Maddə 2

Hazırkı Sazişin məqsədləri üçün Səlahiyyətli orqanlar aşağıdakılardır: Azərbaycan Tərəfindən - Azərbaycan Respublikası Nəqliyyat Nazirliyi, Azərbaycan Respublikası Dövlət Dəniz Administrasiyası, Azərbaycan Dövlət Dəmir Yolu, Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi; Türkmənistan Tərəfindən - Türkmənistan Dəmir Yolu Nəqliyyatı Nazirliyi, "Türkməndənizderyayolları" İdarəsi (Türkmənistan Dəniz və Çay Gəmiçiliyi).

Maddə 3

Hazırkı Sazişin məqsədləri üçün aşağıdakı anlayışlar:

"dəniz daşıyıcısı" - ərazisində yaradıldığı və qeydiyyatdan keçdiyi Tərəfin dövlətinin qanunvericiliyinə uyğun olaraq yaradılmış və qeydiyyatdan keçmiş və yaradıldığı və qeydiyyatdan keçdiyi Tərəfin dövlətinin qanunvericiliyinə uyğun olaraq dəniz daşımaları xidmətini göstərmək hüququna malik olan hüquqi və ya fiziki şəxs;

"Dəmiryol daşıyıcısı" - ərazisində yaradıldığı və qeydiyyatdan keçdiyi Tərəfin dövlətinin qanunvericiliyinə uyğun olaraq yaradılmış və qeydiyyatdan keçmiş və yaradıldığı və qeydiyyatdan keçdiyi Tərəfin dövlətinin qanunvericiliyinə uyğun olaraq dəmir yolu daşımaları üzrə xidmətlər göstərmək hüququna malik olan hüquqi və ya fiziki şəxs;

"Dəmir yolu bərələrinin və bərə yanalma körpülərinin operatorları" - relsli dəmir yollarına malik və dəmir yolu hərəkət heyətinin yüklü və ya yüksüz vəziyyətdə daşınması üçün təyin edilmiş xüsusi gəmini istismar edən, eləcə də yaradıldığı və qeydiyyatdan keçdiyi Tərəfin dövlətinin qanunvericiliyinə uyğun olan tapşırıq əsasında mülkiyyət, icarə hüququ ilə bərə yanalma körpülərinin istismarını həyata keçirən hüquqi və ya fiziki şəxslər mənasını verir.

Maddə 4

Yüklərin Bakı (Azərbaycan Respublikası) və Türkmənbaşı (Türkmənistan) limanları vasitəsilə müntəzəm birbaşa beynəlxalq dəmir yolu-bərə əlaqəsi ilə daşınması Dəmir yolu ilə beynəlxalq yük daşınması haqqında Sazişə (DBYS) və DBYS qaiməsindən istifadə edilməklə həyata keçirilir.

Maddə 5

Bakı (Azərbaycan Respublikası) və Türkmənbaşı (Türkmənistan) limanları vasitəsi ilə beynəlxalq dəmir yolu-bərə əlaqələrində yüklərin daşınmasının təşkili, yük vaqonlarının və konteynerlərin istismarı, nömrəli uçotu və onlardan istifadəyə görə hesablaşmalar haqqında Saziş"lə tənzimlənən dəmir yolu və dəniz daşıyıcılarının qarşılıqlı fəaliyyət qaydası Tərəflərin səlahiyyətli orqanları tərəfindən təsdiq ediləcəkdir.

Maddə 6

Tərəflərin səlahiyyətli orqanları Bakı (Azərbaycan Respublikası) və Türkmənbaşı (Türkmənistan) limanları vasitəsilə həyata keçirilən birbaşa beynəlxalq dəmir yolu - bərə daşımalarının səmərəli yerinə yetirilməsinə istiqamətlənmiş razılaşdırılmış tarif siyasətinin həyata keçirilməsinə yardım edəcəklər.

Maddə 7

Tərəflərin səlahiyyətli orqanları öz dövlətlərinin ərazisində Bakı (Azərbaycan Respublikası) və Türkmənbaşı (Türkmənistan) limanları vasitəsilə birbaşa beynəlxalq dəmir yolu-bərə daşımalarına qarşı maneələrin yaranması haqqında məlumatla dərhal bir-birlərini təmin edir və zərurət olduqda, bu maneələrin aradan qaldırılması üçün birgə fəaliyyət göstərirlər.

Maddə 8

Bakı (Azərbaycan Respublikası) və Türkmənbaşı (Türkmənistan) limanları vasitəsilə birbaşa beynəlxalq dəmir yolu-bərə nəqliyyatının fasiləsiz və səmərəli fəaliyyətini təmin etmək məqsədilə, Tərəflərin səlahiyyətli orqanları Tərəflərdən birinin təşəbbüsü ilə görüşlər və məsləhətləşmələr keçirirlər.

Maddə 9

Tərəflərdən birinin dəmir yolu və dəniz yük daşımaları sahəsinə, yük daşımaları şərtlərinə və vergilərə aid dövlət qanunvericiliyində hazırkı Saziş çərçivəsində həyata keçirilən daşımalara təsir edə biləcək dəyişikliklər edildiyi təqdirdə, dövlətinin qanunvericiliyində bu cür dəyişikliklər baş verən Tərəf təxirə salınmadan digər Tərəfi bu barədə məlumatlandırmalıdır.

Maddə 10

Dəmir yolu bərələrinin və bərələrin yanalma körpülərinin operatorları müstəqil şəkildə onları istismar edirlər və bununla bağlı bütün xərcləri özləri çəkirlər.

Tərəflərin dəmir yolu və dəniz daşıyıcıları Tərəflərdən hər birinin dövlətinin qanunvericiliyinə uyğun olaraq, digər Tərəfin dövlətinin ərazisində öz nümayəndəliklərini yaratmaq və nümayəndələrini təyin etmək hüququna malikdirlər.

Maddə 11

Tərəflərin qarşılıqlı razılığına əsasən hazırkı Sazişə onun ayrılmaz tərkib hissəsi olan protokollarla rəsmiləşdirilən və hazırkı sazişin 14-cü maddəsində nəzərdə tutulan qaydada qüvvəyə minən dəyişiklik və əlavələr edilə bilər.

Maddə 12

Tərəflər arasında hazırkı Sazişin təfsiri və həyata keçirilməsi ilə bağlı yaranmış mübahisələr və fikir ayrılıqları, Tərəflər arasında aparılan məsləhətləşmələr və danışıqlar yolu ilə həll olunur.

Maddə 13

Hazırkı Saziş qüvvəyə mindikdən sonra, üçüncü tərəflərin də qoşulması üçün açıqdır. Üçüncü tərəf diplomatik kanallar vasitəsi ilə qoşulmaq niyyətində olduğu barədə hazırkı Sazişin hər bir Tərəfini məlumatlandırmalıdır. Hər bir Tərəfin qoşulmaya razılığı olduğu zaman, üçüncü tərəf və Tərəflər hazırkı Sazişin ayrılmaz tərkib hissəsi olan qoşulma haqqında protokolu bağlayırlar.

Maddə 14

Hazırkı Saziş Tərəflərin zəruri dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə sonuncu yazılı bildirişin diplomatik kanallar vasitəsilə alındığı tarixdən 30 gün sonra qüvvəyə minir.

Hazırkı Saziş qeyri-müəyyən müddətə bağlanılır və Tərəflərdən birinin onun fəaliyyətini dayandırmaq niyyəti barədə digər Tərəfə diplomatik kanallar vasitəsi ilə yazılı bildiriş verdiyi tarixdən 6 ay keçənədək qüvvədə qalacaqdır.

Hazırkı Saziş Aşqabad şəhərində 28 noyabr 2008-ci il tarixində, iki əsl nüsxədə hər biri Azərbaycan, türkmən və rus dillərində imzalanmışdır, bütün mətnlər bərabər autentikdir. Hazırkı Sazişin müddəalarının təfsiri ilə bağlı fikir ayrılığı olduğu təqdirdə, rus dilində olan mətn əsas götürüləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN

ZİYA MƏMMƏDOV
Nəqliyyat naziri

TÜRKMƏNİSTAN HÖKUMƏTİ ADINDAN

DƏRYAQULU MƏHƏMMƏQULİYEV
Dəmir yolu nəqliyyatı naziri

Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə Türkmənistanın Təhsil Nazirliyi arasında təhsil sahəsində əməkdaşlıq haqqında Saziş

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Türkmənistanın Təhsil Nazirliyi,

Azərbaycan Respublikası və Türkmənistan arasında təhsil sahəsində əməkdaşlığın möhkəmləndirilməsinə mühüm əhəmiyyət verərək,

Tərəflərin təhsil sistemlərinin bərabərhüquqluluq, sərbəstlik və bütövlülük prinsipləri əsasında qarşılıqlı faydalı əməkdaşlığın daha da möhkəmləndirilməsi və inkişaf etdirilməsinə səy göstərərək,

aşağıdakılar haqqında razılığa gəldilər:

Maddə 1

Tərəflər hər iki dövlətin universitetləri və digər ali təhsil müəssisələri (institutları) arasında birbaşa əlaqələrin qurulmasına şərait yaradacaqlar.

Maddə 2

Tərəflər razılaşdırılmış sahələrdə birgə elmi tədqiqatların aparılmasına şərait yaradacaq, elmi konfrans və simpoziumlarda iştirak etmək üçün hər iki Tərəfin mütəxəssislərini dəvət edəcək, həmçinin hər iki dövlətin təhsil sahəsindəki qabaqcıl təcrübəni öyrənmək məqsədilə mütəxəssisləri dəvət edəcəklər.

Maddə 3

Tərəflər elmi məcmuələr, metodik vəsaitlər və dövri mətbuat mübadiləsi aparacaq, dövlətlərinin alimlərinin elmi əsərlərinin qarşı Tərəfin elmi məcmuələrində çap olunmasına şərait yaradacaqlar.

Maddə 4

Tərəflərin təhsil müəssisələri tərəfindən verilən təhsil sənədlərinin qarşılıqlı tanınmasının mümkünlüyünün baxılması məqsədilə, Tərəflər təhsil sahəsində normativ-hüquqi aktlar haqqında məlumat mübadiləsini həyata keçirəcəklər.

Maddə 5

Təhsil sisteminin inkişafı və təkmilləşdirilməsi məsələlərini öyrənmək və qabaqcıl təcrübə mübadiləsinin aparılması məqsədilə Tərəflər nazirlik, təhsili idarəetmə orqanları və tədris müəssisələri işçiləri səviyyəsində nümayəndə heyətlərinin mübadiləsini apəracaqlar.

Maddə 6

Tərəflər humanitar sahədə əməkdaşlığa xüsusi diqqət yetirərək, yaradıcılıq müsabiqələri, idman yarışlarının təşkilinə və ali məktəblərin incəsənət kollektivlərinin mübadiləsinə yardım edəcəklər.

Maddə 7

Tərəflər, bir Tərəfin dövlətinin vətəndaşlarının digər Tərəfin dövlətinin ali təhsil müəssisələrində təhsil alması üçün təqaüdlərin ayrılması məsələsinə ilbəil baxılmasına dair razılığa gəldilər.

Bununla belə, Tərəflər təhsilin aparılacağı ixtisasların siyahısını razılaşdıracaqlar.

Maddə 8

Tərəflərin yazılı razılığı əsasən hazırkı Sazişə, onun ayrılmaz hissəsi olan və 10-cu maddəsinə uyğun olaraq qüvvəyə minən ayrıca protokollarla rəsmiləşdirilən əlavə və dəyişikliklər edilə bilər.

Maddə 9

Bu Sazişin həyata keçirilməsi zamanı yarana bilən ziddiyyətlər danışıqlar və məsləhətləşmələr yolu ilə həll olunacaqdır.

Maddə 10

Bu Saziş beş il müddətinə bağlanılır və onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Tərəflərin sonuncu yazılı bildirişinin diplomatik kanallar vasitəsilə alındığı tarixdən qüvvəyə minir. Tərəflərdən biri bu Sazişin müddətinin bitməsinə ən azı altı ay qalmış onu ləğv etmək niyyəti barədə yazılı şəkildə diplomatik kanallar vasitəsilə digər Tərəfə məlumat verməzsə, onun qüvvəsi avtomatik olaraq növbəti beş illik müddətlərə uzadılacaqdır.

Bu Saziş Aşqabad şəhərində 28 noyabr 2008-ci ildə iki əsl nüsxədə, hər biri Azərbaycan, türkmən və rus dillərində imzalanmışdır, bütün mətnlər bərabər autentikdir. Bu Sazişin müddəalarının təfsirində fikir ayrılığı olduqda ingilis dilindəki mətnə istinad ediləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	TÜRKMƏNİSTAN HÖKUMƏTİ ADINDAN
ELMAR MƏMMƏDYAROV	*MƏƏMMƏDGƏLDİ ANNAAMANOV*
Xarici işlər naziri	*Təhsil naziri*

Birləşmiş Millətlər Təşkilatının "İqtisadi, sosial və mədəni hüquqlar haqqında" Beynəlxalq Paktına uyğun olaraq Azərbaycan Respublikasının qəbul etdiyi öhdəliklərin yerinə yetirilməsi ilə bağlı üçüncü dövri məruzənin hazırlanması və təqdim olunması barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Birləşmiş Millətlər Təşkilatının "İqtisadi, sosial və mədəni hüquqlar haqqında" Beynəlxalq Paktına Azərbaycan Respublikasının qoşulduğunu nəzərə alaraq və həmin Paktın müddəalarına uyğun olaraq Azərbaycan Respublikasının öz öhdəliklərini yerinə yetirməsi ilə bağlı həyata keçirdiyi tədbirlər barədə üçüncü dövri məruzənin hazırlanmasını və Birləşmiş Millətlər Təşkilatının İqtisadi, sosial və mədəni hüquqlar Komitəsinə təqdim olunmasını təmin etmək məqsədilə qərara alıram:

1. Birləşmiş Millətlər Təşkilatının "İqtisadi, sosial və mədəni hüquqlar haqqında" Beynəlxalq Paktına uyğun olaraq Azərbaycan Respublikasının qəbul etdiyi öhdəliklərin yerinə yetirilməsi ilə bağlı həyata keçirdiyi tədbirlər barədə üçüncü dövri məruzənin hazırlanması üçün aşağıdakı tərkibdə işçi qrup yaradılsın:

İşçi qrupun rəhbəri

Xələf Xələfov - Azərbaycan Respublikası xarici işlər nazirinin müavini

İşçi qrupun üzvləri

İlqar Fəti-zadə - Azərbaycan Respublikası maliyyə nazirinin birinci müavini
Oruc Zalov - Azərbaycan Respublikası daxili işlər nazirinin müavini
Toğrul Musayev - Azərbaycan Respublikası ədliyyə nazirinin müavini
Mikayıl Cabbarov - Azərbaycan Respublikası iqtisadi inkişaf nazirinin müavini
Natiq Məmmədov - Azərbaycan Respublikası əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini
Ədalət Vəliyev - Azərbaycan Respublikası mədəniyyət və turizm nazirinin müavini
Elsevər Ağayev - Azərbaycan Respublikası səhiyyə nazirinin müavini
Firdovsi Əliyev - Azərbaycan Respublikası ekologiya və təbii sərvətlər nazirinin müavini
Elmar Qasımov - Azərbaycan Respublikası təhsil nazirinin müavini
İntiqam Babayev - Azərbaycan Respublikası gənclər və idman nazirinin müavini
Sədaqət Qəhrəmanova - Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədr müavini
Həmid Bağırov - Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin sədr müavini
Sahib Rəhimov - Azərbaycan Respublikasının Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədr müavini
Azad Nağıyev - Azərbaycan Respublikası Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin sədr müavini
Zakir Babayev - Azərbaycan Respublikası Dövlət Sosial Müdafiə Fondunun sədr müavini
İlyas Əliyev - Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası sədrinin birinci müavini
Kamran İmanov - Azərbaycan Müəllif Hüquqları Agentliyinin sədri
Zaur Əliyev - Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Aparatının sektor müdiri

2. İşçi qrupa tapşırılsın ki, dörd ay müddətində bu sərəncamın birinci bəndində göstərilən məruzənin layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu sərəncamın birinci bəndində göstərilən üçüncü dövri məruzənin hazırlanıb baxıldıqdan sonra Birləşmiş Millətlər Təşkilatının İqtisadi, sosial və mədəni hüquqlar Komitəsinə təqdim olunmasını təmin etsin.

4. Bu sərəncam imzalandığı gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 13 fevral 2009-cu il

№ 157

"Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi və Koreya Respublikasının Ərzaq, Kənd Təsərrüfatı, Meşəçilik və Balıqçılıq Nazirliyi arasında kənd təsərrüfatı sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi və Koreya Respublikasının Ərzaq, Kənd Təsərrüfatı, Meşəçilik və Balıqçılıq Nazirliyi arasında kənd təsərrüfatı sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının kənd təsərrüfatı naziri İsmət Dursun oğlu Abasova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Memorandumu imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının kənd təsərrüfatı naziri İsmət Dursun oğlu Abasova verilməsi barədə Koreya Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 13 fevral 2009-cu il

№ 158

"Azərbaycan Respublikası Hökuməti və Yunanıstan Respublikası Hökuməti arasında informasiya və kommunikasiya texnologiyaları sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti və Yunanıstan Respublikası Hökuməti arasında informasiya və kommunikasiya texnologiyaları sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının rabitə və informasiya texnologiyaları naziri Əli Məmməd oğlu Abbasova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının rabitə və informasiya texnologiyaları naziri Əli Məmməd oğlu Abbasova verilməsi barədə Yunanıstan Respublikası Hökumətinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 13 fevral 2009-cu il

№ 159

"Azərbaycan Respublikası Sənaye və Energetika Nazirliyi və Yunanıstan Respublikası İnkişaf Nazirliyi arasında bərpa olunan enerji mənbələri və enerji səmərəliliyi sahəsində Anlaşma Memorandumu"nu imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Sənaye və Energetika Nazirliyi və Yunanıstan Respublikası İnkişaf Nazirliyi arasında bərpa olunan enerji mənbələri və enerji səmərəliliyi sahəsində Anlaşma Memorandumu"nu imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının sənaye və energetika naziri Natiq Ağaəmi oğlu Əliyevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Memorandumu imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının sənaye və energetika naziri Natiq Ağaəmi oğlu Əliyevə verilməsi barədə Yunanıstan Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 13 fevral 2009-cu il

№ 160

"Azərbaycan Respublikası Hökuməti və Yunanıstan Respublikası Hökuməti arasında hava əlaqəsi haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti və Yunanıstan Respublikası Hökuməti arasında hava əlaqəsi haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin prezidenti Cahangir Cəlal oğlu Əsgərova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin sədri Cahangir Cəlal oğlu Əsgərova verilməsi barədə Yunanıstan Respublikası Hökumətinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 13 fevral 2009-cu il

№ 161

Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və sərəncamlarında dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı

1. Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və sərəncamlarında aşağıdakı dəyişikliklər edilsin:

1.1. "Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Sirrinin Mühafizəsi üzrə İdarələrarası Komissiyanın tərkibində dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 15 yanvar tarixli 639 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002-ci il, №1, maddə 22; 2005-ci il, № 10, maddə 917) 1-ci bəndində "Heydər Babayev - Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri" sözləri "Şahin Mustafayev - Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri" sözləri ilə əvəz edilsin;

1.2. Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 2 may tarixli 867 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003-cü il, №5, maddə 230; 2005-ci il, №10, maddə 917) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Prezidenti yanında Sahibkarlar Şurasının tərkibi"ndə "Heydər Babayev - Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri" sözləri "Şahin Mustafayev - Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri" sözləri ilə əvəz edilsin;

1.3. "Avropa İttifaqı Komissiyasının Yardım Proqramları üzrə Azərbaycan Respublikasının Milli Koordinatoru haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 10 iyun tarixli 940 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002-ci il, №6, maddə 347; 2005-ci il, №10, maddə 968; 2007-ci il, №9, maddə 882) 1-ci bəndi aşağıdakı redaksiyada verilsin:

> "1. Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri Şahin Abdulla oğlu Mustafayev Avropa İttifaqı Komissiyasının Yardım Proqramları üzrə Azərbaycan Respublikasının Milli Koordinatoru təyin edilsin.";

1.4. "Azərbaycan Respublikasının Prezidenti yanında Təhsil üzrə Komissiyanın yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 30 may tarixli 831 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005-ci il, №5, maddə 445, №7, maddə 620; 2007-ci il, №4, maddə 346) 2-ci bəndində "Heydər Babayev - Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri" sözləri "Şahin Mustafayev - Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri" sözləri ilə əvəz edilsin;

1.5. "Azərbaycan Respublikası vətəndaşlarının keçmiş SSRİ Əmanət Bankının Azərbaycan Respublikası Bankında olan əmanətləri haqqında" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 26 oktyabr tarixli 1067 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005-ci il, №10, maddə 955; 2006-cı il, №7, maddə 588) 1-ci bəndində "Heydər Babayev - Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri" sözləri "Şahin Mustafayev - Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri" sözləri ilə əvəz edilsin;

1.6. "Azərbaycan Respublikasında quş qripi xəstəliyinin qarşısının alınması və bu sahədə bütün qurumların birgə fəaliyyətinin əlaqələndirilməsi üzrə Dövlət Komissiyasının yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 2 fevral tarixli 1320 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, №2, maddə 159, №9, maddə 790; 2006-cı il, №7, maddə 588) 1-ci bəndində "Heydər Babayev - Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri" sözləri "Şahin Mustafayev - Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri" sözləri ilə əvəz edilsin;

1.7. "Azərbaycan Respublikasında biometrik eyniləşdirmə sisteminin yaradılması üzrə Dövlət Komissiyası və Dövlət Proqramının hazırlanması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 6 mart tarixli 1348 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, №3, maddə 245; 2006-cı il, №7, maddə 588) 1-ci bəndində "Heydər Babayev - Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri" sözləri "Şahin Mustafayev - Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri" sözləri ilə əvəz edilsin;

1.8. "İnvestisiya fəaliyyətinin təşviqi üzrə əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 30 mart tarixli 1395 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, №3, maddə 283; 2006-cı il, №6, maddə 511; 2007-ci il, №5, maddə 517) 3-cü bəndində "Heydər Babayev - Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri" sözləri "Şahin Mustafayev - Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri" sözləri ilə əvəz edilsin;

1.9. "Azərbaycan Respublikası ilə Gürcüstan arasında iqtisadi əməkdaşlıq üzrə birgə hökumətlərarası komissiyanın Azərbaycan Respublikası tərəfindən yeni tərkibinin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 4 iyul tarixli 1554 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, №7, maddə 602) 1-ci bəndində "Heydər Babayev - Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri" sözləri "Şahin Mustafayev - Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri" sözləri ilə əvəz edilsin;

1.10. "Rusiya Federasiyası ərazisində ticarətlə məşğul olan Azərbaycan vətəndaşlarının problemlərinin həlli haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 22 noyabr tarixli 1788 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, №11, maddə 977) 1-ci bəndində "Heydər Babayev - Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri" sözləri "Şahin Mustafayev - Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri" sözləri ilə əvəz edilsin;

1.11. "Azərbaycan Respublikası ilə Yaponiya arasında iqtisadi əməkdaşlıq üzrə Dövlət Komissiyasının yeni tərkibinin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 25 dekabr tarixli 1852 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, №12, maddə 1111; 2007-ci il, №11, maddə 1133) 1-ci bəndində "Heydər Babayev - Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri" sözləri "Şahin Mustafayev - Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri" sözləri ilə əvəz edilsin;

1.12. "Azərbaycan elmində islahatların aparılması ilə bağlı Dövlət Komissiyasının yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 10 aprel tarixli 2756 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, №4, maddələr 273, 290) 1-ci bəndində "Heydər Babayev - Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri" sözləri "Şahin Mustafayev - Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri" sözləri ilə əvəz edilsin;

1.13. "Azərbaycan Respublikası vətəndaşlarının biometrik pasportlarının hazırlanması ilə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 13 iyun tarixli 2864 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, №6, maddə 533) 1-ci bəndi aşağıdakı redaksiyada verilsin:

"Azərbaycan Respublikası vətəndaşlarının pasportlarının hazırlanması və biometrik eyniləşdirmənin tələbləri əsasında istehsalının təmin edilməsi ilə bağlı Fransanın "Oberthur" şirkəti ilə müvafiq sənədlərin imzalanması səlahiyyəti Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri Şahin Abdulla oğlu Mustafayevə verilsin.";

1.14. "Azərbaycan Respublikasının dövlət təltiflərinin hazırlanmasının təmin edilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 13 iyun tarixli 2865 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, №6, maddə 534) 1-ci bəndi aşağıdakı redaksiyada verilsin:

"Azərbaycan Respublikasının dövlət təltiflərinin hazırlanması ilə bağlı Fransanın "Arthus-Bertrand" şirkəti ilə müvafiq sənədlərin imzalanması səlahiyyəti Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri Şahin Abdulla oğlu Mustafayevə verilsin.".

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Fərmanın 1.3-cü, 1.9-cu, 1.11-ci, 1.13-cü və 1.14-cü bəndlərində göstərilən dəyişikliklər barədə aidiyyəti tərəflərə müvafiq bildirişlər göndərsin.

3. Bu Fərman imzalandığı gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 13 fevral 2009-cu il

№ 61

2009-cu il yanvarın 15-də Ankara şəhərində imzalanmış "Azərbaycan Respublikası Müdafiə Nazirliyi və Türkiyə Respublikası Baş Qərargahı arasında maddi-texniki təminatın tətbiqi Protokolu"nun təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2009-cu il yanvarın 15-də Ankara şəhərində imzalanmış "Azərbaycan Respublikası Müdafiə Nazirliyi və Türkiyə Respublikası Baş Qərargahı arasında maddi-texniki təminatın tətbiqi Protokolu" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Müdafiə Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Protokolun həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Protokolun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Türkiyə Respublikası tərəfini xəbərdar etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 20 fevral 2009-cu il

№ 173

"Azərbaycan Respublikası Hökuməti və Özbəkistan Respublikası Hökuməti arasında hərbi-texniki əmək-daşlıq haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti və Özbəkistan Respublikası Hökuməti arasında hərbi-texniki əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının müdafiə naziri Səfər Axundbala oğlu Əbiyevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının müdafiə naziri Səfər Axundbala oğlu Əbiyevə verilməsi barədə Özbəkistan Respublikası Hökumətinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 20 fevral 2009-cu il

№ 174

"Azərbaycan Respublikası Hökuməti və Türkmənistan Hökuməti arasında hərbi sahədə əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti və Türkmənistan Hökuməti arasında hərbi sahədə əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının müdafiə naziri Səfər Axundbala oğlu Əbiyevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının müdafiə naziri Səfər Axundbala oğlu Əbiyevə verilməsi barədə Türkmənistan Hökumətinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 20 fevral 2009-cu il

№ 175

"Azərbaycan Respublikası Müdafiə Nazirliyi və Çexiya Respublikası Müdafiə Nazirliyi arasında müdafiə sahəsində əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Müdafiə Nazirliyi və Çexiya Respublikası Müdafiə Nazirliyi arasında müdafiə sahəsində əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının müdafiə naziri Səfər Axundbala oğlu Əbiyevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının müdafiə naziri Səfər Axundbala oğlu Əbiyevə verilməsi barədə Çexiya Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 20 fevral 2009-cu il

№ 176

"Azərbaycan Respublikası Nazirlər Kabineti və Amerika Birləşmiş Ştatları Müdafiə Departamenti arasında bioloji silahların inkişaf etdirilməsində istifadə edilə bilən texnologiya, patogenlər və təcrübənin yayılmasının qarşısının alınması sahəsində əməkdaşlıq haqqında Sazişə 5 saylı Düzəliş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Nazirlər Kabineti və Amerika Birləşmiş Ştatları Müdafiə Departamenti arasında bioloji silahların inkişaf etdirilməsində istifadə edilə bilən texnologiya, patogenlər və təcrübənin yayılmasının qarşısının alınması sahəsində əməkdaşlıq haqqında Sazişə 5 saylı Düzəliş"i Azərbaycan Respublikasının Nazirlər Kabineti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikası Baş nazirinin müavini Abid Qoca oğlu Şərifova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişə 5 saylı Düzəlişi Azərbaycan Respublikasının Nazirlər Kabineti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikası Baş nazirinin müavini Abid Qoca oğlu Şərifova verilməsi barədə Amerika Birləşmiş Ştatlarına müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 20 fevral 2009-cu il

№ 177

"Azərbaycan Respublikasının Nazirlər Kabineti və Amerika Birləşmiş Ştatlarının Müdafiə Nazirliyi arasında kütləvi qırğın silahlarının yayılmasının qarşısının alınmasında əməkdaşlığa dair Sazişə 6 saylı Düzəliş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikasının Nazirlər Kabineti və Amerika Birləşmiş Ştatlarının Müdafiə Nazirliyi arasında kütləvi qırğın silahlarının yayılmasının qarşısının alınmasında əməkdaşlığa dair Sazişə 6 saylı Düzəliş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin rəisi Elçin İsaağa oğlu Quliyevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən 6 saylı Düzəlişi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin rəisi Elçin İsaağa oğlu Quliyevə verilməsi barədə Amerika Birləşmiş Ştatlarına müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 20 fevral 2009-cu il

№ 178

"Ölkədən getmək, ölkəyə gəlmək və pasportlar haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi haqqında Əsasnamə"-də, "Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxslərin və Azərbaycan Respublikasında 30 gündən artıq yaşamaq istəyən əcnəbilərin xüsusi sənədləri haqqında Əsasnamə"də və "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi haqqında Əsasnamə"də dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. Azərbaycan Respublikası Milli Məclisinin 1994-cü il 29 noyabr tarixli 928 nömrəli qərarı ilə təsdiq edilmiş "Ölkədən getmək, ölkəyə gəlmək və pasportlar haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi haqqında Əsasnamə"nin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997-ci il, № 6, maddə 493; 1998-ci il, № 2, maddə 71; 2001-ci il, № 11, maddələr 669, 674; 2002-ci il, № 7, maddə 395; 2004-cü il, № 4, maddə 199; 2006-cı il, № 2, maddə 64, № 11, maddə 933, № 12, maddə 1006; 2007-ci il, № 1, maddə 4, № 4, maddə 319; 2008-ci il, № 8, maddə 698, № 10, maddə 886) 2-ci bəndinin ikinci abzasında "Vətəndaş haqqında cinayət işi qaldırılıbsa və ya o, məhkum edilibsə," sözləri "Vətəndaş cinayət işi üzrə şübhəli və ya təqsirləndirilən şəxs qismində tanınıbsa, məhkum edilibsə və ya barəsində tibbi xarakterli məcburi tədbirlər tətbiq edilibsə," sözləri ilə əvəz edilsin.

II. Azərbaycan Respublikası Milli Məclisinin 1997-ci il 30 dekabr tarixli 421-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxslərin və Azərbaycan Respublikasında 30 gündən artıq yaşamaq istəyən əcnəbilərin xüsusi sənədləri haqqında Əsasnamə"nin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998-ci il, № 3, maddə 136; 2001-ci il, № 11, maddə 669; 2002-ci il, № 6, maddə 328; 2008-ci il, № 8, maddə 701, № 10, maddə 886) 27-ci bəndinin birinci abzasında "şəxs haqqında cinayət işi qaldırılıbsa və ya o, məhkum edilibsə," sözləri "şəxs cinayət işi üzrə şübhəli və ya təqsirləndirilən şəxs qismində tanınıbsa, məhkum edilibsə və ya barəsində tibbi xarakterli məcburi tədbirlər tətbiq edilibsə," sözləri ilə əvəz edilsin.

III. Azərbaycan Respublikasının 1999-cu il 8 dekabr tarixli 773-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi haqqında Əsasnamə"nin (Azərbaycan Respublikasının Qa-

nunvericilik Toplusu, 2000-ci il, № 1, maddə 14; 2001-ci il, № 11, maddə 669; 2002-ci il, № 5, maddə 237; 2006-cı il, № 6, maddə 478; 2007-ci il, № 8, maddə 756, № 11, maddə 1075; 2008-ci il, № 8, maddə 701, № 10, maddə 886) 2-ci və 5-ci bəndlərində "və əcnəbilərin" sözləri "və Azərbaycan Respublikasında 30 gündən artıq yaşamaq istəyən əcnəbilərin" sözləri ilə əvəz edilsin.

IV. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 24 fevral 2009-cu il

№ 770-IIIQD

Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 13 fevral tarixli 156 nömrəli Sərəncamı ilə təsdiq edilmiş sənədlərin müddəalarından irəli gələn məsələlərin aidiyyəti üzrə həyata keçirilməsini təmin edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Sərəncamı

1. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi, Azərbaycan Respublikasının Maliyyə Nazirliyi, Azərbaycan Respublikasının Sənaye və Energetika Nazirliyi, Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi, Azərbaycan Respublikasının Təhsil Nazirliyi, Azərbaycan Respublikasının Dövlət Dəniz Administrasiyası, Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti və digər dövlət orqanları 2008-ci il noyabrın 28-də Aşqabad şəhərində imzalanmış və Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 13 fevral tarixli 156 nömrəli Sərəncamı ilə təsdiq edilmiş aşağıdakı sənədlərin müddəalarından irəli gələn məsələlərin aidiyyəti üzrə həyata keçirilməsini təmin etsinlər:

1.1. Azərbaycan Respublikası Hökuməti və Türkmənistan Hökuməti arasında iqtisadi əməkdaşlıq üzrə Azərbaycan - Türkmənistan Hökumətlərarası Komissiyası haqqında Saziş;

1.2. Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında Bakı (Azərbaycan Respublikası) və Türkmənbaşı (Türkmənistan) limanları vasitəsilə birbaşa beynəlxalq dəmir yolu - bərə əlaqəsinin təşkili haqqında Saziş;

1.3. Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə Türkmənistan Təhsil Nazirliyi arasında təhsil sahəsində əməkdaşlıq haqqında Saziş.

2. Bu sərəncam imzalandığı gündən qüvvəyə minir.

A.RASİ-ZADƏ

Azərbaycan Respublikasının Baş naziri

Bakı şəhəri, 25 fevral 2009-cu il

№ 43s

"Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi və Kuba Respublikasının Turizm Nazirliyi arasında turizm sahəsində əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi və Kuba Respublikasının Turizm Nazirliyi arasında turizm sahəsində əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının mədəniyyət və turizm naziri Əbülfəs Mürsəl oğlu Qarayevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının mədəniyyət və turizm naziri Əbülfəs Mürsəl oğlu Qarayevə verilməsi barədə Kuba Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 26 fevral 2009-cu il

№ 180

Birləşmiş Millətlər Təşkilatının Qadınlara münasibətdə ayrı-seçkiliyin bütün formalarının ləğv olunması üzrə Komitəsinin 44-cü sessiyasında Azərbaycan Respublikasını təmsil edəcək nümayəndə heyətinin tərkibi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. Birləşmiş Millətlər Təşkilatının Qadınlara münasibətdə ayrı-seçkiliyin bütün formalarının ləğv olunması üzrə Komitəsinin 2009-cu il iyulun 20-dən avqustun 7-dək Nyu-York şəhərində keçiriləcək 44-cü sessiyasında Birləşmiş Millətlər Təşkilatının "Qadınlara münasibətdə ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında" Konvensiyası üzrə Azərbaycan Respublikası Hökumətinin dördüncü dövri məruzəsinin təqdimatında Azərbaycan Respublikasını təmsil edəcək nümayəndə heyəti aşağıdakı tərkibdə təsdiq edilsin:

Nümayəndə heyətinin başçısı

Hicran Hüseynova - Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri

Nümayəndə heyətinin üzvləri

Oruc Zalov - Azərbaycan Respublikası daxili işlər nazirinin müavini

Natiq Məmmədov - Azərbaycan Respublikası əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini

İradə Hüseynova - Azərbaycan Respublikası təhsil nazirinin müavini

Murad Nəcəfbəyli - Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi Beynəlxalq hüquq və müqavilələr idarəsinin rəisi

Faiq Qurbanov - Azərbaycan Respublikası Ədliyyə Nazirliyi İnsan hüquqları və ictimaiyyətlə əlaqələr idarəsinin rəisi

3. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 4 mart 2009-cu il

№ 182

"Azərbaycan Respublikası Hökuməti ilə Qazaxıstan Respublikası Hökuməti arasında 1992-1993-cü illər ərzində (müxbir hesablar üzrə hesablaşmalara keçidə kimi və ondan sonra) ticarət-iqtisadi münasibətlər nəticəsində yaranmış borcun ödənilməsi haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti ilə Qazaxıstan Respublikası Hökuməti arasında 1992-1993-cü illər ərzində (müxbir hesablar üzrə hesablaşmalara keçidə kimi və ondan sonra) ticarət-iqtisadi münasibətlər nəticəsində yaranmış borcun ödənilməsi haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının maliyyə naziri Samir Rauf oğlu Şərifova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının maliyyə naziri Samir Rauf oğlu Şərifova verilməsi barədə Qazaxıstan Respublikası Hökumətinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 5 mart 2009-cu il

№ 192

E.H. İsgəndərova Azərbaycan Respublikasının Fövqəladə və Səlahiyyətli Səfiri diplomatik rütbəsi verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

"Diplomatik xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 8.1.1-ci maddəsini rəhbər tutaraq qərara alıram:

Elşad Hüseyn oğlu İsgəndərova Azərbaycan Respublikasının Fövqəladə və Səlahiyyətli Səfiri diplomatik rütbəsi verilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 5 mart 2009-cu il

№ 193

Azərbaycan Respublikası və Polşa Respublikası arasında iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın Azərbaycan Respublikası tərəfindən yeni tərkibinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. Azərbaycan Respublikası və Polşa Respublikası arasında iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın Azərbaycan Respublikası tərəfindən yeni tərkibi aşağıdakı heyətdə təsdiq edilsin:

Komissiyanın həmsədri

Natiq Əliyev - Azərbaycan Respublikasının sənaye və energetika naziri

Komissiyanın üzvləri

Xələf Xələfov - Azərbaycan Respublikası xarici işlər nazirinin müavini

Azər Bayramov - Azərbaycan Respublikası maliyyə nazirinin müavini

Niyazi Səfərov - Azərbaycan Respublikası iqtisadi inkişaf nazirinin müavini

Bəhram Əliyev - Azərbaycan Respublikası kənd təsərrüfatı nazirinin müavini

Teymur Mehdiyev - Azərbaycan Respublikası mədəniyyət və turizm nazirinin müavini

Nigar Əliyeva - Azərbaycan Respublikası səhiyyə nazirinin müavini

Avtandil Babayev - Azərbaycan Respublikası Milli Bankının İdarə Heyəti sədrinin müavini

Vilayət Quliyev - Azərbaycan Respublikasının Polşa Respublikasında fövqəladə və səlahiyyətli səfiri

2. "Azərbaycan Respublikası və Polşa Respublikası arasında iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 17 aprel tarixli 1416 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, № 4, maddə 345) qüvvədən düşmüş hesab edilsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Hökumətlərarası Komissiyanın Azərbaycan Respublikası tərəfindən yeni tərkibi barədə Polşa Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

4. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 6 mart 2009-cu il

№ 196

Azərbaycan Respublikası Milli Məclisinin parlamentlərarası əlaqələr üzrə yeni işçi qrupunun yaradılması, mövcud işçi qrupunun tərkibində dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikası Milli Məclisinin Qərarı

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. Azərbaycan Respublikası Milli Məclisinin İrlandiya parlamenti əlaqələrini daha da inkişaf etdirmək məqsədi ilə aşağıdakı tərkibdə Azərbaycan-İrlandiya parlamentlərarası əlaqələr üzrə işçi qrupu yaradılsın:

Azərbaycan-İrlandiya parlamentlərarası əlaqələr üzrə işçi qrupu

Cəbrayılov Rafael Kamil oğlu - qrupun rəhbəri,

Əliyev Bəxtiyar Həmzə oğlu,

Əliyeva Jalə Fazil qızı,

Xəlilov Dünyamin Zakir oğlu,

Vəliyev Əhməd Abdulkərim oğlu,

Zabelin Mixail Yuryeviç.

II. Milli Məclisinin deputatı Lalə Gülbaba qızı Abbasova Azərbaycan-İsrail parlamentlərarası əlaqələr üzrə işçi qrupunun tərkibindən çıxarılsın və Milli Məclisin deputatı Asim Nazim oğlu Mollazadə həmin qrupun tərkibinə daxil edilsin.

O.ƏSƏDOV

Azərbaycan Respublikası Milli Məclisinin Sədri

Bakı şəhəri, 6 mart 2009-cu il

№ 772-IIIQR

Azərbaycan Respublikası Hökuməti və İran İslam Respublikası Hökuməti arasında iqtisadiyyat və ticarət üzrə əhatəli əməkdaşlığa dair Protokol"u Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti və İran İslam Respublikası Hökuməti arasında iqtisadiyyat və ticarət üzrə əhatəli əməkdaşlığa dair Protokol"u Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri Şahin Abdulla oğlu Mustafayevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Protokolu Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri Şahin Abdulla oğlu Mustafayevə verilməsi barədə İran İslam Respublikası Hökumətinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 10 mart 2009-cu il

№ 201

"Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi və İran İslam Respublikasının Statistika Mərkəzi arasında statistika sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumu"nu imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi və İran İslam Respublikasının Statistika Mərkəzi arasında statistika sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumu"nu imzalamaq səlahiyyəti Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin sədri Arif Mikayıl oğlu Vəliyevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Memorandumu imzalamaq səlahiyyətinin Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin sədri Arif Mikayıl oğlu Vəliyevə verilməsi barədə İran İslam Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 10 mart 2009-cu il

№ 202

"24 mart 1997-ci il tarixdə Kiyev şəhərində imzalanmış Azərbaycan Respublikası Hökuməti ilə Ukrayna Hökuməti arasında hərbi-texniki əməkdaşlıq haqqında Sazişə dəyişikliklərin edilməsi barədə Azərbaycan Respublikası Hökuməti ilə Ukrayna Nazirlər Kabineti arasında Protokol"u Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "24 mart 1997-ci il tarixdə Kiyev şəhərində imzalanmış Azərbaycan Respublikası Hökuməti ilə Ukrayna Hökuməti arasında hərbi-texniki əməkdaşlıq haqqında Sazişə dəyişikliklərin edilməsi barədə Azərbaycan Respublikası Hökuməti ilə Ukrayna Nazirlər Kabineti arasında Protokol"u Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının müdafiə naziri Səfər Axundbala oğlu Əbiyevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Protokolu Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının müdafiə naziri Səfər Axundbala oğlu Əbiyevə verilməsi barədə Ukrayna tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 12 mart 2009-cu il

№ 205

"Azərbaycan Respublikası Hökuməti ilə Amerika Birləşmiş Ştatlarının Hökuməti arasında Azərbaycan Respublikasında seçilmiş Amerika Hökuməti yardım proqramlarının birgə maliyyələşdirilməsi üzrə Anlaşma Memorandumu"nu imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti ilə Amerika Birləşmiş Ştatlarının Hökuməti arasında Azərbaycan Respublikasında seçilmiş Amerika Hökuməti yardım proqramlarının birgə maliyyələşdirilməsi üzrə Anlaşma Memorandumu"nu Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının maliyyə naziri Samir Rauf oğlu Şərifova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Anlaşma Memorandumunu Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının maliyyə naziri Samir Rauf oğlu Şərifova verilməsi barədə Amerika Birləşmiş Ştatları tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 12 mart 2009-cu il

№ 206

Azərbaycan Respublikası və Yunanıstan Respublikası arasında 2009-cu il fevralın 16-da Afina şəhərində imzalanmış sənədlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. Azərbaycan Respublikası və Yunanıstan Respublikası arasında 2009-cu il fevralın 16-da Afina şəhərində imzalanmış aşağıdakı sənədlər təsdiq edilsin:

1.1. Azərbaycan Respublikası Hökuməti və Yunanıstan Respublikası Hökuməti arasında informasiya və kommunikasiya texnologiyaları sahəsində əməkdaşlıq haqqında Saziş;

1.2. Azərbaycan Respublikası Sənaye və Energetika Nazirliyi və Yunanıstan Respublikası İnkişaf Nazirliyi arasında bərpa olunan enerji mənbələri və enerji səmərəliliyi sahəsində Anlaşma Memorandumu.

2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bu Sərəncamın 1.1-1.2-ci bəndlərində göstərilən sənədlərin həyata keçirilməsi üçün zəruri tədbirlər görsün.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1.1-1.2-ci bəndlərində göstərilən sənədlərin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Yunanıstan Respublikası tərəfini xəbərdar etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 12 mart 2009-cu il

№ 207

Azərbaycan Respublikası Hökuməti və Yunanıstan Respublikası Hökuməti arasında informasiya və kommunikasiya texnologiyaları sahəsində əməkdaşlıq haqqında Saziş

Azərbaycan Respublikası Hökuməti və Yunanıstan Respublikası Hökuməti (bundan sonra "Tərəflər" adlandırılacaq), hər iki ölkənin sosial və iqtisadi inkişafı çərçivəsində informasiya və kommunikasiya texnologiyaları sahəsində qarşılıqlı faydalı əməkdaşlığı inkişaf etdirməyi və möhkəmləndirməyi arzu edərək,

hər iki ölkədə əhaliyə səmərəli və dayanıqlı xidmətlərin yerinə yetirilməsi ilə əlaqədar eyni məqsəd və maraqları bölüşərək,

informasiya və kommunikasiya texnologiyaları sahəsində aparılan əməkdaşlığın hazırkı səviyyəsinin təkmilləşdirilməsinin və ideyalar, məlumatlar, bilik və təcrübələr mübadiləsi yolu ilə ümumi maraq kəsb edən sahələrdə əməkdaşlığın Tərəflər üçün faydalı olacağını nəzərə alaraq,

informasiya və kommunikasiya texnologiyaları sahəsində Tərəflər arasında kommersiya əlaqələrinin möhkəmləndirilməsində mövcud olan potensialı və mövcud imkanlardan tam istifadə etmək üçün ehtiyacı dərk edərək,

hər iki Tərəfin informasiya və kommunikasiya texnologiyaları sahəsində sərmayələri, birgə müəssisələri, ümumi maraqları, texnoloji inkişafı və ticarəti inkişaf etdirmək arzusunda olduqlarını nəzərə alaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər qarşılıqlı fayda əsasında, öz ərazilərində qüvvədə olan qanunvericiliyə və beynəlxalq hüququn müvafiq norma və prinsiplərinə, həmçinin bu Sazişə uyğun olaraq, informasiya və kommunikasiya texnologiyaları sahəsində öz iqtisadi, sənaye, elmi və texniki əməkdaşlığını inkişaf etdirəcək və təkmilləşdirəcəklər.

Maddə 2

Elektromaqnitik uyğunluq (EMU) məsələləri də daxil olmaqla, informasiya və kommunikasiya texnologiyaları (İKT) sahəsində əməkdaşlıq aşağıdakıları əhatə edir:

1. telekommunikasiyanın tənzimlənməsi ilə əlaqədar Yunanıstan Respublikasının təcrübəsinin öyrənilməsi;

2. E-hökumət və E-imzanın tətbiqi sahəsində əməkdaşlıq;

3. Azərbaycan Respublikasının informasiya və kommunikasiya texnologiyaları sahəsinə Yunanıstan Respublikası tərəfindən sərmayə qoyuluşlarının təşviq etdirilməsi;

4. qarşılıqlı məqbul şərtlərlə Azərbaycan Respublikasında informasiya və kommunikasiya texnologiyaları sahəsində birgə müəssisələrin yaradılmasının təşviq etdirilməsi;

5. Yunanıstan Respublikasının telekommunikasiya təsisatlarında azərbaycanlı mütəxəssislər üçün təlim kurslarının təşkili;

6. birgə seminar, konfrans, forum və sərgilərin keçirilməsi;

7. beynəlxalq təşkilatlarda (ÜPİ və BTİ kimi) hər iki ölkənin milli maraqları üst-üstə düşdüyü təqdirdə bir-birini dəstəkləməsi;

8. hər iki Tərəfin nümayəndə heyətlərinin təcrübə mübadiləsi məqsədilə qarşılıqlı səfərlərinin təşkili;

9. elektromaqnitik uyğunluq sahəsində əməkdaşlığın inkişaf etdirilməsi, öz məhsullarının dəstəklənməsi, təşviq edilməsi və sertifikatlaşdırılması sahəsində müvafiq tədbirlərin görülməsi;

10. qarşılıqlı razılaşma əsasında digər məsələlər.

Maddə 3

Tərəflər İKT sahəsində fəaliyyətin təşviq olunması, əməkdaşlığın inkişaf etdirilməsi, yeni texnologiyaların tətbiq edilməsi və birgə müəssisələrin təşviqi məqsədilə, aidiyyəti orqanları, təşkilat və müəssisələri tərəfindən bu sahədə sıx əlaqələrin və məlumat mübadiləsinin təkmilləşdirilməsini, eləcə də mümkün olduqda, xüsusi proqramların və layihələrin yerinə yetirilməsi sahəsində əməkdaşlığı təşviq edəcəklər.

Tərəflər kəndlərdə telekommunikasiyanın inkişaf etdirilməsi, rəqəmsallara keçidin təmin edilməsi və lokal şəbəkələrin tənzimlənməsi sahəsində Azərbaycan Respublikasının və Yunanıstan Respublikasının təcrübəsinin tətbiqi üçün hər iki Tərəfin mütəxəssislərinin birgə iş aparmasını təmin edəcəklər.

Maddə 4

Bu Sazişin müddəaları Tərəflərin iştirakçısı olduqları digər beynəlxalq sazişlərdən irəli gələn hüquq və öhdəliklərə, həmçinin Yunanıstan Respublikasının Avropa Birliyinə üzvlüyündən irəli gələn öhdəliklərinə toxunmur.

Maddə 5

Tərəflər əməkdaşlıq çərçivəsində mübadilə etdikləri informasiyanın konfidensiallığının öz qanunvericiliklərinə uyğun surətdə qorunması üçün zəruri tədbirlər görəcəklər, həmçinin belə informasiyanı təqdim etmiş Tərəfin yazılı icazəsi olmadan bu informasiyanı üçüncü tərəfə aşkarlamayacaq və yaymayacaqlar. Bu müddəa bu Saziş qüvvədən düşdükdən sonra üç il müddətində qüvvədə qalır.

Maddə 6

Tərəflər bu Sazişin müddəalarının təfsiri və ya tətbiqi zamanı mübahisələr yarandığı təqdirdə, onları danışıqlar və məsləhətləşmələr yolu ilə həll edəcəklər.

Maddə 7

Bu Sazişin həyata keçirilməsi üzrə fəaliyyətin əlaqələndirilməsinə görə məsul səlahiyyətli orqanlar:

Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi - Azərbaycan Respublikası Hökuməti adından;

Yunanıstan Respublikasının Nəqliyyat və Rabitə Nazirliyi - Yunanıstan Respublikası Hökuməti adından.

Bu Sazişdən irəli gələn məsələlərin həyata keçirilməsi üzrə səlahiyyətli orqanları qarşılıqlı fəaliyyəti zamanı işçi dil qismində ingilis dilindən istifadə ediləcəkdir.

Tərəflər əməkdaşlığın xüsusiyyətlərindən asılı olaraq, bu Sazişin həyata keçirilməsi üzrə fəaliyyətin əlaqələndirilməsinə görə məsul olan digər hökumət orqanlarını təyin edə bilərlər və onlar diplomatik kanallar vasitəsilə bir-birini bu barədə məlumatlandıracaqlar.

Maddə 8

Tərəflərin yazılı razılığına əsasən, bu Sazişə düzəlişlər edilə bilər. Belə düzəlişlər bu Sazişin ayrılmaz hissəsi olan və onun 9-cu maddəsində nəzərdə tutulmuş qaydada qüvvəyə minən ayrıca protokollarla rəsmiləşdiriləcəkdir.

Maddə 9

Bu Saziş onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurları yerinə yetirdikləri barədə Tərəflərin diplomatik kanallar vasitəsilə bir-birlərinə göndərdikləri sonuncu yazılı bildirişin tarixindən qüvvəyə minir. Bu Saziş iki il müddətinə bağlanılır. Tərəflərdən biri bu Sazişin müddətinin bitməsinə ən azı altı ay qalmış bunun əksi barədə digər Tərəfə bildirmədikdə, Sazişin qüvvəsi növbəti iki il müddətinə uzadılacaqdır.

Bu Saziş Afina şəhərində 16 fevral 2009-cu il tarixində, Azərbaycan, yunan və ingilis dillərində, iki əsl nüsxədə imzalanmışdır, bütün mətnlər bərabər autentikdir. Təfsir zamanı fikir ayrılığı yarandığı təqdirdə, ingilis dilindəki mətndən istifadə ediləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	YUNANISTAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN
ƏLİ ABBASOV	*MİXAİL BEKİRİS*
Rabitə və informasiya texnologiyaları naziri	*Nəqliyyat və kommunikasiya nazirinin müavini*

Azərbaycan Respublikası Sənaye və Energetika Nazirliyi və Yunanıstan Respublikası İnkişaf Nazirliyi arasında bərpaolunan enerji mənbələri və enerji səmərəliliyi sahəsində Anlaşma Memorandumu

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikası Sənaye və Energetika Nazirliyi və Yunanıstan Respublikası İnkişaf Nazirliyi,

Tərəflərin bərpaolunan enerji mənbələri və enerji səmərəliliyinə əsaslanan enerji sahəsindəki proqramlarının səmərəliliyinin təmin olunmasını və Tərəflərin alimləri arasında bu sahədə əməkdaşlığın genişləndirilməsini arzu edərək,

Tərəflər arasında əməkdaşlığın genişləndirilməsinin Tərəflərin iqtisadiyyatının inkişafına və mövcud dostluq münasibətlərinin gücləndirilməsinə töhfə verəcəyini etiraf edərək,

Tərəflərdən hər birinin bu Anlaşma Memorandumunu öz milli qanunvericiliklərinə,

beynəlxalq hüququn norma və prinsiplərinə və Yunanıstan Respublikasının Avropa Birliyinə üzvlüyündən irəli gələn öhdəliklərinə uyğun həyata keçirəcəyini vurğulayaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Məqsəd

Bu Anlaşma Memorandumunun məqsədi Tərəflər arasında bərpa olunan enerji mənbələri və enerji səmərəliliyinə aid tədqiqatlarda birgə fəaliyyətin həyata keçirilməsi Proqramının dəstəklənməsi və onun üçün əsas yaradılmasıdır. Bu cür fəaliyyət qarşılıqlı fayda, bərabərlik və qarşılılıq əsasında həyata keçiriləcəkdir.

Maddə 2

Fəaliyyət sahələri

Bu Anlaşma Memorandumu çərçivəsində fəaliyyət sahələri aşağıdakıları əhatə edir:

müvafiq sahədə təcrübə mübadiləsi, qanunvericilik və inzibati islahatlara dəstək;

institusional gücləndirmə və imkanların yaradılması;

enerji siyasəti və planlaşdırma;

bərpaolunan enerjinin (günəş enerjisi, külək enerjisi, biokütlə enerjisi - bioyanacaq) və enerji səmərəliliyi tədbirlərinin təşviq olunması üçün fəaliyyətin işlənib hazırlanması;

enerji səmərəliliyi və enerjiyə qənaət (binalarda, nəqliyyatda) sahəsində ən qabaqcıl təcrübənin paylaşılması;

maliyyə mexanizmlərinin müəyyənləşdirilməsi üçün Aİ və beynəlxalq səviyyədə ümumi strategiyaların və layihələrin işlənib hazırlanması, bərpa olunan enerji mənbələrindən istifadənin genişləndirilməsi və enerji səmərəliliyinin təşviq olunması.

Maddə 3

Əməkdaşlığın formaları

3.1. Bu Anlaşma Memorandumu çərçivəsində birgə fəaliyyət, yalnız bununla məhdudlaşmamaq şərtilə, aşağıdakı formaları əhatə edəcək:

2-ci maddədə əks olunmuş sahələrdə fəaliyyətin planlaşdırılması üçün rəsmi şəxslər və proqram rəhbərləri arasında məsləhətləşmələrin aparılması;

hər bir ölkənin mərkəzlərində, institutlarında, laboratoriyalarında və digər müəssisələrində aparılan inkişaf fəaliyyəti, tədqiqatlar, təhlillər və eksperimental fəaliyyətlərdə iştirak etmək üçün alim və mütəxəssislərin əvvəlcədən razılaşdırılmış müddətə mübadiləsi;

hipotezaların sınaqdan keçirilməsi məqsədilə elmi və texniki informasiyanın, tədqiqat metodlarının və elmi nəticələrin mübadiləsi;

razılaşdırılmış mövzular üzrə seminarların, təlim kurslarının və görüşlərin təşkili;

bərpaolunan enerji və enerji effektivliyinə dair xüsusi layihələrin hazırlanması və tətbiqi;

sənaye və yanacaq-energetika sahəsində əməkdaşlığın inkişaf etdirilməsi və Tərəflər arasında müştərək müəssisələrin yaradılması.

Maddə 4

Layihə təsviri

4.1. Tərəflər bu Anlaşma Memorandumu əsasında həyata keçiriləcək layihələrin hər biri üçün Layihə Təsviri tərtib edəcəklər.

4.2. Layihə Təsviri birgə layihənin yerinə yetirilməsi üçün ətraflı müddəalardan ibarət olacaq və texniki imkanlar, avadanlıq mübadiləsi, büdcə, xərclərin bölüşdürülməsi və layihənin qrafiki, əməkdaşlığın idarə edilməsi və elmi-texniki informasiya mübadiləsi kimi məsələləri əhatə edəcəkdir.

Maddə 5

İdarəetmə

5.1. Bu Anlaşma Memorandumunun lazımi qaydada icrası məqsədilə Azərbaycan Respublikası Sənaye və Energetika Nazirliyi və Yunanıstan Respublikası İnkişaf Nazirliyi tərəfindən təyin edilən nümayəndələrdən ibarət Koordinasiya Komissiyası yaradılır.

5.2. Koordinasiya Komissiyası hər il üzvləri arasından alternativ olaraq Sədr təyin edəcəkdir.

5.3. Koordinasiya Komissiyası bu Anlaşma Memorandumu çərçivəsində həyata keçiriləcək hər bir layihə üçün 4-cü maddədə əksini tapmış Layihə Təsvirinin tərtib olunmasını təmin edəcəkdir.

5.4. Koordinasiya Komissiyası bu Anlaşma Memorandumu əsasında həyata keçirilən əməkdaşlığın vəziyyətini qiymətləndirmək üçün zəruri olduğu təqdirdə görüşlər keçirəcək və yazışmalar aparacaqdır. Əlavə olaraq, Koordinasiya Komissiyası əməkdaşlıq üçün yeni mühüm təklifləri nəzərdən keçirəcək və bu istiqamətdə işlər görəcəkdir.

Maddə 6

İnformasiya mübadiləsi

6.1. İnformasiya mübadiləsinə elmi və texniki məlumatlar, tədqiqatın nəticələri və formaları və ya Anlaşma Memorandumuna uyğun olaraq, Layihə Təsviri çərçivəsində təqdim olunan, mübadilə edilən və ya meydana gələn istənilən informasiya daxildir.

6.2. Bu Anlaşma Memorandumu çərçivəsində həyata keçirilən əməkdaşlıq zamanı əldə edilən konfidensial məlumatlar da daxil olmaqla, istənilən məlumatın açıqlanması belə məlumatı təqdim edən Tərəfin yazılı razılığına əsasən Tərəflərin müvafiq milli qanunvericiliyinə uyğun olaraq həyata keçiriləcəkdir.

Maddə 7

Əqli mülkiyyət hüquqları

Əqli mülkiyyət hüquqları hər bir xüsusi layihə çərçivəsində müəyyən olunacaqdır.

Maddə 8

Maliyyələşmə

Tərəflərin əməkdaşlığından irəli gələn maliyyə öhdəliyinin formasının, metodlarının və şərtlərinin detalları Tərəflər arasında daha sonra imzalanacaq ayrıca Protokolla müəyyən ediləcəkdir.

Maddə 9

Ümumi müddəalar

Bu Anlaşma Memorandumu çərçivəsində bütün fəaliyyətlər Azərbaycan Respublikası və Yunanıstan Respublikası ərazisində qüvvədə olan müvafiq qanunvericiliyə uyğun olaraq həyata keçiriləcəkdir.

Anlaşma Memorandumunda heç bir müddəa Tərəflər arasında digər əməkdaşlığa və tərəfdaşlığa təsir göstərməyəcəkdir.

Maddə 10

Mübahisələrin həlli

Bu Anlaşma Memorandumunun təfsiri və ya həyata keçirilməsi ilə əlaqədar meydana çıxan istənilən mübahisələr Tərəflər arasında qarşılıqlı məsləhətləşmələr və danışıqlar vasitəsilə həll ediləcəkdir.

Maddə 11

Düzəlişlər

Tərəflərin qarşılıqlı razılığı əsasında bu Anlaşma Memorandumuna ayrıca Protokollarla düzəlişlər edilə bilər. Bu düzəlişlər bu Anlaşma Memorandumunun 12-ci maddəsinin birinci bəndində nəzərdə tutulmuş qaydada qüvvəyə mindikdən sonra bu Anlaşma Memorandumunun ayrılmaz hissəsi olacaqdır.

Maddə 12

Qüvvəyə minmə və qüvvədən düşmə

Bu Anlaşma Memorandumu onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Tərəflərin sonuncu yazılı bildirişinin diplomatik kanallar vasitəsilə alındığı tarixdən qüvvəyə minir.

Bu Anlaşma Memorandumu beş il müddətinə bağlanılır və Tərəflərdən biri bu Anlaşma Memorandumunun müddətinin bitməsinə ən azı altı ay qalmış onu ləğv etmək niyyəti barədə digər Tərəfə diplomatik kanallar vasitəsilə yazılı məlumat verməzsə, onun qüvvəsi avtomatik olaraq növbəti beşillik müddətlərə uzadılacaqdır.

Bu Anlaşma Memorandumu Afina şəhərində 16 fevral 2009-cu il tarixində iki əsl nüsxədə, hər biri Azərbaycan, yunan və ingilis dillərində imzalanmışdır, bütün mətnlər bərabər autentikdir. Təfsirdə fikir ayrılığı olduğu təqdirdə, ingilis dilindəki mətnə istinad ediləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI
SƏNAYE VƏ ENERGETİKA NAZİRLİYİ
ADINDAN

NATİQ ƏLİYEV
Sənaye və energetika naziri

YUNANISTAN RESPUBLİKASI
İNKİŞAF NAZİRLİYİ
ADINDAN

KOSTİS HATZİDAKİS
İnkişaf naziri

Ukrayna Xalq Respublikasının Azərbaycan Xalq Cümhuriyyətindəki Xüsusi diplomatik missiyasının yerləşdiyi binaya xatirə lövhəsinin vurulması haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

Azərbaycan-Ukrayna dostluq əlaqələrinin daha da möhkəmləndirilməsi, Azərbaycan-Ukrayna diplomatik münasibətlər tarixinin ehtiramla xatırlanması məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır:

1. Bakı Şəhər İcra Hakimiyyəti Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi ilə birlikdə Ukrayna Xalq Respublikasının Azərbaycan Xalq Cümhuriyyətindəki Xüsusi diplomatik missiyasının yerləşdiyi binaya (Bakı ş., İstiqlaliyyət küç., 31) xatirə lövhəsinin vurulmasını təmin etsin.

2. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

Y.EYYUBOV

Azərbaycan Respublikası Baş nazirinin birinci müavini

Bakı şəhəri, 19 mart 2009-cu il

№40

Azərbaycan Respublikası və Yunanıstan Respublikası arasında 2009-cu il fevralın 16-da Afina şəhərində imzalanmış sənədlər haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin Sərəncamı

1. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi, Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi, Azərbaycan Respublikasının Sənaye və Energetika Nazirliyi və digər orqanları aidiyyəti üzrə "Azərbaycan Respublikası və Yunanıstan Respublikası arasında 2009-cu il fevralın 16-da Afina şəhərində imzalanmış sənədlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 12 mart tarixli 207 nömrəli Sərəncamı ilə təsdiq edilmiş, Azərbaycan Respublikası və Yunanıstan Respublikası arasında 2009-cu il fevralın 16-da Afina şəhərində imzalanmış aşağıdakı sənədlərin həyata keçirilməsi üçün zəruri tədbirlər görsünlər:

1.1. Azərbaycan Respublikası Hökuməti və Yunanıstan Respublikası Hökuməti arasında informasiya və kommunikasiya texnologiyaları sahəsində əməkdaşlıq haqqında Saziş;

1.2. Azərbaycan Respublikası Sənaye və Energetika Nazirliyi və Yunanıstan Respublikası İnkişaf Nazirliyi arasında bərpa olunan enerji mənbələri və enerji səmərəliliyi sahəsində Anlaşma Memorandumu.

2. Bu sərəncam imzalandığı gündən qüvvəyə minir.

Y.EYYUBOV

Azərbaycan Respublikası Baş nazirinin birinci müavini

Bakı şəhəri, 1 aprel 2009-cu il

№ 59s

"Azərbaycan Respublikasının Milli Bankı və Amerika Birləşmiş Ştatlarının Beynəlxalq İnkişaf Agentliyi arasında Anlaşma Memorandumu"nun təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. 2008-ci il noyabrın 25-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikasının Milli Bankı və Amerika Birləşmiş Ştatlarının Beynəlxalq İnkişaf Agentliyi arasında Anlaşma Memorandumu" təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 3 aprel 2009-cu il

№ 779-IIIQ

Azərbaycan Respublikasının Milli Bankı və Amerika Birləşmiş Ştatlarının Beynəlxalq İnkişaf Agentliyi arasında Anlaşma Memorandumu

Bundan sonra "Tərəflər" adlandırılacaq, Azərbaycan Respublikasının Milli Bankı (bundan sonra "Milli Bank") və Amerika Birləşmiş Ştatlarının Beynəlxalq İnkişaf Agentliyi (bundan sonra "USAID") birgə səy göstərərək (i) Milli Bankın prudensial nəzarət üzrə tənzimləmə qayda və təlimatlarını gücləndirmək; (ii) makroiqtisadi və maliyyə idarəetmə siyasət və təlimatları, və Milli Bankın tədqiqat, proqnozlaşdırma və modelləşdirmə imkanını artırmaq; (iii) prudensial nəzarət imkanını və monetar idarəetmə sistemini gücləndirib institutlaşdıracaq tərzdə kadrlar və informasiyanın idarəedilməsi strategiya və sisteminin planlaşdırılmasını və fəaliyyətini yaxşılaşdırmaq; (iv) çirkli pulların yuyulmasına qarşı siyasətə və institusional islahatların aparılmasına institusional hüquqi və texniki yardım göstərib əməkdaşlıq etmək niyyətindədir.

Bu səbəbdən, yuxarıda göstərilən hədəflərə nail olmaq məqsədilə öhdəliklərə dair anlaşmaları təsbit etmək üçün Tərəflər bundan sonra "Anlaşma Memorandumu" adlandırılacaq Anlaşma Memorandumu bağlayırlar. Anlaşma Memorandumunu imzalayarkən Tərəflər özlərinin ayrıca və özünəməxsus missiyalarını və mandatlarını, həmçinin cavabdehliklərini qoruyub saxlamaq niyyətindədirlər. Xüsusi olaraq əksi qeyd edilməmişdirsə, Tərəflər arasındakı bu Anlaşma Memorandumda göstərilmiş əməkdaşlıq şəriklik və ya hər hansı başqa növ hüquqi qurum və ya şəxs hesab olunmamalı və ya belə şərh edilməməlidir.

Maddə 1

Tərəflərin öhdəlikləri

1.1. Maliyyə vəsaiti olduğu halda USAID 2009-cu ilin 29 sentyabr tarixinə kimi və ya Tərəflərin yazılı formada razılaşdıracağı digər tarixdə aşağıdakı texniki yardım və təlim imkanları təqdim etmək niyyətindədir:

(a) Prudensial nəzarət, monetar siyasət və çirkli pulların yuyulmasına qarşı siyasət sahələrində Milli Bankın təşkilati potensialının artırılması məqsədilə texniki və təlim dəstəyinin göstərilməsi;

(b) Milli Bankda daxili kadr və informasiyanın idarəedilməsi sistem və strategiyasını yaxşılaşdırmaq üçün texniki və təlim dəstəyinin göstərilməsi;

(c) İqtisadi/maliyyə məlumatların toplanması/emalı/işlənilməsi, maliyyə proqramlaşdırılması və proqnozu, ekonometrik modelləşmə və maliyyə sabitliyinin təhlili/qiymətləndirilməsi sahəsində texniki və təlim yardımının təmini.

USAID yuxarıda göstərilən yardımı iki illik müddətə nəzərdə tutulmuş və 2007-2009-cu illər ərzində icra ediləcək Maliyyə Sektorun Sabitliyi layihəsi vasitəsilə təmin etmiş və edəcəkdir.

1.2. Yuxarıda göstərilən məqsədlərə/fəaliyyətlərə dəstək olaraq Milli Bank aşağıdakı öhdəlikləri öz üzərinə götürür:

(a) Tələbat yarandığı təqdirdə razılaşdırılmış layihə məqsədlərinə uyğun olaraq Milli Bankın daxili strukturları üçün kompüter və proqramlar daxil olmaqla avadanlığın alınmasını maliyyələşdirmək;

(b) Layihənin texniki işçi heyətini Milli Bankın binasında münasib iş yeri, telefon və internetə çıxışla təchiz etmək;

(c) Maliyyə Sektorun Sabitliyi layihəsinin İş Planı üzrə texniki tapşırıqları icra etmək üçün Milli Bankın peşəkar işçi heyətini təyin etmək;

(d) Maliyyə Sektorun Sabitliyi layihəsi çərçivəsində göstərilən texniki dəstəyin birgə maliyyələşdirilməsi.

1.3. Bu layihə çərçivəsində USAID ayırdığı 3 milyon ABŞ dolları dəyərində maliyyə vəsaitlərinə əlavə olaraq yuxarıda göstərilən məqsədlərə nail olmaq üçün USAID və Milli Bank, maliyyə vəsaitlərinin mövcudluğundan asılı olaraq, layihəyə müvafiq olaraq təxminən 1 000 000 ABŞ dolları və 750 000 ABŞ dolları məbləğinə kimi maliyyə vəsaiti ayırmaq niyyətindədir.

1.4. Milli Bankın 2008 və 2009-cu illərdə Layihə üzrə pay iştirakı USAID tərəfindən ABŞ dollarında yerləşdiriləcəkdir. Milli Bank maliyyə vəsaitlərini ayrı-ayrı hissə ilə 1.5 bənddə izah edilmiş surətdə ayıracaqdır.

1.5. 1.4 bənddə istinad edilmiş maliyyə vəsaitləri ABŞ dollarında olacaq və bu Anlaşma Memorandumun müddəalarına və 1.6 bənddə göstərilmiş mühasibat və irəliləyiş hesabatlarına tabe olaraq, USAID-nin Qafqaz Missiyasının Maliyyə Şöbəsi tərəfindən idarə ediləcək ABŞ Xəzinədarlıq Hesabına (Xüsusi Hesab) yerləşdiriləcəkdir.

1. Milli Bank maliyyə vəsaitlərini hər iki tərəfin razılaşdıracağı köçürmə sənədinə müvafiq olaraq Xüsusi Hesabda iki ayrı-ayrı hissədə yerləşdirəcəkdir. Maliyyə vəsaitlərinin mövcudluğundan asılı olaraq, Maliyyə Sektorun Sabitliyi layihəsinin dəstəklənməsi üçün təklif edilmiş 1 000 000 ABŞ dolları dəyərində pay iştirakının USAID tərəfindən 31 mart 2009-cu ilə kimi bütövlüklə ayırdığının təsdiq edilməsindən sonra Milli Bank vəsaitlərinin ikinci hissəsini ayıracaq. Milli Bank maliyyə vəsaitlərini Xüsusi Hesabda aşağıdakı cədvələ uyğun yerləşdirəcəkdir:

	Son yerləşdirmə tarixi	Yerləşdirəcək Məbləğ
Milli Bankın maliyyə vəsaitlərinin 1-ci hissəsi	12/31/2008	375 000 ABŞ Dolları
USAID-nin iştirak payı	3/31/2009	1000 000 ABŞ Dolları
Milli Bankın maliyyə vəsaitlərinin 2-ci hissəsi	3/31/2009	375 000 ABŞ Dolları

2. Bu Anlaşma Memorandumda nəzərdə tutulmuş proqramların həyata keçirilməsi üçün maliyyə vəsaitləri USAID-nin müvafiq bildiyi və Milli Bankla razılaşdırdığı dövlət və özəl tərəflərlə mövcud və gələcək saziş və digər alətlər vasitəsilə ayrılıb xərclənəcəkdir. ABŞ Hökuməti tərəfindən Xüsusi Hesab üzrə aparılacaq maliyyə sənədləri Xüsusi Hesabdakı yerləşdirilmiş məbləğlərlə bağlı hər hansı bir anlaşılmazlıq baş verdikdə onu tənzimləyəcəkdir.

3. Maliyyə planının hissəsi kimi USAID-yə verilmiş maliyyə vəsaitləri 1961-ci ilin Xarici Yardım Aktının 635 (d) bəndinə, düzəlişlər edilmiş Xarici Yardım Aktına və USAID-nin hüquqi, siyasi və prosessual tələbatına uyğun alınacaq, saxlanacaq, idarə olunacaq, ayrılacaq və xərclənəcəkdir.

1.6. İmzalanandan 30 gün ərzində Anlaşma Memorandumunun icrasına nəzarət etmək məqsədilə Tərəflər İdarə Komissiyası yaratmaq niyyətindədirlər. İdarə Komissiyası tərəfindən Anlaşma Memorandumunun nəzarəti və icrası ilə əlaqədar görülən bütün tədbirlər, o cümlədən yeni layihə haqqında tender elanının yerləşdirilməsi, təltif etmə və idarəetmə alətləri daxil olmaqla USAID-nin hüquqi, siyasi və prosessual tələblərinə uyğun olaraq hər iki tərəfə hesabat verilməlidir. Proqramın təsirli əlaqələndirilməsini və maksimal inkişaf təsirini təmin etmək məqsədilə onun planlaşdırılması və icrası zamanı aşağıdakı idarəetmə prinsiplərinə riayət ediləcəkdir:

1. Birgə maliyyələşdiriləcək proqram üçün bütün illik iş planları USAID nümayəndələri və Milli Bank ilə sıx əməkdaşlıqda işlənib hazırlanacaq və birgə təsdiq ediləcəkdir.

2. Layihənin məqsəd və vəzifəsi və əldə etdiyi nailiyyət üzrə USAID-nin müvafiq nümayəndələri ilə müvafiq layihə icraçıları arasında ayda iki dəfə görüş keçiriləcəkdir.

3. Bu Anlaşma Memorandumu çərçivəsində maliyyə vəsaitlərinin istifadəsi məsələsi daxil olmaqla Anlaşma Memoradumunun tam şəkildə icrasına dair Milli Bank və USAID nümayəndələri arasında altı aydan bir görüş keçiriləcəkdir.

4. Birgə maliyyələşdirmə proqramı üzrə irəliləyişləri yazılı şəkildə təsvir edəcək rüblük hesabatlar hazırlanacaqdır.

5. Maliyyə vəsaitlərinin istifadəsi üzrə rüblük maliyyə hesabatları təqdim ediləcəkdir.

1.7. Bu Anlaşma Memorandumunun imzalanmasından keçən 45 gün ərzində bu proqram üzrə hər bir Tərəfin səlahiyyətli nümayəndəsinin imza nümunəsini daxil edən ilkin "İcra Məktubu" imzalanacaqdır. Həmin Məktubda 1.5.1 bənddə göstərildiyi kimi Milli Bankın maliyyə payının ilkin tranşının ödənilmə tarixlərinə uyğun olaraq görüləcək ödəniş tədbirləri barədə təfsilatlı məlumat veriləcəkdir. Proqram üzrə sonrakı İcra Məktubu 1.5.1 bənddə göstərilmiş Milli Bankın maliyyə payının ikinci tranşının ödənilmə tarixindən əvvəl Tərəflər arasında qəbul edilib razılaşdırılmalıdır.

Maddə 2

Ümumi müddəalar

2.1. İkitərəfli Çərçivə Sazişinə aidiyyat: Bu Anlaşma Memorandumu əsasında USAID tərəfindən natura formasında təqdim oluna biləcək yardım 11 may 2000-ci il tarixli "Azərbaycan Respublikası Hökuməti ilə Amerika Birləşmiş Ştatlarının Hökuməti arasında yardım göstərilməsini asanlaşdırmaq üzrə əməkdaşlıq haqqında Saziş" ("İkitərəfli Saziş") çərçivəsində Amerika Birləşmiş Ştatlarının yardımı hesab edilir və vergi və gömrük öhdəliklərindən azad olunmanı nəzərdə tutan müddəaları daxil edərək bununla məhdudlaşmayan həmin Sazişin müddəa və şərtlərinə tabe olur.

2.2. Üçüncü Tərəfin sənədləri və maliyyə vəsaitlərinin mövcudluğu: Yuxarıda qeyd olunmuş sahələr üzrə natura formasında yardım göstərmək məqsədilə USAID Milli Bankla razılaşdırmaqla uyğun hesab etdiyi dövlət və özəl qurumlarla sazişlər və digər razılaşmalar imzalaya bilər. USAID və Milli Bank Anlaşma Memorandumu ilə üzərlərinə götürdükləri bütün öhdəlikləri və USAID və Milli Bankın üçüncü tərəflərlə digər razılaşmaları maliyyə vəsaitinin mövcudluğundan asılı olacaqdır.

2.3. Amerika Birləşmiş Ştatlarının qanun və qaydalarına tabeçilik: USAID yalnız Amerika Birləşmiş Ştatlarının müvafiq qanun və qaydalarına əsasən maliyyə vəsaitlərini ayırır, onları istiqamətləndirir, xərcləyir və Anlaşma Memorandumdan irəli gələn digər əməliyyatları həyata keçirir.

2.4. Əmlak üzərində mülkiyyət hüququ və ondan istifadə: USAID tərəfindən başqa hal nəzərdə tutulmayıbsa, kompüter proqramları və müvafiq lisenziyalar istisna olmaqla USAID tərəfindən təqdim olunmuş bütün əmlak üzərində mülkiyyət hüququ USAID-də qalacaq. USAID tərəfindən təqdim oluna biləcək istənilən əmlak yuxarıda təsvir edilmiş məqsəd üçün səmərəli şəkildə istifadə edilməlidir və yardımın müddəti bitdikdən sonra onun məqsədlərinin davam etdirilməsi üçün istifadə olunmalıdır. USAID tərəfindən təqdim olunmuş əmlakdan kompüter proqramları və müvafiq lisenziyalar istisna olmaqla Tərəflərin razılaşdırdıqları məqsədlərdən kənar məqsədlər üçün istifadə olunarsa və əgər Milli Bank müvafiq hərəkətləri ilə həmin halların müvafiq qaydada qarşısının alınması mümkün olduğu halda belə hərəkətlərin qarşısını almamışdırsa, Milli Bank USAID-in xahişi və seçimi ilə həmin əmlakı qaytarmalı və ya həmin əmlak üçün xərclənmiş vəsaiti ABŞ dolları ilə ödəməlidir.

2.5. Sənədlər, yoxlama və təftiş: Milli Bank Anlaşma Memorandumuna uyğun olaraq göstərilmiş yardımın qəbulunu və istifadəsini göstərmək üçün zəruri olan, yardımla əlaqədar olaraq birbaşa müvafiq sənədləşdirmə aparmalı və ya aparılmasına dair müvafiq göstəriş verməlidir. Sənədlər Azərbaycan Respublikasının milli qanunvericiliyinə uyğun saxlanılmalıdır. Milli Bank USAID-in səlahiyyətli nümayəndələrinə və ya onların təyin etdiyi şəxslərə istənilən münasib vaxtda yardımın göstərildiyi yer və yardımla əlaqədar sənədləri yoxlamaq üçün imkan yaratmalıdır.

2.6. Mübadilə məzənnəsi: USAID və ya digər dövlət və ya özəl təşkilat tərəfindən USAID-nin bu Anlaşma Memorandumda qeyd olunan öhdəliklərinin həyata keçirilməsi məqsədi ilə Azərbaycana maliyyə vəsaiti daxil olarsa, Milli Bank bu maliyyə vəsaitinin Azərbaycan manatına, valyutanın konvertasiyasının həyata keçirildiyi vaxtda mövcud olan, ölkə qanunvericiliyinə zidd olmayan ən yüksək məzənnə ilə çevirilməsi üçün lazım ola biləcək zəruri tədbir görəcəkdir.

2.7. Aşkarlıq: Milli Bank ABŞ Hökumətinin töhfə verdiyi proqram qismində təqdim olunmuş yardım barədə ictimaiyyətə məlumat verəcək.

2.8. Məlumat və icra məktubları: Milli Bank və USAID bir-birini yardımın göstərilməsini asanlaşdırmaq və bu yardımın səmərəliliyini qiymətləndirmək üçün lazım ola biləcək məlumatlarla təchiz etməlidir. Bundan əlavə, USAID vaxtaşırı hazırkı Anlaşma Memorandumunda qeyd edilmiş məsələlər barəsində əlavə məlumat vermək üçün icranın vəziyyəti haqqında məktublar təqdim edə bilər. Tərəflər, həmçinin bu Anlaşma Memorandumun icrası ilə əlaqədar olaraq qarşılıqlı anlaşmalarını təsdiq edən birgə razılaşdırılmış məktublardan istifadə edə bilərlər. İcra məktublarından bu Anlaşma Memorandumun mətninə dəyişiklik edilməsi üçün istifadə edilməməlidir.

2.9. Səlahiyyətli nümayəndələr: Tərəflər bu Anlaşma Memorandumunu imzalayan şəxslərin rəhbərlik etdiyi təşkilatlarda işləyən və ya fəaliyyət göstərən şəxslər tərəfindən təmsil olunurlar. Hər bir tərəf digər tərəfə yazılı bildiriş göndərməklə həmin Tərəfi bu Anlaşma Memorandumuna rəsmi düzəlişlər edilməsinin təsdiqlənməsi istisna olmaqla, istənilən məsələdə təmsil edəcək əlavə nümayəndələr təyin edə bilər. Hər bir tərəf qarşı tərəfi öz səlahiyyətli nümayəndələri ilə bağlı dəyişikliklərlə yazılı surətdə tanış etməlidir.

2.10. Əlavə və dəyişikliklər: Hazırkı Anlaşma Memorandumuna əlavə və dəyişikliklər Tərəflərin yazılı razılığı əsasında edilə bilər.

2.11. Dayandırılma və xitam:

(a) Dayandırma.

(i) Hər hansı bir tərəf bu Anlaşma Memorandumunun hansı bir müddəasına riayət etməzsə;

(ii) Hər hansı bir tərəf bu Anlaşma Memorandumun məqsədinin əldə edilməsini və ya bu Anlaşma Memorandumun müddəalarına digər tərəfin əməl etmə imkanını qeyri-mümkün edən fövqəladə vəziyyətin yaranmasını müəyyən edərsə;

(iii) Hər hansı bir tərəf bu yardımın təqdim edilməsinin qanun və ya qaydalarının pozulmasına səbəb olacağını müəyyən edərsə.

Hər bir Tərəf öz seçiminə müvafiq olaraq bu Anlaşma Memorandumda nəzərdə tutulmuş yardımın təqdim edilməsini tam və ya qismən dayandırmaq üçün tədbir görə və bu barədə qarşı tərəfə yazılı bildiriş təqdim edə bilər. Qismən dayandırma zamanı qeyd olunan bildiriş dayandırmamın nəticəsinin şamil edildiyi fəaliyyət növünü qeyd etməlidir. Əgər belə bildirişin təqdim edilməsindən altmış (60) gün keçmiş dayandırmanın səbəblərinin aradan qaldırılmaması müəyyən edilərsə, iddia qaldırmış Tərəf Anlaşma Memorandumuna tam və ya qismən xitam verə və bu barədə qarşı tərəfə yazılı bildiriş təqdim edə bilər.

(b) Xitam.

İstənilən halda bir Tərəf digər Tərəfə otuz (30) gün əvvəl yazılı bildiriş təqdim etməklə bu Anlaşma Memorandumuna tam və ya qismən xitam verə bilər. Qismən xitamvermə zamanı, belə bildirişdə xitamın nəticəsinin şamil ediləcəyi fəaliyyətlər qeyd edilməlidir. Bu Anlaşma Memorandumuna xitam verilməsi Tərəflərin bu fəaliyyət üçün hər hansı maliyyə və ya digər resursların təqdim edilməsi üzrə hər hansı məsuliyyətinə, lakin bu Anlaşma Memorandumun xitamına qədər üçüncü tərəflə saziş bağlayaraq üzərlərinə götürdükləri ləğvolunmaz öhdəliklərdən irəli gələn ödənişlər istisna olmaqla, xitam verəcək. Milli Bank bu Anlaşma Memoranduma əsasən təqdim olunmuş əmlakdan istifadəyə dair 2.4-cü bənddə qeyd olunmuş öhdəlikləri Anlaşma Memorandumun xitamından sonra da qüvvədə qalacaq. Bundan əlavə, belə bir xitamdan sonra USAID, öz hesabına, bu Anlaşma Memoranduma əsasən ayrılmış əmlakın üzərində mülkiyyət hüququnu, əgər həmin əmlak Azərbaycandan kənarda olan mənbədəndirsə, daşınılan durumdadırsa və Azərbaycana giriş limanlarına boşaldılmamışdırsa, USAID-yə keçirə bilər. Milli Bank bu Anlaşma Memorandumu çərçivəsində USAID-yə verdiyi hər hansı bir töhfəsini bu Anlaşma Memorandumu bitdiyi halda ona qaytarılmayacağına və USAID-in Milli Bankla razılaşdırılmış qərarından asılı olaraq səmərəliliyi mümkün olan dərəcədə ya razılaşdırılmış proqramların icrasını davam etdirməyə və yaxud da Azərbaycan Respublikasında USAID-nin ölkə strategiyasının dəstəklənməsi ilə yanaşı bu Anlaşma Memoranduma daxil olan Tərəflərin ilkin vəzifələrinə nail olmağa kömək edəcək digər proqramların dəstəklənməsinə sərf ediləcəyinə dair öz razılığını bildirir. Tərəflərin hər ikisi bu Anlaşma Memorandumun bitəcəyi halda bu proqram çərçivəsində tərəflərin Milli Banka texniki və təlim xidmətlərinin göstərilməsinə ayırdıqları maliyyə vəsaitlərinin qaytarılmayacağını anlayırlar.

2.12. İddia hüququnun keçməsi: Milli Bank xahiş olunduqda, bu Anlaşma Memorandumu ilə əlaqədar USAID tərəfindən maliyyələşdirilən və USAID ilə imzalanmış sazişlərin Tərəfləri sazişlərdən irəli gələn əməli və ya öhdəliyi pozması ilə əlaqədar yaranmış hər hansı iddia vermək hüququnun ABŞ dolları dəyərində birbaşa USAID-ə keçməsinə razılaşır.

2.13. Müdafiə vasitəsindən imtina edilməməsi: Bu Anlaşma Memorandumla bağlı Tərəflərdən birinin malik olduğu hər hansı hüququn və ya müdafiə vasitəsinin həyata keçirilməsində yol verilmiş ləngimə bu hüquq və ya vasitədən istifadə edilməsindən imtina kimi qiymətləndirilməlidir.

2.14. Dil: Bu Anlaşma Memorandumu Azərbaycan və ingilis dillərində hazırlanmışdır.

İki dildə olan mətnlər arasında hər hansı bir anlaşılmazlıq və ya ziddiyyət olduğu təqdirdə ingilis dilindəki mətnə üstünlük veriləcəkdir.

2.15. Qüvvəyə minmə tarixi: Bu Anlaşma Memorandumu Azərbaycan Respublikası Hökumətinin Amerika Birləşmiş Ştatlarının Beynəlxalq İnkişaf Agentliyinə bu Memorandumun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili şərtlərin yerinə yetirildiyini bildirdiyi gündən etibarən qüvvəyə minir.

Bütün bunların təsdiqi olaraq, Tərəflərin hər biri müvafiq şəkildə səlahiyyətləndirilmiş nümayəndəsi vasitəsilə bu Anlaşma Memorandumunu 25 noyabr 2008-ci il tarixində Bakı şəhərində imzalamışlar.

ELMAN RÜSTƏMOV

Azərbaycanın Respublikası Milli Bankının İdarə Heyətinin sədri

HENRİETA FOR

ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyinin Administratoru, Dövlət Departamentinin Xarici Yardımlar üzrə Direktoru

ANN E. DERSİ

ABŞ-ın Azərbaycandakı Səfirinin iştirakı ilə

"Azərbaycan Respublikası Hökuməti və Yunanıstan Respublikası Hökuməti arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında" Konvensiyanın təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. "Azərbaycan Respublikası Hökuməti və Yunanıstan Respublikası Hökuməti arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında" 2009-cu il fevralın 16-da Afina şəhərində imzalanmış Konvensiya təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 3 aprel 2009-cu il

№ 780-IIIQ

Azərbaycan Respublikası Hökuməti və Yunanıstan Respublikası Hökuməti arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında Konvensiya

Azərbaycan Respublikası Hökuməti və Yunanıstan Respublikası Hökuməti gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında Konvensiya bağlamaq məqsədi ilə

aşağıdakılar barədə razılığa gəldilər:

FƏSİL 1

KONVENSİYANIN ƏHATƏ DAİRƏSİ

Maddə 1

Konvensiyanın tətbiq edildiyi şəxslər

Bu Konvensiya, Razılığa gələn Dövlətlərdən birinin və ya hər ikisinin rezidenti olan şəxslərə tətbiq edilir.

Maddə 2

Konvensiyanın tətbiq edildiyi vergilər

1. Bu Konvensiya, vergitutma üsulundan asılı olmayaraq, Razılığa gələn Dövlət və ya onun inzibati-ərazi vahidləri və ya yerli hakimiyyət orqanları tərəfindən gəlirlərə və əmlaka görə tutulan vergilərə tətbiq edilir.

2. Gəlirlərə və əmlaka görə vergilərə - gəlirin ümumi məbləğindən, əmlakın ümumi dəyərindən və ya gəlirin və ya əmlakın elementlərindən, o cümlədən, daşman və ya daşınmaz əmlakın özgəninkiləşdirilməsindən əldə edilən gəlirlərdən, həmçinin əmlakın dəyərinin artımından tutulan bütün vergilər aiddir.

3. Konvensiyanın tətbiq edildiyi mövcud vergilər xüsusilə aşağıdakılardır:

(a) Azərbaycan Respublikasında:

(i) hüquqi şəxslərin mənfəət vergisi;

(ii) fiziki şəxslərin gəlir vergisi;

(iii) əmlak vergisi;

(bundan sonra "Azərbaycan vergisi" adlanır);

(b) Yunanıstan Respublikasında:

(i) fiziki şəxslərin gəlir və kapital vergisi;

(ii) hüquqi şəxslərin gəlir və kapital vergisi.

(bundan sonra "Yunanıstan vergisi" adlanır).

4. Bu Konvensiya, həmçinin, onun imzalandığı tarixdən sonra mövcud vergilərə əlavə olaraq və ya onların əvəzinə tətbiq edilən istənilən eyni və ya mahiyyətcə oxşar vergilərə də tətbiq edilir. Razılığa gələn Dövlətlərin səlahiyyətli orqanları öz müvafiq vergi qanunvericiliklərində baş verən hər bir əhəmiyyətli dəyişiklik barədə bir-birini xəbərdar edirlər.

FƏSİL II

ANLAYIŞLAR

Maddə 3

Ümumi anlayışlar

1. Kontekst başqa cür tələb etmirsə, bu Konvensiyanın məqsədləri üçün:

(a) "Ərazi" termini müvafiq olaraq Azərbaycan Respublikasının ərazisini və Yunanıstan Respublikasının ərazisini bildirir.

(b) "Razılığa gələn Dövlət" və "Razılığa gələn digər Dövlət" terminləri - kontekstdən asılı olaraq Azərbaycanı və ya Yunanıstanı bildirir;

(c) "şəxs" termini - fiziki şəxsi, şirkəti və şəxslərin hər hansı digər birliklərini bildirir;

(d) "şirkət" termini - hər hansı korporativ qurumu və ya vergi məqsədləri üçün korporativ qurum kimi baxılan hər hansı təşkilatı bildirir;

(e) "Razılığa gələn Dövlətin müəssisəsi" və "Razılığa gələn digər Dövlətin müəssisəsi" terminləri - müvafiq olaraq, Razılığa gələn Dövlətin rezidenti olan müəssisəni və Razılığa gələn digər Dövlətin rezidenti olan müəssisəni bildirir;

(f) "beynəlxalq daşıma" termini - dəniz və ya hava gəmiləri vasitəsilə yerinə yetirilən istənilən daşımaları (dəniz və ya hava gəmisinin müstəsna olaraq Razılığa gələn digər Dövlətin məntəqələri arasında istismar edilməsi halları istisna olmaqla) bildirir;

(g) "milli şəxs" termini:

(i) Razılığa gələn Dövlətin vətəndaşı olan istənilən fiziki şəxsi;

(ii) Özünün müvafiq statusunu Razılığa gələn Dövlətdə qüvvədə olan qanunvericiliyə müvafiq olaraq almış istənilən hüquqi şəxsi, tərəfdaşlığı və ya assosiasiyanı bildirir.

(h) "səlahiyyətli orqan" termini:

(i) Azərbaycanda - Vergilər Nazirliyi və Maliyyə Nazirliyini;

(ii) Yunanıstanda - İqtisadiyyat və Maliyyə Naziri və ya onun səlahiyyətli nümayəndəsini bildirir.

2. Razılığa gələn Dövlət tərəfindən bu Konvensiyanın istənilən vaxt tətbiqi zamanı burada müəyyən edilməmiş hər hansı termin, kontekst başqa cür tələb etmirsə, Konvensiyanın tətbiq edildiyi vergilərə münasibətdə həmin vaxt həmin Dövlətin qanunvericiliyində nəzərdə tutulmuş mənanı daşıyır, həmin Dövlətin tətbiq edilən vergi qanunvericiliyində nəzərdə tutulmuş hər hansı bir məna, həmin terminə həmin Dövlətin digər qanunlarına müvafiq olaraq verilən mənadan üstün tutulur.

Maddə 4

Rezident

1. Bu Konvensiyanın məqsədləri üçün "Razılığa gələn Dövlətin rezidenti" termini həmin Dövlətin qanunvericiliyinə müvafiq olaraq yaşayış yerinə, daimi olduğu yerə, qeydiyyat yerinə, faktiki idarəetmə yerinə və ya oxşar xarakterli hər hansı digər meyara əsasən orada vergiyə cəlb edilə bilən istənilən şəxsi bildirir, həmçinin, həmin Dövləti və onun hər hansı inzibati-ərazi vahidi və ya yerli hakimiyyət orqanını da əhatə edir. Bununla belə, bu termin, yalnız həmin Dövlətdəki mənbələrdən gəlirlərə və ya orada yerləşən əmlaka münasibətdə orada vergiyə cəlb edilə bilən hər hansı şəxsi əhatə etmir.

2. Əgər, 1-ci bəndin müddəalarına müvafiq olaraq, fiziki şəxs Razılığa gələn Dövlətlərdən hər ikisinin rezidentidirsə, bu halda onun statusu aşağıdakı qaydada müəyyən edilir:

(a) o, yalnız daimi yaşayış yerinə malik olduğu Dövlətin rezidenti hesab edilir; əgər onun hər iki Dövlətdə daimi yaşayış yeri vardırsa, o, yalnız şəxsi və iqtisadi əlaqələrinin daha sıx olduğu (həyati mənafelərin mərkəzi) Dövlətin rezidenti hesab edilir;

(b) əgər, onun həyati mənafelərinin mərkəzinin yerləşdiyi Dövləti müəyyən etmək mümkün deyildirsə və ya onun bu Dövlətlərdən heç birində daimi yaşayış yeri yoxdursa, bu halda o, yalnız adətən yaşadığı Dövlətin rezidenti hesab edilir;

(c) əgər o, adətən hər iki Dövlətdə yaşayırsa və ya onlardan heç birində yaşamırsa, o, yalnız milli şəxsi olduğu Dövlətin rezidenti hesab edilir;

(d) əgər o, hər iki Dövlətin milli şəxsidirsə və ya onlardan heç birinin milli şəxsi deyildirsə, Razılığa gələn Dövlətlərin səlahiyyətli orqanları məsələni qarşılıqlı razılaşma yolu ilə həll edirlər.

3. Əgər, 1-ci bəndin müddəalarına müvafiq olaraq, fiziki şəxs olmayan şəxs Razılığa gələn Dövlətlərdən hər ikisinin rezidentidirsə, bu halda o, yalnız qeydiyyatdan keçdiyi və faktiki idarəetmə yerinin yerləşdiyi Dövlətin rezidenti hesab edilir. Qeydiyyat yeri və faktiki idarəetmə yeri eyni Razılığa gələn Dövlətdə olmadığı halda, Razılığa gələn Dövlətlərin səlahiyyətli orqanları məsələni qarşılıqlı razılaşma yolu ilə həll etməyə səy göstərəcəklər.

Maddə 5

Daimi nümayəndəlik

1. Bu Konvensiyanın məqsədləri üçün, "daimi nümayəndəlik" termini, müəssisənin sahibkarlıq fəaliyyətinin tamamilə və ya qismən həyata keçirildiyi daimi fəaliyyət yerini bildirir.

2. "Daimi nümayəndəlik" termini xüsusilə aşağıdakıları əhatə edir:

(a) idarəetmə yeri;

(b) filial;

(c) ofis;

(d) fabrik;

(e) emalatxana

(i) qurğu, tikili və ya gəmi, yaxud təbii ehtiyatların kəşfiyyatı üçün istifadə edilən hər hansı digər yer;

(g) yataq, neft və ya qaz quyusu, karxana və ya təbii ehtiyatların hasil olunduğu hər hansı digər yer.

3. "Daimi nümayəndəlik" terminə həmçinin aşağıdakılar aid edilir:

(a) tikinti meydançası, quraşdırma və ya yığma layihəsi və ya bunlarla bağlı nəzarət fəaliyyəti - yalnız bu cür meydança, layihə və ya fəaliyyət 9 (doqquz) aydan artıq davam etdikdə;

(b) məsləhət xidmətləri də daxil olmaqla, müəssisə tərəfindən öz işçiləri və ya bu cür məqsədlər üçün cəlb edilmiş digər heyət vasitəsilə xidmətlərin göstərilməsi - yalnız bu xarakterli fəaliyyət (eyni və ya əlaqəli layihə üçün) Razılığa gələn Dövlətin hüdudları daxilində istənilən 12 (on iki) aylıq dövr ərzində ümumilikdə 6 (altı) aydan artıq bir dövr və ya dövrlər ərzində davam etdikdə.

4. Bu maddənin əvvəlki müddəalarından asılı olmayaraq, "daimi nümayəndəlik" terminə aşağıdakılar aid edilmir:

(a) qurğulardan müəssisəyə məxsus olan malların və ya məmulatların müstəsna olaraq saxlanılması və ya nümayiş etdirilməsi məqsədi üçün istifadə edilməsi;

(b) müəssisəyə məxsus olan mal və ya məmulat ehtiyatlarının müstəsna olaraq saxlanılma və ya nümayiş etdirilmə məqsədi üçün saxlanılması;

(c) müəssisəyə məxsus olan mal və ya məmulat ehtiyatlarının müstəsna olaraq başqa müəssisə tərəfindən emal edilmək məqsədi üçün saxlanılması;

(d) daimi sahibkarlıq fəaliyyəti yerinin müstəsna olaraq müəssisə üçün mal və ya məmulatların satın alınması və ya informasiya toplanılması məqsədi üçün saxlanılması;

(e) daimi sahibkarlıq fəaliyyəti yerinin müstəsna olaraq müəssisə üçün hazırlıq və ya yardımçı xarakterli istənilən digər fəaliyyətin göstərilməsi məqsədi üçün saxlanılması;

(f) daimi sahibkarlıq fəaliyyəti yerinin müstəsna olaraq (a) - (e) yarımbəndlərində sadalanmış fəaliyyət növlərinin istənilən kombinasiyası üçün saxlanılması - bir şərtlə ki, daimi sahibkarlıq fəaliyyəti yerinin bu kombinasiyanın nəticəsi olan məcmu fəaliyyəti hazırlıq və ya yardımçı xarakter daşısın.

5. 1-ci və 2-ci bəndlərin müddəalarından asılı olmayaraq, əgər 7-ci bəndin tətbiq edildiyi müstəqil statuslu agentdən fərqli şəxs Razılığa gələn Dövlətdə Razılığa gələn digər Dövlətin müəssisəsinin adından fəaliyyət göstərirsə, həmin müəssisə, həmin şəxsin onun üçün həyata keçirdiyi hər hansı fəaliyyətə münasibətdə adı birinci çəkilən Razılığa gələn Dövlətdə daimi nümayəndəliyə malik olan müəssisə hesab edilir, əgər bu cür şəxs:

(a) müəssisənin adından müqavilə bağlamaq səlahiyyətlərinə malikdirsə və adətən adı birinci çəkilən Dövlətdə bu səlahiyyətlərdən istifadə edirsə, bir şərtlə ki, həmin şəxsin fəaliyyəti 4-cü bənddə göstərilmiş fəaliyyətlə məhdudlaşmasın, belə ki, həmin fəaliyyət, hətta daimi sahibkarlıq fəaliyyəti yeri vasitəsilə həyata keçirilsə belə, həmin bəndin müddəalarına əsasən bircür daimi sahibkarlıq fəaliyyəti yerini daimi nümayəndəliyə çevirmir; və ya

(b) Müəssisə üçün öhdəlik yaratmaqla, müqavilənin bütün elementləri və təfsilatları üzrə danışıqlar aparmaq səlahiyyətlərinə malikdirsə, hətta müqavilə digər şəxs tərəfindən müəssisənin yerləşdiyi Razılığa gələn digər Dövlətdə imzalandığı halda belə, Razılığa gələn Dövlətdə öz səlahiyyətlərindən istifadə edən hesab edilə bilər;

(c) bu cür səlahiyyətlərə malik olmadan, adətən adı birinci çəkilən Dövlətdə bu

cür müəssisəyə məxsus olan mal və ya məmulat ehtiyatları saxlayırsa və oradan müntəzəm olaraq həmin müəssisənin adından mal və ya məmulatlar çatdırırsa.

6. Bu maddənin əvvəlki müddəalarından asılı olmayaraq, Razılığa gələn Dövlətin sığorta müəssisəsi Razılığa gələn digər Dövlətin ərazisində 7-ci bəndin tətbiq edildiyi müstəqil statuslu agentdən fərqli şəxs vasitəsilə sığorta mükafatları yığırsa və ya orada yerləşən riskləri sığorta edirsə (təkrarsığorta istisna olmaqla), həmin digər Dövlətdə daimi nümayəndəliyə malik olan müəssisə hesab edilir.

7. Müəssisə Razılığa gələn Dövlətdə sadəcə olaraq broker, baş komisyon agenti və ya müstəqil statuslu hər hansı digər agent vasitəsilə sahibkarlıq fəaliyyətini həyata keçirdiyinə görə həmin Dövlətdə daimi nümayəndəliyə malik olan müəssisə hesab edilmir, bir şərtlə ki, bu cür şəxslər adi fəaliyyətləri çərçivəsində fəaliyyət göstərsinlər.

8. Razılığa gələn Dövlətin rezidenti olan şirkətin Razılığa gələn digər Dövlətin rezidenti olan və ya həmin digər Dövlətdə sahibkarlıq fəaliyyətini həyata keçirən (daimi nümayəndəlik vasitəsilə və ya başqa tərzdə) şirkətə nəzarət etməsi və ya onun nəzarətində olması faktı özlüyündə bu şirkətlərdən heç birini digərinin daimi nümayəndəliyinə çevirmir.

FƏSİL III

GƏLİRİN VERGİYƏ CƏLB EDİLMƏSİ

Maddə 6

Daşınmaz əmlakdan əldə olunan gəlirlər

1. Razılığa gələn Dövlətin rezidenti tərəfindən Razılığa gələn digər Dövlətdə yerləşən daşınmaz əmlakdan əldə edilən gəlirlər (kənd və ya meşə təsərrüfatından gəlirlər də daxil olmaqla) həmin digər Dövlətdə vergiyə cəlb edilə bilər.

2. "Daşınmaz əmlak" termini həmin əmlakın yerləşdiyi Razılığa gələn Dövlətin qanunvericiliyinə əsasən malik olduğu mənanı daşıyır. Bu termin istənilən halda, daşınmaz əmlaka münasibətdə yardımçı əmlakı, kənd və meşə təsərrüfatında istifadə edilən mal-qara və avadanlığı, torpaq mülkiyyəti barədə ümumi qanunvericiliyin müddəalarının tətbiq edildiyi hüquqları, daşınmaz əmlakın uzufruktunu və mineral ehtiyatların, mənbələrin və digər təbii resursların işlənməsi və ya işlənmə hüququ əvəzində ödənilən dəyişkən və ya təsbit olunmuş ödənişlərə olan hüquqları əhatə edir; gəmilər, qayıqlar və hava gəmiləri daşınmaz əmlak hesab edilmir.

3. 1-ci bəndin müddəaları daşınmaz əmlakın birbaşa istifadəsindən, icarəyə verilməsindən və ya hər hansı digər formada istifadəsindən əldə edilən gəlirlərə tətbiq edilir.

4. 1-ci və 3-cü bəndlərin müddəaları, həmçinin, müəssisənin daşınmaz əmlakından gəlirlərə və müstəqil fərdi xidmətlərin göstərilməsi üçün istifadə edilən daşınmaz əmlakdan gəlirlərə də tətbiq edilir.

Maddə 7

Sahibkarlıq fəaliyyətindən əldə olunan mənfəət

1. Razılığa gələn Dövlətin müəssisəsinin mənfəəti yalnız həmin Dövlətdə vergiyə cəlb edilir, bir şərtlə ki, həmin müəssisə sahibkarlıq fəaliyyətini Razılığa gələn digər Dövlətdə, orada yerləşən daimi nümayəndəlik vasitəsilə həyata keçirməsin. Əgər müəssisə sahibkarlıq fəaliyyətini yuxarıda göstərilən tərzdə həyata keçirirsə, bu halda onun mənfəətinin yalnız həmin daimi nümayəndəliyə aid edilə bilən hissəsi həmin digər Dövlətdə vergiyə cəlb edilə bilər.

2. 3-cü bəndin müddəaları nəzərə alınmaqla, əgər Razılığa gələn Dövlətin müəssisəsi Razılığa gələn digər Dövlətdə sahibkarlıq fəaliyyətini orada yerləşən daimi nümayəndəlik vasitəsilə həyata keçirirsə, Razılığa gələn Dövlətlərin hər birində bu daimi nümayəndəliyin mənfəətinə, onun eyni və ya oxşar şəraitdə, eyni və ya oxşar fəaliyyətlə məşğul olan müstəqil və ayrıca müəssisə olduğu və daimi nümayəndəliyi olduğu müəssisədən tamamilə asılı olmadan fəaliyyət göstərdiyi halda əldə edə biləcəyi mənfəət aid edilir.

3. Daimi nümayəndəliyin mənfəəti müəyyən edilərkən, daimi nümayəndəliyin yerləşdiyi Razılığa gələn Dövlətdə və ya hər hansı digər yerdə çəkilməsindən asılı olmayaraq, daimi nümayəndəliyin məqsədləri üçün çəkilmiş xərclərin, o cümlədən, idarəetmə və ümumi inzibati xərclərin çıxılmasına yol verilir.

4. Əgər, Razılığa gələn Dövlətdə daimi nümayəndəliyə aid olan mənfəət adətən müəssisənin ümumi mənfəətinin onun ayrı-ayrı hissələri arasında bölüşdürülməsi əsasında müəyyən edilirsə, bu maddənin 2-ci bəndinin müddəaları, vergiyə cəlb edilməli olan mənfəətin bu cür bölgü vasitəsilə müəyyənləşdirilməsində Razılığa gələn Dövlətə heç bir mancə yaratmır; bununla belə, tətbiq edilən bölgü metodu elə olmalıdır ki, nəticə bu maddədə nəzərdə tutulan prinsiplərə müvafiq olsun.

5. Əvvəlki bəndlərin məqsədləri üçün, daimi nümayəndəliyə aid edilə bilən mənfəət hər il eyni metodla müəyyən edilir, bir şərtlə ki, bunun əksi üçün tutarlı və kifayət qədər əsaslı səbəb olmasın.

6. Əgər, mənfəətə barəsində bu Konvensiyanın digər maddələrində ayrıca söhbət açılan gəlir növləri daxildirsə, bu halda bu maddənin müddəaları həmin maddələrin müddəalarına təsir göstərmir.

Maddə 8

Dəniz və hava nəqliyyatı

1. Beynəlxalq daşımalarla məşğul olan gəmilərinin istismarından əldə edilmiş mənfəət yalnız həmin gəmilərin qeydiyyatdan keçdiyi Razılığa gələn Dövlətdə vergiyə cəlb edilir.

2. 1-ci bəndin müddəaları nəzərə alınmaqla, Razılığa gələn Dövlətin müəssisəsinin gəmilərin beynəlxalq daşımalarda istismarından mənfəəti yalnız həmin Dövlətdə vergiyə cəlb edilir.

3. Razılığa gələn Dövlətin müəssisəsinin hava gəmilərinin beynəlxalq daşımalarda istismarından mənfəəti yalnız həmin Dövlətdə vergiyə cəlb edilir.

4. 1-ci və 2-ci bəndlərin müddəaları həmçinin pulda ("pool"), birgə sahibkarlıq fəaliyyəti və ya beynəlxalq əməliyyat təşkilatında iştirakdan mənfəətə də tətbiq edilir.

Maddə 9

Qarşılıqlı əlaqəli müəssisələr

1. Əgər:

(a) Razılığa gələn Dövlətin müəssisəsi Razılığa gələn digər Dövlətin müəssisəsinin idarə edilməsində, ona nəzarətdə və ya onun kapitalında birbaşa və ya dolayısı ilə iştirak edirsə, və ya

(b) eyni şəxslər Razılığa gələn Dövlətin müəssisəsinin və Razılığa gələn digər Dövlətin müəssisəsinin idarə edilməsində, onlara nəzarətdə və ya onların kapitalında birbaşa və ya dolayısı ilə iştirak edirlərsə,

və hər bir halda bu iki müəssisənin qarşılıqlı kommersiya və ya maliyyə münasibətlərində onlar arasında yaradılmış və ya müəyyən edilmiş şərtlər müstəqil müəssisələr arasında mövcud ola biləcək şərtlərdən fərqlidirsə, bu halda, onlardan birinə hesablana biləcək, lakin bu şərtlər səbəbindən hesablanmamış hər hansı mənfəət, həmin müəssisənin mənfəətinə daxil edilə və müvafiq qaydada vergiyə cəlb edilə bilər.

2. Əgər, Razılığa gələn Dövlət həmin Dövlətin müəssisəsinin mənfəətinə Razılığa gələn digər Dövlətin müəssisəsinin həmin digər Dövlətdə vergiyə cəlb edilmiş mənfəətini daxil edir və müvafiq qaydada vergiyə cəlb edirsə və bu tərzdə daxil edilmiş mənfəət, bu müəssisələr arasındakı münasibətlər müstəqil müəssisələr arasında ola biləcək münasibətlər olduğu halda adı birinci çəkilən Dövlətin müəssisəsinə hesablana biləcək mənfəətdirsə, bu halda, həmin digər Dövlət orada bu mənfəətdən hesablanan verginin məbləğinə müvafiq düzəliş edir. Bu cür düzəlişin müəyyən edilməsində bu Konvensiyanın digər müddəaları müvafiq qaydada nəzərə alınır və Razılığa gələn Dövlətlərin səlahiyyətli orqanları zəruri olduqda bir-biri ilə məsləhətləşmələr aparırlar.

Maddə 10

Dividendlər

1. Razılığa gələn Dövlətin rezidenti olan şirkət tərəfindən Razılığa gələn digər Dövlətin rezidentinə ödənilən dividendlər həmin digər Dövlətdə vergiyə cəlb edilə bilər.

2. Bununla belə, bu cür dividendlər həmçinin həmin dividendləri ödəyən şirkətin rezident olduğu Razılığa gələn Dövlətdə və onun qanunvericiliyinə müvafiq qaydada da vergiyə cəlb edilə bilər, lakin dividendlərin faktiki sahibi Razılığa gələn digər Dövlətin rezidentidirsə, tutulan vergi dividendlərin ümumi məbləğinin 8 faizindən artıq olmamalıdır.

Bu bənd, dividendlər ödənilən mənfəətə münasibətdə şirkətin vergiyə cəlb edilməsinə təsir etmir.

3. Bu maddədə istifadə edilən "dividendlər" termini səhmlərdən, təsisçilərin səhmlərindən (paylarından) və ya borc tələbləri olmayan, mənfəətdə iştirak hüququ verən digər hüquqlardan gəlirləri, o cümlədən, gəlirləri bölüşdürən şirkətin rezident olduğu Dövlətin qanunvericiliyinə müvafiq olaraq, səhmlərdən gəlirlərin cəlb edildiyi eyni qaydada vergitutmaya cəlb edilən digər korporativ hüquqlardan əldə edilən gəlirləri bildirir.

4. 1-ci və 2-ci bəndlərin müddəaları, dividendlərin faktiki sahibinin Razılığa gələn Dövlətin rezidenti olmaqla, dividendləri ödəyən şirkətin rezident olduğu Razılığa gələn digər Dövlətdə sahibkarlıq fəaliyyətini orada yerləşən daimi nümayəndəlik vasitəsilə həyata keçirdiyi və ya həmin digər Dövlətdə orada yerləşən daimi baza vasitəsilə müstəqil fərdi xidmətlər göstərdiyi və dividendlərin ödənilməsi ilə bağlı olan holdinqin bu cür daimi nümayəndəlik və ya daimi baza ilə faktiki olaraq əlaqəli olduğu halda tətbiq edilmir. Bu halda, şəraitdən asılı olaraq, 7-ci və ya 14-cü maddələrin müddəaları tətbiq edilir.

5. Əgər, Razılığa gələn Dövlətin rezidenti olan şirkət Razılığa gələn digər Dövlətdən mənfəət və ya gəlir əldə edirsə, həmin digər Dövlət, hətta şirkət tərəfindən ödənilən dividendlər və ya onun bölüşdürülməmiş mənfəəti tamamilə və ya qismən həmin digər Dövlətdə yaranan mənfəət və ya gəlirdən ibarət olduğu halda belə, dividendlərin həmin digər Dövlətin rezidentinə ödənildiyi və ya dividendlərin ödənilməsi ilə bağlı olan holdinqin həmin digər Dövlətdə yerləşən daimi nümayəndəlik və ya daimi baza ilə faktiki olaraq əlaqəli olduğu hallar istisna edilməklə, nə şirkət tərəfindən ödənilən dividendlərə hər hansı vergi tətbiq edə, nə də şirkətin bölüşdürülməmiş mənfəətini şirkətin bölüşdürülməmiş mənfəəti üzrə vergiyə cəlb edə bilməz.

Maddə 11

Faizlər

1. Razılığa gələn Dövlətdə yaranan və Razılığa gələn digər Dövlətin rezidentinə ödənilən faizlər həmin digər Dövlətdə vergiyə cəlb edilə bilər.

2. Bununla belə, bu cür faizlər həmçinin onların yarandığı Razılığa gələn Dövlətdə və onun qanunvericiliyinə müvafiq qaydada da vergiyə cəlb edilə bilər, lakin faizlərin faktiki sahibi Razılığa gələn digər Dövlətin rezidentidirsə, tutulan vergi faizlərin ümumi məbləğinin 8 faizindən artıq olmamalıdır.

3. 2-ci bəndin müddəalarından asılı olmayaraq:

(a) Azərbaycan Respublikasında yaranan və Yunanıstan Respublikasının Hökumətinə ödənilən faizlər Azərbaycan vergisindən azad edilir;

(b) Yunanıstan Respublikasında yaranan və Azərbaycan Respublikasının Hökumətinə ödənilən faizlər Yunanıstan vergisindən azad edilir.

4. Bu maddədə istifadə edilən "faizlər" termini ipoteka təminatının olub-olmamasından və borcluların mənfəətində iştirak hüququ verib-verməməsindən asılı olmayaraq, istənilən növ borc tələblərindən gəlirləri, və xüsusilə, hökumətin qiymətli kağızlarından gəlirləri və istiqrazlardan və ya borc öhdəliklərindən gəlirləri, o cümlədən bu cür qiymətli kağızlar, istiqrazlar və ya borc öhdəlikləri üzrə mükafatlar və uduşları bildirir. Gecikdirilmiş ödənişlərə görə cərimələr bu maddənin məqsədi üçün faizlər hesab edilmir.

5. 1-ci və 2-ci bəndlərin müddəaları, faizlərin faktiki sahibinin Razılığa gələn Dövlətin rezidenti olmaqla, faizlərin yarandığı Razılığa gələn digər Dövlətdə sahibkarlıq fəaliyyətini orada yerləşən daimi nümayəndəlik vasitəsilə həyata keçirdiyi və ya həmin digər Dövlətdə orada yerləşən daimi baza vasitəsilə müstəqil fərdi xidmətlər göstərdiyi və faizlərin ödənilməsi ilə bağlı olan borc öhdəliyinin bu cür daimi nümayəndəlik və ya da-

imi baza ilə faktiki olaraq əlaqəli olduğu halda tətbiq edilmir. Bu halda, şəraitdən asılı olaraq, 7-ci və ya 14-cü maddələrin müddəaları tətbiq edilir.

6. Faizlərin ödəyicisi Razılığa gələn Dövlətin rezidenti olduğu halda, faizlər həmin Dövlətdə yaranmış hesab edilir. Bununla belə, faizləri ödəyən şəxs Razılığa gələn Dövlətin rezidenti olub-olmamasından asılı olmayaraq, Razılığa gələn Dövlətdə daimi nümayəndəliyə və ya daimi bazaya sahib olduğu və faizlər ödənilən borcun bu cür daimi nümayəndəlik və ya daimi baza ilə bağlı yarandığı və bu faizlərin ödənilməsi üzrə xərclərin bu cür daimi nümayəndəlik və ya daimi baza tərəfindən çəkildiyi halda, bu cür faizlər daimi nümayəndəliyin və ya daimi bazanın yerləşdiyi Dövlətdə yaranmış hesab edilir.

7. Əgər, ödəyici və faktiki sahib arasında və ya onların hər ikisi ilə hər hansı digər şəxs arasındakı xüsusi münasibətlər səbəbindən, borc tələbi ilə əlaqədar ödənilən faizlərin məbləği, bu münasibətlər olmadığı halda ödəyici və faktiki sahib arasında razılaşdırıla biləcək məbləğdən artıqdırsa, bu maddənin müddəaları yalnız adı sonuncu çəkilən məbləğə tətbiq edilir. Bu halda, ödənişlərin artıq hissəsi, bu Konvensiyanın digər müddəaları müvafiq qaydada nəzərə alınmaqla, Razılığa gələn Dövlətlərdən hər birinin qanunvericiliyinə müvafiq qaydada vergiyə cəlb edilir.

Maddə 12

Royaltilər

1. Razılığa gələn Dövlətdə yaranan və Razılığa gələn digər Dövlətin rezidentinə ödənilən royaltilər həmin digər Dövlətdə vergiyə cəlb edilə bilər.

2. Bununla belə, bu cür royaltilər həmçinin onların yarandığı Razılığa gələn Dövlətdə və onun qanunvericiliyinə müvafiq qaydada da vergiyə cəlb edilə bilər, lakin royaltilərin faktiki sahibi Razılığa gələn digər Dövlətin rezidentidirsə, tutulan vergi royaltilərin ümumi məbləğinin 8 faizindən artıq olmamalıdır.

3. Razılığa gələn Dövlətlərin səlahiyyətli orqanları bu məhdudiyyətlərin tətbiq olunma formasını qarşılıqlı razılaşma yolu ilə müəyyən edirlər.

3. Bu maddədə istifadə olunan "royaltilər" termini hər hansı ədəbiyyat, incəsənət və ya elm əsərləri, o cümlədən kinofilmlər üzrə müəlliflik hüquqlarının və televiziya və ya radio yayımları, yaxud peyk, fibro-optik kabel və ya yayım üçün tətbiq edilən oxşar texnologiya vasitəsilə yayımlarda istifadə edilən lent və ya kassetlərin, maqnit kassetlərinin və ya lazer disklərinin, kompüter proqram təminatı, hər hansı patent, ticarət markası, dizayn və ya model, plan, məxfi formula və ya prosesin istifadəsi və ya istifadə hüququ əvəzində və ya sənaye, kommersiya və ya elmi avadanlığın istifadəsi və ya istifadə hüququ əvəzində, yaxud sənaye, kommersiya və ya elmi təcrübəyə (know-how) dair informasiya əvəzində alınan istənilən növ ödənişləri bildirir.

4. 1-ci və 2-ci bəndlərin müddəaları, royaltilərin faktiki sahibinin Razılığa gələn Dövlətin rezidenti olmaqla, royaltilərin yarandığı Razılığa gələn digər Dövlətdə sahibkarlıq fəaliyyətini orada yerləşən daimi nümayəndəlik vasitəsilə həyata keçirdiyi və ya həmin digər Dövlətdə orada yerləşən daimi baza vasitəsilə müstəqil fərdi xidmətlər göstərdiyi və royaltilərin ödənilməsi ilə bağlı olan hüquq və ya əmlakın bu cür daimi nümayəndəlik və ya daimi baza ilə faktiki olaraq əlaqəli olduğu halda tətbiq edilmir. Bu halda, şəra-

...dən asılı olaraq, 7-ci və ya 14-cü maddələrin müddəaları tətbiq edilir.

5. Royaltilərin ödəyicisi Razılığa gələn Dövlətin rezidenti olduğu halda, royaltilər həmin Dövlətdə yaranmış hesab edilir. Bununla belə, royaltiləri ödəyən şəxs Razılığa gələn Dövlətin rezidenti olub-olmamasından asılı olmayaraq, Razılığa gələn Dövlətdə daimi nümayəndəliyə və ya daimi bazaya sahib olduğu və royaltiləri ödəmək öhdəliyinin bu cür daimi nümayəndəlik və ya daimi baza ilə bağlı yarandığı və bu royaltilərin ödənilməsi üzrə xərclərin bu cür daimi nümayəndəlik və ya daimi baza tərəfindən çəkildiyi halda, bu cür royaltilər daimi nümayəndəliyin və ya daimi bazanın yerləşdiyi Dövlətdə yaranmış hesab edilir.

6. Əgər, ödəyici və faktiki sahibi arasında və ya onların hər ikisi ilə hər hansı digər şəxs arasındakı xüsusi münasibətlər səbəbindən istifadə. hüquq və ya informasiya ilə əlaqədar ödənilən royaltilərin məbləği, bu münasibətlər olmadığı halda ödəyici və faktiki sahib arasında razılaşdırıla biləcək məbləğdən artıqdırsa, bu maddənin müddəaları yalnız adı sonuncu çəkilən məbləğə tətbiq edilir. Bu halda. ödənişlərin artıq hissəsi, bu Konvensiyanın digər müddəaları müvafiq qaydada nəzərə alınmaqla, Razılığa gələn Dövlətlərdən hər birinin qanunvericiliyinə müvafiq qaydada vergiyə cəlb edilir.

Maddə 13

Əmlakın dəyərinin artımından əldə olunan gəlirlər

1. Razılığa gələn Dövlətin rezidenti tərəfindən, 6-cı maddədə qeyd edilmiş və Razılığa gələn digər Dövlətdə yerləşən daşınmaz əmlakın özgəninkiləşdirilməsindən əldə edilən gəlirlər həmin digər Dövlətdə vergiyə cəlb edilə bilər.

2. Razılığa gələn Dövlətin rezidenti tərəfindən, dəyərinin 50 faizindən çoxunu bilavasitə və ya dolayısı ilə Razılığa gələn digər Dövlətdə yerləşən daşınmaz əmlakdan əldə edən səhmlərin və ya digər korporativ hüquqların özgəninkiləşdirilməsindən əldə edilən gəlirlər həmin digər Dövlətdə vergiyə cəlb edilə bilər.

3. Razılığa gələn Dövlətin müəssisəsinin Razılığa gələn digər Dövlətdə sahib olduğu daimi nümayəndəliyinin kommersiya əmlakının bir hissəsini təşkil edən daşınan əmlakın və ya Razılığa gələn Dövlətin rezidentinin müstəqil fərdi xidmətlər göstərmək məqsədi üçün Razılığa gələn digər Dövlətdə sərəncamında olan daimi bazaya aid daşınan əmlakın özgəninkiləşdirilməsindən gəlirlər, bu cür daimi nümayəndəliyin (ayrılıqda və ya bütün müəssisə ilə birlikdə) və ya bu cür daimi bazanın özgəninkiləşdirilməsindən gəlirlər də daxil olmaqla həmin digər Dövlətdə vergiyə cəlb edilə bilər.

4. Razılığa gələn Dövlətin müəssisəsi tərəfindən beynəlxalq daşımalarda istismar edilən dəniz və ya hava gəmilərinin və ya bu cür dəniz və ya hava gəmilərinin istismarı ilə bağlı olan daşınan əmlakın özgəninkiləşdirilməsindən əldə edilən gəlirlər 8-ci maddənin müddəalarına əsasən bu gəmilərin istismarından mənfəətin vergiyə cəlb edildiyi Razılığa gələn Dövlətdə vergiyə cəlb edilir.

5. Bu maddənin 1-ci, 2-ci, 3-cü və 4-cü bəndlərində qeyd edilənlər istisna edilməklə, hər hansı əmlakın özgəninkiləşdirilməsindən gəlirlər, yalnız əmlakı özgəninkiləşdirən şəxsin rezident olduğu Razılığa gələn Dövlətdə vergiyə cəlb edilir.

Maddə 14

Müstəqil fərdi xidmətlər

1. Razılığa gələn Dövlətin rezidenti tərəfindən peşəkar xidmətlərdən və ya müstəqil xarakterli digər fəaliyyətlərdən əldə edilən gəlirlər, bu cür gəlirlərin həmçinin Razılığa gələn digər Dövlətdə də vergiyə cəlb edilə biləcəyi aşağıdakı hallar istisna edilməklə, yalnız həmin Dövlətdə vergiyə cəlb edilir:

(a) Əgər o, öz fəaliyyətini həyata keçirmək məqsədi üçün Razılığa gələn digər Dövlətdə müntəzəm istifadə etdiyi daimi bazaya sahibdirsə: bu halda, gəlirin yalnız həmin daimi bazaya aid edilə bilən hissəsi Razılığa gələn digər Dövlətdə vergiyə cəlb edilə bilər; və ya

(b) Əgər o, cari təqvim ilində başlayan və ya başa çatan istənilən 12 (on iki) aylıq dövr ərzində ümumilikdə 183 (yüz səksən üç) günə bərabər və ya ondan artıq bir dövr və ya dövrlər ərzində Razılığa gələn digər Dövlətdə qalırsa: bu halda gəlirin yalnız həmin digər Dövlətdə həyata keçirilən fəaliyyətdən əldə edilən hissəsi həmin digər Dövlətdə vergiyə cəlb edilə bilər.

2. "Peşəkar xidmətlər" terminində xüsusilə müstəqil elmi, ədəbi, artistlik, təhsil və ya tədris fəaliyyəti ilə yanaşı, həkimlərin, hüquqşünasların, mühəndislərin, memarların, stomatoloqların, mühasiblərin və auditorların müstəqil fəaliyyəti daxildir.

Maddə 15

Qeyri-müstəqil fərdi xidmətlər

1. 16-cı, 18-ci və 19-cu maddələrin müddəaları nəzərə alınmaqla, Razılığa gələn Dövlətin rezidenti tərəfindən muzdlu işlə bağlı əldə edilən maaş, əmək haqqı və digər oxşar mükafatlar yalnız həmin Dövlətdə vergiyə cəlb edilir, bir şərtlə ki, muzdlu iş Razılığa gələn digər Dövlətdə həyata keçirilməsin. Əgər muzdlu iş Razılığa gələn digər Dövlətdə həyata keçirilirsə, onunla bağlı orada əldə edilən bu cür mükafatlar həmin digər Dövlətdə vergiyə cəlb edilə bilər.

2. 1-ci bəndin müddəalarından asılı olmayaraq, Razılığa gələn Dövlətin rezidenti tərəfindən Razılığa gələn digər Dövlətdə həyata keçirilən muzdlu işlə bağlı əldə edilən mükafat yalnız adı birinci çəkilən Dövlətdə vergiyə cəlb edilir, əgər:

(a) resipient digər Dövlətdə cari vergi ilində başlayan və ya başa çatan istənilən 12 (on iki) aylıq dövr ərzində ümumilikdə 183 (yüz səksən üç) gündən artıq olmayan bir dövr və ya dövrlər ərzində qalırsa, və

(b) mükafat digər Dövlətin rezidenti olmayan işəgötürən tərəfindən və ya onun adından ödənilirsə, və

(c) mükafatların ödənilməsi üzrə xərclər işəgötürənin digər Dövlətdə sahib olduğu daimi nümayəndəlik və ya daimi baza tərəfindən çəkilmirsə.

3. Bu maddənin əvvəlki müddəalarından asılı olmayaraq, Razılığa gələn Dövlətin müəssisəsi tərəfindən beynəlxalq daşımalarda istismar edilən dəniz və ya hava gəmisinin göyərtəsində həyata keçirilən muzdlu işlə bağlı əldə edilən mükafatlar 8-ci maddənin müddəalarına əsasən bu gəmilərin istismarından mənfəətin vergiyə cəlb edildiyi Razılığa gələn Dövlətdə vergiyə cəlb edilə bilər.

Maddə 16

Direktorların qonorarları

Razılığa gələn Dövlətin rezidenti tərəfindən Razılığa gələn digər Dövlətin rezidenti olan şirkətin direktorlar şurasının və ya nəzarət şurasının, yaxud digər oxşar orqanının üzvü qismində əldə edilən qonorarlar və digər oxşar ödənişlər həmin digər Dövlətdə vergiyə cəlb edilə bilər.

Maddə 17

İncəsənət işçiləri və idmançılar

1. 14-cü və 15-ci maddələrin müddəalarından asılı olmayaraq, Razılığa gələn Dövlətin rezidenti tərəfindən teatr, kino, estrada, radio və ya televiziya artisti və ya musiqiçi qismində Razılığa gələn digər Dövlətdə həyata keçirilən incəsənət işçisi kimi və ya idmançı kimi fərdi fəaliyyətdən əldə edilən gəlir həmin digər Dövlətdə vergiyə cəlb edilə bilər.

2. Əgər, incəsənət işçisi və ya idmançının bu cür şəxs kimi fərdi fəaliyyəti ilə bağlı gəlir incəsənət işçisi və ya idmançının özünə deyil, digər şəxsə hesablanırsa, həmin gəlir, 7-ci, 14-cü və 15-ci maddələrin müddəalarından asılı olmayaraq, incəsənət işçisi və ya idmançının fəaliyyətinin həyata keçirildiyi Razılığa gələn Dövlətdə vergiyə cəlb edilə bilər.

3. 1-ci və 2-ci bəndlərin müddəalarına baxmayaraq, 1-ci bənddə göstərilən və Razılığa gələn Dövlətlər arasında mədəni müqavilə və ya razılaşmaya müvafiq olaraq həyata keçirilən fəaliyyətdən əldə edilən gəlir, Razılığa gələn Dövlətə vizit tamamilə və ya əsasən Razılığa gələn digər Dövlətin, yaxud onun inzibati-ərazi vahidi və ya yerli hakimiyyət orqanlarının dövlət fondlarından maliyyələşdirildiyi təqdirdə Razılığa gələn Dövlətdə vergidən azad olunacaqdır.

Maddə 18

Təqaüdlər

19-cu maddənin 2-ci bəndinin müddəaları nəzərə alınmaqla, Razılığa gələn Dövlətin rezidentinə keçmişdəki muzdlu işlə bağlı ödənilən təqaüdlər və digər oxşar mükafatlar yalnız həmin Dövlətdə vergiyə cəlb edilir.

Maddə 19

Dövlət qulluğu

1. (a) Razılığa gələn Dövlət və ya onun inzibati-ərazi vahidi və ya yerli hakimiyyət orqanı tərəfindən fiziki şəxsə, həmin Dövlətə və ya bölməyə, yaxud hakimiyyət orqanına göstərilən xidmətlərlə bağlı ödənilən təqaüd olmayan maaş, əmək haqqı və digər oxşar mükafatlar yalnız həmin Dövlətdə vergiyə cəlb edilir.

(b) Bununla belə, əgər xidmətlər Razılığa gələn digər Dövlətdə göstərilirsə və fiziki şəxs həmin Dövlətin rezidentidirsə və, o:

(i) həmin Dövlətin milli şəxsidirsə; və ya

(ii) yalnız qulluq göstərmək məqsədi üçün həmin Dövlətin rezidenti olmamışdırsa,

bu cür maaş, əmək haqqı və digər oxşar mükafatlar yalnız Razılığa gələn digər Dövlətdə vergiyə cəlb edilir.

2. a) Razılığa gələn Dövlət və y a onun inzibati-ərazi vahidi və ya yerli hakimiyyət orqanı tərəfindən və ya onlar tərəfindən yaradılmış fondlardan fiziki şəxsə, həmin Dövlətə və ya bölməyə, yaxud hakimiyyət orqanına göstərilən xidmətlərlə bağlı ödənilən təqaüd yalnız həmin Dövlətdə vergiyə cəlb edilir.

(b) Bununla belə, əgər fiziki şəxs Razılığa gələn digər Dövlətin rezidenti və milli şəxsidirsə, bu cür təqaüd yalnız həmin digər Dövlətdə vergiyə cəlb edilir.

3. 15-ci, 16-cı. 17-ci və 18-ci maddələrin müddəaları Razılığa gələn Dövlətin və ya onun inzibati-ərazi vahidinin v ə ya yerli hakimiyyət orqanının sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi ilə bağlı göstərilən xidmətlərlə əlaqədar ödənilən maaş, əmək haqqı və digər oxşar mükafatlara və təqaüdlərə tətbiq edilir.

Maddə 20

Tələbələr

Razılığa gələn Dövlətin rezidenti olan və ya Razılığa gələn digər Dövlətə gəlməzdən bilavasitə əvvəl adı birinci çəkilən Dövlətin rezidenti olmuş və həmin digər Dövlətdə yalnız təhsil və ya təlim almaq məqsədilə olan tələbələrin və ya təcrübə keçən şəxslərin yaşamaq, təhsil və ya təlim almaq məqsədilə aldıqları ödənişlər həmin digər Dövlətdə vergiyə cəlb edilmir, bir şərtlə ki, bu cür ödənişlərin mənbəyi həmin digər Dövlətdən kənarda olsun.

Maddə 21

Digər gəlirlər

1. Razılığa gələn Dövlətin rezidentinin, barəsində bu Konvensiyanın əvvəlki maddələrində söhbət açılmayan gəlir növləri, yaranma mənbəyindən asılı olmayaraq yalnız həmin Dövlətdə vergiyə cəlb edilir.

2. 1-ci bəndin müddəaları, 6-cı maddənin 2-ci bəndinə əsasən müəyyən edilmiş daşınmaz əmlakdan əldə olunan gəlirlərdən fərqli olan digər gəlirlərə, bu gəlirlərin resipienti Razılığa gələn Dövlətin rezidenti olmaqla sahibkarlıq fəaliyyətini Razılığa gələn digər Dövlətdə orada yerləşən daimi nümayəndəlik vasitəsilə həyata keçirdiyi və ya həmin digər Dövlətdə orada yerləşən daimi baza vasitəsilə müstəqil fərdi xidmətlər göstərdiyi və gəlirin ödənilməsi ilə bağlı olan hüquq və ya əmlakın bu cür daimi nümayəndəlik və ya daimi baza ilə faktiki olaraq əlaqəli olduğu halda tətbiq edilmir. Bu halda, şəraitdən asılı olaraq, 7-ci və ya 14-cü maddələrin müddəaları tətbiq edilir.

3. 1-ci və 2-ci bəndlərin müddəalarından asılı olmayaraq, Razılığa gələn Dövlətdə yaranan uduşlu oyunlar və lotereyalardan uduşlar formasında gəlirlər, həmçinin həmin digər Dövlətdə vergiyə cəlb edilə bilər.

FƏSİL IV

ƏMLAKIN VERGİYƏ CƏLB EDİLMƏSİ

Maddə 22

Əmlak

1. 6-cı maddədə qeyd edilmiş, Razılığa gələn Dövlətin rezidentinə məxsus olan və Razılığa gələn digər Dövlətdə yerləşən daşınmaz əmlakla ifadə olunmuş əmlak həmin digər Dövlətdə vergiyə cəlb edilə bilər.

2. Razılığa gələn Dövlətin müəssisəsinin Razılığa gələn digər Dövlətdə sahib olduğu daimi nümayəndəliyinin kommersiya əmlakının bir hissəsini təşkil edən daşman əmlakla və ya Razılığa gələn Dövlətin rezidentinin müstəqil fərdi xidmətlər göstərmək məqsədi üçün Razılığa gələn digər Dövlətdə sərəncamında olan daimi bazaya aid daşman əmlakla ifadə olunmuş əmlak həmin digər Dövlətdə vergiyə cəlb edilə bilər.

3. Razılığa gələn Dövlətin müəssisəsi tərəfindən beynəlxalq daşımalarda istismar edilən dəniz və ya hava gəmiləri və ya onların istismarı ilə bağlı olan daşınan əmlakla təmsil olunmuş əmlak 8-ci maddənin müddəalarına əsasən bu gəmilərin istismarından mənfəətin vergiyə cəlb edildiyi Razılığa gələn Dövlətdə vergiyə cəlb edilir.

4. Razılığa gələn Dövlətin rezidentinin bütün digər əmlak elementləri yalnız həmin Dövlətdə vergiyə cəlb edilir.

FƏSİL V

İKİQAT VERGİTUTMANIN ARADAN QALDIRILMASI METODU

Maddə 23

İkiqat vergitutmanın aradan qaldırılması metodu

Əgər Razılığa gələn Dövlətin rezidenti, bu Konvensiyanın müddəalarına müvafiq olaraq Razılığa gələn digər Dövlətdə vergiyə cəlb edilə bilən gəlir əldə edirsə və ya əmlaka sahibdirsə, adı birinci çəkilən Dövlət:

(a) həmin rezidentin gəlir vergisindən həmin digər Dövlətdə ödənilmiş gəlir vergisinin;

(b) həmin rezidentin əmlak vergisindən həmin digər Dövlətdə ödənilmiş əmlak vergisinin.

Heç bir halda, bu cür çıxılma, çıxılma verilməzdən əvvəl hesablanmış və şəraitdən asılı olaraq, həmin digər Dövlətdə vergiyə cəlb edilə bilən gəlirə və ya əmlaka aid verginin məbləğindən artıq olmamalıdır.

FƏSİL VI

XÜSUSİ MÜDDƏALAR

Maddə 24

Ayrı-seçkiliyə yol verilməməsi

1. Razılığa gələn Dövlətin milli şəxsləri Razılığa gələn digər Dövlətdə həmin digər Dövlətin milli şəxslərinin eyni şəraitdə, xüsusilə, rezidentliyə münasibətdə cəlb edildi-

yi və ya cəlb edilə biləcəyi vergitutma və ya bununla bağlı olan öhdəliklərdən fərqli və ya daha ağır olan vergitutma və ya bununla bağlı olan öhdəliklərə cəlb edilməməlidir. Bu müddəa, 1-ci maddənin müddəalarından asılı olmayaraq, həmçinin Razılığa gələn Dövlətlərdən birinin və ya hər ikisinin rezidenti olmayan şəxslərə də tətbiq edilir.

2. Razılığa gələn Dövlətin rezidenti olan vətəndaşlığı olmayan şəxslər, Razılığa gələn Dövlətlərdən heç birində həmin Dövlətin milli şəxslərinin eyni şəraitdə, xüsusilə, rezidentliyə münasibətdə cəlb edildiyi və ya cəlb edilə biləcəyi vergitutma və ya bununla bağlı olan öhdəliklərdən fərqli və ya daha ağır olan vergitutma və ya bununla bağlı olan öhdəliklərə cəlb edilməməlidir.

3. Razılığa gələn Dövlətin müəssisəsinin Razılığa gələn digər Dövlətdə sahib olduğu daimi nümayəndəliyinin vergiyə cəlb edilməsi həmin digər Dövlətdə həmin digər Dövlətin eyni fəaliyyətlə məşğul olan müəssisələrinin vergiyə cəlb edilməsindən az əlverişli olmamalıdır.

Bu müddəa, Razılığa gələn Dövlətin üzərinə onun, mülki status və ya ailə öhdəlikləri nəzərə alınmaqla öz rezidentlərinə verdiyi verigitutma məqsədləri üçün hər hansı şəxsi imtiyazların, güzəştlərin və çıxılmaların Razılığa gələn digər Dövlətin rezidentlərinə də verilməsi öhdəliyinin qoyulması kimi təfsir edilməməlidir.

4. 9-cu maddənin 1-ci bəndinin. II-ci maddənin 6-cı bəndinin və ya 12-ci maddənin 6-cı bəndinin müddəalarının tətbiq edildiyi hallar istisna edilməklə, Razılığa gələn Dövlətin müəssisəsi tərəfindən Razılığa gələn digər Dövlətin rezidentinə ödənilən faizlər, royaltilər və digər ödənişlər, bu cür müəssisənin vergiyə cəlb edilməli olan mənfəətinin müəyyən edilməsi məqsədilə, adı birinci çəkilən Dövlətin rezidentinə ödənildiyi halda tətbiq olunan eyni şərtlər əsasında çıxılmalıdır. Eynilə, Razılığa gələn Dövlətin müəssisəsinin Razılığa gələn digər Dövlətin rezidentinə olan hər hansı bir borcu, həmin müəssisənin vergiyə cəlb edilməli olan kapitalının müəyyən edilməsi məqsədilə adı birinci çəkilən Dövlətin rezidentinə olan borc kimi eyni şərtlər əsasında çıxılmalıdır.

5. Razılığa gələn Dövlətin, əmlakı tamamilə və ya qismən Razılığa gələn digər Dövlətin rezidentinə və ya rezidentlərinə məxsus olan və ya onların birbaşa və ya dolayı nəzarəti altında olan müəssisəsi adı birinci çəkilən Dövlətdə həmin Dövlətin digər oxşar müəssisələrinin cəlb edildiyi və ya cəlb edilə biləcəyi vergitutma və ya bununla bağlı olan öhdəliklərdən fərqli və ya daha ağır olan vergitutma və ya bununla bağlı olan öhdəliklərə cəlb edilə bilməz.

6. Bu maddənin müddəaları, 2-ci maddənin müddəalarından asılı olmayaraq, istənilən növlü və xarakterli vergilərə tətbiq edilir.

Maddə 25

Qarşılıqlı razılaşma proseduru

1. Əgər hər hansı şəxs Razılığa gələn Dövlətlərdən birinin və ya hər ikisinin hərəkətlərinin onun bu Konvensiyanın müddəalarına uyğun olmayan tərzdə vergiyə cəlb edilməsinə gətirib çıxardığını və ya gətirib çıxaracağını zənn edirsə, həmin şəxs, həmin Dövlətlərin daxili qanunvericiliklərində nəzərdə tutulmuş müdafiə vasitələrindən asılı olmayaraq, bu işlə bağlı rezident olduğu Dövlətin və ya bu hal 24-cü maddənin 1-ci bəndinin əhatə dairəsinə aiddirsə, milli şəxsi olduğu Razılığa gələn Dövlətin səlahiyyətli orqanlarına müraciət edə bilər. Müraciət, bu Konvensiyanın müddəalarına uyğun olmayan vergitutmaya gətirib çıxaran hərəkətlər haqqında ilk məlumat tarixindən etibarən 3 il ərzində təqdim edilməlidir.

2. Əgər, səlahiyyətli orqan etirazı əsaslandırılmış hesab edərək, eyni zamanda, qənaətbəxş qərara gələ bilmirsə, bu Konvensiyanın müddəalarına uyğun olmayan vergitutmanın qarşısının alınması məqsədilə məsələni Razılığa gələn digər Dövlətin səlahiyyətli orqanı ilə qarşılıqlı razılıq yolu ilə həll etməyə səy göstərir. Əldə edilmiş hər hansı bir razılıq, Razılığa gələn Dövlətin daxili qanunvericiliyində nəzərdə tutulmuş hər hansı zaman məhdudiyyətlərindən asılı olmayaraq həyata keçirilməlidir.

4. Razılığa gələn Dövlətlərin səlahiyyətli orqanları bu Konvensiyanın təfsiri və ya tətbiqi ilə bağlı meydana çıxan bütün çətinlikləri və ya şübhələri qarşılıqlı razılıq yolu ilə həll etməyə səy göstərməlidirlər. Onlar, həmçinin bu Konvensiyada nəzərdə tutulmamış hallarda ikiqat vergitutmanın aradan qaldırması üçün bir-biri ilə məsləhətləşmələr apara bilərlər.

5. Razılığa gələn Dövlətlərin səlahiyyətli orqanları, əvvəlki bəndlərin anlaşılmasında razılığın əldə edilməsi məqsədilə bir-biri ilə birbaşa, o cümlədən onların özləri və ya nümayəndələrindən ibarət olan birgə komissiya vasitəsilə əlaqələr yarada bilərlər.

Maddə 26

İnformasiya mübadiləsi

1. Razılığa gələn Dövlətlərin səlahiyyətli orqanları bu Konvensiyanın müddəalarının yerinə yetirilməsi və ya Razılığa gələn Dövlətlər və ya onların inzibati-ərazi vahidləri və ya yerli hakimiyyət orqanları tərəfindən tutulan istənilən növlü və xarakterli vergilərlə bağlı daxili qanunvericiliklərin inzibatçılığı və tətbiqi üçün zəruri olan informasiya mübadiləsi həyata keçirirlər, bir şərtlə ki, həmin qanunvericilikdə nəzərdə tutulmuş vergitutma bu Konvensiyaya zidd olmasın. İnformasiya mübadiləsi 1-ci və 2-ci maddələrlə məhdudlaşmır.

2. Razılığa gələn Dövlət tərəfindən əldə edilmiş hər hansı informasiya, həmin Dövlətin daxili qanunvericiliyi əsasında əldə edilmiş informasiyaya tətbiq edilən eyni qayda əsasında məxfi hesab edilir və yalnız 1-ci cümlədə göstərilən vergilərin hesablanması və ya toplanması, məcburi alınması və ya prosessual qaydada təqib edilməsi, yaxud həmin vergilərlə bağlı şikayətlərə baxılması ilə məşğul olan şəxslərə və ya orqanlara (o cümlədən, məhkəmələrə və inzibati orqanlara) açıqlanır. Bu cür şəxslər və ya orqanlar həmin informasiyadan yalnız bu cür məqsədlər üçün istifadə edirlər. Onlar bu informasiyanı açıq məhkəmə istintaqı və ya məhkəmə qərarlarında açıqlaya bilərlər.

3. Heç bir halda, 1-ci və 2-ci bəndlərin müddəaları Razılığa gələn Dövlətlərin üzərinə aşağıdakı öhdəliklərin qoyulması kimi şərh edilməməlidir:

(a) bu və ya digər Razılığa gələn Dövlətin qanunvericiliyində və inzibati təcrübəsində nəzərdə tutulmuş tədbirlərdən fərqli olan inzibati tədbirlər həyata keçirmək;

(b) bu və ya digər Razılığa gələn Dövlətin qanunvericiliyi və ya adi inzibatçılığı əsasında əldə edilməsi mümkün olmayan informasiya vermək;

(c) hər hansı ticarət, sahibkarlıq, sənaye, kommersiya və ya peşə sirrini, yaxud ti-

carət prosesini açа biləcək informasiya və ya açılması dövlət siyasətinə (ordre public) zidd olan informasiya vermək.

4. Əgər Razılığa gələn Dövlət tərəfindən bu maddəyə müvafiq olaraq informasiya əldə edilməsi üçün sorğu verilirsə, Razılığa gələn digər Dövlət, hətta öz vergi məqsədləri üçün bu informasiyaya ehtiyacı olmadıqda belə, sorğu edilmiş informasiyanın əldə edilməsi üçün özünün informasiya əldə etmə vasitələrindən istifadə edəcək. Əvvəlki cümlədə göstərilmiş öhdəlik 3-cü bəndin məhdudiyyətlərinə tabedir, lakin. bu məhdudiyyətlər Razılığa gələn Dövlətə hər-hansı informasiyanın əldə edilməsində daxili marağının olmaması səbəbindən bu informasiyanın təqdim edilməsindən imtina etməyə imkan verən kimi təfsir edilməməlidir.

Maddə 27

Vergilərin yığılmasında yardım

1. Razılığa gələn Dövlətlər gəlir tələblərinin alınmasında bir-birinə yardım edəcəklər. Bu yardım 1-ci və 2-ci maddələrdə göstərilmiş vergilər və şəxslərlə məhdudlaşmır. Razılığa gələn Dövlətlərin səlahiyyətli orqanları bu maddənin tətbiq olunma formasını qarşılıqlı razılaşma yolu ilə müəyyən edə bilərlər.

2. Bu maddədə istifadə edilən "gəlir tələbləri" termini Konvensiyanın tətbiq edildiyi vergilərə münasibətdə ödənilməli olan istənilən məbləği, həmçinin bu cür məbləğlərlə bağlı faizləri, inzibati cərimələri və vergilərin yığılması və ya əmlaka həbs qoyulması ilə bağlı xərcləri ifadə edir, bir şərtlə ki, bu vergitutma bu Konvensiyaya və ya Razılığa gələn Dövlətlərin tərəf olduqları hər hansı digər sənədə zidd olmasın.

3. Əgər Razılığa gələn Dövlətin gəlir tələbi həmin Dövlətin qanunlarına müvafiq olaraq məcburi alma bilərsə və həmin vaxt həmin Dövlətin qanunlarına əsasən onun alınmasının qarşısını ala bilməyən şəxs tərəfindən ödənilməlidirsə, bu gəlir tələbi həmin Dövlətin səlahiyyətli orqanının müraciəti əsasında Razılığa gələn digər Dövlətin səlahiyyətli orqanı tərəfindən icra məqsədilə qəbul ediləcəkdir, həmin gəlir tələbi həmin digər Dövlət tərəfindən öz vergi tələbi kimi onun özünün vergilərinin məcburi alınması və yığılmasına tətbiq edilən qanunlarının müddəalaRIna müvafiq qaydada alınacaqdır.

4. Əgər Razılığa gələn Dövlətin gəlir tələbi, həmin Dövlətin, özünün qanunlarına əsasən onun alınmasını təmin etmək məqsədilə ona münasibətdə əmlaka həbs qoyulması tədbirlərini həyata keçirə biləcəyi tələbdirsə, bu halda həmin gəlir tələbi Razılığa gələn Dövlətin səlahiyyətli orqanının müraciəti əsasında Razılığa gələn digər Dövlətin səlahiyyətli orqanı tərəfindən əmlaka həbs qoyulması tədbirlərinin həyata keçirilməsi məqsədilə qəbul ediləcəkdir. Həmin digər Dövlət, hətta həmin vaxt gəlir tələbi adi birinci çəkilən Dövlətdə məcburi alma bilmədikdə və ya onu ödəməli olan şəxsin onun alınmasının qarşısını almaq hüququ olduqda belə, həmin gəlir tələbinə münasibətdə öz gəlir tələbi kimi öz qanunlarının müddəalarına müvafiq olaraq əmlaka həbs qoyma tədbirlərini tətbiq edəcəkdir.

5. 3-cü və 4-cü bəndlərin müddəalarına baxmayaraq, Razılığa gələn Dövlət tərəfindən 3-cü və ya 4-cü bəndlərin məqsədləri üçün qəbul edilmiş gəlir tələbi həmin Dövlətdə özünün xarakterinə görə həmin Dövlətin qanunlarına əsasən tətbiq oluna bilən hər hansı üstünlüyə və ya zaman məhdudiyyətinin mövzusu olmayacaqdır. Bundan başqa, Razılığa gələn Dövlət tərəfindən 3-cü və ya 4-cü bəndin məqsədləri üçün qəbul edilmiş gəlir tələbi həmin Dövlətdə Razılığa gələn digər Dövlətin qanunlarına müvafiq olaraq bu gəlir tələbinə tətbiq edilə bilən hər hansı üstünlüyə malik olmayacaqdır.

6. Razılığa gələn Dövlətin gəlir tələblərinin mövcudluğu, qanuniliyi və ya məbləği ilə bağlı iddialar yalnız həmin Dövlətin məhkəmələri və inzibati orqanları qarşısında qaldırıla bilər. Bu maddənin heç bir müddəası bu cür iddiaların Razılığa gələn digər Dövlətin məhkəmələri və inzibati orqanları qarşısında qaldırıla bilməsi hüququnun verilməsi kimi təfsir edilməməlidir.

7. Əgər, Razılığa gələn Dövlət tərəfindən Razılığa gələn digər Dövlətə 3-cü və ya 4-cü bəndə müvafiq olaraq müraciət edildikdən sonra istənilən vaxt, Razılığa gələn digər Dövlət müvafiq gəlir tələbini alana və adı birinci çəkilən Dövlətə köçürənədək həmin gəlir tələbinin

(a) 3-cü bənd üzrə müraciət halında - adı birinci çəkilən Dövlətdə həmin Dövlətin öz qanunlarına əsasən məcburi alına bilən və həmin vaxt onun alınmasının qarşısını ala bilməyən şəxs tərəfindən ödənilməli olan gəlir tələbi;

(b) 4-cü bənd üzrə müraciət halında - adı birinci çəkilən Dövlətdə həmin Dövlətin öz qanunlarına əsasən alınmasını təmin etmək məqsədilə barəsində əmlaka həbs qoyulması tədbiri tətbiq edə biləcəyi gəlir tələbi olmasına xitam verilirsə, bu halda adı birinci çəkilən Dövlətin səlahiyyətli orqanı dərhal Razılığa gələn digər Dövlətin səlahiyyətli orqanına bu fakt barədə məlumat verməlidir və digər Dövlətin seçiminə əsasən adı birinci çəkilən Dövlət müraciəti müvəqqəti dayandırmalı və ya geri götürməlidir.

8. Müraciət edən Dövlət gəlir tələbinin məbləğini həm müraciət edən Dövlətin həm də müraciət edilən Dövlətin valyutasında göstərməlidir. Əvvəlki cümlənin məqsədləri üçün tətbiq edilən mübadilə məzənnəsi, müraciət edən Dövlətin ən mötəbər birjası və ya birjalarında təsbit edilmiş son satış qiymətidir. Müraciət edilən Dövlət tərəfindən alınan hər bir məbləğ müraciət edən Dövlətə müraciət edən Dövlətin valyutasında köçürüləcəkdir. Köçürmə, məbləğin alınmasından sonrakı bir ay ərzində həyata keçirilir.

9. Heç bir halda bu maddənin müddəaları Razılığa gələn Dövlətin üzərinə aşağıdakı öhdəliklərin qoyulması kimi şərh edilməməlidir:

(a) bu və ya digər Razılığa gələn Dövlətin qanunvericiliyi və inzibati təcrübəsində nəzərdə tutulmuş tədbirlərdən fərqli olan inzibati tədbirlər həyata keçirmək;

(b) dövlət siyasətinə (ordre public) zidd ola biləcək tədbirlər həyata keçirmək:

(c) Razılığa gələn digər Dövlət, şəraitdən asılı olaraq, öz qanunları və ya inzibati təcrübəsinin imkan verdiyi bütün mümkün yığılma və ya əmlaka həbs qoyma tədbirlərindən istifadə etmədikdə;

(d) həmin Dövlət ü çün inzibati yük Razılığa gələn di gər Dövlətin əl də edəcəyi faydaya münasibətdə aşkar şəkildə disproporsional olduqda.

Maddə 28

Diplomatik nümayəndəliklərin və konsulluq idarələrinin üzvləri

Bu Konvensiyanın heç bir müddəası diplomatik nümayəndəliklərin və ya konsulluq idarələrinin üzvlərinin beynəlxalq hüququn ümumi normalarına və ya xüsusi müqavilələrə əsasən müəyyən edilmiş vergi imtiyazlarına toxunmur.

FƏSİL VII

YEKUN MÜDDƏALAR

Maddə 29

Qüvvəyə minmə

1. Razılığa gələn Dövlətlərdən hər biri digərini zəruri dövlətdaxili prosedurlarının yerinə yetirildiyi barədə diplomatik kanallarla yazılı xəbərdar edirlər.

2. Konvensiya sonuncu bildirişin alındığı tarixdən qüvvəyə minir və onun müddəaları hər iki Razılığa gələn Dövlətdə tətbiq edilir:

(a) mənbədə tutulan vergilərə münasibətdə - Konvensiyanın qüvvəyə mindiyi ildən sonrakı təqvim ilinin 1 (bir) yanvar tarixində və ya ondan sonra ödənilən və ya çıxılma verilən məbləğlərə;

(b) digər vergilərə münasibətdə - Konvensiyanın qüvvəyə mindiyi ildən sonrakı təqvim ilinin 1 (bir) yanvar tarixində və ya ondan sonra başlanan hər hansı vergi ili üzrə hesablanan vergi məbləğlərinə.

Maddə 30

Qüvvədən düşmə

Bu Konvensiya Razılığa gələn Dövlətlərdən hər hansı biri tərəfindən onun qüvvəsi ləğv edilənədək qüvvədə olacaqdır. Razılığa gələn Dövlətlərdən hər biri bu Konvensiyanın qüvvəyə mindiyi tarixdən sonrakı 5 (beş) illik dövr bitdikdən sonra hər hansı təqvim ilinin başa çatmasına ən azı 6 (altı) ay qalmış, diplomatik kanallarla qüvvədən düşmə haqqında yazılı bildiriş təqdim etməklə, Konvensiyanın qüvvəsini ləğv edə bilər. Bu halda, bu Konvensiyanın qüvvəsi ləğv edilir:

(a) mənbədə tutulan vergilərə münasibətdə - Konvensiyanın qüvvədən düşməsi haqqında bildirişin verildiyi ildən sonrakı təqvim ilinin 1 (bir) yanvar tarixində və ya ondan sonra ödənilən və ya çıxılma verilən məbləğlərə;

(b) digər vergilərə münasibətdə - Konvensiyanın qüvvədən düşməsi haqqında bildirişin verildiyi ildən sonrakı təqvim ilinin 1 (bir) yanvar tarixində və ya ondan sonra başlanan hər hansı vergi ili üzrə hesablanan vergi məbləğlərinə.

Bunun təsdiqi olaraq, müvafiq qaydada səlahiyyət verilmiş aşağıda imza edənlər bu Konvensiyanı imzaladılar.

Bu Konvensiya Afina şəhərində 16 fevral 2009-cu il tarixində, iki əsl nüsxədə, hər biri Azərbaycan, yunan və ingilis dilində imzalanmışdır, bütün mətnlər bərabər autentikdir. Təfsirdə fikir ayrılığı olduğu təqdirdə, ingilis dilindəki mətn əsas götürüləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN

ELMAR MƏMMƏDYAROV
Xarici işlər naziri

YUNANISTAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN

ADTONİS BEZAS
İqtisadiyyat və maliyyə nazirinin müavini

PROTOKOL

Azərbaycan Respublikası Hökuməti və Yunanıstan Respublikası Hökuməti arasında Gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında Konvensiya imzalanan zaman, aşağıda imza edənlər Konvensiyanın tərkib hissəsi sayılan aşağıdakı müddəa barədə Razılığa gəldilər:

Belə başa düşülür ki, dəniz və ya hava gəmisinin heyətsiz icarəyə verilməsi əvəzində edilən ödənişlərə royalti kimi baxılır.

Bunun təsdiqi olaraq, müvafiq qaydada səlahiyyət verilmiş aşağıda imza edənlər bu Protokolu imzaladılar.

Bu Protokol Afina şəhərində 16 fevral 2009-cu il tarixində, iki əsl nüsxədə, hər biri Azərbaycan, yunan və ingilis dilində imzalanmışdır, bütün mətnlər bərabər autentikdir. Təfsirdə fikir ayrılığı olduğu təqdirdə, ingilis dilindəki mətn əsas götürüləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN

ELMAR MƏMMƏDYAROV
Xarici işlər naziri

YUNANISTAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN

ADTONİS BEZAS
İqtisadiyyat və maliyyə nazirinin müavini

"Azərbaycan Respublikası Hökuməti və Yunanıstan Respublikası Hökuməti arasında hava əlaqəsi haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. "Azərbaycan Respublikası Hökuməti və Yunanıstan Respublikası Hökuməti arasında hava əlaqəsi haqqında" 2009-cu il fevralın 16-da Afina şəhərində imzalanmış Saziş təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 3 aprel 2009-cu il

№ 781-IIIQ

Azərbaycan Respublikası Hökuməti və Yunanıstan Respublikası Hökuməti arasında hava əlaqəsi haqqında Saziş

Bundan sonra "Razılığa gələn Tərəflər" adlandırılan Azərbaycan Respublikası Hökuməti və Yunanıstan Respublikası Hökuməti,

1944-cü il dekabrın 7-dən Çikaqoda imzalanmaq üçün açıq olan Mülki Aviasiya haqqında Beynəlxalq Konvensiyanın iştirakçıları olaraq,

Onların müvafiq ərazilər arasında və onların hüdudlarından kənarda nəzərdə tutulan müntəzəm hava əlaqələrinin yaradılması və həyata keçirilməsinə dair Saziş bağlamağı eyni dərəcədə arzu edərək,

aşağıdakılar barəsində razılığa gəldilər:

Maddə 1

Təriflər

Bu Sazişin məqsədləri üçün, əgər məzmun digərini tələb etmirsə:

(a) "Aviasiya Hakimiyyət Orqanı" - Azərbaycan Respublikasına münasibətdə, Dövlət Mülki Aviasiya Administrasiyasının Direktoru və göstərilən hakimiyyət orqanının yerinə yetirdiyi funksiyaları və ya oxşar funksiyaları həyata keçirmək hüququna malik olan hər hansı şəxs və Yunanıstan Respublikasına münasibətdə, Mülki Aviasiya Orqanının rəisi və göstərilən hakimiyyət orqanının yerinə yetirdiyi funksiyaları və ya oxşar funksiyaları həyata keçirmək hüququna malik olan şəxs deməkdir;

(b) "Konvensiya" - 1944-cü il dekabrın 7-dən Çikaqo şəhərində imzalanmaq üçün açıq olan Mülki Aviasiya haqqında Beynəlxalq Konvensiyanı ifadə edir və ona:

(i) 94-cü maddənin "a" bəndinə əsasən qüvvəyə minmiş və hər iki Razılığa gələn Tərəfin ratifikasiya etdiyi istənilən düzəliş;

(ii) Konvensiyanın 90-cı maddəsinə əsasən qəbul edilmiş və istənilən anda bu Razılığa gələn Tərəflər üçün qüvvədə olan istənilən düzəliş və ya Əlavə daxildir;

(iii) "Saziş" termini - bu Saziş, onun Əlavəsi və bu Sazişi, onun Əlavəsini dəyişdirən istənilən Protokollar və ya oxşar sənədlər deməkdir;

(ç) "Təyin edilmiş aviasiya müəssisəsi" - ifadəsi bu Sazişin 3-cü maddəsinin müddəalarına uyğun olaraq təyin edilmiş və səlahiyyət almış aviasiya müəssisəsi deməkdir;

(d) "Razılaşdırılmış əlaqələr" termini - bu Sazişin Əlavəsində müəyyən edilmiş marşrutlar boyunca, ayrılıqda və ya birlikdə, sərnişin, yük və poçt daşınmasının həyata keçirilməsi üçün müntəzəm əlaqələr deməkdir;

(e) "Tutum" termini - hava gəmisinə şamil edilərkən, marşrutda və ya onun bir hissəsində səmərəli yükləməni nəzərdə tutur və "tutum" "razılaşdırılmış əlaqələr"ə aid edilərkən marşrutda və ya onun bir hissəsində həyata keçirilən daşımalarda istifadə edilən hava gəmisinin müəyyən vaxt ərzində uçuşlarının sayına vurulmuş tutumu deməkdir.

(ə) "Ərazi" termini - Dövlətə münasibətdə Konvensiyanın 2-ci maddəsi ilə müəyyən olunmuş mənaya malikdir;

(f) "Hava əlaqəsi", "Beynəlxalq hava əlaqəsi", "Aviasiya müəssisəsi" və "Qeyri-kommersiya məqsədləri ilə dayanacaq" terminləri - Konvensiyanın 96-cı maddəsi ilə müəyyən olunmuş mənaya malikdir;

(g) "Tarif" - anlayışı, agentliklə əlaqədar qiymətlər və şərtlər və aviasiya müəssisəsinin hava daşımaları ilə bağlı həyata keçirilən digər yardımçı xidmətlər daxil olmaqla, lakin poçtun daşınmasına görə alınan vəsaitlər və şərtlər istisna edilməklə, sərnişin, yük və baqajın daşınması üçün ödənilməsi zəruri olan haqq və bu haqqın alınması şərtləri deməkdir;

(ğ) "İstehlak yığımı" termini - hava limanının, aeronaviqasiya və ya aviasiya təhlükəsizliyi avadanlığının və ya vasitələrinin istifadəsinə görə aviasiya müəssisəsi üçün müəyyən edilmiş qiymət deməkdir.

Belə başa düşülür ki, bu Sazişin maddələrinə verilmiş başlıqlar bu Sazişin hər hansı müddəasının mənasını heç bir qaydada məhdudlaşdırmır və ya genişləndirmir.

Maddə 2

Hüquqların verilməsi

1. Hər bir Razılığa gələn Tərəf digər Razılığa gələn Tərəfə, bu Razılığa gələn Tərəfin təyin edilmiş aviasiya müəssisələrinə hazırkı Sazişlə nəzərdə tutulmuş müntəzəm beynəlxalq hava daşımalarını həyata keçirməsi üçün aşağıdakı hüquqları verir:

(a) digər Razılığa gələn Tərəfin ərazisi üzərindən yerə enmədən uçub keçmək;

(b) qeyri-kommersiya məqsədləri ilə həmin ərazidə enmək; və

(c) həmin ərazidə bu Sazişin Əlavəsində müəyyən edilmiş Marşrutlar qrafiki ilə nəzərdə tutulmuş məntəqələrində beynəlxalq daşımalarda daşınan sərnişinləri, yükləri və poçtu ayrılıqda və ya birlikdə götürmək və boşaltmaq məqsədi ilə enmək.

2. 1-ci bəndin müddəalarında göstərilənlərdən heç biri bir Razılığa gələn Tərəfin aviasiya müəssisəsinə sərnişinləri, yükü və ya poçtu digər Razılığa gələn Tərəfin ərazisindəki bir məntəqədən digərinə haqq müqabilində və ya muzdla daşımaq üçün gəmiyə götürmək hüququ vermir.

Maddə 3

Təyin etmə və səlahiyyətlərin verilməsi

1. Hər bir Razılığa gələn Tərəf, digər Razılığa gələn Tərəfi diplomatik kanallarla xəbərdar etməklə, müəyyən edilmiş marşrutlar üzrə razılaşdırılmış xidmətlərin yerinə yetirilməsi məqsədilə bir və ya bir neçə aviasiya müəssisəsini təyin etmək, ondan imtina etmək və ya onu dəyişdirmək hüququna malik olacaqdır.

2. Belə təyinat haqqında bildiriş alındıqdan sonra digər Razılığa gələn Tərəf minimal prosedur gecikmələri ilə müvafiq səlahiyyət və icazələri verəcəkdir, bu şərtlə ki:

(a) Azərbaycan Respublikası Tərəfindən təyin edilən aviasiya müəssisəsinə münasibətdə:

(i) o, Azərbaycan Respublikasının ərazisində yaradılmışdır və Azərbaycan Respublikasının müvafiq qanunvericiliyinə uyğun olaraq lisenziya almışdır;

və

(ii) Azərbaycan Respublikası aviasiya müəssisəsinə effektiv tənzimedici nəzarəti həyata keçirir.

(b) Yunanıstan Respublikası Tərəfindən təyin edilən aviasiya müəssisəsinə münasibətdə:

(i) o, Avropa Birliyinin yaradılması Müqaviləsinə əsasən Yunanıstan Respublikasının ərazisində yaradılmışdır və Avropa Birliyi Qanununa uyğun olaraq İstismar Lisenziyasını almışdır; və

(ii) aviasiya müəssisəsinə effektiv tənzimedici nəzarət Hava İstismarçısı Şəhadətnaməsinin verilməsinə məsul olan Avropa Birliyinin üzv Dövlətinə məxsusdur və onun Tərəfindən həyata keçirilir və müvafiq Aviasiya Hakimiyyəti Orqanı təyinatda aydın şəkildə ifadə edilmişdir;

(iii) aviasiya müəssisəsi Avropa Birliyinin üzv Dövlətinə və/və ya Avropa Birliyinin üzv Dövlətinin vətəndaşlarına və ya 2-ci Əlavədəki siyahıda qeyd edilən digər dövlətlərə və/və ya belə dövlətlərin vətəndaşlarına bilavasitə və ya üstün sahiblik yolu ilə məxsusdur və məxsus olmaqda davam edəcək və bütün vaxtlarda belə Dövlətlər və/və ya belə vətəndaşlar Tərəfindən səmərəli nəzarət olunmalıdır.

(c) təyin edilmiş aviasiya müəssisəsi beynəlxalq müntəzəm hava xətlərinin istismarı zamanı təyinatı alan Razılığa gələn Tərəfin Konvensiyanın müddəalarına uyğun olaraq adi halda tətbiq etdiyi qanun və qaydalarda müəyyənləşdirilmiş şərtləri yerinə yetirməyə qadirdir.

3. 2-ci maddədə göstərilmiş səlahiyyəti aldıqda təyin edilmiş aviasiya müəssisəsi təyinat aldığı razılaşdırılmış əlaqələrin istənilən vaxt yerinə yetirilməsinə başlaya bilər, bu şərtlə ki, aviasiya müəssisəsi bu Sazişin müddəalarına riayət edir.

Maddə 4

Təxirəsalma və ləğvetmə

1. Hər bir Razılığa gələn Tərəf digər Razılığa gələn Tərəfin aviasiya müəssisəsinə verdiyi istismar səlahiyyətlərini və texniki icazələri geri götürə, dayandıra, yaxud məhdudlaşdıra bilər, bu şərtlə ki,

(a) Azərbaycan Respublikası Tərəfindən təyin edilən aviasiya müəssisəsinə münasibətdə:

(i) o, Azərbaycan Respublikasının ərazisində yaradılmamışdır və Azərbaycan Respublikasının müvafiq qanunvericiliyinə uyğun lisenziya almamışdır; və

(ii) Azərbaycan Respublikası aviasiya müəssisəsinə effektiv tənzimedici nəzarət həyata keçirmir.

(b) Yunanıstan Respublikası Tərəfindən təyin edilən aviasiya müəssisəsinə münasibətdə:

(i) o, Avropa Birliyinin yaradılması Müqaviləsinə əsasən Yunanıstan Respublikasının ərazisində yaradılmamışdır və Avropa Birliyi Qanununa uyğun İstismar Lisenziyasını almamışdır; və

(ii) aviasiya müəssisəsinə effektiv tənzimedici nəzarət Hava İstismarçısı Şəhadətnaməsinin verilməsinə məsul olan Avropa Birliyinin üzv Dövlətinə məxsus deyil və onun Tərəfindən həyata keçirilmir və müvafiq Aviasiya Hakimiyyəti Orqanı təyinatda aydın şəkildə ifadə edilməmişdir;

(iii) aviasiya müəssisəsi Avropa Birliyinin üzv Dövlətlərə və/və ya Avropa Birliyinin üzv Dövlətin vətəndaşlarına və ya 2-ci Əlavədəki siyahıda qeyd edilən digər dövlətlərə və/və ya belə digər dövlətlərin vətəndaşlarına bilavasitə və ya üstün sahiblik hüququ ilə məxsus deyil və ya effektiv nəzarət olunmur.

(c) belə aviasiya müəssisəsi beynəlxalq müntəzəm hava xətlərinin istismarı zamanı təyinatı alan Razılığa gələn Tərəfin Konvensiyanın müddəalarına uyğun olaraq adi halda və məntiqi tətbiq etdiyi qanun və qaydalarda müəyyənləşdirilmiş şərtləri yerinə yetirməyə qadir deyil.

(ç) aviasiya müəssisəsi həmin hüquqları vermiş Razılığa gələn Tərəfin qanunlarına və/və ya qaydalarına əməl etmir; və ya

(d) aviasiya müəssisəsi "digər şəkildə bu Sazişin şərtlərini yerinə yetirməyə qadir deyil.

2. Əgər icazənin dərhal ləğv edilməsi, hüquqların dayandırılması və ya bu maddənin 1-ci bəndində göstərilmiş şərtlərin yerinə yetirilməsi gələcəkdə qanunların və/və ya qaydaların, pozuntularını, aradan qaldırmaq üçün zəruridirsə, onda bu bənddə göstərilmiş hüquqdan hər bir Razılığa gələn Tərəf yalnız bu Sazişin 16-cı maddəsinə uyğun olaraq digər Razılığa gələn Tərəflə məsləhətləşmələrdən sonra istifadə edəcəkdir.

Maddə 5

Qanunların və qaydaların tətbiqi

1. Bir Razılığa gələn Tərəfin beynəlxalq hava əlaqələrində istifadə edilən hava gəmisinin onun ərazisinə gəlməsi və ya hava gəmisinin ərazidə olması və ya ərazini tərk etməsi və ya onun istifadəsi və naviqasiyası ilə əlaqədar qanunları, qaydaları və proseduralarına digər Razılığa gələn Tərəfin təyin edilmiş aviasiya müəssisəsi Tərəfindən birinci Razılığa gələn Tərəfin ərazisinə daxil olarkən, oranı tərk edərkən və ərazidə olduğu müddətdə riayət olunacaq.

2. Bir Razılığa gələn Tərəfin daxilolma, yoxlama, ərazidə qalma və ya tranzitlə keçmə, emiqrasiya və ya immiqrasiya, sərhəd, gömrük və karantin nəzarətinə dair qanun və qaydaları digər Razılığa gələn Tərəfin təyin edilmiş aviasiya müəssisəsi Tərəfindən və onun heyəti, sərnişinləri, yükləri və poçtuna münasibətdə birinci Razılığa gələn Tərəfin ərazisindən tranzit qaydada keçərkən, daxil olmağa icazə verilərkən, ərazidə olarkən və oranı tərk edərkən yerinə yetirilməlidir.

3. Razılığa gələn Tərəflərdən birinin ərazisi üzərində birbaşa tranzitlə gedən və bu məqsədlə ayrılmış hava limanı zonasını tərk etməyən sərnişinlər, baqaj və yük yalnız sadələşdirilmiş nəzarətdən keçəcəkdir. Birbaşa tranzitlə aparılan baqajdan və yükdən gömrük rüsumları və bu kimi başqa vergilər tutulmayacaqdır.

Maddə 6

Sertifikat və lisenziyaların tanınması

1. Bir Razılığa gələn Tərəfin qanun və qaydalarına uyğun, o cümlədən Yunanıstan Respublikasına münasibətdə Avropa Birliyinin qanun və qaydalarına uyğun verilən və ya tanınan, qüvvəsini itirməyən yararlılıq sertifikatları, səlahiyyətlilik sertifikatları və lisenziyalar, bu sertifikatlar və lisenziyalar verilərkən irəli sürülən tələblər Konvensiyaya uyğun olaraq müəyyən edilən minimal tələblərə bərabər və ya onlardan yüksək olması şərti ilə, digər Razılığa gələn Tərəf bu Sazişdə müəyyən edilən xidmətləri həyata keçirmək üçün qüvvədə olan sənəd kimi tanıyacaq. Hər bir Razılığa gələn Tərəf öz ərazisi üzərində uçuşlar məqsədi ilə digər Razılığa gələn Tərəfin və ya istənilən digər dövlətin öz vətəndaşlarına verdiyi digər və ya onlar üçün etibarlı hesab etdiyi səlahiyyət sertifikatlarının və lisenziyaların tanınmasından imtina etmək hüququ vardır.

2. Bir Razılığa gələn Tərəfin Aviasiya Hakimiyyət Orqanı Tərəfindən istənilən fiziki şəxsə və ya təyin edilmiş aviasiya müəssisəsinə və ya müəyyən edilmiş marşrutlarda razılaşdırılmış əlaqələri həyata keçirən hava gəmisinə verilmiş, yuxarıda 1-ci bənddə göstərilmiş lisenziya və ya sertifikat üstünlükləri və ya şərtləri Konvensiyada qəbul edilmiş standartlardan kənara çıxarsa və bu kənara çıxmalar Beynəlxalq Mülki Aviasiya Təşkilatı Tərəfindən qeydə alınmışdırsa, digər Razılığa gələn Tərəfin Aviasiya Hakimiyyət Orqanı məsələnin onları qane edəcəyinə əmin olmaq üçün, bu Sazişin 16-cı maddəsinə uyğun olaraq bu Razılığa gələn Tərəfin Aviasiya Hakimiyyət Orqanına məsləhətləşmələr üçün müraciət edə bilərlər. Münasib razılıq əldə edilməməsi bu Sazişin 4-cü maddəsinin tətbiq edilməsinə əsas yaradır.

Maddə 7

Uçuşların təhlükəsizliyi haqqında müddəalar

1. Hər bir Razılığa gələn Tərəf digər Razılığa gələn Tərəfin uçuş heyətinə, hava gəmisinə və ya onların idarə edilməsinə dair təyin edilmiş aviasiya müəssisəsinin riayət etdiyi təhlükəsizlik standartları ilə əlaqədar istənilən vaxt məsləhətləşmələr keçirilməsi üçün müraciət edə bilər. Bu cür məsləhətləşmələr müraciət alındığı andan etibarən 30 gün ərzində keçiriləcəkdir.

2. Əgər bu cür məsləhətləşmələrdən sonra bir Razılığa gələn Tərəf digər Razılığa gələn Tərəfin təyin edilmiş aviasiya müəssisələrinin həmin an Çikaqo Konvensiyasına uyğun olaraq müəyyən edilmiş minimum standartlara ən azı bərabər olan, bu maddənin 1-ci bəndində göstərilmiş sahələrdə təhlükəsizlik standartlarına səmərəli şəkildə riayət və onu tətbiq etmədiyini aşkar edərsə, birinci Razılığa gələn Tərəfin müəyyən edilən faktlar və İKAO standartlarına riayət etmək üçün zəruri hesab edilən tədbirlər barədə digər Razılığa gələn Tərəfi xəbərdar edəcək və həmin digər Razılığa gələn Tərəf müvafiq islahedici tədbirlər görəcəkdir. Digər Razılığa gələn Tərəfin 15 gün ərzində və ya əldə edilən razılığa əsasən daha artıq müddət ərzində tədbirlər görməməsi bu Sazişin 4-cü maddəsinin müddəalarının tətbiq edilməsinə əsas yaradacaq.

3. Çikaqo Konvensiyasının 33-cü maddəsində qeyd edilən öhdəliklərə baxmayaraq razılaşdırılmışdır ki, bir Razılığa gələn Tərəfin digər Razılığa gələn Tərəfin ərazisinə və ya ərazisindən xidmətləri yerinə yetirən aviasiya müəssisəsi və ya aviasiya müəssisələri

Tərəfindən və ya onların adından istismar edilən hər hansı hava gəmisi digər Razılığa gələn Tərəfin ərazisində olarkən digər Razılığa gələn Tərəfin səlahiyyətli nümayəndələri Tərəfindən əsassız ləngidilməyə yol verilməməsi şərtilə, hava gəmisinin içində və ətrafında həm hava gəmisinin, həm də onun ekipajının sənədlərinin etibarlığı və hava gəmisinin və onun avadanlığının həqiqi vəziyyəti (bu Maddədə "perron yoxlanışı" adlandırılan) yoxlanıla bilər.

4. Əgər hər hansı bu cür perron yoxlanışı və ya perron yoxlanışları:

(a) hava gəmisinin və ya hava gəmisinin istismar edilməsinin həmin vaxt Çikaqo Konvensiyasına müvafiq olaraq müəyyən edilən minimum standartlara uyğun olmaması barədə ciddi narahatlığa, və ya

(b) həmin vaxt Çikaqo Konvensiyasına müvafiq olaraq müəyyən edilən təhlükəsizlik standartlarına səmərəli şəkildə riayət və tətbiq edilmədə çatışmamazlıqlar barədə ciddi narahatlığa əsas yaradarsa,

yoxlanışı həyata keçirən Razılığa gələn Tərəf Çikaqo Konvensiyasının 33-cü maddəsinin məqsədləri üçün həmin hava gəmisinə və ya həmin hava gəmisinin heyətinə münasibətdə sertifikatlar və lisenziyaların verilməsi və ya etibarlı hesab edilməsi şərtlərinin və ya hava gəmisinin istismar edilməsi şərtlərinin həmin an Çikaqo Konvensiyasına uyğun olaraq müəyyən edilmiş minimum standartlara uyğun və ya ondan artıq olmadığı qərarına gəlməkdə sərbəst olacaqdır.

5. Bir Razılığa gələn Tərəfin aviasiya müəssisəsi və ya aviasiya müəssisələrinin istismar etdiyi hava gəmisinin yuxarıdakı 3-cü bəndə uyğun olaraq perron yoxlamasının həyata keçirilməsi məqsədilə həmin aviasiya müəssisəsi və ya aviasiya müəssisələrinin nümayəndələri tərəfindən buraxılışdan imtina edildiyi halda digər Razılığa gələn Tərəf yuxarıdakı 4-cü bənddə istinad edilən növlərdə ciddi narahatlığa əmin olmaqda və həmin bənddə istinad olunan qərara gəlməkdə sərbəst olacaqdır.

6. Hər bir Razılığa Gələn Tərəf perron yoxlanışı, perron yoxlanışları, perron yoxlanışına buraxılışdan imtina; məsləhətləşmə və ya digər şəkildə aviasiya müəssisəsinin uçuşlarının təhlükəsizliyi üçün təcili tədbirlərin zəruri olduğu barədə qərara gəldiyi halda digər Razılığa gələn Tərəfin aviasiya müəssisəsinin və ya aviasiya müəssisələrinin istismar səlahiyyətlərini dərhal dayandırmaq və ya dəyişmək hüququnu özündə saxlayır.

7. Yuxarıda qeyd edilən 2-ci və ya 6-cı bəndə uyğun olaraq bir Razılığa gələn Tərəfin hər hansı hərəkəti artıq bu tədbirin görülməsi üçün əsas olmadığı halda dayandırılacaqdır.

Maddə 8

Aviasiya təhlükəsizliyi

1. Razılığa gələn Tərəflər beynəlxalq hüquqdan irəli gələn Öz hüquq və öhdəliklərinə uyğun olaraq, mülkü aviasiyanın təhlükəsizliyini qanunsuz müdaxilələrdən müdafiə etmək barəsində qarşılıqlı surətdə götürdükləri öhdəliklərin bu Sazişin tərkib hissəsi olduğunu bir daha təsdiq edirlər. Beynəlxalq hüquqa əsasən hüquq və öhdəliklərinin ümumiliyini məhdudlaşdırmadan, Razılığa gələn Tərəflər 14 sentyabr 1963-cü ildə Tokioda imzalanmış "Hava gəmilərində törədilən cinayətlər və bəzi digər aktlar haqqında Konvensiya"nın, 16 dekabr 1970-ci ildə Haaqada imzalanmış "Hava gəmilərinin qa-

nunsuz ələ keçirilməsinə qarşı mübarizə haqqında Konvensiya"nın, 23 sentyabr 1971-ci ildə Monrealda imzalanmış "Mülki aviasiyanın təhlükəsizliyi əleyhinə yönəldilən qanunsuz hərəkətlərə qarşı mübarizə haqqında Konvensiya"nın, 24 fevral 1988-ci ildə Monrealda imzalanmış "Beynəlxalq mülkü aviasiyaya xidmət edən hava limanlarında qanunsuz zorakılıq hərəkətlərinə qarşı mübarizə haqqında Protokolun, 1 mart 1991-ci ildə Monrealda imzalanmış "Plastik partlayıcı maddələri aşkar etmək məqsədilə onlara nişan vurulması haqqında Konvensiya"nın və Razılığa gələn Tərəfin gələcəkdə bu sahədə ratifikasiya edə biləcəyi bütün digər beynəlxalq sənədlərin müddəalarına uyğun hərəkət edəcəklər.

2. Razılığa gələn Tərəflər mülkü hava gəmilərinin qanunsuz ələ keçirilməsinin və həmin hava gəmilərinin, sərnişinlərin və heyət üzvlərinin, hava limanlarının və aeronaviqasiya qurğularının təhlükəsizliyinə qarşı yönələn başqa qanunsuz hərəkətlərin və mülkü aviasiyanın təhlükəsizliyinə qarşı yönəlmiş digər təhdidlərin qarşısının alınması üçün müraciət əsasında bir-birinə bütün zəruri yardımları təmin edəcəklər.

3. Razılığa gələn Tərəflər öz qarşılıqlı münasibətlərində Beynəlxalq Mülkü Aviasiya Təşkilatının müəyyən etdiyi və Beynəlxalq Mülkü Aviasiya Konvensiyasına Əlavələr kimi qəbul edilmiş müddəalarda nəzərdə tutulmuş aviasiya təhlükəsizliyi müddəalarına Razılığa gələn Tərəflərə tətbiq edilə bilən dərəcədə əməl edirlər; onlar tələb edəcəklər ki, qeydiyyata aldıqları hava gəmilərinin istismarçıları və ya əsas fəaliyyət yeri və ya daimi fəaliyyət yeri onların ərazisində olan hava gəmilərinin istismarçıları və ya Yunanıstan Respublikasına münasibətdə Avropa Birliyini təsis edən müqavilə üzrə onun öz ərazisində təsis olunan və Avropa Birliyinin qanunvericiliyinə müvafiq qaydada qüvvədə olan İstismar Lisenziyalarına malik olan istismarçıları və onların ərazilərindəki hava limanlarının istismarçıları aviasiya təhlükəsizliyi üzrə belə müddəalara və tələblərə müvafiq surətdə fəaliyyət göstərsinlər.

4. Hər bir Razılığa gələn Tərəf bununla razılaşır ki, Yunanıstan Respublikasına münasibətdə Avropa Birliyinin qanunvericiliyi daxil olmaqla, digər Razılığa gələn Tərəfin dövlətinin ərazidən getmə və orada qalmaya dair qüvvədə olan qanununa uyğun aviasiya təhlükəsizliyi müddəalarına riayət olunması onun hava gəmilərinin istismarçılarından tələb olunacaq. Hər bir Razılığa gələn Tərəf öz ərazi daxilində hava gəmilərinin müdafiəsi və sərnişinlərin, heyətin, əldə daşınan yükün, baqajın, yükün və gəmi ehtiyatlarının minik və ya yükvurma zamanı və ya ondan əvvəl təhlükəsizlik nöqteyi-nəzərindən yoxlanması üçün qüvvədə olan qanunvericilikdə nəzərdə tutulmuş tədbirlərin görülməsini təmin edəcəkdir. Hər bir Razılığa gələn Tərəf konkret təhlükə ilə əlaqədar səmərəli xüsusi təhlükəsizlik tədbirlərinin görülməsi barədə digər Razılığa gələn Tərəfin xahişinə müsbət baxacaq.

5. Mülkü hava gəmilərinin qanunsuz ələ keçirilməsi və ya hava gəmilərinin, onların sərnişinlərinin və heyətinin, hava limanlarının və ya aeronaviqasiya vasitələrinin təhlükəsizliyinə qarşı yönəldilən başqa qanunsuz hərəkətlərlə bağlı hadisə və ya hadisə təhlükəsi olduqda Razılığa gələn Tərəflər kommunikasiyanı asanlaşdırmaq və belə münaqişəni və ya bu cür təhlükəni tez və təhlükəsiz aradan qaldırmaq məqsədilə müvafiq tədbirlər görmək vasitəsilə bir-birinə kömək göstərirlər.

Maddə 9

Kommersiya imkanları

1. Bir Razılığa gələn Tərəfin təyin edilmiş aviasiya müəssisəsi digər Razılığa gələn Tərəfin ərazində öz nümayəndəliyini saxlamaq hüququna malikdir.

2. Bir Razılığa gələn Tərəfin təyin edilmiş aviasiya müəssisəsi digər Razılığa gələn Tərəfin ərazisə daxilolma, qalma və işə qəbul etməyə dair qanun və qaydalarına uyğun olaraq, digər Razılığa gələn Tərəfin ərazisinə hava əlaqələrinin təmin edilməsi məqsədi ilə idarəetmə, ticarət, texniki, istismar və başqa mütəxəssis heyətini gətirə və saxlaya bilər.

3. Baş agent və ya satış üzrə baş agent təyin edildiyi halda, bu agent hər bir Razılığa gələn Tərəfin müvafiq qanun və qaydalarına uyğun olaraq təyin ediləcəkdir.

4. Hər bir təyin edilmiş aviasiya müəssisəsi digər Razılığa gələn Tərəfin ərazisində hava daşımaları satışını bilavasitə və ya öz agentləri vasitəsi ilə həyata keçirmək və istənilən şəxs qüvvədə olan qanunlara və qaydalara uyğun olaraq bu daşımanı ala bilər.

5. Hər bir Razılığa gələn Tərəf digər Razılığa gələn Tərəfin təyin etdiyi aviasiya müəssisəsinə digər Razılığa gələn Tərəfin ərazisində razılaşdırılmış xidmətlər üzrə sərnişin, yük və poçt daşımaları zamanı məsrəfləri üstələyən artıq mədaxili, tələb olunduqda, qüvvədə olan xarici mübadilə qaydalarına müvafiq qaydada öz ölkəsinin ərazisinə köçürmək hüququ verəcəkdir.

6. Bir Razılığa gələn Tərəf digər Razılığa gələn Tərəfin təyin etdiyi aviasiya müəssisəsi Tərəfindən artıq pul vəsaitinin köçürülməsinə məhdudiyyət qoyursa, digər Razılığa gələn Tərəf eyni qayda ilə həmin Razılığa gələn Tərəfin aviasiya müəssisəsinə həmin məhdudiyyəti tətbiq etmək hüququna malik olacaqdır.

Maddə 10

Gömrük rüsumlarından və digər rüsumlardan azadetmə

1. Hər bir Razılığa gələn Tərəf qarşılıqlı əsasda öz qüvvədə olan qanunvericiliyinə uyğun olaraq, digər Razılığa gələn Tərəfin təyin etdiyi aviasiya müəssisəsini hava gəmisi, yanacaq, yanacaq-sürtkü materialları, istifadə edilə biləcək texniki hissələr, mühərriklər də daxil olmaqla ehtiyat hissələri, hava gəmisinin adi avadanlığı, gəmi ehtiyatları və istifadə üçün nəzərdə tutulmuş və ya yalnız, bu Razılığa gələn Tərəfin razılaşdırılmış əlaqələri həyata keçirən təyin edilmiş hava gəmisinin uçuşu və ya ona xidmət göstərilməsi üçün istifadə olunan digər hissələr, idxal məhdudiyyətlərindən, gömrük rüsumlarından, digər vergilərdən, yoxlama üçün yığımlardan və başqa dövlət rüsumlarından azad edir.

2. Bu maddədə nəzərdə tutulan azadetmələr bu maddənin 1-ci bəndində göstərilən əşyalara aid edilir:

(a) bir Razılığa gələn Tərəfin ərazisinə digər Razılığa gələn Tərəfin təyin edilmiş aviasiya müəssisəsinin gətirdiyi və ya onun adından gətirilmiş;

(b) digər Razılığa gələn Tərəfin ərazisinə gələrkən və ya oranı tərk edərkən bir Razılığa gələn Tərəfin təyin edilmiş aviasiya müəssisəsinin hava gəmisində saxlanmış;

(c) bu əşyaların azadetmələri tətbiq edən Razılığa gələn Tərəfin ərazisi daxilində tamamilə istifadə və ya istehlak edilib-edilməyəcəyindən asılı olmayaraq, bu əşyaların göstərilən Razılığa gələn Tərəfin ərazisində qalmaması şərti ilə, təyin edilmiş aviasiya müəssisəsinin hava gəmisinə götürülmüş və razılaşdırılmış əlaqələri həyata keçirərkən istifadə etmək üçün nəzərdə tutulmuş.

3. Razılığa gələn Tərəflərdən hər hansı birinin hava gəmisində adəton mövcud olan avadanlıq, həmçinin materiallar və təchizatlar digər Razılığa gələn Tərəfin ərazisində yalnız həmin Razılığa gələn Tərəfin gömrük orqanının razılığı ilə boşaldıla bilər. Belə halda, onlar həmin Razılığa gələn Tərəfin gömrük qaydalarına uyğun olaraq təkrar ixrac edilənə və ya digər şəkildə istifadə edilənə qədər gömrük orqanının nəzarəti altında saxlanılır.

4. Bu Sazişdə qeyd edilən heç bir müddəa hüquq bərabərliyini pozmadan digər Razılığa gələn Tərəfin təyin edilmiş aviasiya müəssisəsinin Yunanıstan Respublikasının ərazisindəki bir məntəqə ilə həmin ərazidəki və ya Avropa Birliyinin üzvü olan digər dövlətin ərazisindəki digər məntəqə arasında uçuşlar yerinə yetirən hava gəmisində istifadə məqsədilə Yunanıstan Respublikasının ərazisinə gətirilən yanacağa vergi, rüsum, yığım tətbiq etmək və vəsait tutmaq üçün Yunanıstan Respublikasına manco yaratmayacaq.

Maddə 11

Vergitutma

1. Razılığa gələn Tərəfin təyin edilmiş aviasiya müəssisələrinin beynəlxalq daşınmalardan əldə etdiyi gəlirlərdən həmin Razılığa gələn Tərəfin ərazisində vergi tutulacaqdır.

2. Razılığa gələn Tərəfin arasında gəlirlərə və əmlaka münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması haqqında xüsusi Saziş qüvvədə olarsa, bu Sazişin müddəaları üstünlük təşkil edəcəkdir.

Maddə 12

İstehlak yığımı

1. Razılığa gələn Tərəflərdən hər biri onun nəzarətində olan hava limanının və digər qurğuların istifadə edilməsi ilə əlaqədar ədalətli və əsaslandırılmış haqq müəyyən edə bilər və ya buna icazə verə bilər.

2. Razılığa gələn Tərəflərdən hər bir razılaşır ki, bu cür haqq, hava limanlarından və qurğularından istifadə etməklə əlaqədar özünün oxşar beynəlxalq daşımaları yerinə yetirən hava gəmilərinin ödədiyi haqlardan çox olmayacaqdır.

Maddə 13

Tutumun tənzimlənməsi və uçuş cədvəllərinin təsdiq olunması

1. Razılığa gələn Tərəflərin təyin edilmiş aviasiya müəssisələrinin müəyyənləşdirilmiş marşrutlar üzrə razılaşdırılmış əlaqələri həyata keçirmək məqsədilə bərabər imkanlardan istifadə etmələri üçün ədalətli və bərabər rejim yaradılacaqdır.

2. Razılaşdırılmış əlaqələri həyata keçirərkən hər bir Razılığa gələn Tərəfin təyin edilmiş aviasiya müəssisəsi digər Razılığa gələn Tərəfin aviasiya müəssisəsinin eyni

marşrutun tam və ya müəyyən hissəsində göstərdiyi xidmətlərə zərər vurmamaq üçün həmin müəssisənin mənafelərini nəzərə alacaqdır.

3. Razılığa gələn Tərəflərin təyin etdiyi aviasiya müəssisələrinin həyata keçirdiyi razılaşdırılmış daşımalarda onların əsas məqsədi, cari tələbata və aviasiya müəssisəsini təyin edən Razılığa gələn Tərəfin ərazisi və digər Razılığa gələn Tərəfin ərazisi arasında sərnişinlərin, yüklərin və poçtun daşınmasına olan və əsaslandırılmış gözlənilən tələbata uyğun tutumu əsaslandırılmış yükləmə əmsalı tətbiq etməklə təmin etməkdir.

4. Aviasiya müəssisəsini təyin etmiş dövlətdən fərqli dövlətlərin ərazisində müəyyənləşdiriləcək marşrutlar üzrə məntəqələrdə yüklənən və boşaldılan sərnişinlərin, yükün və poçtun daşınmasına aid müddəa iki Razılığa gələn Tərəf arasında razılaşdırılacaqdır.

5. Razılığa gələn Tərəflərin təyin edilmiş aviasiya müəssisələrinin razılaşdırılmış daşımalarda istifadə edəcəyi təyyarələrin uçuş tezlikləri və növü nəzərə alınmaqla təmin edilən tutum Aviasiya Hakimiyyəti Orqanları Tərəfindən razılaşdırılacaqdır.

6. Razılığa gələn Tərəflər arasında fikir ayrılığı yarandığı təqdirdə, 5-ci bənddə göstərilən məsələlər bu Sazişin 16-cı maddəsinin müddəalarına uyğun həll ediləcəkdir. Tərəflər razılığa gəlməyincə təyin olunmuş aviaşirkətlər Tərəfindən təqdim edilən tutum dəyişməz olaraq qalmalıdır.

7. Hər bir Razılığa gələn Tərəfin təyin edilmiş aviasiya müəssisəsi uçuş cədvəllərini digər Razılığa gələn Tərəfin Aviasiya Hakimiyyət Orqanı Tərəfindən təsdiq edilmək üçün müəyyən edilmiş marşrutlarla daşımaların yerinə yetirilməsinə başlanmasına ən azı otuz gün qalmış təqdim etməlidir. Bu, eyni qayda ilə sonrakı dəyişikliklərə də aiddir. Xüsusi hallarda, bu müddət göstərilən hakimiyyət orqanının razılığı ilə azaldıla bilər.

Maddə 14

Hava daşımaları tarifləri

1. Hər bir Razılığa gələn Tərəf təyin olunmuş aviaşirkətə hava əlaqəsi ilə bağlı tarifləri sərbəst müəyyən etməyə icazə verəcəkdir.

2. Razılığa gələn Tərəflərdən heç biri bu Sazişə uyğun olaraq təyin edilmiş aviaşirkət və ya aviaşirkətlərin aldığı hər hansı rüsum barədə xəbərdarlıq edilməsini tələb etməyəcəkdir.

3. Tariflər konkret bazarda nəzərdə tutulan bütün müvafiq amillər, o cümlədən istifadəçilərin maraqları, xidmətin dəyəri və xüsusiyyətləri, səmərəli mənfəət və digər kommersiya amilləri nəzərə alınmaqla məntiqi əsasda müəyyən olunmalıdır. Tariflər müəyyən edilərkən hüquq bərabərliyi əsassız olaraq pozulmamalı, onların dəyəri artırılmamalı və ya süni şəkildə aşağı salınmamalı və ya məhdudlaşdırıcı olmamalıdır.

Maddə 15

Statistik məlumatlar mübadiləsi

Hər bir Razılığa gələn Tərəfin Aviasiya Hakimiyyət Orqanı digər Razılığa gələn Tərəfin Aviasiya Hakimiyyəti Orqanına, onların xahişi ilə, razılaşdırılmış daşımaları həyata keçirərkən birinci Razılığa gələn Tərəfin təyin olunmuş aviasiya müəssisəsinin digər Razılığa gələn Tərəfin ərazisinə və ərazisindən yerinə yetirdiyi uçuş marşrutu haqqında

informasiyanı və statistik məlumatı təyin edilmiş aviasiya müəssisəsinin normal halda hazırladığı və öz "Milli Aviasiya Hakimiyyət Orqanına verdiyi qaydada verir. Bir Razılığa gələn Tərəfin Aviasiya Hakimiyyət Orqanının digər Razılığa gələn Tərəfin Aviasiya Hakimiyyət Orqanından istədiyi marşrutla bağlı əlavə statistik məlumat, müraciət əsasında, Razılığa gələn Tərəflər arasında qarşılıqlı müzakirə və razılaşma mövzusu olacaqdır.

Maddə 16

Məsləhətləşmələr və dəyişikliklər

1. Hər bir Razılığa gələn Tərəf və yaxud onun Aviasiya Hakimiyyət Orqanı istənilən vaxt digər Razılığa gələn Tərəf və ya onun Aviasiya Hakimiyyət Orqanı ilə məsləhətləşmələr keçirmək haqqında müraciət edə bilər.

2. Razılığa gələn Tərəflərdən biri və ya onların Aviasiya Hakimiyyət Orqanları Tərəfindən məsləhətləşmələr haqqında müraciət olduqda, həmin məsləhətləşmələr belə müraciətin alındığı tarixdən sonra altmış (60) gün ərzində başlayacaqdır.

3. Bu Sazişə istənilən dəyişiklik hər iki Razılığa gələn Tərəfin beynəlxalq sazişlərin bağlanması və qüvvəyə minməsi üzrə dövlətdaxili prosedurlarının yerinə yetirdiyi barədə diplomatik kanallarla bir-birinə məlumat verdiyi vaxtdan qüvvəyə minir.

4. 3-cü bəndin müddəalarına baxmayaraq, bu Sazişə Əlavədə verilmiş Uçuş Qrafiklərinə dəyişikliklər Razılığa gələn Tərəflərin Aviasiya Hakimiyyət Orqanları arasında birbaşa razılaşdırıla bilər. Dəyişikliklər diplomatik notaların mübadiləsi yolu ilə təsdiq edildikdən sonra qüvvəyə minir.

Maddə 17

Mübahisələrin həlli

1. Əgər bu Sazişin və onun Əlavəsinin təfsirinə və ya tətbiqinə dair Razılığa gələn Tərəflər arasında hər hansı bir mübahisə meydana çıxarsa, Razılığa gələn Tərəflər onu ilk növbədə danışıqlar vasitəsi ilə həll etməyə çalışacaqlar.

2. Əgər Razılığa gələn Tərəflər danışıqlar vasitəsi ilə mübahisənin həllinə nail olmasalar, mübahisəyə dair məşvərətçi rəy verilməsi məqsədi ilə hər hansı şəxsə və ya quruma müraciət edilə bilər.

3. Əgər Razılığa gələn Tərəflər yuxarıda göstərilmiş 1-ci və 2-ci bəndlərə əsasən mübahisənin həllinə nail olmasalar, mübahisə hər bir Razılığa gələn Tərəfdən bir nəfər hakim təyin edilməklə, üçüncü hakim isə iki hakim Tərəfindən seçilməklə, üç hakimdən ibarət olan məhkəmədə baxılır. Hər bir Razılığa gələn Tərəf mübahisəyə belə məhkəmədə baxılması haqqında digər tərəfi diplomatik kanallarla xəbərdar etdiyi tarixdən altmış (60) gün müddətində hakimi təyin edir, üçüncü hakim isə sonrakı altmış (60) gün müddətində təyin edilir. Əgər Razılığa gələn Tərəflərdən istənilən biri göstərilən müddət ərzində öz hakimini təyin edə bilməzsə, istənilən Razılığa gələn Tərəf hakim və ya vəziyyət tələb etdikdə hakimləri təyin etməsi üçün Beynəlxalq Mülki Aviasiya Təşkilatı Şurasının Prezidentinə müraciət edə bilər. Əgər Beynəlxalq Mülki Aviasiya Təşkilatı Şurasının Prezidenti Razılığa gələn Tərəflərdən birinin vətəndaşıdırsa Şuranın yaşca böyük Vitse Prezidenti, əgər o da Razılığa gələn Tərəflərdən birinin vətəndaşıdırsa Şuranın Razılığa gələn Tərəflərdən heç birinin vətəndaşı olmayan yaşca böyük üzvü təyinatı həyata keçirə bilər. Üçüncü hakim üçüncü ölkənin vətəndaşı olacaq, Məhkəmənin Sədri kimi çıxış edəcək və məhkəmənin keçiriləcəyi yeri təyin edəcək.

4. Məhkəmə öz proseduralarını müəyyən edəcək.

5. Məhkəmənin xərcləri Razılığa gələn Tərəflər arasında bərabər bölünəcək.

6. Razılığa gələn Tərəflər bu maddənin müddəalarının yerinə yetirilməsi nəticəsində qəbul edilən hər hansı qərara riayət etməyi öhdələrinə götürürlər.

7. Əgər uzun müddət istənilən Razılığa gələn Tərəf və ya onun təyin edilmiş aviasiya müəssisəsi bu maddənin 3-cü bəndinə uyğun olaraq çıxarılmış qərarı yerinə yetirməzsə, digər Razılığa gələn Tərəf bu Sazişdən irəli gələn hər hansı hüquq və ya üstünlükləri məhdudlaşdıra bilər, dayandıra bilər və ya geri ala bilər.

Maddə 18

Qüvvədən düşmə

Bir Razılığa gələn Tərəf istənilən vaxt bu Sazişi ləğv etmək niyyəti barədə digər Razılığa gələn Tərəfə diplomatik kanallarla yazılı bildiriş göndərə bilər; ləğvetmə haqqında belə bildiriş eyni zamanda Beynəlxalq Mülki Aviasiya Təşkilatına təqdim ediləcəkdir.

Bu halda digər Razılığa gələn Tərəf bildirişi aldığı gündən on iki ay sonra, həmin müddət qurtaranadək razılıq əsasında ləğvetmə haqqında bildiriş geri götürülməzsə, Saziş qüvvəsini itirir. Digər Razılığa gələn Tərəf belə bildiriş aldığını təsdiq etməzsə, həmin bildiriş Beynəlxalq Mülki Aviasiya Təşkilatı Tərəfindən alındıqdan on dörd (14) gün sonra alınmış hesab edilir.

Maddə 19

Çoxtərəfli konvensiyalara uyğunluq

Əgər hər hansı bir ümumi çoxtərəfli hava nəqliyyatı konvensiyası və ya sazişi hər iki Razılığa gələn Tərəfə münasibətdə qüvvəyə minmiş olarsa, bu Sazişə və onun Əlavəsinə müvafiq düzəlişlər edildiyi hesab olunacaqdır.

Maddə 20

Qeydiyyat

Bu Saziş, onun Əlavəsi və ona edilmiş bütün düzəlişlər Yunanıstan Respublikası tərəfindən Beynəlxalq Mülki Aviasiya Təşkilatında qeydiyyata alınacaqdır.

Maddə 21

Qüvvəyə minmə

Bu Saziş onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Razılığa gələn Tərəflərin sonuncu yazılı bildirişinin diplomatik kanallar vasitəsilə alındığı tarixdən qüvvəyə minir.

Bunun təsdiqi olaraq, öz müvafiq hökumətləri Tərəfindən səlahiyyətləndirilmiş aşağıdakı şəxslər bu Sazişi imzaladılar.

Bu Saziş Afina şəhərində, 16 fevral 2009-cu il tarixində, hər biri Azərbaycan, yunan və ingilis dillərində olmaqla iki əsl nüsxədə imzalanmışdır, bütün mətnlər bərabər autentikdir. Hazırkı Sazişin təfsiri və ya tətbiqi zamanı fikir ayrılığı yarandığı təqdirdə, ingilis dilində olan mətnə üstünlük veriləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	YUNANISTAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN
CAHANGİR ƏSGƏROV	*MİXAİL BEKİRİS*
"Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin prezidenti	*Nəqliyyat və kommunikasiya nazirinin müavini*

ƏLAVƏ I

MARŞRUTLARIN QRAFİKİ

1. Azərbaycan Respublikasının təyin edilmiş aviasiya müəssisəsi Tərəfindən hər iki istiqamətdə istismar olunacaq marşrutlar:

Çıxış məntəqəsi	Aralıq məntəqələr	Təyinat məntəqələri	Yunanıstan Respublikasından kənarda yerləşən əlavə məntəqələr
Azərbaycandakı məntəqələr	Üçüncü ölkələrdəki məntəqələr	Afina və Azərbaycan Tərəfinin sərbəst şəkildə seçdiyi daha bir məntəqə	Üçüncü ölkədəki məntəqələr

2. Yunanıstan Respublikasının təyin edilmiş aviasiya müəssisəsi Tərəfindən hər iki istiqamətdə istismar olunacaq marşrutlar:

Çıxış məntəqəsi	Aralıq məntəqələr	Təyinat məntəqələri	Yunanıstan Respublikasından kənarda yerləşən əlavə məntəqələr
Yunanıstandakı məntəqələr	Üçüncü ölkələrdəki məntəqələr	Bakı və Yunanıstan Tərəfinin sərbəst şəkildə seçdiyi daha bir məntəqə	Üçüncü ölkədəki məntəqələr

Qeydlər:

1. Aralıq məntəqələri və Razılığa gələn Tərəflərin dövlətlərinin ərazilərindən kənarda yerləşən məntəqələr istənilən sahədə buraxıla bilər.

2. Hər iki Razılığa gələn Tərəfin aviasiya müəssisəsi üçüncü ölkələrdəki məntəqələr və digər Razılığa gələn Tərəfin dövlətinin ərazisindəki məntəqələr arasında kommersiya hüquqlarından istifadə etmədən, aralıq məntəqələrə və kənarda olan məntəqələrə xidmət göstərəcəklər.

3. Bir Razılığa gələn Tərəfin təyin edilmiş müəssisəsinin digər Razılığa gələn Tərəfin dövlətinin ərazisindəki məntəqələr və üçüncü ölkələrin ərazilərindəki məntəqələr arasında sərnişin, baqaj, yük və poçt daşımalarını həyata keçirmək hüququ (5-ci hava sərbəstliyi hüququndan istifadə) Razılığa gələn Tərəflərin aviasiya hakimiyyətləri arasında ayrıca razılaşma mövzusu olacaqdır.

ƏLAVƏ II

Bu Sazişin 3-cü və 4-cü Maddələrində istinad edilən digər ölkələrin siyahısı

(a) İslandiya Respublikası (Avropa İqtisadi Zonası haqqında Sazişə əsasən);

(b) Lixtenşteyn Knyazlığı (Avropa İqtisadi Zonası haqqında Sazişə əsasən);

(c) Norveç Krallığı (Avropa İqtisadi Zonası haqqında Sazişə əsasən);

(ç) İsveçrə Konfederasiyası (Avropa Birliyi və İsveçrə Konfederasiyası arasında Hava Nəqliyyatı haqqında Sazişə əsasən).

Azərbaycan Respublikası Prezidentinin bəzi sərəncamlarında dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. Azərbaycan Respublikası Prezidentinin bəzi sərəncamlarında aşağıdakı dəyişikliklər edilsin:

1.1. "Azərbaycan Respublikasının Avropaya inteqrasiyası üzrə Dövlət Komissiyasının yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 1 iyun tarixli, 834 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005-ci il, № 6, maddə 493, № 10, maddə 968; 2006-cı il, № 7, maddə 588, № 9, maddə 743; 2007-ci il, № 5, maddə 459) 1-ci bəndində "Heydər Babayev - Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri" sözləri "Şahin Mustafayev - Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri" sözləri ilə əvəz edilsin;

1.2. "Azərbaycan Respublikası ilə Gürcüstan arasında Azərbaycan Respublikasının Ümumdünya Ticarət Təşkilatına üzv olması üzrə ikitərəfli Protokol"u imzalamaq səlahiyyətinin verilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 27 iyun tarixli, 2906 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, № 6, maddə 575) 1-ci və 2-ci bəndlərində "Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri Heydər Aydın oğlu Babayevə" sözləri "Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri Şahin Abdulla oğlu Mustafayevə" sözləri ilə əvəz edilsin;

1.3. "Azərbaycan Respublikası ilə Qırğız Respublikası arasında Azərbaycan Respublikasının Ümumdünya Ticarət Təşkilatına üzv olması üzrə ikitərəfli Protokol"u imzalamaq səlahiyyətinin verilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 8 iyul tarixli, 2932 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, № 7, maddə 643) 1-ci və 2-ci bəndlərində "Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri Heydər Aydın oğlu Babayevə" sözləri "Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri Şahin Abdulla oğlu Mustafayevə" sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1.2-ci və 1.3-cü bəndlərində göstərilən dəyişikliklər barədə aidiyyəti tərəflərə müvafiq bildirişlər göndərsin.

3. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 3 aprel 2009-cu il

№ 216

"Azərbaycan Respublikası Müdafiə Nazirliyi və ABŞ-ın Avropadakı Quru Qoşunları və Yeddinci Ordusu arasında Azərbaycan Respublikası ərazisində keçiriləcək "Regional Cavab-2009" hərbi təlimi ilə bağlı təlimə dəstək Sazişi"ni imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Müdafiə Nazirliyi və ABŞ-ın Avropadakı Quru Qoşunları və Yeddinci Ordusu arasında Azərbaycan Respublikası ərazisində keçiriləcək "Regional Cavab-2009" hərbi təlimi ilə bağlı təlimə dəstək Sazişi"ni imzalamaq səlahiyyəti Azərbaycan Respublikası Müdafiə Nazirliyinin Beynəlxalq Əməkdaşlıq və Avro-Atlantik İnteqrasiya İdarəsinin rəisi Ramiz Məmmədnəbi oğlu Nəcəfova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi imzalamaq səlahiyyətinin Azərbaycan Respublikası Müdafiə Nazirliyinin Beynəlxalq Əməkdaşlıq və Avro-Atlantik İnteqrasiya İdarəsinin rəisi Ramiz Məmmədnəbi oğlu Nəcəfova verilməsi barədə Amerika Birləşmiş Ştatları tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 3 aprel 2009-cu il

№ 217

"Azərbaycan Respublikasında Neftçala, Xıllı, Durovdağ-Babazanan neft yataqlarının və Muğan monoklinalın Cənub-Qərb qanadının daxil olduğu blokun birpası, işlənməsi və hasilatın pay bölgüsü haqqında" Sazişə Azərbaycan Respublikası Hökumətinin təminatı və öhdəlikləri haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 17 noyabr tarixli, 45 nömrəli Sərəncamına əsasən Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti və Neftçala İnvestments Limited və Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Ortaq Neft Şirkəti arasında "Azərbaycan Respublikasında Neftçala, Xıllı, Durovdağ-Babazanan neft yataqlarının və Muğan monoklinalın Cənub-Qərb qanadının daxil olduğu blokun birpası, işlənməsi və hasilatın pay bölgüsü haqqında" Sazişin 2009-cu il 3 fevral tarixində imzalandığını nəzərə alaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır:

1. Göstərilən Sazişin 5-ci əlavəsində qeyd olunmuş Azərbaycan Respublikası Hökumətinin təminatı və öhdəlikləri təsdiq edilsin.

2. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

Y. EYYUBOV

Azərbaycan Respublikası Baş nazirinin birinci müavini

Bakı şəhəri, 7 aprel 2009-cu il

№ 55

"Azərbaycan Respublikasında Kürovdağ yatağının daxil olduğu blokun birpası, işlənməsi və hasilatın pay bölgüsü haqqında" Sazişə Azərbaycan Respublikası Hökumətinin təminatı və öhdəlikləri haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 17 noyabr tarixli, 46 nömrəli Sərəncamına əsasən Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti və Qlobal Enerci Azərbaycan Limited və Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Ortaq Neft Şirkəti arasında "Azərbaycan Respublikasında Kürovdağ yatağının daxil olduğu blokun birpası, işlənməsi və hasilatın pay bölgüsü haqqında" Sazişin 2009-cu il 3 fevral tarixində imzalandığını nəzərə alaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır:

1. Göstərilən Sazişin 5-ci əlavəsində qeyd olunmuş Azərbaycan Respublikası Hökumətinin təminatı və öhdəlikləri təsdiq edilsin.

2. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

Y. EYYUBOV

Azərbaycan Respublikası Baş nazirinin birinci müavini

Bakı şəhəri, 7 aprel 2009-cu il

№ 56

"Xəzər dənizinin Azərbaycan sektorunda Abşeron Dəniz Blokunun kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında" Sazişə Azərbaycan Respublikası Hökumətinin təminatı və öhdəlikləri haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 17 noyabr tarixli, 48 nömrəli Sərəncamına əsasən Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə Total E&P Activites Petrolieres və Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Ortaq Neft Şirkəti arasında "Xəzər dənizinin Azərbaycan sektorunda Abşeron Dəniz Blokunun kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında" Sazişin 2009-cu il 27 fevral tarixində imzalandığını nəzərə alaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır:

1. Göstərilən Sazişin 5-ci əlavəsində qeyd olunmuş Azərbaycan Respublikası Hökumətinin təminatı və öhdəlikləri təsdiq edilsin.

2. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

Y. EYYUBOV

Azərbaycan Respublikası Baş nazirinin birinci müavini

Bakı şəhəri, 7 aprel 2009-cu il

№ 57

Birləşmiş Millətlər Təşkilatının Bütün əməkçi miqrantların və onların ailə üzvlərinin hüquqlarının qorunması üzrə Komitəsinin 10-cu sessiyasında "Bütün əməkçi miqrantların və onların ailə üzvlərinin hüquqlarının qorunması haqqında Beynəlxalq Konvensiya" üzrə Azərbaycan Respublikasının ilkin məruzəsinə baxılması ilə əlaqədar Azərbaycan Respublikasını təmsil edəcək nümayəndə heyətinin tərkibi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. Birləşmiş Millətlər Təşkilatının Bütün əməkçi miqrantların və onların ailə üzvlərinin hüquqlarının qorunması üzrə Komitəsinin Cenevrə şəhərində keçiriləcək 10-cu sessiyası çərçivəsində 2009-cu il aprelin 21 və 22-də "Bütün əməkçi miqrantların və onların ailə üzvlərinin hüquqlarının qorunması haqqında Beynəlxalq Konvensiya" üzrə Azərbaycan Respublikasının ilkin məruzəsinə baxılması ilə əlaqədar Azərbaycan Respublikasını təmsil edəcək nümayəndə heyəti aşağıdakı tərkibdə müəyyən edilsin:

Natiq Məmmədov - Azərbaycan Respublikası əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini, nümayəndə heyətinin rəhbəri

Gülnar Rəsulova - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Hüquq mühafizə orqanları ilə iş şöbəsi müdirinin müavini

Pərviz Musayev - Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidməti rəisinin müavini

Elmar Məmmədov - Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin Miqrasiya və sərhəd nəzarəti idarəsi Miqrasiya şöbəsinin rəisi

İsmayıl Əsədov - Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Beynəlxalq hüquq və müqavilələr idarəsinin birinci katibi

2. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 8 aprel 2009-cu il

№ 220

"Yaponiya Beynəlxalq Əməkdaşlıq Agentliyi və Azərbaycan Respublikası Hökuməti arasında "Kiçik Şəhərlərdə Su Təchizatı və Kanalizasiya Layihəsi"nə dair Kredit Sazişi"ni Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikası Baş nazirinin müavini Abid Qoca oğlu Şərifova verilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Sərəncamı

1. "Yaponiya Beynəlxalq Əməkdaşlıq Agentliyi və Azərbaycan Respublikası Hökuməti arasında "Kiçik Şəhərlərdə Su Təchizatı və Kanalizasiya Layihəsi"nə dair Kredit Sazi-

şi"ni Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikası Baş nazirinin müavini Abid Qoca oğlu Şərifova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikası Baş nazirinin müavini Abid Qoca oğlu Şərifova verilməsi barədə Yaponiya tərəfinə müvafiq bildiriş göndərsin.

Y.EYYUBOV

Azərbaycan Respublikası Baş nazirinin birinci müavini

Bakı şəhəri, 8 aprel 2009-cu il

№ 68s

"Azərbaycan Respublikası ilə Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı arasında Kredit Sazişini Azərbaycan Respublikası adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri Şahin Abdulla oğlu Mustafayevə verilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Sərəncamı

1. "Azərbaycan Respublikası ilə Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı arasında Kredit Sazişini (Abşeronun Ekoloji Bərpası Proqramı-2: Bərk Tullantıların Vahid İdarəçiliyi Layihəsi)" Azərbaycan Respublikası adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri Şahin Abdulla oğlu Mustafayevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikası adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri Şahin Abdulla oğlu Mustafayevə verilməsi barədə Beynəlxalq Yenidənqurma və İnkişaf Bankına müvafiq bildiriş göndərsin.

3. Bu sərəncam imzalandığı gündən qüvvəyə minir.

Y.EYYUBOV

Azərbaycan Respublikası Baş nazirinin birinci müavini

Bakı şəhəri, 8 aprel 2009-cu il

№ 71s

"Azərbaycan Respublikası ilə Beynəlxalq İnkişaf Assosiasiyası arasında Maliyyələşdirmə Sazişini Azərbaycan Respublikası adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının kənd təsərrüfatı naziri İsmət Dursun oğlu Abasova verilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Sərəncamı

1. "Azərbaycan Respublikası ilə Beynəlxalq İnkişaf Assosiasiyası arasında Maliyyələşdirmə Sazişini (Kənd İnvestisiyaları Layihəsi üçün Əlavə Maliyyələşdirmə)" Azərbaycan Respublikası adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının kənd təsərrüfatı naziri İsmət Dursun oğlu Abasova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikası adından imzalamaq səlahiyyətinin

Azərbaycan Respublikasının kənd təsərrüfatı naziri İsmət Dursun oğlu Abasova verilməsi barədə Beynəlxalq İnkişaf Assosiasiyasına müvafiq bildiriş göndərsin.

3. Bu sərəncam imzalandığı gündən qüvvəyə minir.

Y.EYYUBOV

Azərbaycan Respublikası Baş nazirinin birinci müavini

Bakı şəhəri, 8 aprel 2009-cu il

№ 72s

"Azərbaycan Respublikası ilə Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı arasında Kredit Sazişini Azərbaycan Respublikası adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının maliyyə naziri Samir Rauf oğlu Şərifova verilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Sərəncamı

1. "Azərbaycan Respublikası ilə Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı arasında Kredit Sazişini (Dəmir Yolu Ticarətinin və Nəqliyyatının Dəstəklənməsi Layihəsi)" Azərbaycan Respublikası adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının maliyyə naziri Samir Rauf oğlu Şərifova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikası adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının maliyyə naziri Samir Rauf oğlu Şərifova verilməsi barədə Beynəlxalq Yenidənqurma və İnkişaf Bankına müvafiq bildiriş göndərsin.

3. Bu sərəncam imzalandığı gündən qüvvəyə minir.

Y.EYYUBOV

Azərbaycan Respublikası Baş nazirinin birinci müavini

Bakı şəhəri, 8 aprel 2009-cu il

№ 73s

"Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı ilə Azərbaycan Dövlət Dəmir Yolu arasında Layihə Sazişini imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının nəqliyyat naziri Ziya Ərzuman oğlu Məmmədova verilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Sərəncamı

1. "Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı ilə Azərbaycan Dövlət Dəmir Yolu arasında Layihə Sazişini (Dəmir Yolu Ticarətinin və Nəqliyyatının Dəstəklənməsi Layihəsi)" imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının nəqliyyat naziri Ziya Ərzuman oğlu Məmmədova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu sərəncamın 1-ci bəndində göstərilən Sazişi imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının nəqliyyat naziri Ziya Ərzuman oğlu Məmmədova verilməsi barədə Beynəlxalq Yenidənqurma və İnkişaf Bankına müvafiq bildiriş göndərsin.

3. Bu sərəncam imzalandığı gündən qüvvəyə minir.

Y.EYYUBOV

Azərbaycan Respublikası Baş nazirinin birinci müavini

Bakı şəhəri, 8 aprel 2009-cu il

№ 74s

Xüsusi Razılaşmanı və Həvalə Müqaviləsini Azərbaycan Respublikası adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri Şahin Abdulla oğlu Mustafayevə verilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Sərəncamı

1. Azərbaycan Respublikasını təmsil edən İqtisadi İnkişaf Nazirliyi ("Benefisiar") və Almaniya İnkişaf Bankı, Frankfurt am Main ("KfW") arasında "Tədqiqatlar və Mütəxəssislər Fondu IV" qrant layihəsi ilə bağlı Maliyyələşdirmə Müqaviləsini, həmin Müqaviləyə dair Xüsusi Razılaşmanı və Həvalə Müqaviləsini Azərbaycan Respublikası adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri Şahin Abdulla oğlu Mustafayevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu sərəncamın 1-ci bəndində göstərilən sənədi Azərbaycan Respublikası adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri Şahin Abdulla oğlu Mustafayevə verilməsi barədə Almaniya tərəfinə müvafiq bildiriş göndərsin.

Y.EYYUBOV

Azərbaycan Respublikası Baş nazirinin birinci müavini

Bakı şəhəri, 8 aprel 2009-cu il

№ 75s

"Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi və Ukraynanın Xarici Kəşfiyyat Xidməti arasında əməkdaşlığa dair Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi və Ukraynanın Xarici Kəşfiyyat Xidməti arasında əməkdaşlığa dair Saziş"i imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının milli təhlükəsizlik naziri Eldar Əhməd oğlu Mahmudova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının milli təhlükəsizlik naziri Eldar Əhməd oğlu Mahmudova verilməsi barədə Ukrayna tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 9 aprel 2009-cu il

№ 222

"Azərbaycan Respublikası Hökuməti və Ukrayna Hökuməti arasında hərbi-texniki əməkdaşlığa dair Sazişə dəyişikliklərin edilməsi haqqında" Azərbaycan Respublikası Hökuməti və Ukrayna Nazirlər Kabineti arasında Protokol"u imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti və Ukrayna Hökuməti arasında hərbi-texniki əməkdaşlığa dair Sazişə dəyişikliklərin edilməsi haqqında" Azərbaycan Respublikası Hökuməti və Ukrayna Nazirlər Kabineti arasında Protokol"u Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının müdafiə naziri Səfər Axundbala oğlu Əbiyevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Protokolu Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının müdafiə naziri Səfər Axundbala oğlu Əbiyevə verilməsi barədə Ukrayna tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 9 aprel 2009-cu il

№ 223

"Azərbaycan Respublikasının Gəncə Şəhər İcra Hakimiyyəti və Ukraynanın Volına vilayətinin Dövlət Administrasiyası arasında ticari-iqtisadi, elmi-texniki və mədəniyyət sahələrində əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikasının Gəncə Şəhər İcra Hakimiyyəti və Ukraynanın Volına vilayətinin Dövlət Administrasiyası arasında ticari-iqtisadi, elmi-texniki və mədəniyyət sahələrində əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əziz oğlu Əzizova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əziz oğlu Əzizova verilməsi barədə Ukrayna tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 9 aprel 2009-cu il

№ 224

Azərbaycan Respublikası Hökuməti ilə İsveçrə Federal Şurası arasında ticarət və iqtisadi əməkdaşlıq üzrə Birgə Komissiyanın Azərbaycan Respublikası tərəfindən yeni tərkibinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. Azərbaycan Respublikası Hökuməti ilə İsveçrə Federal Şurası arasında ticarət və iqtisadi əməkdaşlıq üzrə Birgə Komissiyanın Azərbaycan Respublikası tərəfindən aşağıdakı yeni tərkibi təsdiq edilsin:

Komissiyanın həmsədri:

Şahin Mustafayev	- Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri

Komissiyanın üzvləri:

Xələf Xələfov	- Azərbaycan Respublikası xarici işlər nazirinin müavini
Toğrul Musayev	- Azərbaycan Respublikası ədliyyə nazirinin müavini
Azər Bayramov	- Azərbaycan Respublikası maliyyə nazirinin müavini
Sahir Məmmədxanov	- Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini
Avtandil Babayev	- Azərbaycan Respublikası Mərkəzi Bankı sədrinin müavini
Məmməd Sadiq Quliyev	- Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti sədrinin birinci müavini
Zaman Novruzov	- Azərbaycan Respublikası "Azərsu" Açıq Səhmdar Cəmiyyətinin vitse-prezidenti
Elçin Əmirbəyov	- Azərbaycan Respublikasının İsveçrə Konfederasiyasında fövqəladə və səlahiyyətli səfiri

2. "Azərbaycan Respublikası Hökuməti ilə İsveçrə Federal Şurası arasında ticarət və iqtisadi əməkdaşlıq üzrə Birgə Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 14 aprel tarixli, 1203 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003-cü il, № 4, maddə 193; 2005-ci il, № 10, maddə 968; 2007-ci il, № 12, maddə 1284) 1-ci bəndi qüvvədən düşmüş hesab edilsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Azərbaycan Respublikası Hökuməti ilə İsveçrə Federal Şurası arasında ticarət və iqtisadi əməkdaşlıq üzrə Birgə Komissiyanın Azərbaycan Respublikası tərəfindən yeni tərkibi barədə İsveçrə Federal Şurası tərəfinə müvafiq bildiriş göndərsin.

4. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 14 aprel 2009-cu il

№ 226

Azərbaycan Respublikasının Meksika Birləşmiş Ştatlarında (Mexiko şəhərində) Səfirliyinin fəaliyyətinin təmin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikasının Meksika Birləşmiş Ştatlarında (Mexiko şəhərində) Səfirliyinin fəaliyyətinin təmin edilməsi məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, Azərbaycan Respublikasının Meksika Birləşmiş Ştatlarında (Mexiko şəhərində) Səfirliyinin fəaliyyətinin təminatı ilə bağlı maddi-texniki təchizat və maliyyələşdirilmə məsələlərini bir ay müddətinə həll etsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, Azərbaycan Respublikasının Meksika Birləşmiş Ştatlarında (Mexiko şəhərində) Səfirliyinin strukturunu və ştat cədvəlini bir ay müddətinə təsdiq etsin.

3. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 14 aprel 2009-cu il

№ 227

Azərbaycan Respublikasının Amerika Birləşmiş Ştatlarında fövqəladə və səlahiyyətli səfiri Y.T. Əliyevin iqamətgahı Vaşinqton şəhərində olmaqla, eyni zamanda Azərbaycan Respublikasının Meksika Birləşmiş Ştatlarında fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alıram:

Azərbaycan Respublikasının Amerika Birləşmiş Ştatlarında fövqəladə və səlahiyyətli səfiri Yaşar Teymur oğlu Əliyev iqamətgahı Vaşinqton şəhərində olmaqla, eyni zamanda Azərbaycan Respublikasının Meksika Birləşmiş Ştatlarında fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılsın.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 14 aprel 2009-cu il

№ 228

İ.Y. Muxtarova Azərbaycan Respublikasının fövqəladə və səlahiyyətli səfiri diplomatik rütbəsi verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

"Diplomatik xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 8.1.1-ci maddəsini rəhbər tutaraq qərara alıram:

Əqar Yusif oğlu Muxtarova Azərbaycan Respublikasının fövqəladə və səlahiyyətli səfiri diplomatik rütbəsi verilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 14 aprel 2009-cu il

№ 229

İ.Y. Muxtarovun Azərbaycan Respublikasının Meksika Birləşmiş Ştatlarında fövqəladə və səlahiyyətli səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alıram:

Əqar Yusif oğlu Muxtarov Azərbaycan Respublikasının Meksika Birləşmiş Ştatlarında fövqəladə və səlahiyyətli səfiri təyin edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 14 aprel 2009-cu il

№ 230

Azərbaycan Respublikası və Küveyt Dövləti arasında 2009-cu il fevralın 10-da Əl-Küveyt şəhərində imzalanmış sənədlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. Azərbaycan Respublikası və Küveyt Dövləti arasında 2009-cu il fevralın 10-da Əl-Küveyt şəhərində imzalanmış aşağıdakı sənədlər təsdiq edilsin:

1.1. Azərbaycan Respublikası Hökuməti və Küveyt Dövləti Hökuməti arasında əməkdaşlıq üçün Birgə Komissiyanın yaradılması haqqında Saziş;

1.2. Azərbaycan Respublikası Hökuməti ilə Küveyt Dövləti Hökuməti arasında turizm sahəsində əməkdaşlıq haqqında Saziş.

2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bu Sərəncamın 1.1-1.2-ci bəndlərində göstərilən sənədlərin həyata keçirilməsi üçün zəruri tədbirlər görsün.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1.1-1.2-ci bəndlərində göstərilən sənədlərin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Küveyt Dövləti Hökumətini xəbərdar etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 14 aprel 2009-cu il

№ 232

Azərbaycan Respublikası Hökuməti və Küveyt Dövləti Hökuməti arasında əməkdaşlıq üçün Birgə Komissiyanın yaradılması haqqında Saziş

Bundan sonra "Tərəflər" adlanacaq Azərbaycan Respublikası Hökuməti və Küveyt Dövləti Hökuməti,

Ölkələri arasında müxtəlif sahələrdə dostluq və əməkdaşlıq əlaqələrini təşviq etmək niyyətində olaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər aralarında ikitərəfli münasibətləri inkişaf etdirmək məqsədilə Birgə Komissiya (bundan sonra "Komissiya") yaradacaqlar. Komissiyaya aşağıdakı tapşırıqlar həvalə ediləcək:

1. Məsləhətləşmələr aparmaq və ümumi maraq kəsb edən siyasi məsələləri əlaqələndirmək.

2. İqtisadiyyat, ticarət, investisiya, maliyyə, inkişaf, gömrük və digər müvafiq sahələrdə əməkdaşlıq prosesini inkişaf və davam etdirmək.

3. Sənaye və energetika sahələrində ikitərəfli əməkdaşlığın yaradılması və inkişaf etdirilməsi.

4. Mədəniyyət, elm və informasiya sahəsində əməkdaşlığı təşviq etmək.

5. Səhiyyə və sosial xidmət sahələrində əməkdaşlığı təşviq etmək.

6. Ölkələr arasında bağlanmış sazişlərin, müqavilələrin və əməkdaşlıq proqramlarının icrasını davam etdirmək.

7. Hərbi sahədə əməkdaşlığın davam etdirilməsinin təşviq etmək.

Maddə 2

Komissiyaya hər iki ölkənin Xarici İşlər Nazirləri tərəfindən rəhbərlik ediləcəkdir. Komissiyanın sessiyalarında iki dövlətin nazirləri və ya onları təmsil edən yüksək vəzifəli rəsmilər və hər bir halda Komissiyanın müzakirə edəcəyi əməkdaşlıq mövzuları ilə əlaqədar mütəxəssislər iştirak edəcək.

Maddə 3

Komissiya növbə ilə hər ölkənin paytaxtında iki ildə bir dəfə öz sessiyalarını keçirəcək. Tərəflər hər sessiyanın vaxtını diplomatik kanallar vasitəsilə razılaşdıracaq.

Maddə 4

1. Komissiya, onun sessiyalarını hazırlayacaq, əlaqələndirəcək və ona nəzarət edəcək işçi qrup yaradacaq. İşçi qrupun sessiyaları Komissiyanın sessiyalarından öncə və eyni paytaxtda keçiriləcək.

2. Hər ölkənin xarici işlər nazirliyinin yüksək vəzifəli rəsmisi hazırlıq komissiyanın işçi qrupunda öz ölkəsinin nümayəndə heyətinə başçılıq edəcək. Belə nümayəndə heyəti işçi qrupda müzakirə ediləcək və gündəliyə daxil edilmiş məsələlərlə əlaqədar orqanların nümayəndələrindən ibarət olacaq.

İşçi qrupun üzvləri sırasına hər iki ölkənin ticarət və sənaye palatalarının üzvləri, hansı zəruri olduqda özəl sektorun nümayəndələri daxil edilə bilər.

Maddə 5

1. Bu Saziş onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Tərəflərin sonuncu yazılı bildirişinin diplomatik kanallar vasitəsilə alındığı tarixdən qüvvəyə minir.

2. Bu Saziş beş il müddətinə bağlanılır və Tərəflərdən biri bu Sazişin müddətinin bitməsinə ən azı altı ay qalmış onu ləğv etmək niyyəti barədə yazılı şəkildə diplomatik kanallar vasitəsilə digər Tərəfə məlumat verməzsə, onun qüvvəsi avtomatik olaraq növbəti müddətlərə uzadılacaqdır.

3. Tərəflərin qarşılıqlı razılığı əsasında bu Sazişə onun ayrılmaz hissəsi olan və həmin maddənin 1-ci abzasında nəzərdə tutulan qaydada qüvvəyə minən ayrıca protokollarla rəsmiləşdirilən əlavə və dəyişikliklər edilə bilər.

Bunun təsdiqi olaraq, aşağıda imza atan hökumətləri tərəfindən səlahiyyətləndirilən şəxslər bu Sazişi imzaladılar.

Əl-Küveyt şəhərində 10 fevral 2009-cu il tarixinə müvafiq olan Hicri təqviminin 15 səfər 1430 tarixində iki əsl nüsxədə hər biri Azərbaycan, ərəb və ingilis dillərində imzalanmışdır, bütün mətnlər bərabər autentikdir. Təfsir zamanı fikir ayrılığı yarandığı təqdirdə ingilis dilində olan mətnə üstünlük veriləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	KÜVEYT DÖVLƏTİ HÖKUMƏTİ ADINDAN
ELMAR MƏMMƏDYAROV	*MƏHƏMMƏD SABAH ƏL-SƏLİM ƏL-SABAH*
Xarici işlər naziri	*Baş Nazirin müavini, xarici işlər naziri*

Azərbaycan Respublikası Hökuməti ilə Küveyt Dövləti Hökuməti arasında turizm sahəsində əməkdaşlıq haqqında Saziş

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikası Hökuməti və Küveyt Dövləti Hökuməti,

turizmin inkişafının həm hər iki ölkənin iqtisadiyyatı, həm də iki xalq arasında daha yaxşı anlaşma üçün əhəmiyyətini dərk edərək,

özlərinin potensial imkanlarını nəzərə almaqla, turizm sahəsində fəal əməkdaşlığın təşviq edilməsinin zəruriliyinə əmin olaraq,

turizm sahəsində əməkdaşlıq üçün hər iki Tərəfin maraqlı olduğunu nəzərə alaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər, hər iki xalqın tarixi və mədəniyyəti barədə məlumatların qarşılıqlı mübadilə edilməsi və bir-birinin mədəni irsləri, tarixi abidələri və turizm dəyərləri ilə yaxından tanış olmaq məqsədilə turizm sahəsində əməkdaşlığın inkişafına yardım edəcəklər.

Maddə 2

Tərəflər, milli qanunvericiliklərinə uyğun olaraq, iki ölkə arasında turistlərin mübadiləsi ilə bağlı sənədləşmələrin sadələşdirilməsinə çalışacaqlar və ölkələrinə gələn turistlərin təhlükəsizliyi üçün zəruri şərait yaradacaqlar.

Maddə 3

Tərəflər hər iki ölkə vətəndaşlarının qarşılıqlı turist səyahətlərinə öz qanunvericiliklərinə uyğun olaraq lazımi yardım göstərməyə təminat verirlər.

Tərəflər hər iki ölkənin turist obyektlərini yaxından tanıtmaq məqsədi ilə turizmlə məşğul olan mütəxəssislərin mətbuat işçilərinin TV çəkiliş qruplarının səfərlərinə qarşılıqlı yardım edəcəklər.

Maddə 4

Tərəflər, turizm reklam materiallarını, bu sahə ilə əlaqədar statistik göstəriciləri, kommersiya filmlərini, festivallar və turizmə aid məlumatları mübadilə edəcəklər.

Maddə 5

Tərəflər turist əlaqələrinin inkişafına, hər iki ölkənin turist təşkilatları arasında əməkdaşlığın möhkəmlənməsinə, turistlərin qrup halında və fərdi qaydada bir ölkədən digərinə səyahətlərinin təşkilinə yardım göstərəcəklər.

Maddə 6

Tərəflər turizm işçi heyətinə təlimlərin keçirilməsində bir-birinə qarşılıqlı yardım edəcək və turizm sahəsində müştərək müəssisələrin yaradılmasını və investisiya layihələrinin həyata keçirilməsini təşviq edəcəklər.

Maddə 7

Tərəflər yeni turist marşrutlarının yaradılması məqsədilə öz səyahət strukturları arasında fəal əməkdaşlığın qurulmasını təmin edəcəklər.

Maddə 8

Tərəflərin səlahiyyətli nümayəndələri bu Sazişin müddəalarının həyata keçirilməsinin müzakirəsi, ikitərəfli əməkdaşlığın inkişaf etdirilməsi və hər növbəti il üçün tədbirlər planının hazırlanması məqsədilə növbə ilə Tərəflərin paytaxtlarında görüşlər təşkil edəcəklər.

Maddə 9

Bu Sazişin həyata keçirilməsi üzrə Tərəflərin səlahiyyətli orqanları aşağıdakılardır:

Azərbaycan Respublikası Hökuməti tərəfindən - Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi;

Küveyt Dövləti Hökuməti tərəfindən - Küveyt Dövlətinin Ticarət Nazirliyi-Turizm sektoru.

Maddə 10

Bu Sazişin tətbiqi və ya təfsiri ilə bağlı yaranan fikir ayrılıqları Tərəflər arasında məsləhətləşmələr vasitəsi ilə həll edəcəklər.

Maddə 11

Tərəflərin qarşılıqlı razılığı əsasında bu Sazişə onun ayrılmaz hissəsi olan və 12-ci maddəsində nəzərdə tutulan qaydada qüvvəyə minən ayrıca protokollarla rəsmiləşdirilən əlavə və dəyişikliklər edilə bilər.

Maddə 12

Bu Saziş onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Tərəflərin sonuncu yazılı bildirişinin diplomatik kanallar vasitəsilə alındığı tarixdən qüvvəyə minir.

Bu Saziş beş il müddətinə bağlanılır və Tərəflərdən biri bu Sazişin müddətinin bitməsinə ən azı altı ay qalmış onu ləğv etmək niyyəti barədə yazılı şəkildə diplomatik kanallar vasitəsilə digər Tərəfə məlumat verməzsə, onun qüvvəsi avtomatik olaraq növbəti müddətlərə uzadılacaqdır.

Əl-Küveyt şəhərində 10 fevral 2009-cu il tarixinə müvafiq olan Hicri təqviminin 15 səfər 1430 tarixində iki əsl nüsxədə hər biri Azərbaycan, ərəb və ingilis dillərində imzalanmışdır, bütün mətnlər bərabər autentikdir. Təfsir zamanı fikir ayrılığı yarandığı təqdirdə ingilis dilində olan mətnə üstünlük veriləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	KÜVEYT DÖVLƏTİ HÖKUMƏTİ ADINDAN
ƏBÜLFƏS QARAYEV	*FƏHMƏD YAQUB Y. BAĞIR ƏL-ABDULLAH*
Mədəniyyət və turizm naziri	*Ticarət və sənaye naziri, Millət Məclisi işləri üzrə dövlət naziri*

2009-cu il fevralın 19-da Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası və İran İslam Respublikası arasında iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə Dövlətlərarası Müştərək Komissiyanın 7-ci iclasının nəticələri barədə Memorandum"un təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2009-cu il fevralın 19-da Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası və İran İslam Respublikası arasında iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə Dövlətlərarası Müştərək Komissiyanın 7-ci iclasının nəticələri barədə Memorandum" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Memorandumun həyata keçirilməsi üçün zəruri tədbirlər görsün.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 14 aprel 2009-cu il

№ 233

Azərbaycan Respublikası və İran İslam Respublikası arasında iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə Dövlətlərarası Müştərək Komissiyanın 7-ci iclasının nəticələri barədə Memorandum

Azərbaycan Respublikası və İran İslam Respublikası arasında iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə Dövlətlərarası Müştərək Komissiyanın 7-ci iclası 17-19 fevral 2009-cu il tarixində Bakı şəhərində keçirilmişdir.

Müştərək Komissiyanın iclasına Azərbaycan Respublikası tərəfindən Xarici İşlər Naziri cənab E.Məmmədyarov, İran İslam Respublikası tərəfindən Xarici İşlər Naziri cənab M.Mottəki həmsədrlik edirdi.

İclasın gündəliyinin müzakirəsinə keçməzdən əvvəl, Tərəflər ölkələrinin iqtisadi vəziyyəti, müxtəlif sahələrdə aparılan islahatlar barədə fikir mübadiləsi etdilər.

Tərəflər dostluq və qarşılıqlı anlaşma şəraitində keçən görüşdə 6-cı iclasın nəticələrinə dair Memorandumda əks olunmuş məsələlərin icra vəziyyətini müzakirə etdilər və gələcək əməkdaşlığın genişləndirilməsi istiqamətində aşağıdakılar barədə razılığa gəldilər.

1. Sənaye və energetika

1.1. Enerji və sənaye sahəsində (neft, qaz, neft-kimya, elektroenergetika və su) birgə əməkdaşlığın inkişaf etdirilməsi üzrə işçi qrupun yaradılması və qısa müddət ərzində qrupun ilk iclasının təşkil edilməsi;

1.2. Tərəflər dövlətlərin zəngin neft-qaz ehtiyatlarını nəzərə alaraq aşağıdakı sahələrdə əməkdaşlığın inkişaf etdirilməsi barədə razılığa gəldilər:

1.2.1. Neft-qaz ehtiyatlarının kəşfiyyatı, işlənməsi, emalı, nəqli, satışı və yeni bazarlara çıxışı sahəsində əməkdaşlıq imkanlarının araşdırılması və təşviqi;

1.2.2. Neft-qaz sahəsində mütəxəssislərin hazırlanması, ixtisasın artırılması və qarşılıqlı mütəxəssis mübadiləsinin həyata keçirilməsi;

1.2.3. Neft-kimya sənayesinin inkişafı üzrə müxtəlif sahələrdə Azərbaycan Respublikası və İran İslam Respublikası arasında əməkdaşlıq imkanlarının araşdırılması.

1.3. Tərəflər dövlətlərin zəngin hidroenerji və elektrik enerjisi ehtiyatlarını və əlverişli coğrafi mövqelərini nəzərə alaraq aşağıdakılar barədə razılığa gəldilər:

1.3.1. 400 (330) kV-luq "Ərdəbil - İmişli", 330 kV-luq "İmişli - Şirvan", 220 kV-luq Şirvan-Astara, Astara (Azərbaycan Respublikası) - Astara (İran İslam Respublikası) elektrik verilişi xətlərinin və müvafiq yarımstansiyaların tikintisinin başa çatdırılması;

1.3.2. Hər iki ölkənin tranzit imkanlarından istifadə edərək elektrik enerjisinin üçüncü dost ölkələrə ixracı imkanlarının araşdırılması;

1.3.3. Azərbaycan Respublikası - İran İslam Respublikası elektroenergetika sistemlərinin paralel rejimdə işləməsi haqqında əldə olunmuş razılaşmalarda nəzərdə tutulmuş tədbirlərin icrasına dair imkanların öyrənilərək müvafiq müzakirələrin aparılması;

1.3.4. İran İslam Respublikasına Azərbaycan Respublikasının enerji sistemindən müvafiq gücün ötürülməsi üçün danışıqlara başlanılması;

1.3.5. Tərəflər Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası və İran İslam Respublikası ilə həmsərhəd olan hissədə Araz çayının su enerjisi potensialından bərabər və birgə istifadə etmək məqsədilə su elektrik stansiyalarının layihələşdirilməsi və tikintisi üzrə qarşılıqlı əməkdaşlıq;

1.3.6. Hər iki ölkə ərazisində elan edilmiş beynəlxalq tenderlər barədə məlumat mübadiləsi;

1.3.7. Alternativ və bərpa olunan (günəş, külək, su, biokütlə və s.) enerji mənbələrinin araşdırılması məqsədilə mövcud əməkdaşlığın genişləndirilməsi;

1.3.8. Tərəflər iki ölkə arasında Sazişə nail olmaq üçün "Xudafərin" və "Qız Qalası" su bəndləri və elektrik stansiyalarına dair məsələlər barədə ekspert müzakirələrini bir aydan gec olmayaraq başlayacaqları barədə razılığa gəldilər;

1.3.9. Ordubad - Marazad su elektrik stansiyalarının layihələşdirilməsi və tikintisinin maliyyələşdirilməsi üzrə məsələlərin müzakirəsi;

1.3.10. İran İslam Respublikası, Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında elektrik verilişi xətlərinin birləşdirilməsi ilə əlaqədar qarşılıqlı anlaşmanın əldə olunması imkanlarının araşdırılması;

1.3.11. Sərhədyanı rayonlarda qaz və mazutla işləyən müştərək elektrik stansiyalarının inşasına dair imkanların araşdırılması istiqamətində müzakirələrin aparılması;

1.3.12. Araz, Astara və Bolhar sərhəd çaylarının axımının nizamlanması, sel və daşqın sularının zərərli təsirinə qarşı birgə mübarizə tədbirlərinin hazırlanması və bu işlərin davam etdirilməsi üçün müştərək İşçi Qrupun yaradılması;

1.3.13. Sərhədyanı zonalarda suvarılan torpaqların hidrogeoloji və meliorativ vəziyyətlərinin öyrənilməsi və bu məsələ barədə lazımi təkliflərin hazırlanması;

1.3.14. Araz çayında həyata keçirilməsi nəzərdə tutulan su təsərrüfatı üzrə tədbirlərin hər iki tərəflə razılaşdırılması;

1.3.15. Meliorasiya və su təsərrüfatı sahəsində qarşılıqlı təcrübə mübadiləsinin aparılması;

1.4. Tərəflər sənaye sahəsində əməkdaşlıq üçün geniş imkanların olmasını nəzərə alaraq, aşağıdakılar barədə razılığa gəldilər:

1.4.1. Azərbaycan Respublikasının Sənaye və Energetika Nazirliyi və İran İslam Respublikasının Sənaye və Mədənlər Nazirliyi arasında sənaye sahəsində qarşılıqlı faydalı əməkdaşlığın yaradılması;

1.4.2. Sənayenin bütün sahələrində (yüngül, yeyinti, maşınqayırma, avtomobil, metallurgiya, məişət kimyası, qənaətli elektrik lampalarının istehsalı və s.) ikitərəfli əməkdaşlıq üçün mövcud imkanlardan faydalanaraq, hər iki ölkənin müvafiq şirkətləri arasında əməkdaşlığın təşviq edilməsi, konkret təkliflərin araşdırılması;

1.4.3. Sənaye sahəsində birgə müəssisələrin yaradılmasının dəstəklənməsi;

1.4.4. Sənaye sahəsində ətraf mühitin mühafizəsinin dəstəklənməsi:

1.4.5. Sənaye sahəsində yeni effektiv texnologiyaların və standartların tətbiqi sahəsində əməkdaşlıq və təcrübə mübadiləsi.

1.5. Enerji istehlakının idarə edilməsi səmərəliliyinin (SEC) yüksəldilməsi məqsədilə müvafiq enerji standartlarının işlənilməsi üzrə birgə əməkdaşlıq imkanlarının araşdırılması;

1.5.1. Karbon emissiyasının (SER) azaldılması üzrə müştərək əməkdaşlıq imkanlarının araşdırılması.

2. Nəqliyyat

2.1. Tərəflər nəqliyyat sahəsində mövcud əməkdaşlığı genişləndirmək üçün aşağıdakı fəaliyyətin zəruriliyini qeyd etdilər:

2.1.1. Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında sərnişin və yük daşımalarında mövcud potensialdan səmərəli istifadə etmək məqsədi ilə nəqliyyat nazirliklərinin rəhbərləri arasında görüşlərin keçirilməsi;

2.1.2. İran İslam Respublikasının ərazisindən keçməklə "Bakı-Naxçıvan-Bakı" müntəzəm avtobus marşrutu ilə sərnişin daşımalarının sadələşdirilməsi istiqamətində müvafiq işlərin aparılması;

2.1.3. Culfa (Azərbaycan Respublikası) - Culfa (İran İslam Respublikası) keçid məntəqələrində Araz çayı üzərində yeni körpünün inşasının İran tərəfindən sürətləndirilməsi;

2.1.4. Astara çayı üzərində (Astara (Azərbaycan Respublikası) - Astara (İran İslam Respublikası)) tikilməsi nəzərdə tutulan avtomobil yolu körpü keçidinin yerinin müəyyənləşdirilməsi ilə bağlı Azərbaycan tərəfindən verilmiş təkliflərə dair İran tərəfinin rəyinin bildirilməsi;

2.1.5. İki dövlət arasında "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizi üzrə nəzərdə tutulmuş əlaqələrin inkişaf etdirilməsi, xüsusilə dəmir yolu sahəsində işlərin sürətləndirilməsi və bu məsələnin nəqliyyat nazirliklərinin rəhbərləri arasındakı görüşlərdə müzakirə edilməsi;

2.1.6. Naxçıvan - Tehran - Dubay və yaxud Tehran - Naxçıvan - Tehran beynəlxalq aviareyslərinin və Naxçıvan - Tehran və ya Naxçıvan - Məşəd və əks istiqamətdə sərnişin qatarı marşrutunun açılması imkanlarının araşdırılması;

2.1.7. Dənizçilik sahəsində və limanlar arasında əlaqələrin daha da inkişaf etdirilməsi istiqamətində dəniz məsələləri üzrə üçüncü toplantının 2009-cu ilin sonuna qədər keçirilməsi ilə bağlı Tərəflərin müzakirəsi.

3. İqtisadi və ticarət əlaqələri

3.1. 5 avqust 2004-cü il tarixində imzalanmış "Azərbaycan Respublikası Hökuməti və İran İslam Respublikası Hökuməti arasında Ticarət Sazişi"nin qüvvəyə minməsinin əhəmiyyətini nəzərə alaraq qarşılıqlı ticarət əlaqələrinin genişləndirilməsi məqsədilə bu Sazişin hüquqi imkanlarından istifadə edilməsi;

3.2. İki ölkə arasında iqtisadiyyat və ticarət üzrə əməkdaşlığın genişlənməsi üzrə potensial imkanlar barədə araşdırma apararaq iki ölkə arasında ticarət mübadiləsinin həcminin artırılması, həmçinin hər iki Tərəfin aidiyyəti qurumlarının nümayəndələrinin qarşılıqlı səfərlərinin təşkili;

3.3. İki ölkə arasında ticarət əlaqələrinin genişləndirilməsi məqsədilə hər iki ölkənin şirkətləri arasında ticarət mübadilələrinin təşviq edilməsi;

3.4. Əməkdaşlığın potensial imkanları ilə tanışlıq istiqamətində yeni marketinq metodlarından istifadənin əhəmiyyətini vurğulamaqla, iki ölkə arasında ticarət və investisiya imkanlarının araşdırılması məqsədilə ardıcıl olaraq Bakı şəhərində və Tehran şəhərində biznes forumların keçirilməsi;

3.5. Hər iki ölkə ərazisində elan edilmiş beynəlxalq tenderlər barədə məlumat mübadiləsi;

3.6. Azərbaycan Respublikası və İran İslam Respublikası arasında birgə sərgilərin, simpozium və bu növ tədbirlərin təşkili üçün hər iki ölkənin müvafiq qurumları arasında əməkdaşlığın həyata keçirilməsi;

3.7. Azərbaycan Respublikasının Ticarət və Sənaye Palatası və İran İslam Respublikasının Ticarət və Sənaye Palatası tərəfindən Azərbaycan Respublikasında İran İslam Respublikasının iqtisadi günlərinin və qarşılıqlı olaraq İran İslam Respublikasında Azərbaycan Respublikasının iqtisadi günlərinin təşkili istiqamətində əməkdaşlığın həyata keçirilməsi;

3.8. Azərbaycan Respublikasının Ticarət və Sənaye Palatası və İran İslam Respublikasının Ticarət və Sənaye Palatası arasında Birgə Şuranın yaradılması istiqamətində əməkdaşlığın həyata keçirilməsi;

3.9. İki ölkənin müvafiq qurumları arasında sahibkarlığın inkişafı sahəsində təcrübə mübadiləsi və sahibkarlığın dəstəklənməsi mexanizmləri haqqında mütəmadi məlumat mübadiləsinin həyata keçirilməsi, qarşılıqlı səfərlərin təşkili;

3.10. İki ölkə sahibkarlarının iştirakı ilə birgə layihələrin həyata keçirilməsini stimullaşdırmaq məqsədilə investisiya imkanlarına dair məlumatların mübadiləsi;

3.11. İran İslam Respublikasının İxracatın İnkişafı Bankı Azərbaycan Respublikasında layihələrin həyata keçilməsinə, habelə İranın mal və xidmətlərinin ixracının maliyyələşdirilməsi məqsədilə İranın İxraca Zəmanət Fondunun zəmanəti əsasında kreditlər ayırmağa hazır olduğunu bildirdi;

3.12. "Azərbaycan Respublikası Hökuməti və İran İslam Respublikası Hökuməti arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında Saziş" layihəsinin və "Azərbaycan Respublikası Hökuməti İran İslam Respublikası Hökuməti arasında iqtisadiyyat və ticarət sahəsində əhatəli əməkdaşlığa dair Protokol" layihəsinin razılaşdırılması və imzalanması istiqamətində tədbirlərin görülməsi;

3.13. Tərəflər iki ölkə arasında gömrük sahəsində əməkdaşlıq haqqında imzalanmış Sazişin müddəalarına uyğun olaraq əməkdaşlığın davam etdirilməsi və genişləndirilməsinin zəruriliyini vurğuladılar;

3.14. Tərəflər Azərbaycan Respublikası və İran İslam Respublikası sərhəd keçid məntəqələrində fəaliyyət göstərən gömrük idarələrinin rəisləri arasında müntəzəm görüşlərin keçirilməsini vurğuladılar;

3.15. İran tərəfindən "Azər-Asiya" sığorta şirkəti ilə bağlı məsələ qaldırıldığını nəzərə alaraq, Azərbaycan tərəfi bu məsələni araşdıracağını bildirmişdir.

4. Rabitə və informasiya texnologiyaları

4.1. Rabitə və informasiya texnologiyaları sahəsinin tənzimlənməsi üzrə əməkdaşlıq və təcrübə mübadiləsi edilməsi;

4.2. İnformasiya və kommunikasiya sahəsi üzrə tərəflərin özəl sektorları arasında əlaqələrin genişləndirilməsi;

4.3. Beynəlxalq maliyyə-kredit qurumlarının dəstəyi ilə informasiya və kommunikasiya sektoru üzrə regional layihələrin həyata keçirilməsi;

4.4. Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında mübadilə olunan terminal telefon trafikinə görə hesablaşma qiymətlərinin dünya telekom bazarının birja qiymətlərinə uyğun tənzimlənməsi məsələsinin İran tərəfinin aidiyyəti nümayəndələri ilə müzakirəsi;

4.5. Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında beynəlxalq poçt mübadiləsi nəticəsində yaranmış borcların qarşılıqlı olaraq vaxtında ödənilməsi ilə bağlı məsələlərin İran Beynəlxalq Poçt İdarəsinin nümayəndələri ilə müzakirəsi;

4.6. "Xəzər dənizinin ekologiyası" mövzusunda müştərək poçt markasının buraxılması üzrə eskizlərin hazırlanması;

4.7. İki ölkənin poçt müdiriyyətləri arasında elektron vasitələrlə poçt-maliyyə xidmətlərinin mübadiləsinin müzakirəsi;

4.8. Hər iki ölkənin üzərindən beynəlxalq tranzit poçtun daşınması məsələsinin müzakirəsi;

4.9. Naxçıvan Muxtar Respublikasına aid poçtun avtomaşınla İran ərazisindən daşınması üçün şəraitin yaradılmasının müzakirəsi,

4.10. İran İslam Respublikasının ərazisindən tranzit olaraq keçməklə Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası, Türkiyə və Türkmənistan istiqamətlərində mövcud tutumların istifadə haqlarına güzəştlərin tətbiqinin müzakirəsi, Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası istiqamətində mövcud böyüktutumlu rabitə kanalının) dayanıqlı işinin təmin olunması;

4.11. İran İslam Respublikasının Azərbaycan Respublikası ərazisinə yayımlanan və əksinə yayımlanan radio və televiziya proqramlarının (BTİ)-nin (Beynəlxalq Telekommunikasiya İttifaqı) norma və tövsiyələrinə uyğun yayımlanması və bu sahədə fəaliyyətin tənzimlənməsi koordinasiyası məqsədilə hər iki ölkənin mütəxəssislərindən ibarət qısa müddət ərzində işçi qrup yaradılması;

4.12. Qəbul olunmuş koordinasiya zonası hüdudlarında hər iki ölkənin mövcud və planlaşdırılan TV və radio yayımı stansiyalarının texniki parametrlərinin qarşılıqlı mübadilə edilməsi və Beynəlxalq Telekommunikasiya İttifaqının (BTİ) tövsiyələrinə uyğun razı-

laşdırılması;

4.13. Mobil rabitə şəbəkəsi üzrə texniki və mühəndislik xidmətlərinin mübadiləsi;

4.14. Operatorlar arasında rabitə xidmətlərinin inkişafı və beynəlxalq rominq üzrə yeni müqavilələrin işlənib-hazırlanması;

4.15. Təbii fəlakətlərin idarə edilməsi məqsədilə uzaq məsafədən dəyərləndirmə imkanlarından faydalanmaq sahəsində iki ölkə arasında əməkdaşlıq imkanlarının araşdırılması;

4.16. İki ölkənin sərhədlərində mobil rabitə operatorlarının ötürücülərinin tezlik kanallarının üst-üstə düşməsindən irəli gələn problemlərin aradan qaldırılması istiqamətində əməkdaşlığın davam etdirilməsi;

4.17. İki ölkənin milli peyk şəbəkələrinin yaradılmasında və koordinasiyasında qarşılıqlı əlaqələrin qurulması;

4.18. Beynəlxalq Telekommunikasiya İttifaqı və bu sahədə fəaliyyət göstərən digər beynəlxalq təşkilatlarda hər iki ölkənin təklif və mövqelərinin qarşılıqlı dəstəklənməsi;

4.19. Yeni texnologiyaların tətbiqi ilə əlaqədar birgə təcrübə mübadiləsi, seminar və kursların təşkil edilməsi, tələbə və müəllimlərin bilik və bacarıqlarından qarşılıqlı istifadə edilməsi üçün şəraitin yaradılması;

4.20. Hər iki ölkə ərazisində rabitə (o cümlədən TV və radio yayımı) avadanlıqlarının istehsalı və alqı-satqısında (tenderlərdə) qarşılıqlı əməkdaşlığın həyata keçirilməsi;

4.21. Kəndlərdə informasiya şəbəkələrinin genişləndirilməsi sahəsində təcrübə mübadiləsinin aparılması.

5. Kənd Təsərrüfatı

5.1. Dənli, dənli-paxlalı, pambıq, kartof, meyvə, üzüm və s. bitkilərin genofond materialının mübadiləsi və bu bitkilər üzrə yeni yaradılmış sort nümunələrinin qarşılıqlı ekoloji sınaqlarının keçirilməsi və informasiya mübadiləsi;

5.2. Kənd təsərrüfatı məhsullarının istehsalı və emalı texnologiyalarının işlənilməsi sahəsində birgə əməkdaşlığın gücləndirilməsi.

5.3. Bitkiçilikdə və heyvandarlıqda səmərəli mühafizə tədbirlərinin işlənilməsi fitosanitar tədbirlərin səmərəliliyinin artırılması üçün sərhəd zonalarında vaxtaşırı monitorinqlərin keçirilməsi və informasiya-təcrübə mübadiləsi;

5.4. Camışların süni mayalandırılmasında istifadə olunan yüksək məhsuldar kəl toxumlarının İranın aidiyyəti qurumları tərəfindən Azərbaycan Respublikasına satılması imkanlarının araşdırılması;

5.5. İran İslam Respublikasının "Muğan" Keşt Dövlət Şirkəti ilə Azərbaycan Respublikasının aidiyyəti qurumları arasında qısa müddətli təlim kurslarının keçirilməsi sahəsində əməkdaşlıq imkanlarının araşdırılması;

5.6. İran İslam Respublikasının "Muğan" Keşt Dövlət Şirkəti və Azərbaycan Respublikasının "Vüqar" şirkəti arasında bağçılıq, bitkiçilik, heyvandarlıq sahələri üzrə əməkdaşlıq imkanlarının araşdırılması.

6. Sərhəd məsələləri

6.1. 02.07.1994-cü il tarixində (hicri tarixi ilə 11.04.1373-cü il) Tehran şəhərində imzalanmış "Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında sərhəd məsələləri üzrə Müştərək Komissiyanın yaradılması haqqında Memorandum"a uyğun olaraq, Sərhəd məsələləri üzrə Müştərək Komissiyanın 2009-cu ildə ilk iclasının keçirilməsi məsələsinin diplomatik kanallar vasitəsilə razılaşdırılması;

6.2. Azərbaycan Respublikası vətəndaşlarının şəxsi avtomobilləri ilə İran İslam Respublikasına və Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikasından Bakı şəhərinə gediş-gəlişlərinin sadələşdirilməsi;

6.3. Şahtaxtı (Azərbaycan Respublikası) - Poldəşt (İran İslam Respublikası) dövlət sərhədindən buraxılış məntəqəsinə beynəlxalq keçid statusunun verilməsinin tezləşdirilməsi və məntəqədə infrastrukturun müasirləşdirilməsi məsələləri üzrə ikitərəfli müzakirələrin başlanması;

6.4. Hər iki ölkə vətəndaşlarının Horadiz (Azərbaycan Respublikası) - Aslandüz (İran İslam Respublikası) dövlət sərhədindən buraxılış məntəqəsindən gediş-gəlişinin sadələşdirilməsi imkanlarının araşdırılması;

6.5. Azərbaycan Respublikası və İran İslam Respublikası arasında iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə Dövlətlərarası Müştərək Komissiyanın 5-ci iclasının nəticələri barədə Memorandumun 9-cu bəndinə uyğun olaraq Yardımlı rayonunun Deman kəndi istiqamətində dövlət sərhədindən yeni buraxılış məntəqəsinin açılması məsələsinin müzakirə edilməsi;

6.6. 2004-cü ildə Azərbaycan "Azəriqaz" QSC və İran Milli Qaz İxracı Şirkəti arasında imzalanmış "Təbii qaz mübadiləsi müqaviləsi"ni lazımi qaydada icra etmək istiqamətində hər iki şirkətin nümayəndələrinin Azərbaycan-İran sərhədini (Astara və Culfa) sadələşdirilmiş şəkildə keçmələri üçün lazımi tədbirlər görülməsi;

6.7. Biləsuvar (Azərbaycan Respublikası) - Biləsuvar (İran İslam Respublikası) dövlət sərhədindən buraxılış məntəqəsinin iş vaxtının uzadılması məsələsinə baxılması;

6.8. Viza tənzimlənməsi məsələsinə, rüsumun alınmasına, eyni zamanda "Azərbaycan Respublikası Hökuməti və İran İslam Respublikası Hökuməti arasında Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikasında daimi yaşayan vətəndaşları və İran İslam Respublikasının vətəndaşları üçün sadələşdirilmiş qaydada gediş-gəliş haqqında Memorandum"a uyğun olaraq, Naxçıvan sakinləri üçün rüsumsuz verilən 3 aylıq vizanın müddətinin 6 aya qədər uzadılmasına baxılması.

7. Mədəniyyət, turizm, təhsil və səhiyyə

7. Tərəflər mədəniyyət və turizm sahələrində əməkdaşlıqdan məmnunluq bildirdilər və aşağıdakı sahələrdə əlaqələrin genişləndirilməsi barədə razılığa gəldilər:

7.1 İran və Azərbaycan xalqlarının tarixi, mədəni, mənəvi dəyərlərini əks etdirən informasiya toplusunun ildə bir dəfə davamlı olaraq, hazırlanması və nəşr edilərək hər iki ölkədə yayılması;

7.2 Azərbaycan dilinin İran İslam Respublikasında, fars dilinin Azərbaycan Respublikasında inkişaf etdirilməsinə dair elmi və ictimai müzakirələrin keçirilməsi;

7.3. Hər iki ölkənin şairlərinin iştirakı ilə qarşılıqlı olaraq Azərbaycan Respublikasında və İran İslam Respublikasında şer festivallarının keçirilməsi;

7.4. Azərbaycan Respublikasında və İran İslam Respublikasında qarşılıqlı mədəniyyət günlərinin keçirilməsi;

7.5. Ustad Seyid Məhəmməd Şəhriyarın Bakıda və Tehranda xatirə gecəsinin keçirilməsi;

7.6. Hər iki ölkənin rəssamlarının qarşılıqlı olaraq Azərbaycan Respublikasında və İran İslam Respublikasında sərgilərinin təşkili;

7.7. Azərbaycan incəsənət qruplarını İran İslam Respublikasının beynəlxalq "Fəcr" musiqi festivalında iştirakı;

7.8. İran İslam Respublikasında memarlıq abidələrinin bərpası sahəsində aparılan işləri nümayiş etdirmək məqsədilə Bakı şəhərində sərginin keçirilməsi və Azərbaycan mütəxəssislərinin İran mütəxəssislərinin tarixi abidələrin bərpası və tədqiqi sahəsində təcrübəsi ilə tanış olmasına şərait yaratmaq;

7.9. Hər iki ölkənin muzey işçilərinin, habelə bərpaçı rəssamların təcrübə mübadiləsi və yaradıcılıq ezamiyyətlərinin təşkili;

7.10. İki ölkənin Milli Kitabxanaları arasında kitabların mübadiləsi və əməkdaşlıq haqqında müqavilələrin imzalanması;

7.11. İran İslam Respublikasında Azərbaycan kitablarından, Azərbaycan Respublikasında isə İran kitablarından ibarət sərgilərin keçirilməsi;

7.12. Azərbaycan Respublikasında təşkil olunan uşaq musiqi festivallarına və müsabiqələrə İran İslam Respublikasından, həmçinin İran İslam Respublikasında təşkil olunan həmin tədbirlərə Azərbaycan Respublikasından uşaqların dəvət edilməsi;

7.13. Hər iki ölkədə Azərbaycan Respublikasından və İran İslam Respublikasından uşaqların rəsm əsərləri və əl işlərindən ibarət sərgilərin təşkili;

7.14. Azərbaycan Respublikası Hökuməti və İran İslam Respublikası Hökuməti arasında turizm sahəsində əməkdaşlıq haqqında Sazişin imzalanması;

7.15. Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi ilə İranın rəsmi turizm qurumu ilə əlaqələrin yaradılması;

7.16. ÜTT, İKT və bu sahədə fəaliyyət göstərən digər beynəlxalq təşkilatlar çərçivəsində turizm sahəsində əməkdaşlıq;

7.17. Texniki-peşə təhsili sahəsində əməkdaşlıq;

7.18. Ali və orta ixtisas/ikiillik ali təhsil sahəsində qarşılıqlı maraq doğuran sahələr üzrə tədris kurslarının həyata keçirilməsi;

7.19. İki ölkə arasında təhsil sənədlərinin qarşılıqlı tanınması sahəsində hökumətlərarası Sazişin imzalanması üçün səylərin artırılması;

7.20. Hər iki ölkədə xəstəxana, klinika və ixtisaslaşdırılmış müalicə mərkəzlərinin yaradılması və təchizatı sahəsində əməkdaşlığın inkişafı;

7.21. Səhiyyə və tibb elmi sahəsində əməkdaşlığın davam etdirilməsi, eləcə də təbabətdə çağdaş müalicə üsullarının tətbiqi üzrə təcrübə mübadiləsinin inkişafı;

7.22. İki ölkə arasında epidemiologiya və infeksion xəstəliklərə nəzarət sahəsində əməkdaşlığın genişləndirilməsi;

7.23. Tərəflər ildə iki dəfə iyun və dekabr aylarında Astara (Azərbaycan Respublikası) və Culfada (İran İslam Respublikası) hər iki nazirliklərin səlahiyyətli nümayəndələrinin iştirakı ilə infeksion xəstəliklərə nəzarət üzrə görüşləri təşkil edəcəklər;

7.24. Tibb və əczaçılıq sənayesində əməkdaşlıq əlaqələrinin gücləndirilməsi.

8. Yekun müddəalar

8.1. Tərəflər bu Memorandumun müddəalarının yerinə yetirilməsini təmin etmək məqsədilə işçi qrupları yaradacaq və icra mexanizmini müəyyənləşdirəcəklər.

8.2. İşçi qrupların rəhbərləri həmsədrlər tərəfindən təyin olunacaqdır. İşçi qrupunun iclasları zərurət olduğu halda Tərəflərin razılığı əsasında növbə ilə Bakı və Tehran şəhərlərində keçiriləcəkdir.

8.3. Tərəflər Müştərək Komissiyanın növbəti 8-ci iclasının Tehran şəhərində keçirilməsi barədə razılığa gəldilər. İclasın tarixi diplomatik kanallar vasitəsilə qarşılıqlı razılaşma əsasında müəyyən ediləcəkdir.

Bu Memorandum Bakı şəhərində, 19 fevral 2009-cu il tarixində, uyğun olaraq hicri şəmsi tarixi 01.12.1387-ci ildə hər biri Azərbaycan və fars dillərində imzalanmışdır, hər iki mətn eyni qüvvəyə malikdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	İRAN İSLAM RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN
ELMAR MƏMMƏDYAROV	*MƏNUÇEHR MOTTƏKİ*
Xarici işlər naziri	*Xarici işlər naziri*

Azərbaycan Respublikası və İran İslam Respublikası arasında 2009-cu il martın 10-da Tehran şəhərində imzalanmış sənədlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. Azərbaycan Respublikası və İran İslam Respublikası arasında 2009-cu il martın 10-da Tehran şəhərində imzalanmış aşağıdakı sənədlər təsdiq edilsin:

1.1. Azərbaycan Respublikası Hökuməti və İran İslam Respublikası Hökuməti arasında turizm sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumu;

1.2. Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi ilə İran İslam Respublikasının İnformasiya və Rabitə Texnologiyaları Nazirliyi arasında poçt sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumu;

1.3. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi və İran İslam Respublikasının İran Mədəni İrsi, Xalq Tətbiqi Sənəti və Turizm Təşkilatı arasında mədəni irs sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu;

1.4. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi və İran İslam Respublikasının Statistika Mərkəzi arasında statistika sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumu;

1.5. M.F. Axundov adına Azərbaycan Milli Kitabxanası və İran İslam Respublikasının Milli Kitabxanası və Arxivi arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu.

2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bu Sərəncamın 1.1-1.5-ci bəndlərində göstərilən sənədlərin həyata keçirilməsi üçün zəruri tədbirlər görsün.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1.1-1.5-ci bəndlərində göstərilən sənədlərin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə İran İslam Respublikası tərəfini xəbərdar etsin.

Ilham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 14 aprel 2009-cu il

№ 234

Azərbaycan Respublikası Hökuməti və İran İslam Respublikası Hökuməti arasında turizm sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumu

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikası Hökuməti və İran İslam Respublikası hökuməti,

ikitərəfli əməkdaşlığın genişləndirilməsini arzu edərək və iki ölkənin müvafiq qurumları tərəfindən imzalanmış sazişləri nəzərə alaraq,

ölkələri arasında mövcud dostluq əlaqələrini gücləndirmək məqsədilə,

iqtisadi, siyasi və sosial əməkdaşlığın təşviq edilməsində turizmin səmərəli vasitə olduğunu etiraf edərək,

hüquqların tam bərabərliyi və qarşılıqlı fayda əsasında,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər vətəndaşlarını bir-birlərinin ölkələrinə səfər etməyə həvəsləndirəcəklər və dövlətlərinin müvafiq qanunlarına və qaydalarına uyğun olaraq və beynəlxalq öhdəliklərinə xələl gətirmədən, aidiyyəti qurumları ilə əməkdaşlıq şəraitində ölkələri arasında turist mübadiləsi sahəsində prosedurları asanlaşdıracaqlar.

Tərəflər həmçinin hər iki ölkə arasında turist mübadiləsinin artırılması məqsədilə öz turizm şirkətləri və turizm sahəsində fəaliyyət göstərən digər aidiyyəti təşkilatları arasında əməkdaşlığı və birbaşa əlaqələri təşviq edəcəklər.

Maddə 2

Tərəflər öz milli qanunvericiliklərinə uyğun olaraq, müvafiq layihələrə sərmayə yatırımı, mehmanxanaların və digər turist yerləşdirmə obyektlərinin tikilməsi və mehmanxana idarəçiliyi kimi turizm sahələrində əməkdaşlığı təşviq edəcəklər.

Maddə 3

Tərəflər öz milli qanunvericiliklərinə və beynəlxalq öhdəliklərin uyğun olaraq, informasiya, statistik məlumatlar, reklam və təbliğat materiallarının mübadiləsini həyata keçirəcəklər. Onlar həmçinin öz dövlətlərinin ərazisində təşkil olunmuş beynəlxalq sərgilərdə və yarmarkalarda digər tərəfin iştirakını təşviq edəcəklər.

Maddə 4

Tərəflər texniki əməkdaşlıq, birgə tədqiqat layihələri və təbliğat materiallarının istehsalı kimi turizmin müxtəlif sahələrində biliklərin (know-how) və praktiki təcrübənin mübadiləsinə xüsusi əhəmiyyət verəcəklər.

Maddə 5

Tərəflər turizm sahəsində üzv olduqları beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığı inkişaf etdirəcəklər.

Maddə 6

Tərəflər turizm sahəsində çalışan heyətin peşəkar hazırlığı sahəsində məlumat və sənədləri mübadilə edəcək və müvafiq sahələrdə təcrübə kursları, tələbə, təlimatçı və mütəxəssislərin mübadiləsi də daxil olmaqla, əməkdaşlığa zəruri şərait yaradacaq, əməkdaşlığın bütün mümkün formalarını nəzərdən keçirəcək və digər Tərəfin rəsmi şəxsləri və mütəxəssisləri üçün seminarlar təşkil edəcəklər.

Maddə 7

Tərəflər üçüncü ölkələrdən turistləri cəlb etmək məqsədilə öz səyahət agentlikləri və digər aidiyyəti qurumları arasında əməkdaşlığı təşviq edəcəklər.

Maddə 8

İkitərəfli məsləhətləşmələr və öz səlahiyyətli qurumlarına tövsiyələrin təqdim edilməsi vasitəsilə bu Anlaşma Memorandumunun həyata keçirilməsi məqsədilə, vaxtaşırı olaraq hər iki ölkənin səlahiyyətli nümayəndələrinin iştirak edəcəyi görüşlər keçiriləcəkdir. Tərəflər iştirak üçün həm dövlət, həm də özəl turizm sektorunun nümayəndələrini dəvət edə bilərlər.

Görüşlər Tərəflərin razılaşdırdıqları tarixdə hər il növbə ilə hər iki ölkədə keçiriləcəkdir.

Maddə 9

Tərəflərin qarşılıqlı razılığı ilə bu Anlaşma Memorandumuna əlavələr və dəyişikliklər edilə bilər. Belə əlavələr və dəyişikliklər bu Anlaşma Memorandumunun ayrılmaz hissəsi olaraq ayrı-ayrı protokollar formasında rəsmiləşdiriləcək və bu Anlaşma Memorandumunun 10-cu maddəsində nəzərdə tutulan qaydada qüvvəyə minəcəkdir.

Maddə 10

1. Anlaşma Memorandumu onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Tərəflərin sonuncu yazılı bildirişinin diplomatik kanallar vasitəsilə alındığı tarixdən qüvvəyə minir.

2. Anlaşma Memorandumu beş il müddətinə bağlanılır və Tərəflərdən biri bu Anlaşma Memorandumunun müddətinin bitməsinə ən azı altı ay qalmış onu ləğv etmək niyyəti barədə yazılı şəkildə diplomatik kanallar vasitəsilə digər Tərəfə məlumat verməzsə, onun qüvvəsi avtomatik olaraq növbəti beş il müddətinə uzadılacaqdır.

3. Bu Anlaşma Memorandumu Tehran şəhərində 10 mart 2009-cu il tarixində, müvafiq olaraq, Hicri-şəmsi təqvimi ilə 20 esfənd 1387-ci il tarixində iki əsl nüsxədə, hər biri Azərbaycan, fars və ingilis dillərində imzalanmışdır, bütün mətnlər bərabər autentikdir. Təfsirdə fikir ayrılığı olduqda, ingilis dilindəki mətnə istinad ediləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN

ELMAR MƏMMƏDYAROV
Xarici işlər naziri

İRAN İSLAM RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN

HƏMİD DƏQAİ
Prezidentin birinci müavini vəzifəsini icra edən

Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi ilə İran İslam Respublikasının İnformasiya və Rabitə Texnologiyaları Nazirliyi arasında poçt sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumu

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi ilə İran İslam Respublikasının İnformasiya və Rabitə Texnologiyaları Nazirliyi, poçt sahəsində əməkdaşlıq üzrə aşağıdakılara dair razılığa gəldilər:

1. poçt sahəsində treyninq imkanlarına dair təkliflərin verilməsi;

2. qarşılıqlı maraqlara uyğun olaraq birgə poçt layihələrinin həyata keçirilməsi imkanlarına baxılması;

3. poçt sahəsi üzrə mütəxəssislərin mübadiləsi;

4. rəqabətə uyğun qiymətlərlə iki ölkə arasında poçtun tranziti;

5. əlavə xidmətlərin göstərilməsi sahəsində əməkdaşlıq edilməsi;

6. birgə markanın buraxılması:

6.1) "Xəzər dənizinin ekologiyası" mövzusunda birgə marka buraxılması ilə bağlı müvafiq tədbirlər görüləcək;

6.2) birgə buraxılacaq markanın növü, dizaynı, ölçüsü və digər zəruri texniki detalları qısa müddətdə Tərəflər arasında razılaşdırılacaq;

6.3) birgə buraxılacaq markanın qiyməti hər bir tərəfin tariflərinə uyğun olaraq müəyyənləşdiriləcək;

6.4) marka buraxıldıqdan sonra onun ən yaxşı formada elan olunması və ictimaiyyətə məlumat verilməsi təmin ediləcək;

6.5) Tərəflər birgə markalara dair broşüra və maksimafiliya kimi müxtəlif filatelik materialların buraxılmasını nəzərdən keçirəcəklər;

6.6) birgə marka buraxılışı ilə əlaqədar Azərbaycan Respublikasında və İran İslam Respublikasında "İlk gün buraxılışı" mərasimi və birgə marka sərgisi keçirilməsinə baxılacaqdır.

7. Tərəflər yuxarıda qeyd olunan bəndlərin detallarını razılaşdıracaq və gələcəkdə bu istiqamətdə əməkdaşlığı daha da genişləndirəcəklər.

Bu Anlaşma Memorandumu imzalandığı gündən qüvvəyə minir və 3 il müddətində bağlanılır. Tərəflərdən hər biri bu Anlaşma Memorandumuna xitam vermək niyyəti ilə bağlı diplomatik kanallarla ən azı üç ay əvvəl digər Tərəfə bildiriş verə bilər.

Bu Anlaşma Memorandumu Tehran şəhərində 10 mart 2009-cu il tarixində (Hicri təqvimi ilə 20 esfənd 1387-ci ildə) iki əsl nüsxədə, hər biri Azərbaycan, fars və ingilis dillərində imzalanmışdır, bütün mətnlər bərabər autentikdir. Bu Anlaşma Memorandumunun təfsirində fikir ayrılığı olduqda, ingilis dilindəki mətnə istinad ediləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASININ RABİTƏ VƏ İNFORMASİYA TEXNOLOGİYALARI NAZİRLİYİ ADINDAN

ELMAR MƏMMƏDYAROV
Xarici işlər naziri

İRAN İSLAM RESPUBLİKASININ RABİTƏ VƏ İNFORMASİYA TEXNOLOGİYALARI NAZİRLİYİ ADINDAN

MƏNUÇEHR MOTTƏKİ
Xarici işlər naziri

Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi və İran İslam Respublikasının İran Mədəni İrsi, Xalq Tətbiqi Sənəti və Turizm Təşkilatı arasında mədəni irs sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi və İran İslam Respublikasının İran Mədəni İrsi, Xalq Tətbiqi Sənəti və Turizm Təşkilatı,

ikitərəfli əməkdaşlığı genişləndirmək və iki ölkə arasında mövcud olan dostluq münasibətlərini daha da gücləndirmək niyyətində olaraq,

Tərəflərin tərəfdar çıxdığı beynəlxalq müqavilələri nəzərə alaraq,

mədəni irsi iqtisadi, siyasi və sosial əməkdaşlığın effektiv elementi kimi qəbul edərək,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər mədəni irsin qorunması, bərpası və konservasiyası sahələrində mütəxəssislərin mübadiləsini və elmi tədqiqat və insan resurslarının inkişafı sahələrində təcrübə mübadiləsini təşkil edəcəklər.

Maddə 2

Tərəflər muzey eksponatlarının konservasiyası və bərpası sahələrində, həmçinin tarixi kolleksiyaların qorunmasında, onların reproduksiyalarının və surətlərinin sərgilərdə nümayişində əməkdaşlıq edəcəklər.

Maddə 3

Tərəflər muzey bələdçilərinin və muzey işçilərinin texniki biliklərini artırmaq, həmçinin yeni muzey texnologiyalarının istifadəsi barədə məlumatı bölüşmək üçün təlim kursları təşkil edəcəklər.

Maddə 4

Tərəflər iki ölkənin muzeyləri arasında Beynəlxalq Muzey Şurası çərçivəsində əməkdaşlıq aparılması üçün şərait yaradacaqlar.

Maddə 5

Tərəflər YUNESKO-nun "Hərbi münaqişələr zamanı mədəni irsin qorunması haqqında Haaqa Konvensiyası"nın həyata keçirilməsi üzrə təcrübə mübadiləsi aparacaqlar.

Maddə 6

Tərəflərin yazılı razılığı ilə bu Anlaşma Memorandumuna düzəlişlər edilə bilər.

Maddə 7

Bu Anlaşma Memorandumu imzalandığı tarixdən qüvvəyə minir və üç il müddətinə bağlanılır. Tərəflərdən biri bu Anlaşma Memorandumunun müddətinin bitməsinə ən azı altı ay qalmış onu ləğv etmək niyyəti barədə yazılı şəkildə diplomatik kanallar vasitəsilə digər Tərəfə məlumat verməzsə, onun qüvvəsi avtomatik olaraq növbəti üç il müddətinə uzadılacaqdır.

Bu Anlaşma Memorandumu Tehran şəhərində 10 mart 2009-cu il tarixində, müvafiq olaraq, Hicri-şəmsi təqvimi ilə 20 esfənd 1387-ci il tarixində iki əsl nüsxədə, hər biri Azərbaycan, fars və ingilis dillərində imzalanmışdır, bütün mətnlər bərabər autentikdir. Bu Anlaşma Memorandumunun təfsirində fikir ayrılığı olduğu təqdirdə ingilis dilindəki mətnə istinad ediləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASININ MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRLİYİ ADINDAN

ELMAR MƏMMƏDYAROV
Xarici işlər naziri

İRAN İSLAM RESPUBLİKASININ İRAN MƏDƏNİ İRSİ, XALQ TƏTBİQİ SƏNƏTİ VƏ TURİZM TƏŞKİLATI ADINDAN

HƏMİD DƏQAİ
Prezidentin birinci müavini vəzifəsini icra edən

Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi və İran İslam Respublikasının Statistika Mərkəzi arasında statistika sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumu

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi və İran İslam Respublikasının Statistika Mərkəzi, statistika sahəsində əməkdaşlığa dair aşağıdakılar barədə razılığa gəldilər:

I. Tərəflər məlumatların konfidensiallığını və dövlət sirrini təşkil edən informasiyaların qorunmasını təmin etməklə hər iki ölkədə statistikanın inkişafı üçün texniki əməkdaşlığın inkişaf etdirilməsini aşağıdakı vasitələrlə təşviq edəcəklər:

informasiya və kommunikasiya texnologiyalarının tətbiqi ilə uçot və sorğuların, araşdırmaların və siyahıyaalmaların inzibati məlumat sisteminin yaradılması və istifadə edilməsi üzrə metodoloji materialların və işlərin mübadiləsi;

statistikanın, xüsusən ətraf mühit, enerji və İnformasiya texnologiyaları statistikasının təkmilləşdirilməsi, həmçinin milli hesablar sisteminin təşkili və tətbiqi məsələləri üzrə təcrübə mübadiləsi;

statistik nəşrlərin (dövlətlərin və ya onların ayrı-ayrı regionlarının sosial-iqtisadi vəziyyətindəki dəyişikliklərlə bağlı illik məcmuələrin, cib kitabçalarının, bülletenlərin, məlumatların) mübadiləsi;

milli statistika xidmətlərinin mütəxəssisləri üçün birgə seminarların və digər ümumi tədbirlərin təşkili;

sosial və iqtisadi vəziyyəti əks etdirən statistik məlumatların mübadiləsi;

müqayisəli göstəricilərin təmin olunması.

II. Tərəflər ekspert qruplarının və tədqiqatçıların mübadiləsini və I-ci bənddə göstərilmiş əməkdaşlıq istiqamətləri çərçivəsində qısamüddətli təlim kurslarının keçirilməsini dəstəkləyəcəklər.

III. Tərəflər təlim kurslarının keçirilməsindən əvvəl təlim kursunun mövzusu, tarixi, yeri və müddəti barədə razılığa gələcəklər.

IV. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin əməkdaşlığın birinci ili üçün öhdəliklərinə aşağıdakılar daxildir:

a) Azərbaycanın statistika sisteminin strukturu, qayda və qanunları, təşkilati imkanları ilə İran missiyasını tanış etmək;

b) təsnifatlar, statistik vahidlərin registri, seçmə metodların tətbiqi haqqında məlumat vermək.

V. İran İslam Respublikasının Statistika Mərkəzinin əməkdaşlığın birinci ili üçün öhdəliklərinə aşağıdakılar daxildir:

a) Azərbaycan Respublikası Dövlət Statistika Komitəsini müasir müayinə metodlarına dair məlumatlarla təmin etmək,

b) İran İslam Respublikasının statistika sisteminin strukturu, qayda və qanunları, təşkilati imkanları ilə Azərbaycan Respublikasının missiyasını tanış etmək.

VI. Bu Anlaşma Memorandumunun icrasına nəzarət edilməsi və görülmüş işlər barədə məlumatların hazırlanması məqsədilə hər il növbə ilə Bakı və Tehran şəhərlərində toplanacaq Birgə Komitə yaradılacaqdır.

VII. Bu Anlaşma Memorandumu imzalandığı gündən qüvvəyə minir.

VIII. Bu Anlaşma Memorandumu qeyri-müəyyən müddətə imzalanır. Tərəflərdən hər biri istənilən vaxt bu Anlaşma Memorandumunun qüvvəsinə xitam vermək niyyəti barədə diplomatik kanallarla digər Tərəfə yazılı bildiriş verməklə ona xitam verə bilər. Anlaşma Memorandumu belə bildirişin alındığı tarixdən altı ay sonra xitam olunur.

IX. Bu Anlaşma Memorandumu Tehran şəhərində 10 mart 2009-cu il tarixində, müvafiq olaraq, Hicri-şəmsi təqvimi ilə 20 esfənd 1387-ci il tarixində iki əsl nüsxədə Azərbaycan, fars və ingilis dillərində imzalanmışdır, bütün mətnlər bərabər autentikdir. Təfsirdə fikir ayrılığı yarandığı təqdirdə, ingilis dilində olan mətn əsas götürüləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT STATİSTİKA KOMİTƏSİ ADINDAN

ARİF VƏLİYEV
Komitəsinin sədri

İRAN İSLAM RESPUBLİKASININ STATİSTİKA MƏRKƏZİ ADINDAN

MOHƏMMƏD MƏDƏD
Mərkəzinin sədri

M. F. Axundov adına Azərbaycan Milli Kitabxanası və İran İslam Respublikasının Milli Kitabxanası və Arxivi arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu

Bundan sonra "Tərəflər" adlandırılacaq M.F. Axundov adına Azərbaycan Milli Kitabxanası və İran İslam Respublikasının Milli Kitabxanası və Arxivi,

aşağıdakılar barədə razılığa gəldilər:

1. Tərəflər kitab və digər kitabxana materiallarının mübadiləsi istiqamətində tədbirlər görəcəklər.

2. Tərəflər kitabxanaçılıq sahəsində hazırlıq kursları və treyninqlərin keçirilməsi, habelə elmi mühazirələr və tanışlıq tədbirləri kimi proqramların digər Tərəfə təqdim edilməsi, həmçinin təşkil etdikləri kurslardan, tanışlıq proqramlarından və mühazirələrdən digər Tərəfin ekspert və mütəxəssislərinin faydalanmaları üçün tədbirlər görəcəklər.

3. Tərəflər kitab və əlyazma kimi öz kitabxana materiallarının araşdırılması və əsl nüsxənin və ya hər hansı formatda onun surətinin digər Tərəfə göndərilməsi məqsədilə tədbirlər görəcəklər. Yuxarıda qeyd olunan mübadilə Tərəflərin razılaşması əsasında həyata keçiriləcəkdir.

4. Tərəflər kitabxanaçılığa dair birgə elmi mövzuların tədqiqi, eləcə də digər maraq doğuran mövzular üzrə əməkdaşlıq edəcəklər.

5. Tərəflər kitabxana materiallarının elektron formaya salınması və qorunması sahəsində informasiya mübadiləsi aparmaq və texniki xidmətlər göstərmək yolu ilə bir-birinə kömək edəcəklər.

6. Tərəflər bir-birinin nəşriyyatlarında biblioqrafiya və qarşılıqlı maraq doğuran mövzular barədə məqalələrin dərc edilməsi sahəsində əməkdaşlıq edəcəklər.

7. Tərəflər kitabxana işi sahəsində texnologiyalar mübadiləsi məqsədilə müxtəlif metodlardan yararlanaraq bir-birinin təcrübələrindən istifadə edəcəklər.

8. Tərəflər kitabxanaçılıq, informasiya və əlaqəli sahələr üzrə təcrübələrin öyrənilməsi məqsədilə mütəxəssis mübadiləsi istiqamətində əməkdaşlıq edəcəklər.

9. Tərəflər hər iki ölkədə, digər Tərəfin fəaliyyəti, metodları, xidmətləri və potensial imkanları ilə tədqiqatçıları tanış etmək məqsədilə sərgilər keçirəcəklər.

10. Bu Anlaşma Memorandumunda nəzərdə tutulan konkret məsələlərin icra mexanizmi ikitərəfli protokollarla rəsmiləşdiriləcəkdir.

11. Bu Anlaşma Memorandumu imzalandığı tarixdən qüvvəyə minir və beş il müddətinə bağlanılır. Tərəflərdən biri bu Anlaşma Memorandumunun müddətinin bitməsinə ən azı altı ay qalmış onu ləğv etmək niyyəti barədə diplomatik kanallar vasitəsi ilə yazılı şəkildə digər Tərəfə məlumat verməzsə, onun qüvvəsi avtomatik olaraq növbəti beş il müddətinə uzadılacaqdır.

Bu Anlaşma Memorandumu Tehran şəhərində, 10 mart 2009-cu il tarixində, müvafiq olaraq, Hicri-şəmsi təqvimi ilə 20 esfənd 1387-ci il tarixində iki əsl nüsxədə, hər biri Azərbaycan, fars və ingilis dillərində imzalanmışdır, bütün mətnlər bərabər autentikdir. Bu Anlaşma Memorandumunun təfsirində fikir ayrılığı olduqda, ingilis dilindəki mətnə istinad ediləcəkdir.

M. F. AXUNDOV ADINA AZƏRBAYCAN MİLLİ KİTABXANASI ADINDAN	İRAN İSLAM RESPUBLİKASININ MİLLİ KİTABXANASI VƏ ARXİVİ ADINDAN
ELMAR MƏMMƏDYAROV *Xarici işlər naziri*	*HƏMİD DOQAİ* *Prezidentin mədəniyyət məsələləri üzrə müşaviri, Milli Kitabxana və Arxivin sədri*

"Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin Gömrük Xidməti Rəhbərləri Şurası haqqında" Əsasnamənin yeni redaksiyası barədə" qərarın təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. "Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin Gömrük Xidməti Rəhbərləri Şurası haqqında" Əsasnamənin yeni redaksiyası barədə" 2002-ci il mayın 30-da Moskva şəhərində imzalanmış Qərar Azərbaycan Respublikasının ona dair xüsusi rəyi ilə təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 14 aprel 2009-cu il

№ 789-IIIQ

Müstəqil Dövlətlər Birliyi iştirakçı dövlətlərin Gömrük Xidməti Rəhbərləri Şurası haqqında Əsasnamənin yeni redaksiyası barədə Qərar

Müstəqil Dövlətlər Birliyi Hökumət Başçıları Şurası qərara aldı:

1. MDB iştirakçı dövlətlərin Gömrük Xidməti Rəhbərləri Şurası haqqında Əsasnamənin yeni redaksiyasını (əlavə olunur) təsdiq etmək.

2. Bu Qərar onun imzalandığı gündən qüvvəyə minir. Qanunvericiliyi zəruri dövlətdaxili prosedurların yerinə yetirilməsini tələb edən dövlətlər üçün bu Qərar - göstərilən prosedurların yerinə yetirilməsi haqqında bildirişin depozitariyə saxlanmağa verildiyi tarixdən qüvvəyə minir.

3. 23 dekabr 1993-cü il tarixli, Birliyin iştirakçı dövlətlərinin Gömrük Xidməti Rəhbərləri Şurası haqqında Əsasnamənin təsdiq edilməsi barədə Müstəqil Dövlətlər Birliyi Hökumət Başçıları Şurasının Qərarının və 26 iyul 1996-cı il tarixli, "Birliyin iştirakçı dövlətlərinin Gömrük Xidməti Rəhbərləri Şurası haqqında Əsasnaməyə dəyişikliklər və əlavələr haqqında" İqtisadi ittifaqın Dövlətlərarası iqtisadi Komitəsinin Rəyasət heyətinin Qərarının qüvvəsinin itirildiyini qəbul etmək.

30 may 2002-ci il tarixdə Moskva şəhərində rus dilində bir əsl nüsxədə imzalanmışdır. Əsl nüsxə, bu Qərarı imzalamış hər bir dövlətə onun təsdiq edilmiş surətini göndərəcək Müstəqil Dövlətlər Birliyinin İcraiyyə Komitəsində saxlanılır.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	MOLDOVA RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN
A. RASİ-ZADƏ	*V.TARLEV*
ERMƏNİSTAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	RUSİYA FEDERASİYASI HÖKUMƏTİ ADINDAN
A.MARQARYAN	*M.KASYANOV*
BELARUS RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	TACİKİSTAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN
Q.NOVITSKIY	*A.AKILOV*
GÜRCÜSTAN HÖKUMƏTİ ADINDAN	ÖZBƏKİSTAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN
A.DJORBENADZE	*U.SULTANOV*
QAZAXISTAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	UKRAYNA HÖKUMƏTİ ADINDAN
İ.TASMAQAMBETOV	*A.KINAX*
QIRĞIZ RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	
K.NANAYEV	

Qərar Azərbaycan Respublikası tərəfindən xüsusi qeyd-şərtlə imzalanmışdır: "Əsasnamənin 2-ci bölməsinin əsas istiqamətlər hissəsinin üçüncü abzasında "əlaqələndirilməsi" sözü və həmin bölmənin əsas funksiyalar hissəsinin dördüncü abzasında "gömrük qaydaları" ifadəsi istisna olmaqla ".

Qərar Türkmənistan tərəfindən imzalanmayıb.

Müstəqil Dövlətlər Birliyi
Hökumət Başçıları Şurasının
30 may 2002-ci il
tarixli Qərarı ilə
TƏSDİQ EDİLMİŞDİR

Müstəqil Dövlətlər Birliyi iştirakçı dövlətlərin Gömrük Xidməti Rəhbərləri Şurası haqqında Əsasnamə

1. Ümumi müddəalar

1.1. MDB iştirakçı dövlətlərin Gömrük Xidməti Rəhbərləri Şurası - GXRŞ (bundan sonra Şura) Müstəqil Dövlətlər Birliyinin (bundan sonra MDB) müəyyən sahələrdə əməkdaşlığı üzrə daimi fəaliyyət göstərən orqanıdır və gömrük siyasəti sahəsində Müstəqil Dövlətlər Birliyi iştirakçı dövlətlərin gömrük xidmətlərinin qarşılıqlı fəaliyyətinin əlaqələndirilməsinin təmin edilməsi üçün yaradılmışdır.

1.2. Öz fəaliyyətində Şura Müstəqil Dövlətlər Birliyinin əsas hesab edilən sənədlərini, Birlik çərçivəsində iştirakçı dövlətlər arasında bağlanmış müqavilə və sazişləri, Dövlət Başçıları Şurasının və Hökumət Başçıları Şurasının, İqtisadi Şuranın və Xarici İşlər Nazirləri Şurasının qərarlarını, həmçinin bu Əsasnaməni rəhbər tutaraq, öz fəaliyyətini Müstəqil Dövlətlər Birliyi İcraiyyə Komitəsi ilə sıx qarşılıqlı fəaliyyətdə həyata keçirir.

2. Şuranın əsas fəaliyyət istiqamətləri və funksiyaları

2.1. Şuranın əsas fəaliyyət istiqamətləri aşağıdakılardır:

- Birliyin iştirakçı dövlətlərinin gömrük işi sahəsində prioritet istiqamətlərinin müəyyən edilməsi;

- Birliyin iştirakçı dövlətlərinin gömrük qanunvericiliklərinin yaxınlaşdırılmasına və harmonikləşdirilməsinə yardım edilməsi;

- gömrük siyasətinin əsas aspektləri üzrə MDB iştirakçı dövlətlərin gömrük və digər maraqlı milli xidmətlərinin və müəssisələrinin təcrübi olaraq fəaliyyətinin əlaqələndirilməsi;

- MDB iştirakçı dövlətlərin gömrük işi sahəsində qəbul edilmiş dövlətlərarası və hökumətlərarası qərarlarının həyata keçirilməsinə yardım edilməsi.

2.2. Şuranın əsas funksiyaları:

- MDB iştirakçı dövlətlərin gömrük xidmətlərinin birgə fəaliyyətinin prioritet istiqamətləri üzrə məqsədli proqramların hazırlanması;

- Birliyin iştirakçı dövlətlərinin gömrük qanunvericiliklərinin yaxınlaşdırılması və harmonikləşdirilməsi üzrə təkliflərin hazırlanması;

- qarşılıqlı məqbul hesab edilən tarif və qeyri-tarif tənzimlənməsi mexanizmlərinin yaradılması üzrə təkliflərin hazırlanması;

- xarici ticarət sahəsində işlədilən, gömrük rəsmiləşdirməsi sənədlərinin və mallara nəzarətin gömrük qaydaları və formalarının unifikasiyası üzrə tövsiyələrin hazırlanması;

- Şuranın səlahiyyətlərinə daxil olan məsələlər üzrə Müstəqil Dövlətlər Birliyinin dövlət, müəyyən sahələrə aid orqanları və təşkilatları ilə qarşılıqlı fəaliyyətinin həyata keçirilməsi;

- Birliyin iştirakçı dövlətləri tərəfindən qəbul edilmiş gömrük işi sahəsində sənədlərin həyata keçirilməsinin gedişatının Şuranın iclaslarında təhlili və baxılması;

- Şuranın qərarlarına uyğun olaraq Birliyin iştirakçı dövlətlərinin gömrük xidmətlərinin öz üzərinə götürdükləri öhdəliklərin həyata keçirilməsinin gedişatına baxılması;

- Şuranın səlahiyyətlərinə daxil olan digər məsələlərə baxılması.

3. Şuranın hüquq və vəzifələri

3.1. Şuranın hüququ vardır:

- müəyyən edilmiş qaydada, MDB Dövlət Başçıları Şurasına, Hökumət Başçıları Şurasına və İqtisadi Şuraya baxılması üçün təkliflər vermək;

- öz səlahiyyətləri çərçivəsində, MDB iştirakçı dövlətlərin gömrük xidmətlərinin əməkdaşlığının inkişafına, qarşılıqlı fəaliyyətinə istiqamətlənmiş qərarlar qəbul etmək;

- müəyyən edilmiş qaydada, gömrük işi sahəsində məsələlərin hazırlanması üçün zəruri olan daimi və ya müvəqqəti işçi qrupları yaratmaq;

- müəyyən edilmiş qaydada, ayrı-ayrı işlərin həyata keçirilməsi üçün alim və mütəxəssisləri cəlb etmək;

- onun səlahiyyətlərinə daxil olan digər məsələləri həll etmək.

3.2. Şuranın üzvünün hüququ vardır:

- Şuranın səlahiyyətləri daxilində istənilən məsələləri müzakirəyə çıxarmaq və baxılan məsələlər və Şura tərəfindən qəbul edilmiş qərarların yerinə yetirilməsi haqqında zəruri məlumat almaq;

- Şuranın iclaslarının keçirilmə yeri və zamanı haqqında təkliflər təqdim etmək;

- Şuranın işçi qruplarının fəaliyyəti haqqında zəruri məlumatı almaq.

3.3. Şura üzvünün vəzifəsi:

- gömrük əməkdaşlığı üzrə baxılan məsələlər barədə öz dövlətinin mövqeyi haqqında Şuranı məlumatlandırmaq;

- MDB iştirakçı dövlətin müvafiq orqanlarına Şura tərəfindən qəbul edilmiş qərar-

ları çatdırmaq və onların yerinə yetirilməsinə kömək etmək;

- qəbul edilmiş qərarların tam və vaxtında yerinə yetirilməsinə nəzarəti həyata keçirmək.

4. Şuranın fəaliyyətinin təşkili

4.1. Şuranın üzvləri MDB iştirakçı dövlətlərin gömrük xidməti rəhbərləridir. Hər bir dövlətin Şurada bir səsi vardır. Hər bir gömrük xidmətinin rəhbəri, Şuranın iclasında qərar qəbul etməyə, müvafiq səlahiyyət verilmiş öz nümayəndəsini təyin etmək hüququna malikdir. Məşvərətçi səs hüququ ilə Şuranın tərkibinə MDB İcraiyyə komitəsinin nümayəndəsi daxildir.

4.2. Şuraya, rotasiya prinsipi əsasında Şura üzvlərinin sırasından səs çoxluğu ilə bir il müddətinə seçilən Sədr rəhbərlik edir, lakin, müəyyən edilmiş qaydada MDB iştirakçı dövlətlərin gömrük xidməti rəhbərləri tərəfindən onun təkrar seçilməsi barədə qərar qəbul edildikdə növbəti müddətlərə yenidən seçilə bilər.

4.3. Şuranın Sədri:

- Şura aparatının fəaliyyətinin ümumi rəhbərliyini həyata keçirir və üzərinə qoyulmuş məsələlərin yerinə yetirilməsinə görə məsuliyyət daşıyır;

- Şuranın iclaslarını aparır;

- Şura adından sənədləri imzalayır və Birliyin iştirakçı dövlətlərinin gömrük xidmətlərinə göndərir;

- müəyyən edilmiş qaydada Müstəqil Dövlətlər Birliyinin orqanlarında, həmçinin MDB iştirakçı dövlətlərin dövlət hakimiyyət orqanlarında Şura aparatını təmsil edir;

- öz səlahiyyətləri çərçivəsində onların işçi (icraçı) orqanları səviyyəsində digər təşkilatlarla əlaqə saxlayır və inkişaf etdirir;

- Birliyin iştirakçı dövlətlərinin gömrük xidmətləri arasında qarşılıqlı fəaliyyətin təmin edilməsinə kömək edir;

- öz səlahiyyətləri çərçivəsində, Şura aparatının fəaliyyət məsələləri üzrə əmrlər, sərəncamlar, təlimatlar, əsasnamələr və digər aktlar verir, Şura aparatının əməkdaşlarının icra etməsi üçün vacib olan göstərişlər verir;

- Şuranın fəaliyyətinin təmin edilməsi ilə bağlı digər fəaliyyətləri həyata keçirir.

4.4. Şura öz işinin reqlamentini təsdiq edir.

4.5. Şuranın iclasları zərurət yarandıqda, lakin hər rübdə bir dəfədən az olmayaraq keçirilir.

4.6. Birliyin iştirakçı dövlətlərinin gömrük xidmətləri Şuranın iclasında baxılması üçün təkliflər hazırlayırlar.

Təkliflər sənədlərin ilkin layihəsi və ya onların konsepsiyası formasında təqdim edilir.

Konkret məsələnin gündəlik layihəsinə daxil edilməsi barədə son qərarı Şura qəbul edir.

4.7. Şura üzvlərinin və ya onların səlahiyyətli nümayəndələrinin yarısından az olmayan iştirakçı olduqda Şuranın iclasları hüquqi səlahiyyətli olur.

4.8. Qərarların qəbul edilmə qaydası.

Şura öz səlahiyyətləri çərçivəsində ixtisaslaşdırılmış səs çoxluğu ilə (səsvermədə iştirak edənlərin 3/4 say hesabı ilə) qərarları qəbul edir, prosedur xarakterli qərarlar isə sadə çoxluqla qəbul edilir. MDB iştirakçı dövlətlərin gömrük xidmətləri zərurət yarandıqda öz səlahiyyətləri çərçivəsində, Şura tərəfindən qəbul edilmiş qərarların həyata keçirilməsini təmin edən müvafiq aktlar qəbul edirlər.

Qəbul edilmiş qərarla razılaşmayan Şura üzvləri, xüsusi rəy verə bilər yaxud bu və ya digər məsələdə öz dövlətinin gömrük xidmətinin marağında olmadığı barədə elan edə bilər. Bu, qərarın qəbul edilməsinə maneə kimi baxılmamalıdır.

4.9. Şuranın qərarı əsasında onun işində digər maraqlı dövlətlərin nümayəndələri müşahidəçi qismində iştirak edə bilərlər. Şuranın iclaslarına MDB iştirakçı dövlətlərin maraqlı nazirlik və müəssisələrinin mütəxəssisləri və ekspertləri dəvət oluna bilərlər.

5. Şuranın işçi aparatı və onun funksiyaları

5.1. Şuranın işçi aparatı Şura Katibliyidir.

Şura Katibliyinin funksiyalarını nümayəndəsi Şuranın Sədri olan dövlətin gömrük xidməti MDB İcraiyyə komitəsi ilə qarşılıqlı fəaliyyətdə yerinə yetirir.

5.2. Şura Katibliyi:

- bu Əsasnamədə nəzərdə tutulmuş qaydada, Şura iclaslarının keçirilməsini təşkil və təmin edir. MDB iştirakçı dövlətlərində səyyar iclasların keçirilməsi zamanı göstərilən işi qəbul edən dövlətlərin gömrük xidmətləri ilə birgə keçirir;

- Şura iclaslarında baxılması üçün daxil olmuş materialları hazırlayır;

- müəyyən edilmiş qaydada, MDB iştirakçı dövlətlərin gömrük xidmətlərinə ilkin gündəliyi və Şuranın qarşıdakı iclaslarında baxılması üçün daxil edilən sənədlərin layihələrini göndərir;

- Şura çərçivəsində qəbul edilmiş qərarların MDB iştirakçı dövlətlərin gömrük xidmətlərinə vaxtında göndərilməsini təmin edir;

- Şuranın iclaslarında baxılan sənədlərin layihəsinin hazırlanması məsələləri üzrə Şura qərarlarına müvafiq olaraq ekspertlərin iclaslarını təşkil edir;

- Şuranın ekspert qruplarının iclaslarının protokollarını hazırlayır;

- Şura iclasının və bundan əvvəl keçiriləcək, növbəti Şura iclasının gündəliyinə daxil edilmiş məsələlərin müzakirə edilməsi üzrə ekspertlərin iclasının iştirakçılarının vaxtında müəyyən edilməsi sahəsində MDB iştirakçı dövlətlərin gömrük xidmətləri ilə qarşılıqlı fəaliyyət göstərir;

- Birliyin iştirakçı dövlətlərinin gömrük xidmətləri ilə birgə, Şura tərəfindən qəbul edilmiş qərarların yerinə yetirilməsi üzrə nəzarəti həyata keçirir, nəticələr barədə Sədri və Şura üzvlərini məlumatlandırır;

- öz səlahiyyətləri daxilində MDB əməkdaşlığının müəyyən sahələri üzrə digər

orqanları ilə, həmçinin Şura iclasları zamanı müzakirə edilmiş və baxılması üçün təqdim edilən sənəd layihələrinin razılaşdırılması və hazırlanması sahəsində MDB İcraiyyə komitəsinin müvafiq bölməsi ilə qarşılıqlı fəaliyyət göstərir.

5.3. Şuranın Katibi Şura Sədri tərəfindən Şura üzvləri ilə razılaşdırılmaqla bir il müddətinə təyin edilir.

Şuranın Katibi:

- Şura Katibliyinin fəaliyyətinə rəhbərlik edir;

- İclaslar arası Şuranın işini təşkil edir;

- MDB İcraiyyə komitəsi ilə qarşılıqlı fəaliyyət göstərərək Şura fəaliyyətinin təşkilati və məlumat təminatını həyata keçirir.

6. Maliyyələşmə

Şuranın iclaslarının, həmçinin onun fəaliyyətinin istiqamətləri üzrə müvəqqəti və daimi işçi qrupların maliyyələşməsi qəbul edən MDB iştirakçı dövlətin gömrük xidmətinin vəsaiti hesabına həyata keçirilir.

Şura üzvləri və ekspertlərin ezam edilməsi üzrə xərcləri göndərən müvafiq dövlətin gömrük xidməti ödəyir.

Qəbul edilmiş qərarlara müvafiq olaraq həyata keçirilən bütün növ iş və birgə proqramlar əlaqədar olan MDB iştirakçı dövlətlərin gömrük xidmətlərinin vəsaitləri hesabına maliyyələşir.

7. Yekun müddəalar

Şura öz fəaliyyətini Müstəqil Dövlətlər Birliyi Hökumət Başçıları Şurasının qərarına əsasən dayandırır.

Bu Əsasnaməyə Müstəqil Dövlətlər Birliyi Hökumət Başçıları Şurasının müvafiq qərarı ilə dəyişikliklər və əlavələr edilə bilər.

2002-ci il mayın 30-da Moskva şəhərində imzalanmış "Müstəqil Dövlətlər Birliyi iştirakçı dövlətlərin Gömrük Xidməti Rəhbərləri Şurası haqqında Əsasnamənin yeni redaksiyası barədə Qərar"a dair Azərbaycan Respublikasının xüsusi rəyi

Əsasnamənin 2-ci bölməsinin əsas istiqamətlər hissəsinin üçüncü abzasında "əlaqələndirilməsi" sözü və həmin bölmənin əsas funksiyalar hissəsinin dördüncü abzasında "gömrük qaydaları" ifadəsi istisna olmaqla.

"Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin Gömrük Xidməti Rəhbərləri Şurası haqqında" Əsasnamədə dəyişiklik edilməsi barədə" qərarın təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

1. "Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin Gömrük Xidməti Rəhbərləri Şurası haqqında" Əsasnamədə dəyişiklik edilməsi barədə" 2008-ci il mayın 23-də Minsk şəhərində imzalanmış Qərar təsdiq edilsin.

2. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 14 aprel 2009-cu il

№ 790-IIIQ

Müstəqil Dövlətlər Birliyi iştirakçı dövlətlərin Gömrük Xidməti Rəhbərləri Şurası haqqında Əsasnaməyə dəyişikliklər edilməsi barədə Qərar

Müstəqil Dövlətlər Birliyi iştirakçı dövlətlərin Gömrük Xidməti Rəhbərləri Şurasının fəaliyyətinin təkmilləşdirilməsi məqsədilə Müstəqil Dövlətlər Birliyi Hökumət Başçıları Şurası

qərara alır:

1. Müstəqil Dövlətlər Birliyi Hökumət Başçıları Şurasının 30 may 2002-ci il tarixli Qərarı ilə təsdiq edilmiş, Müstəqil Dövlətlər Birliyi iştirakçı dövlətlərin Gömrük Xidməti Rəhbərləri Şurası haqqında Əsasnaməyə aşağıdakı dəyişikliklər edilsin:

1.1. 3.1 bəndinin dördüncü abzası aşağıdakı redaksiyada verilsin:

"müəyyən edilmiş qaydalara müvafiq, Şuranın fəaliyyət istiqamətləri üzrə işçi orqanlar (komitələr, komissiyalar, işçi qruplar) yaratmaq və lazım gəldikdə onlar barədə əsasnamələri təsdiq etmək".

1.2. 3.2 bəndinin dördüncü abzasında "qruplar" sözünü "orqanlar" sözü ilə əvəz etmək.

1.3. 4.9 bəndinin ikinci cümləsində "MDB iştirakçı dövlətlərinin" sözlərindən sonra "həmçinin işçi orqanların nümayəndələri" sözlərini əlavə etmək.

1.4. 6-cı "Maliyyələşdirmə" bölməsinin birinci və ikinci abzasları aşağıdakı redaksiyada verilsin:

"Şuranın və onun işçi orqanlarının iclaslarının maliyyə təminatı qəbul edən MDB iştirakçı dövlətinin gömrük xidmətinin vəsaitləri hesabına həyata keçirilir.

Şuranın üzvləri və ekspertlərin, həmçinin işçi orqanların nümayəndələrinin ezam edilməsi üzrə xərcləri göndərən müvafiq dövlətin gömrük orqanı çəkir".

2. Bu Qərar onun imzalandığı gündən qüvvəyə minir. Qanunvericiliyi zəruri dövlətdaxili prosedurların yerinə yetirilməsini tələb edən dövlətlər üçün - göstərilən prosedurların yerinə yetirilməsi haqqında bildirişin depozitariyə saxlanmağa verildiyi tarixdən qüvvəyə minir.

23 may 2008-ci il tarixdə Minsk şəhərində rus dilində bir əsl nüsxədə imzalanmışdır. Əsl nüsxə, bu Qərarı imzalamış hər bir dövlətə onun təsdiq edilmiş surətini göndərəcək Müstəqil Dövlətlər Birliyinin İcraiyyə Komitəsində saxlanılır.

AZƏRBAYCAN RESPUBLİKASI
HÖKUMƏTİ ADINDAN

(imza)

ERMƏNİSTAN RESPUBLİKASI
HÖKUMƏTİ ADINDAN

(imza)

BELARUS RESPUBLİKASI
HÖKUMƏTİ ADINDAN

(imza)

GÜRCÜSTAN HÖKUMƏTİ
ADINDAN

(imza)

QAZAXISTAN RESPUBLİKASI
HÖKUMƏTİ ADINDAN

(imza)

QIRĞIZ RESPUBLİKASI
HÖKUMƏTİ ADINDAN

(imza)

MOLDOVA RESPUBLİKASI
HÖKUMƏTİ ADINDAN

(imza)

RUSİYA FEDERASİYASI
HÖKUMƏTİ ADINDAN

(imza)

TACİKİSTAN RESPUBLİKASI
HÖKUMƏTİ ADINDAN

(imza)

ÖZBƏKİSTAN RESPUBLİKASI
HÖKUMƏTİ ADINDAN

(imza)

UKRAYNA HÖKUMƏTİ
ADINDAN

(imza)

Qeyri-leqal miqrasiyaya qarşı mübarizə üzrə Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti və Niderland Krallığının Repatriasiya və Geri Qaytarma Xidməti arasında Anlaşma Memorandumu"nu imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Qeyri-leqal miqrasiyaya qarşı mübarizə üzrə Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti və Niderland Krallığının Repatriasiya və Geri Qaytarma Xidməti arasında Anlaşma Memorandumu"nu imzalamaq səlahiyyəti Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin rəisi - Sərhəd Qoşunlarının komandanı Elçin İsaağa oğlu Quliyevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Anlaşma Memorandumunu imzalamaq səlahiyyətinin Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin rəisi - Sərhəd Qoşunlarının komandanı Elçin İsaağa oğlu Quliyevə verilməsi barədə Niderland Krallığı tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 15 aprel 2009-cu il

№ 235

2009-cu il martın 26-da Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti və Özbəkistan Respublikası Hökuməti arasında hərbi-texniki əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2009-cu il martın 26-da Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti və Özbəkistan Respublikası Hökuməti arasında hərbi-texniki əməkdaşlıq haqqında Saziş" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Müdafiə Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişin həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Özbəkistan Respublikası Hökumətini xəbərdar etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 15 aprel 2009-cu il

№ 236

"Azərbaycan Respublikası Vergilər Nazirliyi və Estoniya Vergi və Gömrük Şurası arasında vergi orqanlarının fəaliyyəti sahəsində əməkdaşlığa dair Memorandum"u imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Vergilər Nazirliyi və Estoniya Vergi və Gömrük Şurası arasında vergi orqanlarının fəaliyyəti sahəsində əməkdaşlığa dair Memorandum"u imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının vergilər naziri Fazil Əsəd oğlu Məmmədova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Memorandumu imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının vergilər naziri Fazil Əsəd oğlu Məmmədova verilməsi barədə Estoniya Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 21 aprel 2009-cu il

№ 239

"Malın müəyyən ölkə mənşəli hesab olunması üçün həmin ölkədə həyata keçirilmiş istehsal və texnoloji əməliyyatların, şərtlərin siyahısına dəyişiklik edilməsi haqqında" Müstəqil Dövlətlər Birliyi İqtisadi Şurasının Qərarının təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2007-ci il dekabrın 14-də Moskva şəhərində Müstəqil Dövlətlər Birliyinin İqtisadi Şurası tərəfindən qəbul edilmiş "Malın müəyyən ölkə mənşəli hesab olunması üçün hə-

min ölkədə həyata keçirilmiş istehsal və texnoloji əməliyyatların, şərtlərin siyahısına dəyişiklik edilməsi haqqında" Qərar təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən sənədin həyata keçirilməsi üçün zəruri tədbirlər görsün.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən sənədin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Müstəqil Dövlətlər Birliyinin İcraiyyə Komitəsini xəbərdar etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 21 aprel 2009-cu il

№ 240

Müstəqil Dövlətlər Birliyi İqtisadi Şurası Malın müəyyən ölkə mənşəli hesab olunması üçün həmin ölkədə həyata keçirilmiş istehsal və texnoloji əməliyyatların, şərtlərin siyahısına dəyişiklik edilməsi haqqında Qərar

14 dekabr 2007-ci il, Moskva şəhəri

Müstəqil Dövlətlər Birliyinin İqtisadi Şurası qərara aldı:

1. Ukrayna tərəfinin təklifi ilə MDB İcraiyyə Komitəsi tərəfindən hazırlanmış və İqtisadi məsələlər üzrə Komissiya tərəfindən baxılmış, Malın müəyyən ölkə mənşəli hesab olunması üçün həmin ölkədə həyata keçirilmiş istehsal və texnoloji əməliyyatların, şərtlərin siyahısına dəyişiklik (MDB Hökumət Başçıları Şurasının 30 noyabr 2000-ci il tarixli Qərarı ilə təsdiq edilmiş Malların mənşə ölkəsinin müəyyən edilməsi Qaydalarına 1-ci Qoşma) təsdiq edilsin.

2. Bu Qərar imzalandığı tarixdən, qanunvericilikləri onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların həyata keçirilməsini tələb edən dövlətlər üçün isə onun üçün zəruri olan prosedurların həyata keçirilməsi barədə bildirişin depozitariyə təqdim edildiyi tarixdən qüvvəyə minir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	MOLDOVA RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN
(imza)	*(imza)*
ERMƏNİSTAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	RUSİYA FEDERASİYASI HÖKUMƏTİ ADINDAN
(imza)	*(imza)*
BELARUS RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	TACİKİSTAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN
(imza)	*(imza)*

GÜRCÜSTAN HÖKUMƏTİ ADINDAN	TÜRKMƏNİSTAN ADINDAN
(imza)	*(imza)*
QAZAXISTAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	ÖZBƏKİSTAN RESPUBLİKASI ADINDAN
	(imza)
QIRĞIZ RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	UKRAYNA HÖKUMƏTİ ADINDAN
(imza)	*(imza)*

KfW, Frankfurt am Main ("KfW") və Azərbaycan Respublikasını təmsil edən Maliyyə Nazirliyi ("Borcalan") və Azərbaycan Əmanətlərin Sığortalanması Fondu ("Layihəni icra edən agentlik") arasında "Kredit və Layihə haqqında Müqavilə"ni imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Sərəncamı

1. KfW, Frankfurt am Main ("KfW") və Azərbaycan Respublikasını təmsil edən Maliyyə Nazirliyi ("Borcalan") və Azərbaycan Əmanətlərin Sığortalanması Fondu ("Layihəni icra edən agentlik") arasında "Kredit və Layihə haqqında Müqavilə"ni imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının maliyyə naziri Samir Rauf oğlu Şərifova verilsin.

2. KfW, Frankfurt am Main ("KfW") və Azərbaycan Respublikasını təmsil edən Maliyyə Nazirliyi ("Benefisiar") və Azərbaycan Əmanətlərin Sığortalanması Fondu ("Layihəni icra edən agentlik") arasında "Maliyyələşdirmə və Layihə haqqında Müqavilə"ni imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının maliyyə naziri Samir Rauf oğlu Şərifova verilsin.

3. KfW, Frankfurt am Main ("KfW") və Azərbaycan Əmanətlərin Sığortalanması Fondu ("Layihəni icra edən agentlik") arasında Xüsusi Razılaşma sənədini imzalamaq səlahiyyəti Azərbaycan Əmanətlərin Sığortalanması Fondunun icraçı direktoru Azad Malik oğlu Cavadova verilsin.

4. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu sərəncamda göstərilən sənədləri imzalamaq səlahiyyətlərinin Azərbaycan Respublikasının maliyyə naziri Samir Rauf oğlu Şərifova və Azərbaycan Əmanətlərin Sığortalanması Fondunun icraçı direktoru Azad Malik oğlu Cavadova verilməsi barədə Almaniya tərəfinə müvafiq bildiriş göndərsin.

5. Bu sərəncam imzalandığı gündən qüvvəyə minir.

ARASİ-ZADƏ

Azərbaycan Respublikasının Baş naziri

Bakı şəhəri, 21 aprel 2009-cu il

№ 815s

2009-cu il martın 29-da Doha şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti və Qətər Dövləti Hökuməti arasında hərbi sahədə əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2009-cu il martın 29-da Doha şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti və Qətər Dövləti Hökuməti arasında hərbi sahədə əməkdaşlıq haqqında Saziş" təsdiq edilsin.

Azərbaycan Respublikasının Müdafiə Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişin həyata keçirilməsini təmin etsin.

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Qətər Dövləti Hökumətini xəbərdar etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 22 aprel 2009-cu il

№ 243

Azərbaycan Respublikası Hökuməti və Qətər Dövləti Hökuməti arasında hərbi sahədə əməkdaşlıq haqqında Saziş

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikası Hökuməti və Qətər Dövləti Hökuməti,

sülhün, etimadın, stabilliyin möhkəmləndirilməsinə və hərbi sahədə ikitərəfli əlaqələrin inkişafına töhfə verilməsinin qəti zərurətini nəzərə alaraq,

qarşılıqlı maraqların həyata keçirilməsini və qarşılıqlı hörmət və etimada əsaslanan əməkdaşlığın təşviq edilməsini arzu edərək,

hərbi sahədə ikitərəfli təmasların təşviq edilməsinin onlar arasında mövcud əlaqələrin möhkəmləndirilməsinə gətirəcəyinə əminliklərini bir daha təsdiq edərək,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər hərbi qüvvələrin gücləndirilməsi məqsədilə hərbi sahədə əməkdaşlığın təşviq edilməsi, asanlaşdırılması və inkişaf etdirilməsi üçün müştərək şəkildə və özlərinin müvafiq milli qanunvericiliklərinə və beynəlxalq öhdəliklərinə uyğun olaraq fəaliyyət göstərəcəklər.

Maddə 2

Bu Saziş Tərəflərin, iştirakçısı olduqları ikitərəfli və çoxtərəfli müqavilələrdə nəzərdə tutulan öhdəliklərinin yerinə yetirilməsinə mane olmur.

Maddə 3

Tərəflər arasında əməkdaşlıq aşağıdakı sahələrdə həyata keçiriləcəkdir:

1. Beynəlxalq təhlükəsizlik, hərbi və müdafiə siyasəti.
2. Silahlı qüvvələrin hərbi-texniki və maddi-texniki təminat dəstəyi.
3. Hərbi fəaliyyət.
4. Hərbi tarix.
5. Səhiyyə və hərbi tibb.
6. Hərbi mədəni və idman tədbirləri.
7. KQS (kütləvi qırğın silahlarının) yayılmasına qarşı birgə fəaliyyət.
8. Tərəflərin qarşılıqlı razılaşdıracaqları digər hərbi əməkdaşlıq sahələri.

Maddə 4

Yuxarıdakı 3-cü maddədə göstərilən sahələrdə əməkdaşlığın inkişaf etdirilməsi üçün Tərəflər aşağıdakı fəaliyyətləri həyata keçirə bilərlər:

1. Silahlı Qüvvələrin rəhbər heyətinin rəsmi ziyarətləri.
2. Regiondakı hərbi və siyasi vəziyyətə dair birgə məsləhətləşmələrin aparılması.
3. Texniki və hərbi əməkdaşlıq sahələri üzrə iclasların keçirilməsi.
4. Hərbi əməkdaşlıq çərçivəsində keçirilən hərbi mədəni və idman tədbirlərində iştirak.
5. Qarşılıqlı razılaşdırılacaq digər tədbirlər.

Maddə 5

İki Tərəf arasında hərbi sahələrin və hərbi-texniki əməkdaşlığın yerinə yetirilməsi və inkişafı onların səlahiyyətli orqanlarının imzaladıqları əməkdaşlıq haqqında razılaşmalara uyğun olaraq həyata keçiriləcəkdir.

Qarşılıqlı əməkdaşlıq planları tədbirlərin və fəaliyyətlərin adlarını, onların keçirilməsi üsulunu və yerini, iştirakçıların sayını, aidiyyəti orqanları və tədbirin idarə edilməsi və yerinə yetirilməsi ilə bağlı bütün digər məlumatları müəyyənləşdirəcəkdir.

Maddə 6

Tərəflərin səlahiyyətli orqanları hər il 15 dekabr tarixində razılaşdırılıb təsdiq olunacaq illik əməkdaşlıq planını hazırlayacaqlar.

Maddə 7

Tərəflər hərbi və texniki fəaliyyətləri və tədbirləri, aralarında imzalanmış razılaşmalar əsasında maliyyələşdirməyi öhdələrinə götürürlər.

Rəsmi ziyarətlər və işçi görüşləri zamanı göndərən Tərəf özünün bütün xərclərini və məsrəflərini, o cümlədən səfər, yaşayış və tibbi müalicə xərclərini ödəyəcəkdir.

Maddə 8

Tərəflər bu Sazişə əsasən əldə olunan müvafiq sənədlərin, məlumatların, texnologiyaların və arayışların məxfiliyini mühafizə etməyi öhdələrinə götürürlər. Sənədlərin, məlumatların, texnologiyaların və arayışların məxfiliyinin üçüncü Tərəfə açıqlanması Tərəf-mənbənin əvvəlcədən yazılı razılığının mövzusu olacaqdır.

Maddə 9

Bu Sazişin təfsiri və ya tətbiqindən irəli gələn mübahisələr ikitərəfli danışıqlar vasitəsilə həll ediləcəkdir.

Maddə 10

Bu Sazişə hər hansı əlavə və dəyişiklik Tərəflərin qarşılıqlı razılığı ilə edilə bilər. Belə əlavə və dəyişikliklər bu Sazişin ayrılmaz hissəsi olan və bu Sazişin 11-ci maddəsinin müddəalarına uyğun olaraq qüvvəyə minən ayrıca protokollar şəklində ediləcəkdir.

Maddə 11

Bu Saziş, müvafiq daxili prosedurların yerinə yetirilməsi barədə Tərəflərin bir-birinə rəsmi şəkildə göndərdikləri sonuncu yazılı bildirişin alındığı tarixdən qüvvəyə minəcəkdir.

Maddə 12

Bu Saziş beş il qüvvədə olmaq üçün tərtib edilmişdir və Tərəflərdən biri Sazişin müddətinin bitməsinə ən azı altı ay qalmış onun ləğv olunması niyyətini digər Tərəfə diplomatik kanallarla bildirməzsə, Saziş avtomatik olaraq analoji müddətə uzadılacaqdır.

Maddə 13

Bu Saziş Doha şəhərində 29 mart 2009-cu il tarixində, iki əsl nüsxədə, Azərbaycan, ərəb və ingilis dillərində tərtib olunub imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir. Təfsirdə hər hansı fikir ayrılığı yarandığı təqdirdə, ingilis dilində olan mətn üstün tutulacaqdır.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	QƏTƏR DÖVLƏTİ HÖKUMƏTİ ADINDAN
SƏFƏR ƏBİYEV	*HAMAD BİN ALİ AL-ATTİYAH*
Müdafiə naziri	*Silahlı Qüvvələrinin Baş Qərargah rəisi*

2009-cu il aprelin 6-da imzalanmış "Azərbaycan Respublikası Müdafiə Nazirliyi və ABŞ-ın Avropadakı Quru Qoşunları və Yeddinci Ordusu arasında Azərbaycan Respublikası ərazisində keçiriləcək "Regional Cavab-2009" hərbi təlimi ilə bağlı təlimə dəstək Sazişi"nin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2009-cu il aprelin 6-da imzalanmış "Azərbaycan Respublikası Müdafiə Nazirliyi və ABŞ-ın Avropadakı Quru Qoşunları və Yeddinci Ordusu arasında Azərbaycan Respublikası ərazisində keçiriləcək "Regional Cavab-2009" hərbi təlimi ilə bağlı təlimə dəstək Sazişi" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Müdafiə Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişin həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prose-

...ların yerinə yetirilməsi barədə Amerika Birləşmiş Ştatları tərəfini xəbərdar etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 22 aprel 2009-cu il

№ 244

"Azərsu" Açıq Səhmdar Cəmiyyəti ("Benefisiar") və KfW, Frankfurt am Main ("KfW") arasında Maliyyələşdirmə Müqaviləsi"ni imzalamaq səlahiyyəti verilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Sərəncamı

1. "Azərsu" Açıq Səhmdar Cəmiyyəti ("Benifisiar") və KfW, Frankfurt am Main ("KfW") arasında Maliyyələşdirmə Müqaviləsi"ni imzalamaq səlahiyyəti "Azərsu" Açıq Səhmdar Cəmiyyətinin prezidenti Nizaməddin İsmayıl oğlu Rzayevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu sərəncamda göstərilən Müqaviləni imzalamaq səlahiyyətinin "Azərsu" Açıq Səhmdar Cəmiyyətinin prezidenti Nizaməddin İsmayıl oğlu Rzayevə verilməsi barədə Almaniya tərəfinə müvafiq bildiriş göndərilsin.

ARASİ-ZADƏ

Azərbaycan Respublikasının Baş naziri

Bakı şəhəri, 23 aprel 2009-cu il

№ 82s

M. Kostanın İtaliya Respublikasının Genuya şəhərində və Liquriya, Pyemont, Valle d'Aosta, Lombardiya regionlarında Azərbaycan Respublikasının fəxri konsulu təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. Marqarita Kosta İtaliya Respublikasının Genuya şəhərində və Liquriya, Pyemont, Valle d'Aosta, Lombardiya regionlarında Azərbaycan Respublikasının fəxri konsulu təyin edilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 24 aprel 2009-cu il

№ 245

C.C. Qasımovun Azərbaycan Respublikasının Slovakiya Respublikasında fəxri konsulu təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. Cəlal Cəlil oğlu Qasımov Azərbaycan Respublikasının Slovakiya Respublikasında fəxri konsulu təyin edilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 24 aprel 2009-cu il

№ 246

Azərbaycan Respublikası hökuməti və Küveyt dövləti hökuməti arasında əməkdaşlıq üçün birgə komissiyanın yaradılması haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin Sərəncamı

1. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi, Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi və Azərbaycan Respublikasının digər dövlət orqanları və təşkilatları aidiyyəti üzrə "Azərbaycan Respublikası və Küveyt Dövləti arasında 2009-cu il fevralın 10-da Əl-Küveyt şəhərində imzalanmış sənədlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 14 aprel tarixli 232 nömrəli Sərəncamı ilə təsdiq edilmiş, 2009-cu il fevralın 10-da Əl-Küveyt şəhərində imzalanmış aşağıdakı sənədlərin həyata keçirilməsi üçün zəruri tədbirlər görsünlər:

1.1. Azərbaycan Respublikası Hökuməti və Küveyt Dövləti Hökuməti arasında əməkdaşlıq üçün Birgə Komissiyanın yaradılması haqqında Saziş;

1.2. Azərbaycan Respublikası Hökuməti ilə Küveyt Dövləti Hökuməti arasında turizm sahəsində əməkdaşlıq haqqında Saziş.

2. Bu sərəncam imzalandığı gündən qüvvəyə minir.

A.RASİ-ZADƏ

Azərbaycan Respublikasının Baş naziri

Bakı şəhəri, 27 aprel 2009-cu il

№ 94s

Azərbaycan Respublikası və İran İslam Respublikası arasında iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə Dövlətlərarası Müştərək Komissiyanın 7-ci iclasının nəticələri barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Sərəncamı

1. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, Azərbaycan Respublikasının Sənaye və Energetika Nazirliyi, Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi, Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi, Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi, Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi, Azərbaycan Respublikasının Maliyyə Nazirliyi, Azərbaycan Respublikasının Vergilər Nazirliyi, Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi, Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi, Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycan Respublikasının Təhsil Nazirliyi, Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi, Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi, Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti, Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti, Azərbaycan Respublikasının Mərkəzi Bankı, Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti, Azərbaycan Respublikasının Dövlət Dəniz Administrasiyası, Azərbaycan Respublikasının Dövlət Mülki Aviasiya Administrasiyası, Azərbaycan Dövlət Dəmir Yolu, "Azəriqaz" Qapalı Səhmdar Cəmiyyəti, "Azərenerji" Açıq Səhmdar Cəmiyyəti, Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti, Azərbaycan Respublikasının Ticarət və Sənaye Palatası və Azərbaycan Respublikasının digər dövlət orqanları və təşkilatları aidiyyəti üzrə "2009-cu il fevralın 19-da Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası və İran İslam Respublikası arasında iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə Dövlətlərarası Müştərək Komissiyanın 7-ci iclasının nəticələri barədə Memorandum"un təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 14 aprel tarixli 233 nömrəli Sərəncamı ilə təsdiq edilmiş, 2009-cu il fevralın 19-da Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası və İran İslam Respublikası arasında iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə Dövlətlərarası Müştərək Komissiyanın 7-ci iclasının nəticələri barədə Memorandum"un həyata keçirilməsi üçün zəruri tədbirlər görsünlər.

2. Bu sərəncam imzalandığı gündən qüvvəyə minir.

A.RASİ-ZADƏ

Azərbaycan Respublikasının Baş naziri

Bakı şəhəri, 27 aprel 2009-cu il

№ 95s

"Azərbaycan Respublikası Hökuməti və Küveyt Dövləti Hökuməti arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında" Sazişin və onun Protokolunun təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. "Azərbaycan Respublikası Hökuməti və Küveyt Dövləti Hökuməti arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında" 2009-cu il fevralın 10-da Əl-Küveyt şəhərində imzalanmış Saziş və onun Protokolu təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 28 aprel 2009-cu il

№ 795-IIQ

Azərbaycan Respublikası Hökuməti və Küveyt Dövləti Hökuməti arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında Saziş

Azərbaycan Respublikası Hökuməti və Küveyt Dövləti Hökuməti,

gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında Saziş bağlamaq vasitəsilə özlərinin qarşılıqlı iqtisadi əlaqələrini inkişaf etdirmək məqsədi ilə

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Sazişin tətbiq edildiyi şəxslər

Bu Saziş, Razılığa gələn Dövlətlərdən birinin və ya hər ikisinin rezidenti olan şəxslərə tətbiq edilir.

Maddə 2

Sazişin tətbiq edildiyi vergilər

1. Bu Saziş, vergitutma üsulundan asılı olmayaraq, Razılığa gələn Dövlət və ya onun inzibati-ərazi, yaxud siyasi bölmələri və ya yerli hakimiyyət orqanları tərəfindən gəlirlərə və əmlaka görə tutulan vergilərə tətbiq edilir.

2. Gəlirlərə və əmlaka görə vergilərə - gəlirin ümumi məbləğindən, əmlakın ümumi dəyərindən və ya gəlirin və ya əmlakın elementlərindən tutulan bütün vergilər, o cümlədən, daşınan və ya daşınmaz əmlakın özgəninkiləşdirilməsindən gəlirlərdən vergilər, müəssisələr tərəfindən ödənilən əmək haqqı və ya maaşların ümumi məbləğlərindən vergilər, həmçinin əmlakın dəyərinin artımından vergilər aiddir.

3. Sazişin tətbiq edildiyi mövcud vergilər xüsusilə aşağıdakılardır:

(a) Azərbaycan Respublikasında:

(1) hüquqi şəxslərin mənfəət vergisi;

(2) fiziki şəxslərin gəlir vergisi;

(3) əmlak vergisi və

(4) torpaq vergisi

(bundan sonra "Azərbaycan vergiləri" adlanır);

(b) Küveyt Dövlətində:

(1) korporativ gəlir vergisi;

(2) Küveyt səhmdar şirkətlərinin xalis mənfəətindən Əlmin İnkişafı üzrə Küveyt Fonduna (KFAS) ödənilən haqq;

(3) Zəkat;

(4) Milli işçilərin dəstəklənməsi qanununa əsasən tutulan vergi.

(bundan sonra "Küveyt vergiləri" adlanır).

4. Bu Saziş, həmçinin, onun imzalandığı tarixdən sonra Razılığa gələn Dövlətin qanunlarına əsasən mövcud vergilərə əlavə olaraq və ya onların əvəzinə tətbiq edilən istənilən eyni və ya mahiyyətcə oxşar vergilərə də tətbiq edilir. Razılığa gələn Dövlətlərin səlahiyyətli orqanları özlərinin müvafiq vergi qanunvericiliklərində baş verən hər bir əhəmiyyətli dəyişiklik barədə bir-birinə məlumat verirlər.

Maddə 3

Ümumi anlayışlar

1. Kontekst başqa cür tələb etmirsə, bu Sazişin məqsədləri üçün:

(a) "Azərbaycan" termini - Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan sektoru və Azərbaycan Respublikasının üzərindəki hava məkanı da daxil olmaqla, yerin təki, dənizin dibi və təbii sərvətlərə münasibətdə Azərbaycan Respublikasının suveren hüquqlarının və yurisdiksiyasının tətbiq edildiyi Azərbaycan Respublikası ərazisini, habelə, beynəlxalq hüquqa və Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq müəyyən edilmiş və gələcəkdə müəyyən edilə bilən istənilən digər ərazini bildirir;

(b) "Küveyt" termini - Küveyt Dövlətinin ərazisini, o cümlədən ərazi dənizindən kənarda beynəlxalq hüquqa müvafiq olaraq Küveyt qanunlarına əsasən Küveytin suveren hüquq və ya yurisdiksiyasının tətbiq edilə biləcəyi ərazi kimi müəyyən edilmiş və ya müəyyən edilə bilən istənilən ərazini bildirir;

(c) "Razılığa gələn Dövlət" və "Razılığa gələn digər Dövlət" terminləri - kontekstdən asılı olaraq Azərbaycanı və ya Küveyti bildirir;

(d) "şəxs" termini - fiziki şəxsi, şirkəti və şəxslərin hər hansı digər birliklərini bildirir;

(e) "şirkət" termini - hər hansı korporativ qurumu və ya vergi məqsədləri üçün korporativ qurum kimi baxılan hər hansı təşkilatı bildirir;

(f) "Razılığa gələn Dövlətin müəssisəsi" və "Razılığa gələn digər Dövlətin müəssisəsi" terminləri - müvafiq olaraq, Razılığa gələn Dövlətin rezidenti tərəfindən həyata keçirilən sahibkarlıq fəaliyyətini və Razılığa gələn digər Dövlətin rezidenti tərəfindən həyata keçirilən sahibkarlıq fəaliyyətini bildirir;

(g) "beynəlxalq daşıma" termini - Razılığa gələn Dövlətin müəssisəsi tərəfindən istismar edilən dəniz və ya hava gəmiləri vasitəsilə yerinə yetirilən istənilən daşımaları (dəniz və ya hava gəmisinin yalnız Razılığa gələn digər Dövlətin məntəqələri arasında istismar edilməsi hallan istisna olmaqla) bildirir;

(h) "milli şəxs" termini:

(1) Razılığa gələn Dövlətin vətəndaşı olan istənilən fiziki şəxsi;

(2) Özünün müvafiq statusunu Razılığa gələn Dövlətdə qüvvədə olan qanunvericiliyə müvafiq olaraq almış istənilən hüquqi şəxsi, tərəfdaşlığa və ya assosiasiyanı bildirir.

(i) "səlahiyyətli orqan" termini:

Azərbaycan Respublikasında - Maliyyə Nazirliyi və Vergilər Nazirliyini;

Küveyt Dövlətində - Maliyyə Naziri və ya Maliyyə Nazirinin səlahiyyətli nümayəndəsini bildirir;

(j) "vergi" termini - kontekstdən asılı olaraq Azərbaycan vergisini və ya Küveyt vergisini bildirir.

2. Razılığa gələn Dövlət tərəfindən bu Sazişin istənilən vaxt tətbiqi zamanı burada müəyyən edilməmiş hər hansı termin, kontekst başqa cür tələb etmirsə, Sazişin tətbiq edildiyi vergilərə münasibətdə həmin vaxt həmin Dövlətin qanunvericiliyində nəzərdə tutulmuş mənanı daşıyır, həmin Dövlətin tətbiq edilən vergi qanunvericiliyində nəzərdə tutulmuş hər hansı bir məna, həmin terminə həmin Dövlətin digər qanunlarına müvafiq olaraq verilən mənadan üstün tutulur.

Maddə 4

Rezident

1. Bu Sazişin məqsədləri üçün "Razılığa gələn Dövlətin rezidenti" termini aşağıdakıları bildirir:

(a) Azərbaycana münasibətdə: həmin Dövlətin qanunvericiliyinə müvafiq olaraq yaşayış yerinə, daimi olduğu yerə, qeydiyyat yerinə, inkorporasiya yerinə, idarəetmə yerinə və ya oxşar xarakterli hər hansı digər meyara əsasən orada vergiyə cəlb edilən istənilən şəxsi;

(b) Küveytə münasibətdə: Küveytdə yaşayış yerinə malik olan və Küveytin milli şəxsi olan fiziki şəxsi və Küveytdə inkorporasiya edilmiş şirkəti.

2. 1-ci bəndin məqsədləri üçün, Razılığa gələn Dövlətin rezidenti bütün aşağıda göstərilənləri əhatə edir:

(a) həmin Razılığa gələn Dövlətin Hökuməti və ya onun inzibati-ərazi və ya siyasi bölməsi, yaxud yerli hakimiyyət orqanları;

(b) həmin Razılığa gələn Dövlətdə dövlət qanununa əsasən yaradılmış korporasiya, Mərkəzi Bank, fond, orqan, qurum, agentlik və ya hər hansı oxşar təşkilat qismində istənilən hökumət qurumu;

(c) həmin Razılığa gələn Dövlətdə yaradılmış və bütün kapitalı Həmin Razılığa gələn Dövlət və ya (b) altbəndində göstərilən istənilən hökumət qurumu tərəfindən başqa dövlətlərlə birgə təqdim edilmiş istənilən qurum.

3. Əgər, 1-ci bəndin müddəalarına müvafiq olaraq, fiziki şəxs Razılığa gələn Dövlətlərdən hər ikisinin rezidentidirsə, bu halda onun statusu aşağıdakı kimi müəyyən edilir:

(a) o, yalnız daimi yaşayış yerinə malik olduğu Dövlətin rezidenti hesab edilir; əgər onun hər iki Dövlətdə daimi yaşayış yeri vardırsa, o, yalnız şəxsi və iqtisadi əlaqələrinin daha sıx olduğu (həyati mənafelərin mərkəzi) Dövlətin rezidenti hesab edilir;

(b) əgər, onun həyati mənafelərinin mərkəzinin yerləşdiyi Dövləti müəyyən etmək mümkün deyildirsə və ya onun bu Dövlətlərdən heç birində daimi yaşayış yeri yoxdursa, bu halda o, yalnız adətən yaşadığı Dövlətin rezidenti hesab edilir;

(c) əgər o, adətən hər iki Dövlətdə yaşayırsa və ya onlardan heç birində yaşamırsa, o, yalnız milli şəxsi olduğu Dövlətin rezidenti hesab edilir;

(d) əgər onun statusu (a)-(c) altbəndlərinin müddəalarına müvafiq olaraq müəyyən edilə bilmirsə, Razılığa gələn Dövlətlərin səlahiyyətli orqanları bu məsələni qarşılıqlı razılaşma yolu ilə həll edirlər.

2. Əgər, 1-ci bəndin müddəalarına müvafiq olaraq, fiziki şəxs olmayan şəxs Razılığa gələn Dövlətlərdən hər ikisinin rezidentidirsə, bu halda o, yalnız qeydiyyatdan keçdiyi və ya inkorporasiya edildiyi Dövlətin rezidenti hesab edilir.

Maddə 5

Daimi nümayəndəlik

1. Bu Sazişin məqsədləri üçün, "daimi nümayəndəlik" termini, müəssisənin sahibkarlıq fəaliyyətinin tamamilə və ya qismən həyata keçirildiyi daimi fəaliyyət yerini bildirir.

2. "Daimi nümayəndəlik" termini xüsusilə aşağıdakıları əhatə edir:

(a) idarəetmə yeri;

(b) bölmə;

(c) ofis;

(d) fabrik;

(e) emalatxana;

(f) yataq, neft və ya qaz quyusu, karxana, qurğu, tikili və ya gəmi, yaxud təbii ehtiyatların kəşfiyyatı, zənginləşdirilməsi, hasil olunması və işlənməsi üzrə hər hansı başqa yer.

3. Tikinti meydançası və ya konstruksiya, yığma, montaj və ya quraşdırma layihəsi və ya bunlarla bağlı Razılığa gələn Dövlətdə həyata keçirilən nəzarət və ya məsləhət fəaliyyəti yalnız bu cür meydança, layihə və ya fəaliyyət altı aydan artıq müddət ərzində davam etdikdə daimi nümayəndəlik təşkil edir.

4. Məsləhət və idarəetmə xidmətləri də daxil olmaqla, Razılığa gələn Dövlətin müəssisəsi tərəfindən Razılığa gələn digər Dövlətdə öz işçiləri və ya bu cür məqsədlər üçün cəlb edilmiş digər heyət vasitəsilə xidmətlərin göstərilməsi, yalnız bu xarakterli fəaliyyət eyni və ya əlaqəli layihə üçün istənilən on iki aylıq dövr ərzində ümumilikdə altı aydan artıq bir dövr yaxud dövrlər ərzində davam etdikdə daimi nümayəndəlik təşkil edir.

5. Əgər əsas texniki, mexaniki və ya elmi avadanlıq və ya texnika Razılığa gələn Dövlətin müəssisəsi tərəfindən Razılığa gələn digər Dövlətdə həmin digər Dövlətin müəssisəsi üçün və ya həmin müəssisə ilə müqavilə əsasında istənilən on iki aylıq dövr ərzində 6 aydan artıq bir dövrdə istifadə edilirsə və ya quraşdırılırsa, Razılığa gələn Dövlətin müəssisəsi həmin digər Razılığa gələn Dövlətdə daimi nümayəndəliyə malik olan müəssisə hesab edilir.

6. Bu maddənin əvvəlki müddəalarından asılı olmayaraq, "daimi nümayəndəlik" terminə aşağıdakılar aid edilmir:

(a) qurğulardan müəssisəyə məxsus olan malların və ya məmulatların müstəsna

olaraq saxlanılması, nümayiş etdirilməsi və ya çatdırılması məqsədi üçün istifadə edilməsi;

(b) müəssisəyə məxsus olan mal və ya məmulat ehtiyatlarının müstəsna olaraq saxlanılma, nümayiş etdirilmə və ya çatdırılma məqsədi üçün saxlanılması;

(c) müəssisəyə məxsus olan mal və ya məmulat ehtiyatlarının müstəsna olaraq başqa müəssisə tərəfindən emal edilmək məqsədi üçün saxlanılması;

(d) daimi sahibkarlıq fəaliyyəti yerinin müstəsna olaraq müəssisə üçün mal və ya məmulatların satın alınması və ya informasiya toplanılması məqsədi üçün saxlanılması;

(e) daimi sahibkarlıq fəaliyyəti yerinin müstəsna olaraq müəssisə üçün hazırlıq və ya yardımçı xarakterli istənilən digər fəaliyyətin göstərilməsi məqsədi üçün saxlanılması;

(f) daimi sahibkarlıq fəaliyyəti yerinin müstəsna olaraq (a) - (e) yarımbəndlərində sadalanmış fəaliyyət növlərinin istənilən kombinasiyası üçün saxlanılması - bir şərtlə ki, daimi sahibkarlıq fəaliyyəti yerinin bu kombinasiyanın nəticəsi olan məcmu fəaliyyəti hazırlıq və ya yardımçı xarakter daşısın.

7. 1-ci və 2-ci bəndlərin müddəalarından asılı olmayaraq, əgər 9-cu bəndin tətbiq edildiyi müstəqil statuslu agentdən fərqli şəxs Razılığa gələn Dövlətdə Razılığa gələn digər Dövlətin müəssisəsinin adından fəaliyyət göstərirsə, həmin müəssisə, həmin şəxsin onun üçün həyata keçirdiyi hər hansı fəaliyyətə münasibətdə adi birinci çəkilən Razılığa gələn Dövlətdə daimi nümayəndəliyə malik olan müəssisə hesab edilir, əgər bu cür şəxs:

(a) müəssisənin adından müqavilə bağlamaq səlahiyyətlərinə malikdirsə və adətən adı birinci çəkilən Dövlətdə bu səlahiyyətlərdən istifadə edirsə, bir şərtlə ki, həmin şəxsin fəaliyyəti 6-cı bənddə göstərilmiş fəaliyyətlə məhdudlaşmasın, belə ki, həmin fəaliyyət, hətta daimi sahibkarlıq fəaliyyəti yeri vasitəsilə həyata keçirilsə belə, həmin bəndin müddəalarına əsasən bu cür daimi sahibkarlıq fəaliyyəti yerini daimi nümayəndəliyə çevirmir, və ya

(b) bu cür səlahiyyətlərə malik olmadan, adətən adı birinci çəkilən Dövlətdə bu cür müəssisəyə məxsus olan mal və ya məmulat ehtiyatları saxlayırsa və oradan müntəzəm olaraq həmin müəssisənin adından mal və ya məmulatlar çatdırırsa;

(c) adətən adi birinci çəkilən Dövlətdə, müstəsna olaraq və ya demək olar ki, müstəsna olaraq müəssisənin özü üçün və ya bu müəssisə və onun tərəfindən nəzarət olunan və ya həmin müəssisəyə nəzarət edən digər müəssisə üçün sifarişlər qəbul edirsə;

(d) bu cür fəaliyyət göstərməklə, həmin Razılığa gələn Dövlətdə müəssisəyə məxsus olan mal və ya məmulatlar istehsal və ya emal edirsə.

8. Bu maddənin əvvəlki müddəalarından asılı olmayaraq, Razılığa gələn Dövlətin sığorta şirkəti, təkrarsığorta istisna olmaqla, Razılığa gələn digər Dövlətin ərazisində 9-cu bəndin tətbiq edildiyi müstəqil statuslu agentdən fərqli şəxs vasitəsilə sığorta mükafatları yığırsa və həmin digər Dövlətdə risklərin sığortasını təmin edirsə, həmin digər Dövlətin ərazisində daimi nümayəndəliyə malik olan hesab edilir.

9. Müəssisə Razılığa gələn Dövlətdə sadəcə olaraq broker, baş komisyon agenti və ya müstəqil statuslu hər hansı digər agent vasitəsilə sahibkarlıq fəaliyyətini həyata keçirdiyinə görə həmin Dövlətdə daimi nümayəndəliyə malik olan müəssisə hesab edilmir, bir şərtlə ki, bu cür şəxslər adi fəaliyyətləri çərçivəsində fəaliyyət göstərsinlər. Bununla belə, bu cür agentin fəaliyyəti tamamilə və ya demək olar ki, tamamilə həmin müəssisə və onun tərəfindən nəzarət olunan və ya həmin müəssisəyə nəzarət edən digər müəssisə üçün həyata keçirilirsə, həmin agent bu bəndin məqsədləri üçün müstəqil statuslu agent hesab edilmir, bir şərtlə ki, həmin agentlə müəssisə arasındakı əməliyyatların müstəqil tərəflər arasında ola biləcək razılaşdırılmış şərtlər əsasında aparıldığı göstərilməsin.

10. Razılığa gələn Dövlətin rezidenti olan şirkətin Razılığa gələn digər Dövlətin rezidenti olan və ya həmin digər Dövlətdə sahibkarlıq fəaliyyətini həyata keçirən (daimi nümayəndəlik vasitəsilə və ya başqa tərzdə) şirkətə nəzarət etməsi və ya onun nəzarətində olması faktı özlüyündə bu şirkətlərdən heç birini digərinin daimi nümayəndəliyinə çevirmir.

Maddə 6

Daşınmaz əmlakdan gəlir

1. Razılığa gələn Dövlətin rezidenti tərəfindən Razılığa gələn digər Dövlətdə yerləşən daşınmaz əmlakdan əldə edilən gəlirlər (kənd və ya meşə təsərrüfatından gəlirlər də daxil olmaqla) həmin digər Dövlətdə vergiyə cəlb edilə bilər.

2. "Daşınmaz əmlak" termini həmin əmlakın yerləşdiyi Razılığa gələn Dövlətin qanunvericiliyinə əsasən malik olduğu mənanı daşıyır. Bu termin istənilən halda, daşınmaz əmlaka münasibətdə yardımçı əmlakı, kənd və meşə təsərrüfatında istifadə edilən mal-qara və avadanlığı, torpaq mülkiyyəti barədə ümumi qanunvericiliyin müddəalarının tətbiq edildiyi hüquqları, daşınmaz əmlakın uzufruktunu və mineral ehtiyatların, mənbələrin və digər təbii resursların işlənməsi və ya işlənmə hüququ əvəzində ödənilən dəyişkən və ya təsbit olunmuş ödənişlərə olan hüquqları əhatə edir; dəniz və hava gəmiləri daşınmaz əmlak hesab edilmir.

3. 1-ci bəndin müddəaları həmçinin daşınmaz əmlakın birbaşa istifadəsindən, icarəyə verilməsindən və ya hər hansı digər formada istifadəsindən əldə edilən gəlirlərə tətbiq edilir.

4. 1-ci və 3-cü bəndlərin müddəaları, həmçinin, müəssisənin daşınmaz əmlakından gəlirlərə və müstəqil fərdi xidmətlərin göstərilməsi üçün istifadə edilən daşınmaz əmlakdan gəlirlərə də tətbiq edilir.

Maddə 7

Sahibkarlıq fəaliyyətindən mənfəət

1. Razılığa gələn Dövlətin müəssisəsinin mənfəəti yalnız həmin Dövlətdə vergiyə cəlb edilir, bir şərtlə ki, həmin müəssisə sahibkarlıq fəaliyyətini Razılığa gələn digər Dövlətdə, orada yerləşən daimi nümayəndəlik vasitəsilə həyata keçirməsin. Əgər müəssisə sahibkarlıq fəaliyyətini yuxarıda göstərilən tərzdə həyata keçiribsə, bu halda onun mən-

fəotinin yalnız həmin daimi nümayəndəliyə aid edilə bilən hissəsi həmin digər Dövlətdə vergiyə cəlb edilə bilər.

2. 3-cü bəndin müddəaları nəzərə alınmaqla, əgər Razılığa gələn Dövlətin müəssisəsi Razılığa gələn digər Dövlətdə sahibkarlıq fəaliyyətini orada yerləşən daimi nümayəndəlik vasitəsilə həyata keçirirsə, Razılığa gələn Dövlətlərin hər birində bu daimi nümayəndəliyin mənfəətinə, onun eyni və ya oxşar şəraitdə, eyni və ya oxşar fəaliyyətlə məşğul olan müstəqil və ayrıca müəssisə olduğu və daimi nümayəndəliyi olduğu müəssisədən tamamilə asılı olmadan fəaliyyət göstərdiyi halda əldə edə biləcəyi mənfəət aid edilir.

3. Daimi nümayəndəliyin mənfəəti müəyyən edilərkən, daimi nümayəndəliyin yerləşdiyi Razılığa gələn Dövlətdə və ya hər hansı digər yerdə çəkilməsindən asılı olmayaraq, daimi nümayəndəliyin məqsədləri üçün çəkilmiş xərclərin, o cümlədən, idarəetmə və ümumi inzibati xərclərin həmin Dövlətin daxili qanunvericiliyi və ya qaydaları ilə müəyyən edilmiş çərçivədə çıxılmasına yol verilir. Beləliklə, daimi nümayəndəlik tərəfindən müəssisənin baş ofisinə və ya onun digər ofislərindən hər hansı birinə patentlər və ya digər hüquqların istifadəsinin əvəzində ödənilən royaltilər, haqlar və ya digər oxşar ödənişlər şəklində və ya göstərilmiş spesifik xidmətlər və ya idarəetmə müqabilində komission haqlar şəklində, yaxud bank fəaliyyətini həyata keçirən müəssisələr istisna olmaqla, daimi nümayəndəliyə borc şəklində verilmiş məbləğlər üzrə faizlər şəklində ödənilən məbləğlər olduğu halda, bu, məbləğlərə münasibətdə (faktiki xərclərin əvəzinin birbaşa ödənilməsi halları çıxılmaq şərtilə) heç bir çıxılmaya yol verilmir. Eynilə, daimi nümayəndəliyin mənfəəti müəyyənləşdirilərkən onun tərəfindən müəssisənin baş ofisi və ya onun digər ofislərindən hər hansı birindən patentlər və ya digər hüquqların istifadəsinin əvəzində ödənilən royaltilər, haqlar və ya digər oxşar ödənişlər şəklində və ya göstərilmiş spesifik xidmətlər və ya idarəetmə müqabilində komission haqlar şəklində, yaxud bank fəaliyyətini həyata keçirən müəssisələr istisna olmaqla, baş ofis və ya onun digər ofislərindən hər hansı birinə borc şəklində verilmiş məbləğlər üzrə faizlər şəklində əldə edilən məbləğlər (faktiki xərclərin əvəzinin birbaşa ödənilməsi halları çıxılmaq şərtilə) nəzərə alınmır.

4. Əgər, Razılığa gələn Dövlətdə daimi nümayəndəliyə aid olan mənfəət adətən müəssisənin ümumi mənfəətinin onun ayrı-ayrı hissələri arasında bölüşdürülməsi əsasında müəyyən edilirsə, bu maddənin 2-ci bəndinin müddəaları, vergiyə cəlb edilməli olan mənfəətin bu cür bölgü vasitəsilə müəyyənləşdirilməsində Razılığa gələn Dövlətə heç bir maneə yaratmır, bununla belə, tətbiq edilən bölgü metodu elə olmalıdır ki, nəticə bu maddədə nəzərdə tutulan prinsiplərə müvafiq olsun.

5. Daimi nümayəndəlik tərəfindən sadəcə olaraq öz müəssisəsi üçün mal və ya məmulat alınmasına görə həmin daimi nümayəndəliyə heç bir mənfəət aid edilmir.

6. Əgər Razılığa gələn Dövlətin səlahiyyətli orqanının sərəncamında olan informasiya şəxsin daimi nümayəndəliyinə aid edilə bilən mənfəətin müəyyənləşdirilməsi üçün adekvat deyildirsə, bu maddənin heç bir müddəası həmin Razılığa gələn Dövlətin bu Dövlətin səlahiyyətli orqanı tərəfindən həmin daimi nümayəndəliyin vergiyə cəlb edilməli olan mənfəətinin şərti hesablanması yolu ilə həmin daimi nümayəndəliyin vergi öhdəliklərinin müəyyən edilməsi ilə bağlı hər hansı qanun və ya qaydalarının tətbiq

...sinə maneə yaratmır, bir şərtlə ki, bu qanun və qaydalar bu maddənin prinsiplərinə uyğun şəkildə səlahiyyətli orqanın sərəncamında olan informasiya nəzərə alınmaqla tətbiq edilsin.

7. Əvvəlki bəndlərin məqsədləri üçün, daimi nümayəndəliyə aid edilə bilən mənfəət hər il eyni metodla müəyyən edilir, bir şərtlə ki, bunun əksi üçün tutarlı və kifayət qədər əsaslı səbəb olmasın.

8. Əgər, mənfəətə barəsində bu Sazişin digər maddələrində ayrıca söhbət açılan gəlir növləri daxildirsə, bu halda bu maddənin müddəaları həmin maddələrin müddəalarına təsir göstərmir.

Maddə 8

Dəniz və hava nəqliyyatı

1. Razılığa gələn Dövlətin müəssisəsinin dəniz və ya hava gəmilərinin beynəlxalq daşımalarda istismarından mənfəəti yalnız həmin Dövlətdə vergiyə cəlb edilir.

2. Bu maddənin məqsədləri üçün, dəniz və ya hava gəmilərinin beynəlxalq daşımalarda istismarından əldə olunan mənfəətə həmçinin:

(a) dəniz və ya hava gəmilərinin beynəlxalq daşımalarda heyətsiz icarəyə verilməsindən mənfəət;

(b) mal və ya məmulatların daşınması üçün istifadə edilən konteynerlərin (konteynerlərin daşınması üçün treylerlər və əlaqədar avadanlıq da daxil olmaqla) beynəlxalq daşımalarda istifadəsi, saxlanılması və ya icarəyə verilməsindən əldə edilən mənfəət aiddir,

bir şərtlə ki, bu cür icarə, istifadə və ya saxlanılma dəniz və ya hava gəmilərinin beynəlxalq daşımalarda istismarına münasibətdə qeyri-müntəzəm xarakter daşısın.

3. 1-ci və 2-ci bəndlərin müddəaları həmçinin pulda ("pool"), birgə sahibkarlıq fəaliyyəti və ya beynəlxalq əməliyyat təşkilatında iştirakdan əldə edilən mənfəətə də tətbiq edilir.

Maddə 9

Qarşılıqlı əlaqəli müəssisələr

1. Əgər:

(a) Razılığa gələn Dövlətin müəssisəsi Razılığa gələn digər Dövlətin müəssisəsinin idarə edilməsində, ona nəzarətdə və ya onun kapitalında birbaşa və ya dolayısı ilə iştirak edirsə, və ya

(b) eyni şəxslər Razılığa gələn Dövlətin müəssisəsinin və Razılığa gələn digər Dövlətin müəssisəsinin idarə edilməsində, onlara nəzarətdə və ya onların kapitalında birbaşa və ya dolayısı ilə iştirak edirlərsə,

və hər bir halda bu iki müəssisənin qarşılıqlı kommersiya və ya maliyyə münasibətlərində onlar arasında yaradılmış və ya müəyyən edilmiş şərtlər müstəqil müəssisələr arasında mövcud ola biləcək şərtlərdən fərqlidirsə, bu halda, onlardan birinə hesablana biləcək, lakin bu şərtlər səbəbindən hesablanmamış hər hansı mənfəət, həmin müəssisə-

nin mənfəətinə daxil edilə və müvafiq qaydada vergiyə cəlb edilə bilər.

2. Əgər, Razılığa gələn Dövlət həmin Dövlətin müəssisəsinin mənfəətinə Razılığa gələn digər Dövlətin müəssisəsinin həmin digər Dövlətdə vergiyə cəlb edilmiş mənfəətini daxil edir və müvafiq qaydada vergiyə cəlb edirsə və bu tərzdə daxil edilmiş mənfəət bu müəssisələr arasındakı münasibətlər müstəqil müəssisələr arasında ola biləcək münasibətlər olduğu halda adı birinci çəkilən Dövlətin müəssisəsinə hesablana biləcək mənfəətdirsə, bu halda, həmin digər Dövlət orada bu mənfəətdən hesablanan vergi məbləğinə müvafiq düzəliş edir. Bu cür düzəlişin müəyyən edilməsində bu Sazişin digər müddəaları müvafiq qaydada nəzərə alınır və Razılığa gələn Dövlətlərin səlahiyyətli orqanları zəruri olduqda bir-biri ilə məsləhətləşmələr aparırlar.

Maddə 10

Dividendlər

1. Razılığa gələn Dövlətin rezidenti olan şirkət tərəfindən Razılığa gələn digər Dövlətin rezidentinə ödənilən dividendlər həmin digər Dövlətdə vergiyə cəlb edilə bilər.

2. Bununla belə, bu cür dividendlər həmçinin həmin dividendləri ödəyən şirkətin rezident olduğu Razılığa gələn Dövlətdə və onun qanunvericiliyinə müvafiq qaydada da vergiyə cəlb edilə bilər, lakin dividendlərin faktiki sahibi Razılığa gələn digər Dövlətin rezidentidirsə, tutulan vergi aşağıdakılardan artıq olmamalıdır:

(a) dividendlərin ümumi məbləğinin 5 faizindən - əgər dividendlərin faktiki sahibi:

(i) 4-cü maddənin 2-ci bəndinin (a) və (b) altbəndlərində göstərilmiş qurumdursa;

(ii) birbaşa və ya dolayısı ilə dividendləri ödəyən şirkətin kapitalının ən azı 15 faizinə sahib olan şirkətdirsə və onun həmin şirkətdə iştirak payı 200.000 ABŞ dolları və ya bu məbləğin istənilən digər valyutada ekvivalentindən artıqdırsa;

(b) dividendlərin ümumi məbləğinin 10 faizindən - bütün digər hallarda.

Bu bənd, dividendlər ödənilən mənfəətə münasibətdə şirkətin vergiyə cəlb edilməsinə təsir etmir.

3. Bu maddədə istifadə edilən "dividendlər" termini səhmlərdən, "jouissance" səhmlərindən və ya "jouissance" hüquqlarından, dağ-mədən sənayesinin səhmlərindən, təsisçilərin səhmlərindən və ya borc tələbləri olmayan, mənfəətdə iştirak hüququ verən digər hüquqlardan gəlirləri, o cümlədən, gəlirləri bölüşdürən şirkətin rezident olduğu Dövlətin vergi qanunlarına müvafiq olaraq, səhmlərdən gəlirlərin cəlb edildiyi eyni qaydada vergitutmaya cəlb edilən digər korporativ hüquqlardan əldə edilən gəlirləri bildirir.

4. 1-ci və 2-ci bəndlərin müddəaları, dividendlərin faktiki sahibinin Razılığa gələn Dövlətin rezidenti olmaqla, dividendləri ödəyən şirkətin rezident olduğu Razılığa gələn digər Dövlətdə sahibkarlıq fəaliyyətini orada yerləşən daimi nümayəndəlik vasitəsilə həyata keçirdiyi və ya həmin digər Dövlətdə orada yerləşən daimi baza vasitəsilə müstəqil fərdi xidmətlər göstərdiyi və dividendlərin ödənilməsi ilə bağlı olan holdinqin bu cür

...nümayəndəlik və ya daimi baza ilə faktiki olaraq əlaqəli olduğu halda tətbiq edilməz. Bu halda, şəraitdən asılı olaraq, 7-ci və ya 14-cü maddələrin müddəaları tətbiq edilir.

5. Əgər, Razılığa gələn Dövlətin rezidenti olan şirkət Razılığa gələn digər Dövlətdən mənfəət və ya gəlir əldə edirsə, həmin digər Dövlət, hətta şirkət tərəfindən ödənilən dividendlər və ya onun bölüşdürülməmiş mənfəəti tamamilə və ya qismən həmin digər Dövlətdə yaranan mənfəət və ya gəlirdən ibarət olduğu halda belə, dividendlərin həmin digər Dövlətin rezidentinə ödənildiyi və ya dividendlərin ödənilməsi ilə bağlı olan holdinqin həmin digər Dövlətdə yerləşən daimi nümayəndəlik və ya daimi baza ilə faktiki olaraq əlaqəli olduğu hallar istisna edilməklə, no şirkət tərəfindən ödənilən dividendlərə hər hansı vergi tətbiq edə, no də şirkətin bölüşdürülməmiş mənfəətini şirkətin bölüşdürülməmiş mənfəəti üzrə vergiyə cəlb edə bilməz.

Maddə 11

Faizlər

1. Razılığa gələn Dövlətdə yaranan və Razılığa gələn digər Dövlətin rezidentinə ödənilən faizlər həmin digər Dövlətdə vergiyə cəlb edilə bilər.

2. Bununla belə, bu cür faizlər həmçinin onların yarandığı Razılığa gələn Dövlətdə və onun qanunvericiliyinə müvafiq qaydada da vergiyə cəlb edilə bilər, lakin faizlərin faktiki sahibi Razılığa gələn digər Dövlətin rezidentidirsə, tutulan vergi faizlərin ümumi məbləğinin yeddi (7) faizindən artıq olmamalıdır.

3. 2-ci bəndin müddəalarına baxmayaraq, Razılığa gələn Dövlətdə yaranan faizlər, 4-cü maddənin 2-ci bəndində göstərilən qurumlar tərəfindən əldə edildiyi halda vergidən azad edilir.

4. Bu maddədə istifadə edilən "faizlər" termini ipoteka təminatının olub-olmamasından və borcluların mənfəətində iştirak hüququ verib-verməməsindən asılı olmayaraq, istənilən növ borc tələblərindən gəlirləri, və xüsusilə, hökumətin qiymətli kağızlarından gəlirləri və istiqrazlardan və ya borc öhdəliklərindən gəlirləri, o cümlədən bu cür qiymətli kağızlar, istiqrazlar və ya borc öhdəlikləri üzrə mükafatlar və uduşlar daxil olmaqla, əldə olunan gəlirləri, o cümlədən gəlirin yarandığı Dövlətdə borc verilmiş puldan gəlirlər kimi eyni qaydada vergiyə cəlb edilən gəlirləri bildirir. Gecikdirilmiş ödənişlərə görə cərimələr bu maddənin məqsədi üçün faizlər hesab edilmir.

5. 1-ci və 2-ci bəndlərin müddəaları, faizlərin faktiki sahibinin Razılığa gələn Dövlətin rezidenti olmaqla, faizlərin yarandığı Razılığa gələn digər Dövlətdə sahibkarlıq fəaliyyətini orada yerləşən daimi nümayəndəlik vasitəsilə həyata keçirdiyi və ya həmin digər Dövlətdə orada yerləşən daimi baza vasitəsilə müstəqil fərdi xidmətlər göstərdiyi və faizlərin ödənilməsi ilə bağlı olan borc öhdəliyinin bu cür daimi nümayəndəlik və ya daimi baza ilə faktiki olaraq əlaqəli olduğu halda tətbiq edilmir. Bu halda, şəraitdən asılı olaraq, 7-ci və ya 14-cü maddələrin müddəaları tətbiq edilir.

6. Faizlərin ödəyicisi Razılığa gələn Dövlətin rezidenti olduğu halda, faizlər həmin Dövlətdə yaranmış hesab edilir. Bununla belə, faizləri ödəyən şəxs Razılığa gələn Dövlətin rezidenti olub-olmamasından asılı olmayaraq, Razılığa gələn Dövlətdə daimi nümayəndəliyə və ya daimi bazaya sahib olduğu və faizlər ödənilən borcun bu cür daimi nümayəndəlik və ya daimi baza ilə bağlı yarandığı və bu faizlərin ödənilməsi üzrə

xərclərin bu cür daimi nümayəndəlik və ya daimi baza tərəfindən çəkildiyi halda, bu cür faizlər daimi nümayəndəliyin və ya daimi bazanın yerləşdiyi Dövlətdə yaranmış hesab edilir.

7. Əgər, faizlərin ödəyicisi və faktiki sahibi arasında və ya onların hər ikisi ilə hər hansı digər şəxs arasındakı xüsusi münasibətlər səbəbindən, borc tələbi ilə əlaqədar ödənilən faizlərin məbləği, bu münasibətlər olmadığı halda ödəyici və faktiki sahib arasında razılaşdırıla biləcək məbləğdən artıqdırsa, bu maddənin müddəaları yalnız adı sonuncu çəkilən məbləğə tətbiq edilir. Bu halda, ödənişlərin artıq hissəsi, bu Sazişin digər müddəaları müvafiq qaydada nəzərə alınmaqla, Razılığa gələn Dövlətlərdən hər birinin qanunvericiliyinə müvafiq qaydada vergiyə cəlb edilir.

Maddə 12

Royaltilər

1. Razılığa gələn Dövlətdə yaranan və Razılığa gələn digər Dövlətin rezidentinə ödənilən royaltilər həmin digər Dövlətdə vergiyə cəlb edilə bilər.

2. Bununla belə, bu cür royaltilər həmçinin onların yarandığı Razılığa gələn Dövlətdə və onun qanunvericiliyinə müvafiq qaydada da vergiyə cəlb edilə bilər, lakin royaltilərin faktiki sahibi Razılığa gələn digər Dövlətin rezidentidirsə, tutulan vergi royaltilərin ümumi məbləğinin on (10) faizindən artıq olmamalıdır.

3. Bu maddədə istifadə olunan "royaltilər" termini hər hansı ədəbiyyat, incəsənət və ya elm əsərləri, o cümlədən kinofilmlər, televiziya və ya radio yayımları ilə bağlı istifadə üçün lentlər, kassetlər və ya digər reproduksiya vasitələri üzərində işlər üzrə müəlliflik hüquqlarının, hər hansı patent, ticarət markası, kompüter proqramları, dizayn və ya model, plan, məxfi formula və ya prosesin özgəninkiləşdirilməsi, yaxud istifadəsi və ya istifadə hüququ əvəzində və ya sənaye, kommersiya və ya elmi təcrübəyə (know-how) dair informasiya əvəzində alınan istənilən növ ödənişləri bildirir.

4. 1-ci və 2-ci bəndlərin müddəaları, royaltilərin faktiki sahibinin Razılığa gələn Dövlətin rezidenti olmaqla, royaltilərin yarandığı Razılığa gələn digər Dövlətdə sahibkarlıq fəaliyyətini orada yerləşən daimi nümayəndəlik vasitəsilə həyata keçirdiyi və ya həmin digər Dövlətdə orada yerləşən daimi baza vasitəsilə müstəqil fərdi xidmətlər göstərdiyi və royaltilərin ödənilməsi ilə bağlı olan hüquq və ya əmlakın bu cür daimi nümayəndəlik və ya daimi baza ilə faktiki olaraq əlaqəli olduğu halda tətbiq edilmir. Bu halda, şəraitdən asılı olaraq, 7-ci və ya 14-cü maddələrin müddəaları tətbiq edilir.

5. Royaltilərin ödəyicisi Razılığa gələn Dövlətin rezidenti olduğu halda, royaltilər həmin Dövlətdə yaranmış hesab edilir. Bununla belə, royaltiləri ödəyən şəxs Razılığa gələn Dövlətin rezidenti olub-olmamasından asılı olmayaraq, Razılığa gələn Dövlətdə daimi nümayəndəliyə və ya daimi bazaya sahib olduğu və royaltiləri ödənək öhdəliyinin bu cür daimi nümayəndəlik və ya daimi baza ilə bağlı yarandığı və bu royaltilərin ödənilməsi üzrə xərclərin bu cür daimi nümayəndəlik və ya daimi baza tərəfindən çəkildiyi halda, bu cür royaltilər daimi nümayəndəliyin və ya daimi bazanın yerləşdiyi Dövlətdə yaranmış hesab edilir.

6. Əgər, ödəyici və faktiki sahibi arasında və ya onların hər ikisi ilə hər hansı digər şəxs arasındakı xüsusi münasibətlər səbəbindən istifadə, hüquq və ya informasiya ilə əlaqə-

dar ödənilən royaltilərin məbləği, bu münasibətlər olmadığı halda ödəyici və faktiki sahib arasında razılaşdırıla biləcək məbləğdən artıqdırsa, bu maddənin müddəaları yalnız adı sonuncu çəkilən məbləğə tətbiq edilir. Bu halda, ödənişlərin artıq hissəsi, bu Sazişin digər müddəaları müvafiq qaydada nəzərə alınmaqla, Razılığa gələn Dövlətlərdən hər birinin qanunvericiliyinə müvafiq qaydada vergiyə cəlb edilir.

Maddə 13

Əmlakın dəyərinin artımı

1. Razılığa gələn Dövlətin rezidenti tərəfindən, 6-cı maddədə qeyd edilmiş və Razılığa gələn digər Dövlətdə yerləşən daşınmaz əmlakın özgəninkiləşdirilməsindən əldə edilən gəlirlər həmin digər Dövlətdə vergiyə cəlb edilə bilər.

2. Razılığa gələn Dövlətin müəssisəsinin Razılığa gələn digər Dövlətdə sahib olduğu daimi nümayəndəliyinin kommersiya əmlakının bir hissəsini təşkil edən daşınan əmlakın və ya Razılığa gələn Dövlətin rezidentinin müstəqil fərdi xidmətlər göstərmək məqsədi üçün Razılığa gələn digər Dövlətdə sərəncamında olan daimi bazaya aid daşınan əmlakın özgəninkiləşdirilməsindən gəlirlər, bu cür daimi nümayəndəliyin (ayrılıqda və ya bütün müəssisə ilə birlikdə) və ya bu cür daimi bazanın özgəninkiləşdirilməsindən gəlirlər də daxil olmaqla həmin digər Dövlətdə vergiyə cəlb edilə bilər.

3. Razılığa gələn Dövlətin müəssisəsi tərəfindən beynəlxalq daşımalarda istismar edilən dəniz və ya hava gəmilərinin və ya bu cür dəniz və ya hava gəmilərinin istismarı ilə bağlı olan daşınan əmlakın özgəninkiləşdirilməsindən əldə edilən gəlirlər yalnız həmin Dövlətdə vergiyə cəlb edilir.

4. 1-ci, 2-ci və 3-cü bəndlərdə qeyd edilənlər istisna edilməklə, hər hansı əmlakın özgəninkiləşdirilməsindən gəlirlər, yalnız əmlakı özgəninkiləşdirən şəxsin rezident olduğu Razılığa gələn Dövlətdə vergiyə cəlb edilir.

Maddə 14

Müstəqil fərdi xidmətlər

1. Razılığa gələn Dövlətin rezidenti tərəfindən peşəkar xidmətlərdən və ya müstəqil xarakterli digər fəaliyyətlərdən əldə edilən gəlirlər, bu cür gəlirlərin həmçinin Razılığa gələn digər Dövlətdə də vergiyə cəlb edilə biləcəyi aşağıdakı hallar istisna edilməklə, yalnız həmin Dövlətdə vergiyə cəlb edilir.

(a) Əgər o, öz fəaliyyətini həyata keçirmək məqsədi üçün Razılığa gələn digər Dövlətdə müntəzəm istifadə etdiyi daimi bazaya sahibdirsə; bu halda, gəlirin yalnız həmin daimi bazaya aid edilə bilən hissəsi həmin digər Dövlətdə vergiyə cəlb edilə bilər; və ya

(b) Əgər o, cari vergi ilində ümumilikdə 183 gündən artıq bir dövr və ya dövrlər ərzində Razılığa gələn digər Dövlətdə qalırsa; bu halda gəlirin yalnız həmin digər Dövlətdə həyata keçirilən fəaliyyətdən əldə edilən hissəsi həmin digər Dövlətdə vergiyə cəlb edilə bilər.

2. "Peşəkar xidmətlər" termininə xüsusilə müstəqil elmi, ədəbi, incəsənət, təhsil və ya tədris fəaliyyəti, o cümlədən, həkimlərin, hüquqşünasların, mühəndislərin, memarların, stomatoloqların və mühasiblərin müstəqil fəaliyyəti daxildir.

Maddə 15

Qeyri-müstəqil fərdi xidmətlər

1. 16-cı, 18-ci və 19-cu maddələrin müddəaları nəzərə alınmaqla, Razılığa gələn Dövlətin rezidenti tərəfindən muzdlu işlə bağlı əldə edilən maaş, əmək haqqı və digər oxşar mükafatlar yalnız həmin Dövlətdə vergiyə cəlb edilir, bir şərtlə ki, muzdlu iş Razılığa gələn digər Dövlətdə həyata keçirilməsin. Əgər muzdlu iş bu tərzdə həyata keçirilirsə, onunla bağlı orada əldə edilən bu cür mükafatlar həmin digər Dövlətdə vergiyə cəlb edilə bilər.

2. Bu maddənin 1-ci bəndinin müddəalarından asılı olmayaraq, Razılığa gələn Dövlətin rezidenti tərəfindən Razılığa gələn digər Dövlətdə həyata keçirilən muzdlu işlə bağlı əldə edilən mükafat yalnız adı birinci çəkilən Dövlətdə vergiyə cəlb edilir, əgər:

(a) resipient cari vergi ilində başlayan və ya başa çatan istənilən 12 ardıcıl dövr ərzində ümumilikdə 183 gündən artıq olmayan bir dövr və ya dövrlər ərzində digər Dövlətdə qalırsa, və

(b) mükafat digər Dövlətin rezidenti olmayan işəgötürən tərəfindən və ya onun adından ödənilirsə, və

(c) mükafatların ödənilməsi üzrə xərclər işəgötürənin digər Dövlətdə sahib olduğu daimi nümayəndəlik və ya daimi baza tərəfindən çəkilmirsə.

3. Bu maddənin əvvəlki müddəalarından asılı olmayaraq, Razılığa gələn Dövlətin müəssisəsi tərəfindən beynəlxalq daşımalarda istismar edilən dəniz və ya hava gəmisinin göyərtəsində həyata keçirilən muzdlu işlə bağlı əldə edilən mükafatlar həmin Dövlətdə vergiyə cəlb edilə bilər.

4. Razılığa gələn Dövlətin milli aviasiya daşıyıcısının baş ofisi tərəfindən Razılığa gələn digər Dövlətə təyin edilmiş yerüstü heyətin əldə etdiyi mükafatlar həmin digər Dövlətdə vergidən azad edilir.

Maddə 16

Direktorların qonorarları

Razılığa gələn Dövlətin rezidenti tərəfindən Razılığa gələn digər Dövlətin rezidenti olan şirkətin direktorlar şurasının və ya nəzarət şurasının, yaxud digər oxşar orqanının üzvü qismində əldə edilən qonorarlar və digər oxşar ödənişlər yalnız həmin digər Dövlətdə vergiyə cəlb edilir.

Maddə 17

İncəsənət işçiləri və idmançılar

1. 14-cü və 15-ci maddələrin müddəalarından asılı olmayaraq, Razılığa gələn Dövlətin rezidenti tərəfindən teatr, kino, estrada, radio və ya televiziya artisti və ya musiqiçi qismində Razılığa gələn digər Dövlətdə həyata keçirilən incəsənət işçisi kimi və ya idmançı kimi fərdi fəaliyyətdən əldə edilən gəlir həmin digər Dövlətdə vergiyə cəlb edilə bilər.

2. Əgər, incəsənət işçisi və ya idmançının bu cür şəxs kimi fərdi fəaliyyəti ilə bağlı gəlir

incəsənət işçisi və ya idmançının özünə deyil, digər şəxsə hesablanırsa, həmin gəlir, 7-ci, 14-cü və 15-ci maddələrin müddəalarından asılı olmayaraq, incəsənət işçisi və ya idmançının fəaliyyətinin həyata keçirildiyi Razılığa gələn Dövlətdə vergiyə cəlb edilə bilər.

3. 1-ci və 2-ci bəndlərin müddəaları Razılığa gələn Dövlətin rezidenti olan incəsənət işçisi və ya idmançının Razılığa gələn digər Dövlətə gəlişi əsasən adı birinci çəkilən Dövlətin dövlət vəsaitləri hesabına, o cümlədən həmin Dövlətin hər hansı siyasi bölməsinin, yerli hakimiyyət orqanının və ya dövlət qanunu ilə təsis edilmiş orqanının vəsaitləri hesabına maliyyələşdirildiyi halda həmin incəsənət işçisi və ya idmançının bu cür şəxs kimi Razılığa gələn digər Dövlətdə həyata keçirdiyi fəaliyyətdən əldə etdiyi gəlirlərə və məqsədi mənfəət əldə etmək olmayan təşkilat tərəfindən bu cür fəaliyyətə münasibətdə əldə edilən gəlirlərə tətbiq edilmir, bir şərtlə ki, bu gəlirlərin heç bir hissəsi həmin təşkilatın sahibləri, təsisçiləri və ya üzvlərinə ödənilməsin və ya hər hansı bir şəkildə onların sərəncamında qalmasın.

Maddə 18

Təqaüdlər və annuitetlər

1. 19-cu maddənin 2-ci bəndinin müddəaları nəzərə alınmaqla, Razılığa gələn Dövlətin rezidentinə keçmişdəki muzdlu işlə bağlı ödənilən təqaüdlər və digər oxşar mükafatlar və annuitetlər yalnız həmin Dövlətdə vergiyə cəlb edilir.

2. Bu maddədə istifadə edilən:

(a) "təqaüdlər və digər oxşar mükafatlar" termini təqaüdə çıxdıqdan sonra əvvəllər muzdla işləməyin əvəzində ödənilən və ya əvvəlki muzdlu işlə əlaqədar alınmış xəsarətlərin əvəzində kompensasiya formasında verilən dövrü ödənişləri bildirir;

(b) "Annuitet" termini fiziki şəxsə dövrü olaraq adekvat və tam xidmətlərin əvəzində pul və ya pul dəyəri formasında ödəmələr etmək öhdəliyi üzrə ömür boyu və ya müəyyən yaxud qeyri-müəyyən dövr ərzində, təsbit edilmiş vaxtlarda ödənilən təsbit edilmiş məbləği bildirir.

Maddə 19

Dövlət qulluğu

1. (a) Razılığa gələn Dövlət və ya onun inzibati-ərazi və ya siyasi bölməsi və ya yerli hakimiyyət orqanı tərəfindən fiziki şəxsə, həmin Dövlətə və ya bölməyə, yaxud hakimiyyət orqanına göstərilən xidmətlərlə bağlı ödənilən təqaüd olmayan maaş, əmək haqqı və digər oxşar mükafatlar yalnız həmin Dövlətdə vergiyə cəlb edilir.

(b) Bununla belə, əgər xidmətlər Razılığa gələn digər Dövlətdə göstərilirsə və fiziki şəxs həmin Dövlətin rezidentidirsə və o:

(1) həmin Dövlətin milli şəxsidirsə; və ya

(2) yalnız qulluq göstərmək məqsədi üçün həmin Dövlətin rezidenti olmamışdırsa,

bu cür maaş, əmək haqqı və digər oxşar mükafatlar yalnız Razılığa gələn digər Dövlətdə vergiyə cəlb edilir.

2. a) Razılığa gələn Dövlət və ya onun inzibati-ərazi və ya siyasi bölməsi və ya yerli hakimiyyət orqanı tərəfindən və ya onlar tərəfindən yaradılmış fondlardan fiziki şəxsə, həmin Dövlətə və ya bölməyə, yaxud hakimiyyət orqanına göstərilən xidmətlərlə bağlı ödənilən təqaüdlər yalnız həmin Dövlətdə vergiyə cəlb edilir.

(b) Bununla belə, əgər fiziki şəxs Razılığa gələn digər Dövlətin rezidenti və milli şəxsidirsə, bu cür təqaüdlər və digər oxşar mükafatlar yalnız həmin digər Dövlətdə vergiyə cəlb edilir.

3. 15-ci, 16-cı, 17-ci və 18-ci maddələrin müddəaları Razılığa gələn Dövlətin və ya onun inzibati-ərazi və ya siyasi bölməsinin və ya yerli hakimiyyət orqanının sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi ilə bağlı göstərilən xidmətlərlə əlaqədar ödənilən maaş, əmək haqqı və digər oxşar mükafatlara və təqaüdlərə tətbiq edilir.

Maddə 20

Müəllimlər və tədqiqatçılar

Razılığa gələn Dövlətin rezidenti olan və ya Razılığa gələn digər Dövlətə gəlməzdən bilavasitə əvvəl adı birinci çəkilən Dövlətin rezidenti olmuş və həmin digər Dövlətin Hökumətinin və ya həmin digər Dövlətdəki universitetin, kollecin, məktəbin, muzeyin və ya digər mədəniyyət qurumunun dəvəti ilə, yaxud mədəni mübadilə üzrə rəsmi proqram çərçivəsində həmin digər Razılığa gələn Dövlətdə yalnız dərs demək, mühazirələr oxumaq, yaxud göstərilən qurumlarda tədqiqat aparmaq məqsədilə iki ardıcıl ildən artıq olmayan dövr ərzində qalan fiziki şəxs bu cür fəaliyyətlə bağlı əldə etdiyi mükafatlara münasibətdə həmin digər Razılığa gələn Dövlətdə vergidən azad edilir.

Maddə 21

Tələbələr

1. Razılığa gələn Dövlətin rezidenti olan və ya Razılığa gələn digər Dövlətə gəlməzdən bilavasitə əvvəl adı birinci çəkilən Dövlətin rezidenti olmuş və həmin digər Dövlətdə yalnız təhsil və ya təlim almaq məqsədilə olan tələbələrin və ya təcrübə keçən şəxslərin yaşamaq, təhsil yaxud təlim almaq məqsədilə aldıqları ödənişlərin mənbəyi həmin digər Dövlətdən kənarda yerləşdiyi halda, bu cür ödənişlər həmin digər Dövlətdə vergiyə cəlb edilmir.

2. 1-ci bəndin müddəalarından asılı olmayaraq, Razılığa gələn Dövlətin rezidenti olan və ya Razılığa gələn digər Dövlətə gəlməzdən bilavasitə əvvəl adı birinci çəkilən Dövlətin rezidenti olmuş və həmin digər Dövlətdə yalnız təhsil və ya təlim almaq məqsədilə olan tələbələrin və ya təcrübə keçən şəxslərin Razılığa gələn digər Dövlətdə müvəqqəti xidmətlərin göstərilməsindən əldə etdiyi gəlirlər həmin digər Razılığa gələn Dövlətdə vergiyə cəlb edilmir, bir şərtlə ki, bu xidmətlər onun təhsil və ya təlimi ilə əlaqədidir və bu xidmətlərin əvəzində alınan mükafatlar onun yaşaması üçün sərəncamında olan vəsaitlərə əlavə kimi zəruridir.

Maddə 22

Digər gəlirlər

1. Razılığa gələn Dövlətin rezidentinin, barəsində bu Sazişin əvvəlki maddələrində

söhbət açılmayan gəlir növləri, yaranma mənbəyindən asılı olmayaraq yalnız həmin Dövlətdə vergiyə cəlb edilir.

2. 1-ci bəndin müddəaları, 6-cı maddənin 2-ci bəndinə əsasən müəyyən edilmiş daşınmaz əmlakdan əldə olunan gəlirlərdən fərqli olan digər gəlirlərə, bu gəlirlərin resipienti Razılığa gələn Dövlətin rezidenti olmaqla sahibkarlıq fəaliyyətini Razılığa gələn digər Dövlətdə orada yerləşən daimi nümayəndəlik vasitəsilə həyata keçirdiyi və ya həmin digər Dövlətdə orada yerləşən daimi baza vasitəsilə müstəqil fərdi xidmətlər göstərdiyi və ödənilən gəlirin bu cür daimi nümayəndəlik və ya daimi baza ilə faktiki olaraq əlaqəli olduğu halda tətbiq edilmir. Bu halda, şəraitdən asılı olaraq, 7-ci və ya 14-cü maddələrin müddəaları tətbiq edilir.

Maddə 23

Əmlak

1. 6-cı maddədə qeyd edilmiş, Razılığa gələn Dövlətin rezidentinə məxsus olan və Razılığa gələn digər Dövlətdə yerləşən daşınmaz əmlakla ifadə olunmuş əmlak həmin digər Dövlətdə vergiyə cəlb edilə bilər.

2. Razılığa gələn Dövlətin müəssisəsinin Razılığa gələn digər Dövlətdə sahib olduğu daimi nümayəndəliyinin kommersiya əmlakının bir hissəsini təşkil edən daşınan əmlakla və ya Razılığa gələn Dövlətin rezidentinin müstəqil fərdi xidmətlər göstərmək məqsədi üçün Razılığa gələn digər Dövlətdə sərəncamında olan daimi bazaya aid daşınan əmlakla ifadə olunmuş əmlak həmin digər Dövlətdə vergiyə cəlb edilə bilər.

3. Razılığa gələn Dövlətin müəssisəsi tərəfindən beynəlxalq daşımalarda istismar edilən dəniz və ya hava gəmiləri və ya bu cür dəniz və ya hava gəmilərinin istismarı ilə bağlı olan daşınan əmlakla təmsil olunmuş əmlak yalnız həmin Dövlətdə vergiyə cəlb edilir.

4. Razılığa gələn Dövlətin rezidentinin bütün digər əmlak elementləri yalnız həmin Dövlətdə vergiyə cəlb edilir.

Maddə 24

İkiqat vergitutmanın aradan qaldırılması

1. Bu Sazişdə başqa hallar nəzərdə tutulmadığı halda, Razılığa gələn Dövlətlərin hər birində qüvvədə olan qanunlar müvafiq Razılığa gələn Dövlətdə vergitutmanı tənzimləməkdə davam edəcəkdir.

2. Razılaşdırılır ki, ikiqat vergitutma bu maddənin aşağıdakı bəndlərinə müvafiq qaydada aradan qaldırılacaq:

(a) Azərbaycana münasibətdə:

Əgər Azərbaycan Respublikasının rezidenti, bu Sazişin müddəalarına müvafiq olaraq həm Azərbaycanda, həm də Küveytdə vergiyə cəlb edilə bilən gəlir əldə edirsə və ya əmlaka sahibdirsə, Küveytdə ödənilmiş vergi məbləği, həmin şəxsdən adı çəkilən gəlir və əmlakla əlaqədar olaraq Azərbaycan Respublikasında hesablanan verginin məbləğindən çıxılacaqdır. Bununla belə, bu cür çıxılma Azərbaycanın Respublikasının qanunvericiliyinə və vergitut-

ma qaydalarına müvafiq olaraq bu cür gəlirə və ya əmlaka hesablanmış vergi-nin məbləğindən artıq olmamalıdır.

(b) Küveytə münasibətdə:

Əgər Küveytin rezidenti, bu Sazişin müddəalarına müvafiq olaraq həm Azər-baycanda, həm də Küveytdə vergiyə cəlb edilə bilən gəlir əldə edirsə və ya əmlaka sahibdirsə, Küveyt həmin rezidentin gəlir vergisindən Azərbaycanda ödənilmiş gəlir vergisi məbləğinin, əmlak vergisindən isə Azərbaycanda ödənilmiş əmlak vergisi məbləğinin çıxılmasına yol verəcəkdir.

Bu cür çıxılma istənilən halda, çıxılma verilməzdən əvvəl hesablanmış və şəraitdən asılı olaraq Azərbaycanda vergiyə cəlb edilə bilən gəlir və ya əmlaka aid edilə bilən gəlir və ya əmlak vergisinin məbləğindən artıq ola bilməz.

3. 1-ci bəndin (a) yarımbəndinin məqsədləri üçün 2-ci maddənin 3-cü bəndinin (b) altbəndində göstərilmiş Zəkat, gəlir vergisi hesab edilir.

4. Razılığa gələn Dövlətdə çıxılma verilməsi məqsədləri üçün Razılığa gələn digər Dövlətdə ödənilmiş vergi başqa halda həmin digər Razılığa gələn Dövlətdə ödənilməli olan, lakin həmin digər Razılığa gələn Dövlətdə xüsusi güzəşt qanunu və ya iqtisadi in-kişafın stimullaşdırılması məqsədilə müəyyən edilmiş tədbirlərə əsasən ödənilməmiş və ya azaldılmış vergini də əhatə edir.

Maddə 25

Ayrı-seçkiliyə yol verilməməsi

1. Razılığa gələn Dövlətin milli şəxsləri Razılığa gələn digər Dövlətdə həmin digər Dövlətin milli şəxslərinin eyni şəraitdə, xüsusilə, rezidentliyə münasibətdə cəlb edildi-yi və ya cəlb edilə biləcəyi vergitutma və ya bununla bağlı olan öhdəliklərdən fərqli və ya daha ağır olan vergitutma və ya bununla bağlı olan öhdəliklərə cəlb edilməməlidir. Bu müddəa, 1-ci maddənin müddəalarından asılı olmayaraq, həmçinin Razılığa gələn Dövlətlərdən birinin və ya hər ikisinin rezidenti olmayan şəxslərə də tətbiq edilir.

2. Razılığa gələn Dövlətin müəssisəsinin Razılığa gələn digər Dövlətdə sahib olduğu daimi nümayəndəliyinin vergiyə cəlb edilməsi həmin digər Dövlətdə həmin digər Dövlətin eyni fəaliyyətlə məşğul olan müəssisələrinin vergiyə cəlb edilməsindən az əlveriş-li olmamalıdır. Bu müddəa, Razılığa gələn Dövlətin üzərinə onun, mülki status və ya ailə öhdəlikləri nəzərə alınmaqla öz rezidentlərinə verdiyi vergitutma məqsədləri üçün hər hansı şəxsi imtiyazların, güzəştlərin və çıxılmaların Razılığa gələn digər Dövlətin rezidentlərinə də verilməsi öhdəliyinin qoyulması kimi təfsir edilməməlidir.

3. 9-cu maddənin 1-ci bəndinin, 11-ci maddənin 7-ci bəndinin və ya 12-ci maddənin 6-cı bəndinin müddəalarının tətbiq edildiyi hallar istisna edilməklə, Razılığa gələn Dövlətin müəssisəsi tərəfindən Razılığa gələn digər Dövlətin rezidentinə ödənilən faizlər, royal-tilər və digər ödənişlər, bu cür müəssisənin vergiyə cəlb edilməli olan mənfəətinin mü-əyyən edilməsi məqsədilə, adı birinci çəkilən Dövlətin rezidentinə ödənildiyi halda tət-biq olunan eyni şərtlər əsasında çıxılmalıdır. Eynilə, Razılığa gələn Dövlətin müəssisə-sinin Razılığa gələn digər Dövlətin rezidentinə olan hər hansı bir borcu, həmin müəssi-sənin vergiyə cəlb edilməli olan kapitalının müəyyən edilməsi məqsədilə adı birinci çə-kilən Dövlətin rezidentinə olan borc kimi eyni şərtlər əsasında çıxılmalıdır.

4. Bu maddənin heç bir müddəası Razılığa gələn Dövlətin üzərinə onun iştirak edə bilə-cəyi hər hansı gömrük ittifaqı, iqtisadi birlik, sərbəst ticarət zonası və ya tamamilə və ya əsasən vergitutmaya, yaxud kapitalın hərəkətinə aid olan hər hansı regional və ya sub-regional razılaşma səbəbindən istənilən üçüncü Dövlətə və ya onun rezidentlərinə tət-biq olunan fayda, sistem, güzəşt və ya üstünlüklərin Razılığa gələn digər Dövlətin rezi-dentlərinə də tətbiq edilməsinə dair hüquqi öhdəliyin qoyulması kimi şərh edilməməli-dir.

5. Razılığa gələn Dövlətin, əmlakı tamamilə və ya qismən Razılığa gələn digər Dövlə-tin rezidentinə və ya rezidentlərinə məxsus olan və ya onların birbaşa və ya dolayı nəza-rəti altında olan müəssisəsi adı birinci çəkilən Dövlətdə həmin Dövlətin digər oxşar müəssisələrinin cəlb edildiyi və ya cəlb edilə biləcəyi vergitutma və ya bununla bağlı olan öhdəliklərdən fərqli və ya daha ağır olan vergitutma və ya bununla bağlı olan öhdə-liklərə cəlb edilə bilməz.

6. Bu maddənin müddəaları, 2-ci maddənin müddəalarından asılı olmayaraq, istənilən növlü və xarakterli vergilərə tətbiq edilir.

Maddə 26

Qarşılıqlı razılaşma proseduru

1. Əgər hər hansı şəxs Razılığa gələn Dövlətlərdən birinin və ya hər ikisinin hərəkətlə-rinin onun bu Sazişin müddəalarına uyğun olmayan tərzdə vergiyə cəlb edilməsinə gəti-rib çıxardığını və ya gətirib çıxara biləcəyini zənn edirsə, həmin şəxs, həmin Dövlətlə-rin daxili qanunvericiliklərində nəzərdə tutulmuş müdafiə vasitələrindən asılı olmaya-raq, bu işlə bağlı rezident olduğu Dövlətin və ya bu hal 25-ci maddənin 1-ci bəndinin əhatə dairəsinə aiddirsə, milli şəxsi olduğu Razılığa gələn Dövlətin səlahiyyətli orqan-larına müraciət edə bilər. Müraciət, bu Sazişin müddəalarına uyğun olmayan vergitut-maya gətirib çıxaran hərəkətlər haqqında ilk məlumat tarixindən etibarən 3 il ərzində təqdim edilməlidir.

2. Əgər, səlahiyyətli orqan etirazı əsaslandırılmış hesab edərək, eyni zamanda, qənaət-bəxş qərara gələ bilmirsə, bu Sazişin müddəalarına uyğun olmayan vergitutmanın qarşı-sının alınması məqsədilə məsələni Razılığa gələn digər Dövlətin səlahiyyətli orqanı ilə qarşılıqlı razılıq yolu ilə həll etməyə səy göstərir. Əldə edilmiş hər hansı bir razılıq, Ra-zılığa gələn Dövlətin daxili qanunvericiliyində nəzərdə tutulmuş hər hansı zaman məh-dudiyyətlərindən asılı olmayaraq həyata keçirilməlidir.

3. Razılığa gələn Dövlətlərin səlahiyyətli orqanları bu Sazişin təfsiri və ya tətbiqi ilə bağlı meydana çıxan bütün çətinlikləri və ya şübhələri qarşılıqlı razılıq yolu ilə həll et-məyə səy göstərməlidirlər. Onlar, həmçinin bu Sazişdə nəzərdə tutulmamış hallarda ikiqat vergitutmanın aradan qaldırması üçün bir-biri ilə məsləhətləşmələr apara bilərlər.

4. Razılığa gələn Dövlətlərin səlahiyyətli orqanları, əvvəlki bəndlərin anlaşılmasında razılığın əldə edilməsi məqsədilə bir-biri ilə birbaşa əlaqələr yarada bilərlər.

Maddə 27

İnformasiya mübadiləsi

1. Razılığa gələn Dövlətlərin səlahiyyətli orqanları bu Sazişin və ya Razılığa gələn

Dövlətlərin Razılığa gələn Dövlətlər və ya onların inzibati-ərazi bölmələri və ya yerli hakimiyyət orqanları tərəfindən tutulan istənilən növlü və xarakterli vergilərlə bağlı daxili qanunvericiliklərinin müddəalarının yerinə yetirilməsi üçün zəruri olan informasiya mübadiləsi həyata keçirirlər, bir şərtlə ki, həmin qanunvericilikdə nəzərdə tutulmuş vergitutma bu Sazişə zidd olmasın. İnformasiya mübadiləsi 1-ci və 2-ci maddələrlə məşdudlaşmır. Razılığa gələn Dövlət tərəfindən əldə edilmiş hər hansı informasiya, həmin Dövlətin daxili qanunvericiliyi əsasında əldə edilmiş informasiyaya tətbiq edilən eyni qayda əsasında sirr hesab edilir və yalnız birinci cümlədə göstərilən vergilərin hesablanması və ya toplanması, məcburi alınması və ya prosessual qaydada təqib edilməsi, yaxud həmin vergilərlə bağlı şikayətlərə baxılması ilə məşğul olan şəxslərə və ya orqanlara (o cümlədən, məhkəmələrə və inzibati orqanlara) açıqlanır. Bu şəxslər və ya orqanlar həmin informasiyadan yalnız bu cür məqsədlər üçün istifadə edirlər. Onlar bu informasiyanı açıq məhkəmə istintaqı və ya məhkəmə qərarlarında açıqlaya bilərlər.

2. Heç bir halda, 1-ci bəndin müddəaları Razılığa gələn Dövlətlərin üzərinə aşağıdakı öhdəliklərin qoyulması kimi şərh edilməməlidir:

(a) bu və ya digər Razılığa gələn Dövlətin qanunvericiliyinə və inzibati təcrübəsində nəzərdə tutulmuş tədbirlərdən fərqli olan inzibati tədbirlər həyata keçirmək;

(b) bu və ya digər Razılığa gələn Dövlətin qanunvericiliyi və ya adi inzibatçılığı əsasında əldə edilməsi mümkün olmayan informasiya vermək;

(c) hər hansı ticarət, sahibkarlıq, sənaye, kommersiya və ya peşə sirrini, yaxud ticarət prosesini açа biləcək informasiya və ya açılması dövlət siyasətinə (ordre public) zidd olan informasiya vermək.

Maddə 28

Müxtəlif qaydalar

1. Bu Sazişin müddəaları aşağıdakılara müvafiq olaraq verilmiş hər hansı istisna, azadolma, güzəşt, çıxılma və ya digər üstünlüklərin hər hansı yolla məhdudlaşdırılması kimi şərh edilməməlidir:

(a) Razılığa gələn Dövlət tərəfindən tutulan vergilərin müəyyənləşdirilməsi ilə bağlı həmin Razılığa gələn Dövlətin qanunlarına; və ya

(b) Razılığa gələn Dövlətlər arasında iqtisadi və ya texniki əməkdaşlıqla bağlı vergitutmaya dair hər hansı digər xüsusi müqaviləyə.

2. Razılığa gələn Dövlətlərin səlahiyyətli orqanları bu Sazişin müddəalarının yerinə yetirilməsi məqsədilə qaydalar hazırlaya bilər.

Maddə 29

Diplomatik nümayəndəliklərin və konsulluq idarələrinin üzvləri

Bu Sazişin heç bir müddəası diplomatik nümayəndəliklərin və ya konsulluq idarələrinin üzvlərinin beynəlxalq hüququn ümumi qaydalarına və ya xüsusi müqavilələrin müddəalarına əsasən müəyyən edilmiş vergi imtiyazlarına toxunmur.

Maddə 30

Qüvvəyə minmə

1. Razılığa gələn Dövlətlərin hər biri digərinə özünün bu Sazişin qüvvəyə minməsi üçün tələb olunan dövlətdaxili prosedurlarının yerinə yetirməsi barədə bildiriş təqdim edir. Bu Saziş həmin bildirişlərdən sonuncusunun tarixdən qüvvəyə minir və bundan sonra onun müddəaları hər iki Razılığa gələn Dövlətdə tətbiq edilir:

(a) mənbədə tutulan vergilərə münasibətdə - bu Sazişin qüvvəyə mindiyi ildən sonrakı ilin 01 yanvar tarixində və ya ondan sonra ödənilən və ya kreditləşən məbləğlərə;

(b) digər vergilərə münasibətdə - bu Sazişin qüvvəyə mindiyi ildən sonrakı ilin 01 yanvar tarixindən başlanan hər hansı vergitutma dövrü üzrə tutulan vergi məbləğlərinə.

Maddə 31

Qüvvədə olma müddəti və qüvvədən düşmə

Bu Saziş beş il müddətinə qüvvədə olacaqdır və bundan sonra Razılığa gələn Dövlətlərdən hər hansı biri digərinə ilkin və ya hər hansı sonrakı müddətin sonuna ən azı altı ay qalmış onun qüvvəsinə xitam vermək istəyi haqqında yazılı bildiriş təqdim etmədikdə, eyni müddət(lər) ərzində qüvvədə qalmaqda davam edəcəkdir. Bu halda Sazişin qüvvəsi ləğv edilir:

(a) mənbədə tutulan vergilərə münasibətdə - Sazişin qüvvədən düşməsi haqqında bildirişin verildiyi ildən sonrakı ilin 01 yanvar tarixində və ya ondan sonra ödənilən və ya kreditləşən məbləğlərə;

(b) digər vergilərə münasibətdə - Sazişin qüvvədən düşməsi haqqında bildirişin verildiyi ildən sonrakı ilin 01 yanvar tarixindən başlanan hər hansı dövr üzrə tutulan vergi məbləğlərinə.

Bunun təsdiqi olaraq, Razılığa gələn Dövlətlərin müvafiq qaydada səlahiyyətləndirilmiş şəxsləri bu Sazişi imzaladılar.

Əl-Küveyt şəhərində 10 fevral 2009-cu il tarixinə müvafiq olan Hicri təqviminin 15 səfər 1430 tarixində iki əsl nüsxədə hər biri Azərbaycan, ərəb və ingilis dillərində imzalanmışdır, bütün mətnlər bərabər autentikdir. Təfsir zamanı fikir ayrılığı yarandığı təqdirdə ingilis dilində olan mətnə üstünlük veriləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	KÜVEYT DÖVLƏTİ HÖKUMƏTİ ADINDAN
FAZİL MƏMMƏDOV	*MUSTAFA CASİM ƏL ŞİMALİ*
Vergilər naziri	*Maliyyə naziri*

Azərbaycan Respublikası Hökuməti və Küveyt Dövləti Hökuməti arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında Sazişin Protokolu

Azərbaycan Respublikası Hökuməti və Küveyt Dövləti Hökuməti arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında Saziş imzalanan zaman, aşağıda imza edənlər Sazişin tərkib hissəsi hesab edilən aşağıdakı müddəalar barədə razılığa gəldilər:

1. 5-ci Maddənin 5-ci bəndinə əlavə

Müəssisə üçün öhdəlik yaratmaqla, müqavilənin bütün elementlərini və təfsilatlarını razılaşdırmaq səlahiyyətləri olan şəxs, hətta müqavilə digər şəxs tərəfindən müəssisənin yerləşdiyi Razılığa gələn digər Dövlətdə imzalansa belə, Razılığa gələn Dövlətdə öz səlahiyyətlərindən istifadə edən hesab edilə bilər.

2. 12-ci maddənin 3-cü bəndinə əlavə

Bununla belə, sənaye, kommersiya və ya elmi avadanlığın istifadəsi və ya istifadə hüququnun verilməsi müqabilində alınan istənilən növ ödənişlər müəssisənin bu maddənin tətbiq edildiyi mənfəəti hesab edilir.

Bunun təsdiqi olaraq, Razılığa gələn Dövlətlərin müvafiq qaydada səlahiyyət verilmiş səlahiyyətli şəxsləri bu Protokolu imzaladılar.

Əl-Küveyt şəhərində 10 fevral 2009-cu il tarixinə müvafiq olan Hicri təqviminin 15 səfər 1430 tarixində iki əsl nüsxədə hər biri Azərbaycan, ərəb və ingilis dillərində imzalanmışdır, bütün mətnlər bərabər autentikdir. Təfsir zamanı fikir ayrılığı yarandığı təqdirdə ingilis dilində olan mətnə üstünlük veriləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	KÜVEYT DÖVLƏTİ HÖKUMƏTİ ADINDAN
FAZİL MƏMMƏDOV	*MUSTAFA CASİM ƏL-ŞİMALİ*
Vergilər naziri	*Maliyyə naziri*

"Azərbaycan Respublikası Hökuməti və Küveyt Dövləti Hökuməti arasında sərmayələrin təşviqi və qarşılıqlı qorunması haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. "Azərbaycan Respublikası Hökuməti və Küveyt Dövləti Hökuməti arasında sərmayələrin təşviqi və qarşılıqlı qorunması haqqında" 2009-cu il fevralın 10-da Əl-Küveyt şəhərində imzalanmış Saziş təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 28 aprel 2009-cu il

№ 796-IIIQ

Azərbaycan Respublikası Hökuməti və Küveyt Dövləti Hökuməti arasında sərmayələrin təşviqi və qarşılıqlı qorunması haqqında Saziş

Bundan sonra "Razılığa gələn Tərəflər" adlandırılan, Azərbaycan Respublikası Hökuməti və Küveyt Dövləti Hökuməti;

Öz aralarında iqtisadi əməkdaşlığın inkişaf etdirilməsi və xüsusilə bir Razılığa gələn Tərəfin sərmayəçilərinin digər Razılığa gələn Tərəfin ərazisində sərmayələri üçün əlverişli şəraitin yaradılması niyyətində olaraq;

Sərmayələrin təşviqi və qarşılıqlı qorunmasının işgüzar təşəbbüsün stimullaşması və hər iki Razılığa gələn Tərəfdə rifahın yüksəlməsi ilə nəticələnəcəyini etiraf edərək,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Anlayışlar

Bu Sazişin məqsədləri üçün:

1. "Sərmayə" termini bir Razılığa gələn Tərəfin ərazisində digər Razılığa gələn Tərəfin sərmayəçisi tərəfindən, sonuncu Razılığa gələn Tərəfin qanun və qaydalarına müvafiq olaraq əldə edilən və ya nəzarət edilən əmlakın hər növü deməkdir və aşağıdakı formada əmlak və ya hüququ özündə ehtiva edir:

a. şirkət, və ya paylar, səhmlər və pay iştirakının digər formaları, eləcə də istiqrazlar və şirkətdə borc maraqlarının digər formaları, habelə Razılığa gələn Tərəfin istənilən sərmayəçisi tərəfindən verilən borclar və kreditlər, qiymətli kağızlar;

b. pul vəsaiti, pul tələbi, və ya kontrakt üzrə iqtisadi dəyərə malik fəaliyyət və ya əmlakla bağlı tələblər;

c. əqli mülkiyyət hüquqları, o cümlədən, lakin bununla məhdudlaşmayaraq, müəlliflik hüququ, ticarət nişanı, patentlər, sənaye nümunələri, texniki proseslər, "nou-hau", ticarət sirləri, firma adları və işgüzar nüfuz;

d. qanunla, müqaviləyə əsasən və ya qanunvericiliyə müvafiq olaraq lisenziya və icazələrlə verilən hüquqlar, o cümlədən təbii ehtiyatların kəşfiyyatı, hasilatı, işlənilməsi və istismar edilməsi, eləcə də iqtisadi və ya kommersiya fəaliyyətinin həyata keçirilməsi və ya xidmətlərin göstərilməsi üzrə hüquqlar;

e. hər hansı maddi və qeyri-maddi, daşınar və daşınmaz əmlak, və icarə, ipoteka, əmlaka həbs qoyulması, girov, uzufrukt kimi istənilən əmlak hüquqları;

"Sərmayə" termini eyni zamanda anlayışları aşağıda qeyd edilmiş, yenidən sərmayə kimi qoyulmaq məqsədilə saxlanılan "gəlirlərə" və "ləğvetmədən" əldə edilən gəlirlərə tətbiq ediləcəkdir.

Əmlakın sərmayə kimi qoyuluşu və ya yenidən qoyuluşu formasında hər hansı dəyişiklik onun sərmayə kimi xarakterinə təsir etməyəcəkdir.

2. "Sərmayəçi" termini

a) "Fiziki şəxs"

1) Azərbaycan Respublikasına münasibətdə: Azərbaycan Respublikasının qanunlarına müvafiq olaraq onun vətəndaşlığına malik olan və ya onun ərazisində daimi yaşayan istənilən şəxs;

2) Küveyt Dövlətinə münasibətdə: Küveyt Dövlətinin tətbiq edilən qanunlara müvafiq olaraq Küveyt Dövlətinin vətəndaşlığına malik olan şəxs.

b) Razılığa gələn Tərəf;

c) İnstitutlar, inkişaf fondları, agentliklər kimi həmin Razılığa gələn Tərəfin qanun və qaydalarına müvafiq olaraq təsis olunmuş və ya yaradılmış istənilən hüquqi şəxs, və qanuni əsaslarla təsis edilmiş digər qurumlar və şirkətlər.

3. "Şirkət" termini gəlir əldə etmək və ya etməmək məqsədilə, tətbiq edilən qanunlara müvafiq olaraq təsis edilmiş istənilən mülkiyyət formasında olan hər hansı qurum, o cümlədən istənilən müəssisə, korporasiya, birgə müəssisə və ya digər birlik və belə qurumun filialı deməkdir.

4. "Gəlir" termini sərmayədən əldə edilən məbləğlər deməkdir və xüsusilə, lakin bununla məhdudlaşmayaraq, mənfəət, dividentlər, faiz, royaltilər, kapital artımı və sərmayə ilə bağlı bu kimi istənilən ödəmələri daxil edir.

5. "Ləğvetmə" sərmayənin tam və ya qismən ötürülməsi məqsədilə təhvil verməsinin istənilən formasıdır.

6. "Ərazi" termini aşağıdakıları ifadə edir:

a) Azərbaycan Respublikasına münasibətdə: Xəzər dənizinin müvafiq sektoru da daxil olmaqla, üzərində Azərbaycan Respublikasının milli qanunlarına və beynəlxalq hüquqa uyğun olaraq suveren hüquqlarını və yurisdiksiyasını həyata keçirdiyi Azərbaycan Respublikasının ərazisi.

b) Küveyt Dövlətinə münasibətdə: Küveyt Dövlətinin ərazisi, o cümlədən ərazi sularından kənarda beynəlxalq hüquqa uyğun olaraq Küveyt Dövlətinin qanunlarına əsasən Küveyt Dövlətinin suveren hüquq və ya yurisdiksiyasını tətbiq edilə biləcəyi ərazi kimi müəyyən edilmiş və ya müəyyən edilə bilən istənilən ərazi.

7. "Sərbəst dönərli valyuta" termini Beynəlxalq Valyuta Fondu tərəfindən vaxtaşırı Beynəlxalq Valyuta Fondunun Nizamnaməsinin maddələrinə və ona edilən hər hansı düzəlişlərə əsasən sərbəst dönərli valyuta kimi müəyyən edilən hər hansı valyuta deməkdir.

8. "Gecikdirilmədən" termini ödəmələrin köçürülməsi ilə əlaqədar zəruri tədbirlərin başa çatdırılması üçün normal olaraq tələb olunan müddət deməkdir. Qeyd edilən müddət köçürmənin həyata keçirilməsi tələbinin daxil olduğu gündə başlayacaqdır və qəti surətdə bir aydan çox olmayaraq davam edəcəkdir.

9. "Qəbul edən Razılığa gələn Tərəf" ərazisində sərmayə qoyulmuş ölkə deməkdir.

Maddə 2

Sərmayələrin qəbul edilməsi və təşviqi

1. Hər bir Razılığa gələn Tərəf digər Razılığa gələn Tərəfin sərmayəçilərinin sərmayələrini öz ərazisində və müvafiq qanun və qaydalarına uyğun olaraq qəbul və təşviq edəcəkdir.

2. Hər bir Razılığa gələn Tərəf öz ərazisində qəbul edilmiş sərmayələrə münasibətdə öz qanun və qaydaları ilə müəyyən edilmiş dərəcədə və şərtlərlə bütün zəruri icazələr, razılıqlar, təsdiqləmələr və lisenziyaların verilməsini təmin edəcəkdir.

3. Razılığa gələn Tərəflər öz ərazilərində sərmayə qoyuluşlarının təşviq edilməsi və asanlaşdırılması məqsədilə düzgün hesab etdikləri tərzdə bir-biri ilə məsləhətləşə bilərlər.

4. Hər bir Razılığa gələn Tərəf fiziki şəxslərin daxil olması, qalması və işləməsi ilə bağlı öz qanun və qaydalarına müvafiq olaraq, öz ərazisində sərmayə qoyuluşu ilə əlaqədar işə cəlb edilmiş aparıcı iş personalının, o cümlədən yüksək rəhbər və texniki işçilərin onun ərazisinə daxil olmaq, müvəqqəti olaraq qalmaq və işləmək haqqında müraciətlərinə, onların milliyyəti və vətəndaşlığından asılı olmayaraq, ədalətlə müvafiq qaydada baxacaqdır. Bu aparıcı işçi personalının birbaşa ailə üzvlərinə münasibətdə, onların qəbul edən Razılığa gələn Tərəfin ərazisinə daxil olması və müvəqqəti olaraq qalması ilə əlaqədar, eyni rejim tətbiq ediləcəkdir.

5. Razılığa gələn Tərəflərdən heç biri digər Razılığa gələn Tərəfin sərmayəçilərinin sərmayələrinə münasibətdə materialların, istehsal vasitələrinin alınması, əməliyyatlar, daşıma, məhsulların marketinqi ilə əlaqədar olaraq məcburi tədbirlər və ya əsassız və ayrı-seçkilik yaradan digər oxşar qaydalar tətbiq etməyəcəkdir.

Maddə 3

Sərmayələrin qorunması

1. Razılığa gələn Tərəflərdən hər hansı birinin sərmayəçilərinin sərmayələrinə və gəlirlərinə münasibətdə digər Razılığa gələn Tərəfin ərazisində beynəlxalq hüququn ümumtanınmış prinsipləri və bu Sazişin müddəaları çərçivəsində ədalətli və bərabər rejim tətbiq ediləcəkdir və onların qorunması və təhlükəsizliyi tam təmin ediləcəkdir. Razılığa gələn Tərəflərdən heç biri heç bir halda güc və ya ayrı-seçkiliyə əsaslanan tədbirlərlə sərmayələrin istifadəsi, idarə edilməsi, əməliyyatların aparılması, genişləndirilməsi və ya satışı və/və ya digər qaydada qoyuluşuna maneə törətməyəcəkdir.

2. Hər bir Razılığa gələn Tərəf bu Sazişin müddəalarını həyata keçirilməsinə və ya öz ərazisində digər Razılığa gələn Tərəfin sərmayəçilərinin sərmayələrinə ilə əlaqədar olan və ya onlara təsir edə biləcək qanunlarını, qaydalarını, prosedurlarını, direktivlərini, inzibati qaydalarını, məhkəmə qərarlarını, habelə beynəlxalq müqavilələrini dərhal nəşr edəcək və ya digər yolla ictimaiyyətə çatdıracaqdır.

3. Hər bir Razılığa gələn Tərəf investisiyalarla bağlı müraciətlərə baxılması və hüquqların həyata keçirilməsinin effektiv vasitələrini təmin edəcəkdir. Hər bir Razılığa gələn Tərəf digər Razılığa gələn Tərəfin sərmayəçiləri üçün öz məhkəmələrinə, inzibati tribunallara və təşkilatlara və digər məhkəmə hakimiyyəti orqanlarına müraciət etmək,

eləcə də tətbiq edilən qanun və qaydalara müvafiq olaraq sərmayələrlə ilə bağlı iddialar irəli sürülməsini və hüquqların müdafiəsini həyata keçirən şəxsləri təyin etmək hüququnu təmin edəcəkdir.

4. Razılığa gələn Tərəflərdən heç biri digər Razılığa gələn Tərəfin sərmayəçilərinin sərmayələrinin qoyulması, əldə edilməsi, genişləndirilməsi, istifadəsi, idarə edilməsi, həyata keçirilməsi və ya fəaliyyəti üçün şərt kimi materialların, enerjinin, yanacağın və ya istehsal vasitələrinin alqısını, daşınmasını və ya hər hansı formada işlənilməsini tələb edə və ya məhdudlaşdıra bilən, yaxud onun ərazisində və ya ərazisindən kənarda məhsulların marketinqini məhdudlaşdıra bilən məcburi tədbirlərin həyata keçirilməsini, və ya öz sərmayəçiləri yaxud üçüncü dövlətin sərmayəçilərinin sərmayələrinə üstünlük verməklə digər Razılığa gələn Tərəfin sərmayəçilərinin sərmayələrinə münasibətdə ayrı-seçkilik təsirinə malik hər hansı digər tədbirlərin həyata keçirilməsini şərt kimi müəyyən edə bilməz.

Bundan başqa, qəbul edən Razılığa gələn Tərəfin ərazisinə sərmayələr onların fəaliyyətinə zərər vura biləcək və ya onların istifadə olunmasına, idarə edilməsinə, əməliyyatların aparılmasına, genişləndirilməsinə, satışına və ya digər qaydada işlədilməsinə mane olacaq tələblərlə məruz qalmayacaqlar.

5. Razılığa gələn Tərəflərdən hər hansı birinin sərmayəçilərinin sərmayələri qəbul edən Razılığa gələn Tərəfdə sekvestr, müsadirə və ya hər hansı digər oxşar tədbirlərə, bu tədbirlərin müvafiq hüquqi prosedur, beynəlxalq hüququn qəbul edilmiş normaları və bu Sazişin əlaqədar müddəaları çərçivəsində həyata keçirilməsi halları istisna olmaqla, məruz qalmayacaqlar.

6. Hər bir Razılığa gələn Tərəf öz ərazisində digər Razılığa gələn Tərəfin sərmayəçilərinin sərmayələri ilə əlaqədar üzərinə götürə biləcəyi hər hansı öhdəliyi yerinə yetirəcəkdir.

Maddə 4

Sərmayələrin rejimi

1. Hər bir Razılığa gələn Tərəf öz ərazisində digər Razılığa gələn Tərəfin sərmayəçilərinin sərmayələrinin istifadəsi, idarə edilməsi, həyata keçirilməsi, fəaliyyəti, genişləndirilməsi və satışı və ya digər qaydada işlədilməsi ilə əlaqədar, oxşar hallarda özünün və ya hər hansı üçüncü dövlətin sərmayəçilərinin sərmayələrinə münasibətdə tətbiq etdiyi rejimdən (sərmayəçi üçün hansı daha əlverişlidirsə) az əlverişli olmayan rejimi tətbiq edəcəkdir.

2. Bununla belə, bu Maddənin müddəaları bir Razılığa gələn Tərəfin aşağıdakılardan irəli gələn hər hansı rejimin üstünlüyünü, imtiyazı və ya güzəşti digər Razılığa gələn Tərəfin sərmayəçilərinə tətbiq etmək öhdəliyində olması kimi şərh edilməyəcəkdir.

a) Razılığa gələn Tərəflərdən hər hansı birinin qoşulduğu və ya qoşula biləcəyi hər hansı gömrük ittifaqı, iqtisadi birlik, sərbəst ticarət zonası, valyuta birliyi və ya regional iqtisadi razılaşmanın digər forması və ya digər oxşar beynəlxalq müqavilə,

b) tam və ya əsasən vergitutmaya aid olan hər hansı beynəlxalq, regional və ya ikitərəfli saziş yaxud digər oxşar razılaşma və ya daxili qanunvericilik,

c) Razılığa gələn Tərəflərdən hər hansı birinin qoşulduğu və ya qoşula biləcəyi sərmayələrlə bağlı hər hansı çoxtərəfli konvensiya və ya müqavilə.

Maddə 5

Zərərin kompensasiya edilməsi

1. 6-cı Maddənin tətbiq edildiyi hallar istisna olmaqla, Razılığa gələn Tərəflərdən hər hansı birinin sərmayəçilərinin sərmayələri digər Razılığa gələn Tərəfin ərazisində baş verən müharibə və ya digər silahlı münaqişə, milli fövqəladə vəziyyət, üsyan, mülki ixtişaş, qiyam, qeyri-sabitlik, təbii fəlakət və ya digər oxşar hadisələr nəticəsində zərər çəkərsə, həmin sərmayəçilərə münasibətdə sonuncu Razılığa gələn Tərəf restitusiya, əvəzin ödənilməsi, kompensasiya və ya hər hansı başqa ödənişlərə münasibətdə, öz sərmayəçilərinə və ya hər hansı üçüncü dövlətin sərmayəçilərinə münasibətdə tətbiq etdiyi rejimdən (bunlardan hansı daha əlverişlidirsə) az əlverişli olmayan rejim tətbiq edəcəkdir.

2. Bu Maddənin 1-ci bəndi nəzərə alınmaqla, bir Razılığa gələn Tərəfin həmin bənddə göstərilən hər hansı bir vəziyyətdə digər Razılığa gələn Tərəfin ərazisində aşağıda göstərilən səbəblərdən zərər çəkən sərmayəçiləri hər bir halda sürətli, adekvat və səmərəli restitusiya və kompensasiyalar əldə edəcəklər:

a) sonuncunun silahlı qüvvələri və ya hakimiyyət orqanları tərəfindən onun sərmayələrinin tam və ya qismən rekvizisiyası,

b) sonuncunun silahlı qüvvələri və ya hakimiyyət orqanları tərəfindən onların sərmayələrinin tam və ya qismən, hərbi əməliyyat olmadan və ya yaranmış vəziyyətdə zərurət olmadan məhv edilməsi.

Maddə 6

Ekspropriasiya

1. a) Bir Razılığa gələn Tərəfin sərmayəçilərinin digər Razılığa gələn Tərəfin ərazisindəki sərmayələri digər Razılığa gələn Tərəfdən, həmin Razılığa gələn Tərəfin daxili tələbatları ilə əlaqədar ictimai məqsədlər üçün və dərhal adekvat və effektiv kompensasiyanın ödənilməsi təmin edilməklə, ayrı-seçkilik olmadan və ümumi tətbiq xarakterli hüquqi prosedura uyğun olan hallar istisna olmaqla, milliləşdirilməyəcək, ekspropriasiya edilməyəcək və ya müsadirə edilməyəcəkdir, yaxud milliləşdirilməyə, ekspropriasiyaya və ya müsadirəyə bərabər nəticə verən hər hansı birbaşa və ya dolayısı tədbirlərə (bundan sonra "ekspropriasiya" adlanır) məruz qalmayacaqdır.

b) Bu cür kompensasiya ekspropriasiya edilmiş sərmayənin faktiki dəyərinə bərabər olacaqdır, və ekspropriasiyanın həyata keçirildiyi və ya ekspropriasiyanın gözlənildiyi ictimaiyyətə məlum olduğu andan (hansı daha tez baş verərsə) bilavasitə əvvəl (bundan sonra "qiymətləndirmə tarixi" adlanır) ekspropriasiya edilmiş sərmayənin ədalətli bazar dəyəri əsasında qiymətləndirmənin beynəlxalq səviyyədə tanınmış prinsiplərinə uyğun olaraq müəyyən ediləcək və hesablanacaqdır. Bu cür kompensasiya sərmayəçi tərəfindən seçiləcək sərbəst dönərli valyutada, həmin valyuta üçün qiymətləndirmə tarixində üstünlük təşkil edən bazar məzənnəsi əsa-

sında hesablanacaqdır və ekspropriasiya tarixindən ödəniş tarixinə qədər bazarla müəyyənləşən kommersiya dərəcəsi üzrə faizi daxil edəcəkdir və bu dərəcə heç bir halda üstünlük təşkil edən LİBOR faiz dərəcəsindən və ya onun ekvivalentdən az olmayacaqdır.

c) Ədalətli bazar dəyəri müəyyən edilə bilmədiyi halda kompensasiya, yatırılmış kapital, sərmayənin xarakteri və müddəti, bərpa dəyəri, qiymət artımı, cari gəlirlər, diskontlaşdırılmış pul axını dəyəri, qalıq dəyəri və işgüzar nüfuz kimi əlaqədar amillər və hallar nəzərə alınmaqla ədalətli prinsiplər əsasında müəyyənləşdiriləcəkdir.

2. 1-ci bənddə göstərilən prinsiplər və sərmayəçinin bu Sazişin 9-cu Maddəsində göstərilən hüquqları nəzərə alınmaqla, zərər çəkmiş sərmayəçinin, onun işinə, o cümlədən onun sərmayəsinin qiymətləndirilməsinə və bununla əlaqədar kompensasiyanın ödənilməsinə ekspropriasiyanı həyata keçirən Razılığa gələn Tərəfin məhkəmə və ya digər səlahiyyətli və müstəqil qurumu tərəfindən tez bir zamanda baxılması hüququna malik olacaqdır.

3. Daha da dəqiqlik məqsədi ilə ekspropriasiya deyildikdə Razılığa gələn Tərəflə, onun öz ərazisində qüvvədə olan qanunvericiliyə müvafiq olaraq təsis edilmiş və ya yaradılmış, digər Razılığa gələn Tərəfin sərmayəçisinin səhmlərə, istiqrazlara və ya digər hüquq və ya maraqlara sahiblik vasitəsilə sərmayəsi olan şirkət və ya müəssisənin aktivlərinin ekspropriasiya edilməsi halları nəzərdə tutulur.

4. Bu Sazişin məqsədləri üçün "ekspropriasiya" terminino həmçinin Razılığa gələn Tərəflə faktiki olaraq müsadirə və ya ekspropriasiya nəticəsini verən müdaxilələr və ya nəzarət tədbirləri daxildir, və bu tədbirlərin həyata keçirilməsi nəticəsində sərmayəçi "de facto" olaraq mülkiyyətindən, sərmayə qoyuluşundan mənfəətin əldə edilməsindən və ya nəzarətdən məhrum olur, yaxud sərmayənin dondurulması, sərmayə üzrə əlavə vergilərin tutulması, sərmayənin tam və ya qismən məcburi satılması, və ya digər oxşar tədbirlər vasitəsilə sərmayənin iqtisadi dəyərinə ziyan dəymiş olur.

5. Bu Maddədə göstərilən prinsiplər və şərtlərə müvafiq olaraq kompensasiya tələbi həmçinin Razılığa gələn Tərəf, digər Razılığa gələn Tərəfin sərmayəçisinin sərmayəsi mövcud olan hər hansı şirkətdə sərmayəyə əhəmiyyətli ziyan vuran hərəkət həyata keçirdiyi halda mövcud hesab edilir.

Maddə 7

Sərmayələrlə bağlı ödəmələrin köçürülməsi

1. Hər bir Razılığa gələn Tərəf digər Razılığa gələn Tərəfin sərmayəçilərinə sərmayələrlə bağlı ödəmələrin öz ərazisinə və ərazisindən sərbəst köçürülməsinə zəmanət verir, o cümlədən:

a) ilkin kapital və sərmayələrin saxlanması, idarə edilməsi və ya artırılması üçün istənilən əlavə kapitalın;

b) gəlirlərin;

c) kontraktlar üzrə ödəmələrin, o cümlədən kredit müqavilələrinə müvafiq olaraq əsas məbləğlərin və toplanılmış faizlərin;

d) 1-ci Maddənin birinci bəndinin (c) altbəndində göstərilən hüquqlar üzrə royaltilər və başqa məbləğlərin;

e) sərmayələrin tam və ya qismən satışından və ya ləğvindən əldə edilmiş vəsaitlər;

f) sərmayə qoyuluşu ilə bağlı xaricdən cəlb edilmiş personalın əmək haqları və mükafatların;

g) bu maddənin 5 və 6-cı maddələrinə uyğun olaraq kompensasiyanın;

h) 8-ci maddədə göstərilən ödəmələrin və

i) mübahisələrin həllindən irəli gələn ödəmələrin.

2. Birinci bənddə göstərilən köçürmələr gecikdirmə və məhdudiyyət olmadan, və natura formasında ödənişlər olan hallar istisna olmaqla, sərbəst dönərli valyutada həyata keçirilir. Tələb edilən köçürmənin gecikdirilməsi təqdirdə zərər çəkmiş sərmayəçi gecikdirmə müddətinə görə faiz almaq hüququna malikdir.

3. Köçürmələr, köçürmə günü köçürüləcək valyutanın qəbul edən Razılığa gələn Tərəfin ərazisində üstünlük təşkil edən spot bazar məzənnəsi ilə həyata keçiriləcəkdir. Xarici valyuta bazarının mövcud olmadığı təqdirdə istifadə ediləcək məzənnə daxili sərmayələrə tətbiq edilən ən son məzənnə, və ya Beynəlxalq Valyuta Fondunun qaydalarına müvafiq olaraq müəyyən edilən məzənnə, və ya valyutaların SDR-ə çevrilməsi üçün məzənnə (bunlardan hansı sərmayəçi üçün daha əlverişlidir) olacaqdır.

Maddə 8

Subroqasiya

1. Əgər Razılığa gələn Tərəf və ya onun təyin etdiyi təşkilat ("Kompensasiya ödəyən Tərəf") digər Razılığa gələn Tərəfin ərazisində sərmayə qoyuluşu ilə bağlı zəmanət əsasında ödəniş həyata keçirərsə, qəbul edən Razılığa gələn Tərəf:

a) Belə sərmayə qoyuluşundan irəli gələn hüquq və iddiaların qanuna və ya hüquqi sövdələşməyə uyğun olaraq Kompensasiya ödəyən Tərəfə keçməsini,

b) Kompensasiya Ödəyən Tərəfin subroqasiya əsasında belə hüquqlardan istifadə etmək və tələbləri irəli sürmək və sərmayə ilə əlaqədar olan bütün öhdəlikləri üzərinə götürmək hüququnda olmasını

tanıyacaqdır.

2. Kompensasiya ödəyən Tərəfə aşağıdakılarla əlaqədar, sərmayəçiyə onun sərmayəsinə görə bütün hallarda bu Sazişlə tətbiq edilən eyni rejim tətbiq ediləcəkdir:

a) 1-ci bənddə qeyd edilən hüquq və iddiaların ötürülməsi əsasında əldə edilən hüquq və iddialar və götürülən öhdəliklər;

b) həmin hüquq və iddialarla əlaqədar qəbul edilmiş hər hansı ödəmələr.

Maddə 9

Razılığa gələn Tərəf ilə sərmayəçi arasında mübahisələrin həlli

1. Bir Razılığa gələn Tərəfin sərmayəçisi ilə digər Razılığa gələn Tərəf arasında sonuncu Razılığa gələn Tərəfin ərazisində sərmayə ilə bağlı hər hansı bir mübahisə mümkün

qədər dostcasına həll ediləcəkdir.

2. Əgər mübahisə, onun dostcasına həll edilməsi haqqında müraciətin daxil olması tarixindən altı ay ərzində dostcasına həll edilməzsə, sərmayəçi mübahisəni ərazisində sərmayə qoyulmuş Razılığa gələn Tərəfin səlahiyyətli məhkəməsinə və ya beynəlxalq arbitraja verə bilər. Sərmayəçinin mübahisəni aşağıdakılara vermək hüququ olacaqdır:

a) 1965-ci il 18 mart tarixində Vaşinqtonda imzalanma üçün açıq elan edilmiş Dövlətlər və digər Dövlətlərin vətəndaşları arasında sərmayə mübahisələrinin həlli üzrə Konvensiyaya müvafiq olaraq təsis edilmiş Sərmayə Mübahisələrinin Həll Edilməsi üzrə Beynəlxalq Mərkəzə (bundan sonra "Mərkəz" adlandırılır), əgər Mərkəzə müraciət etmək mümkündürsə, və ya

b) Razılığa gələn Tərəflərdən yalnız birinin bu Maddənin (a) altbəndində göstərilən Konvensiyaya qoşulduğu halda Mərkəzin Əlavə Qurumuna, və ya

c) Mübahisə tərəfləri arasında digər razılaşmanın olmadığı təqdirdə Birləşmiş Millətlər Təşkilatının Beynəlxalq Ticarət Hüququ üzrə Komissiyasının ("UNCITRAL") Arbitraj Qaydalarına müvafiq olaraq təsis ediləcək "ad hoc" arbitraj məhkəməsinə.

d) Mübahisə tərəfləri arasında qarşılıqlı olaraq razılaşdırılmış hər hansı arbitraj müəssisəsinin arbitraj qaydalarına müvafiq olaraq yaradılan arbitraj məhkəməsinə

Razılığa gələn Tərəflər mübahisənin yuxarıda qeyd edilən məhkəməyə və arbitraja və ya alternativ arbitraj prosedurlarına verilməsinə qeyd-şərtsiz razılığını verirlər.

3. Razılığa gələn Tərəfin səlahiyyətli məhkəmələrinə mübahisəni vermiş sərmayəçi bu maddənin 2-ci bəndində qeyd edilən arbitraj məhkəmələrindən heç birinə artıq müraciət edə bilməz.

4. Bir Razılığa gələn Tərəfin sərmayəçisi və digər Razılığa gələn Tərəf arasında sərmayə mübahisələri ilə əlaqədar hər hansı məhkəmə, arbitraj və ya digər proseslər, yaxud hər hansı qərarın icrasının tətbiqi zamanı, Razılığa gələn Tərəf özünümüdafiə üçün suveren toxunulmazlığı olmasını iddia edə bilməz. Tərəflərdən heç biri arbitraj prosesinin və ya arbitraj məhkəməsi qərarının icrasının hər hansı mərhələsində qarşı tərəf olan sərmayəçi tərəfindən zəmanət əsasında zərərin tam və ya qismən əvəzinin alındığı əsas gətirərək etiraz edə bilməz.

5. Belə qərar mübahisə tərəfləri üçün qəti və məcburi olacaqdır və milli qanunlarına uyğun qaydada icra ediləcəkdir.

6. Sərmayəçinin mübahisəni 2-ci bəndə müvafiq olaraq məcburi arbitraja verməsi faktına baxmayaraq, o arbitraj prosesinin başlanmasından əvvəl və ya proses zamanı mübahisə tərəfi olan Razılığa gələn Tərəfin məhkəmə və ya inzibati tribunal qarşısında öz hüquqları və maraqlarının saxlanılması üçün müvəqqəti məhkəmə qadağasının, hər hansı ziyanın əvəzinin ödənilməsi xahişi istisna olmaqla, əldə edilməsini xahiş edə bilər.

7. Heç bir Razılığa gələn Tərəf arbitraja verilmiş hər hansı mübahisəyə görə, digər Razılığa gələn Tərəf mübahisə ilə bağlı qərarı icra etməməsi halı istisna olmaqla, diplomatik müdafiə həyata keçirməyəcək və ya beynəlxalq iddia qaldırmayacaqdır. Lakin bu bəndin məqsədləri üçün olan diplomatik müdafiə yalnız bu mübahisənin həllinin asanlaşdırılması məqsədilə qeyri-formal diplomatik ünsiyyəti nəzərdə tutmur.

Maddə 10

Razılığa gələn Tərəflər arasında mübahisələrin həlli

1. Bu Sazişin təfsiri və tətbiqi ilə bağlı Razılığa gələn Tərəflər arasında mübahisələr mümkün qədər diplomatik kanallar vasitəsilə həll olunacaqdır.

2. Əgər mübahisə Razılığa gələn Tərəflərdən hər hansı birinin belə danışıqları aparmaq xahişinin tarixindən altı ay ərzində bu yolla həll edilə bilməzsə o, Razılığa gələn Tərəflərdən hər hansı birinin müraciəti ilə Arbitraj Məhkəməsinə veriləcəkdir.

3. Belə Arbitraj Məhkəməsi hər bir fərdi iş üçün aşağıdakı qaydada təsis olunacaqdır. Arbitraj haqqında müraciətin alındığı tarixdən etibarən iki (2) ay ərzində hər bir Razılığa gələn Tərəf Məhkəmənin bir üzvünü təyin edəcəkdir. Sonra bu iki üzv hər iki Razılığa gələn Tərəfin razılığı ilə Məhkəmənin Sədri təyin olunacaq üçüncü dövlətin vətəndaşını seçəcəklər. Sədr digər iki üzvün təyin olunduğu tarixidən sonra dörd (4) ay ərzində təyin olunacaqdır.

4. Əgər bu maddənin 3-cü bəndində göstərən müddət ərzində zəruri təyinatlar həyata keçirilməzsə, Razılığa gələn Tərəflərdən hər hansı biri digər razılaşmanın olmadığı təqdirdə zəruri təyinatların həyata keçirilməsi üçün Beynəlxalq Məhkəmənin Sədrini dəvət edə bilər. Əgər Sədr Razılığa gələn Tərəflərdən hər hansı birinin vətəndaşıdırsa və ya hər hansı digər səbəbdən göstərilən funksiyanı yerinə yetirə bilmirsə, Razılığa gələn Tərəflərdən heç birinin vətəndaşı olmayan, və ya hər hansı digər səbəbdən göstərilən funksiyanı yerinə yetirə bilməmək vəziyyətində olmayan, Məhkəmənin rütbəcə növbəti üzvü zəruri təyinatları həyata keçirmək üçün dəvət olunacaqdır.

5. Arbitraj Məhkəməsi öz qərarlarını səs çoxluğu ilə qəbul edəcəkdir. Bu qərarlar bu Sazişə və beynəlxalq hüququn Razılığa gələn Tərəflərə münasibətdə qüvvədə olan, qəti və məcburi olan qaydalarına uyğun olaraq qəbul ediləcəkdir. Hər bir Razılığa gələn Tərəf arbitraj məhkəməsinin həmin Razılığa gələn Tərəfin təyin etdiyi üzvünün xərclərini, eləcə də arbitraj prosesində özünün təmsil edilməsi xərclərini ödəyəcəkdir. Sədrin xərcləri, habelə arbitraj prosesi ilə bağlı istənilən digər xərclər Razılığa gələn Tərəflərlə bərabər hissədə ödəniləcəkdir. Bütün qalan hallarda prosedur arbitraj məhkəməsi tərəfindən müəyyən ediləcəkdir.

Maddə 11

Razılığa gələn Tərəflər arasında əlaqələr

Bu Sazişin müddəaları Razılığa gələn Tərəflər arasında diplomatik və ya konsulluq əlaqələrinin mövcudluğundan asılı olmayaraq tətbiq ediləcəkdir.

Maddə 12

Digər qaydaların tətbiq edilməsi

Əgər, bu Sazişə əlavə olaraq, Razılığa gələn Tərəflərdən hər hansı birinin qanunvericiliyi və ya Razılığa gələn Tərəflər arasında beynəlxalq hüquq əsasında hazırda mövcud olan və ya gələcəkdə müəyyən ediləcək öhdəliklər digər Razılığa gələn Tərəfin sərmayəçilərinin sərmayələrinə münasibətdə bu Sazişlə təmin edilən rejimdən daha əlverişli rejimin tətbiq edilməsini nəzərdə tutan ümumi və ya xüsusi qaydalar müəyyən edərsə,

belə qaydalar, nə qədər ki onlar daha əlverişlidirlər, bu Sazişə nisbətən üstünlük təşkil edəcəklər.

Maddə 13

Sazişin tətbiq dairəsi

Bu Saziş onun qüvvəyə minməsi tarixində mövcud olan və ya bu tarixdən sonra Razılığa gələn Tərəflərdən hər hansı birinin sərmayəçiləri tərəfindən digər Razılığa gələn Tərəfin ərazisində qoyulmuş bütün sərmayələrə tətbiq edilir.

Maddə 14

Qüvvəyə minmə

Hər bir Razılığa gələn Tərəf bu Sazişin qüvvəyə minməsi üçün onun konstitusiya tələblərinin yerinə yetirildiyini yazılı şəkildə digərinə bildirəcəkdir, və bu Saziş sonuncu bildirişin alındığı tarixindən sonra otuzuncu gündə qüvvəyə minəcəkdir.

Maddə 15

Qüvvəyə minmə və xitam verilmə

1. Bu Saziş iyirmi (20) il müddətində qüvvədə qalacaqdır və Razılığa gələn Tərəflərdən hər hansı biri digər Razılığa gələn Tərəfi bu Sazişə xitam vermək niyyəti haqqında yazılı şəkildə ilkin və ya sonrakı müddətin bitməsinə ən azı bir il qalmış bildirmədiyi təqdirdə bundan sonra da eyni müddət və ya müddətlərdə qüvvədə qalacaqdır.

2. Bu Sazişə xitam vermək haqqında bildirişin qüvvəyə minməsi tarixindən əvvəl qoyulmuş sərmayələrə münasibətdə bu Sazişin müddəaları bu Sazişə xitam verilməsi tarixindən etibarən on (10) il müddətində qüvvədə olacaqdır.

BUNUN TƏSDİQİ OLARAQ, hər iki Razılığa gələn Tərəfin müvafiq səlahiyyətli şəxsləri bu Sazişi imzaladılar.

Əl-Küveyt şəhərində 10 fevral 2009-cu il tarixinə müvafiq olan Hicri təqviminin 15 safar 1430 tarixində iki əsl nüsxədə hər biri Azərbaycan, ərəb və ingilis dillərində imzalanmışdır, bütün mətnlər bərabər autentikdir. Təfsir zamanı fikir ayrılığı yarandığı təqdirdə ingilis dilində olan mətnə üstünlük veriləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	KÜVEYT DÖVLƏTİ HÖKUMƏTİ ADINDAN
ŞAHİN MUSTAFAYEV	*MUSTAFA CASİM ƏL-ŞİMALİ*
İqtisadi inkişaf naziri	*Maliyyə naziri*

Azərbaycan Respublikası Hökuməti və Küveyt Dövləti Hökuməti arasında ticarət Sazişinin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

1. Azərbaycan Respublikası Hökuməti və Küveyt Dövləti Hökuməti arasında 2009-cu il fevralın 10-da Əl-Küveyt şəhərində imzalanmış ticarət Sazişi təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 28 aprel 2009-cu il

№ 797-IIIQ

Azərbaycan Respublikası Hökuməti və Küveyt Dövləti Hökuməti arasında ticarət Sazişi

Bundan sonra "Razılığa gələn Tərəflər" adlandırılacaq Azərbaycan Respublikası Hökuməti ilə Küveyt Dövləti Hökuməti bərabərlik və qarşılıqlı fayda əsasında iki Razılığa gələn Tərəf arasında ticarət əlaqələrinin inkişaf etdirilməsi və gücləndirilməsi, habelə əmtəə və xidmətlərin mübadiləsinin təşviq edilməsi arzusunu ifadə edərək;

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Razılığa gələn Tərəflər öz ölkələrində qüvvədə olan qanunvericiliyə müvafiq olaraq iki ölkə arasında ticarət əlaqələrinin inkişaf etdirilməsi və diversifikasiya edilməsində qarşılıqlı maraqlarını bəyan etdilər.

Maddə 2

İki ölkə arasında malların göndərilməsi idxal və ixrac əməliyyatlarını həyata keçirmək səlahiyyəti verilmiş fiziki və/və ya hüquqi şəxslər arasında müqavilələr əsasında ölkələrin qüvvədə olan qanunvericiliyinə müvafiq olaraq həyata keçiriləcəkdir.

Maddə 3

Bu Sazişə uyğun olaraq gətirilən mallar üzrə qiymətlər, eyni mallar üzrə beynəlxalq bazarlarda mövcud olan sərbəst dönərli valyutaların cari günə olan qiymətləri əsasında hər iki ölkənin fiziki və/və ya hüquqi şəxsləri tərəfindən tərtib edilən müqavilələr çərçivəsində razılaşdırılmalı və müəyyən edilməlidir.

Maddə 4

Razılığa gələn Tərəflər öz kommersiya firmaları və müəssisələrini digər Razılığa gələn Tərəfin ərazisində keçiriləcək beynəlxalq sərgi və yarmarkalarda iştirak etməyə təşviq edəcəklər və ölkələrində qüvvədə olan qanun və qaydalara uyğun olaraq bu istiqamətdə qarşılıqlı tədbirlər görəcəklər.

Razılığa gələn Tərəflər ölkələrində qüvvədə olan qanun və qaydalara uyğun olaraq ticarət və biznes nümayəndələrinin qarşılıqlı səfərlərini təşviq və təşkil edəcəklər.

Maddə 5

Razılığa Gələn Tərəflər ölkələrinin qüvvədə olan qanun və qaydalarına uyğun olaraq aşağıdakı malları gömrük rüsumları, vergilər və digər ödəmələrdən azad edəcəklər:

1. Sifarişlər etmək üçün malların nümunələrini və reklam materiallarını (kataloq, broşür, şəkillər və s.)

2. Sərgi və yarmarkalar üçün lazımlı olan mallar və materiallar, bu şərtlə ki, onlar yenidən ixrac ediləcəkdir.

Maddə 6

Razılığa gələn Tərəflər aşağıdakı məqsədlərlə malların idxal və ixracına məhdudiyyət qoya bilərlər:

1. Sağlamlığı, mənəviyyatı və təhlükəsizliyi qorumaq üçün;

2. Heyvan və bitkilərin xəstəliklərdən və ziyanvericilərdən qorunması üçün;

3. bədii və tarixi dəyərə malik olan milli sərvətin qorunması;

4. Xarici maliyyə vəziyyətinin və tədiyyə balansının qorunması üçün, bu şərtlə ki, bu tədbirlər güc və ya ayrı-seçkilik yolları ilə həyata keçirilməyəcəkdir.

Maddə 7

İki Razılığa gələn Tərəf arasında bütün ödənişlər ölkələrin daxili qanun və qaydalarına uyğun olaraq istənilən sərbəst dönərli valyutada həyata keçiriləcəkdir. Buna baxmayaraq hər iki ölkənin səlahiyyətli təşkilatları, şirkətləri və / və ya firmaları öz aralarında hesablaşmalar aparmaq üçün razılaşdırılmış digər ödəniş vasitələrindən istifadə edə bilərlər.

Maddə 8

Razılığa gələn Tərəflər öz aralarında ticarət əlaqələrinin intensivləşdirilməsi məqsədilə hər iki Razılığa gələn Tərəflərin nümayəndələrindən ibarət Birgə Komissiya yaradılması barədə razılaşdılar. Birgə Komissiya aşağıdakı məsələlər üzrə səlahiyyətlidir:

1. Bu Sazişin həyata keçirilməsində yaranan problemlərin həll olunması,

2. İki ölkə arasında ticarət əlaqələrinin təşviq edilməsi və genişləndirilməsinə yönəlmiş tədbirlərin təklif edilməsi,

3. Bu Sazişə hər hansı dəyişiklik və əlavələrin təklif edilməsi.

Birgə Komissiya Razılığa gələn Tərəflərdən hər hansı birinin müraciəti əsasında növbə ilə onların ölkələrində görüşəcəkdir.

Maddə 9

Bu Saziş Razılığa gələn Tərəflərə münasibətdə qüvvədə olan digər beynəlxalq Sazişlərdən irəli gələn hər hansı öhdəliyin hüquqi qüvvəsinə təsir etməyəcəkdir.

Maddə 10

Razılığa gələn Tərəflərin qarşılıqlı razılığı əsasında bu Sazişə onun ayrılmaz hissəsi olan və 11-ci maddəsində nəzərdə tutulan qaydada qüvvəyə minən ayrıca protokollarla rəsmiləşdirilən əlavə və dəyişikliklər edilə bilər.

Maddə 11

Bu Saziş onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Razılığa gələn Tərəflərin sonuncu yazılı bildirişinin diplomatik kanallar vasitəsilə alındığı tarixdən qüvvəyə minir.

Bu Saziş beş il müddətinə bağlanılır və Razılığa gələn Tərəflərdən biri bu Sazişin müddətinin bitməsinə ən azı altı ay qalmış onu ləğv etmək niyyəti barədə yazılı şəkildə diplomatik kanallar vasitəsilə digər Razılığa gələn Tərəfə məlumat verməzsə, onun qüvvəsi avtomatik olaraq növbəti müddətlərə uzadılacaqdır.

Bu Sazişin müddəaları onun qüvvədə olduğu müddətdə imzalanmış lakin onun qüvvəsinin dayandırılması tarixində icrası başa çatmamış müqavilələrə şamil ediləcəkdir.

ƏL-Küveyt şəhərində 10 fevral 2009-cu il tarixinə müvafiq olan Hicri təqviminin 15 safar 1430 tarixində iki əsl nüsxədə hər biri Azərbaycan, ərəb və ingilis dillərində imzalanmışdır, bütün mətnlər bərabər autentikdir. Təfsir zamanı fikir ayrılığı yarandığı təqdirdə ingilis dilində olan mətnə üstünlük veriləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	KÜVEYT DÖVLƏTİ HÖKUMƏTİ ADINDAN
ŞAHİN MUSTAFAYEV	*ƏHMƏD YAQUB Y. BAĞIR ƏL-ABDULLAH*
İqtisadi inkişaf naziri	*Ticarət və sənaye naziri, Millət Məclisi işləri üzrə dövlət naziri*

"Azərbaycan Respublikası Hökuməti və İran İslam Respublikası Hökuməti arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında" Sazişin və onun Protokolunun təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. "Azərbaycan Respublikası Hökuməti və İran İslam Respublikası Hökuməti arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında" 2009-cu il martın 10-da Tehran şəhərində imzalanmış Saziş və onun Protokolu təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 28 aprel 2009-cu il

№ 798-IIIQ

Azərbaycan Respublikası Hökuməti və İran İslam Respublikası Hökuməti arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında Saziş

Azərbaycan Respublikası Hökuməti və İran İslam Respublikası Hökuməti gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında Saziş bağlamaq məqsədi ilə

aşağıdakılar barədə razılığa gəlmişlər:

Maddə 1

Əhatə olunan şəxslər

Bu Saziş, Razılığa gələn Dövlətlərdən birinin və ya hər ikisinin rezidenti olan şəxslərə tətbiq edilir.

Maddə 2

Əhatə olunan vergilər

1. Bu Saziş, vergitutma üsulundan asılı olmayaraq, Razılığa gələn Dövlət və ya onun yerli hakimiyyət orqanları tərəfindən gəlirlərə və əmlaka görə tutulan vergilərə tətbiq edilir.

2. Gəlirlərə və əmlaka görə vergilərə - gəlirin ümumi məbləğindən, əmlakın ümumi dəyərindən və ya gəlirin və ya əmlakın elementlərindən tutulan bütün vergilər, o cümlədən, daşınan və ya daşınmaz əmlakın özgəninkiləşdirilməsindən gəlirlərdən vergilər, müəssisələr tərəfindən ödənilən əmək haqqı və ya maaşların ümumi məbləğlərindən vergilər, həmçinin əmlakın dəyərinin artımından vergilər aiddir.

3. Sazişin tətbiq edildiyi mövcud vergilər xüsusilə aşağıdakılardır:

(a) Azərbaycan Respublikasına münasibətdə:

(i) hüquqi şəxslərin mənfəət vergisi;

(ii) fiziki şəxslərin gəlir vergisi;

(iii) əmlak vergisi;

(iv) torpaq vergisi

(bundan sonra Azərbaycan vergiləri adlanır);

(b) İran İslam Respublikasına münasibətdə:

(i) gəlir vergisi

(ii) əmlak vergisi

(bundan sonra İran İslam Respublikasının birbaşa vergisi adlanır).

4. Bu Saziş, həmçinin, onun imzalandığı tarixdən sonra mövcud vergilərə əlavə olaraq və ya onların əvəzinə tətbiq edilən, bu maddənin 1-ci bəndindəki anlayışa müvafiq olaraq təsnifatlandırılan istənilən eyni və ya mahiyyətcə oxşar vergilərə də tətbiq edilir. Razılığa gələn Dövlətlərin səlahiyyətli orqanları özlərinin müvafiq vergi qanunvericiliklərində baş verən hər bir dəyişiklik barədə bir-birini xəbərdar edirlər.

Maddə 3

Ümumi anlayışlar

1. Kontekst başqa cür tələb etmirsə, bu Sazişin məqsədləri üçün:

(a) "Razılığa gələn Dövlət" və "Razılığa gələn digər Dövlət" terminləri - kontekstdən asılı olaraq Azərbaycan Respublikasını və ya İran İslam Respublikasını bildirir;

(b) "vergi" termini - bu Sazişin 2-ci maddəsində göstərilən istənilən vergini bildirir;

(c) "şəxs" termini - fiziki şəxsi, şirkəti və şəxslərin hər hansı digər birliklərini bildirir;

(d) "şirkət" termini - hər hansı korporativ qurumu və ya vergi məqsədləri üçün korporativ qurum kimi baxılan hər hansı təşkilatı bildirir;

(e) "qeydiyyatdan keçmiş ofis" termini hər hansı Razılığa gələn Dövlətin müvafiq qanunlarına müvafiq olaraq qeydiyyatdan keçmiş baş ofisi bildirir;

(f) "Razılığa gələn Dövlətin müəssisəsi" və "Razılığa gələn digər Dövlətin müəssisəsi" terminləri - müvafiq olaraq, Razılığa gələn Dövlətin rezidenti tərəfindən idarə edilən müəssisəni və Razılığa gələn digər Dövlətin rezidenti tərəfindən idarə edilən müəssisəni bildirir;

(g) "beynəlxalq daşıma" termini - Razılığa gələn Dövlətin müəssisəsi tərəfindən istismar edilən gəmi, qayıq, hava gəmisi və ya yol nəqliyyatı vasitələri ilə yerinə yetirilən istənilən daşımaları (gəmi, qayıq, hava gəmisi və ya yol nəqliyyatı vasitələrinin müstəsna olaraq Razılığa gələn digər Dövlətin məntəqələri arasında istismar edilməsi hallan istisna olmaqla) bildirir;

(h) "səlahiyyətli orqan" termini:

(i) Azərbaycan Respublikasına münasibətdə - Maliyyə Nazirliyi və Vergilər Nazirliyini;

(ii) İran İslam Respublikasına münasibətdə - İqtisadi işlər və Maliyyə Nazirini və ya onun səlahiyyətli nümayəndəsini bildirir.

(i) "milli şəxs" termini:

(i) Razılığa gələn Dövlətin vətəndaşı olan istənilən fiziki şəxsi;

(ii) Özünün müvafiq statusunu Razılığa gələn Dövlətdə qüvvədə olan qanunvericiliyə müvafiq olaraq almış istənilən hüquqi şəxsi, tərəfdaşlığı və ya assosiasiyanı bildirir.

2. Razılığa gələn Dövlət tərəfindən bu Sazişin tətbiqi zamanı burada müəyyən edilməmiş hər hansı termin, kontekst başqa cür tələb etmirsə, Sazişin tətbiq edildiyi vergilərlə bağlı həmin Dövlətin qanunvericiliyində nəzərdə tutulmuş mənanı daşıyır.

Maddə 4

Rezident

1. Bu Sazişin məqsədləri üçün "Razılığa gələn Dövlətin rezidenti" termini həmin Dövlətin qanunvericiliyinə müvafiq olaraq yaşayış yerinə, daimi olduğu yerə, qeydiyyat yerinə, inkorporasiya yerinə, idarəetmə yerinə və ya oxşar xarakterli digər meyara əsasən orada vergiyə cəlb edilə bilən hər hansı şəxsi bildirir, həmçinin, həmin Dövləti və ya onun yerli hakimiyyət orqanını da əhatə edir. Bununla belə, bu termin, yalnız həmin Dövlətdəki mənbələrdən gəlirlərə və ya orada yerləşən əmlaka münasibətdə orada vergiyə cəlb edilə bilən hər hansı şəxsi əhatə etmir.

2. Əgər, 1-ci bəndin müddəalarına müvafiq olaraq, fiziki şəxs Razılığa gələn Dövlətlər-

dən hər ikisinin rezidentidirsə, bu halda onun statusu aşağıdakı kimi müəyyən edilir:

(a) o, daimi yaşayış yerinə malik olduğu Dövlətin rezidenti hesab edilir. Əgər onun hər iki Dövlətdə daimi yaşayış yeri vardırsa, o, şəxsi və iqtisadi əlaqələrinin daha sıx olduğu (həyati mənafelərin mərkəzi) Dövlətin rezidenti hesab edilir;

(b) əgər, onun həyati mənafelərinin mərkəzinin yerləşdiyi Dövləti müəyyən etmək mümkün deyildirsə və ya onun bu Dövlətlərdən heç birində daimi yaşayış yeri yoxdursa, bu halda o, adətən yaşadığı Dövlətin rezidenti hesab edilir;

(c) əgər o, adətən hər iki Razılığa gələn Dövlətdə yaşayırsa və ya onlardan heç birində yaşamırsa, o, milli şəxsi olduğu Dövlətin rezidenti hesab edilir;

(d) əgər o, Dövlətlərdən heç birinin milli şəxsi deyildirsə, və ya əvvəlki bəndlərə müvafiq olaraq o Razılığa gələn Dövlətlərdən birinin rezidenti hesab edilə bilməzsə, Razılığa gələn Dövlətlərin səlahiyyətli orqanları məsələni qarşılıqlı razılaşma yolu ilə həll edirlər.

3. Əgər, 1-ci bəndin müddəalarına müvafiq olaraq, fiziki şəxs olmayan şəxs Razılığa gələn Dövlətlərdən hər ikisinin rezidentidirsə, bu halda o, qeydiyyatdan keçmiş ofisinin yerləşdiyi Dövlətin rezidenti hesab edilir.

Maddə 5

Daimi nümayəndəlik

1. Bu Sazişin məqsədləri üçün, "daimi nümayəndəlik" termini, Razılığa gələn Dövlətin müəssisəsinin Razılığa gələn digər Dövlətdə sahibkarlıq fəaliyyətini tamamilə və ya qismən həyata keçirdiyi daimi fəaliyyət yerini bildirir.

2. "Daimi nümayəndəlik" termini xüsusilə aşağıdakıları əhatə edir:

(a) idarəetmə yeri;

(b) bölmə;

(c) ofis;

(d) fabrik;

(e) emalatxana;

(f) yataq, neft və ya qaz quyusu, karxana və ya təbii ehtiyatların kəşfiyyatı, istismarı və ya hasilatı üzrə hər hansı digər yer.

3. Tikinti meydançası, quraşdırma, montaj və ya yığma layihəsi və ya bunlarla bağlı nəzarət fəaliyyəti yalnız bu cür meydança, layihə və ya fəaliyyət 12 aydan artıq dövr ərzində davam etdikdə daimi nümayəndəlik təşkil edir.

4. Əvvəlki müddəalardan asılı olmayaraq, "daimi nümayəndəlik" terminə aşağıdakılar aid edilmir:

(a) qurğulardan müəssisəyə məxsus olan malların və ya məmulatların müstəsna olaraq saxlanılması və ya nümayiş etdirilməsi məqsədi üçün istifadə edilməsi;

(b) müəssisəyə məxsus olan mal və ya məmulat ehtiyatlarının müstəsna olaraq saxlanılma və ya nümayiş etdirilmə məqsədi üçün saxlanılması;

(c) müəssisəyə məxsus olan mal və ya məmulat ehtiyatlarının müstəsna olaraq başqa müəssisə tərəfindən emal edilmək məqsədi üçün saxlanılması;

(d) daimi sahibkarlıq fəaliyyəti yerinin müstəsna olaraq müəssisə üçün mal və ya məmulatların satın alınması və ya informasiya toplanılması məqsədi üçün saxlanılması;

(e) daimi sahibkarlıq fəaliyyəti yerinin müstəsna olaraq reklam və ya informasiya dəstəyi, yaxud elmi araşdırma məqsədilə hazırlıq və ya yardımçı xarakterli istənilən digər fəaliyyətin göstərilməsi məqsədi üçün saxlanılması;

(f) daimi sahibkarlıq fəaliyyəti yerinin müstəsna olaraq (a) - (e) yarımbəndlərində sadalanmış fəaliyyət növlərinin istənilən kombinasiyası üçün saxlanılması - bir şərtlə ki, daimi sahibkarlıq fəaliyyəti yerinin bu kombinasiyanın nəticəsi olan məcmu fəaliyyəti hazırlıq və ya yardımçı xarakter daşısın.

5. 1-ci və 2-ci bəndlərin müddəalarından asılı olmayaraq, əgər 6-cı bəndin tətbiq edildiyi müstəqil statuslu agentdən fərqli şəxs Razılığa gələn Dövlətdə Razılığa gələn digər Dövlətin müəssisəsinin adından fəaliyyət göstərirsə və müəssisənin adından müqavilə bağlamaq səlahiyyətlərinə malikdirsə və adətən adı birinci çəkilən Dövlətdə bu səlahiyyətlərdən istifadə edirsə, həmin müəssisə, həmin şəxsin onun üçün həyata keçirdiyi hər hansı fəaliyyətə münasibətdə adı birinci çəkilən Razılığa gələn Dövlətdə daimi nümayəndəliyə malik olan müəssisə hesab edilir (bir şərtlə ki, həmin şəxsin fəaliyyəti 4-cü bənddə göstərilmiş fəaliyyətlə məhdudlaşmasın, belə ki, həmin fəaliyyət, hətta daimi sahibkarlıq fəaliyyəti yeri vasitəsilə həyata keçirilsə belə, həmin bəndin müddəalarına əsasən bu cür daimi sahibkarlıq fəaliyyəti yerini daimi nümayəndəliyə çevirmir).

6. Razılığa gələn Dövlətin müəssisəsi Razılığa gələn digər Dövlətdə sadəcə olaraq broker, baş komisyon agenti və ya müstəqil statuslu hər hansı digər agent vasitəsilə sahibkarlıq fəaliyyətini həyata keçirdiyinə görə həmin Dövlətdə daimi nümayəndəliyə malik olan müəssisə hesab edilmir, bir şərtlə ki, bu cür şəxslər adi fəaliyyətləri çərçivəsində fəaliyyət göstərsinlər.

Bununla belə, bu cür agentin fəaliyyəti tamamilə və ya demək olar ki, tamamilə həmin müəssisə üçün həyata keçirildiyi halda, həmin agent, bu bəndin məqsədləri üçün müstəqil statuslu agent hesab edilmir.

7. Razılığa gələn Dövlətin rezidenti olan şirkətin Razılığa gələn digər Dövlətin rezidenti olan və ya həmin digər Dövlətdə sahibkarlıq fəaliyyətini həyata keçirən (daimi nümayəndəlik vasitəsilə və ya başqa tərzdə) şirkətə nəzarət etməsi və ya onun nəzarətində olması faktı özlüyündə bu şirkətlərdən heç birini digərinin daimi nümayəndəliyinə çevirmir.

Maddə 6

Daşınmaz əmlakdan gəlir

1. Razılığa gələn Dövlətin rezidenti tərəfindən Razılığa gələn digər Dövlətdə yerləşən daşınmaz əmlakdan əldə edilən gəlirlər (kənd və ya meşə təsərrüfatından gəlirlər də daxil olmaqla) həmin digər Dövlətdə vergiyə cəlb edilə bilər.

2. Bu Sazişdə "daşınmaz əmlak" termini həmin əmlakın yerləşdiyi Razılığa gələn Döv-

lətin qanunvericiliyinə əsasən malik olduğu mənanı daşıyır. Bu termin istənilən halda, daşınmaz əmlaka münasibətdə yardımçı əmlakı, kənd və meşə təsərrüfatında istifadə edilən mal-qara və avadanlığı, torpaq mülkiyyəti barədə ümumi qanunvericiliyin müddəalarının tətbiq edildiyi hüquqları, daşınmaz əmlakın uzufruktunu və mineral ehtiyatların, neft və ya qaz yataqlarının və təbii resursların hasilatı üzrə digər yerlərin, o cümlədən oduncaq və digər meşə təsərrüfatı məhsullarının işlənməsi və ya işlənmə hüququ əvəzində ödənilən dəyişkən və ya təsbit olunmuş ödənişlərə olan hüquqları əhatə edir. Gəmilər, qayıqlar, hava gəmiləri və ya yol nəqliyyatı vasitələri daşınmaz əmlak hesab edilmir.

3. Bu maddənin 1-ci bəndinin müddəaları daşınmaz əmlakın birbaşa istifadəsindən, icarəyə verilməsindən və ya hər hansı digər formada istifadəsindən əldə edilən gəlirlərə tətbiq edilir.

4. Bu maddənin 1-ci və 3-cü bəndlərinin müddəaları, həmçinin, müəssisənin daşınmaz əmlakından gəlirlərə və müstəqil fərdi xidmətlərin göstərilməsi üçün istifadə edilən daşınmaz əmlakdan gəlirlərə də tətbiq edilir.

Maddə 7

Sahibkarlıq fəaliyyətindən mənfəət

1. Razılığa gələn Dövlətin müəssisəsinin mənfəəti yalnız həmin Dövlətdə vergiyə cəlb edilir, bir şərtlə ki, həmin müəssisə sahibkarlıq fəaliyyətini Razılığa gələn digər Dövlətdə, orada yerləşən daimi nümayəndəlik vasitəsilə həyata keçirməsin. Əgər müəssisə sahibkarlıq fəaliyyətini yuxarıda göstərilən tərzdə həyata keçirirsə, bu halda onun mənfəətinin yalnız həmin daimi nümayəndəliyə aid edilə bilən hissəsi həmin digər Dövlətdə vergiyə cəlb edilə bilər.

2. Bu maddənin 3-cü bəndinin müddəaları nəzərə alınmaqla, əgər Razılığa gələn Dövlətin müəssisəsi Razılığa gələn digər Dövlətdə sahibkarlıq fəaliyyətini orada yerləşən daimi nümayəndəlik vasitəsilə həyata keçirirsə, Razılığa gələn Dövlətlərin hər birində bu daimi nümayəndəliyin mənfəətinə, onun eyni və ya oxşar şəraitdə, eyni və ya oxşar fəaliyyətlə məşğul olan müstəqil və ayrıca müəssisə olduğu və daimi nümayəndəliyi olduğu müəssisədən tamamilə asılı olmadan fəaliyyət göstərdiyi halda əldə edə biləcəyi mənfəət aid edilir.

3. Daimi nümayəndəliyin mənfəəti müəyyən edilərkən, daimi nümayəndəliyin yerləşdiyi Razılığa gələn Dövlətdə və ya hər hansı digər yerdə çəkilməsindən asılı olmayaraq, daimi nümayəndəliyin məqsədləri üçün çəkilmiş xərclərin, o cümlədən, daimi nümayəndəlik müstəqil müəssisə olduğu halda, onun yerləşdiyi Razılığa gələn Dövlətin milli qanunvericiliyə əsasən çıxıla biləcək idarəetmə və ümumi inzibati xərclərin çıxılmasına yol verilir.

4. Əgər, Razılığa gələn Dövlətdə daimi nümayəndəliyə aid olan mənfəət adətən müəssisənin ümumi mənfəətinin onun ayrı-ayrı hissələri arasında bölüşdürülməsi əsasında müəyyən edilirsə, bu maddənin 2-ci bəndinin müddəaları, vergiyə cəlb edilməli olan mənfəətin bu cür bölgü vasitəsilə müəyyənləşdirilməsində Razılığa gələn Dövlətə heç bir maneə yaratmır; bununla belə, tətbiq edilən bölgü metodu elə olmalıdır ki, nəticə bu maddədə nəzərdə tutulan prinsiplərə müvafiq olsun.

5. Daimi nümayəndəlik tərəfindən sadəcə olaraq müəssisə üçün mal və ya məmulat alınmasına görə həmin daimi nümayəndəliyə heç bir mənfəət aid edilmir.

6. Daimi nümayəndəliyə aid edilə bilən mənfəət hər il eyni metodla müəyyən edilir, bir şərtlə ki, bunun əksi üçün tutarlı və kifayət qədər əsaslı səbəb olmasın.

7. Əgər, mənfəətə barəsində bu Sazişin digər maddələrində ayrıca qeyd edilmiş gəlir növləri daxildirsə, bu halda bu maddənin müddəaları həmin maddələrin müddəalarına təsir göstərmir.

Maddə 8

Beynəlxalq daşımalar

Razılığa gələn Dövlətin müəssisəsi tərəfindən gəmilərin, qayıqların, hava gəmilərinin və ya yol nəqliyyatı vasitələrinin beynəlxalq daşımalarda istismarından (konteynerlərin və treylerlərin, o cümlədən konteynerlərin və ya treylerlərin daşınması üçün əlaqədar avadanlığın icarəyə verilməsi də daxil olmaqla) əldə etdiyi mənfəət yalnız həmin Dövlətdə vergiyə cəlb edilir.

Maddə 9

Qarşılıqlı əlaqəli müəssisələr

1. Əgər:

(a) Razılığa gələn Dövlətin müəssisəsi Razılığa gələn digər Dövlətin müəssisəsinin idarə edilməsində, ona nəzarətdə və ya onun kapitalında birbaşa və ya dolayısı ilə iştirak edirsə, və ya

(b) eyni şəxslər Razılığa gələn Dövlətin müəssisəsinin və Razılığa gələn digər Dövlətin müəssisəsinin idarə edilməsində, onlara nəzarətdə və ya onların kapitalında birbaşa və ya dolayısı ilə iştirak edirlərsə,

və hər bir halda bu iki müəssisənin qarşılıqlı kommersiya və ya maliyyə münasibətlərində onlar arasında yaradılmış və ya müəyyən edilmiş şərtlər müstəqil müəssisələr arasında mövcud ola biləcək şərtlərdən fərqlidirsə, bu halda, onlardan birinə hesablana biləcək, lakin bu şərtlər səbəbindən hesablanmamış hər hansı mənfəət, həmin müəssisənin mənfəətinə daxil edilə və müvafiq qaydada vergiyə cəlb edilə bilər.

2. Əgər, Razılığa gələn Dövlət həmin Dövlətin müəssisəsinin mənfəətinə Razılığa gələn digər Dövlətin müəssisəsinin həmin digər Dövlətdə vergiyə cəlb edilmiş mənfəətini daxil edir və müvafiq qaydada vergiyə cəlb edirsə və bu tərzdə daxil edilmiş mənfəət, bu müəssisələr arasındakı münasibətlər müstəqil müəssisələr arasında ola biləcək münasibətlər olduğu halda adı birinci çəkilən Dövlətin müəssisəsinə hesablana biləcək mənfəətdirsə, bu halda, həmin digər Dövlət orada bu mənfəətdən hesablanan verginin məbləğinə müvafiq düzəliş edir. Bu cür düzəlişin müəyyən edilməsində bu Sazişin digər müddəaları müvafiq qaydada nəzərə alınır və Razılığa gələn Dövlətlərin səlahiyyətli orqanları zəruri olduqda bir-biri ilə məsləhətləşmələr aparırlar.

Maddə 10

Dividendlər

1. Razılığa gələn Dövlətin rezidenti olan şirkət tərəfindən Razılığa gələn digər Dövlətin rezidentinə ödənilən dividentlər həmin digər Dövlətdə vergiyə cəlb edilə bilər.

2. Bununla belə, bu cür dividendlər həmçinin həmin dividendləri ödəyən şirkətin rezident olduğu Razılığa gələn Dövlətdə və onun qanunvericiliyinə müvafiq qaydada da vergiyə cəlb edilə bilər, lakin dividendlər alan şəxs onların faktiki sahibidirsə, tutulan vergi dividendlərin ümumi məbləğinin 10 faizindən artıq olmamalıdır.

Bu bənd, dividendlər ödənilən mənfəətə münasibətdə şirkətin vergiyə cəlb edilməsinə təsir etmir.

3. Bu maddədə istifadə edilən "dividendlər" termini səhmlərdən, təsisçilərin səhmlərindən və ya borc tələbləri olmayan, mənfəətdə iştirak hüququ verən digər hüquqlardan gəlirləri, o cümlədən, gəlirləri bölüşdürən şirkətin rezident olduğu Dövlətin qanunvericiliyinə müvafiq olaraq, səhmlərdən gəlirlərin cəlb edildiyi eyni qaydada vergitutmaya cəlb edilən digər korporativ hüquqlardan əldə edilən gəlirləri bildirir.

4. 1-ci və 2-ci bəndlərin müddəaları, dividendlərin faktiki sahibinin Razılığa gələn Dövlətin rezidenti olmaqla, dividendləri ödəyən şirkətin rezident olduğu Razılığa gələn digər Dövlətdə sahibkarlıq fəaliyyətini orada yerləşən daimi nümayəndəlik vasitəsilə həyata keçirdiyi və ya həmin digər Dövlətdə orada yerləşən daimi baza vasitəsilə müstəqil fərdi xidmətlər göstərdiyi və dividendlərin ödənilməsi ilə bağlı olan holdinqin bu cür daimi nümayəndəlik və ya daimi baza ilə faktiki olaraq əlaqəli olduğu halda tətbiq edilmir. Bu halda, şəraitdən asılı olaraq, 7-ci və ya 14-cü maddələrin müddəaları tətbiq edilir.

5. Əgər, Razılığa gələn Dövlətin rezidenti olan şirkət Razılığa gələn digər Dövlətdən mənfəət və ya gəlir əldə edirsə, həmin digər Dövlət, hətta şirkət tərəfindən ödənilən dividendlər və ya onun bölüşdürülməmiş mənfəəti tamamilə və ya qismən həmin digər Dövlətdə yaranan mənfəət və ya gəlirdən ibarət olduğu halda belə, dividendlərin həmin digər Dövlətin rezidentinə ödənildiyi və ya dividendlərin ödənilməsi ilə bağlı olan holdinqin həmin digər Dövlətdə yerləşən daimi nümayəndəlik və ya daimi baza ilə faktiki olaraq əlaqəli olduğu hallar istisna edilməklə, nə şirkət tərəfindən ödənilən dividendlərə hər hansı vergi tətbiq edə, nə də şirkətin bölüşdürülməmiş mənfəətini şirkətin bölüşdürülməmiş mənfəəti üzrə vergiyə cəlb edə bilməz.

Maddə 11

Faizlər

1. Razılığa gələn Dövlətdə yaranan və Razılığa gələn digər Dövlətin rezidentinə ödənilən faizlər həmin digər Dövlətdə vergiyə cəlb edilə bilər.

2. Bununla belə, bu cür faizlər həmçinin onların yarandığı Razılığa gələn Dövlətdə və onun qanunvericiliyinə müvafiq qaydada da vergiyə cəlb edilə bilər, lakin faizləri alan şəxs onların faktiki sahibidirsə Razılığa gələn digər Dövlətin rezidentidirsə, tutulan vergi faizlərin ümumi məbləğinin 10 faizindən artıq olmamalıdır.

3. Bu maddədə istifadə edilən "faizlər" termini ipoteka təminatının olub-olmamasından və borcluların mənfəətində iştirak hüququ verib-verməməsindən asılı olmayaraq, istə-

nilən növ borc tələblərindən gəlirləri, və xüsusilə, hökumətin qiymətli kağızlarından gəlirləri və istiqrazlardan və ya borc öhdəliklərindən gəlirləri, o cümlədən bu cür qiymətli kağızlar, istiqrazlar və ya borc öhdəlikləri üzrə mükafatlar və uduşları bildirir. Gecikdirilmiş ödənişlərə görə cərimələr bu maddənin məqsədi üçün faizlər hesab edilmir.

4. 2-ci bəndin müddəalarından asılı olmayaraq, Razılığa gələn Dövlətdə yaranan və Razılığa gələn digər Dövlətin Hökuməti, digər Hökumət qurumu, Mərkəzi Bankı və tamamilə (yüz faiz) həmin digər Dövlətin Hökumətinə məxsus olan digər bankları tərəfindən əldə edilən faizlər adı birinci çəkilən Dövlətdə vergidən azad edilir.

5. 1-ci və 2-ci bəndlərin müddəaları, faizlərin faktiki sahibinin Razılığa gələn Dövlətin rezidenti olmaqla, faizlərin yarandığı Razılığa gələn digər Dövlətdə sahibkarlıq fəaliyyətini orada yerləşən daimi nümayəndəlik vasitəsilə həyata keçirdiyi və ya həmin digər Dövlətdə orada yerləşən, daimi baza vasitəsilə müstəqil fərdi xidmətlər göstərdiyi və faizlərin ödənilməsi ilə bağlı olan borc öhdəliyinin bu cür daimi nümayəndəlik və ya daimi baza ilə faktiki olaraq əlaqəli olduğu halda tətbiq edilmir. Bu halda, şəraitdən asılı olaraq, 7-ci və ya 14-cü maddələrin müddəaları tətbiq edilir.

6. Faizlərin ödəyicisi Razılığa gələn Dövlətin özü, onun yerli hakimiyyət orqanı və ya rezidenti olduğu halda, faizlər həmin Dövlətdə yaranmış hesab edilir. Bununla belə, faizləri ödəyən şəxs Razılığa gələn Dövlətin rezidenti olub-olmamasından asılı olmayaraq, Razılığa gələn Dövlətdə daimi nümayəndəliyə və ya daimi bazaya sahib olduğu və faizlər ödənilən borcun bu cür daimi nümayəndəlik və ya daimi baza ilə bağlı yarandığı və bu faizlərin ödənilməsi üzrə xərclərin bu cür daimi nümayəndəlik və ya daimi baza tərəfindən çəkildiyi halda, bu cür faizlər daimi nümayəndəliyin və ya daimi bazanın yerləşdiyi Razılığa gələn Dövlətdə yaranmış hesab edilir.

7. Əgər, ödəyici və faktiki sahib arasında və ya onların hər ikisi ilə hər hansı digər şəxs arasındakı xüsusi münasibətlər səbəbindən, borc tələbi ilə əlaqədar ödənilən faizlərin məbləği, bu münasibətlər olmadığı halda ödəyici və faktiki sahib arasında razılaşdırıla biləcək məbləğdən artıqdırsa, bu maddənin müddəaları yalnız adı sonuncu çəkilən məbləğə tətbiq edilir. Bu halda, ödənişlərin artıq hissəsi, bu Sazişin digər müddəaları müvafiq qaydada nəzərə alınmaqla, Razılığa gələn Dövlətlərdən hər birinin qanunvericiliyinə müvafiq qaydada vergiyə cəlb edilir.

Maddə 12

Royaltilər

1. Razılığa gələn Dövlətdə yaranan və Razılığa gələn digər Dövlətin rezidentinə ödənilən royaltilər həmin digər Dövlətdə vergiyə cəlb edilə bilər.

2. Bununla belə, bu cür royaltilər həmçinin onların yarandığı Razılığa gələn Dövlətdə və onun qanunvericiliyinə müvafiq qaydada da vergiyə cəlb edilə bilər, lakin royaltiləri alan şəxs onların faktiki sahibidirsə Razılığa gələn digər Dövlətin rezidentidirsə, tutulan vergi royaltilərin ümumi məbləğinin 10 faizindən artıq olmamalıdır.

3. Bu maddədə istifadə olunan "royaltilər" termini hər hansı ədəbiyyat, incəsənət və ya elm əsərləri, o cümlədən kinofilmlər və radio və televiziya yayımında istifadə edilən yazılar üzrə müəlliflik hüquqlarının, hər hansı patent, ticarət markası, dizayn və ya model, plan, məxfi formula və ya prosesin istifadəsi və ya istifadə hüququ əvəzində yaxud

sənaye, kommersiya və ya elmi avadanlığın istifadəsi və ya istifadə hüququ əvəzində və ya sənaye, kommersiya və ya elmi təcrübəyə (know-how) dair informasiya əvəzində alınan istənilən növ ödənişləri bildirir.

4. 1-ci və 2-ci bəndlərin müddəaları, royaltilərin faktiki sahibinin Razılığa gələn Dövlətin rezidenti olmaqla, royaltilərin yarandığı Razılığa gələn digər Dövlətdə sahibkarlıq fəaliyyətini orada yerləşən daimi nümayəndəlik vasitəsilə həyata keçirdiyi və ya həmin digər Dövlətdə daimi baza vasitəsilə müstəqil fərdi xidmətlər göstərdiyi və royaltilərin ödənilməsinə əsas verən hüquq və ya əmlakın bu cür daimi nümayəndəlik və ya daimi baza ilə faktiki olaraq əlaqəli olduğu halda tətbiq edilmir. Bu halda, şəraitdən asılı olaraq, 7-ci və ya 14-cü maddələrin müddəaları tətbiq edilir.

5. Royaltilərin ödəyicisi Razılığa gələn Dövlətin özü, onun yerli hakimiyyət orqanı və ya rezidenti olduğu halda, royaltilər həmin Dövlətdə yaranmış hesab edilir. Bununla belə, royaltiləri ödəyən şəxs Razılığa gələn Dövlətin rezidenti olub-olmamasından asılı olmayaraq, Razılığa gələn Dövlətdə daimi nümayəndəliyə və ya daimi bazaya sahib olduğu və royaltiləri ödəmək öhdəliyinin bu cür daimi nümayəndəlik və ya daimi baza ilə bağlı yarandığı və bu royaltilərin ödənilməsi üzrə xərclərin bu cür daimi nümayəndəlik və ya daimi baza tərəfindən çəkildiyi halda, bu cür royaltilər daimi nümayəndəliyin və ya daimi bazanın yerləşdiyi Dövlətdə yaranmış hesab edilir.

6. Əgər, ödəyici və faktiki sahibi arasında və ya onların hər ikisi ilə hər hansı digər şəxs arasındakı xüsusi münasibətlər səbəbindən istifadə, hüquq və ya informasiya ilə əlaqədar ödənilən royaltilərin məbləği, bu münasibətlər olmadığı halda ödəyici və faktiki sahib arasında razılaşdırıla biləcək məbləğdən artıqdırsa, bu maddənin müddəaları yalnız adı sonuncu çəkilən məbləğə tətbiq edilir. Bu halda, ödənişlərin artıq hissəsi, bu Sazişin digər müddəaları müvafiq qaydada nəzərə alınmaqla, Razılığa gələn Dövlətlərdən hər birinin qanunvericiliyinə müvafiq qaydada vergiyə cəlb edilir.

Maddə 13

Əmlakın dəyərinin artımı

1. Razılığa gələn Dövlətin rezidenti tərəfindən, 6-cı maddədə qeyd edilmiş və Razılığa gələn digər Dövlətdə yerləşən daşınmaz əmlakın özgəninkiləşdirilməsindən əldə edilən gəlirlər həmin digər Dövlətdə vergiyə cəlb edilə bilər.

2. Razılığa gələn Dövlətin müəssisəsinin Razılığa gələn digər Dövlətdə sahib olduğu daimi nümayəndəliyinin kommersiya əmlakının bir hissəsini təşkil edən daşınan əmlakın və ya Razılığa gələn Dövlətin rezidentinin müstəqil fərdi xidmətlər göstərmək məqsədi üçün Razılığa gələn digər Dövlətdə sərəncamında olan daimi bazaya aid daşınan əmlakın özgəninkiləşdirilməsindən gəlirlər, bu cür daimi nümayəndəliyin (ayrılıqda və ya bütün müəssisə ilə birlikdə) və ya bu cür daimi bazanın özgəninkiləşdirilməsindən gəlirlər də daxil olmaqla həmin digər Dövlətdə vergiyə cəlb edilə bilər.

3. Razılığa gələn Dövlətin müəssisəsi tərəfindən beynəlxalq daşımalarda istismar edilən gəmi, qayıq, hava gəmiləri və ya yol nəqliyyatı vasitələrinin və ya bu cür gəmi, qayıq, hava gəmiləri və ya yol nəqliyyatı vasitələrinin istismarı ilə bağlı olan daşınan əmlakın özgəninkiləşdirilməsindən əldə edilən gəlirlər yalnız müəssisənin qeydiyyatdan keçmiş ofisinin yerləşdiyi həmin Razılığa gələn Dövlətdə vergiyə cəlb edilir.

4. Razılığa gələn Dövlətin rezidenti tərəfindən, aktivləri bilavasitə və ya dolayısı ilə əsasən Razılığa gələn digər Dövlətdə yerləşən daşınmaz əmlakdan ibarət olan şirkətdəki səhmlərin və ya digər korporativ hüquqların özgəninkiləşdirilməsindən əldə edilən gəlirlər həmin digər Dövlətdə vergiyə cəlb edilə bilər.

5. 1-ci, 2-ci, 3-cü və 4-cü bəndlərdə qeyd edilənlər istisna edilməklə, hər hansı əmlakın özgəninkiləşdirilməsindən gəlirlər, yalnız əmlakı özgəninkiləşdirən şəxsin rezident olduğu Razılığa gələn Dövlətdə vergiyə cəlb edilir.

Maddə 14

Müstəqil fərdi xidmətlər

1. Razılığa gələn Dövlətin rezidenti tərəfindən peşəkar xidmətlərdən və ya müstəqil xarakterli digər fəaliyyətdən əldə edilən gəlirlər yalnız həmin Dövlətdə vergiyə cəlb edilir, bir şərtlə ki, o, öz fəaliyyətini həyata keçirmək məqsədi üçün Razılığa gələn digər Dövlətdə müntəzəm istifadə etdiyi daimi bazaya sahib olmasın. O bu cür daimi bazaya sahib olduğu halda, gəlirin yalnız həmin daimi bazaya aid edilə bilən hissəsi Razılığa gələn digər Dövlətdə vergiyə cəlb edilə bilər.

2. "Peşəkar xidmətlər" termininə xüsusilə müstəqil elmi, ədəbi, artistlik, təhsil və ya tədris fəaliyyəti, o cümlədən, həkimlərin, mühəndislərin, hüquqşünasların, stomatoloqların, memarların, auditorların və mühasiblərin müstəqil fəaliyyəti daxildir.

Maddə 15

Qeyri-müstəqil fərdi xidmətlər

1. Bu Sazişin 16-cı, 18-ci, 19-cu və 20-ci maddələrinin müddəaları nəzərə alınmaqla, Razılığa gələn Dövlətin rezidenti tərəfindən muzdlu işlə bağlı əldə edilən maaş, əmək haqqı və digər oxşar mükafatlar yalnız həmin Dövlətdə vergiyə cəlb edilir, bir şərtlə ki, muzdlu iş Razılığa gələn digər Dövlətdə həyata keçirilməsin. Əgər muzdlu iş Razılığa gələn digər Dövlətdə həyata keçirilirsə, onunla bağlı orada əldə edilən bu cür mükafatlar həmin digər Dövlətdə vergiyə cəlb edilə bilər.

2. Bu maddənin 1-ci bəndinin müddəalarından asılı olmayaraq, Razılığa gələn Dövlətin rezidenti tərəfindən Razılığa gələn digər Dövlətdə həyata keçirilən muzdlu işlə bağlı əldə edilən mükafat yalnız adı birinci çəkilən Dövlətdə vergiyə cəlb edilir, əgər:

(a) resipient cari vergi ilində başlayan və ya başa çatan istənilən 12 (on iki) aylıq dövr ərzində ümumilikdə 183 (yüz səksən üç) gündən artıq olmayan bir dövr və ya dövrlər ərzində həmin digər Dövlətdə qalırsa, və

(b) mükafat digər Dövlətin rezidenti olmayan işəgötürən tərəfindən və ya onun adından ödənilirsə, və

(c) mükafatların ödənilməsi üzrə xərclər işəgötürənin digər Dövlətdə sahib olduğu daimi nümayəndəlik və ya daimi baza tərəfindən çəkilmirsə.

3. Bu maddənin əvvəlki müddəalarından asılı olmayaraq, beynəlxalq daşımalarda istismar edilən gəmi, qayıq, hava gəmisinin göyərtəsində, yaxud yol nəqliyyatı vasitəsində həyata keçirilən muzdlu işlə bağlı əldə edilən mükafatlar müəssisənin qeydiyyatdan keçmiş ofisinin yerləşdiyi Razılığa gələn Dövlətdə vergiyə cəlb edilə bilər.

Maddə 16

Direktorların qonorarları

Razılığa gələn Dövlətin rezidenti tərəfindən Razılığa gələn digər Dövlətin rezidenti olan şirkətin direktorlar şurasının üzvü qismində əldə edilən qonorarlar və digər oxşar ödənişlər həmin digər Dövlətdə vergiyə cəlb edilə bilər.

Maddə 17

İncəsənət işçiləri və idmançılar

1. 14-cü və 15-ci maddələrin müddəalarından asılı olmayaraq, Razılığa gələn Dövlətin rezidenti tərəfindən teatr, kino, radio və ya televiziya artisti və ya musiqiçi qismində Razılığa gələn digər Dövlətdə həyata keçirilən incəsənət işçisi kimi və ya idmançı kimi fərdi fəaliyyətdən əldə edilən gəlir həmin digər Dövlətdə vergiyə cəlb edilə bilər.

2. Əgər, incəsənət işçisi və ya idmançının bu cür şəxs kimi fərdi fəaliyyəti ilə bağlı gəlir incəsənət işçisi və ya idmançının özünə deyil, digər şəxsə hesablanırsa, həmin gəlir, 7-ci, 14-cü və 15-ci maddələrin müddəalarından asılı olmayaraq, incəsənət işçisi və ya idmançının fəaliyyətinin həyata keçirildiyi Razılığa gələn Dövlətdə vergiyə cəlb edilə bilər.

3. 1-ci və 2-ci bəndlərin müddəaları incəsənət işçisi və ya idmançı tərəfindən Razılığa gələn Dövlətlərin Hökumətləri arasında bağlanmış mədəniyyət sahəsində müqavilə çərçivəsində həyata keçirilən fəaliyyətdən əldə edilən gəlirlərə tətbiq edilmir.

Maddə 18

Təqaüdlər

19-cu maddənin 2-ci bəndinin müddəaları nəzərə alınmaqla, Razılığa gələn Dövlətin rezidentinə keçmişdəki muzdlu işlə bağlı ödənilən təqaüdlər və digər oxşar mükafatlar yalnız həmin Dövlətdə vergiyə cəlb edilir.

Maddə 19

Dövlət qulluğu

1. (a) Razılığa gələn Dövlət və ya onun yerli hakimiyyət orqanı tərəfindən fiziki şəxsə, həmin Dövlətə və ya bölməyə, yaxud hakimiyyət orqanına göstərilən xidmətlərlə bağlı ödənilən təqaüd olmayan maaş, əmək haqqı və digər oxşar mükafatlar yalnız həmin Dövlətdə vergiyə cəlb edilir.

   (b) Bununla belə, əgər xidmətlər Razılığa gələn digər Dövlətdə göstərilirsə və fiziki şəxs həmin Dövlətin rezidentidirsə və o:

   (i) həmin Dövlətin milli şəxsidirsə; və ya

   (ii) yalnız qulluq göstərmək məqsədi üçün həmin Dövlətin rezidenti olmamışdırsa,

   bu cür mükafatlar yalnız Razılığa gələn digər Dövlətdə vergiyə cəlb edilir.

2. a) Razılığa gələn Dövlət, onun siyasi bölməsi və ya yerli hakimiyyət orqanı tərəfindən və ya onlar tərəfindən yaradılmış fondlardan fiziki şəxsə, həmin Dövlətə, yaxud hakimiyyət orqanına göstərilən xidmətlərlə bağlı ödənilən təqaüdlər yalnız həmin Dövlətdə vergiyə cəlb edilir.

   (b) Bununla belə, əgər fiziki şəxs Razılığa gələn digər Dövlətin rezidenti və milli şəxsidirsə, bu cür təqaüdlər yalnız həmin digər Dövlətdə vergiyə cəlb edilir.

3. 15-ci, 16-cı, 17-ci və 18-ci maddələrin müddəaları Razılığa gələn Dövlətin və ya onun yerli hakimiyyət orqanının sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi ilə bağlı göstərilən xidmətlərlə əlaqədar ödənilən mükafatlara və təqaüdlərə tətbiq edilir.

Maddə 20

Tələbələr

Razılığa gələn Dövlətin rezidenti olan və ya Razılığa gələn digər Dövlətə gəlməzdən bilavasitə əvvəl adı birinci çəkilən Dövlətin rezidenti olmuş və həmin digər Dövlətdə yalnız təhsil və ya təlim almaq məqsədilə olan tələbələrin və ya təcrübə keçən şəxslərin yaşamaq, təhsil və ya təlim almaq məqsədilə aldıqları ödənişlər həmin digər Dövlətdə vergiyə cəlb edilmir, bir şərtlə ki, bu cür ödənişlərin mənbəyi həmin digər Dövlətdən kənarda olsun.

Maddə 21

Digər gəlirlər

1. Razılığa gələn Dövlətin rezidentinin, barəsində bu Sazişin əvvəlki maddələrində söhbət açılmayan gəlir növləri, yaranma mənbəyindən asılı olmayaraq yalnız həmin Dövlətdə vergiyə cəlb edilir.

2. 1-ci bəndin müddəaları, 6-cı maddənin 2-ci bəndinə əsasən müəyyən edilmiş daşınmaz əmlakdan əldə olunan gəlirlərdən fərqli olan digər gəlirlərə, bu gəlirlərin resipienti Razılığa gələn Dövlətin rezidenti olmaqla sahibkarlıq fəaliyyətini Razılığa gələn digər Dövlətdə orada yerləşən daimi nümayəndəlik vasitəsilə həyata keçirdiyi və ya həmin digər Dövlətdə orada yerləşən daimi baza vasitəsilə müstəqil fərdi xidmətlər göstərdiyi və ödənilən gəlir bu cür daimi nümayəndəlik və ya daimi baza ilə faktiki olaraq əlaqəli olduğu halda tətbiq edilmir. Bu halda, şəraitdən asılı olaraq, 7-ci və ya 14-cü maddələrin müddəaları tətbiq edilir.

Maddə 22

Əmlak

1. 6-cı maddədə qeyd edilmiş, Razılığa gələn Dövlətin rezidentinə məxsus olan və Razılığa gələn digər Dövlətdə yerləşən daşınmaz əmlakla ifadə olunmuş əmlak həmin digər Dövlətdə vergiyə cəlb edilə bilər.

2. Razılığa gələn Dövlətin müəssisəsinin Razılığa gələn digər Dövlətdə sahib olduğu daimi nümayəndəliyinin kommersiya əmlakının bir hissəsini təşkil edən daşınan əmlakla və ya Razılığa gələn Dövlətin rezidentinin müstəqil fərdi xidmətlər göstərmək məqsədi üçün Razılığa gələn digər Dövlətdə sərəncamında olan daimi bazaya aid daşınan əmlakla ifadə olunmuş əmlak həmin digər Dövlətdə vergiyə cəlb edilə bilər.

3. Beynəlxalq daşımalarda istismar edilən gəmi, qayıq, hava gəmiləri və ya yol nəqliyyatı vasitələri ilə, yaxud bu cür gəmi, qayıq, hava gəmiləri və ya yol nəqliyyatı vasitələrinin istismarı ilə bağlı olan daşınan əmlakla təmsil olunmuş əmlak yalnız müəssisənin qeydiyyatdan keçmiş ofisinin yerləşdiyi Razılığa gələn Dövlətdə vergiyə cəlb edilir.

4. Razılığa gələn Dövlətin rezidentinin bütün digər əmlak elementləri yalnız həmin Dövlətdə vergiyə cəlb edilir.

Maddə 23

İkiqat vergitutmanın aradan qaldırılması metodu

1. Əgər Razılığa gələn Dövlətin rezidenti, bu Sazişin müddəalarına müvafiq olaraq Razılığa gələn digər Dövlətdə vergiyə cəlb edilə bilən gəlir əldə edirsə və ya əmlaka sahibdirsə, adı birinci çəkilən Dövlət:

(a) həmin rezidentin gəlir vergisindən həmin digər Dövlətdə ödənilmiş gəlir vergisinə bərabər məbləğin;

(b) həmin rezidentin əmlak vergisindən həmin digər Dövlətdə ödənilmiş əmlak vergisinə bərabər məbləğin çıxılmasına yol verəcəkdir.

Bununla belə, bu cür çıxılma heç bir halda çıxılma verilməzdən əvvəl hesablanmış və şəraitdən asılı olaraq həmin digər Dövlətdə vergiyə cəlb edilə bilən gəlir və ya əmlaka aid edilə bilən gəlir vergisi və ya əmlak vergisi hissəsindən artıq olmamalıdır.

2. Əgər bu Sazişin hər hansı bir müddəasına müvafiq olaraq, Razılığa gələn Dövlətin rezidenti tərəfindən əldə edilmiş gəlir və ya ona məxsus olan əmlak həmin Dövlətdə vergidən azaddırsa, bu Dövlət, buna baxmayaraq, bu cür rezidentin qalan gəlirinə və ya əmlakına vergi hesablayarkən, vergidən azad edilmiş gəliri və ya əmlakı nəzərə ala bilər.

Maddə 24

Ayrı-seçkiliyə yol verilməməsi

1. Razılığa gələn Dövlətin milli şəxsləri Razılığa gələn digər Dövlətdə həmin digər Dövlətin milli şəxslərinin eyni şəraitdə cəlb edildiyi və ya cəlb edilə biləcəyi vergitutma və ya bununla bağlı olan öhdəliklərdən fərqli və ya daha ağır olan vergitutma və ya bununla bağlı olan öhdəliklərə cəlb edilməməlidir. Bu müddəa, 1-ci maddənin müddəalarından asılı olmayaraq, həmçinin Razılığa gələn Dövlətlərdən birinin və ya hər ikisinin rezidenti olmayan şəxslərə də tətbiq edilir.

2. Razılığa gələn Dövlətin müəssisəsinin Razılığa gələn digər Dövlətdə sahib olduğu daimi nümayəndəliyinin vergiyə cəlb edilməsi həmin digər Dövlətdə həmin digər Dövlətin eyni fəaliyyətlə məşğul olan müəssisələrinin vergiyə cəlb edilməsindən az əlverişli olmamalıdır.

3. Razılığa gələn Dövlətin, əmlakı tamamilə və ya qismən Razılığa gələn digər Dövlətin rezidentinə və ya rezidentlərinə məxsus olan və ya onların birbaşa və ya dolayı nəzarəti altında olan müəssisəsi adı birinci çəkilən Dövlətdə həmin Dövlətin digər oxşar müəssisələrinin cəlb edildiyi və ya cəlb edilə biləcəyi vergitutma və ya bununla bağlı olan öhdəliklərdən fərqli və ya daha ağır olan vergitutma və ya bununla bağlı olan öhdəliklərə cəlb edilə bilməz.

4. 9-cu maddənin 1-ci bəndinin, 11-ci maddənin 7-ci bəndinin və ya 12-ci maddənin 6-cı bəndinin müddəalarının tətbiq edildiyi hallar istisna edilməklə, Razılığa gələn Dövlətin müəssisəsi tərəfindən Razılığa gələn digər Dövlətin rezidentinə ödənilən faizlər, royaltilər və digər ödənişlər, bu cür müəssisənin vergiyə cəlb edilməli olan mənfəətinin mü-

əyyən edilməsi məqsədilə, adı birinci çəkilən Dövlətin rezidentinə ödənildiyi halda tətbiq olunan eyni şərtlər əsasında çıxılmalıdır. Eynilə, Razılığa gələn Dövlətin müəssisəsinin Razılığa gələn digər Dövlətin rezidentinə olan hər hansı bir borcu, həmin müəssisənin vergiyə cəlb edilməli olan kapitalının müəyyən edilməsi məqsədilə adı birinci çəkilən Dövlətin rezidentinə olan borc kimi eyni şərtlər əsasında çıxılmalıdır.

5. Bu müddəalar, Razılığa gələn Dövlətin üzərinə onun, mülki status və ya ailə öhdəlikləri nəzərə alınmaqla öz rezidentlərinə verdiyi verigitutma məqsədləri üçün hər hansı şəxsi imtiyazların, güzəştlərin və çıxılmaların Razılığa gələn digər Dövlətin rezidentlərinə də verilməsi öhdəliyinin qoyulması kimi təfsir edilməməlidir.

Maddə 25

Qarşılıqlı razılaşma proseduru

1. Əgər, Razılığa gələn Dövlətin rezidenti Razılığa gələn Dövlətlərdən birinin və ya hər ikisinin hərəkətlərinin onun bu Sazişə uyğun olmayan tərzdə vergiyə cəlb edilməsinə gətirib çıxardığını və ya gətirib çıxara biləcəyini zənn edirsə, həmin şəxs, həmin Dövlətlərin daxili qanunvericiliklərində nəzərdə tutulmuş müdafiə vasitələrindən asılı olmayaraq, bu işlə bağlı rezident olduğu Dövlətin və ya bu hal 24-cü maddənin 1-ci bəndinin əhatə dairəsinə aiddirsə, milli şəxsi olduğu Razılığa gələn Dövlətin səlahiyyətli orqanlarına müraciət edə bilər. Müraciət, bu Konvensiyanın müddəalarına uyğun olmayan vergitutmaya gətirib çıxaran hərəkətlər haqqında ilk məlumat tarixindən etibarən 3 il ərzində təqdim edilməlidir.

2. Əgər, səlahiyyətli orqan etirazı əsaslandırılmış hesab edərək, eyni zamanda, qənaətbəxş qərara gələ bilmirsə bu Sazişin müddəalarına uyğun olmayan vergitutmanın qarşısının alınması məqsədilə məsələni Razılığa gələn digər Dövlətin səlahiyyətli orqanı ilə qarşılıqlı razılıq yolu ilə həll etməyə səy göstərir.

3. Razılığa gələn Dövlətlərin səlahiyyətli orqanları bu Sazişin təfsiri və ya tətbiqi ilə bağlı meydana çıxan bütün çətinlikləri və ya şübhələri qarşılıqlı razılıq yolu ilə həll etməyə səy göstərməlidirlər. Onlar, həmçinin bu Sazişdə nəzərdə tutulmamış hallarda ikiqat vergitutmanın aradan qaldırması üçün bir-biri ilə məsləhətləşmələr apara bilərlər.

4. Razılığa gələn Dövlətlərin səlahiyyətli orqanları, əvvəlki bəndlərin anlaşılmasında razılığın əldə edilməsi məqsədilə bir-biri ilə birbaşa əlaqələr yarada bilərlər. Səlahiyyətli orqanlar, məsləhətləşmələr yolu ilə bu maddədə göstərilmiş qarşılıqlı razılaşdırma prosedurunun tətbiqi üçün ikitərəfli prosedurlar, şərtlər, metodlar və vasitələr hazırlayacaqlar.

Maddə 26

İnformasiya mübadiləsi

1. Razılığa gələn Dövlətlərin səlahiyyətli orqanları bu Sazişin və ya bu Sazişin tətbiq edildiyi vergilərlə bağlı daxili qanunvericiliklərinin müddəalarının yerinə yetirilməsi üçün, zəruri olan informasiya mübadiləsi aparırlar, bir şərtlə ki, həmin qanunvericiliklərdə nəzərdə tutulan vergitutma bu Sazişə zidd olmasın. İnformasiya mübadiləsi 1-ci və 2-ci maddələrlə məhdudlaşmır. Razılığa gələn Dövlət tərəfindən əldə edilən istənilən informasiya həmin Dövlətin daxili qanunvericiliyi əsasında əldə edilmiş informasi-

yaya tətbiq edilən eyni qayda əsasında məxfi hesab edilir və yalnız Sazişin tətbiq edildiyi vergilərin hesablanması və ya toplanması, məcburi alınması və ya prosessual qaydada təqib edilməsi, yaxud həmin vergilərlə bağlı şikayətlərə baxılması ilə məşğul olan şəxslərə və ya orqanlara, o cümlədən, məhkəmələrə və inzibati orqanlara açıqlanır. Bu cür şəxslər və ya orqanlar həmin informasiyadan yalnız bu cür məqsədlər üçün istifadə edirlər. Onlar bu informasiyanı açıq məhkəmə istintaqı və ya məhkəmə qərarlarında açıqlaya bilərlər.

2. Heç bir halda, 1-ci bəndin müddəaları Razılığa gələn Dövlətlərin üzərinə aşağıdakı öhdəliklərin qoyulması kimi şərh edilməməlidir:

(a) bu və ya digər Razılığa gələn Dövlətin qanunvericiliyinə və inzibati təcrübəsinə zidd olan inzibati tədbirlər görmək;

(b) bu və ya digər Razılığa gələn Dövlətin qanunvericiliyinə və adi inzibati təcrübəsinə görə alınması mümkün olmayan informasiya vermək;

(c) hər hansı ticarət, sahibkarlıq, sənaye, kommersiya yaxud peşə sirrini, ticarət prosesini açа biləcək informasiya və ya açılması dövlət siyasətinə (ordre public) zidd olan informasiya vermək.

Maddə 27

Diplomatik nümayəndəliklərin və konsulluq idarələrinin üzvləri

Bu Sazişin heç bir müddəası diplomatik nümayəndəliklərin və ya konsulluq idarələrinin üzvlərinin beynəlxalq hüququn ümumi qaydalarına və ya xüsusi müqavilələrə əsasən müəyyən edilmiş vergi imtiyazlarına toxunmur.

Maddə 28

Qüvvəyə minmə

1. Razılığa gələn Dövlətlərin hər biri digərinə bu Sazişin qüvvəyə minməsi üçün onun qanunvericiliyi ilə tələb olunan prosedurların bitməsi barədə diplomatik kanallar vasitəsilə yazılı bildiriş təqdim edir.

2. Saziş sonuncu bildirişin alındığı tarixdən qüvvəyə minəcək və onun müddəaları Sazişin hüquqi qüvvəyə mindiyi ildən sonrakı təqvim ilinin əvvəlinə və ya ondan sonra əldə edilən gəlirlərə və mövcud olan əmlaka münasibətdə tətbiq ediləcəkdir.

Maddə 29

Qüvvədən düşmə

Bu Saziş Razılığa gələn Dövlətlərdən hər hansı biri tərəfindən onun qüvvəsi ləğv edilənədək qüvvədə olacaqdır. Razılığa gələn Dövlətlərdən hər biri bu Sazişin qüvvəyə mindiyi tarixdən sonrakı beş illik dövr bitdikdən sonra hər hansı təqvim ilinin başa çatmasına ən azı altı ay qalmış, qüvvədən düşmə haqqında yazılı bildiriş təqdim etməklə, diplomatik kanallarla, Sazişin qüvvəsini ləğv edə bilər. Bu halda, Sazişin qüvvəsi bildirişin verildiyi ildən sonrakı təqvim ilinin əvvəlinə və ya ondan sonra əldə edilən gəlirlərə və mövcud olan əmlaka münasibətdə ləğv edilir.

Bu Saziş Tehran şəhərində 10 mart 2009-cu il tarixində, uyğun olaraq hicri şəmsi tarixi

ilə 20 esfand 1387-ci il tarixində hər biri Azərbaycan, fars və ingilis dillərində olmaqla iki əsl nüsxədə imzalanmışdır, bütün mətnlər bərabər autentikdir. Təfsirdə fikir ayrılığı olduğu təqdirdə, ingilis dilində olan mətnə üstünlük veriləcəkdir.

Bunun təsdiqi olaraq, öz Hökumətləri tərəfindən müvafiq qaydada səlahiyyətləndirilmiş aşağıda imza edənlər bu Sazişi imzaladılar.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	İRAN İSLAM RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN
ELMAR MƏMMƏDYAROV	*ŞƏMSƏDDİN HÜSEYNİ*
Xarici işlər naziri	*İqtisadiyyat və maliyyə naziri*

PROTOKOL

Azərbaycan Respublikası Hökuməti və İran İslam Respublikası Hökuməti arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında Saziş imzalanan zaman, aşağıda imza edənlər Sazişin tərkib hissəsi sayılan aşağıdakı müddəalar barədə razılığa gəldilər:

1. 3-cü maddənin 1-ci bəndinin (h) altbəndinə (səlahiyyətli orqan) münasibətdə, belə başa düşülür ki, İran səlahiyyətli orqanı tərəfindən Azərbaycanın səlahiyyətli orqanlarının hər hansı birinə müraciət və/və ya istinad kifayətdir.

2. 28-ci və 29-cu maddələrə münasibətdə Azərbaycan Respublikasında və İran İslam Respublikasında təqvim illəri Razılığa gələn Dövlətlərin milli qanunvericiliklərinə əsasən, müvafiq olaraq 01 yanvar (11 dey) tarixində və 01 farvardin (21 mart) tarixində başlanır.

Bu Protokol Tehran şəhərində 10 mart 2009-cu il tarixində, uyğun olaraq hicri şəmsi tarixi ilə 20 esfand 1387-ci il tarixində hər biri Azərbaycan, fars və ingilis dillərində olmaqla iki əsl nüsxədə imzalanmışdır, bütün mətnlər bərabər autentikdir. Təfsirdə fikir ayrılığı olduğu təqdirdə, ingilis dilində olan mətnə üstünlük veriləcəkdir.

Bunun təsdiqi olaraq, öz Hökumətləri tərəfindən müvafiq qaydada səlahiyyətləndirilmiş aşağıda imza edənlər bu Protokolu imzaladılar.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	İRAN İSLAM RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN
ELMAR MƏMMƏDYAROV	*ŞƏMSƏDDİN HÜSEYNİ*
Xarici işlər naziri	*İqtisadiyyat və maliyyə naziri*

Azərbaycan Respublikası Hökuməti və İran İslam Respublikası Hökuməti arasında iqtisadiyyat və ticarət üzrə əhatəli əməkdaşlığa dair" Protokolun təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

1. "Azərbaycan Respublikası Hökuməti və İran İslam Respublikası Hökuməti arasında iqtisadiyyat və ticarət üzrə əhatəli əməkdaşlığa dair" 2009-cu il martın 10-da Tehran şə-

hərində imzalanmış Protokol təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 28 aprel 2009-cu il

№ 799-IIIQ

Azərbaycan Respublikası Hökuməti və İran İslam Respublikası Hökuməti arasında iqtisadiyyat və ticarət üzrə əhatəli əməkdaşlığa dair Protokol

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikası Hökuməti və İran İslam Respublikası Hökuməti,

mehriban qonşuluq münasibətlərini, iki ölkə arasında mövcud əlaqələrin səviyyəsinin yüksəldilməsi və möhkəmləndirilməsinə olan qarşılıqlı marağı, eləcə də iqtisadiyyat, ticarət və sənaye üzrə, habelə elmi və texniki sahələr üzrə uzunmüddətli əməkdaşlığın genişləndirilməsi istiqamətində Tərəflərin iradəsini nəzərə alaraq,

iki ölkə arasında 5 avqust 2004-cü il tarixində (hicri şəmsi təqvimi ilə 15.05.1383-cü il tarixində) imzalanmış Ticarət Sazişinin müddəalarını nəzərdə saxlayaraq,

iki ölkə arasında qarşılıqlı faydalı əməkdaşlığın inkişaf edərək genişləndirilməsi məqsədilə,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər arasında iqtisadiyyat, ticarət və sənaye üzrə, habelə elmi və texniki sahələr üzrə əməkdaşlıq, bu Protokolda qeyd olunan prioritet istiqamətlər və sahələr çərçivəsində həyata keçiriləcəkdir.

Maddə 2

Tərəflər sərmayə qoyuluşu, sığorta, vergi, gömrük, tarif, standart, karantin və tranzitə dair məsələlər üzrə iki ölkə arasında iqtisadiyyat və ticarət əməkdaşlığının inkişafının müqavilə və hüquqi əsaslarını öz milli qanunvericiliyinə uyğun yaradacaqlar.

Maddə 3

Tərəflər investisiya qoyuluşu və maliyyələşdirmə sahələrində bu Protokol çərçivəsində həyata keçiriləcək layihələr üzrə, həmçinin bu layihələrin icrası üçün beynəlxalq maliyyə mənbələrinin cəlb edilməsi istiqamətində əməkdaşlıq edəcəklər.

Maddə 4

Tərəflər öz milli qanunvericiliyinə uyğun olaraq, elmi və texniki sahələrdə əldə edilən nailiyyətlərdən istifadə, müasir texnologiyaların ötürülməsi, eləcə də digər ticarət sahələrində biri-birinə yardım göstərəcəklər.

Maddə 5

Tərəflər qarşılıqlı ticarət əlaqələrinə yardım məqsədilə ticarət sərgilərinin və konfransların keçirilməsi, eləcə də digər fəaliyyətlərin həyata keçirilməsi məqsədilə öz milli qanunvericiliyinə uyğun olaraq, bir-biri üçün lazımi sadələşdirmələr yaradacaqlar.

Maddə 6

Tərəflər öz dövlətlərinin ərazisində milli qanunvericiliyə riayət olunmaqla, iki ölkənin şirkətlərinin və iqtisadi qurumlarının filial və nümayəndəliklərinin açılışı və fəaliyyətini dəstəkləyəcəklər.

Maddə 7

Tərəflər hazırkı Protokolda nəzərdə tutulmuş əməkdaşlıq sahələrində öz milli qanunvericiliyinə əsasən fəaliyyət göstərən fiziki və hüquqi şəxslərə müvafiq şərait yaradacaqlar.

Maddə 8

Tərəflər öz milli maraqlarına və qanunvericiliyinə uyğun olaraq region bazarlarına çıxışı mümkün edən müştərək istehsalat və ticarət üçün müvafiq sadələşdirmələrin və şəraitin yaradılması istiqamətində tədbir görəcəklər.

Maddə 9

Tərəflər iki ölkə arasında ticarət və tranzit sahələrinin inkişafına lazım olan infrastrukturun yaradılması məqsədilə, avtomobil və dəmir yollarının inkişaf etdirilməsi üzrə birgə layihələrin həyata keçirilməsi istiqamətində əməkdaşlığı genişləndirəcəklər.

Maddə 10

Tərəflər sərmayə qoyuluşu və birgə fəaliyyətlərlə iki ölkədə yol inşası, şəhərsalma və memarlıq üzrə layihələrin həyata keçirilməsində iki ölkənin mühəndislik, podratçı, tikinti müəssisələri və şirkətləri arasında əməkdaşlığı dəstəkləyəcəklər.

Maddə 11

Tərəflər hazırkı Protokolun həyata keçirilməsinə dair əlaqələndirmələrin, nəzarətin və icra prosesində qarşıya çıxan problemlərin aradan qaldırılmasının Azərbaycan Respublikası və İran İslam Respublikası arasında iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə Dövlətlərarası Müştərək Komissiya tərəfindən həyata keçirilməsi barədə razılığa gəldilər.

Maddə 12

Tərəflərin qarşılıqlı razılığı əsasında bu Protokola onun ayrılmaz hissəsi olan və 13-cü maddədə müəyyən olunmuş qaydada qüvvəyə minən ayrıca protokollarla rəsmiləşdirilən əlavə və dəyişikliklər edilə bilər.

Maddə 13

Bu Protokol onun qüvvəyə minməsi üçün zəruri dövlətdaxili prosedurların yerinə yetirilməsi haqqında Tərəflərin diplomatik kanallar vasitəsilə sonuncu yazılı bildirişinin alındığı tarixdən qüvvəyə minəcək.

Bu Protokol beş il müddətinə bağlanılır və Tərəflərdən biri bu Protokolun müddətinin bitməsinə ən azı altı ay qalmış onu ləğv etmək niyyəti barədə yazılı şəkildə diplomatik kanallar vasitəsilə digər Tərəfə məlumat verməzsə, onun qüvvəsi avtomatik olaraq növbəti beşillik müddətlərə uzadılacaqdır.

Bu Protokolun ləğv olunması və yaxud qüvvəsinin dayandırılması bu Protokola uyğun yerinə yetirilən və həyata keçirilməsi razılaşdırılmış layihələrin icrasına təsir etmir.

Bu Protokol Tehran şəhərində 10 mart 2009-cu il tarixində (hicri şəmsi təqvimi ilə 20.12.1387-ci ildə) iki əsl nüsxədə, hər biri Azərbaycan və fars dillərində imzalanmışdır, bütün mətnlər bərabər autentikdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	İRAN İSLAM RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN
ŞAHİN MUSTAFAYEV	*MƏSUD MİRKAZİMİ*
İqtisadi inkişaf naziri	*Ticarət naziri*

"Azərbaycan Respublikası Hökuməti və Avropa Birlikləri Komissiyası arasında Çərçivə Sazişinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. Azərbaycan Respublikası Hökuməti və Avropa Birlikləri Komissiyası arasında 2008-ci il iyunun 16-da Bakı şəhərində imzalanmış Çərçivə Sazişi təsdiq edilsin.

II. Bu qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 28 aprel 2009-cu il

№ 800-IIIQ

Azərbaycan Respublikası Hökuməti və Avropa Birlikləri Komissiyası arasında Çərçivə Sazişi

Bir tərəfdən Avropa Birliyini (bundan sonra "Birlik" adlanacaq) təmsil edən və onun adından çıxış edən Avropa Birliklərinin Komissiyası (bundan sonra "Komissiya" adlanacaq)

və

digər tərəfdən Azərbaycan Respublikası Hökuməti (bundan sonra "Benefisiar ölkə" adlanacaq)

və birlikdə "Tərəflər" adlanacaq

nəzərə alaraq ki,

Azərbaycan Respublikası Şuranın Qaydalarına uyğun olaraq Birlik tərəfindən maliyyələşdirilən xarici yardımın alıcısı olmaq hüququna malikdir,

yardım nəzərdə tutulmuş fəaliyyətin həyata keçirilməsi məqsədilə Benefisiar ölkə və Komissiya tərəfindən imzalanmış maliyyələşdirmə sazişlərinə tətbiq olunur,

Azərbaycan Respublikasında fəaliyyətin həyata keçirilməsi üçün texniki, hüquqi və inzibati çərçivə müəyyən edilməlidir,

aşağıdakılara dair razılığa gəldilər:

Maddə 1

Məqsəd

1.1. Bu Çərçivə Sazişi Komissiya və Benefisiar ölkə tərəfindən 1994-cü il 3 fevral tarixində imzalanmış "Maliyyələşdirmə haqqında Memoranduma tətbiq edilən ümumi qaydalar"ı əvəz edir.

1.2. Bu Çərçivə Sazişi Birlik tərəfindən tam və ya qismən maliyyələşdirilən fəaliyyətin həyata keçirilməsi üçün tətbiq edilən qaydaların müddəalarını, xüsusilə xarici valyuta, vergi və gömrük rüsumlarına dair müddəaları müəyyən edir.

1.3. Bu Çərçivə Sazişi həmçinin Birlik tərəfindən maliyyələşdirilən, lakin məzmununa görə xüsusi maliyyələşdirmə sazişi ilə əhatə olunmayan fəaliyyətlərə də tətbiq edilir.

Maddə 2

Xarici valyuta razılaşmaları

2.1. Fəaliyyətin həyata keçirilməsi ilə əlaqədar Benefisiar ölkənin müvafiq dövlət qurumu(ları) yardımı almağa hüququ olan ölkələr arasında heç bir ayrı-seçkiliyə yol vermədən, idxala və xarici valyutanın alınmasına icazələrin verilməsini təmin edəcək(lər).

2.2. Müvafiq dövlət qurumu(ları) fəaliyyətin həyata keçirildiyi müddətdə səfərdə olan mütəxəssislərə və onların ailə üzvlərinə xarici valyutanın Benefisiar ölkəyə gətirilməsinə və saxlanmasına lazımi icazələr verməlidir.

2.3. Səfərdə olan ekspertlərə və onların ailə üzvlərinə xarici valyutanın istifadə olunmamış hissəsini ölkədən çıxarmaq hüququ verilməlidir.

Maddə 3

Vergi və gömrük şərtləri

3.1. Bu Çərçivə Sazişi çərçivəsində Birlik tərəfindən maliyyələşdirilən hər hansı bir fəaliyyətin həyata keçirilməsi məqsədilə bilavasitə Avropa Komissiyası və ya onun səlahiyyətli nümayəndəsi, yaxud Benefisiar ölkə və ya onun səlahiyyətli nümayəndəsi ilə müqavilə bağlamış fiziki və hüquqi şəxslər, həmçinin bu şəxslərin yerli işçi heyəti olmayan işçiləri və Birlik tərəfindən maliyyələşdirilən fəaliyyətin həyata keçirilməsinə cəlb edilmiş xarici ekspertlər Benefisiar ölkədə Birliyin maliyyələşdirdiyi fəaliyyətdən əldə etdikləri gəlirlərinə və/və ya mənfəətinə münasibətdə gəlir və/və ya mənfəət vergisinə və ya hər hansı bir digər vergi, tarif, rüsum, məcburi sosial ödənişlər, sair ödənişlər və ya digər yığımlara cəlb edilməyəcəklər.

3.2. Birlik tərəfindən maliyyələşdirilən fəaliyyətin icrası məqsədilə idxal olunmuş heç bir maldan Benefisiar ölkə və ya onun hər hansı bir qurumu tərəfindən müəyyən edilmiş gömrük və idxal rüsumları, vergilər və onlara ekvivalent effektə malik olan hər hansı başqa ödəmələr tutulmayacaq.

3.3. Komissiyanın müraciəti ilə Benefisiar ölkə idxal olunmuş malların müqavilənin normal icrası üçün tələb olunduğu kimi yardımın alıcısına çatdırılması məqsədilə vaxtında səlahiyyətli gömrük məntəqəsindən keçməsini təmin edəcək.

3.4. Müqavilə Benefisiar ölkədə istehsal olunmuş malın təchizatı ilə bağlı olduğu halda, əlavə dəyər vergisi çıxmaqla, xalis qiymət əsasında bağlanmalıdır. "Mal" anlayışı satılmaq üçün nəzərdə tutulan hər hansı bir məhsul, xidmət və ya hüquqlar kimi başa düşülməlidir.

3.5. Birlik tərəfindən maliyyələşdirilən müqavilələr çərçivəsində çalışan fiziki şəxslər tərəfindən şəxsi istifadə üçün idxal olunan şəxsi və ev əşyaları idxal rüsumlarından, gömrük vergilərindən və Benefisiar ölkə tərəfindən müəyyən ekvivalent effektə malik olan hər hansı başqa ödəmələrdən azad olunacaqlar. Bu kimi güzəştlər Benefisiar ölkənin vətəndaşlarına və daimi yaşayanlara şamil olunmur.

3.6. Bir ailəyə Benefisiar ölkəyə rüsumsuz bir avtomobil gətirməyə yalnız bir şərtlə icazə verilir ki, bu avtomobildən yalnız müvafiq müqavilə müddətində istifadə edilsin və o, bu müddətin sonunda yenidən ixrac olunsun. Mütəxəssislər və onların ailə üzvləri onların qüvvədə olan sürücülük vəsiqələrini təqdim etməklə sürücülük vəsiqələri ala bilərlər.

3.7. Benefisiar ölkə tərəfindən 3-cü maddənin şərtlərinə əməl olunmadığı halda, Birlik tərəfindən xarici yardım dayandırıla bilər.

Maddə 4

Tərəflər arasında əməkdaşlıq və məsləhətləşmələr

4.1. Benefisiar ölkə bu Çərçivə Sazişinin lazımi qaydada həyata keçirilməsi üçün bütün zəruri tədbirləri görməlidir.

4.2. Benefisiar ölkə bu Çərçivə Sazişinin tətbiqi ilə əlaqədar bütün məlumatlarla Komissiyanı təmin edəcək.

4.3. Bu Çərçivə Sazişinin tətbiq edilməsi və ya təfsiri ilə bağlı istənilən məsələlər Tərəflər arasında məsləhətləşmələr və ya digər diplomatik yollarla həll edilməli və Çərçivə Sazişinin müddəalarında, lazım gəldikdə, yazılı dəyişikliklərin edilməsi ilə nəticələnə bilər.

Maddə 5

Mübahisələrin həlli

Bu Çərçivə Sazişinin həyata keçirilməsindən irəli gələn hər hansı mübahisə ağlabatan müddət ərzində Tərəflər arasında məsləhətləşmələr və ya digər diplomatik yollarla həll olunmadıqda, Daimi Arbitraj Məhkəməsinin Beynəlxalq təşkilatları və dövlətləri əhatə edən Arbitrajın Dispozitiv Qaydalarına uyğun olaraq arbitraj yolu ilə həll olunmalıdır.

Maddə 6

Qüvvəyə minmə, müvəqqəti dayandırma və xitam vermə

6.1. Bu Saziş onun qüvvəyə minməsi üçün lazımi ölkədaxili prosedurların Benefisiar ölkə tərəfindən tamamlanmasını təsdiq edən sonuncu bildiriş sənədinin təqdim edildiyi

tarixdən qüvvəyə minəcək. Bu Sazişin müddəaları Benefisiar ölkədə qüvvədə olan qanunvericiliyə zidd olmadığı halda, hər iki Tərəfin Sazişi imzaladığı tarixdən müvəqqəti tətbiq ediləcək.

6.2. Səlahiyyətli orqanlar Çərçivə Sazişində müəyyən edilmiş öhdəlikləri yerinə yetirə bilmədiyi və vaxtında bu pozuntuların aradan qaldırılması üçün tədbirlər görmədiyi halda, Komissiya maliyyələşdirmə sazişlərinin icrasını dayandıra və ya onlara xitam verə bilər.

6.3. Hər bir Tərəf məsləhətləşmələrdən sonra 6 ay əvvəl bildiriş göndərməklə, bu Çərçivə Sazişini birtərəfli qaydada ləğv edə bilər.

6.4. Dayandırma və ya xitam vermə hallarında bu Çərçivə Sazişinin tətbiqi onun əsasında imzalanmış xüsusi maliyyələşdirmə sazişlərindən irəli gələn icrası başa çatmayan öhdəliklər üzrə davam edəcək.

Maddə 7

Dəyişikliklər

Bu Çərçivə Sazişinə hər hansı dəyişiklik yazılı şəkildə və Tərəflər arasında məktublar mübadiləsi formasında edilməlidir

Maddə 8

Sazişin dili

Bu Çərçivə Sazişi ingilis və Azərbaycan dillərində, hər mətni autentik olan iki əsl nüsxədə tərtib edilmişdir. Bu Çərçivə Sazişinin təfsiri ilə bağlı istənilən fikir ayrılığı yarandıqda ingilis dilindəki mətnə üstünlük veriləcəkdir.

2007-ci il iyunun 27-də Brüssel şəhərində tərtib edilmişdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	AVROPA BİRLİKLƏRİNİN KOMİSSİYASI ADINDAN
(imza)	*(imza)*

"Rumıniya və Bolqarıstan Respublikasının Avropa İttifaqına qəbul olunması ilə əlaqədar, bir tərəfdən Azərbaycan Respublikası, digər tərəfdən Avropa Birlikləri və onların üzvü olan dövlətlər arasında bağlanmış Tərəfdaşlıq və Əməkdaşlıq haqqında" Sazişə Protokolun təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. 2008-ci il dekabrın 9-da Brüssel şəhərində imzalanmış "Rumıniya və Bolqarıstan Respublikasının Avropa İttifaqına qəbul olunması ilə əlaqədar, bir tərəfdən Azərbaycan Respublikası, digər tərəfdən Avropa Birlikləri və onların üzvü olan dövlətlər arasında bağlanmış Tərəfdaşlıq və Əməkdaşlıq haqqında" Sazişə Protokol təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 28 aprel 2009-cu il

№ 801-IIIQ

Rumıniya və Bolqarıstan Respublikasının Avropa İttifaqına qəbul olunması ilə əlaqədar, bir tərəfdən Azərbaycan Respublikası, digər tərəfdən Avropa Birlikləri və onların üzvü olan dövlətlər arasında bağlanmış Tərəfdaşlıq və Əməkdaşlıq haqqında Sazişə Protokol

Protokolun məqsədləri üçün bundan sonra "Tərəflər" adlandırılacaq

Azərbaycan Respublikası

bir tərəfdən,

Avropa İttifaqı Şurası tərəfindən təmsil ediləcək və bundan sonra "Üzv Dövlətlər" adlandırılacaq

Almaniya Federativ Respublikası,

Avstriya Respublikası,

Belçika Krallığı,

Bolqarıstan Respublikası,

Çex Respublikası,

Danimarka Krallığı,

Estoniya Respublikası,

Yunanıstan Respublikası,

İspaniya Krallığı,

İrlandiya,

İtaliya Respublikası,

Fransa Respublikası,

Kipr Respublikası,

Latviya Respublikası,

Litva Respublikası,

Lüksemburq Böyük Hersoqluğu,

Macarıstan Respublikası,

Malta Respublikası,

Niderland Krallığı,

Polşa Respublikası,

Portuqaliya Respublikası,

Rumıniya,

Sloveniya Respublikası,

Slovakiya Respublikası,

Finlandiya Respublikası,

İsveç Krallığı,

Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı

və

Avropa İttifaqı Şurası və Avropa Komissiyası tərəfindən təmsil edilən və bundan sonra "Birliklər" adlandırılacaq

Avropa Birliyi və Avropa Atom Enerjisi Birliyi

digər tərəfdən

Almaniya Federativ Respublikası, Avstriya Respublikası, Belçika Krallığı, Çex Respublikası, Danimarka Krallığı, Estoniya Respublikası, Yunanıstan Respublikası, İspaniya Krallığı, İrlandiya, İtaliya Respublikası, Fransa Respublikası, Kipr Respublikası, Latviya Respublikası, Litva Respublikası, Lüksemburq Böyük Hersoqluğu, Macarıstan Respublikası, Malta Respublikası, Niderland Krallığı, Polşa Respublikası, Portuqaliya Respublikası, Sloveniya Respublikası, Slovakiya Respublikası, Finlandiya Respublikası, İsveç Krallığı, Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı ilə Bolqarıstan Respublikası və Rumıniya arasında Bolqarıstan Respublikası və Rumıniyanın Avropa İttifaqına qəbul olunmasına dair 25 aprel 2005-ci il tarixində Lüksemburqda imzalanmış və 1 yanvar 2007-ci il tarixdən tətbiq edilən Müqavilənin müddəalarını nəzərə alaraq,

Azərbaycan Respublikası və Avropa İttifaqı arasında əməkdaşlığa imkanlar açan və çağırışlar gətirən Aİ-yə iki yeni üzv dövlətin daxil olunmasından əmələ gələn Azərbaycan Respublikası və Avropa İttifaqı arasındakı münasibətlərin yeni vəziyyətini nəzərə alaraq,

TƏS-in məqsəd və prinsiplərinə nail olunmasının və onların həyata keçirilməsinin təmin olunmasında Tərəflərin arzusunu nəzərə alaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Bolqarıstan Respublikası və Rumıniya Avropa Birlikləri və onların Üzv Dövlətləri ilə Azərbaycan Respublikası arasında tərəfdaşlığın əsasını qoyan, 22 aprel 1996-cı il tarixində Lüksemburqda imzalanmış və 1 iyul 1999-cu ildə qüvvəyə minmiş Tərəfdaşlıq və Əməkdaşlıq haqqında Sazişin (bundan sonra "Saziş") Tərəfləri olacaqlar və digər üzv dövlətləri kimi eyni qaydada Sazişin mətnini, eləcə də, Birgə Bəyannamələrinin, Məktub Mübadilələrinin və həmin tarixdə imzalanmış Yekun Aktına və 18 may 2004-cü il tarixli Sazişə əlavə Protokola daxil edilmiş Azərbaycan Respublikasının Bəyanatının mətnini qəbul edəcək və nəzərə alacaqlar.

Maddə 2

Hazırkı Protokol Sazişin ayrılmaz tərkib hissəsini təşkil edəcək.

Maddə 3

1. Bu Protokol Azərbaycan Respublikası, Birliklər və Üzv Dövlətlər adından Avropa İttifaqı Şurası tərəfindən öz daxili proseduralarına uyğun olaraq təsdiq ediləcəkdir.

2. Tərəflər yuxarıdakı bənddə göstərilən müvafiq proseduraların tamamlanması barədə bir-birini məlumatlandıracaqlar. Təsdiqetmə haqqında sənədlər Avropa İttifaqı Şurasının Baş Katibliyinin depozitarisinə veriləcəkdir.

Maddə 4

1. Bu Protokol sonuncu təsdiqetmə sənədinin depozitə verilməsi tarixindən sonra növbəti ayın birinci günü qüvvəyə minəcək.

2. Qüvvəyə minmə tarixinədək bu Protokolun tətbiq edilməsi müvəqqəti olaraq 1 yanvar 2007-ci il tarixindən hesab ediləcək.

Maddə 5

1. Bu Sazişin mətni, Yekun Aktı və buna əlavə edilmiş bütün sənədlər, eləcə də 18 may 2004-cü il tarixli Sazişə əlavə Protokol rumın və bolqar dillərində tərtib edilmişdir.

2. Onlar bu Protokola əlavə ediləcək və Sazişin, Yekun Aktının, eləcə də 18 may 2004-cü il tarixli Sazişə əlavə Protokolun tərcümə edildiyi digər dillərdəki mətni ilə bərabər qüvvəyə malik olacaqlar.

Maddə 6

Bu Protokol Azərbaycan, bolqar, çex, Danimarka, holland, ingilis, fransız, eston, fin, alman, yunan, macar, italyan, polyak, Litva, Latviya, Malta, portuqal, rumın, slovak, sloven, ispan və İsveç dillərində bərabər qüvvəyə malik nüsxələrdə tərtib edilmişdir.

Brüssel şəhərində doqquz dekabr iki min səkkizinci il tarixində imzalanmışdır.

L.E. Slutskinin "Dostluq" ordeni ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında əməkdaşlıq və qarşılıqlı əlaqələrin möhkəmləndirilməsində xüsusi xidmətlərinə görə Leonid Eduardoviç Slutski "Dostluq" ordeni ilə təltif edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 2 may 2009-cu il

№ 252

S.Y. Orlovanın "Dostluq" ordeni ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında əməkdaşlıq və qarşılıqlı əlaqələrin möhkəmləndirilməsində xüsusi xidmətlərinə görə Svetlana Yuryevna Orlova "Dostluq" ordeni ilə təltif edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 2 may 2009-cu il

№ 253

V.İ. Yakuninin "Dostluq" ordeni ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında əməkdaşlıq və qarşılıqlı əlaqələrin möhkəmləndirilməsində xüsusi xidmətlərinə görə Vladimir İvanoviç Yakunin "Dostluq" ordeni ilə təltif edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 2 may 2009-cu il

№ 254

"Beynəlxalq maliyyə-kredit təşkilatlarında Azərbaycan Respublikasının nümayəndələrinin təyin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 20 fevral tarixli, 856 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı

"Beynəlxalq maliyyə-kredit təşkilatlarında Azərbaycan Respublikasının nümayəndələrinin təyin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 20 fevral tarixli, 856 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003-cü il, № 2, maddə 88) aşağıdakı dəyişikliklər edilsin:

1. Fərmanın 3-cü bəndinin ikinci və üçüncü abzasları aşağıdakı redaksiyada verilsin:

"2. Azərbaycan Respublikasının maliyyə naziri vəzifəsinə görə Asiya İnkişaf Bankının Müdirlər Şurasında Azərbaycan Respublikasından müdir, Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri vəzifəsinə görə həmin Bankın Müdirlər Şurasında Azərbaycan Respublikasından ehtiyat müdir təyin edilsin.

3. Azərbaycan Respublikasının maliyyə nazirinə və Azərbaycan Respublikasının iqtisadi inkişaf nazirinə Asiya İnkişaf Bankında Azərbaycan Respublikasını təmsil etmək səlahiyyəti verilsin".

2. Fərmanın 4-cü bəndinin ikinci və üçüncü abzasları aşağıdakı redaksiyada verilsin:

"1. Azərbaycan Respublikasının maliyyə naziri vəzifəsinə görə Qara Dəniz Ticarət və İnkişaf Bankının Müdirlər Şurasında Azərbaycan Respublikasından müdir, Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri vəzifəsinə görə həmin Bankın Müdirlər Şurasında Azərbaycan Respublikasından ehtiyat müdir təyin edilsinlər və onlara Qara Dəniz Ticarət və İnkişaf Bankında Azərbaycan Respublikasını təmsil etmək səlahiyyətləri verilsin.

2. Qara Dəniz Ticarət və İnkişaf Bankı ilə əlaqələrin saxlanılması Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə və Azərbaycan Respublikasının iqtisadi İnkişaf Nazirliyinə həvalə edilsin.".

3. Bu Fərman imzalandığı gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 12 may 2009-cu il

№ 88

"Azərbaycan Respublikası Ədliyyə Nazirliyi və Slovakiya Respublikası Ədliyyə Nazirliyi arasında əməkdaşlıq haqqında" Memorandumu imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Ədliyyə Nazirliyi və Slovakiya Respublikası Ədliyyə Nazirliyi arasında əməkdaşlıq haqqında" Memorandumu imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının ədliyyə naziri Fikrət Fərrux oğlu Məmmədova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Memorandumu imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının ədliyyə naziri Fikrət Fərrux oğlu Məmmədova verilməsi barədə Slovakiya Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 12 may 2009-cu il

№ 265

Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsi haqqında Əsasnamənin və komitənin strukturunun təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin fəaliyyətinin normativ hüquqi əsaslarını təkmilləşdirmək məqsədi ilə qərara alıram:

1. "Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsi haqqında Əsasnamə" təsdiq edilsin.

2. "Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin strukturu" təsdiq edilsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bir ay müddətində:

3.1. qüvvədə olan qanunvericilik aktlarının bu Fərmana uyğunlaşdırılması barədə təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin və müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.3. Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin aparatının işçilərinin say həddini müəyyən etsin;

3.4. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

4. "Azərbaycan Respublikasının Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsi haqqında Əsasnamənin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 28 avqust tarixli, 780 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002-ci il, № 8, maddə 500; 2005-ci il, № 10, maddə 910; 2008-ci il, № 11, maddə 970) qüvvədən düşmüş hesab edilsin.

5. Bu Fərman dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 14 may 2009-cu il

№ 95

"Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi və Kuba Respublikasının Mədəniyyət Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi və Kuba Respublikasının Mədəniyyət Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının mədəniyyət və turizm naziri Əbülfəs Mürsəl oğlu Qarayevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının mədəniyyət və turizm naziri Əbülfəs Mürsəl oğlu Qarayevə verilməsi barədə Kuba Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 18 may 2009-cu il

№ 278

"Azərbaycan Respublikası Hökuməti və Gürcüstan Hökuməti arasında azad ticarət haqqında 1996-cı il tarixli Sazişə dəyişiklik edilməsi haqqında Protokol"u Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti və Gürcüstan Hökuməti arasında azad ticarət haqqında 1996-cı il tarixli Sazişə dəyişiklik edilməsi haqqında Protokol"u Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri Şahin Abdulla oğlu Mustafayevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Protokolu Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri Şahin Abdulla oğlu Mustafayevə verilməsi barədə Gürcüstan Hökumətinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 21 may 2009-cu il

№ 287

"Azərbaycan Respublikası Hökuməti ilə Gürcüstan Hökuməti arasında əqli mülkiyyətin qorunması sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti ilə Gürcüstan Hökuməti arasında əqli mülkiyyətin qorunması sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin sədri Ramiz Ayvaz oğlu Həsənova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin sədri Ramiz Ayvaz oğlu Həsənova verilməsi barədə Gürcüstan Hökumətinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 21 may 2009-cu il

№ 288

"Azərbaycan Respublikası Hökuməti və Gürcüstan Respublikası Hökuməti arasında hava əlaqəsi haqqında Sazişə dəyişikliklər edilməsi haqqında Protokol"u Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti və Gürcüstan Respublikası Hökuməti arasında hava əlaqəsi haqqında Sazişə dəyişikliklər edilməsi haqqında Protokol"u Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin prezidenti Cahangir Cəlal oğlu Əsgərova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Protokolu Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin prezidenti Cahangir Cəlal oğlu Əsgərova verilməsi barədə Gürcüstan Hökumətinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 21 may 2009-cu il

№ 289

F.R. Şəfiyevə Azərbaycan Respublikasının fövqəladə və səlahiyyətli səfiri diplomatik rütbəsi verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

"Diplomatik xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 8.1.1-ci maddəsini rəhbər tutaraq qərara alıram:

Fərid Rauf oğlu Şəfiyevə Azərbaycan Respublikasının fövqəladə və səlahiyyətli səfiri diplomatik rütbəsi verilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 22 may 2009-cu il

№ 293

F.R. Şəfiyevin Azərbaycan Respublikasının Kanadada fövqəladə və səlahiyyətli səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alıram:

Fərid Rauf oğlu Şəfiyev Azərbaycan Respublikasının Kanadada fövqəladə və səlahiyyətli səfiri təyin edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 22 may 2009-cu il

№ 294

"Azərbaycan Respublikası Müdafiə Nazirliyi və Qazaxıstan Respublikası Müdafiə Nazirliyi arasında Qazaxıstan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularının Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi təhsil müəssisələrində təhsil alması haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Müdafiə Nazirliyi və Qazaxıstan Respublikası Müdafiə Nazirliyi arasında Qazaxıstan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularının Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi təhsil müəssisələrində təhsil alması haqqında Saziş"i imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının müdafiə naziri Səfər Axundbala oğlu Əbiyevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının müdafiə naziri Səfər Axundbala oğlu Əbiyevə verilməsi barədə Qazaxıstan Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 22 may 2009-cu il

№ 296

Xəzər dənizinin Azərbaycan Sektorunda Abşeron Dəniz Blokunun kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında Azərbaycan Respublikası Dövlət Neft Şirkəti, Total E&P Abşeron Bi.Vi.və ARDNŞ-in Ortaq Neft Şirkəti arasında Sazişin qəbul və təsdiq edilməsi, həyata keçirilməsinə icazə verilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikası Prezidentinin "Xəzər dənizinin Azərbaycan sektorunda Abşeron Dəniz Blokunun kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında" 2008-ci il 17 noyabr tarixli, 48 nömrəli Sərəncamına uyğun olaraq, 2009-cu il fevralın 27-də Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ("ARDNŞ") ilə Total E&P Abşeron Bi.Vi.("Total") və ARDNŞ-in Ortaq Neft Şirkəti ("ONŞ") arasında Saziş bağlanmışdır.

Azərbaycan Respublikasının Milli Məclisi:

Azərbaycan Respublikasının qanunvericiliyində Sazişin əhatə etdiyi məsələlərin tam və müasir tələblərə uyğun olaraq nizamlanmadığını;

Azərbaycan Respublikasının karbohidrogen ehtiyatları haqqında Azərbaycan Respublikası Qanununun olmamasını;

Sazişin şərtlərinə görə onun qanunverici orqan tərəfindən təsdiqindən sonra Qanun olmasını;

bu Qanunun Azərbaycan Respublikasının Konstitusiyasına tam uyğun olduğunu nəzərə alaraq,

Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktına və Azərbaycan Respublikasının Konstitusiyasına əsasən qərara alır:

1. "Xəzər dənizinin Azərbaycan sektorunda Abşeron Dəniz Blokunun kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında" Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti, Total E&P Abşeron Bi.Vi. və ARDNŞ-in Ortaq Neft Şirkəti arasında Saziş (bundan sonra "Saziş" adlanacaq) qəbul və təsdiq edilsin, onun həyata keçirilməsinə icazə verilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 7 aprel tarixli, 57 nömrəli qərarı ilə Sazişdə iştirak edən Podratçılara verilən Azərbaycan Respublikası Hökumətinin təminatı və öhdəlikləri (bundan sonra "Hökumət təminatı" adlanacaq) qəbul edilsin və onların həyata keçirilməsinə icazə verilsin.

3. Sazişin əsas mətninə edilmiş on (10) Əlavə və bir (1) Qoşma (bundan sonra "Əlavələr" adlanacaq) qəbul edilsin və onların həyata keçirilməsinə icazə verilsin.

4. Bu Qanun qüvvəyə mindikdən sonra Saziş, Hökumət təminatı və Əlavələr Qanun olurlar. Sazişdə konkret surətdə başqa hallar göstərilməyibsə, Saziş, Hökumət təminatı və Əlavələr Sazişin qüvvədə olduğu müddət ərzində bu Sazişə, Hökumət təminatına və Əlavələrə uyğun gəlməyən və ya zidd olan Azərbaycan Respublikasının hər hansı başqa mövcud və ya qəbul oluna biləcək qanunlarının, fərmanlarının, yaxud inzibati sərəncamlarının (və ya onların hissələrinin) müddəalarından üstün tutulur.

5. Bu Qanun qüvvəyə mindikdən sonra Sazişdə nəzərdə tutulan kontrakt sahəsinin istənilən hissəsi barəsində əvvəllər bağlanmış hər hansı saziş, kontrakt və ya bu cür başqa

sənədlə verilə bilən bütün digər hüquq və vəzifələr ləğv edilir, habelə bu Qanun qüvvəyə mindikdən sonra Sazişin, Hökumət təminatının və Əlavələrin şərtlərinə müvafiq surətdə və qüvvədə olduğu bütün müddət ərzində Sazişin pay iştirakçılarına kontrakt sahəsində neft-qaz əməliyyatları aparmaq üçün müstəsna hüquq verilir.

6. Bu Qanun qüvvəyə mindikdən sonra Podratçının (və ya onun hüquq varislərinin) Saziş, Hökumət təminatı və Əlavələr üzrə əldə etdiyi hüquqlar və mənafelər Podratçının qabaqcadan razılığı olmadan dəyişdirilə, düzəldilə və ya azaldıla bilməz.

7. Sazişdən irəli gələn hüquq və öhdəliklərin yerinə yetirilməsi üçün Sazişin iştirakçılarına bütün lazımi lisenziyalar, gömrük icazələri, vizalar, başqa səlahiyyətlər və sanksiyalar verilir.

8. Sazişə və ya Əlavələrə hər hansı əlavələr, düzəlişlər, dəyişikliklər yalnız Sazişin və Əlavələrin tərəflərinin yazılı razılığı ilə edilir.

9. Bu Qanun dərc olunduğu gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 22 may 2009-cu il

№ 814-IIIQ

Azərbaycan Respublikasında Kürovdağ yatağının daxil olduğu blokun bərpası, işlənməsi və hasilatın pay bölgüsü haqqında Azərbaycan Respublikası Dövlət Neft Şirkəti, Qlobal Enerci Azərbaycan Limited və ARDNŞ-in Ortaq Neft Şirkəti arasında Sazişin qəbul və təsdiq edilməsi, həyata keçirilməsinə icazə verilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasında Kürovdağ yatağının daxil olduğu blokun bərpası, işlənməsi və hasilatın pay bölgüsü haqqında" 2008-ci il 17 noyabr tarixli, 46 nömrəli Sərəncamına uyğun olaraq, 2009-cu il fevralın 3-də Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ("ARDNŞ") ilə Qlobal Enerci Azərbaycan Limited və ARDNŞ-in Ortaq Neft Şirkəti ("ONŞ") arasında Saziş bağlanmışdır.

Azərbaycan Respublikasının Milli Məclisi:

Azərbaycan Respublikasının qanunvericiliyində Sazişin əhatə etdiyi məsələlərin tam və müasir tələblərə uyğun olaraq nizamlanmadığını;

Azərbaycan Respublikasının karbohidrogen ehtiyatları haqqında Azərbaycan Respublikası Qanununun olmamasını;

Sazişin şərtlərinə görə onun qanunverici orqan tərəfindən təsdiqindən sonra Qanun olmasını;

bu Qanunun Azərbaycan Respublikasının Konstitusiyasına tam uyğun olduğunu nəzərə alaraq,

Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktına və

Azərbaycan Respublikasının Konstitusiyasına əsasən qərara alır:

1. "Azərbaycan Respublikasında Kürovdağ yatağının daxil olduğu blokun bərpası, işlənməsi və hasilatın pay bölgüsü haqqında" Azərbaycan Respublikası Dövlət Neft Şirkəti, Qlobal Enerci Azərbaycan Limited və ARDNŞ-in Ortaq Neft Şirkəti arasında Saziş (bundan sonra "Saziş" adlanacaq) qəbul və təsdiq edilsin, onun həyata keçirilməsinə icazə verilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 7 aprel tarixli, 56 nömrəli qərarı ilə Sazişdə iştirak edən Podratçılara verilən Azərbaycan Respublikası Hökumətinin təminatı və öhdəlikləri (bundan sonra "Hökumət təminatı" adlanacaq) qəbul edilsin və onların həyata keçirilməsinə icazə verilsin.

3. Sazişin əsas mətninə edilmiş doqquz (9) Əlavə və bir (1) Qoşma (bundan sonra "Əlavələr" adlanacaq) qəbul edilsin və onların həyata keçirilməsinə icazə verilsin.

4. Bu Qanun qüvvəyə mindikdən sonra Saziş, Hökumət təminatı və Əlavələr Qanun olurlar. Sazişdə konkret surətdə başqa hallar göstərilməyibsə, Saziş, Hökumət təminatı və Əlavələr Sazişin qüvvədə olduğu müddət ərzində bu Sazişə, Hökumət təminatına və Əlavələrə uyğun gəlməyən və ya zidd olan Azərbaycan Respublikasının hər hansı başqa mövcud və ya qəbul oluna biləcək qanunlarının, fərmanlarının, yaxud inzibati sərəncamlarının (və ya onların hissələrinin) müddəalarından üstün tutulur.

5. Bu Qanun qüvvəyə mindikdən sonra Sazişdə nəzərdə tutulan kontrakt sahəsinin istənilən hissəsi barəsində əvvəllər bağlanmış hər hansı saziş, kontrakt və ya bu cür başqa sənədlə verilə bilən bütün digər hüquq və vəzifələr ləğv edilir, habelə bu Qanun qüvvəyə mindikdən sonra Sazişin, Hökumət təminatının və Əlavələrin şərtlərinə müvafiq surətdə və qüvvədə olduğu bütün müddət ərzində Sazişin pay iştirakçılarına kontrakt sahəsində neft-qaz əməliyyatları aparmaq üçün müstəsna hüquq verilir.

6. Bu Qanun qüvvəyə mindikdən sonra Podratçının (və ya onun hüquq varislərinin) Saziş, Hökumət təminatı və Əlavələr üzrə əldə etdiyi hüquqlar və mənafelər Podratçının qabaqcadan razılığı olmadan dəyişdirilə, düzəldilə və ya azaldıla bilməz.

7. Sazişdən irəli gələn hüquq və öhdəliklərin yerinə yetirilməsi üçün Sazişin iştirakçılarına bütün lazımi lisenziyalar, gömrük icazələri, vizalar, başqa səlahiyyətlər və sanksiyalar verilir.

8. Sazişə və ya Əlavələrə hər hansı əlavələr, düzəlişlər, dəyişikliklər yalnız Sazişin və Əlavələrin tərəflərinin yazılı razılığı ilə edilir.

9. Bu Qanun dərc olunduğu gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 22 may 2009-cu il

№ 815-IIQ

Azərbaycan Respublikasında Neftçala, Xıllı, Durovdağ-Babazanan neft yataqlarının və Muğan monoklinalın Cənub-Qərb qanadının daxili olduğu blokun bərpası, işlənməsi və hasilatın pay bölgüsü haqqında Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə Neftçala İnvestments Limited və ARDNŞ-in Ortaq Neft Şirkəti arasında Sazişin qəbul və təsdiq edilməsi, həyata keçirilməsinə icazə verilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasında Neftçala, Xıllı, Durovdağ-Babazanan neft yataqlarının və Muğan monoklinalın Cənub-Qərb qanadının daxili olduğu blokun bərpası, işlənməsi və hasilatın pay bölgüsü haqqında" 2008-ci il 17 noyabr tarixli 45 nömrəli Sərəncamına uyğun olaraq, 2009-cu il fevralın 3-də Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ("ARDNŞ") ilə Neftçala İnvestments Limited və ARDNŞ-in Ortaq Neft Şirkəti ("ONŞ") arasında Saziş bağlanmışdır.

Azərbaycan Respublikasının Milli Məclisi:

Azərbaycan Respublikasının qanunvericiliyində Sazişin əhatə etdiyi məsələlərin tam və müasir tələblərə uyğun olaraq nizamlanmadığını;

Azərbaycan Respublikasının karbohidrogen ehtiyatları haqqında Azərbaycan Respublikası Qanununun olmamasını;

Sazişin şərtlərinə görə onun qanunverici orqan tərəfindən təsdiqindən sonra Qanun olmasını;

bu Qanunun Azərbaycan Respublikasının Konstitusiyasına tam uyğun olduğunu nəzərə alaraq,

Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktına və Azərbaycan Respublikasının Konstitusiyasına əsasən qərara alır:

1."Azərbaycan Respublikasında Neftçala, Xıllı, Durovdağ-Babazanan neft yataqlarının və Muğan monoklinalın Cənub-Qərb qanadının daxil olduğu blokun bərpası, işlənməsi və hasilatın pay bölgüsü haqqında" Azərbaycan Respublikası Dövlət Neft Şirkəti, Neftçala İnvestments Limited və ARDNŞ-in Ortaq Neft Şirkəti arasında Saziş (bundan sonra "Saziş" adlanacaq) qəbul və təsdiq edilsin, onun həyata keçirilməsinə icazə verilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 7 aprel tarixli 55 nömrəli qərarı ilə Sazişdə iştirak edən Podratçılara verilən Azərbaycan Respublikası Hökumətinin təminatı və öhdəlikləri (bundan sonra "Hökumət təminatı" adlanacaq) qəbul edilsin və onların həyata keçirilməsinə icazə verilsin.

3. Sazişin əsas mətninə edilmiş doqquz (9) Əlavə və bir (1) Qoşma (bundan sonra "Əlavələr" adlanacaq) qəbul edilsin və onların həyata keçirilməsinə icazə verilsin.

4. Bu Qanun qüvvəyə mindikdən sonra Saziş, Hökumət təminatı və Əlavələr Qanun olurlar. Sazişdə konkret surətdə başqa hallar göstərilməyibsə, Saziş, Hökumət təminatı və Əlavələr Sazişin qüvvədə olduğu müddət ərzində bu Sazişə, Hökumət təminatına və Əlavələrə uyğun gəlməyən və ya zidd olan Azərbaycan Respublikasının hər hansı başqa mövcud və ya qəbul oluna biləcək qanunlarının, fərmanlarının, yaxud inzibati sərəncamlarının (və ya onların hissələrinin) müddəalarından üstün tutulur.

5. Bu Qanun qüvvəyə mindikdən sonra Sazişdə nəzərdə tutulan kontrakt sahəsinin istənilən hissəsi barəsində əvvəllər bağlanmış hər hansı saziş, kontrakt və ya bu cür başqa sənədlə verilə bilən bütün digər hüquq və vəzifələr ləğv edilir, habelə bu Qanun qüvvəyə mindikdən sonra Sazişin, Hökumət təminatının və Əlavələrin şərtlərinə müvafiq surətdə və qüvvədə olduğu bütün müddət ərzində Sazişin pay iştirakçılarına kontrakt sahəsində neft-qaz əməliyyatları aparmaq üçün müstəsna hüquq verilir.

6. Bu Qanun qüvvəyə mindikdən sonra Podratçının (və ya onun hüquq varislərinin) Saziş, Hökumət təminatı və Əlavələr üzrə əldə etdiyi hüquqlar və mənafelər Podratçının qabaqcadan razılığı olmadan dəyişdirilə, düzəldilə və ya azaldıla bilməz.

7. Sazişdən irəli gələn hüquq və öhdəliklərin yerinə yetirilməsi üçün Sazişin iştirakçılarına bütün lazımi lisenziyalar, gömrük icazələri, vizalar, başqa səlahiyyətlər və sanksiyalar verilir.

8. Sazişə və ya Əlavələrə hər hansı əlavələr, düzəlişlər, dəyişikliklər yalnız Sazişin və Əlavələrin tərəflərinin yazılı razılığı ilə edilir.

9. Bu Qanun dərc olunduğu gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 22 may 2009-cu il

№ 816-IIQ

"Azərbaycan Respublikası ilə Beynəlxalq İnkişaf Assosiasiyası arasında Maliyyələşdirmə Sazişi təsdiq edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Sərəncamı

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 8 aprel tarixli 72 s nömrəli sərəncamı ilə verilmiş səlahiyyətə əsasən 2009-cu il aprelin 20-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası ilə Beynəlxalq İnkişaf Assosiasiyası arasında Maliyyələşdirmə Sazişi (Kənd İnvestisiyaları Layihəsi üçün Əlavə Maliyyələşdirmə)" təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyinə, Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyinə, Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə tapşırılsın ki, bu sərəncamın 1-ci bəndində göstərilən Sazişin həyata keçirilməsi ilə əlaqədar lazımi tədbirlər görsünlər.

3. Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi "Dövlət zəmanəti ilə alınan kreditlərə dair sazişlərin bağlanması qaydaları haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 13 fevral tarixli 368 nömrəli Fərmanının 1.15-ci bəndinin icrasını təmin etmək üçün kreditin səmərəli və məqsədyönlü istifadəsinə dair məlumatı ildə bir dəfədən az olmayaraq, zəruri hallarda tələb olunduqda və layihə tam başa çatdıqdan sonra yekun hesabatı Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi və Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırmaqla, Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin.

4. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu sərəncamın 1-ci

bəndində göstərilən Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Beynəlxalq İnkişaf Assosiasiyasını xəbərdar etsin.

5. Bu sərəncamın icrasına nəzarət Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyinə həvalə edilsin.

6. Bu sərəncam imzalandığı gündən qüvvəyə minir.

A.RASİ-ZADƏ

Azərbaycan Respublikasının Baş naziri

Bakı şəhəri, 25 may 2009-cu il

№ 122s

KREDİTİN NÖMRƏSİ 4404-AZ

Maliyyələşdirmə Sazişi
(Kənd İnvestisiyaları Layihəsi üçün
Əlavə Maliyyələşdirmə)

AZƏRBAYCAN RESPUBLİKASI İLƏ BEYNƏLXALQ İNKİŞAF ASSOSİASİYASI ARASINDA MALİYYƏLƏŞDİRMƏ SAZİŞİ

20 aprel 2009-cu il

AZƏRBAYCAN RESPUBLİKASI ("Resipient") ilə BEYNƏLXALQ İNKİŞAF ASSOSİASİYASI ("Assosiasiya") arasında İlkin Layihəyə (bu sazişin Qoşmasında müəyyənləşdirildiyi kimi) əlavə maliyyələşdirmənin təmin edilməsi məqsədilə 20 aprel 2009-cu il tarixli Saziş. Resipient və Assosiasiya bununla aşağıdakılar barədə razılığa gəlirlər:

MADDƏ I

ÜMUMİ ŞƏRTLƏR; ANLAYIŞLAR

1.01. Ümumi Şərtlər (Bu Sazişin Qoşmasında müəyyənləşdirildiyi kimi) bu Sazişin ayrılmaz tərkib hissəsini təşkil edir.

1.02. Kontekstə əsasən başqa cür tələb olunan hallar istisna olmaqla, bu Sazişdə baş hərflərlə verilmiş terminlər Ümumi Şərtlərdə və bu Sazişin Qoşmasında göstərilmiş mənalara malikdir.

MADDƏ II

MALİYYƏLƏŞDİRMƏ

2.01. Assosiasiya bu Sazişin 1-ci Əlavəsində təsvir olunmuş layihəni ("Layihə") maliyyələşdirməyə yardım göstərmək üçün bu Sazişdə müəyyənləşdirilmiş və ya istinad edilmiş şərtlərlə doqquz milyon beş yüz min Xüsusi Borcalma Hüququna (SDR 9,500,000) ekvivalent məbləğdə krediti ("Kredit" və ya "Maliyyələşdirmə") Resipientə verməyə razılaşır.

2.02. Resipient bu Maliyyələşdirmənin vəsaitlərindən bu Sazişin 2-ci Əlavəsinin IV bölməsində göstərilmiş qaydada istifadə edə bilər.

2.02. Resipient tərəfindən Maliyyələşdirmənin istifadə edilməmiş qalığı üzərinə ödənilən Maksimum Öhdəlik Haqqı ildə bir faizin yarısına (1/2%) bərabərdir.

2.04. Resipient tərəfindən Maliyyələşdirmənin istifadə edilmiş hissəsi üzərinə ödənilən Xidmət Haqqı ildə bir faizin dörddə üç hissəsinə (3/4%) bərabərdir.

2.05. Ödəniş Tarixləri hər ilin 1 aprel və 1 oktyabr tarixləridir.

2.06. Maliyyələşdirmənin əsas məbləği Bu Sazişin 3-cü Əlavəsində göstərilmiş ödəniş qrafiki əsasında qaytarılır.

2.07. Ödəniş valyutası Dollardır.

MADDƏ III

LAYİHƏ

3.01. Resipient bu Layihənin məqsədlərinə sadiqliyini bəyan edir. Bu məqsədlə Resipient bu Layihəni Ümumi Şərtlərin IV Maddəsinin müddəalarına uyğun olaraq LİQ vasitəsilə həyata keçirir.

3.02. Bu Sazişin 3.01-ci bəndinin müddəalarını məhdudlaşdırmadan, və Resipient və Assosiasiya arasında başqa cür razılaşdırılmış hallar istisna olmaqla, Resipient Layihənin Əməliyyat Təlimatına və bu Sazişin 2-ci Əlavəsinin müddəalarına uyğun şəkildə həyata keçirilməsini təmin edir.

3.03. Bu Sazişin 3.01-ci bəndinin müddəalarını məhdudlaşdırmadan, Resipient:

(a) Layihənin xərclərində öz payını maliyyələşdirmək üçün Layihə başa çatanadək Assosiasiya üçün məqbul olan müddət və şərtlərlə Manatla Layihə Hesabına malik olmalı;

(b) Hər rüb Layihə Hesabına həmin rüb üzrə Resipient və Assosiasiya arasında razılaşdırılmış müvafiq pay hissəsini örtmək üçün tələb olunan məbləğləri vaxtlı-vaxtında yerləşdirməli; və

(c) Layihə Hesabına yerləşdirilmiş vəsaitlərin müstəsna olaraq Resipientin Layihədə pay iştirakının maliyyələşdirilməsi üçün istifadə edilməsini təmin etməlidir.

MADDƏ IV

ASSOSİASİYANIN MÜDAFİƏ VASİTƏLƏRİ (REMEDİUMLARI)

4.01. Sazişin fəaliyyətinin dayandırılması üçün Əlavə Hal aşağıdakılardan ibarətdir:

(a) Əməliyyat Təlimatının dəyişdirilməsi, dayandırılması, qüvvədən salınması və ya ləğv edilməsi, və Assosiasiyanın zənninə görə, bunun nəticəsində Layihənin həyata keçirilməsinə əhəmiyyətli mənfi təsir göstərilməsi.

4.02. Kreditin vaxtından əvvəl Assosiasiyaya qaytarılması üçün əlavə hal aşağıdakından ibarətdir:

(a) Bu Sazişin 4.01 (a) bəndində göstərilmiş halın baş verməsi və bu halın baş verməsi barədə Assosiasiyanın Resipientə məlumat verməsindən sonra 60 gün ərzində davam etməsi.

MADDƏ V

QÜVVƏYƏ MİNMƏ; XİTAM

5.01. Sazişin qüvvəyə minməsi üçün əlavə şərt aşağıdakıdır:

(a) Layihənin İcra Təlimatına Assosiasiya üçün məqbul olan dəyişikliklər edilmişdir.

5.02. Bu Sazişin qüvvəyə minməsi üçün son tarix onun imzalanma tarixindən sonra doxsan (90) gündür.

MADDƏ VI

NÜMAYƏNDƏLƏR; ÜNVANLAR

6.01. Resipientin nümayəndəsi Maliyyə Naziridir.

6.02. Resipientin ünvanı:

Maliyyə Nazirliyi

Səməd Vurğun küçəsi 83

Bakı AZ1022 Azərbaycan Respublikası

Teleks: 142116BNKSL

6.03. Assosiasiyanın ünvanı:

Beynəlxalq İnkişaf Assosiasiyası

1818H Street, N.W.

Washington, D.C. 20433

United States of America

Teleqram:	Teleks:	Faksimil:
INDEVAS	248423 (MCI)	1-202-477-6391
Washington, D.C.		

_____, _____ tarixində razılaşdırılmışdır.

AZƏRBAYCAN RESPUBLİKASI SƏLAHİYYƏTLİ NÜMAYƏNDƏ

BEYNƏLXALQ İNKİŞAF ASSOSİASİYASI SƏLAHİYYƏTLİ NÜMAYƏNDƏ

ƏLAVƏ I

Layihənin təsviri

Layihənin məqsədi mikrolayihələrin həyata keçirildiyi kənd icmalarında əhalinin infrastruktur xidmətlərinə çıxış imkanlarının gücləndirilməsi yolu ilə həyat şəraitinin yaxşılaşdırılması.

Layihə İlkin Layihəyə daxil olan hissələrdən ibarətdir.

Hissə A: **İnfrastruktur**

Əməliyyatlar üzrə Təlimata əsasən Resipientlərə yaşayış səviyyəsinin yaxşılaşdırılması və infrastruktur xidmətlərindən istifadənin genişləndirilməsi üçün qrantların verilməsi.

Hissə B: **Potensialın gücləndirilməsi**

1. Seçilmiş icmaların, o cümlədən Resipientlərin Layihənin A Hissəsini həyata keçirmək üçün potensialını formalaşdırmaq məqsədilə təlimin verilməsi və məsləhət xidmətlərinin göstərilməsi.

2. LİQ və onun RƏO-larına Layihənin A Hissəsinin qiymətləndirilməsi və icrasına nəzarət etməkdə yardım göstərmək üçün təlimin verilməsi və məsləhət xidmətlərinin göstərilməsi.

Hissə C: **Layihənin idarə olunması**

Layihə fəaliyyətinin effektiv icrasında LİQ-ə və onun RƏO-larına yardım göstərmək üçün məsləhət xidmətlərinin, işlərin, audit xidmətlərinin və malların təmin olunması

ƏLAVƏ 2

Layihənin icrası

Bölmə I. İcra mexanizmləri

A. **İnstitusional mexanizmlər**

1. Resipient Layihə başa çatanadək LİQ-in mövcud olmasını, LİQ-in müvafiq ixtisasa və texniki tapşırıqlara malik olan işçi heyətə malik olmasını və hər bir zaman Layihənin həyata keçirilməsi üçün zəruri və məqbul, Assosiasiya üçün isə qənaətbəxş olan prosedurlar əsasında fəaliyyət göstərməsini təmin edir.

2. Resipient təmin edir ki, əlaqədar tərəflərin geniş şəkildə təmsil olunduğu İşçi Qrup Layihə başa çatanadək Assosiasiya üçün qənaətbəxş şəkildə öz mövcudluğunu davam etdirsin.

B. **Antikorrupsiya**

Resipient Maliyyələşdirmənin hesabına maliyyələşdirilən Layihə üzrə bütün fəaliyyətlərin Antikorrupsiya Təlimatının müddəalarına uyğun şəkildə həyata keçirilməsini təmin edir.

C. **Mikrolayihələr**

1. Resipient Benefisiarlara Qrantları Assosiasiya üçün məqbul olan legitimlik meyarları və prosedurlarına uyğun şəkildə verir. Bura daxildir:

(a) Layihənin A Hissəsinin çərçivəsindəki mikrolayihələr aşağıdakı qurumlar üçün nəzərdə tutulur:

(a) bələdiyyələr;

(b) Əməliyyat Təlimatına görə legitim olan, əhalisinin sayı 1000 nəfərdən çox 10 000 nəfərdən az olan (əhalisi birlikdə 1000 nəfərə çatan daha kiçik icma birlikləri də daxil olmaqla) kənd icmalarının nümayəndələrindən təşkil olunmuş hüquqi şəxs kimi qeydiyyata alınmış icma təşkilatları; və ya

(c) Borcalan və Assosiasiyanın razılaşa biləcəyi hər hansı digər birlik və təşkilatlar.

(b) RƏO-lar təbliğat və təşviqat kampaniyaları təşkil edir, mikrolayihə təkliflərinin təqdim olunması üçün müraciətlər edir və mikrolayihə təkliflərinin hazırlanmasında yardım göstərir.

(c) Əməliyyat Təlimatında müəyyənləşdirilmiş qaydada icmaların səfərbər olunması fəaliyyətinin çərçivəsində formalaşdırılmış Mikrolayihə Komitələri mikrolayihə təkliflərini müvafiq icmanın adından RƏO-lara təqdim edir;

(d) RƏO-lar mikrolayihələri aşağıdakıların əsasında qiymətləndirir və dəyərləndirir: (a) icmaya təsir; (b) mikrolayihənin nəzərdə tutduğu xidməti göstərmək üçün institusional potensialın mövcudluğu; (c) maliyyə cəhətdən həyat qabiliyyətlilik; və (d) texniki və ekoloji təhlükəsizlik.

(e) Torpağın ekspropriasiyasını nəzərdə tutan heç bir mikrolayihə nəzərdən keçirilmir.

(f) RƏO-lar nəticələri qeydə alır və təkliflərin qiymətləndirilməsinin xülasəsini təsdiq və ya rədd edilmək üçün Regional Qrantların Təsdiqi Komissiyasına təqdim edir. Regional Qrantların Təsdiqi Komissiyasının hər hansı üzvü və ya üzvləri hər hansı təkliflə potensial maraqlar ziddiyyətində ola bilərsə, o zaman onlar konkret təklif üzrə qərar qəbul edilməsində iştirak etməkdən imtina etməlidirlər.

(g) Ayrı-ayrı qrantların məbləği mikrolayihə çərçivəsində tələb olunacaq malların, işlərin, xidmətlərin və əməliyyat xərclərinin əsasında hesablanır və qrantın məbləği mikrolayihənin ümumi dəyərinin 90 faizindən çoxunu təşkil edə bilməz.

(h) Regional Qrantların Təsdiqi Komissiyası tərəfindən təsdiq olunmuş mikrolayihələrin hüquqi şəxs kimi qeydiyyata alınmamış icma təşkilatları tərəfindən icra olunması nəzərdə tutulursa, Resipient, belə təşkilatlarının nizamnamələrinin Resipientin qanunvericiliyə uyğun şəkildə vaxtında qeydiyyata alınması üçün Assosiasiya üçün məqbul olan zəruri addımları atır.

(2) Resipient hər bir Qrantı Benefisiara onunla bağlanan və şərtləri Assosiasiya tərəfindən təsdiq olunan Qrant Sazişi çərçivəsində verir. Qrant Sazişinə aşağıdakılar daxil edilir:

(a) Benefisiar təminat verir ki, qrant vəsaitləri müstəsna olaraq Regional Qrantların Təsdiqi Komissiyasının təsdiq etdiyi mikrolayihədə göstərilmiş məqsədlərə sərf edilsin;

(b) Benefisiar mikrolayihənin dəyərinin əz azı 10 faizini, nağd pulla və ya natura ilə təmin etsin;

(c) Resipient öz maraqlarını və Assosiasiyanın maraqlarını müdafiə etmək üçün zəruri hüquqlara, o cümlədən aşağıdakılara malik olsun:

(i) Benefisiar Qrant Sazişi çərçivəsində öz öhdəliklərini yerinə yetirə bilmədikdə onun Qrant vəsaitlərindən istifadə etmək hüququnu dayandırmaq və ya ona xitam vermək, yaxud Qrantın artıq istifadə edilmiş hissəsini tam və ya qismən geri qaytarmağı tələb etmək;

(ii) hər bir Benefisiardan:

(A) hər bir mikrolayihəni Assosiasiya üçün məqbul olan sağlam texniki, iqtisadi, maliyyə, idarəetmə, ekoloji, sosial standartlara və praktikaya, o cümlədən Antikorrupsiya Təlimatının Resipient istisna olmaqla Maliyyələşdirmə vəsaitlərinin digər istifadəçilərinə tətbiq olunan müddəalarına uyğun olaraq həyata keçirilməsini;

(B) bu məqsədlə tələb olunan resursları tələb olunan qaydada təxirə salınmadan təmin edilməsini;

(C) Qrant hesabına satın alınacaq malları, işləri və xidmətləri bu sazişin müddəalarına uyğun satın alınmasını;

(D) mikrolayihənin icrasının gedişini və onun məqsədlərinə nail olunmasını Assosiasiya üçün məqbul göstəricilər əsasında monitorinq etmək və qiymətləndirmək üçün adekvat olan siyasət və prosedurlara malik olmağı;

(E) (1) Assosiasiya üçün məqbul olan mühasibat standartlarının ardıcıl olaraq tətbiq olunması yolu ilə Layihə ilə bağlı əməliyyatları, resursları və xərcləri adekvat şəkildə əks etdirməyə qabil olan maliyyə menecmenti sisteminə malik olmağı və maliyyə hesabatlarını hazırlamağı;

(2) Assosiasiyanın və ya Resipientin müraciəti əsasında həmin hesabatların Assosiasiya üçün məqbul olan audit standartlarının ardıcıl şəkildə tətbiq olunması yolu ilə Assosiasiya üçün məqbul olan müstəqil auditorlar tərəfindən audit yoxlamasından keçirilməsini və audit yoxlamasından keçmiş hesabatların Assosiasiyaya təqdim olunmasını;

(F) Resipient və Assosiasiyaya mikrolayihəni, onun fəaliyyətini və müvafiq uçot və sənədləri təftiş etməsinə şərait yaratmağı;

(G) Resipient və Assosiasiyanın əsaslandırılmış şəkildə tələb edə biləcəyi hər hansı informasiyanı hazırlamağı və Resipient və Assosiasiyaya təqdim etməsini tələb etmək.

(d) Resipient hər bir Qrant Sazişi çərçivəsində öz hüquqlarından Resipientin və Assosiasiyanın maraqlarının qorunmasına və Maliyyələşdirmənin məqsədlərinə nail olunmasına imkan verən tərzdə istifadə edir. Assosiasiyanın razılaşdığı hallar istisna olmaqla, Resipient heç bir Qrant Sazişini və ya onun hər hansı müddəası üzrə öz hüquqlarını başqa şəxsə ötürmür, sazişlərə düzəliş etmir, ləğv etmir və ya xitam vermir.

D. **Sosial-ekoloji normalar**

1. Resipient ƏMİP-in vaxtı-vaxtında yerinə yetirilməsi üçün bütün tədbirləri görür və ya görülməsini təmin edir.

Bölmə II. **Layihənin monitorinqi, hesabatvermə, qiymətləndirmə**

A. **Layihə hesabatları**

1. Resipient Layihənin icrasının monitorinqini və qiymətləndirilməsini həyata keçirir və Ümumi Şərtlərin 4.08-ci bəndinə uyğun olaraq Assosiasiya ilə razılaşdırılmış göstəricilər əsasında Layihə Hesabatlarını hazırlayır. Hər bir Layihə Hesabatı bir (1) təqvim semestrini əhatə edir və həmin hesabatın əhatə etdiyi dövrün başa çatmasından sonra on gecə qırx beş (45) gün ərzində Assosiasiyaya təqdim edilir.

B. **Maliyyə menecmenti, maliyyə hesabatları və auditlər**

1. Resipient Ümumi Şərtlərin 4.09-cu bəndinin müddəalarına uyğun olaraq maliyyə menecmenti sisteminə malik olmalı və ya belə sistemin mövcudluğunu təmin etməlidir.

2. Bu Bölmənin A hissəsinin müddəalarını məhdudlaşdırmadan Resipient, hər bir təqvim rübünün başa çatmasından sonra qırx beş (45) gündən gec olmamaqla həmin rübü əhatə edən dövr üçün Layihənin audit yoxlamasından keçməmiş aralıq maliyyə hesabatlarını forma və məzmunca Assosiasiya üçün məqbul qaydada Assosiasiyaya təqdim edir.

3. Ümumi Şərtlərin 4.09 (b) bəndinə uyğun olaraq Resipient öz Maliyyə Hesabatlarının audit yoxlamasından keçməsini təmin edir. Maliyyə Hesabatlarının hər bir auditi Resipientin bir (1) maliyyə ilini əhatə etməlidir. Hər bir belə dövr üçün audit yoxlamasından keçmiş Maliyyə Hesabatları hesabat dövrünün başa çatmasından sonra altı (6) aydan gec olmamaqla Assosiasiyaya təqdim edilməlidir.

Bölmə III. ***Satınalma***

A. **Ümumi**

1. Mallar və işlər. Layihə üçün tələb olunan və bu Maliyyələşdirmənin vəsaitləri hesabına maliyyələşdirilən bütün mallar və işlər Satınalmalar haqqında Təlimatın I bölməsində və bu Əlavədə göstərilmiş və ya istinad edilmiş tələblərə uyğun şəkildə satın alınır.

2. Məsləhət xidmətləri. Layihə üçün tələb olunan və bu Maliyyələşdirmənin vəsaitləri hesabına maliyyələşdirilən bütün məsləhət xidmətləri Məsləhətçilər haqqında Təlimatın I və IV bölmələrinin və bu Əlavənin tələblərinə uyğun şəkildə satın alınır.

3. Anlayışlar. Bu Əlavədə satınalmanın xüsusi metodlarını və ya Assosiasiya tərəfindən məxsusi kontraktların icmalı metodlarını təsvir etmək üçün istifadə edilmiş baş hərflərlə verilmiş terminlər şəraitdən asılı olaraq Satınalmalar haqqında Təlimatda və ya Məsləhətçilər haqqında Təlimatda müəyyənləşdirilmiş anlama malikdir.

B. **Malların və işlərin satın alınmasının xüsusi metodları**

1. Beynəlxalq müsabiqəli tender. Bu bölmənin 2-ci bəndində başqa cür nəzərdə tutulmayıbsa, mallar və işlər beynəlxalq müsabiqəli tender prosedurları əsasında bağlanan kontraktlar çərçivəsində satın alınır.

2. Mal və işlərin satın alınmasının digər metodları. Aşağıdakı cədvəldə mal və işlərin satın alınması üçün Beynəlxalq Müsabiqəli Tenderdən başqa istifadə edilə bilən digər satınalma metodları göstərilmişdir. Satınalma Planında bu metodlardan istifadə edilməsinə icazə verilən hallar göstərilməlidir:

Satınalma metodu
(a) Şopinq
(b) Birbaşa kontrakt
(c) Əməliyyat Təlimatında təsvir olunmuş İcmanın İştirakı Prosedurları

C. **Məsləhət xidmətlərinin satın alınmasının xüsusi metodları**

1. Keyfiyyət və dəyər əsasında seçim. Aşağıdakı 2-ci bənddə göstərilən hallar istisna olmaqla məsləhət xidmətləri Keyfiyyət və Dəyər əsasında Seçim metodu ilə bağlanan kontraktlar əsasında satın alınır.

2. Məsləhət xidmətlərinin satın alınmasının digər metodları. Aşağıdakı cədvəldə məsləhət xidmətləri üçün Keyfiyyət və Dəyər əsasında Seçim metodundan başqa istifadə edilə bilən digər satınalma metodları göstərilmişdir. Satınalma Planında bu metodlardan istifadə edilməsinə icazə verilən hallar göstərilməlidir:

Satınalma Metodu
(a) Keyfiyyət əsasında seçim
(b) Sabit büdcə çərçivəsində seçim
(c) Ən aşağı dəyər əsasında seçim
(d) Məsləhətçinin ixtisası əsasında seçim
(e) Yeganə mənbədən seçim
(f) Fərdi Məsləhətçilərin seçilməsi üçün Məsləhətçilər haqqında Təlimatın 5.2 və 5.3-cü bəndlərində göstərilmiş prosedurlar
(g) fərdi məsləhətçilərin seçilməsi üçün yeganə mənbədən seçim prosedurları

D. **Satınalma qərarlarına Bank tərəfindən baxılması**

Satınalma Planında Assosiasiyanın öncədən yoxlamasına məruz qalacaq bütün kontraktlar müəyyənləşdirilir. Bütün digər kontraktlar Assosiasiya tərəfindən sonradan yoxlanılır.

Bölmə III. **Kredit vəsaitlərinin çıxarılması**

A. **Ümumi**

1. Resipient işlər, mallar, məsləhət xidmətləri, o cümlədən audit xidmətləri, təlim, qrantlar və artan əməliyyat xərcləri daxil olmaqla Legitim Xərclərin 100 faizini maliyyələşdirmək üçün kredit vəsaitlərini Ümumi Şərtlərin II Maddəsi, bu Bölmə və Assosiasiyanın Resipientə bildirişlə (Dünya Bankının 2006-cı ilin may ayında qəbul olunmuş "Dünya Bankının Layihələr üzrə Vəsaitin İstifadəsi haqqında Təlimatı" daxil olmaqla) müəyyənləşdirəcəyi əlavə göstərişlər əsasında çıxara bilər.

B. **Vəsaitin çıxarılma şərtləri; vəsaitin çıxarılma dövrləri**

1. Bu Bölmənin A Hissəsinin tələblərindən asılı olmayaraq aşağıdakı hallarda vəsaitin çıxarılmasına icazə verilmir:

(a) bu Sazişin imzalanma tarixindən əvvəl, lakin 15 fevral 2008-ci il tarixindən sonra edilmiş Legitim Xərclər üçün ümumilikdə [950 000] SDR məbləğinədək vəsaitin istifadəsi istisna olmaqla, bu sazişin imzalanma tarixinədək edilmiş ödənişlərə münasibətdə.

2. Bağlanma tarixi 31 mart 2012-ci ildir.

ƏLAVƏ 3

Kreditin qaytarılma qrafiki

Ödəniş tarixi	Maliyyələşdirmənin əsas hissəsinin qaytarılan məbləği (kredit məbləğinin faizi kimi ifadə olunmuşdur)*
Hər bir 1 aprel və 1 oktyabr tarixlərində:	
1 aprel 2018-ci il tarixində başlamaqla 1 oktyabr 2027-ci il tarixinədək (daxil olmaqla)	1.25%
1 aprel 2028-ci il tarixində başlamaqla 1 oktyabr 2042-ci il tarixinədək (daxil olmaqla]	2.5%

*Bu faiz hər bir ödəniş tarixində maliyyələşdirmənin əsas məbləğinin qaytarılacaq hissəsini göstərir. Assosiasiya Ümumi Şərtlərin 3.03 (b) bəndinə uyğun olaraq buna dəyişiklik edə bilər.

QOŞMA

Anlayışlar

1. "Antikorrupsiya Təlimatı" dedikdə 15 oktyabr 2006-cı il tarixli "BYİB Borcları və BİA Kreditləri hesabına maliyyələşdirilən Layihələrdə saxtakarlıq və korrupsiyanın qarşısının alınması və onlarla mübarizə haqqında Təlimat" nəzərdə tutulur.

2. "Benefisiar" dedikdə bu Sazişin 2-ci Əlavəsinin 1-ci Bölməsinin C hissəsinin 1-ci bəndində bəndində istinad edilmiş meyarlara cavab verən və Layihənin A hissəsi çərçivəsində qrant alanlar nəzərdə tutulur.

3. "Məsləhətçilər haqqında Təlimat" dedikdə 2004-cü ilin may ayında dərc olunmuş və 2006-cı ilin oktyabrında dəyişikliklər edilmiş "Dünya Bankının Borcalanları tərəfindən məsləhətçilərin seçilməsi və işə qəbulu haqqında Təlimat" nəzərdə tutulur.

4. "ƏMİP" dedikdə ətraf mühitə hər hansı mənfi təsirin aradan qaldırılması üçün tədbirləri müəyyənləşdirən, Resipient tərəfindən qəbul edilmiş və 18 yanvar 2008-ci il tarixində Assosiasiyaya təqdim edilmiş Assosiasiya üçün məqbul Ətraf Mühitin İdarəedilməsi Planı nəzərdə tutulur.

5. "Qanuni Sosial Ödənişlər" dedikdə LİQ və RƏO-larla bağlanmış əmək müqavilələri üzrə Resipient tərəfindən hesablanmış sosial ödənişlərə münasibətdə LİQ-in xərcləri nəzərdə tutulur.

6. "Ümumi Şərtlər" dedikdə Beynəlxalq İnkişaf Assosiasiyasının 1 iyul 2005-ci il tarixli (15 oktyabr 2006-cı il tarixli düzəlişlərlə birlikdə) "Kreditlər və Qrantlar üçün Ümumi Şərtləri" nəzərdə tutulur.

7. "Qrant" dedikdə Əməliyyat Təlimatına uyğun olaraq Layihənin A Hissəsinin çərçivəsində mikrolayihələrin maliyyələşdirilməsi nəzərdə tutulur.

8. "Artan Əməliyyat Xərcləri" dedikdə layihənin icrası məqsədilə rabitə, kommunal, ofis ləvazimatı və saxlanılması, avtonəqliyyat vasitələrinin saxlanılması və yanacaq təminatı, dövlət qulluqçuları istisna olmaqla yardımçı əməkdaşların maaşları, qanuni sosial ödənişlər və layihənin icrası, idarə edilməsi və monitorinqi ilə bir başa bağlı olan əsaslandırılmış və zəruri olan, Assosiasiya ilə razılaşdırılmış digər fəaliyyətlərin xərcləri nəzərdə tutulur.

9. "Mikrolayihə" dedikdə Layihənin A Hissəsi çərçivəsində qrantdan istifadə etməklə Benefisiar tərəfindən həyata keçiriləcək spesifik inkişaf layihəsi və ya fəaliyyəti nəzərdə tutulur;

10. "Mikrolayihə Komitələri" - kənlərdə yaradılan, Layihənin A Hissəsi çərçivəsində qrant təkliflərinin formalaşdırılması üçün prioritetləri müəyyənləşdirməkdə kəndlərə yardım göstərən, kəndlərdə əhali tərəfindən seçilən, təxminən beşdən on birədək könüllü üzvdən ibarət olan komitələrdir.

11. "Əməliyyat Təlimatı" dedikdə Layihənin siyasətlərini və qaydalarını, həmçinin kompleks əməliyyat prosedurlarını, o cümlədən Layihənin A Hissəsi çərçivəsində seçmə meyarlarını və prosedurlarını, LİQ-in fəaliyyətini müəyyənləşdirən, eyni zamanda bu Sazişin 5.01 (a) bəndinə uyğun olaraq Assosiasiya və Borcalan arasında vaxtaşırı olaraq düzəlişlər edilə bilən, Assosiasiyanın məqbul hesab etdiyi təlimat nəzərdə tutulur;

12. "İlkin Maliyyələşdirmə Sazişi" dedikdə Resipient və Assosiasiya arasında Kənd İnvestisiyaları Layihəsi üzrə 23 sentyabr 2004-cü il tarixli inkişaf krediti haqqında saziş (Kredit 3912 - AZ) nəzərdə tutulur.

13. "İlkin Layihə" dedikdə İlkin Maliyyələşdirmə Sazişində təsvir olunmuş Layihə nəzərdə tutulur.

14. "LİQ" dedikdə İlkin Layihənin məqsədləri üçün yaradılmış Layihə İdarəetmə Qrupu və ya onun Assosiasiya üçün məqbul olan hər hansı hüquqi varisi nəzərdə tutulur.

15. "Satınalmalar haqqında Təlimat" dedikdə Bank tərəfindən 2004-cü ilin mayında dərc edilmiş və 2006-cı ilin oktyabrında düzəlişlər edilmiş "BYİB borcları və BİA kreditləri çərçivəsində Satınalmalar haqqında Təlimat" nəzərdə tutulur.

16. "Satınalma Planı" dedikdə Layihənin həyata keçirilməsi üçün Satınalmalar haqqında Təlimatın 1.16-cı bəndində və Məsləhətçilər haqqında Təlimatın 1.24-cü bəndində istinad olunan Resipientin 13 fevral 2008-ci il tarixli satınalma planı nəzərdə tutulur. Bu plan həmin bəndlərə uyğun olaraq mütəmadi olaraq yeniləşdirilir.

17. "RƏO"lər dedikdə LİQ-in Regional Əməliyyat Ofisləri nəzərdə tutulur.

18. "Regional Qrantların Təsdiqi Komissiyası" dedikdə Layihənin A Hissəsi çərçivəsində müvafiq regionda bütün qeydə alınmış təklifləri nəzərdən keçirən və qiymətləndirilmiş təklifləri təsdiq edən, yerli idarəetmə orqanlarının nümayəndələrindən, mərkəzi hökumətin yerli nümayəndələrindən və vətəndaş cəmiyyətinin nümayəndələrindən ibarət olan komitələr nəzərdə tutulur;

19. "Təlim" dedikdə təlim fəaliyyəti üçün çəkilən xərclər, o cümlədən seminarların

təşkili xərcləri, təlim alanların ezamiyyət xərcləri nəzərdə tutulur.

20. "İşçi Qrupu" dedikdə mərkəzi hökumətin, parlamentin və vətəndaş cəmiyyətinin nümayəndələrindən təşkil olunmuş Layihə çərçivəsində əməliyyat prosedurları barədə istiqamət verən İlkin Layihənin məqsədləri üçün yaradılmış komissiya nəzərdə tutulur.

"Almaniya Federativ Respublikasının Federal Ədliyyə Nazirliyi ilə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi arasında hüquqi əməkdaşlığa dair Birgə Bəyanatı" imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Almaniya Federativ Respublikasının Federal Ədliyyə Nazirliyi ilə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi arasında hüquqi əməkdaşlığa dair Birgə Bəyanatı" imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının ədliyyə naziri Fikrət Fərrux oğlu Məmmədova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Birgə Bəyanatı imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının ədliyyə naziri Fikrət Fərrux oğlu Məmmədova verilməsi barədə Almaniya Federativ Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 29 may 2009-cu il

№ 301

Birləşmiş Millətlər Təşkilatının İnsan Hüquqları Komitəsinin 96-cı sessiyasında "Mülki və siyasi hüquqlar haqqında" Beynəlxalq Pakt üzrə Azərbaycan Respublikasının üçüncü dövri hesabatına baxılması ilə əlaqədar Azərbaycan Respublikasını təmsil edəcək nümayəndə heyətinin tərkibi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Birləşmiş Millətlər Təşkilatının İnsan Hüquqları Komitəsinin 2009-cu il iyulun 13-31-də keçiriləcək 96-cı sessiyası çərçivəsində "Mülki və siyasi hüquqlar haqqında" Beynəlxalq Pakt üzrə Azərbaycan Respublikasının üçüncü dövri hesabatına baxılması ilə əlaqədar Azərbaycan Respublikasını təmsil edəcək nümayəndə heyəti aşağıdakı tərkibdə müəyyən edilsin:

Xələf Xələfov	- Azərbaycan Respublikası xarici işlər nazirinin müavini, nümayəndə heyətinin rəhbəri
Oruc Zalov	- Azərbaycan Respublikası daxili işlər nazirinin müavini
Əli Şəfiyev	- Azərbaycan Respublikası milli təhlükəsizlik nazirinin müavini
Toğrul Musayev	- Azərbaycan Respublikası ədliyyə nazirinin müavini
Rüstəm Usubov	- Azərbaycan Respublikası Baş prokurorunun birinci müavini
Çingiz Əsgərov	- Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Hüquq mühafizə orqanları ilə iş şöbəsinin İnsan hüquqları-

nın müdafiəsi məsələləri sektorunun müdiri

İntiqam Babayev - Azərbaycan Respublikası gənclər və idman nazirinin müavini

İlqar Rəhimov - Azərbaycan Respublikası əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini

Sədaqət Qəhrəmanova - Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədr müavini

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 29 may 2009-cu il

№ 303

"Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti arasında gömrük işi sahəsində əməkdaşlıq və qarşılıqlı yardım haqqında 5 noyabr 2004-cü il tarixli Sazişin həyata keçirilməsi barədə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi və Belarus Respublikası Dövlət Gömrük Komitəsi arasında protokol"u imzalamaq səlahiyyətinin verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti arasında gömrük işi sahəsində əməkdaşlıq və qarşılıqlı yardım haqqında 5 noyabr 2004-cü il tarixli Sazişin həyata keçirilməsi barədə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi və Belarus Respublikası Dövlət Gömrük Komitəsi arasında protokol"u Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikası Dövlət Gömrük komitəsinin sədri Aydın Əli oğlu Əliyevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Protokolu Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri Aydın Əli oğlu Əliyevə verilməsi barədə Belarus Respublikası Hökumətinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 3 iyun 2009-cu il

№ 308

2009-cu il yanvarın 26-da Bonn şəhərində təsis edilmiş Beynəlxalq Bərpa Olunan Enerji Agentliyinin Nizamnaməsini Azərbaycan Respublikası adından imzalamaq səlahiyyətinin verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2009-cu il yanvarın 26-da Bonn şəhərində təsis edilmiş Beynəlxalq Bərpa Olunan Enerji Agentliyinin Nizamnaməsini Azərbaycan Respublikası adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikası sənaye və energetika naziri Natiq Ağaəmi oğlu Əliyevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən sənədi Azərbaycan Respublikası adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikası sənaye və energetika naziri Natiq Ağaəmi oğlu Əliyevə verilməsi barədə Almaniya Federativ Respublikası Hökumətinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 3 iyun 2009-cu il

№ 309

"Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi və Almaniya Federativ Respublikasının Federal Daxili İşlər Nazirliyi arasında ikitərəfli əməkdaşlığa və qarşılıqlı yardıma dair Birgə Niyyət Bəyannaməsi"ni imzalamaq səlahiyyətinin verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi və Almaniya Federativ Respublikasının Federal Daxili İşlər Nazirliyi arasında ikitərəfli əməkdaşlığa və qarşılıqlı yardıma dair Birgə Niyyət Bəyannaməsi"ni imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının fövqəladə hallar naziri Kəmaləddin Fəttah oğlu Heydərova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən sənədi imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının fövqəladə hallar naziri Kəmaləddin Fəttah oğlu Heydərova verilməsi barədə Almaniya Federativ Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 8 iyun 2009-cu il

№ 314

"Koreya Respublikasının Xarici İşlər və Ticarət Nazirliyi ilə Azərbaycan Respublikasının Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi arasında Azərbaycanda Torpaq Kadastr Sisteminin təkmilləşdirilməsi layihəsinin həyata keçirilməsinə dair Qrant Razılaşması"nı Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti verilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Sərəncamı

1. "Koreya Respublikasının Xarici İşlər və Ticarət Nazirliyi ilə Azərbaycan Respublikasının Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi arasında Azərbaycanda Torpaq Kadastr Sisteminin təkmilləşdirilməsi layihəsinin həyata keçirilməsinə dair Qrant Razılaşması"nı Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin sədri Qərib Şamil oğlu Məmmədova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu sərəncamın 1-ci bəndində göstərilən Qrant Razılaşmasını Azərbaycan Respublikası Hökuməti adından

imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin sədri Qərib Şamil oğlu Məmmədova verilməsi barədə Koreya tərəfinə müvafiq bildiriş göndərsin.

A.RASİ-ZADƏ

Azərbaycan Respublikasının Baş naziri

Bakı şəhəri, 9 iyun 2009-cu il

№ 132s

Azərbaycan Respublikasının Malayziyada fövqəladə və səlahiyyətli səfiri T.P. Kərimovun iqamətgahı Kuala Lumpur şəhərində olmaqla, eyni zamanda Azərbaycan Respublikasının Bruney Darüssalamda fövqəladə və səlahiyyətli səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alıram:

Azərbaycan Respublikasının Malayziyada fövqəladə və səlahiyyətli səfiri Tahir Pirəli oğlu Kərimov iqamətgahı Kuala Lumpur şəhərində olmaqla, eyni zamanda Azərbaycan Respublikasının Bruney Darüssalamda fövqəladə və səlahiyyətli səfiri təyin edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 22 iyun 2009-cu il

№ 329

"Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Almaniya Federativ Respublikasının Texniki Əməkdaşlıq Təşkilatı (GTZ) arasında "Təbii sərvətlərin davamlı idarə olunması sahəsində əməkdaşlıq" haqqında Anlaşma Memorandumu"nu imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Almaniya Federativ Respublikasının Texniki Əməkdaşlıq Təşkilatı (GTZ) arasında "Təbii sərvətlərin davamlı idarə olunması sahəsində əməkdaşlıq" haqqında Anlaşma Memorandumu"nu imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri Hüseynqulu Seyid oğlu Bağırova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən sənədi imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri Hüseynqulu Seyid oğlu Bağırova verilməsi barədə Almaniya Federativ Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 23 iyun 2009-cu il

№ 330

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 23 aprel tarixli 82s nömrəli sərəncamı ilə verilmiş səlahiyyətə əsasən 2009-cu il aprelin 27-də imzalanmış "Azərsu" Açıq Səhmdar Cəmiyyəti ("Benefisiar") və KfW, Frankfurt am Main ("KfW") arasında Maliyyələşdirmə Müqaviləsi" təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Nazirlər Kabinetinin Sərəncamı

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 23 aprel tarixli 82s nömrəli sərəncamı ilə verilmiş səlahiyyətə əsasən 2009-cu il aprelin 27-də imzalanmış "Azərsu" Açıq Səhmdar Cəmiyyəti ("Benefisiar") və KfW, Frankfurt am Main ("KfW") arasında Maliyyələşdirmə Müqaviləsi" təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi bu sərəncamda göstərilən Müqavilənin qüvvəyə minməsi üçün zəruri dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Almaniya tərəfinə müvafiq bildiriş göndərsin.

3. Bu sərəncam imzalandığı gündən qüvvəyə minir.

A.RASİ-ZADƏ

Azərbaycan Respublikasının Baş naziri

Bakı şəhəri, 23 iyun 2009-cu il

№ 142s

"Azərsu" Açıq Səhmdar Cəmiyyəti ("Benefisiar") və KfW, Frankfurt am Main ("KfW") arasında 27 aprel 2009-cu il tarixli 700.000,00 Avro həcmində məbləğ haqqında Maliyyələşdirmə Müqaviləsi

"II Açıq Kommunal İnfrastruktur Proqramı" Mərhələ 3 çərçivəsində (Gəncə və Şəki şəhərlərində çirkab su təmizləyici qurğularının tikintisi) ekspert xidmətləri Almaniya hökuməti tərəfindən təmin olunan Xüsusi Fondun (Tədqiqat və Məsləhət Fondları) vəsaiti hesabına maliyyələşdirilir.

26.11.2008-ci il tarixli Almaniya hökuməti tərəfindən verilmiş razılıq və "Benefisiar"ın xahişi və eyni zamanda Azərbaycan Hökumətinin xahişi əsasında "Benefisiar" və KfW aşağıdakı Maliyyələşdirmə müqaviləsinə daxil olurlar.

Maddə 1

Maliyyə vəsaitinin həcmi və məqsədi

1.1. KfW "Benefisiar"a 700 000,00 Avro həcmində maliyyə vəsaiti təqdim edir.

Bu maliyyə vəsaiti Maddə 3.2 - də göstərilən şərtlər dəyişməyincə geri qaytarılmayacaq.

1.2. "Benefisiar" bu maliyyə vəsaitindən yalnız aşağıdakı ekspert xidmətlərinin ("Ekspert Xidmətləri") ödənilməsi üçün istifadə edəcək:

"II Açıq Kommunal İnfrastruktur Proqramı" çərçivəsində Mərhələ 3 (Gəncə və Şəki şəhərlərində çirkab su təmizləyici qurğularının tikintisi) üçün Texniki İqtisadi Əsaslandırmanın hazırlanması (TİƏ);

və Maliyyələşdirmə müqaviləsinin 9-cu maddəsində göstərildiyi kimi tender üzrə nümayəndənin (Agent) yardımının göstərilməsi.

1.3. "Benefisiar" tərəfindən ödənilməli olan vergilər, digər dövlət rüsumları və idxal öhdəlikləri bu maliyyə yardımından ödənilməyəcək.

Maddə 2

Ödəniş

2.1 Bununla "Benefisiar" KfW-yə maliyyə vəsaitindən məsləhətçiyə və Tender Agentinə ödənişləri azaltmaq, aralıq və yekun ödənişləri etmək hüququ verir. Bu cür ödənişlər ekspert xidmətlərinin gedişatına uyğun olaraq KfW-yə təqdim olunmalı ödəniş hesabının əsli əsasında (surəti "Benefisiar"a təqdim olunacaq) və "Benefisiar" ilə Məsləhətçi, "Benefisiar" ilə Tender Agenti arasında bağlanmış müvafiq müqavilələr əsasında həyata keçiriləcək. "Benefisiar" tərəfindən verilən bu səlahiyyət yuxarıda sadalanan bütün ödənişlərin həyata keçirilməsinə aid edilir.

2.2. ödənişlər xarici valyuta ilə edilərsə, KfW həmin ödənişlər üçün sərf etdiyi məbləği ikinci dərəcəli xərclər də daxil edilməklə Avro ilə "Benefisiar"a borc kimi təqdim edəcək.

2.3. KfW ödəniş zamanı bank müəssisələri tərəfindən yubanmalar səbəbindən yaranan gecikmələr və KfW tərəfindən ödəniş, pul köçürmələri üçün heç bir məsuliyyət daşımır. Əgər gecikməyə KfW səbəb olarsa, onun məsuliyyəti ödəniş üçün artan faizlə məhdudlaşır.

2.4. KfW 01.05.2010 tarixdən sonra ödənişdən imtina etmək hüququna malikdir.

2.5. Məsləhətçi və Tender Agenti müqavilələri belə bir şərtlə nəzərdə tutmalıdır ki, hər hansı ödəniş, zəmanət və ya buna bənzər tələb olunan ödənişlər və hər hansı sığorta ödənişləri "Benefisiar"ın hesabına ediləcək və KfW-nin (38 000 000 00 (IBAN: DE53 5002 0400 3800 0000 00), Frankfurt/Main (BIC: KFWIDEFF; BLZ 500 204 00) hesabına keçiriləcək və belə ödənişlər KfW kreditindən "Benefisiar"ın hesabına keçiriləcək.

Maddə 3

Ödənişlərin və borcun qaytarılmasının dayandırılması

3.1. KfW ödənişləri aşağıdakı şərtlər pozulduqda dayandıra bilər:

a) "Benefisiar" KfW qarşısında ödəmə tapşırığını vaxtında vermək öhdəliyini yerinə yetirə bilməzsə;

b) bu Müqavilədən irəli gələn öhdəliklər pozularsa;

c) "Benefisiar" ödənilmiş məbləğlərin nəzərdə tutulmuş məqsədlər üçün istifadə etdiyini sübut edə bilməzsə və ya,

d) Ekspert xidmətlərinin məqsədinin həyata keçirilməsi üçün maneələr yaradan və ya ciddi təhlükə yaradan fövqəladə vəziyyət yaranarsa;

e) "Benefisiar" ilə Məsləhətçi arasında bağlanmalı olan müqavilə pozularsa, başa çatarsa və ya ləğv edilərsə.

3.2. Maddə 3.1 b) və c) bəndlərində göstərilən hallardan hər hansı biri yaranarsa və onlar KfW tərəfindən müəyyən edilən gündən 30 gün ərzində aradan qaldırılmazsa, KfW maliyyə vəsaitinin təcili olaraq geri qaytarılmasını tələb edə bilər. Maddə 3.1-in c) bəndinə uyğun olaraq borcun qaytarılması yalnız o vəsait həcminə aid olacaq ki, "Benefisiar" həmin miqdarın nəzərdə tutulmuş məqsəd üçün istifadə edildiyini sübut edə bilmir.

3.3. Əgər "Benefisiar" Layihə üçün KfW-dən başqa alternativ maliyyə mənbəyi seçərsə, "Benefisiar" tez bir zamanda KfW-ni məlumatlandırmalı və KfW-nin xahişi ilə TİƏ-nin hazırlanması üçün istifadə olunmuş məbləği təcili olaraq KfW-yə geri ödəməlidir.

Maddə 4

Xərclər və ayırmalar

"Benefisiar" bu Müqavilənin başa çatdırılması və icra edilməsi ilə bağlı Almaniya Federativ Respublikası xaricində yaranan bütün vergiləri və digər dövlət rüsumlarını və eləcə də maliyyə vəsaitinin ödənilməsi ilə bağlı köçürmələr və valyuta dəyişmə zamanı yaranan xərcləri öz üzərinə götürür.

Maddə 5

Müqavilə daxili hesabatlar və Nümayəndəliyin səlahiyyəti

5.1. "Azərsu" ASC-nin prezidenti və onun tərəfindən KfW-yə təqdim edilmiş və imzaları təsdiq edilmiş şəxslər bu Müqavilənin icrası zamanı "Benefisiar"ı təmsil edəcək. Nümayəndəliyin səlahiyyəti "Benefisiar"ın nümayəndəsi tərəfindən təsdiq və aydın ifadə edilən ləğvetmə qərarı KfW tərəfindən qəbul edilən tarixə qədər öz qüvvəsini itirmir.

5.2. Bu Müqavilənin tərəf müqabilləri tərəfindən Müqaviləyə edilən dəyişikliklər, əlavələr və hər hansı qeydlər, hesabatlar yazılı surətdə təqdim edilməlidir. Hər hansı belə qeyd və ya hesabat müqavilə üzrə tərəf müqabillərinin biri birinə yazdığı aşağıda qeyd olunmuş ünvanlara çatdırıldığı halda qəbul olunacaq:

KfW üçün:

KfW
Postfach 11 1141
60046 Frankfurt am Main
Almaniya Federativ Respublikası
Faks:+49 69 743 12 944

"Benefisiar" üçün:

Moskva pr., 67 AZ 1012, Bakı şəhəri,
Azərbaycan Respublikası
"Azərsu" Açıq Səhmdar Cəmiyyəti
Faks:+994 12 598 38 14

Maddə 6

Ekspert Xidmətləri 1

6.1. "Benefisiar"

a) Ekspert xidmətləri üçün "Benefisiar" ilə KfW arasındakı konsepsiyaya müvafiq olaraq Ekspert xidmətləri müstəqil və ixtisaslı məsləhətçilərə ("Məsləhətçi") tapşırılacaq.

b) marağın ifadə edilməsi və beynəlxalq tender qaydalarına əsasən müqavilə müstəqil və ixtisaslı məsləhətçi şirkətlə bağlanacaq və o, Azərbaycanda fəaliyyət göstərən müvafiq məsləhətçi şirkət ilə konsorsium yaradacaq. Xidmətlərin satınalınması proseduru KfW-nin "İnkişaf etməkdə olan Ölkələrlə Maliyyə Əməkdaşlığı çərçivəsində məsləhətçilərin təyin edilməsi Qaydalarına" (Qoşma B) əsasən həyata keçiriləcəkdir.

c) Ekspert xidmətlərinin tam maliyyələşdirilməsini təmin edəcək və KfW- nin xahişi ilə ona maliyyə vəsaitindən ödənilməyən xərclərin bağlandığını təsdiq edən sənədləri təqdim edəcək.

d) Məsləhətçi və Tender Agenti müqavilələrində qeyd olunacaq öhdəliklərə uyğun fəaliyyət göstərəcək.

e) TİƏ-dən irəli gələn bütün xərcləri və maliyyə vəsaitindən ödənilən xidmətlərin aydın göstərən mühasibat kitablarının və qeydlərin saxlanmasını təmin edəcək;

f) bütün yuxarıda sadalanan kitabların, qeydlərin və bütün digər Ekspert xidmətlərinin icra edilməsinə aidiyyəti olan sənədlərin istənilən vaxt KfW nümayəndələri tərəfindən yoxlanmasına imkan yaradacaq;

g) KfW-yə ekspert xidmətləri haqqında bütün məlumat və hesabatları eləcə də KfW-nin xahişi ilə işin gedişi haqqında məlumatı çatdıracaq;

h) KfW-ni ekspert xidmətlərinin icrasına hər hansı və ya bütün maneçilik yaradan və ya ciddi təhlükə yaradan vəziyyət haqqında məlumatlandıracaq;

j) Məsləhətçinin hesabatlarına rəy bildirəcək və ya hesabatları imzalamaqla onu təsdiq etdiyini bildirəcək və

j) bütün cizgilər, hesabatlar, tədqiqat işləri haqqında və eləcə də Məsləhətçi qrupun üzvlərinin dəyişdirilməsi haqqında KfW ilə razılaşdıraraq öz rəyini bildirəcəkdir.

6.2. Ekspert xidmətlərinin başa çatmasından dərhal sonra, KfW onun xahişinə uyğun halda və sayda tərtib edilmiş cizgilərlə, hesabatlarla, tədqiqat işləri ilə təmin ediləcək. KfW tədqiqatların nəticələrinə rəy bildirə və ya onu qəbul olunmuş hesab edə bilər.

6.3. "Benefisiar" TİƏ zamanı hazırlanmış Layihəni maliyyələşdirmək hüququ qazanmır. Bunun üçün "Benefisiar" Almaniya Federativ Respublikasına Layihəni Maliyyə Əməkdaşlığı variantı ilə maliyyələşdirmək haqqında zəmanət verməlidir.

Maddə 7

Məsləhət Xidmətləri

7.1 Məsləhətçinin vəzifələrinə "II Açıq Kommunal İnfrastruktur Proqramı" Mərhələ 3 çərçivəsində nəzərdə tutulmuş "Gəncə və Şəki şəhərlərində çirkab su təmizləyici qurğularının tikintisi" üçün TİƏ-nin hazırlanması daxildir. TİƏ-nin nəticələri Maliyyə Əməkdaşlığı üçün təklif olunan Layihənin necə davam etdirilməsinə əsas kimi xidmət edəcək və KfW tərəfindən formal qiymətləndiriləcək. Layihənin məqsədi şəhərin dayanıqlı və ekoloji inkişafına töhfə verməkdən ibarətdir.

7.2. KfW-nin bu Maliyyə Yardımı hesabına maliyyələşdirilən ekspert xidmətlərinin nəticələrindən və aidiyyəti sənədlərdən hər zaman və hər yerdə öz qərarından tam istifadə etmək üçün məhdudlaşmayan hüquqa malikdir.

Maddə 8

Digər Şərtlər

8.1. "Benefisiar" təmin etməlidir ki, ekspert xidmətlərinin icrası ilə əlaqədar cəlb olunmuş şəxslər ekspert xidmətləri tərkibində məsləhət xidmətlərinin satınalınması və maliyyələşdirilməsi, maliyyə vəsaitlərinin ödənişi zamanı bu işlərlə əlaqədar heç bir xeyir, mənimsəmə, başqasına xidmət etmək, zəmanət vermək və ya qanunsuz pul almaq cəhdləri və digər xeyirlər güdülməsin.

8.2. Əgər bu Müqavilənin hər hansı bir şərti əsasızdırsa, digər bütün şərtlər toxunulmaz qalır. Bundan yaranan hər hansı bir boşluq bu Müqavilənin məqsədinə uyğun olan digər birşərtlə əvəzlənəcək.

8.3. "Benefisiar" bu Müqaviləyə heç bir tələb qoya bilməz və ya köçürmələr edə bilməz, girov və ya ipotekaya qoya bilməz.

8.4. Bu Müqavilə Almaniya Federativ Respublikasının qanunları ilə idarə olunacaq. İcra yeri Frankfurt am Main şəhəridir.

8.5. KfW ilə "Benefisiar" arasında bu Müqavilə ilə qurulan hüquqi əlaqələr son ödənişdən sonra 6 il ərzində qüvvədə qalacaq.

Maddə 9

Agent Müqaviləsi

9.1. "Benefisiar" KfW-dən xahiş edir ki, eksperti (Tender Agenti) təyin etsin və KfW-yə səlahiyyət verir ki, "Benefisiar"in adından Tender Agenti ilə müqavilə bağlasın.

9.2. Tender Agenti Maddə 6.1-in b) bəndində nəzərdə tutulan Məsləhətçinin seçilməsi prosedurunu icra etmək üçün "Benefisiar"a kömək edəcək.

Bununla bağlı aşağıdakı müddəalar razılaşdırılır:

(a) Tender Agenti Məsləhətçi tərəfindən göstərilən xidmətlər üçün "Benefisiar" tərəfindən təqdim olunacaq Texniki Tapşırığın lazımi qaydada təkmilləşdirilməsi və ya tərtib edilməsini təmin edəcək.

(b) Tender Agenti Maddə 6.1-in b) bəndində qeyd olunduğu kimi "Benefisiar"ın adından Məsləhətçinin seçilməsi işini təşkil edəcək və təsdiq edilməsi üçün aşağıdakı təklifləri "Benefisiar"a və KfW-yə təqdim edəcək:

İxtisas uyğunluğu müəyyənləşdirilməsi üçün bildiriş və marağı olan məsləhətçilər üçün əlavə məlumatların hazırlanması;

"Qısa Siyahının" tərtib edilməsi hesabatı və "Qısa Siyahı"ya daxil edilmiş tender iştirakçılarının ilkin siyahısı;

Tender sənədlərinin layihəsi;

Texniki təkliflərin qiymətləndirilməsi hesabatı və eyni zamanda təkliflərin yararsızlığı səbəbindən kənarlaşdırılmış tender təklifləri barədə hesabat;

Məsləhətçinin seçilməsi təlimatının Əlavə B-də qeyd olunan meyarlara uyğun gəlmədiyi barədə hesabat;

Maliyyə təklifləri üzrə qiymətləndirilmə hesabatı ilə tender təklifinin aksept edilmə təklifi;

İkinci yeri tutmuş tender iştirakçısı ilə müqavilə danışıqlarına başlanmazdan əvvəl bu iştirakçı ilə müqavilə danışıqlarına başlamaq təklifi; Təklifdə birinci yeri tutmuş iştirakçı ilə danışıqların baş tutmamasının səbəbləri izah edilməlidir;

Müqavilə danışıqlarının nəticələri, işçi heyətinə və texniki tapşırığa edilmiş hər hansı dəyişikliklər daxil olmaqla satınalma müqaviləsinin layihəsi;

Müqavilə danışıqlarının nəticəsi, işçi heyətin dəyişdirilməsi təklifi və texniki şərtlər və ya müqavilə layihəsində hər hansı dəyişikliklə birlikdə müzakirə edilmiş Müqavilənin layihəsi;

(c) "Benefisiar" Maddə 9.2-nin (b) bəndinə əsaslanaraq təklifləri aldıqdan sonra 2 həftə ərzində öz rəy və təkliflərini Tender Agentinə göndərməlidir. Əgər rəy və təkliflər bu vaxt ərzində Tender Agentinə göndərilməzsə, təqdim olunan təkliflərin "Benefisiar" tərəfindən qəbul edilməsi kimi qiymətləndiriləcək. Tender Agenti yubanmadan tender prosedurunun nəticələri haqqında "Benefisiar"ı məlumatlandırır.

9.3. "Benefisiar" KfW-yə "Benefisiar"ın adından Məsləhətçi ilə müqavilə bağlamaq səlahiyyəti verir. Müqavilənin bağlanmasından sonra KfW "Benefisiar"a onun əslini verir.

9.4. KfW Məsləhətçinin, Tender Agentinin və onların işçilərinin öz təyinatlarında yol verdiyi nöqsanlara görə məsuliyyət daşımır.

Maddə 10

Bu Müqavilə Azərbaycan Respublikası Hökumətinin KfW-yə bu Müqavilənin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili şərtlərin yerinə yetirildiyini bildirdiyi gündən etibarən qüvvəyə minir. Bu haqda bildirişin daxil olduğu tarix əsas götürülür.

Bu Müqavilə İngilis dilində iki nüsxədə (əsli) olmaqla tərtib edilmişdir.

Frankfurt am Main, 27 aprel 2009-cu il

KfW ADINDAN	"AZƏRSU" AÇIQ SƏHMDAR CƏMİYYƏTİ ADINDAN
(imza)	*NİZAMƏDDİN RZAYEV* *"Azərsu" Açıq Səhimdar Cəmiyyətinin prezidenti*

"Azərbaycanda Abşeron magistral Kanalının suvarma məqsədi ilə təkmilləşdirilməsi və şimal çaylarında suqəbuledici qurğuların müasirləşdirilməsi üçün texniki-iqtisadi əsaslandırma və təfsilatlı layihələndirmə üzrə Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti və Koreya Respublikasının Xarici İşlər və Ticarət Nazirliyi arasında Qrant Razılaşması"nı imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Sərəncamı

1."Azərbaycanda Abşeron magistral Kanalının suvarma məqsədi ilə təkmilləşdirilməsi və şimal çaylarında suqəbuledici qurğuların müasirləşdirilməsi üçün texniki-iqtisadi əsaslandırma və təfsilatlı layihələndirmə üzrə Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti və Koreya Respublikasının Xarici İşlər və Ticarət Nazirliyi arasında Qrant Razılaşması"nı imzalamaq üçün səlahiyyət Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin sədri Əhməd Cüma oğlu Əhmədzadəyə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu sərəncamın 1-ci bəndində göstərilən sənədi imzalamaq səlahiyyətinin Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin sədri Əhməd Cüma oğlu Əhmədzadəyə verilməsi barədə Koreya tərəfinə müvafiq bildiriş göndərsin.

A.RASİ-ZADƏ

Azərbaycan Respublikasının Baş naziri

Bakı şəhəri, 23 iyun 2009-cu il

№ 143s

2008-ci il noyabrın 14-də Kişinyov şəhərində Müstəqil Dövlətlər Birliyi Hökumət Başçıları Şurasının iclasında Azərbaycan Respublikası tərəfindən qeyd-şərt ilə imzalanmış "Saxta dərman vasitələrinin dövriyyəsinə qarşı mübarizədə əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2008-ci il noyabrın 14-də Kişinyov şəhərində Müstəqil Dövlətlər Birliyi Hökumət Başçıları Şurasının iclasında Azərbaycan Respublikası tərəfindən qeyd-şərt ilə imzalanmış "Saxta dərman vasitələrinin dövriyyəsinə qarşı mübarizədə əməkdaşlıq haqqında Saziş" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişin həyata keçirilməsi üçün zəruri tədbirlər görsün.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Müstəqil Dövlətlər Birliyinin İcraiyyə Komitəsini xəbərdar etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 24 iyun 2009-cu il

№ 337

Saxta dərman vasitələrinin dövriyyəsinə qarşı mübarizədə əməkdaşlıq haqqında Saziş

Bundan sonra Tərəflər adlandırılacaq Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin hökumətləri,

zəruri miqdar və çeşiddə təsirli, təhlükəsiz və keyfiyyətli dərman vasitələri ilə əhalini təmin etməyə xüsusi əhəmiyyət verərək,

saxta dərman vasitələrinin dövriyyəsinin Tərəflərin dövlətlərinin əhalisinin sağlamlıq və rifahına ciddi təhlükə törətdiyini dərk edərək,

Tərəflərin dövlətlərində saxta dərman vasitələrinin dövriyyəsinin, o cümlədən ixrac və idxalının qarşısının alınması, aşkar edilməsi və aradan qaldırılması üzrə təxirəsalınmaz tədbirlərin zəruriliyini nəzərə alaraq,

Tərəflərin dövlətlərində dərman vasitələrinin dövriyyəsini tənzimləyən normativ hüquqi aktların təkmilləşdirilməsinin məqsədəuyğun olduğunu etiraf edərək,

saxta dərman vasitələrinin dövriyyəsinə qarşı mübarizəyə dair Ümumdünya Səhiyyə Təşkilatının tövsiyələrinə əsaslanaraq,

hamılıqla qəbul olunmuş beynəlxalq hüquq normalarını, beynəlxalq müqavilələri, Tərəflərin dövlətlərinin qanunvericiliyini rəhbər tutaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Bu Sazişin predmeti saxta dərman vasitələrinin dövriyyəsinə qarşı mübarizədə Tərəflərin əməkdaşlığından ibarətdir.

Maddə 2

Saxta dərman vasitələrinin dövriyyəsinə, o cümlədən ixrac və idxalına qarşı mübarizədə Tərəflərin əməkdaşlığı bu Saziş çərçivəsində aşağıdakı istiqamətlər üzrə həyata keçirilir:

saxta dərman vasitələrinin dövriyyəsinə qarşı mübarizə üzrə, o cümlədən nəzarətli göndərişlər zamanı razılaşdırılmış tədbirlərin görülməsi;

dərman vasitələrinin dövriyyəsini tənzimləyən normativ hüquqi aktların beynəlxalq standartlara, o cümlədən Ümumdünya Səhiyyə Təşkilatının tövsiyələrinə uyğunlaşdırılması;

saxta dərman vasitələrinin nəqli və satışı əsnasında istifadə edilən gizlətmə və maskalanma vasitələri, habelə onların aşkarlanması üsulları barədə məlumat mübadiləsinin aparılması;

Tərəflərin dövlətlərinin qarşılıqlı informasiya əlaqəsinin, qanunvericilik və digər normativ hüquqi aktlarının mübadiləsinin həyata keçirilməsi;

dərman vasitələrinin keyfiyyətinə nəzarət və saxta dərman vasitələrinin aşkarlanması üçün metodik tövsiyələrin işlənib hazırlanması;

dərman vasitələrinin keyfiyyətinə nəzarət və saxta dərman vasitələrinin dövriyyəsinə

qarşı mübarizə sahəsində kadr hazırlığına və yenidən hazırlığına dair metodik proqramların işlənib hazırlanması;

saxta dərman vasitələrinin dövriyyəsinə qarşı mübarizə məsələləri üzrə qarşılıqlı elmi-texniki və məsləhət yardımının göstərilməsi;

saxta dərman vasitələrinin dövriyyəsinin aradan qaldırılması üçün müasir mühafizə texnologiyalarının, o cümlədən dərman vasitələrinə qoruyucu nişanların vurulması və onlardan istifadə metodikalarının tətbiqinin təşviq edilməsi;

saxta dərman vasitələrinin dövriyyəsinə qarşı mübarizənin mühüm məsələləri üzrə elmi-təcrübi konfransların, seminarların və simpoziumların keçirilməsi.

Maddə 3

Tərəflər saxta dərman vasitələrinin aşkarlanması və yayılması halları, dərman vasitələrinin qorunması üsulları, dərman vasitələrinin həqiqiliyinin təsdiqlənməsi metodikaları haqqında bir-birini məlumatlandırmağı öhdələrinə götürürlər.

Maddə 4

Saxta dərman vasitələri ərazisində aşkarlandığı və/və ya olduğu Tərəfin dövlətinin qanunvericiliyinə uyğun şəkildə məhv edilməlidir.

Tərəflərin hər biri saxta dərman vasitələrinin məhv edilməsi halları barədə digər Tərəfləri, saxta dərman vasitəsinin üzərində göstərilən istehsalçını, habelə ərazisindən həmin saxta dərman vasitəsinin idxal olunduğu dövləti məlumatlandırmağı öhdəsinə götürür.

Maddə 5

Bu Sazişin qüvvəyə minməsi tarixindən üç ay ərzində Tərəflər onun həyata keçirilməsinə məsul olan səlahiyyətli orqanları müəyyən edir və bu barədə depozitariyə məlumat verirlər.

Maddə 6

Hər konkret halda digər qayda razılaşdırılmadıqda, Tərəflər səlahiyyətli nazirlik və idarələrin milli büdcələrində hər il onların funksiyalarının yerinə yetirilməsi üçün nəzərdə tutulan maliyyə vəsaitləri çərçivəsində bu Sazişin onlar tərəfindən icrası zamanı əmələ gələcək xərcləri özləri müstəqil olaraq ödəyirlər.

Maddə 7

Bu Sazişin müddəaları Tərəflərin dövlətlərinin iştirakçısı olduqları digər beynəlxalq müqavilələrdən irəli gələn hüquq və öhdəliklərə təsir etmir.

Maddə 8

Bu Sazişin müddəalarının tətbiqi və ya təfsiri zamanı ortaya çıxan mübahisəli məsələlər müvafiq Tərəflər arasında məsləhətləşmələr və danışıqlar yolu ilə həll edilir.

Maddə 9

Bu Saziş imzalandığı gündən, qanunvericilikləri Sazişin qüvvəyə minməsi üçün zəruri dövlətdaxili prosedurların yerinə yetirilməsini tələb edən dövlətlər üçün isə qeyd edilən prosedurların yerinə yetirilməsi haqqında bildirişin depozitariyə saxlanmaq üçün verildiyi tarixdən qüvvəyə minir.

Maddə 10

Bu Sazişə, Tərəflərin qarşılıqlı razılığı ilə, onun ayrılmaz hissəsi olan və 9-cu maddəsində nəzərdə tutulmuş qaydada qüvvəyə minən ayrıca protokollarla rəsmiləşdirilən əlavələr və dəyişikliklər edilə bilər.

Maddə 11

Bu Saziş qeyri-müəyyən müddətə bağlanılır. Tərəflərdən hər biri, bu Sazişin qüvvədə olduğu müddət ərzində əmələ gəlmiş öhdəlikləri nizamlamaqla, ən azı 6 ay əvvəl depozitariyə öz niyyəti barədə yazılı bildiriş göndərməklə bu Sazişdən çıxa bilər.

Maddə 12

Bu Saziş, məqsəd və prinsiplərinə həmrəy çıxan digər dövlətlər üçün qoşulma haqqında sənədləri depozitariyə təhvil vermək yolu ilə qoşulmaları üçün açıqdır. Bu Saziş ona qoşulan dövlət üçün qoşulma haqqında sənədinin depozitari tərəfindən alındığı tarixdən qüvvəyə minir.

Kişinyov şəhərində 2008-ci il noyabrın 14-də bir əsl nüsxədə rus dilində imzalanmışdır. Əsl nüsxəsi Müstəqil Dövlətlər Birliyinin İcraiyyə Komitəsində saxlanılır. Bu Sazişi imzalayan hər bir dövlətə Komitə tərəfindən onun təsdiqlənmiş surəti göndəriləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI ADINDAN	MOLDOVA RESPUBLİKASI ADINDAN
(imza) (qeyd-şərtlə)	*(imza) (qeyd-şərtlə)*
ERMƏNİSTAN RESPUBLİKASI ADINDAN	RUSİYA FEDERASİYASI ADINDAN
(imza)	*(imza)*
BELARUS RESPUBLİKASI ADINDAN	TACİKİSTAN RESPUBLİKASI ADINDAN
(imza)	*(imza)*
GÜRCÜSTAN ADINDAN	TÜRKMƏNİSTAN ADINDAN
(imza yoxdur)	*(imza yoxdur)*
QAZAXISTAN RESPUBLİKASI ADINDAN	ÖZBƏKİSTAN RESPUBLİKASI ADINDAN
(imza)	*(imza)*
QIRĞIZ RESPUBLİKASI ADINDAN	UKRAYNA ADINDAN
(imza)	*(imza)*

14 noyabr 2008-ci il tarixli "Saxta dərman vasitələrinin dövriyyəsinə qarşı mübarizədə əməkdaşlıq haqqında Saziş"ə dair Azərbaycan Respublikasının Qeyd-şərti

2-ci maddənin üçüncü abzası istisna olmaqla.

A. RASİ-ZADƏ

Azərbaycan Respublikasının Baş naziri

2009-cu il fevralın 26-da Havana şəhərində imzalanmış "Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi və Kuba Respublikasının Turizm Nazirliyi arasında turizm sahəsində əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2009-cu il fevralın 26-da Havana şəhərində imzalanmış "Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi və Kuba Respublikasının Turizm Nazirliyi arasında turizm sahəsində əməkdaşlıq haqqında Saziş" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişin həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Kuba Respublikası tərəfini xəbərdar etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 24 iyun 2009-cu il

№ 338

Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi və Kuba Respublikasının Turizm Nazirliyi arasında turizm sahəsində əməkdaşlıq haqqında Saziş

Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi və Kuba Respublikasının Turizm Nazirliyi (bundan sonra "Razılığa gələn Tərəflər" adlanacaq),

bu ölkələr və xalqlar arasında ənənəvi dostluq əlaqələrini nəzərə alaraq,

turizmin yalnız bu ölkələrin iqtisadi inkişafını deyil, həmçinin xalqlar arasında qarşılıqlı anlaşma, xoşməramlılıq və yaxınlaşmanın inkişafı və yüksəlişi üçün əla vasitə olduğuna əmin olaraq,

turizm sahəsinin böyük potensialını nəzərə alaraq, fəal və səmərəli əməkdaşlığın inkişafı və təşviqini arzulayaraq,

qeyd olunan ölkələrin qarşılıqlı təşəbbüsü ilə bu ölkələrdə turizm sektorunun davamlı inkişafını təmin etmək məqsədilə təbii, ətraf mühit və mədəni ehtiyatların mühafizə olunmasını davam etdirmək üçün

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə I

Razılığa gələn Tərəflər turizm sahəsində ikitərəfli münasibətləri inkişaf etdirmək və möhkəmləndirmək üçün bu ölkələrin tarix və mədəniyyətinin qarşılıqlı öyrənilməsinə xüsusi diqqət göstərəcək, eləcə də onlar turizm müəssisələri, səyahət agentlikləri, təşkilatlar və turizm institutları arasında kommersiya və əməkdaşlıq əlaqələrinin yaradılmasını və inkişaf etdirilməsini dəstəkləyəcəklər.

Maddə II

Razılığa gələn Tərəflər turizm sektorunu inkişaf etdirmək üçün səy göstərəcək, turizm və turizm idarəetməsində mütəxəssislər mübadiləsini təşviq edəcək, xüsusi sahələrin idarə olunması və mühafizə olunması, eləcə də öz ölkələrinin qanunvericiliklərinə uyğun olaraq turizm sahəsinə investisiyaların qoyulmasının inkişaf etdirilməsi məqsədilə treninq və texnoloji tədqiqatların aparılmasına şərait yaradacaqlar.

Maddə III

Razılığa gələn Tərəflər aşağıdakıların həyata keçirilməsi üçün lazımi tədbirlər görəcəklər:

a) turizm sahəsinin inkişaf etdirilməsi və bu sahədə tərəflərin uyğun təcrübəsindən səmərəli istifadə etmək, eləcə də turizmin inkişafı uğrunda birgə addımların həyata keçirilməsi üçün texniki səfərlər təşkil etmək;

b) hər iki ölkənin turizm üzrə şirkətləri, ekspert və iş adamları arasında görüşlərin keçirilməsini təşviq etmək və yeni məhsullar və turizm məkanları haqqında qarşılıqlı məlumat mübadiləsi aparmaq, eyni zamanda bu sahə ilə bağlı investisiya və biznes üzrə maliyyə təminatı və birgə layihə təklifləri üçün şərait yaratmaq;

c) turizmin inkişaf etdirilməsi üçün nəşrlər və materiallar mübadiləsi, hər iki ölkənin nümayəndələrinin və kütləvi informasiya vasitələrinin tədqiqatlarda, texniki və kommersiya mübadilələrində, tədbirlərdə, yarmarkalarda və turizm sərgilərində iştirakını təmin etmək;

d) turizmin inkişafı məqsədilə tarixi binaların mühafizə olunmasında əməkdaşlıq etmək;

e) hər iki Razılığa gələn Tərəfin turizm sahəsində qüvvədə olan milli qanunvericilik təcrübəsini öyrənmək.

Maddə IV

Razılığa gələn Tərəflər peşəkar hazırlıq sahəsində əməkdaşlığı inkişaf etdirərək, turizm sahəsində təhsil proqramları, eləcə də turizm şirkətlərində idarəetmə və digər müvafiq peşələr üzrə mütəxəssislər üçün treninq kursları haqqında məlumat mübadiləsinə şərait yaradacaqlar.

Maddə V

Razılığa gələn Tərəflər turizm sahəsində ümumi maraqlar çərçivəsində təhsil proqramlarının, turizm və otel idarəetməsinin öyrənilməsi və həyata keçirilməsinin nəticələri haqqında məlumat mübadiləsinə səy göstərəcəklər.

Maddə VI

Razılığa gələn Tərəflər müvafiq hakimiyyət dairələri arasında və turizm sahəsində fəaliyyət göstərən beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq əlaqələrini inkişaf etdirməyə gələcəkdə də davam etdirməyə səy göstərəcək, nail olunmuş nəticələr barədə informasiya mübadiləsini təmin edəcəklər.

Maddə VII

Bu Sazişdə qeyd olunan bütün əməkdaşlıq formaları Razılığa gələn Tərəflərin qüvvədə olan qanunvericiliyinə əsasən həyata keçirilməlidir.

Maddə VIII

Bu Sazişin və ondan irəli gələn Tədbirlər Planlarının effektiv həyata keçirilməsini təmin etmək üçün Razılığa gələn Tərəflər, iqtisadi, Elmi və Texniki Əməkdaşlıq üzrə Hökumətlərarası Birgə Komissiyadan istifadə edə bilərlər və lazım olduğu təqdirdə müvafiq dövlət idarəetmə orqanlarının nümayəndələrindən ibarət İşçi Qrupu yarada bilərlər.

İşçi Qrupunun rəsmi dili ingilis dili və ya Razılığa gələn hər iki Tərəfin qəbul etdiyi hər hansı başqa dil ola bilər.

Maddə IX

Razılığa gələn Tərəflərin qarşılıqlı razılığı ilə bu Sazişə onun ayrılmaz hissəsi olan və Sazişin 10-cu maddəsinə uyğun olaraq qüvvəyə minən ayrıca protokollarla rəsmiləşdirilən əlavələr və dəyişikliklər edilə bilər.

Maddə X

Bu Saziş onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi haqqında Razılığa gələn Tərəflərin diplomatik kanallar vasitəsilə sonuncu yazılı bildirişi aldığı tarixdən qüvvəyə minəcək.

Bu Saziş beş (5) il müddətinə imzalanır və Razılığa gələn Tərəflərdən biri bu müddətin bitməsinə ən azı altı (6) ay qalmış onun qüvvəsini ləğv etmək niyyəti barədə yazılı surətdə bildirməzsə, bu Sazişin qüvvəsi avtomatik olaraq növbəti beş (5) il müddətinə uzadılacaqdır.

Bu Saziş Havana şəhərində 2009-cu ildə fevralın 26-da, Azərbaycan, ispan və ingilis dillərində iki nüsxədə imzalanmışdır və bütün mətnlər eyni qüvvəyə malikdir. Bu Sazişin təfsiri zamanı fikir ayrılığı yarandığı təqdirdə, ingilis dilindəki mətndən istifadə ediləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASININ
MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRLİYİ
ADINDAN

ƏBÜLFƏS QARAYEV
Mədəniyyət və turizm naziri

KUBA RESPUBLİKASININ
TURİZM NAZİRLİYİ
ADINDAN

MANUEL MARRERO
Turizm naziri

Azərbaycan Respublikası və Ukrayna arasında 2009-cu il aprelin 9-da Bakı şəhərində imzalanmış sənədlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. Azərbaycan Respublikası və Ukrayna arasında 2009-cu il aprelin 9-da Bakı şəhərində imzalanmış aşağıdakı sənədlər təsdiq edilsin:

1.1. 24 mart 1997-ci il tarixdə Kiyev şəhərində imzalanmış Azərbaycan Respublikası Hökuməti ilə Ukrayna Hökuməti arasında hərbi-texniki əməkdaşlıq haqqında Sazişə dəyişikliklərin edilməsi barədə Azərbaycan Respublikası Hökuməti ilə Ukrayna Nazirlər Kabineti arasında Protokol;

1.2. Azərbaycan Respublikası Hökuməti və Ukrayna Nazirlər Kabineti arasında kosmik məkanın sülh məqsədləri üçün tədqiqi və istifadəsi sahəsində əməkdaşlıq haqqında Çərçivə Sazişi;

1.3. Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi və Ukraynanın Xarici Kəşfiyyat Xidməti arasında əməkdaşlığa dair Saziş;

1.4. Azərbaycan Respublikasının Gəncə Şəhər İcra Hakimiyyəti və Ukraynanın Volın vilayətinin Dövlət Administrasiyası arasında ticarət-iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq haqqında Saziş.

2. 2009-cu il aprelin 9-da Bakı şəhərində imzalanmış Azərbaycan Respublikası və Ukrayna Xarici işlər nazirlikləri arasında ikitərəfli və çoxtərəfli əməkdaşlığın aktual məsələləri üzrə 2009-2010-cu illər üçün məsləhətləşmələr Planı nəzərə alınsın.

3. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bu Sərəncamın 1.1-1.4-cü bəndlərində göstərilən sənədlərin həyata keçirilməsi üçün zəruri tədbirlər görsün.

4. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi:

4.1. bu Sərəncamın 1.1-1.4-cü bəndlərində göstərilən sənədlərin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Ukrayna tərəfini xəbərdar etsin.

4.2. bu Sərəncamın 2-ci bəndində göstərilən sənədin həyata keçirilməsini təmin etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 24 iyun 2009-cu il

№ 339

24 mart 1997-ci il tarixdə Kiyev şəhərində imzalanmış Azərbaycan Respublikası Hökuməti ilə Ukrayna Hökuməti arasında hərbi-texniki əməkdaşlıq haqqında Sazişə dəyişikliklərin edilməsi barədə Azərbaycan Respublikası Hökuməti ilə Ukrayna Nazirlər Kabineti arasında Protokol

Azərbaycan Respublikası Hökuməti ilə Ukrayna Nazirlər Kabineti hər iki Tərəf arasında hərbi-texniki əməkdaşlığın gələcək inkişafı zərurətindən çıxış edərək, 24 mart

1997-ci il tarixdə Kiyev şəhərində imzalanmış Azərbaycan Respublikası Hökuməti ilə Ukrayna Hökuməti arasında hərbi-texniki əməkdaşlıq haqqında Sazişin (bundan sonra - Saziş) 5-ci maddəsinin aşağıdakı redaksiyada ifadə edilməsi barədə razılığa gəldilər:

"Bu Sazişin həyata keçirilməsi ilə bağlı fəaliyyətin əlaqələndirilməsi aşağıdakılara həvalə olunur:

Azərbaycan Tərəfindən - Azərbaycan Respublikasının Müdafiə Nazirliyinə, Azərbaycan Respublikasının Müdafiə Sənayesi Nazirliyinə və Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyinə;

Ukrayna Tərəfindən - Ukrayna Müdafiə Nazirliyinə, Ukrayna Sənaye Siyasəti Nazirliyinə və Ukrayna İqtisadiyyat Nazirliyinə.

Bu Sazişin həyata keçirilməsi üçün Tərəflər hərbi-texniki əməkdaşlıq məsələləri üzrə Azərbaycan-Ukrayna Hökumətlərarası Komissiyasını (bundan sonra Ç Komissiya) təşkil edəcəklər.

Komissiya Tərəflərin ayrıca razılaşdırdıqları müddət ərzində öz fəaliyyəti barədə Əsasnamə hazırlayacaqdır".

Bu Protokol Sazişin ayrılmaz hissəsidir və imzalandığı tarixdən qüvvəyə minir.

Bakı şəhərində 9 aprel 2009-cu il tarixində iki nüsxədə, hər biri Azərbaycan, Ukrayna və rus dillərində imzalanmışdır. Bütün mətnlər autentikdir.

Bu Protokolun müddəalarının təfsiri və/və ya tətbiqi ilə bağlı mübahisələr yarandığı təqdirdə, rus dilində olan mətnə üstünlük veriləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	UKRAYNA NAZİRLƏR KABİNETİ ADINDAN
SƏFƏR ƏBİYEV	*YURİ YEXANUROV*
Müdafiə naziri	*Müdafiə naziri*

Azərbaycan Respublikası Hökuməti və Ukrayna Nazirlər Kabineti arasında kosmik məkanın sülh məqsədləri üçün tədqiqi və istifadəsi sahəsində əməkdaşlıq haqqında Çərçivə Sazişi

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikası Hökuməti və Ukraynanın Nazirlər Kabineti,

iki dövlət arasında mövcud olan ənənəvi dostluq və əməkdaşlıq münasibətlərinin möhkəmlənməsinə yardım etmək niyyətində olaraq,

Azərbaycan Respublikası və Ukraynada kosmik texnologiyaların hazırlanması və tətbiqi sahəsində həyata keçirilən fəaliyyəti nəzərə alaraq,

Azərbaycan Respublikası və Ukraynanın sosial-iqtisadi və elmi-texniki inkişafı üçün kosmik elmin və texnikanın əhəmiyyətini dərk edərək,

kosmik tədqiqatlar, xüsusilə ətraf mühitin mühafizəsi üzrə, yer kürəsinə dair müşahidələr, kosmik texnologiyaların inkişafı, kosmik sənayedə qarşılıqlı əməkdaşlıq məsələlərində Tərəflərin istəyini nəzərə alaraq,

kosmik məkanın sülh məqsədləri üçün istifadəsinə ümumi marağı və tətbiqi kosmik tədqiqatların nəticələrinin hər iki dövlətin iqtisadi, sosial və elmi inkişafına yardım etməsinə əmin olduqlarını təsdiqləyərək,

aşağıdakılar haqqında razılığa gəldilər:

Maddə 1

Sazişin məqsədi

Bu Çərçivə Sazişinin (bundan sonra - Saziş) inkişafı istiqamətində hər iki dövlətin iqtisadiyyatının, elminin təkmilləşdirilməsi, təhlükəsizliyinin və sosial inkişafının təmin olunması məqsədilə Tərəflər kosmik məkanın tədqiqi və istifadəsi, kosmik texnologiyaların hazırlanması və tətbiqi üzrə əməkdaşlıq edəcək.

Tərəflər Sazişin müddəalarının lazımi səviyyədə, hər iki dövlətin milli qanunvericiliyinə uyğun, bərabərlik, qarşılıq və tərəflərin hər birinin maraqlarını nəzərə almaqla yerinə yetirilməsi üçün hərtərəfli səylər göstərəcəklər.

Maddə 2

Əməkdaşlığın istiqamətləri

Bu Saziş çərçivəsində Tərəflər aşağıdakı istiqamətlər üzrə əməkdaşlıq edə bilərlər:

1. Aşağıdakılara yardım edən tətbiqi proqramlar:

a) təbii ehtiyatların inventarlaşması və istifadəsi;

b) *infrastrukturun inkişafı:* xəritəçəkmə, planlaşdırma və şəhərsalma, telekommunikasiya və s.;

c) ətraf mühitin mühafizəsi;

d) təbii və texnogen hadisələr haqqında xəbərdarlıq, mənfi nəticələrin təsirinin minimuma endirilməsi;

e) *yeni* telekommunikasiya xidmətlərinin yaradılması və təkmilləşdirilməsi.

2. Yuxarıda adları çəkilən proqramların icrası üçün kosmik texnologiyalar və peyk sistemləri.

3. Kosmik tədqiqatların nəticələrinin alınması, emalı, saxlanması, yayılması, istifadəsi, komersiyalaşdırılması və əlavə dəyərlə məhsulun yaradılması üçün yerüstü infrastruktur.

4. İstismara verilmə ilə əlaqədar xidmətlərin göstərilməsi. Digər təkliflər olduqda, Tərəflər Azərbaycanın telekommunikasiya peyklərinin Ukraynanın "Zenit" raketdaşıyıcısı ilə orbitə çıxarılmasının mümkünlüyünə prioritet təklif kimi baxırlar.

5. Peyk naviqasiyası.

6. Kosmos hüququ.

7. Müxtəlif təyinatlı peyk sistemlərinin layihələşməsi, hazırlanması və istismarı üzrə kadrların hazırlanması və mütəxəssislərin ixtisaslarının artırılması.

8. Tərəflər arasında texniki, sənaye və elmi əməkdaşlığın möhkəmlənməsinə yardım edən, ikitərəfli razılaşma əsasında müəyyən edilən digər istiqamətlər.

Maddə 3

Əməkdaşlığın formaları

Bu Saziş çərçivəsində əməkdaşlıq aşağıdakı formalarda həyata keçirilə bilər:

konsepsiyaların birgə hazırlanması, tədqiqatların aparılması, işlərin yerinə yetirilməsi və layihələrin hazırlanması;

informasiya və məlumatların mübadiləsi;

əməkdaşların mübadiləsi və mütəxəssislərin hazırlanması;

seminar, simpozium, praktikum və təqdimatların birgə təşkili;

bu Sazişin məqsəd və vəzifələrinə cavab verən, Tərəflərin birgə müəyyən etdiyi əməkdaşlığın hər hansı bir digər forması.

Tərəflər bu Saziş çərçivəsində əməkdaşlığın əlaqələndirilməsi məqsədilə müvafiq səlahiyyətli orqanları müəyyən etdilər:

Azərbaycan Respublikası tərəfindən - Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi;

Ukrayna tərəfindən - Milli Kosmik Agentliyi.

Zərurət yarandıqda, Tərəflər bu Saziş çərçivəsində keçirilən tədbirlərdə üçüncü tərəfin (bundan sonra - müəyyən təşkilatlar) iştirakını qarşılıqlı razılaşdıracaqlar.

Maddə 4

Əqli mülkiyyət

Bu Sazişin həyata keçirilməsi çərçivəsində Tərəflərə əqli mülkiyyət obyektlərinin qorunması üzrə verilən hüquq hər iki dövlətin beynəlxalq öhdəlikləri, habelə Tərəflərin *dövlətlərinin milli qanunvericiliyi* ilə qorunur.

Əqli mülkiyyət obyektləri üzrə hüququn bölüşdürülməsi, istifadəsi və sərəncama verilməsi, hansılar ki birgə layihələr, proqramlar və tədbirlər çərçivəsində göstərilir və yaranır, Tərəflər və ya müəyyən təşkilatlar tərəfindən ayrıca saziş və kontraktlarda (müqavilələrdə) müəyyənləşdirilir.

Maddə 5

İnformasiya mübadiləsi və konfidensiallıq

Tərəflər öz üzərinə, Azərbaycan Respublikası və Ukrayna qanunvericiliyi çərçivəsində, qapalı xarakterli informasiyanın mühafizəsi üzrə öhdəliklər götürür.

Tərəflər bu Sazişin 2-ci maddəsində göstərilən əməkdaşlıq istiqamətləri çərçivəsində yerinə yetirdiyi uyğun proqramlar haqqında qarşılıqlı əsaslarla bir-birini məlumatlandıracaqlar.

Tərəflərdən birinin digər tərəfdən aldığı hər hansı informasiyanın üçüncü tərəfə, o cümlədən kütləvi *informasiya vasitələrinə (KİV) çatdırılması* əvvəlcədən digər Tərəflə yazılı şəkildə razılaşdırılmalıdır.

Tərəflər KİV üçün birgə bəyanatlar yaymaq yolu ilə ictimaiyyət üçün nəzərdə tutulan

informasiyanın yayılmasına dair hərəkətlərini əlaqələndirmək üçün bütün tədbirləri görəcəklər.

Maddə 6

Xərclər

Bu Sazişin müddəalarının yerinə yetirilməsi ilə bağlı bütün xərcləri Tərəflər müstəqil ödəyirlər.

Tərəflərin götürdükləri öhdəliklərin yerinə yetirilməsi müvafiq maliyyə prosedurlarından və ayrılan vəsaitdən asılı olacaq.

Maddə 7

Mübahisələrin həlli

Bu Sazişin təfsiri və tətbiqi ilə bağlı bütün mübahisələr Tərəflər arasında danışıqlar yolu ilə həll olunmalıdır.

Maddə 8

Sazişin qüvvəyə minməsi və qüvvədən düşməsi

Bu Saziş qeyri-məhdud müddətə bağlanır və onun qüvvəyə minməsi üçün zəruri dövlətdaxili prosedurların yerinə yetirilməsi haqqında Tərəflərin son yazılı bildirişindən sonra qüvvəyə minir.

Tərəflərdən biri digərindən diplomatik kanallar vasitəsilə müvafiq yazılı bildiriş aldıqdan altı ay sonra bu Saziş qüvvədən düşür.

Tərəflərdən başqa cür razılığa gəlmədikdə, bu Saziş qüvvədən düşdüyü halda, onun müddəaları bütün başa çatmamış layihə, proqram və tədbirlərə qarşı tətbiq olunacaq. Bu zaman, 5-ci maddənin (İnformasiya mübadiləsi və konfidensiallıq) müddəaları bu Sazişin qüvvədən düşmə tarixindən başlayaraq 10 (on) il ərzində qüvvədə qalacaq.

Bu Sazişin qüvvədən düşməsi onun çərçivəsində maliyyə və müqavilə öhdəliklərindən Tərəfləri azad etmir, bu Sazişin yerinə yetirilməsi nəticəsində müvafiq olaraq əldə edilən və qəbul olunan hər iki dövlətin hüquqi və fiziki şəxslərinin yaranmış vəziyyətlərinə, öhdəliklərinə, hüquqlarına toxunmur.

Bu Saziş Bakı şəhərində 9 aprel 2009-cu ildə iki nüsxədə, hər biri Azərbaycan, Ukrayna və rus dillərində imzalanıb. Bütün mətnlər autentikdir. Bu Sazişin şərhi ilə əlaqədar fikir ayrılığı yarandığı halda, üstünlük rus dilindəki mətnə verilir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN

ƏLİ ABBASOV
Rabitə və informasiya texnologiyaları naziri

UKRAYNA NAZİRLƏR KABİNETİ ADINDAN

VALERİ KOMAROV
Milli Kosmik Agentliyi baş direktorunun birinci müavini

Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi və Ukraynanın Xarici Kəşfiyyat Xidməti arasında əməkdaşlığa dair Saziş

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi və Ukraynanın Xarici Kəşfiyyat Xidməti,

öz dövlətlərinin milli maraqlarının və təhlükəsizliyinin təmin edilməsində qarşılıqlı faydalı əməkdaşlığın inkişaf etdirilməsi niyyətini rəhbər tutaraq,

hər iki Tərəf üçün maraq kəsb edən məsələlər üzrə informasiyanın mübadiləsində qarşılıqlı maraqdan çıxış edərək,

səlahiyyətləri çərçivəsində və öz dövlətlərinin milli qanunvericiliklərinə müvafiq fəaliyyət göstərərək,

aşağıdakılar haqqında razılığa gəldilər:

Maddə 1

Tərəflər öz dövlətlərinin milli maraqlarının və təhlükəsizliyinin təmin edilməsi məqsədilə kəşfiyyat fəaliyyətinin müxtəlif istiqamətləri üzrə əməkdaşlığı təşkil edirlər.

Maddə 2

Kəşfiyyat fəaliyyətinin istiqamətləri üzrə Tərəflərin əməkdaşlığı ayrıca protokollar əsasında həyata keçirilir.

Maddə 3

Tərəflər xarici dövlətlərin xüsusi xidmətlərinin digər Tərəfin dövləti əleyhinə yönəlmiş cəhdləri barədə qarşılıqlı əsasında bir-birini vaxtlı-vaxtında məlumatlandırırlar.

Maddə 4

Tərəflərin dövlətlərinin xaricdəki diplomatik nümayəndəliklərinin, onların əməkdaşlarının və ailə üzvlərinin, həmçinin bu ölkələrdə olan öz fəaliyyətləri ilə bağlı dövlət sirri təşkil edən məlumatlara buraxılışa malik Azərbaycan Respublikası və Ukrayna vətəndaşlarının və onlarla birlikdə olan ailə üzvlərinin təhlükəsizliyinin təmin edilməsi maraqları baxımından Tərəflər üçüncü ölkələrdə müvəkkil edilmiş nümayəndələri səviyyəsində əməkdaşlıq edirlər.

Maddə 5

Tərəflər əməkdaşlığa dair ayrıca protokollar üzrə əməliyyat qeydiyyatlarında, informasiya sistemləri və arxivlərdə saxlanılan məlumatların, həmçinin kəşfiyyat fəaliyyətinin hüquqi təminatı, maddi-texniki təminatı, Tərəflərin əməkdaşlarının sosial müdafiəsi məsələləri üzrə informasiyaların, normativ hüquqi aktların mətnlərinin və sair materialların mübadiləsini Tərəflərin dövlətlərinin milli qanunvericiliyinin tələblərinə müvafiq olaraq həyata keçirirlər.

Maddə 6

Öz dövlətlərinin dövlət hakimiyyət orqanlarının səmərəli informasiya təminatı məqsədilə, Tərəflər rabitə kanallarından informasiyanın götürülməsi üçün nəzərdə tutulmuş xüsusi texniki vasitələrdən istifadə etməklə informasiyanın çıxarılması, texniki vasitə-

lərlə informasiyanın qeyri-aşkar yolla əldə edilməsinin digər vasitələri sahəsində əməkdaşlıq edirlər.

Maddə 7

Tərəflər qarşılıqlı razılığa uyğun olaraq, avtomatlaşdırılmış informasiya sistemlərinin yaradılması və istismarı, orada olan informasiyanın işlənilməsi və mühafizəsi sahəsində texnologiyaların mübadiləsini həyata keçirir, həmçinin bu məsələlərlə əlaqədar bir-birinə məsləhət və praktiki kömək edirlər.

Maddə 8

İnformasiya mübadiləsi ayrıca protokollara müvafiq olaraq texniki vasitələrdən istifadə etməklə də həyata keçirilə bilər.

Maddə 9

Tərəflər kəşfiyyat orqanlarının əməkdaşlarının hazırlanması, yenidən hazırlanması və ixtisasının artırılması, təhsil prosesinin informasiya təminatının və kəşfiyyat fəaliyyətinin problemləri üzrə elmi-tədqiqat işlərinin həyata keçirilməsi sahəsində əməkdaşlıq edirlər.

Maddə 10

Əməkdaşlıq prosesində əldə edilmiş informasiya onu təqdim etmiş Tərəfin yazılı razılığı olmadan açıqlana və ya üçüncü tərəfə ötürülə bilməz.

Əməkdaşlıq prosesində əldə edilmiş informasiyanın açıqlanmasına və ya üçüncü tərəfə ötürülməsinə görə məsuliyyət, belə informasiyanı qəbul etmiş Tərəfin dövlətinin milli qanunvericiliyinə müvafiq qaydada, həmin Tərəfin bu hərəkətlərlə əlaqəli şəxslərin üzərinə düşür.

Maddə 11

Tərəflər qarşılıqlı maraq kəsb edən məsələlərin müzakirəsi üçün mütəmadi əsaslarda ekspert məsləhətləşmələri keçirirlər.

Qəbul edən Tərəf nəqliyyat və rabitə vasitələri ilə təminat da daxil olmaqla ekspertlərin qarşısında duran vəzifələrin səmərəli və operativ həlli məqsədilə lazımi şərait yaradır.

Rəsmi nümayəndə heyətlərinin səfərləri zamanı onların qəbulu və yerləşdirilməsi ilə bağlı məsrəfləri beynəlxalq nəqliyyat xərcləri istisna olmaqla qəbul edən Tərəf çəkir.

Maddə 12

Bu Sazişin müddəaları Tərəflərin iştirakçı olduqları digər beynəlxalq müqavilələrdən irəli gələn öhdəliklərinə toxunmur.

Maddə 13

Tərəflər qarşılıqlı razılığa əsasən, bu Sazişin mətninə, onun ayrılmaz hissəsi olan və 14-cü maddənin birinci hissəsində nəzərdə tutulan qaydada qüvvəyə minən ayrıca Protokollarla rəsmiləşdirilən əlavə və dəyişikliklər edə bilərlər.

Maddə 14

Bu Saziş Tərəflərin onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə göndərdikləri sonuncu yazılı bildirişin alındığı tarixdən qüvvəyə minir.

Bu Saziş iki il müddətinə bağlanır və müddətinin bitməsinə ən azı altı ay qalmış Tərəflərdən hər hansı biri onun fəaliyyətini dayandırmaq haqqında digər Tərəfə yazılı surətdə niyyətini bildirməzsə, avtomatik olaraq növbəti ikiillik müddətlərə uzadılır.

Bu Saziş Bakı şəhərində 9 aprel 2009-cu ildə hər biri Azərbaycan, Ukrayna və rus dillərində olmaqla iki əsl nüsxədə imzalanmışdır, bütün mətnlər autentik olmaqla eyni hüquqi qüvvəyə malikdir. Bu Sazişin müddəalarının təfsirində fikir ayrılığı yarandığı təqdirdə, rus dilində olan mətndən istifadə ediləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASININ MİLLİ TƏHLÜKƏSİZLİK NAZİRLİYİ ADINDAN	UKRAYNANIN XARİCİ KƏŞFİYYAT XİDMƏTİ ADINDAN
ELDAR MAHMUDOV	*NİKOLAY MALOMUJ*
Milli təhlükəsizlik naziri	*Xarici kəşfiyyat xidmətinin rəisi*

Azərbaycan Respublikasının Gəncə Şəhər İcra Hakimiyyəti və Ukraynanın Volın vilayətinin Dövlət Administrasiyası arasında ticarət-iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq haqqında Saziş

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikasının Gəncə Şəhər İcra Hakimiyyəti və Ukraynanın Volın vilayətinin Dövlət Administrasiyası,

Azərbaycan Respublikası və Ukrayna arasında 2000-ci il 16 mart tarixində imzalanmış dostluq, əməkdaşlıq və tərəfdaşlıq haqqında müqavilənin müddəalarını nəzərə alaraq,

iqtisadi, elmi-texniki və mədəni əməkdaşlığın bundan sonra dərinləşdirilməsinə, möhkəmləndirilməsinə və genişləndirilməsinə olan qarşılıqlı marağı nəzərə alaraq,

bərabər hüquq və qarşılıqlı mənfəət prinsiplərini rəhbər tutaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər səlahiyyətləri çərçivəsində aşağıdakı sahələri inkişaf etdirirlər:

sənaye, kənd təsərrüfatı, nəqliyyat və ticarət;

elm, texnika, təhsil və səhiyyə;

mədəniyyət və incəsənət;

turizm və idman;

ətraf mühitin mühafizəsi və təbii sərvətlərin səmərəli istifadəsi.

Maddə 2

1. Tərəflər ticarət, istehsal, iqtisadi, elmi-texniki, mədəni əməkdaşlığın və əməkdaşlığın digər növlərinin qarşılıqlı inkişafı üçün yardım edəcəklər.

2. Tərəflər Azərbaycan Respublikası və Ukraynanın qüvvədə olan qanunvericiliyi çərçivəsində sərmayələr sahəsində əməkdaşlığın inkişafı üçün müvafiq şərait yaradacaq və hərtərəfli kömək göstərəcəklər.

3. Tərəflər birgə müəssisələrin, səhmdar cəmiyyətlərin, ticarət evlərinin və digər ümumi strukturların yaradılması üçün kömək göstərəcək, müəssisələrin, həmçinin kiçik və orta biznesin ikitərəfli əməkdaşlığını dəstəkləyəcəklər.

Maddə 3

1. Tərəflər öz səlahiyyətləri çərçivəsində Azərbaycan Respublikasının Gəncə şəhəri və Ukraynanın Volın vilayətində yerləşən mülkiyyət növündən asılı olmayaraq bütün müəssisələr və təşkilatlar arasında xammalın, istehsalat-texniki təyinatlı məhsulların və kütləvi istehlak mallarının təchizatı və xidmətlərin göstərilməsi haqqında birbaşa müqavilələrin (kontraktların) bağlanması və tətbiqinə lazımi yardım göstərəcəklər.

2. Bu maddənin 1-ci bəndində göstərilən müqavilələrdə (kontraktlarda) nəzərdə tutulan öhdəliklərin yerinə yetirilməsinə görə məsuliyyəti müqaviləni bağlayan təsərrüfat subyektləri daşıyır.

3. Tərəflər yeni iş yerlərinin açılmasının vacibliyini rəhbər tutaraq, öz səlahiyyətləri çərçivəsində birgə müəssisələrin, səhmdar cəmiyyətlərin və s. yaradılması və səmərəli işi üçün əlverişli şərait yaradacaqlar.

Maddə 4

1. Tərəflər əmtəə bazarlarının inkişafına yardım göstərəcək və Tərəflərin təsərrüfat subyektlərinin nümayəndəliklərinin yaradılması və səmərəli fəaliyyəti üçün paritet şərtlərlə əlverişli şərait yaradacaqlar.

2. Tərəflər Azərbaycan Respublikasının Gəncə şəhəri və Ukraynanın Volın vilayətində yerləşən müəssisələrin məhsullarının sərgi və yarmarkalarını təşkil edəcək və keçirilməsinə yardım göstərəcəklər.

Maddə 5

Tərəflər sənaye və kənd təsərrüfatı müəssisələri, həmçinin bu müəssisələrin və əhalinin əsas sənaye məhsullarına, xalq istehlakı və kənd təsərrüfatı məhsullarına tələbatı, həmçinin Tərəflərin dövlət ərazilərində məqsədəuyğun şəkildə həyata keçiriləcək perspektivli sərmayə layihələri haqqında məlumat mübadiləsini həyata keçirəcəklər.

Tərəflər Azərbaycan Respublikasının Gəncə şəhəri və Ukraynanın Volın vilayətinin müəssisələri tərəfindən istehsal olunan və ticarət-iqtisadi əməkdaşlığın səmərəliliyinin artırılmasına xidmət edən əsas xidmət və ixrac məhsulları növlərinin mübadiləsini həyata keçirəcəklər.

Maddə 6

Tərəflər Azərbaycan Respublikasının Gəncə şəhəri və Ukraynanın Volın vilayətinin

idarəetmə orqanları, müəssisələri, elmi idarələri, səhiyyə təşkilatları və təhsil müəssisələri arasında əlaqələrin yaradılmasına yardım göstərəcəklər.

Maddə 7

Tərəflər təcrübələrin, tədqiqatların nəticələrinin, nəşrlərin, elmi-texniki və digər xarakterli məlumatların mübadiləsinə kömək göstərəcək və birgə seminarların, simpoziumların, konfransların və s. keçirilməsində iştirak edəcəklər.

Maddə 8

1. Tərəflər Azərbaycan Respublikasının Gəncə şəhəri və Ukraynanın Volın vilayətində mədəniyyət cəmiyyətləri, həvəskar birliklər, assosiasiyalar və fondlar arasında birbaşa əlaqələrin yaradılması vasitəsilə mədəniyyət və incəsənət sahəsində əməkdaşlığın fəallaşmasına yardım göstərəcəklər.

2. Tərəflər:

birgə mədəniyyət tədbirlərinin keçirilməsinə;

rəssamların sərgilərinin, solistlərin və yaradıcı kollektivlərin qastrollarının, teatr tamaşalarının mübadiləsinə;

yaradıcı kollektivlərin beynəlxalq tədbirlərdə iştirakının təmin olunmasına;

tematik "dəyirmi masa"ların keçirilməsinə yardım edəcəklər.

Maddə 9

Tərəflər ətraf mühitin mühafizəsi, təbii sərvətlərin səmərəli istifadəsi və təkrar istehsalı, ekoloji təhlükəsizliyin təminatı və ekoloji təmiz istehsalat sahəsinin genişləndirilməsinə yardım sahəsində qarşılıqlı əməkdaşlığı inkişaf etdirəcəklər.

Maddə 10

Tərəflər Bu Sazişin müddəalarının həyata keçirilməsi məqsədilə Azərbaycan Respublikası və Ukraynanın milli qanunvericiliklərinə uyğun olaraq ikitərəfli əməkdaşlığın konkret istiqamətlərinə dair ayrı-ayrı sazişlər imzalaya bilərlər.

Maddə 11

Tərəflərdən hər biri digər Tərəfə xələl yetirəcək istənilən hərəkətdən çəkinməlidir.

Maddə 12

Tərəflər zəruri olduğu halda bu Saziş və onun əsasında bağlanmış digər sazişlər, proqramlar və layihələrin yerinə yetirilməsi məsələləri haqqında ikitərəfli məsləhətləşmələr və danışıqlar keçirəcəklər.

Maddə 13

1. Tərəflər bu Sazişin birinci bəndində göstərilən sahələr, həmçinin qarşılıqlı maraq kəsb edən digər məsələlər haqqında məlumat və iş təcrübəsinin mübadiləsini həyata keçirəcəklər.

2. Tərəflər öz dövlətlərinin milli qanunvericiliyində Bu Sazişin həyata keçirilməsinə təsir göstərən dəyişikliklər haqqında bir-birini əvvəlcədən məlumatlandırırlar.

Maddə 14

Tərəflər Azərbaycan Respublikası və Ukraynanın milli qanunvericiliklərinə əsasən bu Saziş çərçivəsində və Azərbaycan Respublikası və Ukraynanın milli qanunvericiliyi ilə müəyyən olunmuş səlahiyyətləri çərçivəsində əməkdaşlığı həyata keçirəcəklər.

Maddə 15

Bu Sazişin müddəalarının tətbiqi ilə bağlı yaranan hüquqi münasibətlər Azərbaycan Respublikası və Ukraynanın milli qanunvericiliklərinin normaları əsasında nizamlanacaq.

Maddə 16

Bu Sazişə əlavə və dəyişikliklər Tərəflərin qarşılıqlı yazılı razılığına əsasən edilir və Sazişin ayrılmaz tərkib hissəsini təşkil edən əlavə razılıq və protokollarla rəsmiləşdirilir.

Maddə 17

Bu Sazişin müddəalarının təsviri və tətbiqi zamanı yaranan fikir ayrılığı Tərəflər arasında danışıqlar və məsləhətləşmələr yolu ilə həll olunur.

Maddə 18

Bu Saziş imzalandığı gündən qüvvəyə minir və beş il müddətinə qüvvədə olacaqdır. Əgər müvafiq müddətin bitməsindən 3 ay əvvəl Tərəflərdən biri digərinə bu Sazişin qüvvəsinin dayandırılmasına dair niyyəti haqqında diplomatik kanallar vasitəsilə yazılı bildiriş verməzsə, Saziş avtomatik olaraq növbəti beşillik müddətə uzadılacaqdır.

Tərəflər yazılı şəkildə başqa cür razılaşmazsa, bu Sazişin qüvvəsinin dayandırılması Sazişin müddəalarına əsasən razılaşdırılmış və Sazişin qüvvəsinin dayandırılması anında yekunlaşdırılmamış layihə və proqramların həyata keçirilməsinə təsir göstərmir.

Bu Saziş Bakı şəhərində 9 aprel 2009-cu il tarixində iki əsl nüsxədə hər biri Azərbaycan, Ukrayna və rus dillərində imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir. Bu Sazişin təfsirində fikir ayrılığı yarandığı təqdirdə, rus dilindəki mətndən istifadə ediləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASININ GƏNCƏ ŞƏHƏR İCRA HAKİMİYYƏTİ ADINDAN

ELDAR OZİZOV
Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı

VOLIN VİLAYƏTİNİN DÖVLƏT ADMİNİSTRASİYASI ADINDAN

NİKOLAY ROMANYUK
Volınsk vilayəti Dövlət administrasiyasının rəhbəri

Azərbaycan Respublikası və Ukrayna xarici işlər nazirlikləri arasında ikitərəfli və çoxtərəfli əməkdaşlığın aktual məsələləri üzrə 2009-2010-cu illər üçün məsləhətləşmələr Planı

1. Azərbaycan Respublikası və Ukrayna xarici işlər nazirlikləri arasında qarşılıqlı fəaliyyətin və əməkdaşlığın fəallaşdırılması məqsədi ilə, Azərbaycan Respublikası və Ukraynanın xarici işlər nazirləri (bundan sonra - Tərəflər) 2009 - 2010-cu illərdə aşağıdakı ikitərəfli məsləhətləşmələrin həyata keçirilməsi barədə razılıq əldə etdilər:

№	Məsləhətləşmələrin mövzusu	Vaxt	Yer	Təmsilçiliyin səviyyəsi	
				Azərbaycan	Ukrayna
1	2	3	4	5	6
1	Strateji xarakterli münasibətlərin inkişafı məsələləri: Azərbaycan-Ukrayna münasibətlərinin hazırkı vəziyyəti və inkişafının perspektivləri; siyasi sahədə əməkdaşlıq məsələləri; humanitar və mədəni əməkdaşlıq məsələləri; energetika sahəsində əməkdaşlıq məsələləri; beynəlxalq və regional təhlükəsizlik məsələləri	II yarımillik 2009 I yarımillik 2010	Kiyev Bakı	Nazir müavini X. Xələfov Birinci Ərazi İdarəsi; İqtisadi Əməkdaşlıq və İnkişaf İdarəsi; Beynəlxalq Hüquq və Müqavilələr İdarəsi	Nazir müavini K.P. Yeliseyev İqtisadi departamentin direktoru, 4-cü ərazi departamentinin direktoru
2	Avropaya inteqrasiya məsələləri: Avropa İttifaqının (Aİ) "Şərq tərəfdaşlığı" təşəbbüsünün müzakirəsi; Azad ticarət zonasının (ATZ) yaradılması daxil olmaqla, Ukrayna ilə Aİ arasında birlik haqqında Sazişin (Association agreement) bağlanmasına dair Aİ ilə danışıqlarının hazırlanması və keçirilməsi zamanı Ukraynanın əldə etdiyi təcrübə; Aİ ilə viza rejiminin liberalizasiyası məsələləri, Aİ nin regional təşəbbüsləri kontekstində regional əməkdaşlıq məsələləri; iqtisadi əməkdaşlıq məsələləri (o cümlədən QDİƏT çərçivəsində);	II yarımillik 2009	Kiyev	Nazir müavini M. Məmməd-Quliyev Təhlükəsizlik Problemləri İdarəsi; İqtisadi Əməkdaşlıq və İnkişaf İdarəsi; Birinci Ərazi İdarəsi	Aİ departamentin direktoru
3	Regional təhlükəsizlik məsələləri üzrə DİTT-GUAM çərçivəsində qarşılıqlı fəaliyyət və əməkdaşlıq; GUAM regionunda münaqişələrin, o cümlədən Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin nizamlanması; regional təşəbbüslər və regional təhlükəsizlik məsələləri; yeni təhdid və çağırışlarla mübarizə; silahlara nəzarət sahəsində əməkdaşlıq; GUAM regionunda münaqişələrin, o cümlədən Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasına beynəlxalq təşkilatların yardımı	II yarımillik 2009 I yarımillik 2010	Bakı Kiyev	Nazir müavini A. Özimov Təhlükəsizlik Problemləri İdarəsi	Siyasi departamentin direktoru
4	Beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığın aktual məsələləri BMT, ATƏT və AŞ çərçivəsində əməkdaşlıq; beynəlxalq təşkilatlardakı vakant vəzifələrin əvəz edilməsində namizədlərə qarşılıqlı dəstək	I yarımillik 2010 II yarımillik 2010	Kiyev Bakı	Nazir müavini A. Özimov Təhlükəsizlik Problemləri İdarəsi; İnsan Hüquqları, Demokratikləşdirmə və Humanitar Problemlər İdarəsi	BMT və digər beynəlxalq təşkilatlar departamentinin direktoru
5	İkitərəfli müqavilə-hüquq bazasının inkişafı və inventarlaşdırılmasının prioritet məqsədləri	I yarımillik 2010	Bakı	Beynəlxalq Hüquq və Müqavilələr İdarəsinin Rəisi Beynəlxalq Hüquq və Müqavilələr İdarəsi	Müqavilə-hüquq departamentinin direktoru, Konsulluq xidməti departamentinin direktoru
6	Azərbaycan Respublikası XİN-in və Ukrayna XİN-in Diplomatik Akademiyaları arasında əməkdaşlıq	II yarımillik 2009	Bakı	Nazir müavini H. Paşayev	Ukrayna XİN i Yanında Diplomatik Akademiyanın Rektoru

7	XİN-in fəaliyyətinin təşkilatı, tarix-arxiv, kargüzarlıq, dilçilik təminatı, kadr siyasəti və KİV-lə iş məsələləri	I yarımillik 2010	Kiyev	Nazir müavini V. Sadıqov Tarix-arxiv İdarəsi; İnformasiya İdarəsi; Kadrlar və İxtisasartırma İdarəsi; Ümumi katiblik; Tərcümə şöbəsi	Baş katiblik departamentinin direktoru; Ukrayna XİN-in heyəti departamentinin direktoru; İnformasiya siyasəti departamentinin direktoru, Ukrayna XİN-in tarix-arxiv idarəsinin rəisi

2. Tərəflər hər dəfə onların rəyincə ehtiyac yarandığı təqdirdə, sözügedən Məsləhətləşmələr Planına dəyişiklik və əlavələr edə bilərlər.

3. 9 aprel 2009-cu ildə Bakı şəhərində, iki nüsxədə, hər biri Azərbaycan və Ukrayna dillərində imzalanmışdır, hər iki mətn eyni qüvvəyə malikdir.

AZƏRBAYCAN RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRLİYİNİN ADINDAN

ELMAR MƏMMƏDYAROV
Xarici işlər naziri

UKRAYNA XARİCİ İŞLƏR NAZİRLİYİNİN ADINDAN

VLADİMİR XONDOGİ
Xarici işlər naziri vəzifəsini icra edən

2009-cu il aprelin 22-də Tehran şəhərində imzalanmış "Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi və İran İslam Respublikası Milli Gənclər Təşkilatı arasında əməkdaşlığa dair Anlaşma Memorandumu"nun təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2009-cu il aprelin 22-də Tehran şəhərində imzalanmış "Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi və İran İslam Respublikası Milli Gənclər Təşkilatı arasında əməkdaşlığa dair Anlaşma Memorandumu" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Memorandumun həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Memorandumun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə İran İslam Respublikası tərəfini xəbərdar etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 24 iyun 2009-cu il

№ 340

Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi və İran İslam Respublikası Milli Gənclər Təşkilatı arasında əməkdaşlığa dair Anlaşma Memorandumu

Bundan sonra "Tərəflər" adlanacaq Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi və İran İslam Respublikası Milli Gənclər Təşkilatı, qarşılıqlı dostluq və qardaşlıq əlaqələrinin möhkəmləndirilməsi məqsədilə və iki dost ölkə olan Azərbaycan Respublikası və

İran İslam Respublikası arasındakı münasibətlərin möhkəmlənməsinə xidmət edən bu iki ölkənin gəncləri arasındakı əlaqələrin gücləndirilməsi istiqamətində, hər iki ölkənin qüvvədə olan qanunvericiliyinə uyğun olaraq aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər, gənclərlə əlaqədar sahələrdə əməkdaşlığın gücləndirilməsi üçün aşağıdakı istiqamətlərdə səy göstərəcəklər:

1. təcrübə mübadiləsi və gənclərlə əlaqədar birgə əməkdaşlıq proqramlarının hazırlanması məqsədilə gənclərlə iş üzrə məsul şəxslər arasında qarşılıqlı görüşlərin keçirilməsi;

2. iki ölkədə təşkil edilən elmi, istirahət, əmək düşərgələrində və gənclərin fəaliyyəti ilə bağlı digər müxtəlif tədbirlərdə iştirak üçün gənclərdən ibarət heyətlərin mübadiləsinin təşviq edilməsi;

3. iki ölkənin gənclər üzrə cəmiyyət, təşkilat və mərkəzləri (qeyri-dövlət) arasında birgə səy göstərilməli sahələrdə birbaşa əməkdaşlığın təşviq edilməsi;

4. gənclər üçün nəzərdə tutulan əyləncə xarakterli proqramlar və fəaliyyət sahələri üzrə təşkilatçılıq istiqamətində əməkdaşlığın təşviq edilməsi;

5. gənclərə dair məsələlərlə əlaqədar beynəlxalq qurumlar tərəfindən mötəbər sayılan informasiya və təcrübə mübadiləsi;

6. təcrübə mübadiləsi üçün gənclərlə iş üzrə mütəxəssislər və təlim-tərbiyə üzrə məsul şəxslər arasında qarşılıqlı əməkdaşlığın təşviq edilməsi;

7. Tərəflər aşağıdakı sahələrdə mübadilə istiqamətində fəaliyyət göstərəcəklər:

Gənclərlə əlaqədar statistika və bəyanatlar;

Gənclərlə əlaqədar qanun və qərarlara dair məlumatlar;

Gənclərlə əlaqədar metodik mənbələr.

Maddə 2

Bu Memorandum çərçivəsində bütün fəaliyyətlər tərəflərin dövlətlərinin qanunvericiliyinə uyğun olaraq həyata keçiriləcək və ona dair maliyyə kreditləri tərəflərin büdcəsində olan xüsusi ehtiyatlara, həmçinin müqavilə tərəflərinin ölkələrinin qanunları ilə icazə verilən digər mənbələrə uyğun olaraq nəzərdə tutulur.

Bu Memorandum tərəflərin beynəlxalq müqavilələrdən irəli gələn hüquq və öhdəliklərinə heç bir təsir göstərmir.

Bu Memorandumun təfsiri və tətbiqi ilə bağlı yaranan mübahisələr tərəflər arasında məsləhətləşmələr və danışıqlar yolu ilə həll ediləcəkdir.

Bu Memorandumun icrasının başa çatması, bu sənədin icra müddətinin sona yetdiyi tarixdə yekunlaşmayan razılaşdırılmış layihələr və proqramların icrasına təsir göstərməyəcək.

Maddə 3

Bu Memorandumun həyata keçirilməsi məqsədilə Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi və İran İslam Respublikası Milli Gənclər Təşkilatının məsul şəxslərinin

üzv olduqları Müştərək Komitə yaradılacaq və hər il növbə ilə Bakı və Tehranda bu komitənin iclasları keçiriləcək. Memorandumun icra proqramlarının hazırlanması, həyata keçirilməsi və genişləndirilməsi prosesinin izlənilməsi, eləcə də bu müqavilənin ən yaxşı formada həyata keçirilməsinə zəmanət üçün təkliflərin irəli sürülməsi, qeyd olunan Komitənin vəzifələrinə daxildir.

Maddə 4

Ezam olunacaq heyətlərin mübadiləsi aşağıda qeyd olunan maliyyə şərtlərilə həyata keçəcək:

qonaq tərəf beynəlxalq gediş-gəliş xərclərini öhdəsinə götürür;

ev sahibi, qalma, məişət və ölkə daxilində nəqliyyat xərclərini, eləcə də ehtiyac duyulan təqdirdə tibbi xidmət xərclərini öz öhdəsinə götürür.

Maddə 5

Memorandum onun qüvvəyə minməsi üçün lazımi dövlətdaxili prosedurları Tərəflərin hər birinin yerinə yetirməsi barədə sonuncu yazılı bildirişin alındığı tarixdən qüvvəyə minir. Memorandum beş il müddətində qüvvədədir, əgər Tərəflərdən biri müvafiq müddətin başa çatmasına ən azı altı ay qılmış digər Tərəfə Memorandumun qüvvəsini dayandırmaq barədə yazılı bildiriş göndərməzsə, o, avtomatik surətdə növbəti beşillik müddətlərə uzadılır.

Tehran şəhərində 2009-cu il aprel ayının 22-də iki əsl nüsxədə, hər biri Azərbaycan, fars və ingilis dillərində imzalanmışdır. Bütün mətnlər eyni qüvvəyə malikdir.

Bu Memorandumun təfsiri zamanı fikir ayrılığı olduqda, ingilis dilindəki mətnə istinad ediləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASININ GƏNCLƏR VƏ İDMAN NAZİRLİYİ ADINDAN	İRAN İSLAM RESPUBLİKASININ MİLLİ GƏNCLƏR TƏŞKİLATI ADINDAN
AZAD RƏHİMOV	*MƏHƏMMƏDCAVAD HACI ƏLİ ƏKBƏRİ*
Gənclər və idman naziri	*İİR-nin vitse-prezidenti, Gənclər Təşkilatının sədri*

2009-cu il aprelin 27-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Vergilər Nazirliyi və Estoniya Vergi və Gömrük Şurası arasında vergi orqanlarının fəaliyyəti sahəsində əməkdaşlığa dair Memorandum"un təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2009-cu il aprelin 27-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Vergilər Nazirliyi və Estoniya Vergi və Gömrük Şurası arasında vergi orqanlarının fəaliyyəti sahəsində əməkdaşlığa dair Memorandum" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Vergilər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişin həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın

1-ci bəndində göstərilən Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Estoniya Respublikası tərəfini xəbərdar etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 24 iyun 2009-cu il

№ 341

Azərbaycan Respublikası Vergilər Nazirliyi və Estoniya Vergi və Gömrük Şurası arasında vergi orqanlarının fəaliyyəti sahəsində əməkdaşlığa dair Memorandum

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikası Vergilər Nazirliyi və Estoniya Vergi və Gömrük Şurası,

vergi orqanları arasında əməkdaşlığın genişləndirilməsinin hər iki Tərəf üçün faydalı olacağına və ölkələr arasında əlaqələrin gücləndirməsinə kömək edəcəyinə inanaraq;

vergitutmanın idarə olunması sahəsində ikitərəfli əməkdaşlığın əhəmiyyətini anlayaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər vergi orqanlarının işinin təşkili, idarə olunması (menecment), vergi inzibatçılığı, informasiya texnologiyalarının tətbiqi, vergi işçilərinin treninqi, vergi ödəyiciləri ilə qarşılıqlı əlaqələr, tədris proqramlarının hazırlanması və həyata keçirilməsi və digər fəaliyyət sahələrində təcrübə mübadiləsi aparacaqlar.

Maddə 2

İkitərəfli əməkdaşlıq seminarlar, nümayəndə heyətlərinin səfərləri, fərdi görüşlər və ya Tərəflərin təyin etdiyi səlahiyyətli nümayəndələrin müəyyən etdiyi digər formalarda (bundan sonra "tədbirlər" adlanır) həyata keçirilir.

Maddə 3

Hər bir Tərəf öz nümayəndələrinin tədbirlərdə iştirakı ilə bağlı xərcləri öz üzərinə götürür.

Maddə 4

Tərəflərin qarşılıqlı razılığı əsasında bu Memoranduma onun ayrılmaz hissəsi olan və bu Memorandumun 5-ci maddəsində nəzərdə tutulan qaydada qüvvəyə minən ayrıca Protokollarla rəsmiləşdirilən dəyişikliklər və əlavələr edilə bilər.

Bu Memorandumun tətbiqi ilə bağlı yaranan mübahisələr Tərəflər arasında məsləhətləşmələr və danışıqlar yolu ilə həll ediləcəkdir.

Maddə 5

Bu Memorandum hər iki Tərəf onu imzaladıqdan sonra, Tərəflərin zəruri daxili milli prosedurların yerinə yetirilməsi haqqında bildirişlərindən sonuncusunun diplomatik ka-

nallarla alındığı tarixdə qüvvəyə minəcəkdir. Bu Memorandum qeyri-müəyyən müddətə bağlanır. Bu Memorandumun qüvvəsi Tərəflərdən birinin yazılı bildirişinə əsasən istənilən vaxt ləğv edilə bilər və bu halda Memorandum, Tərəflərdən birinin digərinə qüvvədən düşmə haqqında yazılı bildiriş təqdim etdiyi aydan sonrakı ayın ilk günündən etibarən qüvvədən düşmüş hesab edilir.

Bu Memorandum Bakı şəhərində 2009-cu il 27 aprel tarixində iki nüsxədə, hər biri Azərbaycan, eston və ingilis dillərində imzalanmışdır. Bütün mətnlər bərabər autentikdir. Təfsir zamanı fikir ayrılığı yarandıqda, ingilis dilindəki mətn əsas götürüləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ ADINDAN	ESTONİYA VERGİ VƏ GÖMRÜK ŞURASI ADINDAN
FAZİL MƏMMƏDOV *Vergilər naziri*	*ENRİKO AAV* *Şurasının baş direktoru*

2009-cu il mayın 5-də Minsk şəhərində imzalanmış "Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi və Belarus Respublikasının İnformasiya Nazirliyi arasında nəşriyyat və informasiya sahəsində əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2009-cu il mayın 5-də Minsk şəhərində imzalanmış "Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi və Belarus Respublikasının İnformasiya Nazirliyi arasında nəşriyyat və informasiya sahəsində əməkdaşlıq haqqında Saziş" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişin həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Belarus Respublikası tərəfini xəbərdar etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 24 iyun 2009-cu il

№ 342

Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi və Belarus Respublikasının İnformasiya Nazirliyi arasında nəşriyyat və informasiya sahəsində əməkdaşlıq haqqında Saziş

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi və Belarus Respublikasının İnformasiya Nazirliyi,

2007-ci il 2 may tarixində imzalanmış Azərbaycan Respublikası və Belarus Respublikası arasında dostluq və əməkdaşlıq haqqında Müqaviləni nəzərə alaraq,

hər iki ölkə arasında dostluq əlaqələrinin və işgüzar əlaqələrin möhkəmləndirilməsini

rəhbər tutaraq,

nəşriyyat və informasiya sahəsində əməkdaşlığın inkişaf etdirilməsinə mühüm əhəmiyyət verərək,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər öz ölkələrinin siyasi, iqtisadi və mədəni fəaliyyət sahələrini əhatə edən materialların mübadiləsinin həyata keçirilməsinə kömək göstərəcəklər.

Maddə 2

Tərəflər kitab nəşri, poliqrafiya, mətbuat və öz dövlətlərinin ərazilərində çap məhsullarının yayılması sahələrində əməkdaşlığı inkişaf etdirəcəklər.

Maddə 3

Tərəflər vətəndaşların dövri mətbuat və kitab nəşrinə olan tələbatını təmin etmək məqsədilə çap məhsullarının mübadiləsi və yayılması sahəsində əməkdaşlığı inkişaf etdirəcəklər.

Maddə 4

Tərəflər nəşriyyatlar, poliqrafiya müəssisələri, mətbuat redaksiyaları, çap məhsullarının yayımı üzrə təşkilatlar arasında birbaşa yaradıcı və işgüzar əlaqələrin qurulmasını genişləndirəcək və dəstəkləyəcəklər. Əməkdaşlığın konkret şərtləri və formaları bilavasitə iştirakçılar arasında ayrıca sazişlərin bağlanması yolu ilə müəyyən ediləcəkdir.

Maddə 5

Tərəflər kitab nəşri, poliqrafiya, mətbuat sahələri üzrə mütəxəssislərin mübadiləsini və çap məhsullarının yayımını, özlərinin peşəkar təşkilatları arasında əməkdaşlığı təşviq edəcək, birgə layihələrin həyata keçirilməsi ilə bağlı öz dövlətlərinin mütəxəssislərinin cəlb olunmasına, Tərəflərin dövlətlərinin ərazisində keçirilən kitab nəşri, poliqrafiya, mətbuat və çap məhsullarının yayımı sahələri üzrə sərgi tədbirlərində, seminarlarda və festivallarda qarşılıqlı iştiraka kömək göstərəcəklər.

Maddə 6

Tərəflər öz dövlətlərinin milli qanunvericiliyinə uyğun olaraq öz dövlət ərazilərində nəşr olunan çap məhsullarının yayımı ilə məşğul olan qurumlara əlverişli şəraitin yaradılmasına səy göstərəcəklər.

Maddə 7

Tərəflərin bu Saziş çərçivəsindəki bütün fəaliyyəti hər bir Tərəfin öz dövlətlərinin milli qanunvericiliyinə və beynəlxalq hüquq normalarına uyğun olaraq həyata keçiriləcəkdir.

Maddə 8

Bu Sazişin həyata keçirilməsi zamanı Tərəflər arasında yaranan fikir ayrılığı danışıqlar yolu ilə aradan qaldırılacaqdır.

Maddə 9

Tərəflərin qarşılıqlı razılığı əsasında bu Sazişə onun ayrılmaz hissəsi olan və Sazişin 10-cu maddəsində nəzərdə tutulan qaydada qüvvəyə minən ayrıca protokollarla rəsmiləşdirilən əlavə və dəyişikliklər edilə bilər.

Maddə 10

Bu Saziş 5 il müddətinə bağlanılır və onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Tərəflərin sonuncu yazılı bildirişinin diplomatik kanallar vasitəsilə alındığı tarixdən qüvvəyə minir.

Tərəflərdən biri bu Sazişin müddətinin bitməsinə ən azı altı ay qalmış onu ləğv etmək niyyəti barədə yazılı şəkildə digər Tərəfə diplomatik kanallar vasitəsilə məlumat verməzsə, onun qüvvəsi avtomatik olaraq növbəti 5 illik müddətlərə uzadılacaqdır.

Bu Saziş Minsk şəhərində 2009-cu il 5 may tarixində iki əsl nüsxədə, hər biri Azərbaycan və rus dillərində imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir. Bu Sazişin təfsirində fikir ayrılığı yarandığı təqdirdə, rus dilindəki mətnə istinad ediləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASININ MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRLİYİ ADINDAN	BELARUS RESPUBLİKASININ İNFORMASİYA NAZİRLİYİ ADINDAN
(imza)	*(imza)*

2009-cu il mayın 12-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Ədliyyə Nazirliyi və Slovakiya Respublikası Ədliyyə Nazirliyi arasında əməkdaşlıq haqqında Memorandum"un təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2009-cu il mayın 12-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Ədliyyə Nazirliyi və Slovakiya Respublikası Ədliyyə Nazirliyi arasında əməkdaşlıq haqqında Memorandum" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Memorandumun həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Memorandumun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Slovakiya Respublikası tərəfini xəbərdar etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 24 iyun 2009-cu il

№ 343

Azərbaycan Respublikası Ədliyyə Nazirliyi və Slovakiya Respublikası Ədliyyə Nazirliyi arasında əməkdaşlıq haqqında Memorandum

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikası Ədliyyə Nazirliyi və Slovakiya Respublikası Ədliyyə Nazirliyi,

hər iki dövlət arasında ədliyyə sahəsində əlaqələri daha da genişləndirmək və gücləndirmək arzusunu ifadə edərək,

cəmiyyətlərində ədliyyənin rolunu və əhəmiyyətini nəzərə alaraq,

Tərəflər arasında ədliyyə sahəsində bilik və təcrübə mübadiləsinin zəruriliyini qeyd edərək,

Tərəflərin beynəlxalq öhdəliklərini və milli qanunvericiliyini nəzərə alaraq, aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər aşağıdakı sahələr üzrə əməkdaşlığı, məlumat və təcrübə mübadiləsini dəstəkləyəcəklər:

a) daxili qanunvericilik və hüquqi xarakterli məlumatlar;

b) məhkəmə sisteminin idarə edilməsi;

c) elektron ədliyyə;

d) ədliyyənin təşkili;

e) birgə razılığa əsasən digər məsələlər.

Maddə 2

Bu Memorandumun 1-ci maddəsində göstərilən sahələr üzrə əməkdaşlığın həyata keçirilməsi məqsədilə Tərəflər normativ aktlar, hüquqi sənəd və rəylərlə bağlı mübadilə aparacaq, birgə seminar və məsləhətləşmələr təşkil edəcəklər.

Maddə 3

Tərəflər qarşılıqlı maraq kəsb edən məsələlər üzrə müzakirələrin aparılması məqsədilə ekspert nümayəndə heyətlərinin mübadiləsini və qarşılıqlı tədris səfərlərinin təşkilini dəstəkləyəcəklər.

Maddə 4

Tərəflər Memorandumun 2-ci və 3-cü maddələrində göstərilən tədbirlərdən irəli gələn səfərlərlə bağlı xərcləri qarşılıq prinsipinə və milli qanunvericiliyə əsasən aşağıdakı qaydada ödəyirlər:

a) qəbul edən Tərəf tədbirin təşkili və ölkə daxilində qalma və nəqliyyat xərclərini ödəyir;

b) göndərən Tərəf səfərin baş tutacağı ölkəyə gediş və gəliş xərclərini ödəyir.

Maddə 5

Yazışma və əlaqələr Azərbaycan, slovak və/və ya ingilis dillərində həyata keçirilir.

Maddə 6

Tərəflərin qarşılıqlı razılığı ilə Memorandumа onun ayrılmaz hissəsi olan Protokollarla rəsmiləşdirilən və 7-ci maddəsinə uyğun olaraq qüvvəyə minən müvafiq əlavə və dəyişikliklər edilə bilər.

Maddə 7

Memorandum hər bir Tərəfin daxili qanunvericiliyinə əsasən qüvvəyə minir və Tərəflərdən birinin onun ləğv edilməsi ilə bağlı yazılı bildiriş göndərdiyi tarixdən altı ay keçdikdən sonra öz qüvvəsini itirir.

Bakı şəhərində 2009-cu il 12 may tarixində iki əsl nüsxədə, hər biri Azərbaycan, slovak və ingilis dillərində imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir. Memorandumun müddəalarının təfsirində fikir ayrılığı yarandığı təqdirdə, ingilis dilində olan mətn əsas götürüləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI ƏDLİYYƏ NAZİRLİYİ ADINDAN	SLOVAKİYA RESPUBLİKASI ƏDLİYYƏ NAZİRLİYİ ADINDAN
FİKRƏT MƏMMƏDOV *Ədliyyə naziri*	*STEFAN HARABİN* *Baş nazirinin müavini, ədliyyə naziri*

2009-cu il mayın 18-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi və Kuba Respublikasının Mədəniyyət Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2009-cu il mayın 18-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi və Kuba Respublikasının Mədəniyyət Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişin həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Kuba Respublikası tərəfini xəbərdar etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 24 iyun 2009-cu il

№ 344

Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi və Kuba Respublikasının Mədəniyyət Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi və Kuba Respublikasının Mədəniyyət Nazirliyi,

öz aralarında dostluq və həmrəylik əlaqələrini möhkəmləndirmək və inkişaf etdirmək arzularını ifadə edərək,

Tərəflər arasında mədəniyyətlərarası dialoqun və mədəniyyət sahəsində əməkdaşlığın inkişaf etdirilməsinin əhəmiyyətinə diqqət yönəldərək,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər hazırkı mədəniyyət siyasəti və bu Sazişdən irəli gələn digər məsələlərlə bağlı informasiya mübadiləsi aparacaq və hər bir tərəfin daxili qanunvericiliyinə müvafiq olaraq bu Sazişin fəaliyyətinin təşviq və tətbiq edilməsinə birlikdə kömək göstərəcəklər.

Maddə 2

Tərəflər aşağıdakı sahələr üzrə əməkdaşlıq edəcəklər:

qarşılıqlı Mədəniyyət Günlərinin keçirilməsi;

tələbələr, pedaqoqlar və elmi əməkdaşlar arasında bədii təhsil üzrə təcrübə mübadiləsi məqsədilə konfransların, simpoziumların və kollokviumların keçirilməsi;

Azərbaycan və Kuba təşkilatlarının hər iki ölkədə keçirilən beynəlxalq musiqi, incəsənət, teatr və kino festivallarında iştirakı. Dövətlər həmin tədbir təşkilatçıları komitəsinin şərtlərinə müvafiq olaraq həyata keçiriləcək;

incəsənət, dekorativ-tətbiqi sənət və kulinariya sərgilərinin təşkili;

hər iki tərəf üçün qarşılıqlı maraq doğuran və əməkdaşlığa yönəldilmiş digər fəaliyyətlər.

Maddə 3

Tərəflər öz ölkələrinin mədəniyyət təsisatları arasında əməkdaşlığa şərait yaradacaq və bu məqsədlə hər iki ölkənin muzey, kitabxana və teatrları arasında müqavilələrin bağlanılması imkanlarını araşdıracaqlar.

Maddə 4

Tərəflər mədəniyyət abidələrinin qorunması, bərpası, regenerasiyası və konservasiyası sahəsində əməkdaşlıq edəcəklər.

Maddə 5

Tərəflər bu Sazişin müddəalarının təfsiri və ya tətbiqi zamanı mübahisələr yarandığı təqdirdə, Tərəflər onları danışıqlar və məsləhətləşmələr yolu ilə həll edəcəklər.

Maddə 6

Tərəflərin qarşılıqlı razılığı əsasında bu Sazişə onun ayrılmaz hissəsi olan və 7-ci maddəsində nəzərdə tutulan qaydada qüvvəyə minən ayrıca protokollarla rəsmiləşdirilən əlavə və dəyişikliklər edilə bilər.

Maddə 7

Bu Saziş onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Tərəflərin sonuncu yazılı bildirişinin diplomatik kanallar vasitəsilə alındığı tarixdən qüvvəyə minir.

Bu Saziş 5 (beş) il müddətinə bağlanılır və Tərəflərdən biri bu Sazişin müddətinin bitməsinə on azı 6 (altı) ay qalmış onu ləğv etmək niyyəti barədə digər Tərəfə diplomatik kanallar vasitəsilə yazılı şəkildə məlumat verməzsə, onun qüvvəsi avtomatik olaraq növbəti 5 illik müddətlərə uzadılacaqdır.

Bu Saziş Bakı şəhərində 2009-cu il 18 may tarixində iki əsl nüsxədə, hər biri Azərbaycan, ispan və ingilis dillərində imzalanmışdır, bütün mətnlər bərabər autentikdir. Bu Sazişin təfsirində fikir ayrılığı yarandığı təqdirdə, ingilis dilindəki mətnə üstünlük veriləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASININ
MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRLİYİ
ADINDAN

ƏBÜLFƏS QARAYEV
Mədəniyyət və turizm naziri

KUBA RESPUBLİKASININ
MƏDƏNİYYƏT NAZİRLİYİ
ADINDAN

RİKARDO GERRERO
Xarici ticarət və xarici investisiyalar nazirinin müavini

"Azərbaycan Respublikası Hökuməti və Latviya Respublikası Hökuməti arasında Ətraf Mühitin Mühafizəsi sahəsində əməkdaşlığa dair Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti və Latviya Respublikası Hökuməti arasında Ətraf Mühitin Mühafizəsi sahəsində əməkdaşlığa dair Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri Hüseynqulu Seyid oğlu Bağırova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən sənədi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri Hüseynqulu Seyid oğlu Bağırova verilməsi barədə Latviya Respublikası Hökumətinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 25 iyun 2009-cu il

№ 347

S.M. Qasımova Azərbaycan Respublikasının birinci dərəcəli fövqəladə və səlahiyyətli elçisi diplomatik rütbəsi verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

"Diplomatik xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 8.1.2-ci maddəsini rəhbər tutaraq qərara alıram:

Sultan Məhəmməd oğlu Qasımova Azərbaycan Respublikasının birinci dərəcəli fövqəladə və səlahiyyətli elçisi diplomatik rütbəsi verilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 25 iyun 2009-cu il

№ 352

S.M. Qasımovun Rusiya Federasiyasının Yekaterinburq şəhərində Azərbaycan Respublikasının baş konsulu təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alıram:

Sultan Məhəmməd oğlu Qasımov Rusiya Federasiyasının Yekaterinburq şəhərində Azərbaycan Respublikasının baş konsulu təyin edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 25 iyun 2009-cu il

№ 353

"Azərbaycan Respublikası Hökuməti və İsrail Dövləti Hökuməti arasında mədəniyyət, təhsil və elm sahəsində əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. Azərbaycan Respublikası Hökuməti və İsrail Dövləti Hökuməti arasında mədəniyyət, təhsil və elm sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının mədəniyyət və turizm naziri Əbülfəs Mürsəl oğlu Qarayevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının mədəniyyət və turizm naziri Əbülfəs Mürsəl oğlu Qarayevə verilməsi barədə İsrail tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 27 iyun 2009-cu il

№ 358

"Azərbaycan Respublikası Hökuməti və İsrail Dövləti Hökuməti arasında informasiya və kommunikasiya texnologiyaları sahəsində əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti və İsrail Dövləti Hökuməti arasında informasiya və kommunikasiya texnologiyaları sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının rabitə və informasiya texnologiyaları naziri Əli Məmməd oğlu Abbasova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının rabitə və informasiya texnologiyaları nazir Əli Məmməd oğlu Abbasova verilməsi barədə İsrail tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 27 iyun 2009-cu il

№ 359

Yaponiya Beynəlxalq Əməkdaşlıq Agentliyi və Azərbaycan Respublikası Hökuməti arasında "Kiçik şəhərlərdə su təchizatı və kanalizasiya layihəsi"nə dair Kredit Sazişinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. Yaponiya Beynəlxalq Əməkdaşlıq Agentliyi və Azərbaycan Respublikası Hökuməti arasında "Kiçik şəhərlərdə su təchizatı və kanalizasiya layihəsi"nə dair 2009-cu il mayın 29-da Bakı şəhərində imzalanmış Kredit Sazişi təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 30 iyun 2009-cu il

№ 848-IIIQ

Müzakirələrin Protokolu

Azərbaycan Respublikasının iqtisadi sabitliyinin və inkişaf səylərinin artırılması məqsədilə Yaponiya tərəfindən ayrılacaq kredit ilə əlaqədar 9 fevral 2009-cu il tarixli Notaların Mübadiləsi ilə bağlı (bundan sonra "Notaların Mübadiləsi" adlandırılacaq) Azərbaycan və Yaponiya nümayəndə heyətinin üzvləri aşağıdakıları qeyd etmək istərdi:

1. Notaların Mübadiləsinin 1-ci bəndində qeyd olunan layihənin (bundan sonra "Layihə" adlandırılacaq) icrası üçün münasib hesab edilən yerli valyuta tələblərinin maliyyələşdirilməsi ilə bağlı Notaların Mübadiləsinin 3-cü bəndinin (3)-cü yarımbəndi ilə əlaqədar Yaponiya nümayəndə heyətinin üzvləri aşağıdakıları qeyd etmişdir:

Birbaşa layihənin icrası ilə bağlı olmayan inzibati xərclər, tikinti zamanı faiz, vergi və rüsumlar, ofislərlə bağlı xərclər, icraçı agentliyin işçilərinə xidmət haqları, mənzil xərcləri, həmçinin torpaq mülkiyyətinin alınması, kompensasiya kimi belə yerli valyuta tələbləri Notaların Mübadiləsinin 1-ci bəndində qeyd olunan kredit (bundan sonra "Kredit" adlandırılacaq) çərçivəsində maliyyələşdirilmə üçün münasib hesab edilməyəcək.

Malların və xidmətlərin satınalınması beynəlxalq müsabiqəli tender proseduruna müvafiq yerinə yetiriləcək, lakin belə prosedurların qeyri-məqbul və qeyri-müvafiq hesab olunduğu hallar istisna olunur.

2. Kreditlə bağlı Yaponiya nümayəndə heyətinin üzvləri bildirmişlər ki, Notaların Mübadiləsinin 2-ci bəndinin (1)-ci yarımbəndində qeyd olunan Kredit sazişi çərçivəsində kreditin məbləğini aşan layihənin hər hansı maliyyə tələbləri layihənin rahat həyata keçirilməsinə zəmanət verilməsi üçün Azərbaycan Respublikası Hökuməti tərəfindən qarşılanacaqdır.

3. Notaların Mübadiləsinin 8-ci bəndi ilə bağlı Yaponiya nümayəndə heyətinin aşağıdakıları qeyd etmişdir:

Adı çəkilən bənddə qeyd olunan lazımi tədbirlərə Azərbaycan Respublikasında korrupsiya təcrübəsi kimi qəbul edilən və Notaların Mübadiləsinin 3-cü bəndinin (1)-ci yarımbəndində göstərildiyi kimi müqavilənin əldə olunması məqsədi ilə edilən hər hansı bir təklif, hədiyyə, ödənişin qarşısının alınmasına yönəldilmiş tədbirlər daxildir.

Satınalma prosesinin ədalətliliyinə və rəqabət qabiliyyətinə zəmanət vermək məqsədilə Yaponiya Beynəlxalq İnkişaf Bankı (bundan sonra "Bank" adlandırılacaq) tərəfindən təyin ediləcək və Bankın hesabına ödəniləcək müstəqil auditorlar tərəfindən, Bank zəruri hesab etdiyi halda, satınalma auditinin yerinə yetirilməsinə imkan yaradılması və asanlaşdırılması üçün Azərbaycan Respublikası Hökuməti bütün zəruri tədbirləri görəcəkdir.

4. Azərbaycan nümayəndə heyətinin üzvləri bildirdilər ki, onlar Yaponiya nümayəndə heyəti tərəfindən yuxarıda qeyd olunanlara etiraz etmirlər.

Bakı, 9 fevral 2009-cu il

ABİD ŞƏRİFOV	*MASAMİTSU OKİ*
Azərbaycan Respublikası Baş nazirinin müavini	*Yaponiyanın Azərbaycan Respublikasındakı Fövqəladə və Səlahiyyətli Səfiri*

Kredit Sazişi No: AZB-P4

Azərbaycan Respublikası Hökuməti və Yaponiya Beynəlxalq Əməkdaşlıq Agentliyi arasında "Kiçik şəhərlərdə Su Təchizatı və Kanalizasiya Layihəsi"nə dair Kredit Sazişi

29 may 2009-cu il

Mündəricat

Maddə I Kredit

Bölmə 1 Kreditin məbləği və məqsədi

Bölmə 2 Kredit vəsaitlərinin istifadəsi

Maddə II Kreditin Geri Qaytarılması, Faiz və Öhdəlik Haqqı

Bölmə 1 Əsas borcun qaytarılması

Bölmə 2 Faiz və onun ödənilmə metodu
Bölmə 3 Öhdəlik haqqı və onun ödənilmə metodu
Bölmə 4 Qeyri-qənaətbəxş ödəmə

Maddə III Xüsusi Razılaşmalar

Bölmə 1 Ümumi şərt və müddəalar
Bölmə 2 Satınalma proseduru
Bölmə 3 Kredit vəsaitlərinin xərclənməsi proseduru
Bölmə 4 Kreditin inzibati idarəedilməsi
Bölmə 5 Bildirişlər və Müraciətlər

Qrafik 1 Layihənin Təsviri
Qrafik 2 Kredit Vəsaitlərinin Bölüşdürülməsi
Qrafik 3 Amortizasiya Qrafiki
Qrafik 4 Satınalma Proseduru
Qrafik 5 Öhdəlik Proseduru
Qrafik 6 Vəsaitlərin Əvəzinin Ödənilməsi Proseduru
Qrafik 7 Vəsaitlərin Köçürülməsi Proseduru

Azərbaycan Respublikası Hökuməti və Yaponiya Beynəlxalq Əməkdaşlıq Agentliyi arasında 29 may 2009-cu il tarixli AZB-P4 nömrəli Kredit Sazişi

Azərbaycan Respublikasının iqtisadi sabitlik və inkişafının gücləndirilməsi məqsədilə Yaponiya tərəfindən ayrılmış kreditlə bağlı Azərbaycan Respublikası Hökuməti və Yaponiya Hökuməti arasında 09 fevral 2009-cu il tarixli Notalar Mübadiləsinin məzmununu nəzərə alaraq

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ (bundan sonra "Borcalan" adlandırılacaq) və YAPONİYA BEYNƏLXALQ ƏMƏKDAŞLIQ AGENTLİYİ (bundan sonra "YBƏA" adlandırılacaq) aşağıdakı Kredit Sazişini (bundan sonra "Kredit Sazişi" adlandırılacaq, bütün əlavə razılaşmalar da bura daxildir) bağlayırlar.

Maddə I

Kredit

Bölmə 1

Kreditin Məbləği və Məqsədi

YBƏA bu Sazişin 1-ci Əlavəsində təsvir olunmuş "Kiçik Şəhərlərdə Su Təchizatı və Kanalizasiya Layihəsi"nin (Bundan sonra "Layihə" adlandırılacaq) həyata keçirilməsi məqsədilə Kredit Sazişində müəyyən edilmiş şərt və müddəalar, həmçinin Yaponiyanın müvafiq qanun və nizamnamələrinə uyğun olaraq OTUZ İKİ MİLYARD SƏKKİZ YÜZ ƏLLİ BİR MİLYON Yapon yeni (¥32,851,000,000) məbləğindən artıq olmayan

vəsaiti borc verməyə razılaşır, o şərtlə ki, Kredit Sazişi çərçivəsində vəsaitlərin istifadəsinin yekun cəmi qeyd olunan həddə çatdıqda YBƏA daha heç bir növbəti istifadəni həyata keçirməyəcəkdir.

Bölmə 2

Kredit Vəsaitlərinin İstifadəsi

Borcalan kredit vəsaitlərinin bu Sazişin 2-ci Əlavəsində təsvir olunmuş vəsaitlərinin bölüşdürülməsinə müvafiq olaraq Layihənin həyata keçirilməsi üçün zəruri olan münasib mallar və xidmətlərin bu Sazişin 4-cü əlavəsində təsvir olunmuş münasib mənbə ölkə(lər)dən olan təchizatçı, podratçı və yaxud məsləhətçilərdən (bundan sonra kollektiv olaraq Təchizatçı(lar) adlandırılacaq) satınalınması üçün istifadə olunmasına çalışacaqdır.

Kredit sazişi çərçivəsində vəsaitlərinin ən son istifadəsi Kredit Sazişinin qüvvəyə minməsi tarixindən səkkiz (8) il sonra eyni ay və gün tarixindən gec olmayaraq yerinə yetirilməlidir və YBƏA ilə Borcalan arasında digər hal razılaşdırılmayana qədər YBƏA tərəfindən növbəti heç bir istifadə həyata keçirilməyəcəkdir.

Maddə II

Borcun Qaytarılması, Faiz və Öhdəlik Haqqı

Bölmə 1

Əsas Borcun Qaytarılması

Borcalan əsas borcu bu Sazişin 3-cü Əlavəsində müəyyən edilmiş Amortizasiya Qrafikinə müvafiq olaraq YBƏA-ya geri qaytaracaqdır.

Bölmə 2

Faiz və onun ödənilmə metodu

(1) Borcalan aşağıda (a) və (b) kateqoriyalarına müvafiq olaraq əsas borcun istifadə olunmuş (Bundan sonra "Əsas borc (i)" adlandırılacaq) və ödənilməmiş məbləğləri üzrə illik bir tam onda dörd faiz (1,4 %) dərəcəsində YBƏA-ya ildə iki dəfə faiz ödəyəcəkdir.

Bu Sazişin 2-ci Əlavəsinin 1-ci Bölməsində (A), (D)-i) və (F) kateqoriyaları üzrə bölüşdürülmüş kredit vəsaitlərindən istifadə olunmuş əsas borc;

Bu Sazişin 2-ci Əlavəsinin 1-ci Bölməsində (E) kateqoriyası üzrə yenidən bölüşdürülmüş və yuxandakı (1) (a) bəndinə müvafiq olaraq istifadə olunmuş hər hansı əsas borc.

(2) Borcalan aşağıdakı (a) və (b) kateqoriyalarına müvafiq olaraq əsas borcun istifadə olunmuş (Bundan sonra "Əsas borc (ii)" adlandırılacaq) və ödənilməmiş məbləğləri üzrə illik sıfır tam yüzdə altmış beş faiz (0,65%) dərəcəsində YBƏA-ya ildə iki dəfə faiz ödəyəcəkdir:

(a) Bu Sazişin 2-ci Əlavəsinin 1-ci Bölməsində (B), (D)-ii kateqoriyaları üzrə bölüşdürülmüş kredit vəsaitlərindən istifadə olunmuş əsas borc;

(b) Bu Sazişin 2-ci Əlavəsinin 1-ci Bölməsində (E) kateqoriyası üzrə yenidən bölüşdürülmüş və yuxandakı (2) (a) bəndinə müvafiq olaraq istifadə olunmuş hər hansı əsas borc.

(3) Borcalan aşağıdakı (a) və (b) kateqoriyalarına müvafiq olaraq əsas borcun istifadə olunmuş (Bundan sonra "Əsas borc (iii)" adlandırılacaq) və ödənilməmiş məbləğləri üzrə illik sıfır tam yüzdə bir faiz (0,01%) dərəcəsində YBƏA-ya ildə iki dəfə faiz ödəyəcəkdir:

Bu Sazişin 2-ci Əlavəsinin 1-ci Bölməsində (C), (D)-iii kateqoriyaları üzrə bölüşdürülmüş kredit vəsaitlərindən istifadə olunmuş əsas borc;

Bu Sazişin 2-ci Əlavəsinin 1-ci Bölməsində (E) kateqoriyası üzrə yenidən bölüşdürülmüş və yuxarıdakı (3) (a) bəndinə müvafiq olaraq istifadə olunmuş hər hansı əsas borc.

Borcalan YBƏA-ya: (i) Kredit vəsaitlərinin istifadəsinin tamamlanması tarixindən (Bundan sonra "Tamamlanma Tarixi" adlandırılacaq) əvvəl hər il 20 Aprel tarixində ondan əvvəlki ilin 20 Sentyabr tarixindən həmin ilin 19 Mart tarixinə kimi artan faizi, həmçinin hər ilin 20 Oktyabr tarixində ondan əvvəlki ilin 20 Mart tarixindən 19 Sentyabr tarixinə kimi artan faizi, ii) Tamamlanma tarixindən sonra hər ilin 20 mart tarixində ondan əvvəlki ilin 20 sentyabr tarixindən həmin ilin 19 Mart tarixinə kimi artan faizi və hər ilin 20 Sentyabr tarixində həmin ilin 20 Mart tarixindən 19 Sentyabr tarixinədək artan faizi ödəyəcəkdir.

Yuxarıda qeyd olunan yarımbölməyə baxmayaraq, Tamamlanma Tarixi 20 Aprel və yaxud 20 Oktyabr tarixlərindən üç (3) ay əvvəl olmadıqda Tamamlanma tarixindən sonrakı birinci faiz ödənişi hansının birinci gəlməsindən asılı olaraq 20 Aprel və yaxud 20 Oktyabr tarixlərində yerinə yetirilməlidir.

Bölmə 3

Öhdəlik haqqı və onun ödənilmə metodu

Borcalan Bu Sazişin 2-ci Əlavəsində müəyyən edilmiş (A), (B), (C), (D), və (E) kateqoriyalarına düşən məbləğin istifadə olunmamış cəmi qalığı üzrə Kredit sazişinin imzalanmasından sonra yüz iyirmi (120) gün müddətindən Tamamlanma Tarixinə kimi olan müddət üçün, (bir şərtlə ki tamamlanma tarixi iş günü olmadıqda ondan sonra gələn iş günü dərhal Tamamlanma Tarixi hesab olunur) III Maddənin 1, (4) Bölməsində müəyyən edilmiş hesablama üsuluna əsasən illik sıfır tam onda bir faiz (0,1%) dərəcəsində YBƏA-ya ildə iki dəfə öhdəlik haqqı (bundan sonra "Öhdəlik Haqqı" adlandırılacaq) ödəyəcəkdir.

Borcalan YBƏA-ya: (i) Tamamlanma Tarixindən əvvəl hər il 20 Aprel tarixində ondan əvvəlki ilin 20 Sentyabr tarixindən həmin ilin 19 Mart tarixinə kimi artan öhdəlik haqqını, həmçinin hər ilin 20 Oktyabr tarixində ondan əvvəlki ilin 20 Mart tarixindən 19 Sentyabr tarixinə kimi artan öhdəlik haqqını, ii) Tamamlanma tarixindən sonra, 20 Mart tarixində Tamamlanma Tarixindən dərhal sonra ondan əvvəlki ilin 20 Sentyabr tarixindən tamamlanma tarixinə kimi artan öhdəlik haqqını və yaxud 20 Sentyabr tarixində tamamlanma tarixindən dərhal sonra həmin ilin 20 Mart tarixindən tamamlanma tarixinə kimi artan öhdəlik haqqını ödəyəcəkdir.

Yuxarıda qeyd olunan yarımbölməyə baxmayaraq, Öhdəlik Haqqının ödənilməsinə 20 Aprel 2010-cu il tarixdə və yaxud YBƏA tərəfindən müəyyənləşdirilmiş sonrakı tarixdə (Bundan sonra "Müəyyənləşdirilmiş Tarix" adlandırılacaq) başlanılmalıdır. Müəyyənləşdirilmiş Tarixdən bir (1) ay əvvəlki tarixə qədər artan Öhdəlik Haqqı Müəyyənləşdirilmiş Tarixdə heç bir faizsiz bütünlüklə ödənilməlidir. Borcalan YBƏA-ya Müəyyənləşdirilmiş Tarixdən dərhal sonra hansının birinci gəlməsindən asılı olaraq 20 Oktyabr və yaxud 20 Aprel tarixində Müəyyənləşdirilmiş tarixdən bir (1) ay əvvəldən müvafiq olaraq 19 Sentyabr və ya 19 Mart tarixinədək artan öhdəlik haqqını ödəyəcəkdir.

Yuxanda qeyd olunan (2) yarımbölməsinə baxmayaraq Tamamlanma Tarixi 20 Aprel və yaxud 20 Oktyabr tarixlərindən 3 ay əvvəl olmadıqda Tamamlanma Tarixindən sonra Öhdəlik Haqqının ödənilməsi hansının birinci gəlməsindən asılı olaraq 20 Aprel və yaxud 20 Oktyabr tarixlərində yerinə yetirilməlidir.

YBƏA Tamamlanma Tarixindən sonra ödənilməli olan Öhdəlik Haqqına ekvivalent məbləğ istisna olmaqla II Maddənin 3.1 Bölməsində istinad olunan və kredit vəsaitlərindən əsas borc kimi hesablanacaq Öhdəlik Haqqının məbləğinə ekvivalent məbləğin bir hissəsini deyil bütünlüklə, YBƏA YBƏAla Borcalan arasında digər hal razılaşdırılmayana qədər, Borcalana borc verməyə razılaşır.

Bölmə 4

Qeyri-qənaətbəxş ödəmə

Kredit Sazişi çərçivəsində Borcalan tərəfindən yerinə yetirilən ödəmənin məbləği ödənilməli olan cəmi məbləğdən az olduqda Borcalan yerinə yetirilmiş ödəmənin məbləğinə aşağıdakıların tətbiq ediləcəyi ilə razılaşır: (i) gecikdirilmiş haqq (ii) Öhdəlik Haqqı, (iii) Faiz və (iv) əsas borc. Yuxanda qeyd olunana baxmayaraq YBƏA qəbul olunmuş ödəmənin məbləğinə yalnız öz sərbəst seçimi ilə qərarlaşdırılmış qaydaları tətbiq edir.

Maddə III

Xüsusi Razılaşmalar

Bölmə 1

Ümumi şərt və Müddəalar

Kredit Sazişinə tətbiq olunan digər şərt və müddəalar aşağıdakı əlavə şərtlərlə birlikdə 2008-ci il oktyabr nəşrli YBƏA-nın Kreditlərinə dair Ümumi şərt və Müddəalarında (Bundan sonra "Ümumi Şərt və Müddəalar" adlandırılacaq) müəyyən edilməlidir:

(1) Ümumi Şərt və Müddəalarda istifadə olunduğu hər yerdə "əsas borc" sözü "Əsas Borc (i)", Əsas Borc (ii) və Əsas Borc (iii)" sözləri ilə əvəz edilməlidir.

(2) Ümumi Şərt və Müddəaların 3.02-ci Bölməsi aşağıdakı kimi başa düşülməlidir:

"Əsas Borc (i)", Əsas Borc (ii) və Əsas Borc (iii)" arasında vəsaitlərin yenidən bölüşdürülməsi həyata keçirilərsə bu kredit sazişinə əlavə olunmuş amortizasiya cədvəli Əsas Borc (i), Əsas Borc (ii) və Əsas Borc (iii) kateqoriyalarında qeyd olunmuş məbləğlərə uyğun olaraq YBƏA tərəfindən yenidən hesablanmalıdır ("Yenidən Hesablanmış Cədvəl").

İstifadə edilmiş kredit vəsaitinin toplamı kredit sazişində nəzərdə tutulan məbləğdən az olarsa, aradakı fərq gələcəkdə ödəniləcək faiz ödənişlərindən kredit sazişinə əlavə olunmuş ödəmə cədvəlinə və ya 3.08 bölməyə uyğun olaraq, YBƏA tərəfindən təqdim olunmuş növbəti ödəniş bildirişi istisna olmaqla, kateqoriyalar arasında yenidən bölüşdürülmə həyata keçirilibsə həmin Yenidən Hesablanmış Cədvələ uyğun olaraq propor-

sional şəkildə həmin ödənişdən çıxarılacaqdır.

Bununla yanaşı, hər Min yapon yeni (¥ 1,000) üçün yuxanda qeyd olunmuş (a) və/və ya (b) bəndlərinə uyğun olaraq hesablanmış hissə dərhal əsas borca əlavə olunmalıdır.

(3) Ümumi Şərt və Müddəaların 3.04 (l)-ci aşağıdakı kimi başa düşülməlidir:

Kredit Sazişi çərçivəsində tələb olunan əsas borcun qaytarılması və ya faizin ödənilməsi gecikdirildikdə, ödəniş günü və ondan sonra Bölmə 3.03-də müəyyən edilmiş faizin əsas borcun gecikdirilmiş məbləği üzrə artması dayanacaqdır və Kredit Sazişində müəyyən edilmiş faiz dərəcəsindən yuxarı illik iki (2) faiz dərəcəsində hesablanmış gecikdirilmiş ödəniş, ödəmə tarixindən faktiki ödəniş günündən dərhal əvvəlki günədək müddət üzrə əsas borc və faizin gecikdirilmiş məbləği üzrə ödənilməli olacaqdır.

(4) Ümumi Şərt və Müddəaların 3.05-ci Bölməsi aşağıdakı kimi başa düşülməlidir:

Faiz, Öhdəlik Haqqı və gecikdirilmiş ödəmə günbəgün artacaqdır və üç yüz altmış beş gün (365) və ötmüş günlərin faktiki sayına əsaslanaraq hesablanacaqdır.

(5) Ümumi Şərt və Müddəaların 3.06-cı Bölməsi ilə bağlı Borcalan kredit üzrə əsas borc, faiz və digər haqlarla bağlı bütün ödənişləri Yaponiya, Baş Ofis, The Bank of Tokyo-Mitsubishi UFJ, LTD, "JİCA-Loan" hesab No 0207787-yə köçürməlidir.

(6) Ümumi Şərt və Müddəaların 3.08-ci Bölməsi aşağıdakı kimi başa düşülməlidir:

YBƏA, zəruri hesab etdiyi vaxtda Borcalana Öhdəlik Haqqı, Faiz və Əsas Borcla bağlı bildiriş göndərə bilər. (Forma No 1 əlavə olunur).

Forma No 1- Müəyyənləşdirilmiş Tarixdə və ondan sonra ödənilməli olan Öhdəlik Haqqı, Faiz və Əsas Borcla bağlı bildiriş üçün bu sənədə əlavə olunmuş Forma JİCA NİP ilə əvəz edilməlidir.

(7) Ümumi Şərt və Müddəaların 5.06. (l)-ci bölməsinin birinci bəndi aşağıdakı kimi başa düşülməlidir:

Kredit Sazişi çərçivəsində 2-ci Əlavənin 1-ci Bölməsində müəyyən edildiyi kimi A-dən E-yə kateqoriyalar üzrə vəsaitlərin sonuncu istifadənin qüvvəyə minməsindən sonra YBƏA-yi Kredit vəsaitlərinin istifadəsinin tamamlanması barədə Borcalana 2 nüsxədə bildiriş göndərəcəkdir. (Forma No 3 əlavə olunur)

Forma No.3 Müəyyənləşdirilmiş tarixdə və ondan sonra vəsaitlərinin istifadəsinin tamamlanması üçün bu sənədə əlavə olunmuş Forma-JİCA NCD ilə əvəz edilməlidir.

(8) Ümumi Şərt və Müddəaların 5.06. (l)-ci bölməsinin ikinci bəndi aşağıdakı kimi başa düşülməlidir:

Kredit vəsaitlərinin istifadəsinin kumulyativ cəmi kreditin məbləğindən az olduqda və layihə üçün heç bir növbəti istifadə tələb olunmadıqda Borcalan kredit vəsaitlərinin istifadəsinin tamamlanması üzrə tələb olunan tarixdən əvvəl otuz (30) gündən az olmayaraq YBƏA-ya yazılı bildiriş təqdim etməlidir.

(9) Aşağıdakı bölmə Ümumi Şərt və Müddəaların V Maddəsinə əlavə edilsin:

Bölmə 5.07: Vəsaitlərdən İstifadə Üzrə Üstünlük Təşkil Edən (əsas) Şərtlər

Kredit vəsaitlərindən istifadə zamanı aşağıda göstərilən bütün şərtlər yerinə yetirilmədiyi təqdirdə YBƏA vəsaitlərin istifadəsinin həyata keçirilməsinə görə heç bir məsuliyyət daşımır. Bu şərtlərin qənaətbəxşliyi YBƏA tərəfindən müəyyən edilir.

(a) Ümumi şərt və müddəaların 5.03 və 5.04 bölmələrində qeyd olunan sənədlər bu bölmələrdə göstərilən tələblərə cavab verirsə (və YBƏA tərəfindən qənaətbəxş hesab edilirsə.)

(b) Borcalanın YBƏA-dən alacaqları ilə əlaqədar şərti həbs, qoruyucu həbs (və ya Yaponiyadan kənarda baş verən buna bənzər prosedurlar daxil olmaqla) hər hansı bir həbs üzrə bildiriş və ya qərar göndərilmirsə

(c) YBƏA tərəfindən Ümumi Şərt və Müddəaların 6.01-ci Bölməsində qeyd olunan tədbirlərin hər hansı birini həyata keçirəcək insident baş verməmişdirsə

(d) Borcalan Kredit Sazişinin heç bir şərtini pozmamışdır və kredit vəsaitinin müvafiq istifadəsi zamanı və sonra belə pozulmanın baş verməsi üçün hər hansı bir təhlükə mövcud deyilsə

(10) Ümumi Şərt və Müddəaların 9.03-cü Bölməsi aşağıdakı kimi başa düşülməlidir: Kredit Sazişi və ya Zəmanət çərçivəsində tələb olunan hər hansı bildiriş və ya müraciət yazılı formada olmalıdır. Belə bildiriş və ya müraciət əl ilə çatdırıldıqda, elektron poçt vasitəsilə qəbul edildikdə və yaxud bildiriş təqdim edilməli olan tərəfin Kredit Sazişində qeyd olunmuş ünvanına və ya bildirişi və ya müraciəti təqdim edən tərəfə bildiriş vasitəsilə müəyyən edilmiş digər ünvana hava poçtu vasitəsilə göndərildikdə müvafiq qaydada təqdim edilməlidir.

Bölmə 2

Satınalma Proseduru

Ümumi Şərt və Müddəaların 4.01-ci Bölməsində qeyd olunan satınalma və məsləhətçilərin işə götürülməsi üzrə təlimatlar bu sənədin 4-cü Əlavəsi olan Satınalma Proseduruna şərt kimi qoyulmalıdır.

Bölmə 3

Kredit Vəsaitlərinin İstifadəsi Proseduru

Ümumi Şərt və Müddəaların 5.01-ci Bölməsində qeyd olunan kredit vəsaitlərinin istifadəsi proseduru aşağıdakı kimi olmalıdır:

Bu sənədə 5 saylı Əlavə kimi əlavə olunmuş Öhdəlik Proseduru Azərbaycan Respublikasının valyutası ilə deyil beynəlxalq tədavüllü valyuta ilə qeyd olunmuş müqavilə hissəsi ilə bağlı Münasib Mənbə Ölkə(lər)inin Təchizatçı(lar)ından mal və xidmətlərin satınalınması üzrə kredit vəsaitlərinin istifadəsinə tətbiq olunacaqdır.

Bu sənədə 6 saylı Əlavə kimi əlavə olunmuş Vəsaitlərin Əvəzinin Ödənilməsi Proseduru Münasib Mənbə Ölkələrinin Təchizatçılarına edilən ödənişlər üzrə kredit vəsaitlərinin istifadəsinə tətbiq olunacaqdır.

Yuxanda (2)-ci bənddə qeyd olunan şərtə baxmayaraq, bu sənədə 7 saylı Əlavə kimi əlavə olunmuş Köçürülmə Proseduru Münasib Mənbə Ölkələrinin Təchizatçılarına edilən ödənişlər üzrə kredit vəsaitlərinin istifadəsinə tətbiq edilə bilər.

Bölmə 4

Kreditin inzibati idarəedilməsi

(1) Borcalan "Azərsu" Səhmdar Cəmiyyətinə İcraçı Agentlik kimi səlahiyyət verəcəkdir (Bundan sonra "İcraçı Agentlik" adlandırılacaq.

(2) Borcalan İcraçı Agentlik tərəfindən layihənin həyata keçirilməsi üçün məsləhətçilərin işə götürülməsini təmin edəcək.

(3) Layihənin həyata keçirilməsi üçün kredit vəsaitləri kifayət qədər olmadıqda Borcalan belə vəsaitlərin dərhal təmin edilməsi üçün tədbirlər görəcəkdir.

(4) Borcalan Layihənin həyata keçirilməsi üçün kredit vəsaitlərindən İcraçı Agentliyə borc verə bilər (Bundan sonra "Sub-kredit" adlandırılacaq). Sub-kredit Sazişinin şərt və müddəaları ən az Kredit Sazişinin müddəaları qədər münasib olacaqdır.

(5) Borcalan layihə tamamlanana qədər İcraçı Agentlik tərəfindən YBƏA-nın tələb etdiyi formada rüblük hesabatların (hər ilin iyun, sentyabr, dekabr və mart aylarında) təqdim edilməsini tələb edəcəkdir.

(6) Layihənin tamamlanmasından dərhal sonra altı (6) aydan gec olmayaraq Borcalan YBƏA-ya İcraçı Agentlik tərəfindən YBƏA-nın tələb etdiyi formada layihənin tamamlanması hesabatının təqdim edilməsini tələb edəcəkdir.

(7) Borcalan YBƏA tərəfindən auditin keçirilməsi zəruri hesab edildiyi halda satınalma prosedurunun ədalətliliyinə və rəqabət qabiliyyətinə zəmanət vermək üçün həyata keçirilmiş satınalma auditinin YBƏA tərəfindən işə götürüləcək müstəqil auditorlar tərəfindən yerinə yetirilməsinə əmin olmalıdır.

Bölmə 5

Bildirişlər və Müraciətlər

Ümumi Şərt və Müddəaların 9.03-cü Bölməsi üçün aşağıdakı ünvanlar müəyyən edilmişdir:

YBƏA üçün,
Poçt ünvanı:

YAPONİYA BEYNƏLXALQ ƏMƏKDAŞLIQ AGENTLİYİ
Shinjuku Mayonds Toüer Bldg. 11F
2-1-1, Yoyogi, Shibuya-ku, Tokyo, 151-8558, Japan

ŞƏRQİ VƏ MƏRKƏZİ ASİYA VƏ QAFQAZ DEPARTAMENTİNİN
Baş Direktorunun nəzərinə
Faks:+81-3-5218-3973

Borcalan üçün,
Poçt ünvanı:

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ
Səməd Vurğun küç. 83, Bakı AZ 1022
Azərbaycan Respublikası
Maliyyə Nazirinin nəzərinə

Yuxandakı ünvanlar və ya adlar dəyişdirildikdə həmin tərəf yeni ünvan və ya ad barədə digər tərəfi dərhal yazılı formada xəbərdar etməlidir.

BUNUNLA, YBƏA və Borcalan müvafiq səlahiyyətli nümayəndələri vasitəsilə çıxış edərək yuxanda ilk olaraq qeyd olunan gün və ildə Kredit Sazişinin müvafiq qaydada icra olunmasına və Yaponiya Beynəlxalq Əməkdaşlıq Agentliyinə çatdırılmasını təmin etmişlər.

YAPONİYA BEYNƏLXALQ ƏMƏKDAŞLIQ AGENTLİYİ ADINDAN	AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN
YOŞİHİSA UEDA	*ABİD ŞƏRİFOV*
Vitse-prezident	*Baş nazirin müavini*

(Forma JICA NIP)

Tarix:
No:

_____

_____

(Borcalanın adı və ünvanı)

ÖHDƏLİK HAQQI, FAİZ VƏ ƏSAS BORCLA BAĞLI BİLDİRİŞ

Tokioda ödəniş tarix:

Əsas məbləğ: ¥_____

Faiz: ¥_____

Öhdəlik haqqı: ¥_____

Cəmi: ¥_____

Nəzərinizə çatdırmaq istərdik ki, əlavə edilmiş vərəq (lər) də müəyyən edilmiş yuxandakı məbləğ tarixdə ödənilməlidir.

Məbləğ yoxlanıldıqdan sonra yoxlanılmış məbləği aşağıdakı hesaba Tokio vaxtı ilə günorta saat 12-yə qədər köçürməyinizi yüksək qiymətləndiririk.

Hesab No: _____

Benefisiarın adı: _____

Benefisiarın BANKI: _____

Hörmətlə,

_____

(Səlahiyyətli şəxsin imzası)

Qoşma:
Surəti:

(Forma JICA NCD)

Tarix:
No:

_____

_____

(Borcalanın adı və ünvanı)

KREDİT VƏSAİTLƏRİNİN İSTİFADƏSİNİN TAMAMLANMASI İLƏ BAĞLI BİLDİRİŞ

_____ 2009-cu il tarixli AZB-P4 nömrəli Kredit Sazişinə istinad edərək nəzərinizə çatdırmaq istərdik ki, sözü gedən Kredit Sazişi çərçivəsində bürün vəsaitlərin istifadəsi tamamlanmışdır. Kredit Sazişi çərçivəsində vəsaitlərin istifadəsinin detalları aşağıdakı kimidir:

1. Kreditin Limiti (A): ¥_____
2. Vəsaitlərin istifadəsinin Kumulyativ Cəmi (B): ¥_____
3. İstifadə olunmayan Qalıq(A B): ¥_____
4. Vəsaitlərin Sonuncu İstifadəsinin tarixi:
5. Vəsaitlərin İstifadəsinin Tamamlanması Tarixi:

Həmçinin qeyd etmək istərdik ki, adı çəkilən Kredit Sazişi bundan sonra aşağıdakı qaydada həyata keçiriləcəkdir:

Amortizasiya Qrafiki:
Faizlərin Ödənilməsi Tarixi:
(1) Növbəti Ödənişin Tarixi:
(2) Ondan sonrakı Tarix:

Bu Bildirişin təsdiq olunması üçün səlahiyyətli şəxs tərəfindən imzalanmış bir surəti dərhal bizə geri qaytarmağınızı xahiş edirik.

Hörmətlə,

_____
(Səlahiyyətli şəxsin imzası)

(Xahiş edirik ayırmayın).....
Tarix:

Biz bu Bildirişin tərəfimizdən alındığını və Kredit Sazişinin yuxarıda qeyd olunduğu kimi həyata keçiriləcəyini təsdiq edirik.

_____
(Səlahiyyətli şəxsin imzası)

(Borcalanın adı)

Əlavə 1

Layihənin Təsviri

Bölmə 1

Layihə barədə ümumi məlumat

(1) Layihənin məqsədi:

Su təchizatı və kanalizasiya qurğularının təkmilləşdirilməsi vasitəsilə kiçik şəhərlərdə sanitar və ətraf mühit cəhətdən davamlı yaşayış mühitinin təmin edilməsi və bu şəhərlərin iqtisadi və sosial inkişafına köməklik göstərilməsi.

(2) Rayonlar:

Şirvan, Salyan, Neftçala, Xaçmaz, Bərdə, Yevlax, Xızı, Qusar, Qobustan və Naftalan

İcraçı Agentlik: "Azərsu" Səhmdar Cəmiyyəti

İşlərin Miqyası:

Su təchizatı və kanalizasiya qurğularının tikintisi

Su borularının satınalınması və quraşdırılması

Məsləhət xidmətləri

Yuxarıda verilmiş (a) bəndindən (c) bəndinə kimi kredit vəsaitləri mövcuddur.

Yuxarıda qeyd olunan və bütün digər bəndlər üzrə qalan qalıq Borcalan tərəfindən maliyyələşdiriləcəkdir.

Bölmə 2

Kredit vəsaitlərinin istifadəsi Yaponiya Hökumətin YBƏA üçün illik büdcə vəsaitlərinin bölüşdürülməsi limiti çərçivəsində həyata keçiriləcəkdir.

Əlavə 2

Kredit vəsaitlərinin bölüşdürülməsi

Bölmə 1

Bölüşdürmə

Kateqoriya	Bölüşdürülmüş Kreditin məbləği (milyon Yapon Yeni)	Maliyyələşdiriləcək Xərclərin %-i
(A) Su Təchizatı Qurğuları	15,842	88%
(B) Kanalizasiya Qurğuları	12,818	89%
(C) Məsləhət Xidmətləri	1,672	89%
(D) Tikinti zamanı faiz		

i) (A), və (F) ilə bağlı	656	-
ii) (B) ilə bağlı	181	-
iii) (C) ilə bağlı	1	-
(E) Nəzərdə tutulmayan xərclər	1,517	-
(F) Öhdəlik Haqqı	164	-
Cəmi	32,851	

Qeyd: Maliyyələşdirmə üçün münasib hesab olunmayan maddələr aşağıda verilmişdir:

Ümumi inzibati xərclər

Vergi və rüsumlar

Torpaq və digər daşınmaz əmlakın satınalınması

Kompensasiya

Digər qeyri-müəyyən məsələlər

1. (A)-(C) kateqoriyaları üzrə vəsaitlərin istifadəsi ilə bağlı istifadə olunacaq məbləğ YBƏA-yi ilə Borcalan arasında digər hal razılaşdırılmayana qədər bu bölmədə göstərilmiş müvafiq kateqoriya üzrə faizə vurulmaqla münasib xərclərdən hesablanacaqdır.

2. (D) kateqoriyası tikinti zamanı istifadə olunmuş və ödənilməmiş əsas borc üzrə faiz üçün smeta xərcini göstərir. YBƏA-nın kredit vəsaitlərindən əsas borc kimi vəsaitləri istifadə etmək və Layihənin tikinti müddətində faiz üzrə ödənişləri qarşılamaq üçün tələb olunan məbləğləri Borcalan adından özünə ödəmək hüququ verilir. Kredit vəsaitlərindən belə istifadə Kredit Sazişinin şərt və müddəaları çərçivəsində Borcalan üçün hüquqi məcburi xarakter daşıyır. Yuxarıda təsvir olunduğu kimi vəsaitlərdən belə istifadənin son tarixi YBƏA tərəfindən müəyyən ediləcəkdir.

3. (F) kateqoriyası Öhdəlik Haqqı üzrə smeta xərcini göstərir. YBƏA-ya kredit vəsaitlərindən əsas borc kimi vəsaitləri istifadə etmək və Öhdəlik Haqqı üzrə ödənişləri qarşılamaq üçün tələb olunan məbləğləri Borcalan adından özünə ödəmək hüququ verilir. Kredit vəsaitlərindən belə istifadə Kredit Sazişinin şərt və müddəaları çərçivəsində Borcalan üçün hüquqi məcburi xarakter daşıyır.

Bölmə 2

Smeta xərclərində dəyişiklik olduğu zaman vəsaitlərin yenidən bölüşdürülməsi

1. (A)-(D) kateqoriyalarına daxil edilmiş maddələr üzrə smeta xərcləri artdıqda bu artımın kredit vəsaitləri hesabına maliyyələşdirilməli olan hissəsi Borcalanın müraciəti əsasında YBƏA tərəfindən (F) kateqoriyası istisna olmaqla digər kateqoriyalardan bu kateqoriyaya bölüşdürüləcəkdir (digər kateqoriyalarda göstərilmiş maddələrə aid smeta xərcləri ilə bağlı YBƏA tərəfindən müəyyən edildiyi kimi nəzərdə tutulmayan xərclər üzrə tələblərə uyğun olaraq).

2. (F) kateqoriyası üzrə smeta xərci artdıqda bu artımın kredit vəsaitləri hesabına maliyyələşdiriləcək hissəsi digər kateqoriyalardan (F) kateqoriyasına belə yenidən bölüşdürmə üçün tələb olunan tarixdən ən azı otuz (30) gün əvvəl Borcalanın müraciəti əsasında YBƏA tərəfindən bölüşdürülə bilər. (F) kateqoriyasının məbləği digər kateqoriyalara yenidən bölüşdürülməyəcəkdir.

3. (A)-(E) kateqoriyaları üzrə smeta xərcləri azaldıqda bu Kateqoriya üzrə bölüşdürülmüş və artıq tələb olunmayan məbləğ (F) kateqoriyasına bu yenidən bölüşdürmə üçün tələb olunan tarixdən ən azı otuz (30) gün əvvəl Borcalanın müraciəti əsasında YBƏA tərəfindən yenidən bölüşdürülə bilər. (F) kateqoriyasının məbləği digər kateqoriyalara yenidən bölüşdürülməyəcəkdir.

Əlavə 3

Amortizasiya Qrafiki

1. Əsas Borcun Qaytarılması (i)

Tarixi

	Məbləğ (Yapon Yeni ilə)
20 Mart 2019-cu il	443,400, 000
Hər ilin 20 Mart və 20 Sentyabr 20 sentyabr 2019-cu ildən başlayaraq 20 Mart 2039-cu il boyu	443,390, 000

2-ci Əlavənin 1-ci Bölməsində müəyyən olunan (E) kateqoriyası üzrə bölüşdürülmüş kredit məbləği Əsas Borc (i)-ə daxil edilmişdir.

2. Əsas Borcun Qaytarılması (ii)

Tarixi

	Məbləğ (Yapon Yeni ilə)
20 Mart 2019-cu il	213,120,000
Hər ilin 20 Mart və 20 Sentyabr 20 sentyabr 2019-cu ildən başlayaraq 20 Mart 2049-cu il boyu	213,098,000

3. Əsas Borcun Qaytarılması (iii)

Tarixi

	Məbləğ (Yapon Yeni ilə)
20 Mart 2019-cu il	40,840,000
Hər ilin 20 Mart və 20 Sentyabr 20 Sentyabr 2019-cu ildən başlayaraq 20 Mart 2039-cu il boyu	40,804,000

Əlavə 4

Satınalma Proseduru

Bölmə 1

Kredit çərçivəsində satınalma üçün istifadə olunacaq təlimatlar

Məsləhət xidmətləri istisna olmaqla Kredit vəsaitlərindən maliyyələşdiriləcək bütün mallar və xidmətlərin satınalınması 1999-cu il oktyabr nəşrli JBİC ODA kreditləri çərçivəsində Təlimatlara (bundan sonra "Satınalma Təlimatlan" adlandırılacaq) müvafiq həyata keçiriləcəkdir. Kredit vəsaitlərindən məsləhətçilərin işə götürülməsi 1999-cu il oktyabr nəşrli JBİC ODA kreditləri çərçivəsində Məsləhətçilərin İşə Götürülməsi üzrə Təlimatlara (bundan sonra "Məsləhətçi Təlimatlan" adlandırılacaq) müvafiq həyata keçiriləcəkdir.

Satınalma və Məsləhətçi təlimatlarında qeyd olunmuş "Yaponiya Beynəlxalq Əməkdaşlıq Bankı", "JBİC", "Bank","Yaponiya Beynəlxalq Əməkdaşlıq Bankının 1-Bölmə, 2-ci paraqraf, 23-cü maddəsi" ifadələri sırasıyla aşağıdakı ifadələrlə əvəz edilsin "Birləşmiş İdarəetmə Agentliyi-Yaponiya Beynəlxalq Əməkdaşlıq Agentliyi", "JİCA"(YBƏA), "JİCA", və "Birləşmiş İdarəetmə Agentliyi-Yaponiya Beynəlxalq əməkdaşlıq Agentliyi protokolunun Maddə (a), bənd (ii), paraqraf 1-dəki, 13 yarımbəndi"

Bölmə 2

Münasib Mənbə Ölkə (lər)i

Kredit vəsaitləri hesabına maliyyələşdiriləcək bürün mallar və xidmətlərin satınalınması üçün Münasib Mənbə Ölkələrinə bütün ölkələr və orazilər aiddir.

Bölmə 3

Mallar və xidmətlərin (məsləhət xidmətləri istisna olmaqla) satınalınması ilə bağlı qərarların YBƏA tərəfindən nəzərdən keçirilməsi

(1) Bu sənədə əlavə olunmuş 2 saylı Əlavənin 1-ci Bölməsində müəyyən edildiyi kimi (A)-(B) kateqoriyalarına ayrılmış kredit vəsaitlərindən maliyyələşdiriləcək müqavilələr üzrə Ümumi Şərt və Müddəaların 4.02-ci Bölməsinə müvafiq olaraq aşağıdakı proseduralar YBƏA tərəfindən nəzərdən keçirilməli və razılaşdırılmalıdır. Bu müqavilələr üçün Satınalma Təlimatlarının 2.03 (b) bölməsində qeyd edildiyi kimi 2 zərfli tender proseduru tətbiq edilə bilər.

Dəyəri beş yüz milyon yapon yenindən (¥ 500,000,000) az olmayaraq qiymətləndirilmiş istənilən müqavilə ilə bağlı:

I. Borcalan Beynəlxalq Müsabiqəli Tender deyil satınalma prosedrularını tətbiq etmək istədiyi halda, Borcalan Satınalma Metodunun Nəzərdən Keçirilməsi üzrə Bildirişi (sənədə əlavə olunmuş Forma No 1 kimi) YBƏA-ya təqdim etməlidir. YBƏA sözü gedən sənədlərə etiraz etmədikdə öz razılığı barədə Satınalma Metodu ilə bağlı Bildiriş vasitəsilə Borcalana məlumat verməlidir.

II. İxtisas uyğunluğu müəyyənləşdirilmiş firmalar seçildikdən sonra Borcalan həmin firmaların siyahısı, seçimin səbəbləri göstərilməklə seçilmə prosesi ilə bağlı

hesabatı, İxtisas Uyğunluğunun Müəyyənləşdirilməsinin Nəticəsinin Nəzərdən Keçirilməsi üzrə Müraciətlə birlikdə bütün müvafiq sənədləri əlavə etməklə nəzərdən keçirilmə və razılaşdırılma üçün YBƏA-ya təqdim etməlidir. Borcalan YBƏA tərəfindən tələb olunduğu halda ixtisas uyğunluğu ilə bağlı digər sənədləri YBƏA-ya təqdim edəcəkdir. YBƏA adı çəkilən sənədlərə etiraz etmədikdə İxtisas Uyğunluğunun Müəyyənləşdirilməsinin Nəticəsi ilə bağlı Bildiriş vasitəsilə Borcalana müvafiq qaydada məlumat verəcəkdir.

III. İki zərfli tender proseduru tətbiq ediləcəyi halda Borcalan qiymət təklifləri açılmamışdan əvvəl Texniki Təkliflərin Təhlilinin Nəzərdən Keçirilməsi üçün Müraciətlə birlikdə texniki təkliflərin təhlilini nəzərdən keçirilmə və razılaşdırılma üçün YBƏA-ya təqdim etməlidir. Borcalan YBƏA tərəfindən tələb olunduğu halda digər müvafiq sənədləri YBƏA-ya təqdim edəcəkdir. YBƏA adı çəkilən sənədlərə etiraz etmədikdə Texniki Təkliflərin Təhlili ilə bağlı Bildiriş vasitəsilə müvafiq qaydada Borcalana məlumat verməlidir.

IV. Qalib iddiaçıya bildiriş göndərməzdən əvvəl Borcalan tender təkliflərinin və müqavilənin bağlanılması üçün təklifin təhlilini Tender Təkliflərinin və Müqavilənin Bağlanılması üçün Təklifin Təhlilinin Nəzərdən Keçirilməsi üzrə Müraciətlə birlikdə nəzərdən keçirilmə və razılaşdırılma üçün YBƏA-ya təqdim etməlidir. (Yuxarıda (c) bəndində qeyd olunan yerinə yetirildikdən sonra "Tender Təkliflərinin Təhlili" "Qiymət Təkliflərinin Təhlili" adlandırılacaqdır). YBƏA tərəfindən tələb olunduğu halda Borcalan müqavilənin bağlanması ilə bağlı digər sənədləri, məs: tender sənədləri YBƏA-ya təqdim edəcəkdir. YBƏA adı çəkilən sənədlərə etiraz etmədikdə Tender Təkliflərinin və Müqavilənin Bağlanılması üçün Təklifin Təhlili ilə Bildiriş vasitəsilə Borcalana məlumat verəcəkdir.

V. Satınalma Təlimatlarının 5.10-cu Bölməsində qeyd olunduğu kimi Borcalan bütün təklifləri inkar etmək və qənaətbəxş müqaviləyə nail olunması məqsədilə ən aşağı qiymət təklif etmiş iddiaçı ilə danışıqlar aparmaq istədikdə (və ya bu danışıq baş tutmadıqda, növbəti aşağı qiymət təklif etmiş iddiaçı ilə danışıqlar aparmaq istədikdə) bunun səbəbləri barədə YBƏA-ya məlumat verməli və əvvəlcədən YBƏA-nın razılığını əldə etməlidir. YBƏA buna etiraz etmədikdə öz razılığı barədə Borcalanı xəbərdar etməlidir. Yenidən tender keçirildiyi təqdirdə bütün sonrakı prosedurlar (a)-(d) bölmələrinə müvafiq yerinə yetiriləcəkdir.

VI. Müqavilə bağlandıqdan dərhal sonra Borcalan müqavilənin müvafiq qaydada təsdiq olunmuş surətini, Müqavilənin Nəzərdən Keçirilməsi üçün Müraciətlə (bu sənədə əlavə olunmuş Forma 2 kimi) birlikdə nəzərdən keçirilmə və razılaşdırılma üçün YBƏA-ya təqdim etməlidir. YBƏA müqavilənin Kredit Sazişinə uyğun olduğunun müəyyən etdikdən sonra Müqavilə ilə bağlı Bildiriş vasitəsilə Borcalana məlumat verməlidir.

VII. YBƏA tərəfindən nəzərdən keçirilmiş müqaviləyə hər hansı dəyişiklik edildikdə və ya müqavilə ləğv edildikdə YBƏA-nın əvvəlcədən yazılı razılığını əldə olunmalıdır, lakin müqaviləyə vacib dəyişiklik hesab olunmayan və müqavilənin qiymətinə təsir etməyən hər hansı dəyişiklik üçün YBƏA tərəfindən razılıq tələb olunmur.

(2) Dəyəri bir milyard yapon yenindən (¥ 1, 000,000,000) az olmayaraq qiymətləndirilmiş istənilən müqavilə ilə bağlı:

Yuxarıda 1 (i) bəndindən (VII) bəndinə kimi bütün prosedurlardan əlavə aşağıdakı mərhələlər yerinə yetiriləcəkdir.

İxtisas uyğunluğunun müəyyənləşdirilməsi ilə bağlı elan/və yaxud bildirişdən əvvəl Borcalan İxtisas Uyğunluğunun Müəyyənləşdirilməsi Sənədlərinin Nəzərdən Keçirilməsi üçün Müraciətlə birlikdə ixtisas uyğunluğunun müəyyənləşdirilməsi sənədlərini nəzərdən keçirilmə və razılaşdırılma üçün YBƏA-ya təqdim etməlidir. YBƏA adı çəkilən sənədə etiraz etmədikdə İxtisas Uyğunluğunun Müəyyənləşdirilməsi ilə bağlı Bildiriş vasitəsilə Borcalana məlumat verməlidir. Borcalan adı çəkilən sənədlərdən hər hansı birinə vacib dəyişiklik etmək istədikdə sənədlər iddiaçılara göndərilməzdən əvvəl YBƏA-nın razılığı əldə olunmalıdır.

(3) Dəyəri üç milyard yapon yenindən (¥ 3,000,000,000) az olmayaraq qiymətləndirilmiş istənilən müqavilə ilə bağlı:

Yuxarıda 1 (i) bəndindən (VII) bəndinə kimi, həmçinin yuxarıda (2) bəndində qeyd olunan *bütün prosedurlardan* əlavə aşağıdakı mərhələlər yerinə yetiriləcəkdir.

Tender təkliflərini dəvət etməzdən əvvəl iddiaçılara bildirişlər və təlimatlar, tender təklifinin forması, təklif olunan müqavilənin ilkin variantı, spesifikasiyalar, cizgilər və tenderlə bağlı bütün digər sənədlər Tender Sənədlərinin Nəzərdən Keçirilməsi üçün Müraciətlə birlikdə nəzərdən keçirilmə və razılaşdırılma üçün Borcalan tərəfindən YBƏA-ya təqdim edilməlidir. YBƏA adı çəkilən sənədlərə etiraz etmədikdə Tender Sənədləri ilə bağlı Bildiriş vasitəsilə Borcalana məlumat verməlidir. Borcalan adı çəkilən sənədlərə hər hansı vacib dəyişiklik etmək istədikdə sənəd iddiaçılara göndərilməzdən əvvəl YBƏA tərəfindən razılıq əldə olunmalıdır.

(4) Dəyəri beş yüz milyon yapon yenindən (¥ 500,000,000) az olmayaraq qiymətləndirilmiş istənilən müqavilə ilə bağlı:

(i) Müqavilə bağlandıqdan dərhal sonra Borcalan müqavilənin müvafiq qaydada təsdiq olunmuş surətini, Müqavilənin Nəzərdən Keçirilməsi üçün Müraciətlə (bu sənədə əlavə olunmuş Forma 3 kimi) birlikdə nəzərdən keçirilmə və razılaşdırılma üçün YBƏA-ya təqdim etməlidir. YBƏA müqavilənin Kredit Sazişinə uyğun olduğunu müəyyən etdikdən sonra Müqavilə ilə bağlı Bildiriş vasitəsilə Borcalana məlumat verməlidir. Borcalan YBƏA tərəfindən tələb olunduğu halda müqavilə ilə bağlı digər sənədləri YBƏA-ya təqdim etməlidir.

(ii) YBƏA tərəfindən nəzərdən keçirilmiş müqaviləyə hər hansı dəyişiklik etdikdə və ya müqavilə ləğv edildikdə YBƏA-nın əvvəlcədən yazılı razılığını əldə olunmalıdır, lakin müqaviləyə vacib dəyişiklik hesab olunmayan və müqavilənin qiymətinə təsir etməyən hər hansı dəyişiklik üçün YBƏA tərəfindən bu razılıq tələb olunmur.

Bölmə 4

Məsləhətçilərin işə götürülməsi ilə bağlı qərarların YBƏA tərəfindən nəzərdən keçirilməsi

Bu sənədə əlavə olunmuş 2 saylı Əlavənin 1-ci Bölməsində müəyyən edildiyi kimi (C) kateqoriyasına ayrılmış kredit vəsaitlərindən maliyyələşdiriləcək müqavilələr üzrə Ümumi Şərt və Müddəaların 4.02-ci Bölməsinə müvafiq olaraq aşağıdakı prosedurlar YBƏA tərəfindən nəzərdən keçirilməli və razılaşdırılmalıdır.

Məsləhətçilər tərəfindən təkliflər dəvət edilməmişdən əvvəl Borcalan Texniki Tapşırıq, Məsləhətçilərin Qısa Siyahısı və Dəvət Məktubunu, bu sənədlərin nəzərdən keçirilməsi üçün müraciətlə birlikdə nəzərdən keçirilmə və razılaşdırılma üçün YBƏA-nə təqdim etməlidir. YBƏA adı çəkilən sənədlərə etiraz etmədikdə Texniki Tapşırıq, Məsləhətçilərin Qısa Siyahısı və Dəvət Məktubu ilə bağlı Bildiriş vasitəsilə müvafiq qaydada Borcalana məlumat verməlidir. Adı çəkilən sənədlərə Borcalan tərəfindən hər hansı dəyişiklik edildiyi təqdirdə bununla bağlı YBƏA tərəfindən əvvəlcədən razılıq əldə olunmalıdır.

Ən yüksək bal toplamış məsləhətçini dəvət etməzdən əvvəl Borcalan qəbul edilmiş təkliflərin qiymətləndirilməsinin nəticələrini Məsləhətçilərin Təklifləri üzrə Qiymətləndirmə Hesabatının Nəzərdən Keçirilməsi üçün Müraciətlə birlikdə nəzərdən keçirilmə və razılaşdırılma üçün YBƏA-ya təqdim etməlidir. YBƏA adı çəkilən sənədlərə etiraz etmədikdə Qiymətləndirmə Hesabatı ilə bağlı Bildiriş vasitəsilə müvafiq qaydada Borcalana məlumat verməlidir.

Məsləhətçi Təlimatlarının 3.01(2)-ci Bölməsində qeyd edildiyi kimi Borcalan xüsusi məsləhətçini işə götürmək istədikdə bunun səbəbləri barədə yazılı məlumatı, Dəvət Məktubu və Texniki Tapşırıqla birlikdə nəzərdən keçirilmə və razılaşdırılma üçün YBƏA-ya təqdim etməlidir. YBƏA tərəfindən razılıq əldə edildikdən sonra Borcalan Dəvət Məktubu və Texniki Tapşırığı məsləhətçiyə göndərə bilər. Borcalan Məsləhətçinin təklifini qənaətbəxş hesab etdikdə müqavilənin şərtləri (maliyyə şərtləri də daxil olmaqla) barədə danışıqlar apara bilər.

Müqavilə bağlandıqdan dərhal sonra Borcalan müqavilənin müvafiq qaydada təsdiq olunmuş surətini, Müqavilənin Nəzərdən Keçirilməsi üçün Müraciətlə (bu sənədə əlavə olunmuş Forma 3 kimi) birlikdə nəzərdən keçirilmə və razılaşdırılma üçün YBƏA-ya təqdim etməlidir. YBƏA müqavilənin Kredit Sazişinə uyğun olduğunu müəyyən etdikdən sonra Müqavilə ilə bağlı Bildiriş vasitəsilə Borcalana məlumat verməlidir.

YBƏA tərəfindən nəzərdən keçirilmiş müqaviləyə hər hansı dəyişiklik etdikdə və ya müqavilə ləğv edildikdə YBƏA-nın əvvəlcədən yazılı razılığını əldə olunmalıdır, lakin müqaviləyə vacib dəyişiklik hesab olunmayan və müqavilənin qiymətinə təsir etməyən hər hansı dəyişiklik üçün YBƏA tərəfindən bu razılıq tələb olunmur.

Tarix:
İst.No.

YAPONİYA BEYNƏLXALQ ƏMƏKDAŞLIQ AGENTLİYİ
Tokio, Yaponiya

ŞƏRQİ VƏ MƏRKƏZİ ASİYA VƏ QAFQAZ DEPARTAMENTİNİN
Baş Direktorunun nəzərinə:

Xanımlar və Cənablar:

SATINALMA METODLARININ NƏZƏRDƏN KEÇİRİLMƏSİ ÜÇÜN MÜRACİƏT

İstinad: "Kiçik Şəhərlərdə Su Təchizatı və Kanalizasiya Layihəsi"nə dair 29 may 2009-cu il tarixli AZB-P4 nömrəli Kredit Sazişi

Kredit Sazişinin müvafiq şərtlərinə uyğun olaraq, Satınalmalar Metodlarını nəzərdən keçirməniz üçün əlavə vərəqdə Sizə təqdim edirik.

Razılığınız barədə bizə məlumat verməyinizi yüksək qiymətləndiririk.

Hörmətlə,

üçün:_____
(Borcalanın adı)

tərəfindən: _____
(Səlahiyyətli şəxsin imzası)

Əlavə Vərəq No.

1. Layihənin adı:

2. Satınalmanın Metodları

( ) Məhdud Beynəlxalq (Yerli) Tender
( ) Beynəlxalq (Yerli) Şopinq
( ) Birbaşa Müqavilə
( ) Digər ( )

Satınalma Metod (lar)nın seçilməsi səbəbləri barədə ətraflı məlumat
(Məsələn: texniki müzakirələr, iqtisadi faktorlar, təcrübələr və bacarıqlar)

Təchizatçının adı və milliyyəti

(Məhdud Beynəlxalq (Yerli) Tender və Birbaşa Müqavilə olduğu təqdirdə)

Müqavilənin smeta xərci
Xarici Valyuta
Yerli Valyuta

6. Müqavilə tərəfindən əhatə olunan Əsas Məsələlər

7. Müqavilənin növü

( ) Açar təslim müqaviləsi
( ) Mallar /Avadanlıq / Materialların satınalınması
( ) Tikinti işləri Müqaviləsi
( ) Xidmətlərin Satınalınması
( ) Digər

8. Qrafik

i) Müqavilənin İcra Tarixi
ii) Yüklənmə Tarixi və/ və yaxud İşlər / Xidmətlərin Başlanma Tarixi
iii) Başa çatma tarixi (çatdırılma və ya tikinti üçün)

Forma No. 2

Tarix:
İst. No.

YAPONİYA BEYNƏLXALQ ƏMƏKDAŞLIQ AGENTLİYİ
Tokio, Yaponiya

ŞƏRQİ VƏ MƏRKƏZİ ASİYA VƏ QAFQAZ DEPARTAMENTİNİN
Baş Direktorunun nəzərinə:
Xanımlar və Cənablar:

MÜQAVİLƏNİN NƏZƏRDƏN KEÇİRİLMƏSİ ÜÇÜN MÜRACİƏT

İstinad: Kiçik Şəhərlərdə Su Təchizatı və Kanalizasiya Layihəsi üzrə _____ 2009-cu il tarixli AZB-P4 nömrəli Kredit Sazişi

Kredit Sazişinin şərtlərinə müvafiq olaraq, Müqaviləni təsdiq olunmuş surətini nəzərdən keçirməniz üçün əlavə vərəqdə Sizə təqdim edirik. Müqavilənin təfsilatları aşağıdakılardan ibarətdir:

Müqavilənin Nömrəsi və Tarixi:
Təchizatçının Adı və Milliyyəti:
Təchizatçının Ünvanı:
Alıcının Adı:
Müqavilə Qiyməti:
Legitim Xərclər:
Maliyyələşdirmənin məbləği:
(legitim xərclərin %-ni əks etdirən)
8. Malların Təsviri və Mənbəyi:
9. (Təchizatçı birgə müəssisə olduqda) Birgə Müəssisənin hər bir şirkətinin Adı, Milliyyəti və Ünvanı:
(A şirkəti):
(B Şirkəti):

Müqaviləyə razılığımız barədə Müqavilə ilə bağlı Bildiriş vasitəsilə bizə məlumat verməyinizi yüksək qiymətləndiririk.

Hörmətlə,

üçün:_____
(Borcalanın adı)

tərəfindən: _____
(Səlahiyyətli şəxsin imzası)

Forma No. 3

Tarix:
İst. No.

YAPONİYA BEYNƏLXALQ ƏMƏKDAŞLIQ AGENTLİYİ
Tokio, Yaponiya

ŞƏRQİ VƏ MƏRKƏZİ ASİYA VƏ QAFQAZ DEPARTAMENTİNİN
Baş Direktorunun nəzərinə:
Xanımlar və Cənablar:

MÜQAVİLƏNİN NƏZƏRDƏN KEÇİRİLMƏSİ ÜÇÜN MÜRACİƏT

İstinad: Kiçik Şəhərlərdə Su Təchizatı və Kanalizasiya Layihəsi üzrə _____ 2009-cu il tarixli AZB-P4 nömrəli Kredit Sazişi

Kredit Sazişinin şərtlərinə müvafiq olaraq, Müqaviləni təsdiq olunmuş surətini nəzərdən keçirməniz üçün əlavə vərəqdə Sizə təqdim edirik. Müqavilənin təfsilatları aşağıdakılardan ibarətdir:

Müqavilənin Adı və Tarixi:
Məsləhətçinin Adı və Milliyyəti:
Məsləhətçinin Ünvanı:
Sifarişçinin Adı:
Müqavilə Qiyməti:
Legitim Xərclər:
Maliyyələşdirmənin Məbləği:
(legitim xərclərin %-ni əks etdirən)

8. (Məsləhətçi birgə müəssisə olduğu halda) Birgə Müəssisənin hər bir şirkətinin Adı, Milliyyəti və Ünvanı:

(A şirkəti):
(B şirkəti):

Müqaviləyə razılığımız barədə Müqavilə ilə bağlı Bildiriş vasitəsilə bizə məlumat verməyinizi yüksək qiymətləndiririk

Hörmətlə,

üçün:_____
(Borcalanın adı)

tərəfindən: _____
(Səlahiyyətli şəxsin imzası)

Əlavə 5

Öhdəlik Proseduru

2008-ci il Oktyabr tarixli ODA Kreditləri(düzəlişlərə müvafiq olaraq) üçün Öhdəlik Proseduru (bundan sonra "Öhdəlik Proseduru" adlandırılacaq) aşağıdakı əlavə şərtlərlə birlikdə Müqavilənin Azərbaycan Respublikasının valyutası deyil beynəlxalq tədavüllü valyuta ilə qeyd olunmuş hissəsi ilə bağlı Münasib Mənbə Ölkələrindən malların və

xidmətlərin satınalınması üçün kredit vəsaitlərinin istifadəsi üçün tətbiq olunacaq:

1. Öhdəlik Prosedurunun 1.(3)-cü Bölməsi ilə bağlı Yaponiya Bankı və emitent Bank Bank of Tokyo-Mitsubishi UFJ, Ltd. olacaqdır.

Əlavə 6

Vəsaitlərin Əvəzinin Ödənilməsi Proseduru

ODA Kreditləri üçün 2008-ci il oktyabr tarixli Vəsaitlərin əvəzinin ödənilməsi proseduru (düzəlişlərə müvafiq olaraq) (bundan sonra "Əvəzi ödənilmə proseduru" adlandırılacaq) aşağıdakı əlavə şərtlərlə birlikdə Münasib Mənbə Ölkələrindən olan Təchizatçılara ödəmələr üzrə kredit vəsaitlərinin istifadəsi üçün tətbiq olunacaq:

Əvəzi Ödənilmə Proseduru daxil olmaqla bu Əlavədə göstərildiyi hər yerdə Tokioda müəyyən edilmiş xarici valyuta Bankı Bank of Tokyo-Mitsubishi UFJ, Ltd. olacaqdır.

Əvəzi ödənilmə Prosedurunda qeyd olunan Borcalanın ərazisində səlahiyyətli xarici valyuta Bankı Azərbaycan Beynəlxalq Bankı olacaqdır.

Əvəzi Ödənilmə Prosedurunun 2.(b) bəndində qeyd olunduğu kimi hər bir ödənişi və onun istifadəsini göstərən təsdiqləyici sənədlər aşağıdakılar olacaqdır:

(1) Malların çatdırılması/daşınması üzrə təchizatçılara edilən ödənişlər üçün:

Təchiz edilmiş/daşınmış və ya təchiz edilməkdə olan malları, onların miqdarını və qiymətlərini müəyyən edən təchizatçının hesab fakturası;

Hesab fakturada göstərilən malların daşınması/çatdırılmasını göstərən faktura və ya oxşar sənədlər;

Təchizatçılara edilmiş ödənişlərin tarixi və məbləğini göstərən veksel və ya oxşar sənədlər; Ödənişin tarixi və məbləğini göstərən və təchizatçı tərəfindən təqdim olunan adi qəbz də kifayət hesab oluna bilər.

(2) Malların çatdırılmasından əvvəl təchizatçılara edilən ödənişlər üçün:

Təchizatçılara edilən ödənişlərin tarixi və məbləğini göstərən köçürmə sənədi və ya oxşar sənədlər, Ödənişin tarixi və məbləğini göstərən təchizatçı tərəfindən təqdim olunan adi qəbz də kifayət hesab oluna bilər.

(3) Məsləhət xidmətləri üzrə edilən ödənişlər üçün:

Görülən xidmətləri, əhatə olunan müddəti və məsləhətçilərə ödənilməli olan məbləğləri kifayət dərəcədə ətraflı göstərən məsləhətçi tələbi;

Ləğv olunmuş bank çeki, məsləhətçilərə edilən ödənişin tarixi və məbləğini göstərən köçürmə sənədi; Ödənişin tarixi və məbləğini göstərən təchizatçı tərəfindən təqdim olunan adi qəbz də kifayət hesab oluna bilər.

(4) Göstərilən digər xidmətlər üzrə ödənişlər üçün:

Göstərilən xidmətlərin təbiətini və məbləğləri göstərən hesab faktura;

Ləğv olunmuş bank çeki, yerinə yetirilən ödənişin tarixi və məbləğini göstərən köçürmə sənədi;

Ödənişin tarixi və məbləğini göstərən adi qəbz də kifayət hesab oluna bilər.

Əgər bu xidmətlər malların idxalı ilə bağlıdırsa (fraxt, sığorta ödənişləri) bu maddələrin hər birini, dəyəri YBƏA tərəfindən maliyyələşdirilmiş və ya maliyyələşdiriləcək spesifik mallar ilə əlaqələndirmək üçün YBƏA-ya imkan vermək məqsədi ilə adekvat istinadlar veriləcəkdir.

(5) Tikinti işləri üzrə müqavilələr çərçivəsində ödənişlər üçün:

Tikinti işləri üzrə ödənişlər üçün - Podratçı tərəfindən təqdim olunmuş tələb olunan məbləği və görülən işlər haqqında ətraflı məlumat əhatə edən; Müvafiq müqaviləyə uyğun olaraq görülən işlərin keyfiyyətini qənaətbəxş olmasını sübut edən sertifikat; Həmin sertifikat İcraçı Agentliyinin səlahiyyətli baş mühəndis tərəfindən imzalanmalıdır; ayrıca olaraq hazırlanmış sertifikat da kifayət edə bilər;

Ləğv olunmuş bank çeki, podratçıya edilən ödənişin tarixi və məbləğini göstərən köçürmə sənədi; Ödənişin tarixi və məbləğini göstərən podratçı tərəfindən təqdim olunmuş adi qəbz də kifayət hesab oluna bilər.

(6) Əvəzi Ödənilmə Prosedurunun 2.(b) bəndinə uyğun olaraq Vəsaitlərin Əvəzinin Ödənilməsi üçün Müraciətdə məbləğ Yapon yeni ilə qeyd edilməlidir. Müqavilədə qeyd olunmuş valyutada (Yapon yenindən fərqli valyuta) həyata keçirilən ödənişlərdə konvertasiya kursu JİCA - SSP ümumi xərc cədvəllərində göstərilməli və müvafiq təsdiq edici sənədlər həmin cədvəllərə əlavə edilməlidir.

Əlavə 7

Köçürmə Proseduru

Burada müəyyən olunan iki formada Köçürmə Proseduru kredit vəsaitlərinin Münasib ölkələrdən olan Təchizatçılara ödənilməsində istifadə olunacaqdır.

Bu əlavənin hər yerində qeyd olunan Tokiyoda yerləşən səlahiyyətli bank ifadəsi, Tokiyo-Mitsubishi UFJ Ltd Bankı olaraq başa düşülməlidir. (Bundan sonra "Ödəyən Bank).

Köçürmə əməliyyatı Forma A: Təchizatçılara ödəniş üçün istifadə olunan valyuta YBƏA tərəfindən məqbul hesab edilən beynəlxalq tədavüllü valyuta (Azərbaycan manatı deyil) olduğu halda

1. Vəsaitlərin istifadəsi üçün Müraciət

(1) Borcalan Təchizatçı tərəfindən İcraçı Agentlik vasitəsilə ödəniş müraciətini (bu müqaviləyə əlavə olunmuş CFP formasına uyğun olaraq) aldıqda, Borcalan bu sənədə əlavə olunmuş TRF formasına müvafiq olaraq Vəsaitlərin istifadəsi üzrəm Müraciəti YBƏA-ya göndərməklə Təchizatçı tərəfindən faktiki tələb olunan məbləğdən çox olmayan məbləğ üzrə ödənişin yerinə yetirilməsini YBƏA-dən xahiş edir. Müraciətə aşağıdakı sənədlər əlavə olunur:

(a) Bu sənədə əlavə olunmuş TRF formasına uyğun olaraq Ödəniş Cədvəli;

(b) sənədə əlavə olunan JİCA-Tİ-A formasına uyğun olaraq Köçürmə Təlimatı A formasının surəti;

(c) Təchizatçıya ödəniləcək məbləği göstərən Ödəniş Müraciətləri;

(d) hər bir ödənişi və ödənişin təyinatını təsdiqləyən aşağıda qeyd olunmuş sənəd lər:

(i) Mallar və xidmətlərin daşınması/çatdırılması üçün təchizatçılara ödənişlər üçün - İnvoysda qeyd olunan mallar və xidmətlərin daşınması/çatdırılmasını ispatlayan hesab fakturaları və ya buna bənzər sənədlər.

(ii) Məsləhətçi xidmətləri üzrə ödənişlər üçün - məsləhətçi tərəfindən tələb olunan məbləği və görülən işlər haqqında ətraflı məlumat əhatə edən;

(iii) Tikinti işləri üzrə ödənişlər üçün - Podratçı tərəfindən təqdim olunmuş tələb olunan məbləği və görülən işlər haqqında ətraflı məlumat əhatə edən, göstərilən xidmətləri, xidmət müddətini və ödəniləcək məbləği özündə əks etdirən sənədlər;

Müvafiq müqaviləyə uyğun olaraq görülən işlərin keyfiyyətini qənaət bəxş olmasını sübut edən sertifikat;

Həmin sertifikat İcraçı Agentliyin Layihə üçün təyin etdiyi səlahiyyətli baş mühəndisi tərəfindən imzalanmalıdır.

(2) Vəsaitlərin istifadəsi üçün Müraciətdə qeyd olunan məbləğ YBƏA tərəfindən məqbul hesab edilən beynəlxalq tədavüllü valyuta olmalıdır.

(3) Borcalan Vəsaitlərin İstifadə üçün müraciət və Ödəniş Müraciətlərinin surəti ilə birlikdə Köçürmə Təlimatı A formasını (sənədə əlavə olunmuş JİCA-Tİ-A formasına uyğun olaraq) Ödəyən YBƏA-ya göndərəcəkdir.

2. Vəsaitlərin İstifadəsi

(1) YBƏA Vəsaitlərin istifadəsi üçün müraciətin Kredit Sazişinin şərtlərinə müvafiq olduğunu təyin etdikdən sonra YBƏA ödənişi Yapon yeni ilə yerinə yetirməlidir. Ödəniş vəsaitlərin istifadəsi üzrə müraciətin alınmasından sonrakı 15 iş günü ərzində, ödəyən Bank tərəfindən məbləğ qeyri-resident YEN hesabına Yaponiyanın müvafiq qanunvericiliyinə uyğun olaraq köçürülür.

(2) Vəsaitlərin İstifadəsi üçün Müraciətdə qeyd olunan məbləğ yapon yeni istisna olmaqla YBƏA tərəfindən məqbul hesab edilən beynəlxalq tədavüllü valyuta ilə olduqda ödənişin yapon yeni ilə məbləği Ödəyən Bank tərəfindən ödənişin yerinə yetirildiyi tarixdən iki (2) iş günü əvvəlki satış mübadilə kursuna müvafiq məbləğdə həmin valyutaya konvertasiya edir.

3. Təchizatçı(lar)a ödəniş

YBƏA tərəfindən istifadə olunmuş kredit vəsaitləri yuxarıda 2-ci bənddə qeyd olunan _____ qeyri-rezident yen hesabına mədaxil olunduqdan dərhal sonra, Borcalan Ödəyən Bank tərəfindən həmin məbləğin Təchizatçının Ödəniş Müraciətində qeyd edilən müxbir hesabına köçürülməsi üçün yuxarıda qeyd olunan hesabdan məxaric olunmasını təmin edəcəkdir. Eyni zamanda Ödəyən Bank yuxarıda qeyd olunan köçürülmə barədə Təchizatçı (lar)ya və YBƏA-ya məlumat verəcəkdir.

4. Səlahiyyətin Verilməsi

(1) Bununla Borcalan bu Köçürülmə Proseduru çərçivəsində tələb olunan razılaşmanı imzalamaq və hər hansı tədbir görmək məqsədləri üçün öz agenti kimi təyin edir.

(2) Verilmiş səlahiyyətə müvafiq olaraq Ödəyən Bank tərəfindən yerinə yetirilmiş hər hansı tədbir və ya bağlanmış razılaşma Borcalan üçün məcburi xarakter daşıyır və onun Borcalanın özü tərəfindən imzalanması ilə eyni qüvvəyə malikdir.

(3) Ödəyən Bank tərəfindən verilmiş səlahiyyət Borcalanla YBƏA arasında razılaşmaya əsasən ləğv oluna və ya dəyişdirilə bilər.

5. Razılaşma

Borcalan yuxarıda 4-cü bənd ilə verilmiş səlahiyyətə müvafiq olaraq Ödəyən Bank ilə aşağıdakılardan ibarət zəruri tədbirlərin yerinə yetirilməsinə çalışacaq:

Borcalanın adından Ödəyən Bank ilə qeyri-rezident yen hesabının açılması.

Borcalan Vəsaitlərin istifadəsi üçün Müraciət və Ödəniş Müraciətlərinin surətləri ilə birlikdə Köçürülmə Təlimatı A variantını (əlavə olunmuş JİCA-Tİ-A forması) Ödəyən Banka göndərəcəkdir.

YBƏA tərəfindən yerinə yetirilmiş vəsaitlərin istifadəsi yuxarıda 2-ci bənddə qeyd olunan qeyri-rezident yen hesabına mədaxil olunduqdan dərhal sonra Ödəyən Bank Borcalan tərəfindən verilmiş Köçürmə Təlimatı A variantına müvafiq olaraq istifadə olunan məbləği Təchizatçı(lar)nın müxbir hesab(lar)ına köçürəcəkdir.

YBƏA mübadilə zamanı Təchizatçı (lar) tərəfindən Borcalana təqdim olunmuş ödəniş müraciətləri ilə Təchizatçılara edilmiş faktiki ödənişlər arasında hər hansı dəyişikliklər səbəbindən Borcalan və/və yaxud Təchizatçı tərəfindən baş vermiş itkiyə görə məsuliyyət daşımır.

Variant B: Təchizatçıya edilən faktiki ödəniş üçün istifadə edilən valyuta Azərbaycan manatı olduğu halda.

1. *Vəsaitlərin istifadəsi üçün Müraciət*

(1) Borcalan Təchizatçı tərəfindən İcraçı Agentlik vasitəsilə ödəniş müraciətini (bu müqaviləyə əlavə olunmuş CFP formasına uyğun olaraq) aldıqda, Borcalan bu sənədə əlavə olunmuş TRF formasına müvafiq olaraq Vəsaitlərin istifadəsi üzrə Müraciəti YBƏA-ya göndərməklə Təchizatçı tərəfindən faktiki tələb olunan məbləğdən çox olmayan məbləğ üzrə ödənişin yerinə yetirilməsini YBƏA-dən xahiş edir. Müraciətə aşağıdakı sənədlər əlavə olunur:

(a) Bu sənədə əlavə olunmuş TRF formasına uyğun olaraq Ödəniş Cədvəli;

(b) Sənədə əlavə olunan JİCA-Tİ-B formasına uyğun olaraq ünvanlanmış Köçürmə Təlimatı B formasının surəti;

(c) Təchizatçı (lar)ya ödəniləcək məbləği göstərən Ödəniş Müraciətləri;

(d) hər bir ödənişi və ödənişin təyinatını təsdiqləyən aşağıda qeyd olunmuş sənədlər:

(i) Mallar və xidmətlərin daşınması/çatdırılması üçün təchizatçılara ödənişlər üçün - İnvoysda qeyd olunan mallar və xidmətlərin daşınması/çatdırılmasını təsdiq edən hesab fakturalar və ya buna bənzər sənədlər.

(ii) Məsləhətçi xidmətləri üzrə ödənişlər üçün - məsləhətçi tərəfindən tələb olunan məbləği və görülən işlər haqqında ətraflı məlumatı əhatə edən, göstərilən xidmətləri, xidmət müddətini və ödəniləcək məbləği özündə əks etdirən sənədlər.

(iii) Tikinti işləri üzrə ödənişlər üçün - Podratçı tərəfindən təqdim olunmuş tələb olunan məbləği və görülən işlər haqqında ətraflı məlumatı əhatə edən;

Müvafiq müqaviləyə uyğun olaraq görülən işlərin keyfiyyətini qənaət bəxş olmasını sübut edən sertifikat;

Həmin sertifikat İcraçı Agentliyinin səlahiyyətli baş mühəndisi tərəfindən imzalanmalıdır.

(2) Vəsaitlərin İstifadəsi üçün müraciətdə qeyd olunan məbləğ Vəsaitlərin istifadəsi üçün Müraciətin yerinə yetirildiyi tarixdən dərhal əvvəl gələn tarixdə səlahiyyətli xarici valyuta bankının alış kursuna konvertasiya edilmiş yapon yeni ilə olmalıdır. Azərbaycan manatı ilə ödəniləcək məbləğ və həmin məbləğin yapon yeninə konvertasiyası üçün istifadə olunan valyuta kursu Ödəniş cədvəlində təsvir olunacaqdır.

(3) Yuxarıda 2-ci bənddə qeyd olunana baxmayaraq başlıca qəzetlər tərəfindən təsbit edilən kurs da istifadə oluna bilər.

(4) Borcalan Vəsaitlərin İstifadə üçün müraciət və Ödəniş Müraciətlərinin surəti ilə birlikdə Köçürmə Təlimatı B formasını (sənədə əlavə olunmuş JİCA-Tİ-B formasına uyğun olaraq) göndərəcəkdir.

2. Vəsaitlərin İstifadəsi

YBƏA Vəsaitlərin istifadəsi üçün müraciətin Kredit Sazişinin şərtlərinə müvafiq olduğunu təyin etdikdən sonra YBƏA ödənişi Yapon yeni ilə yerinə yetirməlidir. Ödəniş vəsaitlərin istifadəsi üzrə müraciətin alınmasından sonrakı 15 iş günü ərzində, ödəyən bank tərəfindən məbləğ qeyri-resident YEN hesabına Yaponiyanın müvafiq qanunvericiliyinə uyğun olaraq köçürülür.

3. Təchizatçı(lar)a ödəniş

YBƏA tərəfindən istifadə olunmuş kredit vəsaitləri yuxarıda 2-ci bənddə qeyd olunan _____ qeyri-rezident yen hesabına mədaxil olunduqdan dərhal sonra, Borcalan Ödəyən Bank tərəfindən həmin məbləğin _____ göndərilən bildirişdə qeyd edilən daimi hesabına köçürülməsi üçün yuxarıda qeyd olunan hesabdan məxaric olunmasına çalışacaqdır. Ödəyən Bank tərəfindən bildiriş alındıqdan sonra _____ təchizatçı tərəfindən Azərbaycan manatı ilə tələb olunan məbləği Ödəniş Müraciətində Təchizatçının müxbir hesabına dərhal mədaxil edəcəkdir.

7. Səlahiyyətin Verilməsi

(1) Bununla Borcalan bu Köçürülmə Proseduru çərçivəsində tələb olunan razılaşmanı imzalamaq və hər hansı tədbir görmək məqsədləri üçün_____ öz agenti kimi təyin

edir.

(2) Verilmiş səlahiyyətə müvafiq olaraq_____ tərəfindən yerinə yetirilmiş hər hansı tədbir və ya bağlanmış razılaşma Borcalan üçün məcburi xarakter daşıyır və onun Borcalanın özü tərəfindən imzalanması ilə eyni qüvvəyə malikdir.

(3) _____verilmiş səlahiyyət Borcalanla YBƏA arasında razılaşmaya əsasən ləğv oluna və ya dəyişdirilə bilər.

8. Razılaşma

Borcalan yuxarıda 4-cü bənd ilə verilmiş səlahiyyətə müvafiq olaraq Ödəyən Bank ilə aşağıdakılardan ibarət zəruri tədbirlərin yerinə yetirilməsinə çalışacaq:

(a) Borcalanın adından Ödəyən Bank ilə qeyri-rezident yen hesabının açılması.

(b) Ödəyən Banka YBƏA tərəfindən vəsaitlərin istifadəsi barədə bildirişin yerinə yetirilməsinə icazə verilməsi.

Borcalan yuxarıda 4-cü bənddə müəyyən edilmiş səlahiyyətə müvafiq olaraq aşağıdakılardan ibarət zəruri tədbirləri yerinə yetirəcəkdir.

Ödəyən Bank tərəfindən bildiriş alındıqdan sonra, Təchizatçı tərəfindən Azərbaycan manatı ilə tələb olunan məbləği Borcalan tərəfindən hazırlanmış Köçürmə Təlimatı B formasına müvafiq olaraq Təchizatçının müxbir hesabına mədaxil edəcəkdir.

YBƏA mübadilə zamanı Təchizatçı (lar) tərəfindən Borcalana təqdim olunmuş ödəniş müraciətləri ilə Təchizatçılara edilmiş faktiki ödənişlər arasında hər hansı dəyişikliklər səbəbindən Borcalan və/və yaxud Təchizatçı tərəfindən baş vermiş itkiyə görə məsuliyyət daşımır.

Form TRF
Kredit vəsaitlərindən istifadə üçün Müraciət

Tarix:
Kredit Sazişi No. : AZB-P4
Seriya No.:

Yaponiya Beynəlxalq Əməkdaşlıq Agentliyi
Tokio, Yaponiya
ŞƏRQİ VƏ ORTA ASİYA VƏ QAFQAZ DEPARTAMENTİNİN
Baş Direktoruna

Xanımlar və Cənablar,

Kiçik şəhərlərdə Su Təchizatı və Kanalizasiya Layihəsi çərçivəsində Yaponiya Beynəlxalq Əməkdaşlıq Agentliyi (bundan sonra "YBƏA" adlandırılacaq) və Azərbaycan Respublikası Hökuməti arasında imzalanmış___ iyun 2008-ci il tarixli AZB-P4 nömrəli Kredit Sazişinə uyğun olaraq əlavə olunmuş Xülasə cədvəllərində təsvir edilmiş xərclərin ödənişinin həyata keçirilməsi üçün ____ (sözlə) məbləğində vəsaitin qeyd olunan Kredit Sazişi üzrə istifadəsi üçün aşağıda imza edənlər müraciət edirlər.

Aşağıda imza edənlər xülasə cədvəllərində təsvir edilmiş xərclərin ödənilməsi məqsədi ilə əlaqədar Borcdan hər hansı məbləğdəki vəsaitin istifadəsi ilə bağlı müraciət etməmişdir. Aşağıda imza edənlər bu məqsədlər üçün başqa borc, kredit və qrant vəsaitləri əldə etməmiş və gələcəkdə də etməyəcəkdir.

Aşağıda imza edənlər təsdiq edir ki:

1. Xülasə cədvəllərində təsvir edilmiş xərclər Kredit Sazişində qeyd olunmuş məqsədlər üçün həyata keçirilmişdir.

2. Bu xərclər ilə alınmış mal və xidmətlərin satın alınması Kredit Sazişinə və xərclər smetası və şərtlərinə əsasən YBƏA tərəfindən razılaşdırılmış proseduralara uyğun olaraq həyata keçirilmişdir.

3. Qeyd edilən mal və xidmətlər xülasə cədvəllərində göstərilmiş Təchizatçıdan alınmış (alınacaq) və ya YBƏA-nin təmin etdiyi Borc üçün münasib mənbə ölkələrdə istehsal edilmişdir (istehsal ediləcəkdir).

4. Xahiş edirik ki, vəsaiti Borcalanın Tokio-Mitsubişi UFJ, Ltd, Tokio, Yaponiya Bankındakı qeyri rezident Yen hesabına ödəyəsiniz.

5. Bu müraciət səhifədən və imzalanmış və nömrələnmiş Xülasə cədvəlindən ibarətdir.

Hörmətlə,

_____
(Borcalanın adı)

_____
(Səlahiyyətli şəxsin imzası)

Form TRF-a

Date:
Tarix:

SeriyaNo.

Xülasə Ödəniş Cədvəli
(A və yaxud B variantı)

1	2	3	4	5	6		7	8
JICA razılıq No. oo-oo/C-	Malların və ya xidmətlərin təsviri	Təchizatçının Adı və Ünvanı	Kateqoriya	Müqavilənin məbləği	Müqavilənin valyutası ilə ödəniləcək məbləğ		Toplanmış məbləğ	Qeydlər
				YBƏA tərəfindən Razılaşdırılmış Məbləğ	YBƏA tərəfindən maliyyələşdirilmə üçün müraciət olunan məbləğ (=bu dəfə tələb olunan məbləğ)	Təchizatçı tərəfindən alınacaq valyuta ilə ödəniləcək məbləğ	Artıq ödənilmiş JICA tərəfindən maliyyələşdirmənin toplanmış məbləği	

Qeyd: 1. YBƏA tərəfindən maliyyələşdirilmə üçün müraciət olunan məbləğ aşağıdakı qaydada hesablanır:
(Əgər bu hesablama üçün hər hansı vəsaitlərin istifadəsi əmsalı istifadə olunursa, bunu xüsusi olaraq qeyd edin.)
2. YBƏA tərəfindən maliyyələşdirmə üçün müraciət olunan məbləğ =_____XXXXX XXX_____Yapon Yenisi (yalnız B variantı) bərabərdir
3. YBƏA tərəfindən maliyyələşdirmə üçün müraciət olunan məbləğ Ödəniş Müraciətinin (Forma CFP) əlavə olunmuş surətində göstərilmiş tələb olunan məbləğə bərabərdir.
4. Valyuta kursu dörd (4) onluq həddə qədər yuvarlaqlaşdırılacaq. Birdən (1) aşağı yapon yeni nəzərə alınmır. (Yalnız B variantı)
5. 8-ci sütun ödəmənin avans, ilkin və ya növbəti ödəniş olduğunu göstərir. (belə olduqda, növbəti ödənişin nömrəsi və müvafiq müddəti/ayı) və yaxud yekun ödənişi tam olaraq qeyd edin.

(Borcalanın adı) üçün

Tərəfindən: _____
(Səlahiyyətli şəxsin imzası)

Forma JİCA-TI-A
Köçürmə təlimatı Forma A

Tarix:
Kredit Sazişi No.: AZB-P4
Seriya No.:

Yaponiyanın Bank of Tokyo-Mitsubishi UFJ, Ltd., Tokyo Bankına

Bununla, Yaponiyanın Bank of Tokyo-Mitsubishi UFJ, Ltd., Bankı ilə _____ arasında _____tarixli YBƏA Razılaşmasına müvafiq olaraq_____ tarixli nömrəli Vəsaitlərin İstifadəsi üzrə Müraciətimizə əsasən Bank tərəfindən istifadə olunmuş məbləği yuxanda adı çəkilən Vəsaitlərin İstifadəsi üzrə Müraciətə əlavə olunmuş _____tarixli _____nömrəli Ödəniş Müraciətində qeyd olunan müvafiq Təchizatçının hesabına köçürməyinizi xahiş edirik.

_____uçun
(Borcalanın adı və ünvanı)

_____tərəfindən
(Səlahiyyətli şəxsin imzası)

Qoşma. Vəsaitlərin İstifadəsi üçün müraciət

Ödəniş Müraciəti

Forma JİCA-TI-B
Köçürmə təlimatı Forma B

Tarix:
Kredit Sazişi No.: AZB-P4
Seriya No.:

Kimə:_____

Ödəyən Bankdan bildiriş daxil olduqdan dərhal sonra _____Təchizatçı tərəfindən faktiki Azərbaycan manatı ilə tələb olunan məbləği dərhal Təchizatçının müxbir hesabına oturtacaqdır.

_____üçün
(Borcalanın adı və ünvanı)

_____tərəfindən
(Səlahiyyətli şəxsin imzası)

Qoşma: Vəsaitlərin İstifadəsi üçün Müraciət
Ödəniş Müraciəti

Forma CFP
Ödəniş Müraciətləri

Tarix :
Kredit Sazişi No.: AZB-P4
Seriya No. :

Kimə: (İcraçı Agentliyim adı və ünvanı)

Bununla aşağıdakı tərkibdə işlərin gedişatı üzrə Ödəniş Müraciətlərini Sizə təqdim edirik.
Benefisiarın adı:
Müqavilə No və tarix:
Müqavilənin nömrəsi və tarixi ilə bağlı bildiriş (əgər varsa):
Yerinə yetirilmiş mallar və xidmətlərin təsviri :
Tələb olunan məbləğ :
Artıq ödənilmiş toplam məbləğ :
Cəmi məbləğ (5. + 6.):
Yuxanda 5-ci bənddə qeyd olunan məbləği aşağıdakı hesaba köçürməyinizi xahiş edirik.
Hesab nömrə:
Təchizatçının Bankının adı:
Təchizatçının Bankının ünvanı:
Teleqraf ünvanı:

_____üçün
(Təchizatçının adı)

_____tərəfindən
(Səlahiyyətli şəxsin imzası)

"Diplomatik xidmətdə fərqlənməyə görə" medalının təsis edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. "Diplomatik xidmətdə fərqlənməyə görə" Azərbaycan Respublikasının medalı təsis edilsin.

II. "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1992-ci il, № 23, maddə 996; 1993-cü il, № 23, maddə 676; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002-ci il, № 5, maddə 251; 2003-cü il, № 12, I kitab, maddə 677; 2005-ci il, № 4, maddə 291; 2006-cı il, № 10, maddə 846; 2007-ci il, № 3, maddə 213; 2008-ci il, № 6, maddələr 452, 472) 2-ci maddəsinə aşağıdakı məzmunda on səkkizinci abzas əlavə edilsin:

"Diplomatik xidmətdə fərqlənməyə görə" medalı.".

III. "Diplomatik xidmətdə fərqlənməyə görə" Azərbaycan Respublikasının medalı haqqında Əsasnamə təsdiq edilsin (əlavə olunur).

IV. "Diplomatik xidmətdə fərqlənməyə görə" Azərbaycan Respublikasının medalının təsviri təsdiq edilsin (əlavə olunur).

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 30 iyun 2009-cu il

№ 849-IIIQ

"Diplomatik xidmətdə fərqlənməyə görə" Azərbaycan Respublikasının medalı haqqında Əsasnamə

1. "Diplomatik xidmətdə fərqlənməyə görə" Azərbaycan Respublikasının medalı Azərbaycan Respublikasının diplomatik xidmət orqanlarının diplomatik rütbəsi olan əməkdaşlarına aşağıdakılara görə verilir:

1.1. Azərbaycan Respublikasının xarici siyasətinin həyata keçirilməsinə verilən əhəmiyyətli töhfəyə görə;

1.2. diplomatik xidmət sahəsinə aid mühüm layihələrin hazırlanmasında və onların həyata keçirilməsində fəal iştiraka görə;

1.3. Azərbaycan Respublikasının beynəlxalq əlaqələrinin inkişaf etdirilməsində mühüm işlərin görülməsinə görə;

1.4. diplomatik xidmət orqanlarında vicdanlı fəaliyyətə və xüsusi xidmətlərə görə.

2. "Diplomatik xidmətdə fərqlənməyə görə" Azərbaycan Respublikasının medalı döşün sol tərəfinə, Azərbaycan Respublikasının digər orden və medalları olduqda, onlardan sonra taxılır.

"Diplomatik xidmətdə fərqlənməyə görə" Azərbaycan Respublikasının medalının təsviri

1. "Diplomatik xidmətdə fərqlənməyə görə" Azərbaycan Respublikasının medalı bilavasitə dairəvi medaldan və düzbucaqlı lövhədən ibarətdir.

Medalın diametri 35 mm-dir, hər iki üzü qızılı rəngli dairəvi metal lövhədən ibarətdir, üz tərəfində iki dairə yerləşdirilmişdir. Birinci dairədə yuxarı qövs boyunca "AZƏRBAYCAN RESPUBLİKASININ", aşağı qövs boyunca "DİPLOMATİK XİDMƏTİ" sözləri həkk olunmuşdur. Medalın ikinci dairəsinin mərkəzində simmetrik şəkildə bir-birinin üstünə qoyularaq Azərbaycan milli ornamentlərinin elementini əks etdirən qabarıq qızılı haşiyə içərisində "DİPLOMATİK XİDMƏTDƏ FƏRQLƏNMƏYƏ GÖRƏ" sözləri həkk olunmuşdur. Medalın arxa tərəfi hamar səthlidir, ortasında diametri 21 mm olan Azərbaycan Respublikasının Dövlət gerbinin qızılı rəngdə qabarıq əksi həkk olunmuşdur.

Medal paltara bərkidilmək üçün elementi olan, 27 mm x 39 mm ölçüdə, aşağıya doğru, bucaq altında kəsilən göy rəngli ("Panton 3005 C") metal lövhəyə halqa və ilgək vasitəsilə birləşdirilir. Lövhənin üzərində aşağı sol küncdən yuxarı sağ küncə doğru yüksələn və hər birinin eni 0,5 mm olan 4 qızılı zolaqdan və onların arasında yerləşən, hər birinin eni 4 mm olan və Azərbaycan Respublikasının Dövlət bayrağının rənglərini əks etdirən 3 maili zolaqdan ibarət element yerləşir. Lövhənin alt hissəsində eni 4 mm olan qızılı tə-

bəqə bərkidilir.

Medala 27 mm x 9 mm ölçüdə, paltara bərkidilmək üçün elementi olan, metaldan düzəldilmiş və göy rəngli ("Panton 3005 C") fonda, üzərindəki lövhədə Azərbaycan Respublikasının Dövlət bayrağının rənglərini əks etdirən üç maili zolağı təkrar edən element yerləşdirilmiş qəlib əlavə olunur.

"Azərbaycan Respublikası diplomatik xidmət orqanlarının 90 illiyi (1919-2009)" Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. "Azərbaycan Respublikası diplomatik xidmət orqanlarının 90 illiyi (1919-2009)" Azərbaycan Respublikasının yubiley medalı təsis edilsin.

II. "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1992-ci il, № 23, maddə 996; 1993-cü il, № 23, maddə 676; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002-ci il, № 5, maddə 251; 2003-cü il, № 12, I kitab, maddə 677; 2005-ci il, № 4, maddə 291; 2006-cı il, № 10, maddə 846; 2007-ci il, № 3, maddə 213; 2008-ci il, № 6, maddələr 452, 472) 2-ci maddəsinə aşağıdakı məzmunda on doqquzuncu abzas əlavə edilsin:

"Azərbaycan Respublikası diplomatik xidmət orqanlarının 90 illiyi (1919-2009)" yubiley medalı.".

III. "Azərbaycan Respublikası diplomatik xidmət orqanlarının 90 illiyi (1919-2009)" Azərbaycan Respublikasının yubiley medalı haqqında Əsasnamə təsdiq edilsin (əlavə olunur).

IV. "Azərbaycan Respublikası diplomatik xidmət orqanlarının 90 illiyi (1919-2009)" Azərbaycan Respublikasının yubiley medalının təsviri təsdiq edilsin (əlavə olunur).

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 30 iyun 2009-cu il

№ 850-IIIQ

"Azərbaycan Respublikası diplomatik xidmət orqanlarının 90 illiyi (1919-2009)" Azərbaycan Respublikasının yubiley medalı haqqında Əsasnamə

1. "Azərbaycan Respublikası diplomatik xidmət orqanlarının 90 illiyi (1919-2009)" Azərbaycan Respublikasının yubiley medalı ilə Azərbaycan Respublikasının diplomatik xidmət orqanlarında vəzifələrini nümunəvi yerinə yetirən, diplomatik xidmətdə yüksək nəticələr əldə edən diplomatik xidmət orqanlarının diplomatik xidmət əməkdaşları, diplomatik xidmət orqanlarının inzibati-texniki xidmətini həyata keçirən şəxslər, diplomatik xidmət orqanlarının veteranları, habelə Azərbaycan Respublikasının beynəlxalq əlaqələrinin inkişaf etdirilməsində fəal iştirak edən və diplomatik xidmət orqanlarının

inkişafında xüsusi xidmətləri olan digər şəxslər təltif edilirlər.

2. "Azərbaycan Respublikası diplomatik xidmət orqanlarının 90 illiyi (1919-2009)" Azərbaycan Respublikasının yubiley medalı ilə bu Əsasnamənin 1-ci bəndində göstərilən şəxslər Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən təltif edilirlər.

3. "Azərbaycan Respublikası diplomatik xidmət orqanlarının 90 illiyi (1919-2009)" Azərbaycan Respublikasının yubiley medalı döşün sol tərəfinə, Azərbaycan Respublikasının digər orden və medalları olduqda onlardan sonra taxılır.

"Azərbaycan Respublikası diplomatik xidmət orqanlarının 90 illiyi (1919-2009)" Azərbaycan Respublikasının yubiley medalının təsviri

"Azərbaycan Respublikası diplomatik xidmət orqanlarının 90 illiyi (1919-2009)" Azərbaycan Respublikasının yubiley medalı bilavasitə dairəvi medaldan və düzbucaqlı lövhədən ibarətdir.

Medalın diametri 35 mm-dir, hər iki üzü qızılı rəngli dairəvi metal lövhədən ibarətdir. İçərisində iki dairə yerləşdirilmişdir. Birinci dairədə yuxarı qövs boyunca "AZƏRBAYCAN RESPUBLİKASI", aşağı qövs boyunca "DİPLOMATİK XİDMƏTİ" sözləri həkk olunmuşdur. Medalın ikinci dairəsinin mərkəzində yer kürəsinin şərti təsviri fonunda qızılı rəngli qabarıq "90" rəqəmi və "il" sözündən ibarət emblem, həbelə emblemdən aşağıda "1919-2009" rəqəmləri həkk olunmuşdur.

Medalın arxa tərəfi hamar səthlidir, ortada yuxarı hissədə qızılı rəngli qabarıq "90" rəqəmi, ondan aşağıda "AZƏRBAYCAN RESPUBLİKASI DİPLOMATİK XİDMƏTİ" sözləri və "1919-2009" rəqəmləri həkk olunmuşdur.

Medal paltara bərkidilmək üçün elementi olan, 27 mm x 39 mm ölçüdə, aşağıya doğru bucaq altında kəsilən metal lövhəyə halqa və ilgək vasitəsilə birləşdirilir. Lövhə hər birinin eni 1,5 mm olan 4 qızılı zolaqdan və onların arasında yerləşən, hər birinin eni 7 mm olan və Azərbaycan Respublikasının Dövlət bayrağının rənglərini əks etdirən 3 maili zolaqdan ibarətdir. Lövhənin üst hissəsinə eni 4 mm olan qızılı təbəqə bərkidilir.

Medala 27 mm x 9 mm ölçüdə paltara bərkidilmək üçün elementi olan, metaldan düzəldilmiş və üzərində hər birinin eni 1,5 mm olan 4 qızılı zolaqdan və onların arasında yerləşən, hər birinin eni 7 mm olan və Azərbaycan Respublikasının Dövlət bayrağının rənglərini əks etdirən üç maili zolaqdan ibarət qəlib əlavə olunur.

Miqrasiya proseslərinin idarə olunmasında "bir pəncərə" prinsipinin tətbiqi ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına əlavələr və dəyişikliklər edilməsi və "Azərbaycan Respublikasında daimi yaşayan əcnəbinin və ya vətəndaşlığı olmayan şəxsin qeydiyyat vəsiqəsinin formasının təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Qanununun qüvvədən düşmüş hesab edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

1. "Ölkədən getmək, ölkəyə gəlmək və pasportlar haqqında" Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1994-cü il, № 18, maddə 243; 1995-ci il, № 14, maddə 237; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997-ci il, № 5, maddə 385, № 6, maddə 493; 1998-ci il, № 2, maddə 70; 2000-ci il, № 12, maddə 835; 2001-ci il, № 3, maddə 143, № 6, maddə 378, № 11, maddə 674; 2002-ci il, № 1, maddə 4, № 8, maddə 463; 2004-cü il, № 7, maddə 505; 2005-ci il, № 3, maddə 152, № 10, maddə 874; 2006-cı il, № 1, maddə 3, № 2, maddə 64, № 3, maddə 219, № 4, maddə 319, № 11, maddə 933, № 12, maddələr 1006, 1017, 1029; 2007-ci il, № 7, maddə 712, № 8, maddə 753, № 11, maddə 1053; 2008-ci il, № 3, maddə 158, № 8, maddə 701, № 10, maddə 886) aşağıdakı əlavələr və dəyişikliklər edilsin:

1. 12-ci maddə üzrə:

1.1. birinci hissəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Azərbaycan Respublikasında müvəqqəti və ya daimi yaşamaq üçün icazə almış əcnəbilər şəxsi pasportları (digər sərhədkeçmə sənədləri) və Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən verilmiş müvəqqəti və ya daimi yaşamaq üçün icazə vəsiqələri əsasında Azərbaycan Respublikasından gedə və Azərbaycan Respublikasına qayıda bilərlər.";

1.2. altıncı hissədə "Viza tələb olunmayan qaydada Azərbaycan Respublikasına gələn əcnəbilərin" sözləri "Əcnəbilərin" sözü ilə əvəz edilsin;

1.3. aşağıdakı məzmunda yeddinci hissə əlavə edilsin, yeddinci-doqquzuncu hissələr müvafiq olaraq səkkizinci-onuncu hissələr hesab edilsin:

"Viza əsasında və ya viza tələb olunmayan qaydada Azərbaycan Respublikasına gələn və müvafiq icra hakimiyyəti orqanı tərəfindən ölkə ərazisində müvəqqəti olma müddəti uzadılmış əcnəbi şəxsi pasportunu (digər sərhədkeçmə sənədini) və müvəqqəti olma müddətinin uzadılması haqqında qərarı təqdim edərək dövlət sərhədinin buraxılış məntəqələrindən keçməklə ölkəni tərk edə bilər.";

2. 13-cü maddə üzrə:

2.1. maddənin adı aşağıdakı redaksiyada verilsin:

"Giriş və tranzit vizaları";

2.2. ikinci, dördüncü və beşinci hissələr çıxarılsın.

II. Azərbaycan Respublikası Milli Məclisinin 1994-cü il 29 noyabr tarixli 928 nömrəli Qərarı (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1995-ci il, № 3-4, maddə 48; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997-ci il, № 6, maddə 493; 1998-ci il, № 2, maddə 71; 2001-ci il, № 11, maddələr 669, 674; 2002-ci il, № 7, maddə 395; 2004-cü il, № 4, maddə 199; 2006-cı il, № 2, maddə 64, № 11, maddə 933, № 12, maddələr 1006, 1033; 2007-ci il, № 1, maddə 4, № 4, maddə 319; 2008-ci il, № 8, maddə 698, № 10, maddə 886; Azərbaycan Respublikasının 2009-cu il 24 fevral tarixli 770-IIIQD nömrəli Qanunu) ilə təsdiq edilmiş "Ölkədən getmək, ölkəyə gəlmək və pasportlar haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi haqqında Əsasnamə"yə aşağıdakı əlavələr və dəyişikliklər edilsin:

1. 19-cu bəndə aşağıdakı məzmunda ikinci abzas əlavə edilsin:

"Azərbaycan Respublikasında müvəqqəti və ya daimi yaşamaq üçün icazə almış əcnəbilər şəxsi pasportları (digər sərhədkeçmə sənədləri) və Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən verilmiş müvəqqəti və ya daimi yaşamaq üçün icazə vəsiqələri əsasında Azərbaycan Respublikasından gedə və Azərbaycan Respublikasına qayıda bilərlər.";

2. 20-ci bəndin ikinci cümləsi çıxarılsın;

3. 21-ci bənddə "giriş, qayıdış, tranzit və çıxış" sözləri "giriş və tranzit" sözləri ilə əvəz edilsin;

4. 24-cü və 26-cı bəndlər çıxarılsın;

5. aşağıdakı məzmunda 28-1-ci bənd əlavə edilsin:

"28-1. Viza əsasında və ya viza tələb olunmayan qaydada Azərbaycan Respublikasına gələn və müvafiq icra hakimiyyəti orqanı tərəfindən ölkə ərazisində müvəqqəti olma müddəti uzadılmış əcnəbi və ya vətəndaşlığı olmayan şəxs şəxsiyyətini təsdiq edən sənədi və müvəqqəti olma müddətinin uzadılması haqqında qərarı təqdim edərək dövlət sərhədinin buraxılış məntəqələrindən keçməklə ölkəni tərk edə bilər.";

6. 29-cu bəndin birinci abzası aşağıdakı redaksiyada verilsin:

"Viza əsasında gələn əcnəbilər vizada göstərilən ölkədə qalma müddəti, viza tələb olunmayan qaydada gələnlər isə 90 gün bitdikdə, onların ölkədə müvəqqəti olma müddəti müvafiq icra hakimiyyəti orqanı tərəfindən uzadılmamışdırsa, onlara müvəqqəti yaşamaq üçün icazə verilməmişdirsə və ya onlardan belə icazənin verilməsi üçün ərizə qəbul edilməmişdirsə, Azərbaycan Respublikasının ərazisini tərk etməlidirlər.".

III. "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997-ci il, № 2, maddə 88; 2001-ci il, № 11, maddələr 669, 676; 2002-ci il, № 1, maddə 2, № 5, maddələr 237, 243; 2006-cı il, № 6, maddə 478; 2007-ci il, № 8, maddə 756, № 12, maddə 1197; 2008-ci il, № 7, maddə 602, № 8, maddə 701) aşağıdakı dəyişikliklər edilsin:

1. 3-cü maddənin birinci hissəsi üzrə:

1.1. 3-cü bənddə "daimi" sözü "müvəqqəti və ya daimi" sözləri ilə əvəz edilsin;

1.2. aşağıdakı məzmunda 4-cü bənd əlavə edilsin:

"4) Azərbaycan Respublikası ərazisində müvəqqəti olma müddəti uzadılmış əcnəbi və ya vətəndaşlığı olmayan şəxs barəsində - müvafiq icra hakimiyyəti orqanı tərəfindən verilən xüsusi nümunəli qərar.";

2. 6-cı maddənin üçüncü hissəsi üzrə:

2.1. 2-ci bənddən ", Azərbaycan Respublikasında onun müvəqqəti olma müddətinin uzadılması haqqında müvafiq icra hakimiyyəti orqanının qərarı olduqda isə - qərarda göstərilmiş müddətə" sözləri çıxarılsın;

2.2. 3-cü bənd çıxarılsın;

3. 7-ci maddə aşağıdakı redaksiyada verilsin:

"Maddə 7. Azərbaycan Respublikasında müvəqqəti və ya daimi yaşayan əcnəbinin və ya vətəndaşlığı olmayan şəxsin yaşayış yeri üzrə qeydiyyata alınması

Əcnəbilərə və ya vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikasında müvəqqəti və ya daimi yaşamaq üçün icazə verilərkən onlar eyni zamanda müvafiq icra hakimiyyəti orqanı tərəfindən yaşayış yeri üzrə qeydiyyata alınırlar. Şəxsin yaşayış yeri üzrə qeydiyyata alınması haqqında məlumat ona verilmiş müvəqqəti və ya daimi yaşamaq üçün icazə vəsiqəsində öz əksini tapır.";

4. 8-ci maddədə və 9-cu maddənin birinci hissəsinin birinci abzasında "Müvafiq dövlət orqanı" sözləri "Müvafiq icra hakimiyyəti orqanları" sözləri ilə əvəz edilsin;

5. 9-cu maddənin birinci hissəsinin 1-ci və 2-ci bəndlərində "müvafiq dövlət orqanının" sözləri "müvafiq icra hakimiyyəti orqanlarının" sözləri ilə əvəz edilsin;

6. 13-cü maddədə "səlahiyyətli dövlət orqanına və ya" sözləri "inzibati qaydada və (və ya)" sözləri ilə əvəz edilsin.

IV. Azərbaycan Respublikası Milli Məclisinin 1997-ci il 30 dekabr tarixli 421-IQ nömrəli Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998-ci il, № 3, maddə 136; 2001-ci il, № 11, maddə 669; 2002-ci il, № 6, maddə 328; 2006-cı il, № 2, maddə 64, № 11, maddə 1053; 2008-ci il, № 8, maddə 701, № 10, maddə 886; Azərbaycan Respublikasının 2009-cu il 24 fevral tarixli 770-IIIQD nömrəli Qanunu) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxslərin və Azərbaycan Respublikasında 30 gündən artıq yaşamaq istəyən əcnəbilərin xüsusi sənədləri haqqında Əsasnamə"yə aşağıdakı dəyişikliklər və əlavə edilsin:

1. 1-ci bənd aşağıdakı redaksiyada verilsin:

"Azərbaycan Respublikasının ərazisində daimi yaşayan vətəndaşlığı olmayan şəxslərə nümunəsi Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilən xüsusi sənədlər verilir.";

2. 2-ci bənd üzrə:

2.1. birinci abzas aşağıdakı redaksiyada verilsin:

"Xüsusi sənədlərin aşağıdakı növləri vardır:";

2.2. aşağıdakı məzmunda "d" yarımbəndi əlavə edilsin:

"d) Azərbaycan Respublikasının ərazisində daimi yaşamaq üçün icazə vəsiqəsi.";

2.3. aşağıdakı məzmunda yeddinci abzas əlavə edilsin:

"Bu bəndin "d" yarımbəndində göstərilən sənədin verilməsi qaydası müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.";

3. 34-cü bənd üzrə:

3.1. "b" yarımbəndindən ", Azərbaycan Respublikasında onun müvəqqəti olma müddətinin uzadılması haqqında müvafiq icra hakimiyyəti orqanının qərarı olduqda isə - qərarda göstərilmiş müddətə" sözləri çıxarılsın;

3.2. "c" yarımbəndi çıxarılsın.

V. "İmmiqrasiya haqqında" Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999-cu il, № 3, maddə 156; 2001-ci il, № 11, maddələr 676, 695; 2004-cü il, № 2, maddə 57, № 7, maddə 505; 2007-ci il, № 11, maddə 1053; 2008-ci il, № 8, maddə 701; 2009-cu il, № 3, maddə 160) aşağıdakı əlavə və dəyişikliklər edilsin:

1. 4-cü maddənin üçüncü hissəsinə aşağıdakı məzmunda 9-cu bənd əlavə edilsin:

"9) dövlət rüsumunun ödənilməsi barədə qəbz.";

2. 5-ci maddənin birinci hissəsində "altı" sözü "iki" sözü ilə əvəz edilsin;

3. 10-cu maddənin beşinci hissəsi aşağıdakı redaksiyada verilsin:

"Əcnəbilərə və ya vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikasında daimi yaşamaq hüququ (immiqrant statusu) verilməsi barədə qərar müvafiq icra hakimiyyəti orqanı tərəfindən qəbul edilir. İmmiqrant statusu almış şəxslərə Azərbaycan Respublikasının ərazisində daimi yaşamaq üçün icazə vəsiqəsi verilir. Vəsiqənin təsviri, spesifikasiyası və nümunəsi müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilir.";

4. 12-ci maddə aşağıdakı redaksiyada verilsin:

"Maddə 12. İmmiqrant statusu almış şəxslərin yaşayış yeri üzrə qeydiyyatı

İmmiqrant statusu almış əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada müvafiq icra hakimiyyəti orqanı tərəfindən yaşayış yeri üzrə qeydiyyata alınırlar.

İmmiqrant statusu almış şəxs yaşayış yerini dəyişdikdə 10 gündən gec olmayaraq yeni yaşayış yeri üzrə qeydiyyata alınması üçün müvafiq icra hakimiyyəti orqanına müraciət etməlidir.".

VI. "Əmək miqrasiyası haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000-ci il, № 1, maddə 3; 2007-ci il, № 10, maddə 938; 2008-ci il, № 10, maddə 886) 8-ci maddəsində aşağıdakı dəyişikliklər edilsin:

1. ikinci hissədə ", müvafiq icra hakimiyyəti orqanının fərdi icazə əsasında verdiyi Azərbaycan Respublikasında əmək fəaliyyətini həyata keçirməyə hüquq verən viza ilə" sözləri "qanunla müəyyən olunmuş qaydada" sözləri ilə əvəz edilsin;

2. üçüncü hissə aşağıdakı redaksiyada verilsin:

"Əməkçi miqranta fərdi icazənin qüvvədə olduğu müddətə müvafiq icra hakimiyyəti orqanı tərəfindən Azərbaycan Respublikasının ərazisində müvəqqəti yaşamaq üçün icazə vəsiqəsi verilir.".

VII. Azərbaycan Respublikasının 1999-cu il 8 dekabr tarixli 773-IQ nömrəli Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000-ci il, № 1, maddə 14; 2001-ci il, № 11, maddə 669; 2002-ci il, № 5, maddə 237; 2006-cı il, № 6, maddə 478; 2007-ci il, № 8, maddə 756, № 11, maddə 1075; 2008-ci il, № 8, maddə 701, № 10, maddə 886; Azərbaycan Respublikasının 2009-cu il 24 fevral tarixli 770-IIIQD nömrəli Qanunu) ilə təsdiq edilmiş "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi haqqında Əsasnamə"yə aşağıdakı əlavələr və dəyişikliklər edilsin:

1. 1-ci bəndə aşağıdakı məzmunda üçüncü abzas əlavə edilsin:

"Müvafiq icra hakimiyyəti orqanı öz səlahiyyətləri daxilində həyata keçirdiyi yaşayış yeri üzrə qeydiyyata alınma haqqında məlumatları "Giriş-çıxış və qeydiyyat" idarələrarası avtomatlaşdırılmış məlumat-axtarış sisteminə ötürür.";

2. 20-ci bəndin beşinci abzası çıxarılsın;

3. 23-1-ci bənd aşağıdakı redaksiyada verilsin:

"23-1. Əcnəbilərə və ya vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikasında müvəqqəti və ya daimi yaşamaq üçün icazə verilərkən, habelə əcnəbilərin və ya vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında müvəqqəti olma müddəti uzadılarkən onlar eyni zamanda müvafiq icra hakimiyyəti orqanı tərəfindən yaşayış yeri üzrə qeydiyyata alınırlar.

Bu məqsədlə müvafiq icra hakimiyyəti orqanının məsul əməkdaşı əcnəbidən və ya vətəndaşlığı olmayan şəxsdən Azərbaycan Respublikasında müvəqqəti və ya daimi yaşamaq üçün icazənin verilməsi, habelə müvəqqəti olma müddətinin uzadılması üçün qanunvericiliklə müəyyən olunmuş sənədlərdən əlavə aşağıdakıları tələb etməlidir:

a) yaşayış sahəsinə köçmək üçün əsas verən sənəd (mülkiyyət hüququnun dövlət qeydiyyatına alınması haqqında daşınmaz əmlakın dövlət reyestrindən çıxarış, order, icarə (kirayə) müqaviləsi və ya Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş digər sənəd);

b) əcnəbiyə və ya vətəndaşlığı olmayan şəxsə yaşayış sahəsi verən şəxsin ərizəsi.

Şəxsin yaşayış yeri üzrə qeydiyyata alınması haqqında məlumat ona verilmiş müvəqqəti və ya daimi yaşamaq üçün icazə vəsiqəsində, habelə müvəqqəti olma müddətinin uzadılması haqqında qərarda öz əksini tapır.";

4. aşağıdakı məzmunda 23-2-ci bənd əlavə edilsin:

"23-2. Azərbaycan Respublikasında müvəqqəti və ya daimi yaşamaq üçün icazə almış, habelə ölkədə müvəqqəti olma müddəti uzadılmış əcnəbi və ya vətəndaşlığı olmayan şəxs yaşayış yerini dəyişdikdə 10 gündən gec olmayaraq yeni yaşayış yeri üzrə qeydiyyata alınması üçün müvafiq icra hakimiyyəti orqanına müraciət etməlidir. Müvafiq icra hakimiyyəti orqanının məsul əməkdaşı əcnəbini və ya vətəndaşlığı olmayan şəxsi yaşayış yeri üzrə qey-

diyyata almaq üçün ondan bu Əsasnamənin 23-1-ci bəndinin "a" və "b" yarımbəndlərində göstərilənlərdən əlavə aşağıdakı sənədləri tələb etməlidir:

- ərizə;

- şəxsiyyətini təsdiq edən sənədin surəti;

- ölkə ərazisində qanuni əsaslarla olmasını və ya yaşamasını təsdiq edən müvafiq sənədin surəti.";

5. 26-cı bənddə "səlahiyyətli dövlət orqanına və ya" sözləri "inzibati qaydada və (və ya)" sözləri ilə əvəz edilsin.

VIII. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000-ci il, № 8, I kitab, maddə 584; 2001-ci il, № 1, maddə 24, № 3, maddə 139, № 7, maddə 455, № 11, maddələr 680, 698, № 12, maddə 731; 2002-ci il, № 1, maddə 9, № 4, I kitab, maddə 165, № 5, maddələr 234, 237, 239, № 6, maddə 326, № 8, maddə 463, № 12, maddə 692; 2003-cü il, № 1, maddələr 3, 13, 23, № 4, maddələr 177, 178, № 5, maddə 228, № 6, maddələr 257, 276, 279, № 8, maddələr 407, 425, № 12, I kitab, maddələr 676, 696, II kitab, maddələr 713, 714; 2004-cü il, № 1, maddələr 6, 7, 10, 13, № 4, maddələr 200, 201, 204, № 5, maddələr 313, 314, 317, 321, № 6, maddə 397, № 8, maddələr 596, 597, № 10, maddələr 762, 779, № 11, maddə 900, № 12, maddə 973; 2005-ci il, № 1, maddələr 5, 6, № 2, maddə 61, № 4, maddələr 272, 273, 275, 278, № 6, maddələr 462, 466, № 7, maddə 576, № 8, maddələr 691, 692, № 10, maddələr 875, 877, 904, № 11, maddələr 993, 994, 995, № 12, maddələr 1083, 1085; 2006-cı il, № 2, maddələr 64, 68; № 3, maddələr 219, 220, 223, 225, № 5, maddə 385, № 6, maddə 478; № 11, maddələr 923, 924, 932, № 12, maddələr 1005, 1020, 1024; 2007-ci il, № 1, maddələr 3, 4, № 2, maddələr 65, 68, № 5, maddələr 397, 398, 401, 440, № 6, maddələr 560, 561, 562, 579; № 8, maddə 757; № 10, maddələr 935, 936, 938, 940; № 11, maddələr 1048, 1049, 1053, 1070, 1077, 1080, 1089, 1091; № 12, maddələr 1195, 1211, 1217, 1218; 2008-ci il, № 2, maddə 47, № 3, maddələr 146, 152, 158, 159, № 4, maddə 249, № 5, maddə 340, № 6, maddələr 454, 460, 461, 464, № 7, maddələr 601, 602, 605, № 8, maddələr 699, 701, № 10, maddələr 884, 885; № 11, maddələr 956, 957, № 12, maddələr 1045, 1047, 1049; 2009-cu il, № 2, maddələr 36, 45, 49, 52, 53) 331-ci maddəsinin adında və mətnində "və ya Azərbaycan Respublikasına qayıdış şəhadətnaməsinin" sözləri ", Azərbaycan Respublikasına qayıdış şəhadətnaməsinin, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında müvəqqəti olma müddətinin uzadılması haqqında qərarın və Azərbaycan Respublikasının ərazisində müvəqqəti və ya daimi yaşamaq üçün sənədlərin" sözləri ilə əvəz edilsin.

IX. "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001-ci il, № 12, maddə 740; 2002-ci il, № 12, maddə 706; 2003-cü il, № 1, maddə 23, № 8, maddə 428, № 12, I kitab, maddələr 676, 698; 2005-ci il, № 1, maddə 1, № 6, maddə 462, № 8, maddə 684, № 10, maddələr 873, 905, № 12, maddə 1083; 2006-cı il, № 3, maddələr 223, 225, № 6, maddə 481; № 12, maddələr 1015, 1029; 2007-ci il, № 2, maddə 80, № 12, maddə 1203; 2008-ci il, № 3, maddə 158, № 6, maddə 462, № 7, maddə 602; 2009-cu il, № 1, maddə 5, № 3, maddə 160) aşağıdakı əlavələr və dəyişikliklər edilsin:

1. 14-cü maddənin adında "verilərkən, Azərbaycan Respublikası vətəndaşlığına qəbulu və ya vətəndaşlığından çıxması" sözləri ", əcnəbiyə və vətəndaşlığı olmayan şəxsə Azərbaycan Respublikasının ərazisində müvəqqəti və ya daimi yaşamaq üçün icazə vəsiqəsi, müvəqqəti olma müddətinin uzadılması barədə qərarın verilməsi, Azərbaycan Respublikasının vətəndaşlığına qəbul, vətəndaşlığa bərpa və ya vətəndaşlıqdan çıxmaq" sözləri ilə əvəz edilsin;

2. 14.7-ci maddədə "Əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikasında müvəqqəti və ya daimi yaşamaq üçün icazələrin verilməsinə və müddətinin uzadılmasına, xarici pasportların və onu əvəz edən sənədlərin" sözləri "Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin xarici pasportlarının və ya onu əvəz edən sənədlərin" sözləri ilə əvəz edilsin;

3. 14.8-ci maddə aşağıdakı redaksiyada verilsin:

"14.8. Azərbaycan Respublikasının ərazisində müvəqqəti və ya daimi yaşamaq üçün icazə vəsiqələrinin verilməsinə və müddətinin uzadılmasına görə:	
14.8.1. Azərbaycan Respublikasının ərazisində müvəqqəti yaşamaq üçün icazə vəsiqəsinin verilməsinə və müddətinin uzadılmasına görə:	
14.8.1.1. 3 ayadək	30 manat
14.8.1.2. 6 ayadək	60 manat
14.8.1.3. 1 ilədək	120 manat
14.8.1.4. tələbələr üçün illik	40 manat
14.8.2. Azərbaycan Respublikasının ərazisində daimi yaşamaq üçün icazə vəsiqəsinin verilməsinə və müddətinin uzadılmasına görə:	300 manat";

4. 14.9-cu maddədə "icazələrin yenidən verilməsinə" sözləri "icazə vəsiqələrinin və müvəqqəti olma müddətinin uzadılması barədə qərarın yenidən verilməsinə" sözləri ilə, "3 manat" sözləri "10 manat" sözləri ilə əvəz edilsin;

5. 14.10-cu maddə çıxarılsın;

6. 14.12-ci maddədə "əcnəbinin" sözündən sonra "və ya vətəndaşlığı olmayan şəxsin" sözləri əlavə edilsin;

7. aşağıdakı məzmunda 14.15-ci maddə əlavə edilsin:

"14.15. ölkədə müvəqqəti olma müddətinin uzadılması barədə qərarın verilməsinə görə:	
14.15.1. 1 ayadək	30 manat
14.15.2. 1 aydan 2 ayadək	60 manat
14.15.3. 2 aydan 3 ayadək	90 manat";

8. 16.1.7-ci maddə aşağıdakı redaksiyada verilsin:

"16.1.7. Qanunla müəyyən edilmiş hallarda 1 il müddətinə çoxdəfəlik giriş-çıxış üçün giriş vizalarının rəsmiləşdirilməsi üçün	250 ABŞ dolları".

X. "Azərbaycan Respublikasında daimi yaşayan əcnəbinin və ya vətəndaşlığı olmayan şəxsin qeydiyyat vəsiqəsinin formasının təsdiq edilməsi barədə" Azərbaycan Respublikasının Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002-ci il, № 5, maddə 232; 2008-ci il, № 8, maddə 701) qüvvədən düşmüş hesab edilsin.

XI. Bu Qanun 2009-cu il iyulun 1-dən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 30 iyun 2009-cu il

№ 858-IIIQD

L. Kaçinskinin "Heydər Əliyev" ordeni ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Polşa Respublikası ilə Azərbaycan Respublikası arasında dostluq və əməkdaşlıq əlaqələrinin inkişaf etdirilməsindəki xüsusi xidmətlərinə görə Polşa Respublikasının Prezidenti Lex Kaçinski "Heydər Əliyev" ordeni ilə təltif edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 30 iyun 2009-cu il

№ 360

R.N. İvanovun "Dostluq" ordeni ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında mədəni əlaqələrin möhkəmləndirilməsində xüsusi xidmətlərinə görə Rudolf Nikolayeviç İvanov "Dostluq" ordeni ilə təltif edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 30 iyun 2009-cu il

№ 362

Azərbaycan Respublikası Milli Məclisinin parlamentlərarası əlaqələr üzrə işçi qruplarının tərkibində dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikası Milli Məclisinin Qərarı

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

1. Azərbaycan Respublikası Milli Məclisinin deputatları Gövhər Baxşəli qızı Baxşəliyeva Azərbaycan-Birləşmiş Ərəb Əmirlikləri və Azərbaycan-İsveçrə parlamentlərarası əlaqələr üzrə işçi qruplarının, Qənirə Ələsgər qızı Paşayeva Azərbaycan-Amerika Birləşmiş Ştatları və Azərbaycan-Rumıniya parlamentlərarası əlaqələr üzrə işçi qruplarının tərkibinə daxil edilsinlər.

2. Azərbaycan Respublikası Milli Məclisinin deputatları Əkrəm Kamal oğlu Abdullayev Azərbaycan-Almaniya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun, Rövşən Şükür oğlu Rzayev Azərbaycan-Norveç parlamentlərarası əlaqələr üzrə işçi qrupunun tərkibinə daxil edilsinlər.

3. Azərbaycan Respublikası Milli Məclisinin deputatları İltizam Nizam oğlu Əkbərli, İkram İsrail oğlu İsrafil, Asim Nazim oğlu Mollazadə, Fazil Qəzənfər oğlu Mustafa, Arzu Həbib oğlu Səmədbəyli Azərbaycan-Türkiyə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun tərkibinə daxil edilsinlər.

4. Azərbaycan-Özbəkistan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Zahid Məhərrəm oğlu Orucov həmin qrupun üzvlüyünə keçirilsin.

5. Azərbaycan-Özbəkistan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvü Aydın Abbas oğlu Abbasov həmin qrupun rəhbəri seçilsin.

O.ƏSƏDOV

Azərbaycan Respublikası Milli Məclisinin Sədri

Bakı şəhəri, 30 iyun 2009-cu il

№ 843-IIIQR

"Əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikasında müvəqqəti yaşamaq üçün icazənin verilməsi Qaydaları"nın təsdiq edilməsi, əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikasında müvəqqəti yaşamağa icazə verilməsi üçün əsas verən ölkə iqtisadiyyatına qoyulan investisiyanın məbləğinin və Azərbaycan Respublikasının banklarına qoyulan pul vəsaitinin məbləğinin müəyyən edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

"Miqrasiya idarəetmə sisteminin inkişafı və "Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına əlavələr və dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2008-ci il 24 iyun tarixli, 658-IIIQD nömrəli Qanununun tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 5 avqust tarixli, 805 nömrəli Fərmanının 4.6-cı və 4.7-ci bəndlərinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır:

1. "Əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikasında müvəqqəti yaşamaq üçün icazənin verilməsi Qaydaları" təsdiq edilsin (əlavə olunur).

2. Əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikasında müvəqqəti yaşamağa icazə verilməsi üçün əsas verən ölkə iqtisadiyyatına qoyulan investisiyanın minimum məbləği 500.000 (beş yüz min) manat müəyyən edilsin.

3. Əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikasında müvəqqəti yaşamağa icazə verilməsi üçün əsas verən Azərbaycan Respublikasının banklarına qoyulan pul vəsaitinin minimum məbləği 50.000 (əlli min) manat müəyyən edilsin.

4. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

A.RASİ-ZADƏ

Azərbaycan Respublikasının Baş naziri

Bakı şəhəri, 30 iyun 2009-cu il

№ 102

Əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikasında müvəqqəti yaşamaq üçün icazənin verilməsi Qaydaları

1. Bu Qaydalar "Miqrasiya idarəetmə sisteminin inkişafı və "Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına əlavələr və dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2008-ci il 24 iyun tarixli, 658-IIIQD nömrəli Qanununun tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 5 avqust tarixli, 805 nömrəli Fərmanının 4.7-ci bəndinin icrası ilə əlaqədar hazırlanmış və viza əsasında və ya viza tələb olunmayan qaydada Azərbaycan Respublikasına gəlmiş əcnəbilər və vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikasında müvəqqəti yaşamaq üçün icazənin verilməsi qaydasını müəyyən edir.

2. Viza əsasında və ya viza tələb olunmayan qaydada Azərbaycan Respublikasına gəlmiş, 18 yaşına çatmış əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə onların və ya qanuni nümayəndələrinin müraciəti əsasında qanunvericilikdə nəzərdə tutulmuş qaydada Azərbaycan Respublikasında müvəqqəti yaşamaq üçün icazə verilə bilər.

3. 14 yaşına çatmamış əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikasında müvəqqəti yaşamaq üçün icazə onların valideynlərinin, övladlığa götürənlərinin, qəyyumlarının və ya himayəçilərinin müraciəti əsasında, 14-17 yaşında olan əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə isə onların razılığı alınmaqla valideynlərinin, övladlığa götürənlərinin, qəyyumlarının və ya himayəçilərinin müraciəti əsasında verilə bilər.

4. Əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikasında müvəqqəti yaşamaq üçün icazə Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti tərəfindən verilir.

5. Əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikasında müvəqqəti yaşamaq üçün icazə aşağıdakı hallarda verilə bilər:

həmin şəxslər Azərbaycan Respublikası vətəndaşı ilə yaxın qohumluq münasibətlərində olduqda;

həmin şəxslər Azərbaycan Respublikası vətəndaşı ilə nikaha daxil olduqda;

həmin şəxslər ölkə iqtisadiyyatına Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilmiş məbləğdə investisiya qoyduqda;

həmin şəxslər Azərbaycan Respublikasının banklarına Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilmiş məbləğdə pul vəsaiti qoyduqda;

həmin şəxslər Azərbaycan Respublikasının ərazisində əmək fəaliyyəti ilə məşğul olmaq üçün qanunvericiliklə müəyyən edilmiş qaydada fərdi icazə aldıqda;

həmin şəxslər Azərbaycan Respublikasının təhsil müəssisələrində əyani təhsil aldıqda;

həmin şəxslər iqtisadiyyat, sənaye, müdafiə, elm, mədəniyyət, idman və digər sahələr üzrə yüksək səviyyəli mütəxəssis olduqda.

6. Aşağıdakı hallarda əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikasında müvəqqəti yaşamaq üçün icazə verilmir, əvvəl verilmiş icazə isə ləğv edilir:

onların Azərbaycan Respublikasında müvəqqəti yaşaması Azərbaycan Respublikasının milli təhlükəsizliyinə - dövlətin müstəqilliyinə, suverenliyinə, ərazi bütövlüyünə, konstitusiya quruluşuna, xalqın və ölkənin milli maraqlarına, insanın, cəmiyyətin və dövlətin hüquq və mənafelərinə və ya ictimai asayişə zərər vura biləcəyi hallarda;

həmin şəxslər Azərbaycan Respublikasında müvəqqəti yaşamaq üçün icazə almaq məqsədi ilə saxta sənədlər və ya yalan məlumatlar təqdim etdikdə;

onların şəxsiyyətini təsdiq edən sənədləri olmadıqda;

həmin şəxslər Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq edilən təhlükəli yoluxucu xəstəliklərin siyahısında nəzərdə tutulmuş xəstəlik virusu daşıyıcısı olduqda;

həmin şəxslər əvvəllər Azərbaycan Respublikasının hüdudlarından kənara çıxarıldıqda;

Azərbaycan Respublikasının ərazisində müvəqqəti yaşamağa icazə alınması üçün əsas olmuş Azərbaycan Respublikası vətəndaşı ilə bağlanmış nikah etibarsız hesab edildikdə;

onlar xarici dövlətdə daimi yaşamaq üçün Azərbaycan Respublikası ərazisini tərk etdikdə;

şəxsin Azərbaycan Respublikasında yaşaması arzuolunmaz hesab edildikdə.

7. Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasında müvəqqəti yaşamaq üçün icazə verilməsinə əsas olan hallar mövcud olduqda, Azərbaycan Respublikasının ərazisində müvəqqəti olma və ya müvəqqəti yaşamaq üçün icazənin müddətinin bitməsinə ən azı 22 (iyirmi iki) iş günü qalmış bu barədə icazə verilməsi üçün Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidmətinə müraciət etməlidirlər.

8. Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasında müvəqqəti yaşamaq üçün icazə verilməsi ilə əlaqədar Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidmətinə müraciət edərkən aşağıdakı sənədləri və məlumatları təqdim etməlidirlər:

müvəqqəti yaşamaq üçün icazə verilməsi barədə ərizə-anket - 1 ədəd (əlavə olunur);

əcnəbinin ölkə ərazisinə daxil olduğu pasportunun və ya onu əvəz edən sənədinin, vətəndaşlığı olmayan şəxsin şəxsiyyətini təsdiq edən sənədinin surəti;

müvəqqəti yaşamaq üçün icazənin verilməsinə əsas olan halların mövcudluğunu notarial və ya ona bərabər tutulan qaydada təsdiq edən sənəd;

əcnəbinin və vətəndaşlığı olmayan şəxsin sağlamlığı haqqında arayış;

əcnəbinin və ya vətəndaşlığı olmayan şəxsin Azərbaycan Respublikasının ərazisində müvəqqəti olmasına və ya yaşamasına hüquq verən müvafiq sənədin surəti;

biometrik identifikasiya tələblərinə uyğun əl-barmaq izləri və 3,5x4,5 ölçüdə üz təsviri Ç 2 ədəd;

14-17 yaşında olan uşaqların notarial qaydada təsdiq olunmuş yazılı razılığı;

yaşayış sahəsinə köçmək üçün əsas verən sənəd (mülkiyyət hüququnun dövlət qeydiyyatına alınması haqqında daşınmaz əmlakın dövlət reyestrindən çıxarış, order, icarə və ya kirayə müqaviləsi, yaxud Azərbaycan Respublikası qanunvericiliyində nəzərdə tutulmuş başqa sənəd) və ya əcnəbiyə və vətəndaşlığı olmayan şəxsə yaşayış sahəsi verən şəxsin ərizəsi;

dövlət rüsumunun ödənilməsi haqqında qəbz.

9. Əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikasının ərazisində müvəqqəti yaşamaq üçün icazələrin verilməsi ilə bağlı vəsatətlərə Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyinin rəyi nəzərə alınmaqla, 20 (iyirmi) iş günü ərzində Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti tərəfindən baxılır.

Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi Azərbaycan Respublikasında müvəqqəti yaşamaq üçün icazə verilməsi ilə bağlı müraciət etmiş əcnəbilər və vətəndaşlığı olmayan şəxslər haqqında 10 (on) iş günü ərzində Vahid Miqrasiya Məlumat Sistemi vasitəsilə rəy verir.

10. Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi tərəfindən 10 (on) iş günü ərzində müvafiq rəy bildirilmədikdə, bu əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikasında müvəqqəti yaşamaq üçün icazənin verilməsinə etiraz olunmadığı kimi qəbul edilir.

11. Əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikasında müvəqqəti yaşamaq üçün icazə verilməsi məsələsi həll edilərkən, hər bir konkret halda əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin ölkədə müvəqqəti yaşamaq üçün icazə almaları ilə bağlı təqdim olunan sənədlər və faktlar Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti tərəfindən araşdırılır.

12. Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidmətinə Azərbaycan Respublikasında müvəqqəti yaşamaq üçün icazənin verilməsi barədə müraciət etmiş əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin müraciətlərinin müsbət həll edilməsi və ya Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş hallarda imtina edilməsi əsaslandırılmalı və bu barədə əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə yazılı formada məlumat verilməlidir.

13. Əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikasında müvəqqəti yaşamaq üçün icazə verildikdə, həmin şəxslərə Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti tərəfindən Azərbaycan Respublikasının ərazisində müvəqqəti yaşamaq üçün icazə vəsiqəsi (bundan sonra - vəsiqə) verilir.

14. Azərbaycan Respublikasında müvəqqəti yaşamaq üçün icazə almış əcnəbilər və vətəndaşlığı olmayan şəxslər şəxsiyyətlərini təsdiq edən etibarlı sənədlər (pasport və ya vətəndaşlığı olmayan şəxsin şəxsiyyətini təsdiq edən müvafiq sənəd) və vəsiqə əsasında Azərbaycan Respublikasından gedə və Azərbaycan Respublikasına qayıda bilərlər.

15. Azərbaycan Respublikasında müvəqqəti yaşamaq üçün icazə 1 (bir) ilədək müddətə

verilir və müvafiq əsas olduqda, hər dəfə müddəti 1 (bir) ildən çox olmayaraq 4 (dörd) dəfə uzadıla bilər. Həmin icazənin müddəti uzadıldıqda, vəsiqə yenisi ilə əvəz edilir.

16. Azərbaycan Respublikasında müvəqqəti yaşamaq üçün icazənin müddətinin uzadılması ilə əlaqədar müraciət etmiş əcnəbilər və vətəndaşlığı olmayan şəxslər bu Qaydaların 8-ci bəndində nəzərdə tutulan sənədləri təqdim etməlidirlər.

17. Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin şəxsiyyətini təsdiq edən sənədlərindəki məlumatlar dəyişdikdə və ya vəsiqə itirildikdə, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər bu barədə 10 (on) iş günü müddətində Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidmətinə məlumat verməli və vəsiqənin yenidən rəsmiləşdirilməsi və ya ləğv edilməsi üçün ərizə təqdim etməlidirlər. Vəsiqə yenidən rəsmiləşdirildikdə, yalnız vəsiqənin yenidən rəsmiləşdirilməsi səbəbi ilə bağlı sənədlər təqdim edilir.

18. Azərbaycan Respublikasında müvəqqəti yaşamaq üçün icazənin müddəti əcnəbilərin pasportlarının və ya onu əvəz edən sənədlərinin, vətəndaşlığı olmayan şəxslərin isə şəxsiyyətini təsdiq edən sənədlərinin etibarlılıq müddətinin bitməsinə 6 (altı) aydan az vaxt qaldıqda uzadılmır.

19. Azərbaycan Respublikasının ərazisində müvəqqəti yaşamaq üçün icazə almış əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti tərəfindən yaşayış yeri üzrə qeydiyyata alınırlar.

20. Vəsiqənin müddəti bitənədək Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti tərəfindən Azərbaycan Respublikasının ərazisində müvəqqəti yaşamaq üçün icazənin müddəti uzadılmamışdırsa, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasının ərazisini tərk etməlidirlər.

21. Azərbaycan Respublikasının ərazisində müvəqqəti yaşamaq üçün icazə verilməsi ilə əlaqədar müraciət etmiş, Azərbaycan Respublikasında müvəqqəti yaşamaq üçün icazə almış və ya bu icazənin verilməsindən imtina edilmiş, o cümlədən Azərbaycan Respublikasında müvəqqəti yaşamaq üçün icazəsi ləğv edilmiş əcnəbilər və vətəndaşlığı olmayan şəxslər haqqında məlumatlar Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti tərəfindən vahid miqrasiya məlumat sisteminə daxil edilir və bu sistem vasitəsilə onların uçotu aparılır.

"Əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikasında müvəqqəti yaşamaq üçün icazənin verilməsi Qaydaları"na Əlavə

Ərizə-Anket
Application form

Xahiş edirəm, Azərbaycan Respublikasında müvəqqəti yaşamaq üçün icazə alınmasına dair müraciətimə baxasınız. Hereby I am asking you to take into consideration my appeal on getting permission for temporary residence in Azerbaijan Republic Aşağıdakı məlumatları bildirin: Give the following information:	Foto Photo

Suallar Questions	Cavablar Answers
1. Soyadı, adı və atasının adı (pasportda olduğu kimi (əgər soyadı, adı və ya atasının adı dəyişibsə, səbəblərini və əvvəlki adları göstərin) Surname, name and patronymic (as in the passport (if surname, name or patronymic has been changed, indicate the cause and previous names)	
2. Doğulduğu tarix (gün, ay, il) və yer (ölkə, şəhər) Date (day, month, year) and place of birth (country, city)	
3. Ailə vəziyyəti (nikahda, subay) Marital status (married, single)	
4. Pasportun və ya şəxsiyyəti təsdiq edən digər sənədin etibarlılıq müddəti (gün, ay, il), növü, nömrəsi və seriyası Validity period (day, month, year), type, number and series of passport or person's identity document	
5. Vətəndaşlıq mənsubiyyəti Citizenship	
6. Əvvəllər vətəndaşı olduğu ölkə (ölkələr) (ətraflı göstərin: harada, nə vaxt və hansı ölkənin vətəndaşı, hansı yolla qəbul edilmiş və niyə çıxmış) Previous citizenships (show in detail: where, when and which countries' citizen, way of admission to the I citizenship and reason for renunciation	
7. Azərbaycan Respublikasında müvəqqəti yaşamaq üçün icazə verilməsinə əsas olan hal Case giving base on granting permission for temporary residence in Azerbaijan Republic	
7.1. Azərbaycan Respublikasının vətəndaşı ilə yaxın qohumluğu; close relationship with the citizen of Azerbaijan Republic;	
7.2. Azərbaycan Respublikasının vətəndaşı ilə nikahda olması; to be married with the citizen of Azerbaijan Republic;	
7.3. Ölkə iqtisadiyyatına Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilmiş məbləğdə investisiya qoyması; to make investment in the economy of the country in the amount determined by the Cabinet of Ministers of Azerbaijan Republic;	
7.4. Azərbaycan Respublikasının bankına Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilmiş məbləğdə pul vəsaiti qoyması; to deposit money means to the banks of Azerbaijan Republic in the amount determined by the Cabinet of Ministers of Azerbaijan Republic;	
7.5. Azərbaycan Respublikasının ərazisində əmək fəaliyyəti ilə məşğul olmaq üçün fərdi icazə alması; to get work permit in order to be engaged with labour activity in the territory of Azerbaijan Republic;	

7.6. Azərbaycan Respublikasının təhsil müəssisələrində əyani təhsil alması; to get full-time education in the educational institutions of Azerbaijan Republic;
7.7. iqtisadiyyat, sənaye, müdafiə, elm, mədəniyyət, idman və digər sahələr üzrə yüksək səviyyəli mütəxəssis olması; to be high-level specialist in the spheres of economy, industry, defense, science, culture, sport and in the other spheres;
8. Azərbaycan Respublikasında yaşayan yaxın qohumları (arvad, ər, valideynlər, uşaqlar, qardaş və bacılar) Close relatives living in Azerbaijan Republic (wife, husband, parents, children, brothers and sisters)

Qohumluq dərəcələri Relationship degrees	Soyadı, adı Surname, name	Doğulduğu yer və tarix Place and date of birth	Milliyyəti Nationality	Vətəndaşlığı Citizenship	İş yeri və vəzifəsi Work place and position	Daimi yaşadığı ölkə və ünvan Permanent residing country and address

Suallar Questions	Cavablar Answers
9. Yaşayış yerinin dəqiq ünvanı və telefon nömrələri (ev, mobil və iş) Full address of the place of residence and phone numbers (home, mobile and work	
10. Azərbaycan Respublikasında müvəqqəti yaşamağa icazə almaq istədiyi yetkinlik yaşına çatmayan uşaqları Under age children whom applicant willing to get permission for temporary residence in Azerbaijan Republic	

Oğul, qız Son, daughter	Soyadı, adı və atasının adı Surname, name and patronymic	Doğum ili və ayı Date of birth (year, month)	Doğum yeri Place of birth	Qeyd Note

11. Ərizə-anketi doldurdu Application filled by	Şəxs özü Person himself	Qanuni nümayəndə Legal representative
12. Qanuni nümayəndə haqqında məlumat Information about legal representative		

12.1. Soyadı, adı, atasının adı Surname, name, patronymic	
12.2. Yaşayış yerinin dəqiq ünvanı və telefon nömrələri (ev, mobil və iş) Full address of the place of residence and phone numbers (home, mobile and work)	
13. Ərizəyə əlavə edilən sənədlərin siyahısı List of documents appended to the application	
Mən xəbərdar edilmişəm ki, Azərbaycan Respublikası ərazisində müvəqqəti yaşamaq üçün icazənin verilməsi üçün zəruri olan məlumatların qəsdən saxtalaşdırılması və ya saxta sənəd təqdim edilməsi Azərbaycan Respublikasında müvəqqəti yaşamaq üçün icazə vəsiqəsinin ləğv edilməsinə səbəb ola bilər. I am aware that deliberate falsification of needed information for granting permission for temporary reside in the Republic of Azerbaijan or submission of false documents will lead to annulation of the permission card for temporary reside in the Republic of Azerbaijan.	
"___" _____ 20____ il (date)	Ərizəni dolduran şəxsin imzası _____ Signature of person filling the application
Ərizə-anketi və orada göstərilmiş sənədləri qəbul edən və sənədlərin düzgün doldurulmasını yoxlayan əməkdaşın soyadı, adı və onun imzası Surname, name and signature of official accepted application and the appended documents and checked their accuracy "___" _____ 20____ il (date)	

"Azərbaycan Respublikası diplomatik xidmət orqanlarının 90 illiyi (1919-2009)" Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı

"Azərbaycan Respublikası diplomatik xidmət orqanlarının 90 illiyi (1919-2009)" Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının 2009-cu il 30 iyun tarixli 850-IIIQ nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiq edilməsini təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bir ay müddətində:

1.1. qüvvədə olan qanunvericilik aktlarının "Azərbaycan Respublikası diplomatik xidmət orqanlarının 90 illiyi (1919-2009)" Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması barədə təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin və müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. öz səlahiyyətləri daxilində "Azərbaycan Respublikası diplomatik xidmət orqanlarının 90 illiyi (1919-2009)" Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanunundan irəli gələn digər məsələləri həll etsin.

2. Müəyyən edilsin ki, Azərbaycan Respublikasının 2009-cu il 30 iyun tarixli 850-IIIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikası diplomatik xidmət orqanlarının 90 illiyi (1919-2009)" Azərbaycan Respublikasının yubiley medalı haqqında Əsasnamə"nin 2-ci bəndində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi həyata keçirir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 6 iyul 2009-cu il.

№ 117

"Diplomatik xidmətdə fərqlənməyə görə" medalının təsis edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

"Diplomatik xidmətdə fərqlənməyə görə" medalının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının 2009-cu il 30 iyun tarixli 849-IIIQ nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiq edilməsini təmin etmək məqsədi ilə qərara alıram:

Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bir ay müddətində:

qüvvədə olan qanunvericilik aktlarının "Diplomatik xidmətdə fərqlənməyə görə" medalının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması barədə təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

Azərbaycan Respublikası Nazirlər Kabinetinin və müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

öz səlahiyyətləri daxilində "Diplomatik xidmətdə fərqlənməyə görə" medalının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanunundan irəli gələn digər məsələləri həll etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 6 iyul 2009-cu il.

№ 369

"Azərbaycan Respublikası Hökuməti ilə Avropa Birliyi arasında hava xidmətlərinin müəyyən aspektlərinə dair Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti ilə Avropa Birliyi arasında hava xidmətlərinin müəyyən aspektlərinə dair Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikası Dövlət Mülki Aviasiya Administrasiyasının direktoru Arif Əhməd oğlu Məmmədova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikası Dövlət Mülki Aviasiya Administrasiyasının direktoru Arif Əhməd oğlu Məmmədova verilməsi barədə Avropa Birliyinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 6 iyul 2009-cu il

№ 370

"Zaqatala" hava limanına beynəlxalq status verilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Sərəncamı

1. Azərbaycan Respublikasının Dövlət Mülkü Aviasiya Administrasiyasının təklifini, nəzərə alaraq, tikintisi başa çatdırılmış beynəlxalq uçuşları yerinə yetirmək üçün müvafiq standartlara cavab verən "Zaqatala" hava limanına beynəlxalq status verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, "Lənkəran" hava limanına beynəlxalq status verilməsi ilə bağlı müvafiq beynəlxalq təşkilatlara məlumat versin.

3. Bu sərəncam imzalandığı gündən qüvvəyə minir.

A.RASİ-ZADƏ

Azərbaycan Respublikasının Baş naziri

Bakı şəhəri, 7 iyul 2009-cu il

№ 158s

"Lənkəran" hava limanına beynəlxalq status verilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Sərəncamı

1. Azərbaycan Respublikasının Dövlət Mülkü Aviasiya Administrasiyasının təklifini, nəzərə alaraq, tikintisi başa çatdırılmış beynəlxalq uçuşları yerinə yetirmək üçün müvafiq standartlara cavab verən "Lənkəran" hava limanına beynəlxalq status verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, "Lənkəran" hava limanına beynəlxalq status verilməsi ilə bağlı müvafiq beynəlxalq təşkilatlara məlumat versin.

3. Bu sərəncam imzalandığı gündən qüvvəyə minir.

A.RASİ-ZADƏ

Azərbaycan Respublikasının Baş naziri

Bakı şəhəri, 7 iyul 2009-cu il

№ 161s

"Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi və Kuba Respublikasının İdman, Fiziki Tərbiyə və İstirahət Milli İnstitutu (Təşkilatı) arasında bədən tərbiyəsi və idman sahəsində əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi və Kuba Respublikasının İdman, Fiziki Tərbiyə və İstirahət Milli İnstitutu (Təşkilatı) arasında bədən tərbiyəsi və idman sahəsində əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının gənclər və idman naziri Azad Arif oğlu Rəhimova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının gənclər və idman naziri Azad Arif oğlu Rəhimova verilməsi barədə Kuba Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 16 iyul 2009-cu il

№ 375

"Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında "Qəbələ radiolokasiya stansiyasının (RLS "Daryal") statusu, istifadəsinin prinsipləri və şərtləri haqqında" Sazişin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Qanununun icrasını təmin etmək haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 11 sentyabr tarixli, 1039 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında "Qəbələ radiolokasiya stansiyasının (RLS "Daryal") statusu, istifadəsinin prinsipləri və şərtləri haqqında" Sazişin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Qanununun icrasını təmin etmək haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 11 sentyabr tarixli, 1039 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, № 9, maddə 569) 1-ci bəndi aşağıdakı redaksiyada verilsin:

> "1. "Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında "Qəbələ radiolokasiya stansiyasının (RLS "Daryal") statusu, istifadəsinin prinsipləri və şərtləri haqqında" Sazişin icrası və informasiya-analitik mərkəzində olan heyətlə bağlı məsələlərin tənzimlənməsi üçün Azərbaycan Respublikası tərəfindən səlahiyyətli nümayəndə general-mayor Altay Ramazan oğlu Mehdiyev təyin edilsin.".

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən məsələyə dair Azərbaycan Respublikası adından səlahiyyətli nümayəndə general-mayor Altay Ramazan oğlu Mehdiyevin təyin edilməsi barədə Rusiya Federasiyasına bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 16 iyul 2009-cu il

№ 378

Birləşmiş Millətlər Təşkilatının İrqi ayrı-seçkiliyin ləğv edilməsi üzrə Komitəsinin 75-ci sessiyasında "İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Beynəlxalq Konvensiya" üzrə Azərbaycan Respublikasının beşinci və altıncı dövri məruzələrinə baxılması ilə əlaqədar Azərbaycan Respublikasını təmsil edəcək nümayəndə heyətinin tərkibi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Birləşmiş Millətlər Təşkilatının İrqi ayrı-seçkiliyin ləğv edilməsi üzrə Komitəsinin 75-ci sessiyası çərçivəsində BMT-nin Baş Məclisinin 2106A (XX) nömrəli 1965-ci il 21 dekabr tarixli Qətnaməsi ilə qəbul edilmiş "İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Beynəlxalq Konvensiya" üzrə Azərbaycan Respublikası Hökumətinin beşinci və altıncı dövri məruzələrinə baxılması ilə əlaqədar Azərbaycan Respublikasını təmsil edəcək nümayəndə heyəti aşağıdakı tərkibdə müəyyən edilsin:

Xələf Xələfov	- Azərbaycan Respublikası xarici işlər nazirinin müavini, nümayəndə heyətinin rəhbəri
Oruc Zalov	- Azərbaycan Respublikası daxili işlər nazirinin müavini
Əli Şəfiyev	- Azərbaycan Respublikası milli təhlükəsizlik nazirinin müavini
Toğrul Musayev	- Azərbaycan Respublikası ədliyyə nazirinin müavini
Rüstəm Usubov	- Azərbaycan Respublikası Baş prokurorunun birinci müavini
Sevda Məmmədəliyeva	- Azərbaycan Respublikası mədəniyyət və turizm nazirinin müavini
Elmar Qasımov	- Azərbaycan Respublikası təhsil nazirinin müavini

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 20 iyul 2009-cu il

№ 387

2007-ci il mayın 25-də Yalta şəhərində imzalanmış "Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin bədən tərbiyəsi və idman sahəsində əməkdaşlığı haqqında Saziş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2007-ci il mayın 25-də Yalta şəhərində imzalanmış "Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin bədən tərbiyəsi və idman sahəsində əməkdaşlığı haqqında Saziş" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişin həyata keçirilməsi üçün zəruri tədbirlər görsün.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Müstəqil Dövlətlər Birliyinin İcraiyyə Komitəsini xəbərdar etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 22 iyul 2009-cu il

№ 405

Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin bədən tərbiyəsi və idman sahəsində əməkdaşlığı haqqında Saziş

Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlər, hökumətləri qismində, bundan sonra - Tərəflər,

hər bir insanın bədən tərbiyəsi və idmanla məşğul olmaq hüququndan və bu hüququn həyata keçirilməsində dövlətin məsuliyyətindən çıxış edərək,

Birlik ölkələrinin xalqları arasında ənənəvi olaraq bərqərar olunmuş əlaqələri və bu əlaqələrin qorunub-saxlanmasında özlərinin qarşılıqlı maraqlarını nəzərə alaraq,

Tərəflərin beynəlxalq idman əlaqələrini genişləndirmək və möhkəmləndirmək səylərini ifadə edərək,

Tərəflərin bədən tərbiyəsi və idman sahəsində hüquq bərabərliyi və qarşılıqlı hörmət prinsiplərinə əsaslanan münasibətləri genişləndirmək və təkmilləşdirmək arzusunu təsdiqləyərək,

Tərəflərin bədən tərbiyəsi və idman üzrə dövlət orqanları, milli olimpiya komitələri, beynəlxalq, regional və digər bədən tərbiyəsi - idman təşkilatları arasında geniş əməkdaşlıq vasitəsi ilə bu əlaqələri inkişaf etdirməyi arzu edərək,

bədən tərbiyəsi və idman sahəsində birgə proqram və layihələrin həyata, keçirilməsi üçün Tərəflərin əməkdaşlıq mexanizmini qurmaq zərurətini dərk edərək,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər öz dövlət orqanları, milli olimpiya komitələri, milli idman - federasiyaları (ittifaqları, assosiasiyaları), beynəlxalq, regional və digər bədən tərbiyəsi - idman təşkilatları və birliklərinin xətti ilə bədən tərbiyəsi və idman sahəsində əməkdaşlığın inkişafına yardım edir, onların bədən tərbiyəsi, idman və olimpiya hərəkatının səmərəli inkişafına yönəlmiş təşəbbüslərini dəstəkləyirlər.

Maddə 2

Bu Sazişin həyata keçirilməsi məqsədilə Tərəflər Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin bədən tərbiyəsi və idman sahəsində əməkdaşlığı haqqında Saziş iştirakçılarının Bədən Tərbiyəsi və İdman Şurasını (bundan sonra - Şura) yaradırlar. Şura bu Sazişin ayrılmaz hissəsi olan Əsasnaməyə müvafiq fəaliyyət göstərir.

Maddə 3

Tərəflər milli olimpiya komitələrinə dəstək verməklə, olimpiya hərəkatının inkişafı üçün əlverişli şərait yaradırlar.

Maddə 4

Tərəflər sağlam həyat tərzini və idman nailiyyətlərini təbliğ edən məlumatların mübadiləsinə və öz ərazilərində yayılmasına kömək edirlər.

Maddə 5

Tərəflər əhalinin müxtəlif təbəqələri arasında kütləvi bədən tərbiyəsi - sağlamlıq və idman tədbirlərinin inkişaf etdirilməsi və keçirilməsi üzrə razılaşdırılmış tədbirlər görürlər.

Maddə 6

Tərəflər əhalinin bədən tərbiyəsi və idman vasitəsilə sağlamlaşdırılması üzrə milli proqramların hazırlanmasına və həyata keçirilməsinə qarşılıqlı olaraq yardım göstərirlər.

Maddə 7

Tərəflər bədən tərbiyəsi və idman sahəsində elmi tədqiqat bazalarının yaradılmasına və fəaliyyətin elmi-metodiki və tibbi təminatı sisteminin təkmilləşdirilməsinə qarşılıqlı olaraq yardım edirlər.

Maddə 8

Tərəflər kütləvi bədən tərbiyəsi - sağlamlıq tədbirlərinin keçirilməsi, Olimpiya oyunlarına, dünya çempionatlarına, digər böyük idman yarışlarına hazırlıq üçün maddi idman bazasında birgə istifadə olunması məqsədilə onun inkişafında və gücləndirilməsində qarşılıqlı olaraq iştirak edirlər.

Maddə 9

Tərəflər bədən tərbiyəsi və idman sahəsində tərəfdaşlıq əlaqələrinin dəstəklənməsinə və inkişafına, bu əlaqələrin elmi və tibbi təminatına, müqavilə şərtləri ilə mütəxəssislərin hazırlanmasına, şagird, tələbə, aspirant və stajçıların mübadiləsinə kömək edirlər.

Maddə 10

Tərəflər bədən tərbiyəsi və idman sahəsində birgə elmi tədqiqatlar aparır, məlumat və sənəd mübadiləsini həyata keçirirlər.

Maddə 11

Tərəflər kütləvi bədən tərbiyəsinin, yüksək nailiyyətlər idmanının, olimpiya hərəkatının, uşaq və yeniyetmə idmanının və əlil idmanının inkişafı, elmi, tibbi və informasiya təminatı, mütəxəssislər hazırlanması məsələlərinə dair müntəzəm məsləhətləşmələr aparır, birgə elmi-praktik konfrans və sərgilər, seminar və simpoziumlar keçirir, təcrübə mübadiləsinin digər formalarından istifadə edirlər.

Maddə 12

Tərəflər bu Sazişin həyata keçirilməsi haqqında məlumatların mütəmadi mübadiləsini həyata keçirirlər.

Maddə 13

Bu Sazişin müddəalarının təfsiri və tətbiqindən meydana çıxan mübahisələr Tərəflər arasında məsləhətləşmələr və danışıqlar yolu ilə həll edilir.

Maddə 14

Bu Sazişin müddəaları Tərəflərin iştirakçısı olduqları digər beynəlxalq müqavilələrdən irəli gələn hüquq və öhdəliklərinə toxunmur.

Maddə 15

bu Saziş onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurları onu imzalamış Tərəflərin yerinə yetirdikləri haqqında üçüncü bildirişin depozitariyə verildiyi tarixdən qüvvəyə minir.

Dövlətdaxili prosedurları daha sonra yerinə yetirmiş Tərəflər üçün Saziş müvafiq bildirişin depozitariyə verilməsi tarixindən qüvvəyə minir.

Maddə 16

Tərəflərin qarşılıqlı razılığı əsasında bu Sazişə onun ayrılmaz hissəsi olan və 15-ci maddəsində nəzərdə tutulmuş qaydada qüvvəyə minən ayrıca protokollarla rəsmiləşdirilən əlavə və dəyişikliklər edilə bilər.

Maddə 17

Bu Saziş Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan hər hansı dövlətin qoşulması üçün açıqdır və qoşulma haqqında sənədin depozitari tərəfindən alınması tarixindən qüvvəyə minir.

Müstəqil Dövlətlər Birliyinə daxil olmayan və bu Sazişin müddəaları ilə razılaşan dövlətlər üçün qoşulma o zaman qüvvəyə minmiş hesab olunur ki, depozitarinin müvafiq bildiriş göndərməsindən sonra üç ay müddətində Tərəflərdən heç biri etiraz göndərməmiş olsun.

Maddə 18

Bu Saziş onun qüvvəyə minməsindən sonra beş il müddətində qüvvədədir. Bu müddət bitdikdə, Tərəflər başqa qərar qəbul etməzsə, Saziş avtomatik olaraq hər dəfə beş illik müddətə uzadılır.

Maddə 19

Hər bir Tərəf bu Sazişdən çıxması tarixinə azı altı ay qalmış depozitariyə bildiriş göndərməklə həmin Sazişdən çıxa bilər.

Yalta şəhərində 2007-ci il mayın 25-də rus dilində olan bir əsl nüsxədə imzalanmışdır. Əsl nüsxə Müstəqil Dövlətlər Birliyinin İcraiyyə Komitəsində saxlanılır və İcraiyyə Komitəsi həmin Sazişi imzalamış hər bir dövlətə onun təsdiq olunmuş nüsxəsini göndərəcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI ADINDAN

(imza)

ERMƏNİSTAN RESPUBLİKASI ADINDAN

(imza)

BELARUS RESPUBLİKASI ADINDAN

(imza)

GÜRCÜSTAN ADINDAN

(imza)

QAZAXISTAN RESPUBLİKASI ADINDAN

(imza)

QIRĞIZ RESPUBLİKASI ADINDAN

(imza)

MOLDOVA RESPUBLİKASI ADINDAN

(imza) (qeyd-şərtlə)

RUSİYA FEDERASİYASI ADINDAN

(imza)

TACİKİSTAN RESPUBLİKASI ADINDAN

(imza)

TÜRKMƏNİSTAN ADINDAN

(imza)

ÖZBƏKİSTAN RESPUBLİKASI ADINDAN

(imza yoxdur)

UKRAYNA ADINDAN

(imza)

2008-ci il noyabrın 28-də Aşqabad şəhərində imzalanmış "Bakı (Azərbaycan Respublikası) və Türkmənbaşı (Türkmənistan) limanları vasitəsilə beynəlxalq birbaşa dəmir yolu - bərə əlaqələrində yüklərin daşınmasının təşkili, yük vaqonlarının və konteynerlərin istismarı, nömrələr üzrə uçotu və onlardan istifadəyə görə hesablaşmalar haqqında Saziş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2008-ci il noyabrın 28-də Aşqabad şəhərində imzalanmış "Bakı (Azərbaycan Respublikası) və Türkmənbaşı (Türkmənistan) limanları vasitəsilə beynəlxalq birbaşa dəmir yolu - bərə əlaqələrində yüklərin daşınmasının təşkili, yük vaqonlarının və konteynerlərin istismarı, nömrələr üzrə uçotu və onlardan istifadəyə görə hesablaşmalar haqqında Saziş" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişin həyata keçirilməsi üçün zəruri tədbirlər görsün.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Türkmənistan tərəfini xəbərdar etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 22 iyul 2009-cu il

№ 406

Bakı (Azərbaycan Respublikası) və Türkmənbaşı (Türkmənistan) limanları vasitəsi ilə beynəlxalq birbaşa dəmir yolu-bərə əlaqələrində yüklərin daşınmasının təşkili, yük vaqonlarının və konteynerlərin istismarı, nömrələr üzrə uçotu və onlardan istifadəyə görə hesablaşmalar haqqında Saziş

Bundan sonra Tərəflər adlandırılacaq Azərbaycan Dövlət Dəmir Yolu (ADDY), Azərbaycan Dövlət Xəzər Dəniz Gəmiçiliyi (ADXDG), Bakı Beynəlxalq Dəniz Ticarət Limanı (BBDTL), Türkmənistan Dəmir Yolu Nazirliyi (TDYN), "Türkməndənizdəryayolları" İdarəsi (TDDYİ), Türkmənbaşı Beynəlxalq Dəniz Limanı (TBDL),

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

1.1. Hazırkı Sazişə uyğun olaraq, Bakı (Azərbaycan Respublikası) və Türkmənbaşı (Türkmənistan) limanları vasitəsi ilə beynəlxalq dəmir yolu-bərə əlaqələrində yüklərin daşınmasının təşkili, yük vaqonlarının, konteynerlərin istismarı, onlardan istifadəyə görə qarşılıqlı hesablaşmalarla əlaqədar Tərəflərin qarşılıqlı münasibətləri (bundan sonra - "bərə keçidi vasitəsi ilə daşımalar") tənzimlənir.

1.2. Tərəflər, hazırkı Sazişə uyğun olaraq, bərə keçidi vasitəsi ilə daşımaları, göndərmə və təyinat stansiyaları Tərəflərin dövlətlərinin, həmçinin "Beynəlxalq Yük Daşımaları haqqında Saziş"in (bundan sonra - BYDS) digər iştirakçı-dövlətlərinin ərazilərində yerləşdiyi hallarda həyata keçirirlər.

1.3. Hazırkı Sazişə uyğun olaraq, bərə keçidi vasitəsi ilə daşımalar yükün keçdiyi bütün yol üçün rəsmiləşdirilmiş vahid daşıma sənədi - BYDS qaiməsi üzrə həyata keçirilir.

1.4. Bərə keçidi vasitəsi ilə xüsusi şəraitlərdə yük daşımaları yükgöndərən və yükü yola salan dəmir yolu arasında bağlanmış müqavilələri (BYDS) əsasında həyata keçirilir.

Belə müqavilələrin bağlanması zamanı, göndərən dəmir yolu, bir yük göndərənin maraqlarına digəri qarşısında hər hansı bir formada üstünlük verilməsinə, onların məhdudlaşdırılmasına və ya onlara toxunulmasına yol verməməlidir.

1.5. Əgər hazırkı Sazişdə başqa hal nəzərdə tutulmayıbsa, Tərəflər BYDS-in, BYDS-in Tətbiqi Xüsusiyyətlərinin (BYDS TX), Dəmir Yolu Şurası çərçivəsində qəbul edilmiş normativ sənədlərin, Tərəflər arasında bağlanmış ikitərəfli müqavilə və sazişlərin və Tərəflərin milli qanunvericiliklərinin müvafiq müddəalarını tətbiq edirlər.

1.6. Hazırkı Sazişdə "dəmir yolu" anlayışı, analoji olaraq, BYDS-də qarşılıqlı əlaqə subyektlərinə münasibətdə tətbiq olunan anlamda istifadə olunur.

Maddə 2

2.1. Bakı-Türkmənbaşı limanları vasitəsi ilə birbaşa beynəlxalq dəmir yolu - bərə əlaqələrində dövriyyəyə, "Digər ölkələrin mülkiyyəti olan yük vaqonlarının istismarı, nömrələr üzrə uçotu və onlardan istifadəyə görə hesablaşma Qaydaları"nın (Qaydalar) tələblərinə cavab verən yük vaqonları buraxılır.

2.2. Bərə keçidi vasitəsi ilə yüklərin daşınmasına, daşıma sifarişi, daşıma sənədləri və ya daşıma razılaşmasında belə vaqonların yükgöndərən (və ya onun mülkiyyətçisi) tərəfindən bərə keçidindən yüklərin daşınması məqsədilə verildiyi qeyd edilən halda, BYDS üzv-dövlətlərinin və üçüncü dövlətlərin hüquqi və fiziki şəxslərinə mülkiyyət hüququna əsasən məxsus olan yük vaqonları buraxılır.

2.3. Bərə keçidi ilə dövriyyəyə buraxılan yük vaqonları "Digər ölkələrin mülkiyyətində olan yük vaqonlarının istismarı, nömrələr üzrə uçotu və onlardan istifadəyə görə hesablaşma Qaydaları"nın 2-ci bəndində və Digər dövlətlərə məxsus yük vaqonlarında istifadəyə, nömrələr üzrə uçotu və istismar Qaydalarının 3 №-li Əlavəsində, eləcə də MDB üzv-dövlətlərinin, Latviya Respublikasının, Litva Respublikasının və Estoniya Respublikasının dəmir yolu administrasiyaları üçün məcburi olan digər normativ sənədlərdə nəzərdə tutulmuş texniki şərtlərə cavab verməlidirlər.

2.4. Bərə keçidi vasitəsi ilə yüklərin daşınmasına, İSO standartlarına cavab verən, Konteynerlər üzrə Beynəlxalq Büroda (KBB) qeydiyyata alınmış markalı kodlarla və "Təhlükəsiz Konteynerlər üzrə Beynəlxalq Konvensiya"nın (TKBK) və 1972-ci il, "Konteynerlərə dair Gömrük Konvensiyası"nın (KGK) lövhəcikləri ilə təchiz olunmuş konteynerlər buraxılır.

2.5. Göstərilən beynəlxalq dəmir yolu - bərə əlaqələrində hərəkət edən vaqonlarda oxa düşən yüklənmə 23,5 t-dan artıq olmamalı və vaqonların koleyası 1520 mm olmalıdır.

2.6. Bərə keçidi ilə yüklənmiş vəziyyətdə keçən vaqonların və konteynerlərin boş vəziyyətdə geri qaytarılması bir qarda olaraq həmin bərə keçidi ilə həyata keçirilməlidir.

2.7 Tərəflərin razılaşmalarına uyğun olaraq bərə keçidindən boş vaqonlar və konteynerlər qeydiyyat qaydası ilə yola salına bilər.

Maddə 3

3.1 Yük göndərən hər yola salınma üçün BYDS-nin fakturasının 7-ci sütununda yükün keçməli olduğu Bakı (Azərbaycan Respublikası) və Türkmənbaşı-1 (Türkmənistan) stansiyaları göstərilməklə BYDS-ya Əlavə 12.1 və ya 12.2-yə uyğun forma üzrə faktura tərtib edilməlidir. Faktura BYDS-ya Əlavə 12.5-ə və BYDS TX-nın 3 Əlavəsinin 1 və 2 bölməsində şərh edilmiş əlavə göstərişlərə uyğun doldurulmalıdır.

3.2. Gəmi sahibi ilə müqaviləsi olan ekspeditor təşkilatı ilə daşınmanın yolun dəniz hissəsi üzrə ödənilməsində "Yük göndərənin xüsusi nişanı"nın 4-cü sütununda qeyd edilir: "Bərə üçün, o cümlədən Bakı limanında bərə körpüsündən keçilməsi üçün ödəniş (ekspeditor təşkilatının qısaldılmış adı)".

BYDS-ya Əlavə 12.3 və 12.4-ə uyğun forma üzrə yol məlumatının lazım olan sayda nüsxəsi qaiməyə əlavə edilir, o cümlədən:

- göndərən dəmir yolları üçün 2 nüsxə;

- gəmiçilik müəssisələri üçün 1 nüsxə;

- tranzit dəmir yolu vasitəsilə daşıma prosesinin hər bir iştirakçısı üçün 1 nüsxə;

3.2. Bütün yüklər, yüklərin uyğunlaşdırılmış nomenklaturasına uyğun adlandırılmalıdır.

Maddə 4

Vaqon və konteynerlərin plomblaşdırılması BYDS-nin 9-cu maddəsinə və MDB dövlətləri, Latviya Respublikasının, Litva Respublikasının və Estoniya Respublikasının dəmir yolları ilə yüklərin vaqon və konteynerlər vasitəsilə daşınması zamanı kilidləmə-plomb mexanizmlərinin tətbiqi Qaydalarına uyğun olaraq həyata keçirilir.

Maddə 5

5.1. Vaqon və yüklərin təhvil-təslim prosesini həyata keçirən ADXDG, ADDY və TDYN, gələcəkdə "təhvil verən tərəf" və ya "qəbul edən tərəf" kimi adlandırılacaq.

5.2. Boş vaqonların bərə ilə daşınması təslim siyahısı vasitəsilə aparılır. Özəl boş vaqonların daşınması BYDS, ixtisaslaşdırılmış ümumi dəmir yolu parkı (çən, mineral daşıyıcısı, sement daşıyıcısı və s.) isə göndərilmə qaimələri ilə aparılır.

Boş və yüklənmiş konteynerlərin daşınması BYDS qaiməsinə uyğun aparılır.

5.3. Təslim prosesinə təqdim edilmiş boş vaqonlar daşınan yüklərin qalıqlarından və bərkitmə elementlərindən azad olunmalıdır hərəkət heyətinin özünün bərkitmə elementləri istisna olmaqla lazımi hallarda isə yuyulub dezinfeksiya edilməlidir.

5.4. Vaqonların təhvil-təslim yerinə çatdırılması ilə eyni vaxtda təhvil verən tərəf qəbul edən tərəfə daşıma sənədlərini qatar təslim siyahısı ilə birlikdə verir. Təslim siyahılarının bütün nüsxələri qəbul və təhvil verən tərəflərin səlahiyyətli nümayəndələri tərəfindən, təqvim möhürü qoyulmaqla, təslim vaxtı və tarixi mütləq göstərilməklə imzalanır.

5.5. Qəbul edən tərəf yükün qəbul edilməsindən aşağıdakı hallarda imtina edə bilər, əgər:

5.5.1. Yükün bərkidilməsi, qablaşdırılması, vəziyyəti və ya yüklənməsi üsulu, eləcədə, vaqonun, konteynerin vəziyyəti onun daşınmasına imkan vermirsə;

5.5.2. Yük, daşınmasına icazə verilməyən yüklər sırasına daxildirsə;

5.5.3. Yükləmə bütün maraqlı tərəflərə bəyan edilmiş konvension qadağa zamanı həyata keçirilirsə;

5.5.4. Yolasalan dəmir yolu və ya göndərən tərəfindən hazırkı Sazişin 4-cü maddəsinə uyğun olaraq həmin yükün xüsusi daşınma şərtlərinə riayət edilməmişdir (məsələn, yükün ağırlıq mərkəzi göstərilməmişdir, təhlükəli yüklərin daşınması qaydalarına əməl olunmamışdır, qaimədə yüklərin daşınmasının razılaşdırılması barədə müvafiq qeyd edilməmişdir və s.);

5.5.5. Yük daşıma sənədləri olmadan, nömrəsi silinmiş vaqonlarda gəlmişdir və ya sənəd yüksüz gəlmişdir;

5.5.6. Yük göndərən tərəfindən qaiməyə əlavə edilmiş müşayiətedici sənədlərin və ya onların bir qismi olmadan gəlmişdir, hansı ki onlarsız yükün gələcək daşınması mümkün deyildir.

Yerlərin miqdarını saymaq və yükün vəziyyətini yoxlamaq mümkün olmadıqda, təslim cədvəlinin "Qeydlər" qrafasında qeyd edilir: "Yerlərin sayılması və ya yükün vəziyyətinin yoxlanılması yükün sortlaşdırılması və ya boşaldılması zamanı yerinə yetiriləcəkdir"; bu qeyd təhvil verən və təhvil alan tərəflərin işçilərinin imzaları və təqvim möhürləri ilə təsdiq olunmalıdır.

5.5.7. Daşıma üçün həyata keçirilməyən xüsusi razılaşma tələb olunur.

5.5.8. Təhvil verən tərəf kommersiya aktlarını tərtib etməkdən DBYS z1-də maddə 18 və bənd 18.1 DBYS Xidməti təlimatında göstərilən şərtlərdə imtina edir.

5.5.9. Təhvil verən tərəf nasaz plombun və ya bərkimə-plomblama qurğusunun əvəz edilməsindən və yaxud yerlərin sayını və yükün kütləsinin yoxlayaraq yükün təslim edilməsindən imtina edir.

5.5.10. Yüklərin nişanlanması qaimədə göstərilən nişanlamaya uyğun gəlmir.

5.5.11. Daşıma sənədlərində göstərilməyib:

a) bərədə yüklərin daşınması üzrə ödəyən;

b) tranzit dəmir yolu vasitəsilə gedən daşımaların ödənməsi haqqında müvafiq qeydlər (ekspeditor təşkilatı və onun kodu) və ya qəbul edən tranzit dəmir yolu daşımaları üzrə ödəyicisi qismində onunla müqaviləsi olmayan ekspeditor təşkilatı göstərilmişdir;

v) tələblərinə uyğun yükün yerləşdirildiyi və bərkidildiyi "Yüklərin yerləşdirilməsi və bərkidilməsinin texniki şərtləri"nin fəsil və paraqrafları;

q) daşıma sənədlərində nasaz plombların (bərkimə-plomblama qurğusunun) dəyişdirilməsi və ya yenilərinin aktsız qoyulması barədə qeydlər göstərilməmişdir.

5.5.12. Qaimənin 20-ci sütununda hazırkı göndərişin ödəyicisinin qismində göstərilən ekspeditor təşkilatı ilə müqavilənin ləğv edilməsi və ya dayandırılması barədə teleqramın qəbul edən dəmir yolu administrasiyası tərəfindən digər dəmir yolu

administrasiyalarına göndərildiyi gündən 7 sutka keçdikdən sonra təqvim möhürünə (ştempel) görə göndərmə dəmir yolu stansiyası yükü qəbul edilmişdir.

5.5.13. İcarəyə verilmiş boş və ya özəl vaqonlar daşıma sənədləri olmadan hərəkət edirlər.

5.5.14. Tənzimləmə qaydasında göndərilmə qaiməsi olmadan və yaxud onlar tələb olunan qaydalar pozulmaqla rəsmiləşdirilmiş və mülkiyyətçi dəmir yoluna qaytarılmış ixtisaslaşdırılmış saz vəziyyətdə olan boş hərəkət heyəti.

5.6. Təhvil verən tərəfin yükün qəbul edilməməsinin səbəblərini aradan qaldırılmadığı halda qəbul edən tərəf yükü təhvil verən tərəfə qaytara bilər.

Əgər təhvil verən tərəf yükü geri qəbul etmirsə, onda yükün qəbul edilməməsi ilə bağlı bütün məsuliyyət (yükün xarab olması, vaqonların boş dayanması və s.) təhvil verən tərəfin üstünə düşür.

Qəbul edən tərəf yükün çatdırılması müddətinə görə məsuliyyət təqvim günlərinin 00 saatından və ilk təqvim möhürü vurulan andan etibarən daşıyır.

Bütün sənədlərdə möhür, qeyd olunmuş müvafiq yerlərdə qoyulur.

Möhürün şəkli aydın və dəqiq olmalıdır.

5.7. Yüklərin plomblanmış vaqonlarda təslim edilməsi tamlığın yoxlanılması və qoyulmuş plombların və ya bərkimə-plomblama qurğularının vəziyyətinin yoxlanılması ilə aparılır, və onların üzərində olan məlumatlar təslim siyahısında olan məlumatlarla uyğun olmalıdır.

5.8. Açıq hərəkət heyətində göndərilən yüklər təhvil verən tərəfin iştirakı ilə yüklərin qablaşdırılmasının vəziyyəti və qablaşdırılmamış daşınan yüklərin yoxlanılandan sonra dərhal qəbul edilir.

5.9 Vaqonda daşınan yükdə zədələnmənin və ya hər hansı çatışmazlığın bariz əlamətləri aşkar olunduğu təqdirdə, təhvil verən tərəf qəbul edən tərəfin tələbi ilə yükün vəziyyətinin və ya yerlərin sayının və ya yükün kütləsinin yoxlanmasını həyata keçirməli və zəruri hallarda DBYS-in 18-ci maddəsinə, DBYS-in 16-cı Əlavəsinə və DBYS TD-in 5-ci Əlavəsinə uyğun olaraq akt tərtib etməlidir.

Yükün yoxlanılmasından sonra, qəbul edən tərəf vaqona şəxsi plomblarını və ya bərkimə-plomblama qurğularını qoymalı və daşıma sənədlərində müvafiq qeydlər etməlidir.

Yükün yoxlanması nəticəsində meydana gələn xərclər aiddir:

- əgər yükün zədələnməsi, yerlərinin və ya kütləsinin çatışmaması müəyyən edilərsə, təhvil verən tərəfə;

- əgər yoxlamanın nəticələri yükün ehtimal olunan zədələnməsini təsdiq etmirsə, qəbul edən tərəfə.

5.10. Digər tərəfə təhvil veriləcəyi ana qədər yükün, vaqonların salamatlığına və plombların, bərkimə-plomblama qurğularının bütövlüyünə görə məsuliyyəti təhvil verən tərəf, faktiki olaraq təhvil verildikdən sonra isə qəbul edən tərəf daşıyır.

5.11. Əgər tərəflər arasında vaqonların ötürülməsi zamanı tərəflər yükün salamatlığına

və nəqliyyat vasitələrinin hərəkət təhlükəsizliyinə təhlükə yaradа biləcək vaqonun nasazlıqları, plomb və bərkimə-plomblama qurğularının olmaması və ya plomb və bərkimə-plomblama qurğularının zədələnməsi kimi halları aşkar edərlərsə, təhvil verən tərəf DBYS TD-in 5-ci Əlavəsinin 9-cu bəndini rəhbər tutmalı və zərurət yarandıqda kommersiya aktı tərtib etməlidir.

Yükün yoxlanılmasından sonra, təhvil verən tərəf vaqona öz plomb və bərkimə-plomblama qurğularını qoymalı və qaimənin "dəmir yolunun qeydləri" qrafasında və kommersiya aktında çıxarılmış və yoxlamadan sonra bərkidilmiş plomb və bərkimə-plomblama qurğuları barədə məlumatları göstərməklə qeydlərini etməlidir.

5.12. Hərəkət müddətində yüklənmiş vaqon zədələnərsə və bu zədə nəticəsində onda yükün daşınması qeyri-mümkün olarsa, zədələnmiş vaqonu aşkar etmiş stansiya yükü yoxlamalı, həmin yükü öz hesabına digər işlək vaqona yükləməli və təyinat stansiyasına göndərməlidir.

Analoji hallarda, yüklənmiş vaqonun bərədən təhvil verilməsi zamanı, qeyd olunmuş əməliyyatlar bərə sahibi tərəfindən, onun malik olduğu vəsaitlə Öz hesabına yerinə yetirilməlidir.

Yükün zədələnmiş vaqondan digər vaqona boşaldılması zamanı yükün zədəli olduğu aşkar olunarsa yüklər, çıxarılmış və yükləmə-boşaldma əməliyyatlarından sonra bərkidilmiş plomblar və bərkimə-plomblama qurğuları, həmçinin yükün zədələnmiş vaqondan boşaldılması haqqında məlumatlar göstərilmiş kommersiya aktı 3 nüsxədən ibarət tərtib olunur. Kommersiya aktının nüsxələrindən biri qaiməyə əlavə olunur və təyinat stansiyasına qaytarılır, iki nüsxəsi isə yükləmə-boşaltma əməliyyatlarını həyata keçirmiş tərəfdə qalır.

Qaimənin "Kommersiya aktı" qrafasında kommersiya aktının tərtib olunması haqqında qeydiyyat aparılır.

5.13. Digər hallarda, yüklərin təhvil verilməsi zamanı təhvil verən və qəbul edən tərəflər üçün DBYS XT-in 52-ci bölməsinin və DBYS TD-in 5-ci Əlavəsinin müddəaları qüvvədə olur.

Maddə 6

6.1 Yük vaqonlarının və konteynerlərin ADXDG-nin bərə keçidlərinə təhvil verilməsi və uçotu hazırkı Sazişin 1 nömrəli əlavəsinə, həmçinin istismar, yük vaqonlarının və universal konteynerlərin nömrələr üzrə uçota alınması və istifadəsi üzrə hesablamalar, təxirəsalınan yüklərin daşınması və soyuducu vaqonlar parkından istifadə üzrə hesabatlara və kompleks hesabatlara dair MDB üzv dövlətlərin Dəmir yolu Şurası çərçivəsində qəbul edilmiş sənədlərin müvafiq müddəalarına uyğun olaraq həyata keçirilir.

6.2. Yük vaqonlarının və konteynerlərin ADXDG -nin bərə keçidinə ötürülməsi hazırkı Sazişə 2-ci Əlavə forması üzrə qatar ötürmə cədvəli (QÖC) ilə rəsmiləşdirilir.

6.2.1. QÖC təqvim ilinin əvvəlindən fasiləsiz nömrələnməyə malik olmalıdır.

6.2.2. QÖC təhvil verən Türkmənbaşı -1 və Bakı dəmir yolu stansiyaları tərəfindən doqquz nüsxədə tərtib olunur və onlardan altısı qəbul edən dəmir yolu üçün bərə keçidinin təmsilçisinə ötürülür.

ADXDG-nin nümayəndəsi daşıma sənədlərinin saxlanılmasına və QÖC-ü qəbul edən dəmir yolunun nümayəndəsinə vaxtında təqdim edilməsinə görə məsuliyyət daşıyır.

Qəbul edən dəmir yolu QÖC-ün müvafiq rəsmiləşdirilməsindən sonra, QÖC-ün iki nüsxəsini təhvil verən dəmir yoluna və ADXDG-yə vaxtında qaytarmağa borcludur.

6.2.3. QÖC təhvil verən və qəbul edən dəmir yollarının və ADXDG-nin nümayəndələri tərəfindən imzalanır və onların qəbul edilmə / ötürülmə tarixi və vaxtı (Moskva vaxtı ilə) göstərilməklə təqvim möhürü ilə təsdiq olunur.

ADXDG, təhvil verən dəmir yolunun və ADXDG-nin nümayəndələri tərəfindən tərtib olunmuş QÖC-ün imzalanması anından, qəbul edən dəmir yolunun nümayəndəsi tərəfindən imzalanan ana qədər vaqonların və konteynerlərin saxlanmasına görə məsuliyyət daşıyır.

Ötürmə cədvəlinə yüklərə aid olan bütün sənədlər əlavə olunmalıdır. Bu sənədlər, göndərilən yüklərin qeyd olunduğu ötürmə cədvəlində olduğu qaydada əlavə olunmalıdır.

6.3. Yük vaqonları və konteynerlər təhvil verən dəmir yolundan ADXDG-yə, QÖC-ün ADXDG nümayəndəsi tərəfindən imzalandığı, təqvim möhürünün qoyulduğu andan, ADXDG-dən qəbul edən dəmir yoluna isə qəbul edən dəmir yolunun nümayəndəsi tərəfindən QÖC-ün imzalandığı və təqvim möhürünün qoyulduğu andan qəbul edilmiş hesab edilir.

6.4. Yük vaqonları qəbul edilmədiyi halda, qəbuldan imtina etmiş Tərəf hazırkı Sazişə 3-cü əlavə forması üzrə qəbuldan imtinanın səbəbi və onun təhvil verən yola qaytarıldığı tarix göstərilməklə, hər bir Tərəf üçün bir nüsxədə olmaqla üç nüsxədə, bərə kompleksinin nümayəndələri tərəfindən imzalanmış akt tərtib edir.

6.4.1. Qəbul edilməmiş yük vaqonları QÖC-dən silinməli və "Qeyd" xanasında "qəbul edilməyənlər" qeydi aparılmalıdır.

Vaqonların qəbulu zamanı uyğunsuzluq aşkar olunarsa, ötürmə cədvəlinə təhvil verən və qəbul edən Tərəflərin təsdiq etdiyi müvafiq düzəlişlər edilməlidir.

Əgər yaranmış fikir ayrılığı ötürmə cədvəli əsasında həll olunmalıdırsa, onda mübahisəsiz sənəd kimi təhvil verən dəmir yolunun sərəncamında olan ötürmə cədvəli qəbul edilir.

6.4.2. Qəbul edilməmiş yük vaqonları yeni QÖC rəsmiləşdirilməklə, "qəbul edilməyənlər" qeydi və qəbul etməmək haqqında akt əlavə olunmaqla, növbəti bərə gəmisi vasitəsi ilə təhvil verən dəmir yoluna qaytarılır.

Maddə 7

7.1. ADXDG bərə gəmisində yüklü və boş konteynerlərin və yük vaqonlarının dayanması vaxtının uçotu QOC-a uyğun olaraq həyata keçirilir.

7.2. ADXDG -nın bərə gəmisində yüklü və boş konteynerlərin və yük vaqonlarının dayanması vaxtının uçotu Moskva vaxtı ilə həyata keçirilir:

7.2.1. Azərbaycan-Türkmənbaşı əlaqələrində - təhvil verən dəmir yolu tərəfindən yük vaqonlarının ADXDG-nin bərə gəmisinə verilməsi anından və Türkmənbaşı dəmir yolu stansiyası tərəfindən yük vaqonları və konteynerlərin bərə gəmisindən faktiki qəbulu anına qədər.

7.2.2. Türkmənbaşı - Azərbaycan əlaqələrində - təhvil verən dəmir yolu tərəfindən yük vaqonlarının ADXDG -nin bərə gəmisinə verilməsi anından və Bakı dəmir yolu stansiyası tərəfindən yük vaqonları və konteynerlərin bərə gəmisindən faktiki qəbulu anına qədər.

Maddə 8

Bakı (Azərbaycan Respublikası) - Türkmənbaşı (Türkmənistan) beynəlxalq birbaşa dəmir yolu-bərə əlaqələrində bərə gəmisində olduğu müddətdə yük vaqonları və konteynerlərdən istifadəyə görə hesablaşmalar, zədələnmələrin aradan qaldırılmasının dəyərinin və yük vaqonları və konteynerlərin itkisinə görə kompensasiyanın ödənilməsi, "Müstəqil Dövlətlər Birliyi iştirakçı-dövlətlərinə, Latviya Respublikasına, Litva Respublikasına və Estoniya Respublikasına məxsus yük vaqonları və konteynerlərin istismarı Qaydaları"nın, eləcə də Dəmir yolu Şurası çərçivəsində qəbul edilmiş sənədlərin müvafiq müddəalarına uyğun olaraq həyata keçirilir.

Hazırkı bənddə göstərilən qaydalarda qiymətlərin dəyişməsi zamanı, Tərəflər yük vaqonlarından və konteynerlərdən istifadəyə görə ödəniş hesabatlarını, hazırkı Sazişə əlavə Saziş bağlamadan, yeni qiymətlər üzrə həyata keçirirlər.

Maddə 9

9.1. Yük vaqonlarına texniki xidmət və onların təmiri "Müstəqil Dövlətlər Birliyi iştirakçı-dövlətlərinə, Latviya Respublikasına, Litva Respublikasına və Estoniya Respublikasına məxsus yük vaqonları və konteynerlərin Aktau - Bakı, Aktau Türkmənbaşı - 1, Türkmənbaşı -1 - Bakı beynəlxalq birbaşa dəmir yolu-bərə əlaqələrində istismarı Qaydaları"nın 5-ci bəndinə uyğun olaraq həyata keçirilir.

9.2. Bərə gəmidə olduğu müddətdə vaqonun və ya konteynerin zədələnməsi və ya itməsi zamanı, itkini ADDY və TDYN-yə, eləcə də konteyner və vaqon mülkiyyətçilərinə dəymiş ziyan, ADXDG tərəfindən "Digər ölkələrin mülkiyyətində olan vaqonlarının istismarı, nömrələr üzrə uçotu və onlardan istifadəyə görə hesablaşmalar Qaydaları"nın 4.15-ci bəndi ilə müəyyən edilmiş qiymət və tariflərə uyğun olaraq ödənilir.

ADXDG zədələnmələrin səbəbləri və həcmi, yük vaqonunun nömrəsi, qablaşdırılması və istehsal ili göstərilməklə, yük vaqonunun zədələnməsi və ya itməsi haqqında təhvil verən dəmir yoluna məlumat verir.

Maddə 10

Əgər yükün daşınması hazırkı Sazişin tələblərinə və xüsusi şəraitlərdə yükün daşınması müqaviləsinin şərtlərinə əməl olunmaqla həyata keçirilibsə, ADDY və TDYN daşıman yükün keyfiyyətinə və yükün miqdarına görə məsuliyyət daşımır.

Maddə 11

11.1. Bələdçinin gedişi üçün və avtoqatarın sürücüsünün ödənişləri, yükün təhvil alınaraq alıcıya təhvil verildiyi dövr ərzində əlavə yığımlar və digər ödənişlər də daxil olmaqla daşıma xərcləri daşıma müqaviləsi bağlandığı andan qüvvədə olan aşağıdakı tariflərlə hesablanır:

11.1.1. göndərən ölkənin və təyinat ölkəsinin dəmir yollarında daşımalar üçün - bu cür daşımalar zamanı bu ölkələrdə mövcud olan tariflərə uyğun olaraq;

11.1.2. tranzit dəmir yollarında daşımalar üçün - bu cür daşımalarda tranzit dəmir yolu daşımalarında iştirak edən dövlətlərin tranzit tariflərinə uyğun olaraq;

11.1.3. vaqonların bərəyə (bərədən) toplanması, gətirilməsi və çıxarılması üçün - bu əməliyyatları həyata keçirən dəmir yolu daşımaları tariflərinə uyğun olaraq.

11.2. Daşıma xərcləri, əlavə yığımlar və digər ödənişlər aşağıdakı qaydada toplanır:

11.2.1. yola salan dəmir yolları vasitəsi ilə daşımalar üçün - yola salma məntəqəsində yola salandan və ya yola salan dəmir yollarında qüvvədə olan daxili qaydalara uyğun olaraq;

11.2.2. təyinat dəmir yolları vasitəsi ilə daşımalar üçün - təyinat məntəqəsində qəbul edəndən və ya təyinat dəmir yollarında qüvvədə olan daxili qaydalara uyğun olaraq;

11.2.3. tranzit dəmir yollarının hər birində daşımalar üçün - göndərəndən və ya müvafiq tranzit dəmir yolu ilə daşıma ödənişləri ilə bağlı müqaviləsi olan ödəyici (ekspeditor təşkilatı, fraxt agenti və.s) vasitəsi ilə alıcıdan;

11.2.4. vaqonların bərəyə (bərədən) gətirilməsi və çıxarılması üçün - göndərəndən, qəbul edəndən və ya göstərilən dəmir yolunda daşıma xərclərini hansının ödəməsindən asılı olaraq Azərbaycan və Türkmənistan dəmir yolları ilə müqaviləsi olan ekspeditordan.

11.3. Tətbiq olunan tariflərdə nəzərdə tutulmamış əlavə yığım və digər ödənişlər, verilmiş dəmir yolu üzrə daşıma ödənişlərini kimin həyata keçirilməsindən asılı olaraq, yükgöndərən yükalandan və ya onların tapşırığı üzrə ödəyicidən (ekspeditor təşkilatı, fraxt agenti və s.) alınması üçün qaimələ yazılır və ona əlavə olunmuş müvafiq sənədlərlə təsdiq edilir.

Maddə 12

Yolun dəniz sahəsinə görə daşıma ödənişlərini və ödəmə qaydalarını ADXDG müəyyən edir.

Maddə 13

Tərəflərdən hər biri hazırkı Sazişdən irəli gələn öhdəliklərini icra etmədiyinə və ya lazımi qaydada icra etmədiyinə görə hazırkı Sazişə, BYDS-yə hazırkı Sazişin 1-ci Əlavəyə uyğun olaraq məsuliyyət daşıyır və bu zaman ADXDY tranzit dəmir yoluna bərabər tutulur.

Maddə 14

14.1 Təbii fəlakət hadisələri baş verdikdə, Tərəflər İstismar Qaydalarının 1.21, 1.22, 1.14.1, bəndlərini, nömrəli uçotu və digər dövlətlərin mülkiyyəti olan yük vaqonlarından istifadəyə görə hesablaşmaları rəhbər tuturlar.

14.2. Azərbaycan Respublikasının və ya Türkmənistanın müvafiq Ticarət Sənaye Palatası və ya başqa səlahiyyətli dövlət orqanı tərəfindən verilmiş şəhadətnamə təbii fəlakətin mövcudluğunun və davam etməsinin kifayət qədər təsdiqi hesab edilir.

14.3. Təbii fəlakət nəticəsində öz öhdəliklərini yerinə yetirməyən Tərəflər hazırkı Sazişin 14.2 maddəsində nəzərdə tutulmuş dəlillərin verilməsi tarixindən etibarən keçən üç gündən gec olmayaraq, bu cür vəziyyət və onların hazırkı saziş üzrə öhdəliklərin icrasına təsiri barədə digər Tərəfləri xəbərdar etməli, eyni zamanda bu dəlilin notarial qaydada təsdiq olunmuş nüsxəsini təqdim etməlidir.

14.4. Əgər təbii fəlakət ardıcıl olaraq 3 ay davam edərsə, hazırkı Saziş Tərəflərin razılığı əsasında, və ya hazırkı Sazişin 16.2 maddəsində nəzərdə tutulan qaydada ləğv edilə bilər.

Maddə 15

15.1. Hazırkı Sazişdən irəli gələn mübahisə və ziddiyyətlər BYDS-ə uyğun olaraq və danışıqlar yolu ilə, o cümlədən Dəmir yolu nəqliyyatı Şura çərçivəsində qəbul edilmiş normativ sənədlərdə nəzərdə tutulmuş qaydada həll edilə bilər.

15.2. Tərəflər mübahisələri danışıqlar yolu ilə həll etməsələr, maraqlı Tərəf mübahisələri cavabdehin qeydiyyat yerinə əsasən səlahiyyətli dövlət məhkəməsinə verir.

15.3. Mübahisələrin həlli zamanı hazırkı Sazişin, Tərəflər arasında digər müqavilə və sazişlərin, Dəmir yolu nəqliyyatı üzrə Şura çərçivəsində qəbul edilmiş normativ sənədlərin müvafiq müddəalarına, göstərilən saziş müqaviləsi və sənədlərlə tənzimlənməyən hallarda isə - məhkəmə ölkəsinin hüququna əsaslanmaq lazımdır.

Maddə 16

16.1. Tərəflərin qarşılıqlı razılığı əsasında bu Sazişə onun ayrılmaz hissəsi olan və 18-ci maddəsində nəzərdə tutulan qaydada qüvvəyə minən ayrıca protokollarla rəsmiləşdirilən əlavə və dəyişikliklər edilə bilər.

16.2. Hazırkı Sazişi ləğv etməyi qərara alan Tərəf hazırkı sazişi ləğv etmək barədə niyyətini digər Tərəfə hazırkı Sazişi pozmaq ehtimal olunan tarixdən 2 ay əvvəl bildirməlidir. Hazırkı Saziş ləğv etmək barədə bildirişdə göstərilən tarixdən etibarən ləğv olunmuş hesab olunur.

16.3. Hazırkı sazişin ləğv olunması tərəfləri Sazişdən irəli gələn və Sazişin ləğv edilməsi anına qədər həll olunmayan bir-biri qarşısında daşıdığı maliyyə öhdəliklərinin yerinə yetirilməsindən azad etmir.

Maddə 17

17.1 Hazırkı Saziş çərçivəsində görülən işin yekunlarını hazırlamaq və hazırkı Sazişin icrası zamanı meydana gələn digər məsələlərin baxılması üçün Tərəflər ildə ən azı bir dəfə, növbə ilə Tərəflərdən hər birinin ərazisində dördtərəfli görüşlər keçirəcəklər.

17.2. Əgər tərəflərdən hər hansı birinin hüquqi statusu, ünvanı və bank rekvizitləri dəyişərsə, onda o dəyişikliklərin baş verdiyi gündən keçən yeddi gün müddətində digər Tərəfləri xəbərdar etməlidir.

Maddə 18

18.1. Hazırkı Saziş Tərəflər onu imzaladığı tarixdən qüvvəyə minir və beş il müddətində qüvvədə qalır.

18.2 Tərəflərdən biri bu Sazişin müddətinin bilməsinə ən azı iki ay qalmış onu ləğv etmək niyyəti barədə yazılı şəkildə diplomatik kanallar vasitəsilə digər Tərəfə məlumat verməzsə, onun qüvvəsi avtomatik olaraq növbəti beş illik müddətlərə uzadılacaqdır.

18.3. Hazırkı Saziş Aşqabad şəhərində 28 noyabr 2008-ci il tarixində iki əsl nüsxədə hər biri Azərbaycan, türkmən və rus dillərində olmaqla imzalanmışdır, bütün mətn eyni hüquqi qüvvəyə malikdir. Hazırkı Sazişin müddəalarının təfsiri zamanı fikir ayrılığı yarandığı təqdirdə, rus dilində olan mətndən istifadə ediləcəkdir.

AZƏRBAYCAN DÖVLƏT DƏMİR YOLU ADINDAN	TÜRKMƏNİSTAN DƏMİR YOLU NAZİRLİYİ ADINDAN
(imza)	*(imza)*
AZƏRBAYCAN DÖVLƏT XƏZƏR DƏNİZ GƏMİÇİLİYİ ADINDAN	"TÜRKMƏNDƏNİZDƏRYAYOLLARI" İDARƏSİ ADINDAN
(imza)	*(imza)*
BAKI BEYNƏLXALQ DƏNİZ TİCARƏT LİMANI ADINDAN	TÜRKMƏNBAŞI BEYNƏLXALQ DƏNİZ LİMANI ADINDAN
(imza)	*(imza)*

2009-cu il mayın 8-də Vaşinqton şəhərində imzalanmış "Azərbaycan Respublikası Nazirlər Kabineti və Amerika Birləşmiş Ştatları Müdafiə Departamenti arasında kütləvi qırğın silahlarının yayılmasının qarşısının alınmasında əməkdaşlığa dair Sazişə 6 saylı Düzəliş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2009-cu il mayın 8-də Vaşinqton şəhərində imzalanmış "Azərbaycan Respublikası Nazirlər Kabineti və Amerika Birləşmiş Ştatları Müdafiə Departamenti arasında kütləvi qırğın silahlarının yayılmasının qarşısının alınmasında əməkdaşlığa dair Sazişə 6 saylı Düzəliş" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən 6 saylı Düzəlişin həyata keçirilməsi üçün lazımi tədbirlər görsün.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 22 iyul 2009-cu il

№ 407

Azərbaycan Respublikası Nazirlər Kabineti və Amerika Birləşmiş Ştatları Müdafiə Departamenti arasında kütləvi qırğın silahlarının yayılmasının qarşısının alınmasında əməkdaşlığa dair Sazişə 6 saylı Düzəliş

Azərbaycan Respublikası Nazirlər Kabineti və Amerika Birləşmiş Ştatları Müdafiə Departamenti arasında Kütləvi Qırğın Silahlarının Yayılmasının Qarşısının Alınmasında Əməkdaşlığa dair 2 yanvar 2004-cü ildə imzalanmış, 28 oktyabr 2004-cü il, 26 avqust 2005-ci il, 11 iyul 2006-cı il, 24 aprel 2007-ci il və 5 mart 2008-ci il tarixlərində düzəlişlər edilmiş Sazişin (bundan sonra "Saziş" adlandırılacaq) VII maddəsinə müvafiq olaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti (NK) və Amerika Birləşmiş Ştatları Müdafiə Departamenti (MD) Sazişə aşağıdakı düzəlişin edilməsinə dair razılığa gəldilər:

I. III Maddədə "altmış doqquz milyon ABŞ dolları sözləri "yetmiş beş milyon ABŞ dolları" sözləri ilə əvəz edilsin.

Bu Düzəliş imzalandığı andan qüvvəyə minir və Sazişin tətbiq edildiyi müddət ərzində qüvvədə qalır.

Bunun təsdiqi olaraq, öz hökumətləri tərəfindən müvafiq qaydada səlahiyyətləndirilmiş aşağıdakı şəxslər bu Düzəlişi imzaladılar.

Bakı şəhərində, 2009-cu ilin aprel ayının 13 günündə və Vaşinqton şəhərində, 2009-cu ilin 8 aynın may günündə Azərbaycan və ingilis dillərində iki əsl nüsxədə imzalanmışdır, hər iki mətn bərabər atentikdir.

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİ ADINDAN	AMERİKA BİRLƏŞMİŞ ŞTATLARI MÜDAFİƏ DEPARTAMENTİ ADINDAN
(imza)	*(imza)*

Azərbaycan Respublikası və Gürcüstan arasında 2009-cu il mayın 20-də Bakı şəhərində imzalanmış sənədlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. Azərbaycan Respublikası və Gürcüstan arasında 2009-cu il mayın 20-də Bakı şəhərində imzalanmış aşağıdakı sənədlər təsdiq edilsin:

1.1. Azərbaycan Respublikası Hökuməti ilə Gürcüstan Hökuməti arasında əqli mülkiyyətin qorunması sahəsində əməkdaşlıq haqqında Saziş;

1.2. Azərbaycan Respublikası Hökuməti və Gürcüstan Hökuməti arasında azad ticarət haqqında 1996-cı il tarixli, Sazişə dəyişiklik edilməsi haqqında Protokol.

2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bu Sərəncamın 1.1-1.2-ci bəndlərində göstərilən sənədlərin həyata keçirilməsi üçün zəruri tədbirlər görsün.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1.1-1.2-ci bəndlərində göstərilən sənədlərin qüvvəyə minməsi üçün zəruri olan dövlət-

daxili prosedurların yerinə yetirilməsi barədə Gürcüstan Hökumətini xəbərdar etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 22 iyul 2009-cu il

№ 408

Azərbaycan Respublikası Hökuməti ilə Gürcüstan Hökuməti arasında əqli mülkiyyətin qorunması sahəsində əməkdaşlıq haqqında Saziş

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikası Hökuməti və Gürcüstan Hökuməti,

Ticarət-iqtisadi, sənaye və elmi-texniki əməkdaşlığı inkişaf etdirməyi arzu edərək,

əqli mülkiyyətin səmərəli mühafizəsinin bu cür əməkdaşlığın inkişafı üçün zəruri şərt olmasını etiraf edərək,

müəlliflərin və sənaye mülkiyyəti sahiblərinin hüquqlarının mühafizəsi üçün qarşılıqlı əlverişli şəraitin yaradılmasının zəruriliyini dərk edərək,

ölkələr arasında suveren əməkdaşlığın prinsiplərini, ümumi maraqları və beynəlxalq hüququn normalarını rəhbər tutaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər bu Sazişə və Azərbaycanın Respublikasının və Gürcüstanın iştirakçısı olduqları və ya gələcəkdə iştirakçısı olacaqları digər beynəlxalq müqavilələrə uyğun olaraq, ixtiralar, faydalı modellər, sənaye nümunələri, əmtəə nişanları, coğrafi adlar və həmçinin müəllif hüquqları və qarışıq hüquqlar sahəsində qarşılıqlı fayda və bərabərlik əsasında əməkdaşlığı həyata keçirir və inkişaf etdirirlər.

Maddə 2

Tərəflərin əməkdaşlığı aşağıdakı istiqamətlərdə həyata keçiriləcəkdir:

əqli mülkiyyət obyektlərinin qorunması və istifadəsi üzrə hüquqların mühafizəsi ilə əlaqədar məsələlərin tənzimlənməsi;

informasiya, normativ aktlar və digər sənədlərin mübadiləsi və həmçinin əqli mülkiyyətlərin qorunması məsələləri ilə əlaqədar mütəxəssislərin təcrübə mübadiləsi;

əqli mülkiyyətin mühafizəsi sahəsində beynəlxalq sazişlərdə iştirak məsələləri ilə bağlı məlumat mübadiləsi;

Tərəflərin razılaşdırdıqları əməkdaşlığın başqa formaları.

Maddə 3

Bu Sazişin həyata keçirilməsinə Tərəflərin səlahiyyətli orqanları məsuliyyət daşıyırlar:

Azərbaycan Respublikasında - Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi və Azərbaycan Respublikasının Müəllif Hüquqları

Agentliyi;

Gürcüstanda - Gürcüstan Milli Əqli Mülkiyyət Mərkəzi "Sakpatenti".

Səlahiyyətli orqanlar arasında əməkdaşlığın qaydaları və şərtləri onlar arasında bağlanacaq xüsusi sazişlə müəyyən olunacaqdır.

Maddə 4

Tərəflər öz Səlahiyyətli orqanları vasitəsi ilə Tərəflərin dövlətlərinin qanunvericiliklərinə uyğun olaraq, əmtəə nişanı və ya əmtəə nişanının tərkibində qanunsuz qeydiyyatının qarşısını almaq məqsədi ilə siyahıları mübadilə edəcəklər.

Maddə 5

Tərəflərin səlahiyyətli orqanları əqli mülkiyyətin mühafizəsi sahəsində birgə seminarların və konfransların keçirilməsi, kadrların hazırlanması və onların ixtisaslarının artırılmasında əməkdaşlıq edirlər.

Maddə 6

Bir dövlətin fiziki və hüquqi şəxsləri o biri dövlətin ərazisində əqli mülkiyyətə dair patent fondlarından, kitabxanalardan, məlumat banklarından həmin dövlətin öz fiziki və hüquqi şəxslərinə tətbiq etdikləri qaydada istifadə edəcəklər.

Maddə 7

Tərəflərin qarşılıqlı razılığı ilə bu Sazişə ayrıca protokollarla rəsmiləşdirilən əlavələr və dəyişikliklər edilə bilər. Protokollar bu Sazişin ayrılmaz hissəsini təşkil edir və bu Sazişin 9-cu maddəsində nəzərdə tutulan qaydada qüvvəyə minir.

Maddə 8

Bu Sazişin müddəalarının təfsiri və ya tətbiqi zamanı ortaya çıxan mübahisələr və fikir ayrılıqları Tərəflər arasında danışıqlar və məsləhətləşmələr yolu ilə həll olunacaqdır.

Maddə 9

Bu Saziş onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Tərəflərin sonuncu yazılı bildirişinin diplomatik kanallar vasitəsilə alındığı tarixdən qüvvəyə minir.

Bu Saziş beş il müddətinə bağlanılır və Tərəflərdən biri bu Sazişin müddətinin bitməsinə ən azı altı ay qalmış onu ləğv etmək niyyəti barədə yazılı şəkildə diplomatik kanallar vasitəsilə digər Tərəfə məlumat verməzsə, onun qüvvəsi avtomatik olaraq növbəti beş illik müddətlərə uzadılacaqdır.

Bu Saziş Bakı şəhərində 20 may 2009-cu il tarixində iki əsl nüsxədə, hər biri Azərbaycan, gürcü və rus dillərində imzalanmışdır, bütün mətnlər bərabər hüquqi qüvvəyə malikdir. Bu Sazişin müddəalarının təfsirində fikir ayrılığı yarandığı təqdirdə, rus dilində olan mətn əsas götürüləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN

RAMİZ HƏSƏNOV
Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin sədri

GÜRCÜSTAN HÖKUMƏTİ ADINDAN

LAŞA JVANİYA
İqtisadi inkişaf naziri

Azərbaycan Respublikası Hökuməti və Gürcüstan Hökuməti arasında azad ticarət haqqında 1996-cı il tarixli Sazişə dəyişiklik edilməsi haqqında Protokol

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikası Hökuməti və Gürcüstan Hökuməti,

8 mart 1996-cı il tarixində imzalanmış Azərbaycan Respublikası Hökuməti və Gürcüstan Hökuməti arasında azad ticarət haqqında Sazişə (bundan sonra - Saziş) aşağıdakı dəyişiklikləri etmək barədə razılığa gəldilər:

Maddə 1

Sazişin 1-ci maddəsinin 2-ci bəndi aşağıdakı redaksiyada verilsin:

"Bu Sazişin məqsədləri üçün və onu qüvvədə olduğu müddət ərzində Tərəflərin ərazisindən gələn malların müəyyən olunması üçün Tərəflər MDB Hökumət Başçıları Şurasının 30 noyabr 2000-ci il tarixli Qərarı ilə təsdiq olunmuş "Malların mənşə ölkələrinin müəyyən olunması Qaydaları"nı və həmçinin ona əlavə və dəyişiklikləri rəhbər tutacaqlar".

Maddə 2

Bu Protokol Sazişin ayrılmaz hissəsini təşkil edir və Tərəflərin onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların tamamlanması barədə sonuncu yazılı bildirişinin alındığı tarixdən qüvvəyə minir.

Bu Protokol Bakı şəhərində 20 may 2009-cu il tarixində iki əsl nüsxədə, hər biri Azərbaycan, gürcü və rus dillərində imzalanmışdır. Bütün mətnlər bərabər qüvvəyə malikdir. Bu Protokolun müddəalarının təfsiri zamanı fikir ayrılığı yarandığı təqdirdə, rus dilindəki mətn əsas götürüləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN

ŞAHİN MUSTAFAYEV
İqtisadi inkişaf naziri

GÜRCÜSTAN HÖKUMƏTİ ADINDAN

LAŞA JVANİYA
İqtisadi inkişaf naziri

2009-cu il iyunun 3-də Moskva şəhərində imzalanmış "Azərbaycan Respublikası Müdafiə Nazirliyi və Qazaxıstan Respublikası Müdafiə Nazirliyi arasında Qazaxıstan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularının Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi təhsil müəssisələrində təhsil alması haqqında Saziş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2009-cu il iyunun 3-də Moskva şəhərində imzalanmış "Azərbaycan Respublikası Müdafiə Nazirliyi və Qazaxıstan Respublikası Müdafiə Nazirliyi arasında Qazaxıstan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularının Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi təhsil müəssisələrində təhsil alması haqqında Saziş" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Müdafiə Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişin həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Qazaxıstan Respublikası tərəfini xəbərdar etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 22 iyul 2009-cu il

№ 409

Azərbaycan Respublikası Müdafiə Nazirliyi və Qazaxıstan Respublikası Müdafiə Nazirliyi arasında Qazaxıstan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularının Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi təhsil müəssisələrində təhsil alması haqqında Saziş

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikası Müdafiə Nazirliyi və Qazaxıstan Respublikası Müdafiə Nazirliyi,

1 mart 2004-cü il tarixli "Azərbaycan Respublikası Hökuməti ilə Qazaxıstan Respublikası Hökuməti arasında hərbi sahədə əməkdaşlıq haqqında Saziş"in şərtlərini nəzərə alaraq,

NATO tərəfindən həyata keçirilən 27 may 1994-cü il tarixli "Sülh naminə Tərəfdaşlıq" Proqramını dəstəkləyərək və orada fəal iştirak edərək,

Azərbaycan Respublikası və Qazaxıstan Respublikası Silahlı Qüvvələri arasında hərbi təhsil sahəsində əməkdaşlığın inkişaf etdirilməsini arzulayaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Anlayışlar

Bu Sazişdə aşağıdakı anlayışlar istifadə edilmişdir:

Göndərən Tərəf - kursant və dinləyiciləri hərbi təhsil almaq üçün göndərən Tərəf;

Qəbul edən Tərəf - Göndərən Tərəfin kursant və dinləyicilərini bu Sazişin şərtlərinə əsasən hərbi təhsil almaq üçün qəbul edən Tərəf;

Kursantlar - Qəbul edən Tərəfin dəvəti əsasında Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi təhsil müəssisələrində hərbi təhsil almaq üçün gələn Göndərən Tərəfin hərbi qulluqçuları;

Dinləyicilər - "Zabit ixtisas kursları"nda təhsillərini davam etdirən hərbi təhsil müəssisələrinin məzunları və Qəbul edən Tərəfin dəvəti əsasında Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Hərbi Akademiyasında təhsil almaq üçün gələn Göndərən Tərəfin hərbi qulluqçuları.

Maddə 2

Ümumi müddəalar

1. Bu Sazişin məqsədi Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi təhsil müəssisələrində hərbi təhsil almaq üçün gələn Göndərən Tərəfin kursant və dinləyicilərinin hərbi təhsilinin şərtlərinin və statusunun müəyyən edilməsidir.

2. Göndərən Tərəfin hərbi təhsil almaq üçün Qəbul edən Tərəfin dövlətinə gələn hərbi qulluqçuları təhsil aldıqları müddətdə Qəbul edən Tərəfin hərbi qulluqçuları ilə eyni statusa malikdirlər.

3. Təhsil ödənişsiz və ödənişli əsaslarla həyata keçirilə bilər:

ödənişsiz əsaslarla - Göndərən Tərəfin hərbi qulluqçularının təhsili və təminatı Qəbul edən Tərəfin dəvəti və onun hesabına həyata keçirilir;

ödənişli əsaslarla - Göndərən Tərəfin hərbi qulluqçularının təhsili və təminatı Göndərən Tərəfin hesabına kontrakta müvafiq olaraq həyata keçirilir.

4. Təhsilin formaları (ödənişsiz və ya ödənişli əsaslarla) təhsil üçün dəvətlərdə qeyd olunacaqdır.

Maddə 3

Kursant və dinləyicilərə dair tələblər

Təhsil almaq üçün seçilən namizədlər Göndərən Tərəfin dövlətinin vətəndaşlığına mənsub olmalı və Qəbul edən Tərəfin dəvətnaməsində göstərilən tələblərə uyğun olmalıdırlar.

Maddə 4

Hərbi təhsilin təşkili

1. Təhsil dili - Azərbaycan dilidir. Zərurət olduğu təqdirdə, Qəbul edən Tərəf ilkin dil kursları keçirir.

2. Hərbi təhsilin müddəti Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi təhsil müəssisələrinin illik fəaliyyət planlarında müəyyən edilir.

3. Kursant və dinləyicilərin praktiki məşğələləri hərbi hazırlıq məşğələləri proqramına uyğun aparılır. Kursant və dinləyicilər praktiki məşğələlərdə Qəbul edən Tərəfin hərbi qulluqçuları ilə birlikdə iştirak edirlər.

4. Hərbi hazırlıq məşğələləri proqramının hər bölümünün sonunda kursant və dinləyicilər Qəbul edən Tərəfin təsdiq etdiyi qiymətləndirmə prosedurlarına müvafiq olaraq qiymətləndirilən testdən keçməlidirlər.

5. Hərbi təhsili bitirən kursant və dinləyicilərə Qəbul edən Tərəfin müəyyənləşdirdiyi prosedurlara müvafiq olaraq hər iki Tərəfdən tanınacaq diplomlar, sertifikatlar və fərqlənmə nişanları verilir.

6. Azərbaycan Ali Hərbi Məktəblərindən məzun olan Qazaxıstan Respublikası Müdafiə Nazirliyinin kursantları Azərbaycan Respublikası Silahlı Qüvvələrinin müvafiq təlim və tədris mərkəzlərində təşkil olunan 1 (bir) illik "Zabit ixtisas kursları"nda təhsillərini davam etdirirlər.

7. Qazaxıstan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçuları Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Hərbi Akademiyasında 2 (iki) il müddətinə dinləyicilər qismində təhsil ala bilərlər.

Maddə 5

Qəbul edən Tərəfin hüquq və vəzifələri

Qəbul edən Tərəf:

1) Təhsilin başlanmasına ən azı 6 ay qalmış Göndərən Tərəfə ayrılmış yerlərin miqdarı və namizədlərə dair tələblər barədə məlumat verir;

2) Göndərən Tərəfin kursant və dinləyicilərini hərbi təhsil almaq üçün dəvətnamədə əks olunmuş sayda qəbul edir;

3) Hərbi təhsil proqramına uyğun hərbi təhsili təşkil edir və həyata keçirir;

4) İlkin dil kurslarının keçirilməsini təşkil edir;

5) Kursant və dinləyicilərin yerləşdirilməsini, qidalanmasının təmin edir;

6) Kursantları, dinləyiciləri dərs vəsaitləri və ədəbiyyatla təmin edir;

7) Göndərən Tərəfin kursantlarının, "Zabit ixtisas kursları"nın dinləyicilərini nəzəri və praktiki məşğələlər zamanı müvafiq geyim forması ilə təmin edir;

8) Kursant və dinləyiciləri zəruri təcili tibbi yardımla təmin edir;

9) Ödənişsiz əsaslarla təhsil alan kursantları, "Zabit ixtisas kursları"nın dinləyicilərini Azərbaycan Respublikası Müdafiə Nazirliyinin ali hərbi təhsil müəssisələrinin kursantları üçün müəyyənləşdirilmiş miqdarda aylıq təqaüdlə təmin edir;

10) Hərbi təhsilin sonunda Göndərən Tərəfi hər bir kursant və dinləyicinin əldə etdiyi nəticələr barədə məlumatlandırır;

11) Kursant/dinləyicinin Qəbul edən Tərəfin dövlətinin ərazisində vəfat etməsi halında ölümün səbəbinə dair bütün məlumatı Göndərən Tərəfə təqdim edir;

12) Kursant və dinləyicilərin xaric olunmaları barədə xaric olunmanın səbəbi və Qazaxıstan Respublikasına göndərilmə tarixi qeyd edilməklə Göndərən Tərəfi məlumatlandırır.

Kursant və dinləyicilər Qəbul edən Tərəfin tələb etdiyi sənədlərə (tibbi sığorta, həyat

sığortası və s.) malik olmadıqda və ya təhsil üçün dəvətnamədə göstərilən tələblərə cavab vermədikdə, Qəbul edən Tərəf onları qəbul etməkdən imtina etmək hüququna malikdir.

Maddə 6

Göndərən Tərəfin hüquq və vəzifələri

Göndərən Tərəf:

1) Qəbul edən Tərəfin dəvətnaməsində göstərilən tələblərə və miqdara uyğun namizədlərin seçilməsini həyata keçirir;

2) Hərbi təhsil almaq üçün gedən kursant və dinləyiciləri həqiqi tibbi sığorta və həyat sığortası ilə təmin edir, eləcə də bunlarla bağlı xərcləri ödəyir;

3) Hərbi təhsilin başlanmasına ən azı bir ay qalmış kursant və dinləyicilərin siyahısını və Qəbul edən Tərəfin tələb etdiyi digər sənədlərin surətini (tibbi sığorta, həyat sığortası və s.) Qəbul edən Tərəfə təqdim edir;

4) Qəbul edən Tərəfin dövlətinin ərazisində hər hansı bir kursant/dinləyici vəfat etdikdə, cəsədin öz dövlətinin ərazisinə qaytarılması üçün bütün tədbirləri görür.

Maddə 7

Maliyyə məsələləri

1. Ödənişsiz əsaslarla təhsil zamanı Qəbul edən Tərəf Göndərən Tərəfin kursant və dinləyicilərinin aşağıdakılarla təmin edilməsi üzrə xərcləri ödəyir:

müəllim heyəti, tədris vəsaitləri, tədris-sinif ləvazimatı, laboratoriya avadanlığı, silahlar, texnika, sursatlar və praktiki təlimin digər texniki vasitələri, eləcə də tədris planları və proqramlarına müvafiq olaraq tədris prosesi üçün zəruri olan sərf materialları və digər avadanlıqla;

yemək, yaşayış yeri və nəzəri və praktiki məşğələlər zamanı müvafiq geyim forması ilə;

kitabxanalar, idman zalları və tədris prosesi üçün zəruri olan digər otaqlarla;

tədris məqsədləri üçün nəqliyyatla;

aylıq təqaüdlə;

tibbi xidmətlə.

2. Ödənişli əsaslarla təhsil zamanı Qəbul edən Tərəf, sonradan kontraktla müəyyən olunmuş qaydada Göndərən Tərəfdən əvəzi ödənilməklə, bu Maddənin 1-ci bəndində qeyd olunan xərcləri ödəyir.

3. Ödənişsiz və ödənişli əsaslarla təhsil zamanı, eləcə də bu Sazişin 8-ci Maddəsinin 1-ci və 2-ci bəndlərində nəzərdə tutulan hallarda Göndərən Tərəf kursant və dinləyicilərin Qazaxıstan Respublikasından təhsil yerinə və geriyə nəqliyyat xərclərini ödəyir.

Maddə 8

Hüquqi məsələlər və zərərin ödənilməsi

1. Bu Sazişin 4-cü maddəsinin 4-cü bəndində nəzərdə tutulan testin nəticələri və kursantın/dinləyicinin müvəffəqiyyəti mənfi qiymətləndirilərsə və/və ya kursantın/dinləyicinin davranışı və ya digər hərəkətləri hərbi təhsil müəssisələrinin prosedur qaydalarının tələblərinə uyğun gəlməzsə və hərbi intizamı pozarsa, yaxud da kursant/dinləyici xəstəliyə görə hərbi təhsilini davam etdirə bilməzsə, Qəbul edən Tərəf hərbi təhsil müəssisələrinin rəislərinin bildirişinə əsasən kursantı/dinləyicini təhsil müəssisəsindən xaric edəcək və kursantı/dinləyicini Göndərən Tərəfin dövlətinə göndərəcəkdir.

2. Əgər kursant/dinləyici, Qəbul edən Tərəfin dövlətinin normativ hüquqi aktlarını pozursa və beləliklə, onun həmin dövlətdə qalması arzuolunmaz olarsa, Qəbul edən Tərəf təhsil bitməmiş həmin kursantı/dinləyicini hərbi təhsil müəssisəsindən xaric edərək Göndərən Tərəfin dövlətinə göndərir.

3. Tərəflər yurisdiksiya və əmlaka vurulan zərərin ödənilməsi məsələlərində aşağıdakı prinsipləri rəhbər tuturlar:

1) Göndərən Tərəfin dövlətinin hərbi qulluqçusu Qəbul edən Tərəfin dövlətinin ərazisində olduğu müddətdə mülki, cinayət, inzibati hüquq pozuntuları törətdikdə, o, Qəbul edən Tərəfin dövlətinin milli qanunvericiliyinə müvafiq olaraq məsuliyyət daşıyır;

2) Göndərən Tərəfin təhsil alan hərbi qulluqçusunun günahı üzündən Qəbul edən Tərəfin əmlakına zərər dəydikdə və ya o itirildikdə, Göndərən Tərəf Tərəflərin səlahiyyətli nümayəndələri tərəfindən tərtib edilmiş və imzalanmış aktlara əsasən bu əmlakın bərpası üçün zəruri olan məbləğin əvəzini ödəyir.

Maddə 9

Əlavələr və dəyişikliklər

Tərəflərin qarşılıqlı razılığı əsasında bu Sazişə onun ayrılmaz hissələri olan və bu Sazişin 11-ci Maddəsində müəyyən olunmuş qaydada qüvvəyə minən ayrıca protokollarla rəsmiləşdirilən əlavələr və dəyişikliklər edilə bilər.

Maddə 10

Ziddiyyətlər

Bu Sazişin yerinə yetirilməsi zamanı yarana biləcək mübahisələr Tərəflər arasında danışıqlar və məsləhətləşmələr yolu ilə həll ediləcəkdir.

Maddə 11

Yekun müddəalar

Bu Saziş qeyri-müəyyən müddətə bağlanılır və onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Azərbaycan Tərəfinin yazılı bildirişinin diplomatik kanallar vasitəsilə Qazaxıstan Tərəfindən alındığı tarixdən qüvvəyə minir.

Bu Saziş Tərəflərdən birinin bu Sazişə xitam vermək niyyəti barədə digər Tərəfin yazılı

bildirişini diplomatik kanallar vasitəsilə aldığı tarixdən altı ay sonra xitam olunacaqdır.

Moskva şəhərində 3 iyun 2009-cu il tarixdə iki əsl nüsxədə, hər biri Azərbaycan, Qazax və Rus dillərində imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir.

Bu Sazişin müddəalarının təfsiri zamanı ziddiyyətlər yarandığı təqdirdə, Tərəflər Rus dilində olan mətnə müraciət edəcəklər.

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİ ADINDAN	QAZAXISTAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİ ADINDAN
(imza)	*(imza)*

Azərbaycan Respublikası və İsrail Dövləti arasında 2009-cu il iyunun 28-də Bakı şəhərində imzalanmış sənədlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. Azərbaycan Respublikası və İsrail Dövləti arasında 2009-cu il iyunun 28-də Bakı şəhərində imzalanmış aşağıdakı sənədlər təsdiq edilsin:

1.1. Azərbaycan Respublikası Hökuməti və İsrail Dövləti Hökuməti arasında mədəniyyət, təhsil və elm sahəsində əməkdaşlıq haqqında Saziş;

1.2. Azərbaycan Respublikası Hökuməti və İsrail Dövləti Hökuməti arasında informasiya və kommunikasiya texnologiyaları sahəsində əməkdaşlıq haqqında Saziş.

2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bu Sərəncamın 1.1-1.2-ci bəndlərində göstərilən sənədlərin həyata keçirilməsi üçün zəruri tədbirlər görsün.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1.1-1.2-ci bəndlərində göstərilən sənədlərin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə İsrail Dövləti Hökumətini xəbərdar etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 22 iyul 2009-cu il

№ 410

Azərbaycan Respublikası Hökuməti və İsrail Dövləti Hökuməti arasında mədəniyyət, təhsil və elm sahəsində əməkdaşlıq haqqında Saziş

Azərbaycan Respublikası Hökuməti və İsrail Dövləti Hökuməti (bundan sonra "Tərəflər" adlandırılacaq),

iki ölkə arasında mövcud dostluq münasibətlərini inkişaf etdirmək və möhkəmləndirmək niyyətini rəhbər tutaraq,

mədəniyyət və təhsil sahəsində əməkdaşlığı təşviq etmək niyyəti ilə,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər təhsil, mədəniyyət, elm və idman sahəsində əməkdaşlığın, habelə hər iki ölkənin gəncləri arasında əlaqələrin inkişafını təşviq edəcəklər.

Təhsil və elm

Maddə 2

Tərəflər təhsil sahəsində əməkdaşlığı asanlaşdırır, təşviq edir, dəstəkləyir və inkişaf etdirirlər və bu məqsədlə aşağıdakıları edirlər:

Hər iki ölkənin təhsil və peşə müəssisələri və institutları arasında əlaqələri və əməkdaşlığı asanlaşdırır, təşviq edir və genişləndirirlər.

Tərəflərdən birinin təklif etdiyi müvafiq təhsil, elmi və peşə təhsili səfərlərində və təlim kurslarında iştirakı dəstəkləyirlər.

Maddə 3

Tərəflər aşağıdakılar arasında əlaqə, əməkdaşlıq və səfər mübadiləsini genişləndirməyə çalışırlar:

1. universitet və institut müəllimləri, alimləri, tədqiqatçıları və rəhbər heyət;
2. orta məktəb müəllimləri, müəllim köməkçiləri və direktorlar;
3. ibtidai məktəb müəllimləri, müəllim köməkçiləri və direktorlar;
4. məktəbəqədər müəssisələrin (uşaq bağçası) müəllimləri, köməkçilər və direktorlar;
5. yaşlılar üçün nəzərdə tutulan müəssisələrdəki müəllimlər;
6. ölkənin təhsil sistemi ilə əlaqəsi olan müvafiq orqanların rəsmiləri;
7. aspirantlar və alimlər.

Maddə 4

Tərəflər, mümkün olduqda, digər Tərəfin təhsillə bağlı ev sahibliyi etdiyi konqreslər, konfranslar, seminarlar və simpoziumlarda öz nümayəndələrinin iştirakını təşviq edəcəklər.

Maddə 5

Tərəflər ölkələrinin tədris planları, pedaqoji və metodoloji ədəbiyyat və təhsil sistemləri ilə bağlı digər materialların mübadiləsini təşviq edəcəklər.

Maddə 6

Tərəflər ümumi maraq kəsb edən məsələlərlə, xüsusilə aşağıdakılarla bağlı məlumat mübadiləsi edirlər:

1. ibtidai və orta məktəb şəhadətnamələrinin, eləcə də elmi dərəcələrin, texniki peşə məktəbləri və universitet diplomlarının müqayisə və bərabərlik imkanı ilə bağlı məlumat;

2. təhsildə istifadə olunan informasiya və kommunikasiya texnologiyaları;

3. təhsildə xüsusilə yoxsul uşaqlara yardım üçün nəzərdə tutulmuş proqramlar vasitəsilə sosial inteqrasiya haqqında məlumat.

Maddə 7

Tərəflər Azərbaycan və ivrit dillərinin tədrisi də daxil olmaqla Azərbaycanşünaslığın İsraildə, İsrailşünaslığın isə Azərbaycanda inkişafını təşviq edirlər.

Maddə 8

Tərəflər səlahiyyətli orqanları vasitəsilə qarşılıqlı şəkildə məktəb dərsliklərini, xüsusilə digər ölkənin tarixi ilə bağlı kitablardan parçaları yoxlamağa səy göstərəcək və lazım olduqda bu dərsliklərə düzəlişlər edəcəklər.

Mədəniyyət

Maddə 9

Ölkələrin mədəniyyəti haqqında biliyin qarşılıqlı şəkildə genişləndirilməsi məqsədilə, Tərəflər aşağıdakı sahələrdə qarşılıqlı maraq doğuran mədəni fəaliyyətləri həyata keçirmək işində əməkdaşlıq etmək üçün səlahiyyətli orqanları və müəssisələrini təşviq edirlər:

1. təsviri incəsənət, musiqi, rəqs, dram və ədəbiyyat sahəsində məlumat mübadiləsi;

2. mühazirəçi, sərgi, tamaşa və filmlərin mübadiləsi;

3. aktyorlar və teatr truppalarının mübadiləsi;

4. yazıçıların, tərcüməçilərin, qrafik dizaynerlərin, memarların, bəstəkarların, musiqiçilərin, teatr və kino aktyorlarının peşəkar birlikləri arasında əlaqələr;

5. incəsənət məktəbləri, milli muzeylər və kitabxanalar, tətbiqi incəsənət institutları və digər mədəniyyət müəssisələri arasında əməkdaşlıq;

6. bir Tərəfin nümayəndələrinin digər Tərəfin ev sahibliyi etdiyi beynəlxalq konfrans, beynəlxalq festival, müsabiqə, müxtəlif sahələr üzrə mədəni tədbirlərdə iştirakı;

7. arxeoloji abidələrin, artefaktların, arxiv materiallarının qorunması və qeyri-maddi mədəni artefaktların mühafizəsi sahəsində Tərəflərin müəssisələri və müvafiq ekspertləri arasında əməkdaşlığın təşviqi;

8. tarixi abidələrin, mədəni irsin və milli kolleksiyaların qorunması sahəsində ekspertlərin mübadiləsi;

9. Tərəflərin nümayəndələrinin dövlət arxivi, milli və universitet kitabxanaları və digər milli mədəni müəssisələrdən istifadə etməsinin asanlaşdırılması.

Radio, televiziya və kino

Maddə 10

Tərəflər aşağıdakılar da daxil olmaqla kütləvi informasiya vasitələri arasında əməkdaşlığı təşviq edirlər:

1. hər iki ölkənin informasiya agentlikləri, mətbuat təşkilatları, radio və televiziya müəssisələri arasında əməkdaşlığın təşviqi;

2. mətbuat materialları və orijinal radio və televiziya proqramlarının mübadiləsi;

3. Tərəflərin kino istehsalı müəssisələri arasında əməkdaşlığın təşviqi.

İdman

Maddə 11

Tərəflər, xüsusilə aşağıdakılar vasitəsilə idman sahəsində əməkdaşlığı təşviq və inkişaf etdirirlər:

1. bir Tərəfin nümayəndəsinin digər Tərəfin ev sahibliyi etdiyi beynəlxalq idman tədbirlərində, müsabiqələrdə və iclaslarda iştirakı;

2. hər iki ölkənin idman assosiasiyaları və müəssisələri arasında əməkdaşlığın təşviq edilməsi.

Gənclər

Maddə 12

Tərəflər gənclər təşkilatı, gənclərin fəaliyyəti ilə məşğul olan dövlət orqanları və müəssisələr arasında birbaşa əlaqələr əsasında hər iki ölkənin gəncləri arasında əməkdaşlığı təşviq edirlər.

Maddə 13

Tərəflər mədəniyyət, təhsil və elm sahəsində fəaliyyət göstərən beynəlxalq təşkilatların işində iştirak çərçivəsində əməkdaşlıq edə bilərlər.

Maddə 14

1. Bu Sazişin icrası məqsədilə Azərbaycan-İsrail Birgə Komitəsi yaradılacaq. Birgə Komitə Əməkdaşlıq Proqramları məsələləri, habelə maliyyə məsələlərini ətraflı müzakirə etmək üçün hər üç ildə bir dəfə və ya zəruri hallarda növbə ilə öz ölkələrinin paytaxt şəhərlərində plenar iclas keçirir.

2. Birgə Komitə tərəfindən hazırlanmış Əməkdaşlıq Proqramının icrası Tərəflər arasında diplomatik kanallar vasitəsilə təşkil olunur.

Maddə 15

1. Tərəflər Sazişin müddəalarını və məqsədlərini, bununla bağlı mübadilə və əməkdaşlığı həyata keçirmək üçün əlverişli şəraitin yaradılmasına çalışırlar.

2. Bu Sazişə müvafiq olaraq görülən bütün fəaliyyətlər Tərəflərin qanunlarına və qaydalarına müvafiq olaraq icra edilir.

3. Bu Sazişə müvafiq olaraq görülən bütün fəaliyyətlər maliyyə vəsaitlərindən asılı olacaq.

Maddə 16

1. Tərəflər bu Saziş əsasında əldə olunan bütün materialların müəlliflik hüququ və digər əlaqəli hüquqlar da daxil olmaqla, əqli mülkiyyət hüququnun qorunması üçün ölkənin qanun və qaydalarına uyğun olaraq bütün müvafiq hüquqi vasitələri təmin edirlər.

2. Birgə fəaliyyət nəticəsində əldə olunan və ya yaradılan əqli mülkiyyət hüququ birgə fəaliyyətə başlamazdan əvvəl ayrı-ayrı müqavilələrlə müəyyən olunmuş və qarşılıqlı şəkildə razılaşdırılmış şərtlərlə müəyyənləşdirilir.

Maddə 17

Tərəflərdən heç biri bu Sazişə müvafiq olaraq digərinin yazılı razılığını almadan əldə edilmiş kommersiya baxımından dəyərli olan məxfi məlumatı üçüncü Tərəfə ötürə bilməz.

Maddə 18

Bu Sazişin təfsiri və ya icrası ilə bağlı yaranan hər hansı mübahisə Tərəflər arasında diplomatik kanallar vasitəsilə dostcasına həll olunur.

Maddə 19

Bu Saziş Tərəflərin qarşılıqlı razılığı əsasında dəyişdirilə bilər. İstənilən dəyişiklik yazılı formada olur və 20-ci maddədə göstərildiyi kimi qüvvəyə minmə prosedurlarına uyğun olaraq qüvvəyə minir.

Maddə 20

Bu Saziş onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Tərəflərin sonuncu bildirişinin diplomatik kanallar vasitəsilə alındığı tarixdən qüvvəyə minir.

Maddə 21

Bu Saziş beş il müddətinə bağlanılır və Tərəflərdən biri bu Sazişin müddətinin bitməsinə on azı altı ay qalmış onu ləğv etmək niyyəti barədə yazılı şəkildə diplomatik kanallar vasitəsilə digər Tərəfə məlumat verməzsə, onun qüvvəsi avtomatik olaraq növbəti beşillik müddətlərə uzadılacaqdır.

Bu Saziş Bakı şəhərində 28 iyun 2009-cu il tarixində, müvafiq olaraq 6 Temuz 5769-cu il tarixində Azərbaycan, ivrit və ingilis dillərində olmaqla, iki əsl nüsxədə imzalanmışdır, bütün mətnlər bərabər autentikdir. Təfsir zamanı fikir ayrılığı yarandığı təqdirdə, ingilis dilində olan mətndən istifadə ediləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	İSRAİL DÖVLƏTİ HÖKUMƏTİ ADINDAN
ƏBÜLFƏS QARAYEV	*DANİEL HEŞKOVİTZ*
Mədəniyyət və turizm naziri	*Elm və texnologiya naziri*

Azərbaycan Respublikası Hökuməti və İsrail Dövləti Hökuməti arasında informasiya və kommunikasiya texnologiyaları sahəsində əməkdaşlıq haqqında Saziş

Azərbaycan Respublikası Hökuməti və İsrail Dövləti Hökuməti (bundan sonra "Tərəflər" adlandırılacaq),

hər iki ölkənin sosial və iqtisadi inkişafı çərçivəsində informasiya və kommunikasiya

texnologiyaları sahəsində qarşılıqlı faydalı əməkdaşlığı inkişaf etdirməyi və möhkəmləndirməyi arzu edərək,

hər bir müvafiq ölkədə ictimaiyyət üçün səmərəli və dayanıqlı xidmətlərin yerinə yetirilməsi ilə əlaqədar eyni məqsəd və maraqları bölüşərək,

ideyalar, məlumatlar, bilik və təcrübələrin mübadiləsi vasitəsilə informasiya və kommunikasiya texnologiyaları sahəsində, həmçinin ümumi maraq kəsb edən digər sahələrdə aparılan əməkdaşlığın Tərəflər üçün faydalı olacağını hesab edərək,

informasiya və kommunikasiya texnologiyaları sahəsində Tərəflər arasında kommersiya əlaqələrinin möhkəmləndirilməsində mövcud olan potensial və mövcud imkanlardan tam istifadə etmək üçün ehtiyacı dərk edərək,

tərəflərin informasiya və kommunikasiya texnologiyaları sahəsində sərmayələri, birgə müəssisələri, ümumi maraqları, texnoloji inkişafı və ticarəti inkişaf etdirmək arzusunda olduqlarını nəzərə alaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər bərabərlik, qarşılılıq və qarşılıqlı fayda əsasında bu Sazişin müddəalarına, o cümlədən Ümumdünya Poçt İttifaqının Konstitusiyası və Ümumdünya Poçt Konvensiyasının, Beynəlxalq Telekommunikasiya İttifaqının Konstitusiyası və Konvensiyasının və Dünya Ticarət Təşkilatının əsas qaydalarının qarşılıqlı tətbiqi mümkün olan müddəalarına uyğun olaraq telekommunikasiya və poçt xidmətlərinin inkişafını təmin edəcəklər.

Bu Sazişlə yuxarıda qeyd olunan aidiyyəti beynəlxalq sazişlərin və yaxud Tərəflərin iştirakçısı olduqları digər müvafiq çoxtərəfli müqavilələrin müddəalarından irəli gələn öhdəlikləri arasında ziddiyyət yarandığı təqdirdə, çoxtərəfli müqavilə üstünlük təşkil edəcəkdir.

Maddə 2

Tərəflər arasında informasiya və kommunikasiya texnologiyaları (İKT) sahəsində əməkdaşlıq aşağıdakıları əhatə edir:

1. telekommunikasiyanın tənzimlənməsi ilə əlaqədar İsrail Dövlətinin təcrübəsinin öyrənilməsi;

2. Azərbaycan Respublikasında informasiya texnologiyaları üzrə azad iqtisadi zonaların - İT texnoparklarının yaradılmasında İsrail Dövlətinin təcrübəsinin öyrənilməsi və bu işdə İsrail mütəxəssislərinin iştirakının təmin edilməsi;

3. Azərbaycan Respublikasının informasiya və kommunikasiya texnologiyaları sahəsinə İsrail müəssisələri tərəfindən sərmayə qoyuluşlarının təşviq etdirilməsi;

4. informasiya və kommunikasiya texnologiyaları sahəsində Tərəflərin müəssisələri arasında birgə müəssisələrin yaradılmasının təşviq edilməsi;

5. elmi-tədqiqatların aparılması sahəsində əməkdaşlıq və elmi informasiyanın mübadiləsi;

6. İsrail Dövlətinin telekommunikasiya təsisatlarında və Azərbaycanın ali təhsil müəssi-

sələrində İKT mütəxəssislərinin hazırlanması sahəsində əməkdaşlıq edilməsi;

7. birgə seminar, konfrans, forum və sərgilərin keçirilməsi;

8. beynəlxalq təşkilatlarda (ÜPİ və BTİ kimi) hər iki ölkənin milli maraqları üst-üstə düşdüyü təqdirdə bir-birini dəstəkləməsi;

9. sərbəst tənzimləmə şəraitində beynəlxalq telefon danışıq tariflərinə yenidən baxılmasının mütəxəssislər səviyyəsində müzakirə edilməsi və hər iki ölkənin mövcud tranzit telefon trafiki mübadiləsi imkanlarından səmərəli istifadə edilməsi;

10. hər iki Tərəfin nümayəndə heyətlərinin təcrübə mübadiləsi məqsədilə qarşılıqlı səfərlərinin təşkili;

11. qarşılıqlı razılaşma əsasında digər məsələlər.

Maddə 3

Tərəflər İKT sahəsində görülmüş işlərin daha da təkmilləşdirilməsi, əməkdaşlığın inkişaf etdirilməsi, yeni texnologiyaların tətbiq edilməsi və birgə müəssisələrin yaradılması məqsədi ilə aidiyyəti orqanlarını, təşkilat və müəssisələrini bu sahədə sıx əlaqələrin və məlumat mübadiləsinin təkmilləşdirilməsi, eləcə də xüsusi proqramların və layihələrin yerinə yetirilməsi sahəsində əməkdaşlığa təşviq edəcəklər.

Tərəflər kəndlərdə telekommunikasiyanın inkişaf etdirilməsi, rəqəmsallara keçidin təmin edilməsi və lokal şəbəkələrin tənzimlənməsi sahəsində İsrail Dövlətinin təcrübəsinin tətbiqi üçün hər iki tərəfin mütəxəssislərinin birgə iş aparmasını təmin edəcəklər.

Maddə 4

Bu Sazişin müddəaları Tərəflərin iştirakçısı olduqları digər beynəlxalq müqavilələrdən irəli gələn öhdəliklərinə toxunmur.

Maddə 5

Tərəflər bu Saziş çərçivəsində mübadilə etdikləri konfidensial informasiyanın dövlətlərinin milli qanun və qaydalarına uyğun surətdə qorunması üçün zəruri tədbirlər görmək, həmçinin belə informasiyanı təqdim etmiş Tərəfin yazılı icazəsi olmadan bu informasiyanı üçüncü tərəfə aşkarlamamaq və yaymamaq öhdəliyi daşıyırlar. Bu müddəa hazırkı Saziş xitam olunduqdan sonra da qüvvədə qalır.

Maddə 6

Tərəflər bu Sazişin müddəalarının təfsiri və ya tətbiqi zamanı mübahisələr yarandığı təqdirdə, onları danışıqlar və məsləhətləşmələr yolu ilə həll edəcəklər.

Maddə 7

1. Bu Sazişin həyata keçirilməsi üzrə fəaliyyətin əlaqələndirilməsinə görə məsul səlahiyyətli orqanlar:

Azərbaycan Respublikası Hökuməti adından - Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi;

İsrail Dövləti Hökuməti adından - İsrail Dövlətinin Rabitə Nazirliyidir.

Tərəflər başqa cür razılaşmadıqları təqdirdə, bu Sazişdən irəli gələn məsələlərin həyata

keçirilməsi üzrə səlahiyyətli orqanların qarşılıqlı fəaliyyəti zamanı işçi dil qismində ingilis dilindən istifadə ediləcəkdir.

2. Tərəflər əməkdaşlığın xüsusiyyətlərindən asılı olaraq, bu Sazişin həyata keçirilməsi üzrə fəaliyyətin əlaqələndirilməsinə görə məsul olan digər dövlət hakimiyyəti orqanlarını bu Sazişin 8-ci Maddəsinə əsasən təyin edə bilərlər.

3. Tərəflər başqa cür razılaşmadıqları təqdirdə, hər bir Tərəf bu Sazişdən irəli gələn məsələlərin həyata keçirilməsi ilə bağlı xərcləri özü ödəyəcəkdir.

Maddə 8

Tərəflərdən hər biri istənilən vaxt bu Sazişə düzəlişlər edilməsini təklif edə bilər. Tərəflər arasında düzəliş və əlavələrlə bağlı birbaşa məsləhətləşmələr Tərəflərdən birinin bu barədə diplomatik kanallarla yazılı bildirişi göndərdiyi tarixdən 60 gün ərzində keçiriləcəkdir.

Bu Sazişə istənilən düzəliş yazılı formada olacaq və 9-cu maddədə nəzərdə tutulan qaydada qüvvəyə minəcəkdir.

Maddə 9

Bu Saziş, onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Tərəflərin diplomatik notalarının ikincisinin alındığı tarixdən qüvvəyə minir.

Bu Saziş iki il müddətinə bağlanılır. Tərəflərdən biri bu Sazişin müddətinin bitməsinə altı ay qalmış ona xitam vermək niyyəti barədə yazılı şəkildə digər Tərəfə məlumat verməzsə, onun qüvvəsi avtomatik olaraq növbəti ikiillik müddətlərə uzadılacaqdır. Sazişə xitam verilməsi xitamvermə zamanı davam edən fəaliyyətlərə təsir etməyəcəkdir və Tərəflər başqa cür razılaşmadıqları təqdirdə, bu cür fəaliyyətlər onların başa çatmasına qədər davam edəcəkdir.

Bu Saziş Bakı şəhərində 28 iyun 2009-cu il tarixində, müvafiq olaraq 6 Temuz 5769-cu il tarixində Azərbaycan, ivrit və ingilis dillərində iki əsl nüsxədə imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir. Bu Sazişin təfsirində fikir ayrılığı yarandığı təqdirdə, ingilis dilindəki mətndən istifadə ediləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	İSRAİL DÖVLƏTİ HÖKUMƏTİ ADINDAN
ƏLİ ABBASOV	*UZİ LANDAU*
Rabitə və informasiya texnologiyaları naziri	*Milli infrastruktur naziri*

Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında 2009-cu il iyunun 29-da Bakı şəhərində imzalanmış sənədlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında 2009-cu il iyunun 29-da Bakı şəhərində imzalanmış aşağıdakı sənədlər təsdiq edilsin:

1.1. Azərbaycan Respublikası Hökuməti və Kabardin-Balkar Respublikası Hökuməti (Rusiya Federasiyası) arasında ticarət-iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq haqqında Saziş;

1.2. Azərbaycan Respublikasının Rusiya Federasiyasında və Rusiya Federasiyasının Azərbaycan Respublikasındakı diplomatik nümayəndəliklərinin yerləşdirilməsi və xidmət göstərilməsi şərtləri haqqında Azərbaycan Respublikası Hökuməti və Rusiya Federasiyası Hökuməti arasında Sazişin hazırlanması haqqında Azərbaycan Respublikasının Xarici İşlər Naziri və Rusiya Federasiyasının Xarici İşlər Nazirinin Birgə Bəyannaməsi.

2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bu Sərəncamın 1.1-1.2-ci bəndlərində göstərilən sənədlərin həyata keçirilməsi üçün zəruri tədbirlər görsün.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1.1-ci bəndində göstərilən Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Rusiya Federasiyası Hökumətini xəbərdar etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 22 iyul 2009-cu il

№ 411

Azərbaycan Respublikası Hökuməti və Kabardin-Balkar Respublikası Hökuməti (Rusiya Federasiyası) arasında ticarət-iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq haqqında Saziş

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikası Hökuməti və Kabardin-Balkar Respublikası Hökuməti (Rusiya Federasiyası),

Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizlik haqqında 1997-ci il 3 iyul tarixli Müqavilənin və Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında 2010-cu ilə qədər olan dövrdə uzunmüddətli iqtisadi əməkdaşlıq haqqında 2002-ci il 25 yanvar tarixli Müqavilənin müddəalarına əsaslanaraq,

ikitərəfli ticarət, iqtisadi, elmi-texniki və mədəni əlaqələrin gələcəkdə dərinləşməsi və genişlənməsində qarşılıqlı marağı nəzərə alaraq,

Azərbaycan Respublikası və Kabardin-Balkar Respublikasının (Rusiya Federasiyası) iqtisadi, istehsal, maliyyə, mülkiyyət, mədəniyyət və mövcud olan digər imkanlarından daha səmərəli istifadəsini dərk edərək,

sahibkarlığa dəstək və onun inkişafına, Azərbaycan Respublikası və Kabardin-Balkar Respublikası (Rusiya Federasiyası) ərazisində qeydiyyata alınmış təsərrüfat subyektləri (bundan sonra - təsərrüfat subyektləri) arasında birbaşa əlaqələrin qurulmasına və genişlənməsinə mühüm əhəmiyyət verərək;

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər uzunmüddətli və hərtərəfli iqtisadi, elmi-texniki və mədəni əlaqələri qarşılıqlı fayda, anlaşma, hörmət və etibar prinsipləri əsasında və Azərbaycan Respublikası qanunvericiliyinə və Rusiya Federasiyasının qanunvericiliyinə uyğun həyata keçirirlər.

Maddə 2

Tərəflər öz səlahiyyətləri çərçivəsində Azərbaycan Respublikası qanunvericiliyinə və Rusiya Federasiyası qanunvericiliyi uyğun olaraq onlar tərəfindən imzalanmış müqavilələr əsasında, təşkilati-hüquqi və mülkiyyət formasından asılı olmayaraq, təsərrüfat subyektləri arasında birbaşa əlaqələrin yaranmasına kömək göstərirlər.

Tədarük edilən mal və xidmətlərin həcmi, çeşidi və qiyməti, həmçinin qarşılıqlı hesablaşmaların şərtləri və qaydaları təsərrüfat subyektləri arasında imzalanmış müqavilələrdə göstərilir. Tərəflər bu müqavilələrdən irəli gələn öhdəliklər üzrə məsuliyyət daşımırlar.

Maddə 3

Tərəflər öz səlahiyyətləri çərçivəsində iqtisadiyyatın müxtəlif sahələrində uzunmüddətli əlaqələr əsasında ikitərəfli qarşılıqlı faydalı əlaqələrin stabil inkişafına kömək göstərirlər.

Maşınqayırma, neft-kimya, yanacaq-energetika kompleksi, qara və əlvan metallurgiya, tikinti, rabitə və informatizasiya, yüngül sənaye, kənd təsərrüfatı sahəsinə daha çox diqqət yetirilir.

Maddə 4

Tərəflər informasiya mübadiləsi, birgə yarmarkaların, sərgilərin təşkili, Azərbaycan Respublikası və Kabardin-Balkar Respublikası (Rusiya Federasiyası) ərazisində istehsal edilən mal və xidmətlərin qarşılıqlı təşviqi yolu ilə Azərbaycan Respublikası qanunvericiliyinə və Rusiya Federasiyası qanunvericiliyinə uyğun olaraq xarici iqtisadi əlaqələr sahəsində əməkdaşlığı inkişaf etdirirlər.

Maddə 5

Tərəflər öz səlahiyyətləri çərçivəsində müəssisələrin yenidən qurulması və müasirləşdirilməsinə, yeni istehsalat həcmlərinin yaradılmasına istiqamətlənmiş birgə investisiya layihələrinin həyata keçirilməsinə, həmçinin Azərbaycan Respublikasının qanunvericiliyinə və Rusiya Federasiyasının qanunvericiliyinə uyğun olaraq Tərəflər arasında müqavilələrlə müəyyən olunmuş şərtlər əsasında investisiya qoyuluşlarına kömək göstərirlər.

Maddə 6

Tərəflər öz səlahiyyətləri çərçivəsində bu Sazişin həyata keçirilməsinə imkan yaradan elmi-texniki, iqtisadi, hüquqi və digər informasiyanın mübadilə edilməsinə kömək göstərirlər.

Tərəflərin bu Saziş əsasında aldığı məlumatlar üçüncü tərəfə yalnız Tərəf dövlətlərin qanunvericiliyinə uyğun olaraq və məlumatı alınan Tərəfin rəsmi razılığı əsasında üçüncü Tərəfə verilə bilər.

Maddə 7

Tərəflər mədəniyyət, təhsil, səhiyyə, gənclər siyasəti, turizm, idman və sosial-mədəni həyatın digər sahələrində Tərəflərin müəssisə, idarə və təşkilatlarının əlaqələrinin və münasibətlərinin inkişafına kömək göstərirlər.

Maddə 8

Tərəflər Azərbaycan Respublikası qanunvericiliyinə və Rusiya Federasiyasının qanunvericiliyinə uyğun olaraq ticarət evlərinin və təşkilatlarının Azərbaycan Respublikası və Kabardin-Balkar Respublikası (Rusiya Federasiyası) ərazisində açılmasına və fəaliyyət göstərməsinə kömək göstərirlər.

Maddə 9

Tərəflər əməkdaşlığın əlaqələndirilməsi, bu Sazişin icrasına nəzarət, qarşılıqlı maraq kəsb edən məsələlər üzrə fikir mübadiləsinin aparılması məqsədilə müntəzəm işçi görüşlər, məsləhətləşmələr və danışıqlar keçirirlər.

Tərəflər zərurət yarandığı halda bu Sazişdə qeyd olunan əməkdaşlığın müxtəlif sahələrində ayrı-ayrı məsələlərin həlli üzrə birgə ekspert-analitik və digər işçi qruplar yarada bilərlər.

Maddə 10

Tərəflər arasında bu Sazişin müddəalarının təfsiri və/və ya xaıud tətbiqi ilə bağlı yaranan mübahisələr məsləhətləşmələr və danışıqlar yolu ilə həll edilir.

Tərəflər qarşılıqlı razılıq əsasında bu Sazişə ayrı-ayrı protokollarla rəsmiləşdirilən və bu Sazişin 11-ci maddəsinə uyğun olaraq qüvvəyə minən dəyişikliklər edə bilərlər.

Maddə 11

Bu Saziş onun qüvvəyə minməsi üçün zəruri olan daxili prosedurların başa çatması barədə sonuncu yazılı bildirişin alındığı tarixdən qüvvəyə minir.

Bu Saziş beş il müddətinə bağlanır. Tərəflərdən biri müvafiq müddətin bitməsinə ən azı altı ay qalmış bu Sazişin qüvvəsini dayandırmaq niyyəti barədə digər Tərəfi yazılı şəkildə xəbərdar etmədiyi təqdirdə, Sazişin qüvvəsi avtomatik olaraq növbəti beş il müddətinə uzadılır.

Bakı şəhərində 29 iyun 2009-cu ildə hər biri Azərbaycan və rus dillərində olmaqla, iki nüsxədə imzalanmışdır, hər iki mətn eyni qüvvəyə malikdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN

YAQUB EYYUBOV
Baş nazirinin birinci müavini

KABARDİN-BALKAR RESPUBLİKASI HÖKUMƏTİ (RUSİYA FEDERASİYASI) ADINDAN

ARSEN KONOKOV
Kabardin-Balkar Respublikasının prezidenti

Azərbaycan Respublikasının Rusiya Federasiyasında və Rusiya Federasiyasının Azərbaycan Respublikasında diplomatik nümayəndəliklərinin yerləşdirilməsi və xidmət göstərilməsi şərtləri haqqında Azərbaycan Respublikası Hökuməti və Rusiya Federasiyası Hökuməti arasında Sazişin hazırlanması haqqında Azərbaycan Respublikasının xarici işlər naziri və Rusiya Federasiyasının xarici işlər nazirinin Birgə Bəyannaməsi

Azərbaycan Respublikasının xarici işlər naziri və Rusiya Federasiyasının xarici işlər naziri,

iki dövlət arasında hörmət və etimada əsaslanan ənənəvi dostluq və mehriban qonşuluq münasibətlərindən çıxış edərək,

3 iyul 1997-ci il tarixli "Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizlik haqqında Müqavilə"yə, 9 yanvar 2001-ci il tarixli "Bakı Bəyannaməsi"nə, 6 fevral 2004-cü il tarixli "Moskva Bəyannaməsi"nə, 22 fevral 2006-cı il "Azərbaycan Respublikası Prezidenti və Rusiya Federasiyası Prezidentinin Birgə Bəyanatı"na və 3 iyul 2008-ci il tarixli "Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında dostluq və strateji tərəfdaşlıq haqqında Bəyannamə"yə istinad edərək,

Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında İqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın 21 fevral 2006-cı il tarixli və 29 may 2009-cu il tarixli X və XII iclaslarının müvafiq qərarlarını rəhbər tutaraq,

Azərbaycan Respublikasının Rusiya Federasiyasında və Rusiya Federasiyasının Azərbaycan Respublikasındakı diplomatik nümayəndəliklərinin yerləşdirilməsi və xidmət göstərilməsi şərtləri barədə məsələnin hökumətlərarası sazişin imzalanması vasitəsilə yekun və qarşılıqlı faydalı tənzimlənməsinin həmin diplomatik nümayəndəliklərin normal fəaliyyətinin vacib şərti olmasından çıxış edərək,

Azərbaycan Respublikasının səfirliyinin yerləşdiyi bina və tikililərin Rusiya tərəfindən Moskva şəhərinin mülkiyyətindən Rusiya Federasiyasının federal mülkiyyətinə təhvil verilməsinin həmin binalara Rusiya Federasiyasında Azərbaycan Respublikasının mülkiyyətinə verilməsinin yekunlaşdırılması üçün zəruri şərtlər yaratdığını təsdiq edərək,

Azərbaycan Respublikasının Rusiya Federasiyasında Rusiya Federasiyasının Azərbaycan Respublikasında diplomatik nümayəndəliklərinin yerləşdirilməsi və xidmət göstərilməsi şərtləri ilə əlaqədar məsələlərin xoşməramlılıq və qarşılıqlı ruhunda nəzərdən keçirilməsinin əhəmiyyətini etiraf edərək,

aşağıdakılar barədə razılığa gəldilər:

Tərəflər Azərbaycan Respublikasının Rusiya Federasiyasında və Rusiya Federasiyasının Azərbaycan Respublikasındakı diplomatik nümayəndəliklərinin yerləşdirilməsi və xidmət göstərilməsi şərtləri haqqında Azərbaycan Respublikası Hökuməti və Rusiya Federasiyası Hökuməti arasında Sazişin müvafiq daşınmaz obyektlərə mülkiyyət hüququnun qarşılıqlı tanınması əsasında razılaşdırılmasının başa çatdırılması və 2009-cu ilin sonuna kimi imzalanması üçün bütün zəruri tədbirləri görəcək və bu məqsədlə 2009-cu ilin III rübündə Tərəflərin mütəxəssislərinin məsləhətləşmələrini keçirəcəklər.

Bakı şəhərində 29 iyun 2009-cu il tarixində Azərbaycan və rus dillərində olmaqla, iki nüsxədə imzalanmışdır.

AZƏRBAYCAN RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ	*RUSİYA FEDERASİYASININ XARİCİ İŞLƏR NAZİRİ*
ELMAR MƏMMƏDYAROV	*SERGEY LAVROV*

"Azərbaycan Respublikası Maliyyə Nazirliyi və Çexiya Respublikası Maliyyə Nazirliyi arasında əməkdaşlıq haqqında Memorandum"u imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Maliyyə Nazirliyi və Çexiya Respublikası Maliyyə Nazirliyi arasında əməkdaşlıq haqqında" Memorandum"u imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının maliyyə naziri Samir Rauf oğlu Şərifova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Memorandumu imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının maliyyə naziri Samir Rauf oğlu Şərifova verilməsi barədə Çexiya Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 22 iyul 2009-cu il

№ 413

Azərbaycan Respublikası ilə Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı arasında Kredit Sazişini (Magistral Yol II Layihəsi üçün İkinci Əlavə Maliyyələşdirmə)" və "Azərbaycan Respublikası ilə Beynəlxalq İnkişaf Assosiasiyası arasında Maliyyələşdirmə Sazişini (Magistral Yol II Layihəsi üçün İkinci Əlavə Maliyyələşdirmə)" Azərbaycan Respublikası adından imzalamaq səlahiyyəti verilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Sərəncamı

1. "Azərbaycan Respublikası ilə Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı arasında Kredit Sazişini (Magistral Yol II Layihəsi üçün İkinci Əlavə Maliyyələşdirmə)" və "Azərbaycan Respublikası ilə Beynəlxalq İnkişaf Assosiasiyası arasında Maliyyələşdirmə Sazişini (Magistral Yol II Layihəsi üçün İkinci Əlavə Maliyyələşdirmə)" Azərbaycan Respublikası adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının nəqliyyat naziri Ziya Ərzuman oğlu Məmmədova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu sərəncamın 1-ci bəndində göstərilən sazişləri Azərbaycan Respublikası adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının nəqliyyat naziri Ziya Ərzuman oğlu Məmmədova verilməsi barədə Beynəlxalq Yenidənqurma və İnkişaf Bankına və Beynəlxalq İnkişaf Assosiasiyasına müvafiq bildiriş göndərsin.

3. Bu sərəncam imzalandığı gündən qüvvəyə minir.

A.RASİ-ZADƏ

Azərbaycan Respublikasının Baş naziri

Bakı şəhəri, 23 iyul 2009-cu il

№ 180s

"Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti və Fransa Respublikasının İmmiqrasiya, İnteqrasiya, Milli Kimlik və Həmrəy İnkişaf Nazirliyi arasında əməkdaşlıq üzrə Anlaşma Memorandumu"nu imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti və Fransa Respublikasının İmmiqrasiya, İnteqrasiya, Milli Kimlik və Həmrəy İnkişaf Nazirliyi arasında əməkdaşlıq üzrə Anlaşma Memorandumu"nu imzalamaq səlahiyyəti Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin rəisi - Sərhəd Qoşunlarının komandanı Elçin İsaağa oğlu Quliyevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Anlaşma Memorandumunu imzalamaq səlahiyyətinin Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin rəisi - Sərhəd Qoşunlarının komandanı Elçin İsaağa oğlu Quliyevə verilməsi barədə Fransa Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 24 iyul 2009-cu il

№ 416

Azərbaycan Respublikası və Latviya Respublikası arasında iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq üzrə hökumətlərarası komissiyanın Azərbaycan Respublikası tərəfindən yeni tərkibinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. Azərbaycan Respublikası və Latviya Respublikası arasında iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın Azərbaycan Respublikası tərəfindən yeni tərkibi aşağıdakı heyətdə təsdiq edilsin:

Komissiyanın həmsədri:

Ziya Məmmədov - Azərbaycan Respublikasının nəqliyyat naziri

Komissiyanın üzvləri:

Xələf Xələfov - Azərbaycan Respublikası xarici işlər nazirinin müavini

İlqar Fətizadə - Azərbaycan Respublikası maliyyə nazirinin birinci müavini

Gülməmməd Cavadov - Azərbaycan Respublikası sənaye və energetika nazirinin müavini

Sevinc Həsənova - Azərbaycan Respublikası iqtisadi inkişaf nazirinin müavini

Sevda Məmmədəliyeva - Azərbaycan Respublikası mədəniyyət və turizm nazirinin müavini

Elmar Qasımov - Azərbaycan Respublikası təhsil nazirinin müavini

İltimas Məmmədov - Azərbaycan Respublikası rabitə və informasiya texnologiyaları nazirinin müavini

Səfər Mehdiyev - Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini

Avtandil Babayev - Azərbaycan Respublikasının Mərkəzi Bankının İdarə Heyəti sədrinin müavini

Tofiq Zülfüqarov - Azərbaycan Respublikasının Latviya Respublikasındakı Fövqəladə və Səlahiyyətli Səfiri

2. "Azərbaycan Respublikası və Latviya Respublikası arasında iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibinin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 3 oktyabr tarixli, 1717 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, № 10, maddə 858) 1-ci bəndi qüvvədən düşmüş hesab edilsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Azərbaycan Respublikası və Latviya Respublikası arasında iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın Azərbaycan Respublikası tərəfindən yeni tərkibi barədə Latviya Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 24 iyul 2009-cu il

№ 417

"Azərbaycan Respublikası Hökuməti və Rusiya Federasiyası Hökuməti arasında ikitərəfli hərbi-texniki əməkdaşlığın gedişində istifadə edilən və əldə edilmiş əqli fəaliyyətin nəticələrinə hüquqların qarşılıqlı mühafizəsi haqqında Sazişin həyata keçirilməsi üzrə birgə işçi qrupu haqqında Əsasnamə"ni Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti və Rusiya Federasiyası Hökuməti arasında ikitərəfli hərbi-texniki əməkdaşlığın gedişində istifadə edilən və əldə edilmiş əqli fəaliyyətin nəticələrinə hüquqların qarşılıqlı mühafizəsi haqqında Sazişin həyata keçirilməsi üzrə birgə işçi qrupu haqqında Əsasnamə"ni Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikası müdafiə nazirinin müavini Çingiz Mustafa oğlu Məmmədova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Əsasnaməni Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikası müdafiə nazirinin müavini Çingiz Mustafa oğlu Məmmədova verilməsi barədə Rusiya Federasiyası Hökumətinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 28 iyul 2009-cu il

№ 420

Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 22 iyul tarixli 410 nömrəli Sərəncamı ilə təsdiq edilmiş, Azərbaycan Respublikası və İsrail Dövləti arasında 2009-cu il iyunun 28-də Bakı şəhərində imzalanmış sənədlərin həyata keçirilməsi üçün zəruri tədbirlər barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Sərəncamı

1. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi, Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi, Azərbaycan Respublikasının Təhsil Nazirliyi, Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi, Azərbaycan Respublikasının Maliyyə Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası və digər dövlət orqanları aidiyyəti üzrə "Azərbaycan Respublikası və İsrail Dövləti arasında 2009-cu il iyunun 28-də Bakı şəhərində imzalanmış sənədlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 22 iyul tarixli 410 nömrəli Sərəncamı ilə təsdiq edilmiş, Azərbaycan Respublikası və İsrail Dövləti arasında 2009-cu il iyunun 28-də Bakı şəhərində imzalanmış aşağıdakı sənədlərin həyata keçirilməsi üçün zəruri tədbirlər görsünlər:

1.1. Azərbaycan Respublikası Hökuməti və İsrail Dövləti Hökuməti arasında mədəniyyət, təhsil və elm sahəsində əməkdaşlıq haqqında Saziş;

1.2. Azərbaycan Respublikası Hökuməti və İsrail Dövləti Hökuməti arasında informasiya və kommunikasiya texnologiyaları sahəsində əməkdaşlıq haqqında Saziş.

2. Bu sərəncam imzalandığı gündən qüvvəyə minir.

A.RASİ-ZADƏ

Azərbaycan Respublikasının Baş naziri

Bakı şəhəri, 5 avqust 2009-cu il

№ 197s

"Koreya Respublikasının Xarici İşlər və Ticarət Nazirliyi ilə Azərbaycan Respublikasının Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi arasında Azərbaycanda Torpaq Kadastr Sisteminin təkmilləşdirilməsi layihəsinin həyata keçirilməsinə dair Qrant Razılaşması" təsdiq edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Sərəncamı

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 9 iyun tarixli 132s nömrəli sərəncamı ilə verilmiş səlahiyyətə əsasən 2009-cu il iyunun 23-də imzalanmış "Koreya Respublikasının Xarici İşlər və Ticarət Nazirliyi ilə Azərbaycan Respublikasının Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi arasında Azərbaycanda Torpaq Kadastr Sisteminin təkmilləşdirilməsi layihəsinin həyata keçirilməsinə dair Qrant Razılaşması" təsdiq edilsin .

2. Azərbaycan Respublikasının Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinə tapşırılsın

ki, Koreya Respublikasının Xarici İşlər və Ticarət Nazirliyi tərəfindən ayrılmış qrantın istifadəsinə dair məlumatı ildə bir dəfədən az olmayaraq, zəruri hallarda tələb olunduqda və layihə tam başa çatdıqdan sonra yekun hesabatı "Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi ilə razılaşdırmaqla, Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu sərəncamın 1-ci bəndində göstərilən sənədin qüvvəyə minməsi üçün zəruri dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Koreya tərəfinə müvafiq bildiriş göndərsin.

4. Bu sərəncamın icrasına nəzarət Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyinə həvalə edilsin.

5. Bu sərəncam imzalandığı gündən qüvvəyə minir.

A.RASİ-ZADƏ

Azərbaycan Respublikasının Baş naziri

Bakı şəhəri, 6 avqust 2009-cu il

№ 201s

Azərbaycan Respublikasının Belarus Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri Ə.T. Nağıyevin eyni zamanda Azərbaycan Respublikasının Müstəqil Dövlətlər Birliyinin nizamnamə və digər orqanları yanında daimi səlahiyyətli nümayəndəsi təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alıram:

Azərbaycan Respublikasının Belarus Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri Əli Teymur oğlu Nağıyev eyni zamanda Azərbaycan Respublikasının Müstəqil Dövlətlər Birliyinin nizamnamə və digər orqanları yanında daimi səlahiyyətli nümayəndəsi təyin edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 7 avqust 2009-cu il

№ 430

"Azərbaycanda Abşeron magistral kanalının suvarma məqsədi ilə təkmilləşdirilməsi və şimal çaylarında suqəbuledici qurğuların müasirləşdirilməsi üçün texniki-iqtisadi əsaslandırma və təfsilatlı layihələndirmə üzrə Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti və Koreya Respublikasının Xarici İşlər və Ticarət Nazirliyi arasında Qrant Razılaşması" barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Sərəncamı

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 23 iyun tarixli 143s nömrəli sərəncamı ilə verilmiş səlahiyyətə əsasən 2009-cu il iyulun 8-də Bakı şəhərində imzalanmış "Azərbaycanda Abşeron magistral kanalının suvarma məqsədi ilə təkmilləşdiril-

məsi və şimal çaylarında suqəbuledici qurğuların müasirləşdirilməsi üçün texniki-iqtisadi əsaslandırma və təfsilatlı layihələndirmə üzrə Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti və Koreya Respublikasının Xarici İşlər və Ticarət Nazirliyi arasında Qrant Razılaşması" təsdiq edilsin.

2. Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinə tapşırılsın:

bu sərəncamın 1-ci bəndində göstərilən Qrant Razılaşmasının müddəalarının həyata keçirilməsi ilə əlaqədar lazımi tədbirlər görsün;

"Texniki yardım və qrant alınmasına dair sazişlərin bağlanması və təsdiq edilməsi Qaydalarının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 17 aprel tarixli 388 nömrəli Fərmanının 2.12-ci bəndinin icrasını təmin etmək üçün bu sərəncamın 1-ci bəndində qeyd edilən Qrant Razılaşmasına əsasən Koreya Respublikasının Xarici İşlər və Ticarət Nazirliyi tərəfindən ayrılmış qrantın məqsədli və səmərəli istifadəsinə dair məlumatı ildə bir dəfədən az olmayaraq, zəruri hallarda tələb olunduqda və layihə tam başa çatdıqdan sonra yekun hesabatı Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi ilə razılaşdırmaqla, Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu sərəncamın 1-ci bəndində göstərilən sənədin qüvvəyə minməsi üçün zəruri dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Koreya tərəfinə müvafiq bildiriş göndərsin.

4. Bu sərəncamın icrasına nəzarət Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyinə həvalə edilsin.

5. Bu sərəncam imzalandığı gündən qüvvəyə minir.

A.RASİ-ZADƏ

Azərbaycan Respublikasının Baş naziri

Bakı şəhəri, 7 avqust 2009-cu il

№ 202s

V.Zatlersin "Heydər Əliyev" ordeni ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Latviya Respublikası ilə Azərbaycan Respublikası arasında dostluq və əməkdaşlıq əlaqələrinin inkişaf etdirilməsindəki xüsusi xidmətlərinə görə Latviya Respublikasının Prezidenti Valdis Zatlers "Heydər Əliyev" ordeni ilə təltif edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 10 avqust 2009-cu il

№ 433

"Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi və Latviya Respublikasının Patent İdarəsi arasında sənaye mülkiyyətinin hüquqi mühafizəsi sahəsində informasiyanın mübadiləsi haqqında Anlaşma Memorandumu"nu imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi və Latviya Respublikasının Patent İdarəsi arasında sənaye mülkiyyətinin hüquqi mühafizəsi sahəsində informasiyanın mübadiləsi haqqında Anlaşma Memorandumu"nu imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin sədri Ramiz Ayyaz oğlu Həsənova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Memorandumu imzalamaq səlahiyyətinin Azərbaycan Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin sədri Ramiz Ayyaz oğlu Həsənova verilməsi barədə Latviya Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 10 avqust 2009-cu il

№ 434

"Azərbaycan Respublikası Hökuməti və Latviya Respublikası Hökuməti arasında gənclər və idman sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti və Latviya Respublikası Hökuməti arasında gənclər və idman sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının gənclər və idman naziri Azad Arif oğlu Rəhimova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının gənclər və idman naziri Azad Arif oğlu Rəhimova verilməsi barədə Latviya Respublikası Hökumətinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 10 avqust 2009-cu il

№ 435

"Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Koreya Respublikasının Ətraf Mühit Sənayesi və Texnologiyalar İnstitutu arasında Azərbaycanda Ətraf Mühitin İdarə Edilməsi üzrə Baş Planın hazırlanmasına dair Anlaşma Memorandumu"nu imzalamaq səlahiyyətinin verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Koreya Respublikasının Ətraf Mühit Sənayesi və Texnologiyalar İnstitutu arasında Azərbaycanda Ətraf Mühitin İdarə Edilməsi üzrə Baş Planın hazırlanmasına dair Anlaşma Memorandumu"nu imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri Hüseynqulu Seyid oğlu Bağırova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Memorandumu imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri Hüseyn-qulu Seyid oğlu Bağırova verilməsi barədə Koreya Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 10 avqust 2009-cu il

№ 436

Azərbaycan Respublikası ilə Avstriya Respublikası arasında iqtisadiyyat, kənd təsərrüfatı, sənaye, texnika və texnologiya sahələrində əməkdaşlıq üzrə Qarışıq Komissiyanın Azərbaycan Respublikası tərəfindən yeni tərkibinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. Azərbaycan Respublikası ilə Avstriya Respublikası arasında iqtisadiyyat, kənd təsərrüfatı, sənaye, texnika və texnologiya sahələrində əməkdaşlıq üzrə Qarışıq Komissiyanın Azərbaycan Respublikası tərəfindən yeni tərkibi aşağıdakı heyətdə təsdiq edilsin:

Komissiyanın həmsədri:

Əli Abbasov - Azərbaycan Respublikasının rabitə və informasiya texnologiyaları naziri

Komissiyanın üzvləri:

Xələf Xələfov - Azərbaycan Respublikası xarici işlər nazirinin müavini

İlqar Fətizadə - Azərbaycan Respublikası maliyyə nazirinin birinci müavini

Sevinc Həsənova - Azərbaycan Respublikası iqtisadi inkişaf nazirinin müavini

Bəhram Əliyev - Azərbaycan Respublikası kənd təsərrüfatı nazirinin müavini

İntiqam Babayev - Azərbaycan Respublikası gənclər və idman nazirinin müavini

Gülməmməd Cavadov - Azərbaycan Respublikası sənaye və energetika nazirinin müavini

Sabir İlyasov - "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin birinci vitse-prezidenti

Fuad İsmayılov - Azərbaycan Respublikasının Avstriya Respublikasında fövqəladə və səlahiyyətli səfiri

2. "Azərbaycan Respublikası ilə Avstriya Respublikası arasında iqtisadiyyat, kənd təsərrüfatı, sənaye, texnika və texnologiya sahələrində əməkdaşlıq üzrə Qarışıq Komissiyanın tərkibi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 aprel tarixli, 399 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000-ci il, № 4, II kitab, maddə 302; 2002-ci il, № 5, maddə 301; 2005-ci il, № 10, maddə 968) 1-ci bəndi qüvvədən düşmüş hesab edilsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Azərbaycan Respublikası ilə Avstriya Respublikası arasında iqtisadiyyat, kənd təsərrüfatı, sənaye, texnika və texnologiya sahələrində əməkdaşlıq üzrə Qarışıq Komissiyanın Azərbaycan Respublikası tərəfindən yeni tərkibi barədə Avstriya Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 10 avqust 2009-cu il

№ 437

Azərbaycan Respublikası və Misir Ərəb Respublikası arasında hökumətlərarası iqtisadi, texniki və elmi əməkdaşlıq üzrə Müştərək Komissiyanın Azərbaycan Respublikası tərəfindən yeni tərkibinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. Azərbaycan Respublikası və Misir Ərəb Respublikası arasında Hökumətlərarası iqtisadi, texniki və elmi əməkdaşlıq üzrə Müştərək Komissiyanın Azərbaycan Respublikası tərəfindən yeni tərkibi aşağıdakı heyətdə təsdiq edilsin:

Komissiyanın həmsədri:

Şahin Mustafayev - Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri

Komissiyanın üzvləri:

Xələf Xələfov - Azərbaycan Respublikası xarici işlər nazirinin müavini

İlqar Fətizadə - Azərbaycan Respublikası maliyyə nazirinin birinci müavini

İntiqam Babayev - Azərbaycan Respublikası gənclər və idman nazirinin müavini

İlham Quliyev - Azərbaycan Respublikası kənd təsərrüfatı nazirinin müavini

Elmar Qasımov - Azərbaycan Respublikası təhsil nazirinin müavini

Ədalət Vəliyev - Azərbaycan Respublikası mədəniyyət və turizm nazirinin müavini

Xoşbəxt Yusifzadə - Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti

Sabir İlyasov - "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin birinci vitse-prezidenti

Faiq Bağırov - Azərbaycan Respublikasının Misir Ərəb Respublikasında fövqəladə və səlahiyyətli səfiri

2. "Azərbaycan Respublikası və Misir Ərəb Respublikası arasında Hökumətlərarası iqtisadi, texniki və elmi əməkdaşlıq üzrə Müştərək Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 3 oktyabr tarixli, 1050 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002-ci il, № 10, maddə 608; 2005-ci il, № 10, maddə 968) 1-ci bəndi qüvvədən düşmüş hesab edilsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Azərbaycan Respublikası və Misir Ərəb Respublikası arasında Hökumətlərarası iqtisadi, texniki və elmi əməkdaşlıq üzrə Müştərək Komissiyanın Azərbaycan Respublikası tərəfindən yeni tərkibi barədə Misir Ərəb Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 10 avqust 2009-cu il

№ 438

Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 22 iyul tarixli 411 nömrəli Sərəncamı ilə təsdiq edilmiş, Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında 2009-cu il iyunun 29-da Bakı şəhərində imzalanmış sənədlərin həyata keçirilməsi üçün aidiyyəti üzrə zəruri tədbirlər barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Sərəncamı

1. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi, Azərbaycan Respublikasının Sənaye və Energetika Nazirliyi, Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi, Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycan Respublikasının Təhsil Nazirliyi, Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi, Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi, Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi, Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi, Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, Azərbaycan Milli Elmlər Akademiyası Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 22 iyul tarixli 411 nömrəli Sərəncamı ilə təsdiq edilmiş, Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında 2009-cu il iyunun 29-da Bakı şəhərində imzalanmış aşağıdakı sənədlərin həyata keçirilməsi üçün aidiyyəti üzrə zəruri tədbirlər görsünlər:

1.1. Azərbaycan Respublikası Hökuməti və Kabardin-Balkar Respublikası Hökuməti (Rusiya Federasiyası) arasında ticarət-iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq haqqında Saziş;

1.2. Azərbaycan Respublikasının Rusiya Federasiyasında və Rusiya Federasiyasının Azərbaycan Respublikasındakı diplomatik nümayəndəliklərinin yerləşdirilməsi və xidmət göstərilməsi şərtləri haqqında Azərbaycan Respublikası Hökuməti və Rusiya Federasiyası Hökuməti arasında Sazişin hazırlanması haqqında Azərbaycan Respublikasının Xarici İşlər Naziri və Rusiya Federasiyasının Xarici İşlər Nazirinin Birgə Bəyannaməsi.

5. Bu sərəncam imzalandığı gündən qüvvəyə minir.

A.RASİ-ZADƏ

Azərbaycan Respublikasının Baş naziri

Bakı şəhəri, 10 avqust 2009-cu il

№ 205s

"Əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikasında müvəqqəti yaşamaq üçün icazənin verilməsi Qaydaları"nın təsdiq edilməsi, əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikasında müvəqqəti yaşamağa icazə verilməsi üçün əsas verən ölkə iqtisadiyyatına qoyulan investisiyanın məbləğinin və Azərbaycan Respublikasının banklarına qoyulan pul vəsaitinin məbləğinin müəyyən edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 30 iyun tarixli, 102 nömrəli qərarında dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin təklifini nəzərə alaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır:

1. "Əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikasında müvəqqəti yaşamaq üçün icazənin verilməsi Qaydaları"nın təsdiq edilməsi, əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikasında müvəqqəti yaşamağa icazə verilməsi üçün əsas verən ölkə iqtisadiyyatına qoyulan investisiyanın məbləğinin və Azərbaycan Respublikasının banklarına qoyulan pul vəsaitinin məbləğinin müəyyən edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 30 iyun tarixli, 102 nömrəli qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, № 6, maddə 501) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 2-ci bənddə "300.000 (üç yüz min) manat" sözləri "500.000 (beş yüz min) manat" sözləri ilə əvəz edilsin;

1.2. 3-cü bənddə "15.000 (on beş min) manat" sözləri "50.000 (əlli min) manat" sözləri ilə əvəz edilsin.

2. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

A.RASİ-ZADƏ

Azərbaycan Respublikasının Baş naziri

Bakı şəhəri, 18 avqust 2009-cu il

№ 126

2005-ci il noyabrın 25-də Moskva şəhərində Müstəqil Dövlətlər Birliyi Hökumət Başçıları Şurasının iclasında Azərbaycan Respublikası tərəfindən imzalanmış "Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin gənclərlə iş sahəsində əməkdaşlığı haqqında Saziş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2005-ci il noyabrın 25-də Moskva şəhərində Müstəqil Dövlətlər Birliyi Hökumət Başçıları Şurasının iclasında Azərbaycan Respublikası tərəfindən imzalanmış "Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin gənclərlə iş sahəsində əməkdaşlığı haqqında Saziş" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişin həyata keçirilməsi üçün zəruri tədbirlər görsün.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Müstəqil Dövlətlər Birliyinin İcraiyyə Komitəsini xəbərdar etsin.

Azərbaycan Respublikasının Prezidenti

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 27 avqust 2009-cu il

№ 448

Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin gənclərlə iş sahəsində əməkdaşlığı haqqında Saziş

Bundan sonra Tərəflər adlanan Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlər öz hökumətləri qismində

dostluq münasibətlərinin qorunması və dərinləşməsi faktoru kimi gənclər əməkdaşlığının inkişafı üçün əlverişli şəraitin yaradılmasına səy göstərərək,

cəmiyyətin müasir inkişaf mərhələsində gənclərin artan rolunu nəzərə alaraq,

bərabərhüquqluluq prinsipləri əsasında gənclərin beynəlxalq əməkdaşlığını genişləndirmək və təkmilləşdirmək və bu məqsədlərlə dövlət gənclər siyasətinin həyata keçirilməsində iştirak edən dövlət orqanları, gənclər ictimai birlikləri və digər təşkilatlar (birliklər) arasında geniş qarşılıqlı əlaqə yaratmaq arzusunu ifadə edərək,

gənclərlə iş sahəsində əməkdaşlığın xalqlar arasında qarşılıqlı anlaşmanın və dostluğun möhkəmlənməsinə və ümumbəşəri dəyərlərin bərqərar olmasına xidmət etməli olduğunu hesab edərək

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər dövlət gənclər siyasətini həyata keçirən dövlət orqanları və ictimai gənclər

təşkilatları (birlikləri) xətti ilə gənclərlə iş sahəsində əməkdaşlığı möhkəmləndirir və inkişaf etdirir, gənclər əməkdaşlığının səmərələşdirilməsinə yönəlmiş təşəbbüslərini dəstəkləyirlər.

Maddə 2

Tərəflər prioritetlərin müəyyənləşdirilməsi və gənclər əməkdaşlığının inkişafı məqsədi ilə dövlət orqanları və ictimai gənclər təşkilatlarının (birliklərinin) əlaqələrinin müntəzəm həyata keçirilməsi üçün əlverişli şərait yaradırlar.

Maddə 3

Tərəflər bu Sazişin həyata keçirilməsi məqsədilə dövlətlərarası proqramlar və digər qarşılıqlı maraq kəsb edən layihələr hazırlayır və icra edirlər.

Maddə 4

Tərəflər aşağıda qeyd olunan sahələr üzrə bir-birlərinə kömək göstərirlər:

gənclərlə iş sahəsində peşəkar kadrların hazırlanması;

elmi, məlumat-informasiya və metodik materialların, o cümlədən dövlət orqanları, ictimai gənclər təşkilatları və dövlət gənclər siyasətinin həyata keçirilməsində və gənclərin təşəbbüslərinin dəstəklənməsində iştirak edən digər təşkilat və ya birliklərin iş təcrübəsinin mübadiləsi;

gənclər siyasəti və gənclər əməkdaşlığının müxtəlif məsələlərinə aid birgə elmi tədqiqatların və tədbirlərin həyata keçirilməsi.

Maddə 5

Tərəflər gənclərlə iş sahəsi, o cümlədən aşağıda qeyd olunan sahələr üzrə statistik və digər növ məlumatlar mübadiləsinə yardım edirlər:

öz ölkələrində gənclər siyasətini tənzimləyən qanunvericilik və digər normativ aktlar barədə məlumat;

gənclər siyasətinin həyata keçirilməsi barədə məlumat.

Maddə 6

Tərəflər beynəlxalq əməkdaşlıq, o cümlədən beynəlxalq gənclər təşkilatlarının fəaliyyətində Tərəflərin nümayəndələrinin iştirakı məsələlərində bir-birlərinə kömək göstərirlər.

Maddə 7

Tərəflərin bu Sazişin yerinə yetirilməsi çərçivəsində əməkdaşlığı ikitərəfli və çoxtərəfli sazişlər əsasında həyata keçirilir.

Maddə 8

Tərəflər bu Sazişin yerinə yetirilməsi məqsədilə Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin gənclərlə iş Şurasını yaradırlar (bundan sonra Şura). Şura bu Sazişin ayrılmaz hissəsi olan Əsasnaməyə uyğun olaraq fəaliyyət göstərir.

Maddə 9

Bu Sazişin təfsiri və icrası zamanı yaranan mübahisələr Tərəflər arasında danışıqlar və ya məsləhətləşmələr yolu ilə həll olunur.

Maddə 10

Bu Saziş onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurları onu imzalamış Tərəflərin yerinə yetirdiyi haqda depozitariyə üçüncü yazılı bildirişin verildiyi tarixdən qüvvəyə minir.

Dövlətdaxili prosedurları daha sonra yerinə yetirən Tərəflər üçün Saziş müvafiq bildirişin depozitariyə verildiyi tarixdən qüvvəyə minir.

Maddə 11

Tərəflərin qarşılıqlı razılığı ilə bu Sazişə onun ayrılmaz hissəsi olan və bu Sazişin 10-cu maddəsində nəzərdə tutulmuş qaydada qüvvəyə minən ayrıca protokollar vasitəsi ilə rəsmiləşdirilən dəyişikliklər və əlavələr edilə bilər.

Maddə 12

Bu Sazişdən irəli gələn öhdəlikləri üzərinə götürməyə hazır olan və onun məqsədlərinə şərik olan digər dövlətlər də bu Sazişə qoşula bilər. Qoşulan dövlət üçün bu Saziş qoşulma haqda sənədlərin depozitariyə təqdim edildiyi gündən qüvvəyə minir.

Müstəqil Dövlətlər Birliyinə daxil olmayan dövlətlər üçün qoşulma bütün Tərəflərin razılığı ilə və qoşulma haqda sənədləri depozitariyə təqdim etmək vasitəsi ilə həyata keçirilir. Bu qoşulmaya razılıq barədə sonuncu məlumatın depozitariyə verildiyi tarixdən qoşulma qüvvəyə minmiş hesab olunur.

Maddə 13

Bu Saziş qüvvəyə mindiyi tarixdən 5 il ərzində etibarlıdır. Bu müddət bitdikdən sonra Tərəflər başqa bir qərar vermədiyi halda, Saziş hər dəfə avtomatik olaraq 5 il müddətinə uzadılır.

Maddə 14

Tərəflərdən hər biri ehtimal olunan çıxma tarixindən ən azı 6 ay öncə depozitariyə yazılı bildiriş göndərməklə bu Sazişdən çıxa bilər.

Moskva şəhərində 25 noyabr 2005-ci il tarixdə rus dilində olan bir əsl nüsxədə imzalanmışdır. Əsl nüsxə Müstəqil Dövlətlər Birliyinin İcraiyyə Komitəsində saxlanılır və Komitə bu Sazişi imzalamış hər bir dövlətə onun təsdiq olunmuş nüsxəsini göndərəcək.

AZƏRBAYCAN RESPUBLİKASI ADINDAN

(imza)

ERMƏNİSTAN RESPUBLİKASI ADINDAN

(imza) (qeyd-şərtlə)

MOLDOVA RESPUBLİKASI ADINDAN

(imza yoxdur)

RUSİYA FEDERASİYASI ADINDAN

(imza)

BELARUS RESPUBLİKASI ADINDAN

(imza)

GÜRCÜSTAN ADINDAN

(imza yoxdur)

QAZAXISTAN RESPUBLİKASI ADINDAN

(imza)

QIRĞIZ RESPUBLİKASI ADINDAN

(imza)

TACİKİSTAN RESPUBLİKASI ADINDAN

(imza)

TÜRKMƏNİSTAN ADINDAN

(imza yoxdur)

ÖZBƏKİSTAN RESPUBLİKASI ADINDAN

(imza yoxdur)

UKRAYNA ADINDAN

(imza yoxdur)

2009-cu il iyunun 8-də Berlin şəhərində imzalanmış "Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi və Almaniya Federativ Respublikasının Federal Daxili İşlər Nazirliyi arasında ikitərəfli əməkdaşlığa və qarşılıqlı yardıma dair Birgə Niyyət Bəyannaməsi"nin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2009-cu il iyunun 8-də Berlin şəhərində imzalanmış "Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi və Almaniya Federativ Respublikasının Federal Daxili İşlər Nazirliyi arasında ikitərəfli əməkdaşlığa və qarşılıqlı yardıma dair Birgə Niyyət Bəyannaməsi" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən sənədin həyata keçirilməsini təmin etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 27 avqust 2009-cu il

№ 449

Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi və Almaniya Federativ Respublikasının Federal Daxili İşlər Nazirliyi arasında ikitərəfli əməkdaşlığa və qarşılıqlı yardıma dair Birgə Niyyət Bəyannaməsi

Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyi və Almaniya Federativ Respublikasının Federal Daxili İşlər Nazirliyi

hər iki dövlət arasında mövcud olan dostluq və əməkdaşlıq münasibətlərinin daha da inkişaf etdirilməsi və möhkəmləndirilməsi məqsədindən çıxış edərək,

təbii və texnogen xarakterli fövqəladə halların vura biləcəyi zərəri nəzərə alaraq,

Azərbaycanda mülki müdafiə sisteminin inkişaf etdirilməsi üçün hər iki tərəf arasında təcrübə mübadiləsinin və əməkdaşlığın təşkil olunması məqsədi ilə,

əməkdaşlığı aşağıdakı formada inkişaf etdirmək arzusunda olduqlarını bəyan edirlər:

1. Məqsəd Almaniya Federativ Respublikası ilə Azərbaycan Respublikası arasında mülki müdafiə sahəsində əməkdaşlıq yaratmaq, möhkəmləndirmək və daha da inkişaf etdirmək, habelə təcrübə və məlumat mübadiləsi, birgə təlimlər üçün və gələcəkdə hər iki tərəf arasında ikitərəfli əməkdaşlıq üçün əsas yaratmaqdan ibarətdir.

2. Bu əməkdaşlıq təbii və texnogen xarakterli fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılması prosesinin bütün mərhələlərini əhatə etməli və aşağıdakı istiqamətlər üzrə həyata keçirilməlidir:

I. Fövqəladə halların qarşısının alınması

- mülki müdafiə üçün konseptual planlaşdırma və əsas hüquqi sənədlər;

- fövqəladə halların idarə olunması üçün əsas kimi təhlillər və qiymətləndirmələr;

- proqnozlaşdırma bacarıqlarının və monitorinq sisteminin gücləndirilməsi, həmçinin ictimaiyyəti xəbərdar etmək üçün effektiv sistemlərin yaradılması;

- əhalinin fövqəladə vəziyyətlərə hazırlanması, həmçinin özünü müdafiənin gücləndirilməsi və fövqəladə halların nəticələrinin aradan qaldırılmasına cəlb olunma;

- mülki müdafiə sahəsində təlim və təhsil və təlimçilərin təlimləndirilməsi tədbirləri.

II. Müxtəlif səviyyələrdə əməkdaşlıq

- Müxtəlif səviyyələrdə fövqəladə halların qarşısının alınması və onlara cavab verilməsinə cəlb olunan şəxslər arasında əməkdaşlığın yaradılması;

- Könüllü təşkilatların mülki müdafiə sisteminə cəlb olunması.

III. Cavabvermə bacarıqlarının optimallaşdırılması

- Təbii fəlakətlərdən və yaxud texnogen xarakterli qəzalardan ziyan çəkmiş əhalinin psixoloji durumunun bərpasını təmin etməklə yanaşı əhalinin tibbi müdafiəsinin konseptual inkişafı

- Texniki yardımların daha da inkişaf etdirilməsi

3. Hər iki tərəf 2-ci bənddə göstərilmiş fəaliyyət istiqamətlərinə uyğun effektli əməkdaşlığı inkişaf etdirmək üçün müvafiq idarələri birgə proqramların inkişafında dəstəkləmək niyyətində olduğunu ifadə edir.

4. Bu Birgə Niyyət Bəyannaməsi imzalandığı gündən etibarən tətbiq ediləcəkdir.

Bu Birgə Niyyət Bəyannaməsi 8 iyun 2009-cu il tarixində iki əsl nüsxədə, hər biri Azərbaycan, alman və ingilis dillərində imzalanmışdır. Bu Birgə Niyyət Bəyannaməsinin təfsirində fikir ayrılığı yarandığı təqdirdə, ingilis dilindəki mətnə istinad ediləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASININ FÖVQƏLADƏ HALLAR NAZİRLİYİ ADINDAN

KƏMALƏDDİN HEYDƏROV
Fövqəladə hallar naziri

ALMANİYA FEDERATİV RESPUBLİKASININ FEDERAL DAXİLİ İŞLƏR NAZİRLİYİ ADINDAN

AVQUST HANNİNQ
Federal daxili işlər nazirinin müavini

2009-cu il iyunun 11-də Qəbələ şəhərində imzalanmış "Azərbaycan Respublikası hökuməti və Belarus Respublikası hökuməti arasında gömrük işi sahəsində əməkdaşlıq və qarşılıqlı yardım haqqında 5 noyabr 2004-cü il tarixli Sazişin həyata keçirilməsi barədə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi və Belarus Respublikası Dövlət Gömrük Komitəsi arasında Protokol"un təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2009-cu il iyunun 11-də Qəbələ şəhərində imzalanmış "Azərbaycan Respublikası hökuməti və Belarus Respublikası hökuməti arasında gömrük işi sahəsində əməkdaşlıq və qarşılıqlı yardım haqqında 5 noyabr 2004-cü il tarixli Sazişin həyata keçirilməsi barədə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi və Belarus Respublikası Dövlət Gömrük Komitəsi arasında Protokol" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinə tapşırılsın ki, bu sərəncamın 1-ci bəndində göstərilən Protokolun həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu sərəncamın 1-ci bəndində göstərilən Protokolun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Belarus Respublikası tərəfini xəbərdar etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 27 avqust 2009-cu il

№ 450

Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti arasında gömrük işi sahəsində əməkdaşlıq və qarşılıqlı yardım haqqında 5 noyabr 2004-cü il tarixli Sazişin həyata keçirilməsi barədə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi və Belarus Respublikası Dövlət Gömrük Komitəsi arasında Protokol

Bundan sonra "Tərəflər" adlandırılan Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi və Belarus Respublikası Dövlət Gömrük Komitəsi,

Azərbaycan Respublikası və Belarus Respublikası arasında malların və nəqliyyat vasitələrinin keçirilməsinə gömrük nəzarətini daha effektli həyata keçirməyə səy göstərərək,

Vaxtında aparılan məlumat mübadiləsinin, həmçinin qarşılıqlı yardımın və Tərəflərin əməkdaşlığının, gömrük nəzarətinin təkmilləşdirilməsinə səbəb olacağını dərk edərək,

Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti arasında gömrük işi sahəsində əməkdaşlıq və qarşılıqlı yardım haqqında 5 noyabr 2004-cü il tarixli Sazişin (bundan sonra Saziş) müddəalarının həyata keçirilməsi məqsədilə,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər bu Protokolun imzalandığı gündən 30 gün ərzində öz bölmələri və vəzifəli şəxsləri, həmçinin bu Protokolla nəzərdə tutulmuş məsələlər üzrə birbaşa əlaqələri həyata keçirmək səlahiyyətləri olan gömrük idarələrinin siyahılarını mübadilə edirlər.

Tərəflər göstərilən siyahılardakı dəyişikliklər barədə gecikdirilmədən bir-birini xəbərdar edəcəklər.

Maddə 2

Bu Protokola əsasən Sazişdə nəzərdə tutulmuş əməkdaşlıq, Tərəflərin dövlətlərinin qanunvericiliyinə müvafiq və bu Protokolun 1-ci maddəsində göstərilən bölmələrin səlahiyyətləri çərçivəsində həyata keçirilir.

Maddə 3

Tərəflərin rəhbərləri zərurət yarandıqda, Sazişin həyata keçirilməsinin qiymətləndirilməsi məqsədilə, həmçinin, öz səlahiyyətləri çərçivəsində və Tərəflərin dövlətlərinin qanunvericiliyinə müvafiq olaraq, qarşılıqlı maraq kəsb edən digər gömrük məsələlərini müzakirə etmək üçün görüşəcəklər. Görüşlərin yeri və zamanı hər bir hal üçün ayrıca razılaşdırılacaqdır. Zərurət yarandıqda onlar, bu Protokolun 1-ci maddəsində göstərilən bölmələrin vəzifəli şəxslərini birgə görüşlərin təşkili üçün səlahiyyətləndirə bilərlər.

Maddə 4

Yardım barədə sorğular və onlara cavabların göndərilməsi 1-ci maddənin birinci hissəsinə əsasən səlahiyyətli şəxslər tərəfindən yazılı formada Tərəflərin dövlətlərinin qanunvericiliyinə müvafiq olaraq həyata keçiriləcəkdir. Şifahi sorğular qəbul edilə bilər, lakin onlar gecikdirilmədən yazılı təsdiq edilməlidir.

Yardım barədə sorğular Sazişin 12-ci maddəsinin 2-ci bəndində nəzərdə tutulmuş məlumatlardan ibarət olmalı, sorğuların yerinə yetirilməsi isə Sazişin 13-cü maddəsinə müvafiq olaraq həyata keçirilir.

Təcili hallarda sorğuda, ona cavab verilməli tarix göstərilə bilər. Sorğu olunan məlumat və sənədlər göstərilən tarixdə təqdim edilməli və ya göstərilən müddət bitənədək bu müddətin icrasının mümkünlüyü barədə məlumat verilməlidir.

Tərəflərin təqdim etdiyi məlumat, şifahi, sonradan yazılı təsdiqlə, eləcə də yazılı şəkildə konfidensial hesab edilir və yalnız bu Protokolun yerinə yetirilmə məqsədləri üçün istifadə olunur.

Bu Protokola müvafiq olaraq alınmış məlumatlar, Sazişin 15-ci maddəsində nəzərdə tutulmuş hallar istisna olmaqla, onları təqdim edən Tərəfin razılığı olmadan dövlət orqanlarına və üçüncü şəxslərə verilə bilməz.

Maddə 5

Tərəflər hər rüb, Malların Təsviri və Kodlaşdırılması üzrə Harmonik Sistemin 4 rəqəm səviyyəsində, "ölkə-mal" kəsiyində formalaşdırılmış, dəyər və natural ölçülərdə qarşılıqlı ticarət üzrə məlumatları mübadilə edəcəklər.

Məlumatların formalaşdırılmasını, formatını, məlumatların strukturunu, həmçinin mübadilə mexanizmini Tərəflər əlavə olaraq müəyyən edəcəklər.

Maddə 6

Bu Protokolun təfsiri və tətbiqi ilə bağlı yarana biləcək bütün məsələlər danışıqlar yolu ilə həll ediləcəkdir.

Maddə 7

Tərəflərin qarşılıqlı razılığı ilə bu Protokola onun ayrılmaz hissəsi olan ayrıca Protokollarla rəsmiləşdirilən dəyişiklik və əlavələr edilə bilər.

Maddə 8

Bu Protokol onun qüvvəyə minməsi üçün zəruri olan, Tərəflərin dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə sonuncu yazılı bildirişinin diplomatik kanallar vasitəsilə alındığı tarixdən qüvvəyə minir və Sazişin qüvvəsini dayandırdığı tarixdən öz qüvvəsini itirir.

Qəbələ şəhərində 11 iyun 2009-cu ildə Azərbaycan və rus dillərində olmaqla iki nüsxədə imzalanmışdır və bütün mətnlər eyni qüvvəyə malikdir. Bu Protokolun müddəalarının təfsirində fikir ayrılığı yarandıqda rus dilindəki mətn əsas götürülür.

AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT GÖMRÜK KOMİTƏSİ ADINDAN	BELARUS RESPUBLİKASI DÖVLƏT GÖMRÜK KOMİTƏSİ ADINDAN
AYDIN ƏLİYEV	*ALEKSANDR ŞPİLEKSKİY*
Komitəsinin sədri	*Komitəsinin sədri*

2009-cu il iyunun 25-də Brüssel şəhərində imzalanmış "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi və Türkiyə Respublikası Gömrük Müstəşarlığı arasında kadrların peşəkar hazırlığı sahəsində əməkdaşlıq haqqında Protokol"un təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2009-cu il iyunun 25-də Brüssel şəhərində imzalanmış "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi və Türkiyə Respublikası Gömrük Müstəşarlığı arasında kadrların peşəkar hazırlığı sahəsində əməkdaşlıq haqqında Protokol" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Protokolun həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Protokolun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Türkiyə Respublikası tərəfini xəbərdar etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 27 avqust 2009-cu il

№ 451

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi və Türkiyə Respublikası Gömrük Müstəşarlığı arasında kadrların peşəkar hazırlığı sahəsində əməkdaşlıq haqqında Protokol

Bundan sonra Tərəflər adlandırılan Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi və Türkiyə Respublikası Gömrük Müstəşarlığı,

13 aprel 2004-cü il tarixdə Ankarada imzalanmış "Azərbaycan Respublikası Hökuməti və Türkiyə Respublikası hökuməti arasında gömrük sahəsində əməkdaşlıq və qarşılıqlı yardım haqqında Sazişin müddəalarına müvafiq olaraq,

kadrların peşəkar hazırlığı sahəsində əməkdaşlığı inkişaf etdirməyə və iki ölkənin gömrük idarələrinin təhsil müəssisələri arasında ikitərəfli əməkdaşlığın təkmilləşdirilməsi məqsədilə,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər bu Protokol əsasında və hər iki ölkənin mövcud qanunvericiliklərinin müəyyən etdiyi səlahiyyətlər çərçivəsində kadrların peşəkar hazırlığı ilə bağlı əməkdaşlıq edir və aşağıdakı tədbirləri həyata keçirirlər:

a) Kadrların hazırlanması sahəsində metodları birgə müəyyən etmək, bu sahədə təcrübə mübadiləsinin aparılması və bununla bağlı digər məsələlərdə əməkdaşlıq edilməsi;

b) Gömrük sahəsində birgə metodların işlənib hazırlanaraq araşdırmalar aparılması və araşdırmaların nəticələrinin dərc etdirilməsi, dərc olunan materialların mübadiləsinin təşkil edilməsi;

c) Tədris metodlarını birgə seçərək, müntəzəm, mütəmadi seminarlar və təcrübi məşğələlərin (staj) həyata keçirilməsi;

d) Tədris planlarının hazırlanmasında əməkdaşlıq edilməsi və təcrübə mübadiləsinin aparılması;

e) Tədris müəssisələrinin imkanlarından qarşılıqlı istifadə edilməsi.

Maddə 2

Tərəflər bu Protokolun 1-ci maddəsində nəzərdə tutulan işlərin görülməsi üçün lazımi qaydalar, şərtlər, xərclər və digər məsələlər barədə əməkdaşlıq proqramına başlamazdan ən gec üç ay əvvəl razılaşırlar.

Maddə 3

Bu Protokolun müddəaları Tərəflərin təhsil müəssisələri arasındakı əlaqələrlə həyata keçiriləcək.

Bu Protokolun həyata keçirilməsi məqsədilə Tərəflər müvafiq vəzifəli şəxslərə səlahiyyətlər verir və onların siyahılarını mübadilə edirlər.

Maddə 4

Bu Protokolun müddəalarının həyata keçirilməsi zamanı ortaya çıxan mübahisələr Tərəflər arasında görüşlər vasitəsilə tənzimlənir.

Maddə 5

Bu Protokolun müddəaları Tərəflərin iştirakçısı olduğu digər beynəlxalq müqavilələr və sazişlərlə bağlı Tərəflərin dövlətlərinin hüquq və öhdəliklərinə təsir etmir.

Maddə 6

Tərəflərin qarşılıqlı razılığı əsasında bu Protokola onun ayrılmaz hissəsi olan ayrıca protokollarla əlavə və dəyişikliklər edilə bilər.

Maddə 7

Bu Protokol Tərəflərin imzaladığı tarixdən etibarən qüvvəyə minir və qeyri-müəyyən müddətə bağlanılır.

Tərəflərdən hər hansı biri digər Tərəfə yazılı şəkildə bildiriş verməklə Protokolun fəaliyyətini dayandıra bilər. Protokol belə bildirişin alındığı tarixdən üç ay sonra qüvvədən düşür.

Bu Protokol 25 iyun 2009-cu il tarixdə Brüssel şəhərində Azərbaycan və türk dillərində olmaqla iki əsl nüsxədə hazırlanmış və imzalanmışdır, hər iki mətn bərabər autentikdir.

AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT GÖMRÜK KOMİTƏSİ ADINDAN	TÜRKİYƏ RESPUBLİKASI GÖMRÜK MÜSTƏŞARLIĞI ADINDAN
AYDIN ƏLİYEV	*MEHMET EMİN ZARARSIZ*
Komitəsinin sədri	*Gömrük müstəşarı*

2009-cu il iyunun 25-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Latviya Respublikası Hökuməti arasında ətraf mühitin mühafizəsi sahəsində əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2009-cu il iyunun 25-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Latviya Respublikası Hökuməti arasında ətraf mühitin mühafizəsi sahəsində əməkdaşlıq haqqında Saziş" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişin həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Latviya Respublikası tərəfini xəbərdar etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 27 avqust 2009-cu il

№ 452

Azərbaycan Respublikası Hökuməti ilə Latviya Respublikası Hökuməti arasında ətraf mühitin mühafizəsi sahəsində əməkdaşlıq haqqında Saziş

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikası hökuməti və Latviya Respublikası Hökuməti;

Azərbaycan Respublikası və Latviya Respublikası arasında dostluq münasibətlərini qəbul edərək,

Ətraf mühit baxımından əlverişli və davamlı inkişafın zəruriliyini ifadə edərək,

Tərəflər arasında davamlı inkişaf sahəsində, xüsusilə də ətraf mühitin mühafizəsi sahəsində mütəmadi ikitərəfli əməkdaşlığa dair təşəbbüs verməyi və əməkdaşlığı davam etdirməyi arzu edərək,

1992-ci il 14 iyun tarixində Rio De Janeyroda qəbul edilmiş Ətraf Mühit və İnkişaf üzrə Rio Bəyannaməsinə əməl edərək və 1998-ci il 25 iyun tarixində Orhusda qəbul edilmiş Ətraf mühit ilə bağlı məsələlərdə məlumatın əldə edilməsi, ictimaiyyətin qərar qəbul edilməsində iştirakı və ədalət mühakiməsinin açıq keçirilməsi haqqında Orhus Konvensiyasını, 2000-ci il 08 sentyabr tarixində imzalanmış BMT-nin Minillik Bəyannaməsini və 2002-ci il 04 sentyabr tarixində Yohanesburqda qəbul edilmiş Davamlı İnkişaf və Fəaliyyət Planına dair Yohanesburq Bəyannaməsini nəzərə alaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Hazırkı Sazişin həyata keçirilməsi üzrə səlahiyyətli orqanlar aşağıdakılardır:

Azərbaycan Respublikası adından Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi;

Latviya Respublikası adından Latviya Respublikasının Ətraf Mühit Nazirliyi.

Maddə 2

Tərəflər hər iki Tərəfin maraqlarına uyğun olaraq ətraf mühitin çirklənməsinin qarşısının alınması və mühafizəsi sahəsində qarşılıqlı əməkdaşlığı inkişaf etdirəcək və genişləndirəcək, eləcə də qlobal və regional ekoloji problemlərin birgə səylərlə həli edilməsi məqsədilə iqtisadi, elmi və texniki əlaqələri bundan sonra da təşviq edəcəklər.

Maddə 3

Tərəflər arasında ətraf mühitin mühafizəsi sahəsində əməkdaşlıq, onların müvafiq milli qanunvericiliyi və qaydaları çərçivəsində, habelə beynəlxalq öhdəlikləri nəzərə alınaraq aşağıdakı sahələri əhatə edəcəkdir:

a) Qorunan təbiət ərazilərinin idarə edilməsi;

b) Biomüxtəlifliyin qorunması;

c) Ətraf mühitə təsirin qiymətləndirilməsi;

d) Qlobal iqlim dəyişmələri;

e) Ozon qatının qorunması;

f) Torpaqların mühafizə olunması;

g) Transsərhəd hava çirklənmələri;

h) Tullantıların idarə edilməsi;

i) Suyun mühafizəsi;

j) Tərəflər digər əməkdaşlıq sahələri üzrə razılığa gələ bilərlər.

Maddə 4

Tərəflər arasında ətraf mühitin mühafizəsi sahəsində əməkdaşlıq Tərəflərin qarşılıqlı razılığı ilə aşağıdakı formalarda həyata keçiriləcəkdir:

a) Birgə elmi-texniki araşdırma və proqramlar;

b)Əməkdaşlıq layihələrinin işlənib-hazırlanması;

c) Tədqiqatlar, inkişaf və ətraf mühit üzrə fəaliyyətin ən yaxşı idarəçilik təcrübələri sahəsində elmi-texniki məlumatların və sənədlərin mübadiləsi;

d) Ətraf mühit üzrə mövcud ən yaxşı texnologiyaların mübadiləsi;

e) Mütəxəssislər mübadiləsi;

f) Təhsil proqramları, konfrans və simpoziumların təşkili;

g) Tərəflər digər əməkdaşlıq sahələri üzrə razılığa gələ bilərlər.

Maddə 5

Tərəflər hər iki Tərəfin ətraf mühitin mühafizəsi sahəsində çalışan qurumları, fiziki və hüquqi şəxsləri birbaşa əlaqələrin yaradılmasını və əməkdaşlığın inkişaf etdirilməsini təşviq edəcəklər.

Maddə 6

Hazırkı Sazişin yerinə yetirilməsi ilə bağlı əsas məsələlər və əməkdaşlığın inkişaf etdirilməsi Nazirlərin görüşləri zamanı müzakirə ediləcəkdir. Nazirlərin görüşləri Tərəflərin razılığı hər iki Tərəfin təşəbbüsü ilə təşkil olunacaqdır.

Tərəflər razılıq əsasında hazırkı əməkdaşlıq məsələlərinin müzakirə edilməsi məqsədilə öz təmsilçilərinin görüşünü təyin edə bilərlər.

Tərəflər hazırkı Sazişin imzalanmasından sonra bir ay ərzində Saziş əsasında əməkdaşlığın əlaqələndirilməsi və yerinə yetirilməsi üzrə səlahiyyətli əlaqələndirici şəxslərin adları barədə bir-birlərini məlumatlandıracaqlar.

Maddə 7

Tərəflər hazırkı Sazişin həyata keçirilməsini eyni əsasda maliyyələşdirəcək. Hər bir Tərəf təmsilçilərinin bütün birgə tədbirlərdə iştirakı ilə bağlı xərclərini ödəyəcək; lakin qəbul edən Tərəf birgə tədbirləri keçirmək üçün yerləşmə və lazımi ləvazimatı təmin

edəcək. Digər Tərəfə məlumatın göndərilməsi ödənişsiz əsaslarla təmin ediləcəkdir.

Tərəflər xüsusi hallarda hazırkı Sazişin yerinə yetirilməsinin maliyyələşməsi ilə bağlı başqa razılığa gələ bilərlər.

Maddə 8

Hazırkı Sazişin təfsiri və yaxud tətbiqi zamanı yarana bilən mübahisələr Tərəflər arasında danışıqlar və məsləhətləşmələr yolu ilə həll ediləcəkdir.

Maddə 9

Hazırkı Sazişin müddəaları Tərəflərin bağladıqları digər qüvvədə olan sazişlərdən irəli gələn hüquq və öhdəliklərə xələl gətirmir.

Maddə 10

Tərəflər hazırkı Sazişə uyğun olaraq bağlanmış müqavilə və razılaşmalardan irəli gələn fiziki və hüquqi şəxslərin öhdəliklərinə görə məsuliyyət daşımayacaq.

Maddə 11

Tərəflərin qarşılıqlı razılığı ilə bu Sazişə əlavələr və dəyişikliklər edilə bilər. Belə dəyişikliklər və əlavələr hazırkı Sazişin ayrılmaz tərkib hissəsi olan ayrıca protokollarla rəsmiləşdiriləcək və 12-ci Maddənin müddəalarına əsasən qüvvəyə minəcəkdir.

Maddə 12

Hazırkı Saziş Tərəflərin onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurları yerinə yetirdikləri barədə bir-birlərini diplomatik kanallar vasitəsilə göndərdikləri sonuncu yazılı bildirişin alındığı tarixdən qüvvəyə minəcəkdir.

Hazırkı Saziş qeyri-müəyyən müddətə bağlanılır.

Tərəflər diplomatik kanallar vasitəsilə niyyəti barədə yazılı bildiriş təqdim etməklə bu Sazişin qüvvəsinə xitam verə bilərlər. Saziş belə bildirişin alındığı tarixdən altı (6) ay sonra qüvvədən düşmüş hesab edilir.

Hazırkı Sazişə xitam verilməsi hazırkı Sazişin yerinə yetirilməsi üçün başlanmış fəaliyyətlərin və imzalanmış müqavilələrin etibarlılığına təsir göstərməyəcək.

Bu Saziş Bakı şəhərində 25 iyun 2009-cu il tarixində iki əsl nüsxədə, hər biri Azərbaycan, latış və ingilis dillərində imzalanmışdır və bütün mətnlər bərabər autentikdir. Hazırkı Sazişin təfsiri zamanı fikir ayrılığı yarandığı təqdirdə ingilis dilindəki mətnə üstünlük veriləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN

HÜSEYNQULU BAĞIROV
Ekologiya və təbii sərvətlər naziri

LATVİYA RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN

RAYMONDS VEYONİS
Ətraf mühit naziri

Azərbaycan Respublikası və Suriya Ərəb Respublikası arasında 2009-cu il iyulun 8-də Bakı şəhərində imzalanmış sənədlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. Azərbaycan Respublikası və Suriya Ərəb Respublikası arasında 2009-cu il iyulun 8-də Bakı şəhərində imzalanmış aşağıdakı sənədlər təsdiq edilsin:

1.1. Azərbaycan Respublikası Hökuməti və Suriya Ərəb Respublikası Hökuməti arasında iqtisadi, elmi, texniki və mədəni əməkdaşlıq üzrə Birgə Komissiyanın yaradılması haqqında Anlaşma Memorandumu;

1.2. Azərbaycan Respublikası Hökuməti və Suriya Ərəb Respublikası Hökuməti arasında sənaye və energetika sahəsində əməkdaşlıq haqqında Saziş;

1.3. Azərbaycan Respublikası Hökuməti və Suriya Ərəb Respublikası Hökuməti arasında elektrik enerjisi və bərpa olunan enerji sahəsində Anlaşma Memorandumu;

1.4. Azərbaycan Respublikası Hökuməti və Suriya Ərəb Respublikası Hökuməti arasında mədəniyyət sahəsində əməkdaşlıq haqqında Saziş;

1.5. Azərbaycan Respublikası Hökuməti və Suriya Ərəb Respublikası Hökuməti arasında informasiya və kommunikasiya texnologiyaları sahəsində əməkdaşlıq haqqında Saziş;

1.6. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Suriya Ərəb Respublikasının Xarici İşlər Nazirliyi arasında siyasi məsləhətləşmələr haqqında Anlaşma Memorandumu;

1.7. Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi və Suriya Ərəb Respublikasının Daxili İşlər Nazirliyi arasında əməkdaşlığa dair Niyyət Protokolu;

1.8. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi və Suriya Ərəb Respublikasının Maliyyə Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş;

1.9. Azərbaycan Respublikasının Sənaye və Energetika Nazirliyi və Suriya Ərəb Respublikasının Sənaye Nazirliyi arasında sənaye sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu;

1.10. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi və Suriya Ərəb Respublikasının Turizm Nazirliyi arasında turizm sahəsində əməkdaşlığa dair Saziş;

1.11. Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə Suriya Ərəb Respublikasının Ali Təhsil Nazirliyi arasında ali təhsil sahəsində əməkdaşlıq haqqında Saziş;

1.12. Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə Suriya Ərəb Respublikasının Təhsil Nazirliyi arasında ümumi təhsil sahəsində əməkdaşlıq haqqında Saziş;

1.13. Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi və Suriya Ərəb Respublikasının Səhiyyə Nazirliyi arasında səhiyyə sahəsində əməkdaşlıq haqqında Saziş;

1.14. Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi və Suriya Ərəb Respublikasının Kənd Təsərrüfatı və Aqrar İslahatlar Nazirliyi arasında kənd təsərrü-

fatı sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumu;

1.15. Azərbaycan Respublikasının Dövlət Dəniz Administrasiyası və Suriya Gəmiçilik Palatası arasında əməkdaşlığa dair Anlaşma Memorandumu;

1.16. M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası və Suriya Ərəb Respublikasının Əl-Əsəd Kitabxanası arasında əməkdaşlıq haqqında Memorandum.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. bu Sərəncamın 1.1-ci bəndində göstərilən Birgə Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibinə dair təkliflərini bir ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. bu Sərəncamın 1.1-1.16-cı bəndlərində göstərilən sənədlərin həyata keçirilməsi üçün zəruri tədbirlər görsün.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1.1-1.16-cı bəndlərində göstərilən sənədlərin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Suriya Ərəb Respublikası tərəfini xəbərdar etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 27 avqust 2009-cu il

№ 453

Azərbaycan Respublikası Hökuməti və Suriya Ərəb Respublikası Hökuməti arasında iqtisadi, elmi, texniki və mədəni əməkdaşlıq üzrə Birgə Komissiyanın yaradılması haqqında Anlaşma Memorandumu

Azərbaycan Respublikası Hökuməti və Suriya Ərəb Respublikası Hökuməti (bundan sonra ayrılıqda "Tərəf", birlikdə "Tərəflər" adlandırılacaq).

İkitərəfli əlaqələrin genişləndirilməsi və davamlı əməkdaşlığın artırılmasını arzu edərək,

Hər iki ölkənin maraqları daxilində davamlı və səmərəli əməkdaşlığın zəruri olduğuna əmin olaraq,

Aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Birgə Komissiyanın yaradılması

Azərbaycan Respublikası Hökuməti və Suriya Ərəb Respublikası Hökuməti Azərbaycan - Suriya iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq üzrə Birgə Komissiyasını yaradacaqlar (bundan sora "Komissiya" adlanacaq və Tərəflərin Hökumətləri tərəfindən təyin edilmiş nümayəndələrdən ibarət olacaq).

Maddə 2

Məqsəd

Komissiyanın məqsədi aşağıdakılardan ibarətdir:

1. Razılaşdırılmış layihələrin və ya tədbirlərin ölkələrin ayrılıqda və ya birgə həyata keçirməsi vasitəsilə xüsusən də iqtisadi, elmi texniki və mədəni sahələrdə ikitərəfli əməkdaşlığın və əlaqələrin təşviq edilməsi

2. Hər iki ölkənin Nazirliklərinin və qurumlarının 1-ci bənddə qeyd olunan məqsədlərə nail olmaq üçün birgə fəaliyyətinin əlaqələndirilməsi.

Maddə 3

Fəaliyyət sahələri

1. Komissiyanın fəaliyyəti aşağıdakı sahələri əhatə edəcəkdir:

a) ticarət və investisiyalar;

b) təhsil;

c) səhiyyə;

d) elm və texnika;

e) kənd təsərrüfatı;

f) turizm;

g) mədəniyyət;

h) yol və Daşımalar;

i) enerji;

j) poçt və telekommunikasiya;

k) əmtəə;

l) iqtisadi və inzibati modernizasiya və islahatlar;

m) tədqiqat və inkişaf;

n) sənaye;

o) xidmətlər;

p) bank işi və maliyyə;

q) informasiya və informasiya texnologiyası;

r) iqtisadi və sosial inkişaf planlaşdırması;

s) statistika;

t) tərəflər arasında razılaşdırılan digər hər hansı bir sahə.

2. Komissiya öz qaydalarını və prosedurlarını müəyyən edəcək və onun qarşısında qaldırılmış xüsusi məsələlərlə bağlı işçi qrupları yarada bilər. O, bu müxtəlif qurumlara tövsiyələr verəcək və zərurət olduğu təqdirdə onların işinə yardım göstərəcək.

3. Komissiya mütəmadi olaraq müxtəlif işçi qruplarının iclaslarının nəticələri barədə məlumatlandırılacaqdır.

Maddə 4

Tərkib

Komissiya Azərbaycan və Suriya nümayəndələrindən ibarətdir. Hər bir Tərəf nazir səviyyəsində Komissiya sədrini təyin edir, lakin bəzən hər iki Tərəfdən Komissiyaya nazir müavinləri sədrlik edə bilərlər. Hər iki sədr komissiya üzvlərinin adları barədə bir-birini məlumatlandıracaqdır. Hər bir Tərəf komissiyanın iclaslarında kifayət qədər ekspert və məsləhətçilərlə birlikdə iştirak etmək hüququna malikdir.

Maddə 5

Görüşlərin keçirilməsi və yeri

Komissiya qarşılıqlı razılıq və/və ya hər iki Tərəfin müraciəti əsasında növbə ilə Azərbaycan və Suriyada görüşəcəkdir.

Maddə 6

Sədrlik

Komissiyanın iclaslarına sədrlik nümayəndə heyətlərinin başçıları tərəfindən birgə olaraq həyata keçiriləcəkdir.

Maddə 7

Gündəlik

Komissiya iclasının gündəliyi iclasın keçirilmə tarixindən ən azı bir ay əvvəl iclas keçirilən ölkə tərəfindən təklif olunacaqdır.

Maddə 8

Protokol

İclas keçirilən ölkə razılaşdırılmış protokolun hazırlanmasına məsul olacaqdır.

Maddə 9

Əlaqə

Bütün əlaqələr diplomatik kanallar vasitəsilə həyata keçiriləcək.

Maddə 10

Pres-reliz

Komissiyanın bütün sənədləri məxfi saxlanılacaqdır. Lakin, məqsədəuyğun olduğu təqdirdə Komissiya mətbuata bəyanatlar verə bilər.

Maddə 11

Mübahisələrin həlli

Bu Anlaşma Memorandumunun təfsiri və ya tətbiqi ilə bağlı meydana çıxa bilən istənilən mübahisə Tərəflər arasında məsləhətləşmə və ya danışıq yolu ilə dostcasına həll ediləcəkdir.

Maddə 12

Düzəlişlər

Bu Anlaşma Memorandumuna Tərəflərin qarşılıqlı razılığı ilə əlavələr və düzəlişlər edilə bilər. Bu əlavələr və düzəlişlər bu Anlaşma Memorandumunun tərkib hissəsi olan ayrıca protokollar formasında rəsmiləşdiriləcəkdir.

Maddə 13

Qüvvəyə minmə, qüvvədə olma müddəti və qüvvədən düşmə

Bu Anlaşma Memorandumu Razılığa gələn Tərəflərin diplomatik kanallarla bir-birinə, onların bu Anlaşma Memorandumunun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurlarının yerinə yetirilməsi barədə göndərdikləri sonuncu bildirişin tarixində qüvvə minir.

Bu Anlaşma Memorandumu 5 (beş) il müddətində qüvvədə qalacaqdır və Tərəflərdən biri bu Anlaşma Memorandumunun müddətinin bitməsinə on azı altı ay qalmış onu ləğv etmək niyyəti barədə yazılı şəkildə diplomatik kanallar vasitəsilə digər Tərəfə məlumat verməzsə, onun qüvvəsi avtomatik olaraq eyni müddətlərə uzadılacaqdır.

Tərəflər arasında digər qayda razılaşdırılmadıqda, bu Anlaşma Memorandumunun qüvvədən düşməsi bu Anlaşma Memorandumu əsasında əldə olunmuş hər hansı razılaşmaların, fəaliyyətlərin və ya proqramların qüvvəsinə və davam etmə müddətinə onların başa çatmasına qədər təsir etməyəcəkdir.

Bunun təsdiqi olaraq, aşağıda imza edənlər, bunun üçün müvafiq qaydada öz Hökumətləri tərəfindən səlahiyyətləndirilərək bu Anlaşma Memorandumunu imzaladılar.

Bu Anlaşma Memorandumu Bakı şəhərində 08 iyul 2009-cu il tarixində hər biri Azərbaycan, ərəb və ingilis dillərində olmaqla iki nüsxədə imzalanmışdır, bütün mətnlər bərabər autentikdir. Bu Anlaşma Memorandumunun təfsirində fikir ayrılığının olduğu təqdirdə, ingilis dilində olan mətndən istifadə ediləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	SURİYA ƏRƏB RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN
YAQUB EYYUBOV	*ABDULLAH ƏL-DƏRDƏRİ*
Baş nazirinin birinci müavini	*Baş nazirinin iqtisadi məsələlər üzrə müavini*

Azərbaycan Respublikası Hökuməti və Suriya Ərəb Respublikası Hökuməti arasında sənaye və energetika sahəsində əməkdaşlıq haqqında Saziş

Bundan sonra ayrılıqda "Tərəf", birlikdə isə "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikası Hökuməti və Suriya Ərəb Respublikası Hökuməti,

Hər iki dövlətin sənaye və energetika potensiallarından səmərəli istifadə etmək və iki ölkə xalqlarının maddi rifah halını yüksəltmək məqsədi ilə;

iki ölkə xalqları arasında mövcud dostluq əlaqələrinin möhkəmləndirilməsini və inkişafını arzulayaraq;

sənaye və energetika sahələrində münasibətlərin gələcəkdə qarşılıqlı mənfəət, uzunmüddətli və stabil əsaslarla inkişafının və möhkəmlənməsinin vacibliyini vurğulayaraq;

sənaye və energetika sahələrində əldə edilmiş təcrübənin mübadiləsi, sənaye müəssisələri və təşkilatları arasında birbaşa əlaqələrin qurulması və qeyd olunan sahələrin inkişafı üçün əlverişli şəraitin yaradılması sahəsində fəaliyyəti fəallaşdırmaq məqsədilə;

beynəlxalq hüququn ümumtanınmış norma və prinsiplərini rəhbər tutaraq;

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər sənaye və yanacaq-energetika kompleksi, mədən, emal (neftin və qazın emalı, kimya, maşınqayırma, metallurgiya, yüngül sənaye) və digər sənaye sahələrində əməkdaşlığın inkişafı üçün əlverişli şərait yaradacaqlar.

Tərəflər öz səlahiyyətləri daxilində və ikitərəfli layihələr əsasında konfrans, seminar və digər tədbirlərin təşkilini dəstəkləyəcəklər.

Maddə 2

Tərəflər müasir sənaye və energetika sistemləri ilə tanış olmaq məqsədilə müvafiq tədqiqat mərkəzləri arasında əlaqələrin qurulmasını dəstəkləyəcəklər.

Maddə 3

Tərəflər hər iki ölkənin sənaye və energetika sahəsində fəaliyyət göstərən subyektləri ilə birbaşa əlaqələrin qurulmasına və həmin subyektlərin xarici iqtisadi əlaqələrinin inkişaf etdirilməsini dəstəkləyəcəklər.

Maddə 4

Tərəflər əməkdaşlığın xüsusiyyətlərindən asılı olaraq, bu Sazişin həyata keçirilməsi üzrə fəaliyyətin əlaqələndirilməsinə görə məsul olan müvafiq icra hakimiyyəti orqanlarının təyin edilməsi barədə diplomatik kanallar vasitəsilə bir-birini məlumatlandıracaqlar.

Maddə 5

Bu Saziş ilə əlaqədar işlərin əlaqələndirilməsi və həyata keçirilməsi məqsədilə Tərəflər müvafiq qurumlarının nümayəndələrindən ibarət olacaq Birgə İşçi Qrupu yaratmağı nəzərdə tuturlar.

Maddə 6

Bu Sazişin müddəalarının yerinə yetirilməsi ilə bağlı yarana bilən mübahisələr Tərəflər arasında dostcasına həll ediləcəkdir.

Maddə 7

Bu Sazişin müddəaları, Tərəflərin iştirakçısı olduğu digər beynəlxalq müqavilələrdən irəli gələn hüquq və öhdəliklərə toxunmur.

Maddə 8

Tərəflərin qarşılıqlı razılığı əsasında bu Sazişə, onun ayrılmaz hissəsi olan və 9-cu maddəsində nəzərdə tutulan qaydada, qüvvəyə minən ayrıca protokollarla rəsmiləşdirilən əlavə və dəyişikliklər edib bilər.

Maddə 9

Bu Saziş, onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Tərəflərin sonuncu yazılı bildirişinin diplomatik kanallar vasitəsilə alındığı tarixdən qüvvəyə minir.

Bu Saziş beş il müddətinə bağlanılır və Tərəflərdən biri bu Sazişin müddətin bitməsinə ən azı altı ay qalmış onu ləğv etmək niyyəti barədə yazılı şəkildə diplomatik kanallar vasitəsilə digər Tərəfə məlumat verməzsə, onun qüvvəsi avtomatik olaraq eyni müddətlərə uzadılacaqdır.

Bu Saziş Bakı şəhərində 08 iyul 2009-cu il tarixində iki əsl nüsxədə, hər biri Azərbaycan, ərəb və ingilis dillərində imzalanmışdır. bütün mətnlər bərabər autentikdir. Təfsirdə fikir ayrılığı olduğu təqdirdə, ingilis dilində olan mətndən istifadə ediləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	SURİYA ƏRƏB RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN
YAQUB EYYUBOV	*ABDULLAH ƏL-DƏRDƏRİ*
Baş nazirinin birinci müavini	*Baş nazirinin iqtisadi məsələlər üzrə müavini*

Azərbaycan Respublikası Hökuməti və Suriya Ərəb Respublikası Hökuməti arasında elektrik enerjisi və bərpa olunan enerji sahəsində Anlaşma Memorandumu

Sənaye və Energetika Nazirliyi ilə təmsil olunan Azərbaycan Respublikası Hökuməti və Elektrik Enerjisi Nazirliyi ilə təmsil olunan Suriya Ərəb Respublikası Hökuməti,

hər iki hökumətin elektrik enerjisi və bərpa olunan enerjidən istifadə sahəsində əməkdaşlığın inkişaf etdirilməsində ümumi arzusuna əsaslanaraq,

hər iki ölkənin elektrik enerjisi sektorunda əməkdaşlığının ticarət və texnoloji aspektlərini nəzərə alaraq,

mövcud imkanlardan daha geniş və hərtərəfli səviyyədə faydalanmağı arzulayaraq,

elektrik enerjisi və bərpa olunan enerjidən istifadə sahəsində əməkdaşlıq etmək məqsədilə,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Hər iki tərəf öz imkanlarını müəyyənləşdirəcək, elektrik enerjisi və bərpa olunan enerjidən istifadə sahəsində əməkdaşlıq üçün, eləcə də inteqrasiya olunmuş ehtiyatların planlaşdırılmasından əlavə bütün enerji istehlakı sektorlarında enerjidən səmərəli istifadənin inkişafı üçün müvafiq əməkdaşlıq sahələri təklif edəcəkdir.

Maddə 2

Hər iki tərəf öz imkanlarına müvafiq olaraq, təlim və təhsil sahəsində təcrübə mübadiləsi məqsədi ilə texniklərin və mütəxəssislərin təlim keçməsi sahəsində imkanlar təklif edəcəkdir.

Maddə 3

Tərəflər hər iki ölkənin enerji sektoru sahəsində fəaliyyət göstərən şirkətlərini müxtəlif energetika materiallarının və avadanlıqlarının çatdırılması üçün müvafiq müəssisələri tərəfindən elan olunan beynəlxalq tenderlərdə və ya sifarişlərdə iştirak etməyə dəvət edəcəklər.

Maddə 4

Tərəflər hər iki ölkədə Azərbaycan və Suriya şirkətlərinin xüsusilə aşağıdakı sahələrə sərmayə qoyuluşunu dəstəkləyəcəklər:

Elektrik istehsalı sahəsində: müvafiq qanunvericiliyə uyğun olaraq (BOT, İPP, BOO və s.) yeni stansiyaların tikilməsi (buxar, birləşmiş dövrə, qaz turbinləri, külək stansiyaları, birləşmiş günəş enerjisi stansiyaları, fotoqalvanik stansiyalar)

Elektrik enerjisinin çatdırılması və istehlakı sahəsində: Azərbaycanda və ya Suriyada şirkətlərin və ya birgə müəssisələrin yaradılması ilə bəzi elektrik avadanlıqları üçün (transformator, kəsici alətlər, dəmir-beton dayaqları və elektron-rəqəmsal ölçü sistemləri) inkişaf etmiş sənaye müəssisələrinin yaradılması.

Maddə 5

Tərəflər öz müvafiq şirkətlərini hər iki ölkədə elektrik ötürücü xətləri, yarımstansiyalar kimi layihələrin həyata keçirilməsində iştirak etməyə təşviq edəcəklər.

Maddə 6

Bu Anlaşma Memorandumun yerinə yetirilməsi ilə bağlı yarana bilən mübahisələr Tərəflər arasında məsləhətləşmələr, qarşılıqlı anlaşma və görüşlər yolu ilə həll ediləcəkdir.

Maddə 7

Bu Anlaşma Memorandum onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Tərəflərin sonuncu yazılı bildirişinin diplomatik kanallar vasitəsilə alındığı tarixdən qüvvəyə minir.

Bu Anlaşma Memorandumu beş il müddətinə bağlanılır və Tərəflərdən biri bu Anlaşma Memorandumunun müddətinin bitməsinə ən azı altı ay qalmış onu ləğv etmək niyyəti barədə yazılı şəkildə diplomatik kanallar vasitəsilə digər Tərəfə məlumat verməzsə, onun qüvvəsi avtomatik olaraq eyni müddətlərə uzadılacaqdır.

Bu Anlaşma Memorandumu Bakı şəhərində 08 iyul 2009-cu il tarixində iki əsl nüsxədə, hər biri Azərbaycan, ərəb və ingilis dillərində olmaqla imzalanmışdır, bütün mətnlər bərabər autentikdir. Təfsirdə fikir ayrılığı yarandığı təqdirdə, ingilis dilində olan mətndən istifadə ediləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	SURİYA ƏRƏB RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN
NATİQ ƏLİYEV	*ABDULLAH ƏL-DƏRDƏRİ*
Sənaye və energetika naziri	*Baş nazirinin iqtisadi məsələlər üzrə müavini*

Azərbaycan Respublikası Hökuməti və Suriya Ərəb Respublikası Hökuməti arasında mədəniyyət sahəsində əməkdaşlıq haqqında Saziş

Bundan sonra "Tərəflər" adlandırılan Azərbaycan Respublikası Hökuməti və Suriya Ərəb Respublikası Hökuməti,

Suverenlik, qarşılıqlı hörmət və bərabər hüquqlar əsasında mədəniyyət sahəsində əməkdaşlığı gücləndirməyi arzu edərək,

bu cür əməkdaşlığın hər iki ölkəni xalqları arasında qarşılıqlı maraqların, anlaşmanın və dostluğun möhkəmlənməsinə yardım edəcəyinə inanaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər bərabərlik və qarşılıqlı maraqlar əsasında hər iki ölkənin müəssisələri arasında mədəni əməkdaşlıq üçün əlverişli şəraiti təşviq edəcək, dəstəkləyəcək və inkişaf etdirəcəklər.

Maddə 2

Tərəflər bu Sazişdə nəzərdə tutulan mədəni əlaqələri genişləndirmək məqsədilə mütəxəssislərin, sənət adamlarının və digər peşə və ixtisas sahələri nümayəndələrinin mübadiləsini təşviq edəcək və dəstəkləyəcəklər.

Maddə 3

Tərəflər öz ölkələrində digər Tərəfin mədəniyyətinin təşviq olunmasında aşağıdakıların vasitəsilə bir-birlərinə yardım edəcək və dəstəkləyəcəklər:

a) Kitablar, jurnallar və digər nəşrlərlə;

b) Mühazirə və konsertlərlə;

c) Təsviri sənət və sərgilərlə;

d) Teatr tamaşaları ilə.

Maddə 4

Tərəflər hər iki ölkənin milli kitabxana və muzeyləri arasında, həmçinin ümumi maraq doğuran sahələrdə nəşrlərin və mütəxəssislərin mübadiləsini təşviq edəcəklər.

Maddə 5

Tərəflər incəsənət əsərləri, sənədlər və digər tarixi dəyərə malik əşyaların qeyri-qanuni satışının qarşısını almaq və aradan qaldırmaq məqsədilə qurumları arasındakı əməkdaşlıq səviyyəsini artırmağı öhdələrinə götürürlər.

Maddə 6

Tərəflər qarşılıqlı kino həftələrini təşkil edəcək və hər iki ölkədə keçirilən beynəlxalq və regional film festivallarında iştirak edəcəklər.

Maddə 7

Tərəflər UNESCO-ISESCO da daxil olmaqla beynəlxalq təşkilatlar vasitəsilə mədəniyyət sahəsində əməkdaşlığı həyata keçirəcəklər.

Maddə 8

Tərəflər müxtəlif mədəni sahələrdə fəaliyyət göstərən mütəxəssislər üçün qarşılıqlı olaraq təlim kursları təşkil edəcəklər.

Maddə 9

Tərəflər hər birinin müddəti üç il olan və bu Sazişin uğurlu həyata keçirilməsi üçün qaydalar və maliyyə təminatını müəyyən edən icraedici proqramlar bağlamaq üçün çalışacaqlar.

Maddə 10

Bu Sazişə hər hansı düzəlişlər əlavə protokollar vasitəsilə və Tərəflərin razılığı ilə ediləcəkdir.

Maddə 11

Bu Sazişin müddəaları Tərəflərin iştirakçısı olduqları digər beynəlxalq sazişlərdən irəli gələn hüquq və öhdəliklərə toxunmur.

Maddə 12

Bu Sazişinin həyata keçirilməsi zamanı yarana biləcək hər hansı mübahisə və fikir ayrılığı məsləhətləşmələr, qarşılıqlı anlaşma və görüşlər vasitəsilə həll ediləcəkdir.

Maddə 13

Bu Saziş onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili proseduraların yerinə yetirilməsi barədə Tərəflərin bir-birinə diplomatik kanallar vasitəsilə göndərdikləri sonuncu yazılı bildirişin alındığı tarixdən qüvvəyə minir.

Bu Saziş beş il müddətinə bağlanılır və Tərəflərdən biri bu Sazişin müddətinin bitməsinə ən azı altı ay qalmış onu ləğv etmək niyyəti barədə yazılı şəkildə digər Tərəfə diplomatik kanallar vasitəsilə məlumat verməzsə, onun qüvvəsi avtomatik olaraq eyni müddətlərə uzadılacaqdır.

Tərəflər başqa qayda barədə razılaşmadıqları təqdirdə, bu Sazişin ləğv olunması Sazişin qüvvədə olduğu müddətdə razılaşdırılmış proqram və layihələrin həyata keçirilməsinə təsir etməyəcəkdir.

Bu Saziş Bakı şəhərində 08 iyul 2009-cu il tarixində, hər biri Azərbaycan, ərəb və ingilis dillərində olmaqla iki əsl nüsxədə imzalanmışdır, bütün mətnlər bərabər autentikdir. Təfsirdə fikir ayrılığı yarandığı təqdirdə, ingilis dilində olan mətndən istifadə ediləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN

YAQUB EYYUBOV
Baş nazirinin birinci müavini

SURİYA ƏRƏB RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN

ABDULLAH ƏL-DƏRDƏRİ
Baş nazirinin iqtisadi məsələlər üzrə müavini

Azərbaycan Respublikası Hökuməti və Suriya Ərəb Respublikası Hökuməti arasında informasiya və kommunikasiya texnologiyaları sahəsində əməkdaşlıq haqqında Saziş

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikası Hökuməti və Suriya Ərəb Respublikası Hökuməti,

Suriya Ərəb Respublikası ilə Azərbaycan Respublikası arasında informasiya və kommunikasiya texnologiyaları (İKT) sahəsində ikitərəfli əlaqələri inkişaf etdirməyi arzu edərək,

Bu əlaqələrin, eləcə də iqtisadi və sosial inkişafın, habelə hər iki ölkənin əhalisinin rifahının yaxşılaşdırılmasında səmərəli rabitənin vacib amil olduğunu dərk edərək,

İKT sahəsində bərabərhüquqlu şərtlərə, habelə ənənəvi dostluq əlaqələrinə əsaslanan sıx əməkdaşlığın yaradılmasında ümumi maraqlarını əks etdirərək,

aşağıdakılar barədə razılığa gəlirlər:

Maddə 1

Tərəflər arasında İKT sahəsində əlaqələr ölkələrin milli qanunvericiliyinin və bu Əməkdaşlıq Sazişin tələblərinə uyğun olaraq yaradılacaqdır.

Maddə 2

Tərəflər iki ölkə arasında rabitənin davamlı inkişaf etdirilməsi və keyfiyyətinin yaxşılaşdırılması, həmçinin onların etibarlılığının təmin olunması məqsədilə öz səlahiyyətləri çərçivəsində bütün lazımi tədbirləri görəcəklər.

Maddə 3

Tərəflər, öz milli qanunvericiliklərinə uyğun olaraq, hər iki ölkə üçün ən əlverişli şərtlərlə üçüncü tərəfə ötürülən və ya üçüncü tərəfdən daxil olan rabitə trafikinin onların ərazisindən tranzit keçməsini təşviq edəcəklər.

Maddə 4

Təbii fəlakət və ya fors-major hallarında Tərəflərin hər biri rabitə trafikinin digər tərəfin milli şəbəkələri və rabitə vasitələri üzərindən ötürülməsi üçün həmin Tərəfə üstünlük verəcəkdir.

Maddə 5

5.1 Tərəflər əməkdaşlığı aşağıdakılar üzrə həyata keçirəcəklər:

yeni texnologiyalar, layihələr, beynəlxalq tenderlər ilə əlaqədar olaraq informasiya və sənəd mübadiləsi;

ikitərəfli məsləhətləşmələr;

ekspertlər və mütəxəssislərin səfərləri;

tələb olunduğu halda işçi qruplarının yaradılması;

təlim proqramları;

əməkdaşlığın digər formaları.

5.2 Tərəflər bu Əməkdaşlıq Sazişinə uyğun olaraq xüsusi məsələlər haqqında sıx əməkdaşlıq və gələcək əlaqələndirməyə dair təkliflər verə bilər.

Maddə 6

Praktik cəhətdən mümkün və Tərəflərin milli maraqlarına zidd olmadığı təqdirdə Tərəflər İKT sahəsi üzrə ixtisaslaşmış təşkilatların işində iştirak zamanı əməkdaşlıq etmək və bir-birinin mövqelərinin dəstəklənməsi barədə razılığa gəlirlər.

Maddə 7

Tərəflər İKT-nin müxtəlif sahələri üzrə aşağıdakı məsələlər üzrə birbaşa əməkdaşlıq aparacaqlar:

1. radiotezliklərin ayrılması, monitorinq, nəzarət və s. kimi işlərin yerinə yetirilməsi üçün qayda və proseduraların yaradılması;

2. İKT sektoru sahəsində iqtisadi və kommersiya prinsiplərinin həyata keçirilməsi;

3. rabitə terminal avadanlığının sertifikatlaşdırılması və sertifikatların tanınması;

4. İKT sahəsində standartlaşma;

5. qarşılıqlı razılaşdırılan digər məsələlər.

Maddə 8

Tərəflər informasiya və kommunikasiya xidmətləri və əməliyyatı sahəsində xidmət göstərən rabitə operatorları və internet provayderləri arasında qarşılıqlı razılıq əsasında birbaşa tərəfdaşlığı və hesablaşmaların təşkilini dəstəkləyəcək və tövsiyə edəcək.

Maddə 9

İKT üzrə tədqiqat və inkişaf sahəsində və bu sahələrdə mütəxəssislərin təlimi ilə əlaqədar Tərəflər ölkələrinin ixtisaslaşmış təşkilatları arasında birbaşa tərəfdaşlığı və əməkdaşlığı tövsiyə edəcək və dəstəkləyəcək.

Maddə 10

Hazırkı Əməkdaşlıq Sazişi Tərəflərin üçüncü tərəflərlə bağlanılan beynəlxalq müqavilələrdən irəli gələn hüquq və öhdəliklərinə təsir etməyəcək.

Maddə 11

11.1 Hazırkı Əməkdaşlıq Sazişinin həyata keçirilməsinə məsul olan səlahiyyətli orqanlar aşağıdakılardır:

- Azərbaycan Respublikası tərəfindən Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi

- Suriya Ərəb Respublikası tərəfindən Rabitə və Texnologiyalar Nazirliyi

11.2 Bu səlahiyyətli təşkilatlar ilə əlaqədar hər hansı dəyişikliklər olduğu halda Tərəflər bir-birinə bu barədə məlumat verəcəklər.

Maddə 12

Bu Əməkdaşlıq Sazişinə aid bütün məlumatlar hər iki Tərəfin əvvəlcədən yazılı razılığı olmadan üçüncü tərəflərə təqdim olunmayacaqdır.

Maddə 13

Tərəflər hazırkı Əməkdaşlıq Sazişinin təfsiri və tətbiqi ilə əlaqədar meydana çıxa bilən bütün mübahisələri birbaşa danışıqlar və məsləhətləşmələr yolu ilə həll edəcəklər.

Maddə 14

Hazırkı Əməkdaşlıq Sazişinə düzəliş və əlavələr Tərəflərin qarşılıqlı razılaşması şərti ilə yalnız hər hansı Tərəfin yazılı təklifindən sonra edilə bilər.

Düzəlişlər və əlavələr hazırkı Əməkdaşlıq Sazişinin 15-ci Maddəsinin 15.1-ci bəndinə müvafiq olaraq qüvvəyə minəcəkdir.

Maddə 15

15.1 Bu Əməkdaşlıq Sazişi onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Tərəflərin bir-birinə diplomatik kanallar vasitəsilə göndərdikləri sonuncu yazılı bildirişin alındığı tarixdən qüvvəyə minir.

15.2 Hazırkı Əməkdaşlıq Sazişi iki il müddətinə bağlanılır və Tərəflərdən biri bu Sazişin müddətinin bitməsinə ən azı altı ay qalmış onu ləğv etmək niyyəti barədə yazılı şəkildə digər Tərəfə diplomatik kanallar vasitəsilə məlumat verməzsə, onun qüvvəsi avtomatik olaraq eyni müddətlərə uzadılacaqdır.

Maddə 16

Tərəflər hazırkı Əməkdaşlıq Sazişinin yerinə yetirilməsi ilə əlaqədar yazışmalar üçün ingilis dilindən istifadə edəcəklər. Digər təşkilatlar və müəssisələr arasında yazışma dili onlar arasında qarşılıqlı razılaşma ilə müəyyən edilə bilər.

Bu Saziş Bakı şəhərində 08 iyul 2009-cu il tarixində, hər biri Azərbaycan, ərəb və ingilis dillərində olmaqla iki əsl nüsxədə imzalanmışdır, bütün mətnlər bərabər autentikdir. Təfsirdə fikir ayrılığı yarandığı təqdirdə, ingilis dilində olan mətndən istifadə ediləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	SURİYA ƏRƏB RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN
ƏLİ ABBASOV	*VALİD ƏL-MUALLEM*
Rabitə və informasiya texnologiyaları naziri	*Xarici işlər naziri*

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Suriya Ərəb Respublikasının Xarici İşlər Nazirliyi arasında siyasi məsləhətləşmələr haqqında Anlaşma Memorandumu

Bundan sonra "Tərəflər" adlandırılan Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Suriya Ərəb Respublikasının Xarici İşlər Nazirliyi,

Ölkələr arasında mövcud olan ənənəvi dostluq münasibətlərini və onların əməkdaşlıq və qarşılıqlı anlaşma çərçivəsində əlaqələrin daha da gücləndirilməsi və inkişaf etdirilməsi arzusunda olmalarını nəzərə alaraq,

Ölkələr arasında əməkdaşlıq və qarşılıqlı anlaşmanın beynəlxalq sülhün və təhlükəsizliyin gücləndirilməsinə töhfə verəcəyinə inamlarını ifadə edərək,

Ölkələr arasında ikitərəfli və beynəlxalq məsələlərə dair müxtəlif səviyyələrdə keçiriləcək müntəzəm məsləhətləşmələrin hər iki Tərəf üçün qarşılıqlı faydalı olacağına inanaraq,

1961-ci il tarixli Diplomatik münasibətlər haqqında Vyana Konvensiyasını rəhbər tutaraq,

BMT-nin Nizamnaməsinə uyğun olaraq suveren bərabərlik və dövlətlərin daxili işlərinə qarışmamaq prinsiplərinə sadiqliklərini ifadə edərək,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər əməkdaşlığı genişləndirmək və dərinləşdirmək imkanlarını müzakirə etmək məqsədilə müntəzəm olaraq yüksək səviyyəli görüşlər keçirəcəklər.

Maddə 2

Tərəflər məsləhətləşmələrdə aşağıdakı məsələlərə üstünlük verəcəklər:

- siyasi, mədəni, elmi və texniki məsələlər üzrə ikitərəfli əlaqələrin təşkili və gücləndirilməsi;

- üzv olduqları beynəlxalq təşkilatlar çərçivəsində mövqelərin koordinasiya edilməsi və qarşılıqlı maraq doğuran məsələlər üzrə fikir mübadiləsinin aparılması;

- Tərəflərin razılaşdırdıqları digər məsələlər.

Maddə 3

Məsləhətləşmələr ildə bir dəfə və ya zəruri hesab edildiyi təqdirdə daha çox növbə ilə Bakıda və ya Dəməşqdə və ya BMT və onun ixtisaslaşmış qurumları yanındakı daimi nümayəndəliklərdə və digər beynəlxalq təşkilat və beynəlxalq konfranslarda keçirilə bilər.

Hər bir görüşün və ya məsləhətləşmənin gündəliyi diplomatik kanallarla razılaşdırılacaqdır.

Maddə 4

Tərəflər qarşılıqlı maraq doğuran spesifik məsələləri müzakirə etmək məqsədilə işçi qrup və ya ekspert görüşləri təşkil edə bilərlər.

Maddə 5

Bu Anlaşma Memorandumunda əks olunmuş müddəalar tərəflərin iştirakçısı olduqları digər beynəlxalq müqavilələrdən irəli gələn hüquq və öhdəliklərinə toxunmur.

Maddə 6

Bu Anlaşma Memorandumunun təfsiri və ya tətbiqi ilə bağlı meydana çıxa bilən istənilən mübahisə danışıqlar vasitəsilə dostcasına həll ediləcəkdir.

Maddə 7

Tərəflərin qarşılıqlı razılığı ilə bu Anlaşma Memorandumuna düzəlişlər edilə bilər.

Maddə 8

Bu Anlaşma Memorandumu imzalandığı gündən qüvvəyə minir və qeyri-müəyyən müddətə bağlanılır. Tərəflərdən hər biri istənilən zaman bu Anlaşma Memorandumuna xitam vermək niyyəti barədə digər Tərəfə diplomatik kanallar vasitəsilə yazılı şəkildə bildiriş göndərə bilər. Anlaşma Memorandumu bu cür bildiriş alındıqdan üç ay sonra xitam olunacaqdır.

Bu Anlaşma Memorandumu Bakı şəhərində 08 iyul 2009-cu il tarixində, hər biri Azərbaycan, ərəb və ingilis dillərində olmaqla iki əsl nüsxədə imzalanmışdır, bütün mətnlər bərabər autentikdir. Təfsirdə fikir ayrılığı yarandığı təqdirdə, ingilis dilində olan mətndən istifadə ediləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRLİYİ ADINDAN

ELMAR MƏMMƏDYAROV
Xarici işlər naziri

SURİYA ƏRƏB RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRLİYİ ADINDAN

VALİD ƏL-MUALLEM
Xarici işlər naziri

Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi və Suriya Ərəb Respublikasının Daxili İşlər Nazirliyi arasında əməkdaşlığa dair Niyyət Protokolu

Bundan sonra "Tərəflər" adlandırılan Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi və Suriya Ərəb Respublikasının Daxili İşlər Nazirliyi,

hər iki dövlətin suverenliyinə və müstəqilliyinə qarşılıqlı hörmət prinsiplərinə riayət edərək,

insan hüquq və azadlıqlarının qanunsuz qəsdlərdən səmərəli müdafiəsini təmin etmək niyyətilə,

Tərəflər arasında cinayətkarlıqla mübarizə sahəsində əməkdaşlığı inkişaf etdirmək məqsədilə,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər, səlahiyyətləri çərçivəsində və dövlətlərinin qanunvericiliyinə və tərəfdar çıxdıqları beynəlxalq müqavilələrə uyğun olaraq, aşağıdakı cinayətlərlə mübarizə sahəsində əməkdaşlıq edəcəklər:

a) mütəşəkkil cinayətkarlıq;

b) həyat və sağlamlıq əleyhinə olan cinayətlər;

c) silah, döyüş sursatı, partlayıcı, zəhərli, nüvə və radioaktiv maddələrdən istifadə edilməklə törədilmiş və ya hazırlanan cinayətlər;

d) narkotik vasitələr, psixotrop maddələr və onların prekursorlarının qanunsuz dövriyyəsi;

e) qanunsuz miqrasiya və insan alveri;

f) şəxsiyyəti təsdiq edən sənədlərin, banknotların, kredit kartlarının, qiymətli kağızların saxtalaşdırılması və qanunsuz hazırlanması;

g) mədəni və tarixi sərvətlərə qarşı törədilən cinayətlər;

h) mülkiyyət əleyhinə cinayətlər.

Maddə 2

Tərəflər qeyd olunan cinayətlərlə mübarizə üzrə məlumat mübadiləsi aparacaq, əməkdaşlıq edəcək və bir-birinə qarşılıqlı yardım göstərəcəklər.

Maddə 3

Tərəflər polis əməkdaşlarının hazırlanması, ixtisaslarının artırılması və qarşılıqlı maraq kəsb edən digər sahələr üzrə də əməkdaşlıq edəcəklər.

Maddə 4

Niyyət Protokolunun yerinə yetirilməsi zamanı Tərəflərin bir-birinə ötürdüyü şifahi və ya yazılı məlumatlar konfidensial xarakter daşıyır və məlumatı təqdim edən Tərəfin yazılı razılığı olmadan üçüncü tərəfə açıqlana bilməz.

Maddə 5

Tərəflərin qarşılıqlı razılığı əsasında bu Niyyət Protokoluna onun ayrılmaz hissəsi olan ayrıca protokollarla rəsmiləşdirilən əlavələr və dəyişikliklər edilə bilər.

Maddə 6

Tərəflər diplomatik, İnterpol kanalları, habelə telefon, faks və elektron vasitələrlə əlaqə yaradacaqlar.

Maddə 7

Tərəflər əməkdaşlığın inkişaf etdirilməsi məqsədilə ikitərəfli Sazişin imzalanması üçün lazımi tədbirləri görəcəklər.

Maddə 8

Bu Niyyət Protokolu qeyri-müəyyən müddətə bağlanılır və imzalandığı gündən qüvvəyə minir. Tərəflərdən hər biri istənilən vaxt bu Niyyət Protokoluna xitam vermək niyyəti barədə digər Tərəfə diplomatik kanallar vasitəsilə yazılı bildiriş göndərə bilər. Niyyət Protokolu bildiriş alındıqdan üç ay sonra qüvvəsini itirəcəkdir.

Bu Niyyət Protokolu Bakı şəhərində 08 iyul 2009-cu il tarixdə iki əsl nüsxədə, hər biri Azərbaycan, ərəb və ingilis dillərində imzalanmışdır, bütün mətnlər autentikdir. Bu Niyyət Protokolunun təfsiri və tətbiqi ilə bağlı fikir ayrılığı yarandığı təqdirdə, ingilis dilində olan mətndən istifadə ediləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASININ DAXİLİ İŞLƏR NAZİRLİYİ ADINDAN	SURİYA ƏRƏB RESPUBLİKASININ DAXİLİ İŞLƏR NAZİRLİYİ ADINDAN
RAMİL USUBOV	*ABDUL FATTAH AMMURA*
Daxili işlər naziri	*Xarici işlər nazirinin müavini*

Azərbaycan Respublikasının Maliyyə Nazirliyi və Suriya Ərəb Respublikasının Maliyyə Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikasının Maliyyə Nazirliyi və Suriya Ərəb Respublikasının Maliyyə Nazirliyi

maliyyə, monetar və beynəlxalq bazarın tələblərinə və ən yaxşı təcrübəyə cavab verən digər iqtisadi sahələrdə əməkdaşlığı inkişaf etdirməyə və genişləndirməyə səy göstərərək,

Azərbaycan Respublikasının və Suriya Ərəb Respublikasının iqtisadiyyatlarını dünya maliyyə sisteminə tədricən inteqrasiya etdirməyə səy göstərərək,

Azərbaycan Respublikasının və Suriya Ərəb Respublikasının iqtisadiyyatlarında baş verən dəyişiklikləri və qarşıya çıxan məsələlərin səmərəli şəkildə həll edilməsində qarşılıqlı maraqları nəzərə alaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər öz dövlətlərinin qanunvericiliklərinə uyğun olaraq və səlahiyyətləri daxilində aşağıdakı məsələlər üzrə əməkdaşlığın dərinləşməsinə, müntəzəm məsləhətləşmələrin keçirilməsinə və maliyyə-kredit münasibətləri sahəsində təcrübə mübadiləsinə köməklik göstərəcəklər:

iqtisadi müstəqillik və bazar münasibətlərinə keçid şəraitində maliyyə orqanlarının təşkilati strukturu;

büdcə daxilolmalarına effektiv nəzarətin təmin edilməsi üçün məlumat bazasının yaradılması;

sosial sahələrin və investisiya layihələrinin maliyyələşdirilməsi;

digər maliyyə məsələləri və informasiya.

Maddə 2

Tərəflər zəruri hallarda hər iki tərəf üçün ümumi maraq kəsb edən məsələlərin öyrənilməsi və elmi tədqiqatların aparılması məqsədilə birgə sahələrarası komissiyalar yarada bilər.

Maddə 3

Tərəflər səlahiyyətlərinə aid olan məsələlər üzrə təcrübə mübadiləsi, o cümlədən müvafiq mütəxəssislərin təcrübə keçməsi, elmi-praktiki konfrans və seminarların keçirilməsi üçün əlverişli şəraitin yaradılmasında köməklik göstərəcəklər.

Maddə 4

Bu Sazişin təfsiri və tətbiqi ilə əlaqədar yaranan fikir ayrılıqları Tərəflər arasında qarşılıqlı danışıqlar və məsləhətləşmələr yolu ilə həll edilir.

Maddə 5

Tərəflərin qarşılıqlı razılığı əsasında bu Sazişə onun tərkib hissəsi olan ayrı-ayrı Protokollarla rəsmiləşdirilən dəyişikliklər və əlavələr edilə bilər.

Belə Protokollar Sazişin 7-ci maddəsində göstərilən qaydada qüvvəyə minəcəkdir.

Maddə 6

Bu Saziş qeyri-müəyyən müddətə bağlanır və Tərəflərin onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi haqqında sonuncu yazılı bildirişi diplomatik kanallarla aldığı tarixdən qüvvəyə minir.

Tərəflərdən hər biri istənilən zaman diplomatik kanallar vasitəsilə digər Tərəfə yazılı şəkildə bildiriş göndərməklə bu Sazişin qüvvəsini ləğv etmək barədə niyyətini bildirə bilər. Bu halda Sazişin qüvvəsi digər Tərəf belə bildirişi aldığı tarixdən 3 (üç) ay sonra ləğv edilir.

Bu Saziş Bakı şəhərində, 08 iyul 2009-cu il tarixində hər biri Azərbaycan, ərəb və ingilis dillərində iki əsl nüsxədə imzalanmışdır, bütün mətnlər bərabər autentikdir. Bu Sazişin təfsiri və tətbiqi ilə bağlı fikir ayrılığı yarandığı təqdirdə, ingilis dilində olan mətndən istifadə ediləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASININ MALİYYƏ NAZİRLİYİ ADINDAN	SURİYA ƏRƏB RESPUBLİKASININ MALİYYƏ NAZİRLİYİ ADINDAN
SAMİR ŞƏRİFOV	*ABDULLAH ƏL-DƏRDƏRİ*
Maliyyə naziri	*Baş nazirinin iqtisadi məsələlər üzrə müavini*

Azərbaycan Respublikasının Sənaye və Energetika Nazirliyi və Suriya Ərəb Respublikasının Sənaye Nazirliyi arasında sənaye sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu

Azərbaycan Respublikasının Sənaye və Energetika Nazirliyi və Suriya Ərəb Respublikasının Sənaye Nazirliyi,

tərəflər arasında sənayenin müxtəlif sahələrində əməkdaşlıq əlaqələrini inkişaf etdirməyi arzulayaraq

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər hər iki ölkədə sənaye sahəsində ikitərəfli elmi, texniki və inzibati əməkdaşlığı inkişaf etdirmək üçün çalışacaq, həmçinin öz aralarında təcrübə mübadiləsini təşviq edəcəklər.

Maddə 2

Sənaye sahələri üzrə əməkdaşlıq, hər iki ölkənin milli qanunvericiliyinə uyğun olaraq, aşağıdakıları əhatə edəcəkdir:

- sənaye sahələri üzrə birgə layihələrinin işlənib hazırlanması;

- sənaye sahəsində məlumat və texniki, elmi, inzibati və qanunvericilik təcrübələrinin mübadiləsi;

- ixtisaslaşmış texniki və sənaye tədqiqat mərkəzləri arasında sənaye sahəsində əməkdaşlığın dəstəklənməsi;

- sənaye zonalarının yaradılması, həmçinin birgə sərmayələrin təşviq olunması sahəsində təcrübə və texniki məlumatların mübadiləsi;

- hər iki ölkədə təşkil olunan müvafiq təlim kurslarında, seminarlarda, forum və konfranslarda iştirak.

Maddə 3

Tərəflər, öz səlahiyyətləri çərçivəsində və razılaşdırılmış sahələrdə, sənaye məhsulları və istifadə olunan istehsal metodları haqqında məlumatlanmanı artırmaq məqsədilə hər iki ölkədəki mövcud sənaye sahələri haqqında ekspert, təcrübə və informasiya mübadiləsi edəcəklər.

Maddə 4

Tərəflər hər iki ölkənin müxtəlif sənaye təşkilatlarında ümumi keyfiyyətli sistemin yerinə yetirilməsi və səlahiyyətli hakimiyyət orqanı tərəfindən verilən uyğunluq sertifikatlarının qarşılıqlı tanınmasına dair əməkdaşlıq edəcəklər.

Maddə 5

Hər iki ölkə ixtisaslaşmış təşkilatlar vasitəsilə imkanların yaradılması sahəsində, onların ehtiyaclarına uyğun və hər iki ölkədə qüvvədə olan qaydalara və sistemlərə xələl gətirmədən, razılaşdırılmış təlim proqramı çərçivəsində işçi heyəti üçün sənaye idarəetməsinin və texniki bacarıqların səviyyəsinin yüksəldilməsi məqsədilə əməkdaşlıq edəcəklər.

Maddə 6

Tərəflər özlərinin cavabdehlikləri və maliyyə prioritetlərinə uyğun olaraq əməkdaşlığı həyata keçirirlər. Tərəflər birgə razılaşdırılmış işlərin yerinə yetirilməsi üçün əlavə maliyyə mənbələri axtara bilərlər.

Maddə 7

Bu Anlaşma Memorandum onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Tərəflərin sonuncu yazılı bildirişinin diplomatik kanallar vasitəsilə alındığı tarixdən qüvvəyə minir.

Bu Anlaşma Memorandumu beş il müddətinə bağlanılır və Tərəflərdən biri bu Anlaşma Memorandumunun müddətinin bitməsinə ən azı altı ay qalmış onu ləğv etmək niyyəti barədə yazılı şəkildə diplomatik kanallar vasitəsilə digər Tərəfə məlumat verməzsə, onun qüvvəsi avtomatik olaraq eyni müddətlərə uzadılacaqdır.

Bu Anlaşma Memorandumu Bakı şəhərində 08 iyul 2009-cu il tarixində iki əsl nüsxədə, hər biri Azərbaycan, ərəb və ingilis dillərində olmaqla imzalanmışdır, bütün mətnlər bərabər autentikdir. Təfsir zamanı fikir ayrılığı yarandığı təqdirdə, ingilis dilində olan mətndən istifadə ediləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASININ
SƏNAYE VƏ ENERGETİKA NAZİRLİYİ
ADINDAN

NATİQ ƏLİYEV
Sənaye və energetika naziri

SURİYA ƏRƏB RESPUBLİKASININ
SƏNAYE NAZİRLİYİ
ADINDAN

ABDUL FATTAH AMMURA
Xarici işlər nazirinin müavini

Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi və Suriya Ərəb Respublikasının Turizm Nazirliyi arasında turizm sahəsində əməkdaşlığa dair Saziş

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi və Suriya Ərəb Respublikasının Turizm Nazirliyi,

turizm sahəsində əməkdaşlığı daha da inkişaf etdirməyi arzulayaraq,

onların müvafiq potensiallarını nəzərə alaraq, turizm sahəsində fəal əməkdaşlığı təşviq etmək ehtiyacına inanaraq,

turizm sektorunda davamlı inkişafa zəmanət vermək üçün Tərəflərin təbii, ətraf mühit və mədəni resursları qoruyub saxlamaqda birgə səyləri həyata keçirmək iradələrini nəzərə alaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər tarix və mədəniyyətlərinin qarşılıqlı öyrənilməsinin səviyyəsini qaldırmaq məqsədilə turizm əlaqələrinin inkişafına və gücləndirilməsinə xüsusi diqqət göstərəcəklər.

Maddə 2

Tərəflər iki ölkə arasında turist mübadiləsinin artırılması məqsədilə hər iki ölkənin turizmlə məşğul olan təşkilat, şirkət və operatorları arasında əlaqələri təşviq edəcəklər.

Maddə 3

Tərəflər turizm sektorunun inkişaf etdirilməsi məqsədilə əməkdaşlığı genişləndirməyə səy göstərərək, aşağıdakıların həyata keçirilməsi üçün zəruri tədbirlər görəcəklər:

a) Turizm sahəsində təcrübə mübadiləsinin və texnoloji tədqiqatların təşviq edilməsi;

b) turizmin təşviq edilməsində birgə fəaliyyəti təmin etmək üçün imkanların araşdırılması və müvafiq təcrübə mübadiləsi məqsədilə turist təşviqi və əyləncə sahəsində texniki missiyaların həyata keçirilməsi;

c) nəşrlər və turist təşviqi materiallarının mübadiləsi;

d) turizm məqsədləri üçün tarixi abidələrin qorunması üzrə əməkdaşlığın genişləndirilməsi;

e) turizm qanunvericiliyi barəsində məlumat mübadiləsi sahəsində əməkdaşlıq:

f) turizm sahəsində fəaliyyət göstərən media işçilərinin və jurnalistlərin ikitərəfli səfərlərinin təşviq edilməsi;

g) hər iki ölkədə qarşılıqlı olaraq turizm həftələrinin təşkil edilməsi;

h) mədəni turizm layihələrinin hazırlanması (İpək Yolu).

Maddə 4

Tərəflər peşəkar təlim sahəsində əməkdaşlığı dəstəkləyəcək, turizm sektorunda təhsil proqramları haqqında informasiya mübadiləsinə yardım edəcək və əlaqədar milli orqanlar vasitəsi ilə turizm müəssisələrinin idarəçiliyindəki və sözügedən sahədəki digər mütəxəssislərin təlimi üçün qrant təqaüdlərinin verilməsi imkanlarını araşdıracaqlar.

Maddə 5

Tərəflər öz turizm investisiya imkanları barədə bir-birini məlumatlandıracaqlar və hər iki ölkənin müvafiq qanun və qaydalarına uyğun olaraq digər Tərəfin ölkəsində turizm investisiya şirkətlərinin təsis edilməsi təşviq edəcəklər.

Maddə 6

Tərəflər özlərinin müvafiq orqanları arasında, həmçinin turizm sahəsində fəaliyyət göstərən beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığın gələcəkdə inkişafına səy göstərəcək və nail olunmuş nəticələr üzrə informasiya mübadiləsi aparacaqlar.

Maddə 7

Bu Sazişin nəticəsi olan əməkdaşlığın bütün formaları Tərəflərin milli qanunvericiliyinə uyğun olaraq həyata keçiriləcəkdir.

Maddə 8

Sazişin icra edilməsini təmin etmək, həyata keçirilən layihələri əlaqələndirmək və birgə layihələrin icrasının monitorinqini aparmaq məqsədilə Tərəflər Birgə Komissiya yarada bilərlər.

Maddə 9

Tərəflərin qarşılıqlı razılığı ilə bu Sazişə əlavələr və dəyişikliklər edilə bilər. Belə əlavələr və dəyişikliklər bu Sazişin ayrılmaz hissəsi olaraq ayrı-ayrı protokollar formasında rəsmiləşdiriləcək və bu Sazişin 10-cu maddəsində nəzərdə tutulan qaydada qüvvəyə minəcəkdir

Maddə 10

Bu Saziş onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Tərəflərin sonuncu yazılı bildirişinin diplomatik kanallar vasitəsilə alındığı tarixdən qüvvəyə minir.

Bu Saziş beş il müddətinə bağlanılır və Tərəflərdən biri bu Sazişin müddətinin bitməsinə ən azı altı ay qalmış onu ləğv etmək niyyəti barədə yazılı şəkildə digər Tərəfə diplomatik kanallar vasitəsilə məlumat verməzsə, onun qüvvəsi avtomatik olaraq eyni müddətlərə uzadılacaqdır.

Tərəflər arasında digər razılaşma əldə olunmazsa, bu Sazişin qüvvəsinin ləğv edilməsi

Sazişin qüvvədə olduğu müddətdə razılaşdırılmış proqram və layihələrin həyata keçirilməsinə təsir etməyəcəkdir.

Bu Saziş Bakı şəhərində 08 iyul 2009-cu il tarixində, hər biri Azərbaycan, ərəb və ingilis dillərində olmaqla iki əsl nüsxədə imzalanmışdır, bütün mətnlər bərabər autentikdir. Təfsirdə fikir ayrılığı yarandığı təqdirdə, ingilis dilində olan mətndən istifadə ediləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASININ MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRLİYİ ADINDAN	SURİYA ƏRƏB RESPUBLİKASININ TURİZM NAZİRLİYİ ADINDAN
ƏBÜLFƏS QARAYEV	*VALİD OL-MUALLEM*
Mədəniyyət və turizm naziri	*Xarici işlər naziri*

Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə Suriya Ərəb Respublikasının Ali Təhsil Nazirliyi arasında ali təhsil sahəsində əməkdaşlıq haqqında Saziş

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Suriya Ərəb Respublikasının Ali Təhsil Nazirliyi ali təhsil və elmi tədqiqat sahəsində əməkdaşlıq etmək, həmçinin iki ölkənin xalqları arasında qarşılıqlı anlaşma və hörmət ruhunu artırmaq və ikitərəfli münasibətləri gücləndirmək məqsədi ilə bu sazişi imzalamışlar.

Sazişin preambulasında qeyd edilmiş məqsədləri yerinə yetirmək üçün tərəflər aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər öz ölkələrində fəaliyyət göstərən ali təhsil və elmi tədqiqat müəssisələri arasında dostluq münasibətlərinin və əməkdaşlığın gücləndirilməsi, o cümlədən universitetlər, tədqiqat mərkəzləri, ali təhsil və peşə təhsili müəssisələri arasında ayrıca Anlaşma Memorandumlarının imzalanması üçün müvafiq şərait yaradacaqdır.

Maddə 2

Tərəflər ali təhsil və elmi tədqiqatların bütün sahələrində təcrübə, informasiya və nəşriyyat materiallarının mübadiləsini dəstəkləyəcəklər.

Maddə 3

Tərəflər öz ölkələrində fəaliyyət göstərən ali təhsil və elmi-tədqiqat müəssisələrində çalışan alimlərin, ali təhsil müəssisəsi əməkdaşlarının, ali təhsil sahəsində çalışan şəxslərin və bu müəssisələrdə təhsil alan tələbələrin mübadiləsini və onlar arasında əməkdaşlığı təmin edəcəkdir.

Maddə 4

Tərəflər öz ölkələrinin müvafiq ali təhsil müəssisələrində Azərbaycan və ərəb dillərinin tədrisinin genişləndirilməsi məqsədi ilə əməkdaşlıq edəcəklər.

Maddə 5

Tərəflər mütəxəssislərin və ali təhsil müəssisəsi əməkdaşlarının öz ölkələrində keçiriləcək konfrans və forumlarda iştirakının təmin edilməsi üçün əməkdaşlıq edəcəklər.

Maddə 6

Tərəflər hər iki ölkədə fəaliyyət göstərən ali təhsil müəssisələrinin qaydalarına, həmçinin ölkələrində qüvvədə olan qanunvericiliyə uyğun olaraq namizədlərin müvafiq tədris proqramlarına qəbulunu təmin etməklə yüksək ixtisaslı kadrların hazırlanmasına dəstək məqsədi ilə magistr proqramları üzrə təqaüd mübadiləsini həyata keçirəcəklər. Bu təqaüdlərin detalları diplomatik kanallar vasitəsi ilə razılaşdırılacaqdır.

Maddə 7

Tərəflər öz ölkələrində qüvvədə olan qanunvericiliyə uyğun olaraq ali təhsil müəssisələri tərəfindən verilmiş dərəcələrin tanınması və ekvivalentliyi üzrə ayrıca Anlaşma Memorandumlarının imzalanması məqsədi ilə bütün lazımi informasiya mübadiləsini həyata keçirəcək və müvafiq tədbirlər görəcəklər.

Maddə 8

Bu Saziş qüvvəyə mindiyi andan etibarən tərəflər sazişin ayrı-ayrı bəndlərində göstərilmiş məsələlərin həyata keçirilməsi məqsədi ilə dövri olaraq icraedici proqramları müzakirə edəcəklər. Razılaşdırılmış hər bir fəaliyyətlə bağlı maliyyə məsələləri, o cümlədən, təqaüdlərin sayı barədə detallar diplomatik kanallar vasitəsi ilə razılaşdırılacaqdır. İcraedici proqramlar 3 illik müddəti əhatə etməlidir.

Maddə 9

Bu saziş onun qüvvəyə minməsi üçün tələb olunan bütün lazımi daxili prosedurların tamamlandığını təsdiq edən sonuncu bildiriş qəbul edildiyi gündən qüvvəyə minir.

Bu saziş 5 illik müddətə imzalanır və tərəflərdən biri sazişin başa çatmasından 6 ay öncə digər tərəfə diplomatik kanallar vasitəsi ilə bu sazişə xitam vermək niyyəti barədə yazılı bildiriş göndərmədiyi təqdirdə, avtomatik olaraq növbəti müddətə uzadılır.

Bu saziş Bakı şəhərində 08 iyul 2009-cu il tarixində iki əsl nüsxədə, hər biri Azərbaycan, ərəb və ingilis dillərində olmaqla imzalanmışdır, bütün mətnlər bərabər autentikdir. Təfsir zamanı fikir ayrılığı yarandığı təqdirdə, ingilis dilində olan mətndən istifadə ediləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASININ TƏHSİL NAZİRLİYİ ADINDAN	SURİYA ƏRƏB RESPUBLİKASININ ALİ TƏHSİL NAZİRLİYİ ADINDAN
MİSİR MORDANOV	*VALİD OL-MUALLEM*
Təhsil naziri	*Xarici işlər naziri*

Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə Suriya Ərəb Respublikasının Təhsil Nazirliyi arasında ümumi təhsil sahəsində əməkdaşlıq haqqında Saziş

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Suriya Ərəb Respublikasının Ümumtəhsil Nazirliyi dövlətlərin suveren bərabərliyi və təhsil sisteminin muxtariyyəti prinsiplərinə əsaslanaraq qarşılıqlı faydalı əlaqələrin gücləndirilməsi və inkişaf etdirilməsi arzusu ilə, o cümlədən təhsilə və hər iki ölkə

xalqlarının mədəni və təhsil ehtiyaclarına böyük əhəmiyyət verərək,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər ümumi və texniki peşə təhsili üzrə kurrikulumların hazırlanması sahəsində əməkdaşlığı inkişaf etdirmək və təcrübə mübadiləsini həyata keçirmək məqsədi ilə səy göstərəcəklər. Onlar, həmçinin ümumi təhsil sistemi sahəsində əməkdaşlığı təşviq edəcəklər.

Maddə 2

Tərəflər təhsilin planlaşdırılması və statistikası sahəsində, həmçinin müəllimlərin və təhsil işçilərinin yenidən hazırlanma və ixtisasartırması sahələri üzrə əməkdaşlığa dəstək verəcəklər.

Maddə 3

Tərəflər imtahanlar, attestasiya və qiymətləndirmə sahələrində təcrübə mübadiləsi və əməkdaşlığı təşviq edəcəklər.

Maddə 4

Tərəflər təhsil, xüsusilə də xüsusi təhsilə (xüsusi istedada malik olan fəaliyyət qabiliyyətini itirmiş şagirdlər) bağlı tədqiqat və araşdırmalar üzrə əməkdaşlığa böyük diqqət yetirəcəklər.

Maddə 5

Tərəflər informatika və İnformasiya Kommunikasiya Texnologiyalarının təhsilə inteqrasiyası sahəsində əməkdaşlıq barəsində razılığa gələcəklər.

Maddə 6

Tərəflər şagirdlərin idman və mədəni tədbirlərlə yanaşı, incəsənət tədbirləri və müsabiqələrdə iştirakını təşviq edəcəklər.

Maddə 7

Bu Saziş 3 illik müddəti əhatə edən dövri icraedici proqramlar vasitəsilə həyata keçiriləcəkdir. Belə icraedici proqramlar hər iki ölkənin paytaxtlarında imzalanacaq və buraya müvafiq tədbirlərin həyata keçirilməsi üçün tələb olunan maliyyə ilə bağlı, eləcə də ümumi müddəalar daxil ediləcəkdir.

Maddə 8

Bu Sazişə hər hansı əlavə və dəyişikliklər yalnız tərəflərin qarşılıqlı yazılı razılaşması əsasında ediləcəkdir. Belə əlavə və dəyişikliklər əsas sazişin tərkib hissəsi olan əlavə sazişlər formasında tərtib ediləcək və bu sazişin 10-cu maddəsinə əsasən qüvvəyə minəcəkdir.

Maddə 9

Bu Sazişin həyata keçməsi prosesində yaranan hər hansı fikir ayrılığı tərəflərin məsləhətləşmələri nəticəsində həll olunacaqdır.

Maddə 10

Bu Saziş onun qüvvəyə minməsi üçün tələb olunan bütün lazımi daxili prosedurların tamamlandığını təsdiq edən sonuncu bildiriş qəbul edildiyi gündən qüvvəyə minir.

Bu Saziş 5 illik müddətə imzalanır və tərəflərdən biri sazişin başa çatmasından 6 ay öncə digər tərəfə diplomatik kanallar vasitəsi ilə bu sazişə xitam vermək niyyəti barədə yazılı bildiriş göndərmədiyi təqdirdə, eyni müddətə uzadılır.

Bu Saziş Bakı şəhərində 08 iyul 2009-cu il tarixində iki əsl nüsxədə Azərbaycan, ərəb və ingilis dillərində imzalanmışdır, bütün mətnlər bərabər autentikdir. Sazişin şərhi ilə bağlı hər hansı uyğunsuzluq yaranarsa, Sazişin ingilis dilində olan mətndən istifadə ediləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASININ TƏHSİL NAZİRLİYİ ADINDAN	SURİYA ƏRƏB RESPUBLİKASININ ALİ TƏHSİL NAZİRLİYİ ADINDAN
MİSİR MƏRDANOV	*VALİD ƏL-MUALLEM*
Təhsil naziri	*Xarici işlər naziri*

Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi və Suriya Ərəb Respublikasının Səhiyyə Nazirliyi arasında səhiyyə sahəsində əməkdaşlıq haqqında Saziş

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi və Suriya Ərəb Respublikasının Səhiyyə Nazirliyi,

səhiyyə və tibb elmi sahəsində ikitərəfli münasibətlərini inkişaf etdirməyi arzu edərək,

bu əməkdaşlığın onların ölkələrinin əhalisinin sağlamlıq vəziyyətinin yaxşılaşmasına töhfə verəcəyini etiraf edərək,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər aşağıdakı sahələrdə təcrübə mübadiləsini təşviq etməklə səhiyyə və tibb elmi sahəsində əməkdaşlığı genişləndirəcəklər:

İxtisasartırma və təlimlər;

Əczaçılıq;

Konfranslar və simpoziumların təşkili.

Maddə 2

Tərəflər bir-birinin səhiyyə xidməti sistemləri ilə daha yaxından tanış olmaq və illik proqramlarına uyğun olaraq təlimlərə çıxış əldə etmək məqsədilə mütəxəssislərdən ibarət nümayəndə heyətlərinin səfərlərini təşkil edəcəklər.

Mütəxəssislərdən ibarət nümayəndə heyətlərinin səfərləri zamanı göndərən Tərəf beynəlxalq nəqliyyat xərclərini, səfər müddəti ərzində ölkə daxili nəqliyyat xərclərini və yerləşmə xərclərini ödəyəcəkdir.

Maddə 3

Bu Sazişə uyğun olaraq əməkdaşlıq aşağıdakı kimi həyata keçiriləcəkdir:

məlumat mübadiləsi;

nümayəndə heyəti və mütəxəssislərin mübadiləsi;

Tərəflərin təşkil etdikləri konfrans və simpoziumlarda mütəxəssislərin iştirakı.

Maddə 4

Tərəflər əczaçılıq sahəsində əməkdaşlığa dair razılığa gəldilər:

hər iki ölkənin milli qanunvericiliyinə uyğun olaraq dərmanların qeydiyyatının aparılması; və

ölkələrdən birində istehsal olunmuş dərmanlara üstünlük verilməsi imkanlarının araşdırılması.

Maddə 5

Tərəflər tibbi ədəbiyyatın və tibbi təhsilə aid materialların qarşılıqlı olaraq mübadiləsini təşviq edəcəklər;

Tərəflər tibbi statistika və infeksion xəstəliklər haqqında epidemioloji hesabatların mübadiləsini həyata keçirəcəklər;

Tərəflər səhiyyə sahəsində qəbul olunmuş qanunları müraciət olunduğu təqdirdə mübadilə edəcəklər;

Tərəflər tibbi nəşriyyat evləri arasında əməkdaşlığı təşviq edəcəklər.

Maddə 6

Tərəflər əməkdaşlığın həyata keçirilməsinə məsul olan və hər Tərəfdən 3 nəfər nümayəndədən ibarət olan komitə təsis edəcəklər. Komitə öz iclaslarını növbə ilə Azərbaycan və Suriyada keçirəcəkdir.

Maddə 7

Bu Sazişə istənilən dəyişikliklər və əlavələr Tərəflər arasında qarşılıqlı olaraq razılaşdırılacaq və bu Sazişin ayrılmaz hissəsi olan əlavə protokollarla rəsmiləşdiriləcəkdir.

Maddə 8

Bu Saziş onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili proseduraların yerinə yetirilməsi barədə Tərəflərin bir-birinə diplomatik kanallar vasitəsilə göndərdikləri sonuncu yazılı bildirişin alındığı tarixdən qüvvəyə minir.

Bu Saziş beş il müddətinə bağlanılır və Tərəflərdən biri bu Sazişin müddətinin bitməsinə ən azı altı ay qalmış onu ləğv etmək niyyəti barədə yazılı şəkildə digər Tərəfə diplomatik kanallar vasitəsilə məlumat verməzsə, onun Qüvvəsi avtomatik olaraq eyni müddətlərə uzadılacaqdır.

Tərəflər başqa qayda barədə razılaşmadıqları təqdirdə, bu Sazişin ləğv olunması Sazişin qüvvədə olduğu müddətdə razılaşdırılmış proqram və layihələrin həyata keçirilməsinə təsir etməyəcəkdir.

Bu Saziş Bakı şəhərində 08 iyul 2009-cu il tarixində iki əsl nüsxədə, hər biri Azərbaycan, ərəb və ingilis dillərində imzalanmışdır, bütün mətnlər bərabər autentikdir. Təfsirdə fikir ayrılığı yarandığı təqdirdə, ingilis dilində olan mətndən istifadə ediləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASININ SƏHİYYƏ NAZİRLİYİ ADINDAN

OQTAY ŞİRƏLİYEV
Səhiyyə naziri

SURİYA ƏRƏB RESPUBLİKASININ SƏHİYYƏ NAZİRLİYİ ADINDAN

VALİD ƏL-MUALLEM
Xarici işlər naziri

Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi və Suriya Ərəb Respublikasının Kənd Təsərrüfatı və Aqrar İslahatlar Nazirliyi arasında kənd təsərrüfatı sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumu

Bundan sonra "Tərəflər" adlandırılan Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi və Suriya Ərəb Respublikasının Kənd Təsərrüfatı və Aqrar İslahatlar Nazirliyi,

Hər iki Tərəfin kənd təsərrüfatı və onunla əlaqədar sahələrdə ikitərəfli əməkdaşlığı inkişaf etdirmək və genişləndirməyi arzu edərək,

iki dost ölkə arasında kənd təsərrüfatı sahəsində qarşılıqlı faydalı ikitərəfli əməkdaşlıq əlaqələrinin yaradılması məqsədilə,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Birinci: Kənd təsərrüfatı sahəsində tədqiqatları, bitki mühafizəsi, kənd təsərrüfatı xidmətləri və kənd təsərrüfatı sahəsində dəstək:

toxumların, genetik ehtiyatların, quraqlığa və soyuğa davamlı buğda, arpa, mərcimək və noxud sortlarının və yerli növlərinin nümunələrinin hər bir Tərəfin Tələblərinə uyğun mübadiləsi;

hər iki Tərəfin müəyyən etdiyi meyvə ağaclarının calaq materiallarının, toxumlarının və genetik ehtiyatlarının mübadiləsi;

dövri elmi jurnalların, hesabatların və nəşrlərin mübadiləsi;

tərkibində pestisid qalığı olmayan kənd təsərrüfatı məhsullarının mübadiləsi;

kənd təsərrüfatı sahəsində elmi tədqiqatlar, kənd təsərrüfatı xidmətləri, kənd təsərrüfatı sahəsində dəstək və ting istehsalı sahələrində hər bir Tərəfin tələblərinə uyğun qarşılıqlı təlim səfərləri.

İkinci: Heyvandarlıq məhsullarının istehsalı və heyvan sağlamlığı:

fövqəladə hallar, təbii fəlakət və qoruyucu baytarlıq təbabəti tədbirləri zamanı xəstəliklərə nəzarət metodları;

baytarlıq xidməti sistemi, xəstəliklərə nəzarət metodları, heyvan xəstəlikləri və baytarlıq karantini;

heyvan xəstəliklərinə qarşı vaksin istehsalı;

damazlıq işi, xüsusilə də yüksək məhsuldar heyvan (qaramal, qoyun, at) cinsləri və hər bir ölkədə onların inkişaf proqramları üzrə təcrübə və araşdırmalar mübadiləsi.

Üçüncü: Kənd təsərrüfatı marketinqi və iqtisadiyyatı:

hər iki ölkədə kənd təsərrüfatı məhsullarının və toxumların istehsal xərcləri sahəsində əməkdaşlıq;

iqtisadi menecment metodları və yerli bazarlarla tanışlıq məqsədilə hər iki ölkənin kənd təsərrüfatı iqtisadiyyatı sahəsində çalışan mütəxəssislər üçün qarşılıqlı səfərlərin təşkili;

iki ölkə arasında kənd təsərrüfatı məhsullarının mübadiləsinin həcminin artırılması məqsədilə bir-birinin təcrübəsindən faydalanmaq üçün hər iki ölkədə qəbul edilmiş bazar informasiya sistemləri üzrə təcrübə mübadiləsi;

hər bir Tərəf digərini kənd təsərrüfatı məhsullarının siyahısı, onların ixrac oluna biləcək miqdarı, hansı mövsümdə mövcud olması barədə məlumatla təmin edir və eyni məlumatların verilməsini digər Tərəfdən xahiş edir.

Maddə 2

Təlim səfərləri və treninq üçün göndərən tərəf səfər ilə əlaqədar və gündəlik xərcləri, qəbul edən tərəf isə yerli nəqliyyat, təlim və yerləşmə ilə əlaqədar xərcləri ödəyəcəkdir (yerləşmə və ərzaq).

Maddə 3

Anlaşma Memorandumunun həyata keçirilməsi üçün müvafiq iş mexanizmlərinin təşkil edilməsi və əməkdaşlıq prosedurlarının hazırlanması məqsədilə hər iki Tərəfin nümayəndələrindən ibarət monitorinq komitəsi yaradılacaqdır. Komitənin iclasları hər il növbə ilə hər iki ölkədə keçiriləcəkdir.

Maddə 4

Bu Anlaşma Memorandum onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Tərəflərin sonuncu yazılı bildirişinin diplomatik kanallar vasitəsilə alındığı tarixdən qüvvəyə minir.

Bu Anlaşma Memorandumu beş il müddətinə bağlanılır və Tərəflərdən biri bu Anlaşma Memorandumunun müddətinin bitməsinə ən azı altı ay qalmış onu ləğv etmək niyyəti barədə yazılı şəkildə diplomatik kanallar vasitəsilə digər Tərəfə məlumat verməzsə, onun qüvvəsi avtomatik olaraq eyni müddətlərə uzadılacaqdır.

Tərəflər başqa qayda barədə razılaşmadıqları təqdirdə, bu Anlaşma Memorandumunun ləğv olunması onun qüvvədə olduğu müddətdə razılaşdırılmış proqram və layihələrin həyata keçirilməsinə təsir etməyəcəkdir.

Bakı şəhərində 08 iyul 2009-cu il tarixdə hər biri Azərbaycan, ərəb və ingilis dillərində olmaqla iki əsl nüsxədə imzalanmışdır və bütün mətnlər bərabər autentikdir. Təfsir zamanı fikir ayrılığı yarandığı təqdirdə, ingilis dilində olan mətndən istifadə ediləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASININ KƏND TƏSƏRRÜFATI NAZİRLİYİ ADINDAN

İSMƏT ABASOV
Kənd təsərrüfatı naziri

SURİYA ƏRƏB RESPUBLİKASININ KƏND TƏSƏRRÜFATI VƏ AQRAR İSLAHATLAR NAZİRLİYİ ADINDAN

ABDUL FATTAH AMMURA
Xarici işlər nazirinin müavini

Azərbaycan Respublikasının Dövlət Dəniz Administrasiyası və Suriya Gəmiçilik Palatası arasında əməkdaşlığa dair Anlaşma Memorandumu

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikasının Dövlət Dəniz Administrasiyası və Suriya Gəmiçilik Palatası,

Tərəflər arasında dəniz nəqliyyatı sahəsində dostluq əlaqələrini inkişaf etdirmək, dostləşmək və əməkdaşlığı gücləndirmək məqsədi ilə,

Tərəflər arasında dəniz ticarəti əlaqələrinin inkişafına töhfə verməyi arzulayaraq,

Bərabərlik, qarşılıqlı maraq və beynəlxalq hüquq prinsipləri əsasında,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər, milli qanunvericiliklərinə uyğun olaraq, daimi əməkdaşlığın inkişaf etdirilməsi və saxlanılmasına yönəlmiş cəhdlərini davam etdirəcəklər. Xüsusilə, hər iki Tərəf əməkdaşlıq imkanlarının həyata keçirilməsi məqsədilə, dənizçilik sahəsində nəşrlərin, sənəd və məlumat mübadiləsinin və məsləhətləşmələrin aparılması üzrə razılığa gəlirlər.

Tərəflər səlahiyyətləri çərçivəsində dəniz əlaqələrinin inkişaf etdirilməsi üzrə bir-birlərinə yardım göstərmək barədə razılığa gəlirlər. Bu məqsədlə, Tərəflər onların gəmiçilik, əlaqəli müəssisə və təşkilatları arasında əlaqələrin və əməkdaşlığın inkişafını təşviq etdirəcəklər.

Dəniz əlaqələrinin inkişafına yardım məqsədi ilə ölkələrində olan ticari ənənələr, dəniz qanunvericiliyi və dəniz iqtisadiyyatının vəziyyəti barədə müntəzəm məlumat mübadiləsi aparılacaqdır.

Aşağıda göstərilən üsullarla ikitərəfli əməkdaşlığı artırmaq çərçivəsində müntəzəm görüşlər və qarşılıqlı səfərlər təşkil olunacaqdır;

əlaqəli fəal dənizçilik şirkətlərini əməkdaşlıq üçün mövcud imkanlar barədə məlumatlarla təmin etmək və praktiki nəticələrə nail olunması məqsədi ilə onlara yardım göstərilməsi.

Tərəflərin limanları arasında dəniz ticarətinin inkişafına təsir edəcək maneələrin aradan qaldırılması üzrə bir-birləri ilə əməkdaşlıq etmək.

Simpoziumlar təşkil etmək.

Maddə 2

Tərəflər onları təmsil edən və eləcə də, universitetlərin və dəniz akademiyalarının nü-

mayəndələrinin iştirakı ilə görüş və səfərlər təşkil edəcək və həmin görüş və səfərlər zamanı təcrübə və informasiya mübadiləsi aparacaqlar.

Maddə 3

Yuxarıda göstərilən məqsədlərin yerinə yetirilməsi üçün Tərəflər aşağıdakılar üzrə əməkdaşlıq edəcəklər:

Dənizçilik sahəsində mütəmadi olaraq, nəşrlər, məlumat və sənədləşmə üzrə mübadilələrin aparılmasına nail olunması üçün tədbirlərin görülməsi;

Tərəflər hər iki ölkədə sərgi və yarmarkalar təşkil etməklə əlaqələri inkişaf etdirəcəklər. Hər iki tərəf nümayəndə və missiya mübadiləsi aparacaq, bazarın tədqiqi və səfərlərin təşkilində bir-birlərinə yardım göstərəcək, dənizçilik üzrə seminarlar təşkil edəcək, danışıqlar və digər zəruri fəaliyyətləri həyata keçirəcəklər;

Tərəflər bu Anlaşma Memorandumunun yerinə yetirilmə metodlarının yoxlanılması və iki ölkə arasında dəniz əlaqələrinin inkişaf etdirilməsi məqsədi ilə vaxtaşırı görüşlər təşkil edəcəklər. Görüşlərin dəqiq tarixi və yeri qarşılıqlı razılıq əsasında müəyyənləşəcək.

Tərəflər təlim və tədqiqat sahəsində institusional əməkdaşlığı təşviq edəcəklər.

Maddə 4

Tərəflərin qarşılıqlı razılığı əsasında bu Anlaşma Memorandumuna onun ayrılmaz hissəsi olan və 5-ci maddədə müəyyən olunmuş qaydada qüvvəyə minən ayrıca Protokollarla rəsmiləşdirilən əlavələr və dəyişikliklər edilə bilər.

Maddə 5

Bu Anlaşma Memorandumu onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Tərəflərin sonuncu yazılı bildirişinin diplomatik kanallar vasitəsi ilə alındığı tarixdən qüvvəyə minir. Bu Anlaşma Memorandumu 5 il müddətinə bağlanılır və Tərəflərdən biri bu Anlaşma Memorandumunun bitməsinə ən azı 6 ay qalmış onu ləğv etmək niyyəti barədə yazılı şəkildə diplomatik kanallar vasitəsilə digər Tərəfə məlumat verməzsə, onun qüvvəsi avtomatik olaraq növbəti 5 illik müddətlərə uzadılacaqdır.

Bu Anlaşma Memorandumu Bakı şəhərində 08 iyul 2009-cu il tarixində iki əsl nüsxədə, hər biri Azərbaycan, ərəb və ingilis dillərində imzalanmışdır, bütün mətnlər bərabər autentikdir. Bu Anlaşma Memorandumunun təfsirində fikir ayrılığı olduqda ingilis dilindəki mətndən istifadə ediləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT DƏNİZ ADMİNİSTRASİYASI ADINDAN	SURİYA GƏMİÇİLİK PALATASI ADINDAN
QÜDRƏT QURBANOV	*ABDUL FATTAH AMMURA*
Dövlət dəniz administrasiyasının rəisi	*Xarici işlər nazirinin müavini*

M.F. Axundov adına Azərbaycan Milli Kitabxanası və Suriya Ərəb Respublikasının Əl-Əsəd Kitabxanası arasında əməkdaşlıq haqqında Memorandum

Bundan sonra Sonradan "Tərəflər" adlandırılan M.F. Axundov adına Azərbaycan Milli Kitabxanası və Suriya Ərəb Respublikasının Əl-Əsəd Kitabxanası,

Kitabxanalar arasında əməkdaşlığı inkişaf etdirmək, həmçinin elm, mədəniyyət və informasiya mübadiləsi sahələrində əməkdaşlıq üçün şərait yaratmağı arzu edərək,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər biblioqrafik prosesin avtomatlaşdırılması, sənədlərin elektron mübadiləsi və çatdırılması, biblioqrafiya, nadir kitabların bərpası və mühafizəsi və mütəxəssislərin hazırlanması sahəsində əməkdaşlıq edəcəklər.

Maddə 2

Tərəflər kitabxanaşünaslıq elmi sahəsində və kitabxana-informasiya sistemlərinin inkişafı və nailiyyətlər barədə qarşılıqlı təcrübə və bilik mübadiləsi etmək məqsədilə aşağıdakı sahələrdə əməkdaşlığı gücləndirəcəklər:

biblioqrafiya proseslərinin avtomatlaşdırılması;

elektron kataloq və elektron kitabxanalardan qarşılıqlı istifadə;

informasiya bazalarının idarə edilməsi;

kitabxanalararası üzvlüyün həyata keçirilməsi;

kitab nəşriyyatı sahəsində elmi tədqiqatlar;

nadir kitabların mühafizə, bərpa və saxlanılması texnologiyaları;

kitabxana arxivinin təkmilləşdirilməsi üçün beynəlxalq kitab mübadiləsinin inkişafı;

kitab sərgilərinin təşkili;

kitabxana işi sahəsində mütəxəssislər arasında təcrübə mübadiləsi.

Maddə 3

Hər iki Tərəf kitabxana işçilərinin əldə olunmuş nailiyyətlərlə tanış olmaları və təcrübə mübadiləsi məqsədilə səfərlər mübadiləsini təşviq edəcəklər.

Hər bir Tərəf öz nümayəndələrinin mübadiləsi zamanı beynəlxalq nəqliyyat xərclərini öz üzərinə götürəcəkdir. Digər Tərəf yerləşmə xərclərini ödəyəcəkdir. Səfərin müddəti diplomatik kanallar vasitəsilə razılaşdırılacaqdır.

Əl-Əssəd kitabxanası öz qaydalarına müvafiq olaraq Azərbaycan Milli Kitabxanasının tədqiqat nümayəndələrinin araşdırma məqsədli ehtiyaclarını təmin edəcək. Qarşılıqlı mübadilə və ya hədiyyə verilməsi əsasında və öz qaydalarına müvafiq olaraq, Azərbaycan Milli Kitabxanası Əl-Əssəd kitabxanasını Azərbaycanın başqa kitabxanalarından ehtiyac duyulan materiallarla təmin edəcəkdir.

Tərəflər bir-birilərinə öz dövlətlərinin nəşrlərinə, broşür və sənədlərinə çıxışın əldə olunmasında və onların digər Tərəfə qarşılıqlı mübadilə prinsipi və ya ödənişli əsasda göndərilməsinin asanlaşdırılmasında yardım edəcəklər.

Göndərən Tərəf göndərdiyi nəşr və bağlamaların xərclərini öz üzərinə götürəcək.

Maddə 4

Zərurət yarandığı təqdirdə, Tərəflər biri-birinə ilkin bildiriş göndərməklə və yazılı razılıq əsasında bu Əməkdaşlıq haqqında Memoranduma əlavə və dəyişikliklər edə bilərlər.

Maddə 5

Bu Əməkdaşlıq haqqında Memorandum imzalandığı gündən qüvvəyə minir, beş il müddətinə bağlanılır və Tərəflərdən biri onun müddətinin bitməsinə altı ay qalmış onu ləğv etmək niyyəti barədə yazılı şəkildə digər Tərəfə məlumat verməzsə, onun qüvvəsi avtomatik olaraq növbəti beşillik müddətə uzadılacaqdır.

Bu Əməkdaşlıq haqqında Memorandum Bakı şəhərində 08 iyul 2009-cu il tarixində iki əsl nüsxədə, hər biri Azərbaycan, ərəb və ingilis dillərində olmaqla imzalanmışdır, bütün mətnlər bərabər autentikdir. Təfsir zamanı fikir ayrılığı yarandığı təqdirdə, ingilis dilində olan mətndən istifadə ediləcəkdir.

M. F. AXUNDOV ADINA AZƏRBAYCAN MİLLİ KİTABXANASI ADINDAN	SURİYA ƏRƏB RESPUBLİKASININ ƏL-ƏSƏD KİTABXANASI ADINDAN
KƏRİM TAHİROV	*ABDUL FATTAH AMMURA*
Kitabxanasının direktoru	*Xarici işlər nazirinin müavini*

2009-cu il iyulun 17-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Almaniya Federativ Respublikasının Texniki Əməkdaşlıq Təşkilatı (GTZ) arasında təbii sərvətlərin davamlı idarə olunması sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nun təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2009-cu il iyulun 17-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Almaniya Federativ Respublikasının Texniki Əməkdaşlıq Təşkilatı (GTZ) arasında təbii sərvətlərin davamlı idarə olunması sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinə tapşırılsın ki, Sərəncamın 1-ci bəndində göstərilən Memorandumun həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Memorandumun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Almaniya Federativ Respublikası tərəfini xəbərdar etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 27 avqust 2009-cu il

№ 454

Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Almaniya Federativ Respublikasının Texniki Əməkdaşlıq Təşkilatı (GTZ) arasında "Təbii sərvətlərin davamlı idarə olunması sahəsində əməkdaşlıq" haqqında Anlaşma Memorandumu

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Almaniya Federativ Respublikasının Texniki Əməkdaşlıq Təşkilatı (GTZ), biomüxtəlifliyin qorunmasının qlobal əhəmiyyətinə və Azərbaycanla Almaniya arasında dostluq əlaqələrinə əsaslanaraq,

bu Memorandumun ekoloji siyasət sahəsində Avropa Qonşuluq Siyasəti çərçivəsində həyata keçirilməsini xatırlayaraq,

davamlı inkişaf məqsədlərinə nail olmaq üçün regional əməkdaşlığın əhəmiyyətini, müvafiq regional təşəbbüslərin/proqramların regional səviyyədə reallaşmasına Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin yalnız layihənin həyata keçirilmə prosesinin hər bir iştirakçı ölkə üçün hazırlanmış fərdi milli sublayihələrə əsaslanacağı halda razı olacağını nəzərə alaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Məqsəd

Bu Anlaşma Memorandumunun məqsədləri aşağıdakılardır:

təbii sərvətlərin davamlı idarə olunması, ictimai və özəl sektorlara və vətəndaş cəmiyyətinə daha yaxşı inteqrasiya olunması,

əhali tərəfindən təbii sərvətlərin ekoloji, iqtisadi və sosial faydalarının müsbət qiymətləndirilməsi,

davamlı idarə edilmə məqsədilə seçilmiş bir sahə üzrə (məsələn, qorunan ərazilər, meşə əraziləri) konsepsiyaların təqdim olunması,

təbii sərvətlərin davamlı idarə olunmasına dair əsas prosedurların milli qanunvericilik vasitəsilə daha yaxşı tənzimlənməsi.

Maddə 2

Treninqlər

Təbii sərvətlərin davamlı idarə olunması və istifadəsi sahəsində potensialın yaradılması üçün aşağıda göstərilən treninqlərin həyata keçirilməsi nəzərdə tutulur:

milli parklar, qoruqlar və bufer zonalar

qoruqların daxilində və xaricində biomüxtəlifliyin qorunması

meşə əraziləri (sertifikatlar, istifadə hüquqları, torpaqların şoranlaşması və s.)

ətraf mühitə təsirin qiymətləndirilməsi

iqlim dəyişmələrinə adaptasiya

ekoloji siyasətin əsas alətləri

təşkilati və idarəetmə üsullarının gücləndirilməsi.

Maddə 3

Əhalinin məlumatlandırılması

Müxtəlif kütləvi informasiya vasitələri və digər ictimai tədbirlər vasitəsilə ətraf mühitin mühafizəsi tədbirlərinin işıqlandırılması.

Maddə 4

Hüquqi çərçivə

Ətraf mühitin mühafizəsi üzrə milli qanunvericiliyə və xüsusi mühafizə olunan təbiət əraziləri üzrə qanuna mümkün dəyişikliklər davamlı idarəetmənin və monitorinqin gücləndirilməsini təmin edəcəkdir.

Maddə 5

Əlaqələndirmə

Bu Anlaşma Memorandumu çərçivəsində nəzərdə tutulan fəaliyyət Qlobal Ekologiya Fondu, Avropa İttifaqı, Yaponiya Beynəlxalq Əməkdaşlıq Agentliyi, Dünya Bankı, Beynəlxalq Miqrasiya və İnkişaf Təşkilatı və Almaniya Federativ Respublikasının KfW bankı kimi təşkilatları ilə əməkdaşlıq şəraitində həyata keçiriləcəkdir.

Maddə 6

Qüvvəyə minmə və xitam

Bu Anlaşma Memorandumu 5 il müddətinə bağlanılır və Tərəflərin onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurları yerinə yetirdikləri barədə bir-birlərinə diplomatik kanallar vasitəsilə göndərdikləri sonuncu yazılı bildirişin alındığı tarixdən qüvvəyə minir.

Tərəflərdən biri həmin müddətin başa çatmasına on azı altı ay qalmış onun qüvvəsini ləğv etmək niyyəti barədə digər Tərəfə diplomatik kanallar vasitəsilə məlumat vermədiyi təqdirdə, bu Memorandumun qüvvəsi növbəti beş il müddətinə uzadılır.

Bu Anlaşma Memorandumu 2009-cu il 17 iyul tarixində Bakı şəhərində Azərbaycan və ingilis dillərində iki əsl nüsxədə imzalanmışdır və bütün mətnlər bərabər autentikdir. Bu Anlaşma Memorandumunun təfsiri zamanı fikir ayrılığı yarandıqda, ingilis dilindəki mətnə üstünlük veriləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASININ EKOLOGİYA VƏ TƏBİİ SƏRVƏTLƏR NAZİRLİYİ ADINDAN	ALMANİYA FEDERATİV RESPUBLİKASININ TEXNİKİ ƏMƏKDAŞLIQ TƏŞKİLATI ADINDAN
(imza)	*(imza)*

Azərbaycan Respublikası və Latviya Respublikası arasında 2009-cu il avqustun 10-da Bakı şəhərində imzalanmış sənədlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. Azərbaycan Respublikası və Latviya Respublikası arasında 2009-cu il avqustun 10-da Bakı şəhərində imzalanmış aşağıdakı sənədlər təsdiq edilsin:

1.1. Azərbaycan Respublikası Hökuməti və Latviya Respublikası Hökuməti arasında gənclər və idman sahəsində əməkdaşlıq haqqında Saziş;

1.2. Azərbaycan Respublikası Hökuməti və Latviya Respublikası Hökuməti arasında turizm sahəsində əməkdaşlıq haqqında Saziş;

1.3. Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi və Latviya Respublikasının Patent İdarəsi arasında sənaye mülkiyyətinin hüquqi mühafizəsi sahəsində informasiyanın mübadiləsi haqqında Anlaşma Memorandumu.

2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bu Sərəncamın 1.1-1.3-cü bəndlərində göstərilən sənədlərin həyata keçirilməsi üçün zəruri tədbirlər görsün.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1.1-1.3-cü bəndlərində göstərilən sənədlərin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Latviya Respublikası tərəfini xəbərdar etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 27 avqust 2009-cu il

№ 455

Azərbaycan Respublikası Hökuməti və Latviya Respublikası Hökuməti arasında gənclər və idman sahəsində əməkdaşlıq haqqında Saziş

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikası Hökuməti və Latviya Respublikası Hökuməti,

hər iki dövlətin xalqları arasında əlaqələrin möhkəmləndirilməsi və ənənəvi dostluq münasibətlərinin inkişaf etdirilməsi arzusunu rəhbər tutaraq,

gənclər siyasəti və idman sahələrində sıx əlaqələrin və əməkdaşlığın Azərbaycan Respublikasının və Latviya Respublikasının gənc nəsilləri arasında qarşılıqlı anlaşmanın dərinləşməsinə kömək edəcəyinə əmin olaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər dövlətlərində fəaliyyət göstərən gənclər və idman təşkilatları arasında əlaqələrin inkişaf etdirilməsinə töhfə verəcəklər.

Maddə 2

Tərəflər idman təşkilatlarının idman tədbirlərində iştirakına kömək edəcəklər.

Maddə 3

Tərəflər əlaqələrin və əməkdaşlığın inkişaf etdirilməsini aşağıdakı vasitələrlə təşviq edəcəklər:

gənclər və idman siyasəti sahələrində fəaliyyət göstərən orqanlar, təşkilatlar və həmçinin fiziki şəxslər arasında birbaşa əməkdaşlığın, əlaqələrin qurulması və mübadilələrin həyata keçirilməsi üçün əlverişli şərait yaradılması;

Azərbaycan Respublikası və Latviya Respublikası ərazisində ikitərəfli gənclər və idman tədbirlərinin keçirilməsinə kömək göstərilməsi.

Maddə 4

Tərəflər, bu Sazişin müddəalarında nəzərdə tutulmuş qarşılıqlı məlumat mübadiləsi də daxil olmaqla, tədqiqat təşkilatları və mərkəzləri arasında əməkdaşlığı təşviq edəcək və buna şərait yaradacaqlar.

Maddə 5

Tərəflər yay tətili zamanı gənclərin, uşaqların asudə vaxtlarının təşkilinə və məktəbli və tələbə qruplarının mübadiləsinə şərait yaradacaqlar.

Maddə 6

Tərəflər yüksək səviyyəli idman, kütləvi idman, gənclər idmanı, fiziki imkanları məhdud olan insanlar üçün idman və idman qurğuları sahələrində əməkdaşlığı təşviq edəcəklər.

Maddə 7

Tərəflər festival, konfrans, simpozium, seminar, müsabiqə, sərgi və digər müvafiq görüşlərdə iştirak etmək üçün qarşılıqlı dəvətlər göndərəcəklər.

Maddə 8

Tərəflər öz ölkələrindəki idmanın inkişafı haqqında müvafiq məlumatlarla digər Tərəfi təmin etmək məqsədi ilə idman mütəxəssisləri, məşqçilər və digər ekspertlər arasında təcrübə mübadiləsini təşviq edəcəklər.

Maddə 9

Tərəflər nümayəndə heyətlərinin, komandalar, məşqçi və ekspertlərin mübadiləsini təşviq etmək məqsədi ilə idman və gənclər təşkilatları arasında birbaşa əməkdaşlığı dəstəkləyəcəklər.

Maddə 10

Bu Sazişin həyata keçirilməsi məqsədilə illik icra proqramı hazırlanacaqdır.

Maddə 11

Tərəflər idman və gənclər siyasəti sahələrinə dair siyasət, proqram və tədbirlər haqqında informasiya mübadiləsini təşviq edəcəklər.

Maddə 12

Tərəflər bu Sazişin müddəalarının təfsiri və ya tətbiqi zamanı mübahisələr yarandığı təqdirdə, onları danışıqlar və məsləhətləşmələr yolu ilə həll edəcəklər.

Maddə 13

Tərəflərin qarşılıqlı razılığı ilə bu Sazişə əlavələr və dəyişikliklər edilə bilər. Belə əlavələr və dəyişikliklər bu Sazişin ayrılmaz hissəsi olaraq ayrıca protokollar formasında rəsmiləşdiriləcək və bu Sazişin 14-cü maddəsində nəzərdə tutulan qaydada qüvvəyə minəcəkdir.

Maddə 14

Bu Saziş beş il müddətində bağlanır və Tərəflərin onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə diplomatik kanallar vasitəsilə bir-birinə göndərdikləri sonuncu yazılı bildirişin alındığı tarixdən qüvvəyə minir.

Tərəflərdən biri bu müddətin başa çatmasına ən azı altı (6) ay qalmış onun qüvvəsini ləğv etmək niyyəti barədə digər Tərəfə diplomatik kanallar vasitəsi ilə bildirməzsə bu Sazişin qüvvəsi növbəti beş illik müddətlərə uzadılır.

Bu Saziş Bakı şəhərində 10 avqust 2009-cu il tarixində iki əsl nüsxədə, hər biri Azərbaycan, latış və ingilis dillərində imzalanmışdır və bütün mətnlər bərabər autentikdir. Bu sazişin təfsiri zamanı fikir ayrılığı yarandığı təqdirdə ingilis dilindəki mətndən istifadə ediləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	LATVİYA RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN
AZAD RƏHİMOV	*MARİS RİEKSTİNS*
Gənclər və idman naziri	*Xarici işlər naziri*

Azərbaycan Respublikası Hökuməti və Latviya Respublikası Hökuməti arasında turizm sahəsində əməkdaşlıq haqqında Saziş

Bundan sonra "Tərəflər" adlandırılan Azərbaycan Respublikası Hökuməti və Latviya Respublikası Hökuməti,

turizmin inkişafının və onun hər iki ölkənin iqtisadi, mədəni və sosial həyatına töhfəsini əhəmiyyətini dərk edərək;

turizm sahəsində sıx və uzunmüddətli əməkdaşlıq üçün bərabərlik və qarşılıqlı yardım prinsipləri üzrə hüquqi baza yaradılmasını və turizmin inkişafı üçün vahid məkan yaratmaq məqsədilə ölkələr arasında, həmçinin onların turizm təşkilatları arasında bu sahədə əlaqələrin inkişaf etdirilməsini arzu edərək;

iki ölkə arasında turizmin təşviqinin davamlı inkişafın əsası olduğunu nəzərə alaraq;

2005-ci ilin 3 oktyabr tarixində Azərbaycan Respublikası Hökuməti və Latviya Respublikası Hökuməti arasında iqtisadi, elmi, texniki və mədəniyyət sahələrində əməkdaşlıq üzrə imzalanmış Sazişə uyğun olaraq;

aşağıdakılar barədə razılığa gəlirlər:

Maddə 1

Tərəflər bu Sazişə, milli qanunvericilik və beynəlxalq sazişlərdən irəli gələn bütün öhdəliklərə uyğun olaraq, bərabərlik və qarşılıqlı yardım əsasında turizm sahəsində əməkdaşlığı gücləndirəcək və inkişaf etdirəcəklər.

Maddə 2

1. Tərəflər hər iki ölkənin tarixi və mədəniyyəti haqqında qarşılıqlı bilik səviyyəsini yüksəltmək məqsədilə turizm sahəsində əlaqələrin inkişafına və gücləndirilməsinə xüsusi qayğı göstərəcəklər.

2. Tərəflər özlərinin milli turizm qurumları, turizm sahəsində məşğul olan hüquqi və fiziki şəxslər, həmçinin beynəlxalq və milli turizmin inkişafında iştirak edən ictimai turizm təşkilatları arasında sıx qarşılıqlı əməkdaşlığa kömək edəcəklər.

3. Tərəflər ictimai və özəl təşkilatlara, həmçinin müxtəlif turizm inkişaf tədqiqatları və layihələrinin hazırlanması sahəsində çalışan fiziki şəxslərə dəstək göstərəcəklər.

Maddə 3

1. Tərəflər turizm sahəsində aşağıdakılar barədə qarşılıqlı məlumat və bilik mübadiləsi aparacaqlar:

a) müvafiq ölkələrin turizm sahəsində qanun və qaydalar;

b) turizm əhəmiyyətli mədəni və təbii ehtiyatların qorunması ilə bağlı qanun və qaydalar;

c) turizm sahəsində dövlət siyasətinin planlaşdırılması, turizm inkişafına aid olan digər sənədlər və tədqiqatlar;

d) statistikalar;

e) turizm təşviqat fəaliyyətləri və materialları, inkişaf vasitələri, təşviqat fəaliyyəti tədbirlərinin həyata keçirilməsi;

Tərəflər turizm sahəsində jurnalistlər, radio və televiziya müxbirləri, həmçinin tədqiqatçılar və mütəxəssislər üçün tədqiqat səfərlərinin təşkilini həvəsləndirəcəklər.

Tərəflər fikir və təcrübə mübadiləsi məqsədilə maraqlı Tərəf tərəfindən təqdim olunan turizm mövzusunda seminarların, müzakirələrin və işçi qrupların təşkil edilməsini stimullaşdıracaqlar.

Maddə 4

Tərəflər daxili və beynəlxalq elmi əməkdaşlığı və tətbiq edilən turizm tədqiqatını həvəsləndirəcəklər. Tərəflər turizm sahəsində təhsil, təlim, həmçinin ekspert, personal və tələbə mübadiləsi vasitəsilə turizm sənayesi vərdişlərinin təkmilləşdirilməsini həvəsləndirəcəklər.

Maddə 5

Tərəflər özlərinin müvafiq orqanları, həmçinin turizm sahəsində fəaliyyət göstərən beynəlxalq təşkilatlar arasında gələcək əməkdaşlığı inkişaf etdirmək üçün səylərini əsirgəməyəcək və əldə olunan nailiyyətlər üzrə məlumat mübadiləsi aparacaqlar.

Maddə 6

Bu Sazişin həyata keçirilməsi hər iki ölkənin turizm üzrə məsul olan hökumət rəsmilərinin Azərbaycan Respublikası və Latviya Respublikası arasında iqtisadi, elmi, texniki və mədəni əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın işində iştirakı ilə təmin ediləcəkdir. Onların işinin məqsədi turizm sahəsində ikitərəfli əməkdaşlığın inkişafına dair birgə təkliflər, fəaliyyətlər və proqramların icra edilməsindən ibarət olacaqdır.

Maddə 7

Tərəflərin qarşılıqlı razılığı əsasında bu Sazişə onun ayrılmaz hissəsi olan və 9-cu maddəsində nəzərdə tutulan qaydada qüvvəyə minən ayrıca protokollarla rəsmiləşdirilən əlavə və dəyişikliklər edilə bilər.

Maddə 8

Bu Sazişin təfsiri ilə bağlı Tərəflər arasında yaranacaq hər hansı bir mübahisə danışıqlar və ya mübahisənin digər həlli üsulları (Tərəflərin qəbul etdiyi) ilə həll ediləcəkdir.

Maddə 9

Bu Saziş onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Tərəflərin sonuncu yazılı bildirişinin diplomatik kanallar vasitəsilə alındığı tarixdən qüvvəyə minir.

Bu Saziş beş il müddətinə bağlanılır və Tərəflərdən biri bu Sazişin müddətinin bitməsinə ən azı altı ay qalmış onu ləğv etmək niyyəti barədə yazılı şəkildə digər Tərəfə məlumat verməzsə, onun qüvvəsi avtomatik olaraq növbəti beş illik müddətlərə uzadılacaqdır.

Əgər Tərəflər başqa cür razılaşmazlarsa, bu Sazişin sona çatması onun qüvvədə olduğu müddətdə icrasına başlanılan proqram və layihələrin həyata keçirilməsinə təsir göstərməyəcəkdir.

Bu Saziş Bakı şəhərində 10 avqust 2009-cu il tarixində iki əsl nüsxədə, hər biri Azərbaycan, latış və ingilis dillərində imzalanmışdır və bütün mətnlər bərabər autentikdir. Bu Sazişin təfsiri zamanı hər hansı bir fikir ayrılığı olduğu təqdirdə, ingilis dilindəki mətn üstünlük təşkil edəcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	LATVİYA RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN
ELMAR MƏMMƏDYAROV	*ARTİS KAMPARS*
Xarici işlər naziri	*İqtisadiyyat naziri*

Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi və Latviya Respublikasının Patent İdarəsi arasında sənaye mülkiyyətinin hüquqi mühafizəsi sahəsində informasiyanın mübadiləsi haqqında Anlaşma Memorandumu

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi və Latviya Respublikasının Patent İdarəsi,

Azərbaycan Respublikası ilə Latviya Respublikası arasında iqtisadi və elmi-texniki əməkdaşlığın inkişafına kömək etməyi arzulayaraq,

sənaye mülkiyyətinin hüquqi mühafizəsinin getdikcə artan əhəmiyyətini nəzərə alaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər dövlətlərinin normativ hüquqi aktlarının tələblərinə uyğun olaraq və öz səlahiyyətləri çərçivəsində bu Memorandumun ayrılmaz hissəsi olan Əlavədə göstərilən siyahıya əsaslanaraq, sənaye mülkiyyətinin hüquqi mühafizəsi sahəsində, o cümlədən maşınla oxunan daşıyıcılar üzərində müəyyən edilmiş yazı formatında informasiya mübadiləsinin həyata keçirilməsini, qarşılıqlı sərfəli münasibətlər əsasında tənənnəsiz olaraq inkişaf etdirmək və dərinləşdirmək barədə razılığa gəldilər.

Maddə 2

Memorandum imzalandıqdan sonra iki ay ərzində Tərəflər bu Memorandumun Əlavəsində göstərilənlər üzrə informasiya mübadiləsini həyata keçirmək məqsədilə nümayəndələr təyin edirlər.

Tərəflər bu Memorandumun Əlavəsində göstərilən hər bir növ informasiya üçün müəyyən edilən ardıcıllıqla informasiya mübadiləsini həyata keçirmək üçün öhdəlik götürürlər.

Tərəflərdən hər hansı biri nümayəndəsini başqa şəxslə əvəz etdiyi halda, bu barədə digər Tərəfə bir ay müddətində məlumat göndərir.

Maddə 3

Tərəflər əvvəlcədən qarşılıqlı razılaşma şərtlərinə uyğun olaraq, mübadiləyə təqdim olunmuş nəşrlərin siyahısında, nüsxələrinin sayında və informasiya daşıyıcılarının növlərində dəyişikliklər etmək hüququna malikdirlər. Göstərilən siyahıda dəyişikliklərin və əlavələrin edilməsi Tərəflər arasında imzalanan protokolla rəsmiləşdirilir.

Maddə 4

Bu Memorandumun tətbiq edilməsi və həyata keçirilməsi məsələləri üzrə istənilən fikir ayrılıqları Tərəflər arasında aparılan danışıqlar yolu ilə həll olunur.

Maddə 5

Tərəflərin qarşılıqlı razılığı əsasında bu Memoranduma onun ayrılmaz hissəsi olan və 6-cı maddəsində nəzərdə tutulan qaydada qüvvəyə minən ayrıca protokollarla rəsmiləşdirilən əlavə və dəyişikliklər edilə bilər.

Maddə 6

Bu Memorandum imzalandığı gündən qüvvəyə minir.

Bu Memorandum beş il müddətinə bağlanır. Tərəflərdən biri bu Memorandumun müddətinin bitməsinə ən azı iki ay qalmış onu ləğv etmək niyyəti barədə yazılı şəkildə digər Tərəfə məlumat verməzsə, onun qüvvəsi növbəti beş il müddətinə uzadılacaqdır.

Bu Memorandum Bakı şəhərində 10 avqust 2009-cu il tarixində iki nüsxədə, hər biri

Azərbaycan, latış və rus dillərində olmaqla imzalanmışdır və bütün mətnlər eyni hüquqi qüvvəyə malikdir. Bu Memorandumun təfsiri zamanı fikir ayrılığı yarandığı təqdirdə rus dilindəki mətndən istifadə ediləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASININ STANDARTLAŞDIRMA, METROLOGİYA VƏ PATENT ÜZRƏ DÖVLƏT KOMİTƏSİ ADINDAN	LATVİYA RESPUBLİKASININ PATENT İDARƏSİ ADINDAN
RAMİZ HƏSƏNOV *Komitəsinin sədri*	*ZİGFRİDS AUMEİSTARS* *İdarəsinin direktoru*

Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi və Latviya Respublikasının Patent İdarəsi arasında sənaye mülkiyyətinin hüquqi mühafizəsi sahəsində informasiyanın mübadiləsi haqqında Anlaşma Memorandumuna Əlavə

1. Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi tərəfindən Latviya Respublikasının Patent İdarəsinə göndərilən nəşrlərin siyahısı:

1.1. "Sənaye mülkiyyəti" adlı sənaye mülkiyyəti rəsmi bülleteni 1 nüsxə, rübdə bir dəfə;

1.2. Azərbaycan Respublikasının sənaye mülkiyyətinin hüquqi mühafizəsi sahəsində qanunvericilik və normativ hüquqi (qanunaltı) aktları - nəşr edildiyi andan bir ay ərzində 1 nüsxə;

1.3. Komitənin fəaliyyəti barəsində illik hesabat - 1 nüsxə, ildə bir dəfə;

2. Latviya Respublikasının Patent İdarəsi tərəfindən Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinə göndərilən nəşrlərin siyahısı:

2.1. Latviya Respublikasının Patent İdarəsinin rəsmi bülleteni "Patenti un preču zīmes"-1 nüsxə, ayda bir dəfə;

2.2. Latviya Respublikasının Patent İdarəsinin fəaliyyəti barəsində illik hesabat və statistik hesabatı - 1 nüsxə, ildə bir dəfə;

2.3. Latviya Respublikasının sənaye mülkiyyətinin hüquqi mühafizəsi sahəsində normativ hüquqi aktları (onlar nəşr olunduqca, ingilis dilində) - nəşr edildiyi andan bir ay ərzində 1 nüsxə.

AZƏRBAYCAN RESPUBLİKASININ STANDARTLAŞDIRMA, METROLOGİYA VƏ PATENT ÜZRƏ DÖVLƏT KOMİTƏSİ ADINDAN	LATVİYA RESPUBLİKASININ PATENT İDARƏSİ ADINDAN
RAMİZ HƏSƏNOV *Komitəsinin sədri*	*ZİGFRİDS AUMEİSTARS* *İdarəsinin direktoru*

2009-cu il iyulun 2-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Təhlükəsizlik Şurası və Polşa Respublikası Milli Təhlükəsizlik Bürosu arasında 2009-2010-cu illər üçün Əməkdaşlıq Cədvəli"nin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2009-cu il iyulun 2-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Təhlükəsizlik Şurası və Polşa Respublikası Milli Təhlükəsizlik Bürosu arasında 2009-2010-cu illər üçün Əməkdaşlıq Cədvəli" təsdiq edilsin.

2. Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən sənədin həyata keçirilməsini təmin etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 27 avqust 2009-cu il

№ 457

RAZIYAM	*RAZIYAM*
Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Rəhbəri, Təhlükəsizlik Şurasının Katibi Ramiz Mehdiyev Bakı şəhəri, 2 iyul 2009-cu il	Polşa Respublikası Milli Təhlükəsizlik Bürosunun Rəhbəri, Dövlət katibi Aleksandr Şçıqlo Bakı şəhəri, 2 iyul 2009-cu il

Azərbaycan Respublikası Təhlükəsizlik Şurası və Polşa Respublikası Milli Təhlükəsizlik Bürosu arasında 2009-2010-cu illər üçün Əməkdaşlıq Cədvəli

№	Fəaliyyətlər	Tarix	Həyata keçirilməsi üçün məsuldur
1.	- regional və beynəlxalq təhlükəsizliyin cari məsələləri üzrə Azərbaycan və Polşa mütəxəssislərinin məsləhətləşmələri;		
	- Azərbaycan və Polşanın təhlükəsizliyi üçün ümumi təhdidlər və çağırışlar təfsilatı, bu məsələlərin həlli istiqamətində fəaliyyətlər;		Azərbaycan tərəfi: Prezidentin Müdafiə məsələləri üzrə köməkçisinin xidməti Polşa tərəfi: Beynəlxalq Təhlükəsizlik Departamenti
	- regionda "dondurulmuş münaqişələrin" həlli;		Azərbaycan tərəfi: PrezidentAdministrasiyasının Xarici əlaqələrşöbəsi Polşa tərəfi: BeynəlxalqTəhlükəsizlik Departamenti
	- Avropa Təhlükəsizlik və Müdafiə Siyasəti (ATMS) proqramlarının həyata keçirilməsində Azərbaycanın iştirakının cari vəziyyəti və perspektivləri;		Azərbaycan tərəfi:Prezidentin Müdafiə məsələləri üzrə köməkçisinin xidməti Polşa tərəfi: Beynəlxalq Təhlükəsizlik Departamenti,Daxili TəhlükəsizlikDepartamenti
	- Azərbaycan-Polşa hərbi (və hərbi-texniki) əməkdaşlığının cari vəziyyəti və perspektivləri;		Azərbaycan tərəfi: Prezidentin Müdafiə məsələləri üzrə köməkçisinin xidməti Polşa tərəfi: Müdafiə Sistemləri Departamenti
	- Azərbaycan-Avropa İttifaqı (Aİ) və Azərbaycan Avro-Atlantik əməkdaşlığının cari vəziyyəti;		Azərbaycan tərəfi: Prezidentin Müdafiə məsələləri üzrə köməkçisinin xidməti Polşa tərəfi: Beynəlxalq Təhlükəsizlik Departamenti
	- beynəlxalq terrorizm əleyhinə tədbirlər, transsərhəd mütəşəkkil cinayətkarlıq, insan alveri, qeyri-qanuni miqrasiya və narkotik vasitələrin qaçaqmalçılığı ilə mübarizə;		Azərbaycan tərəfi: PrezidentAdministrasiyasının Hüquq mühafizə orqanları ilə iş şöbəsi Polşa tərəfi: BeynəlxalqTəhlükəsizlik Departamenti,Daxili TəhlükəsizlikDepartamenti
	- transmilli cinayətkarlıqla mübarizədə əməkdaşlığın genişləndirilməsi imkanlarının nəzərdən keçirilməsi;		Azərbaycan tərəfi: PrezidentAdministrasiyasının Hüquq mühafizə orqanları ilə iş şöbəsi Polşa tərəfi: Beynəlxalq Təhlükəsizlik Departamenti, Daxili Təhlükəsizlik Departamenti
	- sərhəd təhlükəsizliyinin təmin olunması;		Azərbaycan tərəfi: Prezidentin Müdafiə məsələləri üzrə köməkçisinin xidməti Polşa tərəfi: DaxiliTəhlükəsizlik Departamenti
	- Azərbaycan və Polşada təhlükəsizlik sektorunda islahatların həyata keçirilməsi təcrübəsinin mübadiləsi;		Azərbaycan tərəfi: Prezidentin Müdafiə məsələləri üzrə köməkçisinin xidməti Polşa tərəfi: Daxili Təhlükəsizlik Departamenti

	- enerji təhlükəsizliyinin yaradılması, enerji ehtiyatlarının nəqli infrastrukturunun inkişaf etdirilməsi;		Azərbaycan tərəfi: Prezidentin İqtisadi məsələlər üzrə köməkçisinin xidməti Polşa tərəfi: Beynəlxalq Təhlükəsizlik Departamenti, Daxili Təhlükəsizlik Departamenti
	- iqtisadi əməkdaşlıqda və ikitərəfli iqtisadi proqram və layihələrin inkişaf etdirilməsində təhlükəsizlik problemləri;		Azərbaycan tərəfi: Prezidentin İqtisadi məsələlər üzrə köməkçisinin xidməti Polşa tərəfi:Daxili Təhlükəsizlik Departamenti
2.	Səfərlər:		
	- Azərbaycan Respublikası Təhlükəsizlik Şurasının katibinin Polşaya rəsmi səfəri;	2009-cu ilin 3-cü rübü	Azərbaycan tərəfi: Prezidentin Müdafiə məsələləri üzrə köməkçisinin xidməti Polşa tərəfi: Milli TəhlükəsizlikBürosu Rəhbərinin ofisi, BeynəlxalqTəhlükəsizlik Departamenti
	- Polşa Respublikası Milli Təhlükəsizlik Bürosu Rəhbərinin Azərbaycana rəsmi səfəri;	2010-cu ilin 2-ci rübü	Azərbaycan tərəfi: Prezidentin Müdafiə məsələləri üzrə köməkçisinin xidməti Polşa tərəfi: Milli TəhlükəsizlikBürosu Rəhbərinin ofisi, BeynəlxalqTəhlükəsizlik Departamenti
	- Polşa Respublikası Milli Təhlükəsizlik Bürosunun nümayəndə heyətinin (departament direktorları səviyyəsində) Azərbaycana səfəri - təhlükəsizlik məsələlərinə dair məsləhətləşmələr;	2009-cu ilin 3-cü rübü	Azərbaycan tərəfi: Prezidentin Müdafiə məsələləri üzrə köməkçisinin xidməti Polşa tərəfi: Milli TəhlükəsizlikBürosu Rəhbərinin ofisi, BeynəlxalqTəhlükəsizlik Departamenti
	- Azərbaycan Respublikası Təhlükəsizlik Şurasının nümayəndə heyətinin Polşaya səfəri - təhlükəsizlik məsələlərinə dair məsləhətləşmələr;	2010-cu ilin 2-ci rübü	Azərbaycan tərəfi: Prezidentin Müdafiə məsələləri üzrə köməkçisinin xidməti Polşa tərəfi: Milli Təhlükəsizlik Bürosu Rəhbərinin ofisi, BeynəlxalqTəhlükəsizlik Departamenti

3.	- Azərbaycan Respublikası Təhlükəsizlik Şurası aparatı və Polşa Respublikası Milli Təhlükəsizlik Bürosu arasında əməkdaşlığın əsas istiqamətlərinə dair məlumat mübadiləsi, Azərbaycan və Polşada milli təhlükəsizlik üzrə konfranslarda və "dəyirmi masalarda" iştirak;	daimi	Azərbaycan tərəfi:Prezidentin Müdafiə məsələləri üzrə köməkçisinin xidməti;Polşa tərəfi:Beynəlxalq Təhlükəsizlik Departamenti

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 21 aprel tarixli 81s nömrəli sərəncamı ilə verilmiş səlahiyyətlərə əsasən 2009-cu il mayın 29-da imzalanmış "KfW, Frankfurt am Main ("KfW") və Azərbaycan Respublikasını təmsil edən Maliyyə Nazirliyi ("Borcalan") və Azərbaycan Əmanətlərin Sığortalanması Fondu ("Layihəni icra edən agentlik") arasında "Kredit və Layihə haqqında Müqaviləyə Xüsusi Razılaşma sənədinin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Sərəncamı

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 21 aprel tarixli 81s nömrəli sərəncamı ilə verilmiş səlahiyyətlərə əsasən 2009-cu il mayın 29-da imzalanmış "KfW, Frankfurt am Main ("KfW") və Azərbaycan Respublikasını təmsil edən Maliyyə Nazirliyi ("Borcalan") və Azərbaycan Əmanətlərin Sığortalanması Fondu ("Layihəni icra edən agentlik") arasında "Kredit və Layihə haqqında Müqavilə", "KfW, Frankfurt am Main ("KfW") və Azərbaycan Respublikasını təmsil edən Maliyyə Nazirliyi ("Benefisiar") və Azərbaycan Əmanətlərin Sığortalanması Fondu ("Layihəni icra edən agentlik") arasında "Maliyyələşdirmə və Layihə haqqında Müqavilə" və "KfW, Frankfurt am Main ("KfW") və Azərbaycan Əmanətlərin Sığortalanması Fondu ("Layihəni icra edən agentlik") arasında "Xüsusi Razılaşma sənədi" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə tapşırılsın, Azərbaycan Respublikasının Mərkəzi Bankına və Azərbaycan Əmanətlərin Sığortalanması Fonduna tövsiyə edilsin ki, bu sərəncamın 1-ci bəndində göstərilən sənədlərin müddəalarının həyata keçirilməsi ilə əlaqədar lazımi tədbirlər görsünlər.

3. Azərbaycan Əmanətlərin Sığortalanması Fondu Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 13 fevral tarixli 368 nömrəli Fərmanının 1.15-ci bəndinin və 2006-cı il 17 aprel tarixli 388 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Texniki yardım və qrant alınmasına dair sazişlərin bağlanması və təsdiq edilməsi Qaydaları"nın 2.12-ci bəndinin icrasını təmin etmək üçün bu sərəncamın 1-ci bəndində qeyd edilən müqavilələrə əsasən ayrılan kreditin və texniki yardımın məqsədli və səmərəli istifadəsinə dair məlumatları ildə bir dəfə Azərbaycan Respublikasının Maliyyə Nazirliyi, Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi və Azərbaycan Respublikasının Mərkəzi Bankı ilə razılaşdırmaqla, Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin.

4. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi bu sərəncamın 1-ci bəndində göstərilən sənədlərin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Almaniya tərəfinə müvafiq bildiriş göndərsin.

5. Bu sərəncamın icrasına nəzarət Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyinə həvalə edilsin.

6. Bu sərəncam imzalandığı gündən qüvvəyə minir.

A.RASİ-ZADƏ

Azərbaycan Respublikasının Baş naziri

Bakı şəhəri, 27 avqust 2009-cu il

№ 222s

"ABŞ Mülki Araşdırmalar və İnkişaf Fondu (MAİF), Azərbaycan Milli Elm Fondu (AMEF) və Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) arasında Maliyyələşdirmə və Əməkdaşlığa dair Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Sərəncamı

1. İnkişaf, Dayanaqlıq və Təsir layihəsinin maliyyələşdirilməsi məqsədi ilə ABŞ Mülki Araşdırmalar və İnkişaf Fondu tərəfindən 50 000 (əlli min) ABŞ dolları və Azərbaycan Respublikası Hökuməti tərəfindən 142 000 (yüz qırx iki min) manat məbləğində vəsait ayrılmasını nəzərdə tutan "ABŞ Mülki Araşdırmalar və İnkişaf Fondu (MAİF), Azərbaycan Milli Elm Fondu (AMEF) və Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) arasında Maliyyələşdirmə və Əməkdaşlığa dair Saziş"i imzalamaq səlahiyyəti Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti Mahmud Kərim oğlu Kərimova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu sərəncamın 1-ci bəndində göstərilən Sazişi imzalamaq səlahiyyətinin Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti Mahmud Kərim oğlu Kərimova verilməsi barədə Amerika Birləşmiş Ştatları tərəfinə müvafiq bildiriş göndərsin.

A.RASİ-ZADƏ

Azərbaycan Respublikasının Baş naziri

Bakı şəhəri, 27 avqust 2009-cu il

№ 223s

A.B. Puqaçovanın "Dostluq" ordeni ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında mədəni əlaqələrin inkişafında xüsusi xidmətlərinə görə Alla Borisovna Puqaçova "Dostluq" ordeni ilə təltif edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 3 sentyabr 2009-cu il

№ 468

Türkdilli ölkələrin dövlət başçılarının IX Zirvə Toplantısının Naxçıvan şəhərində keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. Türkdilli ölkələrin dövlət başçılarının IX Zirvə Toplantısı 2009-cu il oktyabrın 2-3-də Naxçıvan şəhərində keçirilsin.

2 Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, Türkdilli ölkələrin

dövlət başçılarının IX Zirvə Toplantısının keçirilməsi ilə bağlı maddi-texniki məsələləri Naxçıvan Muxtar Respublikasının ali vəzifəli şəxsi ilə birlikdə həll etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 10 sentyabr 2009-cu il

№ 469

Azərbaycan Respublikası və Latviya Respublikası arasında 2009-cu il avqustun 10-da Bakı şəhərində imzalanmış sənədlərin həyata keçirilməsi üçün zəruri tədbirlər haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin Sərəncamı

1. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi, Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi, Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi, Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi və digər dövlət orqanları aidiyyəti üzrə "Azərbaycan Respublikası və Latviya Respublikası arasında 2009-cu il avqustun 10-da Bakı şəhərində imzalanmış sənədlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 27 avqust tarixli 455 nömrəli Sərəncamı ilə təsdiq edilmiş, Azərbaycan Respublikası və Latviya Respublikası arasında 2009-cu il avqustun 10-da Bakı şəhərində imzalanmış aşağıdakı sənədlərin həyata keçirilməsi üçün zəruri tədbirlər görsünlər:

Azərbaycan Respublikası Hökuməti və Latviya Respublikası Hökuməti arasında gənclər və idman sahəsində əməkdaşlıq haqqında Saziş;

Azərbaycan Respublikası Hökuməti və Latviya Respublikası Hökuməti arasında turizm sahəsində əməkdaşlıq haqqında Saziş;

Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi və Latviya Respublikasının Patent İdarəsi arasında sənaye mülkiyyətinin hüquqi mühafizəsi sahəsində informasiyanın mübadiləsi haqqında Anlaşma Memorandumu.

2. Bu sərəncam imzalandığı gündən qüvvəyə minir.

A.RASİ-ZADƏ

Azərbaycan Respublikasının Baş naziri

Bakı şəhəri, 10 sentyabr 2009-cu il

№ 239s

Azərbaycan Respublikası və Suriya Ərəb Respublikası arasında 2009-cu il iyulun 8-də Bakı şəhərində imzalanmış aşağıdakı sənədlərin həyata keçirilməsi üçün zəruri tədbirlər haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin Sərəncamı

1. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi, Azərbaycan Respubli-

kasının İqtisadi İnkişaf Nazirliyi, Azərbaycan Respublikasının Mədəniyyət və Tu... Nazirliyi, Azərbaycan Respublikasının Sənaye və Energetika Nazirliyi, Azərbay... Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi, Azərbaycan Res... likasının Maliyyə Nazirliyi, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Az... baycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi, Azərbaycan Respublikasının S... hiyyə Nazirliyi, Azərbaycan Respublikasının Təhsil Nazirliyi, Azərbaycan Respubl... sının Kənd Təsərrüfatı Nazirliyi, Azərbaycan Respublikasının Dövlət Gömrük Kom... si, Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti, Azərbaycan Respublikası... Dövlət Neft Şirkəti, Azərbaycan Respublikasının Dövlət Dəniz Administrasiyası, Az... baycan Dövlət Xəzər Dəniz Gəmiçiliyi, Azərbaycan Milli Elmlər Akademiyası, "Az... renerji" Açıq Səhmdar Cəmiyyəti və digər dövlət orqanları aidiyyəti üzrə "Azərbay... Respublikası və Suriya Ərəb Respublikası arasında 2009-cu il iyulun 8-də Bakı şəhər... də imzalanmış sənədlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2009-c... 27 avqust tarixli 453 nömrəli Sərəncamı ilə təsdiq edilmiş, Azərbaycan Respublikası... Suriya Ərəb Respublikası arasında 2009-cu il iyulun 8-də Bakı şəhərində imzalanm... aşağıdakı sənədlərin (əlavə olunur) həyata keçirilməsi üçün zəruri tədbirlər görsünlər:

1.1. Azərbaycan Respublikası Hökuməti və Suriya Ərəb Respublikası Hökum... arasında iqtisadi, elmi, texniki və mədəni əməkdaşlıq üzrə Birgə Komissiyanın ... radılması haqqında Anlaşma Memorandumu;

1.2. Azərbaycan Respublikası Hökuməti və Suriya Ərəb Respublikası Hökum... arasında sənaye və energetika sahəsində əməkdaşlıq haqqında Saziş;

1.3. Azərbaycan Respublikası Hökuməti və Suriya Ərəb Respublikası Hökum... arasında elektrik enerjisi və bərpa olunan enerji sahəsində Anlaşma Memorandu...

1.4. Azərbaycan Respublikası Hökuməti və Suriya Ərəb Respublikası Hökum... arasında mədəniyyət sahəsində əməkdaşlıq haqqında Saziş;

1.5. Azərbaycan Respublikası Hökuməti və Suriya Ərəb Respublikası Hökum... arasında informasiya və kommunikasiya texnologiyaları sahəsində əməkd... haqqında Saziş;

1.6. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Suriya Ərəb Respub... sının Xarici İşlər Nazirliyi arasında siyasi məsləhətləşmələr haqqında Anla... Memorandumu;

1.7. Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi və Suriya Ərəb Respub... sının Daxili İşlər Nazirliyi arasında əməkdaşlığa dair Niyyət Protokolu;

1.8. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi və Suriya Ərəb Respubli... nın Maliyyə Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş;

1.9. Azərbaycan Respublikasının Sənaye və Energetika Nazirliyi və Suriya Ə... Respublikasının Sənaye Nazirliyi arasında sənaye sahəsində əməkdaşlıq haq... Anlaşma Memorandumu;

1.10. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi və S... Ərəb Respublikasının Turizm Nazirliyi arasında turizm sahəsində əməkdaşl... ir Saziş;

1.11. Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə Suriya Ərəb Respublikasının Ali Təhsil Nazirliyi arasında ali təhsil sahəsində əməkdaşlıq haqqında Saziş;

1.12. Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə Suriya Ərəb Respublikasının Təhsil Nazirliyi arasında ümumi təhsil sahəsində əməkdaşlıq haqqında Saziş;

1.13. Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi və Suriya Ərəb Respublikasının Səhiyyə Nazirliyi arasında səhiyyə sahəsində əməkdaşlıq haqqında Saziş;

1.14. Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi və Suriya Ərəb Respublikasının Kənd Təsərrüfatı və Aqrar İslahatlar Nazirliyi arasında kənd təsərrüfatı sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumu;

1.15. Azərbaycan Respublikasının Dövlət Dəniz Administrasiyası və Suriya Gəmiçilik Palatası arasında əməkdaşlığa dair Anlaşma Memorandumu;

1.16. M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası və Suriya Ərəb Respublikasının Əl-Əsəd Kitabxanası arasında əməkdaşlıq haqqında Memorandum.

2. Bu sərəncam imzalandığı gündən qüvvəyə minir.

A.RASİ-ZADƏ

Azərbaycan Respublikasının Baş naziri

Bakı şəhəri, 10 sentyabr 2009-cu il

№ 240s

"Azərbaycan Respublikasında rəqəmsal taxoqrafların tətbiqinə dair Tədbirlər Planı" təsdiq edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Sərəncamı

Azərbaycan Respublikasının 1996-cı il 31 may tarixli 110-IQ nömrəli Azərbaycan Respublikasının Qanunu ilə qoşulduğu "Beynəlxalq avtomobil daşımalarını həyata keçirən nəqliyyat vasitələri heyətinin işinə dair Avropa Sazişi"nin tətbiqi ilə əlaqədar:

1. Azərbaycan Respublikasının 1996-cı il 31 may tarixli 110-IQ nömrəli Azərbaycan Respublikasının Qanunu ilə qoşulduğu "Beynəlxalq avtomobil daşımalarını həyata keçirən nəqliyyat vasitələri heyətinin işinə dair Avropa Sazişi" üzrə öhdəliklərin yerinə yetirilməsi ilə əlaqədar səlahiyyətli orqan Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi müəyyən edilsin.

2. "Azərbaycan Respublikasında rəqəmsal taxoqrafların tətbiqinə dair Tədbirlər Planı" təsdiq edilsin (əlavə olunur).

3. Aidiyyəti dövlət orqanları bu sərəncamın 2-ci bəndi ilə təsdiq edilmiş Tədbirlər Planında nəzərdə tutulan müddəaların müəyyən edilmiş müddətlərdə icrasını təmin etsinlər.

4. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi bu sərəncamın 1-ci bəndində göstərilən səlahiyyətli orqan qismində Azərbaycan Respublikası Nəqliyyat Nazirliyinin müəyyən edilməsi barədə Birləşmiş Millətlər Təşkilatının Baş Katibinə müvafiq bildiriş göndərsin.

A.RASİ-ZADƏ

Azərbaycan Respublikasının Baş naziri

Bakı şəhəri, 10 sentyabr 2009-cu il

№ 241s

Azərbaycan Respublikasında rəqəmsal taxoqrafların tətbiqinə dair Tədbirlər Planı

Sıra №-si	Tədbirin adı	İcraçılar	İcra müddəti (illər üzrə)
1	2	3	4
1.	"Beynəlxalq avtomobil daşımalarını həyata keçirən nəqliyyat vasitələri heyətinin işinə dair Avropa Sazişi"nin tələblərinə müvafiq olaraq Azərbaycan Respublikasında beynəlxalq avtomobil daşımalarını həyata keçirən sürücülərin iş və istirahət rejiminə nəzarətin təşkili və bu məqsədlə rəqəmsal taxoqrafların tətbiqinin təmin edilməsi	Nəqliyyat Nazirliyi, Daxili İşlər Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi	iyun 2010
2.	Azərbaycan Respublikasında rəqəmsal taxoqrafların tətbiqi ilə əlaqədar "Beynəlxalq avtomobil daşımalarını həyata keçirən nəqliyyat vasitələri heyətinin işinə dair Avropa Sazişi"nin tələblərinə Azərbaycan Respublikası qanunvericiliyinin uyğunlaşdırılması və müvafiq normativ hüquqi aktların hazırlanması	Nəqliyyat Nazirliyi, Daxili İşlər Nazirliyi, Ədliyyə Nazirliyi, Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi	oktyabr-dekabr 2009
3.	Azərbaycan Respublikasının tərəfdar çıxdığı "Beynəlxalq avtomobil daşımalarını həyata keçirən nəqliyyat vasitələri heyətinin işinə dair Avropa Sazişi"nə əsasən avtomobil daşımalarını həyata keçirən avtomobillərdə rəqəmsal taxoqrafların tətbiqi ilə bağlı bilavasitə Azərbaycan Respublikası Nəqliyyat Nazirliyində yarana biləcək xərclərin dövlət büdcəsi layihəsinin formalaşdırılması zamanı nəzərdə tutulması	Nəqliyyat Nazirliyi, Maliyyə Nazirliyi	2009-2010
4.	Azərbaycan Respublikasında rəqəmsal taxoqrafların tətbiqi ilə bağlı "Beynəlxalq avtomobil daşımalarını həyata keçirən nəqliyyat vasitələri heyətinin işinə dair Avropa Sazişi"nin tələblərinin həyata keçirilməsi ilə əlaqədar tədbirlərin icrasının Azərbaycan Respublikası Nəqliyyat Nazirliyinin strukturuna daxil olan qurumların birinə həvalə edilməsi	Nəqliyyat Nazirliyi	dekabr 2009
5.	Azərbaycan Respublikasında rəqəmsal taxoqrafların tətbiqi ilə bağlı müvafiq mütəxəssislərin hazırlanması, rəqəmsal taxoqrafların istifadəsi ilə əlaqədar sürücü və mühəndis-texniki heyətin maarifləndirilməsi	Nəqliyyat Nazirliyi, Daxili İşlər Nazirliyi	oktyabr-dekabr 2009

6.	Azərbaycan Respublikasında rəqəmsal taxoqrafların tətbiqi ilə bağlı nəzarət sisteminin xüsusi proqramla təmin edilməsi və onun TACHONET informasiya mübadiləsi şəbəkəsinə qoşulması	Nəqliyyat Nazirliyi, Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi	fevral 2010

Uilyam Core Şrederin "Dostluq" ordeni ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycanın neft sənayesinin inkişafındakı xidmətlərinə görə və "Əsrin müqaviləsi"nin 15 illiyi ilə əlaqədar Uilyam Core Şreder "Dostluq" ordeni ilə təltif edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 14 sentyabr 2009-cu il.

№ 475

Azərbaycan Respublikasının Rumıniyada fövqəladə və səlahiyyətli səfiri E.H. Həsənovun iqamətgahı Buxarest şəhərində olmaqla, eyni zamanda Azərbaycan Respublikasının Serbiya Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alıram:

Azərbaycan Respublikasının Rumıniyada fövqəladə və səlahiyyətli səfiri Eldar Hümbət oğlu Həsənov iqamətgahı Buxarest şəhərində olmaqla, eyni zamanda Azərbaycan Respublikasının Serbiya Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 14 sentyabr 2009-cu il

№ 477

"Azərbaycan Respublikası Hökuməti və Yaponiya Hökuməti arasında "Kiçik şəhərlərdə Su Təchizatı və Kanalizasiya Layihəsi"nə dair Kredit Sazişi üzrə razılığın təsdiq edilməsi barədə 2009-cu il fevralın 9-da Bakı şəhərində mübadilə edilmiş Notaların təsdiq olunması barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

"Yaponiya Beynəlxalq Əməkdaşlıq Agentliyi və Azərbaycan Respublikası Hökuməti arasında "Kiçik şəhərlərdə Su Təchizatı və Kanalizasiya Layihəsi"nə dair Kredit Sazişi"nin Azərbaycan Respublikasının 2009-cu il 30 iyun tarixli, 848-IIIQ nömrəli Qanunu ilə təsdiq olunduğunu nəzərə alaraq qərara alıram:

1. "Azərbaycan Respublikası Hökuməti və Yaponiya Hökuməti arasında "Kiçik şəhərlərdə Su Təchizatı və Kanalizasiya Layihəsi"nə dair Kredit Sazişi üzrə razılığın təsdiq

edilməsi barədə 2009-cu il fevralın 9-da Bakı şəhərində mübadilə edilmiş Notalar təsdiq olunsun.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Notaların qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Yaponiya Hökumətini xəbərdar etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 16 sentyabr 2009-cu il

№ 482

Yaponiyanın Azərbaycan Respublikasındakı Fövqəladə və Səlahiyyətli Səfiri Zati-aliləri cənab Masamitsu Okiyə

Zati-aliləri,

Zati-aliniz tərəfindən bugünkü tarixdə verilən aşağıdakı Notanın tərəfimiz-dən qəbul edildiyini təsdiq edirəm:

"Mən, Azərbaycan Respublikasının iqtisadi sabitlik və inkişaf səylərinin artırılması məqsədilə Yaponiya tərəfindən ayrılacaq kredit ilə bağlı Azərbaycan Respublikası Hökumətinin və Yaponiya Hökumətinin nümayəndələri arasında əldə olunmuş aşağıdakı anlaşmanı təsdiq edirəm:

1. Otuz iki milyard səkkiz yüz əlli bir milyon yapon yeni (¥ 32 851 000 000) məbləğində kredit (bundan sonra "Kredit" adlandırılacaq) "Kiçik şəhərlərdə su təchizatı və kanalizasiya layihəsi"nin (bundan sonra "Layihə" adlandırılacaq) həyata keçirilməsi məqsədilə Yaponiyanın müvafiq qanun və qaydalarına uyğun olaraq Yaponiya Beynəlxalq Əməkdaşlıq Agentliyi (bundan sonra "YBƏA" adlandırılacaq) tərəfindən Azərbaycan Respublikası Hökumətinə ayrılacaqdır.

2. (1) Kredit Azərbaycan Respublikası Hökuməti və YBƏA arasında imzalanacaq kredit sazişinə əsasən veriləcəkdir. Kreditin şərtləri, həmçinin ondan istifadə üzrə prosedurlar aşağıdakı prinsiplərə əhatə edən kredit sazişi vasitəsilə tənzimlənəcəkdir:

a) kreditin qaytarılma müddəti on (10) illik güzəşt müddəti başa çatdıqdan sonra iyirmi (20) il (kanalizasiya üçün istifadə olunmuş hissəsi istisna olmaqla) və kanalizasiya hissəsi üzrə on (10) il güzəşt müddəti başa çatdıqdan sonra otuz (30) il təşkil edəcəkdir;

b) faiz dərəcəsi (kanalizasiya üçün istifadə olunmuş hissəsi istisna olmaqla) illik bir tam onda dörd faiz (1,4%) və kanalizasiya hissəsi üzrə illik sıfır tam yüzdə altmış beş faiz (0,65%) olacaqdır;

c) yuxarıdakı (b) yarımbəndindən asılı olmayaraq, kreditin bir hissəsinin Layihə üzrə məsləhətçilərə ödənildiyi halda kreditin həmin hissənin faiz dərəcəsi illik sıfır tam yüzdə bir faiz (0,01%) olacaqdır;

d) kredit vəsaitlərinin istifadəsi müddəti adı çəkilən kredit sazişinin qüvvəyə minmə tarixindən sonra səkkiz (8) il olacaqdır.

(2) Yuxarıdakı (1)-ci yarımbənddə qeyd olunan kredit sazişi Layihənin texniki-iqtisadi əsaslandırılması, həmçinin Layihənin ətraf mühitə təsirinin təhlili YBƏA tərəfindən qənaətbəxş hesab edildikdən sonra bağlanacaqdır.

(3) Yuxarıdakı (1) (d) yarımbəndində qeyd olunan kredit vəsaitlərindən istifadə müddəti hər iki hökumətin müvafiq qurumlarının razılığı ilə uzadıla bilər.

3. (1) Kredit vəsaitləri münasib mənbə ölkələrindən təchiz edilmiş xidmətlər və/və ya istehsal olunmuş mallar satın alındığı təqdirdə Layihənin həyata keçirilməsi məqsədilə tələb olunan mallar və/və ya xidmətlərin satın alınması üçün Azərbaycanın icraçı agentliyi tərəfindən münasib hesab edilən mənbə ölkələrindən olan təchizatçılar, podratçılar və/və ya məsləhətçilərə onlarla bağlanmış müqavilələr üzrə ödənişlər üçün istifadə oluna bilər.

(2) Yuxarıdakı (1)-ci yarımbənddə qeyd olunan münasib mənbə ölkələrinin siyahısı hər iki Hökumətin müvafiq qurumları arasında razılaşdırılacaqdır.

(3) Kredit vəsaitlərinin bir hissəsindən Layihənin həyata keçirilməsi zamanı tələb olunan milli valyutada həyata keçirilən ödənişlər üçün istifadə oluna bilər.

4. Azərbaycan Respublikası Hökuməti yuxarıdakı 3-cü bəndin (1)-ci yarımbəndində qeyd olunan mallar və/və ya xidmətlərin satın alınması üçün beynəlxalq müsabiqəli tender prosedurlarının yerinə yetirilməsini, belə prosedurların tətbiqinin qeyri-mümkün və ya qeyri-müvafiq hesab olunduğu hallar istisna olmaqla, YBƏA-nın satınalmalar üzrə təlimatlarına uyğun olaraq təmin edəcəkdir.

5. Azərbaycan Respublikası Hökuməti kredit vəsaitləri hesabına satın alınmış malların daşınması və dəniz sığortası ilə bağlı daşıma və dəniz sığorta şirkətləri arasında ədalətli və azad rəqabətə mane ola biləcək məhdudiyyətlərin qoyulmasına yol verməyəcəkdir.

6. Yuxarıdakı 3-cü bəndin (1)-ci yarımbəndində qeyd olunan malların və/və ya xidmətlərin təchizatı ilə bağlı Yaponiya vətəndaşlarının Azərbaycan Respublikasında xidmətləri tələb olunduqda onların Azərbaycan Respublikasına daxil olması və öz işlərinin icrası ilə bağlı qalması üçün lazım olan şərait yaradılacaqdır.

7. (1) Azərbaycan Respublikası Hökuməti YBƏA-nı yuxarıda qeyd olunan kreditin ayrılmasına və həmçinin bu kredit üzrə faiz hesablanmasına dair Azərbaycan Respublikasında təyin edilmiş bütün vergi və maliyyə yığımlarından azad edəcəkdir.

(2) Azərbaycan Respublikası Hökuməti, iki Hökumət arasında mövcud olan müvafiq beynəlxalq sazişlərə və Azərbaycan Respublikasının müvafiq qanunvericiliyinə uyğun olaraq:

a) təchizatçı, podratçı və/və ya məsləhətçi kimi fəaliyyət göstərən yapon şirkətlərini kredit vəsaitləri hesabına təchiz olunacaq mallar və göstəriləcək xidmətlərdən əldə olunmuş gəlir və ya daxilolmalara dair Azərbaycan Respublikasında təyin edilmiş bütün vergi və maliyyə yığımlarından;

b) təchizatçı, podratçı və/və ya məsləhətçi kimi fəaliyyət göstərən yapon şirkətlərini Layihənin həyata keçirilməsi üçün lazım olan onlara məxsus material və avadanlığın idxalı və yenidən ixracı ilə bağlı bütün rüsum və maliyyə yığımlarından;

c) Layihənin icrası üçün cəlb olunmuş yapon işçilərini Layihənin həyata keçirilməsi üçün təchizatçı, podratçı və/və ya məsləhətçi kimi fəaliyyət göstərən yapon şirkətlərindən əldə olunmuş şəxsi gəlirlərinə dair Azərbaycan Respublikasında təyin edilmiş bütün vergi və maliyyə yığımlarından azad edəcəkdir.

(3) Azərbaycan Respublikası Hökuməti Layihənin icrası üçün lazım olan mal və xidmətlərə münasibətdə Azərbaycan Respublikasında tətbiq olunan əlavə dəyər vergisinin ödənilməsini öz üzərinə götürür.

8. Azərbaycan Respublikası Hökuməti aşağıdakılar barədə lazımi tədbirlər görəcəkdir:

a) Kreditdən yalnız Layihənin həyata keçirilməsi üçün düzgün şəkildə istifadə olunmasını təmin etmək;

b) Layihənin icrasına cəlb olunan insanların və Kredit vəsaitləri hesabına təmin olunacaq qurğuların tikintisi və istifadəsi zamanı cəlb olunmuş Azərbaycan Respublikası əhalisinin təhlükəsizliyini təmin etmək; və

Kredit çərçivəsində tikiləcək qurğuların bu anlaşmada göstərilən məqsədlər üzrə düzgün və səmərəli istismarını təmin etmək.

9. Azərbaycan Respublikası Hökuməti, müraciət olunduğu halda, Yaponiya Hökuməti və YBƏA-nı Layihənin həyata keçirilməsinin gedişatı ilə bağlı lazımi məlumatlarla təmin edəcəkdir.

10. Bu anlaşma ilə bağlı ortaya çıxa biləcək hər hansı məsələyə dair hökumətlər arasında müzakirələr aparılacaqdır.

Bununla mən məmnunluq hissi ilə təklif edirəm ki, bu Nota və Zati-alinizin Azərbaycan Respublikası Hökuməti adından yuxarıda qeyd olunan anlaşmanı təsdiq edən cavab Notası iki hökumət arasında onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Azərbaycan tərəfinin göndərdiyi yazılı bildirişin Yaponiya Hökuməti tərəfindən alındığı tarixdən qüvvəyə minəcək razılaşmanın əsasını təşkil edir.

Fürsətdən istifadə edərək Zati-alinizə öz hörmət və ehtiramımı çatdırmaq istərdim."

Bununla mən məmnunluq hissi ilə yuxarıda qeyd olunan anlaşmanı Azərbaycan Respublikası Hökuməti adından təsdiq edirəm və razılaşıram ki, Zati-aliniz tərəfindən verilən Nota və ona cavab olaraq verilən bu Nota iki Hökumət arasında razılaşmanın əsasını təşkil edir və bu razılaşma onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Azərbaycan tərəfinin göndərdiyi yazılı bildirişin Yaponiya Hökuməti tərəfindən alındığı tarixdən qüvvəyə minəcəkdir.

Fürsətdən istifadə edərək Zati-alinizə öz hörmət və ehtiramımı çatdırmaq istərdim.

Azərbaycan Respublikası Baş nazirinin müavini Abid ŞƏRİFOV

Bakı, 9 fevral 2009-cu il

Azərbaycan Respublikası Baş nazirinin müavini Zati-aliləri cənab Abid Şərifova

Zati-aliləri,

"Mən, Azərbaycan Respublikasının iqtisadi sabitlik və inkişaf səylərinin artırılması məqsədilə Yaponiya tərəfindən ayrılacaq kredit ilə bağlı Azərbaycan Respublikası Hökuməti və Yaponiya Hökumətinin nümayəndələri arasında əldə olunmuş aşağıdakı anlaşmanı təsdiq edirəm:

1. Otuz iki milyard səkkiz yüz əlli bir milyon yapon yeni (¥ 32 851 000 000) məbləğində kredit (bundan sonra "Kredit" adlandırılacaq) "Kiçik şəhərlərdə su təchizatı və kanalizasiya Layihəsi"nin (bundan sonra "Layihə" adlandırılacaq) həyata keçirilməsi məqsədilə Yaponiyanın müvafiq qanun və qaydalarına uyğun olaraq Yaponiya Beynəlxalq Əməkdaşlıq Agentliyi (bundan sonra "YBƏA" adlandırılacaq) tərəfindən Azərbaycan Respublikası Hökumətinə ayrılacaqdır.

2. (1) Kredit Azərbaycan Respublikası Hökuməti və YBƏA arasında imzalanacaq kredit sazişinə əsasən veriləcəkdir. Kreditin şərtləri, həmçinin ondan istifadə üzrə prosedurlar aşağıdakı prinsipləri əhatə edən kredit sazişi vasitəsilə tənzimlənəcəkdir:

a) Kreditin qaytarılma müddəti on (10) illik güzəşt müddəti başa çatdıqdan sonra iyirmi (20) il (kanalizasiya üçün istifadə olunmuş hissəsi istisna olmaqla) və kanalizasiya hissəsi üzrə on (10) il güzəşt müddəti başa çatdıqdan sonra otuz (30) il təşkil edəcəkdir;

b) faiz dərəcəsi (kanalizasiya üçün istifadə olunmuş hissəsi istisna olmaqla) illik bir tam onda dörd faiz (1,4%) və kanalizasiya hissəsi üzrə illik sıfır tam yüzdə altmış beş faiz (0,65%) olacaqdır;

c) yuxarıdakı (b) yarımbəndindən asılı olmayaraq, kreditin bir hissəsinin Layihə üzrə məsləhətçilərə ödənildiyi halda kreditin həmin hissəsinin faiz dərəcəsi illik sıfır tam yüzdə bir faiz (0,01%) olacaqdır;

d) Kredit vəsaitlərindən istifadə müddəti adı çəkilən kredit sazişinin qüvvəyə minmə tarixindən sonra səkkiz (8) il olacaqdır.

(2) Yuxarıdakı (1)-ci yarımbənddə qeyd olunan kredit sazişi Layihənin texniki-iqtisadi əsaslandırılması, həmçinin Layihənin ətraf mühitə təsirinin təhlili YBƏA tərəfindən qənaətbəxş hesab edildikdən sonra bağlanacaqdır.

(3) Yuxarıdakı (1) (d) yarımbəndində qeyd olunan kredit vəsaitlərindən istifadə müddəti hər iki hökumətin müvafiq qurumlarının razılığı ilə uzadıla bilər.

3. (1) Kredit vəsaitləri münasib mənbə ölkələrindən təchiz edilmiş xidmətlər və/və ya istehsal olunmuş mallar satın alındığı təqdirdə Layihənin həyata keçirilməsi məqsədilə tələb olunan mallar və/və ya xidmətlərin satın alınması üçün Azərbaycanın icraçı agentliyi tərəfindən münasib hesab edilən mənbə ölkələrindən olan təchizatçılar, podratçılar və/və ya məsləhətçilərə onlarla bağlanmış müqavilələr üzrə ödənişlər üçün istifadə oluna bilər.

(2) Yuxarıdakı (1)-ci yarımbənddə qeyd olunan münasib mənbə ölkələrinin siya-

hısı hər iki Hökumətin müvafiq qurumları arasında razılaşdırılacaqdır.

(3) Kredit vəsaitlərinin bir hissəsindən Layihənin həyata keçirilməsi zamanı tələb olunan milli valyutada həyata keçirilən ödənişlər üçün istifadə oluna bilər.

4. Azərbaycan Respublikası Hökuməti yuxarıdakı 3-cü bəndin (1)-ci yarımbəndində qeyd olunan mallar və/və ya xidmətlərin satın alınması üçün beynəlxalq müsabiqəli tender prosedurlarının yerinə yetirilməsini, belə prosedurların tətbiqinin qeyri-mümkün və ya qeyri-müvafiq hesab olunduğu hallar istisna olmaqla, YBƏA-nın satınalmalar üzrə təlimatlarına uyğun olaraq təmin edəcəkdir.

5. Azərbaycan Respublikası Hökuməti Kredit vəsaitləri hesabına satın alınmış malların daşınması və dəniz sığortası ilə bağlı daşıma və dəniz sığortası şirkətləri arasında ədalətli və azad rəqabətə mane ola biləcək məhdudiyyətlərin qoyulmasına yol verməyəcəkdir.

6. Yuxarıdakı 3-cü bəndin (1)-ci yarımbəndində qeyd olunan malların və/və ya xidmətlərin təchizatı ilə bağlı Yaponiya vətəndaşlarının Azərbaycan Respublikasında xidmətləri tələb olunduqda onların Azərbaycan Respublikasına daxil olması və öz işlərinin icrası ilə bağlı qalması üçün lazım olan şərait yaradılacaqdır.

7. (1) Azərbaycan Respublikası Hökuməti YBƏA-nı yuxarıda qeyd olunan kreditin ayrılması və həmçinin bu kredit üzrə faiz hesablanmasına dair Azərbaycan Respublikasında təyin edilmiş bütün vergi və maliyyə yığımlarından azad edəcəkdir.

(2) Azərbaycan Respublikası Hökuməti, iki Hökumət arasında mövcud olan müvafiq beynəlxalq sazişlərə və Azərbaycan Respublikasının müvafiq qanunvericiliyinə uyğun olaraq:

a) təchizatçı, podratçı və/və ya məsləhətçi kimi fəaliyyət göstərən yapon şirkətlərini kredit vəsaitləri hesabına təchiz olunacaq mallar və göstəriləcək xidmətlərdən əldə olunmuş gəlir və ya daxilolmalara dair Azərbaycan Respublikasında təyin edilmiş bütün vergi və maliyyə yığımlarından;

b) təchizatçı, podratçı və/və ya məsləhətçi kimi fəaliyyət göstərən yapon şirkətlərini Layihənin həyata keçirilməsi üçün lazım olan onlara məxsus material və avadanlığın idxalı və yenidən ixracı ilə bağlı bütün rüsum və maliyyə yığımlarından;

c) Layihənin icrası üçün cəlb olunmuş yapon işçilərini Layihənin həyata keçirilməsi üçün təchizatçı, podratçı və/və ya məsləhətçi kimi fəaliyyət göstərən yapon şirkətlərindən əldə olunmuş şəxsi gəlirlərinə dair Azərbaycan Respublikasında təyin edilmiş bütün vergi və maliyyə yığımlarından azad edəcəkdir.

(3) Azərbaycan Respublikası Hökuməti Layihənin icrası üçün lazım olan mal və xidmətlərə münasibətdə Azərbaycan Respublikasında tətbiq olunan əlavə dəyər vergisinin ödənilməsini öz üzərinə götürür.

8. Azərbaycan Respublikası Hökuməti aşağıdakılar barədə lazımi tədbirlər görəcəkdir:

a) Kreditdən yalnız layihənin həyata keçirilməsi üçün düzgün şəkildə istifadə olunmasını təmin etmək;

b) Layihənin icrasına cəlb olunan insanların və Kredit vəsaitləri hesabına təmin

olunacaq qurğuların tikintisi və istifadəsi zamanı cəlb olunmuş Azərbaycan Respublikası əhalisinin təhlükəsizliyini təmin etmək; və

c) Kredit çərçivəsində tikiləcək qurğuların bu anlaşmada göstərilən məqsədlər üzrə düzgün və səmərəli istismarını təmin etmək.

9. Azərbaycan Respublikası Hökuməti, müraciət olunduğu halda, Yaponiya Hökuməti və YBƏA-nı Layihənin həyata keçirilməsinin gedişatı ilə bağlı lazımi məlumatlarla təmin edəcəkdir.

10. Bu anlaşma ilə bağlı ortaya çıxa biləcək hər hansı məsələyə dair hökumətlər arasında müzakirələr aparılacaqdır.

Bununla mən məmnunluq hissi ilə təklif edirəm ki, bu Nota və Zati-alinizin Azərbaycan Respublikası Hökuməti adından yuxarıda qeyd olunan anlaşmanı təsdiq edən cavab Notası iki hökumət arasında onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Azərbaycan tərəfinin göndərdiyi yazılı bildirişin Yaponiya Hökuməti tərəfindən alındığı tarixdən qüvvəyə minəcək razılaşmanın əsasını təşkil edir.

Fürsətdən istifadə edərək Zati-alinizə öz hörmət və ehtiramımı çatdırmaq istərdim.

Yaponiyanın Azərbaycan Respublikasındakı Fövqəladə və Səlahiyyətli Səfiri Masamitsu OKİ

MÜZAKİRƏLƏRİN PROTOKOLU

Azərbaycan Respublikasının iqtisadi sabitliyinin və inkişaf səylərinin artırılması məqsədilə Yaponiya tərəfindən ayrılacaq kredit ilə əlaqədar 9 fevral 2009-cu il tarixli Nota Mübadiləsi ilə bağlı (bundan sonra "Nota Mübadiləsi" adlandırılacaq) Azərbaycan və Yaponiya nümayəndə heyətinin üzvləri aşağıdakıları qeyd etmək istərdilər:

1. Nota Mübadiləsinin 1-ci bəndində qeyd olunan Layihənin (bundan sonra "Layihə" adlandırılacaq) icrası üçün münasib hesab edilən yerli valyuta tələblərinin maliyyələşdirilməsi ilə bağlı Nota Mübadiləsinin 3-cü bəndinin (3)-cü yarımbəndi ilə əlaqədar Yaponiya nümayəndə heyətinin üzvü aşağıdakıları qeyd etmişdir:

a) birbaşa layihənin icrası ilə bağlı olmayan inzibati xərclər, tikinti zamanı faiz, vergi və rüsumlar, ofislərlə bağlı xərclər, icraçı agentliyin işçilərinə xidmət haqları, mənzil xərcləri, həmçinin torpaq mülkiyyətinin alınması, kompensasiya kimi yerli valyuta tələbləri Nota Mübadiləsinin 1-ci bəndində qeyd olunan Kredit (bundan sonra "Kredit" adlandırılacaq) çərçivəsində maliyyələşdirilmə üçün münasib hesab edilməyəcəkdir;

b) malların və/və ya xidmətlərin satın alınması beynəlxalq müsabiqəli tender proseduruna müvafiq yerinə yetiriləcək, lakin belə prosedurların qeyri-məqbul və qeyri-müvafiq hesab olunduğu hallar istisna olunur.

2. Kreditlə bağlı Yaponiya nümayəndə heyətinin üzvü bildirmişdir ki, Nota Mübadiləsinin 2-ci bəndinin (1)-ci yarımbəndində qeyd olunan Kredit sazişi çərçivəsində kreditin məbləğini aşan Layihənin hər hansı maliyyə tələbləri Layihənin rahat həyata keçirilməsinə zəmanət verilməsi üçün Azərbaycan Respublikası Hökuməti tərəfindən qarşılanacaqdır.

3. Nota Mübadiləsinin 8-ci bəndi ilə bağlı Yaponiya nümayəndə heyətinin üzvü aşağıdakıları qeyd etmişdir:

a) adıçəkilən bənddə qeyd olunan lazımi tədbirlərə Azərbaycan Respublikasında korrupsiya aktı kimi qəbul edilən və Nota Mübadiləsinin 3-cü bəndinin (l)-ci yarımbəndində göstərilən müqavilənin əldə olunması məqsədilə edilən hər hansı bir təklif, hədiyyə, ödənişin qarşısının alınmasına yönəldilmiş tədbirlər daxildir;

b) satınalma prosesinin ədalətliliyinə və rəqabət qabiliyyətinə zəmanət vermək məqsədilə Yaponiya Beynəlxalq İnkişaf Bankı (bundan sonra "Bank" adlandırılacaq) tərəfindən təyin ediləcək və xərcləri Bankın hesabına ödəniləcək müstəqil auditorların, Bank zəruri hesab etdiyi halda, satınalma auditini yerinə yetirməsinə imkan və şərait yaratmaq üçün Azərbaycan Respublikası Hökuməti bütün zəruri tədbirləri görəcəkdir.

4. Azərbaycan nümayəndə heyətinin üzvü bildirmişdir ki, onların nümayəndə heyəti Yaponiya nümayəndə heyəti tərəfindən yuxarıda qeyd olunanlara etiraz etmir.

Bakı, 9 fevral 2009-cu il

AZƏRBAYCAN RESPUBLİKASI BAŞ NAZİRİNİN MÜAVİNİ	*YAPONİYANIN AZƏRBAYCAN RESPUBLİKASINDAKI FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ*
ABİD ŞƏRİFOV	*MASAMİTSU OKİ*

"Azərbaycan Milli Elmlər Akademiyasının A.İ. Qarayev adına Fiziologiya İnstitutu və Amerika Birləşmiş Ştatlarının Mülki Tədqiqatlar və İnkişaf Fondu arasında "Narkotik asılılığın korreksiya üsulunun işlənməsi" layihəsinə dair Qrant Müqaviləsi"ni imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Sərəncamı

1. "Azərbaycan Milli Elmlər Akademiyasının A.İ. Qarayev adına Fiziologiya İnstitutu və Amerika Birləşmiş Ştatlarının Mülki Tədqiqatlar və İnkişaf Fondu arasında "Narkotik asılılığın korreksiya üsulunun işlənməsi" layihəsinə dair Qrant Müqaviləsi"ni imzalamaq səlahiyyəti Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti Mahmud Kərim oğlu Kərimova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu sərəncamın 1-ci bəndində göstərilən Müqaviləni imzalamaq səlahiyyətinin Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti Mahmud Kərim oğlu Kərimova verilməsi barədə Amerika Birləşmiş Ştatlarının Mülki Tədqiqatlar və İnkişaf Fonduna müvafiq bildiriş göndərsin.

A.RASİ-ZADƏ

Azərbaycan Respublikasının Baş naziri

Bakı şəhəri, 18 sentyabr 2009-cu il

№ 249s

"Azərbaycan Respublikasında biznesin idarə olunması sahəsində kadrların ixtisasının artırılması üzrə Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi ilə Almaniya Federativ Respublikasının Federal İqtisadiyyat və Texnologiyalar Nazirliyi arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikasında biznesin idarə olunması sahəsində kadrların ixtisasının artırılması üzrə Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi ilə Almaniya Federativ Respublikasının Federal İqtisadiyyat və Texnologiyalar Nazirliyi arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu imzalamaq səlahiyyəti Azərbaycan Respublikası iqtisadi inkişaf nazirinin müavini Niyazi Abdulla oğlu Səfərova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Anlaşma Memorandumunu imzalamaq səlahiyyətinin Azərbaycan Respublikası iqtisadi inkişaf nazirinin müavini Niyazi Abdulla oğlu Səfərova verilməsi barədə Almaniya Federativ Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 23 sentyabr 2009-cu il

№ 486

"Azərbaycan Respublikası və Qazaxıstan Respublikası arasında ticarət-iqtisadi əməkdaşlıq üzrə birgə hökumətlərarası komissiyanın Azərbaycan Respublikası üzrə yeni tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 30 mart tarixli, 2070 nömrəli Sərəncamında dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası və Qazaxıstan Respublikası arasında ticarət-iqtisadi əməkdaşlıq üzrə birgə hökumətlərarası komissiyanın Azərbaycan Respublikası üzrə yeni tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 30 mart tarixli, 2070 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, № 3, maddə 296; 2009-cu il, №1, maddə 17) 1-ci bəndində aşağıdakı dəyişikliklər edilsin:

1.1. "Yaqub Eyyubov - Azərbaycan Respublikası Baş nazirinin birinci müavini" sözləri "Natiq Əliyev - Azərbaycan Respublikasının sənaye və energetika naziri" sözləri ilə əvəz edilsin;

1.2. "Gülməmməd Cavadov - Azərbaycan Respublikası sənaye və energetika nazirinin müavini" sözləri çıxarılsın.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən dəyişikliklər barədə Qazaxıstan Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 23 sentyabr 2009-cu il

№ 491

"Azərbaycan Respublikası Hökuməti və Çexiya Respublikası Hökuməti arasında iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti və Çexiya Respublikası Hökuməti arasında iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri Şahin Abdulla oğlu Mustafayevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri Şahin Abdulla oğlu Mustafayevə verilməsi barədə Çexiya Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 24 sentyabr 2009-cu il

№ 499

Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Viza tələb olunmayan qaydada Azərbaycan Respublikasına gələn əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında müvəqqəti olma müddətinin uzadılması Qaydaları"nın təsdiq edilməsi barədə" 2009-cu il 9 iyun tarixli 88 nömrəli qərarına dəyişikliklər və əlavələr edilməsi və "Azərbaycan Respublikasına gəlmiş əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün vizaların müddətlərinin uzadılması Qaydaları"nın təsdiq edilməsi haqqında" 2004-cü il 6 mart tarixli 25 nömrəli qərarının qüvvədən düşmüş hesab edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

"Miqrasiya proseslərinin idarə olunmasında "bir pəncərə" prinsipinin tətbiqi ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına əlavələr və dəyişikliklər edilməsi və "Azərbaycan Respublikasında daimi yaşayan əcnəbinin və ya vətəndaşlığı olmayan şəxsin qeydiyyat vəsiqəsinin formasının təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Qanununun qüvvədən düşmüş hesab edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 20 iyul tarixli 129 nömrəli Fərmanının 1.2-ci bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır:

1. "Viza tələb olunmayan qaydada Azərbaycan Respublikasına gələn əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında müvəqqəti olma müddətinin uzadılması Qaydaları"nın təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 9 iyun tarixli 88 nömrəli qərarına aşağıdakı dəyişikliklər və əlavələr edilsin:

1.1. adından və 1-ci bəndindən "Viza tələb olunmayan qaydada" sözləri çıxarılsın;

1.2. həmin qərarla təsdiq edilmiş "Viza tələb olunmayan qaydada Azərbaycan Respublikasına gələn əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında müvəqqəti olma müddətinin uzadılması Qaydaları" üzrə:

1.2.1. adından və 1-ci bəndindən "Viza tələb olunmayan qaydada" sözləri çıxarılsın;

1.2.2. 2-ci bənddə "Viza tələb olunmayan qaydada" sözləri "Viza əsasında Azərbaycan Respublikasına gələn əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin ölkədə müvəqqəti olma müddəti vizada göstərilən ölkədə qalma müddətindən, viza tələb olunmayan qaydada" sözləri ilə, "(bundan sonra-əcnəbilər və vətəndaşlığı olmayan şəxslər) ölkədə müvəqqəti olma müddəti" sözləri "ölkədə müvəqqəti olma müddəti isə" sözləri ilə əvəz edilsin;

1.2.3. 5-ci bəndə aşağıdakı məzmunda ikinci abzas əlavə edilsin:

"Azərbaycan Respublikasına gələn və Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti tərəfindən ölkə ərazisində müvəqqəti olma müddəti uzadılmış əcnəbi və ya vətəndaşlığı olmayan şəxs şəxsi pasportunu (digər sərhədkeçmə sənədini) və müvəqqəti olma müddətinin uzadılması haqqında qərarı təqdim edərək dövlət sərhədinin buraxılış məntəqələrindən keçməklə ölkəni tərk edə bilər.";

1.2.4. 7-ci bənd üzrə:

1.2.4.1. birinci hissəyə aşağıdakı məzmunda "ə)" yarımbəndi əlavə edilsin:

"ə) dövlət rüsumunun ödənilməsi barədə qəbz .";

1.2.4.2. aşağıdakı məzmunda ikinci hissə əlavə edilsin:

"Əcnəbilərin və ya vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında müvəqqəti olma müddəti uzadılarkən onların uzadılacaq müddətlə birlikdə ölkədə müvəqqəti olma müddəti 30 gündən artıq olarsa, onlar eyni zamanda Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti tərəfindən yaşayış yeri üzrə qeydiyyata alınırlar. Bu məqsədlə əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi haqqında Əsasnamə" ilə müəyyən edilmiş sənədləri Dövlət Miqrasiya Xidmətinə təqdim etməlidirlər. Şəxsin yaşayış yeri üzrə qeydiyyata alınması haqqında məlumat ona verilmiş müvəqqəti olma müddətinin uzadılması haqqında qərarda öz əksini tapır.";

1.2.5. 11-ci və 15-ci bəndlər çıxarılsın;

1.2.6. 12-ci bənd aşağıdakı redaksiyada verilsin:

"Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti müvəqqəti olma müddətinin uzadılması ilə bağlı müraciətləri müsbət həll edilmiş əcnəbilərə

ğı olmayan şəxslərə Azərbaycan Respublikasında müvəqqəti
nin uzadılması barədə qərar təqdim edir.";

ənddə "6 (altı) aydan" sözləri "3 (üç) aydan" sözləri ilə əvəz

ənddə "Azərbaycan Respublikasına gələn" sözləri "Viza tələb
ydada Azərbaycan Respublikasına gələn" sözləri ilə əvəz edil-

kı məzmunda 15-ci, 16-cı və 17-ci bəndlər əlavə edilsin:

kələrin Azərbaycan Respublikasında fəaliyyət göstərən diplo-
ndəlik və konsulluqlarının, habelə beynəlxalq təşkilatların nü-
rinin əməkdaşları, inzibati-texniki xidmət heyətinə daxil olan
ların ailə üzvləri, həmçinin Azərbaycan Respublikasına diplo-
və ya Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq
ə nəzərdə tutulmuş hallarda xüsusi missiya ilə səfər edən əcnə-
daşlığı olmayan şəxslər üçün ölkədə müvəqqəti olma müddət-
nası bu Qaydalara uyğun olaraq Azərbaycan Respublikasının
zirliyi tərəfindən yeni viza rəsmiləşdirilməklə həyata keçirilir.

ın Respublikasının Dövlət Miqrasiya Xidməti və Azərbaycan
ın Xarici İşlər Nazirliyi əcnəbilərin və vətəndaşlığı olmayan
ədə müvəqqəti olma müddətinin uzadılması məsələsini həll
ir konkret halda onların Azərbaycan Respublikasında qalması-
i araşdırır, qanunvericilikdə nəzərdə tutulmuş hallarda müvəq-
ldətinin uzadılmasından imtina üçün hər hansı əsas müəyyən
müddətin uzadılmasından imtina edir və müraciət etmiş əcnəbi-
aşlığı olmayan şəxslərə imtina barədə yazılı məlumat verirlər.

n Respublikasında müvəqqəti olma müddəti uzadılmış əcnəbi-
şlığı olmayan şəxslər barədə məlumat Azərbaycan Respublika-
Miqrasiya Xidməti və Azərbaycan Respublikasının Xarici İşlər
ndən müəyyən edilmiş qaydada dərhal "Giriş-çıxış və qeydiy-
ası avtomatlaşdırılmış məlumat-axtarış sisteminə daxil edilir.

espublikasında yaşayan və müvəqqəti olan əcnəbilərin və v
ayan şəxslərin uçotu Azərbaycan Respublikasının Dövlət Miq-
tərəfindən vahid miqrasiya məlumat sistemi vasitəsilə apa-

ara əlavə edilmiş ərizə-anket formasının adından və mətnin-
əb olunmayan qaydada" sözləri, habelə mətnindən "under
le" sözləri çıxarılsın.

kasına gəlmiş əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün
uzadılması Qaydaları"nın təsdiq edilməsi haqqında" Azərbay-
r Kabinetinin 2004-cü il 6 mart tarixli 25 nömrəli qərarı (Azər-
Qanunvericilik Toplusu, 2004-cü il, № 3, maddə 192; 2008-ci
maddə 433, № 7, maddə 672) qüvvədən düşmüş hesab edilsin.

3. Bu qərar dərc edildiyi gündən qüvvəyə minir.

A.RASİ-ZADƏ

Azərbaycan Respublikasının Baş naziri

Bakı şəhəri, 24 sentyabr 2009-cu il

№ 152

"Azərbaycan Respublikası Hökuməti və Rumıniya Hökuməti arasında transsərhəd, mütəşəkkil cinayətkarlığa və beynəlxalq terrorçuluğa qarşı mübarizə sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti və Rumıniya Hökuməti arasında transsərhəd, mütəşəkkil cinayətkarlığa və beynəlxalq terrorçuluğa qarşı mübarizə sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının daxili işlər naziri Ramil İdris oğlu Usubova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının daxili işlər naziri Ramil İdris oğlu Usubova verilməsi barədə Rumıniya Hökumətinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 25 sentyabr 2009-cu il

№ 500

"Azərbaycan Respublikası Hökuməti və Rumıniya Hökuməti arasında fövqəladə halların nəticələrinin aradan qaldırılması, məhdudlaşdırılması və azaldılması sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti və Rumıniya Hökuməti arasında fövqəladə halların nəticələrinin aradan qaldırılması, məhdudlaşdırılması və azaldılması sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının fövqəladə hallar naziri Kamaləddin Fəttah oğlu Heydərova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının fövqəladə hallar naziri Kamaləddin Fəttah oğlu Heydərova verilməsi barədə Rumıniya Hökumətinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 25 sentyabr 2009-cu il

№ 501

"Azərbaycan Respublikası ilə Beynəlxalq İnkişaf Assosiasiyası arasında Maliyyələşdirmə Sazişini (Dövlət İnvestisiyaları üzrə Kadr Potensialının Gücləndirilməsi Layihəsi)" Azərbaycan Respublikası adından imzalamaq səlahiyyəti verilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Sərəncamı

1. "Azərbaycan Respublikası ilə Beynəlxalq İnkişaf Assosiasiyası arasında Maliyyələşdirmə Sazişini (Dövlət İnvestisiyaları üzrə Kadr Potensialının Gücləndirilməsi Layihəsi)" Azərbaycan Respublikası adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının təhsil naziri Misir Cumayıl oğlu Mərdanova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikası adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının təhsil naziri Misir Cumayıl oğlu Mərdanova verilməsi barədə Beynəlxalq İnkişaf Assosiasiyasına müvafiq bildiriş göndərsin.

3. Bu sərəncam imzalandığı gündən qüvvəyə minir.

A.RASİ-ZADƏ

Azərbaycan Respublikasının Baş naziri

Bakı şəhəri, 25 sentyabr 2009-cu il

№ 252s

"Amerika Birləşmiş Ştatları Hökumətini təmsil edən ABŞ Ticarət və İnkişaf Agentliyi (USTDA) və Azərbaycan Respublikasının Dövlət Neft Fondu arasında Qrant Müqaviləsi"ni imzalamaq səlahiyyəti verilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Sərəncamı

1. "Amerika Birləşmiş Ştatları Hökumətini təmsil edən ABŞ Ticarət və İnkişaf Agentliyi (USTDA) və Azərbaycan Respublikasının Dövlət Neft Fondu arasında Qrant Müqaviləsi"ni imzalamaq səlahiyyəti Azərbaycan Respublikası Dövlət Neft Fondunun icraçı direktoru Şahmar Arif oğlu Mövsümova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu sərəncamın 1-ci bəndində göstərilən Müqaviləni imzalamaq səlahiyyətinin Azərbaycan Respublikası Dövlət Neft Fondunun icraçı direktoru Şahmar Arif oğlu Mövsümova verilməsi barədə Amerika Birləşmiş Ştatları tərəfinə müvafiq bildiriş göndərsin.

A.RASİ-ZADƏ

Azərbaycan Respublikasının Baş naziri

Bakı şəhəri, 25 sentyabr 2009-cu il

№ 253s

Azərbaycan Respublikasının Serbiya Respublikasında (Belqrad şəhərində) Səfirliyinin təsis edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

Azərbaycan Respublikasının Serbiya Respublikasında (Belqrad şəhərində) Səfirliyi təsis edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 30 sentyabr 2009-cu il

№ 860-IIIQ

Azərbaycan Respublikasının Oman Sultanlığında (Maskat şəhərində) səfirliyinin təsis edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

Azərbaycan Respublikasının Oman Sultanlığında (Maskat şəhərində) Səfirliyi təsis edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 30 sentyabr 2009-cu il

№ 861-IIIQ

Azərbaycan Respublikasının Böyük Liviya Ərəb Sosialist Xalq Camahiriyyəsində (Tripoli şəhərində) Səfirliyinin təsis edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

Azərbaycan Respublikasının Böyük Liviya Ərəb Sosialist Xalq Camahiriyyəsində (Tripoli şəhərində) Səfirliyi təsis edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 30 sentyabr 2009-cu il

№ 862-IIIQ

Azərbaycan Respublikasının Livan Respublikasında (Beyrut şəhərində) Səfirliyinin təsis edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

Azərbaycan Respublikasının Livan Respublikasında (Beyrut şəhərində) Səfirliyi təsis edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 30 sentyabr 2009-cu il

№ 863-IIIQ

Azərbaycan Respublikasının Estoniya Respublikasında (Tallin şəhərində) Səfirliyinin təsis edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

Azərbaycan Respublikasının Estoniya Respublikasında (Tallin şəhərində) Səfirliyi təsis edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 30 sentyabr 2009-cu il

№ 864-IIIQ

Azərbaycan Respublikası Prezidentinin və Rusiya Federasiyası Prezidentinin Xəzər dənizi üzrə Birgə Bəyanatının təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

Azərbaycan Respublikası Prezidentinin və Rusiya Federasiyası Prezidentinin 2009-cu il iyunun 29-da Bakı şəhərində imzalanmış Xəzər dənizi üzrə Birgə Bəyanatı təsdiq edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 30 sentyabr 2009-cu il

№ 865-IIIQ

Azərbaycan Respublikası Prezidentinin və Rusiya Federasiyası Prezidentinin Xəzər dənizi üzrə Birgə Bəyanatı

Azərbaycan Respublikası və Rusiya Federasiyası Prezidentləri Xəzər dənizinin hüquqi statusunun müəyyən edilməsi üzrə Azərbaycan və Rusiyanın iştirakı ilə keçirilən beştərəfli danışıqlarda əldə olunmuş irəliləyişi qeyd etdilər.

Xəzəryanı dövlətlərin mövqelərinin yaxınlaşması və hazırlanmaqda olan Xəzər dənizinin hüquqi statusu haqqında konvensiyanın Xəzər dənizinin akvatoriyasının delimitasiyası və onun cənub hissəsində dibin bölgüsü, təhlükəsizlik, təkin istifadə olunması, tranzit, biosferin qorunub saxlanılması və digər məsələlərin aid olduğu bir sıra mühüm aspektləri üzrə artan anlaşma qeyd edilmişdir.

Adı çəkilən konvensiyanın qəbul edilməsi üçün şəraitin yaradılması, habelə iqtisadi və ekoloji vəziyyətin yaxşılaşdırılması, Xəzəryanı dövlətlər arasında münasibətlərin hərtərəfli inkişafı, Xəzər regionunda yaşayan xalqların rifahı məqsədilə indiyədək açıq qalan müddəaların tezliklə razılaşdırılmasına can atacaqları ifadə edilmişdir.

16 oktyabr 2007-ci ildə Tehran şəhərində keçirilmiş İkinci Xəzər Zirvə Toplantısının qərarlarının əhəmiyyəti təsdiq edilmişdir. Onun nəticələri üzrə qəbul edilmiş Bəyannamə tərəflərin qarşılıqlı münasibətlərində əsas tutacaqları siyasi davranış qaydalarının məcmusu qismində nəzərdən keçirilir. Tehran şəhərində əldə olunmuş razılaşmalar bütövlükdə Xəzər danışıq prosesinə əlavə təkan vermişdir.

Azərbaycan və Rusiya Prezidentləri çoxtərəfli Xəzəryanı əməkdaşlığın iqtisadi sahəsinə, o cümlədən onun digər mühüm komponenti olan - təhlükəsizlik sahəsinə böyük əhəmiyyət verirlər. Bununla əlaqədar onlar müasir çağırış və təhdidlərlə mübarizədə Xəzəryanı dövlətlərin qarşılıqlı fəaliyyətinin zəruriliyindən çıxış edirlər.

Yaxın zamanlarda Bakıda keçirilməsi nəzərdə tutulan təhlükəsizlik məsələləri üzrə Xəzəryanı dövlətlərin ekspertlərinin görüşü qeyd olunan vəzifənin həllinə vacib töhfə verməlidir. Bu görüş beş Xəzəryanı dövlətin başçısı tərəfindən əldə olunmuş razılaşmaların həyata keçirilməsinə və Bakı şəhərində Üçüncü Xəzər Zirvə toplantısının hazırlanmasına yönəlmişdir.

Bakı şəhərində 29 iyun 2009-cu ildə Azərbaycan və rus dillərində iki nüsxədə imzalanmışdır.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ	*RUSİYA FEDERASİYASININ PREZİDENTİ*
İLHAM ƏLİYEV	*DMİTRİ MEDVEDEV*

"Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında dövlət sərhədinin delimitasiyasının başa çatdırılmasının və Samur çayının su ehtiyatlarının bölüşdürülməsinin əsas prinsipləri haqqında" Birgə Bəyanatın təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

"Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında dövlət sərhədinin delimitasiyasının başa çatdırılmasının və Samur çayının su ehtiyatlarının bölüşdürülməsinin əsas prinsipləri haqqında" 2009-cu il iyunun 29-da Bakı şəhərində imzalanmış Birgə Bəyanat təsdiq edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 30 sentyabr 2009-cu il

№ 866-IIIQ

Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında dövlət sərhədinin delimitasiyasının başa çatdırılmasının və Samur çayının su ehtiyatlarının bölüşdürülməsinin əsas prinsipləri haqqında Birgə Bəyanat

Azərbaycan Respublikasının Prezidenti və Rusiya Federasiyasının Prezidenti,

iki ölkə arasında hörmət və etimada əsaslanan ənənəvi dostluq və mehriban qonşuluq münasibətlərindən çıxış edərək,

dövlət suverenliklərinə və müstəqilliklərinə qarşılıqlı hörmət, bərabər hüquqluluq və bir-birinin daxili işlərinə qarışmamaq, iqtisadi və digər təzyiq vasitələri də daxil olmaqla, zor tətbiq etməmək və zor tətbiq etməklə hədələməmək, ərazi bütövlüyü, sərhədlərin toxunulmazlığı, mübahisələrin dinc yolla həll edilməsi, insan hüquqlarına və əsas azadlıqlarına hörmət olunması, öhdəliklərin vicdanla yerinə yetirilməsi həmçinin beynəlxalq hüququn digər ümumtanınmış normalarının rəhbər tutaraq,

3 iyul 1997-ci il tarixli "Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizlik haqqında Müqavilə"yə, 9 yanvar 2001-ci il tarixli "Bakı Bəyannaməsi"nə 6 fevral 2004-cü il "Moskva Bəyannaməsi"nə, 22 fevral 2006-cı il "Azərbaycan Respublikası Prezidenti və Rusiya Federasiyası Prezidentinin Birgə Bəyənatı"na 3 iyul 2008-ci il tarixli "Azərbaycan Respublika və Rusiya Federasiyası arasında dostluq və strateji tərəfdaşlıq haqqında Bəyannamə"yə istinad edərək,

aşağıdakıları qeyd edirlər:

Tərəflər arasında onların müvafiq komissiyalarının apardığı Azərbaycan-Rusiya dövlət sərhədinin delimitasiyasının nəticələri üzrə razılıq mövcuddur;

Tərəflər hesab edirlər ki, dövlət sərhədinin delimitasiyası və Samur çayının su ehtiyatlarının səmərəli istifadəsi və mühafizəsi məsələlərinin həlli zamanı həmin məsələlərin qarşılıqlı əlaqəli olmasından çıxış etmək zəruridir;

Tərəflər əmindirlər ki, yekun razılaşma ekoloji tələbləri, o cümlədən çayın deltasına bu rayonda təbii tarazlığın qorunması üçün zəruri olan, razılaşdırılmış və qarşılıqlı məqbul hesab edilən həcmdə su axımının təmin edilməsini nəzərə almalıdır;

Tərəflər qeyd edirlər ki, bu iki məsələ ilə bağlı Azərbaycan və Rusiya arasında razılaşmalar Azərbaycan-Rusiya dövlət sərhədi xəttindən hər iki tərəfdə yaşayan əhalinin xalq təsərrüfatı maraqlarını və tələbatını nəzərə almalıdır;

Tərəflər qarşılıqlı əlaqədə olan bütün məsələlərin yekun razılaşdırılmasının Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında uğurla inkişaf edən strateji tərəfdaşlıq ruhunda həyata keçirilməli olmasından çıxış edirlər.

Tərəflər, on ali və yüksək səviyyələrdə həyata keçirilmiş müzakirələrin və nəticələrini və əldə edilmiş qarşılıqlı anlaşmanı, tətbiq edilə bilən beynəlxalq hüquqi sənədləri və hər iki dövlətin qanunvericiliyini, delimitasiya komissiyalarının birgə iclaslarının protokollarını rəhbər tutaraq, aşağıdakılar barədə razılığa gəldilər:

1. Azərbaycan-Rusiya dövlət sərhədinin üç razılaşdırılmamış sahələri üzrə (sahələr №1, №11, №12) dövlət sərhəd xəttinin keçməsinin razılaşdırılmasına dair yanaşmaların yüksək dərəcədə üst-üstə düşməsi mövcuddur;

2. Tərəflər ədalətli su bölgüsü prinsipinin həyata keçirilməsi, Samur-Abşeron hidroqovşağının birgə idarə olunması və istismarı üzrə qarşılıqlı məqbul hesab edilən mexanizmin hazırlanması və Azərbaycan-Rusiya dövlət sərhədinin Samur çayı üstündə körpü üzərindən keçməsinə münasibətdə prinsipial anlaşma əldə etdilər;

3. Samur çayının su ehtiyatlarının istifadəsi və bölüşdürülməsinin Tərəflər arasında ekoloji axın nəzərə alınmamaqla bərabər paylarla (50/50-yə) həyata keçirilir. Paritetlik prinsipi Samur çayı üzərindəki körpüyə münasibətdə də tətbiq ediləcəkdir.

4. Tərəflər su ehtiyatlarının idarə olunması və Samur-Abşeron hidroqovşağının istismarı üzrə bərabər təmsilçiliyə və eyni səlahiyyətlərə malik Komissiya yaradacaqlar.

5. Azərbaycanın və Rusiyanın müvafiq idarələri Samur çayı üzərindəki bəndin /körpünün keçid hissəsinin təmirini (yenidənqurmasını) həyata keçirəcəklər.

6. Tərəflər ən qısa müddət ərzində "Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında dövlət sərhədi haqqında Müqavilə" layihəsinin və "Azərbaycan Respublikası Hökuməti və Rusiya Federasiyası Hökuməti arasında transsərhəd Samur çayının su ehtiyatlarının istifadəsi və mühafizəsi sahəsində əməkdaşlıq haqqında Saziş" layihəsinin razılaşdırılması üzrə işləri başa çatdıracaqlar.

Tərəflərin nümayəndə heyətləri görülmüş işlərin nəticələri barədə 2009-cu ilin 4-cü rübündə Azərbaycan Respublikası Prezidentinə və Rusiya Federasiyası Prezidentinə məruzə edəcəklər.

Bakı şəhərində 29 iyun 2009-cu ildə Azərbaycan və rus dillərində olmaqla iki nüsxədə imzalanmışdır.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ	*RUSİYA FEDERASİYASININ PREZİDENTİ*
İLHAM ƏLİYEV	*DMİTRİ MEDVEDEV*

"2009-2010-cu illərdə Azərbaycan-Ukrayna əməkdaşlığının Tədbirlər Planı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

2009-cu il aprelin 9-da Bakı şəhərində imzalanmış "2009-2010-cu illərdə Azərbaycan-Ukrayna əməkdaşlığının Tədbirlər Planı" təsdiq edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 30 sentyabr 2009-cu il

№ 867-IIIQ

2009-2010-cu illərdə Azərbaycan-Ukrayna əməkdaşlığının Tədbirlər Planı

Azərbaycan Respublikası və Ukraynanın prezidentləri,

Azərbaycan Respublikası və Ukrayna arasında dostluq, əməkdaşlıq və tərəfdaşlıq haqqında Müqavilənin müddəalarını rəhbər tutaraq;

Azərbaycan və Ukrayna xalqları arasında çoxəsrlik dostluğu və mehriban qonşuluq münasibətlərini, ikitərəfli münasibətlərin fəallaşdırılması və strateji tərəfdaşlığın dərinləşdirilməsi üçün qarşılıqlı istəyi təsdiqləyərək;

qarşılıqlı maraq doğuran aktual beynəlxalq məsələlər barədə mövqelərin yaxınlığına, Avropa dəyərlərinə sadiqliyə əsaslanaraq, demokratiya və hüququn aliliyi prinsiplərini rəhbər tutaraq;

bazar islahatlarının həyata keçirilməsini davam etdirmək əzmini təsdiqləyərək;

qarşılıqlı əlaqələri hərtərəfli inkişaf etdirməyə, siyasi, iqtisadi, ticarət, humanitar, mədəni və elmi sahələrdə əməkdaşlığı təcrübə ilə zənginləşdirməyə hazır olduqlarını bildirərək,

2009-2010-cu illərdə Azərbaycan-Ukrayna əməkdaşlığının aşağıdakı prioritetlərini müəyyən etdilər:

1. **Siyasi dialoq**

1.1. Prezidentlər Şurasının iclaslarının təşkili və keçirilməsi (ildə bir dəfə).

1.2. Azərbaycan Respublikası xarici işlər nazirinin Ukraynaya rəsmi səfərinin təşkili və həyata keçirilməsi (2009-cu il sentyabr).

1.3. Azərbaycan Respublikası və Ukrayna Xarici işlər nazirlikləri arasında ikitərəfli və çoxtərəfli əməkdaşlığın aktual məsələləri üzrə 2009-2010-cu illər üçün məsləhətləşmələr Planına uyğun olaraq iki ölkənin xarici siyasət idarələri arasında məsləhətləşmələrin aparılması.

1.4. GUAM-m və Avropa İttifaqının üzvü olan ölkələr arasında iqtisadi və humanitar əməkdaşlığın genişləndirilməsi istiqamətində DİİT - GUAM çərçivəsində daimi qarşılıqlı fəaliyyət (2009-2010-cu illər ərzində).

1.6. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin Azərbaycan Respublikasının suverenliyi, ərazi bütövlüyü və hamılıqla beynəlxalq tanınmış sərhədlərinin toxunulmazlığı əsasında tənzimlənməsi kontekstində əməkdaşlıq.

1.7. Beynəlxalq və regional təşkilatlar (BMT, Aİ, ATƏT, QİƏT) çərçivəsində qarşılıqlı fəaliyyətin inkişaf etdirilməsi, ən aktual beynəlxalq məsələlərə dair mövqelərin razılaşdırılması (2009-2010-cu illər).

2. **Ticarət-iqtisadi əməkdaşlıq**

2.1. İqtisadi əməkdaşlıq məsələləri üzrə birgə hökumətlərarası komissiyanın səkkizinci iclasının keçirilməsi (2009-cu il ərzində).

2.2. Ticarət-iqtisadi əməkdaşlığın intensivləşdirilməsinə üzrə biznes forumun təşkil edilməsi və keçirilməsi (2009-2010-cu illər).

2.3. Ukraynada istehsal edilmiş kənd təsərrüfatı texnikasının, maşınqayırma məhsullarının, o cümlədən nəqliyyat vasitələrinin, ehtiyat hissələrinin Azərbaycan Respublikasına tədarükünə dair Azərbaycanın və Ukraynanın belə əməkdaşlıqda maraqlı olan nazirlikləri və idarələri arasında danışıqların aparılması, habelə Azərbaycanda müvafiq məhsulların buraxılışı üzrə müştərək müəssisə yaradılması (2009-cu ilin birinci yarısı).

2.4. Aerokosmik sənayedə əməkdaşlıq sahəsində ikitərəfli məsləhətləşmələrin aparılması (2009-cu ilin ortaları).

3. **Yanacaq-energetika sahəsində əməkdaşlıq**

3.1. Yanacaq-energetika kompleksində əməkdaşlığın parametrlərinin və istiqamətlərinin müəyyən edilməsi üzrə sahələrarası işçi qrupu çərçivəsində energetikada ikitərəfli əməkdaşlığın daha da inkişaf etdirilməsi (2009-cu il ərzində).

3.2. Xəzər regionundan çıxarılan neftin Odessa-Brodı boru kəməri vasitəsilə avers rejimində nəql edilməsi do daxil olmaqla, Avrasiya Neft Nəqli Dəhlizinin reallaşdırılması üzrə işlərin əlaqələndirilməsi.

3.3. Xəzər-Qara dəniz-Baltik enerji tranziti məkanının formalaşdırılmasının əsaslarının müəyyən edilməsi üzrə ekspert məsləhətləşmələrinin aparılması (Tbilisi enerji sammiti başlanana qədər - təqribən 2009-cu ilin iyulunda).

3.4. Ukraynada neftayırma zavodu tikintisinə dair Azərbaycan - Ukrayna layihəsinin həyata keçirilməsi məsələləri ilə bağlı yüksək səviyyədə və ekspertlər səviyyəsində ikitərəfli dialoqun inkişaf etdirilməsi (2009-cu il ərzində).

4. **Nəqliyyat sahəsində əməkdaşlıq**

4.1. "Klaypeda-İliçevsk-Bakı" dəmir yol nəqliyyatı marşrutu layihəsinin ("Vikinq" qatarı) həyata keçirilməsinə dair işlərin davam etdirilməsi və əlaqələndirilməsi (2009-cu il ərzində).

4.2. İnformasiya-kommunikasiya texnologiyaları sahəsində ikitərəfli əməkdaşlığın inkişaf etdirilməsi (2009-cu il ərzində).

4.3. Kosmik sənayenin yaradılması sahəsində əməkdaşlıq (2009-cu il ərzində).

5. **Təhlükəsizlik sahəsində əməkdaşlıq**

5.1. GUAM-ın Dövlətlərarası Analitik İnformasiya Xidməti virtual mərkəzinin işi çərçivəsində Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyinin və Ukrayna Təhlükəsizlik Xidmətinin və fəaliyyətinin əlaqələndirilməsi (2009-2010-cu illər ərzində).

5.2. İnsan alverinə və qeyri-leqal miqrasiyaya qarşı mübarizə üzrə "Ələkeçirmə-2009", habelə narkotik maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə üzrə "Narkostop-2009" birgə tədbirlərinin həyata keçirilməsi (2009-cu il ərzində).

5.3. İnformasiyanın qorunması, habelə antiterror bölmələri əməkdaşlarının birgə təlimlərinin və staj keçirilməsinin mümkünlüyü barədə Ukrayna Təhlükəsizlik Xidmətinin "Konça-Zaspa" təlim sahəsində Beynəlxalq xüsusi hazırlıq mərkəzi bazasında məsləhətləşmələrin keçirilməsi (2009-cu il ərzində).

6. **Hərbi-texniki əməkdaşlıq sahəsində**

6.1. Hərbi-texniki əməkdaşlıq məsələlərinə dair işçi qrupunun iclasının təşkili və keçirilməsi (2009-cu il ərzində).

6.2. "Azərbaycan Respublikası Hökuməti və Ukrayna Hökuməti arasında hərbi-texniki əməkdaşlıq haqqında 1994-cü il 24 mart tarixli Sazişə dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası Hökuməti və Ukrayna Nazirlər Kabineti arasında Protokol"un imzalanması (Ukrayna Prezidentinin Azərbaycan Respublikasına rəsmi səfəri vaxtı - aprel 2009-cu il) və bundan sonra hərbi-texniki əməkdaşlıq məsələlərinə dair Hökumətlərarası Komissiyanın yaradılması.

6.3. Tərəflərin razılaşdırdığı qrafikə uyğun olaraq, hərbi-texniki əməkdaşlıq məsələlərinə dair Hökumətlərarası Komissiyanın iclasının təşkili və keçirilməsi (2009-2010-cu illər ərzində ildə bir dəfə).

6.4. "Ukrspeceksport" dövlət müəssisəsi ilə Azərbaycan Respublikasının Müdafiə Nazirliyi və Müdafiə Sənayesi Nazirliyi arasında hərbi və ikili təyinatlı malların tədarükünə və xidmətlərin göstərilməsinə dair müqavilələrin yerinə yetirilməsinə, habelə yeni müqavilələrin bağlanmasına köməklik edilməsi (2009-2010-cu illər).

6.5. Hərbi və ikili təyinatlı məhsulların perspektivli növlərinin yaradılmasına dair layihələrin birgə işlənib hazırlanması və maliyyələşdirilməsi barədə danışıqların aparılması.

7. **Mədəni-maarif və humanitar sahələrdə əməkdaşlıq**

7.1. XX yüzilliyin əvvəlində Azərbaycanda Ukraynanın ilk diplomatik missiyasının şərəfinə xatirə lövhəsinin açılışı (aprel 2009-cu il).

7.2. Xarici siyasət idarələri arasında diplomatik nümayəndələr hazırlanmasına dair Sazişə müvafiq olaraq, Azərbaycan Respublikasının və Ukraynanın diplomatik akademiyaları arasında əməkdaşlığın yaradılması və bu məqsədlə əməkdaşlıq haqqında nümunəvi Memorandumun imzalanması (2009-cu il ərzində).

7.3. Ukraynada Azərbaycan Respublikası mədəniyyəti günlərinin keçirilməsi (2009-cu il ərzində).

7.4. Azərbaycanda Ukrayna gəncləri günlərinin (oktyabr 2009-cu il) və Ukraynada Azərbaycan gəncləri günlərinin keçirilməsi (2010-cu il).

8. **Regionlararası əməkdaşlıq**

8.1. Azərbaycan Respublikasının Gəncə şəhər İcra Hakimiyyəti və Ukraynanın Volın vilayətinin Dövlət Administrasiyası arasında ticari - iqtisadi, elmi-texniki və mədəniyyət sahələrində əməkdaşlıq haqqında Sazişin hazırlanması və imzalanması (Ukrayna Prezidentinin rəsmi səfəri vaxtı - aprel 2009-cu il).

9. **Dövlət qulluğu və dövlət idarəçiliyi sahəsində əməkdaşlıq**

9.1. Azərbaycan Respublikası Hökuməti və Ukrayna Hökuməti arasında dövlət qulluğu sahəsində əməkdaşlıq haqqında 2008-ci il mayın 22-də imzalanmış Saziş çərçivəsində Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya və Ukraynanın Dövlət Qulluğu Baş İdarəsi arasında dövlət qulluğu və dövlət

idarəçiliyinin inkişaf etdirilməsi sahəsində ikitərəfli əməkdaşlığın fəallaşdırılması.

10. **Müqavilə-hüquqi bazanın inkişaf etdirilməsi**

10.1. Hərbi-texniki əməkdaşlıq məsələləri üzrə Hökumətlərarası Komissiyanın fəaliyyəti haqqında Əsasnamənin işlənib hazırlanması (Hərbi-texniki əməkdaşlıq haqqında 1997-ci il 24 mart tarixli Hökumətlərarası Sazişə dəyişikliklər edilməsi barədə Protokol imzalandıqdan sonra (2009-cu il ərzində).

10.2. İnformasiya-kommunikasiya texnologiyaları sahəsində əməkdaşlıq haqqında müqavilənin imzalanması (2009-cu ilin sonu-2010-cu ilin əvvəli).

10.3. "Vikinq" layihəsi üzrə transmodal dəmir yolu daşımalarına dair ikitərəfli sazişin imzalanma üçün hazırlanması üzrə işlərinin davam etdirilməsi (2009-2010-cu illər ərzində).

10.4. İkitərəfli əməkdaşlığın müqavilə-hüquq bazasının daha da genişləndirilməsi üzrə işlərin davam etdirilməsi.

2009-cu il 9 aprel tarixində Bakı şəhərində hər biri Azərbaycan, Ukrayna və rus dillərində olmaqla iki əsl nüsxədə imzalanmışdır. Bütün mətnlər eyni qüvvəyə malikdir.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ	*UKRAYNANIN PREZİDENTİ*
İLHAM ƏLİYEV	*VİKTOR YUŞŞENKO*

"Azərbaycan Respublikası Hökuməti və Gürcüstan Respublikası Hökuməti arasında hava əlaqəsi haqqında" Sazişə dəyişikliklər edilməsi haqqında" Protokolun təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

"Azərbaycan Respublikası Hökuməti və Gürcüstan Respublikası Hökuməti arasında hava əlaqəsi haqqında" Sazişə dəyişikliklər edilməsi haqqında" 2009-cu il mayın 20-də Bakı şəhərində imzalanmış Protokol təsdiq edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 30 sentyabr 2009-cu il

№ 868-IIIQ

Azərbaycan Respublikası Hökuməti və Gürcüstan Respublikası Hökuməti arasında hava əlaqəsi haqqında Sazişə dəyişikliklər edilməsi haqqında Protokol

Bundan sonra "Razılığa Gələn Tərəflər" adlanacaq Azərbaycan Respublikası Hökuməti və Gürcüstan Hökuməti,

İki ölkə arasında mülki aviasiya sahəsində əlaqələri möhkəmləndirmək və hər iki ölkənin təyin edilmiş aviasiya şirkətlərinə müntəzəm reyslərin yerinə yetirilməsi məqsədilə əlavə hüquqlar vermək istəyi ilə;

Azərbaycan Respublikası Hökuməti və Gürcüstan Respublikası Hökuməti arasında 3 fevral 1993-cü il tarixində imzalanmış Sazişi dəyişmək istəyi ilə (sonra mətn üzrə - "Saziş"); və

Qeyd edilən Sazişin 19-cu maddəsini nəzərə alaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

3 fevral 1993-cü il tarixində imzalanmış "Azərbaycan Respublikası Hökuməti və Gürcüstan Respublikası Hökuməti arasında hava əlaqəsi haqqında Saziş"ə aşağıdakı əlavələr edilsin:

1. Bütün mətndə "Gürcüstan Respublikası" sözləri "Gürcüstan" sözü ilə əvəz edilsin.

2. 1-ci maddənin 1 (b) bəndində "aviasiya hakimiyyət orqanı" termini aşağıdakı şəkildə dəyişdirilsin:

2.1. "Azərbaycan Respublikasına münasibətdə "Azərbaycan Respublikası Dövlət Mülki Aviasiya Administrasiyası yaxud hazırda qeyd edilən hakimiyyət orqanının səlahiyyətinə daxil olan funksiyaların yerinə yetirilməsi üçün vəkil edilmiş istənilən şəxs və ya təşkilat";

2.2. "Gürcüstana münasibətdə "Gürcüstanın İqtisadi İnkişaf Nazirliyi və/və ya Gürcüstanın Vahid Nəqliyyat Administrasiyası yaxud hazırda qeyd edilən hakimiyyət orqanının səlahiyyətinə daxil olan funksiyaların yerinə yetirilməsi üçün vəkil edilmiş istənilən şəxs və ya təşkilat".

3. 2-ci maddənin 3-cü bəndi çıxarılsın.

4. 2-ci maddənin 5-ci bəndi əvəz edilsin və aşağıdakı redaksiyada təqdim edilsin:

"5. Razılığa Gələn Tərəflərdən birinin təyin edilmiş aviasiya müəssisəsi qarşısıalınmaz qüvvənin səbəb olduğu silahlı toqquşma, siyasi iğtişaş və ya digər hallar nəticəsində müəyyən edilmiş marşrutlar üzrə hava xəttini istismar etmək imkanına malik deyildirsə, digər Razılığa Gələn Tərəf hava xəttinin fasiləsiz istismarına kömək etmək üçün maksimal səy göstərəcək və bu məqsədlə marşrutların müvəqqəti yenidən təşkilini həyata keçirəcəkdir".

5. 3-cü maddənin 5-ci bəndində aşağıdakı redaksiyada verilsin:

"5. Təyin edilmiş və bələliklə icazə almış aviasiya müəssisəsi istənilən vaxtda hava xətlərinin istismarına başlaya bilər, o şərtlə ki, uçuşların cədvəli bu Sazişin 13-cü maddəsinin müddəalarına uyğun olaraq təsdiq edilmişdir".

6. 3-cü maddə yeni 6-cı bəndlə aşağıdakı redaksiyada əlavə edilsin:

"6. Razılaşdırılmış marşrutlarda xidmət göstərilərkən və ya xidmət göstərmək hüququ olduqda hər iki Razılığa Gələn Tərəfin təyin edilmiş aviasiya müəssisələri kodlardan birgə istifadə haqqında sazişlər bağlaya bilərlər:

a) Razılığa Gələn Tərəflərdən birinin təyin etdiyi aviasiya müəssisəsi və ya aviasiya müəssisələri ilə;

b) digər Razılığa Gələn Tərəfin təyin etdiyi aviasiya müəssisəsi və ya aviasiya müəssisələri ilə;

o şərtlə ki, belə sazişə daxil olan bütün aviasiya müəssisələri:

a) müvafiq marşrutlardan və sahələrdən istifadə etmək hüququna malikdirlər;

b) belə sazişlər zamanı adətən tətbiq olunan tələblərə uyğun gəlirlər;

c) bilet satışı zamanı hər sektorda hansı aviasiya müəssisəsinin xidmət göstərdiyini və ya istehlakçının hansı aviasiya müəssisəsi və ya aviasiya müəssisələri ilə müqavilə münasibətləri yaratdığını istehlakçılara izah etməlidirlər".

7. Sazişin 6-cı maddəsi yeni redaksiyada verilsin:

"Maddə 6. Tariflər:

1. bu Sazişə əsasən Razılığa Gələn Tərəflərin aviasiya hakimiyyət orqanları beynəlxalq hava daşımaları üçün tariflərin tətbiqini tələb etmək hüququna malikdirlər;

2. aviasiya hakimiyyət orqanlarının müdaxiləsi aşağıda göstərilənlərlə məhdudlaşdırılmalıdır:

a) diskriminasiya tariflərinə və fəaliyyətə mane olmaq;

b) aviasiya müəssisəsi tərəfindən əsas mövqedən istifadə edərək və ya aviasiya müəssisələri arasında əvvəlcədən razılaşdırılaraq həddsiz dərəcədə yüksəldilən və ya məhdudlaşdırılan tariflərdən istehlakçıların müdafiəsi; və

c) birbaşa və ya vasitəli dövlət subsidiyası və ya yardımının köməyi ilə süni surətdə endirilmiş tariflərdən aviasiya müəssisələrinin müdafiəsi".

8. 9-cu maddənin 1-ci bəndi aşağıdakı redaksiyada verilsin:

"1. Razılığa Gələn Tərəflərdən birinin verdiyi və ya etibarlı və yararlı hesab etdiyi sertifikat, şəhadətnamə və lisenziyaları digər Razılığa Gələn Tərəf etibarlı hesab edəcəkdir, bir şərtlə ki, belə sertifikat, şəhadətnamə və lisenziyaların verilməsi və tanınması üzrə tələblər Konvensiyaya müvafiq olaraq müəyyən edilmiş qüvvədə olan və ya gələcək minimal standartlardan yuxarıdır və ya onlara bərabərdir".

9. 10-cu maddənin 2 və 3-cü bəndləri aşağıdakı redaksiyada verilsin:

"2. Razılığa Gələn Tərəflər tələb ilə, hava gəmisinin qanunsuz zəbt edilməsinin, hava gəmisi, onun sərnişinləri və ekipajının, hava limanları və aeronaviqasiya vasitələrinin təhlükəsizliyinə qəsd edən digər hərəkətlərin, habelə mülki aviasiyanın təhlükəsizliyi üçün qorxu yaradan hərəkətlərin qarşısını almaq üçün bir-birinə lazımi yardım göstərəcəklər.

3. Razılığa Gələn Tərəflər ikitərəfli əlaqələr prosesində aviasiya təhlükəsizliyi standartlarına, habelə Beynəlxalq Mülki Aviasiya Təşkilatı tərəfindən Konvensiyaya "əlavə" kimi müəyyən edilmiş və Tərəflərin istifadə etdikləri tövsiyə olunan təcrübəyə və beynəlxalq standartlara uyğun hərəkət edəcəklər. Belə ki, bu standartlar qeydiyyatda olan hava daşıyıcılarından, Razılığa Gələn Tərəflərin dövlətinin ərazisində fəaliyyət göstərən və/və ya idarə olunan, yaxud orada yerləşən hava

daşıyıcılarından; on ların ərazilərində yerləşən hava limanlarının istismarçılarından aviasiya təhlükəsizliyinin bu müddəalarına müvafiq olaraq hərəkət etmələrini tələb edir. Bu bənddə qeyd edilən aviasiya təhlükəsizliyi standartlarına müvafiq Razılığa Gələn Tərəfin məlumat verdiyi istənilən dəyişiklik daxildir. Hər bir Razılığa Gələn Tərəf digər Razılığa Gələn Tərəfə hər hansı dəyişiklik barədə məlumat vermək niyyəti haqqında vaxtında xəbər verəcəkdir".

10. 10-cu maddənin adı ("Aviasiya təhlükəsizliyi") dəyişdirilərək "Aviasiya təhlükəsizliyi və uçuşların təhlükəsizliyi" adlandırılsın və aşağıdakı redaksiyada yeni 6-12 bəndləri əlavə edilsin:

"6. Hər bir Razılığa Gələn Tərəf hava gəmisi, onun ekipajı və ya istismarı ilə əlaqədar istənilən sahədə digər Razılığa Gələn Tərəfin təsdiq etdiyi uçuşların təhlükəsizlik standartları üzrə məsləhətləşmələr keçirilməsi üçün istənilən vaxt müraciət edə bilər. Belə məsləhətləşmələr bu cür müraciət alındığı gündən sonra 30 (otuz) gün ərzində keçirilir.

7. Belə məsləhətləşmələr nəticəsində bir Razılığa Gələn Tərəf digər Razılığa Gələn Tərəfin həmin an Konvensiya tərəfindən müəyyən edilmiş standartlara bərabərləşdirilən təhlükəsizlik standartlarını istənilən sahədə effektiv surətdə qoruyub saxlamadığını və onlara riayət etmədiyini aşkar edərsə, birinci Razılığa Gələn Tərəf digər Razılığa Gələn Tərəfə yaranmış vəziyyət və bu standartlara riayət edilməsi üçün ən azı zəruri olan tədbirlər haqqında xəbər verməli, digər Razılığa Gələn Tərəf isə nöqsanların aradan qaldırılması üçün müvafiq tədbirlər görməlidir. Digər Razılığa Gələn Tərəf 15 (on beş) gün ərzində və ya başqa razılaşdırılmış müddətdə lazımi tədbirlər görməzsə, bu hal Sazişin 4-cü maddəsindən istifadə edilməsi üçün əsas ola bilər.

8. Konvensiyanın 33-cü maddəsi ilə müəyyən edilmiş öhdəliklərə baxmayaraq, Razılığa Gələn Tərəflər bununla razılaşırlar ki, bir Razılığa Gələn Tərəfin aviasiya müəssisəsi (aviasiya müəssisələri) tərəfindən istismar olunan və digər Razılığa Gələn Tərəfin dövlətinin ərazisinə uçuşlar yerinə yetirən istənilən hava gəmisi digər Razılığa Gələn Tərəfin ərazisində olarkən hava gəmisinin bortunda və ya ərazisində digər Razılığa Gələn Tərəfin səlahiyyətli nümayəndəsi tərəfindən hava gəmisi sənədlərinin və onun ekipajının yararlığı və hava gəmisinin vəziyyəti yoxlanıla bilər (bu maddədə - "uçuş təhlükəsizliyinin təmin edilməsi məqsədilə "yoxlama"), o şərtlə ki, bu, hava gəmisinin qeyri-məqsədəuyğun boş dayanmasına səbəb olmasın.

9. Uçuşların təhlükəsizliyinin təmin edilməsi məqsədilə keçirilən istənilən bu yoxlama və ya bir sıra yoxlamalar:

a) hava gəmisinin və onun istismarının Konvensiyanın həmin anda qüvvədə olan minimal standartlarına uyğun gəlmədiyinə ciddi əsas yaranmasına, və

b) Konvensiya ilə müəyyən edilmiş təhlükəsizlik standartlarına səmərəli riayət edilməsi və onların qorunub saxlanmasında nöqsanların mövcud olmasına ciddi əsas yaranmasına səbəb olarsa, Konvensiyanın 33-cü maddəsinin məqsədləri üçün yoxlamanı həyata keçirən Razılığa Gələn Tərəf şəhadətna-

mə və lisenziyaların verilməsi və ya hava gəmisi və onun ekipajının yararlığının tanınması, habelə hava gəmisinin istismarı üçün əsas olan tələblərin Konvensiya tərəfindən müəyyən edilmiş minimal standartlara cavab vermədiyi və ya uyğun olmadığı barədə nəticəyə gələ bilər.

10. Razılığa Gələn Tərəflərdən birinin istismar edilən hava gəmisində aviasiya müəssisəsi (aviasiya müəssisələri) tərəfindən uçuşların təhlükəsizliyinin təmin edilməsinin yoxlanmasını həyata keçirmək hüququndan aviasiya müəssisəsinin (aviasiya müəssisələrinin) nümayəndələri tərəfindən imtina edildiyi halda, bu maddənin 8-ci bəndinə müvafiq olaraq digər Razılığa Gələn Tərəf Sazişin 9-cu bəndində qeyd edilən ciddi əsasların yarandığı barədə nəticəyə gəlmək hüququna malikdir.

11. Hər bir Razılığa Gələn Tərəf uçuş təhlükəsizliyinin təmin edilməsinin yoxlanması və ya belə yoxlamanın və ya məsləhətləşmələrin keçirilməsindən və digər bu cür tədbirlərdən imtina nəticəsində bu aviasiya müəssisələri tərəfindən təxirəsalınmaz tədbirlərin görülməsi barədə nəticəyə gələrsə, həmin Razılığa Gələn Tərəf digər Razılığa Gələn Tərəfin aviasiya müəssisəsinin (aviasiya müəssisələrinin) istismar səlahiyyətlərini dayandırmaq və ya dəyişdirmək hüququna malikdir.

12. Bir Razılığa Gələn Tərəfin bu maddənin 7 və 11-ci bəndlərinə müvafiq hər hansı hərəkəti belə hərəkətlərin həyata keçirilməsi üçün əsas olmadığı halda davam etdirilə bilməz".

11. 13-cü maddə aşağıdakı redaksiyada verilsin:

"Maddə 13. Uçuşların tutumu və cədvəli.

1. Razılığa Gələn Tərəflərdən hər biri Razılığa Gələn Tərəflərin təyin edilmiş aviasiya müəssisələrinə bu Sazişdə nəzərdə tutulan beynəlxalq hava daşımalarının yerinə yetirilməsi üçün rəqabəti ədalətlə həyata keçirməyə icazə verir.

2. İstənilən razılaşdırılmış xətdə daşımaların həcmi Razılığa Gələn Tərəflərin aviasiya hakimiyyəti orqanları arasında razılaşma yolu ilə müəyyən ediləcək.

3. Bir Razılığa Gələn Tərəfin təyin edilmiş aviasiya müəssisələri uçuşları həyata keçirməyə başlamazdan 60 (altmış) gün əvvəl uçuş cədvəlini digər Razılığa Gələn Tərəfin aviasiya hakimiyyət orqanlarına təsdiq edilmək üçün təqdim edir. Xüsusi hallarda qeyd edilən müddət aviasiya hakimiyyət orqanları arasında razılaşma əsasında qısaldıla bilər.

4. Razılaşdırılmış hava xətləri üzrə uçuşların cədvəlində imkan daxilində real tələblər əsasında həftənin günləri üzrə bərabər həcmdə göstərilən xidmətlər nəzərə alınmalıdır. Bu cədvəl xidmət göstərən hava limanları və naviqasiya xidmətləri ilə qabaqcadan razılaşdırılır".

12. Sazişin Əlavəsi aşağıdakı redaksiyada verilsin:

"Marşrutların cədvəli

1. Azərbaycan Respublikasının təyin edilmiş aviasiya müəssisəsi (aviasiya müəssisələri) tərəfindən yerinə yetiriləcək uçuşların marşrutları:

Çıxış məntəqələri	Aralıq məntəqələr	Təyinat məntəqələri	Kənar məntəqələr
Azərbaycan Respublikası	Üçüncü ölkələrdəki məntəqələr	Gürcüstanda beynəlxalq hava daşımasının yerinə yetirildiyi (yerinə yetirilə bilən) istənilən məntəqə	Üçüncü ölkədəki məntəqələr

2. Gürcüstanın təyin edilmiş aviasiya müəssisəsi (aviasiya müəssisələri) tərəfindən yerinə yetiriləcək uçuşların marşrutları:

Çıxış məntəqələri	Aralıq məntəqələr	Təyinat məntəqələri	Kənar məntəqələr
Gürcüstan	Üçüncü ölkələrdəki məntəqələr	Azərbaycan Respublikasında beynəlxalq hava daşımasının yerinə yetirildiyi (yerinə yetirilə bilən) istənilən məntəqə	Üçüncü ölkədəki məntəqələr

Qeydlər:

1. Hər hansı bir məntəqə və ya bütün aralıq və kənar məntəqələr təyin edilmiş aviasiya şirkətinin rəyinə görə istənilən reys və ya bütün reyslər yerinə yetirilərkən buraxıla bilər, yalnız bir şərtlə ki, hava daşıması həmin aviasiya müəssisəsini təyin etmiş Razılığa Gələn Tərəfin ərazisində başlasın və ya bitsin.

2. Aralıq məntəqələr və kənar məntəqələr, habelə aralıq və ya kənar məntəqələrdə kommersiya hüququndan istifadə (hüququn verilməsi) aviasiya hakimiyyət orqanları tərəfindən danışıqlar aparılması yolu ilə müəyyən edilir.

3. Bir Razılığa Gələn Tərəfin təyin edilmiş aviasiya müəssisəsinin digər Razılığa Gələn Tərəfin və üçüncü ölkənin əraziləri arasında sərnişin, baqaj, yük və poçt daşınmasını həyata keçirmək hüququ (5-ci dərəcəli hava sərbəstliyi hüququndan istifadə edilməsi) hər iki Razılığa Gələn Tərəfin aviasiya hakimiyyət orqanları arasında ayrıca danışıqlar mövzusudur.

Bir Razılığa gələn Tərəfin təyin olunmuş aviasiya müəssisəsinə sərnişinləri, yükü və ya poçtu digər Razılığa gələn Tərəfin ərazisindəki məntəqələr arasında haqq müqabilində və ya muzdla daşımaq üçün hava gəmisinə götürmək hüququnun verilməsi hər iki Razılığa Gələn Tərəfin aviasiya hakimiyyət orqanları arasında ayrıca razılaşma mövzusudur".

Maddə 2

Sazişin ayrılmaz hissəsi olan bu Protokol Sazişin 19-cu maddəsində qeyd edilən proseduralara müvafiq qaydada qüvvəyə minir.

Bu Protokol Bakı şəhərində 20 may 2009-cu il tarixində iki nüsxədə hər biri gürcü, Azərbaycan və rus dillərində imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir. Bu Protokolun təfsiri zamanı fikir ayrılığı yarandığı təqdirdə rus dilindəki mətnə üstünlük

verilməcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN

CAHANGİR ƏSGƏROV
"Azərbaycan Hava Yolları"
Qapalı Səhmdar Cəmiyyətinin prezidenti

GÜRCÜSTAN HÖKUMƏTİ ADINDAN

LASA JVANİYA
İqtisadi inkişaf naziri

Azərbaycan Respublikası Prezidentinin və Latviya Respublikası Prezidentinin Birgə Bəyannaməsinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

Azərbaycan Respublikası Prezidentinin və Latviya Respublikası Prezidentinin 2009-cu il avqustun 10-da Bakı şəhərində imzalanmış Birgə Bəyannaməsi təsdiq edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 30 sentyabr 2009-cu il

№ 869-IIIQ

Azərbaycan Respublikası Prezidentinin və Latviya Respublikası Prezidentinin Birgə Bəyannaməsi

Azərbaycan Respublikasının Prezidenti və Latviya Respublikasının Prezidenti,

İki ölkə arasında mövcud olan siyasi, iqtisadi, sosial və mədəni sahələrdə münasibətlərə dair səmimi dostluq şəraitində aparılan danışıqların nəticəsini yüksək qiymətləndirərək,

Azərbaycan və Latviyanın regional və beynəlxalq səviyyədə rollarının artan əhəmiyyətini vurğulayaraq,

İkitərəfli əlaqələri daha da gücləndirmək və yüksək səviyyəli siyasi dialoqu gələcəkdə də davam etdirmək iradələrini bəyan edərək,

Beynəlxalq münasibətlərin hazırkı inkişafı kontekstində Azərbaycan-Latviya siyasi, iqtisadi, hərbi, mədəni və humanitar əlaqələrinin gücləndməsinin və inkişafının hər iki dövlət, o cümlədən Baltik-Qara dəniz-Qafqaz regionu və bütün Avropa üçün əhəmiyyətini qeyd edərək,

Müxtəlif beynəlxalq və regional təşkilatlar və qurumlar çərçivəsində iki ölkənin maraqlarına cavab verən qarşılıqlı faydalı əməkdaşlığın əhəmiyyətini vurğulayaraq,

Dövlətlərin suveren bərabərliyinə, ərazi bütövlüyünə və beynəlxalq tanınmış sərhədlərinin toxunulmazlığına hörmət edilməsi də daxil olmaqla, Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinin və beynəlxalq hüququn məqsədlərinə və prinsiplərinə tərəfdar çıxdıqlarını təsdiq edərək,

İki ölkə arasında siyasi, iqtisadi, ticarət, hərbi, mədəni, humanitar, elmi-texniki əmək-

daşlığın genişləndirilməsi və gücləndirilməsi üçün qarşılıqlı səylərə əsaslanaraq,

Latviya Respublikası Prezidentinin Azərbaycan Respublikasına hazırkı rəsmi səfərinin iki ölkə arasında dostluğun və əməkdaşlığın dərinləşməsinə töhfə verəcəyinə əminliklərini ifadə edərək,

aşağıdakıları bəyan edirlər:

Tərəflər, ikitərəfli əlaqələrin gələcəkdə də demokratiya, qanunun aliliyi, insan hüquqları və əsas azadlıqlarına hörmət, vətəndaş cəmiyyəti və bazar iqtisadiyyatı kimi müştərək dəyərlər və məqsədlər əsasında inkişaf etdirilməsində qətiyyətli olduqlarını vurğulayırlar.

Tərəflər, iki ölkə arasında mövcud olan əlaqələrin bütün səviyyələrdə, o cümlədən iki ölkənin qanunverici və icra orqanları arasında dərinləşdirilməsinə, bu məqsədlə səfərlər mübadiləsinin həyata keçirilməsinə və təcrübə mübadiləsinə mühüm əhəmiyyət verirlər.

Tərəflər, parlamentlərarası əlaqələri ikitərəfli əməkdaşlığın vacib tərkib hissəsi kimi qiymətləndirir, hər iki dövlətin parlamentləri arasında əlaqələrin, o cümlədən Avropa Şurası Parlament Assambleyası çərçivəsində əməkdaşlığın fəallaşdırılmasının, parlament üzvlərinin qarşılıqlı səfərlərinin mütəmadi olaraq həyata keçirilməsinin vacibliyini vurğulayırlar.

Tərəflər, iki dövlətin hökumətləri arasında müxtəlif sahələrdə əməkdaşlığın genişləndirilməsinin və gücləndirilməsinin əhəmiyyətini qeyd edərək, mövcud hökumətlərarası əməkdaşlıq mexanizmlərinin təkmilləşdirilməsinin tərəfdarı olduqlarını bildirirlər. Bununla əlaqədar olaraq, Tərəflər Azərbaycan - Latviya iqtisadi, elmi, texniki və mədəni əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın uğurlu işini vurğulayırlar.

Tərəflər, iki ölkə arasında iqtisadiyyat, ticarət, hərbi və hərbi-texniki, kommunikasiya, nəqliyyat və daşıma, mülki aviasiya, turizm, səhiyyə, elm, təhsil, mədəniyyət, gənclərlə iş, ətraf mühitin mühafizəsi və humanitar sahələrdə münasibətlərin təşviqi və hərtərəfli inkişaf etdirilməsi əzmində olduqlarını ifadə edərək, mövcud hüquq bazasının genişləndirilməsinin əhəmiyyətini qeyd edirlər. Bununla əlaqədar olaraq, Tərəflər turizm, gənclər və idman sahələrində ikitərəfli sazişlərin və sənaye mülkiyyəti hüquqları sahəsində memorandumun imzalanmasını alqışlayır.

Tərəflər, regional və qlobal təhlükəsizliyin təmin edilməsi, sabitliyin gücləndirilməsi üçün iki ölkə arasında siyasi və iqtisadi məsləhətləşmələrin ikitərəfli münasibətlərlə yanaşı çoxtərəfli münasibətlər çərçivəsində də davam etdirilməsinin zəruriliyini vurğulayırlar.

Tərəflər beynəlxalq sülh və təhlükəsizliyə yönəlmiş təhdidlərin qarşısının alınması və onlara cavab verilməsi ilə əlaqədar beynəlxalq ictimaiyyətin əlaqələndirilmiş səylərinin əhəmiyyətini vurğulayırlar. Bu kontekstdə, Tərəflər təhlükəsizlik sahəsində və qeyd edilən təhdidlərin qarşısının alınmasında əməkdaşlığın gücləndirilməsi üçün birgə tədbirlərin görülməsini dəstəkləyirlər.

Tərəflər, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn hamılıqla tanınmış prinsipləri və normalarına, xüsusi ilə BMT-nin Təhlükəsizlik Şurasının müvafiq qətnamələri

və Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının (ATƏT) Lissabon Sammitinin üç prinsipinə uyğun olaraq suverenlik, ərazi bütövlüyü və beynəlxalq tanınmış sərhədlərinin toxunulmazlığı əsasında tezliklə həll olunmasının əhəmiyyətini vurğulayırlar.

Tərəflər, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll edilməsi istiqamətində ATƏT çərçivəsində davam edən səylərə, həmçinin Minsk Qrupunun fəaliyyətinə istinad edərək, bu istiqamətdə daha təsirli və qətiyyətli addımlar atılmasının vacibliyini vurğulayırlar.

Tərəflər, BMT, ATƏT, AŞ və digər beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı əməkdaşlığın səmərəliliyinin artırılması üçün göstərilən səylərin davam etdirilməsinin əhəmiyyətini qeyd edirlər.

Tərəflər, yeni təhdid və çağırışlara daha yaxşı cavab vermək üçün BMT-nin qərar və qətnamələrinin həyata keçirilməsi yolu ilə onun səmərəliliyinin artırılmasının və gücləndirilməsinin əhəmiyyətini qeyd edirlər.

Tərəflər, Şimali Atlantika Müqaviləsi Təşkilatının (NATO) Avro-Atlantik tərəfdaşlıq Şurası, NATO-nun "Sülh Naminə Tərəfdaşlıq" Proqramı, NATO-nun "Sülh Naminə Tərəfdaşlıq" Etimad Fondu və Azərbaycana təqdim edilmiş "Tərdi Tərəfdaşlıq üzrə fəaliyyət planı"nın həyata keçirilməsi çərçivəsində sıx əməkdaşlığı və təcrübə mübadiləsini dəstəkləyirlər.

Tərəflər, Avropa inteqrasiyası sahəsində dialoq və əməkdaşlığın gücləndirilməsinin mühümlüyünü qeyd edərək, Avropa Qonşuluq Siyasəti, Avropa İttifaqı-Azərbaycan Fəaliyyət Planı və Şərq Tərəfdaşlığı çərçivəsində mövcud olan əməkdaşlıq vasitələrindən tam istifadənin Azərbaycan Respublikasının Avropa İnteqrasiyası prosesinə töhfə verəcəyinə inamlarını bildirdilər. Latviya Avropa İttifaqının Azərbaycana münasibətdə daha da səmərəli siyasət həyata keçirməsinə nail olmaq məqsədilə səylər göstərəcəkdir.

Tərəflər Xəzər regionunun enerji ehtiyatlarının beynəlxalq enerji təhlükəsizliyinin təmin edilməsində artan rolunu qeyd edirlər və bu ehtiyatların dünya bazarına çatdırılması yollarının diversifikasiyasının və müvafiq layihələrin həyata keçirilməsinin əhəmiyyətini vurğulayırlar. Bununla əlaqədar olaraq, Tərəflər 13 iyul 2009-cu il tarixində imzalanmış Nabucco qaz kəmərinin tikintisi üzrə Hökumətlərarası Sazişi alqışlayırlar.

Tərəflər, Bakı-Tbilisi-Ceyhan neft boru kəmərinin və Bakı-Tbilisi-Ərzurum qaz boru kəmərinin həyata keçirilməsinin strateji əhəmiyyətini qeyd edir, 14 noyabr 2008-ci ildə Bakı şəhərində keçirilmiş Enerji Sammitini nəticələrini yüksək qiymətləndirir və bütün bu nailiyyətlərin qlobal enerji təhlükəsizliyinə və region dövlətlərinin iqtisadi inkişafına xidmət edəcəyini bildirirlər.

Tərəflər hər iki ölkənin tranzit potensialından istifadə etməklə nəqliyyat dəhlizlərinin inkişafında daha sıx əməkdaşlıq etməkdə maraqlı olduqlarını ifadə edirlər. Bununla əlaqədar olaraq, Tərəflər Azərbaycandan Aİ bazarına neft ixracının, o cümlədən Latviya vasitəsi ilə, asanlaşdırılması üçün əməkdaşlıq etmək barədə razılaşdılar.

Tərəflər iqtisadi və ticarət münasibətlərinin inkişafına töhfə verəcək Bakı-Tbilisi-Qars dəmiryolu layihəsi də daxil olmaqla Şərq-Qərb dəhlizinin inkişaf etdirilməsinə yönəlmiş birgə səyləri dəstəkləyirlər.

Latviya Azərbaycan Respublikasında həyata keçirilən islahatların əhəmiyyətini vurğulayaraq, onun ÜTT-yə üzv olmaq niyyətini dəstəkləyir və bununla əlaqədar yardım göstərməyə və təcrübəsini bölüşməyə davam edəcəkdir.

Tərəflər, qarşılıqlı investisiyaların iqtisadi əməkdaşlığın əsas faktorlarından biri olduğunu qeyd edərək, energetika, ticarət, sənaye, informasiya və kommunikasiya texnologiyaları, maşınqayırma, kənd təsərrüfatı, nəqliyyat, rabitə və qarşılıqlı maraq kəsb edən digər sahələrdə investisiya qoyuluşunu və əməkdaşlığın inkişafını təşviq edəcəklərini vurğulayırlar.

Tərəflər iki ölkə arasında iqtisadi əməkdaşlığın daha da dərinləşdirilməsinin vacibliyini qeyd edərək, bu səfər zamanı Azərbaycan-Latviya biznes forumunun təşkilini alqışlayırlar. Bununla əlaqədar olaraq, Tərəflər biznes forumu zamanı müzakirə edilmiş Layihələri və əməkdaşlıq təkliflərinə dəstəklərini ifadə edirlər.

Tərəflər, dövlətlərarası münasibətlərin möhkəmləndirilməsində humanitar sahədə əməkdaşlığın əhəmiyyətini qeyd edir, mədəniyyət, elm, təhsil, kütləvi informasiya vasitələri və digər istiqamətlərdə əməkdaşlığın hərtərəfli inkişafı üçün əlavə tədbirlərin görülməsinin vacibliyini bildirirlər. Tərəflər müvafiq səlahiyyətli orqanlar arasında təlabə mübadiləsi sahəsində birgə layihələrin həyata keçirilməsini dəstəkləyəcəklər.

Tərəflər dinlər və mədəniyyətlər arasında dialoqun vacibliyini qeyd edərək, sülhün, azadlığın, hüquqların və ədalətin ahəngi üçün daha yaxşı şərait yaradılması məqsədilə dinlər və mədəniyyətlər arasında əlaqələrin və anlaşmanın genişləndirilməsinə ehtiyac olduğunu vurğulayırlar. Latviya, Avropa ilə Asiyanın qovşağında yerləşən və özündə Şərq və Qərb mədəniyyətlərinin xüsusiyyətlərini birləşdirən Azərbaycanın bu dialoqda oynadığı vacib rolu yüksək qiymətləndirir.

Bakı şəhərində, 10 avqust 2009-cu il tarixində, iki əsl nüsxədə Azərbaycan, latış və ingilis dillərində imzalanmışdır.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ	*LATVİYA RESPUBLİKASININ PREZİDENTİ*
İLHAM ƏLİYEV	*VALDİS ZATLERS*

"Azərbaycan Respublikası Hökuməti və Suriya Ərəb Respublikası Hökuməti arasında sərmayələrin təşviqi və qarşılıqlı qorunması haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

"Azərbaycan Respublikası Hökuməti və Suriya Ərəb Respublikası Hökuməti arasında sərmayələrin təşviqi və qarşılıqlı qorunması haqqında" 2009-cu il iyulun 8-də Bakı şəhərində imzalanmış Saziş təsdiq edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 30 sentyabr 2009-cu il

№ 870-IIIQ

Azərbaycan Respublikası Hökuməti və Suriya Ərəb Respublikası Hökuməti arasında sərmayələrin təşviqi və qarşılıqlı qorunması haqqında Saziş

Bundan sonra "Razılığa gələn Tərəflər" adlandırılacaq, Azərbaycan Respublikasının Hökuməti və Suriya Ərəb Respublikasının Hökuməti,

Hər iki Razılığa gələn Tərəfin qarşılıqlı faydası üçün iqtisadi əməkdaşlığın gücləndirilməsi və bir Razılığa gələn Tərəfin sərmayəçilərinin digər Razılığa gələn Tərəfin dövlətinin ərazisindəki sərmayələri üçün ədalətli və qərəzsiz şəraiti təmin etmək niyyətində olaraq,

Bu Saziş əsasında bir Razılığa gələn Tərəfin sərmayələrinin digər Razılığa gələn Tərəfin dövlətinin ərazisində qorunmasının və beynəlxalq sərmayə yatırımlarının təşviqinin işgüzar təşəbbüslərin yaranmasına təkan verəcəyini qəbul edərək,

Bu məqsədlərə nail olmaq üçün insanların sağlamlığı, təhlükəsizlik və ətraf mühitin mühafizəsinə, o cümlədən, davamlı inkişafın təşviqinə uyğun surətdə fəaliyyət göstərmək niyyətində olaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Anlayışlar

Bu Sazişin məqsədi üçün:

1. "Sərmayə" termini bir Razılığa gələn Tərəfin sərmayəçisinin digər Razılığa gələn Tərəfin tam və ya müstəsna şəkildə dövlətinin ərazisində sonuncu Razılığa gələn Tərəfin dövlətinin qanunvericiliyinə müvafiq olaraq birbaşa təsis və ya əldə etdiyi, xüsusilə aşağıdakılar daxil olmaqla, lakin bununla məhdudlaşmayaraq, aktivlərin hər növü deməkdir:

a. daşınar və daşınmaz əmlak, və ya ipotekalar, girov hüquqları, girovlar, lizinqlər, uzufrukt və oxşar hüquqlar;

b. şirkət, və ya paylar, səhmlər və ya şirkətdə iştirakın istənilən digər forması,

c. pul, pul tələbi və ya kontrakt əsasında maliyyə dəyərinə malik olan fəaliyyət üzrə tələblər;

d. patentlər, müəllif hüquqları, texniki proseslər, ticarət nişanları, sənaye modelləri, firma adları, "nou-hau" və "qudvil" kimi əqli mülkiyyət hüquqları; və

e. təbii ehtiyatların kəşfiyyatı, işlənməsi, çıxarılması və ya istismarı üzrə konsessiyalar da daxil olmaqla, qanunvericilik və ya kontrakt əsasında səlahiyyətli hakimiyyət orqanı tərəfindən verilən konsessiyalar.

Aktivlərin sərmayə və ya yenidən sərmayə formasında edilən hər hansı bir dəyişiklik onun sərmayə kimi xarakterinə təsir etmir.

2. "Gəlir" termini sərmayələrdən əldə edilən məbləğlər və xüsusilə, lakin bununla məhdudlaşmayaraq, mənfəət, dividendlər, faizlər, qonorarlar, kapital artımı və ya sərmayələrə aid istənilən ödəmələr deməkdir.

Gəlirlərə münasibətdə ilkin sərmayələrə aid olan rejim tətbiq ediləcəkdir.

3. "Sərmayəçi" termini digər Razılığa gələn Tərəfin dövlət ərazisində sərmayə qoyan:

a. Razılığa gələn Tərəfin dövlətinin qanunlarına uyğun olaraq onun vətəndaşı olan istənilən fiziki şəxs. Sərmayəçi sərmayəni Qəbul edən Razılığa gələn Tərəfin vətəndaşlığına malik ola bilməz; və ya

b. Razılığa gələn Tərəfin dövlətinin qanunlarına müvafiq olaraq qeydiyyatdan keçmiş və ya yaradılmış və həmin Razılığa gələn Tərəfin dövlətinin ərazisində yerləşən və real biznes fəaliyyəti həyata keçirən şirkət və ya digər müəssisə deməkdir.

4. "Ərazi" termini:

a. Suriya Ərəb Respublikasına münasibətdə - Suriyanın beynəlxalq hüquqa uyğun olaraq, üzərində suveren hüquqlara malik olduğu daxili sular, ərazi suları və onun dibi və onlar üzərindəki hava məkanı da daxil olmaqla Suriya Ərəb Respublikasının əraziləri və Suriyanın təbii ehtiyatların kəşfiyyatı, istismarı və mühafizəsi məqsədilə, suveren hüquqlarına həyata keçirmək hüququna malik olduğu digər dəniz sahələri deməkdir.

b. Azərbaycan Respublikasına münasibətdə - Xəzər dənizinin müvafiq sektoru da daxil olmaqla, üzərində Azərbaycan Respublikasının öz milli qanunvericiliyinə və beynəlxalq hüquqa uyğun olaraq suveren hüquqlarını və ya yurisdiksiyasını həyata keçirdiyi Azərbaycan Respublikasının ərazisi.

Maddə 2

Sərmayələrin təşviqi və qorunması

1. Hər bir Razılığa gələn Tərəf öz dövlətinin ərazisində digər Razılığa gələn Tərəfin sərmayəçilərinin sərmayələrini təşviq edəcək və onlar üçün əlverişli şərait yaradacaqdır və öz qanunları ilə verilən hüquqlar əsasında bu cür sərmayələri qəbul edəcəkdir.

2. Hər bir Razılığa gələn Tərəf hər zaman öz dövlətinin ərazisində digər Razılığa gələn Tərəfin sərmayəçilərinin sərmayələrinə beynəlxalq adət hüququnun xaricilərə münasibətdə müəyyən etdiyi minimal standartlara uyğun şəkildə ədalətli və qərəzsiz rejim tətbiq edəcək və onların tam və daimi müdafiəsini və təhlükəsizliyini təmin edəcəkdir.

3. Hər bir Razılığa gələn Tərəf öz dövlət ərazisində digər Razılığa gələn Tərəfin sərmayəçilərinin sərmayələrinin idarə edilməsinə, saxlanmasına, istifadəsinə, onlardan faydalanmasına, əldə edilməsinə və ya satışına səbəbsiz, əsassız və ya ayrı-seçkilik yolu ilə qarışmayacaqdır.

4. Razılığa gələn Tərəflərdən heç biri digər Razılığa gələn Tərəfin sərmayəçilərinin sərmayələrinə münasibətdə materialların, istehsal vasitələrinin alınması, əməliyyatlar, daşınma, məhsulların marketinqi ilə əlaqədar olaraq məcburi tədbirlər və ya əsassız və ayrıseçkilik yaradan digər oxşar qaydalar tətbiq etməyəcəkdir. Bu yarımbənd Razılığa gələn Tərəf və ya Razılığa gələn Tərəfin dövlət müəssisəsi tərəfindən həyata keçirilən tədarüklərə şamil edilmir.

5. Hər bir Razılığa gələn Tərəf, öz milli qanunvericiliyi çərçivəsində, sərmayəçinin seçimi ilə rəhbər işçilərin, menecerlərin, mütəxəssislərin və texniki heyətin işə qəbul edilməsi ilə bağlı icazələr daxil olmaqla, onun dövlət ərazisində sərmayələrlə əlaqədar zəruri icazələrin alınması üçün ediləcək müraciətlərə vicdanla baxacaqdır.

Maddə 3

Sərmayəçi haqqında informasiyaya çıxış və şəffaflıq

1. Qəbul edən Razılığa gələn Tərəf potensial sərmayəçidən və ya onun mənşə ölkəsindən onun korporativ idarəetmə tarixçəsi və öz mənşə ölkəsində də daxil olmaqla, sərmayəçi kimi mövcud təcrübəsi haqqında informasiya əldə etmək hüququ var. Qəbul edən Razılığa gələn Tərəf bu barədə məxfi biznes məlumatını açıqlamayacaqdır. Qəbul edən Razılığa gələn Tərəf əldə edilən məlumatı məxfi biznes məlumatının qorunması və digər daxili qanunvericiliyin tələblərinin gözlənilməsi şərtiylə sərmayənin yatırılacağı məkanda açıqlaya bilər.

2. Hər bir Razılığa gələn Tərəf imkan daxilində, öz dövlətinin ərazisində digər Razılığa gələn Tərəfin sərmayəçilərinin sərmayələrinə təsir edə biləcək qanunların, qərarların, proseduraların, inzibati qaydaların və məhkəmə qərarlarının, habelə beynəlxalq müqavilələrin onların qüvvəyə minməsindən sonra dərhal nəşr edilməsini və ya digər yolla ictimaiyyətə çatdırılmasını təmin edəcəkdir.

Maddə 4

Sərmayələrə münasibətdə rejim

1. Bir Razılığa gələn Tərəfin sərmayəçilərinin digər Razılığa gələn Tərəfin dövlət ərazisindəki sərmayələrinə və ya onlarla bağlı gəlirlərə münasibətdə, Qəbul edən Razılığa gələn Tərəfin öz sərmayəçilərinin və ya hər hansı üçüncü dövlətin sərmayəçilərinin qoyduğu sərmayələrə və gəlirlərə münasibətdə tətbiq etdiyi rejimdən az əlverişli olmayan rejim, sərmayəçi üçün hansı daha əlverişlidirsə, tətbiq ediləcəkdir.

2. Bir Razılığa gələn Tərəfin sərmayəçilərinə münasibətdə sərmayələrin idarə edilməsi, saxlanılması, istifadə edilməsi, onlardan faydalanması və satılması ilə əlaqədar; digər Razılığa gələn Tərəf öz sərmayəçilərinə və ya hər hansı üçüncü dövlətin sərmayəçilərinə münasibətdə tətbiq etdiyi rejimdən az əlverişli olmayan rejim, sərmayəçi üçün hansı daha əlverişlidirsə, tətbiq ediləcəkdir.

3. Anlaşılmazlığın yaranmaması üçün, bu Maddə yalnız bu Sazişin 2-8-ci Maddələrində göstərilən hallara şamil edilir və Sərmayəçinin bu Sazişdən irəli gələn mübahisələrlə bağlı hər hansı bir mübahisə həlli üzrə proseduralara müraciət hüququna aid edilmir.

Maddə 5

İstisnalar

1. Bu Sazişin müddəaları bir Razılığa gələn Tərəfin aşağıda qeyd edilənlər əsasında hər hansı rejim, imtiyaz və ya güzəştin digər Razılığa gələn Tərəfin sərmayəçilərinə şamil etmək öhdəliyində olması kimi şərh edilməyəcəkdir:

a. Razılığa gələn Tərəflərdən birinin üzv olduğu və ya üzv ola biləcəyi hər hansı mövcud və ya gələcəkdə yaradılacaq sərbəst ticarət zonası, gömrük ittifaqı, ümumi bazar və ya regional əmək bazarı sazişi.

b. tam və ya əsasən vergitutmaya aid olan hər hansı beynəlxalq müqavilə və ya razılaşma və ya vergitutmaya aid olan hər hansı daxili qanunvericilik, və ya

c. Razılığa gələn Tərəflərdən birinin üzv olduğu və ya üzv ola biləcəyi, sərmayələrə aid hər hansı çoxtərəfli konvensiya və ya müqavilə.

d. Hər iki Razılığa gələn Tərəfin 1 may 2008-ci il tarixinə qədər bağladığı Sazişlərin müddəaları.

2. Bu Sazişin 6, 9-15-ci Maddələri istisna olmaqla, digər müddəaları vergi məsələlərinə şamil olunmur. Bu Sazişin heç bir müddəası Razılığa gəlin Tərəfin ikitərəfli və ya çoxtərəfli vergi konvensiyaları üzrə hüquq və öhdəliklərinə təsir göstərmir.

Maddə 6

Ekspropriasiya

1. Bir Razılığa gələn Tərəfin sərmayəçilərinin digər Razılığa gələn Tərəfin dövlətinin ərazisində sərmayələri, ictimai mənafenin tələb etdiyi, ayrı-seçkiliyə yol vermədən, qanun tələblərinə müvafiq olaraq və dərhal, adekvat və effektiv kompensasiyanın ödənilməsi halları istisna olmaqla, ekspropriasiyaya, milliləşdirməyə və ya, birbaşa və ya dolayısı ekspropriasiyaya və ya milliləşdirməyə (bundan sonra "ekspropriasiya" adlanır) bərabər nəticə verən hər hansı digər tədbirlərə məruz qalmayacaqlar.

2. Bu cür kompensasiya, ekspropriasiyanın həyata keçirildiyi və ya ictimaiyyətə məlum olduğundan, hansı daha tez baş verərsə, bilavasitə əvvəlki vaxtda ekspropriasiya edilmiş sərmayənin ədalətli bazar dəyərinə bərabər olacaqdır.

3. Bu cür ədalətli bazar dəyəri sərbəst dönərli valyutada, köçürmə günü bu valyutaya tətbiq edilən bazar mübadilə məzənnəsinə əsaslanaraq ifadə ediləcəkdir. Kompensasiya həmçinin, real ekspropriasiya vaxtından real ödəniş vaxtına qədər bu valyuta üçün bazar əsasında müəyyən edilən kommersiya dərəcəsi üzrə faizi də daxil edəcəkdir.

4. Sərmayələri ekspropriasiya edilmiş sərmayəçi onun işinin və bu Maddədə ifadə olunmuş prinsiplərə müvafiq qaydada onun sərmayələrinin qiymətləndirilməsinin Qəbul edən Razılığa gələn Tərəfin məhkəmə və ya digər səlahiyyətli orqanı tərəfindən təxirə salınmadan yenidən baxılması hüququna malik olacaqdır.

Maddə 7

Zərərə görə kompensasiya

1. Bir Razılığa gələn Tərəfin sərmayəçilərinin digər Razılığa gələn Tərəfin dövlətinin ərazisindəki sərmayələri sonuncu Razılığa gələn Tərəfin dövlətinin ərazisində baş verən müharibə və ya digər silahlı münaqişə, fövqəladə vəziyyət, üsyan, qiyam və ya təbii fəlakət nəticəsində ziyan çəkirsə, sonuncu Razılığa gələn Tərəf onlara münasibətdə restitusiya, əvəzin ödənilməsi, kompensasiya və ya hər hansı başqa ödənişlərlə bağlı rejim tətbiq edəcəkdir, və bu, sonuncu Razılığa gələn Tərəfin öz sərmayəçilərinə və ya hər hansı üçüncü dövlətin sərmayəçilərinə münasibətdə tətbiq etdiyi rejimdən, sərmayəçi üçün hansı daha əlverişlidirsə, az əlverişli olmayacaqdır. Həmin ödəmələr sərbəst dönərli valyutada və təxirə salınmadan köçürülməlidir.

2. Bu Maddənin 1-ci bəndi nəzərə alınmaqla, bir Razılığa gələn Tərəfin sərmayəçisinə münasibətdə, o, bu bənddə göstərilən hər hansı bir vəziyyətdə, digər Razılığa gələn Tərəfin dövlət ərazisində aşağıdakılar nəticəsində ziyan çəkirsə:

a. sonuncunun silahlı qüvvələri və ya hakimiyyət orqanları tərəfindən onun sərmayəsinin tam və ya bir hissəsinin müsadirəsi, və ya

b. sonuncunun silahlı qüvvələri və ya hakimiyyət orqanları tərəfindən onun sərmayəsinin tam və ya bir hissəsinin, vəziyyətin zəruriliyi tələb etmədən məhv edilməsi,

mövcud şərait nəzərə alınmaqla adekvat kompensasiya həyata keçiriləcəkdir.

Maddə 8

Sərbəst köçürmə

1. Öz qanunvericiliyinə uyğun olaraq, hər bir Razılığa gələn Tərəf digər Razılığa gələn Tərəfin sərmayəçiləri üçün sərmayə ilə bağlı ödəmələrin öz dövlətinin ərazisinə və ərazisindən sərbəst köçürülməsini vicdanla təmin edəcək. Belə ödəmələrə xüsusi halda, lakin bununla məhdudlaşmayaraq:

a. sərmayənin saxlanılması, inkişaf etdirilməsi və ya artırılması üçün əsas və əlavə məbləğlər;

b. gəlirlər;

c. sərmayənin tam və ya qismən satışından və ya özgəninkiləşdirilməsindən əldə edilən vəsaitlər;

d. royaltilər və lisenziya haqları və ya digər oxşar xərclərin ödənilməsi kimi sərmayə qoyuluşu ilə bağlı fəaliyyətdən yaranan xərclərin ödənilməsi üçün tələb olunan məbləğlər;

e. 6-cı və 7-ci maddələrə uyğun olaraq ödənilməli olan kompensasiya;

f. idarəetmə xərcləri ilə əlaqədar ödəmələr;

g. mübahisənin tənzimlənməsindən irəli gələn ödəmələr;

h. borc sazişləri daxil olmaqla, kontraktlarla bağlı ödəmələr;

i. sərmayə ilə bağlı işləyən xaricdən cəlb olunmuş kadrların xalis gəlirləri və digər mükafatlar daxildir.

2. Bu Maddənin 1-ci bəndində göstərilən köçürmələr heç bir məhdudiyyət və ya gecikdirmə olmadan sərbəst dönərli valyutada və köçürmə valyutasının köçürmə günü tətbiq edilən, tətbiq olunan bazar məzənnəsi ilə həyata keçiriləcəkdir. Əgər bazar məzənnəsi mövcud deyilsə, tətbiq edilən mübadilə məzənnəsi kimi valyutaların "SDR"-ə çevrilməsi üzrə ən son mübadilə məzənnəsi istifadə ediləcəkdir.

3. Bu Maddənin 1-ci və 2-ci bəndlərinə baxmayaraq, Razılığa gələn Tərəf sərmayəçinin Qəbul edən Razılığa gələn Tərəfin

a. vergi və rüsumların ödənilməsi;

b. müflisləşmə və iflas işi və ya kreditorların hüquqlarının müdafiəsi;

c. cinayət və ya digər hüquq pozuntuları;

d. Qəbul edən Razılığa gələn Tərəfin məhkəmə və tribunallarının qərar və ya prosedurlarına uyğun olmasını təmin edən qanunvericiliyinə müvafiqliyini müəyyən etmək üçün qərəzsiz, ayn-seçkiliksiz və vicdanlı tədbirlərin həyata keçirilməsi vasitəsilə köçürməni yubada və ya qarşısını ala bilər.

Maddə 9

Subroqasiya

1. Razılığa gələn Tərəflərdən biri və ya onun təyin etdiyi agentlik digər Razılığa gələn Tərəfin ərazisindəki sərmayələrə görə verilən zəmanət və ya zərərə görə təzminatın ödənilməsi əsasında öz sərmayəçisinə ödəniş həyata keçirərsə, sonuncu Razılığa gələn Tərəf tanıyacaqdır:

həmin dövlətin qanunlarına əsasən və ya hüquqi əqdə uyğun olaraq, istənilən hüquqların və ya iddiaların sərmayəçidən birinci Razılığa gələn Tərəfə və ya onun təyin etdiyi agentliyə keçməsini;

birinci Razılığa gələn Tərəf və ya onun təyin etdiyi agentlik subroqasiya səbəbindən həmin sərmayəçilərin hüquqlarını və iddialarının həyata keçirmək hüququna malik olmasını.

Sübroqasiya edilmiş hüquqlar və iddialar sərmayəçinin ilkin hüquqlarından və iddialarından artıq olmayacaqdır.

Maddə 10

Məsləhətləşmələr

Razılığa gələn Tərəflər, onlardan hər hansı birinin müraciəti əsasında, bu Sazişlə əlaqədar aralarında yaranan hər hansı bir mübahisənin həll edilməsi, və ya bu Sazişin yerinə yetirilməsi və ya tətbiq edilməsi ilə bağlı hər hansı bir məsələnin nəzərdən keçirilməsi, və ya bu Sazişdən irəli gələ biləcək hər hansı digər məsələnin öyrənilməsi üçün təxirəsalınmaz məsləhətləşmələr keçirməyə razılaşırlar. Belə məsləhətləşmələr Razılığa gələn Tərəflər arasında diplomatik kanallar vasitəsilə razılaşdırılmış yerdə və vaxtda Razılığa gələn Tərəflərin səlahiyyətli orqanları arasında həyata keçiriləcəkdir.

Maddə 11

İmtiyazların verilməsindən imtina

Sərmayəçinin Razılığa gələn Tərəfin olmayan dövlətin və ya imtiyazların verilməsindən imtina edən tərəfin vətəndaşlığına malik olan şəxsə məxsus olduğu və ya onun tərəfindən nəzarət edildiyi halda;

və ya sərmayəçinin digər Razılığa gələn Tərəfin dövlətinin ərazisində real biznes fəaliyyəti ilə məşğul olmadığı halda, Razılığa gələn Tərəf digər Razılığa gələn Tərəfin sərmayəçisinə və ya həmin sərmayəçinin sərmayələrinə münasibətdə bu Sazişin verdiyi imtiyazlardan, o cümlədən mübahisələrin həlli üçün müraciət edilməsi və ya prosesin davam etdirilməsi hüquqları da daxil olmaqla, verdiyi imtiyazlardan imtina edə bilər.

Maddə 12

Sərmayəçi və Qəbul edən Razılığa gələn Tərəf arasında mübahisələr

1. Bir Razılığa gələn Tərəfin sərmayəçisi və digər Razılığa gələn Tərəf arasında, sonuncu Razılığa gələn Tərəfin dövlət ərazisindəki sərmayəyə münasibətdə bu Sazişin bir və ya bir neçə müddəasının pozulduğunun iddia edildiyi halla bağlı hər hansı mübahisə imkan daxilində dostcasına tənzimlənəcəkdir. Sərmayəçinin bu Maddəyə müvafiq

olaraq mübahisə ilə bağlı məhkəməyə müraciət etməsindən əvvəl, tərəflər vicdanla danışıqlar aparacaqlar. Mübahisə edən tərəflər arasında digər razılaşmanın olmadığı təqdirdə, danışıqların aparılacağı yer mübahisənin iştirakçısı olan Razılığa gələn Tərəfin paytaxtı olacaqdır. Mübahisənin iştirakçısı olan Razılığa gələn Tərəfin danışıqlarda iştirak etməkdən imtina etməsi səbəbindən sərmayəçinin aşağıda, 2-ci bənddə göstərilən mübahisənin həlli proseduruna müraciət etməsi hüququnu məhdudlaşdıra və ya qarşısını ala bilməz.

2. Əgər yuxarıda 1-ci bənddə göstərilən mübahisə dostcasına tənzimlənməyə dair müraciətin tarixindən altı ay müddətində dostcasına tənzimlənə bilmirsə, sözügedən sərmayəçi mübahisəni beynəlxalq arbitraja verə bilər. Tərəflər arasında mübahisənin həlli üçün üstünlük təşkil edəcək başqa bir mexanizm razılaşdırılmadığı təqdirdə, sərmayəçi mübahisəni aşağıdakılardan birinə vermək seçiminə malikdir:

a. Dövlətinin ərazisində sərmayə qoyulmuş Razılığa gələn Tərəfin səlahiyyətli məhkəməsinə;

b. 1965-ci il 18 mart tarixində Vaşinqtonda imzalanma üçün açıq elan edilmiş Dövlətlər və digər Dövlətlərin vətəndaşları arasında sərmayə mübahisələrinin həlli üzrə konvensiyaya uyğun olaraq təsis edilmiş Sərmayə Mübahisələrinin Həlli üzrə Beynəlxalq Mərkəzə (bundan sonra "Mərkəz" adlandırılır);

c. Bu maddənin "b" altbəndində göstərilən Konvensiyanı Razılığa gələn Tərəflərdən biri imzaladığı təqdirdə Mərkəzin Əlavə Qurumuna;

d. əgər mübahisə tərəfləri arasında digər razılaşma yoxdursa, Birləşmiş Millətlər Təşkilatının Beynəlxalq Ticarət Hüququ üzrə Komissiyasının ("UNCITRAL") Arbitraj Qaydalarına müvafiq olaraq təsis ediləcək "ad hok" arbitraj məhkəməsinə,

3. Razılığa gələn Tərəfin davranışının və ya həyata keçirdiyi tədbirlərin mübahisələrin yaranmasına səbəb olması halı ilə bağlı iddianın Razılığa gələn Tərəfin səlahiyyətli məhkəməsinə və ya mübahisənin həlli üçün qabaqcadan razılaşdırılmış digər mübahisə həlli proseduruna vermiş sərmayəçi bu Maddənin 2-ci bəndində qeyd edilən beynəlxalq arbitraj məhkəmələrinin heç birinə müraciət edə bilməz.

4. Mübahisə tərəfi olan Razılığa gələn Tərəflərdən heç biri arbitraj prosedurunun və ya arbitraj məhkəməsi qərarının yerinə yetirilməsinin hər hansı bir mərhələsində, mübahisədə qarşı tərəf olan sərmayəçinin sığorta əsasında onun itkilərini tam və ya qismən ödəyən kompensasiyanı aldığını nəzərə alaraq etirazla çıxış edə bilməz.

5. Mübahisə bu Sazişin şərtlərinin tətbiqini nəzərdə tutan, mübahisə tərəfi olan Razılığa gələn Tərəfin dövlətinin qanunvericiliyinə və beynəlxalq ümumi hüququn prinsiplərinə uyğun olaraq həll olunacaqdır.

6. Bu qərar mübahisə tərəfləri üçün son və məcburi olacaq və milli qanunvericiliyə uyğun icra ediləcəkdir.

Maddə 13

Razılığa gələn Tərəflər arasında mübahisələr

1. Bu Sazişin təfsiri və tətbiqi ilə bağlı Razılığa gələn Tərəflər arasında mübahisələr mümkün qədər danışıqlar yolu ilə həll ediləcəkdir.

2. Əgər mübahisə hər hansı bir Razılığa gələn Tərəfin belə danışıqların aparılması haqqında müraciət etdiyi tarixdən etibarən altı (6) ay ərzində bu yolla həll edib bilmərsə, o hər hansı bir Razılığa gələn Tərəfin müraciəti əsasında bu Maddəyə əsasən yaradılacaq Arbitraj Məhkəməsinə veriləcəkdir.

3. Belə Arbitraj Məhkəməsi hər bir fərdi iş üçün aşağıdakı qaydada təsis olunacaqdır. Arbitraj haqqında müraciətin alındığı tarixdən etibarən iki (2) ay ərzində hər bir Razılığa gələn Tərəf Məhkəmənin bir üzvünü təyin edəcəkdir. Sonra bu iki üzv hər iki Razılığa gələn Tərəfin razılığı əsasında Məhkəmənin Sədri kimi təyin olunacaq üçüncü dövlətin vətəndaşını seçəcəklər. Sədr digər iki üzvün təyin olunduğu vaxtdan sonra dörd (4) ay ərzində təyin olunacaqdır.

4. Əgər bu Maddənin 3-cü bəndində göstərilən müddətlər ərzində zəruri təyinatlar həyata keçirilməzsə, digər razılaşmanın olmadığı təqdirdə, Razılığa gələn Tərəflərdən hər hansı biri Beynəlxalq Ədalət Məhkəməsinin Prezidentinin hər hansı zəruri təyinatların həyata keçirilməsi üçün dəvət edə bilər. Əgər Sədr Razılığa gələn Tərəflərdən hər hansı birinin vətəndaşıdırsa və ya hər hansı səbəbdən göstərilən funksiyanı yerinə yetirə bilmirsə, Razılığa gələn Tərəflərdən heç birinin vətəndaşı olmayan və bu funksiyanı yerinə yetirə biləcək, Beynəlxalq Ədalət Məhkəməsinin vəzifəcə sonra gələn üzvü zəruri təyinatların həyata keçirilməsi üçün dəvət ediləcəkdir.

5. Arbitraj Məhkəməsi öz prosedur qaydalarını müəyyən edəcəkdir.

Arbitraj Məhkəməsi öz qərarını bu Sazişin əsasında və Razılığa gələn Tərəflərin arasında tətbiq edilə bilən beynəlxalq hüquq normalarına uyğun qəbul edəcəkdir.

Arbitraj Məhkəməsi öz qərarını səs çoxluğu ilə qəbul edəcəkdir. Məhkəmənin qərarları hər iki Razılığa gələn Tərəf üçün son və məcburi olacaqdır.

Hər bir Razılığa gələn Tərəf özünün təyin etdiyi üzvün və özünün məhkəmə prosesində təmsil edilməsi xərclərini ödəyəcəkdir. Hər iki Razılığa gələn Tərəf Sədrin xərcini, həmçinin digər ümumi xərclərin ödənilməsini bərabər hissədə öz üzərinə götürəcəkdir.

Maddə 14

Digər qaydaların tətbiqi

Əgər, bu Sazişə əlavə olaraq, hər hansı Razılığa gələn Tərəfin dövlətinin qanunvericiliyinin müddəaları və ya Razılığa gələn Tərəflər arasında beynəlxalq hüquq əsasında mövcud olan və ya gələcəkdə qəbul ediləcək öhdəliklər digər Razılığa gələn Tərəfin sərmayəçilərinin qoyduğu sərmayələr üçün bu Sazişlə təmin edilən rejimdən daha əlverişli rejimin tətbiqi haqqında ümumi və ya xüsusi qayda müəyyən edərsə, həmin müddəalar, onların sərmayəçi üçün daha əlverişli olduğu dərəcədə, bu Sazişə nisbətən üstünlük təşkil edəcəkdir.

Maddə 15

Sazişin tətbiqi

Bu Saziş bir Razılığa gələn Tərəfin sərmayəçisinin digər Razılığa gələn Tərəfin dövlətinin ərazisində bu Sazişin qüvvəyə minməsindən sonra qoyduğu sərmayələrə şamil ediləcəkdir.

Maddə 16

Əlavə və dəyişikliklər

Razılığa gələn Tərəflərin qarşılıqlı razılığı ilə bu Sazişə əlavələr və dəyişikliklər edilə bilər. Belə əlavələr və dəyişikliklər bu Sazişin ayrılmaz hissəsi olaraq ayrı-ayrı protokollar formasında rəsmiləşdiriləcək və bu Sazişin 17-ci maddəsində nəzərdə tutulan qaydada qüvvəyə minəcəkdir.

Maddə 17

Qüvvəyə minmə, qüvvədə qalma və xitam

1. Bu Saziş onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Razılığa gələn Tərəflərin sonuncu yazılı bildirişinin diplomatik kanallar vasitəsilə alındığı tarixdən qüvvəyə minəcək və yeddi (7) il müddətində qüvvədə qalacaq.

2. Bu Saziş bir Razılığa gələn Tərəf digər Razılığa gələn Tərəfə ona xitam vermək niyyəti barədə yazılı şəkildə bildiriş göndərməyənə növbəti eyni müddətlərə uzadılacaqdır. Bu Saziş, ikinci Razılığa gələn Tərəf xitam vermək barədə bildirişi aldığından bir il sonra qüvvədən düşmüş olacaqdır.

3. Bu Sazişə xitam verilməsi tarixindən əvvəl qoyulmuş sərmayələrə münasibətdə onun 1-16-cı maddələrinin şərtləri bu Sazişə xitam verilməsi barədə bildirişin verilmə tarixindən növbəti yeddi (7) il müddətində qüvvədə qalacaqdır.

BUNUN TƏSDİQİ OLARAQ, bunun üçün lazımi surətdə səlahiyyətlər almış, aşağıda imza etmiş təmsilçilər, hazırkı Sazişi imzaladılar.

Bu Saziş Bakı şəhərində 08 iyul 2009-cu il tarixində, hər biri Azərbaycan, ərəb və ingilis dillərində olmaqla iki əsl nüsxədə imzalanmışdır, bütün mətnlər bərabər autentikdir. Bu Sazişin təfsiri və tətbiqi zamanı fikir ayrılığı yarandığı təqdirdə, ingilis dilində olan mətndən istifadə ediləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	SURİYA ƏRƏB RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN
YAQUB EYYUBOV	*ABDULLAH OL-DƏRDƏRİ*
Baş nazirinin birinci müavini	*Baş nazirinin iqtisadi məsələlər üzrə müavini*

"Azərbaycan Respublikası Hökuməti və Suriya Ərəb Respublikası Hökuməti arasında gömrük işi sahəsində qarşılıqlı yardım və əməkdaşlıq haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

"Azərbaycan Respublikası Hökuməti və Suriya Ərəb Respublikası Hökuməti arasında gömrük işi sahəsində qarşılıqlı yardım və əməkdaşlıq haqqında" 2009-cu il iyulun 8-də Bakı şəhərində imzalanmış Saziş təsdiq edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 30 sentyabr 2009-cu il

№ 871-IIIQ

Azərbaycan Respublikası Hökuməti və Suriya Ərəb Respublikası Hökuməti arasında gömrük işi sahəsində qarşılıqlı yardım və əməkdaşlıq haqqında Saziş

Bundan sonra "Razılığa gələn Tərəflər" adlandırılacaq Azərbaycan Respublikası Hökuməti və Suriya Ərəb Respublikası Hökuməti;

Gömrük qanunvericiliyinin pozulmasının ölkələrin iqtisadi, kommersiya, maliyyə, ictimai və mədəni maraqlarına ziyan vurduğunu nəzərə alaraq;

Malların idxalı və ya ixracı zamanı gömrük rüsumları, vergilər və hər hansı digər ödənişlərin dəqiq qiymətləndirilməsinin və toplanmasının, habelə qadağan, məhdudiyyət və nəzarət müddəalarının düzgün tətbiqini təmin edilməsinin əhəmiyyətini dərk edərək;

Gömrük qanunvericiliyinin həyata keçirilməsi ilə əlaqədar beynəlxalq əməkdaşlığa olan tələbatı dərk edərək;

Narkotik vasitələr, psixotrop maddələr və ya onların prekursorlarının qanunsuz dövriyyəsinin miqyasından və tendensiyasından dərin narahatlıq keçirərək, bunun insanların və cəmiyyətin sağlamlığına ziyan vurması aktını nəzərə alaraq;

Gömrük qanunvericiliyinə qarşı hüquqpozmaların, narkotik vasitələr, psixotrop maddələr və onların prekursorlarının qanunsuz dövriyyəsinin qarşısını almaq cəhdlərinin onların Gömrük idarələri arasında əməkdaşlıq yolu ilə daha səmərəli olacağına inanaraq;

Həmçinin, ikitərəfli qarşılıqlı yardımı təşviq edən müvafiq beynəlxalq konvensiyaları, habelə Gömrük Əməkdaşlıq Şurasının 5 dekabr 1953-cü il tarixli Qarşılıqlı inzibati Yardım haqqında Tövsiyəsini nəzərə alaraq;

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

TƏRİFLƏR

Bu Sazişin məqsədləri üçün,

a) "Gömrük orqanları" Azərbaycan Respublikasında - Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi və Suriya Ərəb Respublikasında - Suriya Ərəb Respublikasının Gömrük İdarəsi;

b) "Gömrük qanunvericiliyi" - malların idxalı, ixracı, tranzitinə və yaxud gömrük orqanları tərəfindən tutulan gömrük rüsumları, vergilər və ya digər hər hansı ödənişlərə, yaxud gömrük orqanları tərəfindən tətbiq edilən qadağan, məhdudiyyət və ya nəzarət tədbirlərinin həyata keçirilməsi üçün hər hansı digər gömrük prosedurlarına dair hər iki Razılığa gələn Tərəfin normativ hüquqi aktları ilə müəyyən edilmiş müddəalar;

c) "Hüquqpozma" gömrük qanunvericiliyinin hər hansı şəkildə pozulması və həmçinin bu qanunvericiliyin pozulmasına cəhd;

ç) "Narkotik vasitələr" - müvafiq düzəlişlər edilmiş 30 mart 1961-ci il tarixli Narkotik vasitələr haqqında Vahid Konvensiyanın I və II siyahılarına daxil edilmiş hər hansı təbii və ya sintetik maddələr;

d) "Psixotrop maddələr" - Birləşmiş Millətlər Təşkilatının 21 fevral 1971-ci il tarixli Psixotrop maddələr haqqında Konvensiyasının I, II, III və IV siyahılarına daxil edilmiş hər hansı təbii və ya sintetik maddələr;

e) "Prekursorlar"- Birləşmiş Millətlər Təşkilatının 20 dekabr 1988-ci il tarixli Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı Konvensiyasının I və II siyahılarına daxil edilmiş narkotik vasitələrin və psixotrop maddələrin istehsalı zamanı nəzarət altında istifadə olunan kimyəvi maddələr;

ə) "Sorğu göndərən gömrük orqanı" gömrük məsələlərində yardım üçün sorğu göndərən Razılığa gələn Tərəfin səlahiyyətli gömrük orqanı;

f) "Sorğu alan gömrük orqanı" gömrük məsələlərində yardım üçün sorğu alan Razılığa gələn tərəfin səlahiyyətli gömrük orqanı;

g) "Nəzarətli göndəriş" - gömrük hüquqpozmasının törədilməsində iştirak edən şəxslərin müəyyən edilməsi məqsədi ilə narkotik vasitələr, psixotrop maddələr və onların prekursorlarından ibarət qanunsuz və ya şübhəli malların bir və ya bir neçə dövlətin ərazisindən onların səlahiyyətli orqanlarının xəbərdarlığı və nəzarəti altında aparılması, həmin ərazilərə gətirilməsi yaxud o ərazilərdən keçməsinə icazə verilməsi üsulu.

Maddə 2

SAZİŞİN TƏTBİQ DAİRƏSİ

1. Razılığa gələn Tərəflər bu Sazişdə müəyyən edilən müddəalara uyğun olaraq bir-birinə qarşılıqlı yardım göstərəcəklər:

a) gömrük qanunvericiliyinin müvafiq qaydada tətbiq edildiyinə əmin olmaq;

b) gömrük hüquqpozmalarının qarşısını almaq, araşdırmaq və onlara qarşı mübarizə aparmaq;

c) gömrük qanunvericiliyinin tətbiqi ilə bağlı sənədləri mübadilə etmək;

d) narkotik vasitələr, psixotrop maddələr və ya onların prekursorlarının qanunsuz dövriyyəsinin qarşısını almaq və araşdırmaq;

2. Hər iki Tərəf arasında yardım onların səlahiyyətləri və imkanları daxilində milli qanunvericiliklərinə uyğun olaraq göstəriləcəkdir.

Maddə 3

ƏLAQƏ VASİTƏLƏRİ

1. Qarşılıqlı yardım Razılığa gələn Tərəflərin müvafiq gömrük idarələrinin Rəhbərləri tərəfindən təyin edilən əməkdaşlar arasında birbaşa əlaqə vasitəsi ilə həyata keçirilir.

2. Sorğunun göndərildiyi Razılığa gələn Tərəfin gömrük idarəsi sorğuya cavab vermək üçün səlahiyyətə malik olmadığı təqdirdə, o, bu haqda sorğu göndərən gömrük idarəsinə məlumat verəcək və sorğunu səlahiyyətli orqana ötürəcəkdir.

3. Bu Sazişə əsasən aparılan yazışma ingilis dilində həyata keçiriləcəkdir.

Maddə 4

YARDIM ÜÇÜN SORĞULARIN FORMASI VƏ MAHİYYƏTİ

1. Bu Sazişə uyğun olaraq sorğular yazılı şəkildə verilməlidir. Belə sorğuların icra edilməsi üçün zəruri olan sənədlər sorğuya əlavə edilməlidir.

Təxirəsalınmaz hallar zamanı tələb olunarsa şifahi sorğular da qəbul oluna bilər, lakin dərhal yazılı şəkildə təsdiq edilməlidir.

2. Yardım üçün sorğulara aşağıdakı məlumatlar daxildir:

a) sorğu göndərən gömrük orqanının adı;

b) sorğu alan gömrük orqanının adı;

c) sorğunun məqsədi və səbəbi;

d) əgər məlumdursa, barəsində sorğu edilən fiziki və ya hüquqi şəxslərin adları və ünvanları;

e) aydınlaşdırılacaq işin və vəziyyətin təsviri ilə sorğunun məzmunu və həmçinin törədilmiş gömrük hüquqpozması ilə bağlı faktın təsviri, sorğu göndərən gömrük idarəsinin dövlətinin milli qanunvericiliyinə uyğun olaraq onun hüquqi xarakteristikası.

3. Əgər sorğu bu maddənin 2-ci bəndində göstərilən rəsmi tələblərə cavab vermirsə, onun düzəlişi və ya tamamlanması tələb edilə bilər.

Maddə 5

SORĞU ÜZRƏ YARDIM

1. Razılığa gələn Tərəflər gömrük orqanları öz təşəbbüsləri ilə və ya sorğu əsasında, bir-birinə bir Razılığa gələn Tərəfin dövlətinin ərazisindən ixrac edilmiş malların digər Tərəfin dövlətinin ərazisinə qanuni şəkildə idxal edilib-edilməməsi barədə məlumat verəcəkdir. Sorğu əsasında, bu məlumata malların rəsmiləşdirilməsi zamanı tətbiq edilən gömrük prosedurları daxil edilməməlidir.

2. Razılığa gələn Tərəflər gömrük orqanları öz təşəbbüsləri ilə və ya sorğu əsasında, bir-birinə aşağıdakılarla bağlı məlumat verəcəkdir:

a) digər Razılığa gələn Tərəfin dövlətinin ərazisində qüvvədə olan gömrük qanunvericiliyini pozması və ya pozmuş olması məlum olan və ya şübhə doğuran şəxslər barədə,

b) gömrük hüquqpozmalarının obyekti olması məlum olan və ya şübhə doğuran mallar barədə,

c) digər Razılığa gələn Tərəfin dövlətinin ərazisində qüvvədə olan gömrük qanunvericiliyinin pozulmasında istifadə olunması məlum olan və ya şübhə doğuran nəqliyyat vasitələri və konteynerlər barədə.

d) gömrük qanunvericiliyinin pozulmasında istifadə olunan yeni üsullar və metodlar barədə.

e) digər Razılığa gələn Tərəfin dövlətinin ərazisində malların qanunsuz saxlanılması üçün istifadə olunan yerlər barədə.

3. Razılığa gələn Tərəfin gömrük orqanları öz təşəbbüsləri ilə və ya sorğu əsasında, sorğu göndərən gömrük idarəsinin dövlətinin ərazisində gömrük hüquqpozması ilə nəticələnə bilən fəaliyyətlə bağlı mövcud məlumatı təmin edəcəkdir.

4. Razılığa gələn Tərəfin gömrük orqanları öz təşəbbüsləri ilə və ya sorğu əsasında, malların daşınması və yüklənməsi ilə bağlı inzibati, yük, kommersiya sənədləri və ya bu malların dəyəri və təyinatına aid hər hansı zəruri məlumatları təmin edəcəklər.

5. Bir Razılığa gələn Tərəfin sorğusu əsasında, digər Razılığa gələn tərəfin dövlətinin ərazisində qüvvədə olan qanunvericiliyə uyğun olaraq sorğu göndərən gömrük idarəsinin bu Sazişin fəaliyyət dairəsinə aid hər hansı subyektlə əlaqədar dövlətinin ərazisində yaşayan şəxslər barədə həyata keçirdiyi tədbirləri və ya qərarları bildirəcəkdir.

Maddə 6

SORĞULARIN İCRASI

1. Sorğunun göndərildiyi gömrük idarələri sorğuya cavab vermək üçün lazımi səy göstərəcəklər. Təmin edilən məlumatlar elektron rabitə vasitələri ilə də ötürülə bilər.

2. Bu maddəyə uyğun olaraq verilən yardım üçün sorğular sorğu alan gömrük idarəsinin dövlətinin qanunvericiliyinə uyğun olaraq icra edilməlidir. Sorğunun icrası mümkün olmadığı təqdirdə, sorğu alan gömrük idarəsi sorğu göndərən gömrük idarəsini bununla əlaqədar məlumatlandırmalıdır.

3. Bir Razılığa gələn Tərəfin gömrük idarəsi, öz səlahiyyətləri çərçivəsində, digər Razılığa gələn Tərəfin gömrük idarəsinin göndərdiyi sorğu əsasında bütün zəruri araşdırmaları, həmçinin gömrük hüquqpozmasının törədilməsində şübhəli bilinən şəxslərin yoxlanmasını həyata keçirəcəkdir.

4. Bir Razılığa gələn Tərəfin gömrük idarəsi digər Razılığa gələn Tərəfin gömrük idarəsinin göndərdiyi sorğu əsasında, bu Sazişin fəaliyyət dairəsinə aid və sorğu alan gömrük idarəsinin səlahiyyəti olduğu hallarla bağlı faktları müəyyən etmək məqsədilə yoxlama, nəzarət və araşdırma həyata keçirəcəkdir.

5. Razılığa gələn Tərəfin müəyyən prosedura riayət etmək sorğusu, mümkün dərəcədə, sorğunun göndərildiyi Razılığa gələn Tərəfin dövlətinin qanunvericiliyinə uyğun olaraq, bu maddənin 2-ci bəndi əsasında həyata keçiriləcəkdir.

6. Sorğu göndərən gömrük idarəsi, öz ünün həyata keçirə bilməyəcəyi yardım üçün sorğu göndərdiyi təqdirdə, sorğunun icrası barədə qərarın verilməsi sorğu alan gömrük idarəsinin ixtiyarında olacaqdır.

Maddə 7

SORĞULAR

1. Bir Razılığa gələn Tərəfin gömrük idarəsi sorğu göndərdikdə, digər Razılığa gələn Tərəfin gömrük idarəsi sorğu göndərən Tərəfin gömrük qanunvericiliyinə zidd olan, yaxud olması aşkara çıxan əməliyyatlar barədə rəsmi araşdırmalara başlayacaqdır.

2. Bu sorğular sorğu alan gömrük idarəsinin dövlətində qüvvədə olan qanunvericiliyə uyğun olaraq həyata keçiriləcəkdir. Sorğu alan gömrük idarəsi sorğunun icrasını öz fəaliyyəti kimi yerinə yetirəcəkdir.

3. Sorğu alan gömrük idarəsi sorğu göndərən gömrük idarəsinin əməkdaşlarına bələ sorğuların icrasında iştirak etməyə icazə verə bilər. Bu əməkdaşlar sorğu göndərən gömrük idarəsi tərəfindən verilən yazılı icazəyə malik olmalıdır.

Maddə 8

EKSPERTLƏR VƏ ŞAHİDLƏR

1. Bir Razılığa gələn Tərəfin məhkəmə və ya inzibati orqanları qarşılarına çıxarılan gömrük hüquqpozmaları ilə bağlı sorğu göndərərsə, digər Tərəfin gömrük idarəsi öz əməkdaşlarına məhkəmə və ya inzibati orqanlar qarşısında ekspert və ya şahid qismində çıxış etməyə səlahiyyət verə bilər.

2. Bu əməkdaşlar rəsmi vəzifələrinin icrası zamanı müəyyən etdikləri faktlarla bağlı ifadə verəcəklər.

3. İştirak üçün sorğuda əməkdaşların hansı işdə və hansı qismində iştirak etməli olduğu dəqiq göstərilməlidir.

4. Gömrük əməkdaşlarının ekspert və ya şahid qismində iştirakı üçün sorğu Razılığa gələn Tərəflərin dövlətlərinin qanunvericiliyinə uyğun və hər iki Razılığa gələn Tərəfin dövlətinin qoşulduqları beynəlxalq razılaşmalara və konvensiyalara müvafiq şəkildə veriləcəkdir.

Maddə 9

MƏLUMATDAN İSTİFADƏ VƏ KONFİDENSİALLIQ

1. Bu Sazişə əsasən alınmış məlumat, sənəd və digər məlumat vasitələrindən yalnız bu Sazişin məqsədləri üçün istifadə oluna bilər. Belə məlumat hər hansı başqa məqsəd üçün bu məlumatı təqdim edən gömrük idarəsinin yazılı icazəsi olmadan verilə və ya istifadə edilə bilməz.

2. Bu Sazişə əsasən Razılığa gələn Tərəflərdən birinin gömrük idarəsinin hər hansı formada aldığı sorğulara, məlumatlara və ekspert arayışlarına Razılığa gələn Tərəfin dövlətinin milli qanunvericiliyinə uyğun olaraq sorğu alan gömrük idarəsi tərəfindən eyni növ sənədlərə və məlumata şamil edilən müdafiə təmin edilməlidir. Sorğu göndərən Tərəf təmin edən Tərəfin sorğusu əsasında bu Sazişə əsasən digər Tərəfə verilmiş məlumat, sənədlər və digər informasiyanı məxfi kimi nəzərə almalıdır.

3. Gömrük idarələri bu Sazişin məqsədlərinə uyğun olaraq və fəaliyyət dairəsi çərçivəsində, həmçinin hər iki Tərəfin dövlətinin qoşulduqları beynəlxalq razılaşmalara və konvensiyalara müvafiq şəkildə bu Sazişə əsasən alınmış məlumat və sənədlərdən məhkəmə və ya inzibati orqanlar qarşısına çıxarılmış işlərdə dəlil kimi istifadə edə bilərlər.

4. Belə məlumatdan və sənədlərdən məhkəmələrdə dəlil kimi istifadə və ona veriləcək əhəmiyyət müvafiq Tərəfin dövlətinin milli qanunvericiliyinə uyğun olaraq müəyyən ediləcəkdir.

Maddə 10

BİLDİRİŞ

Sorğu əsasında, Sorğu alan gömrük idarəsinin dövlətinin ərazisində qüvvədə olan qanunvericiliyə uyğun olaraq və dövlətinin ərazisində yaşayan və ya qeydiyyatda olan əlaqədar fiziki və ya hüquqi şəxslərə bu Sazişin fəaliyyət dairəsinə aid sorğu göndərən gömrük idarəsindən irəli gələn bütün sənədlər və qərarlar haqda bildiriş verməlidir.

Maddə 11

YARDIM GÖSTƏRMƏK ÖHDƏLİYİNDƏN İSTİSNALAR

1. Əgər sorğu alan Razılığa gələn Tərəfin gömrük idarəsi sorğunun həyata keçirilməsinin dövlətinin suverenliyinə, ictimai asayişinə, təhlükəsizliyinə və ya digər mühüm maraqlarına zərər gətirəcəyini, yaxud qanunla qorunan dövlət və ya digər sirrini pozacağını hesab edərsə, o, bu Sazişə əsasən sorğu edilən yardımı tam və ya qismən təmin etməkdən imtina edə, yaxud müəyyən şərtlər və tələblər əsasında təmin edə bilər.

2. Yardım üçün sorğu yerinə yetirilə bilmirsə, imtina barədə qərar və səbəblər gecikdirilmədən sorğu göndərən gömrük idarəsinə yazılı şəkildə veriləcəkdir.

Maddə 12

MƏSRƏFLƏR

Razılığa gələn Tərəflərin gömrük idarələri ekspertlərə, şahidlərə, şifahi və yazılı tərcüməçilərə çəkilən xərclər istisna olmaqla, bu Sazişin həyata keçirilməsində çəkilmiş xərclərin əvəzinin ödənilməsi üçün bütün iddialardan qarşılıqlı şəkildə imtina etməlidir.

Maddə 13

NƏZARƏTLİ GÖNDƏRİŞ

1. Milli qanunvericiliyə müvafiq olaraq, gömrük orqanları, qarşılıqlı razılıq ilə və öz səlahiyyətləri çərçivəsində narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının, nəsli kəsilməkdə olan vəhşi flora və fauna növlərinin və ya digər malların qanunsuz dövriyyəsi ilə məşğul olan şəxslərin müəyyən edilməsi və onlara qarşı hüquqi tədbirlərin görülməsi məqsədilə nəzarətli göndərişi tətbiq edə bilərlər.

2. Nəzarətli göndəriş prosedurunun tətbiqinə dair qərarlar vaxtaşırı və zərurət yarandıqda, xüsusi halla əlaqədar olaraq əldə edilə bilən hər hansı bir razılıq və ya razılaşmalara uyğun qəbul ediləcəkdir. Zərurət yarandıqda və Razılığa gələn Tərəflərin milli qanunvericiliyinə uyğun gəldikdə hər iki Razılığa gələn Tərəf arasında əldə edilmiş maliyyə tədbirləri və anlaşmaları nəzərə alına bilər.

3. Nəzarətli göndərişin razılaşdırılmış qanunsuz partiyaları, səlahiyyətli orqanların qarşılıqlı razılığı ilə dayandırıla və narkotik vasitələr, psixotrop maddələr və onların prekursorları və ya digər malların toxunulmaz və ya şərtlər buna imkan verirsə - yerindən götürülmüş, yaxud tam və ya qismən yeri dəyişdirilmiş halda davam edilməsinə icazə verilə bilər.

Maddə 14

NARKOTİK VASİTƏLƏR, PSİXOTROP MADDƏLƏR VƏ ONLARIN PREKURSORLARININ QANUNSUZ DÖVRİYYƏSİNƏ QARŞI TƏDBİRLƏR

1. Hər iki gömrük idarəsi sorğu əsasında və ya öz təşəbbüsləri ilə aşağıdakılarla bağlı bütün müvafiq məlumatı bir-birinə təmin etməklə narkotik vasitələr, psixotrop maddələr və onların prekursorlarının qanunsuz dövriyyəsinin qarşısının alınmasında və araşdırılmasında bir-birinə yardım edəcəklər:

a) narkotik vasitələr, psixotrop maddələr və onların prekursorlarının qanunsuz dövriyyəsinə qarşı mübarizə üsulları;

b) narkotik vasitələr, psixotrop maddələr və onların prekursorları üzərində gömrük nəzarətinin prinsiplərinə aid məlumat, onların aşkar edilməsinin yeni metodları və vasitələri;

c) narkotiklərin müsadirəsi üçün texniki avadanlığın və tətbiq keçmiş xidməti itlərin istifadəsinə dair təcrübə;

e) narkotik vasitələr, psixotrop maddələr və onların prekursorlarının qanunsuz dövriyyəsinə qarşı mübarizəyə aid elmi və peşəkar nəşrlər və digər tədris vasaitləri;

f) narkotik vasitələrin və psixotrop maddələrin yeni növləri, istehsal yeri, qaçaqmalçılıq zamanı istifadə edilən marşrutlar və gizlətmə üsulları barədə məlumat;

f) narkotik vasitələr, psixotrop maddələr və onların prekursorlarının müəyyən edilməsi və laboratoriya analizi sahəsində məlumat;

2. Razılığa gələn Tərəflərdən birinin gömrük idarəsi öz təşəbbüsü ilə və ya sorğu əsasında, digər Razılığa gələn Tərəfin gömrük idarəsini aşağıdakılara aid bütün məlumatlarla təmin edəcəkdir:

a) narkotik vasitələr, psixotrop maddələr və onların prekursorlarının qanunsuz idxalında və ya dövriyyəsində iştirak etməsi bilinən və ya şübhə doğuran fiziki və hüquqi şəxslər;

b) narkotik vasitələr, psixotrop maddələr və onların prekursorlarının qanunsuz dövriyyəsində istifadə edilən yeni üsullar və vasitələr;

c) narkotik vasitələr, psixotrop maddələr və onların prekursorlarının qanunsuz dövriyyəsinin obyekti olması bilinən və ya şübhə doğuran mallar və poçt bağlamaları;

d) narkotik vasitələr, psixotrop maddələr və onların prekursorlarının qanunsuz dövriyyəsində istifadə olunması bilinən və ya şübhə doğuran hər hansı nəqliyyat vasitəsi.

Maddə 15

SAZİŞİN HƏYATA KEÇİRİLMƏSİ

1. Bu Sazişin həyata keçirilməsi Razılığa gələn Tərəflərin gömrük orqanlarına həvalə edilməlidir. Həmin orqanlar bu məqsəd üçün müfəssəl hazırlıq tədbirləri barədə qarşılıqlı razılığa gəlməlidirlər.

2. Gömrük orqanları qarşılıqlı əlaqələr üçün məsul şəxslər təyin etməli və onların adları, vəzifələri, telefon və faks nömrələri daxil olmaqla siyahını mübadilə etməlidirlər.

3. Gömrük orqanları səviyyəsində həlli tapılmayan mübahisə və konfliktlər diplomatik kanallar vasitəsilə həll olunmalıdır.

Maddə 16

ƏRAZİ ÜZRƏ TƏTBİQ EDİLMƏ

Bu Saziş Azərbaycan Respublikasının dövlətinin ərazisində və Suriya Ərəb Respublikasının dövlətinin ərazisində tətbiq olunur.

Maddə 17

QÜVVƏYƏ MİNMƏ VƏ LƏĞV EDİLMƏ

1. Bu Saziş Razılığa gələn tərəflərin milli qanunvericiliyinə əsasən təsdiqlənməlidir və Razılığa gələn Tərəflərin onun qüvvəyə minməsi üçün zəruri olan bütün dövlətdaxili prosedurları yerinə yetirdikləri barədə yazılı bildirişi diplomatik kanallar vasitəsilə bir-birlərinə göndərdikdən altmış (60) gün sonra qüvvəyə minir.

2. Bu Saziş qeyri-müəyyən müddətə bağlanılır. Hər bir Razılığa gələn Tərəf bu Sazişin qüvvəsini ləğv etmək niyyəti barədə digər Razılığa gələn Tərəfə diplomatik kanallarla göndərdiyi yazılı bildirişi vasitəsilə onun qüvvəsini ləğv edə bilər. Bu Saziş belə bildirişin alındığı tarixdən üç ay sonra qüvvədən düşür.

3. Razılığa gələn Tərəflər, Sazişin ləğv edilməsi müddətində, bu Sazişin müddəalarına uyğun olaraq, aparılan işləri hər bir halda bitirməlidir.

Bunları təsdiq edərək, müvafiq səlahiyyətə malik aşağıda imza edənlər bu Sazişi imzalamışlar.

Bu Saziş Bakı şəhərində 8 iyul 2009-cu il tarixində Azərbaycan, ərəb və ingilis dillərində iki əsl nüsxədə imzalanmışdır və bütün mətnlər bərabər autentikdir. Bu Sazişin təfsiri zamanı fikir ayrılığı yarandığı təqdirdə, ingilis dilindəki mətndən istifadə ediləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	SURİYA ƏRƏB RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN
AYDIN ƏLİYEV	*VALİD ƏL-MUALLEM*
Dövlət gömrük komitəsinin sədri	*Xarici işlər naziri*

"Azərbaycan Respublikası Hökuməti və Suriya Ərəb Respublikası Hökuməti arasında diplomatik, xidməti və ya xüsusi pasportlara malik şəxslərin viza tələbindən azad olunması haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

"Azərbaycan Respublikası Hökuməti və Suriya Ərəb Respublikası Hökuməti arasında diplomatik, xidməti və ya xüsusi pasportlara malik şəxslərin viza tələbindən azad olun-

ması haqqında" 2009-cu il iyulun 8-də Bakı şəhərində imzalanmış Saziş təsdiq edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 30 sentyabr 2009-cu il

№ 872-IIIQ

Azərbaycan Respublikası Hökuməti və Suriya Ərəb Respublikası Hökuməti arasında diplomatik, xidməti və ya xüsusi pasportlara malik şəxslərin viza tələbindən azad olunması haqqında Saziş

Bundan sonra ayrılıqda "Razılığa gələn Tərəf", birlikdə isə "Razılığa gələn Tərəflər" adlandırılacaq Suriya Ərəb Respublikasının Hökuməti və Azərbaycan Respublikasının Hökuməti,

Dostluq münasibətlərinin möhkəmləndirməkdə hər iki ölkənin marağını nəzərə alaraq və

Diplomatik, xidməti və ya xüsusi pasportlara malik olan Azərbaycan Respublikası vətəndaşlarının və Suriya Ərəb Respublikası vətəndaşlarının digər Razılığa gələn Tərəfin ölkəsinə daxil olmasını asanlaşdırmaq məqsədilə,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Bu Sazişdə istifadə olunan terminlər aşağıdakı mənaya malikdir:

"Diplomatik pasportlar": Azərbaycan Respublikasının diplomatik pasportları və Suriya Ərəb Respublikasının diplomatik pasportları;

"Xidməti pasportlar": Azərbaycan Respublikasının xidməti pasportları və Suriya Ərəb Respublikasının xidməti pasportları;

"Xüsusi pasportlar": Suriya Ərəb Respublikasının xüsusi pasportları.

Maddə 2

1. Bir Razılığa gələn Tərəfin dövlətinin diplomatik, xidməti və ya xüsusi pasportlara malik vətəndaşı beynəlxalq giriş/çıxış məntəqələri vasitəsilə digər Razılığa gələn Tərəfin ərazisinə vizasız daxil ola, çıxa və tranzit keçə biləcəkdir.

2. Bir Razılığa gələn Tərəfin dövlətinin diplomatik, xidməti və ya xüsusi pasportlara malik vətəndaşı digər Razılığa gələn Tərəfin ərazisində vizasız 30 gün müddətində qala biləcəkdir.

Maddə 3

1. Bir Razılığa gələn Tərəfin dövlətinin diplomatik, xidməti və ya xüsusi pasportlara malik olan və digər Razılığa gələn Tərəfin ərazisində yerləşən diplomatik və ya konsulluq nümayəndəliyinə təyin olunmuş və ya həmin Razılığa gələn Tərəfin Xarici İşlər Nazirliyində akkreditə olunmuş vətəndaşı həmin Razılığa gələn Tərəfin ərazisində akkreditə olunduğu bütün müddət ərzində vizasız qala bilər və aidiyyəti diplomatik və

ya konsulluq nümayəndəliyinin diplomatik, xidməti və ya xüsusi pasportlara malik olan şəxsin ölkəyə gəlməsindən 60 gün ərzində edilən müraciəti əsasında həmin şəxs rəsmi qaldığı müddət üçün viza ilə təmin ediləcəkdir.

2. Bir Razılığa gələn Tərəfin dövlətinin yuxarıda qeyd edilmiş pasportlardan birinə malik olan və digər Razılığa gələn Tərəfin ərazisində yerləşən beynəlxalq təşkilatda ölkəsinin təmsilçisi olan vətəndaşı bu maddənin 1-ci bəndində göstərilən imtiyazlardan istifadə edəcəkdir.

3. Bir Razılığa gələn Tərəfin dövlətinin diplomatik, xidməti və ya xüsusi pasportlara malik olan vətəndaşı beynəlxalq təşkilat, orqan, agentlik və ya digər oxşar qurumda işlədikdə, digər Razılığa gələn Tərəfin dövlət ərazisinə rəsmi və ya şəxsi səfərlə daxil olmazdan əvvəl viza almaq tələb olunur.

4. Bu maddənin 1 və 2-ci bəndlərində göstərilən imtiyazlar diplomatik və ya konsulluq nümayəndəliklərinin və ya beynəlxalq təşkilatlar yanında nümayəndəliklərin üzvlərinin ərinə / arvadına, onların uşaqlarına və onların himayəsində olan valideynlərinə həmin şəxslərin diplomatik, xidməti və ya xüsusi pasportlara malik olduğu və ya uşaqların adlarının onların valideynlərinin pasportuna daxil edildiyi təqdirdə şamil olunur.

Maddə 4

1. Bir Razılığa gələn Tərəfin dövlətinin diplomatik, xidməti və ya xüsusi pasportlara malik olan vətəndaşı digər Razılığa gələn Tərəfin ərazisində beynəlxalq təşkilat və ya Hökumət tərəfindən təşkil edilən iclasda və ya konfransda iştirak etdiyi təqdirdə, həmin Razılığa gələn Tərəfin ərazisinə vizasız daxil olmaq və orada qalmaq hüququna malikdir.

2. Hər bir Razılığa gələn Tərəf bu maddənin 1-ci bəndində göstərilən şəxslərin ölkəyə daxil olma və təyin edilmə tarixlərindən əvvəl digər Razılığa gələn Tərəfi diplomatik kanallar vasitəsilə xəbərdar edəcəkdir.

Maddə 5

Bir Razılığa gələn Tərəfin dövlətinin diplomatik, xidməti və ya xüsusi pasportlara malik olan vətəndaşı digər Razılığa gələn Tərəfin sərhədlərini keçərkən və onun ərazisində olduğu müddət ərzində həmin Razılığa gələn Tərəfin qanun və qaydalarına əməl edəcəkdir.

Maddə 6

1. Hər bir Razılığa gələn Tərəf digər Razılığa gələn Tərəfin arzuolunmaz hesab etdiyi vətəndaşının öz ərazisinə daxil olmasına icazə verməkdən imtina və ya həmin şəxsin öz ərazisində qalma müddətini qısaltmaq hüququnu özündə saxlayır.

2. Bir Razılığa gələn Tərəfin dövlətinin vətəndaşı digər Razılığa gələn Tərəfin ərazisində pasportunu itirdiyi təqdirdə, həmin qəbul edən dövlətin aidiyyəti orqanlarına müvafiq tədbirlərin görülməsi üçün məlumat veriləcəkdir. Diplomatik nümayəndəlik və ya aidiyyəti konsulluq öz vətəndaşına yeni pasport və ya səyahət sənədi verəcək və qəbul edən dövlətin aidiyyəti orqanlarına məlumatlandıracaqdır.

Maddə 7

Hər bir Razılığa gələn Tərəf təhlükəsizlik, ictimai asayiş və ya ictimai sağlamlıq səbəblərindən bu Sazişin həyata keçirilməsini tamamilə və ya qismən müvəqqəti olaraq dayandıra bilər. Sazişin həyata keçirilməsinin dayandırılması digər Razılığa gələn Tərəfə diplomatik kanallar vasitəsilə bildiriş verildikdən 48 saat sonra qüvvəyə minəcəkdir.

Maddə 8

1. Bu Sazişə danışıqlar, məsləhətləşmələr və rəsmi notalar vasitəsilə Razılığa gələn Tərəflər arasında əldə olunan qarşılıqlı razılıq əsasında əlavələr və düzəlişlər edilə bilər. Razılığa gələn Tərəflər arasında razılaşdırılmış istənilən əlavələr və düzəlişlər qarşılıqlı razılaşdırılmış tarixdə qüvvəyə minəcək və bu Sazişin bir hissəsi olacaqdır.

2. Bu Sazişin tətbiqi və ya təfsiri ilə bağlı meydana çıxan istənilən mübahisə hər hansı üçüncü tərəfə və ya beynəlxalq məhkəmə və ya arbitraj orqanına müraciət etmədən Razılığa gələn Tərəflər arasında məsləhətləşmələr və ya danışıqlar vasitəsilə həll ediləcəkdir.

Maddə 9

1. Bu Sazişin məqsədləri üçün, hər bir Razılığa gələn Tərəf bu Sazişin qüvvəyə minməsindən on azı 30 (otuz) gün əvvəl diplomatik, xidməti və ya xüsusi pasportların nümunələrini həmin pasportların istifadə qaydaları ilə birlikdə diplomatik kanallar vasitəsilə digər Razılığa gələn Tərəfə göndərəcəkdir.

2. Hər bir Razılığa gələn Tərəf qeyd olunan pasportlara edilən dəyişikliklər barədə digər Razılığa gələn Tərəfi xəbərdar edəcək və hazırda istifadə olunan belə sənədlərin təfsilatlı təsviri də daxil olmaqla yeni pasportların nümunələrini yeni pasportların dövriyyə buraxılmasından ən azı otuz (30) gün əvvəl diplomatik kanallar vasitəsilə digər Razılığa gələn Tərəfə göndərəcəkdir. Yeni pasportlar dəyişiklik edilmiş pasportun qəbul edildiyi tarixdən etibarən işləyəcəkdir.

Maddə 10

1. Bu Saziş onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Razılığa gələn Tərəflərin sonuncu yazılı bildirişinin alındığı tarixdən 30 (otuz) gün sonra qüvvəyə minəcəkdir.

2. Bu Saziş qeyri-müəyyən müddətə bağlanılır və bir Razılığa gələn Tərəfin bu Sazişə xitam vermək niyyəti barədə diplomatik kanallar vasitəsi ilə digər Razılığa gələn tərəfə yazılı bildiriş verməsinə qədər qüvvədə qalacaqdır. Bu halda, Saziş belə bildirişin alındığı tarixdən 60 gün sonra xitam olunacaqdır.

Bakı şəhərində, 08 iyul 2009-cu il tarixində Azərbaycan, ərəb və ingilis dillərində olmaqla iki əsl nüsxədə imzalanmışdır, bütün mətnlər bərabər autentikdir. Təfsir zamanı fikir ayrılığı yarandığı təqdirdə, ingilis dilində olan mətndən istifadə ediləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	SURİYA ƏRƏB RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN
ELMAR MAMMƏDYAROV	*VALİD ƏL-MUALLEM*
Xarici işlər naziri	*Xarici işlər naziri*

Azərbaycan Respublikası və Polşa Respublikası Prezidentlərinin Məşvərət Komitəsinin Nizamnaməsinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

Azərbaycan Respublikası və Polşa Respublikası Prezidentlərinin Məşvərət Komitəsinin 2009-cu il iyulun 2-də Bakı şəhərində imzalanmış Nizamnaməsi təsdiq edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 30 sentyabr 2009-cu il

№ 873-IIIQ

Azərbaycan Respublikası və Polşa Respublikası Prezidentlərinin Məşvərət Komitəsinin Nizamnaməsi

Azərbaycan Respublikasının Prezidenti və Polşa Respublikasının Prezidenti,

Azərbaycan Respublikası ilə Polşa Respublikası arasında əlaqələrin daha da möhkəmləndirilməsi zərurətini nəzərə alaraq,

Azərbaycan Respublikası ilə Polşa Respublikası arasında əlaqə və təmasların gücləndirilməsini məqsədəuyğun hesab edərək,

qarşılıqlı əlaqələrə yeni siyasi miqyas verilməsi ehtiyacını nəzərə alaraq,

Azərbaycan Respublikası ilə Avropa İttifaqı arasında enerji təhlükəsizliyi sahəsində əməkdaşlığın əhəmiyyətini qeyd edərək,

Azərbaycan Respublikası ilə Avropa və Avro-atlantik strukturlar arasındakı münasibətlərin daha da yaxınlaşmasını dəstəkləyərək,

aşağıdakılar barədə razılığa gəlmişlər:

Maddə 1

Bu Nizamnamə Azərbaycan Respublikası və Polşa Respublikası Prezidentlərinin qarşılıqlı iradəsi ilə yaradılmış, bundan sonra "Komitə" adlandırılacaq Azərbaycan Respublikası və Polşa Respublikası Prezidentlərinin Məşvərət Komitəsinin iş qaydalarını müəyyən edir.

Maddə 2

1. Komitə iki bərabərhüquqlu hissədən ibarətdir:

Azərbaycan Respublikası Prezidenti tərəfdən - Prezidentin səlahiyyətli nümayəndəsi və ən azı 3 nəfər üzv;

Polşa Respublikası Prezidenti tərəfdən - Prezidentin səlahiyyətli nümayəndəsi və ən azı 3 nəfər üzv;

2. Azərbaycan Respublikasının Prezidenti və Polşa Respublikasının Prezidenti Səlahiyyətli nümayəndələri və Komitə üzvlərini müvafiq olaraq öz ölkələrinin milli qanunvericiliyinə uyğun şəkildə təyin və azad edir.

Maddə 3

1. Komitənin vəzifələrinə Azərbaycan Respublikası ilə Polşa Respublikası arasında qarşılıqlı əlaqələrin möhkəmləndirilməsi imkanlarına dair fikir və məlumat mübadiləsinin aparılması və ikitərəfli əməkdaşlığın inkişaf etdirilməsi, ilk növbədə enerji daşıyıcılarının təhlükəsiz nəqli, habelə Mərkəzi və Şərqi Avropa regionunda və Cənubi Qafqazda təhlükəsizliyə yönəlmiş təhdidlərin müəyyən edilməsi istiqamətində təhlil və təkliflərin hazırlanması daxildir.

2. Komitə qeyd olunan vəzifələri aşağıdakı vasitələrlə həyata keçirəcəkdir:

Azərbaycan Respublikası və Polşa Respublikası Prezidentlərinin razılaşmalarının həyata keçirilməsi;

Çoxtərəfli və regional əməkdaşlıq sahəsində, habelə BMT, ATƏT, GUAM və digər beynəlxalq forumlar çərçivəsində məsləhətləşmələrin intensivləşdirilməsi;

Avrasiya Neft Nəqliyyat Dəhlizi layihəsi (Odessa-Brodi-Plock-Qdansk neft kəməri) çərçivəsində əməkdaşlığın gücləndirilməsi;

Xam neft və təbii qaz nəqli yollarının diversifikasiya imkanlarının araşdırılması;

Bazar iqtisadiyyatına keçid və siyasi islahatlar, həmçinin Avropa və Avro-atlantik strukturlarına inteqrasiya sahəsində təcrübə mübadiləsinin aparılması;

Polşanın inkişaf yardımı istiqamətlərinin müəyyən edilməsi üzrə əməkdaşlıq həyata keçirilməsi;

Qarşılıqlı investisiya qoyuluşu da daxil olmaqla iqtisadi və ticarət əlaqələrinin gücləndirilməsi;

iki ölkə arasındakı münasibətlərin inkişafına xidmət edən digər sahələr üzrə əməkdaşlığın stimullaşdırılması.

Maddə 4

1. Komitənin vəzifələrini həyata keçirmək üçün *Səlahiyyətli nümayəndələr* Komitənin təqdimatı əsasında işçi qrup və ekspert komissiyaları yaradırlar, onların məşğul olacaqları məsələləri və iş metodlarını müəyyən edirlər.

2. İşçi qruplarının və ekspert komissiyalarının fəaliyyətinin nəticələri Komitəyə təqdim olunur və onun plenar iclaslarında müzakirə edilir.

Maddə 5

1. Səlahiyyətli nümayəndələr Komitənin və onun icra orqanlarının işini istiqamətləndirirlər.

2. Səlahiyyətli nümayəndələr Komitənin işinə xidmət məqsədilə Komitənin iclaslarının hazırlanması və onun işçi qrup və ekspert komissiyalarının fəaliyyətləri üzrə öz aralarında əməkdaşlıq edən katibliklər təşkil edə bilərlər.

Maddə 6

1. Komitənin plenar iclasları ən azı ildə iki dəfə Azərbaycan Respublikası və Polşa Respublikası ərazilərində keçirilir.

2. Komitənin iclasının keçirildiyi ölkə Prezidentinin Səlahiyyətli nümayəndəsi Komitənin iclasına sədrlik edir.

3. Səlahiyyətli nümayəndələrdən birinin müraciətinə əsasən, digər Səlahiyyətli nümayəndə ilə razılaşdırılmış yer və vaxtda Komitənin növbəti iclası keçirilir.

4. Komitənin sessiyasının, işçi qrup və ekspert komissiyalarının iclaslarının təşkili və keçirilməsi ilə bağlı xərclər qarşılıq əsasında iclasın keçirildiyi dövlətin üzərinə düşür. Bu müddəa nəqliyyat xərclərinə şamil edilmir.

Maddə 7

1. Komitənin bütün qərarları konsensus əsasında qəbul olunur.

2. Səlahiyyətli nümayəndələr hər iki dövlətin Prezidentinə Komitənin fəaliyyətinin nəticələri barədə məlumat verirlər.

Maddə 8

Nizamnamə imzalandığı gündən qüvvəyə minir.

Maddə 9

Komitənin *işçi dilləri Azərbaycan, polyak və ingilis dilləridir.*

Bakı şəhərində, 02 iyul 2009-cu il tarixində iki əsl nüsxədə, hər biri Azərbaycan, polyak və ingilis dillərində imzalanmışdır və bütün mətnlər eyni qüvvəyə malikdir. Mətnlərin təfsiri ilə bağlı fikir ayrılığı yarandığı təqdirdə ingilis dilindəki mətn istifadə ediləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ	*POLŞA RESPUBLİKASININ PREZİDENTİ*
İLHAM ƏLİYEV	*LEX KAÇİNSKİ*

"Kibercinayətkarlıq haqqında" Konvensiyanın təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

"Kibercinayətkarlıq haqqında" 2001-ci il noyabrın 23-də Budapeşt şəhərində imzalanmış Konvensiya müvafiq bəyanatlar və qeyd-şərtlərlə (bəyanatların və qeyd-şərtlərin mətnləri əlavə olunur) təsdiq edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 30 sentyabr 2009-cu il

№ 874-IIIQ

Kibercinayətkarlıq haqqında Konvensiya

Budapeşt, 23 noyabr 2001-ci il

Preambula

Avropa Şurasının üzv dövlətləri və bu Konvensiyanı imzalayan digər dövlətlər

Avropa Şurasının məqsədinin onun üzvləri arasında birliyə nail olmaqdan ibarət olduğunu nəzərə alaraq;

bu Konvensiyanı imzalayan digər dövlətlərlə əməkdaşlığı möhkəmləndirməyin əhəmiyyətini etiraf edərək:

digər tədbirlərlə yanaşı, müvafiq qanunvericilik aktlarının qəbul edilməsi və beynəlxalq əməkdaşlığın möhkəmləndirilməsi vasitəsilə cəmiyyəti kibercinayətkarlıqdan qorumağa yönəlmiş cinayət hüququ sahəsində ümumi siyasətin prioritet qaydada aparılması zərurətindən əminliyi qeyd edərək;

rəqəmsal texnologiyaların həyatımıza daxil olması, kompüter şəbəkələrinin birləşməsini və qloballaşmasının səbəb olduğu əhəmiyyətli dəyişiklikləri dərk edərək;

kompüter şəbəkələrinin, elektron məlumatların cinayətlərin törədilməsi üçün istifadə edilməsi və bu növ cinayətlərin baş verməsinə dair sübutların bu şəbəkələrdə saxlanılması və ya şəbəkələr vasitəsilə ötürülməsi təhlükəsindən narahat olaraq;

kibercinayətkarlığa qarşı mübarizədə dövlətlərlə özəl sektor arasında əməkdaşlığın zəruriliyini və informasiya texnologiyalarından istifadə və onların inkişaf etdirilməsi sahəsində qanuni mənafelərin müdafiə edilməsi zərurətini anlayaraq;

kibercinayətkarlığa qarşı səmərəli mübarizə aparmaq üçün cinayət hüququ sahəsində geniş, operativ və normal beynəlxalq əməkdaşlığın tələb olunduğunu nəzərə alaraq;

Hazırkı Konvensiyanın müvafiq əməlləri cinayət kimi qeyd etmək, bu cür cinayət əməllərinə qarşı mübarizə aparmaq üçün zəruri səlahiyyətlər vermək, onların həm ölkədaxili, həm də beynəlxalq səviyyədə tədqiqatı, istintaqı və təqib olunmasına şərait yaratmaq, sürətli və etibarlı beynəlxalq əməkdaşlığı təmin etmək yolu ilə kompüter sistem və şəbəkələrinin, o cümlədən kompüter verilənlərin məxfiliyi, bütövlüyü və yararlılığına qarşı yönəlmiş əməllərin, həmçinin bu sistem, şəbəkə və verilənlərdən qeyri-qanuni istifadənin qarşısını almaq zəruriliyindən əmin olaraq;

Hüquqi qayda-qanunun saxlanması maraqları ilə 1950-ci il tarixli "İnsan hüquq və əsas azadlıqların müdafiəsi haqqında" Avropa Şurasının Konvensiyasında, Birləşmiş Millətlər Təşkilatının 1966-cı il tarixli "Mülki və Siyasi Hüquqlar haqqında" Beynəlxalq Paktında, o cümlədən hər kəsin fikir və mülahizələrinin maneəsiz ifadə etmək hüququnu və, dövlət sərhədlərindən və şəxsi həyata müdaxilə ilə bağlı hüquqdan asılı olmayaraq, hər növ məlumat və ideya axtarmaq, əldə etmək və yaymaq azadlığını təsdiq edən insan hüquqları haqqında beynəlxalq müqavilələrdə nəzərdə tutulmuş əsas insan hüquqlarına hörmət edilməsi arasında lazımi balansın təmin edilməsi zərurətini xatırlayaraq;

Eyni zamanda, məsələn Avropa Şurasının 1981-ci il tarixli Fiziki şəxslərin şəxsi verilənlərin avtomatlaşdırılmış işlənməsi zamanı mühafizəsi haqqında Konvensiyası kimi beynəlxalq sənədlərdə nəzərdə tutulmuş şəxsi verilənlərin mühafizəsi hüququnu xatırlayaraq;

Birləşmiş Millətlər Təşkilatının 1989-cu il tarixli Uşaq hüquqları haqqında Konvensiyasını və Beynəlxalq Əmək Təşkilatı tərəfindən qəbul edilmiş 1999-cu il tarixli Uşaq əməyinin ən pis formaları haqqında Konvensiyanın müddəalarını nəzərə alaraq;

Avropa Şurasının penitensiar sahədə əməkdaşlıq haqqında qüvvədə olan konvensiyalarına, o cümlədən Avropa Şurasının üzvü olan dövlətlərlə digər dövlətlər arasında bağlanmış analoji konvensiyaları nəzərə alaraq və bu Konvensiyanın həmin konvensiyaları kompüter şəbəkələri və kompüter verilənləri ilə bağlı cinayətlərin istintaqı və prosessual hərəkətlərin səmərəliliyini artırmaq, o cümlədən cinayətin elektron formada törədilməsi haqqında sübutların toplanmasını təmin etmək məqsədilə tamamladığını qeyd edərək;

Birləşmiş Millətlər Təşkilatı, ATƏT, Avropa İttifaqı və "səkkizlik qrupu" tərəfindən qəbul edilmiş tədbirlər də daxil olmaqla, son zamanlar kibercinayətkarlığa qarşı mübarizədə beynəlxalq anlaşma və əməkdaşlığı daha da inkişaf etdirən nailiyyətləri alqışlayaraq;

Nazirlər Komitəsinin "Cinayət işləri üzrə qarşılıqlı hüquqi yardım haqqında" Avropa Konvensiyasının telekommunikasiya məlumatlarının tutulması haqqında məhkəmə tapşırıqlarına aid olan hissəsinin praktiki tətbiqinə dair R(85)10 nömrəli; müəllif hüquqları və əlaqəli hüquqlar sahəsində piratçılığa qarşı mübarizə haqqında R(88)2 nömrəli; polis tərəfindən şəxsi verilənlərdən istifadə qaydası haqqında R(87)15 nömrəli; telekommunikasiya xidmətləri, xüsusilə telefon xidmətləri sahəsində şəxsi verilənlərin qorunması haqqında R(95)4 nömrəli; habelə bəzi kompüter cinayətlərinin anlayışlarının müəyyənləşdirilməsi üçün milli qanunvericilik orqanları üçün rəhbər prinsipləri təmin edən kompüter sahəsində cinayətlərə dair R(89)9 nömrəli və cinayət-prosessual hüququnun informasiya texnologiyaları ilə bağlı olan problemləri üzrə R(95)13 nömrəli Tövsiyələrini xatırlayaraq;

Avropa ədliyyə nazirlərinin 21-ci konfransında (Praqa, 10 və 11 iyun 1997-ci il) qəbul edilmiş və Cinayət Problemləri üzrə Avropa Komitəsi (CPAK) tərəfindən ölkələrin daxili cinayət qanunvericiliyinin müddəalarını bir-birinə uyğunlaşdırmaq, həmçinin kompüter sahəsində cinayətlərin araşdırılmasında səmərəli vasitələrin istifadə olunmasına imkan yaratmaq məqsədilə həyata keçirdiyi kibercinayətkarlıq sahəsində işlərini dəstəkləməyin Nazirlər Komitəsinə tövsiyə edildiyi I №-li qərarını; o cümlədən Avropa ədliyyə nazirlərinin 23-cü konfransında (London, 8 və 9 iyun 2000-ci il) qəbul edilmiş və danışıqlarda iştirak edən Tərəflərin mümkün qədər böyük sayda dövlətlərin Konvensiyanın iştirakçısı olmasına imkan yaradan qərarların qəbul edilməsi və həlletmə üsullarının tapılması məqsədilə səylərini əsirgəməməyə çağıran, həmçinin kibercinayətkarlığa qarşı mübarizənin özünəməxsus tələblərini lazımi qaydada nəzərə alan sürətli və səmərəli beynəl-

xalq əməkdaşlıq sisteminə olan ehtiyacı etiraf edən 3 №-li qərarını nəzərə alaraq;

O cümlədən Avropa Şurasının üzvü olan dövlətlərin dövlət və hökumət başçılarının ikinci sammitində (Strasburq, 10 və 11 oktyabr 1997-ci il) qəbul edilmiş Avropa Şurasının standartları və dəyərləri əsasında yeni informasiya texnologiyalarının inkişafını dəstəkləyən ümumi tədbirlərin müəyyən edilməsi üzrə tədbirlər planını nəzərə alaraq;

aşağıdakılar barədə razılığa gəldilər:

Fəsil I

Terminlərdən istifadə

Maddə 1

Anlayışlar

Hazırkı Konvensiyanın məqsədlərinə nail olmaq üçün:

a) "kompüter sistemi" - müvafiq proqramlara uyğun olaraq verilənlərin avtomatik işlənməsini həyata keçirən hər hansı qurğunu və ya qarşılıqlı qoşulmuş və ya əlaqəli qurğular qrupunu nəzərdə tutur;

b) "kompüter verilənləri" - faktların, məlumatların və ya anlayışların kompüter sistemində, o cümlədən kompüter sistemində hər hansı funksiyanın həyata keçirilməsini təmin edən proqram vasitəsilə emal üçün yararlı olan istənilən təqdim formasını nəzərdə tutur;

c) "Xidmət provayderi":

i) xidmətlərinin istifadəçilərini kompüter sistemi vasitəsi ilə məlumat mübadiləsi imkanı ilə təmin edən istənilən dövlət və ya özəl qurum; və

ii) bu cür rabitə xidməti və ya onun istifadəçilərinin adından kompüter verilənlərinin işlənməsi və ya saxlanılmasını həyata keçirən istənilən digər qurum nəzərdə tutur.

d) "trafik verilənləri"- kompüter sistemi vasitəsilə ötürülən və müvafiq rabitə zəncirinin tərkib hissəsi olan kompüter sistemlərində yaradılan informasiya ilə əlaqəli olan və informasiyanın mənbəyi, təyinatı, marşrutu, vaxtı, tarixi, həcmi, davamlılığı və ya əsas xidmətin növünü göstərən kompüter verilənlərini nəzərdə tutur.

Bölmə II

Milli səviyyədə həyata keçirilən tədbirlər

Fəsil I

Maddi cinayət hüququ

Altfəsil 1

Kompüter verilənləri və sistemlərinin məxfiliyi, tamlığı və istifadə imkanlarına qarşı cinayətlər

Maddə 2

Qanunsuz daxil olma

Hər bir Tərəf kompüter sisteminə və ya onun hər hansı hissəsinə bəlo hüquq olmadan qəsdən daxil olmanın daxili qanunvericilikdə cinayət əməli kimi tövsif edilməsi üçün zəruri olan qanunvericilik və digər tədbirləri görür. Hər bir Tərəf bu əməllərin, təhlükəsizlik tələblərini pozmaqla, kompüterdə mövcud olan verilənlərin ələ keçirmək niyyəti və ya digər bəd niyyətlə, yaxud başqa kompüter sistemləri ilə bağlı olan kompüter sistemlərinə münasibətdə törədildiyi halda cinayət əməli hesab olunmasını tələb edə bilər.

Maddə 3

Qanunsuz ələ keçirmə

Hər bir Tərəf texniki vasitələrdən istifadə etməklə kompüter sistemindən, kompüter sisteminə və yaxud kompüter sistemi vasitəsilə ötürülən və ümumi istifadə üçün nəzərdə tutulmamış verilənlərin, həmçinin bu cür verilənləri daşıyan kompüter sistemlərindən elektromaqnit şüalanmanın bəlo hüquq olmadan qəsdən ələ keçirilməsinin daxili qanunvericilikdə cinayət əməli kimi tövsif olunması üçün zəruri olan qanunvericilik və digər tədbirlər görür. Hər bir Tərəf bu əməllərin, yalnız bəd niyyətlə, yaxud başqa kompüter sistemləri ilə bağlı olan kompüter sistemlərinə qarşı törədildiyi halda cinayət əməli hesab olunmasını tələb edə bilər.

Maddə 4

Verilənlərə müdaxilə

1. Hər bir Tərəf daxili qanunvericiliyində kompüter verilənlərinin bəlo hüquq olmadan qəsdən zədələnməsi, silinməsi, korlanması, dəyişdirilməsi və ya təcrid edilməsi əməllərinin cinayət əməli kimi tövsif olunması üçün zəruri olan qanunvericilik və digər tədbirləri görür.

2. Hər bir Tərəf 1-ci bənddə qeyd olunmuş əməlləri yalnız əhəmiyyətli zərər vurduqda cinayət əməli kimi tövsif etmək hüququnu özündə saxlayır.

Maddə 5

Sistemlərə müdaxilə

Hər bir Tərəf daxili qanunvericiliyində kompüter verilənlərinin daxil edilməsi, ötürülməsi, zədələnməsi, silinməsi, korlanması, dəyişdirilməsi və ya təcrid edilməsi üsulu ilə

kompüter sistemlərinin fəaliyyətinə belə hüquq olmadan qəsdən ciddi maneə törədilməsi əməlini cinayət əməli kimi təsvir olunması üçün zəruri olan qanunvericilik və digər tədbirləri görür.

Maddə 6

Qurğulardan qanunsuz istifadə

1. Hər bir Tərəf aşağıdakı əməllərin qəsdən və belə hüquq olmadan törədilməsi hallarında onların daxili qanunvericiliyində cinayət əməli kimi təsvir olunması üçün zəruri olan qanunvericilik və digər tədbirləri görür:

a) aşağıdakıların istehsal, satış, istifadə üçün əldə olunması, idxalı, topdan satışı və ya digər formalarda istifadəyə təqdim olunması:

i) 2-5-ci maddələrdə qeyd olunmuş cinayətlərdən əsasən hər hansı birinin törədilməsi məqsədi üçün hazırlanmış və ya uyğunlaşdırılmış qurğular, o cümlədən kompüter proqramları;

ii) 2-5-ci maddələrdə qeyd olunmuş cinayətlərdən hər hansı birinin törədilməsində istifadə etmək üçün kompüter sisteminə və ya onun hər hansı bir hissəsinə daxil olmaq imkanını yaradan kompüter parolları, giriş kodları və ya digər analoji verilənlər.

b) maddənin "a" bəndinin "i" və ya "ii" yarımbəndlərində qeyd olunmuş vasitələrə 2-5-ci maddələrdə nəzərdə tutulmuş cinayətlərdən hər hansı birini törətmək üçün istifadə etmək niyyəti ilə onlara sahib olmaq. Hər bir Tərəf qanunla cinayət məsuliyyətinin yaranması üçün şəxsin bir neçə bu cür vasitəyə sahib olmasını tələb edə bilər.

2. Bu maddənin 1-ci bəndində qeyd olunmuş vasitələrin istehsalı, satışı, istifadə üçün əldə olunması, idxalı, topdan satışı və ya digər formalarda istifadəyə təqdim olunması, yaxud da onlara sahiblik Konvensiyanın 2-5-ci maddələrində nəzərdə tutulmuş cinayətlərin törədilməsi məqsədini daşımırsa, məsələn kompüter sistemini müvafiq icazə ilə yoxlamaq və ya mühafizə etmək məqsədini daşıyırsa, bu bənd bu cür əməllərə görə cinayət məsuliyyətini müəyyənləşdirmək üçün təfsir edilə bilməz.

3. Tərəf bu maddənin 1-ci bəndində göstərilən müddəaları tətbiq etməmək hüququnu bir şərtlə özündə saxlayır ki, adı çəkilən qeyd-şərt bu maddənin "a" bəndinin "ii" yarımbəndində göstərilən əşyaların satışı, topdan satışı, yaxud digər formada istifadəsinə aid edilməsin.

Yarımfəsil 2

Kompüter vasitələrindən istifadə ilə bağlı cinayətlər

Maddə 7

Kompüter texnologiyalarından istifadə etməklə saxtalaşdırma

Hər bir Tərəf daxili qanunvericiliyində birbaşa oxuna bilməsi və ya anlaşılan olmasından asılı olmayaraq kompüter verilənlərini hüquqi məqsədlərlə autentik verilənlər kimi hesab edilməsi və ya istifadə edilməsi üçün onlara belə hüquq olmadan verilənlərin autentikliyinin pozulmasına səbəb olan qəsdən daxil etmə, dəyişdirmə, silmə və ya tə-

rid etmə əməllərini cinayət əməli kimi təsvir etmək üçün zəruri olan qanunvericilik və digər tədbirləri görür.

Maddə 8

Kompüter texnologiyalarından istifadə etməklə dələduzluq

Hər bir Tərəf daxili qanunvericiliyində özü və ya digər şəxs üçün mənfəət əldə etmək məqsədilə dələduzluq və ya bəd niyyətlə kompüter verilənlərinin hər hansı daxil edilməsi, dəyişdirilməsi, silinməsi və ya təcrid edilməsi;

kompüter sisteminin fəaliyyətinə hər hansı müdaxilə edilməsi üsulu ilə başqa bir şəxsi qəsdən və belə hüquq olmadan əmlakdan məhrum etmə əməlini cinayət əməli kimi təsvir olunması üçün zəruri olan qanunvericilik və digər tədbirləri görür.

Yarımfəsil 3

Məlumatların məzmunu ilə bağlı cinayətlər

Maddə 9

Uşaq pornoqrafiyası ilə bağlı cinayətlər

1. Hər bir Tərəf aşağıdakı əməllərin qəsdən və hüquqazidd olaraq törədilməsi hallarında onların daxili qanunvericiliyində cinayət əməli kimi təsvir olunması üçün zəruri olan qanunvericilik və digər tədbirləri görür:

a) kompüter sistemi vasitəsilə yaymaq məqsədilə uşaq pornoqrafiyasının istehsalı;

b) kompüter sistemi vasitəsilə uşaq pornoqrafiyasının təklif edilməsi və ya istifadə üçün təqdim edilməsi;

c) kompüter sistemi vasitəsilə uşaq pornoqrafiyasının yayılması və ya ötürülməsi;

d) özü, yaxud digər şəxs üçün kompüter sistemi vasitəsilə uşaq pornoqrafiyasının əldə edilməsi;

e) kompüter sistemində və ya kompüter verilənlərinin daşıyıcılarında uşaq pornoqrafiyasına malik olma.

2. Bu maddənin 1-ci bəndində göstərilən məqsədlər baxımından "uşaq pornoqrafiyası" anlayışına aşağıdakıları təsvir edən pornoqrafiya materialları daxildir:

a) yetkinlik yaşına çatmamış şəxsin açıq seksual xarakterli hərəkətlərdə iştirakı;

b) yetkinlik yaşına çatmaması güman edilən şəxsin açıq seksual xarakterli hərəkətlərdə iştirakı;

c) açıq seksual hərəkətlərdə iştirak edən yetkinlik yaşına çatmamış şəxsin həqiqi təsvirləri.

3. Bu maddənin 2-ci bəndinin məqsədləri üçün "yetkinlik yaşına çatmamışlar" anlayışı 18 yaşına çatmamış istənilən şəxsi nəzərdə tutur. Lakin, hər bir Tərəf 16 yaşdan az olmamaq şərtilə daha aşağı yaş hədlərini müəyyən edə bilər.

4. Hər bir Tərəf bu maddənin 1-ci bəndinin "d" və "e" yarımbəndlərinin, o cümlədən 2-ci bəndin "b" və "c" yarımbəndlərinin müddəalarını tam və ya qismən tətbiq etməmək hüququnu özündə saxlayır.

Yarımfəsil 4

Müəllif hüquqlarının və əlaqəli hüquqların pozulması ilə bağlı cinayətlər

Maddə 10

Müəllif hüquqlarının və əlaqəli hüquqların pozulması ilə bağlı cinayətlər

1. Hər bir Tərəf "Ədəbi və bədii əsərlərin qorunması haqqında" Bern Konvensiyasına dəyişiklikləri əhatə edən 24 iyul 1971-ci il tarixli Paris Aktına, "Əqli mülkiyyət hüquqlarının ticarət aspektləri haqqında" Sazişə və Ümumdünya Əqli Mülkiyyət Təşkilatının "Müəllif hüququ haqqında" Sazişinə uyğun üzərinə götürdüyü öhdəliklərinə müvafiq olaraq həmin Tərəfin qanunvericiliyində nəzərdə tutulmuş müəllif hüquqlarının pozulması əməlinin kommersiya miqyasında və kompüter sistemi vasitəsilə, istənilən mənəvi hüquqlar istisna olmaqla, qəsdən törədilməsi hallarının daxili qanunvericiliyində cinayət əməli kimi tövsif olunması üçün zəruri olan qanunvericilik və digər tədbirləri görür.

2. Hər bir Tərəf "Sənətkar-ifaçıların, fonoqram və veriliş təşkilatçılarının mənafelərinin qorunması haqqında" Beynəlxalq Konvensiyaya (Roma Konvensiyası), "Əqli mülkiyyət hüquqlarının ticarət aspektləri haqqında" Sazişə və Ümumdünya Əqli Mülkiyyət Təşkilatının "İfa və fonoqramlar haqqında" Sazişinə uyğun olaraq üzərinə götürdüyü öhdəliklərinə müvafiq olaraq həmin Tərəfin qanunvericiliyində nəzərdə tutulmuş əlaqəli hüquqlarının pozulması əməlinin kommersiya miqyasında və kompüter sistemi vasitəsilə, istənilən mənəvi hüquqlar istisna olmaqla, qəsdən törədilməsi hallarının daxili qanunvericiliyində cinayət əməli kimi tövsif olunması üçün zəruri olan qanunvericilik və digər tədbirləri görür.

3. Hər bir Tərəf o hallarda bu maddənin 1 və 2-ci bəndlərinin müddəalarına uyğun olaraq təqsirli şəxslərin cinayət məsuliyyətinə cəlb edilməməsi hüququnu özündə saxlaya bilər ki, məsuliyyətə cəlb etmə üzrə digər səmərəli müdafiə vasitələrinə malik olsun və bu, həmin Tərəfin üzərinə götürdüyü, bu maddənin 1 və 2-ci bəndlərində qeyd olunan beynəlxalq sənədlərdə nəzərdə tutulmuş öhdəliklərinin qismən ləğv olunması ilə nəticələnməsin.

Yarımfəsil 5

Məsuliyyətin əlavə növləri və sanksiyalar

Maddə 11

Cinayət etməyə cəhd, cinayətin törədilməsində iştirakçılıq və ya cinayətə təhrikçilik

1. Hər bir Tərəf bu Konvensiyanın 2-10-cu maddələrində nəzərdə tutulan cinayətin törədilməsində iştirakçılığın, yaxud cinayətə təhrikçiliyin daxili qanunvericilikdə cinayət əməli kimi tövsif olunması üçün zəruri olan qanunvericilik və digər tədbirləri görür.

2. Hər bir Tərəf bu Konvensiyanın 3-5-ci, 7-ci, 8-ci maddələrində və 9.1-ci maddəsinin "a", və "c" bəndlərində nəzərdə tutulmuş cinayətlərin törədilməsinə qəsdən edilən cəhdin daxili qanunvericilikdə cinayət əməli kimi tövsif olunması üçün zəruri olan qanunvericilik və digər tədbirləri görür.

3. Hər bir Tərəf bu maddənin 2-ci bəndinin müddəalarını tam və ya qismən tətbiq etməmək hüququnu özündə saxlayır.

Maddə 12

Hüquqi şəxsin məsuliyyəti

1. Hər bir Tərəf müstəqil olaraq və ya hüquqi şəxsin müvafiq orqanının əməkdaşı kimi fəaliyyət göstərən və aşağıda qeyd olunmuş əsaslarla bu orqanda aparıcı mövqe tutan hər hansı fiziki şəxs tərəfindən hüquqi şəxsin xeyrinə bu Konvensiyada nəzərdə tutulmuş cinayətlərin törədilməsinə görə belə hüquqi şəxsin məsuliyyətə cəlb olunmasını təmin etmək üçün zəruri olan qanunvericilik və digər tədbirləri görür:

a) bu hüquqi şəxsi təmsil etmək səlahiyyəti əsasında;

b) bu hüquqi şəxsin adından qərar qəbul etmək hüququ əsasında;

c) bu hüquqi şəxsin daxilində nəzarəti həyata keçirmək hüququ əsasında.

2. Bu maddənin 1-ci bəndində nəzərdə tutulmuş hallara əlavə olaraq, hər bir Tərəf 1-ci bənddə qeyd olunan fiziki şəxs tərəfindən lazımi rəhbərliyin və ya nəzarətin həyata keçirilməməsinin nəticəsində həmin şəxsin tabeçiliyində olan fiziki şəxs tərəfindən hüquqi şəxsin xeyrinə bu Konvensiyada nəzərdə tutulmuş cinayətin törədilməsi hallarında həmin hüquqi şəxsin məsuliyyətə cəlb olunmasını təmin etmək üçün zəruri tədbirlər görür.

3. Müvafiq Tərəfin qəbul etdiyi hüquq prinsiplərindən asılı olaraq, hüquqi şəxs cinayət, mülki, yaxud inzibati məsuliyyət daşıya bilər.

4. Bu növ məsuliyyət hər hansı yüngülləşmə ilə nəticələnmir və cinayət törətmiş fiziki şəxsləri cinayət məsuliyyətindən azad etmir.

Maddə 13

Sanksiya və tədbirlər

1. Hər bir Tərəf 2-11-ci maddələri ilə nəzərdə tutulmuş cinayətlərin törədilməsinə görə azadlıqdan məhrumetmə cəzası da daxil olmaqla təsirli, mütənasib və inandırıcı cəza tədbirlərinin tətbiq edilməsini təmin etmək üçün zəruri olan qanunvericilik və digər tədbirləri görür.

2. Hər bir Tərəf 12-ci maddənin müddəalarına uyğun olaraq məsuliyyətə cəlb olunmuş hüquqi şəxslərə maliyyə sanksiyaları da daxil olmaqla cinayət və ya qeyri-cinayət xarakterli təsirli, mütənasib və inandırıcı cəza tədbirlərinin tətbiq olunmasını təmin edir.

Fəsil 2

Prosessual hüquq normaları

Yarımfəsil 1

Ümumi müddəalar

Maddə 14

Prosessual normaların tətbiq etmə dairəsi

1. Hər bir Tərəf konkret cinayət təqibinin və ya icraatın aparılması məqsədilə bu fəsildə nəzərdə tutulmuş səlahiyyətlərin və prosedurların müəyyənləşdirilməsi üçün zəruri olan qanunvericilik və digər tədbirləri görür.

2. 21-ci maddə ilə başqa xüsusi müddəa nəzərdə tutulmayıbsa, hər bir Tərəf bu maddənin 1-ci bəndində qeyd olunan səlahiyyətləri və prosedurları aşağıdakılara münasibətdə tətbiq edir:

a) hazırkı Konvensiyanın 2-11-ci maddələri ilə nəzərdə tutulmuş cinayətlərə;

b) hər hansı kompüter sistemi vasitəsi ilə törədilən digər cinayətlərə;

c) cinayətlə bağlı sübutlarının elektron formada toplanmasına.

3. a) Hər bir Tərəf 20-ci maddədə qeyd olunan tədbirləri yalnız öz qeyd-şərtində göstərilmiş cinayətlər və ya cinayət növləri üzrə tətbiq etmək hüququnu o şərtlə özündə saxlayır ki, belə cinayətlərin və ya cinayət növlərinin dairəsi 21-ci maddədə nəzərdə tutulmuş tədbirlərin tətbiq edildiyi cinayətlərin dairəsindən daha məhdud olmasın. Hər bir Tərəf 20-ci maddədə qeyd edilən tədbirlərin mümkün qədər geniş tətbiq edilməsi məqsədilə belə qeyd-şərtin tətbiq etmə dairəsinin məhdudlaşdırılmasını nəzərdən keçirir.

b) Hər hansı Tərəf hazırkı Konvensiyanın qəbul edildiyi zaman qüvvədə olan qanunvericiliyindəki məhdudiyyətlərə görə xidmət provayderinin

i) istifadəçilərin qapalı qrupu üçün istifadə edilən və

ii) ictimai rabitə şəbəkələrindən istifadə etməyən və digər ictimai və ya özəl şəbəkələrə qoşulmayan kompüter sistemi vasitəsilə ötürülən məlumatlara 20 və 21-ci maddələrdə göstərilən tədbirləri tətbiq etmək imkanına malik olmazsa, belə Tərəf məlumatların bu cür ötürülməsinə həmin tədbirləri tətbiq etməmək hüququnu özündə saxlaya bilər. Hər bir Tərəf 20-ci və 21-ci maddələrdə qeyd edilən tədbirlərin mümkün qədər geniş tətbiq edilməsi məqsədilə belə hüququn məhdudlaşdırılmasını nəzərdən keçirir.

Maddə 15

Şərtlər və zəmanətlər

1. Hər bir Tərəf bu bölmə ilə nəzərdə tutulmuş səlahiyyət və prosedurların müəyyənləşdirilməsi, icrası və tətbiqinin həmin dövlətin hüquq və azadlıqların, o cümlədən bu Tərəfin Avropa Şurasının 1950-ci il tarixli "İnsan hüquq və əsas azadlıqlarının müdafiəsi haqqında" Konvensiyası, BMT-nin 1966-cı il tarixli "Mülki və Siyasi Hüquqlar haqqında" Paktı, həmçinin insan hüquqları haqqında digər beynəlxalq müqavilələr üzrə öhdəliklərindən irəli gələn digər hüquqların müdafiəsini təmin edən və mütənasiblik prinsipini nəzərdə tutan daxili qanunvericiliyinə uyğun olaraq nəzərdə tutulmuş şərtlərə və təminatlara müvafiq şəkildə həyata keçirilməsini təmin edir.

2. Səlahiyyət və prosedurların xarakteri nəzərə alınaraq, bu şərtlərə və zəmanətlərə, digərlərlə yanaşı, məhkəmə nəzarəti və digər müstəqil nəzarət, tətbiq etmənin hüquqi əsasları, bu səlahiyyət və prosedurların tətbiq etmə dairəsinə və müddətlərinə məhdudiyyət qoyulması daxildir.

3. İctimai maraqlara, xüsusən də ədalət mühakiməsinin əsaslı həyata keçirilməsinə uyğun olması həddində hər bir Tərəf bu bölmədə nəzərdə tutulmuş səlahiyyət və prosedurların üçüncü tərəflərin hüquq, vəzifə və qanuni maraqlarına təsirini nəzərdən keçirir.

Yarımfəsil 2

Saxlanılan kompüter verilənlərinin mühafizəsinin operativ təminatı

Maddə 16

Saxlanılan kompüter verilənlərinin mühafizəsinin operativ təminatı

1. Hər bir Tərəf səlahiyyətli orqanlarına kompüter məlumatlarının, xüsusilə də kompüter sistemlərində saxlanılan trafik verilənlərinin, onların itki və ya modifikasiya riskinə məruz qaldığını güman etməyə əsaslar olduğu hallar da daxil olmaqla, operativ mühafizəsinin təmin edilməsi ilə bağlı sərəncam verilməsinə və ya digər tədbirlər görülməsinə dair səlahiyyət vermək üçün zəruri olan qanunvericilik və digər tədbirləri görür.

2. Tərəf 1-ci bənddə göstərilən müddəaları hər hansı şəxsin mülkiyyətində və ya nəzarətində olan konkret kompüter verilənlərinin qorunmasının təmin edilməsi haqqında sərəncam verilməsi yolu ilə həyata keçirirsə, səlahiyyətli orqanların həmin kompüter məlumatlarının açılmasına nail olması məqsədilə həmin Tərəf bu şəxsin üzərinə adıçəkilən kompüter verilənlərini qorumaq və ya müvafiq müddət ərzində, doxsan gündən çox olmamaq şərti ilə, onların toxunulmazlığını təmin etmək vəzifəsini qoymaq üçün zəruri olan qanunvericilik və digər tədbirləri görür. Tərəf bu sərəncamın qüvvədə olma müddətinin uzadılması imkanını nəzərdə tuta bilər.

3. Hər bir Tərəf kompüter verilənlərinin mühafizəsi barədə olunduğu bu məlumatları saxlayan şəxsin və ya digər şəxsin daxili qanunvericiliklə nəzərdə tutulmuş müddət ərzində bu cür prosedurların həyata keçirilməsini gizli saxlamaq vəzifəsini müəyyən edən qanunvericilik və digər tədbirləri görür.

4. Bu maddədə nəzərdə tutulmuş səlahiyyət və prosedurlar 14-cü və 15-ci maddələrə müvafiq olaraq müəyyən edilir.

Maddə 17

Trafik verilənlərinin qorunmasının operativ təminatı və onların qismən açıqlanması

1. Hər bir Tərəf 16-cı maddəyə uyğun qorunması təmin edilən trafik verilənləri ilə əlaqədar aşağıda göstərilən işləri həyata keçirmək üçün tələb edilən qanunvericilik və digər tədbirləri görür:

a) məlumatın ötürülməsində bir və ya daha çox xidmət provayderinin iştirak etməsindən asılı olmayaraq, trafik verilənlərinin mühafizəsini təmin etmək;

b) bu Tərəfə xidmət provayderlərini və bu məlumatın ötürülməsi yolunu müəyyənləşdirməyə imkan yaradan trafik verilənlərinin bu Tərəfin səlahiyyətli orqanına və ya həmin orqanın təyin etdiyi şəxsə kifayət həcmdə açıqlanmasına zəmanət vermək.

2. Bu maddədə sadalanan səlahiyyət və prosedurlar 14-cü və 15-ci maddələrin müddəalarına uyğun olaraq müəyyən edilir.

Yarımfəsil 3

Təqdimetmə göstərişi

Maddə 18

Təqdimetmə göstərişi

1. Hər bir Tərəf onun səlahiyyətli orqanlarının aşağıdakı şəxslərə göstəriş vermək səlahiyyətini təmin etmək üçün zəruri qanunvericilik və digər tədbirləri görür:

a) onun ərazisində hər hansı bir şəxsə - bu şəxsin sərəncamında olan, yaxud onun nəzarət etdiyi, kompüter sistemində və ya kompüter daşıyıcılarında saxlanan konkret kompüter verilənlərinin təqdim edilməsi ilə bağlı göstəriş;

b) onun ərazisində fəaliyyətini həyata keçirən xidmət provayderinə - bu provayderin ixtiyarında olan və ya onun nəzarət etdiyi abunəçilər haqqında məlumatın təqdim edilməsi ilə bağlı göstəriş.

2. Bu maddədə sadalanan səlahiyyət və prosedurlar 14-cü və 15-ci maddələrə uyğun olaraq müəyyən edilir.

3. Bu maddənin məqsədləri üçün "abunəçilər haqqında məlumat" anlayışı xidmət provayderinin öz abunəçiləri barədə kompüter verilənləri formasında və yaxud başqa bir formada malik olduğu məlumatları nəzərdə tutur, trafik verilənləri və ya məlumatların məzmunu istisna olmaqla, və bele məlumatlar vasitəsi ilə aşağıdakıları müəyyən etmək olar:

a) istifadə edilən rabitə xidmətlərinin növü, bu məqsədlə qəbul edilmiş texniki təminat tədbirləri və xidmətin göstərilmə müddəti;

b) xidmət müqaviləsi və ya razılaşması əsasında əldə olunan istifadəçinin şəxsiyyəti, onun poçt və ya coğrafi ünvanı, telefon və başqa əlaqə nömrəsi, xidmət haqqı hesabları və ödənişləri haqqında məlumat;

c) xidmət müqavilələri və razılaşmaları əsasında quraşdırılmış kommunikasiya avadanlıqlarının yerləri haqqında istənilən digər məlumatlar.

Yarımfəsil 4

Saxlanılan kompüter verilənlərinin axtarışı və götürülməsi

Maddə 19

Saxlanılan kompüter verilənlərinin axtarışı və götürülməsi

1. Hər bir Tərəf özünün səlahiyyətli orqanlarına öz ərazisində aşağıdakıların axtarışı və ya onlara daxil olması məqsədilə səlahiyyətlərin verilməsi üçün tələb edilə bilən qanunvericilik və digər tədbirləri görür:

a) kompüter sistemləri və yaxud onların hissələri, o cümlədən belə sistemdə saxlanılan verilənlər;

b) kompüter verilənlərinin saxlanıla bilən kompüter verilənləri daşıyıcıları.

2. Hər bir Tərəf onun səlahiyyətli orqanlarının 1"a" bəndinin müddəalarına uyğun olaraq axtarış apardığı və ya müvafiq kompüter sistemində, yaxud onun hər hansı bir hissəsinə daxil olduğu zaman axtarılan verilənlərin bu Tərəfin ərazisində yerləşən digər kompüter sistemində və ya onun hər hansı hissəsində olduğunu güman etməyə əsaslar olarsa və bu verilənləri qanuni əsaslarla birinci sistemdən, yaxud onun vasitəsilə əldə etmək mümkün olarsa, həmin orqanların digər sistemdə operativ axtarış və ya digər daxil olma hərəkətlərini həyata keçirə bilməsi üçün zəruri qanunvericilik və digər tədbirləri görür.

3. Hər bir Tərəf səlahiyyətli orqanlarına 1-ci və ya 2-ci bəndlərin müddəalarına uyğun olaraq daxil olmanın icazə verildiyi kompüter verilənlərini götürmək və ya analoji tərzdə onların mühafizəsini təmin etmək üçün səlahiyyətlərin verilməsi üçün zəruri qanunvericilik və digər tədbirləri görür. Bu tədbirlər aşağıdakı səlahiyyətlərin verilməsini nəzərdə tutmalıdır:

a) kompüter verilənlərinin saxlanması üçün istifadə edilən kompüter sistemlərinin, onların hissələrinin, yaxud daşıyıcılarının götürülməsini həyata keçirmək və ya başqa bir analoji üsulla bu verilənlərin qorunmasını təmin etmək;

b) müvafiq kompüter verilənlərinin surətini çıxarmaq və saxlamaq;

c) müvafiq saxlanılan kompüter verilənlərinin bütövlüyünü təmin etmək;

d) kompüter sistemində mövcud olan verilənlərə girişi qadağan etmək və ya belə sistemdən müvafiq verilənləri götürmək.

4. Hər bir Tərəf onun səlahiyyətli orqanlarına müvafiq kompüter sistemlərinin fəaliyyət göstərməsi və ya orada saxlanılan verilənlərin mühafizəsi üçün həyata keçirilən tədbirlər haqqında biliklərə malik olan istənilən şəxsdən 1-ci və 2-ci bəndlərdə nəzərdə tutulan tədbirləri həyata keçirməyə imkan verən münasib lazımi məlumatları tələb etmək səlahiyyətlərini vermək üçün zəruri qanunvericilik və digər tədbirləri görür.

5. Bu maddədə nəzərdə tutulan səlahiyyət və prosedurlar 14-cü və 15-ci maddələrin müddəalarına uyğun olaraq müəyyən edilir.

Yarımfəsil 5

Kompüter verilənlərinin real vaxt rejimində toplanması

Maddə 20

Trafik verilənlərinin real vaxt rejimində toplanması

1. Hər bir Tərəf onun səlahiyyətli orqanlarına həmin Tərəfin ərazisində kompüter sistemi vasitəsilə real vaxt rejimində ötürülən konkret məlumatlarla əlaqədar trafik verilənləri barəsində aşağıdakı səlahiyyətlərin verilməsi üçün zəruri qanunvericilik və digər tədbirləri görür:

a) bu Tərəfin ərazisində texniki vasitələri tətbiq etməklə məlumatları toplamaq və ya yazmaq;

b) xidmət provayderləri üzərinə mövcud texniki imkanlar çərçivəsində aşağıdakı öhdəlikləri qoymaq;

i) həmin Tərəfin ərazisində texniki vasitələri tətbiq etməklə məlumatları toplamaq və ya yazmaq;

ii) məlumatların toplanmasında və ya yazılmasında səlahiyyətli orqanlarla əməkdaşlıq etmək və onlara kömək etmək.

2. Hər hansı bir Tərəf onun daxili qanunvericilik sisteminə aid olan prinsiplərə əsasən 1"a" bəndində nəzərdə tutulan tədbirləri həyata keçirə bilmirsə, bunun əvəzində o, öz ərazisindəki belə məlumatlarla əlaqədar trafik verilənlərini öz ərazisində mövcud olan texniki vasitələri tətbiq etməklə real vaxt rejimində toplamağı və yazmağı mümkün etmək üçün zəruri ola bilən qanunvericilik və digər tədbirləri görə bilər.

3. Hər bir Tərəf xidmət provayderini bu maddə ilə nəzərdə tutulan istənilən səlahiyyətin həyata keçirilməsi faktının və bu barədə məlumatın məxfiliyinə əməl etməyə məcbur etmək üçün zəruri qanunvericilik və digər tədbirləri görür.

4. Bu maddədə göstərilən səlahiyyət və proseduralar 14-cü və 15-ci maddələrə uyğun olaraq müəyyən edilir.

Maddə 21

Məlumatın məzmununun əldə keçirilməsi

1. Hər bir Tərəf daxili qanunvericiliklə müəyyən edilən bir sıra ağır cinayətlərə münasibətdə öz səlahiyyətli orqanlarına həmin Tərəfin ərazisində kompüter sistemi vasitəsilə real vaxt rejimində ötürülən konkret məlumatlarla əlaqədar məlumatın məzmunu barəsində aşağıdakı səlahiyyətlərin verilməsi üçün zəruri qanunvericilik və digər tədbirləri görür:

a) bu Tərəfin ərazisində texniki vasitələri tətbiq etməklə müvafiq məlumatları toplamaq və ya yazmaq,

b) xidmət provayderinin üzərinə onun texniki imkanları çərçivəsində aşağıdakı öhdəliklər qoymaq:

i) bu Tərəfin ərazisində texniki vasitələrdən istifadə etməklə məlumatları toplamaq və ya yazmaq,

ii) məlumatların toplanmasında və ya yazılmasında səlahiyyətli orqanlarla əməkdaşlıq etmək və onlara kömək etmək.

2. Hər hansı bir Tərəf onun daxili qanunvericilik sisteminə aid olan prinsiplərə əsasən 1"a" bəndində nəzərdə tutulan tədbirləri həyata keçirə bilmirsə, bunun əvəzində o, ərazisində mövcud olan məlumatın məzmununu, texniki vasitələri tətbiq etməklə, real vaxt rejimində toplamağı və qeydə almağı mümkün etmək üçün zəruri ola bilən qanunvericilik və digər tədbirləri görə bilər.

3. Hər bir Tərəf xidmət provayderinin bu maddədə nəzərdə tutulan istənilən səlahiyyətin həyata keçirilməsi faktının və bu barədə məlumatın məxfiliyinə əməl etməyə məcbur etmək üçün zəruri qanunvericilik və digər tədbirləri görür.

4. Bu maddədə göstərilən səlahiyyət və proseduralar 14-cü və 15-ci maddələrə uyğun olaraq müəyyən edilir.

Fəsil 3

Yurisdiksiya

Maddə 22

Yurisdiksiya

1. Hər bir Tərəf hazırkı Konvensiyanın 2-11-ci maddələrinin müddəaları ilə nəzərdə tutulmuş və aşağıdakı hallarda törədilmiş hər hansı cinayətə münasibətdə yurisdiksiyanın müəyyən edilməsi üçün zəruri qanunvericilik və digər tədbirləri görür:

a) onun ərazisində törədildikdə;

b) bu Tərəfin bayrağı altında üzən gəmidə törədildikdə;

c) bu Tərəfin qanunlarına əsasən qeydə alınmış təyyarədə törədildikdə;

d) Tərəfin vətəndaşlarından biri tərəfindən törədildikdə, əgər cinayət törədilmə yerində cinayət cəzasına səbəb olursa və ya hər hansı dövlətin ərazi yurisdiksiya hüdudlarından kənarda törədilibsə.

2. Hər bir Tərəf bu maddənin 1 "b"-"d" bəndlərində müəyyən edilmiş yurisdiksiya normalarını tətbiq etməmək və ya yalnız konkret hallarda tətbiq etmək hüququnu özündə saxlayır.

3. Güman edilən cinayətkar onun ərazisində olduğu və ekstradiksiya tələbi irəli sürüldükdən sonra, yalnız həmin şəxsi vətəndaşlığına görə digər tərəfə ekstradisiya etməkdən imtina etdiyi hallarda, hər bir Tərəf bu Konvensiyanın 24-cü maddəsinin 1-ci bəndində qeyd edilən cinayətlərə münasibətdə yurisdiksiyasının müəyyən edilməsi üçün zəruri tədbirləri görür.

4. Hazırkı Konvensiya müvafiq Tərəfin öz daxili qanunvericiliyinə uyğun həyata keçirilən cinayət yurisdiksiyasını istisna etmir.

5. Hazırkı Konvensiya ilə nəzərdə tutulmuş güman edilən cinayət əməlinə münasibətdə yurisdiksiyaya dair bir neçə Tərəf iddialı olduqda, maraqlı Tərəflər, zərurət yarandıqda, cinayət təqibini həyata keçirmək üçün daha münasib yurisdiksiyanı seçmək məqsədilə məsləhətləşmələr aparırlar.

Bölmə III

Beynəlxalq əməkdaşlıq

Fəsil 1

Ümumi prinsiplər

Yarımfəsil 1

Beynəlxalq əməkdaşlığın ümumi prinsipləri

Maddə 23

Beynəlxalq əməkdaşlığın ümumi prinsipləri

Tərəflər hazırkı bölmənin müddəalarına uyğun olaraq və cinayət işləri üzrə beynəlxalq əməkdaşlıq haqqında müvafiq sənədlərin, vahidliyə söykənən və ya qarşılıqlığa əsasla-

nan razılaşmaların, daxili qanunların, o cümlədən kompüter sistemləri və verilənləri ilə bağlı cinayətlərin məhkəmə qaydasında istintaqı və araşdırılmasının həyata keçirilməsi məqsədilə daxili qanunvericilik normalarının tətbiq edilməsi yolu ilə bir-biri ilə geniş əməkdaşlığı həyata keçirirlər.

Yarımfəsil 2

Ekstradisiya ilə bağlı prinsiplər

Maddə 24

Ekstradisiya

1. a) Tərəflər arasında bu maddə hazırkı Konvensiyanın 2-11-ci maddələrinə uyğun olaraq müəyyən edilən cinayətlərlə bağlı o şərtlə tətbiq edilir ki, hər iki maraqlı Tərəfin qanunlarına əsasən onlara görə bir ildən az olmayan müddətə azadlıqdan məhrumetmə cəzası və ya daha ciddi cəza növü nəzərdə tutulsun.

   b) İki və ya daha çox tərəf arasında vahidliyə yaxud qarşılıqlığa söykənən qanunvericilik və ya ekstradisiya haqqında müqavilə, o cümlədən "Ekstradisiya haqqında" Avropa Konvensiyası (AMS № 024) əsasında bağlanmış Saziş qüvvədə olduqda və həmin sənəddə digər minimal cəzanın tətbiq edilməsi nəzərdə tutulduqda, həmin Saziş və ya müqavilədə nəzərdə tutulan minimum cəza tətbiq edilir.

2. Bu maddənin 1-ci bəndində nəzərdə tutulan cinayətlər Tərəflər arasında mövcud olan ekstradisiya haqqında ikitərəfli, yaxud çoxtərəfli müqavilələrdə ekstradisiyaya səbəb olan cinayətlər kimi hesab olunur. Tərəflər həmin cinayətləri onların arasında bağlanacaq ekstradisiya haqqında istənilən ikitərəfli, yaxud çoxtərəfli müqavilələrə daxil etmək öhdəliyini götürürlər.

3. Ekstradisiyanın şərti kimi müqavilənin mövcudluğunu şərt kimi irəli sürən hər hansı bir Tərəf ekstradisiya haqqında müqaviləni bağlamadığı digər Tərəfdən ekstradisiya sorğusu aldıqda o, hazırkı Konvensiyanı bu maddənin 1-ci bəndində göstərilən istənilən cinayətlə əlaqədar ekstradisiya üçün hüquqi əsas kimi hesab edə bilər.

4. Ekstradisiyanın şərti kimi müqavilənin mövcudluğunu şərt kimi irəli sürməyən Tərəflər öz aralarında mövcud olan münasibətlərdə bu maddənin 1-ci bəndində göstərilən cinayətləri ekstradisiyaya səbəb olan cinayət kimi hesab edirlər.

5. Ekstradisiya, sorğu edilən Tərəfin qanunvericiliyi ilə nəzərdə tutulan şərtlər və ya, sorğu edilən Tərəfin ekstradisiyadan imtina edə biləcəyi əsaslar daxil olmaqla, tətbiq edilə bilən ekstradisiya müqavilələri əsasında həyata keçirilir.

6. Hazırkı maddənin 1-ci bəndində göstərilən cinayətlərin hər hansı biri ilə əlaqədar ekstradisiyadan imtina müstəsna olaraq aidiyyəti şəxsin vətəndaşlığı və ya sorğu edilən Tərəfin rəyinə əsasən həmin cinayətin onun yurisdiksiyasına aid olması ilə əsaslandırıldıqda, sorğu edilən Tərəf sorğu edən Tərəfin xahişi ilə bu işi cinayət təqibinin aparılması üçün öz səlahiyyətli orqanlarına təqdim edir və yekun nəticə haqqında sorğu edən Tərəfi məlumatlandırır. Bu orqanlar, həmin Tərəfin qanunlarına əsasən eyni xarakterli cinayətlər hallarında olduğu kimi, öz qərarlarını qəbul edir və istintaqı və məhkəmə təhqiqatını aparırlar.

7. a) Hər bir Tərəf imzalanma və ya ratifikasiya, qəbul etmə, bəyənilmə və ya qoşulma haqqında öz sənədinin saxlanılması üçün təhvil verilməsi zamanı Avropa Şurasının baş katibinə müqavilə mövcud olmadıqda, ekstradisiya yaxud müvəqqəti həbs haqqında sorğunun göndərilməsi və ya alınmasına məsul olan hər bir orqanın adı və ünvanı barədə məlumat verir.

   b) Avropa Şurasının baş katibi bu məqsədlə Tərəflərin təyin etdikləri orqanların reyestrini tərtib edir və mütəmadi olaraq təzələyir. Hər bir Tərəf bu reyestrdə hər zaman doğru məlumatların saxlanılmasını təmin edir.

Yarımfəsil 3

Qarşılıqlı yardımın ümumi prinsipləri

Maddə 25

Qarşılıqlı yardımın ümumi prinsipləri

1. Tərəflər qarşılıqlı əsasda kompüter sistemləri və verilənləri ilə bağlı olan cinayətlərin istintaqının və ya məhkəmə təhqiqatının aparılması və ya cinayət üzrə sübutların elektron formada toplanması məqsədilə bir-birinə mümkün qədər geniş şəkildə hüquqi yardım göstərirlər.

2. Hər bir Tərəf həmçinin 27-35-ci maddələrdə göstərilən öhdəliklərin yerinə yetirilməsi üçün zəruri ola bilən qanunvericilik və digər tədbirləri görür.

3. Hər bir Tərəf təcili hallarda operativ rabitə vasitələrindən, o cümlədən faks rabitəsindən və ya elektron poçtundan həmin vasitələri, onların müvafiq təhlükəsizlik və həqiqilik (zərurət yarandıqda, şifrələnmə daxil olmaqla) səviyyələrini təmin etmək şərti ilə, istifadə etməklə və, sorğu edilən Tərəfin tələbi ilə sonrakı rəsmi təsdiqlə, qarşılıqlı yardım haqqında sorğular və ya bu sorğularla bağlı məlumat göndərə bilər. Sorğu edilən Tərəf həmin sorğunu qəbul edir və istənilən eyni operativ rabitə vasitəsinin köməyi ilə ona cavab verir.

4. Hazırkı bölmənin müvafiq maddələrinin müddəalarında konkret olaraq nəzərdə tutulan digər hallar istisna olmaqla, qarşılıqlı yardım sorğu edilən Tərəfin qanunvericiliyinə və ya tətbiq edilən qarşılıqlı yardım müqavilələrinin müddəaları ilə nəzərdə tutulan şərtlərə, o cümlədən sorğu edilən Tərəfin əməkdaşlıqdan imtina edə bildiyi əsaslara uyğun göstərilir. Sorğu edilən Tərəf 2-11-ci maddələrdə nəzərdə tutulan cinayətlərə münasibətdə, sorğunun yalnız maliyyə hüquq pozuntusu kimi hesab edilən cinayətlə bağlı olması əsası ilə qarşılıqlı yardımdan imtina etmək hüququnu həyata keçirmir.

5. Bu bölmənin müddəalarına uyğun olaraq, sorğu edilən Tərəfə cinayət faktının mövcudluğu ilə şərtlənən qarşılıqlı yardım göstərmək icazəsi verilirsə, belə bir şərt adıçəkilən tərəfin qanunlarının cinayət əməlini sorğu edilən tərəfin eyni terminologiya çərçivəsində şərh etməsindən və ya bu kateqoriyaya aid etməsindən asılı olmayaraq, o zaman yerinə yetirilir ki, cinayət əməlini göstərən davranış bu Tərəfin qanunlarına uyğun olaraq cinayət sayılsın.

Maddə 26

Plandankənar məlumat

1. Müvafiq Tərəf özünün daxili qanunvericilik çərçivəsində digər Tərəfə əvvəlcədən xəbər vermədən özünün apardığı araşdırmalar çərçivəsində əldə edilmiş məlumatı bir şərtlə göndərə bilər ki, onun fikrincə həmin məlumatın açıqlanması məlumatı alan Tərəfə bu Konvensiyanın müddəalarına uyğun olaraq müəyyənləşdirilmiş cinayət əməlləri ilə əlaqədar təhqiqat, yaxud məhkəmə araşdırmasına başlamaqda, yaxud aparmaqda kömək etmiş olsun və ya bu bölmənin müddəalarına uyğun olaraq həmin Tərəfi əməkdaşlıq haqqında xahiş göndərməyə sövq etsin.

2. Bu məlumatı təqdim etməkdən əvvəl onu göndərən Tərəf məlumatın məxfiliyinə riayət etməyi xahiş edə və ya ondan istifadə ilə bağlı müvafiq şərt irəli sürə bilər. Məlumatı alan Tərəf bu xahişə əməl edə bilməzsə, bu barədə o, məlumatı göndərən Tərəfə bildiriş göndərir, bundan sonra göndərən Tərəf bu cür məlumatın göndərib-göndərməyəcəyini müəyyən edir. Məlumatı alan Tərəf göstərilən şərtlərlə məlumatı qəbul etdikdə, həmin şərtlər onun üçün məcburi hesab edilir.

Yarımfəsil 4

Tətbiq edilən beynəlxalq müqavilələr mövcud olmadıqda qarşılıqlı yardım haqqında sorğuların göndərilməsi prosedurları

Maddə 27

Tətbiq edilən beynəlxalq müqavilələr mövcud olmadıqda qarşılıqlı yardım haqqında sorğuların göndərilməsi prosedurları

1. Sorğu edən və sorğu edilən Tərəflər arasında qüvvədə olan müqavilə və ya vahid və qarşılıqlı qanunvericilik əsasında qəbul edilmiş qarşılıqlı yardım haqqında saziş mövcud olmadıqda, bu maddənin 2-9-cu bəndlərinin müddəaları tətbiq edilir. Belə müqavilə, saziş və ya qanunvericilik mövcud olduqda bu maddənin müddəaları tətbiq edilmir, bu zaman bəzirki maddənin müddəaları o halda tətbiq edilə bilər ki, maraqlı Tərəflər bu maddənin istənilən və ya bütün sonrakı müddəalarını tətbiq etmək barədə razılığa gəlsinlər.

2. a) Hər bir Tərəf qarşılıqlı yardım haqqında sorğuların göndərilməsinə və onlara cavab verilməsinə, belə sorğuların icrasına və ya səlahiyyətlərinə sorğuların yerinə yetirilməsi aid olan orqanlara ötürülməsinə görə məsuliyyət daşıyan mərkəzi orqan və ya orqanlar təyin edir;

b) Bu mərkəzi orqanlar birbaşa bir-biri ilə əlaqə saxlayırlar;

c) Hər bir Tərəf bəzirki Konvensiyanı imzalayarkən və ya ratifikasiya fərmanını yaxud qəbul etmə, bəyənilmə və ya qoşulma haqqında öz sənədini saxlanılması üçün təhvil verərkən Avropa Şurasının baş katibinə bu bəndə uyğun olaraq təyin edilmiş orqanların adları və ünvanları barədə məlumat verir;

d) Avropa Şurasının baş katibi bu məqsədlə Tərəflərin təyin etdikləri orqanların reyestrini tərtib edir və mütəmadi olaraq təzələyir. Hər bir Tərəf bu reyestrdə hər zaman doğru məlumatların saxlanılmasını təmin edir.

3. Bu maddənin müddəalarına uyğun olaraq göndərilən qarşılıqlı yardım haqqında sor-

ğular, onların sorğu edilən Tərəfin qanunvericiliyi ilə ziddiyyət yaratdığı hallar istisna olmaqla, sorğu edən Tərəfin göstərdiyi prosedurlara uyğun olaraq icra edilir.

4. Sorğu edilən Tərəf 25-ci maddənin 4-cü bəndində nəzərdə tutulmuş imtinanın əsaslarından əlavə aşağıdakı hallarda yardım göstərməkdən imtina edə bilər:

a) sorğu onu alan Tərəf tərəfindən siyasi cinayət və ya siyasi cinayətlə bağlı olan cinayət kimi hesab edilən cinayətə aid edildikdə;

b) onun rəyinə və ehtimallara görə sorğunun icrası onun müstəqilliyinə, təhlükəsizliyinə, ictimai asayişinə və ya digər əhəmiyyətli mənafelərinə xələl gətirdikdə.

5. Sorğu edilən Tərəf bir şərtlə sorğu üzrə tədbirlərin qəbul edilməsini təxirə sala bilər ki, həmin tədbirlər onun orqanlarının apardığı cinayət işinin istintaqına və ya məhkəmə icraatına mane olsun.

6. Yardımın göstərilməsindən imtina etməkdən, yaxud onu təxirə salmaqdan əvvəl sorğu edilən Tərəf sorğu edən Tərəflə məsləhətləşərək həmin sorğunu qismən təmin etmək və ya onu zəruri hesab etdiyi şərtlərlə təmin etmək imkanını nəzərdən keçirir.

7. Sorğu edilən Tərəf yardım haqqında sorğunun təmin edilməsinin nəticələri haqqında sorğu edən Tərəfi dərhal məlumatlandırır. Sorğunun təmin edilməsindən imtina edildikdə və ya təmin edilməsi təxirə salındıqda, imtinanın və ya təxirəsalmanın səbəbləri haqqında məlumat verilir. Sorğu edilən Tərəf həmçinin sorğunun təmin edilməsini mümkünsüz edən və ya icrasını xeyli gecikdirən hər hansı səbəblər haqqında sorğu edən Tərəfə məlumat verir.

8. Sorğu edən Tərəf sorğu edilən Tərəfdən bu bölmənin müddəalarına uyğun olaraq edilmiş istənilən sorğu faktının və ya predmetinin, lakin onun icrası ilə uzlaşan dərəcədə, məxfiliyini təmin etməyi xahiş edə bilər. Sorğu edilən Tərəf məxfiliyə əməl etmək haqqında xahişi yerinə yetirə bilmədikdə, bu barədə o, sorğu edən Tərəfə dərhal məlumat verir, bu Tərəf isə öz növbəsində sorğunun göndərib-göndərməyəcəyi haqqında qərar qəbul edir.

9. a) Ciddi zərurət yarandıqda, qarşılıqlı yardım haqqında sorğular və ya bu sorğularla bağlı məlumatlar sorğu edən Tərəfin cinayət prosesini həyata keçirən orqanları tərəfindən birbaşa sorğu edilən Tərəfin müvafiq orqanlarına göndərilə bilər. Belə hallarda sorğu edən Tərəfin mərkəzi orqanları vasitəsilə sorğu edilən Tərəfin mərkəzi orqanlarına həmin sənədlərin surətləri göndərilir.

b) bu hissədə göstərilən hər hansı sorğu və ya məlumat Beynəlxalq Cinayət Polisi Təşkilatı (Interpol) vasitəsilə göndərilə bilər.

c) Sorğu bu maddənin (a) yarımbəndinin müddəalarına uyğun olaraq edildikdə və onun baxılması sorğunu alan orqanın səlahiyyətlərinə aid olmadıqda, sonuncu həmin sorğunu səlahiyyətli milli orqana göndərir və bu barədə birbaşa sorğu edən Tərəfi məlumatlandırır.

d) Hazırkı bəndin müddəalarına uyğun olaraq göndərilən və məcburi tədbirlərin görülməsini nəzərdə tutmayan sorğu və məlumatlar sorğu edən Tərəfin səlahiyyətli orqanları tərəfindən birbaşa sorğu edilən Tərəfin səlahiyyətli orqanlarına göndərilə bilər.

c) Hər bir Tərəf hazırkı Konvensiyanı imzalayarkən və ya ratifikasiya fərmanını yaxud qəbul etmə, bəyənilmə və ya qoşulma haqqında öz sənədini saxlanılması üçün təhvil verərkən səmərəliliyin təmin edilməsi məqsədilə hazırkı bəndin müddəalarına uyğun olaraq göndərilən sorğuların onun mərkəzi orqanlarına ünvanlanmalı olduqları barədə Avropa Şurasının baş katibini məlumatlandıra bilər.

Maddə 28

Məxfilik və məlumatdan istifadənin məhdudiyyətləri

1. Sorğu edən və sorğu edilən Tərəflər arasında qüvvədə olan qarşılıqlı hüquqi yardım haqqında müqavilə və ya vahid yaxud qarşılıqlıq prinsipinə əsaslanan qanunvericiliyə söykənən saziş mövcud olmadıqda hazırkı maddənin müddəaları tətbiq edilir. Belə müqavilə, saziş və ya qanunvericilik mövcud olduqda bu maddənin müddəaları tətbiq edilmir, yalnız əgər maraqlı Tərəflər bunun əvəzində hazırkı maddənin istənilən və ya bütün sonrakı müddəalarını tətbiq etmək barədə razılığa gəlmirlər.

2. Sorğu edilən Tərəf sorğuya cavab olaraq məlumat və ya materialın təqdim edilməsinin aşağıdakı şərtlərini irəli sürə bilər:

a) qarşılıqlı hüquqi yardım haqqında xahiş belə bir şərt qoyulmadan yerinə yetirilə bilmədikdə onların məxfiliyini qorumaq;

b) sorğuda qeyd olunmayan digər istintaq və ya məhkəmə təhqiqatı üçün ondan istifadə etməmək.

3. Sorğu edən Tərəf 2-ci bənddə göstərilən şərtlərdən hər hansı birini yerinə yetirə bilmədikdə, o, bu barədə digər Tərəfi dərhal məlumatlandırır, həmin Tərəf isə sonradan məlumatın təqdim edilib-edilməyəcəyi haqqında qərar qəbul edir. Sorğu edən Tərəf bu şərtləri yerinə yetirməyə razılıq verdikdə, həmin şərtlər onun üçün məcburi xarakter daşıyır.

4. 2-ci bənddə göstərilən şərtlər əsasında məlumat və ya material təqdim edən hər hansı bir Tərəf bu şərtlərin biri ilə əlaqədar digər Tərəfdən həmin məlumat və ya materialdan baş vermiş istifadə ilə bağlı izahat tələb edə bilər.

Fəsil 2

Xüsusi müddəalar

Yarımfəsil 1

İlkin tədbirlərlə bağlı qarşılıqlı yardım

Maddə 29

Kompüterdə saxlanan verilənlərin mühafizəsinin təxirəsalınmaz təminatı

1. İstənilən Tərəf digər Tərəfə həmin Tərəfin ərazisində yerləşən kompüter sistemində saxlanan və qarşılıqlı yardım çərçivəsində barələrində axtarış və ya digər analoji buraxılmanı təmin edən hərəkətlər, götürülmə və ya analoji mühafizənin təmin edilməsi yaxud onların açıqlanması haqqında sorğu göndərilən verilənlərin təxirəsalınmaz mühafizəsini təmin etmək və bununla əlaqədar digər tədbirlər görmək məqsədilə müraciət edə bilər.

2. 1-ci bəndə uyğun olaraq göndərilən məlumatların mühafizəsini təmin etmək haqqında sorğuda aşağıdakılar göstərilir:

a) mühafizəni təmin etmək niyyətində olan orqan;

b) istintaq edilməli və ya araşdırılmalı olan cinayət və əsas faktların qısa təsviri;

c) mühafizə edilməli olan kompüter verilənləri və onların göstərilən cinayətlə əlaqəsi;

d) kompüter verilənlərinin sahibini və ya kompüter sisteminin olduğu yeri müəyyən edən hər hansı mövcud olan məlumat;

e) mühafizənin əsaslandırılması;

f) bu Tərəfin qarşılıqlı yardım çərçivəsində axtarış və ya digər analoji buraxılmanı təmin edən hərəkətlər, götürülmə və ya analoji mühafizənin təmin edilməsi yaxud bu verilənlərin açıqlanması haqqında sorğu göndərmək niyyəti haqqında məlumat.

3. Belə sorğu digər Tərəfdən alındıqda sorğu edilən Tərəf göstərilən verilənlərin daxili qanunvericiliyə uyğun olaraq mühafizəsinin təmin edilməsi üçün bütün lazımi tədbirlər görür. Bu sorğunun təmin edilməsi üçün cinayətin hər iki Tərəfdə cəzalandırılan cinayət əməli kimi tövsif edilməsi şərti irəli sürülmür.

4. Hazırkı Konvensiyanın 2-11-ci maddələrində sadalanmayan cinayətlər üzrə qarşılıqlı yardım çərçivəsində axtarış və ya buraxılmanı təmin edən digər analoji hərəkətlər, götürülmə və ya analoji mühafizənin təmin edilməsi yaxud bu verilənlərin açıqlanması haqqında sorğunun təmin edilməsi üçün cinayətin hər iki Tərəfdə cinayət sayılmasını şərt kimi irəli sürən Tərəf hazırkı Konvensiyaya əsasən mühafizənin təminatı haqqında sorğudan imtina etmək hüququnu o hallarda özündə saxlaya bilər ki, verilənlərin açıqlanması anına cinayətin hər iki Tərəfdə cinayət kimi tövsif edilməsi şərtinin yerinə yetirilməməsini güman etməyə əsaslar olsun.

5. Bundan başqa, mühafizə təminatı haqqında sorğunun təmin edilməsindən aşağıdakı hallarda imtina edilə bilər:

a) müvafiq sorğu onu alan Tərəf tərəfindən siyasi cinayət və ya siyasi cinayətlə bağlı olan cinayət kimi tövsif edilən cinayətə aid edildikdə;

b) sorğu edilən Tərəfin sorğunun icrasının onun müstəqilliyinə, təhlükəsizliyinə, ictimai asayişinə və ya digər əhəmiyyətli mənafelərinə xələl gətirə bilməsi barədə ehtimalları olduqda.

6. Sorğu edilən Tərəf verilənlərin belə mühafizə təminatının gələcəkdə həmin məlumatların mühafizəsini təmin etməyəcəyini və ya onların məxfiliyini təhlükə altına alacağını yaxud başqa bir üsulla sorğu edən Tərəfin istintaqına maneə törədəcəyini ehtimal etdikdə, o, sorğu edən Tərəfi bu barədə dərhal məlumatlandırır, həmin Tərəf sonradan adı çəkilən sorğunun yerinə yetirilib-yetirilməyəcəyi haqqında qərar qəbul edir.

7. 1-ci bənddə göstərilən sorğuya cavab olaraq verilənlərin həyata keçirilmiş mühafizəsinin hər hansı təminatı sorğu edən Tərəfin axtarış və ya buraxılmanı təmin edən digər analoji hərəkətlər, götürülmə və ya analoji mühafizənin təmin edilməsi yaxud bu verilənlərin açıqlanması haqqında sorğunu göndərə bilməsi üçün 60 gündən az olmayan

müddət ərzində həyata keçirilir. Belə sorğu alındıqdan sonra bu verilənlər həmin sorğu ilə əlaqədar qərar qəbul edilənə qədər mühafizə edilir.

Maddə 30

Saxlanılan trafik verilənlərinin təxirəsalınmaz açıqlanması

1. 29-cu maddəyə uyğun olaraq konkret məlumatla əlaqədar olaraq verilənlərin mühafizə tominatı haqqında sorğunun yerinə yetirildiyi zaman sorğu edilən Tərəf digər dövlətdə xidmət provayderinin həmin verilənlərin ötürülməsində iştirakını müəyyən etdikdə, o, operativ şəkildə bu məlumatın verildiyi xidmət provayderinin iş üsulunu müəyyənləşdirmək məqsədilə sorğu edən Tərəfə trafik verilənlərini kifayət həcmdə açıqlayır.

2. 1-ci bəndə uyğun olaraq trafik verilənlərinin açıqlanması haqqında sorğu yalnız aşağıdakı hallarda geri götürülə bilər:

a) o, sorğu edən Tərəfdə siyasi cinayət kimi tövsif olunan cinayətə aid olduqda;

b) sorğu edilən Tərəfin sorğunun icrasının onun müstəqilliyinə, təhlükəsizliyinə, ictimai asayişinə və ya digər əhəmiyyətli mənafelərinə xələl gətirə bilməsi barədə ehtimalları olduqda.

Yarımfəsil 2

İstintaq səlahiyyətləri ilə bağlı qarşılıqlı yardım

Maddə 31

Saxlanılan kompüter verilənlərinə daxil olma ilə bağlı qarşılıqlı yardım

1. Tərəf digər Tərəfdən kompüter sistemi vasitəsi ilə qorunan, sorğu edilən Tərəfin ərazisində yerləşən verilənlərin, o cümlədən 29-cu maddəyə əsasən saxlanılan verilənlərin axtarışını və ya buraxılmanı təmin edən digər analoji hərəkətlərin həyata keçirilməsini, götürülməni və ya analoji mühafizəni yaxud bu verilənlərin açıqlanmasını sorğu edə bilər.

2. Sorğu edilən Tərəf 23-cü maddədə sadalanan beynəlxalq sənədlərə, razılaşmalara və qanunlara, habelə hazırkı bölmənin müvafiq müddəalarına uyğun olaraq həmin sorğuya cavab verir.

3. Sorğuya aşağıdakı hallarda operativ şəkildə cavab verilir:

a) müvafiq verilənlərin itkiyə və ya modifikasiyaya məruz qalacağına güman etməyə əsaslar olduqda;

b) 2-ci bənddə sadalanan sənədlər, razılaşmalar və qanunlar digər operativ əməkdaşlığı nəzərdə tutduqda.

Maddə 32

Müvafiq razılıq əsasında saxlanılan kompüter verilənlərinə və ya ümumi məlumatlara transsərhəd daxil olma

Tərəf digər Tərəfin razılığı olmadan aşağıdakıları edə bilər:

a) coğrafi yerindən asılı olmayaraq ümumi kompüter verilənlərinə (açıq mənbəyə) giriş əldə etmək;

b) öz ərazisində yerləşən kompüter sistemi vasitəsilə digər Tərəfin ərazisində qorunub saxlanan kompüter verilənlərinə girişi və ya həmin verilənləri o şərtlə əldə edə bilər ki, həmin Tərəf belə kompüter sisteminin vasitəsilə verilənləri bu Tərəfə açıqlamaq üçün qanuni səlahiyyətlərə malik olan şəxsin qanuni və könüllü razılığını alsın.

Maddə 33

Real vaxt rejimində trafik verilənlərinin toplanması üzrə qarşılıqlı hüquqi yardım

1. Tərəflər bir-birinə onların ərazisində kompüter sistemlərinin vasitəsilə konkret məlumatlara aid olan trafik verilənlərinin toplanmasında qarşılıqlı hüquqi yardım göstərirlər. 2-ci bənddə göstərilənlərə əməl etməklə belə yardımın göstərilməsi daxili qanunvericilikdə nəzərdə tutulan şərt və prosedurlarla tənzimlənir.

2. Hər bir Tərəf bu yardımı ən azı daxili qanunvericilikdə real vaxt rejimində trafik verilənlərinin toplanması nəzərdə tutulan cinayətlər üzrə göstərir.

Maddə 34

Məlumatın məzmununun ələ keçirilməsi üzrə qarşılıqlı yardım

Tərəflər kompüter sistemi vasitəsi ilə ötürülən konkret məlumatların məzmununun real vaxt rejimində toplanılması və ya yazılması üzrə bir-birlərinə bir şərtlə qarşılıqlı yardım göstərirlər ki, buna qüvvədə olan müqavilələr və onların daxili qanunvericiliyi yol vermiş olsun.

Yarımfəsil 3

24/7 şəbəkəsi

Maddə 35

24/7 şəbəkəsi

1. Hər bir Tərəf, kompüter sistemləri və kompüter verilənləri ilə əlaqədar cinayətlərin istintaqı və ya digər icraatın aparılması məqsədilə və ya cinayətlərə dair sübutların elektron formada toplanması üçün təxirəsalınmaz yardımın göstərilməsini təmin etmək məqsədilə sutkada iyirmi dörd saat, həftədə yeddi gün ərzində fəaliyyət göstərən müvafiq əlaqə mərkəzini təyin edir. Bu yardıma idarəetmədə köməklik və ya, daxili qanunvericilik və ya təcrübə yol verdikdə, aşağıdakı tədbirlərin birbaşa tətbiq edilməsi daxildir:

a) texniki məsləhət yardımının göstərilməsi;

b) 29-cu və 30-cu maddələrə əsasən verilənlərin mühafizəsinin təmin edilməsi;

c) sübutların toplanması, rəsmi məlumatın təqdim edilməsi və şübhəli şəxslərin yerinin müəyyən edilməsi.

2. a) Tərəfin əlaqə mərkəzi digər Tərəfin əlaqə mərkəzi ilə məlumatların operativ mübadiləsi üçün imkanlara malikdir.

b) Tərəfin təyin etdiyi əlaqə mərkəzi bu Tərəfin yardıma və ya ekstradisiyaya mə-

sul olan orqanı yaxud orqanlarının tərkibində olmadıqda, həmin əlaqə mərkəzi öz fəaliyyətini bu orqan yaxud orqanlarla operativ şəkildə əlaqələndirmək üçün tədbirlər görür.

3. Hər bir Tərəf belə şəbəkənin işləməsini asanlaşdırmaq məqsədilə ixtisaslı işçi heyətin və avadanlığın ayrılmasını təmin edir.

Bölmə IV

Yekun müddəalar

Maddə 36

İmzalama və qüvvəyə minmə

1. Hazırkı Konvensiya Avropa Şurasının üzvü olan və onun işlənib hazırlanmasında iştirak etmiş Avropa Şurasının üzvü olmayan dövlətlər tərəfindən imzalanması üçün açıqdır.

2. Hazırkı Konvensiya ratifikasiya, qəbul və ya təsdiq edilməlidir. Ratifikasiya fərmanları və ya qəbul etmə yaxud təsdiq haqqında sənədlər Avropa Şurasının baş katibinə saxlanmaq üçün təhvil verilir.

3. Hazırkı Konvensiya beş dövlətin, o cümlədən Avropa Şurasının üzvü olan ən azı üç dövlətin 1-ci və 2-ci bəndlərin müddəalarına uyğun olaraq Konvensiyaya əməl etməyin məcburiliyinə razılığı ifadə etdiyi tarixdən üç ay sonra gələn ayın birinci günü qüvvəyə minir.

4. Konvensiyanı imzalayan və sonradan Konvensiyaya əməl etməyin məcburiliyinə razılığı ifadə edən hər bir dövlətə münasibətdə Konvensiya, həmin dövlətin 1-ci və 2-ci bəndlərinə uyğun olaraq ona əməl etməyin məcburiliyinə razılığı ifadə etdiyi tarixdən üç ay sonra gələn ayın birinci günü qüvvəyə minir.

Maddə 37

Konvensiyaya qoşulma

1. Konvensiya qüvvəyə mindikdən sonra Avropa Şurasının Nazirlər Komitəsi Konvensiyanın iştirakçısı olan dövlətlər ilə məsləhətləşmələr apararaq, Avropa Şurasının üzvü olmayan və Konvensiyanın işlənib hazırlanmasında iştirak etməyən istənilən dövlətə bu Konvensiyaya qoşulmağı təklif edə bilər. Belə qərar Avropa Şurası Nizamnaməsinin 20.d maddəsində nəzərdə tutulan səs çoxluğu və Nazirlər Komitəsinin işində iştirak etməyə hüququ olan Tərəflərin nümayəndələrinin yekdil səs verməsi ilə qəbul edilir.

2. 1-ci bəndə uyğun olaraq Konvensiyaya qoşulan hər hansı dövlətə münasibətdə, Konvensiya onların qoşulma haqqında sənədi Avropa Şurasının baş katibinə saxlanması üçün verdiyi tarixdən üç ay sonra gələn ayın birinci günü qüvvəyə minir.

Maddə 38

Ərazi üzrə tətbiq

1. Hər bir dövlət imzalama zamanı və ya ratifikasiya fərmanını, qəbuletmə, təsdiqetmə yaxud qoşulma haqqında sənədini saxlanması üçün təqdim edərkən hazırkı Konvensiyanın tətbiq ediləcəyi ərazini və ya əraziləri göstərə bilər.

2. Hər bir Tərəf istənilən sonrakı müddətdə Avropa Şurası baş katibinin adına bəyanat verməklə, hazırkı Konvensiyanın qüvvəsini həmin bəyanatda göstərilmiş hər hansı bir digər ərazi̇yə tətbiq edə bilər. Bu cür əraziyə münasibətdə Konvensiya, baş katib bu cür bəyanatı aldığı tarixdən üç ay sonra gələn ayın birinci günü qüvvəyə minir.

3. Yuxarıda göstərilən iki bəndə uyğun olaraq təqdim edilmiş hər hansı bir bəyanat onda göstərilən hər hansı bir əraziyə münasibətdə baş katibin adına bildiriş təqdim etməklə geri götürülə bilər. Geri götürülmə baş katib bu cür bildirişi aldığı tarixdən üç ay sonra gələn ayın birinci günü qüvvəyə minir.

Maddə 39

Konvensiyanın qüvvəsi

1. Hazırkı Konvensiyanın məqsədi Tərəflər arasında müvafiq çoxtərəfli və ya ikitərəfli müqavilələri və ya razılaşmaları, o cümlədən aşağıdakı müddəaları tamamlamaqdan ibarətdir:

- 1957-ci 13 dekabr tarixli Parisdə imzalanmaq üçün açıq elan edilmiş Ekstradisiya haqqında Avropa Konvensiyası (AMS № 024);

- 1959-cu il 20 aprel tarixli Strasburqda imzalanmaq üçün açıq elan edilmiş Cinayət işləri üzrə qarşılıqlı hüquqi yardım haqqında Avropa Konvensiyası (AMS № 030);

- 1978-ci il 17 mart tarixli Strasburqda imzalanmaq üçün açıq elan edilmiş Cinayət işləri üzrə qarşılıqlı hüquqi yardım haqqında Avropa Konvensiyasına Əlavə Protokol (AMS № 099).

2. İki və ondan daha çox Tərəf hazırkı Konvensiyanın predmetini təşkil edən məsələlər üzrə saziş və ya müqavilə bağladıqda yaxud başqa bir üsulla həmin məsələlərə münasibətlərini qurduqda və ya onlar bunu gələcəkdə həyata keçirə bildikdə, adı çəkilən Tərəflər göstərilən saziş və müqaviləni tətbiq edə və ya öz münasibətlərini onlara uyğun olaraq tənzimlək hüququna malikdirlər. Lakin, Tərəflər bu sənədin tənzimlədiyi məsələlərdə fərqli olan və hazırkı Konvensiyanın predmetini təşkil edən digər məsələlər üzrə münasibətlər qurduqda, onlar bu münasibətləri Konvensiyanın məqsəd və prinsiplərini pozmamaqla həyata keçirirlər.

3. Hazırkı Konvensiyada heç bir müddəa Tərəflərin digər hüquq, məhdudiyyət və öhdəliklərinə toxunmur.

Maddə 40

Bəyanatlar

Avropa Şurası baş katibinin adına rəsmi bildiriş göndərməklə hər bir dövlət imzalama zamanı və ya ratifikasiya fərmanının və ya qəbuletmə, təsdiq və ya qoşulma haqqında sənədi saxlanması üçün təhvil verərkən 2-ci, 3-cü maddə və 6-cı maddənin 1.b bəndi, 7-ci maddə və 9-cu maddənin 3-cü bəndi, 27-ci maddənin 9.e bəndində nəzərdə tutulmuş əlavə elementlərin daxil edilməsi məqsədilə müvafiq imkanlardan istifadə etdiyini bəyan edə bilər.

Maddə 41

Federativ dövlətə aid olan müddəa

1. Federativ dövlət hazırkı Konvensiyanın II fəslində əksini tapan, mərkəzi hakimiyyətlə federasiya subyektləri arasında yaxud digər analoji ərazi vahidləri arasında münasibətləri tənzimləyən öhdəlikləri qəbul etmək hüququnu özündə saxladığını bir şərh qeyd-şərt edə bilər ki, o, istənilən halda III fəslə uyğun olaraq əməkdaşlığı həyata keçirmək qabiliyyəti olsun.

2. 1-ci bəndə uyğun olaraq belə bir qeyd-şərti irəli sürməklə federativ dövlət II bölmədə nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsinə təminat vermək üzrə öhdəlikləri istisna etmək və ya əhəmiyyətli dərəcədə ixtisar etmək məqsədilə həmin qeyd-şərtin müddəalarından istifadə edə bilməz. O, həmin tədbirlərin həyata keçirilməsinə təminat vermək üçün daha geniş və təsirli hüquq-mühafizə imkanlarını nəzərdə tutmalıdır.

3. Həyata keçirilməsi federasiya subyektlərinin və ya federasiyanın konstitusiya sisteminə uyğun olaraq qanunvericilik tədbirlərini görmək öhdəliyinə malik olmayan digər analoji ərazi vahidlərinin yurisdiksiyasına düşən bu Konvensiyanın müddəalarına gəlincə, federal hökumət həmin subyektlərin səlahiyyətli orqanlarına adi qaydada müddəalar haqqında, o cümlədən onları həmin müddəaların həyata keçirilməsi üçün lazımi hərəkətə sövq etmək mənasında özünün müsbət rəyini bildirir.

Maddə 42

Qeyd-şərtlər

Avropa Şurası baş katibinin adına rəsmi bildiriş göndərməklə hər bir dövlət imzalama zamanı və ya ratifikasiya fərmanının və ya qəbuletmə, təsdiq və ya qoşulma haqqında sənədi saxlanması üçün təhvil verərkən bəyan edə bilər ki, o, 4-cü maddənin 2-ci bəndi, 6-cı maddənin 3-cü bəndi, 9-cu maddənin 4-cü bəndi, 10-cu maddənin 3-cü bəndi, 11-ci maddənin 3-cü bəndi, 14-cü maddənin 3-cü bəndi, 22-ci maddənin 2-ci bəndi, 29-cu maddənin 4-cü bəndi və 41-ci maddənin 1-ci bəndində nəzərdə tutulmuş qeyd-şərti bəyan etmək hüququna malikdir. Başqa qeyd-şərtlərin edilməsinə yol verilmir.

Maddə 43

Qeyd-şərtlərin statusu və ləğv edilməsi

1. 42-ci maddənin müddəalarına uyğun olaraq qeyd-şərt vermiş Tərəf Avropa Şurası baş katibinin adına ünvanlanmış bildiriş vasitəsilə qeyd-şərtin özünü və ya bir hissəsini ləğv edə bilər. Qeyd-şərtin bu şəkildə ləğvi müvafiq bildirişin baş katib tərəfindən alındığı gün qüvvəyə minir. Bildirişdə qeyd-şərtin ləğvi orada göstərilən tarixdə qüvvəyə minməsi haqqında qeyd olduqda və bu tarix isə bildirişin baş katib tərəfindən alındığı tarixdən sonrakı tarixə təsadüf etdikdə, qeyd-şərtin ləğv edilməsi göstərilən sonrakı tarixdən etibarən qüvvəyə minir.

2. 42-ci maddədə göstərilən qeyd-şərti verən Tərəf, şərait icazə verdikdə, həmin qeyd-şərti tam və ya qismən ləğv edir.

3. Avropa Şurasının baş katibi 42-ci maddədə göstərilmiş bir və ya bir neçə qeyd-şərt verən Tərəfə həmin qeyd-şərti (qeyd-şərtləri) ləğv etmək imkanları haqqında müntəzəm olaraq sorğu göndərə bilər.

Maddə 44

Düzəlişlər

1. Hər bir Tərəf bu Konvensiyaya düzəlişlər təklif edə bilər və müvafiq məlumat Avropa Şurasının üzvü olan dövlətlərə, Avropa Şurasının üzvü olmayan, lakin hazırkı Konvensiyanın işlənib hazırlanmasında iştirak etmiş dövlətlərə, o cümlədən bu Konvensiyaya qoşulan və ya 37-ci maddənin müddəalarına uyğun olaraq qoşulmaq təklifi alan hər hansı dövlətə Avropa Şurasının baş katibi vasitəsilə bildirilir.

2. Tərəflərdən hər hansı biri tərəfindən təklif edilmiş istənilən düzəliş Nazirlər Komitəsinə təklif edilən düzəlişə dair öz rəyini bildirən Cinayət problemləri üzrə Avropa Komitəsinə göndərilir.

3. Nazirlər Komitəsi təklif edilən düzəlişi və Cinayət problemləri üzrə Avropa Komitəsi tərəfindən təqdim edilən rəyi nəzərdən keçirir və üzv olmayan hazırkı Konvensiyanın iştirakçıları ilə məsləhətləşmədən sonra həmin düzəlişi qəbul edə bilər.

4. Hazırkı maddənin 3-cü bəndinin müddəalarına uyğun olaraq Nazirlər Komitəsi tərəfindən qəbul edilmiş hər hansı düzəlişin mətni təsdiq olunmaq üçün Tərəflərə göndərilir.

5. Hazırkı maddənin 3-cü bəndinə uyğun olaraq qəbul edilmiş hər hansı düzəliş bütün Tərəflərin baş katibə həmin düzəlişlə əlaqədar razılıqlarını bildirdikdən sonra 13-cü günü qüvvəyə minir.

Maddə 45

Mübahisələrin həlli

1. Cinayət problemləri üzrə Avropa Komitəsi bu Konvensiyanın şərhi və tətbiqi haqqında məlumatlandırılır.

2. Tərəflər arasında hazırkı Konvensiyanın şərhi və ya tətbiqi ilə bağlı mübahisə yarandıqda, onlar bu mübahisəni danışıqlar və ya öz seçimlərinə uyğun olan digər dinc yollarla, o cümlədən mübahisənin maraqlı Tərəflərinin razılığını almaq üçün Cinayət problemləri üzrə Avropa Komitəsinə, qərarı Tərəflər üçün məcburi qüvvəyə malik olan Arbitraj Məhkəməsinə yaxud Beynəlxalq Məhkəməyə verməklə tənzimləməyə çalışırlar.

Maddə 46

Tərəflərin məsləhətləşmələri

1. Tərəflər, müvafiq hallarda, aşağıdakıları təşviq etmək məqsədilə müntəzəm olaraq məsləhətləşmələr keçirirlər:

a) hazırkı Konvensiyadan səmərəli istifadə və onun tətbiq edilməsi, o cümlədən ona aid olan problemlərin, habelə hazırkı Konvensiyaya uyğun olaraq verilmiş hər hansı bəyanat və ya qeyd-şərtin nəticələrinin aşkarlanması;

b) hüquqi, siyasi və ya texniki sahələrdə kibercinayətkarlığa və elektron formada sübutların toplanmasına aid mühüm dəyişikliklər haqqında məlumat mübadiləsi;

c) hazırkı Konvensiyaya mümkün əlavə və ya düzəlişlərin edilməsi məsələsinin nəzərdən keçirilməsi.

2. Cinayət problemləri üzrə Avropa Komitəsi 1-ci bənddə göstərilən məsləhətləşmələrin nəticələri haqqında müntəzəm olaraq məlumatlandırılır.

3. Cinayət problemləri üzrə Avropa Komitəsi müvafiq hallarda 1-ci bənddə göstərilən məsləhətləşmələrin keçirilməsinə yardım göstərir və Tərəflərə onların Konvensiyaya əlavə və düzəlişlər etmək səylərinə köməklik etmək üçün zəruri tədbirlər görür. Hazırkı Konvensiyanın qüvvəyə minməsindən sonra üç ildən gec olmayaraq Cinayət problemləri üzrə Avropa Komitəsi Tərəflərlə əməkdaşlıqda Konvensiyanın bütün müddəalarını nəzərdən keçirir və, zərurət yarandıqda, hər hansı müvafiq düzəlişin qəbul edilməsini tövsiyə edir.

4. Avropa Şurası xərclərin öz üzərinə götürdüyü hallar istisna olmaqla, 1-ci bəndin müddəalarının həyata keçirilməsi zamanı əmələ gələn xərcləri Tərəflər özlərinin müəyyən etdikləri şərtlər əsasında ödəyirlər.

5. Avropa Şurasının Katibliyi Tərəflərə onların bu maddədən irəli gələn vəzifələrinin həyata keçirilməsində köməklik göstərir.

Maddə 47

Denonsasiya

1. Hər bir Tərəf Avropa Şurasının baş katibinə bildiriş göndərməklə hazırkı Konvensiyanı istənilən zaman denonsasiya edə bilər.

2. Denonsasiya baş katibin belə bildirişi aldığı tarixdən üç ay sonra gələn ayın birinci günü qüvvəyə minir.

Maddə 48

Bildiriş

Avropa Şurasının baş katibi Avropa Şurasının üzvü olan dövlətlərə, hazırkı Konvensiyanın işlənib-hazırlanmasında iştirak etmiş Şuranın üzvü olmayan dövlətlərə, habelə hazırkı Konvensiyaya qoşulmuş və ya qoşulmaq təklifi almış istənilən dövlətə aşağıdakılar barədə bildiriş göndərir:

a) hər hansı imzalama;

b) istənilən ratifikasiya fərmanının və ya qəbuletmə, təsdiq və ya qoşulma haqqında sənədin saxlanması təhvil verilməsi;

c) 36-cı və 37-ci maddələrin müddəalarına uyğun olaraq hazırkı Konvensiyanın qüvvəyə minməsinin istənilən tarixi;

d) 40-cı maddənin müddəalarına uyğun olaraq verilmiş hər hansı bəyanat və ya 42-ci maddənin müddəalarına uyğun olaraq verilmiş hər hansı qeyd-şərt;

e) hazırkı Konvensiyaya aid olan hər hansı digər aktlar, bildirişlər və məlumatlar.

Bunun təsdiqi olaraq, lazımi qaydada səlahiyyət verilmiş aşağıda imza edənlər hazırkı Konvensiyanı imzaladılar.

Budapeşt şəhərində, 2001-ci il noyabrın 23-də ingilis və fransız dillərində imzalanmışdır, hər iki mətn bir nüsxədə eyni qüvvəyə malikdir, həmin nüsxə Avropa Şurasının ar-

xivlərində saxlanılır. Avropa Şurasının baş katibi Avropa Şurasının üzvü olan hər bir dövlətə, hazırkı Konvensiyanın işlənib-hazırlanmasında iştirak etmiş Şuranın üzvü olmayan dövlətlərə və Konvensiyaya qoşulmuş istənilən dövlətə göndərir.

Azərbaycan Respublikasının "Kibercinayətkarlıq haqqında" Konvensiyanın 24-cü maddəsinin 7-ci bəndinin "a" yarımbəndi üzrə Bəyanatı

Azərbaycan Respublikası, Konvensiyanın 24-cü maddəsinin 7-ci bəndinin "a" yarımbəndinə uyğun olaraq, ekstradisiya müqaviləsi olmadığı hallarda ekstradisiya və müvəqqəti həbsə dair sorğuları qəbul edən səlahiyyətli orqan qismində Ədliyyə Nazirliyini təyin edir.

Azərbaycan Respublikasının "Kibercinayətkarlıq haqqında" Konvensiyanın 27-ci maddəsinin 2-ci bəndinin "c" yarımbəndi üzrə Bəyanatı

Azərbaycan Respublikası, Konvensiyanın 27-ci maddəsinin 2-ci bəndinin "c" yarımbəndinə müvafiq olaraq, qarşılıqlı yardım üçün sorğu göndərmək, sorğuları icra etmək və onların icra edilməsi üçün məsul olan səlahiyyətli orqan qismində Milli Təhlükəsizlik Nazirliyini təyin edir.

Azərbaycan Respublikasının "Kibercinayətkarlıq haqqında" Konvensiyanın 27-ci maddəsinin 9-cu bəndinin "e" yarımbəndi üzrə Bəyanatı

Konvensiyanın 27-ci maddəsinin 9-cu bəndinin "e" yarımbəndinə uyğun olaraq Azərbaycan Respublikası baş katibi məlumatlandırır ki, səmərəliliyin təmin edilməsi məqsədilə bu bənd əsasında edilmiş sorğular onun mərkəzi hakimiyyət orqanına göndərilməlidir.

Azərbaycan Respublikasının "Kibercinayətkarlıq haqqında" Konvensiyanın 35-ci maddəsinin 1-ci bəndi üzrə Bəyanatı

Azərbaycan Respublikası, Konvensiyanın 35-ci maddəsinin 1-ci bəndinə müvafiq olaraq, kompüter sistemləri və kompüter verilənləri ilə əlaqədar cinayətlərin istintaqı və ya digər icraatın aparılması məqsədilə və ya cinayətlərə dair sübutların elektron formada toplanması üçün təxirəsalınmaz yardımın göstərilməsini təmin etmək məqsədilə sutkada iyirmi dörd saat, həftədə yeddi gün ərzində fəaliyyət göstərən əlaqələndirici qurum qismində Milli Təhlükəsizlik Nazirliyini təyin edir.

Azərbaycan Respublikasının "Kibercinayətkarlıq haqqında" Konvensiyanın 38-ci maddəsi üzrə Bəyanatı

Azərbaycan Respublikası, Konvensiyanın 38-ci maddəsinə uyğun olaraq, Konvensiyanın müddəalarının Azərbaycan Respublikasının Ermənistan Respublikası tərəfindən işğal olunmuş ərazilərində həyata keçirilməsinə həmin ərazilər işğaldan azad edilməyənədək zəmanət verə bilməyəcəyini bəyan edir.

Azərbaycan Respublikasının "Kibercinayətkarlıq haqqında" Konvensiyanın 6-cı maddəsinin 1-ci bəndinin "b" yarımbəndi üzrə qeyd-şərti

Azərbaycan Respublikası Konvensiyanın 6-cı maddəsinin 1-ci bəndinin "b" yarımbəndinə dair bəyan edir ki, əməllər az əhəmiyyətli olduğuna görə ictimai təhlükəli hesab edilmədikdə, cinayət deyil, tənbeh edilə bilən hüquq pozuntuları kimi qiymətləndirilir. Cəza təhdidi altında qadağan olunmuş ictimai təhlükəli əməlin (hərəkət və ya hərəkətsizliyin) təqsirli olaraq törədilməsi əhəmiyyətli zərərə səbəb olursa, cinayət sayılır.

Azərbaycan Respublikasının "Kibercinayətkarlıq haqqında" Konvensiyanın 6-cı maddəsinin 3-cü bəndi üzrə qeyd-şərti

Azərbaycan Respublikası, Konvensiyanın 6-cı maddəsinin 3-cü bəndinə dair Konvensiyanın 6-cı maddəsinin 1-ci bəndində göstərilən əməlləri, az əhəmiyyətli olduğuna görə ictimai təhlükəli cinayət hesab edilmədikdə, cinayət tərkibli hüquq pozuntuları kimi yox, cəzalandırıla bilən hüquq pozuntuları kimi qiymətləndirir, cinayət məsuliyyətinin yalnız göstərilən əməllər əhəmiyyətli zərərlə nəticələndiyi halda yarandığı barədə qeyd-şərt edir.

Azərbaycan Respublikasının "Kibercinayətkarlıq haqqında" Konvensiyanın 42-ci maddəsi və 4-cü maddəsinin 2-ci bəndi üzrə qeyd-şərti

Azərbaycan Respublikası, Konvensiyanın 42-ci maddəsinə və 4-cü maddəsinin 2-ci bəndinə uyğun olaraq, cinayət məsuliyyətinin yalnız Konvensiyanın 4-cü maddəsində göstərilən əməllər əhəmiyyətli zərərlə nəticələndiyi halda yarandığı barədə qeyd-şərt edir.

Azərbaycan Respublikasının "Kibercinayətkarlıq haqqında" Konvensiyanın 42-ci maddəsi və 29-cu maddəsinin 4-cü bəndi üzrə qeyd-şərti

Azərbaycan Respublikası, Konvensiyanın 42-ci maddəsinə və 29-cu maddəsinin 4-cü bəndinə uyğun olaraq, verilənlərin mühafizəsinin təminatına dair sorğunun əsaslandığı cinayət aşkar edildiyi vaxt, həmin cinayət Azərbaycan Respublikası qanunvericiliyinə görə cinayət hesab edilmədiyi halda, verilənlərin mühafizəsinin təminatı ilə bağlı sorğunun icrasından imtina etmək hüququna malikdir.

Beynəlxalq Peyk Rabitəsi Təşkilatı ilə bağlı Sazişə dəyişikliyin təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

1971-ci il avqustun 20-də Vaşinqton şəhərində imzalanmış Beynəlxalq Peyk Rabitəsi Təşkilatı ilə bağlı Sazişə dəyişiklik təsdiq edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 30 sentyabr 2009-cu il

№ 875-IIIQ

Yoxlama və metroloji attestasiya məqsədi ilə daşınan normativ sənədlərin, etalonların, ölçmə vasitələrinin və standart nümunələrin gömrük rüsumlarından, vergilərdən və xüsusi icazələr verilməsindən azad edilməsi haqqında" 1995-ci il 10 fevral tarixli Sazişə dəyişikliklər edilməsi barədə protokolun təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

"Yoxlama və metroloji attestasiya məqsədi ilə daşınan normativ sənədlərin, etalonların, ölçmə vasitələrinin və standart nümunələrin gömrük rüsumlarından, vergilərdən və xüsusi icazələr verilməsindən azad edilməsi haqqında" 1995-ci il 10 fevral tarixli Sazişə dəyişikliklər edilməsi barədə 2007-ci il noyabrın 22-də Aşqabad şəhərində imzalanmış Protokol təsdiq edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 30 sentyabr 2009-cu il

№ 876-IIIQ

"Yoxlama və metroloji attestasiya məqsədi ilə daşınan normativ sənədlərin, etalonların, ölçmə vasitələrinin və standart nümunələrin gömrük rüsumlarından, vergilərdən və xüsusi icazələr verilməsindən azad edilməsi haqqında" 1995-ci il 10 fevral tarixli Sazişə dəyişikliklər edilməsi barədə Protokol

"Yoxlama və metroloji attestasiya məqsədi ilə daşınan normativ sənədlərin, etalonların, ölçmə vasitələrinin və standart nümunələrin gömrük rüsumlarından, vergilərdən və xüsusi icazələr verilməsindən azad edilməsi haqqında" 1995-ci il 10 fevral tarixli Sazişin (bundan sonra - Saziş) iştirakçısı olan dövlətlərin hökumətləri

aşağıdakılar barədə razılığa gəldilər:

1. Sazişə aşağıdakı dəyişikliklər etmək:

1.1. Sazişin adında "yoxlama" sözündən sonra "kalibrləmə, tutuşdurma' sözləri əlavə edilsin.

1.2. Preambulanın üçüncü abzasında "istehsalı, yoxlanması" sözlərindən sonra "kalibrlənməsi, tutuşdurulması" sözləri əlavə edilsin.

1.3. 2-ci maddədə "yoxlama" sözündən sonra "kalibrləmə, tutuşdurma" sözləri əlavə edilsin.

1.4. 5-ci maddə aşağıdakı redaksiyada verilsin:

"Hazırkı Saziş, depozitariyə - Müstəqil Dövlətlər Birliyinin İcraiyyə komitəsinə qoşulma haqqında sənədlərin təqdim edilməsi yolu ilə standartlaşdırma, metrologiya və sertifikatlaşdırma sahəsində razılaşdırılmış siyasətin həyata keçirilməsi haqqında 1992-ci il 13 mart tarixli Sazişin iştirakçısı olan digər dövlətlərin qoşulması üçün açıqdır".

1.5. Növbəti maddələrin nömrələnməsini müvafiq olaraq dəyişdirməklə Sazişə

aşağıdakı redaksiyada 7-ci maddə əlavə edilsin:

"Hazırkı Sazişə, Tərəflərin qarşılıqlı razılığı ilə, onun ayrılmaz hissəsi olan ayrıca protokol ilə rəsmiləşdirilən dəyişikliklər edilə bilər".

2. Hazırkı Protokolun təfsiri və tətbiqi ilə bağlı mübahisələr və fikir ayrılığı, Tərəflər digər halı razılaşdırmadıqda, danışıqlar və məsləhətləşmələri yolu ilə həll edilir.

3. Hazırkı Protokol, onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların dövlətlər tərəfindən yerinə yetirilməsi haqqında üçüncü yazılı bildirişin depozitariyə saxlanması üçün verildiyi tarixdən qüvvəyə minir.

Aşqabad şəhərində 2007-ci il noyabrın 22-də bir əsl nüsxədə rus dilində imzalanmışdır. Əsl nüsxə hazırkı Protokolu imzalamış hər bir dövlətə onun təsdiq edilmiş surətini göndərməli olan Müstəqil Dövlətlər Birliyinin İcraiyyə Komitəsində saxlanılır.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN

(imza)

ERMƏNİSTAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN

(imza)

BELARUS RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN

(imza)

GÜRCÜSTAN HÖKUMƏTİ ADINDAN

(imza)

QAZAXISTAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN

(imza)

QIRĞIZISTAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN

(imza)

MOLDOVA RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN

(imza)

RUSİYA FEDERASİYASI HÖKUMƏTİ ADINDAN

(imza)

TACİKİSTAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN

(imza)

TÜRKMƏNİSTAN HÖKUMƏTİ ADINDAN

(imza)

ÖZBƏKİSTAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN

(imza)

UKRAYNA HÖKUMƏTİ ADINDAN

(imza)

"Birləşmiş Millətlər Təşkilatının işçi heyətinin və onunla bağlı heyətin təhlükəsizliyi haqqında" Konvensiyaya Fakültativ Protokolun təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

"Birləşmiş Millətlər Təşkilatının işçi heyətinin və onunla bağlı heyətin təhlükəsizliyi haqqında" Konvensiyaya 2005-ci il dekabrın 9-da Nyu-York şəhərində imzalanmış Fakültativ Protokol təsdiq edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 30 sentyabr 2009-cu il

№ 877-IIIQ

Birləşmiş Millətlər Təşkilatının işçi heyətinin və onunla bağlı heyətin təhlükəsizliyi haqqında Konvensiyaya Fakültativ Protokol

Hazırkı Protokolun iştirakçı-dövlətləri,

1994-cü il 9 dekabr tarixində Nyu-York şəhərində qəbul olunmuş Birləşmiş Millətlər Təşkilatının işçi heyətinin və onunla bağlı heyətin təhlükəsizliyi haqqında Konvensiyanın müddəalarına istinad edərək,

Birləşmiş Millətlər Təşkilatının işçi heyətinin və onunla bağlı heyətinə davamlı hücumlar ilə əlaqədar dərin narahatlığını ifadə edərək,

Etiraf edərək ki, Birləşmiş Millətlər Təşkilatının işçi heyəti və onunla bağlı heyət üçün xüsusi təhlükəli olan və humanitar və siyasi və ya sülh yaratma dövründə inkişaf sahəsində yardımın və fövqəladə humanitar yardımın göstərilməsi məqsədilə həyata keçirilən Birləşmiş Millətlər Təşkilatının əməliyyatları Konvensiya ilə nəzərdə tutulan hüquqi müdafiə sahəsinin bu kimi heyətə tətbiq edilməsinin zəruriliyini şərtləndirir,

Birləşmiş Millətlər Təşkilatının əməliyyatlarına cəlb olunan Birləşmiş Millətlər Təşkilatının işçi heyəti və onunla bağlı heyətinə hücum edən şəxslərin məhkəmə məsuliyyətinə cəlb edilməsinin təmini üçün effektiv rejiminin müəyyən edilməsinin zəruriliyinə əmin olaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə I

Qarşılıqlı əlaqə

Hazırkı Protokol 1994-cü il 9 dekabr tarixində Nyu-York şəhərində qəbul olunmuş Birləşmiş Millətlər Təşkilatının işçi heyətinin və onunla bağlı heyətin təhlükəsizliyi haqqında Konvensiyanı (bundan sonra Konvensiya) tamamlayır və Protokolun iştirakçıları üçün Konvensiya və Protokol vahid sənəd kimi oxunur və təfsir olunur.

Maddə II

Konvensiyanın Birləşmiş Millətlər Təşkilatının əməliyyatlarına münasibətdə tətbiqi

1. Hazırkı Protokolun iştirakçıları Konvensiyanın 1 (c) maddəsində müəyyən olunan əməliyyatlara əlavə olaraq, həmin Konvensiyanı aşağıda göstərilən məqsədlərlə Birləşmiş Millətlər Təşkilatını Nizamnaməsinə uyğun olaraq Birləşmiş Millətlər Təşkilatının səlahiyyətli orqanı tərəfindən təsis olunan və Birləşmiş Millətlər Təşkilatının rəhbərliyi və nəzarəti altında həyata keçirilən Birləşmiş Millətlər Təşkilatının bütün digər əməliyyatlarına tətbiq edirlər:

a) humanitar və siyasi yardımın və ya sülh yaratma dövründə inkişaf sahəsində yardımın göstərilməsi və ya,

b) fövqəladə humanitar yardımın göstərilməsi.

2. 1-ci bənddə Birləşmiş Millətlər Təşkilatı ilə razılaşmaya uyğun olaraq yaradılmış BMT-nin Mərkəzi təsisatları və ya onun xüsusiləşdirilmiş təsisatlarının qərargahları kimi olan Birləşmiş Millətlər Təşkilatının daimi bölmələrinə münasibətdə tətbiq edilmir.

3. Qəbul edən dövlət II 1 (b) maddəyə uyğun həyata keçirilən yeganə məqsədi olan təbii fəlakətə təsir göstərmək kimi əməliyyata münasibətdə hazırkı Protokolun müddəalarının tətbiq edilməməsi haqqında Birləşmiş Millətlər Təşkilatının Baş Katibinə bəyanat verə bilər. Belə bəyanat əməliyyatın başlanmasından əvvəl verilməlidir.

Maddə III

Konvensiyanın 8-ci maddəsinə münasibətdə iştirakçı-dövlətin vəzifəsi

Konvensiyanın 8-ci maddəsinin hazırkı Protokolun II-ci maddəsində müəyyən olunmuş BMT əməliyyatlarına tətbiq edilməsi üzrə hazırkı Protokolun iştirakçı-dövlətinin öhdəliyi bu dövlətin qanun və qaydalarını pozan lakin belə hərəkətlərin iştirakçı-dövlətin heç bir beynəlxalq-hüquqi öhdəliyini pozmuş olmayan Birləşmiş Millətlər Təşkilatının işçi heyəti və onunla bağlı heyətə münasibətdə öz milli yurisdiksiyasının tətbiq edilməsi qaydasında hərəkətlər etmək hüququna xələl gətirmədən müəyyən edilir.

Maddə IV

İmzalanma

Hazırkı Protokol bütün dövlətlər tərəfindən 16 yanvar 2006-cı il tarixindən 16 yanvar 2007-ci il tarixinədək on iki ay ərzində Birləşmiş Millətlər Təşkilatının Mərkəzi təsisatlarında imzalanmaq üçün açıqdır.

Maddə V

Məcburiliyinə razılıq

1. Hazırkı Protokol onu imzalayan dövlətlər tərəfindən ratifikasiya qəbul və ya təsdiq edilməlidir. Ratifikasiya, qəbul və ya təsdiq etmə haqqında sənədlər Birləşmiş Millətlər Təşkilatının Baş Katibinə saxlanca verilir.

2. Hazırkı Protokol 16 yanvar 2007-ci il tarixindən sonra onu imzalamamış hər hansı bir dövlət üçün qoşulmağa açıqdır. Qoşulma haqqında sənədlər Birləşmiş Millətlər Təşkilatının Baş Katibinə saxlanca verilir.

3. Konvensiyanın iştirakçısı olmayan hər hansı bir dövlət hazırkı Protokolu ratifikasiya, qəbul, təsdiq edə və ya həmin Protokola qoşula bilər o şərtlə ki, həmin dövlət eyni zamanda Konvensiyanın 25 və 26 maddələrinə uyğun olaraq onu ratifikasiya, qəbul, təsdiq edər və ya Konvensiyaya qoşular.

Maddə VI

Qüvvəyə minmə

1. Hazırkı Protokol ratifikasiya, qəbul, təsdiq etmə və ya qoşulma haqqında iyirmi iki sənədin Birləşmiş Millətlər Təşkilatının Baş Katibinə saxlanca verilməsindən 30 gün sonra qüvvəyə minir.

2. Protokol onu ratifikasiya, qəbul, təsdiq edən və ya ona qoşulan hər bir dövlətə münasibətdə ratifikasiya, qəbul, təsdiq etmə və ya qoşulma haqqında iyirmi ikinci sənədin saxlanca verilməsindən sonra belə dövlət tərəfindən ratifikasiya, qəbul, təsdiq etmə və ya qoşulma haqqında sənədin saxlanca verilməsindən 30 gün sonra qüvvəyə minir.

Maddə VII

Denonsasiya

1. Hər bir iştirakçı-dövlət Birləşmiş Millətlər Təşkilatının Baş Katibinə yazılı bildiriş göndərməklə hazırkı Protokolu denonsasiya edə bilər.

2. Denonsasiya Birləşmiş Millətlər Təşkilatının Baş Katibi tərəfindən bildirişin alınması tarixindən bir il sonra qüvvəyə minir.

Maddə VIII

Autentik mətnlər

Hazırkı Protokolun ingilis, ərəb, ispan, çin, rus və fransız dillərində olan mətnləri bərabər autentikdir və Birləşmiş Millətlər Təşkilatının Baş Katibinə saxlanca verilir. Baş Katib bu sənədin təsdiq olunmuş surətlərini bütün dövlətlərə göndərir.

Nyu-York şəhərində iki min beşinci il doqquz dekabr tarixində imzalanmışdır.

"Terrorizm, mütəşəkkil cinayətkarlıq və digər növ təhlükəli cinayətlərlə mübarizə sahəsində GUÖAM-ın iştirakçısı olan dövlətlərin Hökumətləri arasında əməkdaşlıq haqqında" 2002-ci il 20 iyul tarixli Sazişə dair Protokolun təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

"Terrorizm, mütəşəkkil cinayətkarlıq və digər növ təhlükəli cinayətlərlə mübarizə sahəsində GUÖAM-ın iştirakçısı olan dövlətlərin Hökumətləri arasında əməkdaşlıq haqqında" 2002-ci il 20 iyul tarixli Sazişə dair 2008-ci il dekabrın 4-də Helsinki şəhərində imzalanmış Protokol təsdiq edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 30 sentyabr 2009-cu il

№ 878-IIIQ

"Terrorizm, mütəşəkkil cinayətkarlıq və digər növ təhlükəli cinayətlərlə mübarizə sahəsində GUÖAM iştirakçısı olan dövlətlərin Hökumətləri arasında əməkdaşlıq haqqında 2002-ci il 20 iyul tarixli Sazişə" dair Protokol

Bundan sonra "Tərəflər" adlandırılacaq Demokratiya və İqtisadi İnkişaf Naminə Təşkilat - GUAM-ın iştirakçısı olan dövlətlərin - Azərbaycan Respublikası, Gürcüstan, Moldova Respublikası və Ukraynanın hökumətləri,

Terrorizm, mütəşəkkil cinayətkarlıq və digər növ təhlükəli cinayətlərlə mübarizə sahəsində GUÖAM iştirakçısı olan dövlətlərin Hökumətləri arasında əməkdaşlıq haqqında 2002-ci il 20 iyul tarixli Sazişi (bundan sonra 2002-ci il tarixli Saziş), həmçinin 2004-cü il iyunun 28-də İstanbul şəhərində GUÖAM Xarici İşlər Nazirləri Şurası tərəfindən təsdiq olunmuş sənədləri rəhbər tutaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

"Məxfi"dən artıq olmayan məhdudiyyət qrifi ilə məlumat mübadiləsi GUAM Dövlətlərarası İnformasiya-Təhlil Sisteminin (bundan sonra DİTS) kommunikasiya alt-sistemi çərçivəsində Tərəflərin hər birinin milli qanunvericilik normalarına uyğun olaraq həyata keçiriləcəkdir.

Maddə 2

GUAM DİTS-in milli seqmentləri çərçivəsində məlumatın qorunması müəyyən edilmiş tələblərə uyğun olaraq və Tərəflərin icazə verdiyi (istifadəyə verdiyi, sertifikatlaşdırdığı) məlumatın qorunması vasitələrinin istifadəsi ilə təmin ediləcəkdir.

Maddə 3

GUAM DİTS-in milli seqmentləri arasında dövlətlərarası əlaqə kanallarında məlumatın qorunması 4 mərhələdə həyata keçiriləcəkdir:

1. Məlumatın kriptoqrafik mühafizəsinin açıq proqram modulundan istifadə etməklə ("yalnız xidməti (məhdud) istifadə üçün" və daha artıq qrifli məlumat ötürmə hüququ olmadan məlumatın qorunmasının proqram sistemlərinin istifadəsinə dair milli tələbləri nəzərə almaqla).

2. GUAM DİTS kanalların ilə məlumat mübadiləsinin təhlükəsizliyinə məsuliyyət daşıyan GUAM-ın iştirakçısı olan dövlətlərdən birində işlənib hazırlanmış və icazə verilmiş (istifadəyə verilmiş, sertifikatlaşdırılmış) "yalnız xidməti (məhdud) istifadə üçün" qrifli məlumatın kriptoqrafik mühafizə vasitələrindən istifadə etməklə.

3. GUAM DİTS kanalları ilə məlumat mübadiləsinin təhlükəsizliyinə məsuliyyət daşıyan GUAM-ın iştirakçısı olan dövlətlərdən birində işlənib hazırlanmış və icazə verilmiş (istifadəyə verilmiş, sertifikatlaşdırılmış) "məxfi" qrifli məlumatın kriptoqrafik mühafizə vasitələrindən istifadə etməklə.

4. GUAM-ın iştirakçısı olan bütün dövlətlərdə icazə verilmiş (istifadəyə buraxılmış, sertifikatlaşdırılmış) məlumatın kriptoqrafik mühafizə vasitələrindən istifadə etməklə.

Maddə 4

1. Hazırkı Protokol 2002-ci il tarixli Sazişin ayrılmaz tərkib hissəsidir və həmin Sazişdə nəzərdə tutulmuş qaydada qüvvəyə minir və qüvvədən düşür.

2. GUAM-ın iştirakçısı olan hər bir dövlət 2002-ci il tarixli Sazişdə nəzərdə tutulmuş prosedura uyğun olaraq hazırkı Protokoldan çıxa bilər.

3. Hazırkı Protokolun depozitarisi 2002-ci il tarixli Sazişin depozitarisidir.

Maddə 5

Hazırkı Protokolun təfsiri yaxud tətbiqi ilə bağlı ortaya çıxa biləcək mübahisələr 2002-ci il tarixli Sazişdə nəzərdə tutulmuş prosedura uyğun olaraq həll ediləcəkdir.

Helsinki şəhərində 2008-ci il dekabrın 4-də ingilis və rus dillərində bir əsl nüsxədə imzalanmışdır və hər iki mətn eyni qüvvəyə malikdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	MOLDOVA RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN
(imza)	*(imza)*
GÜRCÜSTAN HÖKUMƏTİ ADINDAN	UKRAYNA HÖKUMƏTİ ADINDAN
(imza)	*(imza)*

"Fərdi məlumatların avtomatlaşdırılmış qaydada işlənməsi ilə əlaqədar şəxslərin qorunması haqqında" Konvensiyanın təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

"Fərdi məlumatların avtomatlaşdırılmış qaydada işlənməsi ilə əlaqədar şəxslərin qorunması haqqında" 1981-ci il yanvarın 28-də Strasburq şəhərində imzalanmış Konvensiya müvafiq bəyanatlarla təsdiq edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 30 sentyabr 2009-cu il

№ 879-IIIQ

Fərdi məlumatların avtomatlaşdırılmış qaydada işlənməsi ilə əlaqədar şəxslərin qorunması haqqında Konvensiya

Preambula

Bu sənədi imzalayan Avropa Şurasının üzvü olan Dövlətlər,

Avropa Şurasının məqsədinin, onun üzvləri arasında, xüsusilə qanunun aliliyi prinsipinə, habelə insan hüquqları və əsas azadlıqlara hörmətlə yanaşılmasına əsaslanan daha böyük birliyə nail olmaq olduğunu nəzərə alaraq;

Hər bir kəsin hüquq və əsas azadlıqlarının, və xüsusilə də avtomatlaşdırılmış qaydada işlənən fərdi məlumatların sərhədlər arasında artan axınını nəzərə alaraq şəxsi həyatın toxunulmazlığı hüququnun qorunmasının gücləndirilməsinin məqsədəuyğun olduğunu nəzərə alaraq;

Eyni zamanda sərhədlərdən asılı olmayaraq məlumat azadlığı üzrə öhdəliklərini bir daha təsdiq edərək;

Şəxsi həyatın toxunulmazlığına hörmət və insanlar arasında məlumatın azad yayılması kimi əsas dəyərlərin uzlaşdırılmasının zəruri olduğunu etiraf edərək,

aşağıdakılar barədə razılığa gəldilər:

I Fəsil

Ümumi müddəalar

Maddə 1

Məqsəd

Bu Konvensiyanın məqsədi vətəndaşlığından, yaxud yaşadığı yerdən asılı olmayaraq, hər bir Tərəfin ərazisində hər bir şəxsin hüquq və əsas azadlıqlarına, xüsusilə fərdi məlumatların avtomatlaşdırılmış qaydada işlənməsi ilə əlaqədar olaraq şəxsi həyatın toxunulmazlığı ("məlumatların qorunması") hüququna hörmət edilməsini təmin etməkdən ibarətdir.

Maddə 2

Anlayışlar

Bu Konvensiyanın məqsədləri üçün:

a) "fərdi məlumat" müəyyən edilən və ya müəyyən edilə bilən fərdə aid istənilən məlumatı bildirir ("məlumat subyekti");

b) "avtomatlaşdırılmış məlumat faylı" avtomatlaşdırılmış qaydada işlənən istənilən məlumat toplusunu bildirir;

c) "avtomatlaşdırılmış işlənmə" tam və ya qismən avtomatlaşdırılmış vasitələrlə həyata keçirilən aşağıdakı əməliyyatları əhatə edir: məlumatların saxlanması, bu məlumatlar üzərində məntiqi və/və ya riyazi əməliyyatların aparılması, onların dəyişdirilməsi, pozulması, axtarılması və yaxud yayılması;

d) "faylın nəzarətçisi" milli qanunvericiliyə əsasən avtomatlaşdırılmış məlumat faylının məqsədi, fərdi məlumatların hansı kateqoriyalarının saxlanması və onlar üzərində hansı əməliyyatların aparılması barədə qərar vermək səlahiyyətində olan fiziki və ya hüquqi şəxsi, dövlət orqanını, agentlik və ya digər orqanı bildirir.

Maddə 3

Tətbiq dairəsi

1. Tərəflər bu Konvensiyanın dövlət və özəl sektorda avtomatlaşdırılmış fərdi məlumat fayllarına və fərdi məlumatın avtomatlaşdırılmış işlənməsinə tətbiq edilməsini öz üzərilərinə götürürlər.

2. Hər bir dövlət imzalama zamanı və ya ratifikasiya, qəbuletmə, təsdiqetmə və ya qoşulma haqqında sənədləri saxlanca verərkən, və yaxud sonrakı istənilən vaxt Avropa Şurasının Baş Katibinə ünvanlanmış bəyanat vasitəsilə aşağıdakılar barədə bildiriş verə bilər:

a) avtomatlaşdırılmış fərdi məlumat fayllarının siyahısı təqdim olunacaq müəyyən kateqoriyalarına bu Konvensiyanı tətbiq etməyəcək. Bu siyahıya dövlətdaxili qanunvericiliyə müvafiq olaraq məlumatın qorunması müddəalarına aid olan avtomatlaşdırılmış məlumat fayllarının kateqoriyaları daxil edilmir. Bu səbəbdən, avtomatlaşdırılmış fərdi məlumat fayllarının əlavə kateqoriyaları dövlətdaxili qanunvericiliyə müvafiq olaraq məlumatın qorunması müddəalarına aid edildikdə Tərəf yeni bəyanatla bu siyahıya düzəlişlər edir;

b) bu Konvensiyanı hüquq subyektliliyinə malik olub-olmamasından asılı olmayaraq şəxslər qrupuna, assosiasiyalara, qurumlara, şirkətlərə, korporasiyalara, bilavasitə və ya dolayısı fərdlərdən ibarət olan hər hansı bir başqa orqanlara aid məlumata tətbiq edəcək;

c) bu Konvensiyanı avtomatlaşdırılmış qaydada işlənməyən fərdi məlumat fayllarına da tətbiq edəcək.

3. Yuxarıda göstərilən 2.b və c yarımbəndlərində nəzərdə tutulan bəyanatlardan hər hansı biri ilə Konvensiyanın tətbiq dairəsini genişləndirmiş istənilən Dövlət qeyd edilən bəyanatda belə genişlənmənin siyahısı təqdim olunacaq fərdi məlumat fayllarının müəyyən kateqoriyalarına tətbiq olunacağı haqqında bildiriş verə bilər.

4. Avtomatlaşdırılmış fərdi məlumat fayllarının müəyyən kateqoriyalarını yuxarıda göstərilən 2.a yarımbəndində nəzərdə tutulan bəyanatla istisna edən istənilən Tərəf, Konvensiyanın fərdi məlumat fayllarının bu kateqoriyalarına tətbiqini onları istisna etməyən Tərəfdən tələb edə bilməz.

5. Bundan əlavə, yuxarıda göstərilən 2 b və c yarımbəndlərində nəzərdə tutulan genişləndirmələrdən bu və ya digərini etməyən Tərəf, belə genişləndirmələri edən Tərəfə münasibətdə Konvensiyanın bu məsələlərdə tətbiqini tələb edə bilməz.

6. Bu maddənin 2-ci bəndində nəzərdə tutulan bəyanatlar, imzalama zamanı və ya ratifikasiya, qəbuletmə, təsdiqetmə və ya qoşulma haqqında sənədi saxlanca verərkən belə bəyanatları edən Dövlətə münasibətdə Konvensiyanın qüvvəyə mindiyi andan etibarən və ya belə bəyanatlar istənilən digər vaxtda edilibsə Avropa Şurasının Baş Katibinin bu bəyanatları almasından üç ay sonra qüvvəyə minir. Bu bəyanatlar Avropa Şurasının Baş Katibinə ünvanlanmış bildirişlə tam və ya qismən geri götürülə bilər. Geri götürmə belə bildirişin alındığı tarixdən üç ay sonra qüvvəyə minir.

II Fəsil

Fərdi məlumatların qorunması üzrə əsas prinsiplər

Maddə 4

Tərəflərin öhdəlikləri

1. Tərəflərdən hər biri bu fəsildə müəyyən edilən fərdi məlumatların qorunması üzrə əsas prinsipləri həyata keçirmək üçün öz daxili qanunvericiliklərində zəruri tədbirlər görürlər.

2. Bu tədbirlər ən son müddət kimi bu Konvensiyanın həmin Tərəfə münasibətdə qüvvəyə mindiyi vaxtda görülməlidir.

Maddə 5

Məlumatların keyfiyyəti

Avtomatlaşdırılmış qaydada işlənən fərdi məlumatlar:

a) ədalətli və qanuni qaydada əldə olunur və işlənir;

b) müəyyən olunmuş və qanuni məqsədlər üçün saxlanılır və həmin məqsədlərə uyğun olmayan şəkildə istifadə olunmur;

c) adekvat, müvafiq olmalı və onların saxlanma məqsədlərindən başqa məqsədlər üçün istifadə olunmur;

d) düzgün olur və zəruri olduğu halda yeniləşdirilir;

e) məlumatların saxlanma məqsədləri üçün tələb olunan vaxtdan çox olmayaraq məlumat subyektlərinin müəyyənləşdirilməsinə imkan verən formada qorunub saxlanılır.

Maddə 6

Xüsusi məlumat kateqoriyaları

İrqi mənsubiyyəti, siyasi baxışları və ya dini, yaxud digər etiqadları aşkar edən, eləcə də sağlamlıq və cinsi həyatla əlaqədar fərdi məlumatlar yalnız dövlətdaxili qanunvericilik müvafiq təminat verdikdə avtomatlaşdırılmış qaydada işlənə bilər. Bu həmçinin cinayət məsuliyyəti ilə əlaqədar olan fərdi məlumatlara da şamil edilir.

Maddə 7

Məlumatların təhlükəsizliyi

Avtomatlaşdırılmış məlumat fayllarında saxlanılan fərdi məlumatları təsadüfi və ya icazəsiz məhvdən və ya gözlənilməyən itkidən, eləcə də icazəsiz istifadə, dəyişdirmə və yaxud yayılmadan qorumaq üçün müvafiq təhlükəsizlik tədbirləri görülür.

Maddə 8

Məlumat subyekti üçün əlavə təminat

İstənilən şəxsə aşağıdakı hüquqlar verilir:

a) avtomatlaşdırılmış fərdi məlumat faylının mövcudluğunu, onun əsas məqsədlərini, eləcə də məlumat faylının nəzarətçisi, onun daimi yaşayış yeri və ya iş ünvanı haqqında məlumatı müəyyənləşdirmək;

b) müəyyən vaxt ərzində və əlavə vaxt itkisi və ya vəsait xərcinə yol vermədən ona aid fərdi məlumatların avtomatlaşdırılmış məlumat faylında saxlanıb-saxlanmadığının təsdiqini və belə məlumatlar barədə aydın formada məlumat almaq;

c) belə məlumatlar bu Konvensiyanın 5 və 6-cı maddələrində müəyyən edilən əsas prinsiplərin qüvvəyə minməsinə imkan verən dövlətdaxili qanunvericiliyin müddəalarına uyğun olmadan işləndikdə vəziyyətdən asılı olaraq onların düzəldilməsinə və ya silinməsinə nail olmaq;

d) bu maddənin b və c bəndlərində qeyd edilən təsdiq və ya, vəziyyətdən asılı olaraq, məlumat, düzəliş və ya silinmə haqqında müraciət yerinə yetirilmədikdə hüquqi müdafiə vasitələrindən istifadə etmək.

Maddə 9

İstisna və məhdudiyyətlər

1. Bu maddədə müəyyən edilənlərdən başqa bu Konvensiyanın 5, 6 və 8-ci maddələrinin müddəalarından heç bir istisnaya yol verilmir.

2. Bu Konvensiyanın 5, 6 və 8-ci maddələrinin müddəalarından qismən çəkilməyə, Tərəfin qanunlarında belə ləğv etmə nəzərdə tutulduğu və demokratik cəmiyyətdə aşağıdakı maraqlar naminə zərurət yaratdıqda icazə verilir:

a) Dövlət təhlükəsizliyinin, ictimai asayişin, dövlətin maliyyə maraqlarının qorunması və yaxud cinayətlərin qarşısının alınması;

b) məlumat subyektinin və ya başqa şəxslərin hüquq və azadlıqlarının qorunması.

3. Məlumat subyektlərinin şəxsi həyatının toxunulmazlığı hüququnun pozulması üçün aşkar təhlükə olmadıqda statistika və elmi tədqiqat məqsədləri üçün istifadə olunan avtomatlaşdırılmış fərdi məlumat fayllarına münasibətdə 8-ci Maddənin b, c və d bəndlərində göstərilən hüquqların həyata keçirilməsinə qanunla məhdudiyyətlər qoyula bilər.

Maddə 10

Sanksiyalar və hüquqi müdafiə vasitələri

Hər bir Tərəf bu fəsildə müəyyən edilən məlumatların qorunması üzrə əsas prinsipləri həyata keçirən dövlətdaxili hüququn müddəalarının pozulması hallarında müvafiq sanksiyalar və hüquqi müdafiə vasitələrini müəyyən etməyi öz üzərinə götürür.

Maddə 11

Genişləndirilmiş müdafiə

Bu fəslin heç bir müddəası Tərəfin məlumat subyektlərini bu Konvensiyada müəyyən olunduğundan daha geniş şəkildə müdafiə etmək imkanının məhdudlaşdırılması və ya digər şəkildə ona təsir etməsi kimi şərh edilmir.

III Fəsil

Transsərhəd məlumat axınları

Maddə 12

Transsərhəd fərdi məlumatlar axınları və dövlətdaxili qanunvericilik

1. Aşağıdakı müddəalar vasitələrdən asılı olmayaraq avtomatlaşdırılmış qaydada işlənən və ya avtomatlaşdırılmış işlənmə üçün nəzərdə tutulan fərdi məlumatların dövlət sərhədlərindən ötürülməsinə münasibətdə tətbiq ediləcək.

2. Yalnız şəxsi həyatın qorunması məqsədilə Tərəf digər Tərəfin ərazisinə gedən transsərhəd fərdi məlumatlar axınlarını qadağan etməyəcək və yaxud buna xüsusi icazə verilməsini tətbiq etməyəcək.

3. Buna baxmayaraq hər bir Tərəf 2-ci bəndin müddəalarının dayandırılması hüququna aşağıdakı hallarda malikdir:

a) Digər Tərəfin qaydaları bərabər müdafiəni təmin edən hallar istisna olmaqla, Tərəfin qanunvericiliyi fərdi məlumatların və ya avtomatlaşdırılmış fərdi məlumat fayllarının xüsusiyyətindən irəli gələrək belə məlumat və faylların müəyyən kateqoriyaları üzrə xüsusi qaydaları əhatə etdikdə;

b) Ötürmə onun ərazisindən Konvensiyanın tərəfi olmayan dövlətin ərazisinə, bu bəndin əvvəlində göstərilən Tərəfin qanunvericiliyindən yayınmaqla nəticələnən belə ötürmələrin qarşısını almaq məqsədilə, digər bir Tərəfin ərazisi vasitəsilə həyata keçirildikdə.

IV Fəsil

Qarşılıqlı Yardım

Maddə 13

Tərəflər arasında əməkdaşlıq

1. Tərəflər bu Konvensiyanın həyata keçirilməsi üçün bir-birinə qarşılıqlı yardımın göstərilməsi barədə razılığa gəlirlər.

2. Bu məqsədlə:

a) Tərəflərdən hər biri bir və ya bir neçə orqan təyin edir və onların adı və ünvanı haqqında Avropa Şurasının Baş Katibinə məlumat verir;

b) bir orqandan daha çox orqan təyin edən Tərəflər yuxarıdakı yarımbənddə adı çəkilən məlumatda hər bir orqanın səlahiyyətini dəqiqləşdirir.

3. Tərəfin təyin etdiyi orqan digər Tərəfin təyin etdiyi orqanın müraciətinə əsasən aşağıdakıları yerinə yetirir:

a) məlumatın qorunması sahəsində özünün qanunları və inzibati təcrübəsi haqqında məlumat verir;

b) dövlətdaxili qanunlara müvafiq olaraq və yalnız şəxsi həyatın toxunulmazlığının qorunması məqsədilə avtomatlaşdırılmış qaydada işlənən fərdi məlumatlar istisna olmaqla, ərazisində həyata keçirilən xüsusi avtomatlaşdırılmış işlənmə ilə bağlı faktiki məlumatların verilməsi üçün müvafiq tədbirlər görür.

Maddə 14

Xaricdə yaşayan məlumat subyektlərinə yardım

1. Hər bir Tərəf xaricdə yaşayan istənilən şəxsin, bu Konvensiyanın 8-ci maddəsində müəyyən edən prinsiplərin həyata keçirilməsinə yönəlmiş dövlətdaxili qanunvericiliyi ilə verilən hüquqlardan istifadə etməsinə yardım edir.

2. Belə şəxsin digər Tərəfin ərazisində yaşadığı halda, ona həmin Tərəfin təyin etdiyi orqan vasitəsilə öz müraciətini təqdim etmək imkanı verilir.

3. Yardım haqqında müraciətdə bütün zəruri rekvizitlər olmalıdır. Bunlara həmçinin aşağıdakılar da aiddir:

a) müraciət edən şəxsin adı, ünvanı və onun şəxsiyyətini müəyyən etməyə imkan verən digər müvafiq təfərrüatlar;

b) müraciətin aid olduğu avtomatlaşdırılmış fərdi məlumat faylı və ya onun nəzarətçisi;

c) müraciətin məqsədi.

Maddə 15

Təyin edilmiş orqan tərəfindən göstərilən yardımla bağlı təminat

1. Digər Tərəfin təyin etdiyi orqandan məlumat alan Tərəfin təyin etdiyi orqan bu yardım haqqında müraciəti müşayiət edən və ya özünün yardım haqqında müraciətinə cavab olaraq aldığı məlumatı yardım haqqında müraciətdə müəyyən olunan məqsədlərdən başqa digər məqsədlər üçün istifadə etmir.

2. Hər bir Tərəf təyin edilmiş orqana mənsub olan və ya onun adından fəaliyyət göstərən şəxslərin belə məlumatın məxfilik və konfidensiallığı ilə bağlı öhdəlik götürməsinə nəzarət edir.

3. Heç bir halda Təyin olunmuş orqana öz iradəsilə və əlaqədar şəxsin birbaşa razılığı olmadan 14-cü maddənin 2-ci bəndində nəzərdə tutulan xaricdə yaşayan məlumat subyektinin adından müraciət etməyə icazə verilmir.

Maddə 16

Yardım haqqında müraciətin rəddi

Bu Konvensiyanın 13 və 14-cü maddələrinə müvafiq olaraq yardım haqqında müraciət ünvanlanan təyin edilmiş orqan aşağıdakı hallardan başqa digər hallarda müraciətin icrasından imtina edə bilməz:

a) müraciət cavab vermək üçün məsul orqanın məlumatın müdafiəsi sahəsində səlahiyyətlərinə uyğun olmadıqda;

b) müraciət bu Konvensiyanın müddəalarına uyğun olmadıqda;

c) müraciətə uyğunluq, təyin edildiyi tərəfin suverenliyinə, təhlükəsizliyinə və ya ictimai qaydasına (ordre public) və yaxud bu Tərəfin yurisdiksiyasında olan şəxslərin hüquq və fundamental azadlıqlarına uyğun gəlmədikdə.

Maddə 17

Yardım göstərilməsi ilə əlaqədar xərclər və prosedurlar

1. Tərəflərin 13-cü maddəyə əsasən bir-birinə göstərdiyi qarşılıqlı yardım və 14-cü maddəyə əsasən xaricdə olan məlumat subyektlərinə göstərdiyi yardım ekspertlər və tərcüməçilər üçün ayrılan xərclər və ödənişlərin qarşılanmasından başqa digər xərc və ödənişlərin ödənilməsini nəzərdə tutmur. Belə xərcləri və ödənişləri yardım üçün müraciət edən orqanı təyin etmiş Tərəf ödəyir.

2. Məlumat subyektindən digər Tərəfin ərizəsində onun adından həyata keçirilən tədbirlərlə bağlı, həmin Tərəfin sakinləri üçün qanunla nəzərdə tutulmuş xərc və ödənişlərdən başqa xərc və ödənişlərin ödənilməsi tələb edilə bilməz.

3. Yardımla bağlı, xüsusilə istifadə olunacaq forma və prosedurlar, eləcə də dillə bağlı təfərrüatlar əlaqədar Tərəflər arasında birbaşa olaraq müəyyən edilir.

V Fəsil

Məşvərətçi Komitə

Maddə 18

Komitənin tərkibi

1. Məşvərətçi Komitə bu Konvensiya qüvvəyə mindikdən sonra yaradılır.

2. Tərəflərin hər biri komitəyə öz nümayəndəsini və onun müavinini təyin edir. Konvensiyanın iştirakçısı olmayan Avropa Şurasının üzvü olan istənilən dövlət komitədə müşahidəçi qismində təmsil olunmaq hüququna malikdir.

3. Məşvərətçi Komitə yekdil qərarla Konvensiyanın iştirakçısı və Avropa Şurasının üzvü olmayan istənilən dövləti ayrı-ayrı iclaslarda müşahidəçi qismində təmsil olunmağa dəvət edə bilər.

Maddə 19

Komitənin funksiyaları

Məşvərətçi Komitə:

a) bu Konvensiyanın tətbiqini asanlaşdırmaq və təkmilləşdirmək üçün təkliflər irəli sürə bilər;

b) 21-ci maddəyə uyğun olaraq bu Konvensiyaya düzəlişlər edilməsi barədə təkliflər irəli sürə bilər;

c) 21-ci maddənin 3-cü bəndinə uyğun olaraq bu Konvensiyaya düzəlişlə əlaqədar hər hansı bir təklif barədə özünün rəyini formalaşdırır;

d) Tərəfin müraciəti ilə bu Konvensiyanın tətbiqi ilə əlaqədar hər hansı bir məsələ üzrə öz rəyini bildirə bilər.

Maddə 20

Prosedur

1. Məşvərətçi Komitə Avropa Şurasının Baş Katibi tərəfindən çağırılır. Komitənin birinci iclası bu Konvensiya qüvvəyə mindikdən sonra 12 ay müddətində keçirilir. Daha sonra isə Komitə hər iki ildə ən azı bir dəfə və Tərəflərin nümayəndələrinin 1/3 hissəsinin Komitənin iclasını keçirməsini sorğu etdikdə çağırılır.

2. Tərəflərin nümayəndələrinin çoxluğu Məşvərətçi Komitənin iclasının keçirilməsi üçün yetərsay təşkil edir.

3. Hər iclasdan sonra, Məşvərətçi Komitə Avropa Şurasının Nazirlər Komitəsinə öz işi və Konvensiyanın yerinə yetirilməsi haqqında məruzə təqdim edir.

4. Məşvərətçi Komitə bu Konvensiyanın müddəalarından çıxış etməklə öz Prosedur Qaydalarını tərtib edir.

VI Fəsil

Düzəlişlər

Maddə 21

Düzəlişlər

1. Tərəf, Avropa Şurasının Nazirlər Komitəsi və ya Məşvərətçi Komitə bu Konvensiyaya *düzəlişlərin edilməsini təklif edə bilər.*

2. Avropa Şurasının Baş Katibi düzəliş barədə istənilən təklif haqqında Avropa Şurasının üzvü olan dövlətlərə, eləcə də Avropa Şurasının üzvü olmayan və 23-cü maddənin müddəalarına əsasən bu Konvensiyaya qoşulan və yaxud qoşulmaq barədə təklif alan istənilən dövlətə məlumat verir.

3. Bundan əlavə, Tərəfin və ya Avropa Şurası Nazirlər Komitəsinin təklif etdiyi istənilən düzəliş Məşvərətçi Komitəyə göndərilir. Məşvərətçi Komitə təklif edilən düzəlişlə bağlı öz rəyini Nazirlər Komitəsinə təqdim edir.

4. Nazirlər Komitəsi təklif edilən düzəlişi və Məşvərətçi Komitə tərəfindən təqdim edilən rəyi nəzərdən keçirir və düzəlişi təsdiq edə bilər.

5. Bu Maddənin 4-cü bəndinə müvafiq olaraq Nazirlər Komitəsi tərəfindən təsdiq edilmiş hər hansı düzəlişin mətni qəbul edilmək üçün Tərəflərə göndərilir.

6. Bu Maddənin 4-cü bəndinə uyğun olaraq təsdiq edilmiş istənilən düzəliş, bütün Tərəflərin onun qəbul edilməsi haqqında Baş Katibə məlumat verməsindən sonra gələn *otuzuncu gün* qüvvəyə *minir.*

VII Fəsil

Yekun müddəalar

Maddə 22

Qüvvəyə minmə

1. Bu Konvensiya Avropa Şurasının üzvü olan dövlətlər tərəfindən imzalanmaq üçün

açıqdır. Konvensiya ratifikasiya, qəbul və ya təsdiq edilməlidir. Ratifikasiya, qəbuletmə və ya təsdiqetmə haqqında sənədlər Avropa Şurasının Baş Katibinə saxlanca verilir.

2. Bu Konvensiya əvvəlki bəndin müddəalarına əsasən Avropa Şurasının üzvü olan beş dövlətin Konvensiyanın məcburiliyinə razılığını ifadə etdiyi tarixdən hesablanan üç aylıq müddətin başa çatmasından sonra gələn ayın birinci günü qüvvəyə minir.

3. Sonradan Konvensiyanın məcburiliyinə razılığını ifadə edən Avropa Şurasının üzvü olan dövlətlərə münasibətdə Konvensiya ratifikasiya, qəbuletmə və təsdiqetmə haqqında sənədin saxlanca verildiyi tarixdən hesablanan üç aylıq müddətin başa çatmasından sonra gələn ayın birinci günü qüvvəyə minir.

Maddə 23

Avropa Şurasının üzvü olmayan dövlətlərin qoşulması

1. Bu Konvensiya qüvvəyə mindikdən sonra Avropa Şurasının Nazirlər Komitəsi Avropa Şurasının üzvü olmayan istənilən dövləti Avropa Şurasının Nizamnaməsinin 20-ci maddəsinin d bəndində nəzərdə tutulan səs çoxluğu və Komitədə təmsil olunan razılığa gələn Tərəflərin nümayəndələrinin yekdil səsi ilə qəbul olunan qərar əsasında Konvensiyaya qoşulmağa dəvət edə bilər.

2. Hər hansı qoşulan dövlətə münasibətdə Konvensiya qoşulma haqqında sənədin Avropa Şurasının Baş Katibinə saxlanca verildiyi tarixdən hesablanan üç aylıq müddətin başa çatmasından sonra gələn ayın birinci günü qüvvəyə minir.

Maddə 24

Ərazi ilə bağlı müddəalar

1. İstənilən Dövlət imzalama zamanı və ya ratifikasiya, qəbuletmə, təsdiqetmə və qoşulma haqqında sənədi saxlanca verərkən, bu Konvensiyanın tətbiq ediləcəyi ərazi və ya əraziləri müəyyən edə bilər.

2. İstənilən Dövlət istənilən sonrakı tarixdə Avropa Şurasının Baş Katibinə ünvanlanmış bəyanatla bu Konvensiyanın tətbiqini həmin bəyanatda qeyd olunan istənilən ərazi yə genişləndirə bilər. Belə əraziyə münasibətdə Konvensiya Baş Katibin belə bəyanatı aldığı tarixdən hesablanan üç aylıq müddətin başa çatmasından sonra gələn ayın birinci günü qüvvəyə minir.

3. Əvvəlki iki bəndə əsasən edilən hər hansı bəyanat, həmin bəyanatda qeyd olunan istənilən əraziyə münasibətdə, Baş Katibə bildiriş ünvanlanması ilə geri götürülə bilər. Geri götürmə baş katibin belə bildirişi aldığı tarixdən hesablanan altı aylıq müddətin başa çatmasından sonra gələn ayın birinci günü qüvvə minir.

Maddə 25

Qeyd-şərtlər

Bu Konvensiyanın müddəalarına münasibətdə heç bir qeyd-şərt edilə bilməz.

Maddə 26

Denonsasiya

1. İstənilən Tərəf Avropa Şurasının Baş Katibinə ünvanlanmış bildiriş vasitəsilə bu Konvensiyanı istənilən vaxt denonsasiya edə bilər.

2. Belə denonsasiya Baş Katibin bildirişi aldığı tarixdən hesablanan altı aylıq müddətin başa çatmasından sonra gələn ayın birinci günü qüvvəyə minir.

Maddə 27

Bildirişlər

Avropa Şurasının Baş Katibi Avropa Şurasının üzvü olan dövlətləri və bu Konvensiyaya qoşulan istənilən dövləti aşağıdakılar haqqında xəbərdar edir:

a) hər hansı imzalama;

b) ratifikasiya, təsdiqetmə, qəbuletmə və ya qoşulma haqqında sənədin saxlanca verilməsi;

c) 22, 23 və 24-cü maddələrə müvafiq olaraq bu Konvensiyanın qüvvəyə mindiyi hər hansı tarix;

d) bu Konvensiyaya aid olan istənilən digər akt, bildiriş və ya məlumatlar.

Bunun təsdiqi olaraq, aşağıda imzaları qeyd edilmiş, müvafiq qaydada səlahiyyətləndirilmiş şəxslər bu Konvensiyanı imzalamışlar.

Strasburq şəhərində 1981-ci il yanvarın 28-də ingilis və fransız dillərində bir nüsxədə imzalanmışdır, hər iki mətn bərabər autentikdir və Avropa Şurasının arxivinə saxlanca verilir. Avropa Şurasının Baş Katibi təsdiq olunmuş surətləri Avropa Şurasının üzvü olan dövlətlərə və bu Konvensiyaya qoşulmağa dəvət olunmuş istənilən Dövlətə göndərir.

Azərbaycan Respublikasının "Fərdi məlumatların avtomatlaşdırılmış qaydada işlənməsi ilə əlaqədar şəxslərin qorunması haqqında" Konvensiyanın 3-cü maddəsinin 2-ci bəndinin "a" yarımbəndi üzrə Bəyanatı

Azərbaycan Respublikası bəyan edir ki, Konvensiyanın 3-cü maddəsinin 2-ci bəndinin "a" yarımbəndinin müddəalarına uyğun olaraq, qanunvericiliklə müəyyən edilmiş qaydada dövlət sirrinə aid edilən, fiziki şəxslər tərəfindən müstəsna olaraq şəxsi və ailə ehtiyacları üçün emal olunan fərdi məlumatlar kateqoriyalarına Konvensiyanın müddəaları tətbiq olunmayacaqdır.

Azərbaycan Respublikasının "Fərdi məlumatların avtomatlaşdırılmış qaydada işlənməsi ilə əlaqədar şəxslərin qorunması haqqında" Konvensiyanın 3-cü maddəsinin 2-ci bəndinin "c" yarımbəndi üzrə Bəyanatı

Azərbaycan Respublikası bəyan edir ki, Konvensiyanın 3-cü maddəsinin 2-ci bəndinin "c" yarımbəndinin müddəalarına uyğun olaraq, avtomatlaşdırılmış qaydada işlənməyən fərdi məlumatlara Konvensiyanın müddəaları tətbiq olunacaqdır.

Azərbaycan Respublikasının "Fərdi məlumatların avtomatlaşdırılmış qaydada işlənməsi ilə əlaqədar şəxslərin qorunması haqqında" Konvensiyanın 13-cü maddəsinin 2-ci bəndinin "a" yarımbəndi üzrə Bəyanatı

Azərbaycan Respublikası bəyan edir ki, Konvensiyanın 13-cü maddəsinin 2-ci bəndinin "a" yarımbəndinin müddəalarına uyğun olaraq, Azərbaycan Respublikasında fərdi məlumatların qorunması sahəsində qanunvericilik və inzibati təcrübə haqqında məlumatın verilməsi, faktiki informasiyanın təqdim edilməsi üzrə səlahiyyətli orqan qismində Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi müəyyən olunur (Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin ünvanı: AZ1073, Bakı şəhəri, İnşaatçılar prospekti, 1).

Azərbaycan Respublikasının "Fərdi məlumatların avtomatlaşdırılmış qaydada işlənməsi ilə əlaqədar şəxslərin qorunması haqqında" Konvensiya üzrə Bəyanatı

Azərbaycan Respublikası bəyan edir ki, o, Ermənistan Respublikası tərəfindən işğal olunmuş ərazilərində Konvensiyanın müddəalarının həyata keçirilməsinə həmin ərazilər işğaldan azad olunanadək və işğalın nəticələri tam aradan qaldırılanadək təminat vermək iqtidarında deyildir.

Azərbaycan Respublikasının "Fərdi məlumatların avtomatlaşdırılmış qaydada işlənməsi ilə əlaqədar şəxslərin qorunması haqqında" Konvensiya üzrə Bəyanatı

Azərbaycan Respublikası bəyan edir ki, Azərbaycan Respublikası tərəfindən bu Konvensiyanın müddəalarından irəli gələn hüquq və öhdəliklər Ermənistan Respublikasına münasibətdə tətbiq edilməyəcəkdir.

"Birgə film istehsalı haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

"Birgə film istehsalı haqqında" 2008-ci il noyabrın 14-də Kişinyov şəhərində imzalanmış Saziş təsdiq edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 30 sentyabr 2009-cu il

№ 880-IIIQ

Birgə film istehsalı haqqında Saziş

Bundan sonra Tərəflər adlandırılan Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin Hökumətləri,

Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin humanitar əməkdaşlıq haqqında 2005-ci il 26 avqust tarixli və Kinematoqrafiya sahəsində əməkdaşlıq haqqında 1995-ci il 10 fevral tarixli Sazişlərinə əsaslanaraq,

audiovizual sahədə əməkdaşlığın inkişafına dəstək olmağa çalışaraq,

birgə film istehsalının kinematoqrafiyanın inkişafına, eləcə də ölkələr arasındakı iqtisadi və mədəni əlaqələrin möhkəmlənməsinə verdiyi töhfəni nəzərə alaraq,

tərəflərdən hər birinin ölkəsində milli qanunvericilik və beynəlxalq öhdəliklər nəzərə alınmaqla,

film istehsalı və istifadəsinə hər vasitə ilə dəstək olmaqla bağlı niyyətlərini təsdiq edərək,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Hazırkı Sazişin məqsədləri üçün göstərilən terminlər aşağıdakı mənaları ifadə edir:

"film" - kinoplyonkada və digər daşıyıcılarda həkk olunan (yazılan) və bir - biri ilə ardıcıl və tematik olaraq birləşmiş kadrlardan ibarət olan, eyni zamanda müvafiq texniki qurğuların köməyi vasitəsilə qavranılması nəzərdə tutulan yaradıcı plan əsasında televiziya, animasiya, tədris, elmi - kütləvi, xroniki-sənədli, bədii və digər formalarda yaradılmış audiovizual əsər;

"prodüser" - Tərəf dövlətin vətəndaşı və ya Tərəflərin dövlətlərinin qanunvericiliyinə uyğun olaraq yaradılmış, filmin maliyyələşdirilməsi, istehsalı və/və ya istifadəsinə görə məsuliyyət daşıyan hüquqi şəxs;

"ortaq prodüserlər" - filmin birgə istehsalı və/və ya istifadəsi, o cümlədən onun maliyyələşdirilməsi ilə bağlı məsələlərdə birgə iştirak etmək haqqında müqavilə vasitəsilə bir - biri ilə əlaqəli olan prodüserlər;

"birgə istehsal filmi" - iki və daha artıq Tərəfin ortaq prodüserlərinin istehsal etdikləri film;

"milli film" - Tərəflərdən ən azı birinin ölkəsinin qanunvericiliyinə uyğun olaraq, milli kinonun dövlət dəstəyinin bütün formalarının şamil olunduğu birgə istehsal filmi.

Maddə 2

"Milli film" statusunun verilmə qaydası və şərtləri hazırkı Sazişin ayrılmaz tərkib hissəsi olan birgə istehsal filmlərinə "Milli film" statusunun verilməsi haqqında Əsasnamə (bundan sonra - Əsasnamə) ilə tənzimlənir (əlavə olunur). Tərəflərin səlahiyyətli orqanları kinematoqrafiya sahəsində milli qanunvericiliyin qəbul olunması və ya onun yenidən işlənməsi zamanı birgə istehsal filmlərinə dövlət dəstəyinin forması və həcmini müəyyənləşdirmək hüququna malikdirlər.

Maddə 3

Birgə istehsal filmlərinə "milli film" statusunun verilməsi haqqında qərarlar hər bir ayrıca halda Tərəflərin səlahiyyətli orqanları tərəfindən qəbul olunur.

Maddə 4

Film Əsasnamənin şərtlərinə uyğun gəlmədikdə birgə istehsal filmlərinə "milli film" statusunun verilməsi haqqında Tərəflərdən birinin səlahiyyətli orqanı tərəfindən verilən qərar onların özü tərəfindən ləğv oluna bilər.

Maddə 5

Tərəflər, ölkələrinin qanunvericiliklərinə uyğun olaraq, bədii istehsal heyətinin onların ərazilərinə gəliş-gedişinə, eləcə də birgə film istehsalı üçün zəruri olan avadanlıq və materialların müvəqqəti gətirilməsi və aparılmasına şərait yaradırlar.

Maddə 6

Birgə istehsal olunmuş filmlərin titrlərində, eləcə də reklam məhsullarında filmin birgə istehsalında iştirak etmiş tərəflərin ölkələrinin adları qeyd olunur.

Maddə 7

Birgə istehsal olunmuş filmlərin istifadəsi və yayılmasına Tərəflərin dövlətlərinin qanunvericiliklərində nəzərdə tutulmuş hallar istisna olmaqla, heç bir məhdudiyyət qoyulmur.

Maddə 8

Birgə istehsal olunmuş filmlərə "milli film" statusunun verilməsi Tərəf dövləti onun öz ərazisində həmin filmin nümayişinə icazə verməsinə məcbur etmir.

Maddə 9

Hazırkı Sazişin tətbiqi və təfsiri zamanı Tərəflər arasında yaranan mübahisəli məsələlər maraqlı Tərəflər arasında məsləhətləşmələr və danışıqlar yolu ilə və ya Tərəflərin arasında razılaşdırılan digər prosedur vasitəsilə həll olunur.

Maddə 10

Hazırkı Saziş müvəqqəti olaraq imzalandığı gündən tətbiq olunur və Sazişi imzalamış Tərəflərin onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi haqqında üçüncü bildirişin depozitari tərəfindən alınması tarixindən 30 gün sonra qüvvəyə minir.

Dövlətdaxili prosedurları daha gec yerinə yetirmiş Tərəflər üçün hazırkı Saziş müvafiq sənədlərin depozitari tərəfindən alınması tarixindən 30 gün sonra qüvvəyə minir.

Maddə 11

Tərəflərin qarşılıqlı razılığı əsasında hazırkı Sazişə, müvafiq protokol vasitəsilə rəsmiləşdirilən dəyişikliklər və əlavələr edilə bilər.

Maddə 12

Hazırkı Saziş qüvvəyə mindikdən sonra, onun müddəalarına şərik olan və hazırkı Sazişdən irəli gələn öhdəlikləri öz üzərinə götürməyə hazır olan Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlət tərəfindən qoşulması üçün açıqdır. Qoşulan dövlət üçün Saziş, qoşulma haqqında müvafiq sənədlərin depozitari tərəfindən alınması tarixindən 30 gün sonra qüvvəyə minir.

Maddə 13

Hazırkı Saziş qüvvəyə mindiyi tarixdən sonra 5 il müddətində qüvvədədir. Bu müddət bitdikdə və Tərəflər məsələ ilə bağlı digər qərar qəbul etmədikdə, Sazişin qüvvədə olma müddəti avtomatik olaraq növbəti beş illik müddətlərə uzadılır.

Maddə 14

Tərəflərdən hər biri çıxışdan ən azı 6 ay əvvəl depozitariyə yazılı bildiriş göndərməklə hazırkı Sazişdən çıxa bilər.

Kişinyov şəhərində 2008-ci il noyabrın 14-də bir əsl nüsxədə rus dilində imzalanmışdır. Əsl nüsxə Müstəqil Dövlətlər Birliyinin İcraiyyə Komitəsində saxlanılır. Komitə, Sazişi imzalamış hər bir dövlətə onun təsdiq olunmuş surətini göndərəcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI
HÖKUMƏTİ ADINDAN

(imza)

ERMƏNİSTAN RESPUBLİKASI
HÖKUMƏTİ ADINDAN

(imza) (qeyd-şərtlə)

BELARUS RESPUBLİKASI
HÖKUMƏTİ ADINDAN

(imza) (qeyd-şərtlə)

GÜRCÜSTAN HÖKUMƏTİ
ADINDAN

(imza yoxdur)

QAZAXISTAN RESPUBLİKASI
HÖKUMƏTİ ADINDAN

(imza yoxdur)

QIRĞIZISTAN RESPUBLİKASI
HÖKUMƏTİ ADINDAN

(imza)

MOLDOVA RESPUBLİKASI
HÖKUMƏTİ ADINDAN

(imza) (qeyd-şərtlə)

RUSİYA FEDERASİYASI
HÖKUMƏTİ ADINDAN

(imza)

TACİKİSTAN RESPUBLİKASI
HÖKUMƏTİ ADINDAN

(imza)

TÜRKMƏNİSTAN
HÖKUMƏTİ ADINDAN

(imza yoxdur)

ÖZBƏKİSTAN RESPUBLİKASI
HÖKUMƏTİ ADINDAN

(imza yoxdur)

UKRAYNA HÖKUMƏTİ
ADINDAN

(imza yoxdur)

2008-ci il 14 noyabr tarixli
Birgə film istehsalı haqqında
Sazişə Əlavə

Birgə istehsal filmlərinə "milli film" statusunun verilməsi haqqında Əsasnamə

Hazırkı Əsasnamə birgə istehsal filmlərinə "milli film" statusunun verilməsi qaydasını və şərtlərini nəzərdə tutur.

1. Birgə istehsal filmlərinə "milli film" statusunun verilməsi üçün filmin prodüseri (ortaq prodüserləri) hər bir Tərəfin səlahiyyətli orqanına müvafiq ərizə təqdim edir. Belə ərizə prodüserlər (ortaq prodüserlər) arasındakı qarşılıqlı hesablaşma müddətinin bitməsindən gec olmamaq şərti ilə filmin istehsalından əvvəl və ya istehsalı zamanı verilə bilər.

Ərizəyə aşağıdakı sənədlər əlavə olunur:

1.1. Hər bir Tərəfin dövlətinin qanunvericiliyinə uyğun olaraq hazırlanmış filmin ədəbi ssenarisi və ya sinopsisi.

1.2. Filmdə istifadə olunan əsərlərə aid müəllif hüquqlarını təsdiq edən sənəd.

1.3. Vətəndaşlığı və yerinə yetirdiyi işin kateqoriyası göstərilməklə bədii istehsal heyətinin (bundan sonra BİH) və vətəndaşlığı göstərilməklə baş rolları ifa edənlərin siyahısı. BİH - Tərəflərdən hər birinin dövlətinin qanunvericiliyi ilə bədii istehsal heyəti kimi tanınmış şəxslər hesab olunur.

1.4. Film istehsalının təqvim-quruluş planı.

1.5. Filmin rejissoru və ssenari müəllifi ilə qüvvədə olan müqavilə.

1.6. Hüquqi şəxs olan prodüserlərin (ortaq prodüserlərin) təsis sənədləri.

1.7. Film istehsalının biznes planı.

1.8. Filmin birgə istehsal olunması ilə bağlı prodüserlər (ortaq prodüserlər) arasında müqavilənin layihəsi və ya qüvvədə olan müqavilə.

2. Prodüserlər (ortaq prodüserlər) arasında müqavilənin layihəsi və ya qüvvədə olan müqavilə aşağıdakı məlumatları özündə əks etdirməlidir:

2.1. Filmin adı.

2.2. Filmin prodüserlərinin (ortaq prodüserlərinin) adları və/və ya hüquqi (poçt) ünvanları.

2.3. Filmin ssenari müəllifləri və rejissorlarının adları və soyadları.

2.4. Maliyyələşmə mənbələri, o cümlədən Tərəflərin dövlətlərinin qanunvericiliklərində nəzərdə tutulmuş vergilərlə bağlı məlumat, eləcə də hər bir prodüserin (ortaq prodüserin) qoyduğu məbləğin faiz bölgüsü haqqında məlumat göstərilməklə filmin istehsalına sərf olunmuş xərclər smetası.

2.5. Filmin kommersiya məqsədi ilə istifadəsi nəticəsində əldə olunmuş gəlirlərin bölgüsü qaydası.

2.6. Filmin istehsal olunma müddətləri.

2.7. Müqavilə şərtlərinin yerinə yetirilməsinə görə prodüserin (ortaq prodüserin) məsuliyyəti.

Müqaviləyə edilən dəyişikliklər və əlavələr filmin işçi nüsxəsinin hazırlanma müddətinin bitməsinə (filmin bir plyonkaya köçürülməsinə) qədər razılaşdırılmaq üçün Tərəflərin səlahiyyətli orqanlarına təqdim olunur.

3. Hər bir prodüserin (ortaq prodüserin) filmin çəkilişinə verdiyi töhfə bədii istehsal heyətinin ən azı bir vahidindən, baş rolu ifa edən bir nəfərdən və ikinci dərəcəli rolu ifa edən bir nəfərdən ibarət olmalıdır. Tərəflərin səlahiyyətli orqanlarının razılığına əsasən istisna hallarda prodüserlərin (ortaq prodüserlərin) töhfələrinin həcmində dəyişikliyə yol verilir.

4. Prodüserlərin (ortaq prodüserlərin) qoyduqları müvafiq maliyyə töhfələrinin payı

iyirmi faizdən səksən faizədək təşkil edə bilər.

Çoxtərəfli birgə istehsal hallarında prodüserlərin (ortaq prodüserlərin) qoyduqları ən az maliyyə töhfəsinin payı filmin istehsalına sərf olunmuş ümumi məbləğin 10 faizindən az, ən çox payı isə 70 faizindən çox olmamalıdır.

5. Filmlərin birgə istehsalı hər bir Tərəfin dövlətinin bədii istehsal heyəti tərəfindən həyata keçirilir.

Filmin istehsalı üçün ehtiyac olduqda ortaq prodüserlərin qarşılıqlı razılığı əsasında digər dövlətlərin bədii istehsal heyəti filmin istehsalında iştirak edə bilər.

Filmin istehsalı Tərəflərin dövlətlərinin ərazisində, lazımi hallarda isə Tərəflərin səlahiyyətli orqanlarının razılığına əsasən üçüncü dövlətlərin ərazisində həyata keçirilir.

Prodüserlərdən (ortaq prodüserlərdən) hər biri, saxlanıldığı yerdən asılı olmayaraq, filmin ilkin materiallarının (təsvir və səs) ortaq sahibi hesab olunur. Prodüserinin (ortaq prodüserinin) daha çox maliyyə töhfəsi qoyduğu Tərəf onların saxlanılmasına görə üstün hüquqa malikdir.

Prodüserlərdən (ortaq prodüserlərdən) hər birinin onların öz dillərində filmin nüsxəsinə malik olmaq hüququ vardır.

9. Prodüserlər (ortaq prodüserlər) arasındakı bütün qarşılıqlı hesablaşmalar filmin müqaviləsində qeyd olunmuş istehsal müddətinin bitməsi tarixindən sonra 60 gün müddətində tamamlanır.

10. Birgə istehsal filmlərinə "milli film" statusunun verilməsi Tərəflərin dövlətlərinin qanunvericiliyinə uyğun olaraq milli film şəhadətnaməsinin təqdim olunması yolu ilə Tərəflərin səlahiyyətli orqanları tərəfindən rəsmiləşdirilir.

"Azərbaycan Respublikası Hökuməti və Çexiya Respublikası Hökuməti arasında iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti və Çexiya Respublikası Hökuməti arasında iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri Şahin Abdulla oğlu Mustafayevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri Şahin Abdulla oğlu Mustafayevə verilməsi barədə Çexiya Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 24 sentyabr 2009-cu il

№ 499

"Azərbaycan Respublikası Hökuməti və Rumıniya Hökuməti arasında transsərhəd, mütəşəkkil cinayətkarlığa və beynəlxalq terrorçuluğa qarşı mübarizə sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti və Rumıniya Hökuməti arasında transsərhəd, mütəşəkkil cinayətkarlığa və beynəlxalq terrorçuluğa qarşı mübarizə sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının daxili işlər naziri Ramil İdris oğlu Usubova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının daxili işlər naziri Ramil İdris oğlu Usubova verilməsi barədə Rumıniya Hökumətinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 25 sentyabr 2009-cu il

№ 500

"Azərbaycan Respublikası Hökuməti və Rumıniya Hökuməti arasında fövqəladə halların nəticələrinin aradan qaldırılması, məhdudlaşdırılması və azaldılması sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti və Rumıniya Hökuməti arasında fövqəladə halların nəticələrinin aradan qaldırılması, məhdudlaşdırılması və Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının fövqəladə hallar naziri Kəmaləddin Fəttah oğlu Heydərova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının fövqəladə hallar naziri Kəmaləddin Fəttah oğlu Heydərova verilməsi barədə Rumıniya Hökumətinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 25 sentyabr 2009-cu il

№ 501

"Azərbaycan Respublikası və Tacikistan Respublikası arasında ticarət-iqtisadi əməkdaşlıq məsələləri üzrə birgə Hökumətlərarası komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 7 fevral tarixli 2667 nömrəli Sərəncamında dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası və Tacikistan Respublikası arasında ticarət-iqtisadi əməkdaşlıq məsələləri üzrə birgə Hökumətlərarası komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 7 fevral tarixli 2667 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, №2, maddə 75; 2009-cu il, №1, maddə 17) 1-ci bəndində aşağıdakı dəyişikliklər edilsin:

"Yaqub Eyyubov - Azərbaycan Respublikası Baş nazirinin birinci müavini" sözləri "Şahin Mustafayev - Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri" sözləri ilə əvəz edilsin;

"Niyazi Səfərov - Azərbaycan Respublikası iqtisadi inkişaf nazirinin müavini" sözləri çıxarılsın.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən dəyişikliklər barədə Tacikistan Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 30 sentyabr 2009-cu il.

№ 506

2009-cu il iyulun 1-də Haaqa şəhərində imzalanmış "Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti və Niderland Krallığının Repatriasiya və Geri Qaytarma Xidməti arasında qeyri-leqal miqrasiyaya qarşı əməkdaşlıq üzrə Anlaşma Memorandumu"nun təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2009-cu il iyulun 1-də Haaqa şəhərində imzalanmış "Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti və Niderland Krallığının Repatriasiya və Geri Qaytarma Xidməti arasında qeyri-leqal miqrasiyaya qarşı əməkdaşlıq üzrə Anlaşma Memorandumu" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidmətinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Memorandumun həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Memorandumun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Niderland Krallığı tərəfini xəbərdar etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 1 oktyabr 2009-cu il

№ 508

Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti və Niderland Krallığının Repatriasiya və Geri Qaytarma Xidməti arasında qeyri-leqal miqrasiyaya qarşı əməkdaşlıq üzrə Anlaşma Memorandumu

Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti (DSX) və Niderland Krallığının Repatriasiya və Geri Qaytarma Xidməti (RQX) (bundan sonra "Tərəflər")

Miqrasiya məsələləri, xüsusi ilə qeyri-leqal miqrasiya ilə mübarizə məsələlərində əməkdaşlığın və qarşılıqlı dəstəyin əhəmiyyətini təsdiqləyərək,

insan hüquqları haqqında 1948-ci il tarixli Ümumi Bəyannamənin 13(2)-ci maddəsində, Mülki və Siyasi Hüquqlar haqqında 1966-cı tarixli Beynəlxalq Paktın 12-ci maddəsində əsas insan haqlarının təsbit olunduğu kimi bütün vətəndaşların öz ölkələrinə qayıtmaq hüququnu qəbul edərək,

Öz ölkələrinin immiqrasiya qurumları tərəfindən qəbul edilməz sayılan şəxslər və geri göndərilənlərlə bağlı Beynəlxalq Mülki Aviasiya haqqında Konvensiyaya 9-cu Əlavənin Standartlarını və Tövsiyə edilən Təcrübələrini (xüsusi ilə 5-ci fəslin müddəalarını) rəhbər tutaraq

Aşağıdakılar barədə razılıq əldə etmişlər:

1. Bu Anlaşma Memorandumu (Memorandum) yuxarıda adları qeyd olunan tərəflər arasında Niderlandda yaşayan və Niderlandda yaşamaq hüququ verilməyən, Niderlanddan repatriasiya olunan Əfqanıstan vətəndaşlarının Heydər Əliyev Beynəlxalq Aeroportu vasitəsilə tranziti üçün razılaşmadan ibarətdir.

2. DSX yuxarıda qeyd olunan Əfqanıstan vətəndaşlarını və onları müşayiət edən şəxsləri Əfqanıstana yerinə yetirilən sonrakı uçuşlara çatdırmaq məqsədilə, Heydər Əliyev Beynəlxalq Aeroportunda hərəkəti də daxil olmaqla, onları qəbul edəcək və tranzitinə yardım göstərəcək. Tranzitin müddəti 24 saatdan artıq olmayacaqdır.

3. Bu Memorandumun şərtləri daxilində geri qaytarılan Əfqanıstan vətəndaşları ya cədvəlləşdirilmiş hava xidmətləri vasitəsilə, ya da xüsusi olaraq bu məqsəd üçün ayrılmış çarter reysi ilə Bakıya gələcəklər.

4. RQX 7 (yeddi) gündən gec olmayaraq DSX-ya bu Memorandumun şərtləri daxilində Niderlanddan çıxarılacaq Əfqanıstan vətəndaşlarına dair - gəlib çatma cədvəli, ehtiyac duyulan tranzit müddəti, Niderland Krallığı tərəfindən müşayiətçilərin adları, habelə geri göndərilən şəxslərin mümkün davranışları da daxil olmaqla, əvvəlcədən müvafiq məlumat təqdim edəcəkdir.

5. Bu Memorandumun şərtləri daxilində Niderlanddan çıxarılacaq Əfqanıstan vətəndaşlarına müvafiq səyahət sənədi veriləcək. Bu ya Əfqan pasportu, ya da RQX tərəfindən verilmiş müvafiq səyahət sənədi, yəni, Əfqanıstan vətəndaşlarının Əfqanıstana qayıtmasını yüngülləşdirmək məqsədilə tərtib olunmuş Avropa İttifaqının sənədi olacaqdır.

6. Niderland Krallığının Sərhəd Mühafizə Xidmətinin nümayəndələri Niderlanddan çıxarılan Əfqanıstan vətəndaşlarını Heydər Əliyev Beynəlxalq Aeroportunda tranzit və rəsmiləşdirmə proseduru zamanı müşayiət edəcəklər. Niderland Krallığının Sərhəd Mühafizə Xidmətinin nümayəndələri Əfqanıstan vətəndaşlarının Kabil hava limanında qəbulu ilə bağlı bütün prosedurlar tam bitənədək Bakıda qalacaqlar.

7. Bu Memorandumun şərtləri daxilində çıxarılmış Əfqanıstan vətəndaşı Əfqanıstan hakimiyyət orqanları tərəfindən qəbul edilməzsə və onu Azərbaycan Respublikasının ərazisinə qaytararsa, RQX həmin şəxsin Niderlanda göndərilməsini öz öhdəsinə götürəcəkdir. Heydər Əliyev Beynəlxalq Aeroportunda tranzit prosedurunun müddəti 48 saatdan artıq olmayacaqdır.

8. RQX hər bir qayıdan şəxsin bütün səyahət xərcini ödəyəcəkdir.

9. RQX Azərbaycan Respublikası tərəfindən bu Memorandumun şərtləri daxilində öhdəliklərin yerinə yetirilməsi zamanı çəkilmiş münasib inzibati xərcləri ödəyəcəkdir.

10. Bu Anlaşma Memorandumu onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Tərəflərin sonuncu yazılı bildirişin diplomatik kanallar vasitəsilə alındığı tarixdən qüvvəyə minir. Tərəflərdən hər biri digərini məlumatlandıraraq bu Anlaşma Memorandumuna xitam verə bilər. Bu halda digər Tərəfə sonuncu yazılı bildirişin göndərildiyi vaxtdan 90 gün sonra bu Anlaşma Memorandumu öz qüvvəsini itirir.

Bu Anlaşma Memorandumu Haaqa şəhərində 01 iyul 2009-cu il tarixində Azərbaycan və İngilis dillərində iki nüsxədə imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir.

AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT SƏRHƏD XİDMƏTİ ADINDAN	NİDERLAND KRALLIĞININ REPATRİASİYA VƏ GERİ QAYTARMA XİDMƏTİ ADINDAN
(imza)	*(imza)*

2009-cu il sentyabrın 8-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti və Fransa Respublikasının İmmiqrasiya, İnteqrasiya, Milli Kimlik və Həmrəy İnkişaf Nazirliyi arasında əməkdaşlıq üzrə Anlaşma Memorandumu"nun təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2009-cu il sentyabrın 8-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti və Fransa Respublikasının İmmiqrasiya, İnteqrasiya, Milli Kimlik və Həmrəy İnkişaf Nazirliyi arasında əməkdaşlıq üzrə Anlaşma Memorandumu" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidmətinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Memorandumun həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Memorandumun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Fransa Respublikası tərəfini xəbərdar etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 1 oktyabr 2009-cu il

№ 509

Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti və Fransa Respublikasının İmmiqrasiya, İnteqrasiya, Milli Kimlik və Həmrəy İnkişaf Nazirliyi arasında əməkdaşlıq üzrə Anlaşma Memorandumu

Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti (DSX) və Fransanın İmmiqrasiya, İnteqrasiya, Milli Kimlik və Həmrəy İnkişaf Nazirliyi (İİMKHİN) (bundan sonra "Tərəflər")

Miqrasiya məsələləri, xüsusi ilə qeyri-leqal miqrasiya ilə mübarizə məsələlərində əməkdaşlığın və qarşılıqlı dəstəyin əhəmiyyətini təsdiqləyərək,

İnsan Hüquqları haqqında 1948-ci il tarixli Ümumi Bəyannamə, 1950-ci il tarixli İnsan Hüquqları və Əsas Azadlıqlar haqqında Avropa Konvensiyası, Mülki və Siyasi Hüquqlar haqqında 1966-cı il tarixli Beynəlxalq Paktda əsas insan haqlarının təsbit olunduğu kimi bütün vətəndaşların öz ölkələrinə qayıtmaq hüququnu qəbul edərək,

Öz ölkələrinin immiqrasiya qurumları tərəfindən qəbuledilməz sayılan şəxslər və geri göndərilənlərlə bağlı Beynəlxalq Mülki Aviasiya haqqında Konvensiyaya 9-cu Əlavənin Standartlarını və Tövsiyə edilən Təcrübələrini (xüsusilə 5-ci fəslin müddəalarını) rəhbər tutaraq

Aşağıdakılar barədə razılıq əldə etmişlər:

1. Bu Memorandum yuxarıda adları qeyd olunan Tərəflər arasında Fransada yaşayan və Fransada yaşamaq hüququ verilməyən, Fransadan repatriasiya olunan Əfqanıstan vətəndaşlarının Heydər Əliyev Beynəlxalq Aeroportu vasitəsilə tranziti üçün razılaşmadan ibarətdir.

2. DSX yuxarıda qeyd olunan Əfqanıstan vətəndaşlarını və onları müşayiət edən şəxsləri Əfqanıstana yerinə yetirilən sonrakı uçuşlara çatdırmaq məqsədilə, Heydər Əliyev Beynəlxalq Aeroportunda hərəkəti də daxil olmaqla, onları qəbul edəcək və tranzitinə yardım göstərəcəkdir. Tranzitin müddəti 24 saatdan artıq olmayacaqdır.

3. Bu Memorandumun şərtləri daxilində geri qaytarılan Əfqanıstan vətəndaşları ya cədvəlləşdirilmiş hava xidmətləri vasitəsilə, ya da bu məqsədlə ayrılmış xüsusi reyslə Bakıya gələcəklər.

4. İİMKHİN 4 (dörd) iş günündən gec olmayaraq DSX-ya bu Memorandumun şərtləri daxilində Fransadan çıxarılacaq Əfqanıstan vətəndaşlarına dair - gəlib çatma cədvəli, ehtiyac duyulan tranzit müddəti, Fransa tərəfindən müşayiətçilərin adları, habelə geri göndərilən şəxslərin mümkün davranışları da daxil olmaqla, əvvəlcədən müvafiq məlumat təqdim edəcəkdir.

5. Bu Memorandumun şərtləri daxilində Fransadan çıxarılacaq Əfqanıstan vətəndaşlarına müvafiq səyahət sənədləri veriləcəkdir. Bu, Əfqan pasportu, və ya Əfqanıstanın dövlət orqanları tərəfindən təqdim olunan konsulluq səyahət sənədi, ya da İİMKHİN tərəfindən verilmiş müvafiq səyahət sənədi, yəni, Əfqanıstan vətəndaşlarının Əfqanıstana qayıtmasını yüngülləşdirmək məqsədilə tərtib olunmuş Avropa İttifaqının sənədi olacaqdır. Qeyd olunan səyahət sənədlərinin nümunələri rəsmi qaydada əvvəlcədən Azərbaycan tərəfinə təqdim olunacaqdır.

6. İİMKHİN-in nümayəndələri Fransadan çıxarılan Əfqanıstan vətəndaşlarını Heydər Əliyev Beynəlxalq Aeroportunda tranzit və rəsmiləşdirmə proseduru zamanı müşayiət edəcəklər. İİMKHİN-in nümayəndələri Əfqanıstan vətəndaşlarının Kabil hava limanında qəbulu ilə bağlı bütün prosedurlar tam bitənədək Bakıda qalacaqlar.

7. Bu Memorandumun şərtləri daxilində çıxarılmış Əfqanıstan vətəndaşı Əfqanıstan hakimiyyət orqanları tərəfindən qəbul edilməzsə və onu Azərbaycan Respublikasının ərazisinə qaytararsa, İİMKHİN həmin şəxsin Fransaya göndərilməsini öz öhdəsinə götürəcəkdir. Heydər Əliyev Beynəlxalq Aeroportunda tranzit prosedurunun müddəti 48 saatdan artıq olmayacaqdır.

8. İİMKHİN hər bir qayıdan şəxsin bütün səyahət xərcini ödəyəcəkdir.

9. İİMKHİN Azərbaycan Respublikası tərəfindən bu Memorandumun şərtləri daxilində öhdəliklərin yerinə yetirilməsi zamanı çəkilmiş münasib inzibati xərcləri ödəyəcəkdir.

10. Bu Memorandum onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Tərəflərin yazılı bildirişinin rəsmi kanallar vasitəsilə alındığı tarixdən qüvvəyə minir.

Tərəflərdən hər biri digərini məlumatlandıraraq bu Memorandumdan çıxa bilər. Bu halda digər tərəfə yazılı bildirişin göndərildiyi vaxtdan 90 gün sonra Memorandum öz qüvvəsini itirir.

Memorandum Bakı şəhərində 08 avqust 2009-cu il tarixdə Azərbaycan və fransız dillərində, iki əsl nüsxədə imzalanmışdır, hər iki mətn eyni hüquqi qüvvəyə malikdir.

AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT SƏRHƏD XİDMƏTİ ADINDAN	FRANSANIN İMMİQRASİYA, İNTEQRASİYA, MİLLİ KİMLİK VƏ HƏMRƏY İNKİŞAF NAZİRLİYİ ADINDAN
(imza)	*(imza)*

"Azərbaycan Respublikası Hökuməti ilə Qazaxıstan Respublikası Hökuməti arasında 1992-1993-cü illər ərzində (müxbir hesablar üzrə hesablaşmalara keçidə kimi və ondan sonra) ticarət-iqtisadi münasibətlər nəticəsində yaranmış borcun ödənilməsi haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti ilə Qazaxıstan Respublikası Hökuməti arasında 1992-1993-cü illər ərzində (müxbir hesablar üzrə hesablaşmalara keçidə kimi və ondan sonra) ticarət-iqtisadi münasibətlər nəticəsində yaranmış borcun ödənilməsi haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının maliyyə naziri Samir Rauf oğlu Şərifova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının maliyyə naziri Samir Rauf oğlu Şərifova verilməsi barədə Qazaxıstan Respublikası Hökumətinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 1 oktyabr 2009-cu il

№ 511

"Azərbaycan Respublikası Hökuməti və Qazaxıstan Respublikası Hökuməti arasında baytarlıq sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti və Qazaxıstan Respublikası Hökuməti arasında baytarlıq sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının kənd təsərrüfatı naziri İsmət Dursun oğlu Abasova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının kənd təsərrüfatı naziri İsmət Dursun oğlu Abasova verilməsi barədə Qazaxıstan Respublikası Hökumətinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 1 oktyabr 2009-cu il

№ 512

"Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi və Qazaxıstan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi arasında kənd təsərrüfatı sahəsində əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi və Qazaxıstan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi arasında kənd təsərrüfatı sahəsində əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının kənd təsərrüfatı naziri İsmət Dursun oğlu Abasova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının kənd təsərrüfatı naziri İsmət Dursun oğlu Abasova verilməsi barədə Qazaxıstan Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 1 oktyabr 2009-cu il

№ 513

"Sumqayıt şəhəri (Azərbaycan Respublikası) və Aktau şəhəri (Qazaxıstan Respublikası) arasında qardaşlaşmış şəhər münasibətlərinin yaradılması haqqında Birgə Bəyannamə"ni imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Sumqayıt şəhəri (Azərbaycan Respublikası) və Aktau şəhəri (Qazaxıstan Respublikası) arasında qardaşlaşmış şəhər münasibətlərinin yaradılması haqqında Birgə Bəyannamə"ni imzalamaq səlahiyyəti Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı Vaqif Qadir oğlu Əliyevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən sənədi imzalamaq səlahiyyətinin Sum-qayıt Şəhər İcra Hakimiyyətinin başçısı Vaqif Qadir oğlu Əliyevə verilməsi barədə Qazaxıstan Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 1 oktyabr 2009-cu il

№ 514

"Çex Respublikasının "Komerçni banka, a.s." Bankı (Boreverən), Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi (Borcalan) və Azərbaycan Respublikasının Maliyyə Nazirliyi (Zamin) arasında "Heydər Əliyev adına Beynəlxalq Hava Limanı - Mərdəkan dairəsi - Bilgəh" avtomobil yolunun 6-8 cərgəli hərəkət üçün yenidən qurulması, yol qovşaqlarının, piyada keçidlərinin tikintisi və digər yol işlərinin maliyyələşdirilməsinə dair Çərçivə Kredit Sazişi"ni imzalamaq səlahiyyəti verilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Sərəncamı

1. "Çex Respublikasının "Komerçni banka, a.s." Bankı (Boreverən), Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi (Borcalan) və Azərbaycan Respublikasının Maliyyə Nazirliyi (Zamin) arasında "Heydər Əliyev adına Beynəlxalq Hava Limanı - Mərdəkan dairəsi - Bilgəh" avtomobil yolunun 6-8 cərgəli hərəkət üçün yenidən qurulması, yol qovşaqlarının, piyada keçidlərinin tikintisi və digər yol işlərinin maliyyələşdirilməsinə dair Çərçivə Kredit Sazişi"ni imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının nəqliyyat naziri Ziya Ərzuman oğlu Məmmədova verilsin.

2. "Çex Respublikasının "Komerçni banka, a.s." Bankı (Boreverən), Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi (Borcalan) və Azərbaycan Respublikasının Maliyyə Nazirliyi (Zamin) arasında "Heydər Əliyev adına Beynəlxalq Hava Limanı - Mərdəkan dairəsi - Bilgəh" avtomobil yolunun 6-8 cərgəli hərəkət üçün yenidən qurulması, yol qovşaqlarının, piyada keçidlərinin tikintisi və digər yol işlərinin maliyyələşdirilməsinə dair Çərçivə Kredit Sazişi üzrə Zəmanət Sazişi"ni imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının maliyyə naziri Samir Rauf oğlu Şərifova verilsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu sərəncamda göstərilən sənədləri imzalamaq səlahiyyətlərinin müvafiq olaraq Azərbaycan Respublikasının maliyyə naziri Samir Rauf oğlu Şərifova və Azərbaycan Respublikasının nəqliyyat naziri Ziya Ərzuman oğlu Məmmədova verilməsi barədə Çex tərəfinə müvafiq bildiriş göndərsin.

A.RASİ-ZADƏ

Azərbaycan Respublikasının Baş naziri

Bakı şəhəri, 1 oktyabr 2009-cu il

№ 256s

Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi və Avstriya Respublikasının Təhsil, İncəsənət və Mədəniyyət üzrə Federal Nazirliyi arasında mədəniyyət və incəsənət sahələrində 2009-2012-ci illər üçün əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi və Avstriya Respublikasının Təhsil, İncəsənət və Mədəniyyət üzrə Federal Nazirliyi arasında mədəniyyət və incəsənət sahələrində 2009-2012-ci illər üçün əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının mədəniyyət və turizm naziri Əbülfəs Mürsəl oğlu Qarayevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Memorandumu imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının mədəniyyət və turizm naziri Əbülfəs Mürsəl oğlu Qarayevə verilməsi barədə Avstriya Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 5 oktyabr 2009-cu il

№ 515

"Azərbaycan Respublikası ilə Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı arasında Kredit Sazişi (Magistral Yol II Layihəsi üçün İkinci Əlavə Maliyyələşdirmə)" və "Azərbaycan Respublikası ilə Beynəlxalq İnkişaf Assosiasiyası arasında Maliyyələşdirmə Sazişi (Magistral Yol II Layihəsi üçün İkinci Əlavə Maliyyələşdirmə)" təsdiq edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Sərəncamı

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 23 iyul tarixli 180 s nömrəli sərəncamı ilə verilmiş səlahiyyətə əsasən 2009-cu il iyulun 28-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası ilə Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı arasında Kredit Sazişi (Magistral Yol II Layihəsi üçün İkinci Əlavə Maliyyələşdirmə)" və "Azərbaycan Respublikası ilə Beynəlxalq İnkişaf Assosiasiyası arasında Maliyyələşdirmə Sazişi (Magistral Yol II Layihəsi üçün İkinci Əlavə Maliyyələşdirmə)" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyinə, Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə, Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyinə tapşırılsın ki, bu sərəncamın 1-ci bəndində göstərilən sazişlərin həyata keçirilməsi ilə əlaqədar lazımi tədbirlər görsünlər.

3. Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyinə tapşırılsın ki, "Dövlət zəmanəti ilə alınan kreditlərə dair sazişlərin bağlanması qaydaları haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 13 fevral tarixli 368 nömrəli Fərmanının 1.15-ci bəndinin icrasını təmin etmək üçün kreditin effektiv və məqsədyönlü istifadəsinə dair məlumatı ildə bir dəfə Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi və Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırmaqla, Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin.

4. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu sərəncamın 1-ci bəndində göstərilən sazişlərin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Beynəlxalq Yenidənqurma və İnkişaf Bankını və Beynəlxalq İnkişaf Assosiasiyasını xəbərdar etsin.

5. Bu sərəncamın icrasına nəzarət Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyinə həvalə edilsin.

6. Bu sərəncam imzalandığı gündən qüvvəyə minir.

A.RASİ-ZADƏ

Azərbaycan Respublikasının Baş naziri

Bakı şəhəri, 6 oktyabr 2009-cu il

№ 262s

"Avropa Qonşuluq Siyasəti çərçivəsində həyata keçirilən proqramlar üzrə Avropa Komissiyası tərəfindən Azərbaycan Respublikasının dövlət büdcəsinə köçürüləcək vəsaitlərin istifadə mexanizmi"nin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

Avropa Qonşuluq Siyasəti çərçivəsində həyata keçirilən proqramlar üzrə Avropa Komissiyası tərəfindən Azərbaycan Respublikasının dövlət büdcəsinə köçürüləcək vəsaitlərin istifadə mexanizminin yaradılması ilə əlaqədar Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır:

1. "Avropa Qonşuluq Siyasəti çərçivəsində həyata keçirilən proqramlar üzrə Avropa Komissiyası tərəfindən Azərbaycan Respublikasının dövlət büdcəsinə köçürüləcək vəsaitlərin istifadə mexanizmi" təsdiq edilsin (əlavə olunur).

2. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

A.RASİ-ZADƏ

Azərbaycan Respublikasının Baş naziri

Bakı şəhəri, 12 oktyabr 2009-cu il

№ 165

Avropa Qonşuluq Siyasəti çərçivəsində həyata keçirilən proqramlar üzrə Avropa Komissiyası tərəfindən Azərbaycan Respublikasının dövlət büdcəsinə köçürüləcək vəsaitlərin istifadə mexanizmi

1. Ümumi müddəa

Bu Mexanizm Avropa Qonşuluq Siyasəti çərçivəsində həyata keçirilən proqramlar üzrə Avropa Komissiyası tərəfindən Azərbaycan Respublikasının dövlət büdcəsinə köçürüləcək vəsaitlərin istifadə mexanizmini müəyyən edir.

2. Vəsaitlərin ayrılması qaydaları və şərtləri

2.1. Avropa Qonşuluq Siyasəti çərçivəsində həyata keçirilən proqramlar üzrə benefisiar təşkilatlar və Avropa Komissiyası tərəfindən Azərbaycan Respublikasının dövlət büdcəsinə köçürüləcək vəsaitlərin həcmi Azərbaycan Respublikası Hökuməti ilə Avropa Komissiyası arasında imzalanan maliyyələşdirmə sazişlərində müəyyən edilir.

2.2. Avropa Qonşuluq Siyasəti çərçivəsində həyata keçirilən hər bir proqram üzrə Azərbaycan Respublikası Hökuməti ilə Avropa Komissiyası arasında imzalanmış Maliyyələşdirmə Sazişi təsdiq edildikdən sonra Avropa Komissiyası tərəfindən Azərbaycan Respublikasına proqramlar üzrə ayrılan qrant vəsaitlərinin proqramların məqsədlərinə istifadəsi üçün köçürülməsi barədə Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi və benefisiar təşkilatlar arasında müqavilələr bağlanılır (Nümunəvi Müqavilə əlavə olunur).

2.3. Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi və benefisiar təşkilatlar tərəfindən hər bir proqram üzrə imzalanmış Maliyyələşdirmə Sazişi əsasında Avropa Komissiyası tərəfindən Azərbaycan Respublikasına ayrılan qrant vəsaitinin istifadəsini təmin edən və proqramlar çərçivəsində satınalma işlərinin planını müəyyən edən Tədbirlər Planı hazırlanır və təsdiq edilməsi üçün Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim edilir.

2.4. Azərbaycan Respublikası Hökuməti ilə Avropa Komissiyası arasında imzalanan maliyyələşdirmə sazişləri əsasında Avropa Komissiyasının hər bir köçürmə üzrə ayırdığı vəsaitlərin məbləğləri və həyata keçiriləcək hər bir proqram üzrə ayrılmış vəsaitlərin istifadə qrafikləri Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi tərəfindən hazırlanır və növbəti ilin dövlət büdcəsində nəzərə alınması üçün "Büdcə sistemi haqqında" Azərbaycan Respublikası Qanununun 11.8-ci maddəsinə uyğun olaraq Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə təqdim edilir.

2.5. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi təqdim olunan təklifləri növbəti ilin dövlət büdcəsi layihəsinin gəlir və xərclərində vahid büdcə təsnifatına uyğun olaraq nəzərə alır.

2.6. Avropa Qonşuluq Siyasəti çərçivəsində həyata keçirilən proqramlar üçün il ərzində hər bir köçürmə üzrə ayrılan vəsaitlər Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin Azərbaycan Respublikasının Maliyyə Nazirliyini məlumatlandırmaqla, Avropa Komissiyasına ünvanladığı müraciət əsasında Avropa Komissiyası tərəfindən dövlət büdcəsinə köçürülür və büdcə gəlirlərinin təsnifatı üzrə uçota alınır.

2.7. Avropa Komissiyası tərəfindən Azərbaycan Respublikasının dövlət büdcəsinə köçürülən vəsaitlər Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin müraciəti əsasında Avropa Komissiyası ilə Azərbaycan Respublikasının Hökuməti arasında imzalanmış Maliyyələşdirmə Sazişinin şərtlərinə, həmçinin Tədbirlər Planına uyğun olaraq Azərbaycan Respublikasının Maliyyə Nazirliyi tərəfindən benefisiarların Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Dövlət Xəzinədarlığı Agentliyində açılmış xəzinə hesablarına köçürülür və büdcə xərclərinin funksional və vahid büdcə təsnifatına uyğun olaraq hər bir proqram üzrə uçota alınır.

2.8. Avropa Qonşuluq Siyasəti çərçivəsində həyata keçiriləcək proqramların hər biri üzrə benefisiar təşkilatın adına Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Dövlət Xəzinədarlığı Agentliyində xəzinə hesabı (xəzinə hesab kitabı) açılır və hər bir xəzinə hesabı üzrə əməliyyatlar müvafiq qanunvericiliyə uyğun olaraq benefisiar təşkilatların sifarişlərinə əsasən Dövlət Xəzinədarlığı Agentliyi tərəfindən həyata keçirilir.

2.9. Benefisiar təşkilatlar proqramların icrası ilə bağlı tələb olunan kassa xərclərini Tədbirlər Planına uyğun olaraq Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Dövlət Xəzinədarlığı Agentliyində açılmış xəzinə hesabları vasitəsilə həyata keçirirlər.

2.10. Benefisiar təşkilatlar Tədbirlər Planının icrası ilə əlaqədar satınalma proseduralarını "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun həyata keçirirlər.

3. Hesabat və nəzarət

3.1. Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi imzalanmış Maliyyələşdirmə Sazişi əsasında Avropa Komissiyası tərəfindən ayrılmış vəsaitlərin benefisiar təşkilatlar tərəfindən Tədbirlər Planına uyğun istifadəsi üzrə monitorinq və qiymətləndirmə aparır və benefisiar təşkilatlar tərəfindən Avropa Qonşuluq Siyasəti çərçivəsində həyata keçirilən proqramların xüsusi şərtlərinin yerinə yetirilməsinə nəzarət edir.

3.2. Proqramların hər biri üzrə aparılmış maliyyə əməliyyatlarına və Maliyyələşdirmə Sazişində göstərilən xüsusi şərtlərin həyata keçirilməsinə dair hesabatlar rübdə bir dəfə (növbəti rübün birinci ayının 20-nə qədər) benefisiar təşkilatlar tərəfindən Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyinə və Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə təqdim edilir.

3.3. Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi benefisiar təşkilatlardan alınan hesabatları icmallaşdırır və rübdə bir dəfə (növbəti rübün birinci ayının 30-na qədər) Azərbaycan Respublikasının Avropaya İnteqrasiyası üzrə Dövlət Komissiyasına təqdim edir.

Bakı şəhərində Yeniyetmələrin VI Beynəlxalq Elm Olimpiadasının keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Son illər ölkəmizdə təhsil sahəsində böyük islahatlar aparılır, elmi-texniki tərəqqinin sürətlə inkişafına hesablanmış müasir təhsil sisteminin formalaşdırılması istiqamətində mühüm tədbirlər həyata keçirilir. Şagird və tələbələrimiz respublikamızın və dünyanın nüfuzlu təhsil ocaqlarında yüksək nəticələr nümayiş etdirir, müxtəlif yerli və beynəlxalq elm olimpiadalarında medallar qazanırlar.

Yeniyetmələrin Beynəlxalq Elm Olimpiadası Təşkilat Komitəsi tərəfindən növbəti Ü

Yeniyetmələrin VI Beynəlxalq Elm Olimpiadasının 2009-cu ilin dekabr ayında Azərbaycanda keçirilməsi qərara alınmışdır.

Azərbaycanda gənc nəslin elmə olan marağının daha da artırılmasını, onların yaradıcılıq potensialının üzə çıxarılmasını və olimpiadanın yüksək səviyyədə keçirilməsini təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi Azərbaycan Respublikasının Təhsil Nazirliyi, Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası və Azərbaycan Respublikasının Tələbə Qəbulu üzrə Dövlət Komissiyası ilə birlikdə Bakı şəhərində Yeniyetmələrin VI Beynəlxalq Elm Olimpiadasının keçirilməsini təmin etsin.

2. Bakı şəhərində Yeniyetmələrin VI Beynəlxalq Elm Olimpiadasının keçirilməsi üçün Azərbaycan Respublikasının 2009-cu ilin dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyinə 2,4 milyon (iki milyon dörd yüz min) manat məbləğində vəsait ayrılsın.

3. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 2-ci bəndində nəzərdə tutulmuş vəsaitin maliyyələşdirilməsini müəyyən olunmuş qaydada həyata keçirsin.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 15 oktyabr 2009-cu il.

№ 521

"Amerika Birləşmiş Ştatları Hökumətini təmsil edən ABŞ Ticarət və İnkişaf Agentliyi (USTDA) və Azərbaycan Respublikasının Dövlət Neft Fondu arasında Qrant Müqaviləsi" təsdiq edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Sərəncamı

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 25 sentyabr tarixli 253s nömrəli sərəncamı ilə verilmiş səlahiyyətə əsasən 2009-cu il sentyabrın 28-də imzalanmış "Amerika Birləşmiş Ştatları Hökumətini təmsil edən ABŞ Ticarət və İnkişaf Agentliyi (USTDA) və Azərbaycan Respublikasının Dövlət Neft Fondu arasında Qrant Müqaviləsi" təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Respublikasının Dövlət Neft Fonduna tapşırılsın ki, Amerika Birləşmiş Ştatları Hökumətini təmsil edən ABŞ Ticarət və İnkişaf Agentliyi (USTDA) tərəfindən ayrılmış qrantın istifadəsinə dair məlumatı ildə bir dəfədən az olmayaraq, zəruri hallarda tələb olunduqda və layihə tam başa çatdıqdan sonra yekun hesabatı Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi ilə razılaşdırmaqla, Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu sərəncamın 1-ci bəndində göstərilən sənədin qüvvəyə minməsi üçün zəruri dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Amerika Birləşmiş Ştatları tərəfinə müvafiq bildiriş göndərsin.

4. Bu sərəncamın icrasına nəzarət Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyinə həvalə edilsin.

5. Bu sərəncam imzalandığı gündən qüvvəyə minir.

A.RASİ-ZADƏ

Azərbaycan Respublikasının Baş naziri

Bakı şəhəri, 16 oktyabr 2009-cu il

№ 274s

"Azərbaycan Respublikası ilə Beynəlxalq İnkişaf Assosiasiyası arasında Maliyyələşdirmə Sazişi (Dövlət İnvestisiyaları üzrə Kadr Potensialının Gücləndirilməsi Layihəsi)" təsdiq edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Sərəncamı

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 25 sentyabr tarixli 252 s nömrəli sərəncamı ilə verilmiş səlahiyyətə əsasən 2009-cu il oktyabrın 1-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası ilə Beynəlxalq İnkişaf Assosiasiyası arasında Maliyyələşdirmə Sazişi (Dövlət İnvestisiyaları üzrə Kadr Potensialının Gücləndirilməsi Layihəsi)" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə, Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyinə, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə və Azərbaycan Respublikasının Təhsil Nazirliyinə tapşırılsın ki, bu sərəncamın 1-ci bəndində göstərilən Sazişin həyata keçirilməsi ilə əlaqədar lazımi tədbirlər görsünlər.

3. Azərbaycan Respublikasının Təhsil Nazirliyinə və Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyinə tapşırılsın ki, "Dövlət zəmanəti ilə alınan kreditlərə dair sazişlərin bağlanması qaydaları haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 13 fevral tarixli 368 nömrəli Fərmanının 1.15-ci bəndinin icrasını təmin etmək üçün kreditin effektiv və məqsədyönlü istifadəsinə dair hesabatın Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 6 oktyabr tarixli 263s nömrəli sərəncamı ilə müəyyən edilmiş qaydada Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim edilməsini təmin etsinlər.

4. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu sərəncamın 1-ci bəndində göstərilən Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Beynəlxalq İnkişaf Assosiasiyasını xəbərdar etsin.

5. Bu sərəncamın icrasına nəzarət Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyinə həvalə edilsin.

6. Bu sərəncam imzalandığı gündən qüvvəyə minir.

A.RASİ-ZADƏ

Azərbaycan Respublikasının Baş naziri

Bakı şəhəri, 19 oktyabr 2009-cu il

№ 275s

M.N. Əfəndiyevin Azərbaycan Respublikasının Yunanıstan Respublikasında fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alıram:

Mir-Həmzə Nazim oğlu Əfəndiyev Azərbaycan Respublikasının Yunanıstan Respublikasında fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılsın.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 22 oktyabr 2009-cu il

№ 528

R.S. Mustafayevə Azərbaycan Respublikasının fövqəladə və səlahiyyətli səfiri diplomatik rütbəsi verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

"Diplomatik xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 8.1.1-ci maddəsini rəhbər tutaraq qərara alıram:

Rəhman Sahib oğlu Mustafayevə Azərbaycan Respublikasının fövqəladə və səlahiyyətli səfiri diplomatik rütbəsi verilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 22 oktyabr 2009-cu il

№ 529

R.S. Mustafayevin Azərbaycan Respublikasının Yunanıstan Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alıram:

Rəhman Sahib oğlu Mustafayev Azərbaycan Respublikasının Yunanıstan Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 22 oktyabr 2009-cu il

№ 530

"Gömrük Əməkdaşlığı Şurasının yaradılması haqqında" Konvensiyaya dəyişikliklərin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

2007-ci il iyunun 30-da Gömrük Əməkdaşlığı Şurasının iclasında "Gömrük Əməkdaşlığı Şurasının yaradılması haqqında" Konvensiyaya tövsiyə edilmiş dəyişikliklər təsdiq edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 27 oktyabr 2009-cu il

№ 899-IIIQ

"Beynəlxalq İnkişaf Assosiasiyası ilə Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti arasında 6 nömrəli Layihə Sazişi (Milli Su Təchizatı və Kanalizasiya Xidmətləri üzrə İkinci Layihə)" təsdiq edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Sərəncamı

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 12 oktyabr tarixli 269s nömrəli sərəncamı ilə verilmiş səlahiyyətə əsasən 2009-cu il oktyabrın 16-da Bakı şəhərində imzalanmış "Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı ilə Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti arasında 5 nömrəli Layihə Sazişi (Milli Su Təchizatı və Kanalizasiya Xidmətləri üzrə İkinci Layihə)" və "Beynəlxalq İnkişaf Assosiasiyası ilə Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti arasında 6 nömrəli Layihə Sazişi (Milli Su Təchizatı və Kanalizasiya Xidmətləri üzrə İkinci Layihə)" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə, Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyinə, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə və Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinə tapşırılsın ki, bu sərəncamın 1-ci bəndində göstərilən sazişlərin həyata keçirilməsi ilə əlaqədar lazımi tədbirlər görsünlər.

3. Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyinə və Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinə tapşırılsın ki, "Dövlət zəmanəti ilə alınan kreditlərə dair sazişlərin bağlanması qaydaları haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 13 fevral tarixli 368 nömrəli Fərmanının 1.15-ci bəndinin icrasını təmin etmək üçün kreditin effektiv və məqsədyönlü istifadəsinə dair hesabatın Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 6 oktyabr tarixli 263s nömrəli sərəncamı ilə müəyyən edilmiş qaydada Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim edilməsini təmin etsinlər.

4. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu sərəncamın 1-ci bəndində göstərilən sazişlərin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Beynəlxalq Yenidənqurma və İnkişaf Bankını və Beynəlxalq İnkişaf Assosiasiyasını xəbərdar etsin.

5. Bu sərəncamın icrasına nəzarət Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirli-

yinə həvalə edilsin.

6. Bu sərəncam imzalandığı gündən qüvvəyə minir.

A.RASİ-ZADƏ

Azərbaycan Respublikasının Baş naziri

Bakı şəhəri, 27 oktyabr 2009-cu il

№ 286s

"Azərbaycan Respublikası ilə Beynəlxalq İnkişaf Assosiasiyası arasında Maliyyələşdirmə Sazişinə Düzəlişlər və Sazişin Yeni Redaksiyası (Milli Su Təchizatı və Kanalizasiya Xidmətləri üzrə İkinci Layihə)" təsdiq edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Sərəncamı

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 12 oktyabr tarixli 268s nömrəli sərəncamı ilə verilmiş səlahiyyətə əsasən 2009-cu il oktyabrın 16-da Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası ilə Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı və Beynəlxalq İnkişaf Assosiasiyası arasında Kredit və Maliyyələşdirmə sazişlərinə düzəlişlər və onların yeni redaksiyası haqqında Saziş (Milli Su Təchizatı və Kanalizasiya Xidmətləri üzrə İkinci Layihə)" və "Azərbaycan Respublikası ilə Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı arasında Kredit Sazişinə Düzəlişlər və Sazişin Yeni Redaksiyası (Milli Su Təchizatı və Kanalizasiya Xidmətləri üzrə İkinci Layihə)" və "Azərbaycan Respublikası ilə Beynəlxalq İnkişaf Assosiasiyası arasında Maliyyələşdirmə Sazişinə Düzəlişlər və Sazişin Yeni Redaksiyası (Milli Su Təchizatı və Kanalizasiya Xidmətləri üzrə İkinci Layihə)" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə, Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyinə, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə və Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinə tapşırılsın ki, bu sərəncamın 1-ci bəndində göstərilən sazişlərin həyata keçirilməsi ilə əlaqədar lazımi tədbirlər görsünlər.

3. Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyinə və Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinə tapşırılsın ki, "Dövlət zəmanəti ilə alınan kreditlərə dair sazişlərin bağlanması qaydaları haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 13 fevral tarixli 368 nömrəli Fərmanının 1.15-ci bəndinin icrasını təmin etmək üçün kreditin effektiv və məqsədyönlü istifadəsinə dair hesabatın Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 6 oktyabr tarixli 263s nömrəli sərəncamı ilə müəyyən edilmiş qaydada Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim edilməsini təmin etsinlər.

4. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu sərəncamın 1-ci bəndində göstərilən sazişlərin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Beynəlxalq Yenidənqurma və İnkişaf Bankını və Beynəlxalq İnkişaf Assosiasiyasını xəbərdar etsin.

5. Bu sərəncamın icrasına nəzarət Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyinə həvalə edilsin.

6. Bu sərəncam imzalandığı gündən qüvvəyə minir.

A.RASİ-ZADƏ

Azərbaycan Respublikasının Baş naziri

Bakı şəhəri, 27 oktyabr 2009-cu il

№ 287s

"Azərbaycan Respublikası ilə Beynəlxalq İnkişaf Assosiasiyası arasında Maliyyələşdirmə Sazişinə Düzəlişləri və Sazişin Yeni Redaksiyasını (Milli Su Təchizatı və Kanalizasiya Xidmətləri üzrə İkinci Layihə)" Azərbaycan Respublikası adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Sərəncamı

1. "Azərbaycan Respublikası ilə Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı və Beynəlxalq İnkişaf Assosiasiyası arasında Kredit və Maliyyələşdirmə sazişlərinə düzəlişlər və onların yeni redaksiyası haqqında Sazişi (Milli Su Təchizatı və Kanalizasiya Xidmətləri üzrə İkinci Layihə)" və "Azərbaycan Respublikası ilə Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı arasında Kredit Sazişinə Düzəlişləri və Sazişin Yeni Redaksiyasını (Milli Su Təchizatı və Kanalizasiya Xidmətləri üzrə İkinci Layihə)" və "Azərbaycan Respublikası ilə Beynəlxalq İnkişaf Assosiasiyası arasında Maliyyələşdirmə Sazişinə Düzəlişləri və Sazişin Yeni Redaksiyasını (Milli Su Təchizatı və Kanalizasiya Xidmətləri üzrə İkinci Layihə)" Azərbaycan Respublikası adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının maliyyə naziri Samir Rauf oğlu Şərifova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu sərəncamın 1-ci bəndində göstərilən sazişləri Azərbaycan Respublikası adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının maliyyə naziri Samir Rauf oğlu Şərifova verilməsi barədə Beynəlxalq Yenidənqurma və İnkişaf Bankına və Beynəlxalq İnkişaf Assosiasiyasına müvafiq bildiriş göndərsin.

3. Bu sərəncam imzalandığı gündən qüvvəyə minir.

A.RASİ-ZADƏ

Azərbaycan Respublikasının Baş naziri

Bakı şəhəri, 28 oktyabr 2009-cu il

№ 288s

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti arasında 6 nömrəli Layihə Sazişini (Milli Su Təchizatı və Kanalizasiya Xidmətləri üzrə İkinci Layihə)" imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Sərəncamı

1. "Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı ilə Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti arasında 5 nömrəli Layihə Sazişini (Milli Su Təchizatı və Kanalizasiya Xidmətləri üzrə İkinci Layihə)" və "Beynəlxalq İnkişaf Assosiasiyası ilə Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti arasında 6

nömrəli Layihə Sazişini (Milli Su Təchizatı və Kanalizasiya Xidmətləri üzrə İkinci Layihə)" imzalamaq üçün Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin sədri Əhməd Cüma oğlu Əhmədzadəyə səlahiyyət verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu sərəncamda göstərilən sazişləri imzalamaq səlahiyyətinin Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin sədri Əhməd Cüma oğlu Əhmədzadəyə verilməsi barədə Beynəlxalq Yenidənqurma və İnkişaf Bankına və Beynəlxalq İnkişaf Assosiasiyasına müvafiq bildiriş göndərsin.

3. Bu sərəncam imzalandığı gündən qüvvəyə minir.

A.RASİ-ZADƏ

Azərbaycan Respublikasının Baş naziri

Bakı şəhəri, 28 oktyabr 2009-cu il

№ 289s

"Azərbaycan Respublikasının beynəlxalq dövlətlərarası və hökumətlərarası müqavilələrinin bağlanması qaydası haqqında" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 16 avqust tarixli 616 nömrəli fərmanına əlavə və dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 16 avqust tarixli 616 nömrəli Fərmanına (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, № 8, maddə 764) aşağıdakı məzmunda 6-cı bənd əlavə edilsin, 6-cı bənd 7-ci bənd hesab edilsin:

"6. Azərbaycan Respublikasının mərkəzi icra hakimiyyəti orqanları beynəlxalq müqaviləsinin bağlanmasına dair fərqli mövqeyə malik olduqda həmin orqanların əsaslandırılmış mövqeyi Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına təqdim edilməlidir.".

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 30 oktyabr 2009-cu il.

№ 170

Azərbaycan Respublikasının Malayziyada fövqəladə və səlahiyyətli səfiri T.P. Kərimovun iqamətgahı Kuala Lumpur şəhərində olmaqla, eyni zamanda Azərbaycan Respublikasının Kamboca Krallığında fövqəladə və səlahiyyətli səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alıram:

Azərbaycan Respublikasının Malayziyada fövqəladə və səlahiyyətli səfiri Tahir Piroli oğlu Kərimov iqamətgahı Kuala Lumpur şəhərində olmaqla, eyni zamanda Azərbaycan Respublikasının Kamboca Krallığında fövqəladə və səlahiyyətli səfiri təyin edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 30 oktyabr 2009-cu il

№ 544

Azərbaycan Respublikasının Tailand Krallığında (Banqkok şəhərində) Səfirliyinin fəaliyyətinin təmin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikasının Tailand Krallığında (Banqkok şəhərində) Səfirliyinin fəaliyyətinin təmin edilməsi məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, Azərbaycan Respublikasının Tailand Krallığında (Banqkok şəhərində) Səfirliyinin fəaliyyətinin təminatı ilə bağlı maddi-texniki təchizat və maliyyələşdirilmə məsələlərini həll etsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, Azərbaycan Respublikasının Tailand Krallığında (Banqkok şəhərində) Səfirliyinin strukturunu və ştat cədvəlini təsdiq etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 30 oktyabr 2009-cu il

№ 545

Azərbaycan Respublikasının Serbiya Respublikasında (Belqrad şəhərində) Səfirliyinin fəaliyyətinin təmin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikasının Serbiya Respublikasında (Belqrad şəhərində) Səfirliyinin fəaliyyətinin təmin edilməsi məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, Azərbaycan Respublikasının Serbiya Respublikasında (Belqrad şəhərində) Səfirliyinin fəaliyyətinin təminatı ilə bağlı maddi-texniki təchizat və maliyyələşdirilmə məsələlərini həll etsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, Azərbaycan Respublikasının Serbiya Respublikasında (Belqrad şəhərində) Səfirliyinin strukturunu və ştat cədvəlini təsdiq etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 30 oktyabr 2009-cu il

№ 546

Azərbaycan Respublikasının Oman Sultanlığında (Maskat şəhərində) Səfirliyinin fəaliyyətinin təmin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikasının Oman Sultanlığında (Maskat şəhərində) Səfirliyinin fəaliyyətinin təmin edilməsi məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, Azərbaycan Respublikasının Oman Sultanlığında (Maskat şəhərində) Səfirliyinin fəaliyyətinin təminatı ilə bağlı maddi-texniki təchizat və maliyyələşdirilmə məsələlərini həll etsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, Azərbaycan Respublikasının Oman Sultanlığında (Maskat şəhərində) Səfirliyinin strukturunu və ştat cədvəlini təsdiq etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 30 oktyabr 2009-cu il

№ 547

Azərbaycan Respublikasının Böyük Liviya Ərəb Sosialist Xalq Cəmahiriyyəsində (Tripoli şəhərində) Səfirliyinin fəaliyyətinin təmin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikasının Böyük Liviya Ərəb Sosialist Xalq Cəmahiriyyəsində (Tripoli şəhərində) Səfirliyinin fəaliyyətinin təmin edilməsi məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, Azərbaycan Respublikasının Böyük Liviya Ərəb Sosialist Xalq Cəmahiriyyəsində (Tripoli şəhərində) Səfirliyinin fəaliyyətinin təminatı ilə bağlı maddi-texniki təchizat və maliyyələşdirilmə məsələlərini həll etsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, Azərbaycan Respublikasının Böyük Liviya Ərəb Sosialist Xalq Cəmahiriyyəsində (Tripoli şəhərində) Səfirliyinin strukturunu və ştat cədvəlini təsdiq etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 30 oktyabr 2009-cu il

№ 548

Azərbaycan Respublikasının Livan Respublikasında (Beyrut şəhərində) Səfirliyinin fəaliyyətinin təmin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikasının Livan Respublikasında (Beyrut şəhərində) Səfirliyinin fəaliyyətinin təmin edilməsi məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, Azərbaycan Respublikasının Livan Respublikasında (Beyrut şəhərində) Səfirliyinin fəaliyyətinin təminatı ilə bağlı maddi-texniki təchizat və maliyyələşdirilmə məsələlərini həll etsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, Azərbaycan Respublikasının Livan Respublikasında (Beyrut şəhərində) Səfirliyinin strukturunu və ştat cədvəlini təsdiq etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 30 oktyabr 2009-cu il

№ 549

Azərbaycan Respublikasının Estoniya Respublikasında (Tallin şəhərində) Səfirliyinin fəaliyyətinin təmin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikasının Estoniya Respublikasında (Tallin şəhərində) Səfirliyinin fəaliyyətinin təmin edilməsi məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, Azərbaycan Respublikasının Estoniya Respublikasında (Tallin şəhərində) Səfirliyinin fəaliyyətinin təminatı ilə bağlı maddi-texniki təchizat və maliyyələşdirilmə məsələlərini həll etsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, Azərbaycan Respublikasının Estoniya Respublikasında (Tallin şəhərində) Səfirliyinin strukturunu və ştat cədvəlini təsdiq etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 30 oktyabr 2009-cu il

№ 550

"Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi və Ümumdünya Gömrük Təşkilatı (ÜGT) arasında Azərbaycan Respublikasının Bakı şəhərində Potensialın Gücləndirilməsi üzrə Ümumdünya Gömrük Təşkilatının Regional Ofisinin Yaradılması ilə əlaqədar Anlaşma Memorandumu"nu imzalamaq səlahiyyətinin verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi və Ümumdünya Gömrük Təşkilatı (ÜGT) arasında Azərbaycan Respublikasının Bakı şəhərində Potensialın Gücləndirilməsi üzrə Ümumdünya Gömrük Təşkilatının Regional Ofisinin Yaradılması ilə əlaqədar Anlaşma Memorandumu"nu imzalamaq səlahiyyəti Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri Aydın Əli oğlu Əliyevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, Sərəncamın 1-ci bəndində göstərilən Memorandumu imzalamaq səlahiyyətinin Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri Aydın Əli oğlu Əliyevə verilməsi barədə Ümum-

dünya Gömrük Təşkilatına müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 30 oktyabr 2009-cu il

№ 555

2009-cu il iyulun 24-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikasının Maliyyə Nazirliyi və Çexiya Respublikasının Maliyyə Nazirliyi arasında əməkdaşlıq haqqında Memorandum"un təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2009-cu il iyulun 24-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikasının Maliyyə Nazirliyi və Çexiya Respublikasının Maliyyə Nazirliyi arasında əməkdaşlıq haqqında Memorandum" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə tapşırılsın ki, bu sərəncamın 1-ci bəndində göstərilən Memorandumun həyata keçirilməsini təmin etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 30 oktyabr 2009-cu il

№ 556

Azərbaycan Respublikasının Maliyyə Nazirliyi və Çexiya Respublikasının Maliyyə Nazirliyi arasında əməkdaşlıq haqqında Memorandum

Bundan sonra Tərəflər adlandırılacaq Azərbaycan Respublikasının Maliyyə Nazirliyi və Çexiya Respublikasının Maliyyə Nazirliyi,

Öz iqtisadi və sosial inkişafı naminə iki ölkə arasındakı əməkdaşlıqdan irəli gələn qarşılıqlı səmərələrdən agah olaraq:

Həm institusional, həm də professional şərtlər altında Tərəflər arasında birbaşa əlaqələrin gücləndirilməsi yolu ilə iki Ölkə arasında qarşılıqlı səmərəli münasibətlərə töhfə vermək arzusunda olaraq;

Tərəflər arasında əməkdaşlıq məqsədilə iqtisadi sahədə qarşılıqlı maraqlara, xüsusən dövlət maliyyə siyasəti məsələlərinə cavab verməyə yönəldilmiş etibarlı çərçivə yaratmaq arzusunda olaraq;

Tərəflərin müəyyən edəcəyi texniki yardım layihə(lər)nin nou-haunun ötürülməsi və iqtisadi keçid və islahat prosesləri, həmçinin Aİ qanunlar toplusunun icrası ilə bağlı təcrübə mübadiləsi üçün müvafiq çərçivə təşkil etdiyini nəzərə alaraq;

Bu Memorandumun iki Ölkənin dövlət dairələri arasında səmərəli və dostluq əlaqələrinə təkan verəcəyinə inanaraq;

aşağıdakılar barədə razılığa gəldilər;

Maddə 1

Əməkdaşlığın əsasları

1. Bu Əməkdaşlıq Memorandumu (bundan sonra "Memorandum") Tərəflər arasında dövlətlərinin milli qanunvericiliyinə uyğun olaraq səlahiyyətləri çərçivəsində əməkdaşlıq üçün əsas hesab olunur.

2. Bu Memorandum qanunla əlaqəli olan hər-hansı öhdəlik yaratmır, Azərbaycan Respublikasında və Çexiya Respublikasında qüvvədə olan hər-hansı qanun və qaydaların dəyişdirilməsini nəzərdə tutmur, üçüncü tərəf qarşısında hər-hansı hüquqi öhdəlik yaratmır və digər Əməkdaşlıq Memorandumları çərçivəsində nəzərdə tutulmuş tədbirlərin icrasına təsir göstərmir.

3. Tərəflərdən heç biri bu Memorandum çərçivəsində əməkdaşlığın və texniki yardımın hər-hansı formasından irəli gələn maliyyə xərclərinin ödənilməsi öhdəliyini daşımır. Əgər Memorandum çərçivəsində əməkdaşlıq hər hansı xərclərin yaranmasına səbəb olarsa, bu xərclərin ödənilməsi müvafiq tərəfin könüllü qərarından asılı olacaqdır.

Maddə 2

Əməkdaşlığın formaları

1. İkitərəfli əlaqələrin vəziyyətini və qarşılıqlı iqtisadi əlaqələrin gələcək inkişaf perspektivlərini nəzərə alaraq, Tərəflər razılığa gəldilər ki, qarşılıqlı əməkdaşlıq üçün əlverişli şərtlər tərəflərin öz ehtiyaclarına uyğun olaraq xüsusi əsasla müəyyən oluna bilər;

2. Tərəflər nou-haunun ötürülməsinə və iqtisadi keçid, islahat prosesləri və Aİ qanunlar toplusunun icrası sahələrində təcrübə mübadiləsinə köməklik göstərir və Tərəflər arasında razılaşdırılacaq fəaliyyətlərin icrası üçün müvafiq aləti təmin edir.

3. Çexiya Respublikası Maliyyə Nazirliyinin Texniki Yardım layihəsinə zəruri məlumat mübadiləsini, təlim səfərlərini, məsləhətləşmələri, seminar və konfransların keçirilməsini, habelə Tərəflərin müəyyən edəcəyi digər fəaliyyətlərin həyata keçirilməsini nəzərdə tutur.

Maddə 3

Məsləhətləşmələr

Tərəflər Memorandumun funksionallığının təkmilləşdirməsi və ortaya çıxa biləcək hər-hansı məsələlərin həllinə köməklik göstərilməsi məqsədilə Memoranduma aid ümumi məna kəsb edən məsələləri nəzərə ala bilər.

Maddə 4

Qüvvəyə minmə

Bu Əməkdaşlıq Memorandumu imzalandığı gündən qüvvəyə minəcəkdir. Bu Memorandum qeyri-müəyyən müddətə bağlanılır və Tərəflərdən hər biri istənilən zaman diplomatik kanallar vasitəsilə digər Tərəfə yazılı şəkildə bildiriş göndərməklə bu Memorandumun qüvvəsini ləğv edə bilər. Bu halda Memorandumun qüvvəsi digər Tərəf belə bildiriş aldığı tarixdən 3 (üç) ay sonra ləğv edilir.

Bu Memorandum Bakı şəhərində, 24 iyul 2009-cu il tarixində hər biri Azərbaycan, çex və ingilis dillərində iki əsl nüsxədə imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir. Bu Memorandumun təfsiri və tətbiqi ilə bağlı fikir ayrılığı yarandıqda Tərəflər ingilis dilindəki mətndən istifadə edəcəklər.

AZƏRBAYCAN RESPUBLİKASININ MALİYYƏ NAZİRLİYİ ADINDAN	ÇEXİYA RESPUBLİKASININ MALİYYƏ NAZİRLİYİ ADINDAN
SAMİR ŞƏRİFOV	*EDUARD YANOTA*
Maliyyə naziri	*Maliyyə naziri*

2009-cu il sentyabrın 23-də Nyu-York şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti və Estoniya Respublikası Hökuməti arasında informasiya və kommunikasiya texnologiyaları sahəsində əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2009-cu il sentyabrın 23-də Nyu-York şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti və Estoniya Respublikası Hökuməti arasında informasiya və kommunikasiya texnologiyaları sahəsində əməkdaşlıq haqqında Saziş" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinə tapşırılsın ki, bu sərəncamın 1-ci bəndində göstərilən Sazişin həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu sərəncamın 1-ci bəndində göstərilən Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Estoniya Respublikası Hökumətini xəbərdar etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 30 oktyabr 2009-cu il

№ 557

Azərbaycan Respublikası Hökuməti və Estoniya Respublikası Hökuməti arasında informasiya və kommunikasiya texnologiyaları sahəsində əməkdaşlıq haqqında Saziş

Bundan sonra "Tərəflər" adlandırılan Azərbaycan Respublikası Hökuməti və Estoniya Respublikası Hökuməti,

Hər iki ölkənin sosial və iqtisadi inkişafı çərçivəsində informasiya və kommunikasiya texnologiyaları sahəsində qarşılıqlı faydalı əməkdaşlığı inkişaf etdirmək və möhkəmləndirməyi arzu edərək;

Hər iki ölkənin ictimaiyyəti üçün səmərəli və dayanıqlı xidmətlərin yerinə yetirilməsi ilə əlaqədar eyni məqsəd və maraqları bölüşərək;

İnformasiya və kommunikasiya texnologiyaları sahəsində aparılan əməkdaşlığın hazırkı səviyyəsinin yüksəldilməsinin və ümumi maraq kəsb edən ideyalar, məlumatlar, bi-

lik və təcrübələr baxımından mübadiləsi yolu ilə təkmilləşdirilməsinin Tərəflər üçün faydalı olacağını nəzərə alaraq;

İnformasiya və kommunikasiya texnologiyaları sahəsində Tərəflər arasında kommersiya əlaqələrinin möhkəmləndirilməsində mövcud olan potensialı, bu sahədəki şərtlərdən və imkanlardan tam istifadə etmək üçün ehtiyacı dərk edərək;

Tərəflərin informasiya və kommunikasiya texnologiyaları sahəsində sərmayələri, birgə müəssisələri, ümumi maraqları, texnoloji inkişafı və ticarəti inkişaf etdirmək arzusunda olduqlarını nəzərə alaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər qarşılıqlı fayda əsasında, öz milli qanunvericiliklərinə, beynəlxalq hüququn müvafiq norma və prinsiplərinə və bu Sazişin müddəalarına uyğun olaraq, informasiya və kommunikasiya texnologiyaları sahəsində öz iqtisadi, sənaye, elmi və texniki əməkdaşlıqlarını inkişaf etdirəcək və təkmilləşdirəcəklər.

Maddə 2

1. Tərəflər arasında informasiya və kommunikasiya texnologiyaları (İKT) sahəsində əməkdaşlıq aşağıdakıları əhatə edir:

Telekommunikasiya bazarının tənzimlənməsi sahəsinə təcrübə mübadiləsi;

E-hökumətin və E-imzanın tətbiqi sahəsində əməkdaşlığı təşviq etmək;

İKT sahəsində qarşılıqlı investisiyaları təşviq etmək;

Qarşılıqlı məqbul şərtlərlə İKT sahəsində birgə müəssisələrin yaradılmasını təşviq etmək;

Azərbaycanlı nümayəndələr üçün informasiya cəmiyyətinin inkişafı üzrə təlim kurslarının təşkili;

Birgə seminar, konfrans, forum və sərgilərin keçirilməsi;

Beynəlxalq təşkilatlarda (Ümumdünya Poçt İttifaqı və Beynəlxalq Telekommunikasiya İttifaqı kimi) hər iki Tərəfin, milli maraqları üst-üstə düşdüyü təqdirdə, bir-birini dəstəkləməsi;

Qarşılıqlı razılaşma əsasında digər məsələlər.

2. Layihələrin maliyyələşdirmə şərtləri tərəflər arasında hər bir hal üçün ayrı-ayrılıqda müəyyən ediləcəkdir.

Maddə 3

Tərəflər İKT sahəsində fəaliyyətin həvəsləndirilməsi, əməkdaşlığın inkişaf etdirilməsi, yeni texnologiyaların tətbiq edilməsi və birgə müəssisələrin yaradılması məqsədi ilə aidiyyəti orqanlarını, təşkilat və müəssisələrini İKT sahəsində sıx əlaqələrin və məlumat mübadiləsinin təkmilləşdirilməsi, eləcə də xüsusi proqramların və layihələrin yerinə yetirilməsi sahəsində əməkdaşlığa təşviq edəcəklər.

Tərəflər kəndlərdə telekommunikasiyanın inkişaf etdirilməsi, rəqəmsallara keçidin tə-

min edilməsi və lokal şəbəkələrin tənzimlənməsi sahəsində Estoniyanın təcrübəsinin tətbiqi üçün hər iki Tərəfin mütəxəssislərinin birgə fəaliyyət göstərməsini təmin edəcəklər.

Maddə 4

Bu Sazişin müddəaları Tərəflərin iştirakçısı olduqları digər beynəlxalq müqavilələrdən irəli gələn öhdəliklərinə toxunmur.

Maddə 5

Tərəflər əməkdaşlıq çərçivəsində mübadilə etdikləri məxfi məlumatın öz milli qanunvericiliklərinə uyğun surətdə qorunması üçün zəruri tədbirlər görmək, həmçinin belə məlumatı təqdim etmiş Tərəfin yazılı icazəsi olmadan bu məlumatı üçüncü tərəfə aşkarlamamaq və yaymamaq öhdəliyini daşıyırlar. Bu müddəa hazırkı Saziş qüvvədən düşdükdən sonra da qüvvədə qalır.

Maddə 6

Tərəflər bu Sazişin müddəalarının təfsiri və ya tətbiqi zamanı mübahisələr yarandığı təqdirdə, onları danışıqlar və məsləhətləşmələr yolu ilə həll edəcəklər.

Maddə 7

1. Bu Sazişin həyata keçirilməsi üzrə fəaliyyətin əlaqələndirilməsinə görə məsul səlahiyyətli orqanlar:

Azərbaycan Respublikası Hökuməti adından - Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi;

Estoniya Respublikası Hökuməti adından Estoniya Respublikasının İqtisadi İşlər və Rabitə Nazirliyidir.

2. Bu Sazişdən irəli gələn məsələlərin həyata keçirilməsi üzrə səlahiyyətli orqanların qarşılıqlı fəaliyyəti zamanı işçi dil qismində ingilis dilindən istifadə ediləcəkdir.

3. Tərəflər əməkdaşlığın xüsusiyyətlərindən asılı olaraq, bu Sazişin həyata keçirilməsi üzrə fəaliyyətin əlaqələndirilməsinə görə məsul olan digər dövlət hakimiyyəti orqanlarını təyin edə bilər və bu barədə onlar diplomatik kanallar vasitəsilə bir-birini məlumatlandırmalıdırlar.

Maddə 8

Hər bir Tərəf digər Tərəfi bu Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların başa çatdırıldığı barədə diplomatik kanallar vasitəsilə yazılı məlumat verməlidir. Bu Saziş sonuncu bildirişin alındığı tarixdən qüvvəyə minir.

Bu Sazişə Tərəflərin qarşılıqlı yazılı razılığı əsasında düzəliş edilə bilər. Dəyişikliklər bu Sazişin 8-ci maddəsinin 1-ci bəndində nəzərdə tutulan qaydada qüvvəyə minir.

Hər bir tərəf Sazişin müddətinin bitməsinə 3 ay qalmış qarşı tərəfə yazılı şəkildə məlumat verməklə ona xitam verə bilər.

Bu Saziş Nyu-York şəhərində 23 sentyabr 2009-cu il tarixində iki əsl nüsxədə, hər biri Azərbaycan, eston və ingilis dillərində imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir. Bu Sazişin təfsirində fikir ayrılığı yarandıqda ingilis dilindəki mətndən istifadə ediləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	LATVİYA RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN
ELMAR MƏMMƏDYAROV	*URMAS PAET*
Xarici işlər naziri	*Xarici işlər naziri*

Azərbaycan Respublikası və Rumıniya arasında 2009-cu il sentyabrın 28-də Buxarest şəhərində imzalanmış sənədlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. Azərbaycan Respublikası və Rumıniya arasında 2009-cu il sentyabrın 28-də Buxarest şəhərində imzalanmış aşağıdakı sənədlər təsdiq edilsin:

1.1. Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi və Rumıniyanın Rabitə və İnformasiya Cəmiyyəti Nazirliyi arasında rabitə və informasiya texnologiyaları sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu;

1.2. Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Rumıniyanın Ətraf Mühit Nazirliyi arasında ətraf mühitin mühafizəsi sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumu.

2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bu sərəncamın 1.1-1.2-ci bəndlərində göstərilən sənədlərin həyata keçirilməsi üçün zəruri tədbirlər görsün.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu sərəncamın 1.1-1.2-ci bəndlərində göstərilən sənədlərin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Rumıniya tərəfini xəbərdar etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 30 oktyabr 2009-cu il

№ 558

Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi və Rumıniyanın Rabitə və İnformasiya Cəmiyyəti Nazirliyi arasında rabitə və informasiya texnologiyaları sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi və Rumıniya Rabitə və İnformasiya Cəmiyyəti Nazirliyi;

İnformasiya və kommunikasiya texnologiyaları (İKT) sahəsi üzrə sıx əlaqələrin təşviqində qarşılıqlı maraqları təsdiqləyən yüksək səviyyəli səfərlər vasitəsilə möhkəmlən-

dirilən Azərbaycan Respublikası və Rumıniya arasında əməkdaşlığın müsbət inkişafını nəzərə alaraq;

Tərəflərin İT sektorunda texnologiya və xidmətlərin təqdim edən iştirakçılar kimi İKT sektorunda öz tərəfdaşlıq əlaqələrini yaratmaq niyyətində olduqlarını nəzərə alaraq;

Tərəflər arasında mövcud bacarıq və imkanlarının nəzərə alınması ilə İKT sektorunda sıx əlaqələrin möhkəmləndirilməsinin təşviq etdirilməsi ehtiyacını anlayaraq;

İKT sektorunda hər iki Tərəf arasında intensiv ticarət əlaqələri üçün potensialı tanıyaraq;

İKT sektorunda investisiyaların, birgə müəssisələrin, birgə təşəbbüslərin və bazarların genişləndirilməsində qarşılıqlı surətdə maraqlı olaraq;

Tərəflər arasında biznes tərəfdaşlıqlarının möhkəmləndirilməsi məqsədi daşıyan İKT sahəsində əməkdaşlıq proqramının həyata keçirilməsini nəzərə alaraq,

aşağıdakı Anlaşma Memorandumu barədə razılığa gəldilər

Maddə 1

Əməkdaşlığın məqsədi

1. Bu Anlaşma Memorandumunun (bundan sonra "AM" adlandırılacaq) məqsədi texniki əməkdaşlığın və innovasiya tədbirlərinin inkişaf etdirilməsi, eləcə də İKT sahəsində ixtisaslaşmış insan resurslarının formalaşdırılmasına istiqamətləndirilmiş yardım, məsləhət və texniki təlim xidmətlərinin yaradılması üçün səylərin, texniki, maliyyə və insan resurslarının səfərbər edilməsi üçün əməkdaşlıq əlaqələrinin yaradılmasıdır.

Maddə 2

Əməkdaşlıq sahələri

1. Hər iki Tərəf arasında əməkdaşlığın əsas sahələri məhdudiyyət qoyulmamaqla aşağıdakıları əhatə edir:

a) Rabitə və informasiya texnologiyaları sahəsində qaydalar, standartlaşdırma və müvafiq beynəlxalq konvensiyalar, eləcə də yeni texniki vasitələr və texnologiyalar ilə əlaqədar məlumat mübadiləsinin aparılması.

b) Hər iki ölkədə rabitə və informasiya texnologiyaları sahəsində investisiyaların stimullaşdırılması.

c) Ölkələrin hər birində və ya üçüncü ölkədə, qarşılıqlı qəbul edilmiş şərtlərə əsasən, rabitə və informasiya texnologiyaları sahəsində ümumi işçi qruplarının qarşılıqlı layihələrə əsaslanan inkişafı.

d) Hər iki ölkədə fəaliyyətdə maraqlı olan şirkətlərə tərəfdaşlıq fəaliyyətinin dəstəklənməsi.

e) Rabitə və informasiya texnologiyaları sahəsində təlimlərin təşkil edilməsi.

f) İT təhsili və İT əsaslı təhsil üçün kadrların inkişafı.

g) Hər bir ölkə tərəfindən təşkil edilən seminarlarda, konfranslarda, birgə forumlarda, beynəlxalq tədbirlərdə və sorgilərdə iştirakın təşkili və asanlaşdırılması.

h) Elektron xidmətlər (e-xidmətlər, e-viza və e-kommersiya) və kiber təhlükəsizlik üzrə məlumat mübadiləsinə dair tələblərin müəyyən edilməsi və məlumat verilməsi.

i) İki ölkənin milli maraqları üst-üstə düşdüyü halda beynəlxalq təşkilatlarda qarşılıqlı dəstək göstərilməsi.

2. Xüsusi və ümumi maraq kəsb edən fəaliyyətlər AM çərçivəsində həyata keçiriləcək və spesifik sazişlər vasitəsilə tənzimlənəcək. Bu xüsusi kontrakt/sazişlər xərclər, investisiyalar, məxfilik, əqli mülkiyyət, eləcə də hər iki tərəfin resurslarının və mənfəətlərinin mənbəyi və istifadəsi məsələlərinə tam aydınlıq gətirəcəkdir.

Səlahiyyətli orqanların fəaliyyəti zamanı rəsmi dil kimi ingilis dili üstünlük təşkil edəcək.

Maddə 3

Maliyyələşmə və resurslar

1. Bu AM-yə müvafiq olaraq əməkdaşlıq tədbirlərinin həyata keçirilməsi Tərəflərin maliyyə və digər imkanlarından asılı olacaq.

2. Əməkdaşlıq tədbirlərinin xərcləri qarşılıqlı razılaşdırılmış qaydada bölünəcək.

Maddə 4

Memorandumun həyata keçirilməsi

1. Bu AM-nin icrası tərkibi hər iki Tərəfin nümayəndələrindən ibarət olacaq və bu AM-nun qüvvəyə minməsindən 1 (bir) ay sonra yaradılacaq Birgə Komitə vasitəsilə həyata keçiriləcəkdir.

2. Bu Komitə texniki iqtisadi əsaslandırma və maliyyə tələbləri daxil olmaqla bu AM-də nəzərdə tutulan fəaliyyətin həyata keçirilməsi üçün metodologiyaların, mexanizmlərin və prosedurların müəyyən edilməsinə cavabdeh olacaq. Komitə Tərəflər arasında razılaşdırılmaqla ildə ən azı bir dəfə Azərbaycan Respublikası və Rumıniyada görüşməyə səy göstərəcək.

Maddə 5

Əqli mülkiyyət hüquqları

Hazırkı Memorandumа əsaslanan layihədən irəli gələn əqli mülkiyyət hüquqları hər bir qarşılıqlı layihənin başlandığı tarixdə imzalanmış əlavə sənədlər vasitəsilə aydın şəkildə razılaşdırılacaq.

Maddə 6

İnformasiyanın məxfiliyi

Digər Tərəfin yazılı icazəsi və ya hüquqi şərtlərlə tələb edilən hallar istisna olmaqla Tərəflərdən heç biri hazırkı AM-yə əsasən əməkdaşlıq tədbirlərinin yerinə yetirilməsi zamanı digər Tərəfdən təqdim olunmuş məxfi məlumatları üçüncü Tərəfə açıqlaya və yaxud yaya bilməz.

Maddə 7

Qüvvəyə minmə və müddət

Bu AM Tərəflərin onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə sonuncu bildirişi aldıqları tarixdən qüvvəyə minəcək və Tərəflərdən biri onu ləğv etmədiyi təqdirdə yeni 4 (dörd) illik müddətlərə uzadılacaq.

Tərəflərdən hər biri diplomatik kanallar vasitəsilə digər Tərəfə yazılı bildiriş verməklə bu AM-i ləğv edə bilər. Bu halda AM belə yazılı bildirişin digər tərəfdən alındığı tarixdən 3 (üç) ay keçdikdən sonra qüvvədən düşür.

Maddə 8

Düzəlişlər

Zərurət yarandıqda, Tərəflərin qarşılıqlı yazılı razılığı ilə bu AM-ə düzəlişlər edilə bilər.

Bu AM-na edilən düzəlişlər 7-ci Maddənin 1-ci bəndinə uyğun olaraq qüvvəyə minəcəklər.

Maddə 9

Son müddəalar

Bu AM-in müddəaları Tərəflərin iştirakçısı olduqları beynəlxalq müqavilələrdən irəli gələn öhdəliklərə təsir etməyəcək. Bu Memorandumun həyata keçirilməsi Avropa Birliyinin üzvü kimi Rumıniya tərəfindən götürülmüş öhdəliklərə zərər gətirməyəcək. Hazırkı AM bir tərəfdən Avropa İttifaqı, Avropa İttifaqı və üzv ölkələr, digər tərəfdən isə Azərbaycan Respublikası arasında imzalanmış hər hansı müqavilədən irəli gələn öhdəlikləri ləğv etməmək və ya onlara təsir göstərməmək şərti ilə təfsir və ya tətbiq ediləcək.

Yuxarıda qeyd olunanların təsdiqi kimi Tərəflərin müvafiq səlahiyyətli nümayəndələri bu Anlaşma Memorandumunu imzalamışdırlar.

Buxarest şəhərində, 28 sentyabr 2009-cu ildə Azərbaycan, rumın və ingilis dillərində iki əsl nüsxədə imzalanmışdır, bütün mətnlər bərabər autentikdir. Təfsir zamanı fikir ayrılığı yarandığı təqdirdə, ingilis dilindəki mətndən istifadə ediləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASININ
RABİTƏ VƏ İNFORMASİYA
TEXNOLOGİYALARI NAZİRLİYİ
ADINDAN

ELMAR MƏMMƏDYAROV
Xarici işlər naziri

RUMİNİYANIN
RABİTƏ VƏ İNFORMASİYA
CƏMİYYƏTİ NAZİRLİYİ
ADINDAN

QABRİEL SANDU
Rabitə və informasiya cəmiyyəti naziri

Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Rumıniyanın Ətraf Mühit Nazirliyi arasında ətraf mühitin mühafizəsi sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumu

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Rumıniya Ətraf Mühit Nazirliyi:

İki Dövlət arasında əlaqələrin inkişafına mühüm töhfə kimi ətraf mühitin çirklənməsinin azaldılması sahəsində qarşılıqlı səylərin artırılması və sıx əməkdaşlığın inkişaf etdirilməsi əzmində olaraq;

Tərəflər hər iki dövlətin iştirakçısı olduqları beynəlxalq konvensiyalardan irəli gələn öhdəliklərin yerinə yetirilməsi üçün ətraf mühitin mühafizəsi sahəsində ikitərəfli əməkdaşlığın gücləndirilməsinin əhəmiyyətini vurğulayaraq;

Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Rumıniyanın Ətraf Mühit Nazirliyi ətraf mühitin mühafizəsi sahəsində birgə səylərin göstərilməsi məqsədilə ətraf mühitə zərər vuran çirkləndirici amillərdən qorunması üçün ortaq məsuliyyəti etiraf edərək,

Aşağıdakılar barədə razılığa gəlmişlər:

Maddə 1

Tərəflər ətraf mühitin mühafizəsi sahəsində bərabərlik, qarşılıqlılıq və qarşılıqlı faydalılıq prinsiplərinə əsaslanan ikitərəfli əməkdaşlığı inkişaf etdirəcəklər.

Maddə 2

Birgə əməkdaşlığın əsas sahələri aşağıdakılar olacaq:

Mühafizə olunan təbiət ərazilərin idarə olunması;

Bioloji müxtəlifliyin qorunması;

Ətraf mühitə təsirin qiymətləndirilməsi;

Tullantıların, o cümlədən təhlükəli tullantıların idarə olunması;

İqlim dəyişmələri;

Tərəflər üçün maraq kəsb edən digər sahələr.

Maddə 3

1. Tərəflər aşağıda qeyd edilən formada əməkdaşlıq edəcəklər:

Müştərək elmi-texniki tədqiqatlar/proqramlar;

Əməkdaşlıq proqramlarının qiymətləndirilməsi ;

Tədqiqat və inkişaf fəaliyyətləri üzrə elmi və texniki bilik və təcrübənin və ətraf mühitin idarə olunması üzrə qarşılıqlı mübadiləsi;

Ekspert və tədqiqatçıların mübadiləsi;

Seminarların, konfransların və sərgilərin təşkil olunması;

Təlim kursları;

Hər iki ölkənin maraqlı tərəflərini cəlb edən layihələr;

Tərəflər tərəfindən zəruri hesab edilən hər-hansı digər əməkdaşlıq növləri.

2. Tərəflər dövlətlərinin mövcud institusional və qanuni çərçivədə 6-cı maddənin müddəaları əsasında yaradılmış Birgə Komitə tərəfindən müəyyən olunacaq proqram və / ya layihələri inkişaf etdirəcəklər.

Maddə 4

Tərəflər ətraf mühit sahəsində hökumət və qeyri-hökumət təşkilatlarının nümayəndələri arasında əməkdaşlığı təşviq edəcəklər.

Maddə 5

Tərəflər ətraf mühitin mühafizəsi sahəsində əlaqələndirici şəxs təyin edəcək və Anlaşma Memorandumunun həyata keçirilməsi üçün proqramlar hazırlayacaqlar.

Maddə 6

Hazırkı Anlaşma Memorandumu çərçivəsində əməkdaşlığın səmərəli həyata keçirilməsi üçün, Tərəflər aşağıdakı qaydada Birgə Komitə yaradacaqlar:

Tərəflər hazırkı Anlaşma Memorandumunun qüvvəyə minməsindən sonra üç ay ərzində bir-birlərinə Komitə nümayəndələrinin adları barədə məlumat təqdim edəcəklər;

iki nümayəndə (hər Tərəfdən bir nəfər olmaqla) görüşlərə sədrlik və qərarların yerinə yetirilməsinə nəzarət edəcək.

Maddə 7

Birgə Komitə əməkdaşlıq fəaliyyəti üzrə illik fəaliyyət planları hazırlayacaqlar. Birgə Komitənin iş planına aşağıdakı məsələlər daxil edilməlidir:

2-ci maddədə göstərilmiş sahələrdə əməkdaşlığın həyata keçirilməsinin əlaqələndirilməsi;

fəaliyyətlərə sistematik nəzarət və əməkdaşlığın nəticələrinin qiymətləndirilməsi;

Hər iki tərəf üçün maraq kəsb edən ətraf mühit məsələləri üzrə müzakirə iclaslarının keçirilməsi;

Anlaşma Memorandumunun həyata keçirilərkən Tərəflərin üzləşdiyi ən mühüm çətinliklərin qiymətləndirilməsi.

Birgə Komitə təsis olunduqdan üç ay sonra görüşməlidir.

Birgə Komitə ən azı ildə bir dəfə, növbəli olaraq Azərbaycan Respublikası və Rumıniyada görüşməlidir.

Maddə 8

Anlaşma Memorandumu çərçivəsində razılaşdırılmış fəaliyyət və görüşlər keçirilərkən ekspertlərin ezamiyyə xərclərini ezam edən Tərəf öz üzərinə götürəcəkdir. Bu razılıq xüsusi hallarda Tərəflərin qarşılıqlı istəyi ilə dəyişdirilə bilər.

Maddə 9

Hazırkı Anlaşma Memorandumunun təfsiri və ya həyata keçirilməsi zamanı meydana çıxa biləcək hər hansı fikir ayrılığı Tərəflər arasında məsləhətləşmələr yolu ilə həll ediləcəkdir.

Maddə 10

Hazırkı Anlaşma Memorandumun təfsiri Tərəflərin və ya onların Dövlətlərinin beynəlxalq hüquqa uyğun olaraq bağladıqları digər qüvvədə olan müqavilələrdən irəli gələn hüquq və öhdəliklərinə zərər gətirməyəcəkdir.

Maddə 11

Bu Anlaşma Memorandumu, onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi haqqında Tərəflərin diplomatik kanallar vasitəsilə sonuncu bildirişinin alındığı tarixdən sonrakı gün qüvvəyə minir.

Bu Anlaşma Memorandumu beş (5) il müddətində qüvvədə qalacaqdır. Tərəflərdən biri bu Anlaşma Memorandumunun qüvvədə olma müddətinin başa çatmasına ən azı üç ay qalmış onu ləğv etmək niyyəti barədə digər Tərəfə diplomatik kanallar vasitəsilə yazılı bildiriş göndərmədikdə, onun qüvvəsi avtomatik olaraq növbəti beş il müddətinə uzadılacaqdır.

Bu Anlaşma Memorandumuna Tərəflərin yazılı razılığı ilə dəyişikliklər edilə bilər. Dəyişikliklər bu maddənin birinci bəndində müəyyən olunmuş qaydaya uyğun olaraq qüvvəyə minir.

Tərəflər başqa razılığa gəlməmişlərsə, bu Anlaşma Memorandumuna xitam verilməsi ona əsasən başlanmış və onun xitam olunmasından əvvəl başa çatmamış layihələrə və proqramlara təsir göstərməyəcəkdir.

Bu Anlaşma Memorandumu Buxarest şəhərində 28 sentyabr 2009-cu il tarixində iki əsl nüsxədə, hər biri Azərbaycan, rumın və ingilis dillərində imzalanmışdır, bütün mətnlər bərabər autentikdir. Bu Anlaşma Memorandumunun təfsirində fikir ayrılığı olduqda, ingilis dilindəki mətndən istifadə ediləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASININ EKOLOGİYA VƏ TƏBİİ SƏRVƏTLƏR NAZİRLİYİ ADINDAN	RUMİNİYANIN ƏTRAF MÜHİT NAZİRLİYİ ADINDAN
ELMAR MƏMMƏDYAROV	*DAN KIRLAN*
Xarici işlər naziri	*Ətraf Mühit Nazirliyinin dövlət katibi*

2009-cu il oktyabrın 1-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Müdafiə Nazirliyi və Çexiya Respublikası Müdafiə Nazirliyi arasında müdafiə sahəsində əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2009-cu il oktyabrın 1-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Müdafiə Nazirliyi və Çexiya Respublikası Müdafiə Nazirliyi arasında müdafiə sahəsində əməkdaşlıq haqqında Saziş" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Müdafiə Nazirliyinə tapşırılsın ki, bu sərəncamın 1-ci bəndində göstərilən Sazişin həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu sərəncamın 1-ci bəndində göstərilən Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Çexiya Respublikası tərəfini xəbərdar etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 30 oktyabr 2009-cu il

№ 559

Azərbaycan Respublikası Müdafiə Nazirliyi və Çexiya Respublikası Müdafiə Nazirliyi arasında müdafiə sahəsində əməkdaşlıq haqqında Saziş

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikası Müdafiə Nazirliyi və Çexiya Respublikası Müdafiə Nazirliyi,

Sülhün, etimadın və sabitliyin möhkəmləndirilməsinə və Avropada, eləcə də bütün dünyada dövlətlər arasında Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsi, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Konfransının Helsinki Yekun Aktı və Yeni Avropa üçün Paris Xartiyası ruhunda əlaqələrin inkişafına töhfə verilməsinin zəruriliyini nəzərə alaraq,

Müdafiə sahəsində əməkdaşlığın təhlükəsizlik və sabitliyin vacib elementi olduğunu və dünyada təhlükəsizlik sisteminin yenidən formalaşdırılması və təkmilləşdirilməsi üzrə əməkdaşlıq üçün xüsusi əhəmiyyətini nəzərə alaraq,

Özlərinin dostluq əlaqələrini intensivləşdirməyi və ümumi maraq kəsb edən məsələlərdə əməkdaşlığı genişləndirməyi və möhkəmləndirməyi arzu edərək,

Öz səlahiyyətləri çərçivəsində fəaliyyət göstərərək, aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Sazişin məqsəd və məramları

1. Bu Saziş Tərəflər arasında müdafiə sahəsində bərabərlik, tərəfdaşlıq və qarşılıqlı fayda prinsiplərinə əsaslanan əməkdaşlığa dair ümumi müddəaları əhatə edəcəkdir.

2. Bu Saziş çərçivəsində Tərəflər arasında əməkdaşlıq onların milli qanunvericiliklərinə, beynəlxalq hüququn ümumi tanınmış prinsip və normalarına, eləcə də Azərbaycan Respublikası və Çexiya Respublikasının beynəlxalq öhdəliklərinə uyğun olaraq həyata keçiriləcəkdir.

3. Müdafiə sahəsində əməkdaşlıq bu Sazişdə müəyyənləşdirilmiş sahələrdə və formalarda həyata keçiriləcəkdir.

Maddə 2

Anlayışlar

Bu Sazişin məqsədi üçün aşağıdakı anlayışlardan istifadə ediləcəkdir:

1. "Əməkdaşlıq" müdafiə sahəsində əməkdaşlığı nəzərdə tutur.

2. "Hərbi heyət" Tərəflərin Dövlətlərinin Silahlı Qüvvələrinin üzvlərini nəzərdə tutur.

3. "Mülki heyət" Tərəflərin Dövlətlərinin mülki işçilərini nəzərdə tutur.

4. "Göndərən Tərəf" öz heyətini bu Sazişin müddəalarına uyğun olaraq digər Tərəfin Dövlətinin ərazisinə göndərən Tərəfi nəzərdə tutur.

5. "Qəbul edən Tərəf" Göndərən Tərəfin heyətini bu Sazişin müddəalarına uyğun olaraq qəbul edən Tərəfi nəzərdə tutur.

Maddə 3

Əməkdaşlıq sahələri

1. Tərəflər arasında əməkdaşlıq aşağıdakı sahələri əhatə edə bilər:

Tərəflərin Dövlətlərində müdafiə planlaşdırması sahəsində təcrübə mübadiləsi;

"Sülh Naminə Tərəfdaşlıq" Proqramı çərçivəsində keçirilən tədbirlərdə, sülh və humanitar yardım missiyalarında, eləcə də beynəlxalq təşkilatların sülhün dəstəklənməsi və terrorizmlə mübarizə üzrə digər əməliyyatlarında əldə edilmiş təcrübə mübadiləsi;

silahlı qüvvələrin təşkili, hərbi bölmələrin quruluşu və maddi-texniki təminat, kadr siyasəti və idarəetmə;

hərbi təhsil və hərbi heyətin təlimi;

Tərəflərin Dövlətlərinin Silahlı Qüvvələrinin təchiz edildikləri silah və hərbi təchizatın modernləşdirilməsinin texniki aspektləri və bu sahədə təcrübə mübadiləsi;

Tərəflərin Dövlətlərinin Silahlı Qüvvələrində informasiya sistemlərinin, informasiya və rabitə texnologiyalarının tətbiqi;

Mülki-hərbi əməkdaşlıq və Mülki Fövqəladə Planlaşdırma sahələrində əməkdaşlıq;

Azərbaycan Respublikasının NATO ilə Fərdi Tərəfdaşlıq üzrə Əməliyyat Planı və Planlaşdırma və Təhlil Prosesi çərçivəsində əməkdaşlıq.

2. Yuxarıda göstərilən sahələrdə və digər qarşılıqlı razılaşdırılmış sahələrdə əməkdaşlıqla bağlı spesifik məsələlər Tərəflər arasında bağlanan ayrıca razılaşmalar vasitəsilə həll ediləcəkdir.

Maddə 4

Əməkdaşlığın formaları

1. Tərəflər arasında əməkdaşlıq xüsusilə aşağıdakı formalarda həyata keçiriləcəkdir:

1) Müdafiə Nazirlərinin və Tərəflərin Dövlətlərinin Müdafiə Nazirliklərinin və Silahlı Qüvvələrinin digər rəsmilərinin görüşləri;

2) ekspertlər səviyyəsində təcrübə mübadiləsi;

3) hərbi-siyasi məsləhətləşmələr, konfranslar və seminarlar;

4) Tərəflərin Dövlətlərinin Silahlı Qüvvələrinin inkişafı və əməkdaşlıq ehtiyacla-

rının müəyyənləşdirilməsi üzrə məlumat mübadiləsi məqsədi ilə Baş Qərargahların nümayəndə heyətlərinin görüşləri;

5) hərbi təhsil və təlim proqramlarında iştirak;

6) sülhməramlı missiyalarda və humanitar yardım əməliyyatlarında iştirak;

7) məlumat, sənəd və təlim materiallarının mübadiləsi.

2. Müdafiə Nazirləri ehtiyacdan asılı olaraq, qarşılıqlı maraq kəsb edən məsələlər üzrə məsləhətləşmələr keçirəcəklər.

3. Müdafiə Nazirləri həmçinin tabeliklərində olan digər orqanlara əlaqələr saxlamaq və bu Sazişin müddəalarının yerinə yetirilməsində iştirak etmək üçün səlahiyyət verə bilərlər.

Maddə 5

İllik əməkdaşlıq planları

Müəyyən il üçün əməkdaşlığın əsası qarşılıqlı qəbul edilən illik əməkdaşlıq planıdır.

İllik əməkdaşlıq planına təqdimatlar və təkliflər planın həyata keçiriləcəyi ildən əvvəlki ilin bir sentyabr tarixinədək ediləcəkdir.

İllik əməkdaşlıq planı Tərəflərin səlahiyyətli nümayəndələri tərəfindən planın həyata keçiriləcəyi ildən əvvəlki ilin bir noyabr tarixinədək razılaşdırılacaq və imzalanacaqdır.

İllik əməkdaşlıq planı xüsusi tədbirləri, onların formalarını, tarixlərini və yerlərini, iştirakçıların sayını, eləcə də Tərəflərin səlahiyyətli orqanlarını müəyyənləşdirəcəkdir.

Razılaşdırılmış illik əməkdaşlıq planlarına Tərəflərin razılığı əsasında düzəlişlər edilə bilər.

Maddə 6

Hərbi və mülki heyətin statusu

Bu Saziş çərçivəsində keçirilən tədbirlərdə iştirak etmək üçün Tərəflərdən birinin Dövlətinin hərbi və mülki heyətinin digər Tərəfin Dövlətinin ərazisində olduğu müddətdəki statusu Tərəflərin qoşulduqları beynəlxalq sazişlərin müddəaları ilə və ya Tərəflər arasında əldə olunan ikitərəfli razılaşmalarla müəyyən edilir.

Maddə 7

Məlumatın mühafizəsi

Tərəflər bu Saziş çərçivəsində əməkdaşlıq zamanı əldə olunmuş məlumatın təhlükəsizliyini təmin edəcək, onları öz dövlətlərinin milli qanunvericiliklərinə uyğun olaraq mühafizə edəcək və məlumatı təqdim edən Tərəfin əvvəlcədən yazılı razılığı olmadan bu məlumatı üçüncü tərəfə açıqlamayacaqlarına və ötürməyəcəklərinə təminat verirlər.

Maddə 8

Əməkdaşlığın maliyyələşdirilməsi

1. Əməkdaşlıq tədbirlərinin maliyyələşdirilməsi aşağıdakı prinsiplərə əsasən həyata keçiriləcəkdir:

1) Göndərən Tərəf aşağıdakıları təmin edəcək və onların xərclərini ödəyəcəkdir:

Qəbul edən Tərəfin dövlətinin ərazisinə gediş-gəliş;

Qəbul edən Tərəfin dövlətinin orqanlarının onun ərazisinə daxil olmaq və oranı tərk etmək üçün tələb etdikləri sənədlər.

2) Qəbul edən Tərəf aşağıdakıları təmin edəcək və onların xərclərini ödəyəcəkdir:

yemək və yaşayış;

səfərin proqramı çərçivəsində nəqliyyat xidmətləri.

Qəbul edən Tərəf, fövqəladə hal yarandıqda, Göndərən Tərəfin hərbi və mülki heyətini tibbi və stomatoloji xidmətlə təmin edəcəkdir. Bu xidmətin xərci Qəbul edən Tərəfin Dövlətinin milli qanunlarına uyğun olaraq ödəniləcəkdir.

Tərəflər 1-ci bənddə göstərilənlərdən başqa digər maliyyə prinsipləri haqqında ayrıca razılaşmalar vasitəsilə razılığa gələ bilərlər.

Hərbi təhsil müəssisələrində və ya hərbi akademiyalarda təhsilə, eləcə də hərbi təlimlərin, treninq və ya sülh əməliyyatlarının keçirilməsinə dair maliyyə prinsipləri ayrıca razılaşmalarda müəyyən ediləcəkdir.

Maddə 9

Sazişin yerinə yetirilməsinə nəzarət

Sazişin yerinə yetirilməsinin koordinasiyasına və buna nəzarətə cavabdeh olan qurumlar aşağıdakılardır:

Azərbaycan Tərəfindən: Müdafiə Nazirliyinin Beynəlxalq Hərbi Əməkdaşlıq İdarəsi;

Çexiya Tərəfindən: Müdafiə Nazirliyinin Müdafiə Siyasəti və Strategiya Şöbəsi.

Maddə 10

Mübahisələr

Bu Sazişin təfsiri və ya tətbiqi ilə bağlı mübahisələr yalnız Tərəflər arasında danışıqlar və məsləhətləşmələr yolu ilə həll ediləcəkdir.

Maddə 11

Yekun müddəalar

Tərəflərin qarşılıqlı razılığı ilə bu Sazişə onun ayrılmaz hissəsi olan ayrı-ayrı protokollarla rəsmiləşdirilən əlavələr və dəyişikliklər edilə bilər. Həmin protokollar bu Sazişin 12-ci maddəsinin 1-ci bəndində nəzərdə tutulan qaydada qüvvəyə minir.

Maddə 12

Qüvvəyə minmə

Bu Saziş, onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi haqqında Tərəflərin bir-birinə diplomatik kanallar vasitəsilə göndərdikləri sonuncu yazılı bildirişin alındığı tarixdən sonra otuzuncu gündə qüvvəyə minir və qeyri-müəyyən müddətə bağlanılır.

Tərəflər diplomatik kanallar vasitəsilə yazılı bildiriş təqdim etməklə bu Sazişin qüvvəsinə xitam verə bilərlər. Bu Saziş, belə bildirişin alındığı tarixdən 6 ay sonra qüvvədən düşəcəkdir.

Bu Saziş Bakı şəhərində 2009-cu il oktyabrın 1-də hər biri Azərbaycan, Çex və İngilis dillərində iki əsl nüsxədə imzalanmışdır və bütün mətnlər bərabər autentikdir. Bu Sazişin təfsirində fikir ayrılığı yarandığı təqdirdə ingilis dilində olan mətnə üstünlük veriləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI
MÜDAFİƏ NAZİRLİYİ
ADINDAN

SƏFƏR ƏBİYEV
Müdafiə naziri

ÇEXİYA RESPUBLİKASI
MÜDAFİƏ NAZİRLİYİ
ADINDAN

MARTİN BARTAK
Baş nazirinin müavini, müdafiə naziri

2009-cu il oktyabrın 8-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi ilə Koreya Respublikasının Ərzaq, Kənd Təsərrüfatı, Meşəçilik və Balıqçılıq Nazirliyi arasında kənd təsərrüfatı sahəsində əməkdaşlıq barədə Anlaşma Memorandumu"nun təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2009-cu il oktyabrın 8-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi ilə Koreya Respublikasının Ərzaq, Kənd Təsərrüfatı, Meşəçilik və Balıqçılıq Nazirliyi arasında kənd təsərrüfatı sahəsində əməkdaşlıq barədə Anlaşma Memorandumu" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyinə tapşırılsın ki, bu sərəncamın 1-ci bəndində göstərilən Memorandumun həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu sərəncamın 1-ci bəndində göstərilən Memorandumun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Koreya Respublikası tərəfini xəbərdar etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 30 oktyabr 2009-cu il

№ 560

Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi ilə Koreya Respublikasının Ərzaq, Kənd Təsərrüfatı, Meşəçilik və Balıqçılıq Nazirliyi arasında kənd təsərrüfatı sahəsində əməkdaşlıq barədə Anlaşma Memorandumu

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi və Koreya Respublikasının Ərzaq, Kənd Təsərrüfatı, Meşəçilik və Balıqçılıq Nazirliyi,

hər iki ölkə üçün kənd təsərrüfatının və ərzaq istehsalının əhəmiyyətini nəzərə alaraq,

hər iki ölkədə aqrar sahənin və kənd yerlərinin inkişafı, eləcə də kənd təsərrüfatı istehsalı və ərzaq sənayesi, kənd təsərrüfatı texnikası və insan resursları sahəsində qarşılıqlı əməkdaşlığın vacibliyini nəzərə alaraq,

kənd təsərrüfatı, ərzaq istehsalı və digər əlaqədar sənaye sahələrində hər iki ölkənin özəl sektoru arasında qarşılıqlı ticarət, investisiya və əməkdaşlıq əlaqələrinin dəstəklənməsi arzusunu bildirərək,

beynəlxalq miqyasda əməkdaşlığın möhkəmləndirilməsinə inamını bildirərək,

aşağıdakılar barədə anlaşmaya gəldilər:

Bənd 1

Prinsiplər

Tərəflər, qarşılıqlı anlaşılma və qarşılıqlı maraq əsasında kənd təsərrüfatı, ərzaq istehsalı və əlaqədar sahələrdə əməkdaşlığın möhkəmləndirilməsinə və inkişafına səy göstərəcəklər.

Bənd 2

Əməkdaşlıq sahələri

Tərəflər, aşağıdakı sahələrdə əməkdaşlığı təşviq edəcəklər:

a. kənd təsərrüfatı və kənd icmalarının inkişafı sahəsində təcrübə mübadiləsi;

b. daxili və beynəlxalq kənd təsərrüfatı siyasəti barədə məlumat mübadiləsi;

c. kənd təsərrüfatı və ərzaq texnologiyaları sahələrində məlumatların paylanması və qarşılıqlı maraq kəsb edən sahələrdə ekspert mübadiləsi;

d. kənd təsərrüfatı məhsullarının emalı, paylanması və marketinqi sahəsində məlumat mübadiləsi;

e. kənd təsərrüfatı ticarətinin və investisiyaların dəstəklənməsi məqsədilə hər iki ölkənin özəl sektorları arasında mübadilənin və əməkdaşlığın asanlaşdırılması;

f. hər iki ölkənin kəndli sahibkarlarının ərzaq istehsalı sahələrində təcrübə mübadiləsi;

g. Tərəflər arasında kənd təsərrüfatı sahəsində birgə tədbirlər;

h. kənd təsərrüfatı və aqro-ərzaq sektorunda birgə simpoziumlar, seminarlar, sərgilər və video-konfransların təşkili;

i. Tərəflərin qarşılıqlı razılığı ilə kənd təsərrüfatının digər sahələri üzrə mübadilə və əməkdaşlıq.

Bənd 3

Kənd təsərrüfatı üzrə Əməkdaşlıq Komitəsi

İkitərəfli əməkdaşlığı koordinasiya və inkişaf etdirmək məqsədilə, Tərəflər, kənd təsərrüfatı əməkdaşlığı üzrə Azərbaycan-Koreya Komitəsini (bundan sonra "Komitə" adlanacaq) təsis edəcəklər.

Komitə, tərəfləri təmsil edən Baş Direktor səviyyəsində iki həmsədrdən, həmçinin 2-ci

bənddə göstərilmiş sahələr üzrə məsul olan hökumət və qeyri-dövlət təşkilat nümayəndələrindən təşkil olunacaq.

Tərəflər Komitənin toplantılarının təşkilati, kommunikasiya və inzibati məsələlərinə məsul əlaqələndirici şəxslər ("əlaqə mərkəzləri") təyin edəcəklər.

Komitənin iclasları iki ildən bir növbə ilə Azərbaycan Respublikasında və Koreya Respublikasında keçiriləcək. Tədbirlərin keçiriləcəyi yer, tarix və gündəlik Tərəflərin əlaqə mərkəzləri arasında məsləhətləşmələr əsasında müəyyən ediləcək.

Komitənin iclaslarına qəbul edən Tərəfin həmsədri sədrlik edəcək və qəbul edən Tərəf iclasın keçirilməsinə inzibati dəstək verəcək.

İclasların rəsmi dili Azərbaycan, Koreya və ingilis dilləri olacaq. Komitə iclaslarının protokollarının mübadiləsi sənədlərin həmsədrlər tərəfindən imzalanmasından sonra baş verəcək. Sənədləşmə ingilis dilində aparılacaq.

Komitə çərçivəsində əməkdaşlığı sürətləndirmək məqsədilə ayrıca işçi qrupları yaradıla bilər.

Bənd 4

Özəl sektorda əməkdaşlığın, ticarətin və investisiyaların təşviqi

Tərəflər, kənd təsərrüfatı, ərzaq istehsalı və əlaqədar sahələrdə hər iki ölkənin özəl sektorları arasında ticarətin, investisiyaların və əməkdaşlığın dəstəklənməsi məqsədilə aşağıdakıları həyata keçirəcəklər:

a. kənd təsərrüfatında özəl bölmənin ticarət və investisiya imkanları barədə məlumat mübadiləsinin təşviqi;

b. özəl sektorda mübadilə və əməkdaşlığın asanlaşdırılması üçün başqa tədbirlərin görülməsi.

Bənd 5

Maliyyələşmə

Bu Memorandum hər iki ölkənin milli qanunvericilikləri və qaydaları çərçivəsində həyata keçiriləcək və Tərəflərin maliyyə vəsaitlərinin mövcudluğundan asılı olacaqdır.

Bu Memorandum çərçivəsində keçiriləcək bütün əməkdaşlıq tədbirləri üçün tələb olunan xərclər Tərəflər arasında qarşılıqlı razılaşmalar əsasında müəyyənləşdirilərək ödəniləcəkdir.

Bənd 6

Mübahisələrin həlli

Bu Memorandumun təfsiri və / və ya icrası ilə bağlı mübahisələr Tərəflər arasında məsləhətləşmələr yolu ilə həll ediləcək.

Bənd 7

Əlavələr və düzəlişlər

Memoranduma əlavə və düzəlişlər Tərəflərin qarşılıqlı razılığı əsasında edilə bilər.

Bənd 8

Qüvvəyə minməsi, müddəti və sona çatması

Bu Memorandum imzalandığı gündən qüvvəyə minir və beş il müddətinə etibarlıdır. Tərəflərdən biri bu Memorandumun müddətinin bitməsinə altı ay qalmış onu ləğv etmək niyyəti barədə digər Tərəfi yazılı şəkildə xəbərdar etmədiyi təqdirdə, Memorandumun qüvvəsi növbəti beş illik müddətə uzadılır.

Memorandum iki əsl nüsxədə Bakı şəhərində, 08 oktyabr 2009-cu il tarixdə, Azərbaycan, Koreya və ingilis dillərində imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir. Bu Memorandumun təfsirində fikir ayrılığı yaranarsa ingilis dilindəki mətn əsas götürüləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASININ KƏND TƏSƏRRÜFATI NAZİRLİYİ ADINDAN	KOREYA RESPUBLİKASININ KƏND TƏSƏRRÜFATI, ƏRZAQ MEŞƏÇİLİK VƏ BALIQÇILIQ NAZİRLİYİ ADINDAN
İSMƏT ABASOV	*KİM JONG JİN*
Kənd təsərrüfatı naziri	*Nazirliyinin baş direktoru*

Azərbaycan Respublikası və İordaniya Haşimilər Krallığı arasında 2009-cu il oktyabrın 12-də Əmman şəhərində imzalanmış sənədlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. Azərbaycan Respublikası və İordaniya Haşimilər Krallığı arasında 2009-cu il oktyabrın 12-də Əmman şəhərində imzalanmış aşağıdakı sənədlər təsdiq edilsin:

1.1. Azərbaycan Respublikası Hökuməti və İordaniya Haşimilər Krallığı Hökuməti arasında 2010-2011-2012-ci illər üçün elm və təhsil, mədəniyyət və incəsənət, gənclər və idman, arxeologiya, səhiyyə və media sahələri üzrə İcraedici Əməkdaşlıq Proqramı;

1.2. Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi və İordaniya Haşimilər Krallığının İnformasiya və Kommunikasiya Texnologiyaları Nazirliyi arasında informasiya və kommunikasiya texnologiyaları sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu.

2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bu sərəncamın 1.1-1.2-ci bəndlərində göstərilən sənədlərin həyata keçirilməsi üçün zəruri tədbirlər görsün.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu sərəncamın 1.1-1.2-ci bəndlərində göstərilən sənədlərin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə İordaniya Haşimilər Krallığı tərəfini xəbərdar etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 30 oktyabr 2009-cu il

№ 561

Azərbaycan Respublikası Hökuməti və İordaniya Haşimilər Krallığı Hökuməti arasında 2010-2011-2012-ci illər üçün elm və təhsil, mədəniyyət və incəsənət, gənclər və idman, arxeologiya, səhiyyə və media sahələri üzrə İcraedici Əməkdaşlıq Proqramı

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikası Hökuməti və İordaniya Haşimilər Krallığı Hökuməti,

İki ölkə arasında dostluq münasibətlərini inkişaf etdirmək və möhkəmləndirmək niyyəti ilə,

Elm və təhsil, mədəniyyət və incəsənət, gənclər və idman, arxeologiya, səhiyyə və media sahələrində əməkdaşlığı genişləndirməyə səy göstərərək,

23 avqust 2006-cı il tarixində Bakı şəhərində imzalanmış Azərbaycan Respublikası və İordaniya Haşimilər Krallığı hökumətləri arasında ikitərəfli əməkdaşlığa dair Çərçivə Sazişinə müvafiq olaraq,

Tərəflər 2010-2011-2012-ci illər üçün aşağıdakı İcraedici Əməkdaşlıq Proqramı barədə razılığa gəldilər:

I. Elm və Təhsil

Maddə 1

Tərəflər aşağıdakı sahələr üzrə əməkdaşlıq edəcəklər:

a) Təhsil sistemi, inkişaf planları və islahatların istiqamətləri barədə məlumat mübadiləsi;

b) Tərəflər üçün xüsusi maraq kəsb edən ixtisaslar üzrə heyətin təlimi;

c) Bütün səviyyələrdə olan təhsil müəssisələri arasında əməkdaşlıq;

d) Birgə elmi tədbir, konfrans, simpozium və gənclər üçün müsabiqələrin təşkili.

e) Maraqlı qurumlar birbaşa əlaqə yaratmaqla əməkdaşlıq mövzuları və onların maliyyə şərtlərini hazırlayacaqlar.

Maddə 2

Tərəflər aşağıdakılara xüsusi diqqət yetirməklə hər iki ölkənin əlaqədar elmi-tədqiqat institutları arasında birbaşa əməkdaşlığa yardım edirlər:

a) Birgə elmi-tədqiqat;

b) Mühazirələr oxumaq, elmi seminar və konfranslarda iştirak etmək məqsədilə elmi-pedaqoji heyətin mübadiləsi;

c) Elmi nəşr və məlumatların mübadiləsi;

d) Əlaqədar qurumlar birbaşa əlaqə yaratmaqla əməkdaşlıq mövzuları və onların maliyyə şərtlərini hazırlayacaqlar.

Maddə 3

Azərbaycan Tərəfi hər il İordaniya Tərəfinə təqaüdsüz, ödənişsiz tibb, stomatologiya və mühəndislik sahələrində ali təhsil üçün bir neçə yer ayıracaqdır. Yerlərin sayı və

təhsilin şərtləri müvafiq təşkilatlar arasında və ya diplomatik kanallar vasitəsilə razılaşdırılacaqdır.

Maddə 4

İordaniya Tərəfi Azərbaycan Tərəfini hər il aşağıdakılarla təmin edəcəkdir:

Təqaüdsüz, ödənişsiz bir təhsil ili müddətində ərəb dilini öyrənmək üçün üç (3) təcrübə yeri ilə;

Təqaüdsüz, ödənişsiz bir-sıra elmi-tədqiqat təcrübələri ilə.

Elmi-tədqiqat üzrə təcrübə yerlərinin sayı diplomatik kanallar vasitəsilə razılaşdırılacaqdır.

II. Mədəniyyət və İncəsənət

Maddə 5

Tərəflər digər ölkədə müasir və qədim incəsənət sərgiləri təşkil etməyə səy göstərəcəklər. İki ölkənin maraqlı qurumları sərgilərin təşkili üçün ətraflı tədbirlər hazırlayacaqlar.

Maddə 6

Tərəflər digər ölkədə musiqi proqramları və tamaşalar təşkil etməyə səy göstərəcəklər. Hər iki ölkənin əlaqədar institutları tamaşa və konsertlərin təşkili ilə bağlı tədbirlər hazırlayacaqlar.

Maddə 7

Tərəflər Azərbaycanın və İordaniyanın mədəniyyət müəssisələri arasında birbaşa əməkdaşlığı və mədəni abidələrin mühafizəsi və qorunması sahəsində təcrübə mübadiləsini dəstəkləyəcəklər.

Maddə 8

Tərəflər ən azı bir ay əvvəl müvafiq dəvətnamələri göndərməklə hər iki ölkədə təşkil olunan beynəlxalq festival və müsabiqələrdə qarşılıqlı iştirakı təşviq edəcəklər.

Maddə 9

Tərəflər mütəxəssislərin, nəşr və məlumatın mübadiləsini ehtiva edən milli kitabxanalar arasında əməkdaşlığı dəstəkləyirlər. Tərəflər ədəbiyyat, nəşriyyat və kitabxanaların idarə edilməsi sahəsində birgə təhsil layihələrinin həyata keçirilməsinə səy göstərəcəklər. Belə əməkdaşlığın şərtləri hər iki ölkənin əlaqədar müəssisələri arasında razılaşdırılacaqdır.

Maddə 10

Tərəflər milli arxiv orqanları arasında birbaşa sazişlər əsasında elmi, sosial və hüquqi məqsədlər üçün arxivdən istifadəni, təcrübə, nəşrlərin və mikrofilmlərin mübadiləsinin vacibliyini nəzərə alaraq arxiv idarəetməsi sahəsində əməkdaşlığa dəstək verəcəklər.

Maddə 11

Tərəflər dövlətlərinin milli qanunvericilikləri və imzaladıqları beynəlxalq müqavilələ-

rə uyğun olaraq mədəni irsə məxsus olan mədəni əşyaların qanunsuz alverinin qarşısını almağa səy göstərəcəklər.

Maddə 12

Tərəflər öz ölkələrində mədəniyyət həftələrinin və tətbiqi sənət, kitab sərgilərinin və folklor nümayişlərinin təşkilinə səy göstərəcəklər.

Maddə 13

Tərəflər hər iki ölkə arasında musiqi və folklor sahəsində qarşılıqlı sərgilər həyata keçirəcəklər.

Maddə 14

Tərəflər hər iki ölkə arasında musiqi və folklor sahəsində fəaliyyət göstərən mühazirəçilərin, sənət adamlarının və ekspertlərinin mübadiləsini həyata keçirəcəklər.

III. Gənclər və İdman

Maddə 15

Tərəflər, birbaşa olaraq aidiyyəti müəssisələri arasında müqavilələrin imzalanması vasitəsilə gənclər təşkilatları və idman assosiasiyaları arasında birbaşa əməkdaşlığa yardım edəcəklər.

Maddə 16

Tərəflər digər ölkənin gənclər təşkilatları və proqramları ilə tanış olmaq məqsədilə gənclər sahəsində hökumət ekspertləri və mütəxəssislərinin səfərlərinin mübadiləsini təşviq etmək və gücləndirmək istiqamətində işləyəcəklər.

Maddə 17

Tərəflər gənclər sahəsində keçirilən müxtəlif tədbirlərdə gənclərin qarşılıqlı iştirakı məqsədilə mübadilələrin həyata keçirilməsini təşviq edəcəklər.

IV. Arxeologiya

Maddə 18

Tərəflər öz ölkələrində nəşr edilən müvafiq elmi ədəbiyyatı mübadilə edəcəklər.

Maddə 19

Tərəflər əntiq əşyalar və muzey işi ilə bağlı elmi mühazirə və konfranslarda belə tədbirlərə dəvətnamələrin çatdırılması şərti ilə iştirakı təşviq edəcəklər.

Maddə 20

Tərəflər hər iki ölkədə əntiq əşyalar və milli irslə bağlı aparıcı mobil sərgilərin təşkilini təşviq edəcəklər.

Maddə 21

Tərəflər xüsusi ilə tarixi abidələrin bərpası və qorunması sahəsində əməkdaşlığı və təcrübə mübadilələrini və hər iki ölkədə sərgilərin təşkil edilməsini təşviq edəcəklər.

Maddə 22

Tərəflər hər iki ölkədə mütəxəssislərin mübadiləsini təşviq edəcəklər. Təfsilatlar diplomatik kanallar vasitəsi ilə razılaşdırılacaqdır.

Maddə 23

Tərəflər əntiq əşyalar və muzeylər sahəsində məşğələ proqramlarını mübadilə edəcəklər.

Maddə 24

Tərəflər tarixi abidələrin oğurlanmasına və arxeoloji tapıntıların qanunsuz alverinə nəzarət-yoxlamanı təşviq edəcəklər.

V. Səhiyyə

Maddə 25

Tərəflər səhiyyə və tibb elminin müxtəlif sahələrində təcrübə və informasiya mübadiləsini həyata keçirəcəklər.

Maddə 26

Tərəflər tibb, əczaçılıq sənayesi və dərmanların qeydiyyatı sahələrində əməkdaşlığı təşviq edəcəklər.

Maddə 27

Tərəflər 30 iyul 2007-ci il tarixində Əmman şəhərində imzalanmış Azərbaycan Respublikası Səhiyyə Nazirliyi və İordaniya Haşimilər Krallığının Səhiyyə Nazirliyi arasında səhiyyə və tibb elmi sahəsində əməkdaşlıq haqqında Sazişinin müddəalarının fəal həyata keçirilməsini təşviq edəcəklər.

VI. Media

Maddə 28

Tərəflər digər ölkənin kinematoqrafiyasının beynəlxalq film festivallarında iştirakını və bu ölkələrdə film nümayişlərinin təşkilini dəstəkləyəcəklər. Tərəflər televiziya proqramlarının kommersiya və qeyri-kommersiya mübadiləsinə yardım edəcəklər.

Maddə 29

Tərəflər hər iki ölkənin ictimai televiziya şəbəkələri arasında ikitərəfli əlaqələr yaratmaq istiqamətində fəaliyyət göstərəcəklər.

Maddə 30

Tərəflər media və kommunikasiya sahəsində təcrübə, məlumat və nəşrlər, o cümlədən mütəxəssislərin mübadiləsinə yardım göstərəcəklər. Mübadiləyə aid təfsilatlar Tərəflər arasında bağlanan ayrıca müqavilələrlə tənzimlənəcəkdir.

VII. Şəxslərin mübadiləsi

Maddə 31

Proqram çərçivəsində doktorluq, ali təhsil, elmi tədqiqat təcrübələri üzrə şəxslərin mü-

badiləsi qısa səfərlər çərçivəsində həyata keçiriləcəkdir.

Maddə 32

Bu proqramın 3 və 4-cü maddələrinə uyğun olaraq mübadilələrdə iştirak edən şəxslər aşağıdakılarla təmin olunacaqlar:

a) Qəbul edən Tərəf:

Dövlət ali məktəblərində və doktorluq təhsili verməyə səlahiyyətli olan müəssisələrdə ödənişsiz və təqaüdsüz təhsil.

Tələbə yataqxanalarında ödənişli mənzil.

b) Göndərən Tərəf:

Otaq və yemək xərclərinin ödənişi.

Qəbul edən Tərəfin qaydaları xəstəliyə görə müavinət hüququnu təmin etmədikdə, tibbi və bədbəxt hadisələrə qarşı sığorta.

Təqaüd almağa və təcrübə keçməyə namizədlərin sənədləri diplomatik kanallar vasitəsilə göndərilir.

VIII. Yekun müddəalar

Maddə 33

Bu Proqram diplomatik kanallar vasitəsilə razılaşdırılma şərtilə, təhsil, elm və mədəniyyət sahəsində olan əməkdaşlığın digər formalarına mənfi təsir etməyəcəkdir.

Maddə 34

Bu Proqram Tərəflərin onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə diplomatik kanallar vasitəsilə sonuncu yazdı bildirişinin alındığı tarixdən qüvvəyə minir.

Bu Proqram 31 dekabr 2012-ci il tarixinədək qüvvədə qalacaqdır.

Bu Proqram 31 dekabr 2013-cü il tarixindən gec olmayaraq yeni proqram qüvvəyə minənədək tətbiq olunacaqdır.

Əmman şəhərində 12 oktyabr 2009-cu il tarixində Azərbaycan, ərəb və ingilis dillərində olmaqla iki əsl nüsxədə imzalanmışdır. Bütün mətnlər bərabər autentikdir. Bu Proqramın təfsirində fikir ayrılığı olduğu təqdirdə, ingilis dilində olan mətndən istifadə ediləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN

ELMAR MƏMMƏDYAROV
Xarici işlər naziri

İORDANİYA HAŞİMİLƏR KRALLIĞI HÖKUMƏTİ ADINDAN

SUHAİR ƏL-ƏLİ
Planlaşdırma və beynəlxalq əməkdaşlıq naziri

Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi və İordaniya Haşimilər Krallığının İnformasiya və Kommunikasiya Texnologiyaları Nazirliyi arasında informasiya və kommunikasiya texnologiyaları sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu

Bundan sonra "Tərəflər" adlandırılan Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi ilə İordaniya Haşimilər Krallığının İnformasiya və Kommunikasiya Texnologiyaları Nazirliyi,

Hər iki ölkənin sosial və iqtisadi inkişafı çərçivəsində informasiya və kommunikasiya texnologiyaları sahəsində qarşılıqlı faydalı əməkdaşlığı inkişaf etdirmək və möhkəmləndirməyi arzu edərək,

Hər bir müvafiq ölkədə ictimaiyyət üçün səmərəli və etibarlı xidmətlərin yerinə yetirilməsi ilə əlaqədar eyni məqsəd və maraqları bölüşərək,

İnformasiya və kommunikasiya texnologiyaları sahəsində və ümumi maraq kəsb edən sahələrdə əməkdaşlığın hazırkı səviyyəsinin bilik, məlumat, bilik, ekspertiza və təcrübə mübadiləsi yolu ilə təkmilləşdirilməsinin Tərəflər üçün faydalı olacağını nəzərə alaraq,

Tərəflər arasında informasiya və kommunikasiya texnologiyaları sahəsində mövcud potensialı və möhkəmləndirilmiş kommersiya əlaqələrini, bu sahədəki şərait və imkanlardan tam istifadə etmək ehtiyacını nəzərə alaraq,

Tərəflər informasiya və kommunikasiya texnologiyaları sahəsində sərmayələrin artırılması, birgə müəssisələrin təşviqini, ümumi maraqların müəyyən olunmasını, habelə texnoloji inkişafı və ticarəti həvəsləndirmək niyyətində olaraq,

aşağıdakılar barədə razılığa gəldilər;

Maddə 1

Tərəflər qarşılıqlı fayda əsasında, Öz dövlətlərinin milli qanunvericiliyi və beynəlxalq hüququn müvafiq norma və prinsiplərinə, həmçinin bu Anlaşma Memorandumunun müddəalarına uyğun olaraq informasiya və kommunikasiya texnologiyaları sahəsində əməkdaşlıqlarını inkişaf etdirəcək və təkmilləşdirəcəklər.

Maddə 2

Bu Anlaşma Memorandumunun həyata keçirilməsi və əlaqələndirilməsinə görə məsul səlahiyyətli orqanlar:

Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi;

İordaniya Haşimilər Krallığının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyidir.

Bu Anlaşma Memorandumun həyata keçirilməsi üzrə səlahiyyətli orqanların qarşılıqlı fəaliyyəti zamanı işçi dil qismində ingilis dilindən istifadə ediləcəkdir.

Tərəflər əməkdaşlığın xüsusiyyətlərindən asılı olaraq, bu Anlaşma Memorandumunun həyata keçirilməsi üzrə fəaliyyətin əlaqələndirilməsi üçün digər dövlət orqanlarını cəlb edə bilər.

Maddə 3

Tərəflərin İKT sahəsində səlahiyyətləri çərçivəsindəki əməkdaşlığı Tərəflərin imkanlarına və müvafiq zamanlarına uyğun olacaq və aşağıdakı sahələri əhatə edəcəkdir:

1. İordaniya tərəfinin imkanlarına və müvafiq zamana uyğun olaraq, telekommunikasiya və poçt xidmətlərinin tənzimlənməsi, müxtəlif xidmətlərin (İP telefoniya, data, internet və s.) göstərilməsi, radiotezliklərin idarə olunması, texnoparkların və yüksək texnoloji sənaye zonalarının yaradılması ilə əlaqədar İordaniyanın təcrübəsinin öyrənilməsi;

2. E-hökumətin tətbiqi sahəsində əməkdaşlıq;

3. Hər iki ölkədə İKT sahəsinə qarşılıqlı sərmayə qoyuluşlarının təşviq edilməsi;

4. Qarşılıqlı məqbul şərtlərlə İKT sahəsində birgə müəssisələrin yaradılmasının təşviq edilməsi;

5. Birgə seminar, konfrans, forum və sərgilərin keçirilməsi;

6. Tərəflərin müvafiq qurumları arasında Ümumdünya Poçt İttifaqının vahid maliyyə sistemi vasitəsilə (STEFİ) elektron pul köçürmələrinin təşkil edilməsi barədə əməkdaşlıq protokolunun imzalanmasının dəstəklənməsi;

7. Kiber təhlükəsizlik və kiber cinayətlərin qarşısının alınması sahəsində səlahiyyətləri çərçivəsində əməkdaşlıq edilməsi;

8. Beynəlxalq təşkilatlarda (ÜPİ və BTİ kimi) hər iki ölkənin milli maraqları üst-üstə düşdüyü təqdirdə bir-birini dəstəkləməsi;

9. Müasir texnologiyaların müxtəlif fəaliyyət sahələrində uğurlu tətbiqi, xarici investisiyanın İT sektorun inkişafına cəlb olunması, azad iqtisadi zonanın-Texnoparkların yaradılması və inkişafı üzrə təcrübə mübadiləsi məqsədilə qarşılıqlı səfərlərin təşkili.

Bu Anlaşma Memorandumunun həyata keçirilməsi ilə bağlı hər bir Tərəfin öz xərclərini ödəyəcəkdir. Hər bir Tərəf müvafiq olaraq bilik və təcrübə mübadiləsi məqsədilə təlimlərin keçirilməsi üçün tələb olunan səyahət, yaşayış və öz işçilərinə təzminat ödənilməsi məsrəflərini tamamilə öz üzərinə götürəcəkdir. Bir Tərəf digər Tərəfdən müəyyən bir fəaliyyət üçün mütəxəssis istədiyi təqdirdə isə, beynəlxalq təyyarə biletlərinin alınması, tam yaşayışla təmin olunma və münasib təzminatın ödənilməsi kimi məsrəfləri mütəxəssisə ehtiyacı olan Tərəf ödəyəcəkdir.

Tərəflər arasında qarşılıqlı razılaşdırılmış digər məsələlər.

Maddə 4

Tərəflər İKT sahəsində görülmüş işlərin təşviq edilməsi, əməkdaşlığın inkişaf etdirilməsi, yeni texnologiyaların tətbiq edilməsi və birgə müəssisələrin yaradılması məqsədi ilə, hər iki ölkənin aidiyyəti orqanlarını, təşkilat və müəssisələrini bu sahədə sıx əlaqələrin və məlumat mübadiləsinin həvəsləndirilməsində əməkdaşlığa, mümkün olduğu hallarda xüsusi proqramların və layihələrin yerinə yetirilməsi sahəsində əməkdaşlığa təşviq edəcəklər.

Tərəflər telekommunikasiyanın təşviq edilməsi, rəqəmsal şəbəkələrə keçidin təmin edilməsi və lokal şəbəkələrin tənzimlənməsi sahəsində təcrübənin tətbiqi üçün hər iki Tərəfin mütəxəssislərinin birgə iş aparmasını təmin edəcəklər.

Maddə 5

Bu Anlaşma Memorandumunun müddəaları Tərəflərin dövlətlərinin iştirakçısı olduqları digər beynəlxalq müqavilələrdən irəli gələn hüquq və öhdəliklərinə toxunmur.

Maddə 6

Tərəflər əməkdaşlıq fəaliyyəti çərçivəsində mübadilə edilmiş bütün məxfi məlumatın öz dövlətlərinin milli qanunvericiliyinə uyğun olaraq qorunması üçün zəruri tədbirlər görəcək, həmçinin bu məlumatı təqdim etmiş Tərəfin yazılı icazəsi olmadan onu üçüncü tərəfə aşkarlamayacaq və yaymayacaqlar. Bu müddəa hazırkı Anlaşma Memorandumu qüvvədən düşdükdən sonra da qüvvədə olacaqdır.

Maddə 7

Bu Anlaşma Memorandumunun müddəalarının təfsiri və ya tətbiqi zamanı yarana biləcək fikir ayrılıqları Tərəflər arasında danışıqlar və məsləhətləşmələr yolu ilə həll edəcəklər.

Maddə 8

Tərəflərin qarşılıqlı razılığı əsasında bu Anlaşma Memorandumuna əlavə və dəyişikliklər edilə bilər. Belə əlavə və dəyişikliklər bu Anlaşma Memorandumunun ayrılmaz hissəsi olacaq və bu Anlaşma Memorandumunun 9-cu maddəsində nəzərdə tutulan qaydada qüvvəyə minən protokollarla rəsmiləşdiriləcəkdir.

Maddə 9

Bu Anlaşma Memorandumu imzalandığı tarixdən qüvvəyə minir.

Bu Anlaşma Memorandumu iki il müddətinə bağlanılır. Tərəflərdən biri bu Anlaşma Memorandumunun müddətinin bitməsinə ən azı altı ay qalmış onu ləğv etmək niyyəti barədə digər Tərəfə məlumat verməzsə, onun qüvvəsi növbəti 2 il müddətinə uzadılacaqdır.

Bu Anlaşma Memorandumu Əmman şəhərində 12 oktyabr 2009-cu il tarixində hər biri Azərbaycan, ərəb və ingilis dillərində olmaqla iki əsl nüsxədə imzalanmışdır, bütün mətnlər bərabər autentikdir. Bu Anlaşma Memorandumunun təfsiri zamanı fikir ayrılığı yarandığı təqdirdə ingilis dilindəki mətndən istifadə ediləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASININ RABİTƏ VƏ İNFORMASİYA TEXNOLOGİYALARI NAZİRLİYİ ADINDAN

ELMAR MƏMMƏDYAROV
Xarici işlər naziri

İORDANİYA HAŞİMİLƏR KRALLIĞININ İNFORMASİYA VƏ KOMMUNİKASİYA TEXNOLOGİYALARI NAZİRLİYİ ADINDAN

BASSEM ROUSAN
İnformasiya və kommunikasiya texnologiyaları naziri

Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti və Amerika Birləşmiş Ştatlarının Dövlət Departamenti arasında "Federal Qrant Yardımı"" sənədiniimzalamaq səlahiyyəti verilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Sərəncamı

1. Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti və Amerika Birləşmiş Ştatlarının Dövlət Departamenti arasında "Federal Qrant Yardımı"" sənədini imzalamaq səlahiyyəti Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin rəisi Elçin İsağa oğlu Quliyevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu sərəncamın 1-ci bəndində göstərilən sənədi imzalamaq səlahiyyətinin Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin rəisi Elçin İsağa oğlu Quliyevə verilməsi barədə Amerika Birləşmiş Ştatları tərəfinə müvafiq bildiriş göndərsin.

A.RASİ-ZADƏ

Azərbaycan Respublikasının Baş naziri

Bakı şəhəri, 30 oktyabr 2009-cu il

№ 291s

A.K. Həsənovun Azərbaycan Respublikasının İran İslam Respublikasında fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alıram:

Abbasəli Kərəm oğlu Həsənov Azərbaycan Respublikasının İran İslam Respublikasında fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılsın.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 2 noyabr 2009-cu il

№ 562

C.Ə. Axundova fövqəladə və səlahiyyətli səfir diplomatik rütbəsi verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

"Diplomatik xidmət haqqında" Azərbaycan Respublikasının Qanununun 8.1.1-ci maddəsini rəhbər tutaraq qərara alıram:

Cavanşir Əşrəf oğlu Axundova fövqəladə və səlahiyyətli səfir diplomatik rütbəsi verilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 2 noyabr 2009-cu il

№ 563

C.Ə.Axundovun Azərbaycan Respublikasının İran İslam Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alıram:

Cavanşir Əşrəf oğlu Axundov Azərbaycan Respublikasının İran İslam Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 2 noyabr 2009-cu il

№ 564

Birləşmiş Millətlər Təşkilatının İşgəncələrə qarşı Komitəsinin 43-cü sessiyasında "İşgəncələrə və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərinə qarşı" Konvensiya üzrə Azərbaycan Respublikasının üçüncü dövri hesabatına baxılması ilə əlaqədar Azərbaycan Respublikasını təmsil edəcək nümayəndə heyətinin tərkibi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Birləşmiş Millətlər Təşkilatının İşgəncələrə qarşı Komitəsinin 43-cü sessiyası çərçivəsində "işgəncələrə və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərinə qarşı" Konvensiya üzrə Azərbaycan Respublikasının üçüncü dövri hesabatına baxılması ilə əlaqədar Azərbaycan Respublikasını təmsil edəcək nümayəndə heyəti aşağıdakı tərkibdə müəyyən edilsin:

Xələf Xələfov	- Azərbaycan Respublikası xarici işlər nazirinin müavini, nümayəndə heyətinin rəhbəri
Oruc Zalov	- Azərbaycan Respublikası daxili işlər nazirinin müavini
Əli Şəfiyev	- Azərbaycan Respublikası milli təhlükəsizlik nazirinin müavini
Nazim Ələkbərov	- Azərbaycan Respublikası ədliyyə nazirinin müavini, Penitensiar Xidmətin rəisi
Rüstəm Usubov	- Azərbaycan Respublikası Baş prokurorunun birinci müavini
Elsevər Ağayev	- Azərbaycan Respublikası səhiyyə nazirinin müavini
Sədaqət Qəhrəmanova	- Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədr müavini

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 2 noyabr 2009-cu il

№ 565

2009-cu il iyulun 29-da Ufa şəhərində imzalanmış "Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi və Rusiya Federasiyasının Federal Təhlükəsizlik Xidməti arasında qarşılıqlı fəaliyyət və əməkdaşlıq haqqında Sazişə əlavə 13 nömrəli Protokol"un və "Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi və Rusiya Federasiyasının Federal Təhlükəsizlik Xidməti arasında qarşılıqlı fəaliyyət və əməkdaşlıq haqqında Sazişə əlavə 14 nömrəli Protokol"un təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2009-cu il iyulun 29-da Ufa şəhərində imzalanmış "Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi və Rusiya Federasiyasının Federal Təhlükəsizlik Xidməti arasında qarşılıqlı fəaliyyət və əməkdaşlıq haqqında Sazişə əlavə 13 nömrəli Protokol" və "Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi və Rusiya Federasiyasının Federal Təhlükəsizlik Xidməti arasında qarşılıqlı fəaliyyət və əməkdaşlıq haqqında Sazişə əlavə 14 nömrəli Protokol" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Protokolların həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Protokolların qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Rusiya Federasiyası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 2 noyabr 2009-cu il

№ 566

Azərbaycan Respublikası Hökuməti və Suriya Ərəb Respublikası Hökuməti arasında iqtisadi, elmi, texniki və mədəni əməkdaşlıq üzrə Birgə Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2009-cu il iyulun 8-də Bakı şəhərində imzalanmış və Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 27 avqust tarixli, 453 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Hökuməti və Suriya Ərəb Respublikası Hökuməti arasında iqtisadi, elmi, texniki və mədəni əməkdaşlıq üzrə Birgə Komissiyanın yaradılması haqqında Anlaşma Memorandumu"nun icrasını və ikitərəfli əlaqələrin genişləndirilməsini təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikası Hökuməti və Suriya Ərəb Respublikası Hökuməti arasında iqtisadi, elmi, texniki və mədəni əməkdaşlıq üzrə Birgə Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi aşağıdakı heyətdə təsdiq edilsin:

Komissiyanın həmsədri:

İsmət Abasov - Azərbaycan Respublikasının kənd təsərrüfatı naziri

Komissiyanın üzvləri:

Xələf Xələfov - Azərbaycan Respublikası xarici işlər nazirinin müavini

İlqar Fətizadə - Azərbaycan Respublikası maliyyə nazirinin birinci müavini

Gülməmməd Cavadov - Azərbaycan Respublikası sənaye və energetika nazirinin müavini

Sevinc Həsənova - Azərbaycan Respublikası iqtisadi inkişaf nazirinin müavini

Musa Pənahov - Azərbaycan Respublikası nəqliyyat nazirinin müavini

Teymur Mehdiyev - Azərbaycan Respublikası mədəniyyət və turizm nazirinin müavini

Elmar Qasımov - Azərbaycan Respublikası təhsil nazirinin müavini

Abbas Vəlibəyov - Azərbaycan Respublikası səhiyyə nazirinin müavini

Elmir Vəlizadə - Azərbaycan Respublikası rabitə və informasiya texnologiyaları nazirinin müavini

Səfər Mehdiyev - Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini

Rauf Səlimov - Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi sədrinin müavini

Avtandil Babayev - Azərbaycan Respublikasının Mərkəzi Bankının İdarə Heyəti sədrinin müavini

Akif Əlizadə - Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti

Mahir Əliyev - Azərbaycan Respublikasının Suriya Ərəb Respublikasında fövqəladə və səlahiyyətli səfiri

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Azərbaycan Respublikası Hökuməti və Suriya Ərəb Respublikası Hökuməti arasında iqtisadi, elmi, texniki və mədəni əməkdaşlıq üzrə Birgə Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi barədə Suriya Ərəb Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 4 noyabr 2009-cu il

№ 576

Azərbaycan Respublikası Hökuməti və Litva Respublikası Hökuməti arasında İkitərəfli Əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2008-ci il aprelin 21-də Bakı şəhərində imzalanmış və Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 20 iyun tarixli, 2876 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Hökuməti və Litva Respublikası Hökuməti arasında iqtisadiyyat, sənaye və enerji sahələrində əməkdaşlıq haqqında Saziş"in icrasını və iki ölkə arasında əlaqələrin daha da genişləndirilməsini təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikası Hökuməti və Litva Respublikası Hökuməti arasında İkitərəfli Əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi aşağıdakı heyətdə təsdiq edilsin:

Komissiyanın həmsədri:

Fazil Məmmədov - Azərbaycan Respublikasının vergilər naziri

Komissiyanın üzvləri:

Xələf Xələfov - Azərbaycan Respublikası xarici işlər nazirinin müavini
Niyazi Səfərov - Azərbaycan Respublikası iqtisadi inkişaf nazirinin müavini
Gülməmməd Cavadov - Azərbaycan Respublikası sənaye və energetika nazirinin müavini
Musa Pənahov - Azərbaycan Respublikası nəqliyyat nazirinin müavini
İlham Quliyev - Azərbaycan Respublikası kənd təsərrüfatı nazirinin müavini
Firdovsi Əliyev - Azərbaycan Respublikası ekologiya və təbii sərvətlər nazirinin müavini
Teymur Mehdiyev - Azərbaycan Respublikası mədəniyyət və turizm nazirinin müavini
Abbas Vəlibəyov - Azərbaycan Respublikası səhiyyə nazirinin müavini
İltimas Məmmədov - Azərbaycan Respublikası rabitə və informasiya texnologiyaları nazirinin müavini
İntiqam Babayev - Azərbaycan Respublikası gənclər və idman nazirinin müavini
Səfər Mehdiyev - Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini
Akif Əlizadə - Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti
Nairə Şahtaxtinskaya - Azərbaycan Respublikasının Litva Respublikasında fövqəladə və səlahiyyətli səfiri

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Azərbaycan Respublikası Hökuməti və Litva Respublikası Hökuməti arasında İkitərəfli Əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi barədə Litva Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 4 noyabr 2009-cu il

№ 577

Azərbaycan Respublikası və İordaniya Haşimilər Krallığı arasında 2009-cu il oktyabrın 12-də Əmman şəhərində imzalanmış sənədlərin həyata keçirilməsi üçün zəruri tədbirlər barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Sərəncamı

1. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycan Respublikasının Təhsil Nazirliyi, Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi, Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi, Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi, Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi, Azərbaycan Respublikasının Maliyyə Nazirliyi, Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası, "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyəti və digər dövlət orqanları aidiyyəti üzrə "Azərbaycan Respublikası və İordaniya Haşimilər Krallığı arasında 2009-cu il oktyabrın 12-də Əmman şəhərində imzalanmış sənədlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 30 oktyabr tarixli 561 nömrəli Sərəncamı ilə təsdiq edilmiş, Azərbaycan Respublikası və İordaniya Haşimilər Krallığı arasında 2009-cu il oktyabrın 12-də Əmman şəhərində imzalanmış aşağıdakı sənədlərin həyata keçirilməsi üçün zəruri tədbirlər görsünlər:

1.1. Azərbaycan Respublikası Hökuməti və İordaniya Haşimilər Krallığı Hökuməti arasında 2010-2011-2012-ci illər üçün elm və təhsil, mədəniyyət və incəsənət, gənclər və idman, arxeologiya, səhiyyə və media sahələri üzrə İcraedici Əməkdaşlıq Proqramı;

1.2. Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi və İordaniya Haşimilər Krallığının İnformasiya və Kommunikasiya Texnologiyaları Nazirliyi arasında informasiya və kommunikasiya texnologiyaları sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu.

2. Bu sərəncam imzalandığı gündən qüvvəyə minir.

A.RASİ-ZADƏ

Azərbaycan Respublikasının Baş naziri

Bakı şəhəri, 11 noyabr 2009-cu il

№ 298s

Azərbaycan Respublikası və Rumıniya arasında 2009-cu il sentyabrın 28-də Buxarest şəhərində imzalanmış sənədlərin həyata keçirilməsi üçün zəruri tədbirlər barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Sərəncamı

1. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi, Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi, Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi və digər dövlət orqanları aidiyyəti üzrə "Azərbaycan Respublikası və Rumıniya Respublikası arasında 2009-cu il sentyabrın 28-də Buxarest şəhərində imzalanmış sənədlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 30 oktyabr tarixli 558 nömrəli Sərəncamı ilə təsdiq edilmiş, Azərbaycan Respublikası və Rumıniya arasında 2009-cu il sentyabrın 28-də Buxarest şəhərində imzalanmış aşağıdakı sənədlərin həyata keçirilməsi üçün zəruri tədbirlər görsünlər:

1.1. Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi və Rumıniyanın Rabitə və İnformasiya Cəmiyyəti Nazirliyi arasında rabitə və in-

formasiya texnologiyaları sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu;

1.2. Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Rumıniyanın Ətraf Mühit Nazirliyi arasında ətraf mühitin mühafizəsi sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumu.

2. Bu sərəncam imzalandığı gündən qüvvəyə minir.

A.RASİ-ZADƏ

Azərbaycan Respublikasının Baş naziri

Bakı şəhəri, 13 noyabr 2009-cu il

№ 299s

Gürcüstanın Batumi şəhərində Azərbaycan Respublikasının Baş Konsulluğunun təsis edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. Gürcüstanın Batumi şəhərində Azərbaycan Respublikasının Baş Konsulluğu təsis edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, Gürcüstanın Batumi şəhərində Azərbaycan Respublikasının Baş Konsulluğunun fəaliyyətinin təminatı ilə bağlı maddi-texniki təchizat və maliyyələşdirmə məsələlərini həll etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Gürcüstanın Batumi şəhərində Azərbaycan Respublikasının Baş Konsulluğunun strukturunu və ştat cədvəlini təsdiq etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 17 noyabr 2009-cu il

№ 598

Avropa İttifaqı arasında qəbul olunmuş Fəaliyyət Planının icrasına dəstək Proqramının Maliyyələşdirmə Sazişi"ni imzalamaq səlahiyyəti verilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti ilə Avropa Komissiyası arasında Avropa Qonşuluq və Tərəfdaşlıq Aləti çərçivəsində 2008-ci il Azərbaycan Respublikası üçün Fəaliyyət Proqramı üzrə "Ədliyyə sahəsində islahatlara dəstək Proqramının Maliyyələşdirmə Sazişi"ni və "Azərbaycan Respublikası Hökuməti ilə Avropa Komissiyası arasında Avropa Qonşuluq və Tərəfdaşlıq Aləti çərçivəsində 2008-ci il Azərbaycan Respublikası üçün "Tvinninq aləti vasitəsi ilə Avropa Qonşuluq siyasəti çərçivəsində Azərbaycan Respublikası və Avropa İttifaqı arasında qəbul olunmuş Fəaliyyət Planının icrasına dəstək Proqramının Maliyyələşdirmə Sazişi"ni Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri Şahin Abdulla oğlu Mustafayevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu sərəncamın 1-ci bəndində göstərilən sənədləri Azərbaycan Respublikası Hökuməti adından imzalamaq

səlahiyyətinin Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri Şahin Abdulla oğlu Mustafayevə verilməsi barədə Avropa Komissiyasına müvafiq bildiriş göndərsin.

A.RASİ-ZADƏ

Azərbaycan Respublikasının Baş naziri

Bakı şəhəri, 18 noyabr 2009-cu il

№ 306s

E.C. Qəhrəmanova fövqəladə və səlahiyyətli səfir diplomatik rütbəsi verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

"Diplomatik xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 8.1.1-ci maddəsini rəhbər tutaraq qərara alıram:

Elxan Cahangir oğlu Qəhrəmanova fövqəladə və səlahiyyətli səfir diplomatik rütbəsi verilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 19 noyabr 2009-cu il

№ 600

E.C. Qəhrəmanovun Azərbaycan Respublikasının Birləşmiş Ərəb Əmirliklərində fövqəladə və səlahiyyətli səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alıram:

Elxan Cahangir oğlu Qəhrəmanov Azərbaycan Respublikasının Birləşmiş Ərəb Əmirliklərində fövqəladə və səlahiyyətli səfiri təyin edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 19 noyabr 2009-cu il

№ 601

"Azərbaycan Respublikası və Səudiyyə İnkişaf Fondu arasında Bakı ərazisi üzrə su təchizatı və kanalizasiya sisteminin yenidən qurulması və genişləndirilməsi layihəsi üzrə Kredit Sazişi"ni imzalamaq səlahiyyəti verilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Sərəncamı

1. "Azərbaycan Respublikası və Səudiyyə İnkişaf Fondu arasında Bakı ərazisi üzrə su təchizatı və kanalizasiya sisteminin yenidən qurulması və genişləndirilməsi layihəsi üzrə Kredit Sazişi"ni Azərbaycan Respublikası adından imzalamaq səlahiyyəti "Azərsu" Açıq Səhmdar Cəmiyyətinin prezidenti Nizaməddin İsmayıl oğlu Rzayevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu sərəncamın 1-ci

bəndində göstərilən Sazişi Azərbaycan Respublikası adından imzalamaq səlahiyyətinin "Azərsu" Açıq Səhmdar Cəmiyyətinin prezidenti Nizaməddin İsmayıl oğlu Rzayevə verilməsi barədə Səudiyyə İnkişaf Fonduna müvafiq bildiriş göndərsin.

A.RASİ-ZADƏ

Azərbaycan Respublikasının Baş naziri

Bakı şəhəri, 20 noyabr 2009-cu il

№ 309s

"Azərbaycan Respublikası Hökuməti və İslam İnkişaf Bankı arasında "Cənub" İstilik Elektrik Stansiyası layihəsinin maliyyələşdirilməsinə dair İstisna Müqaviləsi"ni imzalamaq səlahiyyətlərinin verilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti və İslam İnkişaf Bankı arasında "Cənub" İstilik Elektrik Stansiyası layihəsinin maliyyələşdirilməsinə dair İstisna Müqaviləsi"ni Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının maliyyə naziri Samir Rauf oğlu Şərifova verilsin.

2. "Azərbaycan Respublikası Hökuməti və İslam İnkişaf Bankı arasında "Cənub" İstilik Elektrik Stansiyası layihəsinin maliyyələşdirilməsinə dair Agent Müqaviləsini (İstisna)" Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin prezidenti Etibar Sinabəddin oğlu Pirverdiyevə verilsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu sərəncamda göstərilən sənədləri Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin müvafiq olaraq Azərbaycan Respublikasının maliyyə naziri Samir Rauf oğlu Şərifova və "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin prezidenti Etibar Sinabəddin oğlu Pirverdiyevə verilməsi barədə İslam İnkişaf Bankına bildiriş göndərsin.

A.RASİ-ZADƏ

Azərbaycan Respublikasının Baş naziri

Bakı şəhəri, 23 noyabr 2009-cu il

№ 310s

"Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının yaradılması haqqında" Nəxçıvan Sazişinin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

2009-cu il oktyabrın 3-də Naxçıvan şəhərində Türkdilli ölkələrin dövlət başçılarının IX Zirvə toplantısı zamanı imzalanmış "Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının yaradılması haqqında" Naxçıvan Sazişi təsdiq edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 26 noyabr 2009-cu il

№ 913-IIIQ

Türkdilli Ölkələrin Dövlət Başçılarının IX Zirvə Toplantısının Naxçıvan Bəyannaməsinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

2009-cu il oktyabrın 3-də Naxçıvan şəhərində imzalanmış Türkdilli Ölkələrin Dövlət Başçılarının IX Zirvə Toplantısının Naxçıvan Bəyannaməsi təsdiq edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 26 noyabr 2009-cu il

№ 914-IIIQ

"Azərbaycan Respublikası və Rumıniya arasında strateji tərəfdaşlığın yaradılmasına dair razılaşma haqqında" Birgə Bəyannamənin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

"Azərbaycan Respublikası və Rumıniya arasında strateji tərəfdaşlığın yaradılmasına dair razılaşma haqqında" 2009-cu il sentyabrın 28-də Buxarest şəhərində imzalanmış Birgə Bəyannamə təsdiq edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 26 noyabr 2009-cu il

№ 915-IIIQ

"Azərbaycan Respublikası hökuməti və Rumıniya hökuməti arasında transsərhəd mütəşəkkil cinayətkarlığa və beynəlxalq terrorçuluğa qarşı mübarizə sahəsində əməkdaşlıq haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

"Azərbaycan Respublikası hökuməti və Rumıniya hökuməti arasında transsərhəd mütəşəkkil cinayətkarlığa və beynəlxalq terrorçuluğa qarşı mübarizə sahəsində əməkdaşlıq haqqında" 2009-cu il sentyabrın 28-də Buxarest şəhərində imzalanmış Saziş təsdiq edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 26 noyabr 2009-cu il

№ 916-IIIQ

"Azərbaycan Respublikası hökuməti və Rumıniya hökuməti arasında fövqəladə halların nəticələrinin aradan qaldırılması, məhdudlaşdırılması və azaldılması sahəsində əməkdaşlıq haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

"Azərbaycan Respublikası hökuməti və Rumıniya hökuməti arasında fövqəladə halların nəticələrinin aradan qaldırılması, məhdudlaşdırılması və azaldılması sahəsində əməkdaşlıq haqqında" 2009-cu il sentyabrın 28-də Buxarest şəhərində imzalanmış Saziş təsdiq edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 26 noyabr 2009-cu il

№ 917-IIIQ

"Mədəni özünüifadə müxtəlifliyinin qorunması və təşviqi haqqında" Konvensiyanın təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

"Mədəni özünüifadə müxtəlifliyinin qorunması və təşviqi haqqında" 2005-ci il oktyabrın 20-də Paris şəhərində qəbul edilmiş Konvensiya Azərbaycan Respublikasının ona dair bəyanatları ilə təsdiq edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 26 noyabr 2009-cu il

№ 918-IIIQ

"Avropanın memarlıq irsinin qorunması haqqında" Konvensiyanın təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

"Avropanın memarlıq irsinin qorunması haqqında" 1985-ci il oktyabrın 3-də Qranada şəhərində imzalanmış Konvensiya Azərbaycan Respublikasının ona dair bəyanatı ilə birlikdə təsdiq edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 26 noyabr 2009-cu il

№ 919-IIIQ

"Azərbaycan Respublikası Hökuməti və BNP Paribas, Fransa arasında Bakı-Şamaxı-Yevlax avtomobil yolunun (M4) Muğanlı-Yevlax hissəsinin yenidənqurulması layihəsi üzrə Kredit Sazişi"ni Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti və BNP Paribas, Fransa arasında Bakı-Şamaxı-Yevlax avtomobil yolunun (M4) Muğanlı-Yevlax hissəsinin yenidənqurulması layihəsi üzrə Kredit Sazişi"ni Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının nəqliyyat naziri Ziya Ərzuman oğlu Məmmədova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu sərəncamın 1-ci bəndində göstərilən sənədi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının nəqliyyat naziri Ziya Ərzuman oğlu Məmmədova verilməsi barədə Fransa tərəfinə müvafiq bildiriş göndərsin.

A.RASİ-ZADƏ

Azərbaycan Respublikasının Baş naziri

Bakı şəhəri, 1 dekabr 2009-cu il

№ 321s

"Xarici investisiyanın qorunması haqqında", "Gömrük tarifi haqqında" və "Şəhərsalmanın əsasları haqqında" Azərbaycan Respublikasının Qanunlarına dəyişikliklər və əlavə edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. "Xarici investisiyanın qorunması haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1992-ci il, №4, maddə 81, №7, maddə 171; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997-ci il, №3, maddə 226; 2001-ci il, №6, maddə 360, №11, maddə 683, №12, maddə 736; 2003-cü il, №1, maddələr 1, 3; 2005-ci il, №8, maddə 684; 2007-ci il, №5, maddə 401, №10, maddə 938, №11, maddə 1053) VI bölməsi çıxarılsın.

II. "Gömrük tarifi haqqında" Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1995-ci il, №22, maddə 352; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998-ci il, №12, maddə 742; 1999-cu il, №4, maddə 225; 2001-ci il, №3, maddələr 145, 151, №5, maddələr 296, 299; 2009-cu il, №2, maddə 57) aşağıdakı dəyişikliklər və əlavə edilsin:

1. 1-ci maddənin ikinci abzası aşağıdakı redaksiyada verilsin:

"gömrük ərazisi - Azərbaycan Respublikasının quru ərazisindən, daxili sularından, Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsindən (o cümlədən orada yerləşən adalar, süni adalar, qurğular və tikililər) və onların üzərindəki hava məkanından ibarət olan ərazi;".

2. 34-cü maddənin "a)"-"ı)" bəndləri müvafiq olaraq 1-13-cü bəndlər hesab edilsin və

aşağıdakı məzmunda 14-cü bənd əlavə edilsin:

"14. mallar (aksizli mallardan başqa) Azərbaycan Respublikasının gömrük ərazisi xaricindən xüsusi iqtisadi zonaya idxal edildikdə, habelə Azərbaycan Respublikasının gömrük ərazisi xaricindən xüsusi iqtisadi zonaya idxal olunmuş mallar xüsusi iqtisadi zonadan Azərbaycan Respublikasının gömrük ərazisi xaricinə ixrac edildikdə, xüsusi iqtisadi zonada istehsal və ya emal olunmuş mallar Azərbaycan Respublikasının gömrük ərazisi xaricinə ixrac edildikdə, xüsusi iqtisadi zonada istehsal və ya emal olunmuş mallar təmir, yekun-tamamlama işləri, nümunələrin sərgisi və digər bu kimi məqsədlərlə Azərbaycan Respublikasının gömrük ərazisinə müvəqqəti idxal edildikdə, Azərbaycan Respublikasında mallar xüsusi iqtisadi zonalar arasında idxal-ixrac edildikdə.".

III. "Şəhərsalmanın əsasları haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999-cu il, №8, maddə 473; 2001-ci il, №11, maddə 676; 2002-ci il, №5, maddə 241; 2007-ci il, №10, maddə 938; 2008-ci il, №7, maddə 602; 2009-cu il, №5, maddə 310) 24-cü maddəsinin dördüncü abzası aşağıdakı redaksiyada verilsin:

"xüsusi iqtisadi zonalar;".

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 4 dekabr 2009-cu il

№ 925-IIIQD

"Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi və İtaliya Respublikasının Xarici Məlumat və Təhlükəsizlik Agentliyi arasında əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi və İtaliya Respublikasının Xarici Məlumat və Təhlükəsizlik Agentliyi arasında əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının milli təhlükəsizlik naziri Eldar Əhməd oğlu Mahmudova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının milli təhlükəsizlik naziri Eldar Əhməd oğlu Mahmudova verilməsi barədə İtaliya Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 7 dekabr 2009-cu il

№ 613

"Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti və Estoniya Respublikasının Sərhəd Mühafizə İdarəsi arasında əməkdaşlığa dair Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti və Estoniya Respublikasının Sərhəd Mühafizə İdarəsi arasında əməkdaşlığa dair Saziş"i imzalamaq səlahiyyəti Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin rəisi - Sərhəd Qoşunlarının komandanı Elçin İsaağa oğlu Quliyevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi imzalamaq səlahiyyətinin Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin rəisi - Sərhəd Qoşunlarının komandanı Elçin İsaağa oğlu Quliyevə verilməsi barədə Estoniya Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 10 dekabr 2009-cu il

№ 617

Azərbaycan Respublikası Milli Məclisinin Amerika Birləşmiş Ştatlarının Konqresinə Müraciətinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Milli Məclisinin Qərarı

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

Azərbaycan Respublikası Milli Məclisinin Amerika Birləşmiş Ştatlarının Konqresinə Müraciətinin təsdiq edilsin.

O.ƏSƏDOV

Azərbaycan Respublikası Milli Məclisinin Sədri

Bakı şəhəri, 15 dekabr 2009-cu il

№ 932-IIIQR

Azərbaycan Respublikası Milli Məclisinin Amerika Birləşmiş Ştatlarının Konqresinə Müraciəti

Hörmətli həmkarlar,

Bu günlərdə ABŞ Konqresi tərəfindən 2010-cu maliyyə ili üçün Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsinə 8 milyon dollar maliyyə vəsaiti ayrılmasına dair qərar qəbul edilməsi barədə aldığımız xəbər bizi son dərəcə narahat edir. Ölkəmizin Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuş bölgəsindəki qanunsuz rejimin simasında separatizmin dəstəklənməsi kimi qiymətləndirilə biləcək bu qərar Amerika Birləşmiş Ştatları ilə Azərbaycan Respublikası arasında təşəkkül tapmış strateji tərəfdaşlıq münasibətlərinin ruhuna və məntiqinə ziddir.

Bildiyiniz kimi, ötən əsrin 90-cı illərinin əvvəllərində qonşu Ermənistan Respublikasının Azərbaycana qarşı ərazi iddialarını həyata keçirmək niyyəti ilə başladığı işğalçılıq

müharibəsi və etnik təmizləmə siyasəti nəticəsində Azərbaycan Respublikası ərazisinin 20 faizi, yəni Dağlıq Qarabağ bölgəsi və onun ətrafındakı daha yeddi rayon - Laçın, Kəlbəcər, Ağdam, Cəbrayıl, Füzuli, Qubadlı, Zəngilan rayonları işğal olunmuş, Ermənistan ərazisindən və Azərbaycanın işğal edilmiş bölgəsindən 1 milyondan çox azərbaycanlı qovulub didərgin salınmışdır.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün pozulmasına gətirib çıxarmış işğalın nəticələrini təsbit etmək üçün zəbt olunmuş ərazidə dünyanın heç bir dövləti tərəfindən tanınmayan oyuncaq rejim qurulmuşdur. Dağlıq Qarabağ bölgəsi və onun ətrafındakı yeddi rayon müxtəlif beynəlxalq terror təşkilatlarının fəaliyyət zonasına çevrilmişdir.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll edilməsi məqsədi ilə 1994-cü ildə Minsk qrupunun həmsədrləri simasında münaqişənin nizama salınması mexanizmi təsbit edilmiş, Amerika Birləşmiş Ştatları, Fransa Respublikası və Rusiya Federasiyası Minsk qrupunun həmsədrləri təyin edilmişdir. Bir sıra beynəlxalq təşkilatlar, o cümlədən BMT, ATƏT, Avropa Şurası müvafiq qətnamələr qəbul edərək, işğalçılıq və etnik təmizləmə siyasətini pisləmiş, zəbt olunmuş Azərbaycan torpaqlarının qeyd-şərtsiz geri qaytarılmasını tələb etmişlər.

Təəssüf ki, mötəbər beynəlxalq təşkilatların Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair qətnamələrinin və qərarlarının həyata keçirilməsi indiyədək təmin edilməmiş, Minsk qrupunun fəaliyyəti ona bəslənən ümidləri doğrultmamışdır. Vəziyyətin bu cür qalmasının nə qədər təhlükəli olduğunu izah etməyə ehtiyac yoxdur.

Ermənistan dövlətinin sülh danışıqları prosesində tutduğu qeyri-konstruktiv mövqe, Azərbaycanın ərazi bütövlüyünü tanımaqdan imtina etməsi, öz ərazisində xarici hərbi bazalar yerləşdirməsi, ordusunu ən müasir dağıdıcı hücum silahları ilə təmin etməsi, atəşkəs rejimini tez-tez pozması müharibə təhlükəsini daha da artırır.

Azərbaycan cəmiyyətində belə bir fikir kök salmışdır ki, Dağlıq Qarabağ probleminin həllinə mane olan ən böyük amil dünyanın nüfuzlu dövlətlərinin münaqişəyə ikili standartlarla yanaşması, təcavüzkarın öz adı ilə çağırılmaması və cəzasız qalması, işğalçı ilə işğalın qurbanının bərabər tutulmasıdır.

Məhz bütün bunlara görə, hörmətli həmkarlar, ABŞ Konqresinin separatçı rejimə maliyyə yardımı ayrılması qərarını biz həyəcan və təşviş hissi ilə qarşılayırıq. Mahiyyətcə o qədər də böyük olmayan bu maliyyə vəsaitinin ayrılmasını humanitar yardım kimi deyil, separatçılığa, torpaqların işğalına verilən mənəvi dəstək kimi qiymətləndiririk. Əgər bunun sırf humanitar yardım olmasında təkid edilirsə, bu halda qarşıya belə bir məsələ çıxır. Madam ki, Amerika Birləşmiş Ştatları Azərbaycan Respublikasının ərazi bütövlüyünü tanıyır, onun ayrılmaz tərkib hissəsi olan Dağlıq Qarabağa ayrılan maliyyə vəsaiti də Azərbaycana ayrılan yardımın tərkibinə daxil edilməli idi. Belə halda həmin vəsaitin sonrakı təyinatı göstərilə bilərdi. Bu cür yanaşma sülh danışıqları prosesinə də müsbət təsir göstərərdi.

Ayrılan maliyyə vəsaitinin hansı məqsədlərə yönəldilə biləcəyi başqa bir məsələdir. Amma bütün hallarda bu dəstək ona dəlalət edir ki, Ermənistan rəhbərliyi arxayınlaşaraq, münaqişənin həllini bir qədər də uzatmağa səy göstərəcək, danışıqlar prosesinə ən-

gəllər törətməkdə davam edəcəkdir.

Bir məqam da təəccüb və təəssüf doğurur. Obama administrasiyası tərəfindən təqdim edilən 2010-cu ilin büdcə layihəsində Dağlıq Qarabağa yardım göstərilməsi nəzərdə tutulmamışdı. Belə bir vəsait ABŞ Senatının qəbul etdiyi layihədə də yox idi. Həmin yardımla bağlı müddəalar ABŞ Nümayəndələr Palatasında fəaliyyət göstərən erməni lobbisinin səyləri nəticəsində qanun layihəsinin son variantına daxil edilmişdir. Bu isə onu sübut edir ki, müəyyən hallarda erməni lobbisi ABŞ-ın milli maraqlarına uyğun olmayan qərarları qəbul etdirmək iqtidarındadır. Doğrudur, bilirik ki, ABŞ Nümayəndələr Palatasında Azərbaycanın haqq işini dəstəkləyən konqresmenlər də vardır və biz onlara minnətdarıq.

Ümid edirik ki, bu yaxınlarda Nobel sülh mükafatı almış ABŞ Prezidenti Barak Obama özünün veto hüququndan istifadə edərək, Cənubi Qafqazda sülh və əmin-amanlıq yaradılması səylərinə mane ola biləcək 2010-cu ilin dövlət büdcəsi haqqında qanunun Dağlıq Qarabağa birbaşa yardım göstərilməsinə dair müddəalarının qüvvəsini dayandıracaqdır.

Bir daha qeyd etmək istəyirik ki, Azərbaycan Respublikası və Amerika Birləşmiş Ştatları strateji tərəfdaşdırlar. Bu tərəfdaşlığın hər iki tərəfə nə qədər fayda gətirdiyini ötən illər göstərmişdir. Əməkdaşlıq etdiyimiz sahələr beynəlxalq terrorizmə qarşı mübarizədən başlamış Avropanın və dünyanın enerji təhlükəsizliyinə qədər bir çox sahələri əhatə edir. Amerika Birləşmiş Ştatları ilə bərabər hüquqlu münasibətlərin inkişaf etdirilməsi Azərbaycan dövlətinin xarici siyasətinin üstün istiqamətlərindən biridir. Həyəcan və narahatlığımızı ifadə edərək, əmin olmaq istəyirik ki, daim rastlaşdığımız ikili standartların tətbiqi ikitərəfli münasibətlərimizə xələl gətirməyəcəkdir.

(Müraciət Azərbaycan Respublikası Milli Məclisinin 2009-cu il 15 dekabr tarixli iclasında qəbul edilmişdir.)

"Xarici investisiyanın qorunması haqqında", "Gömrük tarifi haqqında" və "Şəhərsalmanın əsasları haqqında" Azərbaycan Respublikasının qanunlarına dəyişikliklər və əlavə edilməsi barədə" Azərbaycan Respublikası Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

"Xarici investisiyanın qorunması haqqında", "Gömrük tarifi haqqında" və "Şəhərsalmanın əsasları haqqında" Azərbaycan Respublikasının qanunlarına dəyişikliklər və əlavə edilməsi barədə" Azərbaycan Respublikasının 2009-cu il 4 dekabr tarixli 925-IIIQD nömrəli qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiq edilməsini təmin etmək məqsədi ilə qərara alıram:

Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bir ay müddətində:

1. qüvvədə olan qanunvericilik aktlarının "Xarici investisiyanın qorunması haqqında", "Gömrük tarifi haqqında" və "Şəhərsalmanın əsasları haqqında" Azərbaycan Respublikasının qanunlarına dəyişikliklər və əlavə edilməsi barədə" Azərbaycan Respublikasının 2009-cu il 4 dekabr tarixli 925-IIIQD nömrəli qanununa uyğunlaşdırılması barədə təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin və müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3. öz səlahiyyətləri daxilində həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 21 dekabr 2009-cu il

№ 650

2009-cu il sentyabrın 16-da Seul şəhərində imzalanmış "Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Koreya Respublikasının Ətraf Mühit Sənayesi və Texnologiyalar İnstitutu arasında Azərbaycanda Ətraf Mühitin İdarə Edilməsi üzrə Baş Planın hazırlanmasına dair Anlaşma Memorandumu"nun təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2009-cu il sentyabrın 16-da Seul şəhərində imzalanmış "Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Koreya Respublikasının Ətraf Mühit Sənayesi və Texnologiyalar İnstitutu arasında Azərbaycanda Ətraf Mühitin İdarə Edilməsi üzrə Baş Planın hazırlanmasına dair Anlaşma Memorandumu" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Memorandumun həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Memorandumun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Koreya Respublikası tərəfini xəbərdar etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 21 dekabr 2009-cu il

№ 654

Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Koreya Respublikasının Ətraf Mühit Sənayesi və Texnologiyalar İnstitutu arasında Azərbaycanda Ətraf Mühitin İdarə Edilməsi üzrə Baş Planın hazırlanmasına dair Anlaşma Memorandumu

Bundan sonra ayrı-ayrılıqda müvafiq olaraq "ETSN" və "KƏMSTİ", birlikdə isə "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Koreya Respublikasının Ətraf Mühit Sənayesi və Texnologiyalar İnstitutu aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Məqsəd

Bu Anlaşma Memorandumunun məqsədi Tərəflərin milli qanunvericiliyinə uyğun olaraq Azərbaycan Respublikasında ətraf mühitin idarə edilməsi üzrə Baş Planın hazırlanması məqsədilə Koreya Respublikası və Azərbaycan Respublikası arasında ətraf mühit sahəsində hərtərəfli əməkdaşlığın inkişaf etdirilməsindən ibarətdir.

Maddə 2

Əməkdaşlıq sahələri

Hazırkı Anlaşma Memorandumu çərçivəsində əməkdaşlıq fəaliyyəti aşağıdakı sahələri əhatə edəcək:

1. Koreya Respublikası - Azərbaycan Respublikası Birgə Fəaliyyətinin həyata keçirilməsi

i. Azərbaycan Respublikasında ətraf mühitin idarə edilməsi üzrə Baş Planın hazırlanması üçün ekoloji siyasət və texnologiyalar üzrə birgə tədqiqatların aparılması və əməkdaşlığın həyata keçirilməsi:

Azərbaycan Respublikasında su, tullantı, torpaq və hava sahələri üzrə müvafiq planların hazırlanması

Koreya-Azərbaycan birgə fəaliyyətinin inkişaf etdirilməsi

ii. Koreya Respublikasının Azərbaycan Respublikasının birgə fəaliyyətinin müvəffəqiyyətli həyata keçirilməsi üçün qarşılıqlı idarəetmənin tətbiqi.

2. Birgə fəaliyyətin nəticələri barədə məlumatın yayılması və ətraf mühit sahəsində məlumat mübadiləsi

i. Birgə fəaliyyətin gücləndirilməsi üçün forumların və seminarların təşkili

ii. Ətraf mühit üzrə texnologiyalar və ekspertlər üzrə məlumat mübadiləsi

iii. İctimai əlaqələr və müxtəlif metodlarla təbliğatın aparılması üzrə əməkdaşlıq

Maddə 3

İşin həcmi

Hazırkı Anlaşma Memorandumuna uyğun olaraq əməkdaşlıq fəaliyyətləri aşağıdakılardan ibarətdir:

1. Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi üçün:

i. Əsas ekoloji məlumatın və birgə tədqiqat işlərinin aparılmasının təmin edilməsi

Ətraf mühitin vəziyyəti, ekoloji qanun və standartlar

Mərkəzi və yerli icra hakimiyyəti orqanlarının ekoloji sistemi (təşkili və sertifikatlaşdırılması)

Ekoloji obyektlərin və sənayelərin cari vəziyyəti

Mərkəzi və yerli icra hakimiyyəti orqanlarının ekoloji siyasəti və inkişaf planları

ii. Birgə fəaliyyətin gücləndirilməsi üçün forum və seminarların təşkili

iii. Ətraf mühit sahəsində Koreya Respublikası - Azərbaycan Respublikası birgə fəaliyyətin inkişaf etdirilməsi məqsədilə əməkdaşlığın həyata keçirilməsi.

2. Koreya Respublikası Ətraf Mühit Sənayesi və Texnologiyalar İnstitutu üçün:

i. Əsas ekoloji məlumatların təhlili

Ətraf mühit, bazar və texnologiyaların vəziyyəti

ii. Azərbaycan Respublikasında ətraf mühitin yaxşılaşdırılması məqsədilə ətraf mühitin idarə edilməsi üzrə Baş Planın hazırlanması

Müəyyən olunacaq ərazilərdə ərazi tədqiqat işlərinin aparılması

Hər bir sahə (su, tullantı, torpaq, hava) üçün planın hazırlanması

iii. Ətraf mühit sahəsində əməkdaşlığın gücləndirilməsi

iv. Azərbaycanın ətraf mühit sahəsində fəaliyyət göstərən mütəxəssislərinin Koreyanın obyektlərinə səfər etmələri üçün dəvət edilməsi

v. Birgə fəaliyyətin gücləndirilməsi üçün forum və seminarların təşkil edilməsi

Maddə 4

Əlaqələndiricilər

Hazırkı Anlaşma Memorandumu çərçivəsində Tərəflər qarşılıqlı birgə fəaliyyətlərin həyata keçirilməsi üçün müvafiq əlaqələndiricilərini təyin edir. Tərəflər qarşılıqlı əməkdaşlığın inkişaf etdirilməsi məqsədilə digər Tərəfin tələblərinə cavab verməlidir.

1. Azərbaycan Respublikası: Ekologiya və Təbii Sərvətlər Nazirliyi (ETSN)

- Əlaqə: Emin Qarabağlı
- Email: emin.garabaghli@gmail.com
- Tel:+994-12-438-85-13
- Fax:+994-12-492-59-07

2. Koreya Respublikası: Koreyanın Ətraf Mühit Sənayesi və Texnologiyalar İnsitutu (KƏMSTİ)

- Əlaqə: Kihvan Kim
- Email: kim3113@keiti.re.kr
- Tel: 82-2-3800-253
- Fax: 82-2-3800-270

Maddə 5

Məxfilik

Tərəflər hazırkı Anlaşma Memorandumunun müzakirəsi və yerinə yetirilməsi zamanı qarşı Tərəfdən alman bütün məxfi məlumatların ciddi məxfiliyini təmin edəcəklər.

Maddə 6

Məsləhətləşmələr və düzəlişlər

Hazırkı Anlaşma Memorandumunda nəzərdə tutulmayan məsələlər və Anlaşma Memorandumu ilə bağlı suallar qarşılıqlı məsləhətləşmələr yolu ilə müəyyən ediləcəkdir.

Tərəflərin qarşılıqlı yazılı razılığı ilə bu Anlaşma Memorandumuna əlavə və düzəlişlər edilə bilər.

Maddə 7

Qüvvəyə minmə və xitam

Hazırkı Anlaşma Memorandumu imzalandığı gündən qüvvəyə minir və Azərbaycan Respublikasında ətraf mühitin idarə edilməsi üzrə Baş Planın layihələşdirilməsinin başa çatdırılmasına kimi qüvvədə qalacaq.

Hazırkı Anlaşma Memorandumu Azərbaycan, Koreya və İngilis dillərində iki əsl nüsxədə imzalanmışdır və bütün mətnlər bərabər autentikdir. Hazırkı Anlaşma Memorandumunun təfsiri zamanı fikir ayrılığı yarandığı təqdirdə ingilis dilindəki mətnə üstünlük təşkil edəcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASININ EKOLOGİYA VƏ TƏBİİ SƏRVƏTLƏR NAZİRLİYİ ADINDAN	KOREYA RESPUBLİKASININ ƏTRAF MÜHİT SƏNAYESİ VƏ TEXNOLOGİYALAR İNSTİTUTU ADINDAN
(imza)	*(imza)*

Azərbaycan Respublikası və Qazaxıstan Respublikası arasında 2009-cu il oktyabrın 2-də Bakı şəhərində imzalanmış sənədlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. Azərbaycan Respublikası və Qazaxıstan Respublikası arasında 2009-cu il oktyabrın 2-də Bakı şəhərində imzalanmış aşağıdakı sənədlər təsdiq edilsin:

1.1. Azərbaycan Respublikası Hökuməti ilə Qazaxıstan Respublikası Hökuməti arasında 1992-1993-cü illər ərzində (müxbir hesabları üzrə hesablaşmalara keçidə kimi və ondan sonra) ticarət-iqtisadi münasibətlər nəticəsində yaranmış borcun ödənilməsi haqqında Saziş;

1.2. Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi və Qazaxıstan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi arasında kənd təsərrüfatı sahəsində əməkdaşlıq haqqında Saziş.

2. 2009-cu il oktyabrın 2-də Bakı şəhərində imzalanmış "Sumqayıt şəhəri (Azərbaycan Respublikası) və Aktau şəhəri (Qazaxıstan Respublikası) arasında qardaşlaşmış şəhər münasibətlərinin yaradılması haqqında Birgə Bəyannamə" nəzərə alınsın.

3. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bu Sərəncamın 1.1 - 1.2-ci bəndlərində göstərilən sənədlərin həyata keçirilməsi üçün zəruri tədbirlər görsün.

4. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1.1 - 1.2-ci bəndlərində göstərilən sənədlərin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Qazaxıstan Respublikası tərəfini xəbərdar etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 21 dekabr 2009-cu il

№ 655

Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi və Qazaxıstan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi arasında kənd təsərrüfatı sahəsində əməkdaşlıq haqqında Saziş

Bundan sonra "Tərəflər" adlandırılacaq, Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi və Qazaxıstan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi,

Dövlətlərində bazar münasibətləri əsasında həyata keçirilən iqtisadi islahatlar şəraitində aqrar-sənaye kompleksi sahəsində qarşılıqlı faydalı əməkdaşlığın inkişaf etdirilməsi və dərinləşdirilməsi niyyətini nəzərə alaraq,

Azərbaycan Respublikası və Qazaxıstan Respublikası arasında tarixən qurulmuş iqtisadi və elmi-texniki əlaqələr nəzərə alaraq,

kənd təsərrüfatının iqtisadiyyatın inkişafında və ərzaq təhlükəsizliyinin təmin olunmasında aparıcı rolunu dərk edərək,

Tərəf dövlətlər arasında əməkdaşlığın möhkəmləndirilməsi üçün bütün səviyyələrdə təcrübə mübadiləsinin və əməkdaşlığın zəruriliyini qəbul edərək,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər öz dövlətlərinin milli qanunvericilikləri çərçivəsində bərabərlik və qarşılıqlı fayda əsasında əməkdaşlıq həyata keçirirlər, eləcə də Tərəf dövlətlərin təsərrüfat subyektləri arasında əlaqələrin inkişafına yardım edirlər.

Maddə 2

Tərəflər arasında əməkdaşlıq aşağıdakı sahələrdə həyata keçirilir:

bitkiçilik, o cümlədən kənd təsərrüfatı bitkilərinin toxumçuluğu;

heyvandarlıq, o cümlədən damazlıq işi;

baytarlıq;

karantin və bitki mühafizəsi.

Digər əməkdaşlıq istiqamətləri Tərəflərin qarşılıqlı razılığı əsasında müəyyən olunur.

Maddə 3

Bu Saziş çərçivəsində əməkdaşlıq aşağıdakı formalarda həyata keçirilir:

toxum nümunələrinin, kənd təsərrüfatı heyvanlarının, əkin materialının mübadiləsi;

regionlarda və ümumilikdə respublikada epizootik vəziyyət barədə məlumat mübadiləsi, heyvanların və quşların xüsusilə təhlükəli xəstəliklərinin diaqnostikası;

heyvandarlıq və quşçuluq sahəsində təbii və kombinə edilmiş yemlərin istehsalının inkişafı;

kənd təsərrüfatı məhsullarının istehsalı, emalı və marketinqində müasir texnologiyalardan istifadə;

aqrar yönümlü elmi tədqiqat və ali təhsil müəssisələrinin əməkdaşlıq əlaqələrinin yaradılması, aqrar sahədə informasiya və təcrübə mübadiləsinin təşkili;

səhralaşma, quraqlıq, şoranlaşma və eroziya problemlərinin idarə olunması, sənaye istifadəsi nəticəsində çirklənmiş torpaqların münbitliyinin bərpası üzrə təcrübə mübadiləsi;

simpoziumların, tədris-təcrübi seminarların, konfransların, sərgi və yarmarkaların təşkili.

Əməkdaşlığın digər istiqamətləri Tərəflərin qarşılıqlı razılaşması əsasında müəyyən edilir.

Maddə 4

Toxum nümunələrinin, kənd təsərrüfatı heyvanlarının və digər məhsulların, həmçinin məlumat xarakterli materialların mübadiləsi Tərəf dövlətlərin əqli mülkiyyət sahəsində milli qanunvericiliklərinə uyğun olaraq həyata keçirilir.

Maddə 5

Bu Saziş Tərəflərin iştirakçısı olduqları digər beynəlxalq müqavilələrdən irəli gələn hüquq və öhdəliklərinə toxunmur.

Maddə 6

Tərəflər, bu Sazişin müddəalarının səmərəli yerinə yetirilməsi məqsədilə birgə layihələrin və proqramların həyata keçirilməsinin əlaqələndirilməsi, qarşılıqlı maraq doğuran məsələlər üzrə məsləhətləşmələr üçün səlahiyyətli nümayəndələr, eləcə də aqrar-sənaye kompleksinin təsərrüfat subyektlərinin rəhbərləri və mütəxəssisləri səviyyəsində mütəmadi görüşlər keçirirlər.

Maddə 7

Tərəflər bu Sazişi yerinə yetirərkən qarşıya çıxan xərcləri, əgər hər bir konkret halda digər qayda razılaşdırılmamışdırsa, öz dövlətlərinin milli qanunvericiliyində nəzərdə tutulan vəsaitlər çərçivəsində sərbəst ödəyirlər.

Maddə 8

Tərəflər bu Sazişin müddəalarının təfsiri və tətbiqi zamanı yaranan mübahisələri danışıqlar və məsləhətləşmələr yolu ilə həll edirlər.

Maddə 9

Tərəflərin qarşılıqlı razılığı əsasında bu Sazişə onun ayrılmaz hissəsi olan və bu sazişin 10-cu maddəsində nəzərdə tutulan qaydada qüvvəyə minən ayrıca protokollarla rəsmiləşdirilən dəyişikliklər və əlavələr edilə bilər.

Maddə 10

Bu Saziş onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Azərbaycan tərəfinin yazılı bildirişinin diplomatik kanallar vasitəsilə Qazaxıstan tərəfindən alındığı tarixdən qüvvəyə minir.

Bu Saziş beş il müddətində bağlanılır və Tərəflərdən heç biri növbəti beşillik müddətin bitməsinə ən azı altı ay qalmış Sazişin qüvvəsinin ləğv edilməsi niyyəti barədə digər Tərəfə yazılı bildiriş göndərməzsə, Sazişin qüvvəsi növbəti beşillik müddətlərə avtomatik olaraq uzadılacaqdır.

Tərəflər başqa cür razılığa gəlməmişlərsə, bu Sazişin ləğv edilməsi onun qüvvədə olduğu müddətdə başlanmış birgə layihələrin və proqramlara təsir etməyəcək.

Bakı şəhərində 2 oktyabr 2009-cu il tarixində iki nüsxədə hər biri Azərbaycan, qazax və rus dillərində imzalanmışdır. bütün mətnlər eyni qüvvəyə malikdir.

Bu Sazişin müddəalarının təfsiri ilə bağlı fikir ayılığı yarandığı təqdirdə rus dilindəki mətndən istifadə ediləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASININ KƏND TƏSƏRRÜFATI NAZİRLİYİ ADINDAN	QAZAXISTAN RESPUBLİKASININ KƏND TƏSƏRRÜFATI NAZİRLİYİ ADINDAN
İSMƏT ABASOV	*AKILBEK KURİŞBAYEV*
Kənd təsərrüfatı naziri	*Kənd təsərrüfatı naziri*

Sumqayıt şəhəri (Azərbaycan Respublikası) və Aktau Şəhəri (Qazaxıstan Respublikası) arasında qardaşlaşmış şəhər münasibətlərinin yaradılması haqqında Birgə Bəyannamə

Bundan sonra "Tərəflər" adlandırılacaq, Sumqayıt şəhər İcra Hakimiyyəti və Aktau şəhər Akimatı,

Regional inkişaf, dünyada sülhün və sabitliyin möhkəmlənməsi istiqamətində mühüm töhfə vermiş olan Azərbaycan Respublikası və Qazaxıstan Respublikası arasında mövcud dostluq münasibətlərini nəzərə alaraq,

Sıx tarixi əlaqələrə malik olan iki ölkənin xalqlarının çiçəklənməsi və rifah halının yüksəldilməsi naminə əməkdaşlığın inkişaf etdirilməsi niyyəti ilə,

Sumqayıt şəhər İcra Hakimiyyətinin rəhbərliyi və Aktau şəhər Akimatının rəhbərliyi bu iki şəhər arasında qardaşlaşmış şəhər münasibətlərinin yaradılmasını təklif edirlər,

Bunu əsas tutaraq, Sumqayıt və Aktau bundan sonra qardaşlaşmış şəhərlər olacaqlar və aşağıdakı sahələrdə faydalı əməkdaşlığı genişləndirəcəklər:

1. Xoş münasibətlərin və qarşılıqlı anlaşmanın təşviqi;

2. Yerli idarəetmə sahəsində təcrübə mübadiləsi;
3. Mədəniyyət və elm sahəsində mübadilələr və əməkdaşlıq;
4. İki şəhərinin gəncləri arasında əlaqələrin yaradılması və inkişafı;
5. Ticarət və turizmin təşviqi;
6. Biznes və sahibkarlıq sahəsində əlaqələrin qurulması və inkişaf etdirilməsi;
7. İki ölkə xalqları arasında dostluq münasibətlərinin daha da inkişaf etdirilməsi.

Bakı, 2 oktyabr 2009-cu il

AZƏRBAYCAN RESPUBLİKASI SUMQAYIT ŞƏHƏR İCRA HAKİMİYYƏTİNİN BAŞÇISI	*QAZAXISTAN RESPUBLİKASI MANQİSTAU VİLAYƏTİ AKTAU ŞƏHƏRİNİN AKİMİ*
VAQİF ƏLİYEV	*SALİMGEREY BAKBERGENOV*

2009-cu il noyabrın 13-də Ankara şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında təməmnasız hərbi yardım haqqında Saziş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2009-cu il noyabrın 13-də Ankara şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında təməmnasız hərbi yardım haqqında Saziş" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişin həyata keçirilməsi üçün lazımi tədbirlər görsün.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Türkiyə Respublikası Hökumətini xəbərdar etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 21 dekabr 2009-cu il

№ 656

"Azərbaycan Respublikası Hökuməti və təşkilatçı və agent qismində çıxış edən BNP Paribas, Fransa və əsas borcverənlər qismində çıxış edən BNP Paribas, Fransa, Bank Leumi Le-İsrael B.M., Bank Hapoalim B.M. arasında Bakı-Şamaxı-Yevlax avtomobil yolunun (M4) Muğanlı-Yevlax hissəsinin yenidənqurulması layihəsi üzrə Kredit Sazişi" təsdiq edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Sərəncamı

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 1 dekabr tarixli 321s nömrəli sərəncamı ilə verilmiş səlahiyyət çərçivəsində 2009-cu il dekabrın 8-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti və təşkilatçı və agent qismində

çıxış edən BNP Paribas, Fransa və əsas borcverənlər qismində çıxış edən BNP Paribas, Fransa, Bank Leumi Le-İsrael B.M., Bank Hapoalim B.M. arasında Bakı-Şamaxı-Yevlax avtomobil yolunun (M4) Muğanlı-Yevlax hissəsinin yenidənqurulması layihəsi üzrə Kredit Sazişi" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyinə, Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə və Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyinə" tapşırılsın ki, bu sərəncamın 1-ci bəndində göstərilən Sazişin həyata keçirilməsi ilə laqədar lazımi tədbirlər görsünlər.

3. Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi "Dövlət zəmanəti ilə alınan kreditlərə dair sazişlərin bağlanması qaydaları haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 13 fevral tarixli 368 nömrəli Fərmanının 1.15-ci bəndinin icrasını təmin etmək üçün kreditin istifadəsinə dair məlumatları ildə bir dəfədən az olmayaraq, zəruri hallarda tələb olunduqda və layihə tam başa çatdıqdan sonra yekun hesabatı Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi və Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırmaqla, Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin.

4. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu sərəncamın 1-ci bəndində göstərilən Sazişin qüvvəyə minməsi üçün zəruri dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Fransa tərəfinə müvafiq bildiriş göndərsin.

5. Bu sərəncamın icrasına nəzarət Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyinə həvalə edilsin.

6. Bu sərəncam imzalandığı gündən qüvvəyə minir.

A.RASİ-ZADƏ

Azərbaycan Respublikasının Baş naziri

Bakı şəhəri, 22 dekabr 2009-cu il

№ 354s

Azərbaycan Respublikası Milli Məclisinin Avropa Parlamentinə Müraciətinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Milli Məclisinin Qərarı

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

Azərbaycan Respublikası Milli Məclisinin Avropa Parlamentinə Müraciəti təsdiq edilsin.

O.ƏSƏDOV

Azərbaycan Respublikası Milli Məclisinin Sədri

Bakı şəhəri, 25 dekabr 2009-cu il

№ 935-IIIQR

Azərbaycan Respublikası Milli Məclisinin Avropa Parlamentinə Müraciəti

Hörmətli həmkarlar,

Avropa Parlamentinin bu il dekabrın 17-də Azərbaycana dair qəbul etdiyi qətnamə bizim ölkəmizdə təəssüf və narahatlıq hissləri doğurmuşdur.

Azərbaycan Respublikası ölkəmizdə ümumbəşəri dəyərlərin bərqərar edilməsi işində nüfuzlu beynəlxalq təşkilatlar ilə əməkdaşlığa böyük əhəmiyyət verir. Avropa İttifaqı, o cümlədən Avropa Parlamenti ilə əlaqələrin inkişaf etdirilməsi dövlətimizin xarici siyasətinin üstün istiqamətlərindən biridir. Azərbaycanla Avropa İttifaqı arasında 1996-cı ildə imzalanmış və 1999-cu ildə qüvvəyə minmiş Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi ölkəmizin bu nüfuzlu qurumla münasibətlərinin hüquqi bazasını təşkil etmişdir. 2004-cü ildə Azərbaycanın Avropa İttifaqı tərəfindən "Avropa qonşuluq siyasəti"nə daxil edilməsi qarşılıqlı iqtisadi inteqrasiyanın və siyasi əməkdaşlığın daha da genişlənməsinə təkan vermişdir. Qonşuluq siyasəti çərçivəsində ikitərəfli fəaliyyət planı imzalanmış və Azərbaycanla Avropa İttifaqı arasında əməkdaşlığın əsas istiqamətləri müəyyənləşdirilmişdir. 2009-cu ilin may ayından Azərbaycan Avropa İttifaqı ilə "Şərq tərəfdaşlığı" proqramı çərçivəsində də əməkdaşlıq etməyə başlamışdır.

Biz Avropa İttifaqı ilə əməkdaşlığın parlament ölçüsünə də xüsusi əhəmiyyət veririk. Hesab edirik ki, Avropa İttifaqı-Azərbaycan Parlament Əməkdaşlığı Komitəsi Avropa Parlamenti ilə əlaqələrin intensivləşdirilməsi üçün yaxşı imkanlar yaradır.

Hazırda Milli Məclis Avropa İttifaqının Twining layihəsini həyata keçirməkdədir. Layihənin ümumi məqsədləri Azərbaycan Respublikasında demokratiyanın və qanunun aliliyinin möhkəmlənməsinə töhfə vermək, xüsusən qanunvericiliyin Avropa İttifaqı qanunvericiliyinə yaxınlaşdırılmasına kömək göstərməkdir.

Azərbaycan Avropanın enerji təhlükəsizliyinin təmin edilməsi üçün səylərini artırır, bu məqsədlə mövcud layihələrdə fəal iştirak edir, gələcəkdə yarana biləcək layihələrdə isə iştirakını təmin etməyə çalışır. Qeyd etmək yerinə düşər ki, 2006-cı ildə Avropa İttifaqı ilə Azərbaycan arasında Energetika sahəsində strateji tərəfdaşlıq haqqında Anlaşma Memorandumu imzalanmışdır.

Ötən əsrin sonlarına yaxın dövlət müstəqilliyini əldə etdikdən sonra Azərbaycan Respublikası demokratiyaya doğru uzun və çətin bir yol keçməkdədir. Təqribən 16 il bundan əvvəl vətəndaş müharibəsi təhlükəsinin, daxili çəkişmələrin ölkəni məhv olmaq həddinə gətirdiyi Azərbaycan bu gün iqtisadi tərəqqi, demokratik inkişaf sahəsində qazandığı uğurları ilə dünyanın diqqətini özünə cəlb edən bir dövlətdir. Qeyd etmək maraqlıdır ki, 1993-cü ildən bəri ölkədə ümumi daxili məhsul 4,7 dəfə artmışdır. Son 6 ildə Azərbaycan dünyanın ən dinamik inkişaf edən ölkələri sırasındadır. 2008-ci ilin yekunlarına görə Azərbaycan Dünya Bankının "Doing business" proqramında 1 nömrəli islahatçı ölkə kimi tanınmış, Dünya İqtisadi Forumunun reytinqində rəqabət qabiliyyətinə görə dünyanın 133 ölkəsi arasında 51-ci, MDB məkanında isə 1-ci olmuşdur.

Demokratik, hüquqi dövlət quruculuğu, qanunun aliliyinin təmin edilməsi, insan hüquqlarının və azadlıqlarının, o cümlədən ifadə və informasiya azadlığının möhkəmləndirilməsi üçün geniş miqyaslı işlər müntəzəm həyata keçirilir. Bu sahədə vəziyyəti təsəvvür etmək üçün bircə faktı qeyd etmək kifayətdir ki, bu gün 9 milyona qədər əhalisi

olan bir ölkədə 4113 mətbu nəşr, 35 televiziya kanalı, 11 radio, 56 informasiya agentliyi fəaliyyət göstərir.

İnsan hüquqlarının bütün kompleksinin təmin edilməsi, xüsusən Ermənistanın işğalçılıq və etnik təmizləmə siyasəti nəticəsində yerindən-yurdundan olmuş 1 milyona qədər qaçqın və məcburi köçkün vətəndaşlarımızın hüquq və azadlıqlarının qorunması üçün lazımi tədbirlər görülür, əhalinin aztəminatlı hissəsinin qayğısına qalınır. Son 8 ildə yoxsulluq səviyyəsi 3, 7 dəfə azalaraq, 2001-ci ildəki 49 faizdən 13,2 faizə düşmüşdür. Gender bərabərliyinin təmin edilməsi, qadınların cəmiyyətdə özünə məxsus yeri tutması, milli azlıqların hüquqlarının qorunması, uşaqların hüquqlarının müdafiəsi, əhalinin yaşayış səviyyəsinin yüksəldilməsi üçün zəruri işlər həyata keçirilir.

Lakin biz yaxşı başa düşürük ki, əldə etdiyimiz nailiyyətlər ilə yanaşı, görüləsi işlər hələ çoxdur. Axı demokratiyanın imkanları tükənməzdir, demokratik dəyərlər sistemi hər gün daha da zənginləşir, zaman yeni-yeni problemləri qarşıya çıxarır. Bunların öhdəsindən gəlmək üçün yeni demokratik formaların işlənib hazırlanması tələb olunur. Bu sahədə beynəlxalq təşkilatların göstərə biləcəyi köməyin əhəmiyyəti çox böyükdür. Amma bu məsələdə ən az lazım olan bir şey varsa, o da qeyri-obyektivlik və qərəzdir. Baş verən ayrı-ayrı halları ümumiləşdirərək, Azərbaycanda həyata keçirilən demokratik prosesləri gözdən salmağa, xüsusi məsələləri ümumi inkişaf meyli kimi təqdim etməyə cəhd göstərilməsi Avropa Parlamenti qətnaməsinin layihəsini hazırlayan şəxslərin məsələlərə birtərəfli yanaşdıqlarını və qərəz güddüklərini nümayiş etdirir.

Azərbaycan Respublikası demokratiyanın şəksiz üstünlüklərini gerçəkləşdirərək, insan hüquqlarına və azadlıqlarına hörmətə əsaslanan demokratik, hüquqi dövlət quruculuğu yolunu şüurlu surətdə və qəti olaraq seçmişdir. Bu yolda qarşıya çıxan çətinliklər bizi qorxutmur. Biz bilirik ki, Avropa demokratiyaları da müxtəlif problemləri dəf edə-edə bu səviyyəyə gəlib çıxmışlar. Müasir dünyanın bir hissəsi olmaq istəyən hər bir dövlət bu yolu keçməlidir.

Məhz buna görə də biz Avropa Parlamentinin qətnaməsini demokratik dövlət kimi Azərbaycanın nüfuzuna xələl gətirmək cəhdi kimi qiymətləndiririk. Qətnamədə qaldırılan məsələlərə ötəri nəzər salınması belə onun nə qədər qərəzlə hazırlandığını sübut edir. Bircə faktı qeyd edək. Azərbaycanda üçpilləli məhkəmə sistemi fəaliyyət göstərir. Qətnamədə göstərilən məhkəmə hökmü hələ birinci instansiyada qəbul edildiyi halda son qərar kimi təqdim edilərək, əsassız nəticələr çıxarılmışdır.

Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra heç bir bloka daxil olmadan, öz milli mənafelərinə uyğun siyasət yeridir. Həm də elə bir vəziyyətdə ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi kimi ağrılı problemlə qarşılaşmışıq, ölkə əhalisinin hər 9 nəfərindən biri qaçqın və məcburi köçkündür. Təəssüf doğuran hal budur ki, işğalın qurbanının Azərbaycan Respublikası, işğalçının isə qarşı tərəf olduğunu hamı bilsə də, Avropa İttifaqı indiyədək birmənalı seçimini etməmişdir.

Nə qədər ki, sülh imkanları tükənməyib, biz bu problemi dinc vasitələrin köməyi ilə nizama salmağa çalışırıq. Amma Avropa Parlamentinin adı çəkilən qətnaməsinin qəbul edilməsi bizdə belə təəssürat yaradır ki, hər bir demokratik dövlətin praktikasında ola biləcək xırda problemləri bu cür nüfuzlu beynəlxalq təşkilatın qətnaməsinə çıxarmaqla bəzi qüvvələr Azərbaycanı ədalətli mövqeyindən çəkindirmək istəyirlər.

Azərbaycan Respublikasının Konstitusiyasına görə, insan hüquqlarının və azadlıqlarının təmin edilməsi dövlətin ali məqsədidir. Bizi bu yoldan heç kəs çəkindirə bilməz. Gələcəyimiz demokratik inkişafla bağlıdır. Ümid etmək istəyirik ki, gələcəkdə Avropa Parlamenti Azərbaycanla bağlı məsələlərə baxarkən ölkəmizdə hökm sürən əsas meylləri kənarda qoyaraq, ayrı-ayrı istisna halları ümumiləşdirmək yoluna düşməyəcəkdir.

(Müraciət Azərbaycan Respublikası Milli Məclisinin 2009-cu il 25 dekabr tarixli iclasında qəbul edilmişdir.)

"Azərbaycan Respublikası Hökuməti ilə Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı arasında Minilliyin İnkişaf Məqsədləri çərçivəsində prioritetlərə nail olunması istiqamətlərində işlərin gedişatının monitorinqi məqsədi ilə Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin potensialının gücləndirilməsi" layihəsini imzalamaq səlahiyyəti verilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti ilə Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı arasında Minilliyin İnkişaf Məqsədləri çərçivəsində prioritetlərə nail olunması istiqamətlərində işlərin gedişatının monitorinqi məqsədi ilə Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin potensialının gücləndirilməsi" layihəsini Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri Şahin Abdulla oğlu Mustafayevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu sərəncamın 1-ci bəndində göstərilən sənədi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri Şahin Abdulla oğlu Mustafayevə verilməsi barədə Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramına müvafiq bildiriş göndərsin.

A.RASİ-ZADƏ

Azərbaycan Respublikasının Baş naziri

Bakı şəhəri, 30 dekabr 2009-cu il

№ 372s

Qara Dəniz Hövzəsində Birgə Fəaliyyət Proqramının Maliyyələşdirmə Sazişi"ni Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti və Avropa Komissiyası arasında Avropa Qonşuluq və Tərəfdaşlıq Alətinin Qonşu Ölkələr Arasında Əməkdaşlıq Proqramı çərçivəsində 2007-2013-cü illər üzrə Qara Dəniz Hövzəsində Birgə Fəaliyyət Proqramının Maliyyələşdirmə Sazişi"ni Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri Şahin Abdulla oğlu Mustafayevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu sərəncamın 1-ci bəndində göstərilən sənədi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq sə-

lahiyyətinin Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri Şahin Abdulla oğlu Mustafayevə verilməsi barədə Avropa Komissiyasına müvafiq bildiriş göndərsin.

A.RASİ-ZADƏ

Azərbaycan Respublikasının Baş naziri

Bakı şəhəri, 30 dekabr 2009-cu il

№ 373s

MÜNDƏRİCAT

"Kökünün kəsilməsi təhlükəsi olan vəhşi fauna və yabanı flora növlərinin beynəlxalq ticarətinin tənzimlənməsi Qaydaları"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı . . . 3

Kökünün kəsilməsi təhlükəsi olan vəhşi fauna və yabanı flora növlərinin beynəlxalq ticarətinin tənzimlənməsi Qaydaları . . . 3

Azərbaycan üçün xarakterik, nadir və kökünün kəsilməsi təhlükəsi olan vəhşi fauna və yabanı flora növləri . . . 11

Azərbaycan üçün xarakterik və mühafizəsinin gücləndirilməsi tələb olunan vəhşi fauna və yabanı flora növləri . . . 16

İcazə/sertifikat formasında göstərilən kodların izahı (sertifikatın arxa tərəfi) . . . 20

Kökünün kəsilməsi təhlükəsi olan vəhşi fauna və yabanı flora növləri nümunələrinin əldə edilməsi haqqında Şəhadətnamə . . . 22

"İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya"nın Fakültativ Protokolunun icrasının təmin edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı . . . 22

"Nüvə terrorçuluğu əməlləri ilə mübarizə haqqında" Beynəlxalq Konvensiyanın təsdiq edilməsi barədə" Azərbaycan Respublikasının 2008-ci il 2 dekabr tarixli 725-IIIQ nömrəli Qanununun tətbiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı . . . 23

Birləşmiş Millətlər Təşkilatının İnsan Hüquqları Şurasının Universal Dövri İcmal üzrə İşçi Qrupunun 2009-cu il fevralın 2-13-də Cenevrə şəhərində keçiriləcək 4-cü sessiyasında Universal Dövri İcmal mexanizmi çərçivəsində Azərbaycan Respublikasının məruzəsinə baxılması ilə əlaqədar Azərbaycan Respublikasını təmsil edəcək nümayəndə heyətinin tərkibi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı . . . 24

Nümayəndə heyətinin başçısı . . . 24

Miqrasiya sahəsində Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarına dəyişikliklər və əlavələr edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı . . . 24

Azərbaycan Respublikası Prezidentinin bəzi sərəncamlarına dəyişikliklər və əlavələr edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı . . . 27

Azərbaycan Respublikası hökuməti və Macarıstan Respublikası hökuməti arasında iqtisadi əməkdaşlıq üzrə Birgə Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı . . . 30

Azərbaycan Respublikası Hökuməti arasında "Aztəminatlı fermerlərə Qrant Yardımı (2KR)" layihəsinə dair Notlar Mübadiləsi sənədlərini Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti verilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Sərəncamı . . . 31

"Azərbaycan Respublikasının Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti ("Benefisiar") və KfW, Frankfurt am Main ("KfW") arasında Maliyyələşdirmə Müqaviləsi"ni imzalamaq səlahiyyəti verilməsi barədə Azərbaycan Respublikasının Nazirlər Kabinetin Sərəncamı . . . 31

Azərbaycan Respublikasının Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti ("Benefisiar") və KfW, Frankfurt am Mayn ("KfW") arasında Maliyyələşdirmə Müqaviləsi . . . 32

"Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinə Amerika Birləşmiş Ştatlarının Dövlət Departamenti tərəfindən federal qrant yardımının ayrılması barədə Saziş"i imzalamaq səlahiyyəti verilməsinə dair Azərbaycan Respublikası Nazirlər Kabinetinin Sərəncamı . . . 37

"Azərbaycan Respublikası və Asiya İnkişaf Bankı arasında Yol şəbəkəsinin İnkişafı Proqramı. Layihə 2-Gəncə dairəvi yolunun yenidənqurulması üzrə Kredit Sazişi (Adi Əməliyyatlar)" təsdiq edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Sərəncamı . . . 38

"Azərbaycan Respublikası Hökuməti və Çin Xalq Respublikası Hökuməti arasında Texniki-İqtisadi Əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Sərəncamı . . . 39

"Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi və Belarus Respublikasının İnformasiya Nazirliyi arasında nəşriyyat və informasiya sahəsində əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı . . . 40

Küveyt Dövlətinin Əmiri şeyx Sabah əl-Əhməd əl-Cabir əs-Sabahın "Heydər Əliyev" ordeni ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı . . . 40

Azərbaycan Respublikası və Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı arasında Minilliyin İnkişafı Məqsədlərinin Karbon Fonduna dair Anlaşma Memorandumunu imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı . . . 41

"Azərbaycan Respublikası Hökuməti və Küveyt Dövləti Hökuməti arasında ticarət Sazişi"ni Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı . . . 41

"Azərbaycan Respublikası Hökuməti və Küveyt Dövləti Hökuməti arasında sərmayələrin təşviqi və qarşılıqlı qorunması haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı . . . 42

"Azərbaycan Respublikası Hökuməti və Küveyt Dövləti Hökuməti arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı . . . 42

"Azərbaycan Respublikası Hökuməti ilə Küveyt Dövləti Hökuməti arasında turizm sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı . . . 43

"Azərbaycan Respublikası Hökuməti və Yaponiya Hökuməti arasında "Kiçik şəhərlərdə Su Təchizatı və Kanalizasiya Layihəsi"nə dair Kredit Sazişi üzrə razılığın təsdiq edilməsi barədə Nota"nı Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı . . . 43

Azərbaycan Respublikası və Türkmənistan arasında 2008-ci il noyabrın 28-də Aşqabad şəhərində imzalanmış sənədlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı . . . 44

Azərbaycan Respublikası Hökuməti və Türkmənistan Hökuməti arasında iqtisadi əməkdaşlıq üzrə Azərbaycan - Türkmənistan Hökumətlərarası Komissiyası haqqında Saziş . . . 44

Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında Bakı (Azərbaycan Respublikası) və Türkmənbaşı (Türkmənistan) limanları vasitəsilə birbaşa beynəlxalq dəmir yolu-bərə əlaqəsinin təşkili haqqında Saziş . . . 47

Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə Türkmənistanın Təhsil Nazirliyi arasında təhsil sahəsində əməkdaşlıq haqqında Saziş . . . 50

Birləşmiş Millətlər Təşkilatının "İqtisadi, sosial və mədəni hüquqlar haqqında" Beynəlxalq Paktına uyğun olaraq Azərbaycan Respublikasının qəbul etdiyi öhdəliklərin yerinə yetirilməsi ilə bağlı üçüncü dövri məruzənin hazırlanması və təqdim olunması barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı . . . 51

"Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi və Koreya Respublikasının Ərzaq, Kənd Təsərrüfatı, Meşəçilik və Balıqçılıq Nazirliyi arasında kənd təsərrüfatı sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı . . . 53

"Azərbaycan Respublikası Hökuməti və Yunanıstan Respublikası Hökuməti arasında informasiya və kommunikasiya texnologiyaları sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı . . . 53

"Azərbaycan Respublikası Sənaye və Energetika Nazirliyi və Yunanıstan Respublikası İnkişaf Nazirliyi arasında bərpa olunan enerji mənbələri və enerji səmərəliliyi sahəsində Anlaşma Memorandumu"nu imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı . . . 54

"Azərbaycan Respublikası Hökuməti və Yunanıstan Respublikası Hökuməti arasında hava əlaqəsi haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı . . . 54

Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və sərəncamlarında dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı . . . 54

2009-cu il yanvarın 15-də Ankara şəhərində imzalanmış "Azərbaycan Respublikası Müdafiə Nazirliyi və Türkiyə Respublikası Baş Qərargahı arasında maddi-texniki təminatın təbiqi Protokolu"nun təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı . . . 57

"Azərbaycan Respublikası Hökuməti və Özbəkistan Respublikası Hökuməti arasında hərbi-texniki əmək-daşlıq haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı . . . 58

"Azərbaycan Respublikası Hökuməti və Türkmənistan Hökuməti arasında hərbi sahədə əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı . . . 58

"Azərbaycan Respublikası Müdafiə Nazirliyi və Çexiya Respublikası Müdafiə Nazirliyi arasında müdafiə sahəsində əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı . . . 58

"Azərbaycan Respublikası Nazirlər Kabineti və Amerika Birləşmiş Ştatları Müdafiə Departamenti arasında bioloji silahların inkişaf etdirilməsində istifadə edilə bilən texnologiya, patogenlər və təcrübənin yayılmasının qarşısının alınması sahəsində əməkdaşlıq haqqında Sazişə 5 saylı Düzəliş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı . . . 59

"Azərbaycan Respublikasının Nazirlər Kabineti və Amerika Birləşmiş Ştatlarının Müdafiə Nazirliyi arasında kütləvi qırğın silahlarının yayılmasının qarşısının alınmasında əməkdaşlığa dair Sazişə 6 saylı Düzəliş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı . . . 59

"Ölkədən getmək, ölkəyə gəlmək və pasportlar haqqında" Azərbaycan Respublikası Qanununun təbiqi haqqında Əsasnamə"də, "Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxslərin və Azərbaycan Respublikasında 30 gündən artıq yaşamaq istəyən əcnəbilərin xüsusi sənədləri haqqında Əsasnamə"də və "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" Azərbaycan Respublikası Qanununun təbiqi haqqında Əsasnamə"də dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası Qanunu . . . 60

Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 13 fevral tarixli 156 nömrəli Sərəncamı ilə təsdiq edilmiş sənədlərin müddəalarından irəli gələn məsələlərin aidiyyəti üzrə həyata keçirilməsini təmin edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Sərəncamı . . . 61

"Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi və Kuba Respublikasının Turizm Nazirliyi arasında turizm sahəsində əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı . . . 62

Birləşmiş Millətlər Təşkilatının Qadınlara münasibətdə ayrı-seçkiliyin bütün formalarının ləğv olunması üzrə Komitəsinin 44-cü sessiyasında Azərbaycan Respublikasını təmsil edəcək nümayəndə heyətinin tərkibi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı . . . 62

"Azərbaycan Respublikası Hökuməti ilə Qazaxıstan Respublikası Hökuməti arasında 1992-1993-cü illər ərzində (müxbir hesablar üzrə hesablaşmalara keçidə kimi və ondan sonra) ticarət-iqtisadi münasibətlər nəticəsində yaranmış borcun ödənilməsi haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 63

E.H. İsgəndərova Azərbaycan Respublikasının Fövqəladə və Səlahiyyətli Səfiri diplomatik rütbəsi verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 63

Azərbaycan Respublikası və Polşa Respublikası arasında iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın Azərbaycan Respublikası tərəfindən yeni tərkibinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 64

Azərbaycan Respublikası Milli Məclisinin parlamentlərarası əlaqələr üzrə yeni işçi qrupunun yaradılması, mövcud işçi qrupunun tərkibində dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikası Milli Məclisinin Qərarı 64

Azərbaycan Respublikası Hökuməti və İran İslam Respublikası Hökuməti arasında iqtisadiyyat və ticarət üzrə əhatəli əməkdaşlığa dair Protokol"u Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 65

"Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi və İran İslam Respublikasının Statistika Mərkəzi arasında statistika sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumu"nu imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 66

"24 mart 1997-ci il tarixdə Kiyev şəhərində imzalanmış Azərbaycan Respublikası Hökuməti ilə Ukrayna Hökuməti arasında hərbi-texniki əməkdaşlıq haqqında Sazişə dəyişikliklərin edilməsi barədə Azərbaycan Respublikası Hökuməti ilə Ukrayna Nazirlər Kabineti arasında Protokol"u Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 66

"Azərbaycan Respublikası Hökuməti ilə Amerika Birləşmiş Ştatlarının Hökuməti arasında Azərbaycan Respublikasında seçilmiş Amerika Hökuməti yardım proqramlarının birgə maliyyələşdirilməsi üzrə Anlaşma Memorandumu"nu imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 67

Azərbaycan Respublikası və Yunanıstan Respublikası arasında 2009-cu il fevralın 16-da Afina şəhərində imzalanmış sənədlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 67

Azərbaycan Respublikası Hökuməti və Yunanıstan Respublikası Hökuməti arasında informasiya və kommunikasiya texnologiyaları sahəsində əməkdaşlıq haqqında Saziş 68

Azərbaycan Respublikası Sənaye və Energetika Nazirliyi və Yunanıstan Respublikası İnkişaf Nazirliyi arasında bərpaolunan enerji mənbələri və enerji səmərəliliyi sahəsində Anlaşma Memorandumu 70

Ukrayna Xalq Respublikasının Azərbaycan Xalq Cümhuriyyətindəki Xüsusi diplomatik missiyasının yerləşdiyi binaya xatirə lövhəsinin vurulması haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı 74

Azərbaycan Respublikası və Yunanıstan Respublikası arasında 2009-cu il fevralın 16-da Afina şəhərində imzalanmış sənədlər haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin Sərəncamı 74

"Azərbaycan Respublikasının Milli Bankı və Amerika Birləşmiş Ştatlarının Beynəlxalq İnkişaf Agentliyi arasında Anlaşma Memorandumu"nun təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu 75

Azərbaycan Respublikasının Milli Bankı və Amerika Birləşmiş Ştatlarının Beynəlxalq İnkişaf Agentliyi arasında Anlaşma Memorandumu 75

"Azərbaycan Respublikası Hökuməti və Yunanıstan Respublikası Hökuməti arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında" Konvensiyanın təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 81

Azərbaycan Respublikası Hökuməti və Yunanıstan Respublikası Hökuməti arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında Konvensiya 81

PROTOKOL 101

"Azərbaycan Respublikası Hökuməti və Yunanıstan Respublikası Hökuməti arasında hava əlaqəsi haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 101

Azərbaycan Respublikası Hökuməti və Yunanıstan Respublikası Hökuməti arasında hava əlaqəsi haqqında Saziş 102

Azərbaycan Respublikası Prezidentinin bəzi sərəncamlarında dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 115

"Azərbaycan Respublikası Müdafiə Nazirliyi və ABŞ-ın Avropadakı Quru Qoşunları və Yeddinci Ordusu arasında Azərbaycan Respublikası ərazisində keçiriləcək "Regional Cavab-2009" hərbi təlimi ilə bağlı təlimə dəstək Sazişi"ni imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 116

"Azərbaycan Respublikasında Neftçala, Xıllı, Durovdağ-Babazanan neft yataqlarının və Muğan monoklinalın Cənub-Qərb qanadının daxil olduğu blokun birpası, işlənməsi və hasilatın pay bölgüsü haqqında" Sazişə Azərbaycan Respublikası Hökumətinin təminatı və öhdəlikləri haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı 116

"Azərbaycan Respublikasında Kürovdağ yatağının daxil olduğu blokun birpası, işlənməsi və hasilatın pay bölgüsü haqqında" Sazişə Azərbaycan Respublikası Hökumətinin təminatı və öhdəlikləri haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı 117

"Xəzər dənizinin Azərbaycan sektorunda Abşeron Dəniz Blokunun kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında" Sazişə Azərbaycan Respublikası Hökumətinin təminatı və öhdəlikləri haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı 117

Birləşmiş Millətlər Təşkilatının Bütün əməkçi miqrantların və onların ailə üzvlərinin hüquqlarının qorunması üzrə Komitəsinin 10-cu sessiyasında "Bütün əməkçi miqrantların və onların ailə üzvlərinin hüquqlarının qorunması haqqında Beynəlxalq Konvensiya" üzrə Azərbaycan Respublikasının ilkin məruzəsinə baxılması ilə əlaqədar Azərbaycan Respublikasını təmsil edəcək nümayəndə heyətinin tərkibi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 118

"Yaponiya Beynəlxalq Əməkdaşlıq Agentliyi və Azərbaycan Respublikası Hökuməti arasında "Kiçik Şəhərlərdə Su Təchizatı və Kanalizasiya Layihəsi"nə dair Kredit Sazişi"ni Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikası Baş nazirinin müavini Abid Qoca oğlu Şərifova verilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Sərəncamı 118

"Azərbaycan Respublikası ilə Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı arasında Kredit Sazişini Azərbaycan Respublikası adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri Şahin Abdulla oğlu Mustafayevə verilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Sərəncamı 119

"Azərbaycan Respublikası ilə Beynəlxalq İnkişaf Assosiasiyası arasında Maliyyələşdirmə Sazişini Azərbaycan Respublikası adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının kənd təsərrüfatı naziri İsmət Dursun oğlu Abasova verilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Sərəncamı 119

"Azərbaycan Respublikası ilə Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı arasında Kredit Sazişini Azərbaycan Respublikası adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının maliyyə naziri Samir Rauf oğlu Şərifova verilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Sərəncamı 120

"Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı ilə Azərbaycan Dövlət Dəmir Yolu arasında Layihə Sazişini imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının nəqliyyat naziri Ziya Ərzuman oğlu Məmmədova verilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Sərəncamı 120

Xüsusi Razılaşmanı və Hövalə Müqaviləsini Azərbaycan Respublikası adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri Şahin Abdulla oğlu Mustafayevə verilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Sərəncamı 121

"Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi və Ukraynanın Xarici Kəşfiyyat Xidməti arasında əməkdaşlığa dair Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 121

"Azərbaycan Respublikası Hökuməti və Ukrayna Hökuməti arasında hərbi-texniki əməkdaşlığa dair Sazişə dəyişikliklərin edilməsi haqqında" Azərbaycan Respublikası Hökuməti və Ukrayna Nazirlər Kabineti arasında Protokol"u imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 122

"Azərbaycan Respublikasının Gəncə Şəhər İcra Hakimiyyəti və Ukraynanın Volınə vilayətinin Dövlət Administrasiyası arasında ticari-iqtisadi, elmi-texniki və mədəniyyət sahələrində əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 122

Azərbaycan Respublikası Hökuməti ilə İsveçrə Federal Şurası arasında ticarət və iqtisadi əməkdaşlıq üzrə Birgə Komissiyanın Azərbaycan Respublikası tərəfindən yeni tərkibinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 123

Azərbaycan Respublikasının Meksika Birləşmiş Ştatlarında (Mexiko şəhərində) Səfirliyinin fəaliyyətinin təmin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 124

Azərbaycan Respublikasının Amerika Birləşmiş Ştatlarında fövqəladə və səlahiyyətli səfiri Y.T. Əliyevin iqamətgahı Vaşinqton şəhərində olmaqla, eyni zamanda Azərbaycan Respublikasının Meksika Birləşmiş Ştatlarında fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 124

İ.Y. Muxtarova Azərbaycan Respublikasının fövqəladə və səlahiyyətli səfiri diplomatik rütbəsi verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 124

İ.Y. Muxtarovun Azərbaycan Respublikasının Meksika Birləşmiş Ştatlarında fövqəladə və səlahiyyətli səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 125

Azərbaycan Respublikası və Küveyt Dövləti arasında 2009-cu il fevralın 10-da Əl-Küveyt şəhərində imzalanmış sənədlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 125

Azərbaycan Respublikası Hökuməti və Küveyt Dövləti Hökuməti arasında əməkdaşlıq üçün Birgə Komissiyanın yaradılması haqqında Saziş 126

Azərbaycan Respublikası Hökuməti ilə Küveyt Dövləti Hökuməti arasında turizm sahəsində əməkdaşlıq haqqında Saziş 127

2009-cu il fevralın 19-da Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası və İran İslam Respublikası arasında iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə Dövlətlərarası Müştərək Komissiyanın 7-ci iclasının nəticələri barədə Memorandum"un təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 129

Azərbaycan Respublikası və İran İslam Respublikası arasında iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə Dövlətlərarası Müştərək Komissiyanın 7-ci iclasının nəticələri barədə Memorandum 130

Azərbaycan Respublikası və İran İslam Respublikası arasında 2009-cu il martın 10-da Tehran şəhərində imzalanmış sənədlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 138

Azərbaycan Respublikası Hökuməti və İran İslam Respublikası Hökuməti arasında turizm sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumu 139

Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi ilə İran İslam Respublikasının İnformasiya və Rabitə Texnologiyaları Nazirliyi arasında poçt sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumu 141

Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi və İran İslam Respublikasının İran Mədəni İrsi, Xalq Təbiqi Sənəti və Turizm Təşkilatı arasında mədəni irs sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu 142

Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi və İran İslam Respublikasının Statistika Mərkəzi arasında statistika sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumu 144

M. F. Axundov adına Azərbaycan Milli Kitabxanası və İran İslam Respublikasının Milli Kitabxanası və Arxivi arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu 145

"Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin Gömrük Xidməti Rəhbərləri Şurası haqqında" Əsasnamənin yeni redaksiyası barədə" qərarın təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu 146

Müstəqil Dövlətlər Birliyi iştirakçı dövlətlərin Gömrük Xidməti Rəhbərləri Şurası haqqında Əsasnamənin yeni redaksiyası barədə Qərar 147

Müstəqil Dövlətlər Birliyi iştirakçı dövlətlərin Gömrük Xidməti Rəhbərləri Şurası haqqında Əsasnamə 148

2002-ci il mayın 30-da Moskva şəhərində imzalanmış "Müstəqil Dövlətlər Birliyi iştirakçı dövlətlərin Gömrük Xidməti Rəhbərləri Şurası haqqında Əsasnamənin yeni redaksiyası barədə Qərar"a dair Azərbaycan Respublikasının xüsusi rəyi 152

"Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin Gömrük Xidməti Rəhbərləri Şurası haqqında" Əsasnamədə dəyişiklik edilməsi barədə" qərarın təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu 152

Müstəqil Dövlətlər Birliyi iştirakçı dövlətlərin Gömrük Xidməti Rəhbərləri Şurası haqqında Əsasnaməyə dəyişikliklər edilməsi barədə Qərar 153

Qeyri-leqal miqrasiyaya qarşı mübarizə üzrə Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti və Niderland Krallığının Repatriasiya və Geri Qaytarma Xidməti arasında Anlaşma Memorandumu"nu imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 154

2009-cu il martın 26-da Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti və Özbəkistan Respublikası Hökuməti arasında hərbi-texniki əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 155

"Azərbaycan Respublikası Vergilər Nazirliyi və Estoniya Vergi və Gömrük Şurası arasında vergi orqanlarının fəaliyyəti sahəsində əməkdaşlığa dair Memorandum"u imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 155

"Malın müəyyən ölkə mənşəli hesab olunması üçün həmin ölkədə həyata keçirilmiş istehsal və texnoloji əməliyyatların, şərtlərin siyahısına dəyişiklik edilməsi haqqında" Müstəqil Dövlətlər Birliyi İqtisadi Şurasının Qərarının təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 155

Müstəqil Dövlətlər Birliyi İqtisadi Şurası Malın müəyyən ölkə mənşəli hesab olunması üçün həmin ölkədə həyata keçirilmiş istehsal və texnoloji əməliyyatların, şərtlərin siyahısına dəyişiklik edilməsi haqqında Qərar 156

KfW, Frankfurt am Main ("KfW") və Azərbaycan Respublikasını təmsil edən Maliyyə Nazirliyi ("Borcalan") və Azərbaycan Əmanətlərin Sığortalanması Fondu ("Layihəni icra edən agentlik") arasında "Kredit və Layihə haqqında Müqavilə"ni imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Sərəncamı 157

2009-cu il martın 29-da Doha şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti və Qətər Dövləti Hökuməti arasında hərbi sahədə əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 158

Azərbaycan Respublikası Hökuməti və Qətər Dövləti Hökuməti arasında hərbi sahədə əməkdaşlıq haqqında Saziş 158

2009-cu il aprelin 6-da imzalanmış "Azərbaycan Respublikası Müdafiə Nazirliyi və ABŞ-ın Avropadakı Quru Qoşunları və Yeddinci Ordusu arasında Azərbaycan Respublikası ərazisində keçiriləcək "Regional Cavab-2009" hərbi təlimi ilə bağlı təlimə dəstək Sazişi"nin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 160

"Azərsu" Açıq Səhmdar Cəmiyyəti ("Benefisiar") və KfW, Frankfurt am Main ("KfW") arasında Maliyyələşdirmə Müqaviləsi"ni imzalamaq səlahiyyəti verilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Sərəncamı 161

M. Kostanın İtaliya Respublikasının Genuya şəhərində və Liquriya, Pyemont, Valle d'Aosta, Lombardiya regionlarında Azərbaycan Respublikasının fəxri konsulu təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 161

C.C. Qasımovun Azərbaycan Respublikasının Slovakiya Respublikasında fəxri konsulu təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 161

Azərbaycan Respublikası hökuməti və Küveyt dövləti hökuməti arasında əməkdaşlıq üçün birgə komissiyanın yaradılması haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin Sərəncamı 162

Azərbaycan Respublikası və İran İslam Respublikası arasında iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə Dövlətlərarası Müştərək Komissiyanın 7-ci iclasının nəticələri barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Sərəncamı 162

"Azərbaycan Respublikası Hökuməti və Küveyt Dövləti Hökuməti arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında" Sazişin və onun Protokolunun təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 163

Azərbaycan Respublikası Hökuməti və Küveyt Dövləti Hökuməti arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında Saziş 164

Azərbaycan Respublikası Hökuməti və Küveyt Dövləti Hökuməti arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında Sazişin Protokolu 184

"Azərbaycan Respublikası Hökuməti və Küveyt Dövləti Hökuməti arasında sərmayələrin təşviqi və qarşılıqlı qorunması haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 184

Azərbaycan Respublikası Hökuməti və Küveyt Dövləti Hökuməti arasında sərmayələrin təşviqi və qarşılıqlı qorunması haqqında Saziş 185

Azərbaycan Respublikası Hökuməti və Küveyt Dövləti Hökuməti arasında ticarət Sazişinin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 194

Azərbaycan Respublikası Hökuməti və Küveyt Dövləti Hökuməti arasında ticarət Sazişi 195

"Azərbaycan Respublikası Hökuməti və İran İslam Respublikası Hökuməti arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında" Sazişin və onun Protokolunun təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 197

Azərbaycan Respublikası Hökuməti və İran İslam Respublikası Hökuməti arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında Saziş 197

Azərbaycan Respublikası Hökuməti və İran İslam Respublikası Hökuməti arasında iqtisadiyyat və ticarət üzrə əhatəli əməkdaşlığa dair" Protokolun təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 213

Azərbaycan Respublikası Hökuməti və İran İslam Respublikası Hökuməti arasında iqtisadiyyat və ticarət üzrə əhatəli əməkdaşlığa dair Protokol 214

"Azərbaycan Respublikası Hökuməti və Avropa Birlikləri Komissiyası arasında Çərçivə Sazişinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu 216

Azərbaycan Respublikası Hökuməti və Avropa Birlikləri Komissiyası arasında Çərçivə Sazişi 216

"Rumıniya və Bolqarıstan Respublikasının Avropa İttifaqına qəbul olunması ilə əlaqədar, bir tərəfdən Azərbaycan Respublikası, digər tərəfdən Avropa Birlikləri və onların üzvü olan dövlətlər arasında bağlanmış Tərəfdaşlıq və Əməkdaşlıq haqqında" Sazişə Protokolun təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 219

Rumıniya və Bolqarıstan Respublikasının Avropa İttifaqına qəbul olunması ilə əlaqədar, bir tərəfdən Azərbaycan Respublikası, digər tərəfdən Avropa Birlikləri və onların üzvü olan dövlətlər arasında bağlanmış Tərəfdaşlıq və Əməkdaşlıq haqqında Sazişə Protokol 220

L.E. Slutskinin "Dostluq" ordeni ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 222

S.Y. Orlovanın "Dostluq" ordeni ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 222

V.İ. Yakuninin "Dostluq" ordeni ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 223

"Beynəlxalq maliyyə-kredit təşkilatlarında Azərbaycan Respublikasının nümayəndələrinin təyin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 20 fevral tarixli, 856 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı 223

"Azərbaycan Respublikası Ədliyyə Nazirliyi və Slovakiya Respublikası Ədliyyə Nazirliyi arasında əməkdaşlıq haqqında" Memorandumu imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 224

Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsi haqqında Əsasnamənin və komitənin strukturunun təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı 224

"Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi və Kuba Respublikasının Mədəniyyət Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 225

"Azərbaycan Respublikası Hökuməti və Gürcüstan Hökuməti arasında azad ticarət haqqında 1996-cı il tarixli Sazişə dəyişiklik edilməsi haqqında Protokol"u Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 225

"Azərbaycan Respublikası Hökuməti ilə Gürcüstan Hökuməti arasında əqli mülkiyyətin qorunması sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı . . . 226

"Azərbaycan Respublikası Hökuməti və Gürcüstan Respublikası Hökuməti arasında hava əlaqəsi haqqında Sazişə dəyişikliklər edilməsi haqqında Protokol"u Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı . . . 226

F.R. Şəfiyevə Azərbaycan Respublikasının fövqəladə və səlahiyyətli səfiri diplomatik rütbəsi verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı . . . 227

F.R. Şəfiyevin Azərbaycan Respublikasının Kanadada fövqəladə və səlahiyyətli səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı . . . 227

"Azərbaycan Respublikası Müdafiə Nazirliyi və Qazaxıstan Respublikası Müdafiə Nazirliyi arasında Qazaxıstan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularının Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi təhsil müəssisələrində təhsil alması haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı . . . 227

Xəzər dənizinin Azərbaycan Sektorunda Abşeron Dəniz Blokunun kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında Azərbaycan Respublikası Dövlət Neft Şirkəti, Total E&P Abşeron B.V. və ARDNŞ-in Ortaq Neft Şirkəti arasında Sazişin qəbul və təsdiq edilməsi, həyata keçirilməsinə icazə verilməsi barədə Azərbaycan Respublikasının Qanunu . . . 228

Azərbaycan Respublikasında Kürəvdağ yatağının daxil olduğu blokun bərpası, işlənməsi və hasilatın pay bölgüsü haqqında Azərbaycan Respublikası Dövlət Neft Şirkəti, Qlobal Enerci Azərbaycan Limited və ARDNŞ-in Ortaq Neft Şirkəti arasında Sazişin qəbul və təsdiq edilməsi, həyata keçirilməsinə icazə verilməsi barədə Azərbaycan Respublikasının Qanunu . . . 229

Azərbaycan Respublikasında Neftçala, Xıllı, Durəvdağ-Babazanan neft yataqlarının və Muğan monoklinalın Cənub-Qərb qanadının daxili olduğu blokun bərpası, işlənməsi və hasilatın pay bölgüsü haqqında Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə Neftçala İnvestments Limited və ARDNŞ-in Ortaq Neft Şirkəti arasında Sazişin qəbul və təsdiq edilməsi, həyata keçirilməsinə icazə verilməsi barədə Azərbaycan Respublikasının Qanunu . . . 231

"Azərbaycan Respublikası ilə Beynəlxalq İnkişaf Assosiasiyası arasında Maliyyələşdirmə Sazişi təsdiq edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Sərəncamı . . . 232

AZƏRBAYCAN RESPUBLİKASI İLƏ BEYNƏLXALQ İNKİŞAF ASSOSİASİYASI ARASINDA MALİYYƏLƏŞDİRMƏ SAZİŞİ . . . 233

"Almaniya Federativ Respublikasının Federal Ədliyyə Nazirliyi ilə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi arasında hüquqi əməkdaşlığa dair Birgə Bəyanatı" imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı . . . 243

Birləşmiş Millətlər Təşkilatının İnsan Hüquqları Komitəsinin 96-cı sessiyasında "Mülki və siyasi hüquqlar haqqında" Beynəlxalq Pakt üzrə Azərbaycan Respublikasının üçüncü dövri hesabatına baxılması ilə əlaqədar Azərbaycan Respublikasını təmsil edəcək nümayəndə heyətinin tərkibi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı . . . 243

"Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti arasında gömrük işi sahəsində əməkdaşlıq və qarşılıqlı yardım haqqında 5 noyabr 2004-cü il tarixli Sazişin həyata keçirilməsi barədə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi və Belarus Respublikası Dövlət Gömrük Komitəsi arasında protokol"u imzalamaq səlahiyyətinin verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı . . . 244

2009-cu il yanvarın 26-da Bonn şəhərində təsis edilmiş Beynəlxalq Bərpa Olunan Enerji Agentliyinin Nizamnaməsini Azərbaycan Respublikası adından imzalamaq səlahiyyətinin verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı . . . 244

"Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi və Almaniya Federativ Respublikasının Federal Daxili İşlər Nazirliyi arasında ikitərəfli əməkdaşlığa və qarşılıqlı yardıma dair Birgə Niyyət Bəyannaməsi"ni imzalamaq səlahiyyətinin verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı . . . 245

"Koreya Respublikasının Xarici İşlər və Ticarət Nazirliyi ilə Azərbaycan Respublikasının Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi arasında Azərbaycanda Torpaq Kadastr Sisteminin təkmilləşdirilməsi layihəsinin həyata keçirilməsinə dair Qrant Razılaşması"nı Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti verilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Sərəncamı . . . 245

Azərbaycan Respublikasının Malayziyada fövqəladə və səlahiyyətli səfiri T.P. Kərimovun iqamətgahı Kuala Lumpur şəhərində olmaqla, eyni zamanda Azərbaycan Respublikasının Bruney Darüssalamda fövqəladə və səlahiyyətli səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı . . . 246

"Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Almaniya Federativ Respublikasının Texniki Əməkdaşlıq Təşkilatı (GTZ) arasında "Təbii sərvətlərin davamlı idarə olunması sahəsində əməkdaşlıq" haqqında Anlaşma Memorandumu"nu imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı . . . 246

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 23 aprel tarixli 82s nömrəli sərəncamı ilə verilmiş səlahiyyətə əsasən 2009-cu il aprelin 27-də imzalanmış "Azərsu" Açıq Səhmdar Cəmiyyəti ("Benefisiar") və KfW, Frankfurt am Main ("KfW") arasında Maliyyələşdirmə Müqaviləsi" təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Nazirlər Kabinetinin Sərəncamı . . . 247

"Azərsu" Açıq Səhmdar Cəmiyyəti ("Benefisiar") və KfW, Frankfurt am Main ("KfW") arasında 27 aprel 2009-cu il tarixli 700.000,00 Avro həcmində məbləğ haqqında Maliyyələşdirmə Müqaviləsi . . . 247

"Azərbaycanda Abşeron magistral Kanalının suvarma məqsədi ilə təkmilləşdirilməsi və şimal çaylarında suqəbuledici qurğuların müasirləşdirilməsi üçün texniki-iqtisadi əsaslandırma və təfsilatlı layihələndirmə üzrə Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti və Koreya Respublikasının Xarici İşlər və Ticarət Nazirliyi arasında Qrant Razılaşması"nı imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Sərəncamı . . . 253

2008-ci il noyabrın 14-də Kişinyov şəhərində Müstəqil Dövlətlər Birliyi Hökumət Başçıları Şurasının iclasında Azərbaycan Respublikası tərəfindən qeyd-şərt ilə imzalanmış "Saxta dərman vasitələrinin dövriyyəsinə qarşı mübarizədə əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı . . . 253

Saxta dərman vasitələrinin dövriyyəsinə qarşı mübarizədə əməkdaşlıq haqqında Saziş . . . 254

14 noyabr 2008-ci il tarixli "Saxta dərman vasitələrinin dövriyyəsinə qarşı mübarizədə əməkdaşlıq haqqında Saziş"ə dair Azərbaycan Respublikasının Qeyd-şərti . . . 257

2009-cu il fevralın 26-da Havana şəhərində imzalanmış "Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi və Kuba Respublikasının Turizm Nazirliyi arasında turizm sahəsində əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı . . . 257

Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi və Kuba Respublikasının Turizm Nazirliyi arasında turizm sahəsində əməkdaşlıq haqqında Saziş . . . 257

Azərbaycan Respublikası və Ukrayna arasında 2009-cu il aprelin 9-da Bakı şəhərində imzalanmış sənədlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı . . . 260

24 mart 1997-ci il tarixdə Kiyev şəhərində imzalanmış Azərbaycan Respublikası Hökuməti ilə Ukrayna Hökuməti arasında hərbi-texniki əməkdaşlıq haqqında Saziş də dəyişikliklərin edilməsi barədə Azərbaycan Respublikası Hökuməti ilə Ukrayna Nazirlər Kabineti arasında Protokol . . . 260

Azərbaycan Respublikası Hökuməti və Ukrayna Nazirlər Kabineti arasında kosmik məkanın sülh məqsədləri üçün tədqiqi və istifadəsi sahəsində əməkdaşlıq haqqında Çərçivə Sazişi 261

Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi və Ukraynanın Xarici Kəşfiyyat Xidməti arasında əməkdaşlığa dair Saziş 265

Azərbaycan Respublikasının Gəncə Şəhər İcra Hakimiyyəti və Ukraynanın Volın vilayətinin Dövlət Administrasiyası arasında ticarət-iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq haqqında Saziş 267

Azərbaycan Respublikası və Ukrayna xarici işlər nazirlikləri arasında ikitərəfli və çoxtərəfli əməkdaşlığın aktual məsələləri üzrə 2009-2010-cu illər üçün məsləhətləşmələr Planı 270

2009-cu il aprelin 22-də Tehran şəhərində imzalanmış "Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi və İran İslam Respublikası Milli Gənclər Təşkilatı arasında əməkdaşlığa dair Anlaşma Memorandumu"nun təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 272

Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi və İran İslam Respublikası Milli Gənclər Təşkilatı arasında əməkdaşlığa dair Anlaşma Memorandumu 272

2009-cu il aprelin 27-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Vergilər Nazirliyi və Estoniya Vergi və Gömrük Şurası arasında vergi orqanlarının fəaliyyəti sahəsində əməkdaşlığa dair Memorandum"un təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 274

Azərbaycan Respublikası Vergilər Nazirliyi və Estoniya Vergi və Gömrük Şurası arasında vergi orqanlarının fəaliyyəti sahəsində əməkdaşlığa dair Memorandum 275

2009-cu il mayın 5-də Minsk şəhərində imzalanmış "Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi və Belarus Respublikasının İnformasiya Nazirliyi arasında nəşriyyat və informasiya sahəsində əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 276

Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi və Belarus Respublikasının İnformasiya Nazirliyi arasında nəşriyyat və informasiya sahəsində əməkdaşlıq haqqında Saziş 276

2009-cu il mayın 12-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Ədliyyə Nazirliyi və Slovakiya Respublikası Ədliyyə Nazirliyi arasında əməkdaşlıq haqqında Memorandum"un təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 278

Azərbaycan Respublikası Ədliyyə Nazirliyi və Slovakiya Respublikası Ədliyyə Nazirliyi arasında əməkdaşlıq haqqında Memorandum 279

2009-cu il mayın 18-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi və Kuba Respublikasının Mədəniyyət Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 280

Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi və Kuba Respublikasının Mədəniyyət Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş 280

"Azərbaycan Respublikası Hökuməti və Latviya Respublikası Hökuməti arasında Ətraf Mühitin Mühafizəsi sahəsində əməkdaşlığa dair Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 282

S.M. Qasımova Azərbaycan Respublikasının birinci dərəcəli fövqəladə və səlahiyyətli elçisi diplomatik rütbəsi verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 282

S.M. Qasımovun Rusiya Federasiyasının Yekaterinburq şəhərində Azərbaycan Respublikasının baş konsulu təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 283

"Azərbaycan Respublikası Hökuməti və İsrail Dövləti Hökuməti arasında mədəniyyət, təhsil və elm sahəsində əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 283

"Azərbaycan Respublikası Hökuməti və İsrail Dövləti Hökuməti arasında informasiya və kommunikasiya texnologiyaları sahəsində əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 283

Yaponiya Beynəlxalq Əməkdaşlıq Agentliyi və Azərbaycan Respublikası Hökuməti arasında "Kiçik şəhərlərdə su təchizatı və kanalizasiya layihəsi"nə dair Kredit Sazişinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu 284

Müzakirələrin Protokolu 284

Azərbaycan Respublikası Hökuməti və Yaponiya Beynəlxalq Əməkdaşlıq Agentliyi arasında "Kiçik şəhərlərdə Su Təchizatı və Kanalizasiya Layihəsi"nə dair Kredit Sazişi 285

Azərbaycan Respublikası Hökuməti və Yaponiya Beynəlxalq Əməkdaşlıq Agentliyi arasında 29 may 2009-cu il tarixli AZB-P4 nömrəli Kredit Sazişi 286

Layihənin Təsviri 295

Layihə barədə ümumi məlumat 295

Kredit vəsaitlərinin bölüşdürülməsi 295

Smeta xərclərində dəyişiklik olduğu zaman vəsaitlərin yenidən bölüşdürülməsi 296

Amortizasiya Qrafiki 297

Satınalma Proseduru 298

Öhdəlik Proseduru 305

Vəsaitlərin Əvəzinin Ödənilməsi Proseduru 306

Köçürmə Proseduru 307

Variant B: Təchizatçıya edilən faktiki ödəniş üçün istifadə edilən valyuta Azərbaycan manatı olduğu halda 309

"Diplomatik xidmətdə fərqlənməyə görə" medalının təsis edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu 315

"Diplomatik xidmətdə fərqlənməyə görə" Azərbaycan Respublikasının medalı haqqında Əsasnamə 316

"Diplomatik xidmətdə fərqlənməyə görə" Azərbaycan Respublikasının medalının təsviri 316

"Azərbaycan Respublikası diplomatik xidmət orqanlarının 90 illiyi (1919-2009)" Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu 317

"Azərbaycan Respublikası diplomatik xidmət orqanlarının 90 illiyi (1919-2009)" Azərbaycan Respublikasının yubiley medalı haqqında Əsasnamə 317

"Azərbaycan Respublikası diplomatik xidmət orqanlarının 90 illiyi (1919-2009)" Azərbaycan Respublikasının yubiley medalının təsviri 318

Miqrasiya proseslərinin idarə olunmasında "bir pəncərə" prinsipinin tətbiqi ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına əlavələr və dəyişikliklər edilməsi və "Azərbaycan Respublikasında daimi yaşayan əcnəbinin və ya vətəndaşlığı olmayan şəxsin qeydiyyat vəsiqəsinin formasının təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Qanunlarının qüvvədən düşmüş hesab edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu 318

L. Kaçinskinin "Heydər Əliyev" ordeni ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 326

R.N. İvanovun "Dostluq" ordeni ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 326

Azərbaycan Respublikası Milli Məclisinin parlamentlərarası əlaqələr üzrə işçi qruplarının tərkibində dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikası Milli Məclisinin Qərarı 326

"Əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikasında müvəqqəti yaşamaq üçün icazənin verilməsi Qaydaları"nın təsdiq edilməsi, əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikasında müvəqqəti yaşamağa icazə verilməsi üçün əsas verən ölkə iqtisadiyyatına qoyulan investisiyanın məbləğinin və Azərbaycan Respublikasının banklarına qoyulan pul vəsaitinin məbləğinin müəyyən edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı 327

Əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikasında müvəqqəti yaşamaq üçün icazənin verilməsi Qaydaları 328

"Azərbaycan Respublikası diplomatik xidmət orqanlarının 90 illiyi (1919-2009)" Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı 334

"Diplomatik xidmətdə fərqlənməyə görə" medalının təsis edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 335

"Azərbaycan Respublikası Hökuməti ilə Avropa Birliyi arasında hava xidmətlərinin müəyyən aspektlərinə dair Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 336

"Zaqatala" hava limanına beynəlxalq status verilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Sərəncamı 336

"Lənkəran" hava limanına beynəlxalq status verilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Sərəncamı 336

"Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi və Kuba Respublikasının İdman, Fiziki Tərbiyə və İstirahət Milli İnstitutu (Təşkilatı) arasında bədən tərbiyəsi və idman sahəsində əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 337

"Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında "Qəbələ radiolokasiya stansiyasının (RLS "Daryal") statusu, istifadəsinin prinsipləri və şərtləri haqqında" Sazişin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Qanununun icrasını təmin etmək haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 11 sentyabr tarixli, 1039 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 337

Birləşmiş Millətlər Təşkilatının İraq ayrı-seçkiliyin ləğv edilməsi üzrə Komitəsinin 75-ci sessiyasında "İraq ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Beynəlxalq Konvensiya" üzrə Azərbaycan Respublikasının beşinci və altıncı dövri məruzələrinə baxılması ilə əlaqədar Azərbaycan Respublikasını təmsil edəcək nümayəndə heyətinin tərkibi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 338

2007-ci il mayın 25-də Yalta şəhərində imzalanmış "Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin bədən tərbiyəsi və idman sahəsində əməkdaşlığı haqqında Saziş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 339

Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin bədən tərbiyəsi və idman sahəsində əməkdaşlığı haqqında Saziş 339

2008-ci il noyabrın 28-də Aşqabad şəhərində imzalanmış "Bakı (Azərbaycan Respublikası) və Türkmənbaşı (Türkmənistan) limanları vasitəsilə beynəlxalq birbaşa dəmir yolu - bərə əlaqələrində yüklərin daşınmasının təşkili, yük vaqonlarının və konteynerlərin istismarı, nömrələr üzrə uçotu və onlardan istifadəyə görə hesablaşmalar haqqında Saziş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 343

Bakı (Azərbaycan Respublikası) və Türkmənbaşı (Türkmənistan) limanları vasitəsi ilə beynəlxalq birbaşa dəmir yolu-bərə əlaqələrində yüklərin daşınmasının təşkili, yük vaqonlarının və konteynerlərin istismarı, nömrələr üzrə uçotu və onlardan istifadəyə görə hesablaşmalar haqqında Saziş 343

2009-cu il mayın 8-də Vaşinqton şəhərində imzalanmış "Azərbaycan Respublikası Nazirlər Kabineti və Amerika Birləşmiş Ştatları Müdafiə Departamenti arasında kütləvi qırğın silahlarının yayılmasının qarşısının alınmasında əməkdaşlığa dair Sazişə 6 saylı Düzəliş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 353

Azərbaycan Respublikası Nazirlər Kabineti və Amerika Birləşmiş Ştatları Müdafiə Departamenti arasında kütləvi qırğın silahlarının yayılmasının qarşısının alınmasında əməkdaşlığa dair Sazişə 6 saylı Düzəliş 354

Azərbaycan Respublikası və Gürcüstan arasında 2009-cu il mayın 20-də Bakı şəhərində imzalanmış sənədlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 354

Azərbaycan Respublikası Hökuməti ilə Gürcüstan Hökuməti arasında əqli mülkiyyətin qorunması sahəsində əməkdaşlıq haqqında Saziş 355

Azərbaycan Respublikası Hökuməti və Gürcüstan Hökuməti arasında azad ticarət haqqında 1996-cı il tarixli Sazişə dəyişiklik edilməsi haqqında Protokol 357

2009-cu il iyunun 3-də Moskva şəhərində imzalanmış "Azərbaycan Respublikası Müdafiə Nazirliyi və Qazaxıstan Respublikası Müdafiə Nazirliyi arasında Qazaxıstan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularının Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi təhsil müəssisələrində təhsil alması haqqında Saziş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 358

Azərbaycan Respublikası Müdafiə Nazirliyi və Qazaxıstan Respublikası Müdafiə Nazirliyi arasında Qazaxıstan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularının Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi təhsil müəssisələrində təhsil alması haqqında Saziş 358

Azərbaycan Respublikası və İsrail Dövləti arasında 2009-cu il iyunun 28-də Bakı şəhərində imzalanmış sənədlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 363

Azərbaycan Respublikası Hökuməti və İsrail Dövləti Hökuməti arasında mədəniyyət, təhsil və elm sahəsində əməkdaşlıq haqqında Saziş 363

Azərbaycan Respublikası Hökuməti və İsrail Dövləti Hökuməti arasında informasiya və kommunikasiya texnologiyaları sahəsində əməkdaşlıq haqqında Saziş 367

Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında 2009-cu il iyunun 29-da Bakı şəhərində imzalanmış sənədlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 370

Azərbaycan Respublikası Hökuməti və Kabardin-Balkar Respublikası Hökuməti (Rusiya Federasiyası) arasında ticarət-iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq haqqında Saziş 371

Azərbaycan Respublikasının Rusiya Federasiyasında və Rusiya Federasiyasının Azərbaycan Respublikasında diplomatik nümayəndəliklərinin yerləşdirilməsi və xidmət göstərilməsi şərtləri haqqında Azərbaycan Respublikası Hökuməti və Rusiya Federasiyası Hökuməti arasında Sazişin hazırlanması haqqında Azərbaycan Respublikasının xarici işlər naziri və Rusiya Federasiyasının xarici işlər nazirinin Birgə Bəyannaməsi 374

"Azərbaycan Respublikası Maliyyə Nazirliyi və Çexiya Respublikası Maliyyə Nazirliyi arasında əməkdaşlıq haqqında Memorandum"u imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 375

Azərbaycan Respublikası ilə Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı arasında Kredit Sazişini (Magistral Yol II Layihəsi üçün İkinci Əlavə Maliyyələşdirmə)" və "Azərbaycan Respublikası ilə Beynəlxalq İnkişaf Assosiasiyası arasında Maliyyələşdirmə Sazişini (Magistral Yol II Layihəsi üçün İkinci Əlavə Maliyyələşdirmə)" Azərbaycan Respublikası adından imzalamaq səlahiyyəti verilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Sərəncamı 375

"Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti və Fransa Respublikasının İmmiqrasiya, İnteqrasiya, Milli Kimlik və Həmrəy İnkişaf Nazirliyi arasında əməkdaşlıq üzrə Anlaşma Memorandumu"nu imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 375

Azərbaycan Respublikası və Latviya Respublikası arasında iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq üzrə hökumətlərarası komissiyanın Azərbaycan Respublikası tərəfindən yeni tərkibinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 376

"Azərbaycan Respublikası Hökuməti və Rusiya Federasiyası Hökuməti arasında ikitərəfli hərbi-texniki əməkdaşlığın gedişində istifadə edilən və əldə edilmiş əqli fəaliyyətin nəticələrinə hüquqların qarşılıqlı mühafizəsi haqqında Sazişin həyata keçirilməsi üzrə birgə *işçi qrupu haqqında Əsasnamə*"ni *Azərbaycan Respublikası Hökuməti adından imzalamaq* səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. 377

Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 22 iyul tarixli 410 nömrəli Sərəncamı ilə təsdiq edilmiş, Azərbaycan Respublikası və İsrail Dövləti arasında 2009-cu il iyunun 28-də Bakı şəhərində imzalanmış sənədlərin həyata keçirilməsi üçün zəruri tədbirlər barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Sərəncamı 378

"Koreya Respublikasının Xarici İşlər və Ticarət Nazirliyi ilə Azərbaycan Respublikasının Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi arasında Azərbaycanda Torpaq Kadastr Sisteminin təkmilləşdirilməsi layihəsinin həyata keçirilməsinə dair Qrant Razılaşması" təsdiq edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Sərəncamı 378

Azərbaycan Respublikasının Belarus Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri Ə.T. Nağıyevin eyni zamanda Azərbaycan Respublikasının Müstəqil Dövlətlər Birliyinin nizamnamə və digər orqanları yanında daimi səlahiyyətli nümayəndəsi təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 379

"Azərbaycanda Abşeron magistral kanalının suvarma məqsədi ilə təkmilləşdirilməsi və şimal çaylarında suqəbuledici qurğuların müasirləşdirilməsi üçün texniki-iqtisadi əsaslandırma və təfsilatlı layihələndirmə üzrə Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti və Koreya Respublikasının Xarici İşlər və Ticarət Nazirliyi arasında Qrant Razılaşması" barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Sərəncamı 379

V.Zatlerin "Heydər Əliyev" ordeni ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 380

"Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi və Latviya Respublikasının Patent İdarəsi arasında sənaye mülkiyyətinin hüquqi mühafizəsi sahəsində informasiyanın mübadiləsi haqqında Anlaşma Memorandumu"nu imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. 381

"Azərbaycan Respublikası Hökuməti və Latviya Respublikası Hökuməti arasında gənclər və idman sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı . . . 381

"Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Koreya Respublikasının Ətraf Mühit Sənayesi və Texnologiyalar İnstitutu arasında Azərbaycanda Ətraf Mühitin İdarə Edilməsi üzrə Baş Planın hazırlanmasına dair Anlaşma Memorandumu"nu imzalamaq səlahiyyətinin verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. 382

Azərbaycan Respublikası ilə Avstriya Respublikası arasında iqtisadiyyat, kənd təsərrüfatı, *sənaye, texnika və texnologiya sahələrində əməkdaşlıq üzrə Qarışıq Komissiyanın* Azərbaycan Respublikası tərəfindən yeni tərkibinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 382

Azərbaycan Respublikası və Misir Ərəb Respublikası arasında hökumətlərarası iqtisadi, texniki və elmi əməkdaşlıq üzrə Müştərək Komissiyanın Azərbaycan Respublikası tərəfindən yeni tərkibinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 383

Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 22 iyul tarixli 411 nömrəli Sərəncamı ilə təsdiq edilmiş, Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında 2009-cu il iyunun 29-da Bakı şəhərində imzalanmış sənədlərin həyata keçirilməsi üçün aidiyyəti üzrə zəruri tədbirlər barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Sərəncamı 384

"Əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikasında müvəqqəti yaşamaq üçün icazənin verilməsi Qaydaları"nın təsdiq edilməsi, əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikasında müvəqqəti yaşamağa icazə verilməsi üçün əsas verən ölkə iqtisadiyyatına qoyulan investisiyanın məbləğinin və Azərbaycan Respublikasının banklarına qoyulan pul vəsaitinin məbləğinin müəyyən edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 30 iyun tarixli, 102 nömrəli qərarında dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı 385

2005-ci il noyabrın 25-də Moskva şəhərində Müstəqil Dövlətlər Birliyi Hökumət Başçıları Şurasının iclasında Azərbaycan Respublikası tərəfindən imzalanmış "Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin gənclərlə iş sahəsində əməkdaşlığı haqqında Saziş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 386

Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin gənclərlə iş sahəsində əməkdaşlığı haqqında Saziş 386

2009-cu il iyunun 8-də Berlin şəhərində imzalanmış "Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi və Almaniya Federativ Respublikasının Federal Daxili İşlər Nazirliyi arasında ikitərəfli əməkdaşlığa və qarşılıqlı yardıma dair Birgə Niyyət Bəyannaməsi"nin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 389

Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi və Almaniya Federativ Respublikasının Federal Daxili İşlər Nazirliyi arasında ikitərəfli əməkdaşlığa və qarşılıqlı yardıma dair Birgə Niyyət Bəyannaməsi 389

2009-cu il iyunun 11-də Qəbələ şəhərində imzalanmış "Azərbaycan Respublikası hökuməti və Belarus Respublikası hökuməti arasında gömrük işi sahəsində əməkdaşlıq və qarşılıqlı yardım haqqında 5 noyabr 2004-cü il tarixli Sazişin həyata keçirilməsi barədə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi və Belarus Respublikası Dövlət Gömrük Komitəsi arasında Protokol"un təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. 391

Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti arasında gömrük işi sahəsində əməkdaşlıq və qarşılıqlı yardım haqqında 5 noyabr 2004-cü il tarixli Sazişin həyata keçirilməsi barədə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi və Belarus Respublikası Dövlət Gömrük Komitəsi arasında Protokol. 391

2009-cu il iyunun 25-də Brüssel şəhərində imzalanmış "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi və Türkiyə Respublikası Gömrük Müsteşarlığı arasında kadrların peşəkar hazırlığı sahəsində əməkdaşlıq haqqında Protokol"un təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 393

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi və Türkiyə Respublikası Gömrük Müsteşarlığı arasında kadrların peşəkar hazırlığı sahəsində əməkdaşlıq haqqında Protokol 394

2009-cu il iyunun 25-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Latviya Respublikası Hökuməti arasında ətraf mühitin mühafizəsi sahəsində əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 395

Azərbaycan Respublikası Hökuməti ilə Latviya Respublikası Hökuməti arasında ətraf mühitin mühafizəsi sahəsində əməkdaşlıq haqqında Saziş 396

Azərbaycan Respublikası və Suriya Ərəb Respublikası arasında 2009-cu il iyulun 8-də Bakı şəhərində imzalanmış sənədlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 399

Azərbaycan Respublikası Hökuməti və Suriya Ərəb Respublikası Hökuməti arasında iqtisadi, elmi, texniki və mədəni əməkdaşlıq üzrə Birgə Komissiyanın yaradılması haqqında Anlaşma Memorandumu 400

Azərbaycan Respublikası Hökuməti və Suriya Ərəb Respublikası Hökuməti arasında sənaye və energetika sahəsində əməkdaşlıq haqqında Saziş 403

Azərbaycan Respublikası Hökuməti və Suriya Ərəb Respublikası Hökuməti arasında elektrik enerjisi və bərpa olunan enerji sahəsində Anlaşma Memorandumu 405

Azərbaycan Respublikası Hökuməti və Suriya Ərəb Respublikası Hökuməti arasında mədəniyyət sahəsində əməkdaşlıq haqqında Saziş 407

Azərbaycan Respublikası Hökuməti və Suriya Ərəb Respublikası Hökuməti arasında informasiya və kommunikasiya texnologiyaları sahəsində əməkdaşlıq haqqında Saziş 409

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Suriya Ərəb Respublikasının Xarici İşlər Nazirliyi arasında siyasi məsləhətləşmələr haqqında Anlaşma Memorandumu 411

Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi və Suriya Ərəb Respublikasının Daxili İşlər Nazirliyi arasında əməkdaşlığa dair Niyyət Protokolu 413

Azərbaycan Respublikasının Maliyyə Nazirliyi və Suriya Ərəb Respublikasının Maliyyə Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş 415

Azərbaycan Respublikasının Sənaye və Energetika Nazirliyi və Suriya Ərəb Respublikasının Sənaye Nazirliyi arasında sənaye sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu 416

Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi və Suriya Ərəb Respublikasının Turizm Nazirliyi arasında turizm sahəsində əməkdaşlığa dair Saziş 418

Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə Suriya Ərəb Respublikasının Ali Təhsil Nazirliyi arasında ali təhsil sahəsində əməkdaşlıq haqqında Saziş 420

Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə Suriya Ərəb Respublikasının Təhsil Nazirliyi arasında ümumi təhsil sahəsində əməkdaşlıq haqqında Saziş 421

Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi və Suriya Ərəb Respublikasının Səhiyyə Nazirliyi arasında səhiyyə sahəsində əməkdaşlıq haqqında Saziş 423

Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi və Suriya Ərəb Respublikasının Kənd Təsərrüfatı və Aqrar İslahatlar Nazirliyi arasında kənd təsərrüfatı sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumu 425

Azərbaycan Respublikasının Dövlət Dəniz Administrasiyası və Suriya Gəmiçilik Palatası arasında əməkdaşlığa dair Anlaşma Memorandumu 427

M.F. Axundov adına Azərbaycan Milli Kitabxanası və Suriya Ərəb Respublikasının Əl-Əsəd Kitabxanası arasında əməkdaşlıq haqqında Memorandum 429

2009-cu il iyulun 17-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Almaniya Federativ Respublikasının Texniki Əməkdaşlıq Təşkilatı (GTZ) arasında təbii sərvətlərin davamlı idarə olunması sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nun təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 430

Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Almaniya Federativ Respublikasının Texniki Əməkdaşlıq Təşkilatı (GTZ) arasında "Təbii sərvətlərin davamlı idarə olunması sahəsində əməkdaşlıq" haqqında Anlaşma Memorandumu 431

Azərbaycan Respublikası və Latviya Respublikası arasında 2009-cu il avqustun 10-da Bakı şəhərində imzalanmış sənədlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 433

Azərbaycan Respublikası Hökuməti və Latviya Respublikası Hökuməti arasında gənclər və idman sahəsində əməkdaşlıq haqqında Saziş 433

Azərbaycan Respublikası Hökuməti və Latviya Respublikası Hökuməti arasında turizm sahəsində əməkdaşlıq haqqında Saziş 435

Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi və Latviya Respublikasının Patent İdarəsi arasında sənaye mülkiyyətinin hüquqi mühafizəsi sahəsində informasiyanın mübadiləsi haqqında Anlaşma Memorandumu 437

Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi və Latviya Respublikasının Patent İdarəsi arasında sənaye mülkiyyətinin hüquqi mühafizəsi sahəsində informasiyanın mübadiləsi haqqında Anlaşma Memorandumuna Əlavə 439

2009-cu il iyulun 2-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Təhlükəsizlik Şurası və Polşa Respublikası Milli Təhlükəsizlik Bürosu arasında 2009-2010-cu illər üçün Əməkdaşlıq Cədvəli"nin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 440

Azərbaycan Respublikası Təhlükəsizlik Şurası və Polşa Respublikası Milli Təhlükəsizlik Bürosu arasında 2009-2010-cu illər üçün Əməkdaşlıq Cədvəli 440

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 21 aprel tarixli 81s nömrəli sərəncamı ilə verilmiş səlahiyyətlərə əsasən 2009-cu il mayın 29-da imzalanmış "KfW, Frankfurt am Main ("KfW") və Azərbaycan Respublikasını təmsil edən Maliyyə Nazirliyi ("Borcalan") və Azərbaycan Əmanətlərin Sığortalanması Fondu ("Layihəni icra edən agentlik") arasında "Kredit və Layihə haqqında Müqaviləyə Xüsusi Razılaşma sənədinin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Sərəncamı 443

"ABŞ Mülki Araşdırmalar və İnkişaf Fondu (MAİF), Azərbaycan Milli Elm Fondu (AMEF) və Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) arasında Maliyyələşdirmə və Əməkdaşlığa dair Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Sərəncamı 444

A.B. Puqaçovanın "Dostluq" ordeni ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 444

Türkdilli ölkələrin dövlət başçılarının IX Zirvə Toplantısının Naxçıvan şəhərində keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 444

Azərbaycan Respublikası və Latviya Respublikası arasında 2009-cu il avqustun 10-da Bakı şəhərində imzalanmış sənədlərin həyata keçirilməsi üçün zəruri tədbirlər haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin Sərəncamı 445

Azərbaycan Respublikası və Suriya Ərəb Respublikası arasında 2009-cu il iyulun 8-də Bakı şəhərində imzalanmış aşağıdakı sənədlərin həyata keçirilməsi üçün zəruri tədbirlər haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin Sərəncamı 445

"Azərbaycan Respublikasında rəqəmsal taxoqrafların tətbiqinə dair Tədbirlər Planı" təsdiq edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Sərəncamı 447

Azərbaycan Respublikasında rəqəmsal taxoqrafların tətbiqinə dair Tədbirlər Planı 448

Uilyam Corc Şrederin "Dostluq" ordeni ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 449

Azərbaycan Respublikasının Rumıniyada fövqəladə və səlahiyyətli səfiri E.H. Həsənovun iqamətgahı Buxarest şəhərində olmaqla, eyni zamanda Azərbaycan Respublikasının Serbiya Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 449

"Azərbaycan Respublikası Hökuməti və Yaponiya Hökuməti arasında "Kiçik şəhərlərdə Su Təchizatı və Kanalizasiya Layihəsi"nə dair Kredit Sazişi üzrə razılığın təsdiq edilməsi barədə 2009-cu il fevralın 9-da Bakı şəhərində mübadilə edilmiş Notaların təsdiq olunması barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 449

Yaponiyanın Azərbaycan Respublikasındakı Fövqəladə və Səlahiyyətli Səfiri Zati-aliləri cənab Masamitsu Okiyo 450

Azərbaycan Respublikası Baş nazirinin müavini Zati-aliləri cənab Abid Şərifova. 453

MÜZAKİRƏLƏRİN PROTOKOLU 455

"Azərbaycan Milli Elmlər Akademiyasının A.İ. Qarayev adına Fiziologiya İnstitutu və Amerika Birləşmiş Ştatlarının Mülki Tədqiqatlar və İnkişaf Fondu arasında "Narkotik asılılığın korreksiya üsulunun işlənməsi" layihəsinə dair Qrant Müqaviləsi"ni imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Sərəncamı 456

"Azərbaycan Respublikasında biznesin idarə olunması sahəsində kadrların ixtisasının artırılması üzrə Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi ilə Almaniya Federativ Respublikasının Federal İqtisadiyyat və Texnologiyalar Nazirliyi arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 457

"Azərbaycan Respublikası və Qazaxıstan Respublikası arasında ticarət-iqtisadi əməkdaşlıq üzrə birgə hökumətlərarası komissiyanın Azərbaycan Respublikası üzrə yeni tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 30 mart tarixli, 2070 nömrəli Sərəncamında dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. 457

"Azərbaycan Respublikası Hökuməti və Çexiya Respublikası Hökuməti arasında iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. 458

Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Viza tələb olunmayan qaydada Azərbaycan Respublikasına gələn əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında müvəqqəti olma müddətinin uzadılması Qaydaları"nın təsdiq edilməsi barədə" 2009-cu il 9 iyun tarixli 88 nömrəli qərarına dəyişikliklər və əlavələr edilməsi və "Azərbaycan Respublikasına gəlmiş əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün vizaların müddətlərinin uzadılması Qaydaları"nın təsdiq edilməsi haqqında" 2004-cü il 6 mart tarixli 25 nömrəli qərarının qüvvədən düşmüş hesab edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı 458

"Azərbaycan Respublikası Hökuməti və Rumıniya Hökuməti arasında transsərhəd, mütəşəkkil cinayətkarlığa və beynəlxalq terrorçuluğa qarşı mübarizə sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 461

"Azərbaycan Respublikası Hökuməti və Rumıniya Hökuməti arasında fövqəladə halların nəticələrinin aradan qaldırılması, məhdudlaşdırılması və azaldılması sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 461

"Azərbaycan Respublikası ilə Beynəlxalq İnkişaf Assosiasiyası arasında Maliyyələşdirmə Sazişini (Dövlət İnvestisiyaları üzrə Kadr Potensialının Gücləndirilməsi Layihəsi)" Azərbaycan Respublikası adından imzalamaq səlahiyyəti verilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Sərəncamı. 462

"Amerika Birləşmiş Ştatları Hökumətini təmsil edən ABŞ Ticarət və İnkişaf Agentliyi (USTDA) və Azərbaycan Respublikasının Dövlət Neft Fondu arasında Qrant Müqaviləsi"ni imzalamaq səlahiyyəti verilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Sərəncamı. 462

Azərbaycan Respublikasının Serbiya Respublikasında (Belqrad şəhərində) Səfirliyinin təsis edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu. 463

Azərbaycan Respublikasının Oman Sultanlığında (Maskat şəhərində) səfirliyinin təsis edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu. 463

Azərbaycan Respublikasının Böyük Liviya Ərəb Sosialist Xalq Cəmahiriyyəsində (Tripoli şəhərində) Səfirliyinin təsis edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu 463

Azərbaycan Respublikasının Livan Respublikasında (Beyrut şəhərində) Səfirliyinin təsis edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu. 463

Azərbaycan Respublikasının Estoniya Respublikasında (Tallin şəhərində) Səfirliyinin təsis edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu. 464

Azərbaycan Respublikası Prezidentinin və Rusiya Federasiyası Prezidentinin Xəzər dənizi üzrə Birgə Bəyanatının təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu. 464

Azərbaycan Respublikası Prezidentinin və Rusiya Federasiyası Prezidentinin Xəzər dənizi üzrə Birgə Bəyanatı 464

"Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında dövlət sərhədinin delimitasiyasının başa çatdırılmasının və Samur çayının su ehtiyatlarının bölüşdürülməsinin əsas prinsipləri haqqında" Birgə Bəyanatın təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 465

Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında dövlət sərhədinin delimitasiyasının başa çatdırılmasının və Samur çayının su ehtiyatlarının bölüşdürülməsinin əsas prinsipləri haqqında Birgə Bəyanat 466

"2009-2010-cu illərdə Azərbaycan-Ukrayna əməkdaşlığının Tədbirlər Planı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu. 467

2009-2010-cu illərdə Azərbaycan-Ukrayna əməkdaşlığının Tədbirlər Planı 468

"Azərbaycan Respublikası Hökuməti və Gürcüstan Respublikası Hökuməti arasında hava əlaqəsi haqqında" Sazişə dəyişikliklər edilməsi haqqında" Protokolun təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 471

Azərbaycan Respublikası Hökuməti və Gürcüstan Respublikası Hökuməti arasında hava əlaqəsi haqqında Sazişə dəyişikliklər edilməsi haqqında Protokol 471

Azərbaycan Respublikası Prezidentinin və Latviya Respublikası Prezidentinin Birgə Bəyannaməsinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu 477

Azərbaycan Respublikası Prezidentinin və Latviya Respublikası Prezidentinin Birgə Bəyannaməsi 477

"Azərbaycan Respublikası Hökuməti və Suriya Ərəb Respublikası Hökuməti arasında sərmayələrin təşviqi və qarşılıqlı qorunması haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 480

Azərbaycan Respublikası Hökuməti və Suriya Ərəb Respublikası Hökuməti arasında sərmayələrin təşviqi və qarşılıqlı qorunması haqqında Saziş. 481

"Azərbaycan Respublikası Hökuməti və Suriya Ərəb Respublikası Hökuməti arasında gömrük işi sahəsində qarşılıqlı yardım və əməkdaşlıq haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 489

Azərbaycan Respublikası Hökuməti və Suriya Ərəb Respublikası Hökuməti arasında gömrük işi sahəsində qarşılıqlı yardım və əməkdaşlıq haqqında Saziş. 490

"Azərbaycan Respublikası Hökuməti və Suriya Ərəb Respublikası Hökuməti arasında diplomatik, xidməti və ya xüsusi pasportlara malik şəxslərin viza tələbindən azad olunması haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 497

Azərbaycan Respublikası Hökuməti və Suriya Ərəb Respublikası Hökuməti arasında diplomatik, xidməti və ya xüsusi pasportlara malik şəxslərin viza tələbindən azad olunması haqqında Saziş 498

Azərbaycan Respublikası və Polşa Respublikası Prezidentlərinin Məşvərət Komitəsinin Nizamnaməsinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu 501

Azərbaycan Respublikası və Polşa Respublikası Prezidentlərinin Məşvərət Komitəsinin Nizamnaməsi 501

"Kibercinayətkarlıq haqqında" Konvensiyanın təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 503

Kibercinayətkarlıq haqqında Konvensiya 504

Azərbaycan Respublikasının "Kibercinayətkarlıq haqqında" Konvensiyanın 24-cü maddəsinin 7-ci bəndinin "a" yarımbəndi üzrə Bəyanatı 531

Azərbaycan Respublikasının "Kibercinayətkarlıq haqqında" Konvensiyanın 27-ci maddəsinin 2-ci bəndinin "c" yarımbəndi üzrə Bəyanatı 531

Azərbaycan Respublikasının "Kibercinayətkarlıq haqqında" Konvensiyanın 27-ci maddəsinin 9-cu bəndinin "e" yarımbəndi üzrə Bəyanatı 531

Azərbaycan Respublikasının "Kibercinayətkarlıq haqqında" Konvensiyanın 35-ci maddəsinin 1-ci bəndi üzrə Bəyanatı 531

Azərbaycan Respublikasının "Kibercinayətkarlıq haqqında" Konvensiyanın 38-ci maddəsi üzrə Bəyanatı 531

Azərbaycan Respublikasının "Kibercinayətkarlıq haqqında" Konvensiyanın 6-cı maddəsinin 1-ci bəndinin "b" yarımbəndi üzrə qeyd-şərti 532

Azərbaycan Respublikasının "Kibercinayətkarlıq haqqında" Konvensiyanın 6-cı maddəsinin 3-cü bəndi üzrə qeyd-şərti 532

Azərbaycan Respublikasının "Kibercinayətkarlıq haqqında" Konvensiyanın 42-ci maddəsi və 4-cü maddəsinin 2-ci bəndi üzrə qeyd-şərti 532

Azərbaycan Respublikasının "Kibercinayətkarlıq haqqında" Konvensiyanın 42-ci maddəsi və 29-cu maddəsinin 4-cü bəndi üzrə qeyd-şərti 532

Beynəlxalq Peyk Rabitəsi Təşkilatı ilə bağlı Sazişə dəyişikliyin təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu 532

Yoxlama və metroloji attestasiya məqsədi ilə daşınan normativ sənədlərin, etalonların, ölçmə vasitələrinin və standart nümunələrin gömrük rüsumlarından, vergilərdən və xüsusi icazələr verilməsindən azad edilməsi haqqında" 1995-ci il 10 fevral tarixli Sazişə dəyişikliklər edilməsi barədə protokolun təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu 533

"Yoxlama və metroloji attestasiya məqsədi ilə daşınan normativ sənədlərin, etalonların, ölçmə vasitələrinin və standart nümunələrin gömrük rüsumlarından, vergilərdən və xüsusi icazələr verilməsindən azad edilməsi haqqında" 1995-ci il 10 fevral tarixli Sazişə dəyişikliklər edilməsi barədə Protokol 533

"Birləşmiş Millətlər Təşkilatının işçi heyətinin və onunla bağlı heyətin təhlükəsizliyi haqqında" Konvensiyaya Fakültativ Protokolun təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 535

Birləşmiş Millətlər Təşkilatının işçi heyətinin və onunla bağlı heyətin təhlükəsizliyi haqqında Konvensiyaya Fakültativ Protokol 535

"Terrorizm, mütəşəkkil cinayətkarlıq və digər növ təhlükəli cinayətlərlə mübarizə sahəsində GUÖAM-ın iştirakçısı olan dövlətlərin Hökumətləri arasında əməkdaşlıq haqqında" 2002-ci il 20 iyul tarixli Sazişə dair Protokolun təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 537

"Terrorizm, mütəşəkkil cinayətkarlıq və digər növ təhlükəli cinayətlərlə mübarizə sahəsində GUÖAM iştirakçısı olan dövlətlərin Hökumətləri arasında əməkdaşlıq haqqında 2002-ci il 20 iyul tarixli Sazişə" dair Protokol 538

"Fərdi məlumatların avtomatlaşdırılmış qaydada işlənməsi ilə əlaqədar şəxslərin qorunması haqqında" Konvensiyanın təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 539

Fərdi məlumatların avtomatlaşdırılmış qaydada işlənməsi ilə əlaqədar şəxslərin qorunması haqqında Konvensiya 539

Azərbaycan Respublikasının "Fərdi məlumatların avtomatlaşdırılmış qaydada işlənməsi ilə əlaqədar şəxslərin qorunması haqqında" Konvensiyanın 3-cü maddəsinin 2-ci bəndinin "a" yarımbəndi üzrə Bəyanatı 549

Azərbaycan Respublikasının "Fərdi məlumatların avtomatlaşdırılmış qaydada işlənməsi ilə əlaqədar şəxslərin qorunması haqqında" Konvensiyanın 3-cü maddəsinin 2-ci bəndinin "c" yarımbəndi üzrə Bəyanatı 549

Azərbaycan Respublikasının "Fərdi məlumatların avtomatlaşdırılmış qaydada işlənməsi ilə əlaqədar şəxslərin qorunması haqqında" Konvensiyanın 13-cü maddəsinin 2-ci bəndinin "a" yarımbəndi üzrə Bəyanatı 550

Azərbaycan Respublikasının "Fərdi məlumatların avtomatlaşdırılmış qaydada işlənməsi ilə əlaqədar şəxslərin qorunması haqqında" Konvensiya üzrə Bəyanatı 550

Azərbaycan Respublikasının "Fərdi məlumatların avtomatlaşdırılmış qaydada işlənməsi ilə əlaqədar şəxslərin qorunması haqqında" Konvensiya üzrə Bəyanatı 550

"Birgə film istehsalı haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 550

Birgə film istehsalı haqqında Saziş 550

Birgə istehsal filmlərinə "milli film" statusunun verilməsi haqqında Əsasnamə 553

"Azərbaycan Respublikası Hökuməti və Çexiya Respublikası Hökuməti arasında iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 555

"Azərbaycan Respublikası Hökuməti və Rumıniya Hökuməti arasında transsərhəd, mütəşəkkil cinayətkarlığa və beynəlxalq terrorçuluğa qarşı mübarizə sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 556

"Azərbaycan Respublikası Hökuməti və Rumıniya Hökuməti arasında fövqəladə halların nəticələrinin aradan qaldırılması, məhdudlaşdırılması və azaldılması sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 556

"Azərbaycan Respublikası və Tacikistan Respublikası arasında ticarət-iqtisadi əməkdaşlıq məsələləri üzrə birgə Hökumətlərarası komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 7 fevral tarixli 2667 nömrəli Sərəncamında dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 557

2009-cu il iyulun 1-də Haaqa şəhərində imzalanmış "Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti və Niderland Krallığının Repatriasiya və Geri Qaytarma Xidməti arasında qeyri-leqal miqrasiyaya qarşı əməkdaşlıq üzrə Anlaşma Memorandumu"nun təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 557

Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti və Niderland Krallığının Repatriasiya və Geri Qaytarma Xidməti arasında qeyri-leqal miqrasiyaya qarşı əməkdaşlıq üzrə Anlaşma Memorandumu 558

2009-cu il sentyabrın 8-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti və Fransa Respublikasının İmmiqrasiya, İnteqrasiya, Milli Kimlik və Həmrəy İnkişaf Nazirliyi arasında əməkdaşlıq üzrə Anlaşma Memorandumu"nun təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 559

Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti və Fransa Respublikasının İmmiqrasiya, İnteqrasiya, Milli Kimlik və Həmrəy İnkişaf Nazirliyi arasında əməkdaşlıq üzrə Anlaşma Memorandumu 560

"Azərbaycan Respublikası Hökuməti ilə Qazaxıstan Respublikası Hökuməti arasında 1992-1993-cü illər ərzində (müxbir hesablar üzrə hesablaşmalara keçidə kimi və on-dan sonra) ticarət-iqtisadi münasibətlər nəticəsində yaranmış borcun ödənilməsi haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 561

"Azərbaycan Respublikası Hökuməti və Qazaxıstan Respublikası Hökuməti arasında baytarlıq sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı . . . 562

"Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi və Qazaxıstan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi arasında kənd təsərrüfatı sahəsində əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı . . . 562

"Sumqayıt şəhəri (Azərbaycan Respublikası) və Aktau şəhəri (Qazaxıstan Respublikası) arasında qardaşlaşmış şəhər münasibətlərinin yaradılması haqqında Birgə Bəyannamə"ni imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı . . . 563

"Çex Respublikasının "Komerçni banka, a.s." Bankı (Boreverən), Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi (Borcalan) və Azərbaycan Respublikasının Maliyyə Nazirliyi (Zamin) arasında "Heydər Əliyev adına Beynəlxalq Hava Limanı - Mərdəkan dairəsi - Bilgəh" avtomobil yolunun 6-8 zolaqlı hərəkət üçün yenidən qurulması, yol qovşaqlarının, piyada keçidlərinin tikintisi və digər yol işlərinin maliyyələşdirilməsinə dair Çərçivə Kredit Sazişi"ni imzalamaq səlahiyyəti verilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Sərəncamı 563

Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi və Avstriya Respublikasının Təhsil, İncəsənət və Mədəniyyət üzrə Federal Nazirliyi arasında mədəniyyət və incəsənət sahələrində 2009-2012-ci illər üçün əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı . . . 564

"Azərbaycan Respublikası ilə Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı arasında Kredit Sazişi (Magistral Yol II Layihəsi üçün İkinci Əlavə Maliyyələşdirmə)" və "Azərbaycan Respublikası ilə Beynəlxalq İnkişaf Assosiasiyası arasında Maliyyələşdirmə Sazişi (Magistral Yol II Layihəsi üçün İkinci Əlavə Maliyyələşdirmə)" təsdiq edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Sərəncamı 564

"Avropa Qonşuluq Siyasəti çərçivəsində həyata keçirilən proqramlar üzrə Avropa Komissiyası tərəfindən Azərbaycan Respublikasının dövlət büdcəsinə köçürüləcək vəsaitlərin istifadə mexanizmi"nin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı 565

Avropa Qonşuluq Siyasəti çərçivəsində həyata keçirilən proqramlar üzrə Avropa Komissiyası tərəfindən Azərbaycan Respublikasının dövlət büdcəsinə köçürüləcək vəsaitlərin istifadə mexanizmi 566

Bakı şəhərində Yeniyetmələrin VI Beynəlxalq Elm Olimpiadasının keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 567

"Amerika Birləşmiş Ştatları Hökumətini təmsil edən ABŞ Ticarət və İnkişaf Agentliyi (USTDA) və Azərbaycan Respublikasının Dövlət Neft Fondu arasında Qrant Müqaviləsi" təsdiq edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Sərəncamı 568

"Azərbaycan Respublikası ilə Beynəlxalq İnkişaf Assosiasiyası arasında Maliyyələşdirmə Sazişi (Dövlət İnvestisiyaları üzrə Kadr Potensialının Gücləndirilməsi Layihəsi)" təsdiq edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Sərəncamı 569

M.N. Əfəndiyevin Azərbaycan Respublikasının Yunanıstan Respublikasında fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 570

R.S. Mustafayevə Azərbaycan Respublikasının fövqəladə və səlahiyyətli səfiri diplomatik rütbəsi verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 570

R.S. Mustafayevin Azərbaycan Respublikasının Yunanıstan Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı . . . 570

"Gömrük Əməkdaşlığı Şurasının yaradılması haqqında" Konvensiyaya dəyişikliklərin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 571

"Beynəlxalq İnkişaf Assosiasiyası ilə Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti arasında 6 nömrəli Layihə Sazişi (Milli Su Təchizatı və Kanalizasiya Xidmətləri üzrə İkinci Layihə)" təsdiq edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Sərəncamı 571

"Azərbaycan Respublikası ilə Beynəlxalq İnkişaf Assosiasiyası arasında Maliyyələşdirmə Sazişinə Düzəlişlər və Sazişin Yeni Redaksiyası (Milli Su Təchizatı və Kanalizasiya Xidmətləri üzrə İkinci Layihə)" təsdiq edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Sərəncamı 572

"Azərbaycan Respublikası ilə Beynəlxalq İnkişaf Assosiasiyası arasında Maliyyələşdirmə Sazişinə Düzəlişləri və Sazişin Yeni Redaksiyasını (Milli Su Təchizatı və Kanalizasiya Xidmətləri üzrə İkinci Layihə)" Azərbaycan Respublikası adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Sərəncamı 573

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti arasında 6 nömrəli Layihə Sazişini (Milli Su Təchizatı və Kanalizasiya Xidmətləri üzrə İkinci Layihə)" imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Sərəncamı 573

"Azərbaycan Respublikasının beynəlxalq dövlətlərarası və hökumətlərarası müqavilələrinin bağlanması qaydası haqqında" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 16 avqust tarixli 616 nömrəli fərmanına əlavə və dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı 574

Azərbaycan Respublikasının Malayziyada fövqəladə və səlahiyyətli səfiri T.P. Kərimovun iqamətgahı Kuala Lumpur şəhərində olmaqla, eyni zamanda Azərbaycan Respublikasının Kamboca Krallığında fövqəladə və səlahiyyətli səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 574

Azərbaycan Respublikasının Tailand Krallığında (Banqkok şəhərində) Səfirliyinin fəaliyyətinin təmin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 575

Azərbaycan Respublikasının Serbiya Respublikasında (Belqrad şəhərində) Səfirliyinin fəaliyyətinin təmin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 575

Azərbaycan Respublikasının Oman Sultanlığında (Maskat şəhərində) Səfirliyinin fəaliyyətinin təmin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 576

Azərbaycan Respublikasının Böyük Liviya Ərəb Sosialist Xalq Cəmahiriyyəsində (Tripoli şəhərində) Səfirliyinin fəaliyyətinin təmin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 576

Azərbaycan Respublikasının Livan Respublikasında (Beyrut şəhərində) Səfirliyinin fəaliyyətinin təmin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 576

Azərbaycan Respublikasının Estoniya Respublikasında (Tallin şəhərində) Səfirliyinin fəaliyyətinin təmin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 577

"Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi və Ümumdünya Gömrük Təşkilatı (ÜGT) arasında Azərbaycan Respublikasının Bakı şəhərində Potensialın Gücləndirilməsi üzrə Ümumdünya Gömrük Təşkilatının Regional Ofisinin Yaradılması ilə əlaqədar Anlaşma Memorandumu"nu imzalamaq səlahiyyətinin verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 577

2009-cu il iyulun 24-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikasının Maliyyə Nazirliyi və Çexiya Respublikasının Maliyyə Nazirliyi arasında əməkdaşlıq haqqında Memorandum"un təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 578

Azərbaycan Respublikasının Maliyyə Nazirliyi və Çexiya Respublikasının Maliyyə Nazirliyi arasında əməkdaşlıq haqqında Memorandum 578

2009-cu il sentyabrın 23-də Nyu-York şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti və Estoniya Respublikası Hökuməti arasında informasiya və kommunikasiya texnologiyaları sahəsində əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 580

Azərbaycan Respublikası Hökuməti və Estoniya Respublikası Hökuməti arasında informasiya və kommunikasiya texnologiyaları sahəsində əməkdaşlıq haqqında Saziş 580

Azərbaycan Respublikası və Rumıniya arasında 2009-cu il sentyabrın 28-də Buxarest şəhərində imzalanmış sənədlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 583

Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi və Rumıniyanın Rabitə və İnformasiya Cəmiyyəti Nazirliyi arasında rabitə və informasiya texnologiyaları sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu 583

Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Rumıniyanın Ətraf Mühit Nazirliyi arasında ətraf mühitin mühafizəsi sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumu 587

2009-cu il oktyabrın 1-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Müdafiə Nazirliyi və Çexiya Respublikası Müdafiə Nazirliyi arasında müdafiə sahəsində əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 589

Azərbaycan Respublikası Müdafiə Nazirliyi və Çexiya Respublikası Müdafiə Nazirliyi arasında müdafiə sahəsində əməkdaşlıq haqqında Saziş 590

2009-cu il oktyabrın 8-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi ilə Koreya Respublikasının Ərzaq, Kənd Təsərrüfatı, Meşəçilik və Balıqçılıq Nazirliyi arasında kənd təsərrüfatı sahəsində əməkdaşlıq barədə Anlaşma Memorandumu"nun təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 594

Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi ilə Koreya Respublikasının Ərzaq, Kənd Təsərrüfatı, Meşəçilik və Balıqçılıq Nazirliyi arasında kənd təsərrüfatı sahəsində əməkdaşlıq barədə Anlaşma Memorandumu 594

Azərbaycan Respublikası və İordaniya Haşimilər Krallığı arasında 2009-cu il oktyabrın 12-də Oman şəhərində imzalanmış sənədlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 597

Azərbaycan Respublikası Hökuməti və İordaniya Haşimilər Krallığı Hökuməti arasında 2010-2011-2012-ci illər üçün elm və təhsil, mədəniyyət və incəsənət, gənclər və idman, arxeologiya, səhiyyə və media sahələri üzrə İcraedici Əməkdaşlıq Proqramı 598

Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi və İordaniya Haşimilər Krallığının İnformasiya və Kommunikasiya Texnologiyaları Nazirliyi arasında informasiya və kommunikasiya texnologiyaları sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu 603

Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti və Amerika Birləşmiş Ştatlarının Dövlət Departamenti arasında "Federal Qrant Yardımı" sənədiniimzalamaq səlahiyyəti verilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Sərəncamı 606

A.K. Həsənovun Azərbaycan Respublikasının İran İslam Respublikasında fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 606

C.Ə. Axundova fövqəladə və səlahiyyətli səfir diplomatik rütbəsi verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 606

C.Ə.Axundovun Azərbaycan Respublikasının İran İslam Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı . . . 607

Birləşmiş Millətlər Təşkilatının İşgəncələrə qarşı Komitəsinin 43-cü sessiyasında "İşgəncələrə və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərinə qarşı" Konvensiya üzrə Azərbaycan Respublikasının üçüncü dövri hesabatına baxılması ilə əlaqədar Azərbaycan Respublikasını təmsil edəcək nümayəndə heyətinin tərkibi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 607

2009-cu il iyulun 29-da Ufa şəhərində imzalanmış "Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi və Rusiya Federasiyasının Federal Təhlükəsizlik Xidməti arasında qarşılıqlı fəaliyyət və əməkdaşlıq haqqında Sazişə əlavə 13 nömrəli Protokol"un və "Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi və Rusiya Federasiyasının Federal Təhlükəsizlik Xidməti arasında qarşılıqlı fəaliyyət və əməkdaşlıq haqqında Sazişə əlavə 14 nömrəli Protokol"un təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı . . 608

Azərbaycan Respublikası Hökuməti və Suriya Ərəb Respublikası Hökuməti arasında iqtisadi, elmi, texniki və mədəni əməkdaşlıq üzrə Birgə Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 608

Azərbaycan Respublikası Hökuməti və Litva Respublikası Hökuməti arasında İkitərəfli Əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 609

Azərbaycan Respublikası və İordaniya Haşimilər Krallığı arasında 2009-cu il oktyabrın 12-də Oman şəhərində imzalanmış sənədlərin həyata keçirilməsi üçün zəruri tədbirlər barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Sərəncamı 610

Azərbaycan Respublikası və Rumıniya arasında 2009-cu il sentyabrın 28-də Buxarest şəhərində imzalanmış sənədlərin həyata keçirilməsi üçün zəruri tədbirlər barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Sərəncamı 611

Gürcüstanın Batumi şəhərində Azərbaycan Respublikasının Baş Konsulluğunun təsis edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 612

Avropa İttifaqı arasında qəbul olunmuş Fəaliyyət Planının icrasına dəstək Proqramının Maliyyələşdirmə Sazişi"ni imzalamaq səlahiyyəti verilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Sərəncamı 612

E.C. Qəhrəmanova fövqəladə və səlahiyyətli səfir diplomatik rütbəsi verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ... 61

E.C. Qəhrəmanovun Azərbaycan Respublikasının Birləşmiş Ərəb Əmirliklərində fövqəladə və səlahiyyətli səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ... 61

"Azərbaycan Respublikası və Səudiyyə İnkişaf Fondu arasında Bakı ərazisi üzrə su təchizatı və kanalizasiya sisteminin yenidən qurulması və genişləndirilməsi layihəsi üzrə Kredit Sazişi"ni imzalamaq səlahiyyəti verilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Sərəncamı ... 6

"Azərbaycan Respublikası Hökuməti və İslam İnkişaf Bankı arasında "Cənub" İstilik Elektrik Stansiyası layihəsinin maliyyələşdirilməsinə dair İstisna Müqaviləsi"ni imzalamaq səlahiyyətlərinin verilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Sərəncamı. ... 61

"Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının yaradılması haqqında" Naxçıvan Sazişinin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu ... 61

Türkdilli Ölkələrin Dövlət Başçılarının IX Zirvə Toplantısının Naxçıvan Bəyannaməsinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu ... 61

"Azərbaycan Respublikası və Rumıniya arasında strateji tərəfdaşlığın yaradılmasına dair razılaşma haqqında" Birgə Bəyannamənin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu ... 61

"Azərbaycan Respublikası hökuməti və Rumıniya hökuməti arasında transsərhəd mütəşəkkil cinayətkarlığa və beynəlxalq terrorçuluğa qarşı mübarizə sahəsində əməkdaşlıq haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu ... 61

"Azərbaycan Respublikası hökuməti və Rumıniya hökuməti arasında fövqəladə halların nəticələrinin aradan qaldırılması, məhdudlaşdırılması və azaldılması sahəsində əməkdaşlıq haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu ... 61

"Mədəni özünüifadə müxtəlifliyinin qorunması və təşviqi haqqında" Konvensiyanın təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu ... 61

"Avropanın memarlıq irsinin qorunması haqqında" Konvensiyanın təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu ... 61

"Azərbaycan Respublikası Hökuməti və BNP Paribas, Fransa arasında Bakı-Şamaxı-Yevlax avtomobil yolunun (M4) Muğanlı-Yevlax hissəsinin yenidənqurulması layihəsi üzrə Kredit Sazişi"ni Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Sərəncamı ... 6

"Xarici investisiyanın qorunması haqqında", "Gömrük tarifi haqqında" və "Şəhərsalmanın əsasları haqqında" Azərbaycan Respublikasının Qanunlarına dəyişikliklər və əlavə edilməsi barədə Azərbaycan Respublikasının Qanunu ... 6

"Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi və İtaliya Respublikasının Xarici Məlumat və Təhlükəsizlik Agentliyi arasında əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ... 6

"Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti və Estoniya Respublikasının Sərhəd Mühafizə İdarəsi arasında əməkdaşlığa dair Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ... 6

Azərbaycan Respublikası Milli Məclisinin Amerika Birləşmiş Ştatlarının Konqresinə Müraciətinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Milli Məclisinin Qərarı ... 6

Azərbaycan Respublikası Milli Məclisinin Amerika Birləşmiş Ştatlarının Konqresinə Müraciəti ... 6

"Xarici investisiyanın qorunması haqqında", "Gömrük tarifi haqqında" və "Şəhərsalmanın əsasları haqqında" Azərbaycan Respublikasının qanunlarına dəyişikliklər və əlavə edilməsi barədə" Azərbaycan Respublikası Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ... 6

2009-cu il sentyabrın 16-da Seul şəhərində imzalanmış "Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Koreya Respublikasının Ətraf Mühit Sənayesi və Texnologiyalar İnstitutu arasında Azərbaycanda Ətraf Mühitin İdarə Edilməsi üzrə Baş Planın hazırlanmasına dair Anlaşma Memorandumu"nun təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ... 622

Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Koreya Respublikasının Ətraf Mühit Sənayesi və Texnologiyalar İnstitutu arasında Azərbaycanda Ətraf Mühitin İdarə Edilməsi üzrə Baş Planın hazırlanmasına dair Anlaşma Memorandumu ... 622

Azərbaycan Respublikası və Qazaxıstan Respublikası arasında 2009-cu il oktyabrın 2-də Bakı şəhərində imzalanmış sənədlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ... 625

Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi və Qazaxıstan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi arasında kənd təsərrüfatı sahəsində əməkdaşlıq haqqında Saziş ... 626

Sumqayıt şəhəri (Azərbaycan Respublikası) və Aktau Şəhəri (Qazaxıstan Respublikası) arasında qardaşlaşmış şəhər münasibətlərinin yaradılması haqqında Birgə Bəyannamə ... 628

2009-cu il noyabrın 13-də Ankara şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında təməssüzsüz hərbi yardım haqqında Saziş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ... 629

"Azərbaycan Respublikası Hökuməti və təşkilatçı və agent qismində çıxış edən BNP Paribas, Fransa və əsas borcverənlər qismində çıxış edən BNP Paribas, Fransa, Bank Leumi Le-Israel B.M., Bank Hapoalim B.M. arasında Bakı-Şamaxı-Yevlax avtomobil yolunun (M4) Muğanlı-Yevlax hissəsinin yenidənqurulması layihəsi üzrə Kredit Sazişi" təsdiq edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Sərəncamı ... 629

Azərbaycan Respublikası Milli Məclisinin Avropa Parlamentinə Müraciətinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Milli Məclisinin Qərarı ... 630

Azərbaycan Respublikası Milli Məclisinin Avropa Parlamentinə Müraciəti ... 631

"Azərbaycan Respublikası Hökuməti ilə Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı arasında Minilliyin İnkişaf Məqsədləri çərçivəsində prioritetlərə nail olunması istiqamətlərində işlərin gedişatının monitorinqi məqsədi ilə Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin potensialının gücləndirilməsi" layihəsini imzalamaq səlahiyyəti verilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Sərəncamı ... 633

Qara Dəniz Hövzəsində Birgə Fəaliyyət Proqramının Maliyyələşdirmə Sazişi"ni Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Sərəncamı ... 633

MÜNDƏRİCAT ... 635

"Qoliaf Nəşriyyat Evi" MMC

T.: 994 12 - 510 24 65
F.: 994 12 - 510 24 87
e/p.:info@qoliafqrup.com

Yığılmağa verilmişdir	: 24.03.2010
Çapa imzalanmışdır	: 08.04.2010
Format	: 70x100 1/16
Fiziki ç.v.	: 41,5
Tirajı	: 500